Nazim Vəlişov
Tahir Kazımlı

HƏQİQƏTİN ONOMASTİKASI-2

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR

İşğaldan azad edilmiş ərazilərimizdə coğrafi və tarixi adların dəyişdirilməsi – saxtalaşdırılması cəhdləri

Bakı - 2023

BAKI BEYNƏLXALQ MULTİKULTURALİZM MƏRKƏZİ

Nazim Vəlişov, Tahir Kazımlı. Həqiqətin Onomastikası-2 *(Qarabağ və Şərqi Zəngəzur).* Bakı-2023, 504 səh.

ISBN 9789952846133

Layihə rəhbəri:
Kamal Abdullayev *Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilər Şurasını sədri, Xalq yazıçısı, akademik*

Elmi redaktor:
Natiq Babayev AMEA-nın *Coğrafiya İnstitutunun böyük elmi işçisi, coğrafiya üzrə fəlsəfə doktoru*

Layihəyə məsul:
Rəvan Həsənov *Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İcraçı direktoru*

Redaksiya heyəti:
Kərim Şükürov *AMEA-nın Tarix İnstitutunun Baş direktoru, tarix elmləri doktoru, professor*
Zakir Eminov *AMEA-nın Coğrafiya İnstitutunun Baş direktoru, coğrafiya elmləri doktoru*
Musa Qasımlı *AMEA-nın Qafqazşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, Millət vəkili*
Həcər Verdiyeva *Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin Baş məsləhətçisi, professor*
Elçin İsmayılov *AMEA-nın Dilçilik İnstitutunun Onomastika şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent*
Araz Qurbanov *Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin aparıcı məsləhətçisi*
Müqabil Bayramov *Azərbaycan Coğrafiya cəmiyyətinin vitse-prezidenti*
Aysel Qəribli *AMEA-nın dilçilik institunun "Türk dilləri şöbəsi"nin əməkdaşı, filologiya elmləri doktoru.*

Kitabda 1988-ci ilin fevralından başlayan Qarabağ müharibəsində Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur bölgələrinin erməni silahlı qüvvələri tərəfindən işğal edilmiş oykonimləri, oronimləri və hidronimləri haqqında ensiklopedik məlumatlar öz əksini tapmışdır. Qarabağ və Şərqi Zəngəzur ərazilərindəki toponimlər tədqiqat obyekti kimi linqvistik, tarixi və coğrafi baxımdan araşdırılmış, bu ərazilərin areal etnotoponimləri izahlı təhlil edilmişdir. Ərazinin yaşayış məntəqələri haqqında ilk dəfədir ki, belə nəfis şəkildə ensiklopedik məlumat-sorğu kitabı çap olunur. Vətənpərvərlik ruhunda yazılan və gərgin zəhmət hesabına araya-ərsəyə gətirilən bu dəyərli kitab uzaq və yaxın tariximizi öyrənmək, ümumilikdə kimliyimizi bilmək, onu dərk etmək baxımından hər bir ev, hər bir ailə üçün gərəklidir. Bu kitab hamımızın bilmək məcburiyyətində olduğumuz tarixin bəzi qaranlıq səhifələrini oxuculara təqdim edir. Əsasən dilçilər, tarixçilər, coğrafiyaçılar, alimlər, tədqiqatçılar, siyasətçilər, müəllimlər, tələbələr - Azərbaycanın tarixinə, dilinə maraq göstərən geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş bu kitab Qarabağ və Şərqi Zəngəzurun qədim türk-oğuz yurdu olmasını tutarlı faktlarla təsdiq edən qiymətli mənbədir.

printing maxofset we are printing your dreams

Azərbaycan, Bakı, Aşurbəyovlar küç 8A, AZ1080
info@max-offset.com
www.maxofset.com

© BBMM, 2023

Kitab Azərbaycan Respublikasının Prezidenti
İlham Əliyevin tövsiyələri əsasında
tərtib edilmişdir.

"Azad edilmiş torpaqlarda olarkən görürük ki, mənfur düşmən bizim bütün yaşayış məntəqələrimizi yerlə-yeksan etmiş, bizim tarixi irsimizi silmək istəmişdir. Onlar bizim qədim torpaqlarımızda özləri üçün saxta tarix yaratmaq istəyiblər, amma buna nail ola bilməyiblər. Əgər bu torpaqlar, dedikləri kimi, onların idisə, bəs niyə bu illər ərzində daşı daş üstünə qoymayıblar. Bilirdilər ki, bu torpaqlar onların deyil. Bu torpaqlar azərbaycanlıların torpağıdır. Biz bu torpaqlara qayıtmışıq. Qəhrəman xalq kimi, Müzəffər dövlət kimi qayıtmışıq. Ermənilərin vəhşiliyini bütün dünya bilməlidir, görməlidir. Biz onları ifşa etmişik.

QARABAĞ AZƏRBAYCANDIR!

İLHAM ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

MÜNDƏRİCAT

Azərbaycan Respublikasında iqtisadi rayonların
yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı 6

Ön söz 8

**QARABAĞ İQTİSADİ RAYONUNUN
İŞĞALDAN AZAD OLUNMUŞ OYKONİMLƏRİ** 12

Ağdam rayonu 12

Füzuli rayonu 28

Xocalı rayonu 53

Xocavənd rayonu 66

Şuşa rayonu 95

Tərtər rayonu 106

**ŞƏRQİ ZƏGƏZUR İQTİSADİ RAYONUNUN
İŞĞALDAN AZAD OLUNMUŞ OYKONİMLƏRİ** 112

Cəbrayıl rayonu 112

Kəlbəcər rayonu 130

Qubadlı rayonu 149

Laçın rayonu 168

Zəngilan rayonu 198

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURUN ORONİMLƏRİ 226

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURUN HİDRONİMLƏRİ 430

Qarabağ İqtisadi rayonu
(Qarabağ iqtisadi rayonu haqqında ümumi məlumat) 481

Şərqi Zəngəzur İqtisadi rayonu
(Şərqi Zəngəzur iqtisadi rayonu haqqında ümumi məlumat) 486

İstifadə olunmuş ədəbiyyat 490

Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Ölkəmizin şəhər və rayonlarının davamlı və tarazlı inkişafının təmin olunması məqsədilə qəbul edilmiş Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurlu icrası nəticəsində şəhər, qəsəbə və kəndlərimizin siması köklü şəkildə dəyişmiş, regionların iqtisadi potensialı artmış, infrastruktur təminatı, əhaliyə göstərilən dövlət xidmətlərinin keyfiyyəti, biznes və investisiya mühiti yaxşılaşmış, əhalinin rifah halı yüksəlmişdir.

Ardıcıl olaraq həyata keçirilmiş məqsədyönlü islahatlar və genişmiqyaslı tədbirlər ölkəmizin iqtisadi və hərbi-müdafiə qüdrətini daha da gücləndirmiş və 44 günlük Vətən müharibəsində parlaq qələbənin qazanılmasına güclü zəmin yaratmışdır.

Hazırda işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Qeyd edilən ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafının təmin edilməsi üçün nəzərdə tutulan bütün işlərin vahid proqram əsasında aparılmasının məqsədəmüvafiqliyi əraziləri işğaldan azad edilmiş rayonların iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılmasını şərtləndirir.

Zəngəzur dağ silsiləsi ilə əhatə olunan, Laçın və Kəlbəcərdən Naxçıvana qədər böyük bir ərazini tutan Zəngəzur yaylasının şərq hissəsində, Ermənistanla sərhəddə yerləşmiş və eyni coğrafi məkanda, tarixən birlikdə, habelə uzun illər 1861-ci ildə yaradılmış Zəngəzur qəzasının tərkibində olmaları və ənənəvi sosial-iqtisadi, tarixi-mədəni bağlılıqları Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonlarının vahid iqtisadi rayonda birləşdirilməsini zəruri edir.

Ağdam, Şuşa, Füzuli, Tərtər, Xocavənd, Xocalı rayonları və Xankəndi şəhəri, habelə Qarabağ bölgəsinə aid olan Ağcabədi və Bərdə rayonları da daxil olmaqla özünəməxsus zəngin tarixi-mədəni irsə, əsrarəngiz təbiətə malik qədim Qarabağ bölgəsinin bərpası və sürətli inkişafının təmin edilməsi üçün yeni Qarabağ iqtisadi rayonunun da yaradılması vacibdir.

Azad olunmuş ərazilərin ölkəmizin iqtisadiyyatına reinteqrasiyası digər iqtisadi rayonlar, o cümlədən Gəncə–Qazax və Aran iqtisadi rayonları üzrə planlaşdırma işinin səmərəliliyinin artırılmasını, iqtisadi idarəetmədə çevikliyin təmin olunmasını və bu məqsədlə həmin iqtisadi rayonların tərkibinə də yenidən baxılmasını tələb edir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikasının iqtisadi rayonlarının aşağıdakı bölgüsü təsdiq edilsin:

1.1. Bakı iqtisadi rayonu (Bakı şəhəri);

1.2. Naxçıvan iqtisadi rayonu (Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonları);

1.3.Abşeron–Xızı iqtisadi rayonu (Sumqayıt şəhəri, Abşeron və Xızı rayonları);

1.4.Dağlıq Şirvan iqtisadi rayonu (Ağsu, İsmayıllı, Qobustan və Şamaxı rayonları);

1.5. Gəncə–Daşkəsən iqtisadi rayonu (Gəncə və Naftalan şəhərləri, Daşkəsən, Goranboy, Göygöl və Samux rayonları);

1.6. Qarabağ iqtisadi rayonu (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları);

1.7. Qazax–Tovuz iqtisadi rayonu (Ağstafa, Gədəbəy, Qazax, Şəmkir və Tovuz rayonları);

1.8. Quba–Xaçmaz iqtisadi rayonu (Xaçmaz, Quba, Qusar, Siyəzən və Şabran rayonları);

1.9. Lənkəran–Astara iqtisadi rayonu (Astara, Cəlilabad, Lerik, Lənkəran, Masallı və Yardımlı rayonları);

1.10. Mərkəzi Aran iqtisadi rayonu (Mingəçevir şəhəri, Ağdaş, Göyçay, Kürdəmir, Ucar, Yevlax və Zərdab rayonları);

1.11. Mil–Muğan iqtisadi rayonu (Beyləqan, İmişli, Saatlı və Sabirabad rayonları);

1.12. Şəki–Zaqatala iqtisadi rayonu (Balakən, Qax, Qəbələ, Oğuz, Şəki və Zaqatala rayonları);

1.13. Şərqi Zəngəzur iqtisadi rayonu (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları);

1.14. Şirvan–Salyan iqtisadi rayonu (Şirvan şəhəri, Biləsuvar, Hacıqabul, Neftçala və Salyan rayonları).

2. Müəyyən edilsin ki, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 yanvar tarixli 500 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası məqsədləri üçün həmin Dövlət Proqramında göstərilmiş iqtisadi rayonların bölgüsü tətbiq edilir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 7 iyul 2021-ci il

ÖN SÖZ

Hörmətli oxucular!

Öz tarixi keçmişini, haradan gəldiyini və haraya səmt götürdüyünü bilməyən, əcdadlarının xatirəsini şərəflə qorumağı, yaşatmağı, nəsildən-nəsilə ötürməyi bacarmayan xalqın gələcəyi yoxdur. Psixiatriyada pasientin yaddaşının, xatirələrinin itirməsinin, hafizə pozuntularının bütün formaları "*amneziya"* və ya "unutqanlıq xəstəliyi" adlanır. Əslində müasir konfliktologiyanın, sosiologiyanın, sosial psixologiyanın aktual araşdırma mövzularından olan "tarixi amneziya" ideoloji-psixoloji qarşıdurmalarda, assimmetrik mübarizələrdə mühüm rol oynasa da, təəssüf ki, bu günədək alim və mütəxəssislər tərəfindən az öyrənilmiş tədqiqat istiqamətlərindən biridir.

Bəzən "sosial" və ya "mədəni" yaddaşsızlıq kimi tanınan bu fenomen bütöv bir sosiumun - xalqın, cəmiyyətin yaddaşında özünün tarixi keçmişi, soykökü, mədəniyyəti, adət və ənənələri haqqında yüzilliklər boyu qat-qat toplanmış xatirələrin məhz xarici təsirlər nəticəsində tamamilə itirilməsi, hafizədən silinməsi deməkdir. Azərbaycanın tarixi ərazilərində, təbii sərvətlərində gözü olan bədxah düşmənlər, xüsusilə ermənilər faşizm ideoloqu Yozef Gebbelsin "Xalqın tarixini əlindən alsan, bir nəsildən sonra kütləyə çevriləcəkdir" prinsipinə söykənərək zaman-zaman bu fenomendən istifadə etməyə, xalqımızı unutqanlıq xəstəliyinə, "tarixi amneziya"ya yoluxdurmağa cəhd göstərmişlər.

Sözsüz ki, hər bir xalqın tarixi yaddaşını yaşadan mühüm komponentlərindən biri coğrafi adlardır. Toponim təkcə coğrafi məlumat daşıyıcısı deyil. Hər hansı bir ərazidə toponimlər qatının formalaşması və möhkəmlənməsi uzun sürən tarixi prosesdir. Tarixi Azərbaycan torpaqlarında qədim türk tayfalarına – oğuz və qıpçaqlara məxsus dəqiq sayı hələ də tam bəlli olmayan coğrafi adların, xüsusilə etnonimlərin kökü yüzilliklərə, minilliklərə doğru uzanır. Bu baxımdan toponimlər xalqın etnik kimliyinin, qədimliyinin, məskunlaşma tarixinin, dövlətçilik ənənələrinin, etnik coğrafi ərazilərinin təsdiqi, təkzibolunmaz sübutudur. Odur ki, bir xalqın minilliklər boyu formalaşmış toponimlər sisteminin dəyişdirilməsi, saxtalaşdırılması onun həmin coğrafi ərazidəki izlərinin silinməsinə, unutdurulmasına xidmət edir.

Qeyd edək ki, bu gün "Ermənistan Respublikası" adlanan psevdodövlət tarixi Azərbaycan torpağı olan İrəvan xanlığının ərazisində yaradılmışdır. XIX əsrin əvvəllərində Irəvan və Naxçıvan xanlıqlarının çar Rusiyası tərəfindən işğalından sonra burada təsis olunan inzibati-ərazi vahidinin – qondarma "Erməni vilayəti"nin mövcud 1111 kəndinin cəmi 62-də ermənilər yaşayırdılar. Onların əhalisi isə əsasən İrandan köçürülmüşdür. Sonrakı dövrlərdə Ermənistanın vandalizm və kulturosid aksiyaları, o cümlədən Qərbi Azərbaycanın köklü əhalisi olan azərbaycanlılara məxsus toponimlərin dəyişdirilməsi rəsmi dövlət siyasəti səviyyəsinə qaldırılmış, erməni saxtakarlığı daha geniş miqyas almışdır. Eyni zamanda, qondarma "Böyük Ermənistan" mifindən qaynaqlanan erməni yalanları təkcə Qərbi Azərbaycanı deyil, Şərqi Zəngəzuru və Qarabağı da əhatə etmişdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev erməni vandalizminə, saxtakarlıq aksiyalarına qiymət verərkən demişdir: "***Bu tarixi hər kəs bilməlidir, xüsusilə gənclər bilməlidir, olduğu kimi bilməlidir.*** *İndiki* ***Ermənistan Respublikasının*** *ərazisi* ***qədim Azərbaycan torpağıdır. Bu, faktdır, tarixi faktdır***".

Dövlətimizin başçısı dəfələrlə öz çıxışlarında, Azərbaycanın elm xadimləri ilə görüşlərində üzünü alim və mütəxəssislərimizə tutaraq, onları erməni saxtakarlığının ifşasında daha fəal olmağa çağırmış, tarixi gerçəkliklərin üzə çıxarılması, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması üçün tədqiqatlarının səmərəsini yüksəltməyi, onların miqyasını daha da genişləndirməyi, təbliğat işini gücləndirməyi tövsiyə etmiş, onların qarşısına mühüm vəzifələr qoymuşdur. Respublika Prezidenti İlham Əliyevin çağırışına birincilər sırasında qoşulan Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi qısa müddət ərzində təkcə Qərbi Azərbaycan torpaqlarında deyil, Qarabağ və Şərqi Zəngəzur ərazilərində də minlərlə onamasitika vahidlərinin yaranma tarixinin, etnik mənşəyinin öyrənilməsi, onların sistemləşdirilməsi, coğrafi koordinatlarının müəyyən olunması və müfafiq xəritələrin tərtib olunması məqsədilə fəaliyyətini gücləndirmiş, bu işə Azərbaycanın peşəkar mütəxəssislərini cəlb edərək yerli və xarici oxucular üçün müxtəlif dillərdə fundamental elmi nəşrlər hazırlamışdır. Sizin mühakimənizə təqdim olunan bu kitab da bu istiqamətdə aparılmış növbəti araşdırmaların, uzunmüddətli gərgin əməyin bəhrəsidir. Kitabda Qarabağın və Şərqi Zəngəzurun onamastikası regionlar, bölgələr, rayonlar üzrə verilmiş, burada hər bir toponimin semantikası, yaşayış məntəqələrinin əvvəlki vəziyyəti, əhalisi, təsərrüfat fəaliyyəti, orada yerləşən tarixi-mədəni abidələr, eləcə də coğrafi obyektlər barədə məlumatlar öz əksini tapmışdır.

Ermənistan-Azərbaycan münaqişəsi XX yüzilliyin sonu - XXI yüzilliyin əvvəllərinin ən faciəli hərbi qarşıdurmalarından biri kimi tarixə düşmüş, milyonlarla insanın həyatına ağır, sağalmaz yaralar vurmuşdur. Münaqişə nəticəsində Azərbaycan ərazilərinin təqribən 20% işğal edilmiş, şəhər və kəndlər yerlə yeksan edilmiş, xalqımızın tarixi-mədəni abidələri, inanc yerləri xüsusi qəddarlıqla dağıdılmış, talan edilmiş, hətta məzar daşları yerindən çıxarılmışdır. Erməni vandalizmi həqiqətən də nə sərhəd, nə insanlıq, nə də mənəviyyat tanıyır. Məqsəd bu torpaqların əsil sahibləri, köklü əhalisi olan Azərbaycan türklərinin Qarabağda və Şərqi Zəngəzurda izlərini tamamilə məhv etmək, xaqımızın qan yaddaşından silmək, unutdurmaq olmuşdur...

Azərbaycan tarixinə, bu torpaqların köklü sakinlərinə aid olan coğrafi yer adları kütləvi şəkildə dəyişdirilmiş və ermənilәşdirillmişdir. Azğınlıq o dərəcəyə çatmışdır ki, ötən əsrin 90-cı illərinin əvvəllərindən etibarən həm Ermənistanda, həm də xarici dövlətlərdə yaydıqları yeni, saxtalaşdırılmış xəritələrdə Azərbaycanın 400-dən çox coğrafi obyektinin adları tamamilə təhrif edilmişdir. Ermənistanda müxtəlif dillərdə nəşr olunmuş "Artsaxın atlası" xəritələr toplusunda Azərbaycan mənşəli bir toponim belə saxlanılmamış, məsələn, Kəlbəcər – "Karvaçar", Qubadlı – "Sonasar", Laçın – "Berdzor", Ağdam – "Akna" adlandırılmışdır. Üstəlik, Ağdam rayonu ərazisində guya "Böyük Ermənistanın qədim paytaxtı Tiqranakertin xarabalıqlarını aşkar etmiş", hətta burada orta əsrlərdə inşa olunmuş məscidin xarabalıqlarını "erməni memarlığı üslubunda tikilmiş sarayın bünövrəsi" kimi dünyaya tanıtdırmağa cəhd göstərmişlər.

Halbuki, XIII əsrin sonu – XIV əsrin əvvəllərində yaşamış tarixçi Fəzlullah Rəşidəddin "Came ət-Təvarix" əsərində, XV əsrin əvvəllərində Əmir Teymurun yürüşləri zamanı onu müşayiət etmiş ispan səfiri R. Klavixo öz "Səyahətnamə"sində, 1459-cu ildə venetsiyalı coğrafiyaçı Mauro tərtib etdiyi xəritədə "Qarabağ" toponiminin adını çəkəndə bütövlükdə Cənubi Qafqaz regionunda ermənilərdən əsər-əlamət yox idi. Onu da vurğulayaq ki, səyyah Mauro Cənubi Qafqaz regionunu "Turcomani" adlandırmışdır. "Zəngəzur" toponiminin də nə qədim dövrlərdə, nə də sonralar ermənilərlə bağlılığı olmamışdır. Bu bölgə qədim kitabələrdə "Sakan" yəni "Sakların yurdu" kimi tanınmışdı. VII əsrdə yaşamış alban tarixçisi Musa Kalankatlı isə "Alban tarixi" əsərində Qarabağın və Zəngəzurun qədim əhalisinin hunlar və peçeneqlər (qıpçaqlar) olduğunu bildirmişdi. Bu kimi tarixi faktlar da "Həqiqətin Onamastikası (Qarabağ və Şərqi Zəngəzur)" kitabında öz əksini tapmışdır.

Ermənistan Silahlı Qüvvələrinin Azərbaycan torpaqlarını işğal etməsi Qarabağda və Şərqi Zəngəzurda azərbaycanlıları doğma yurd-yuvalarından didərgin salması ilə yanaşı, xalqımızın tarixi və mədəni irsinə də ağır zərbələr vurmuş, əsas hədəfləri isə Azərbaycan xalqının yurd sevgisinin, vətən hissinin yaddaşlardan silinməsi olmuşdur. Ermənistan tərəfindən işğal edilmiş qədim Azərbaycan torpaqlarında 13 dünya əhəmiyyətli, 292 ölkə əhəmiyyətli və 330-dan artıq yerli əhəmiyyətli və s. tarix və mədəniyyət abidələri yerləşirdi. Bununla yanaşı, 40 mindən artıq eksponatın toplandığı 22 muzey, 4,6 milyon kitab fondu olan 927 kitabxana, 808 klub, 4 teatr və 2 konsert salonu, 60-dan çox məscid və s. yerlə yeksan edilmişdir. Özünün maddi-mədəni irsi olmayan xalq başqasının tarixi mədəniyyətinə aid 9 tarixi sarayı, 8 mədəniyyət və istirahət parkını, 4 rəsm qalareyasını, 85 musiqi məktəbini 30 ilə yaxın müddətdə işğal altında saxlamışdı.

Silahlı Qüvvələrimizin Ali Baş Komandanı, Prezident İlham Əliyevin sərkərdəlik məharəti və siyasi qüdrəti sayəsində 44 günlük Vətən müharibəsinin Azərbaycan Ordusunun qələbəsilə başa çatması təkcə tarixi ədalətin deyil, həm də tarixi yaddaşın zəfəri olmuşdur. Azərbaycan Prezidenti İlham Əliyevin bu barədə dilə gətirdiyi fikirlər tədqiqatçılarımızı yeni araşdırmalara ruhlandırmışdır: *"İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Bu Qələbə tarixdə əbədi qalacaq. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində düşmən ordusunu məhv edərək öz ərazi bütövlüyünü bərpa etdi... Biz düşməni torpaqlarımızdan qovduq və ədaləti, beynəlxalq hüququ bərpa etdik. Biz milli ləyaqətimizi bərpa etdik. Bu gün Azərbaycan xalqı müzəffər xalq kimi yaşayır. Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır. Biz bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq".*

"Həqiqətin Onamastikası-2 ***(Qarabağ və Şərqi Zəngəzur)"*** kitabı tarixi yaddaşımızın qorunması, mökəmləndirilməsi istiqamətində aparılan tədqiqat işlərindən biridir. Təbii ki, həmin bölgələrin bütün onamastika vahidlərinin müəyyən edilməsi və öyrənilməsi, onların geniş ictimaiyyətə çatdırılması mühüm və məsuliyyətli vəzifədir. Bu işdə mütəxəssislərimizə növbəti uğurlar arzulayıram.

Qeyd olunmalıdır ki, Azərbaycan Respublikası Prezidentinin 7 iyul 2021-ci il tarixli Fərmanı ilə yaradılmış Qarabağ iqtisadi rayonuna daxil edilən Ağcabədi və Bərdə rayonlarının oykonimləri işğala məruz qalmadığından tədqiqata cəlb edilməmişdir.

Kamal Abdulla
Xalq yazıçısı, akademik

QARABAĞ İQTİSADİ RAYONUNUN İŞĞALDAN AZAD OLUNMUŞ OYKONİMLƏRİ

AĞDAM RAYONU

(RAYON HAQQINDA ÜMUMİ MƏLUMAT)

Ağdam rayonu Azərbaycan Respublikasında, Kür-Araz ovalığının qərbində, Qarabağ silsiləsinin şimal-şərq ətəklərində yerləşir. Ağdam, inzibati rayon kimi ***8 avqust 1930-cu il*** tarixdə təşkil edilmişdir. Ağdam rayonu **23 iyul 1993-cü il** tarixdə erməni silahlı birləşmələri tərəfindən işğal olunmuş, ***20 noyabr 2020-ci il*** tarixdə işğaldan azad edilmişdir. Rayonun əhalisinin sayı hazırda 195 000 (*işğal ərəfəsində 155 000 nəfər idi*) nəfərdir. Rayonda ümumilikdə 135 yaşayış məntəqəsi – bir şəhər, 14 şəhər tipli qəsəbə və 120 kənd var. ***Ağdam rayonu*** Ağcabədi, Kəlbəcər, Tərtər, Bərdə, Xocalı və Xocavənd rayonları ilə həmsərhəddir. Rayonun relyefi, əsasən, düzənlik, qismən isə dağlıqdır.

Rayon ərazisindən Xaçın, Qabartı, Papravənd (*Gülyataq*) və Qarqar çayları axır. Yayda bu çayların suyu azalır və ya quruyur. Suvarmada və əhalinin su təchizatında kəhrizlərdən və artezian quyularından geniş istifadə edilir. Rayon ərazisi faydalı qazıntılarla – gillicə, qum, gil, çaqıldaş, əhəng daşı və s. ilə zəngindir. Ağdamın Rəsultəpə kurqanında m. ö. V- IV minilliklərə aid yaşayış yeri, Boyəhmədli kəndi yaxınlığında III-X əsrlərə aid Govurqala şəhər xarabalığı,VII-IX əsrlərə aid daş qutu qəbirlər, 1314-cü ildə tikilmiş Qutlu Musa oğlu türbəsi (Xındırıstan kəndi), XIV əsrə aid Kəngərli türbəsi, XVII əsrə aid Xanoğlu türbəsi (Ağdam şəhəri), Pənahəli xanın imarəti (Ağdam şəhəri) Papravənd kəndində XVII aid türbə və məscid var idi. Arxeoloji tədqiqatlar sübut edir ki, hələ 10 min il bundan əvvəl indiki *Ağdam rayonunun* ərazisi qədim insan məskəni olmuşdur.

Ağdam toponimini rəng mənasında işlənən ***ağ*** komponenti və qədim türk dillərində vaxtilə mövcud olmuş, amma müasir Azərbaycan dilində müvafıq leksik anlamı saxlanmayan ***tam*** *("qala, qala divarı, möhkəmləndirilmiş kiçik yer")* termini ilə izah edirlər. Bu anlamda toponim *"ağ qala", "ağ rəngdə qala divarları", "möhkəmləndirilmiş kiçik ərazi"* mənalarını ifadə edir. *Ağdam* yaxınlığındakı "Şahbulaq" deyilən ərazidə həqiqətən də əhəngdaşından ibarət qədim daş karxanası var. Ağdam şəhəri ərazisindəki qəbiristanlıqda olan 1174-cü ilə aid qəbirüştü kitabə də buranın çox qədim *qala* yaşayış yeri olduğunu göstərir. Şəhərin əsası 1741-ci ildə qoyulmuşdur. Qala divarları ağ daşdan hörüldüyündən belə adlanmışdır. ***Ağ*** termini toponimkada çox anlamlarda işlədilir. ***Ağ*** termininin toponimikada rəng anlamı ilə yanaşı, *"kiçik", "alçaq", "çox da hündür olmayan", "dayaz", "çox da dərin olmayan"* və s. mənaları var. ***Dam*** (***tam***) sözünün türk dillərində *"qışlaq yerində mal-qara saxlamaq üçün tövlə"* , "*ev*, *tikili*, *divar*" kimi izahları da məlumdur. Mənbələrdən o da məlumdur ki, ***ağdam*** həm də nəsil, tirə adıdır.

RAYONUN YAŞAYIŞ MƏNTƏQƏLƏRİ

Abdal – Əhalisinin sayı 1400 nəfər idi. Əhali əsasən heyvandarlıq, üzümçülük və taxılçılıqla məşğul olurdu. *Abdal kəndi* **4 sentyabr 1992-ci il** tarixdə ermənilər tərəfindən işğal olunmuş, 2020-ci ilin noyabrında azad edilmişdir. Oykonim türkmənşəli ***abdal*** etnonimi əsasında əmələ gəlmişdir. XIX əsrdə qəza ərazisində ***2*** *Abdal kəndi* mövcud idi. Onları fərqləndirmək üçün digərinə ***Abdal-Gülablı*** deyirdilər (yəni Gülablı yaxınlığındakı ***Abdal kəndi).*** VI əsrə aid qədim Suriya mənbələrində Şimali Qafqazın *Hun* əyalətində yaşayan bir sıra tayfalarla yanaşı, ***abdal*** tayfasının da adı çəkilir. Akademik V.Bartold ***abadel/abdal*** tayfasını hun tayfası hesab edir. Qazaxlarda, qaraqalpaqlarda, türkmənlərdə də ***abdal*** tayfaları qeydə alınmışdır.

Abdınlı – Əhalisinin sayı 120 nəfər idi. Kənd **30 iyul 1993-cü il** tarixdə ermənilər tərəfindən işğal olunmuş, 2020-ci ilin noyabrında azad edilmişdir. ***Abdınlı kəndi*** XIX əsrdə Ağdam rayonunun ***Tağıbəyli*** kəndindən çıxmış ***abdınlı*** nəslinin adını özündə əks etdirir.

Açarlı (*qəsəbə*) – Yaşayış məntəqəsinin adı bəzi sənədlərdə ***Acarlı*** kimi də öz əksini tapmışdır. Əhalisinin sayı 250 nəfər idi. Yaşayış məntəqəsi 2020-ci ilin noyabrında erməni işğalçılarından azad edilmişdir. Bir qisim araşdırıcılar ***atsa / açа*** coğrafi terminini "*iti uclu qaya*", "*yüksəklik*", "*dağətəyi yer*" kimi izah edir. ***Açarlı*** yaşayış məntəqəsi şahsevənlərin ***Sarxanlı*** tayfasının yeddi tirəsindən biri olan *acarlıların* burada məskunlaşması ilə əlaqədar yaranmışdır.

Ağdam (*şəhər*) – Ağdam rayonunda, Qarabağ düzünün cənub-qərbində, Şuşa-Yevlax avtomobil yolu kənarında, Qarqar çayının sol sahilində, Bakı şəhərindən 359 km məsafədə yerləşən şəhər. Eyniadlı rayonun mərkəzidir. Əhalisinin sayı 38 000 *(işğal ərəfəsində şəhərin 30 000 nəfər əhalisi var idi*) nəfərdir. Ağdam şəhəri respublikanın inkişaf etməkdə olan sənaye mərkəzlərindən biri idi. *Ağdam şəhəri* kənd təsərrüfatı rayonu olmaqla bərabər, respublikamızın inkişaf etməkdə olan sənaye mərkəzlərindən biri hesab edilirdi. ***Ağdam şəhəri* 23 iyul 1993-cü il** tarixdə erməni işğalçı qüvvələri tərəfindən işğal edilmiş, ***20 noyabr 2020-ci il*** tarixdə azad olunmuşdur. ***Ağdam*** yaşayış məskəni kimi 1828-ci ildə qeydə alınıb. 1832-ci ildə kameral siyahıyaalınmaya görə, burada 55 ev olub. 1926-cı ildə Ağdamda 8600, 1935-ci ildə isə şəhərdə 14000 nəfər əhali yaşayırdı.

Ağdamkənd – Əhalisinin sayı 1720 nəfər idi. Əhali əsasən heyvandarlıq, üzümçülük, bağçılıq və taxılçılıq ilə məşğul olurdu. Kənd 23 iyul 1993-cü ildə ermənilər tərəfindən işğal olunmuş, 2020-ci ilin noyabrında azad edilmişdir. ***Ağdamkənd*** oykonimi ***Ağdam*** və ***kənd*** sözlərindən ibarətdir. Arxeoloji və etnoqrafik materiallar kəndlərin ilk vaxtlar su mənbələri yaxınlığında yerləşən evlərdən ibarət olduğunu göstərir. ***Ağdamkənd*** toponimi *"qala ilə möhkəmləndirilmiş yaşayış məskəni"* mənasındadır.

Bağbanlar – Yaşayış məntəqəsi **4 iyul 1993-cü il** tarixdə ermənilər tərəfindən zəbt olunmuş, 2020-ci ilin noyabrında azad edilmişdir. Bəzi araşdırıcıların fikrincə, ***Bağbanlar*** yaşayış məntəqəsi keçmişdə ***bağçılıqla*** məşğul olmuş bir nəslin burada məskunlaşması nəticəsində yaranmış və kənd də əhalinin məşğuliyyətinə görə belə ad almışdır. Oykonimi ***Bağban*** şəxs adı ilə də əlaqələndirənlər var.

Ballıqaya – Ağdam rayonunda, Sırxavənd inzibati ərazi vahidində, Xaçın çayının sahilində, dağətəyi ərazidə yerləşən kənd. Toponim Xaçınçayın sol sahilində yerləşən qədim ***Ballıqaya*** kurqanlarının adı ilə bağlıdır. Goranboy və Qubadlı rayonlarında da ***Ballıqaya*** kəndləri var.

Baş Güneypəyə – ***Baş Güneypəyə*** oykonimi *"yuxarıda yerləşən Güneytəpə kəndi"* mənasındadır. Bu yaşayış məntəqəsini XIX əsrdə həmin rayondakı ***Qılıclı*** kəndindən gəlmiş ailələrin ***Güneypəyə*** adlanan ərazidə məskunlaşdıqları üçün kənd belə adlanmışdır. Əvvəllər bu ərazilər ***Qılıclı*** kəndinin qoyun binəsi yeri olmuşdur.

Baş Qərvənd – Əhalisinin sayı 2500 nəfər idi. Yaşayış məntəqəsi **26 aprel 1994-cü il** tarixində erməni silahlı qüvvələri tərəfindən işğal edilmiş, 2020-ci ilin noyabrında işğalçılardan azad olunmuşdur. Toponim ***kəbirli*** (bəzi mənbələrdə ***kolanı***) tayfasının ***qərvənd*** qolunun adını özündə əks etdirir. Kəndin keçmiş adı ***Kəkilbəyli Qərvənd*** olub. ***Kəkilbəy*** qərvəndlilərin bu kənddə məskunlaşmış hissəsinin başçısının adıdır. Yaşayış məntəqəsi vaxtilə ***Qışlaq*** adlı yerdə salınmış, onun ***aşağı*** tərəfindəki ***Qərvənd*** kəndinə nisbətən qışlağın ***yuxarı*** tərəfində yerləşdiyinə görə, sonralar ***Baş Qərvənd*** adlanmışdır.

Bəşirlər – Ağdam rayonunda, dağətəyi ərazidə yerləşən kənd. Əhalisi əsasən heyvandarlıq, bağçılıq və taxılçılıq ilə məşğul olurdu. İşğal ərəfəsində kənddə 32 ailə (173 nəfər əhali) yaşayırdı. Kənd 2020-ci ilin noyabrında erməni işğalçılarından azad edilmişdir. ***Bəşirlər*** oykonimi patronimik toponimdir. Yaşayış məntəqəsinin adı ***bəşirlər*** nəslinin adı ilə bağlıdır.

Boyəhmədli – Əhalisinin sayı 1800 nəfər idi. Qədim tarixə malik olan *Boyəhmədli kəndi* 2020-ci ilin noyabrında erməni işğalçılarından azad edilmişdir. Vaxtilə Cavanşir qəzası ərazisində ***Kilyək Boyəhmədli, Kobarta Boyəhmədli*** adlı kəndlər də qeydə alınmışdır. ***Boyəhmədli*** yaşayış məntəqəsinin adı şahsevənlərin ***boyəhmədli*** nəslinin adını özündə əks etdirir. ***Boyəhməd*** toponimini ***boy*** (*"tayfa"*) və ***Əhməd*** (şəxs adı) sözlərinin birləşməsindən əmələ gəlmişdir. Bu mənada oykonim *"Əhmədli boyu tayfası"* anlamına uyğun gəlir.

Bozpapaqlar – Əhalisinin sayı 650 nəfər idi. Yaşayış məntəqəsi **23 iyul 1993-cü il** tarixdə ermənilər tərəfindən işğal edilmiş, 2020-ci ilin noyabrında azad edilmişdir. Bir qisim tədqiqatçıların fikrincə, oykonim mənşə etibarı ilə Qarabağ xanlığının yaranmasında mühüm rol oynamış ***cavanşir*** tayfasına mənsub olan tirələrdən biri olan bozpapaqlıların adını özündə əks etdirir.

Cavahirli – Əhalisinin sayı 500 nəfər idi. ***Cavahirli*** yaşayış məntəqəsi **25 aprel 1994-cü il** tarixdə erməni silahlıları tərəfindən işğal edilmiş, 2020-ci ilin noyabrında azad olunmuşdur. ***Cavahirli*** yaşayış məntəqəsinin adı Qarabağ xanı İbrahimxəlil xanın arvadı ***Cavahir*** xanımın adı ilə bağlıdır. 1828-ci ildə Azərbaycanın Rusiyaya birləşdirilməsindən sonra kənd **Cavahir** xanıma mülk kimi bağışlanmışdır.

Cinli – Əhalisinin sayı 350 nəfər idi.. ***Cinli*** yaşayış məntəqəsi 2020-ci ilin noyabrında erməni işğalçılarından azad edilmişdir. Kənd XVIII əsrdə Qazax mahalından Qarabağa köçmüş ***cinli*** tayfasına mənsub ailələrin məskunlaşması nəticəsində yaranmışdır. Qədim gürcü mənbələrində ***cinlilər*** Volqaboyundan gəlmiş türk tayfası kimi qeyd olunub. Qədim türk dillərində **cin** sözü *"sıldırım dağ yarğanı"* mənasını ifadə edir. Tarixi məlumata görə, XVII əsrdə Qazax mahalında Gürcü hakimiyyətini qəbul etməyib Qarabağa köçüb gələn tayfalardan (kəngərli, boyəhmədli, dəmirçihəsənli, səfiqurd və s.) biri də ***Cinli*** tayfası idi...

Çərik – Əhalisinin sayı 250 nəfər idi. "***Çərik***" adının mənası ilə bağlı elmdə müxtəlif fikir və mülahizələr var. Çox güman ki, oykonim "***çərək***" sözündən təhrif olunub. ***Çərək*** farsca *"dörddə bir"* anlamındadır.

Çuxurməhlə – Əhalisinin sayı 450 nəfər idi. Yaşayış məntəqəsi 2020-ci ilin noyabrında azad edilmişdir. ***Çuxurməhlə*** oykonimi ***çuxur*** və ***məhlə*** sözlərindən ibarətdir. Toponim "*çuxurda yerləşən məhəllə", " çökəklikdə olan məhəllə*" mənasındadır.

Çullu – Əhalisi 600 nəfər idi. Əhali əsasən, heyvandarlıq, taxılçılıq, üzümçülük və tərəvəzçiliklə məşğul olurdu. ***Çullu kəndi*** 2020-ci ilin noyabrında erməni işğalçılarından azad edilmişdir. ***Çullu*** oykoniminin ilkin forması ***Çollu*** şəklində olmuşdur. *Çollu* sözü hun mənşəli qədim türkdilli ***çol*** tayfasının adını əks etdirir. ***Çol tayfası*** II əsrdə hunların tərkibində Qafqaza gələrək burada məskunlaşmışlar.

Eyvazxanbəyli – Əhalisinin sayı 1600 nəfər idi. ***Eyvazxanbəyli*** yaşayış məntəqəsi **30 iyul 1993-cü il** tarixdə ermənilər tərəfindən işğal olunmuş, 2020-ci ilin noyabrında azad edilmişdir. 1835-ci ilin məlumatına görə, kəndin əsl adı ***Ərəb Eyvazxan*** olub. ***Eyvazxan*** yerli bəylərdən olan Məmmədxan bəyin oğludur. ***Eyvazxan*** 1826-cı ildə mövcud şəraitlə əlaqədar İrana köçmüşdür. Amma çox keçməmiş, II Rus-İran müharibəsi (*1826-1828*) başa çatdıqdan sonra geri qayıtmışdı. Çar hökuməti onun fəaliyyətini nəzərə alaraq Şəlvə, Tərnəgüt və Əliməmməd kəndlərini, eləcə də İsaq Pənah köçünü Eyvazxana vermişdir.

Əhmədavar – Əhalisinin sayı 2000 nəfər idi. Əhali əsasən üzümçülük, bağçılıq, baramaçılıq, heyvandarlıq və taxılçılıq ilə məşğul olurdu. Kənddə orta məktəb, kitabxana, klub, tibb məntəqəsi, poçt, rabitə şöbəsi, aptek, uşaq bağçası, müxtəlif ticarət, iaşə, məişət obyektləri və s. vardı. Kənd 2020-ci ilin noyabrında erməni işğalçılarından azad edilmişdir. ***Əhmədəvar*** sözü **Əhməd** şəxs adından və keçmişdə Azərbaycan dilində mövcud olmuş ***var*** sözündən ibarət olub, ***"****Əhmədə məxsus olan yurd", "Əhmədə məxsus qışlaq yeri"* mənasındadır.

Əliağalı – Əhalisinin sayı 2000 nəfər idi. Əhali əsasən bağçılıq, üzümçülük, heyvandarlıq və taxılçılıq ilə məşğul olurdu. Yaşayış məntəqəsi 2020-ci ilin noyabrında erməni işğalçılarından azad edilmişdir. ***Əliağalı*** oykonimi patronimik toponimdir. XIX əsrə aid olan mənbələrdə Qarabağda ***Əliağalı*** adlı maldarlıqla məşğul olan kiçik bir obanın, nəslin adı göstərilir.

Əlimədədli – Əhalisinin sayı 1100 nəfər idi. Yaşayış məntəqəsi **15 iyun 1993-cü il** tarixdə ermənilər tərəfindən işğal olunmuş, 2020-ci ilin noyabrında azad edilmişdir. ***Əlimədədli*** (bəzən kəndin adını ***Əlimədətli*** kimi də yazırlar) yaşayış məntəqəsi *kolanı* tayfasına mənsub *Əlimədədli* obasının burada məskunlaşması ilə əlaqədar yaranmışdır.

Əlimərdanlı – Əhalisinin sayı 500 nəfər idi. Əhali əsasən üzümçülük, heyvandarlıq və taxılçılıq ilə məşğul olurdu. 2020-ci ilin noyabrında kənd erməni işğalçılarından azad edilmişdir. *Əlimərdanlılar* Qarabağ düzündə yaşayıb maldarlıqla məşğul olmuş nəsil adıdır. ***Əlimərdanlı*** oykonimi patronimik toponimdir. Oykonim ***Əlimərdan*** şəxs adı ilə əlaqədardır.

Ətyeməzli – Əhalisinin sayı 1700 nəfər idi. Əhali əsasən üzümçülük, heyvandarlıq və taxılçılıq ilə məşğul olurdu. Yaşayış məntəqəsi *23 iyul 1993-cü il* tarixdə ermənilər tərəfindən işğal olunmuş, 2020-ci ilin noyabrında erməni işğalçılarından azad edilmişdir. İlk baxışda ***ətyeməz*** sözü *"ət yeməyən", "kəsilmiş heyvan əti yeməyən"* kimi başa düşülür. *Ətyeməzli* yaşayış məntəqəsi ***kəbirli*** tayfa qrupuna daxil olan ***qərvəndli*** elinin ***ətyeməzli*** qolunun adı ilə əlaqədardır. ***Ətyeməzli*** tirəsinin əsl adı ***atyeməzlidir*** ki, bu da həmin qola mənsub olan ailələrin vaxtilə Cənubi Azərbaycanın ***Atyeməz*** mahalından gəlmələri ilə bağlıdır. Tarixi mənbələrdən məlumdur ki, Nadir şah vaxtilə kəbirliləri Xorasana sürgün etmiş, amma şahın ölümündən sonra kəbirlilər geriyə-Qarabağa qayıtmışlar. Yerli məlumata görə, Ətyeməzli kəndinin ən azı ***300*** ildən çox yaşı var.

Göytəpə – Əhalisinin sayı 1000 nəfər idi. Əhali əsasən üzümçülük, baramaçılıq, pambıqçılıq, heyvandarlıq və taxılçılıq ilə məşğul olurdu. *Göytəpə* yaşayış məntəqəsi 2020-ci ilin noyabrında erməni işğalçılarından azad edilmişdir. Bu yaşayış məntəqəsi ***Göytəpə*** adlanan ərazidə salındığı üçün həmin təpənin adı ilə də adlandırılmışdır.

Gülablı – Əhalisinin sayı 1500 nəfər idi. Yaşayış məntəqəsi 2020-ci ilin noyabrında erməni işğalçılarından azad edilmişdir. Bəzi yerli məlumata görə, kəndin əvvəlki adı ***Güllü*** olmuşdur. Sonralar yaşayış məntəqəsi ***Gülablı*** adlandırılmışdır. Məlumdur ki, əkinə verilən ikinci suya ***gülab*** deyilir. ***Gülab*** sözü həm də ***gül*** və ***ab*** *("su")* sözlərindən ibarət olub, *"gül suyu"* deməkdir. Bəzi araşdırıcılar oykonimi Qarabağ ərazisində erkən orta əsrlərdə mövcud olmuş *Gilab* qalasının adı ilə əlaqələndirir. *Gülablı* toponimini ***Gülab*** adlı bir tacirin adı ilə bağlayanlar da var.

Güllücə – Əhalisinin sayı 2300 nəfər idi. Əhali əsasən baramaçılıq, bostançılıq, üzümçülük, heyvandarlıq və taxılçılıq ilə məşğul olurdu. *Qarabağ müharibəsi* zamanı ***Güllücə*** yaşayış məntəqəsi uğrunda şiddətli döyüşlər getmiş, yüzlərlə Azərbaycan əsgəri bu ərazidə şəhid olmuşdur. Kənd ***16 aprel 1994-cü il*** tarixdə ermənilər tərəfindən işğal edilmiş, 2020-ci ilin noyabrında erməni işğalçılarından azad edilmişdir. ***Güllücə*** sözü *"güllü, çiçəkli yer"* mənasındadır.

Hacıməmmədli – Əhalisinin sayı 760 nəfər idi. ***Hacıməmmədli*** yaşayış məntəqəsi ***kəbirli*** tayfasının ***ulubabalı*** qoluna mənsub olan ***Hacıməmmədli*** tirəsinin *Ağburun* adlanan yerdə məskunlaşması nəticəsində yaranmışdır. Bu tirənin tam adı ***Hacıməmmədhüseynli*** olmuşdur.

Xaçındərbətli – Əhalisinin sayı 800 nəfər idi. ***Xaçındərbətli*** yaşayış məntəqəsi **15 iyun 1993-cü il** tarixdə erməni işğalçıları tərəfindən zəbt edilmiş, 2020-ci ilin noyabrında azad edilmişdir. Keçmişdə bu ərazilərdə ***Dərbətli*** **(*Dorbetli*)** adlı iki kənd olmuşdur: ***Xaçındərbətli*** (*Xaçın çayının sahilində yerləşdiyinə görə*) və ***Cinlidərbətli*** (Cinli kəndi yaxınlığında yerləşdiyinə görə). Toponim bəzən, ***Xaçıntürbətli*** şəklində də yazılır. Toponimin yaranması XIII əsrdə Azərbaycana gəlmiş *oryat* tayfasının ***dorbet*** qolunun adı ilə bağlıdır.

Xatınbəyli – Əhalisinin sayı 350 nəfər idi. *Xatınbəyli kəndi* 2020-ci ilin noyabrında erməni işğalçılarından azad edilmişdir. ***Xatınbəyli*** sözü ***Xatın*** adından, ***bəy*** apelyativindən və ***-li*** mənsubluq ifadə edən şəkilçidən ibarətdir. ***Xatın*** – *" xanım", "qadın "* deməkdir; ***bəy*** termini titul ifadə edir və "*zəngin*", *"varlı", "böyük"* mənası daşıyır.

Xıdırlı – Əhalisinin sayı 3400 nəfər idi. ***Xıdırlı*** yaşayış məntəqəsi **22 iyul 1993-cü il** tarixdə ermənilər tərəfindən işğal edilmiş, 2020-ci ilin noyabrında azad olunmuşdur. ***Xıdırlı*** – vaxtilə Qarabağ düzündə yaşamış qədim bir elin adıdır. Onlar qışı Qarabağ düzündə, yayı isə əsasən Zəngəzurda keçirərdilər. XVIII əsrdə Quba xanı Fətəli xan xıdırlıların bir hissəsini indiki Salyan rayonu ərazisinə köçürmüşdür. XIX əsrin 80-ci illərində Xıdırlıda 54 ailə yaşayırdı. Həmin dövrdə Cavad qəzasındakı Mişovdağın ətəyində qışlayan 46 ailədən ibarət olan Xıdırlı maldar eli də xıdırlılar nəslinin tirələrindən idilər. Oykonim **Xıdır** şəxs adı ilə bağlıdır.

İlxıçılar – Əhalisinin sayı 1100 nəfər idi. Bəzən kəndin adı sənədlərdə ***İlxıçı*** kimi də yazılır. **16 aprel 1994-cü il** tarixdə ***İlxıçılar*** yaşayış məntəqəsi ermənilər tərəfindən zəbt olunmuşdu. 2020-ci ilin noyabrında kənd erməni işğalçılarından azad edilmişdir. Vaxtilə Cavanşir və Şuşa qəzalarında ***İlxıçılar, İlxıçılarxana*** adlı kəndlər qeydə alınmışdır. *İlxıçılar* – şahsevən tayfa birliyinə daxil olan ən böyük Azərbaycan tayfalarından biri idi. ***İlxıçı*** Səlcuq türklərinə mənsub olan nəsil adıdır. Bəzən yaşayış məntəqələrinin birini digərindən fərqləndirmək üçün adlarına müvafiq komponentlər əlavə edilir. İlxıçıların XIX əsrdə Qarabağda maldarlıqla məşğul olmaları mənbələrdə öz əksini tapmışdır.

İsalar – Kəndin əsil adı ***Molla İsalar*** kimi yazılmalıdır. Bu yaşayış məntəqəsi ***Boyəhmədli*** tayfasına məxsus olan ***Molla İsalar*** tirəsinin burada məskunlaşması nəticəsində yaranmışdır.

İsmayılbəyli – Əhalisinin sayı 1650 nəfər idi. ***İsmayılbəyli*** yaşayış məntəqəsi ***4 iyul 1993-cü il*** tarixdə ermənilər tərəfindən işğal olunmuş, 2020-ci ilin noyabrında azad edilmişdir. Yaşayış məntəqəsinin keçmiş adı ***Mərzili İsmayılbəy*** olub. Kənd vaxtilə Qarabağda, Cavanşir qəzasında yaşamış ***mərzili*** tayfasına mənsub olan bir qrup ailənin başçısı ***İsmayıl bəyin*** adı ilə adlandırılmışdır.

Keştazlı – Əhalisinin sayı 1750 nəfər idi. ***Keştazlı*** yaşayış məntəqəsi **23 iyul 1993-cü il** tarixdə ermənilər tərəfindən işğal olunmuş, 2020-ci ilin noyabrında erməni işğalçılarından azad edilmişdir. ***Keştazlı*** yaşayış məntəqəsi vaxtilə Şərur əyalətinin ***Keştaz*** (*hazırda Şərur rayonunun kəndi*) kəndindən köçüb gəlmiş ailələrin burada məskunlaşması nəticəsində yaranmışdır. Məlumdur ki, Qarabağ xanı Pənahəli xan vaxtilə Naxçıvandan bir sıra tayfa və tirələri Qarabağa köçürmüşdür. *Keştazlı* tirəsi də həmin vaxt Qarabağa gələnlərin arasında olmuşdu. ***Keştazlı*** toponimi *"Keştazdan olanlar, keştazlılar"* mənasındadır. ***Keş*** sözünün dilimizdə "*dağətəyi yerlərdə və dağ yamaclarında suyun açdığı şırım", "yarğan", "dərə", "dəhnə "* mənaları vardır.

Kəngərli – Əhalisinin sayı 1750 nəfər idi. ***Kəngərli*** yaşayış məntəqəsi **23 iyul 1993-cü il** tarixdə ermənilər tərəfindən işğal edilmiş, 2020-ci ilin noyabrında azad olunuşdur. *Kəngərli kəndi* qədim türkdilli ***kəngərli*** tayfasının adı ilə əlaqədardır. ***Kəngərlilər*** eramızın əvvəllərində hunların tərkibində Cənubi Qafqaza gəlmişlər. Onlar əsasən iki zonada – Naxçıvanda və Qarabağda yaşamışlar. Xanlıqlar dövründə Qarabağ xanı Pənahəli xan Cavanşır (1748 – 1763) Naxçıvandan kəngərlilərin bir hissəsini Qarabağa köçürmüşdür.

Kolanı mahalı – Ağdam və Ağdərə rayonlarını əhatə edən tarixi vilayət. ***Kolanı*** oykonimi öz adında ***kolanı*** tayfasının adını əks etdirir. Vaxtılə Azərbaycanda yaşamış qədim türkdilli tayfalardan biri də ***kolanılar*** tayfasıdır. Tarixdən məlumdur ki, Qarabağ xanlığının tərkibində ***Kolanı mahalı*** adlanan böyük ərazilər mövcuddur. Azərbaycan tarixçisi Mirzə Adıgözəl bəy Uşacıq kəndindən Göyçə gölü sərhədlərinə qədər uzanan Tərtər çayı hövzəsini kolanıların məskəni adlandırmışdır. 1728-ci ilə aid olan mənbədə göstərilir ki, orta əsrlərdə Qarabağda, Naxçıvanda, İrəvan əyalətində yaşamış ***kolanı*** elləri müxtəlif adlarda çoxlu sayda yaşayış məntəqələri yaratmışlar. Qarabağda, Naxçıvanda, Qərbi Azərbaycanda (Ermənistanda), Şirvanda, Cənubi Azərbaycanda (İran) yaşayan kolanılar əsasən maldarlıqla məşğul olmuşlar. Tarixi mənbələrin məlumatına görə, XVIII əsrin 30-cu illərində Nadir şah Əfşar Xorasandan Azərbaycana (Araz çayından şimala) bəzi ***kolanı*** nəsillərini də köçürmüşdür. Onlar müxtəlif ərazilərdə, o cümlədən, Qarabağda məskunlaşmışlar.

Kosalar – Əhali əsasən bağçılıq, pambıqçılıq, üzümçülük, heyvandarlıq və taxılçılıq ilə məşğul olurdu. Kənddə məktəb, kitabxana, klub, tibb məntəqəsi, ticarət obyekti və s. vardı. Yaşayış məntəqəsi **30 iyul 1993-cü il** tarixdə ermənilər tərəfindən işğal edilmişdi. 2020-ci ilin noyabrında kənd erməni işğalçılarından azad edilmişdir. ***Kosalar*** toponimi XIX əsrin əvvəllərində Qarabağ xanı Mehdiqulu xana mənsub olan *xəlfəli* tayfasının ***kosalar*** tirəsinin adı ilə əlaqədardır. Bəzən kəndin adını sənədlərdə ***Kosalı*** kimi də yazırlar.

Küdürlü – Əhalisinin sayı 200 nəfər idi. ***Küdürlü*** toponiminin əsasını Azərbaycan dilinin dialektlərində işlənən ***küdür*** (***küdrü***, ***küdri***) komponenti təşkil edir. Çox ehtimal ki, kəndin adı coğrafi möqeyinə görə ("*quru iqlimli yer*", "*su çıxmayan ərazi*", "*dalğavari sıralanan təpə, dağ*" mənasında) belə adlandırılmışdır.

Kürdlər – Əhalisinin sayı 450 nəfər idi. Yaşayış məntəqəsi **15 iyun 1993-cü il** tarixdə ermənilər tərəfindən işğal edilmişdi. 2020-ci ilin noyabrında kənd erməni işğalçılarından azad edilmişdir. Yerli məlumata görə, yaşayış məntəqəsi vaxtilə burada kürddilli ailələrin məskunlaşması nəticəsində yarandığına görə belə adlanmışdır.

Qalayçılar – Əhalisinin sayı 1639 (*2013-cü il üçün*) nəfər idi. Bir qisim araşdırıcılara görə, ***Qalayçılar*** toponimi peşə, sənət bildirən ***qalayçı*** sözündən və cəmlik ifadə edən ***-lar*** şəkilçisindən ibarətdir. Digər məlumata görə isə, ***Qalayçılar*** oykonimi ***qalayçılar*** adlı nəsil adı ilə əlaqədardır. Oykonimi XVI əsrdə Xaçın nahiyəsində yaşamış eyniadlı oymağın adı ilə də əlaqələndirirlər. Həmin əsrə aid bir mənbənin verdiyi məlumata görə, ***Qalayçılar*** oymağı vaxtilə ***Molla Vəli*** adlı bir şəxsə məxsus olmuş və müəyyən müddət onun adı ilə adlanmışdır.

Qaradağlı – Ağdam rayonunda ***Qaradağlı adlı*** 3 kənd var: 1) ***Qaradağlı*** inzibati ərazi vahidində (əhalisi 2150 nəfər) – *Evoğlu Qaradağlı, Qaradağlı-Kərimağa;* 2) ***Qasımlı*** inzibati ərazi vahidində (əhalisi 660 nəfər) – *Qaradağlı Uğurlubəy;* (***Qaradağlı kəndi*** **7 iyul 1993-cü il** tarixdə ermənilər tərəfindən işğal edilmişdi). 3) ***Ağdam şəhər*** inzibati ərazi vahidində (əhalisi 1100 nəfər) – *Qurd Qaradağlı;* (***Qurd Qaradağlı kəndi*** **22 iyul 1993-cü il** tarixdə ermənilər tərəfindən işğal edilmişdi). *Qaradağlı* ən böyük Azərbaycan ellərindən biridir. ***Qaradağlı*** tayfaları səlcuq əsillidirlər. ***Qaradağlı*** nəsilləri şahsevən qəbiləsinə mənsubdurlar. Onlar bu adı Cənubi Azərbaycandakı ***Qaradağ*** mahalının (*orada eyniadlı dağ da var*) adından almışlar. ***Qaradağlı*** toponimi böyük türk tayfası olan qızılbaşların ***qaradağlı*** tayfasının adı əsasında əmələ gələn etnotoponimdir. Səfəvilər hakimiyyətə keçdikdən sonra ***qaradağlılar*** müxtəlif ərazilərə yayılmışlar.

Qaradağlı – Ağdam şəhər inzibati ərazi vahidində, Qarqar çayının sahilində, Qarabağ düzündə yerləşən kənd. Kəndin adına Qurd Qaradağlısı kimi rast gəlmək olur. Əhalisinin sayı 1100 nəfər idi. Əhalisi əsasən taxılçılıq, heyvandarlıq, üzümçülük, bağçılıq, baramaçılıq ilə məşğul olurdu. Kənddə orta məktəb klub, kitabxana, rabitə şöbəsi, ATS, ticarət-iaşə obyektləri və s. vardı. **22 iyul 1993-cü il** tarixdə kənd erməni hərbçiləri tərəfindən işğal olunmuşdu. 2020-ci ilin noyabrında kənd erməni işğalçılarından azad edilmişdir.

Qaraqaşlı – Ağdam rayonunda, Kəngərli inzibati ərazi vahidində, rayon mərkəzindən 11 km şimal-şərqdə, dağətəyi düzənlikdə yerləşən kənd. Əhalisinin sayı 650 nəfər idi. Əhali əsasən üzümçülük, heyvandarlıq və taxılçılıq ilə məşğul olurdu. Kənddə orta məktəb, kitabxana, klub, tibb məntəqəsi, rabitə evi, ticarət-iaşə obyektləri və s. vardı. Kənd **30 iyul 1993-cü il** tarixdə ermənilər tərəfindən işğal olunmuşdu. 2020-ci ilin noyabrında kənd erməni işğalçılarından azad edilmişdir. ***Qaraqaşlı*** toponimi XIX əsrdə Qarabağda əsasən maldarlıqla məşğul olmuş 194 ailədən ibarət olan ***qaraqaşlı*** elinin adı ildə bağlıdır.

Qarapirimli – Bəzən kəndin adını ***Qarapirim*** formasında da yazırlar. Əhalisinin sayı 420 nəfər idi. Yaşayış məntəqəsi **26 iyun 1993-cü il** tarixdə ermənilər tərəfindən işğal olunmuş, 2020-ci ilin noyabrında erməni işğalçılarından azad edilmişdir. Toponim *səlcuq* oğuzlarından olan əfşarların *qırıqlı* tayfasının *Qarapirimli* tirəsinin adı ilə bağlıdır.

Qaraşlar – Ağdam rayonunda, Sırxavənd inzibati ərazi vahidində, rayon mərkəzindən 18 km məsafədə, Qarabağ düzündə yerləşən kənd. Əhalisinin sayı 200 nəfər idi. Kənd **12 mart 1992-ci il** tarixdə ermənilər tərəfindən işğal edilmişdi. ***Qaraşlar*** nəsli ***Qaraş*** şəxs adından qaynaqlanmışdır. Bu nəsil Qarabağda qədim zamanlardan məskunlaşmışdır.

Qarazeynallı – Ağdam rayonunda, rayon mərkəzindən 6 kilometr şimal-şərqdə, Sarıcalı inzibati ərazi vahidində, Qarabağ düzündə yerləşən kənd. Əhalisinin sayı 900 nəfər idi. Kənd **23 iyul 1993-cü il** tarixdə erməni işğalçı qüvvələri tərəfindən zəbt olunmuş, 2020-ci ilin

noyabrında azad edilmişdir. ***Qarazeynallı*** yaşayış məntəqəsi XIX əsrdə Ağdam rayonunun ***Qullar*** kəndindən köçüb gələn ailələrin burada məskunlaşması nəticəsində yaranmışdır. Yaşayış məntəqəsinin adı ***qarazeynallı*** nəslinin adı ilə əlaqədardır.

Qasımlı – Ağdam rayonunda, Qasımlı inzibati ərazi vahidində, rayon mərkəzindən 5 km cənub-qərbdə, dağətəyi düzənlikdə yerləşən kənd. Əhalisinin sayı 950 nəfər idi. Kənd **7 iyul 1993-cü il** tarixdə ermənilər tərəfindən işğal edilmişdi. 2020-ci ilin noyabrında kənd erməni işğalçılarından azad edilmişdir. Bir sıra məlumatlara görə, ***Qasımlı*** yaşayış məntəqəsi 1820-ci ildə Cənubi Azərbaycandan *zərgər, dilağarda, mahrızlı* və digər tayfalarla birlikdə köçüb gəlmiş ***qasımlı*** tayfasının burada məskunlaşması nəticəsində yaranmış və belə adlanmışdır.

Qazançı – Ağdam rayonunda, eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 30 kilometr şimal-qərbdə, Qarabağ silsiləsinin ətəyində yerləşir. Əhalisinin sayı 500 nəfər idi. ***Qazançı*** toponimi ***Qazan*** (***Kazan***) etnonimindən və ***-çı*** şəkilçisindən ibarətdir. Tarixdən məlumdur ki, qədim türkdilli bulqarların ***Qazan*** (***Kazan***) adlı tayfası olmuşdur. Mənbələrin verdiyi məlumatlara görə, onlar (***qazanlar***) ilk dəfə miladdan öncə II əsrdə bulqarların tərkibində Azərbaycana gəlmişlər.

Qızıl Kəngərli – Ağdam rayonunda, Boyəhmədli inzibati ərazi vahidində, rayon mərkəzindən 14 km şimalda, Xaçınçayın sahilində, Qarabağ silsiləsinin ətəyində yerləşir. Kəndin adına bəzən ***Qızıllı*** və ***Qızıllı Kəngərli*** də deyirlər. Əhalisinin sayı 1300 nəfər idi. Kənd **26 iyun 1993-cü il** tarixdə ermənilər tərəfindən işğal edilmişdi. 2020-ci ilin noyabrında kənd erməni işğalçılarından azad edilmişdir. Yaşayış məntəqəsinin düzgün adı ***Qızıllı Kəngərli*** formasında yazılmalıdır. Kənd XVII əsrdə Qazax mahalından Qarabağa köçmüş ***kəngərli*** tayfasının ***qızıllı*** tirəsinin adı ilə əlaqədardır.

Qiyaslı – Qiyaslı inzibati ərazi vahidində, rayon mərkəzindən 6 km şimal-qərbdə, Şahbulaq silsiləsi ətəyində, Qarabağ düzündə yerləşən kənd. Əhalisinin sayı 3800 nəfər idi. Kənd **22 iyul 1993-cü il** tarixdə ermənilər tərəfindən işğal olunmuş, 2020-ci ilin noyabrında azad edilmişdir. Yaşayış məntəqəsi öz adında *Qiyaslı* nəslinin adını əks etdirir. Bu nəsil XIX əsrdə qışı Qarabağ düzündə, yayı isə Zəngəzur ərazilərində keçirirdi. Qiyaslı yaşayış məntəqəsini Qubadlı rayonunun keçmiş *Altınca Qiyaslı* (indiki Altınca) kəndindən köçüb gəlmiş ailələr saldığı üçün belə ad almışdır.

Qullar – Sarıcalı inzibati ərazi vahidində, rayon mərkəzindən 7 kilometr şərqdə, Qarqar çayı sahilində, Qarabağ yaylasında yerləşən kənd. Əhalisinin sayı 950 nəfər idi. ***Qullar*** – mənşə etibarı ilə qədim türklərin ***qul*** (***kul***) tayfası ilə bağlı olan, Qarabağ düzündə yaşayan və İbrahimxəlil xanın oğlu ***Şıxəli*** bəyə məxsusluq bildirən bir elatdır. ***Qullar*** oykonimi qədim türkdilli *bulqarların*, *peçeneqlərin* və *qıpçaqların* tərkibində olmuş ***kul*** tayfasının adı ilə bağlıdır. ***Qul*** (***kul***) toponiminin arealı genişdir.

Qurdlar – Qasımlı inzibati ərazi vahidində, rayon mərkəzindən 8 km qərbdə, dağətəyi düzənlikdə yerləşən kənd. Əhalisinin sayı 500 nəfər idi. Yaşayış məntəqəsi **7 iyul 1993-cü il** tarixdə ermənilər tərəfindən işğal edilmişdi. 2020-ci ilin noyabrında kənd erməni işğalçılarından azad edilmişdir. ***Qurdlar –*** mənşə etibarı ilə *kəngərli* tayfasının *qurdlar* tirəsindəndir. Əvvəllər onlar Naxçıvanda yaşamışlar. XVIII əsrin siyasi hadisələri ilə əlaqədar olaraq Qarabağa gəlmiş, burada bir neçə yaşayış məskənləri salmışlar.

Maqsudlu – Maqsudlu inzibati ərazi vahidində, rayon mərkəzindən 12 km şimalda, Xaçın çayının sahilində, Qarabağ düzündə yerləşən kənd. Əhalisinin sayı 1250 nəfər idi. Kəndin ərazisindəki qəbiristanlıqda müxtəlif dövrlərə aid daş heykəllər aşkar olunmuşdur. ***Maqsudlu*** yaşayış məntəqəsi **26 iyul 1993-cü il** tarixdə ermənilər tərəfindən işğal edilmiş, 2020-ci ilin noyabrında azad olunmuşdur. *Maqsudlu* yaşayış məntəqəsi Qarabağda yaşamış ***maqsudlu*** tirəsinə mənsub nəsillər tərəfindən salındığı üçün belə adlanmışdır.

Maniklu – Maniklu inzibati ərazi vahidində, rayon mərkəzindən 28 km şimal-qərbdə, dağətəyi ərazidə yerləşən kənd. Əhalisinin sayı 1020 nəfər idi. Yaşayış məntəqəsi **12 mart 1992-ci il** tarixdə ermənilər tərəfindən işğal edilmiş, 2020-ci ildə azad olunmuşdur. ***Maniklu*** kəndinin adı ərazisindən axan *Manik* çayının adındandır. Kəndin başqa bir adına ***Adıgözəlbəyli*** deyirlər. Yaşayış məntəqəsi vaxtilə Qarabağ xanlarının nəslindən olan, *"Qarabağnamə"* əsərinin müəllifi ***Mirzə Adıgözəl bəyə*** (1780-1848) məxsus olduğu üçün belə adlanmışdır. Kəndin adı sənədlərdə bəzən ***Manikli***, ***Məlikli*** kimi də yazılır.

Mərzili – Mərzili inzibati ərazi vahidində, rayon mərkəzindən 19 km cənub-şərqdə, Qarabağ düzündə yerləşən kənd. Əhalisinin sayı 6900 nəfər (*1000 ev*) idi. XX əsrin əvvəlində kənddə 300 ev olmuşdur. O zamanlar kəndə *"üç yüz evlik Mərzili"* deyilərdi. Yaşayış məntəqəsi **4 iyul 1993-cü il** tarixdə ermənilər tərəfindən işğal edilmiş, 2020-ci ilin noyabrında azad edilmişdir. ***Mərzili*** oykonimi keçmişdə Şirvanda yaşamış *goranlı, mosullu, rəsullu, zeynalabdinbəyli* və *molday* obaları ilə birlikdə Şirvan xanı Mustafa xana mənsub olan ***mərzili*** tayfasının burada məskunlaşması nəticəsində yaranmışdır. Bu tayfa XVIII əsrdə Arazsahili ərazidən Şirvan xanı Mustafa xanın mülk yerlərinə köçürülmüşdür. Kənd vaxtilə Qarabağ düzündə əsasən maldarlıq və əkinçiliklə məşğul olmuş ***mərzili*** elatının adını özündə əks etdirir.

Məstalıbəyli – Rayon mərkəzindən 15 kilometr məsafədə, Qarabağ düzündə yerləşən yaşayış məntəqəsi. Əhalisi əsasən heyvandarlıq, taxılçılıq, bağçılıq, üzümçülük, pambıqçılıq, tərəvəzçiliklə məşğul olurdu. Yaşayış məntəqəsinin ərazisində dəyirman, qədim qəbiristanlıq, qala divarı xarabalığı yeri və s. vardı. ***Məstalıbəyli*** etnooykonimi Azərbaycan tayfalarından şahsevənlərin ***məstalıbəylilər*** tirəsinin adı ilə bağlıdır.

Mollalar – ***Boyəhmədli*** inzibati ərazi vahidində, rayon mərkəzindən 20 km şimal-qərbdə, Qarabağ düzündə yerləşən kənd. Əhalisinin sayı 580 nəfər idi. Kəndin ərazisində daş heykəllər tapılmış qədim qəbiristanlıq yeri də var. ***Mollalar*** yaşayış məntəqəsi **26 iyun 1993-cü il** tarixdə ermənilər tərəfindən işğal olunmuş, 2020-ci ilin noyabrında azad edilmişdir. *Mollalar* kəndinin adı əslində *Molla Əlilərdir.* Toponim Qarabağda yaşamış türkdilli *otuziki* ulusunun ***Mollaəlilu*** oymağının adı ilə bağlıdır

Mollalar – ***Əlimədədli*** inzibati ərazi vahidində kənd. Əhalisinin sayı 550 nəfər idi. *Mollalar kəndi* **15 iyun 1993-cü il** tarixdə ermənilər tərəfindən işğal olunmuş, 2020-ci ilin noyabrında işğalçılardan azad edilmişdir.

Muğanlı – Bağbanlar inzibati ərazi vahidində kənd. Əhalisinin sayı 900 nəfər idi. Kənd **4 iyul 1993-cü il** tarixdə erməni silahlı birləşmələrinin hücumu nəticəsində işğal edilmiş, 2020-ci ilin noyabrında işğalçılardan azad olunmuşdur.

Muğanlı – Şıxbabalı inzibati ərazi vahidində yerləşən ***Muğanlı*** kəndinin əhalisinin sayı 1600 nəfər idi. *Muğanlı kəndi* **4 iyul 1993-cü il** tarixdə ermənilər tərəfindən işğal olunmuş, 2020-ci ilin noyabrında işğalçılardan azad edilmişdir. ***Muğanlı*** yaşayış məntəqələri əsasən *Muğan* düzündə yaşamış ***muğanlılar*** tayfasının adı ilə əlaqədar yaranmışdır. Muğanlıların adı sonralar mənbələrdə ***şahsevənlərin*** tərkibində müstəqil tayfa kimi qeyd olunmuşdur. XIX əsrin ortalarında ***muğanlılar*** 8 tirədən ibarət olmuşlar. Bir sıra nəsilləri əhatə edən ***muğanlılar*** vaxtilə əsasən Cavad qəzasında məskunlaşmışdılar.

Muradbəyli – Ağdam şəhəri inzibati ərazi vahidində kənd. Əhalisinin sayı 1800 nəfər idi. Yaşayış məntəqəsi **23 iyul 1993-cü il** tarixdə ermənilər tərəfindən işğal edilmiş, 2020-ci ilin noyabrında işğalçılardan azad edilmişdir. *Muradbəyli* yaşayış məntəqəsinin digər adı ***Qılıcbəyli*** olub. 1828-ci ildə Cənubi Azərbaycandan gəlmiş ***Murad bəy*** adlı bir şəxs tərəfindən Cənubi Azərbaycandan gətirilmiş ailələrin Sarıdəhnə adlanan ərazidə məskunlaşması ilə əlaqədar yaranmışdır. Kənd *Murad bəyin* nəvəsi Qaflan bəyin vaxtında bəylik yeri olmuşdur.

Nəmirli – Nəmirli inzibati ərazi vahidində kənd. Əhalisinin sayı 700 nəfər idi. Yaşayış məntəqəsi **23 aprel 1994-cü il** tarixdə ermənilər tərəfindən işğal edilmiş, 2020-ci ilin noyabrında azad edilmişdir. *Nəmirli* yaşayış məntəqəsi ***qaramanlı*** tayfasının ***nəmirli*** tirəsinin burada məskunlaşması ilə əlaqədar yaranmış və həmin tirənin adı ilə də adlanmışdır.

Novruzlu – Seyidli inzibati ərazi vahidində kənd. Əhalisinin sayı 2300 nəfər idi. ***Novruzlu*** yaşayış məntəqəsi ***mərzili*** tayfasının ***novruzlu*** tirəsinin adı ilə əlaqədar olaraq belə adlanmışdır.

Orta Güneypəyə – Ağdam rayon mərkəzindən 29 kilometr şimal-qərbdə, Orta Güneypəyə inzibati ərazi vahidində kənd. Yaşayış məntəqəsi **12 mart 1992-ci il** tarixdə ermənilər tərəfindən işğal olunmuşdu. ***Orta Güneypəyə*** oykonimi ***orta***, ***güney*** və ***pəyə*** sözlərindən ibarətdir.

Orta Qərvənd – Qərvənd inzibati ərazi vahidində, rayon mərkəzindən 17 kilometr şimalda, dağətəyi ərazidə yerləşir. ***Orta Qərvənd*** kəndi ***Baş Qərvənd*** ilə ***Ayaq Qərvənd*** kəndləri arasında (*onların ortasında*) yerləşdiyi üçün oykonimin adının əvvəlinə ***orta*** sözü əlavə edilmişdir. Yaşayış məntəqəsi əvvəllər həm digər ***Qərvənd*** kəndlərindən fərqləndirilmə baxımından, həm də *Şıxlar* kəndinin yaxınlığında yerləşdiyindən ***Şıxlar Qərvənd*** də adlanmışdır. Orta Qərvənd kəndi **26 aprel 1994-cü il** tarixdə ermənilər tərəfindən işğal olunmuşdu. 2020-ci ilin noyabrında kənd erməni işğalçılarından azad edilmişdir. ***Qərvənd*** toponimi ***kəbirli*** tayfasının ***Qərvənd*** qolunun adını özündə əks etdirir.

Orta Qışlaq – Üçoğlan inzibati ərazi vahidində, rayon mərkəzindən 20 kilometr şərqdə kənd. Əhalisinin sayı 700 nəfər idi. Yaşayış məntəqəsinin adını bəzən sənədlərdə ***Ortaqışlaq*** şəklində də yazırlar. ***Orta Qışlaq*** yaşayış məntəqəsi ***kürdmahmudlu*** tayfasının burada məskunlaşması ilə əlaqədar yaranmışdır. Kəndin ərazisində keçmişdə həmin tayfanın qışlağı olmuşdur. Bu yaşayış məntəqəsi ***Ayaq Qərvənd*** və ***Orta Qərvənd*** kəndlərinin arasında yerləşdiyinə görə belə adlanmışdır.

Papravənd – Ağdam rayonunda, Papravənd inzibati ərazi vahidində, rayon mərkəzindən 20 km şimalda yerləşən kənd. Əhalisinin sayı 1200 nəfər idi.. Yaşayış məntəqəsi **26 iyun 1993-cü il** tarixdə ermənilər tərəfindən işğal olunmuşdu. 2020-ci ilin noyabrında kənd erməni işğalçılarından azad edilmişdir. Oykonim öz adında ***kolanı*** tayfasının ***papravənd*** tirəsinin adını əks etdirir. *Kolanılar* Azərbaycanda yaşayan qədim türk tayfasıdır.

Pərioğlular – Ağdam şəhər inzibati ərazi vahidində kənd. Əhalisinin sayı 700 nəfər idi. Yaşayış məntəqəsi **23 iyul 1993-cü il** tarixdə ermənilər tərəfindən işğal edilmişdi. 2020-ci ilin noyabrında kənd erməni işğalçılarından azad edilmişdir. *Pərioğlular* (bəzən kəndin adına sənədlərdə ***Pərioğullular*** şəklində də rast gəlmək olur) yaşayış məntəqəsi ***kəbirli*** tayfasının ***pərioğlular*** tirəsinin burada məskunlaşması nəticəsində yaranmışdır.

Pirzadlı – Bağbanlar inzibati ərazi vahidində kənd. Əhalisinin sayı 480 nəfər idi. ***Pirzadlı*** yaşayış məntəqəsi **4 iyul 1993-cü il** tarixdə ermənilər tərəfindən işğal olunmuş, 2020-ci ilin noyabrında azad edilmişdir. ***Pirzadlı*** yaşayış məntəqəsi ***kəbirli*** tayfasına mənsub olan ***pirzadlı*** tirəsinin adı ilə əlaqədar yaranmışdır.

Poladlı – Qasımlı inzibati ərazi vahidində, Qarqar çayının sahilində yerləşən kənd. Əhalisinin sayı 650 nəfər idi. Yaşayış məntəqəsi **23 iyul 1993-cü il** tarixdə ermənilər tərəfindən işğal edilmişdi. 2020-ci ilin noyabrında kənd erməni işğalçılarından azad edilmişdir. ***Poladlı*** yaşayış məntəqəsi ***şahsevən*** tayfasına mənsub olan ***poladlı*** qolunun adı ilə bağlıdır.

Salahlı Kəngərli – Boyəhmədli inzibati ərazi vahidində, Xaçın çayının sahilində yerləşən kənd. Əhalisinin sayı 580 nəfər idi. *Salahlı Kəngərli kəndi* **29 yanvar 1994-cü il** tarixdə ermənilər tərəfindən işğal olunmuş, 2020-ci ilin noyabrında işğalçılardan azad edilmişdir. Toponim ***qazax*** türk tayfasına mənsub olan *salahlı* və kəngərli tayfalarının adı ilə bağlıdır..

Salahsəmədli – Maqsudlu inzibati ərazi vahidində, Qarabağ düzündə yerləşən kənd. Əhalisinin sayı 550 nəfər idi. Yaşayış məntəqəsi **30 iyul 1993-cü il** tarixdə ermənilər tərəfindən işğal edilmiş, 2020-ci ilin noyabrında azad edilmişdir. ***Salahsəmədli*** toponimi bəzən ***Salahsəmədlər*** kimi də tanınan nəsil adını ifadə edir.

Sarıcalı – Sarıcalı inzibati ərazi vahidində yerləşən kənd. Əhalisinin sayı 1250 nəfər idi. Yaşayış məntəqəsi **23 iyul 1993-cü il** tarixdə ermənilər tərəfindən işğal edilmişdi. 2020-ci ilin noyabrında kənd erməni işğalçılarından azad edilmişdir. Yaşayış məntəqəsinin tam adı ***Sarıcalı Dərgahlısı*** *(Dərgahlı Sarıcalı)* olmuşdur. Kənd ***cavanşir*** tayfasının ***sarıcalı*** (əslində ***sarıcaəlili***) qoluna mənsub olan nəsillərin burada məskunlaşması nəticəsində yaranmışdır.

Sarıhacılı – Seyidli inzibati ərazi vahidində yerləşən kənd. Əhalisinin sayı 2350 nəfər idi. Yaşayış məntəqəsi ***23 iyul 1993-cü il*** tarixdə ermənilər tərəfindən işğal edilmiş, 2020-ci ilin noyabrında azad edilmişdir. ***Sarıhacılı*** yaşayış məntəqəsi ***cavanşir*** tayfasının ***sarıhacılı*** (əslində ***sarıcaəlili*)** qoluna mənsub olan nəsillərin burada məskunlaşması nəticəsində yaranmışdır.

Saybalı – Bağbanlar inzibati ərazi vahidində, rayon mərkəzindən 12 km cənubda yerləşən kənd. Əhalisinin sayı 1950 nəfər idi. Yaşayış məntəqəsi **4 iyul 1993-cü il** tarixdə ermənilər tərəfindən işğal edilmişdi. 2020-ci ilin noyabrında kənd erməni işğalçılarından azad edilmişdir. ***Say*** sözü qədim türk dillərində *"daşlıq, düzənlik, səhra*" anlamındadır. ***Balı -*** *"sığınacaq, qala"* mənasındadır. ***Saybalı*** yer adı relyef əsasında yaranan mürəkkəb toponimdir. Kəndin keçmiş tam ad ***Yuxarı Saybalı*** olub. XIX əsrdə *Yuxarı Saybalı* və *Aşağı Saybalı* adlı iki kənd vardı. Yerli məlumata görə, kəndi vaxtilə Ağcabədi rayonu ərazisində mövcud olmuş *Aşağı Saybalı (Hüseynbəy Saybalısı* da adlanırdı) kəndindən gəlmiş ailələr saldığı üçün yaşayış məntəqəsi də həmin kəndin adı ilə adlandırılmışdır.

Seyidli – Seyidli inzibati ərazi vahidində yerləşən kənd. Əhalisinin sayı 4600 nəfər idi. Kənd **23 iyul 1993-cü il** tarixdə ermənilər tərəfindən işğal edilmişdi. 2020-ci ilin noyabrında kənd erməni işğalçılarından azad edilmişdir. Yerli məlumata görə, ***Seyidli*** yaşayış məntəqəsi son orta əsrdə Qarabağ düzündə yaşamış *seyidli* elatının burada məskunlaşması ilə əlaqədar yaradılmışdır.

Sırxavənd – Sırxavənd inzibati ərazi vahidində, dağətəyi ərazidə yerləşən kənd. Əhalisinin sayı 1100 nəfər idi. Yaşayış məntəqəsi **12 mart 1992-ci il** tarixdə ermənilər tərəfindən işal olunmuş, 2020-ci ilin noyabrında azad edilmişdir. ***Sırxavənd*** kəndini mənşə etibarı ilə Azərbaycanda yaşayan qədim türk tayfalarından olan ***kolanı*** tayfasının ***sırxavənd*** tirəsinə mənsub olan ailələr saldığı üçün o, belə adlandırılmışdır.

Sofulu – Boyəhmədli inzibati ərazi vahidində, rayon mərkəzindən 16 km şimal-qərbdə yerləşən kənd. Əhalisinin sayı 1300 nəfər idi. ***Sofulu*** yaşayış məntəqəsi ***26 iyun 1993-cü il*** tarixdə ermənilər tərəfindən işğal olunmuşdu. 2020-ci ilin noyabrında kənd erməni işğalçılarından azad edilmişdir. 1958-ci ildə kəndin ərazisində, Xaçın çayının orta axarında aparılan arxeoloji qazıntılar zamanı sonralar məşhur Gavurqala adlanan çox qədim tarixə malik böyük bir şəhər tipli yaşayış yeri aşkar edilmişdir. ***Sofulu*** yaşayış məntəqəsi Qarabağda yaşayan kəngərlilərin (*kəngərlərin*) ***sofulu*** tayfasının burada məskunlaşması nəticəsində yaranmışdır.

Suma – Güllücə inzibati ərazi vahidində, Xaçın çayının sahilində yerləşən kənd. Əhalisinin sayı 1400 nəfər idi. Kənd **16 aprel 1994-cü il** tarixdə ermənilər tərəfindən işğal olunmuşdu. 2020-ci ilin noyabrında kənd erməni işğalçılarından azad edilmişdir. Bəzi tədqiqatçıların qənaətinə görə, ***Suma*** toponimi ərəb dilindəki *sövmə* sözünün təhrif formasıdır: ***sövmə*** – *"türbə", "məbəd"* deməkdir. Yaşayış məntəqəsinin ərazisində *Əhmədbaba piri, Güllücə ocağı* və digər sitayiş obyektləri mövcuddur.

Şahbulaq – Maqsudlu inzibati ərazi vahidində yerləşən kənd. Əhalisinin sayı 200 nəfər idi. Şahbulaq yaşayış məntəqəsi ermənilər tərəfindən işğal edilərək vəhşicəsinə dağıdılmışdır. Yaşayış məntəqəsinin adı yaxınlıqdakı eyniadlı qədim bulağın adı ilə bağlıdır. Mənbələrin verdiyi məlumata görə, XVII əsrdə I Şah Abbasın dayandığı (*düşərgə saldığı*) yer və oradakı bulaq ***Şahbulaq*** adlanmışdır.

Şelli – Qasımlı inzibati ərazi vahidində yerləşən kənd. Əhaisinin sayı 830 nəfər idi. Şelli yaşayış məntəqəsi 7 iyul 1993-cü il tarixdə erməni işğalçıları tərəfindən zəbt olunmuş, 2020-ci ilin noyabrında işğalçılardan azad edilmişdir. Bəzi tədqiqatçılara görə, ***Şelli*** toponimi qismən təhrifə uğramışdır. Əslində adı ***Şəlli*** olmalıdır. ***Şelli*** toponimi "*kol-koslu yer*" mənasını ifadə edir. Toponimi erkən orta əsrlərdə yaşamış qədim türk mənşəli ***çor*** (***şor***) tayfasının adı ilə də əlaqələndirirlər. Bu qisim araşdırıcıların fikrincə, ***Şollu*** adı fonetik dəyişikliyə uğrayaraq ***Şelli*** formasını almışdır.

Şıxbabalı – Şıxbabalı inzibati ərazi vahidində kənd. Əhalisinin sayı 1900 nəfər idi. Yaşayış məntəqəsi **4 iyul 1993-cü il** tarixdə ermənilər tərəfindən işğal edilmiş, 2020-ci ilin noyabrında azad edilmişdir. Kəndin keçmiş adı ***Pərioğlular*** olub. Yaşayış məntəqəsi ***kəbirli*** tayfasının ***pərioğlular*** tirəsinin burada məskunlaşması nəticəsində yaranmışdır. Kənddə *Şıxbabalı* adlı qədim türbə var, bəzi araşdırıcılar da kəndin adının həmin türbə ilə əlaqədar yarandığını güman edirlər.

Şıxlar – Qərvənd inzibati ərazi vahidində kənd. Əhalisinin sayı 1800 nəfər idi. ***Şıxlar*** yaşayış məntəqəsi **26 aprel 1994-cü il** tarixdə ermənilər tərəfindən işğal edilmişdi. 2020-ci ilin noyabrında kənd erməni işğalçılarından azad edilmişdir. Toponim *"şeyx nəslindən olanlar"* mənasındadır.

Şirvanlı – Kəngərli inzibati ərazi vahidində, rayon mərkəzindən 10 kilometr şimalda yerləşən kənd. Toponim "*Şirvandan olanlar, şirvanlılar*" mənasındadır.

Şişpapaqlar – Maqsudlu inzibati ərazi vahidində kənd. Əhalisinin sayı 500 nəfər idi. 1993-cü ildə yaşayış məntəqəsi erməni işğalçı qüvvələri tərəfindən zəbt olunaraq talan edilmiş, 2020-ci ilin noyabrında işğalçılardan azad edilmişdir. Yaşayış məntəqəsini ***Şişpapaqlar*** nəslinə mənsub olan ailələr saldığına görə, kənd belə adlandırılmışdır. XIX əsrdə Qarabağda ***şişpapaqlı*** adlı bir el olmuşdur.

Şotlanlı – Nəmirli inzibati ərazi vahidində kənd. Əhalisinin sayı 1500 nəfər idi. Bəzi araşdırıcılar ***Şotlanlı*** oykonimini kürd mənşəli ***şotlanlı*** tayfasının burada məskunlaşması ilə əlaqələndirir.

Şuraabad – Nəmirli inzibati ərazi vahidində kənd. Əhalisinin sayı 1350 nəfər idi. Yaşayış məntəqəsi ***2 aprel 1994-cü il*** tarixdə ermənilər tərəfindən işğal edilmişdi. 2020-ci ilin noyabrında kənd erməni işğalçılarından azad edilmişdir. Kənd Sovet **(***Şura***)** hakimiyyəti illərində salındığı üçün *Şuraabad kəndi* adlandırılmışdır.

Tağıbəyli – Güllücə inzibati ərazi vahidində kənd. Əhalisinin sayı 980 nəfər idi. Yaşayış məntəqəsi **16 aprel 1994-cü il** tarixdə ermənilər tərəfindən işğal olunmuş, 2020-ci ilin noyabrında işğalçılardan azad olunmuşdur. Yaşayış məntəqəsi ***Hacılı*** tayfasının ***tağıbəyli*** tirəsinə mənsub olan ailələrin burada məskunlaşması ilə əlaqədar yarandığı üçün belə adlanmışdır.

Talışlar – Maqsudlu inzibati ərazi vahidində kənd. Əhalisinin sayı 600 nəfər idi. Yaşayış məntəqəsi **30 iyul 1993-cü il** tarixdə ermənilər tərəfindən işğal olunmuş, 2020-ci ilin noyabrında işğalçılardan azad edilmişdir. Tarixdən məlumdur ki, ***qızılbaş*** tayfa ittifaqında yeganə irandilli tayfa olan ***talışlar*** Səfəvilərin hakimiyyətə gəlməsində, Səfəvi dövlətinin möhkəmlənməsində müəyyən rol oynamışlar. Məhz bu xidmətləri müqabilində Səfəvi hökmdarları onlara Azərbaycanın ayrı-ayrı yerlərində "*ölkə*" adı ilə müəyyən ərazilər vermişlər. ***Talışlar kəndi*** XIX əsrdə Cavad qəzasında yaşamış **63** tüstüdən ibarət ***talış*** tayfasına mənsub olan bir qrup ailənin həmin ərazidə məskunlaşması nəticəsində yaranmışdır.

Təpəməhlə – Maqsudlu inzibati ərazi vahidində kənd. Taxılçılıq, heyvandarlıq, üzümçülük, bağçılıq əhalinin məşğul olduğu əsas kənd təsərrüfatı sahələridir. ***Təpəməhlə*** toponimi ***təpə*** və ***məhlə*** sözlərindən ibarətdir. Yaşayış məntəqəsi kəndin malik olduğu coğrafi mövqeyə görə belə adlandırılmışdır.

Tərnöyüt – Göytəpə inzibati ərazi vahidində kənd. Kəndin adı bəzən ***Tərneft*** kimi də yazılır. Əhalisinin sayı 700 nəfər idi. Yaşayış məntəqəsi **26 iyul 1993-cü il** tarixdə ermənilər tərəfindən işğal olunmuş, 2020-ci ilin noyabrında işğalçılardan azad edilmişdir. Orta əsrlərdə Qarabağda xəzərlərin Kəbər, Bizal, Qaraçur və s. tayfaları ilə yanaşı ***Tərnə*** (***Tərnəvüt***) tayfasının da yaşaması məlumdur. Bir məlumata görə, ***Tərnöyüt*** toponimi xəzərlərin ***tarna*** *(****tərnə****)* tayfasının adı ilə bağlıdır. Tarixdən məlumdur ki, *xəzərlər* hələ erkən orta əsrlərdə Azərbaycan ərazisində məskunlaşmışdılar. Oykonimin tərkibindəki ***-ut*** (***-üt***) komponenti türk dillərində cəm bildirir. Toponim "*tarnalar*" mənasındadır.

Tillər – Ağdam rayonunda, Qarabağ düzündə yerləşən kənd. Əhalisinin sayı 850 nəfər idi. Əhali əsasən üzümçülük, heyvandarlıq və taxılçılıq ilə məşğul olurdu. Kənd **23 iyul 1993-cü il** tarixdə ermənilər tərəfindən işğal olunmuş, 2020-ci ilin noyabrında işğalçılardan azad edilmişdir. Yerli məlumata görə, ***Tillər*** yaşayış məntəqəsinin adı nəsil adı ilə bağlıdır. Bu mənada oykonimi patronimik toponim hesab etmək olar. ***Til*** sözünün *"sulu torpaq", "qızıl"* və s. anlamları da var. Oykonimin tərkibindəki ***-lər*** şəkilçisi cəmlik ifadə edir.

Tükəzbanlı – Maqsudlu inzibati ərazi vahidində kənd. Əhalisinin sayı 200 nəfər idi. Əhali əsasən üzümçülük, heyvandarlıq və taxılçılıq ilə məşğul olurdu. Kənddə məktəb, kitabxana, klub, tibb məntəqəsi, ticarət obyekti və s. vardı. Yerli məlumata görə, kəndi həmin rayondakı Maqsudlu kəndindən çıxmış ***Tükəzban*** adlı qadın və onun övladları saldığı üçün yaşayış məntəqəsi də ***Tükəzbanlı*** adlanmışdır.

Umudlu – Nəmirli inzibati ərazi vahidində, dağətəyi ərazidə yerləşən kənd. Əhalisinin sayı 300 nəfər idi. Əhali əsasən tütüncülük, üzümçülük, heyvandarlıq və taxılçılıq ilə məşğul olurdu. Yaşayış məntəqəsi **23 aprel 1994-cü il** tarixdə ermənilər tərəfindən işğal olunmuş, 2020-ci ilin noyabrında işğaldan azad edilmişdir. ***Umudlu*** toponimi mənşə etibarı ilə ***kolanı*** tayfasının ***umudlu*** *(umudlar)* tirəsinin burada məskunlaşması nəticəsində yaranmışdır. Kənd keçmişdə *Umudlu Kolanısı* kimi də tanınırdı.

Yeni Qaralar – Rayon mərkəzindən 25 kilometr şimal-qərbdə, dağətəyi ərazidə yerləşən kənd. Əhalisi əsasən heyvandarlıq, taxılçılıq, üzümçülük, bostançılıq ilə məşğul olurdu. ***Qaralar*** toponimi "*Qaranın nəsli*", "*Qaranın nəslindən olanlar*" anlamındadır. Bu nəslə mənsub olanlar, görünür, vaxtilə yaşadıqları ***Qaralar*** adlı kənddən çıxaraq ***Yeni Qaralar*** adlı yaşayış məntəqəsini yaratmışlar.

Yusifcanlı – Yusifcanlı inzibati ərazi vahidində kənd. Kəndin əhalisinin sayı 2500 nəfər idi. **Yusifcanlı** yaşayış məntəqəsi **12 iyun 1993-cü il** tarixdə ermənilər tərəfindən işğal olunmuş, 2020-ci ilin noyabrında işğaldan azad edilmişdir. ***Yusifcanlı*** toponiminin əsasını ***Yusifcan*** şəxs adı təşkil edir. Yerli məlumata görə, XVI əsrdə bina edilən bu kənd ***Yusif*** *(Usub)* və ***Yusifcan*** *(Usubcan)* adlı qardaşlar tərəfindən salınmışdır.

İbrahimxəlil xanın türbəsi

Qutlu Musa oğlu türbəsi

Ağdam Cümə məscidi

Çay evi. İşğaldan əvvəl

Çörək muzeyi. İşğaldan əvvəl

Çay evi. İşğaldan sonra

Çörək muzeyi. İşğaldan sonra

İmarət. İbrahimxəlil xanın türbəsi

Panahəli xanın sarayı

Ağdam şəhəri. İşğaldan sonra

Leylatəpə yaşayış yeri



Şahbulaq qalası

Xurşidbanu Natəvanın qəbirüstü abidəsi

FÜZULİ RAYONU

(RAYON HAQQINDA ÜMUMİ MƏLUMAT)

Füzuli rayonu Qarabağ dağ silsiləsinin cənub-şərq ətəklərindən Araz çayına qədər olan maili düzənlik və alçaq sahələri əhatə edir. Rayon Cəbrayıl, Xocavənd, Ağcabədi, Beyləqan rayonları və Araz çayı boyunca İran İslam Respublikası ilə həmsərhəddir. Füzuli rayonunun ilkin adı ***Qarabulaq*** (1827) olub. Burada vaxtilə Rusiyadan sürgün olunmş molokanlar da yaşadıqları üçün rayon qeyri-rəsmi olaraq bir müddət ***Molokan*** da adlandırılmışdır. Rayon ərazisi uzun illər Cəbrayıl qəzasının tərkibində olmuşdur. Sonralar rayon çar polkovniki P.Qaryaginin (P.Karyagin) şərəfinə ***Qaryagin*** adlandırılmışdır. Rayon bir müddət inqilabçı-bolşevik Bünyad Sərdarovun şərəfinə ***Sərdar*** adlanmış, az sonra Qaryagin adı yenidən bərpa edilmişdir.

İnzibati ərazi vahidi kimi 8 avqust 1930-cu il tarixdə təşkil edilən və müxtəlif adlarla adlandırılan rayon 1959-cu ildən dahi şair ***Məhəmməd Füzulinin*** adını daşıyır. Rayonun ərazisi 139 000 hektar, əhalisinin sayı 130 000 nəfər idi. Rayonda 2 şəhər (Füzuli və Horadiz), 76 kənd və ya başqa yaşayış məntəqələri vardır. Füzuli rayonunun ən iri yaşayış məntəqələri Füzuli şəhəri, Horadiz şəhəri, Böyük Bəhmənli kəndi, Horadiz və Qacar kəndləridir. Rayonun ərazisindən axan Köndələnçay, Quruçay, Qozluçay, Çərəkən çayları Araz hövzəsinin çaylarıdır.

İqlimi: mülayim-isti, yarımsəhra və quruçöl;

İllik yağıntı: 400 – 600 mm;

Torpaq sahələri: boz, çəmən-boz, dağ-şabalıdı, dağ boz-qəhvəyi və s.

Suvarılan torpaqları: 25 000 hektar;

Dəniz səviyyəsindən hündürlüyü: 200 – 1200 metr;

Heyvanları: oxlu kirpi, dovşan, qumsiçanı, tarlasiçanı və s.

Quşları: turac, qırqovul, kəklik, sığırçın, göyərçin və s.

Əsas kənd təsərrüfatı sahələri: üzümçülük, heyvandarlıq, pambıqçılıq, baramaçılıq, quşçuluq, taxılçılıq.

Azərbaycanın qorunan memarlıq abidələrinin siyahısını bəzəyən Əhmədalılar (Arğalı) türbəsi (XIII əsr), Babı türbəsi (1273-cü il), Mirəli türbəsi (XIV əsr), Hacı Qiyasəddin məscidi (1682-ci il), Karvansara (1684-cü il), Qoçəhmədli məscidi (XVIII əsr) və daha neçə-neçə qədim abidələr Füzuli rayonunun ərazisindədir.

Füzuli rayonu (*Füzuli şəhəri*) ***23 avqust 1993-cü il*** tarixdə erməni silahlı birləşmələri tətəfindən işğal edilmişdi. Birinci və İkinci Qarabağ müharibələrində ən çox şəhid bu rayonunun ərazisində (*I Qarabağ müharibəsində ümumilikdə 6500 nəfər; 44 günlük II Qarabağ müharibəsində 1400 nəfər*) vermişik. Rayonun ümumilikdə 980 şəhidi, 90 nəfər itkini vardır. 1994-cü ilin əvvəllərində Horadiz qəsəbəsi və rayonun 17 kəndi erməni işğalından azad edilmişdir. ***17 oktyabr 2020-ci il*** tarixdə Füzuli şəhəri düşməndən azad olunmuşdur. Hazırda bu yerlərdə həyat yeni vüsət almışdır.

RAYONUN YAŞAYIŞ MƏNTƏQƏLƏRİ

Alxanlı – Köndələnçayın sol sahilində, Füzuli-Beyləqan şosse yolu kənarında, düzənlik ərazidə yerləşən kənd. Adı bəzən sənəd və materiallarda ***Alıxanlı*** kimi də yazılır. Kəndin ümumi uzunluğu 12 kilometrdir. Əhalisi 2000 nəfərdir. Kənd əhalisi əsasən üzümçülük, taxılçılıq, heyvandarlıq, bostançılıqla məşğul olur. Yaşayış məntəqəsi 1993-cü ildə erməni silahlı birləşmələrinin hücumu nəticəsində işğal edilsə də, bir neçə aydan sonra (*1994-cü ilin əvvəllərində*) Azərbaycan ordusunun əks-hücumu nəticəsində işğalçılardan azad olunmuşdur. ***Alxanlı*** yaşayış məntəqəsi XVIII əsrdə Qarabağa köçüb gəlmiş kəngərlilərin ***əlixanlı*** tirəsi tərəfindən salınmış və tirənin adı ilə də ***Alxanlı*** (*Alıxanlı*, *Əlixanlı*) adlanmışdır. Bəzi tarixi sənədlərə görə, Qaraqoyunlu hakimi Qara Yusifin sərkərdələrindən birinin adı ***Alı xan*** olmuşdur. Yerli məlumata görə, oykonim həmin ***Alı xanın*** adı ilə bağlıdır. Kəndi XVIII əsrin ortalarında Qarabağ xanı Pənahəli xanın Naxçıvan ərazisindən Qarabağa köçürdüyü kəngərlilərin ***alıxanlı*** (***əlixanlı***) tirəsi saldığı üçün həmin ad ilə adlandırılması ehtimalı da mövcuddur.

Arayatlı – Araz çayının sol sahilində, düzənlik ərazidə yerləşən kənd. Əhalisinin sayı 1000 nəfər idi. Kənd XIX əsrə aid sənədlərdə ***Mustafa Sərkarlı*** kimi qeydə alınmışdır. Yaşayış məntəqəsinin ***Arayatlı*** adlanmasını kəndin yerinin vaxtilə iki oba arasında yerləşən yataq olması ilə bağlayırlar. ***Arayatlı*** oykonimi XIII əsrdə Azərbaycana gəlmiş monqolların ***uryat*** tayfasının adını özündə əks etdirir.

Araz Yağlıvənd – Araz çayının sol sahilində, düzənlik ərazidə yerləşən kənd. Əhalisinin sayı 1250 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə erməni silahlı birləşmələri tərəfindən işğal edilmişdisə də, cəmi bir neçə aydan sonra (*1994-cü ilin əvvəlində*) ordumuz tərəfindən işğaldan azad olunmuşdur. 1727-ci ilə aid olan "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı tarixi sənəddə Cavanşir elinin *Yağlıvənd oymağı* ilə bağlı qiymətli məlumatlar verilmişdir. Orada göstərilir ki, bu oymaq Kür çayı kənarında, Xan arxı tərəfdə, eləcə də, Köndələnçayın sahilində, Arasbar (Arazbar) qəzasında – qədim Dəlmə (hazırda Yuxarı Yağlıvəndə bəzən el arasında ***Dəlmə Yağlıvənd*** də deyilir), Cəcirli, Cünan, Kamalkənd, Aral və Həsirkörpü adlanan ərazilərdə qışlayır; İrəvan sərhədində – Güney, Zilxaç, Pərixan və Yaxınlı adlı sahələrdə yaylayırlar. XVIII əsrdə Yağlıvənd oymağı Cavanşir elinin aparıcı oymağı olmuşdur. Bu elin tərkibinə ***6*** müstəqil ***oymaq*** (*4 Yağlıvənd, 1 Gecəgözlü, 1 Seyidəhmədli*) daxil idi. Mənbələrdə göstərilir ki, 1747-ci ildə Aran Qarabağına qayıdan Yağlıvənd oymaqlarının bir hissəsi kələntər Səfi xanın başçılığı ilə əski yurd yerlərində – Arazbarda məskunlaşmışlar. Az sonra Hacı Çələbi xana qalib gələn Pənahəli xan Cavanşir elini parçalayıb, onların yarısını Arazbarda, yarısını Tərtərdə yerləşdirdi. Arazbar *Cavanşir-Dizaq mahalı*, Tərtər isə *Cavanşir mahalı* adlanırdı. Yağlıvənd elatı ***Cavanşir-Dizaq*** mahalının tərkibinə qatıldı. Sonrakı tarixi dönəmlərdə ***Yağlıvənd oymağı*** İbrahimxəlil xanın başçılığı altında qonşu xanlara qarşı savaşlarda iştirak etdi və döyüşlərdə fərqləndi. Qaynaqlar xəbər verir ki, son orta əsrlərdə daimi yaşayış yeri axtaran əhali Araz çayı kənarında xaraba bir yaşayış məskəni olduğunu görüb burada məskunlaşmışdır. Bu da bir məntiqdir ki, özgə tayfalar gəlib burada məskunlaşa bilməzdilər. Deməli, bu ərazidə – ***Araz Yağlıvənd*** kəndinin yerində elə bu yaşayış məntəqəsinin əhalisinin ulu babaları yaşamışlar. Yağlıvənd kəndlərinin sayı (Araz Yağlıvənd (Aşağı Yağlıvənd) və Yuxarı Yağlıvənd kəndləri) onu göstərir ki, Yağlıvənd əhalisi qışlaq və yaylaq həyatı keçirmişlər. Çox güman ki, Araz Yağlıvənd kəndinin yerləşdiyi indiki yerlərdə əvvəllər də yaşayış məntəqəsi mövcud olmuşdur. XIX əsrə aid olan sənədlərdə Cəbrayıl qəzasında maldarlıqla məşğul olan elatlardan biri ***yağlıvənd*** adlanırdı. Tarixi qaynaqlardan məlum olur ki, *Yağlıvənd oymağı* ***Cavanşir*** elinə daxildir. Yağlıvənd oymaqları Cavanşir elinin tərkibində Qarabağ bəylərbəyiliyinin döyüşçü hissələrinin özəyini təşkil edirdilər. Bu oymaq əsasən Qarabağın ***Arasbar*** sancağında, ***Arazbar*** qəzasında qışlayırdı. ***Yağlıvənd***

toponimini "*yağmalanmış*" anlamı ilə də əlaqələndirənlər var. Oykonimin tərkibindəki ***vənd*** terminin "*ev*", "*oba*", "*kənd*", "*zirvə*" mənaları da məlumdur. İran dillərində ***vənd*** sözünün "*nəsil*", "*törəmə*", "*uşağı*" anlamları da vardır. Azərbaycan Respublikasının ərazilərindəki ***Qərvənd, Papravənd, Sırxavənd, Yağlıvənd*** və digər bu tipli yaşayış məntəqələri də ***vənd*** komponenti ilə əlaqədardır. ***Araz*** sözü ***Yağlıvənd*** sözünün əvvəlinə onu eyniadlı başqa yaşayış məntəqəsindən fərqləndirmək üçün əlavə edilmişdir. Yaşayış məntəqəsinə ***Araz*** çayının sahilində yerləşdiyi üçün ***Araz Yağlıvənd kəndi*** adı verilmişdir. Bəzən yaşayış məntəqəsinin adına ***Aşağı Yağlıvənd kəndi*** də deyirlər.

Arış – Qoçəhmədli kənd inzibati ərazi vahidində, Qarabağ silsiləsinin ətəyində, dağlıq ərazidə yerləşən kənd. Əhalisinin sayı 340 (57 ev) nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ilin iyulunda erməni işğalçı qüvvələri tərəfindən zəbt olunmuş, *15 oktyabr 2020-ci il* tarixdə işğalçılardan azad edilmişdir. Xanlıq dönəmində ***Arış kəndi*** xəzinə mülkü olmuşdur. Qarabağ xanı İbrahimxəlil xan kəndi vəliəhdi Məhəmmədhəsən ağaya vermiş, onun vəfatından sonra isə kənd oğlu Böyük xana çatmışdır. 1823-cü ildə kənd Böyük xanın əmlakları arasında göstərilir. Xanlıq dönəmində kənd Dizaq mahalına bağlı idi. Bəzi tədqiqatçılara görə ***Arış*** toponimi türk dillərində "*tayfanın bir hissəsi*", "*arabanın yan qoşqusu*", "*həris*, *acgöz*", "*çovdar*" və s. mənaları ifadə edir. 1993-cü ildə ***Arış kəndi*** erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdi. 15 oktyabr 2020-ci ildə kənd erməni işğalçılarından azad olunmuşdur. Yerli məlumata görə, kəndin qədim adı ***Arınc*** olub. Güman ki, kənd iki dağ arasında yerləşdiyi üçün belə adlanmışdır.

Aşağı Əbdürrəhmanlı – Əhalisinin sayı 1100 nəfər idi. Əhali əsasən üzümçülük və taxılçılıq ilə məşğul olurdu. 18 avqust 1993-cü il tarixdə ermənilər tərəfindən işğal edilmiş, 3 oktyabr 2020-ci il tarixdə işğaldan azad olunuşdur. Kəndi ***Əbdülrəhmanlı*** nəslinə mənsub olan ailələr saldığına görə belə adlandırılmışdır. ***Aşağı Əbdülrəhmanlı kəndi*** keçmiş ***Əbdülrəhmanlı*** kəndinin sonradan yaranmış yeni məntəqəsidir. ***Aşağı*** sözü kəndi eyniadlı digər yaşayış məntəqəsindən fərqləndirmək üçün işlədilir. Tarixi qaynaqlara görə *Əbürrəhmanlı obası* ***Cəbrayıllı*** elinin bir qoludur. Məlumatlara görə ***Əbdürrəhmanlı*** yaşayış məntəqəsi XVIII əsrdə yaşamış böyük nüfuz sahibi olan ***Əbdürrəhman bəy Ağası bəy oğlunun*** adı ilə əlaqədardır. 1823-cü ilə bağlı "*Qarabağ əyalətinin statistik təsviri*" adlı qaynaqda ***Əbdülrəhman bəy*** cəbrayıllılarının 46 tüstü vergi ödəməsini göstərir.

Aşağı Güzlək – Pirəhmədli kənd inzibati ərazi vahidində, Qarabağ silsiləsinin ətəyində yerləşən kənd. Bəzən adını ***Güzdək*** şəklində də yazırlar. Əhalisinin sayı 420 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ilin yayında erməni hərbi birləşmələri tərəfindən işğal edilmişdi. Kənd *9 noyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir. Qədim mənbələrdə adı çəkilən ***lək*** tayfalarını qədim *gel* tayfası ilə əlaqələndirən araşdırıcılar var. Bəziləri ***lək*** sözünü "*hökmran*" anlamı ilə mənalandırır. Adətən çobanlar payızda doğulan quzuya güz deyirlər. ***Güzdək*** oykonimi ***güz*** və ***dək*** komponentlərindən ibarətdir. Fars dilində ***deh*** sözünün "*kənd*" anlamı da var. ***Guz*** toponimi "*dağın gün düşməyən tərəfi kimi*" də mənalandırılır. ***Güzdək*** kəndinin adı türk dillərindəki ***güz*** (***kuz***) "*payız*" və "*yer*, *məkan*" bildirən ***dək*** (***lək***) şəkilçisindən ibarət olub, "*payız otlağı*", "*payız binəsi*" anlamını bildirir.

Aşağı Kürdmahmudlu – Rayon mərkəzindən 30 kilometr şərqdə, düzənlik ərazidə yerləşən kənd. Əhalisi əsasən üzümçülük, baramaçılıq, heyvandarlıq və taxılçılıq ilə məşğul olur. Kəndin adı keçmişdə maldarlıqla məşğul olan ***Kürdmahmudlu*** tayfasının adındandır. ***Aşağı*** sözü kəndi digər eyniadlı yaşayış məntəqəsindən ayırmaq üçün işlədilir. ***Kürdmahmudlu*** oykonimi XVI – XVII əsrlərdə Türkiyənin Van gölündən şərqdə yaşamış, sonralar isə bir hissəsi Cənubi Qafqaza gələn əhalinin bir tayfasının adını özündə əks etdirir. Tarixi bilgilərə görə, *Kürdmahmudlu eli*

Kəngərli elinin bir qoludur. Onların böyük bir hissəsi Füzuli rayonunun ərazisinə XVIII əsrin 50-ci illərində Naxçıvandan gəlmişlər. Ünlü türkçülərdən olan F.Sümər oğuz boylarının adını yazarkən ***kürdmahmudlu*** adını da çəkmişdir. ***Kürdmahmudlu*** yaşayış məntəqəsinin adı ***kəngərli*** bağlılığı olan ***kürdmahmudlu*** tayfası və onların tirələrinin burada məskunlaşması ilə əlaqədardır. Hazırda İran və Türkiyədə ***Kürdmahmudlu*** tirələrinin yaşadıqları çoxlu sayda yaşayış məntəqələri vardır.

Aşağı Rəfədinli – Rayon mərkəzindən 18 km cənubda, Pirəhmədli kənd inzibati ərazi vahidində, dağətəyi düzənlikdə yerləşən kənd. Əhalisinin sayı 450 nəfər idi. Əhali əsasən üzümçülük, heyvandarlıq və taxılçılıq ilə məşğul olurdu. Kənd 1993-cü ilin yayında erməni hərbi birləşmələri tərəfindən işğal edilmişdi. 22 oktyabr 2020-ci il tarixdə kənd erməni işğalçılarından azad olunmuşdur. Yaşayış məntəqəsini XIX əsrdə keçmiş ***Rəfədinli*** kəndindən çıxmış ailələr salmışlar. 1727-ci ilə aid "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı tarixi sənəddə Dizaq nahiyəsinə tabe olan kəndlər sırasında ***Rəfədinli*** kəndinin də adı vardır. Bəzi tarixi sənədlərdə kəndin adı ***Rəfdinli*** və ya ***Ruhudinli*** şəklində də göstərilmişdir. ***Rəfədinli*** obası qədim ***Qaradağlı*** elinin bir qoludur.

Aşağı Seyidəhmədli – Rayon mərkəzindən 16 km cənub-şərqdə, Füzuli-Arayatlı şose yolunun kənarında, Quruçayın sahilindən 3 km aralıda yerləşən kənd. 1993-cü ilin avqustunda erməni işğalçı qüvvələri tərəfindən zəbt edilmişdi. Yaşayış məntəqəsi *21 oktyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad olunmuşdur. 1994-cü ilin yanvar ayından may ayına qədər *Qarabağ müharibəsi* zamanı bu kəndin ərazisində 1000 nəfərə yaxın Azərbaycan əsgəri həlak olmuşdur. Oykonim kəndi salan ***Seyidəhmədli*** nəslinin adı ilə bağlıdır. Qaynaqların verdiyi məlumata görə *Seyidəhmədli* obası ***Hacılı*** icmasına daxildir. 1727-ci ilə aid Osmanlı qaynağında göstərilir ki, ***Cavanşir*** tayfasının Yağlıvənd oymağına bağlı ***Seyidəhmədli*** nəsli Dizaq nahiyəsində, Köndələnçayın yaxasında əkinçiliklə məşğul olur. ***Seyidəhmədli*** **obasının əhalisi** 1842, 1849, 1863, 1873, 1886-cı illərdə dövlət tərəfindən siyahıya alınmışdır. *Seyidəhmədli obası* ***2*** şenliyə - ***Aşağı Seyidəhmədli*** və ***Yuxarı Seyidəhmədli*** kəndlərinə ayrılır.

Aşağı Veysəlli – Rayon mərkəzindən 19 km şimal-şərqdə, Veysəlli kənd inzibati ərazi vahidində, Füzuli-Ağdam şose yolunun 5 kilometriliyində, Qarasu çayının sol sahilində, Mil-Qarabağ düzündə yerləşən kənd. Yaşayış məntəqəsi *20 oktyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir. ***Veysəlli*** toponimi özündə ***Veysəlli*** elinin adını əks etdirir. Oykonimin tərkibindəki ***aşağı*** sözü onu eyniadlı digər yaşayış məntəqəsindən fərqləndirmək üçün işlədilir. Oykonimi XIX əsrin ortalarında Göyçay qəzasında yaşamış ***Veysəlli*** elinin adı ilə bağlayanlar da var. Tarixdən məlumdur ki, ***Otuz iki*** tayfasının ***Veysəlli*** adlı oymağı da olub. Cəbrayıl və Göyçay rayonlarında da ***Veysəlli kəndləri*** vardır.

Ayıbasanlı – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 2 km məsafədə, düzənlikdə yerləşən kənd. Kənd **23 avqust 1993-cü il** tarixdə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdi. Yaşayış məntəqəsi *20 oktyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir. Kəndin əsl adı ***Yuxarı Ayıbasanlı*** olmalıdır. ***Ayıbasanlı*** tirəsi ***Cavanşir*** tayfasına mənsubdur. Kənd Cavanşir tayfasına məxsus olan ***Ayıbasanlı*** tirəsinin burada məskunlaşması nəticəsində yaranmışdır. Oykonimi ***Əyyub Həsənli*** kimi izah etməyə cəhd göstərənlər də vardır. Oykonimin tərkibindəki ***basan*** feli-sifəti "*məğlub edən*", "*qələbə çalan*" mənasındadır. Ölkəmizin ərazisində ***ayı*** heyvan adı ilə adlandırılan oroqrafik terminlərdən düzəlmiş çoxlu sayda oronimlər mövcuddur.

Babı – Füzuli şəhərindən 35 kilometr cənub-şərqdə, Araz çayının sol sahilində, düzənlik ərazidə yerləşir. Əhalisi əsasən heyvandarlıq, taxılçılıq, üzümçülük və baramaçılıq ilə məşğul olur. Kənddə orta məktəb, xəstəxana, poliklinika, elektrik dəyirmanı, uşaq bağçası, rabitə şöbəsi, kitabxana, XIII əsrə aid olan qədim türbə və s. vardır. Bir qisim tədqiqatçılara görə oykonim keçmişdə köçəri həyat tərzi keçirən ***Bavi*** adlı ərəb tayfasının adını özündə əks etdirir. Kənddə *seyfəlilər, hümbətlilər, qürbətlilər, dağşəkililər, usublular, mollalar* və s. tayfa və tirələrin nəsilləri yaşayır. ***Babı*** sözü ərəb dilində "*darvaza*", "*qapı*" anlamını bildirir. Kəndi XIII əsrdə yaşamış böyük nüfuz sahibi, məşhur sufi şeyxi ***Babi Yaqubun*** adı ilə də bağlayanlar var. Kəndin ərazisində ona məxsus olan türbənin bir hissəsi qalmaqdadır.

Birinci Mahmudlu – Rayon mərkəzindən 36 km şərqdə, düzənlikdə yerləşən kənd. ***Birinci Mahmudlu*** oykonimi toponimik cərgə əmələ gətirən İkinci və Üçüncü Mahmudlu kəndlərindən fərqləndirilmək üçün belə adlandırılmışdır. ***Mahmudlu*** kəndləri ***Cavanşir*** elinin ***Köçərli*** oymağından olan ***Mahmudlu*** tayfasının burada məskunlaşması nəticəsində yaranmışdır. ***Mahmudlu*** obasının *Səhliyalılar, Cəfərbəyli, Hacıatalılar, Ələsgərli, İmamverdilər* və s. adlı tayfaları vardır. Qaynaqlardan məlum olur ki, *Mahmudlu obası* ***Hacılı*** icmasına daxildir. 1727-ci ilə aid Osmanlı qaynağında qeyd olunur ki, Köçərli obasından ayrılan ***Mahmudlu*** soyu Dizaq nahiyəsinin Ziyad qışlağında binələmişdir. Həmin mənbədə göstərilir ki, ***Cavanşir*** tayfasının *Köçərli* oymağı Dizaq nahiyəsinin tərkibində olan Kəlli, Zavıcıq və Quru çaylarının kənarında, Çərəkən, Köndələn, Tülyan, Qaradağlı və Ərşə adlı qışlaqlarda əkinçilik ilə məşğul olur, İrəvan əyalətinin Bork adlı ərazisində yaylayırlar.

Böyük Bəhmənli – Rayon mərkəzindəın 45 kilometr cənub-şərqdə, Quruçayın sahilində, Araz çayı sahili yaxınlığında, düzənlik ərazidə yerləşən kənd. Əhalisinin sayı 6 600 nəfər idi. Əhalisinin sayına görə rayonun ən böyük kəndi hesab edilir. Kənd 1993-cü ildə işğal edilsə də, 1994-cü ilin yanvarında erməni işğalından azad edilmişdir. Bir tarixi sənədə görə, ***bəhmənlilər*** XIII əsrdə Hülakü xanın hakimiyyəti zamanı Türküstandan gəliblər. ***Bəhmən*** tayfaları monqol bəlasından ağıllı istifadə edərək soyqırımı hadisəsindən xilas olmuşlar. Onların bir hissəsi olan ***Cavanşirlər*** sonralar Qarabağın dağlıq hissəsinə, ***Qaracığatay*** nəsli isə Şirvana köçmüşdür. Tarixi məxəzlərdən məlum olur ki, əhali burada XIII əsrdən etibarən məskunlaşmışdır. Yerli məlumata əsasən, ***bəhmənli*** elindən bir neçə tirə ***Böyük Bəhmənli*** kəndindən indiki ***Bala Bəhmənli kəndi*** yerləşən əraziyə gələrək burada məskunlaşmışlar. ***Bəhmənli*** elinin cavanşir, sarıcalı və digər tirələrinin nümayəndələri XVIII əsrin 30 – 40-cı illərində Nadir şahın ordusunda yüksək mövqelər tutmuş, qəhrəmanlıqları ilə fərqlənmişlər.

Cəmilli – Rayon mərkəzindən 15 kilometr şimal qərbdə, Qarabağ silsiləsinin ətəyində, Qacar kəndi yaxınlığında, Köndələnçayın sahilində yerləşən kənd. Əhalisi əsasən heyvandarlıq, taxılçılıq, baramaçılıq və üzümçülük ilə məşğul olurdu. ***Cəmilli*** sözü antroponimdir; yəni kənd ***Cəmil*** şəxs adına görə adlandırılmışdır.

Cəyirli – Vaxtilə Arazbar qəzasında, indiki Füzuli rayonunun Seyidmahmudlu kəndi ərazisində qeydə alınan coğrafi ad. 1593-cü ilə aid olan Osmanlı qaynağında göstərilir ki, Arazbarda ***Cəyirli Salqanı*** və ***Çakirli*** adlı kəndlər var. Toponim öz adını ***Cəyirli*** oymağından götürür. ***Cəyirli oymağı*** Qaraqoyunlu boy birliyinə qatılan bir neçə oymaqdan biri idi. Bu oymağın adı qaynaqlarda müxtəlif cür yazılır: ***Cagirlı, Çakurlu, Çaxırlı, Cəgirli, Cəyirli*** və s. Oymaq öz adını ilk başçısı olmuş ***Əmir Cagir*** bəydən almışdır. ***Cəyirli*** oymağının bir hissəsi Ağqoyunlu dövləti yıxılandan sonra şiəliyi qəbul edib Qızılbaşlara qoşuldu. I Şah İsmayıl Səfəvinin adlı-sanlı əmirlərindən biri ***Bəkir bəy Cəyirli*** olmuşdur. O, Şirvanşah Fərrux Yassara qarşı vuruşmada iştirak etmişdir. ***Cəyirli*** oymağının başqa bir hissəsi sünnülük məzhəbində qalaraq Qızılbaşlara

qoşulmadı. Sünnü ***Cəyirli*** oymağının bir hissəsi Qarabağda yerləşmişdi. 1593-cü ilə aid olan Osmanlı "*Təhrir dəftəri*"ndə qeyd olunur ki, ***Cəgirli oymağı*** Kürəkbasan nahiyəsinin Nəhri-Suluk adlı arxın yaxasında sakin idi. Tarixçi A.Təbrizli ***Cəyirli*** oymağından bəhs edərək göstərir ki, guya şah Gəncəni aldıqdan sonra da Gəncə vilayətində bir müsəlman tayfası yaşayırdı və onlar özlərini *el* adlandırırdılar. Bu el ***Cəkirlü*** adı daşıyırdı; onlar sünnülük adlanan Osmanlı etiqadına və dininə riayət edirdilər. Şah əmr verdi ki, onların hamısını sel ağzında yerləşən bir yerə yığsınlar. Buradan çıxan dar cığıra farslar gözətçi qoymuşdular. Cığır getdikcə genişlənirdi, ətraf isə hündür yarğanlardan ibarət idi və buradan çıxıb qaçmaq mümkün deyildi. Şah onların hamısını qılınc ilə doğramaq əmrini verdi. Kişi və qadınları, qoca və uşaqları, hətta azyaşlı cocuqları da qılıncdan keçirib məhv etdilər (*bax: Arakel Davrijedsi. Kniqa istoriy, Moskva, 1973. s. 100*). Arakel Təbrizlinin bu qeydlərinə haqq qazandırmaq bir qədər çətindir. 1727-ci ilə aid olan Osmanlı qaynağında göstərilir ki, heç kimin yaşamadığı bu kənddə Cavanşir tayfasının Seyid Mahmudlu oymağı əkinçiliklə məşğul olurdu. Hazırda Arazbarda, Füzuli rayonu ərazisində ***Cəyirli*** adlı yaşayış məntəqəsi mövcud deyil. Bərdə, Göyçay və Şamaxı rayonlarında da ***Cəyirli*** kəndləri vardır.

Cırğın yurdu – Füzuli bölgəsində yerləşən əski yurd yerlərindən biri də ***Cırğın*** adlanır. Bu yurd yeri vaxtilə Arazbar qəzasında binə bağlamışdı. 1727-ci ilə aid Osmanlı qaynağında yazılır: "Burada kənddə heç kim yaşamır. Dənli bitkilərdən əldə edilən gəlir: 54.000 ağça" (*Bax: Gəncə- Qarabağ əyalətinin müfəssəl dəftəri. "Şuşa" nəşriyyatı. Bakı. 2000. səh. 478*). ***Cırğın*** adının açımı monqolların ***curgen*** tayfasının adı ilə bağlıdır. Tayfa öz başlanığıcını monqolların mifik babası Bodonçar noyondan götürür. Bodonçar noyonun Barin Şıxertu Qabiçi bahadur adlı oğlu vardı. Onun oğlunun adı Bexir bahadur idi. Bexir bahadurun Maxa tudun adlı övladı oldu. Maxa tudundan da Xaçi külük yarandı. Xaçi külügün Xaydu noyon adlı oğlu monqollar arasında məşhur idi. Onun da Bayşinqxor doqşin adlı oğlu vardı. Bu ünlü monqol ağasının Tumbinay seçen adlı oğlu dünyaya gəldi. Tumbinay seçenin Xabul xaqan adlı oğlu monqolların ali rəhbəri idi. Onun oğullarından biri Ogin Baraq adlanırdı. Ogin Baraqın ***Dzoriqtu Cürgen*** adlı oğlu vardı. ***Dzoriqtu Cürgen*** oğulları Seçen bəyi və Taycunu götürüb ulusundan ayrıldı. Bir sulu yurdu özünə mülk edib yaşamağa başladı. Dzoriqtu ağanın ünvanı olan "***cürgen***" sonradan bu tayfanın adına çevrildi. ***Curgenlər*** Çingiz xanın qan qardaşı Van xana xidmət edirdilər. Bu tayfanın tanınmış əmirlərindən olan Acin-Şirun böyük noyonlardan sayılırdı. XIII yüzildə Azərbaycana və İrana gələn monqol ulusunun tanınmış tayfalarından biri ***curgen*** adlanırdı. Arazbara yerləşən ***curgenlər*** yerli şivədə ***cırğın*** kimi tanındı. Bəzi ədəbiyatda *çirkin* kimi də işlənir. ***Curgen*** noyonlarından Nocur Sarıcir Kuday Şirazın darğası olmuşdu. Onun Kökcə, Tuğay, Qutluq Buğa adlı qardaşları, Esudər və Duzbay adlı oğulları vardı.

Cuvarlı – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 6 km cənub-qərbdə, dağətəyi ərazidə yerləşirdi. Əhalisinin sayı 450 nəfər idi. Əhali əsasən üzümçülük, heyvandarlıq və taxılçılıq ilə məşğul olurdu. 17 oktyabr 2020-ci ildə kənd erməni işğalçılarından azad olunmuşdur. Yaşayış məntəqəsinin adındakı Azərbaycanın ***Cuvarlı*** tayfasının qıpçaq dilləri qrupuna məxsus olan ***çuv***, yaxud ***suv*** (***su*** sözünün qədim forması) komponenti Azərbaycan dilində çoxdan arxaikləşmişdir. Əksər tədqiqatçılara görə ***Cuvar*** (***Çuvar***) sözü "*suçu*" deməkdir. Keçmiş zamanlarda Azərbaycanda su bölgüsünə və növbəsinə nəzarət edən şəxslərə ***çuvar*** deyilmişdir. ***Cuvarlı kəndi*** qədim tarixə malik olan yaşayış məntəqələrindəndir. Bir tarixi sənədə görə Qarabağ xanı İbrahimxəlil xanın quşçuları bu kənddə yaşamışlar.

Çimən – Rayon mərkəzindən 5 km cənub-qərbdə, Cuvarlı inzibati ərazi vahidində, dağətəyi sahədə yerləşirdi. 17 oktyabr 2020-ci il kənd erməni işğalçılarından azad olunmuşdur. Bəzən sənədlərdə yaşayış məntəqəsinin adını ***Çəmən*** formasında da yazırlar. Kəndin əhalisinin sayı

300 nəfər idi. Əhali əsasən üzümçülük, heyvandarlıq və taxılçılıq ilə məşğul olurdu. Kəndin əsl adı ***Çəmən*** olmalıdır. Yaşayış məntəqəsi *çəmənlikdə* - yaşıl otlarla əhatələnmiş bir sahədə salındığı üçün belə adlandırılmışdır. XVII əsrə aid bir mənbədə Şərqi anadoluda ***Çimən-Bel dağı***, XVIII əsrə aid olan başqa bir mənbədə İrəvan əyalətinin Dərəçiçək mahalında ***Çimən-Qut kəndi***, İrəvan quberniyasının İrəvan qəzasında ***Çiman kəndi*** (başqa bir adı *Aşağı Qarabağlar* kəndi), Vedi rayonunda ***Çiməndərə kəndi*** və s. bu kimi adlar qeydə alınmışdır. 1727-ci ilə aid olan "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı tarxi sənəddə Dizaq nahiyəsinə tabe olan kəndlər sırasında ***Çimən*** kəndinin adı ***Çimənək*** şəklində yazılmışdır.

Dədəli – Rayon mərkəzindən 3 kilometr cənub-şərqdə, Qarabağ silsiləsinin ətəyində, Füzuli-Cəbrayıl və Füzuli-Horadiz şose yollarının kənarında yerləşən kənd. Əhalisi əsasən heyvandarlıq, taxılçılıq və üzümçülük ilə məşğul olur. 17 oktyabr 2020-ci ildə kənd erməni işğalçılarından azad olunmuşdur. Oykonim Cavanşir elinin ***Dədəli*** tayfasının adı ilə bağlıdır. ***Dədəli oymağı*** Arazbar sancağında yaşayan ***Cavanşir*** elinə bağlı olan bir oymaqdır. Kəndin *hüseynlilər, əlilər, əlifxanlar, xanqulular, əlimərdanlılar, poladlar, qılıcxanlar, mərdənxanlar, gülməhəmmədlilər, imaməlilər, cavanşirlər, allahyarlılar, əzizəlilər, əlibəylilər* və s. tayfa-tirələri vardır.

Dilağarda – Rayon mərkəzindən 14 kilometr şimalda, Qarabağ silsiləsinin ətəyində, Füzuli-Xocavənd şose yolunun 1 kilometrliyində yerləşən kənd. ***Dilağarda*** sözü ilə bağlı rayonda 3 kənd vardır: **Dilağarda, Araz Dilağarda, Qobu Dilağarda**. Kəndin adı Azərbaycanın qədim ***Qaraqoyunlu*** tayfa ittifaqına daxil olan ***Dilağarda*** tirəsinin adı ilə əlaqədardır. Əsasən qoyunçuluq və maldarlıqla məşğul olan dilağardadlılar əvvəllər Cənubi Azərbaycan və Talış zonasında yaşayırdılar. XV əsrin sonlarında onlar Ağqoyunluların zülmünə görə Araz çayını keçib, indiki Füzuli rayonunun ərazisində məskunlaşdılar. Tayfanın müəyyən bir hissəsi də 1820-ci ildə indiki Füzuli rayonunun ***Dilağarda*** kəndində məskunlaşdı. ***Dilağarda obası*** Güney Azərbaycanın *Muğan* çölündə qışlayarmış. Onlar Qarabağa gələndən sonra İbrahimxəlil xan Sarıcalı-Cavanşir ***dilağarda*** elini orta əsrlərdə Dərviş Cəlal, XVIII yüzildə Dərvişbulaq adlanan kəndin ərazisində yerləşdirdi. Hazırda Füzuli rayonundakı 3 Dilağarda kəndindən biri yerli əhali arasında rəmzi də olsa, ***Bulaq Dilağarda*** adlanır. Qaynaqlardan aydın olur ki, *Sultan Cahanşah bəy Baranlı-Qaraqoyunlu* el içindən topladığı özəl qorçu dəstəsini "***dilə-qarde***" ("*qvardiyanın, qəhrəmanlığın qəlbi*") adlandırmışdır. ***Dilağarda obası*** Azərbaycan xalqının etnogenezində mühüm rol oynamış ***Şahsevən*** elinin oymaqlarından biri idi. Mənbələrdən aydın olur ki, bu oymağıın bir hissəsi Talış xanlığının ərazisində, əsasən Alar mahalında məskunlaşmışdır. Öz döyüşkənlikləri, cəsurluqları ilə seçilən ***dilağardalılar*** Talış xanlığı üçün hər hansı bir xarici təhlükənin aradan qaldırılmasında müstəsna rol oynamışlar. Muğanın Cəlilabad bölgəsində ***Dilağarda*** oymağının *Alar, Hüseynxanlı, Fətullahlı, Tərəbaşı, Cahanşahlı, Vəliməmmədli, Göüzbulaq* və s. adlı obaları vardır. Tarixi sənədlərdən aydın olur ki, ***Dilağarda*** oğulları qorxmaz, döyüşkən, mərd olmuşlar. Qarabağ xanlığının siyasi həyatında da ***dilağardalılar*** igidlikləri ilə seçilmişlər. Onlar Rusiya-İran savaşlarında çar qoşunlarına qarşı mübarizə aparmış, döyüşlərdə rus qoşunlarına ciddi ziyan vurmuşlar. 1886-cı ilə aid olan tarixi sənədlərdə ***Dilağarda*** obasının dövlət tərəfindən qeydiyyata alınması və orada 133 tüstünün olması göstərilmişdir. Yaşayış məntəqəsi *9 noyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir.

Divanalılar – Rayon mərkəzindən 16 kilometr şimal-qərbdə, Qacar kəndi yaxınlığında, Qarabağ silsiləsinin ətəyində yerləşən kənd. Yaşayış məntəqəsi *7 noyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir. ***Divanalılar*** toponimi divanalılar tirəsinin adı ilə əlaqədardır. 1727-ci ilə aid olan "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı tarixi sənəddə Körəz nahiyəsinə tabe olan ***Divanalı*** ("Dəftər"də adı ***Divanə Əli*** kimi göstərilir) kəndinin adı da qeyd olunmuşdur. Oykonimin adı bir çox sənəd və materiallarda ***Divanallar***, ***Dvannallar***,

Duvanalılar və s. kimi də öz əksini tapmışdır. Kənddən azacıq yuxarıda cəmi 11 evlik ***Yuxarı Divanalılar kəndi*** də qeydə alınmışdır. ***Divanalılar*** kəndlərinin əhalisi əvvəllər ***Sübhanverdilər*** obasının tərkibinə daxil idilər. Yaşayış məntəqəsinin əvvəlki adı da məhz ***Sübhanverdibəyli*** olmuşdur.

Dördçinar – Rayon mərkəzindən 17 kilometr cənub-şərqdə, Qarabağ silsiləsi ətəyində, Horadiz kənd inzibati ərazi vahidində, düzənlik ərazidə yerləşən kənd. Yaşayış məntəqəsi *20 oktyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir. ***Dördçinar*** yaşayış məntəqəsi qədimdən ***dörd*** ədəd uca çinar ağacı olan ərazidə salındığı üçün belə adlandırılmışdır. Çinarların sayının ***dörd*** olmasına görə kənd ***Dördçinar*** adlanmışdır. XVIII əsrin sonlarında ***Dördçinar*** kəndinə İraqdan bir neçə tirə və nəsil gəlmişdir.

Dördlər – Rayon mərkəzindən 19 km şimalda, Dilağarda kənd inzibati ərazi vahidində, Qarabağ düzənliyində yerləşən kənd. ***Dördlər kəndi*** yaşayış məntəqəsi orada ilk dəfə məskunlaşmış ***dörd*** qardaşın səyi ilə salıdığından belə adlandırılmışdır.

Dövlətyarlı – Rayon mərkəzindən 4 kilometr şimalda, eyniadlı inzibati ərazi vahidində, Köndələnçayın sol sahilində, Qarabağ silsiləsinin ətəyində, Füzuli – Xocavənd şose yolu kənarında yerləşən kənd. Yaşayış məntəqəsi *23 avqust 1993-cü il* tarixdə erməni silahlı birləşmələri tərəfindən işğal olunmuş, *9 noyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir. Kənd ***Dövlətyarlı*** (***dövlət*** sözü ərəb dilində "*var-dövlət, zənginlik*" deməkdir) nəslindən olan ailələr tərəfindən salındığı üçün belə adlandırılmışdır. 1727-ci ilə aid "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*"ndə kəndin adı ***Dövlətyar*** şəklində yazılmış və "*Dəftər*"də bəhs olunan həmin dönəmdə nədənsə kənddə heç kimin yaşamadığı, amma dənli bitkilərdən əldə edilən vergi rüsumunun 9.600 ağça olduğu qeyd edilmişdir. 1728-ci ilə aid olan tarixi məxəzdə İrəvan əyalətinin Şirakel nahiyəsində ***Dövlətyar*** adlı (başqa bir adı ***Tərgül***) kəndin də adı çəkilir.

Əhmədalılar – Rayon mərkəzindən 33 km cənub-şərqdə, Araz çayının sahilində yerləşən kənd. **Əhmədalılar kəndi** 1993-cü ildə erməni hərbçiləri tərəfindən işğal edilmişdi. Yaşayış məntəqəsi 1994-cü ilin əvvəllərində erməni hərbi qüvvələrindən azad edilmişdir. ***Əhmədalılar*** oykonimi "*Əhmədalı nəslindən olanlar, Əhmədalı övladları*" mənasını bildirir. ***Əhməd*** sözü ərəb dilində "*tərifli, tərifə layiq*" mənasını bildirir. Bəzi tarixi sənədlərdə kəndin adı ***Novruzalı*** (***Yüzbaşılı***) ***Sərkarlı*** kimi də göstərilmişdir.

Ələsgərli – Rayon mərkəzindən 7 km şərqdə, Mirzəcamallı kənd inzibati ərazi vahidində, dağətəyi ərazidə yerləşirdi. Yaşayış məntəqəsi *9 noyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir. ***Ələsgərli*** oykoniminin əsasını ***Ələsgər*** şəxs adı təşkil edir. Toponim "*Ələsgərin nəslindən olanlar, ələsgərgillər*" mənasını bildirir. ***Ələsgərli*** toponimi patronimik toponimdir. ***Ələsgərlilər*** Azərbaycan xalqının etnogenezində yaxından iştirak edən hacılıların, mahmudluların bir qolunu təşkil edirlər.

Fioletovka – Rayon mərkəzindən 1,5 kilometr qərbdə, şəhərin yuxarı qərb hissəsində yerləşən yaşayış massivi. Yaşayış məntəqəsi **23 avqust 1993-cü il** tarixdə ermənilər tərəfindən işğal edilmişdi. 4 oktyabr 2020-ci il tarixdə erməni işğalçılarından azad edilmişdir. ***Fioletovka*** yaşayış massivinin adı bəzi tarixi mənbələrdə ***Qızılqışlaq*** kimi də çəkilir. Fioletovka ərazisindəki küçə Rusiyada inqilabi hərəkat xadimi, 1918-ci ilin sentyabrında Bakı Komissarları sırasında güllələnmiş ***İvan Timofeyeviç Fioletovun*** (19.12.1883 – 20.09.1918) adı ilə adlandırılmışdır. Həmin yaşayış massivində XIX əsr Rusiyanın mərkəzi quberniyalarından köçürülmüş rus ailələri (*molokanlar*) də məskən salmışlar.

Füzuli şəhəri – Füzuli rayonunun inzibati mərkəzi olan ***Füzuli şəhəri*** Qarabağ silsiləsinin ətəyində, Köndələnçayın sahilində, maili düzənlikdə, eyniadlı inibati rayonda yerləşirdi. Əhalisinin sayı 25 000 nəfər idi. Şəhərdə 5100 ev, texniki peşə, internat, və bir neçə ümümtəhsil məktəbi, 8 bağça, mərkəzi rayon xəstəxanası, vərəm və dəri-zöhrəvi xəstəlikləri dispanseri, uşaq xəstəxanası, sanitariya-epidemioloji stansiyası, poliklinika, 12 aptek, müəllimlər evi, iki mədəniyyət evi, məişət xidməti evi, Dövlət dram teatrı, xalq teatrı, tarix-diyarşünaslıq müzeyi, şahmat məktəbi, musiqi məktəbləri, üç nəqliyyat müəssisəsi, tikinti tresti, dəmir-beton məmulatı zavodu, daş karxanası, asfalt zavodu, 5 hamam, 2 su anbarı, tikinti idarələri, bank, rabitə binası, çörək zavodu, bulka zavodu, yağ-pendir zavodu, bulaqlar, kəhrizlər, artezianlar, univermaq, universam, bazar, mehmanxana, maşın təmiri sexləri, ticarət və məişət obyektləri, parklar ("*M. Füzuli*", "*S. Vurğun*", "*B.Sərdarov*" və s.) , toxuculuq fabriki, tikiş fabriki, quşçuluq fabriki, yun tədarükü idarəsi, avtobaza, avtoservis, yanacaqdoldurma məntəqələri, kütləvi kitabxana, yay və qış kinoteatrları, iki min tamaşaçı tutumu olan stadion, bazar, mədəniyyət və istirahət parkı, mehmanxana, məsçid (XIX əsr), on min il yaşı olan Qaraköpəktəpə arxeoloji abidəsi, bir neçə tarixi-memarlıq abidələri, 3 qəbiristanlıq, dəyirman, yaraşıqlı, tarixi binalar, onlarla ticarət-iaşə obyektləri və s. vardı. Şəhərin ərazisindən 3 çay (*Köndələnçay, Quruçay, Çərəkən çayı*) və bir böyük arx axır. Eyniadlı rayonun inzibati mərkəzi olan Füzuli şəhərinin qədim adı ***Qarabulaq*** (1827) olub. XIX əsrin 30-cu illərinin əvvəllərində çar hökumətinin köçürmə siyasəti nəticəsində mərkəzi quberniyalardan köçürülən molokanlar Zəngəzur qəzasının Bazarçay kəndində yerləşsələr də, çəyirtkə onların məhsullarını tələf etdiyi üçün sonralar onlar kütləvi şəkildə ***Qarabulaq kəndi*** ərazisinə gələrək burada məskunlaşmışlar. Bundan sonra yaşayış məntəqəsi bir müddət qeyri-rəsmi ***Molokan*** da adlanmışdır. 1905-ci ildə yaşayış məntəqəsi XIX əsrin əvvəllərində Rusiya-İran müharibəsinin iştirakçısı, çar ordusunun polkovniki Pavel Karyaginin (*Qaryaginin*) şərəfinə ***Karyagin*** (***Qaryagin***) adlandırılmışdır. Tarixi sənədlərdən aydın olur ki, Sovet hakimiyyəti illərində rayon (eləcə də şəhər) az bir müddət məşhur inqilabçı Bünyad Sərdarovun şərəfinə ***Sərdar*** da adlandırılmışdır. Sonralar rayona, eləcə də şəhərə yenidən ***Qaryagin*** adı verilmişdir. 2 aprel 1959-cu il tarixdə rayonun və şəhərin adı dəyişdirilərək Azərbaycanın dahi şairi Məhəmməd Füzulinin (1494 – 1556) şərəfinə ***Füzuli*** adlandırılmışdır. ***Füzuli şəhəri*** I Qarabağ müharibəsi zamanı - *23 avqust 1993-cü il* tarixdə erməni hərbi birləşmələri tərəfindən işğal edilmişdi. *17 oktyabr 2020-ci il* tarixdə ***Füzuli şəhəri*** erməni işğalçılarından azad olunmuşdur.

Gecəgözlü – Rayon mərkəzindən 7 km cənub-şərqdə, dağətəyi düzənlikdə yerləşən kənd. Yaşayış məntəqəsi *21 oktyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir. ***Gecəgözlü obası*** *Cavanşir* elinin *Yağlıvənd* oymağına bağlı olub. XVIII əsrin II yarısında o, Yağlıvənd oymağından ayrılıb. *Seyidəhmədli* və *Mahmudlu* obaları ilə birləşərək ***Hacılı*** camaatını yaradıb. XVIII əsrə aid Osmanlı qaynağında bildirilir ki, gecəgözlülər Dizaq nahiyəsində, Köndələnçaydan ayrılan Çərəkən arxının kənarında əkinçilik ilə məşğul olur, vaxtlı-vaxtında vergi ödəyirlər. ***Gecəgözlü*** obasının əhalisi 1842, 1849, 1863, 1873, 1886-cı illərdə dövlət tərəfindən siyahıya alınmışdır. 1870-ci il islahatından sonra onların məskunlaşmalarını təxmin etmək olar. Həmin dönəmə qədər onlar Füzuli şəhərindən 40 kilometr cənub-şərqdə, Araz çayı kənarında, Xan arxı deyilən yaşayış yerində, qışlaqlarda məskən salmışlar. Gecəgözlülərin hazırda dəfn mərasimlərini keçirdikləri Şirvan ata adı ilə məşhur olan qəbiristanlıqları da *Xan arxı* deyilən ərazidədir. 1727-ci ilə aid olan Osmanlı qaynağında ***Gecəgözlü oymağı*** Arazbarda, Araz çayı kənarında göstərilir. ***Gecəgözlü kəndi*** Yeənbəyli və Şərifbəyli kəndlərindən 3 kilometr cənub-şərqdə, ərazinin Əbdürrəhmanlı üzündə, *Kələsər yeri* deyilən sahədə olmuşdur. ***Gecəgözlü*** toponimi Qarabağda yaşamış Qarabağ xanlarının mənsub olduqları ***Cavanşir*** tayfasının ***Gecəgözlü*** tirəsinin adı ilə əlaqədardır.

Gorazıllı – Rayon mərkəzindən 15 km cənubda, Qarakollu kənd inzibati ərazi vahidində, Qarabağ silsiləsinin ətəyində, dağətəyi düzənlikdə yerləşən kənd. Yaşayış məntəqəsi *9 oktyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir. Bəzi ehtimallara görə ***Gorazıllı*** kəndinin adı ***Korazıllı*** nəslinin adı ilə bağlıdır. ***Gorazıllı*** oykoniminin ad açımını ***gor*** (*qəbir*) komponenti ilə bağlayanlar var. Yerli məlumata görə kəndin adı ***Gor Rəzi*** ("*Rəzinin qəbri*") adından götürülmüşdür. 1593-cü ilə aid olan Osmanlı qaynağında kəndin adı ***Güzlək***-***Gorrazı*** kimi çəkilir. 1727-ci ilə aid "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı tarixi sənəddə kəndin adı ***Güzlək***-***Gorrazı*** şəklində qeyd edilmişdir. XIX əsrdəki kameral sorğu siyahılarında bu kəndlərin (***Güzlək*** və ***Gorazıllı***) adları hər biri ayrılıqda göstərilmişdir.

Govşadlı – Rayon mərkəzindən 8 km qərbdə, Qarabağ silsiləsinin ətəyində yerləşən kənd. Yaşayış məntəqəsi *9 noyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir. ***Govşatlı*** (əsli ***Gomuşatlı***) kəndi ***Qovşutlu*** nəslinin burada məskunlaşması nəticəsində yaranmışdır. 1727-ci ildə Sultan III Əhmədin fərmanı ilə hazırlanan və "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlanan vergi reyestr dəftərində Arazbar sancağına daxil olan kənd və oymaqların sırasında ***Govşatlı*** (***Göyşatlı***, ***Gavşadlı***) yaşayış məntəqəsinin adına da rast gəlirik. ***Gövşadlı*** yaşayış məntəqəsi ***kovşatlı*** (əsli ***qovşutlu***) nəslinin burada məskunlaşması ilə əlaqədar yaranmışdır. ***Qovşut*** əvvəllər bir çox türk xalqlarında şəxs adı kimi geniş yayılmışdır.

Hacılı stansiyası (*kəndi*) – Rayon mərkəzindən 44 kilometr cənub şərqdə, düzənlik ərazidə yerləşən yaşayış məntəqəsi. 1993-cü ilin payızında erməni hərbçiləri tərəfindən işğal olunan yaşayış məntəqəsi 1994-cü ilin əvvəllərində erməni işğalçı qüvvələrindən azad edilmişdir. İşğal ilə əlaqədar yaşayış məntəqəsinə xeyli ziyan dəymişdir. ***Hacılı*** yaşayış məntəqəsi ***zülqədər*** qızılbaş tayfasının ***hacılı*** tirəsinin burada məskunlaşması nəticəsində yaranmışdır. Türkdilli tayfa olan ***hacılılar*** Qaraqoyunlu dövlətinin siyasi həyatında yaxından iştirak etmişlər. Qaraqoyunluların subetnonimi olan ***hacılılar*** qızılbaş tayfaları ilə də qaynayıb-qarışmışlar. XVIII əsrin ikinci yarısında şahsevən Məmməd xanın başçılığı ilə Ərdəbil əyalətindən Quba xanlığına köçən səkkiz türk tayfası arasında ***hacılılar*** da var idi. XVIII – XIX əsrlərə aid olan tarixi mənbələrdə *Cəbrayıl* elinin 18 oymağı içərisində ***Hacılı*** oymağının da adı çəkilir. ***Hacılı*** oykonimi ***Hacılı*** (***Hacıəlili***) camaatının adı ilə bağlıdır. Tarixdən məlumdur ki, ***Hacılı camaatı*** Cavanşir-Dizaq mahalında qərar tutmuş mühüm obalardan ibarət olub. Qaynaqlardan aydın olur ki, ***Hacılı*** camaatı *Ayıbasanlı, Qorqan, Yağlıvənd, Gecəgözlü, Mahmudlu, Hüseynbəyli, Ələsgərli, Mirzəcamallı, Sarılar, Seyidəhmədli, Comərdli, Şıxılı* obalarının əhalisindən ibarətdir. *Hacılıların* yaşadıqları Cavanşir-Dizaq mahalında əsasən divan (xəzinə) və icma torpaq mülkiyyəti forması mövcud idi. Burada yaşayan obaların əksəriyyəti Cavanşir soylu olduğu üçün xanlıq dönəmində heç bir vergi ödəmirdilər. Rus üsul-idarəsi dönəmində ***Hacılı*** camaatı vergi ödəyənlər cərgəsinə qoşuldu. Bu icmadan olan bəylər isə bütün vergi mükəlləfiyyətlərindən azad idilər. Təkcə Şərif bəydən vergi alınırdı. ***Hacılı*** camaatının qışlaq torpaq sahələri əsasən, *Alaqarğu* və *Arazbarlı* ərazilərində idi. 1823-cü ildə rus hərbi komandanlığı və Qafqaz canişinliyi ilə birlikdə hazırlanmış "*Statistik cədvəl*"də Cavanşir-Dizaq mahalında yaşayan ***hacılılar*** haqqında məlumatlar öz əksini tapmışdır. 1832-ci ildə bütün Qafqazda siyahıyaalınma keçirilsə də, Qarabağda bu, ***hacılı*** elinin nümayəndəsi Mirzə Camal bəy tərəfindən qəsdən bir qədər ləngidildi. Mirzə Camal bəyin komendanta birbaşa təsir etmək gücü var idi. O, əyalətin bəylərinə məsləhət (*tapşırıq*) etmişdi ki, lazımi aydınlaşma almayınca siyahıları məmurlara verməsinlər. ***Hacılı*** camaatının ümumi sayı haqqında xanlıq dönəmində keçirilən siyahıyaalmalar əlimizdə olmadığı üçün XVII əsrin ikinci yarısında aparılan kameral siyahılar əsas tutulur.

Horadiz – rayon mərkəzindən 17 km cənub-şərqdə, düzənlikdə yerləşən kənd. İşğal ərəfəsində əhalisinin sayı 4000 nəfər idi. Əhali əsasən baramaçılıq, üzümçülük, heyvandarlıq və taxılçılıq ilə məşğul olurdu. Kəndin ərazisindən Qozluçay və Dəliçay adlı çaylar axır. *27 sentyabr 2020-ci il* tarixdə ***Horadiz kəndi*** erməni işğalçı qüvvələrindən azad edilmişdir. Horadiz kəndi uzun müddət Arazqırağı zonalarda iri ticarət mərkəzi kimi tanınmışdır. 1593-cü ilə aid olan Osmanlı qaynağında ***Horadiz*** kəndinin də adı çəkilmişdir. 1727-ci ilə aid olan "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı tarixi sənəddə Dizaq nahiyəsinə tabe olan kəndlər sırasında ***Horadiz*** ("Dəftər"də kəndin adı ***Horadis*** şəklində çəkilir) kəndinin də adı qeyd olunmuşdur. Həmin qaynaqda göstərilir ki, kənd əhli osmanlılara ümumilikdə 7000 axça ödənc verirdi. Tarixi sənədlərdə göstərilir ki, XVIII əsrin ikinci yarısında kəndin sahibi *Xələf bəy* olmuşdur. O, Səfəvilər dövlətinin adlı-sanlı əmirlərindən biri idi. Xələf bəyin Bağır bəy, Murtuzaqulu bəy adlı oğlanları vardı. ***Horadiz kəndi*** xanlıq dönəmində general-mayor Məhəmmədhəsən ağa İbrahimxəlil xan oğlu Sarıcalı-Cavanşirə bağlı olmuşdur. 1805-ci ildə Məhəmmədhəsən xan vəfat etdikdən sonra bu yerlər Cəfərqulu xana qalmışdır. 1823-cü ilə aid olan rus qaynağında qeyd olunur ki, ***Horadiz kəndi*** polkovnik Cəfərqulu xana məxsusdur və kənddə vergi ödəyən 20 tüstü var. Kəndxuda Bayraməli bəy, Kərbəlayi Əli bəy və Mahmud bəy vergidən azad olunmuşlar. 1842-ci ildə kəndin əhalisi dövlət tərəfindən siyahıya alınmışdır. Kəndin rəiyyətlərinin əksəriyyəti Cəfərqulu xana bağlı idi. Horadiz sözü irandilli söz olub, ***hor*** ("*od*, *Günəş*, *işıq*") və ***düz*** ("*qala*") sözlərindən ibarətdir. Bu mənada ***Horadiz*** toponimi "*Günəş qalası*" anlamına uyğun gəlir. ***Horadiz*** toponimi ***hor*** (***oura***) komponentindən və vaxtilə Azərbaycan dilində "*istehkam*", "*qala*", "*kənd*", "*möhkəmləndirilmiş şəhər*" mənalarında işlənən dizə sözlərindən ibarətdir. Bəziləri toponimi ***qara*** ("*böyük*") və ***düz*** komponentlərinə ayırır (S.Xəlilov: Horadiz toponimi haqqında mülahizə. Azərbaycan onomastikası problemlərinə həsr olunmuş III elmi-nəzəri konfransın materialları. Bakı, 1990, s. 131). Vaxtilə İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında da ***Horadiz*** adlı kənd olub. ***Horadiz*** oykonimi ***oura*** ("*qala*") və ***dizə*** ("*məskən*", "*qala*", "*yurd*") sözlərinin birləşməsindən əmələ gələrək "*qala kənd*" mənasını daşıyır. Adının tərkibində ***hor*** komponenti iştirak edən toponimlər geniş yayılmışdır. İranda azərbaycanlılar yaşayan ərazidə *Hor düzü* var.

Horadiz şəhəri – Füzuli rayonunda şəhər. 2007-ci ildə bu qəsəbəyə ***şəhər*** statusu verilmişdir. Horadiz şəhəri Füzuli şəhərindən 29 kilometr cənub-şərqdə, Araz çayı sahilində, düzənlik ərazidə yerləşir. Əhalisinin sayı 7500 nəfərdir. Horadizdə orta məktəb, xəstəxana, mədəniyyət evi, klub, uşaq bağçası, doğum evi, dəmiryol stansiyası, limonad sexi, taxıl məhsulları kombinatı, üzüm qəbulu bazası, kənd təsərrüfatı texnikası təmiri müəssisəsi, mədəniyyət və istirahət parkı, stadion, Bakı təcrübə-sınaq zavodunun yerli filialı, müxtəlif ticarət-iaşə obyektləri, yanacaqdoldurma məntəqələri və s. vardır. Bu yaşayış məntəqəsinin adı ("***Oradüz***") irandilli toponimlərdəndir.

Hüngütlü – Qozluçayın sol sahilində, dağətəyi maili düzənlikdə yerləşən kənd. 2020-ci ilin oktyabrında erməni işğalçılarından azad edilmişdir. ***Hüngütlü*** toponimi türk-monqol mənşəli ***hun***, ya da ***onqut*** tayfasının adı ilə bağlıdır. Çox güman ki, yaşayış məntəqəsi monqol işğalı dövründə yaranmışdır. XIII əsr mənbələrində (F.Rəşidəddin) monqollar arasında ***onqut*** tayfasının adı çəkilir. Həmin dövrdə Azərbaycanda xeyli türk-monqol mənşəli tayfalar məskunlaşmışlar. ***Hüngütlü*** oykonimi özbəklər və qırğızlar arasında da geniş yayılmışdır. ***Hüngütlü*** etnotoponimi "*Hunların kəndi*", "*Onqutların kəndi*" mənasındadır. ***Hüngüt*** komponentini bəzən ***Küngüt*** sözü ilə də izah etməyə çalışırlar. Monqol işğallarında iştirak edən türkdilli tayfaların birinin adı ***kingüt*** (***küngüt***) olmuşdur. ***Küngüt*** qədim türk dillərində işlənən ***güng*** sözündən olub, "*saxsı qab, boru düzəldən*" mənasındadır. Cənubi Azərbaycanda, Muğanda ***Hüngüt mahalı*** deyilən əyalət var.

Hüseynbəyli – rayon mərkəzindən 8 km məsafədə, Mirzəcamallı kənd inzibati ərazi vahidində, Qarabağ silsiləsinin ətəyində, düzənlik ərazidə yerləşən kənd. Yaşayış məntəqəsi 1993-cü ilin avqust ayında erməni silahlı birləşmələri tərəfindən işğal olunmuş, *9 noyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir. Yerli məlumata görə, bu yaşayış məntəqəsi XIX əsrdə yaşamış ***Hüseyn*** adlı bir bəyə məxsus qışlaq yerində, əsasən maldarlıqla məşğul olan ailələrin məskunlaşması nəticəsində yaranan kəndlərdəndir. Başqa bir məlumata görə isə, yaşayış məntəqəsini vaxtilə ***Hüseyn bəy*** adlı şəxs və onun övladları, qohumları saldığına görə belə adlandırılmışdır. ***Hüseynbəylilər*** Hacılı camaatının ***Mahmudlu*** obasındandır. Tarixi mənbələrdən aydın olur ki, ***Hüseynbəyli*** tayfaları ***Cavanşir*** elinin ***Hacılı*** icmasına daxildir.

Xatınbulaq – rayon mərkəzindən 16 km cənubda, Qarakollu kənd inzibati ərazi vahidində, Qarabağ silsiləsinin ətəyində yerləşən kənd. Yaşayış məntəqəsi *14 oktyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir. 1727-ci ilə aid "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" tarixi sənədində ***Xatınbulaq*** kəndinin də adı çəkilir. ***Xatınbulaq*** oykonimi ***Xatın*** sözü ilə ***bulaq*** hidronimik apelyativinin birləşməsindən əmələ gəlmişdir. Toponim "*Xatın bulağı*" anlamını ifadə edir. ***Bulaq*** sözü ilə bağlı Azərbaycan ərazisində *Qızılbulaq dərəsi* (Qax rayonu, Zərnə kəndi), *Qocabulaq dağı* (Şəmkir rayonu), *Korbulaq dərəsi* (Masallı rayonu, Ərkivan kəndi), *Qarabulaq dərəsi* (Şəki rayonu) və s. coğrafi adlar qeydə alınmışdır.

Xələfşə – rayon mərkəzindən 7 kilometr cənub-qərbdə, Cuvarlı kənd inzibati ərazi vahidində, dağətəyi düzənlikdə yerləşən kənd. Kənd ***Xələf şah*** adlı şəxs tərəfindən salındığına görə belə adlandırılmışdır. Azərbaycan dilində ***şah*** titul bildirən söz ilə şəxs adı olan ***Xələf*** sözü birləşərək, ***Xələfşə*** oykonimini əmələ gətirmişdir. Oykonimin sonunda ***h*** səsi düşmüşdür. Bəzi ehtimallara görə oykonim XVIII əsrdə Qarabağ xanının vəkili olmuş ***Mirzə Xələfin*** adı ilə bağlıdır. 1727-ci ilə aid olan "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" qaynağında kəndin adı ***Xələfşahlı*** kimi çəkilir. Bəzi araşdırıcılara görə ***Xələfşə*** (***Xələfşah***) oykonimi dərviş Səfəvi ordeni ilə əlaqədardır.

İkinci Mahmudlu – Rayon mərkəzindən 38 kilometr şərqdə, düzənlik ərazidə yerləşir. 1993-cü ildə erməni işğalçıları bu kəndin yaxınlığına qədər irəliləmiş və nəticədə bu yaşayış məntəqəsi də xeyli ziyan görmüşdür. Yaşayış məntəqəsini ***Mahmudlu*** kəndindən çıxmış ailələr salmışlar. Oykonimin əvvəlinə ***ikinci*** sözü onu rayonda mövcud olan ***Birinci Mahmudlu*** və ***Üçüncü Mahmudlu*** kəndlərindən fərqləndirmək üçün əlavə olunmuşdur. ***Mahmudlular*** XVI – XVII əsrlərdə Türkiyədə Van gölündən şərqdə yaşamış, sonralar onların bir hissəsi Azərbaycana, o cümlədən Füzuli rayonu ərazisinə gələrək burada bir neçə yaşayış məntəqəsi yaratmışlar. Qaynaqlardan məlum olur ki, ***Mahmudlu obası*** *Hacılı* icmasına daxildir. Bu oba ***Cavanşir*** elinin ***Köçərli*** oymağından çıxıb. Qarabağa tabe olan *Köçərli* oymağının *Tayasoyuq* adlı qışlaqları və Qaragüney adlı yaylaqları olmuşdur. Bu obanın bəzi nəsilləri tarixi şəraitdən asılı olaraq sürgün olunmuş və sürgündən qayıtdıqdan sonra ***Hacılı*** icmasının tərkibinə daxil olmuşlar. ***Mahmudlular*** Qarabağ xanlığının siyasi həyatında da mühüm rol oynamışlar. 1842, 1849, 1863, 1873 və 1886-cı illərdə ***Mahmudlu*** obasının əhalisi dövlət tərəfindən siyahıya alınmışdır.

İşıqlı – Rayon mərkəzindən 4 kilometr cənubda, Füzuli-Horadiz, Füzuli-Cəbrayıl avtomobil yolları kənarında, Arazboyu düzənlikdə yerləşən kənd. 23 avqust 1993-cü il tarixdə bu yaşayış məntəqəsi ermənilər tərəfindən işğal olunmuşdu. 17 oktyabr 2020-ci il tarixdə kənd erməni işğalçı qüvvələrindən azad edilmişdir. Kəndi ***işıxlı*** nəslinə mənsub olan ailələr saldığı üçün o, belə adlanmışdır. Güman ki, nəslin adının ilkin forması ***şıxlı*** olmuş, "***i***" səsi adın əvvəlinə sonradan əlavə edilmişdir. Kəndin əksər tayfaları ətraf yaşayış məntəqələrinin adamlarına bəzən danışıq zamanı özlərinə məxsus spesifik şirin müraciət forması olan "*başom*" (çox güman ki, "*başına dönüm*"ün qısaldılmış formasıdır) ifadəsindən istifadə edirlər.

Kərimbəyli – Rayon mərkəzindən 42 kilometr cənub-şərqdə, Araz çayının sol sahilində yerləşən kənd. Yaşayış məntəqəsi 1993-cü ildə erməni hərbi birləşmələri tərəfindən işğal edilmişdisə də, bir neçə ay sonra – 1994-cü ilin yanvar ayında işğaldan azad olunmuşdur. Erməni işğalı nəticəsində kəndə xeyli ziyan dəymişdir. ***Kərimbəyli*** yaşayış məntəqəsi ***Kərimbəyli*** tayfasına mənsub olan ailələrin burada məskunlaşması nəticəsində yaranmışdır. ***Hacılı*** elinin bir qolu olan ***kərimbəylilər*** 1820-ci illərdə Cənubi Azərbaycanın *Qaradağlı* mahalından gəlmişlər. Yerli məlumata görə kəndin əsasını XVIII əsrdə Cənubi Azərbaycandan gəlmiş ***Hacallı*** tayfasına məxsus ***Kərim*** adlı cavan bir oğlan qoymuşdur. Kənd əvvəllər ***Hacallı*** adlanmış, Kərimə bəylik titulu verildikdən sonra ***Kərimbəyli*** adını almışdır.

Kürdlər – Rayon mərkəzindən 7 kilometr cənub-şərqdə, Füzuli-Horadiz avtomobil yolunun kənarında, düzənlik ərazidə yerləşən kənd. Yaşayış məntəqəsi 1993-cü ilin avqustunda erməni hərbi hissələri tərəfindən işğal edilmişdi. Kənd *20 oktyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad olunmuşdur. Kənd əvvəllər bir müddət ***Mehdi bəy Kürdü*** də adlanmışdır. Oykonim ***kürd*** etnonimindən və cəmlik ifadə edən -***lər*** şəkilçisindən ibarətdir. ***Kürdlər*** tirəsinə ***Musanlı*** tayfasında (Ağcabədi rayonu) da rast gəlinir. ***Kürdlər*** – irandilli tayfalardandır.

Qacar – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 13 kilometr şimal-qərbdə, Qarabağ silsiləsinin ətəyində, Köndələnçayın sol sahilində düzənlikdə yerləşən kənd. Yaşayış məntəqəsi *7 noyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir. Kəndin adı Azərbaycanın ağqoyunlu ***Qacar*** tayfasının adı ilə bağlıdır. XIII – XIV əsrlərdə Ön Asiyada *sulduz*, *cəlair* və *tangit* tayfaları əsasında yaranmış qacarların bir qismi əvvəlcə Suriyada yaşamışlar. Sonralar Əmir Teymur və onun oğlu Miranşah qacarları İrana köçürmüşdür. XV əsrdə Qızılbaşların tərkibinə daxil olan ***Qacarlar*** Səfəvilərin hakimiyyətə gəlməsinə yaxından köməklik etmişlər. ***Qacar*** sözü türk ulusunun adı ilə bağlıdır. Hülakülər sülaləsinə mənsub olan Arqun xanın müəllimi Xorasan və Astrabad hakimi Sırtaq Noyan xanın oğlunun adı ***Qacar*** imiş. Onun adı ilə öz qəbiləsi ***Qacar*** adlandırılmışdır.

Qaradağlı – Rayon mərkəzindən 16 km cənubda, Qarakollu kənd inzibati ərazi vahidində, Qarabağ silsiləsinin şərq ətəyində yerləşən kənd. Yaşayış məntəqəsi *14 oktyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir. Kəndin əsası vaxtilə Cənubi Azərbaycanın ***Qaradağ*** mahalından gələnlər tərəfindən qoyulmuşdur. ***Qaradağlı*** oykonimi qızılbaşların qaradağlı tayfasının adı ilə bağlıdır. ***Qaradağlı kəndi*** mənşə etibarı ilə Səfəvilərin hakimiyyət uğrunda mübarizəsində böyük rol oynayan qızılbaşların ***qaradağlı*** tayfasının burada məskunlaşması nəticəsində yaranmışdır. ***Qaradağlılar*** türkdilli tayfa birliyi olan oğuzların ***Kəngərli*** tayfasının ***Qaraxanbəyli*** tirəsindəndir. ***Qaradağlılar*** tarixən *ağqoyunluların*, *səfəvilərin*, *şahsevənlərin*, *qızılbaşların* tərkibində olmuşlar. XVII əsrdə Səfəvi hökmdarı Şah Abbas ***Qaradağlıları*** şahsevənlərlə birlikdə Şimali Azərbaycanın müxtəlif ərazilərinə köçürmüş, Şirvanın hakimlərini də əsasən onlardan təyin etmişdir. Məhz elə bundan sonra da Azərbaycanda ***Qaradağlı*** adlı kəndlər meydana gəlmişdir.

Qaraxanbəyli – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 13 km şərqdə, Füzuli-Əhmədbəyli şose yolu kənarında, Köndələnçayın sahilində, düzənlik ərazidə yerləşən kənd. *27 sentyabr 2020-ci il* tarixdə ***Qaraxanbəyli kəndi*** erməni işğalçı qüvvələrindən azad edilmişdir. ***Qaraxanbəyli*** yaşayış məntəqəsi XVIII əsrin ortalarında Qarabağ xanı Pənahəli xanın Naxçıvandan Qarabağa köçürdüyü *Kəngərlilərin* ***Qaraxanbəyli*** tayfasının burada məskunlaşması nəticəsində yaranmışdır. Tirənin başçısı XVIII əsrin əvvəllərində ***Qaraxan bəy*** adlı bir nəfər olmuşdur.

Qarakollu – Rayon mərkəzindən 13 km cənubda, Qarabağ silsiləsinin ətəyində, Qozluçayın sol sahilində yerləşirdi. Kənd 1993-cü ilin yayında ermənilər tərəfindən işğal edilmişdi. Yaşayış məntəqəsi *14 oktyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir. ***Qarakollu*** kəndinin adı mənbələrdə ***Qarakəlli***, ***Qaragüllü*** şəklində də yazılmışdır. Kəndin əsas əhalisinin *Cəbrayıl* və *Kəbirli* mahallarından gəlmələri ehtimal edilir. Kəndin bəzi tirə və nəsilləri vaxtilə Cəbrayıl rayonu ərazilərindən gələnlərdir.

Qaraməmmədli – Rayon mərkəzindən 7 kilometr şimal**-**qərbdə, Dilağarda kənd inzibati ərazi vahidində, dağlıq ərazidə, Köndələnçayın sahilində, səfalı yerdə yerləşən kənd. Yaşayış məntəqəsi *9 noyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir. ***Qaraməmmədli*** kəndini ***qaraməmmədli*** nəslindən olan ailə və nəsillər saldığı üçün o, belə adlandırılmışdır. Kənd iri mülkədar *Həsənalı bəy Əsgərxanovun* mülkündə yaranmışdır.

Qarğabazar – Rayon mərkəzindən 7 km cənubda, Dədəli kənd inzibati ərazi vahidində, dağətəyi ərazidə, Qarabağ silsiləsinin ətəyində yerləşən kənd. Yaşayış məntəqəsi *20 oktyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir. 1727-ci ilə aid olan "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı tarixi qaynaqda ***Qarğabazar*** kəndinin də adı var. *1886*-cı ildə Tiflisdə tərtib edilmiş arxiv sənədlərində ***Qarğabazar*** kəndində *230* kişinin və *131* qadının (*hamısı müsəlman ailəsi*) yaşadığı göstərilir. Tarixdən məlumdur ki, ***karqa*** (***qarğa***) adlı qədim türk tayfası olmuşdur. Yaşlı adamların dediklərinə görə, rayon ərazisinin həftəlik *bazarı* yaxınlıqdakı *Molokan kəndi* yaranana və genişlənənə qədər (*1826-cı il*) bu kənddə olmuşdur. Adının tərkibində ***qarğa*** komponenti iştirak edən coğrafi adların paralellərinə çox yerdə rast gəlmək olur:

Qayıdış qəsəbəsi – Füzuli rayonunun 20 illik Beyləqan rayonuna icarəyə verilmiş Haramı deyilən torpaqları özünə qaytarıldıqdan sonra, burada hər biri 200 ailəlik 11 qəsəbə salınaraq 2003-cü ildə, köçkün və qaçqınların ixtiyarına verilmişdir. Torpaq islahatına uyğun olaraq həmin sakinlər pay torpaqları ilə təchiz olunmuşlar. Qəsəbədə orta məktəb, kitabxana, uşaq bağçası, müxtəlif çeşidli mağazalar, hamam, tibb məntəqəsi, məişət-iaşə obyektləri və s. var. Qəsəbənin adı köçkünlərin doğma yurda, geriyə ***qayıdışı*** ilə əlaqədar olaraq rəmzi mənada ***Qayıdış*** adlandırılmışdır.

Qazaxlar – Rayon mərkəzindən 34 kilometr cənubda, Araz çayı sahilində, İran İslam Respublikası ilə sərhəddə yerləşən kənd. Yaşayıış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal olunsa da, bir neçə aydan sonra – 1994-cü ilin əvvəllərində işğaldan azad edilmişdir. Yaşayış məntəqəsi öz adında Qazax etnonimini əks etdirir. ***Qazax*** sözünü ilk dəfə IX əsrdə ərəb tarixçisi əl-Kufi VII əsr hadisələri ilə əlaqədar ***Kasak*** kimi işlətmişdir. ***Qazaxlar*** oykonimi özündə *qıpçaq* mənşəli ***qazax*** etnik birliyinin adını əks etdirir. Bəzi tarixi məlumatlara görə ***Qazaxlar obası*** XVIII əsrin ikinci yarısında tarixi şəraitlə əlaqədar olaraq Musa kəndxudanın başçılığı altında Şəmsəddin mahalından gəlmişlər. *Qazaxların* Azərbaycana XI əsrdə köçürülmələrini göstərən tədqiqatçılar da var.

Qərvənd – Rayon mərkəzindən 8 km şimal-şərqdə, Dövlətyarlı kənd inzibati ərazi vahidində, Köndələnçayın sahilində, Qarabağ silsiləsinin ətəyində yerləşən kənd. ***Qərvənd kəndi*** 1993-cü ilin avqust ayında ermənilər tərəfindən işğal edilmişdi. ***27 sentyabr 2020-ci il*** tarixdə ***Qərvənd kəndi*** erməni işğalçılarından azad olunmuşdur. Oykonim ***Cavanşir*** elindən olan ***qəribənd*** tayfasının bir qolunu təşkil edən ***qərvəndlər*** ilə bağlıdır. Qərvəndliləri ***bulqar*** əsilli hesab edənlər də var. ***Qərvənd*** oykonimini ***Gərayvənd*** tayfa adı ilə yozanlar da var. Onlar Qərvəndin ***Gəray*** şəxs adından və İran dillərindəki ***vənd*** (*uşağı, nəsli, töräməsi*) sözündən ibarət olub, "*gəraylılar, gəray*

nəsli, gərayın törəməsi" mənasında olduğunu iddia edirlər. Görkəmli Azərbaycan tarixçi-alimi Süleyman Əliyarlı "*Azərbaycan tarixi*" əsərində ***Vənd*** sözünü adam adı kimi izah edir. O, göstərir ki, m. ö. II əsrdə ***Bulqar Vənd*** özü ilə gətirdiyi adamları Böyük və Kiçik Qafqazın ətəklərində yerləşdirmişdir. Həmin yerlər sonralar onun adı ilə ***Vənd***, yaxud ***Vənənd*** adlandırılmışdır. Çox güman ki, Azərbaycan Respublikasının ərazilərindəki ***Qərvənd, Papravənd, Sırxavənd, Yağlıvənd*** və s. bu kimi yaşayış məntəqələri də həmin ***vənd*** komponenti ilə əlaqədardır...

Qobu Dilağarda – Dilağarda kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 13 km şimalda, Qarabağ silsiləsinin ətəyində, Füzuli-Ağdam şose yolundan 2 km aralıda yerləşən kənd. Kənd 1993-cü ildə erməni hərbi birləşmələri tərəfindən işğal edilmişdi. 9 noyabr 2020-ci il tarixdə kənd erməni işğalçılarından azad olunmuşdur. Qaraqoyunlu qəbiləsinə mənsub olan nəsillərdən biri də ***Dilağarda*** adlanır. Bu coğrafi ad özündə ***Qaraqoyunlu*** kökənli ***Dilağarda*** etnonimini əks etdirir. Bəzi tarixi sənədlərə görə Dilağardalılar XIII əsrdə Azərbaycana gəlmiş monqol-tatarlar qoşunlarının tərkibində olan çoxsaylı tayfalardan biri olmuşdur. ***Dilağarda*** etnonimi 600 ailədən ibarət olan və Cənubi Azərbaycanda yaşayan tayfanın adındandır. Yerli məlumata görə ***Qobu Dilağarda*** yaşayış məntəqəsi XV əsrin 70-ci illərində Ağqoyunluların zülmünə dözməyən ***Dilağarda*** tayfasının Cənubi Azərbaycandan burada məskunlaşması nəticəsində yaranmışdır. Dilağardalıların bir qismi isə XIX əsrin 20-ci illərində buraya gəlmişlər. ***Qobu Dilağarda*** oykonimi "*qobuda məskunlaşmış dilağardalılar*" mənasındadır.

Qoçəhmədli – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 10 km cənubda, Qarabağ silsiləsinin ətəyində, Füzuli-Cəbrayıl şose yolunun 3 kilometriliyində yerləşirdi. 17 oktyabr 2020-ci il tarixdə kənd erməni işğalçı qüvvələrindən azad edilmişdir. ***Qoçəhmədli*** bu kənddə ilkin məskunlaşmış nəslin adıdır. 1593-cü ilə aid Osmanlı qaynağında Dizaq nahiyəsində ***Qoçəhmədli*** kəndinin adı göstərilir. 1727-ci ilə aid olan "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" tarixi sənədində də ***Qoçəhmədli*** kəndinin adı vardır.

Qorqan – Rayon mərkəzindən 11 kilometr şərqdə, Yuxarı Seyidəhmədli kənd inzibati ərazi vahidində, Quruçayın sahilində yerləşən kənd. Yaşayış məntəqəsi 1993-cü ilin avqust ayında erməni hərbi birləşmələri tərəfindən işğal edilmiş, *7 noyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir. ***Qorqan*** sözü "*oddan qorunmaq*" anlamını ifadə edir. Tarixdən məlumdur ki, İranın şimal-şərqində ***Qorqan*** adlı həm vilayət, həm də şəhər mövcud olmuşdur. ***Kor***-***kan*** farsca "*qurd, canavar*", "*canavar yurdu*" deməkdir. ***Qorqan*** yurd yeri kimi orta əsrlərdən bəri mövcuddur. 1593-cü ilə aid mənbədə adı ***Qorqan***-***Butacıq*** kimi yazılır. 1727-ci ildə qışlaq yeri olub. 1865-ci ildə Ayıbasanlı obasından bir neçə ailə köçüb qədim ***Qorqan*** kəndinin ərazisinə gələrək burada məskunlaşmışdır. ***Qorqan obası*** Ayıbasanlı obasının bir qoludur. Son orta əsrlər dönəmində ***Qorqan*** qışlaq yeri olmuşdur. ***Qorqan qışlağı*** Dizaq nahiyəsinə tabe olmuşdur. Xanlıq dönəmində Qorqan qışlağı *Hacılı* icmasının qoyun yatağı olmuşdur. 1873 və 1886-cı illərdə ***Qorqan*** obasının əhalisi dövlət tərəfindən siyahıya alınmışdır. ***Qorqanlılar*** Qarabağın böyük ellərindən olan ***Cavanşir*** elinin ***Hacılı*** icmasının bir qoludur. Qorqanlıları monqol əsilli tayfa kimi qiymətləndirənlər də var. ***Qorqan*** sözündəki ***qor*** "*od*" mənasındadır. ***Qan*** formantı isə etimoloji baxımdan mənaca Azərbaycan dilindəki "*çı, çu, çi, çü*" şəkilçisinə uyğun gəlir. Bəzi araşdırıcılara görə ***Qorqan*** toponimi monqolların tərkibindəki ***kürkan*** türk tayfasının adını özündə əks etdirir. ***Qorqan*** sözünün "*oddan qorunmaq, gizlənmək*" mənası da vardır. Bu toponimə Gültəkin abidələrində də rast gəlirik. ***Kurqan*** sözü Göytürk yazılarından sonra meydana çıxmışdır. Radlova görə şimal və şərq türkləri ***Korqan*** və ***Koriqan***, cənub və qərb türkləri isə ***Kurqan*** adlanırdı. Göytürk yazılarında bu söz ***Kurqan*** şəklində qeyd olunmuşdur. ***Qor*** sözünün "*od*" mənası da var. Qazax dilində ***Qurqan*** sözünün "*oba*" anlamı da vardır.

Mahmudlu – Rayon mərkəzindən 10 kilometr məsafədə, düzənlik ərazidə yerləşən kənd. Yaşayış məntəqəsi 1993-cü ilin avqust ayında erməni silahlı birləşmələri tərəfindən işğal edilmişdi. 7 noyabr 2020-ci il tarixdə kənd erməni işğalçılarından azad olunmuşdur. Qaynaqlardan məlum olur ki, ***Mahmudlu obası*** Azərbaycan xalqının etnogenezində iştirak edən və Qarabağın böyük ellərindən olan ***Hacılı*** icmasına daxildir. Bu oba ***Cavanşir*** elinin ***Köçərli*** oymağından çıxıb. ***Mahmudlular*** Qarabağ xanlığının siyasi həyatında mühüm rol oynamışlar. 1842, 1849, 1863, 1873, 1886-cı illərdə ***Mahmudlu*** obasının əhalisi dövlət tərəfindən siyahıya alınmışdır.

Mandı – Rayon mərkəzindən 17 km cənubda, Pirəhmədli kənd inzibati ərazi vahidində, Qozluçayın sahilində, dağətəyi düzənlikdə yerləşən kənd. Bəzən sənədlərdə yaşayış məntəqəsinin adı Mandılı kimi də yazılır. Kənd 1993-cü ilin avqust ayında erməni silahlı birləşmələri tərəfindən işğal olunmuşdu. Yaşayış məntəqəsi *28 oktyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir. ***Mandı*** oykonimi ilə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur. Yerli sakinlərin dediklərinə görə kənddəki kəhrizə qadınlar orada olan zaman getmək kişilər üçün ***man*** (*eyib*) sayılırmış. Görünür nə vaxtsa kişilərdən bu adəti pozanlar olmuşdur. Toponim də elə məhz bu səbəbdən belə adlandırılmışdır. Vaxtilə kəndin başqa bir adı da ***Alıhüseynuşağı*** olmuşdur. Yerli məlumata görə ***Mandı*** – torpağın adıdır. Qarakollu kəndindən çıxmış ***Alıhüseynli*** (***Əlihüseynli***) adlı bir tayfa çox-çox əvvəllər burada məskunlaşmışdır.

Merdinli – Rayon mərkəzindən 9 km şərqdə, Qaraxanbəyli kənd inzibati ərazi vahidində, Qarabağ silsiləsinin ətəyində, Köndələnçayın sahilində, düzənlik ərazidə yerləşən kənd. Kənd 1993-cü ilin avqust ayında erməni silahlı birləşmələri tərəfindən işğal edilmişdi. Yaşayış məntəqəsi *9 noyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir. Bəzi araşdırıcılara görə ***Merdinli*** nəslinə mənsub olan ailələr bu ərazilərdə çox-çox əvvəllər, hətta orta əsrlər dönəmində yaşamışlar. Şuşa şəhərində *Qutluqçuxur*, *Hacı Yusifli*, *Cuhudlar* məhəllələrinin yaxınlığında ***Merdinlilər*** də vaxtilə məhəllə (*Merdinli məhəlləsi*) salmışlar. XVIII əsrin sonlarında quraqlıq, köçürmə və digər səbəblərdən həmin məhəllənin sakinləri merdinli nəslinə mənsub olan ailələrin yaşadığı indiki ***Merdinli*** kəndinə gələrək məskunlaşmışlar. Tarixi məxəzlərin verdiyi məlumatlardan aydın olur ki, ***merdinlilər*** Cavanşirlərin bir qoludur. Bəzən sənədlərdə bu ada ***Mərdinli*** şəklində də rast gəlinir. Bu da görünür həmin nəslə mənsub olan insanların ***mərd***, igid, qoçaq olduğundan xəbər verir.

Mirzəcamallı – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 6 km şərqdə, Qarabağ silsiləsinin ətəyində, Köndələnçayın sahilində yerləşən kənd. Kənd 23 avqust 1993-cü il tarixdə erməni silahlı birləşmələri tərəfindən işğal edilmişdi. Yaşayış məntəqəsi *9 noyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir. Kəndin adının Mirzəcamallı olmasını "Qarabağ tarixi"nin ("*Qarabağnamə*") müəlliflərindən biri ***Mirzə Camal Cavanşir Qarabağinin*** adı ilə bağlayırlar. Qarabağ xanları nəslindən olan vəzir və tarixçi *Mirzə Camal Cavanşirə* (1773 – 1853) məxsus ailələrin burada məskunlaşması nəticəsində indiki Mirzəcamallı kəndi yaranmış və onun adı ilə adlanmışdır. ***Camal bəy*** Hacılılara bağlanan obada doğulmuşdur. Atası Məhəmmədxan bəy Şuşaya qalabəyi təyin edildikdən sonra onlar Şuşa şəhərinə köçüblər. Bir müddət Divanda katib kimi çalışdığına görə xalq arasında ona "***Mirzə***" – deyə müraciət edirdilər. Molla Pənah Vaqifin ölümündən sonra İbrahimxəlil xan baş vəzir vəzifəsinə divanxana katibi ***Mirzə Camal bəy Gecəgözlü-Cavanşiri*** təyin edir. 1822-ci ildə xanlıq ləğv edildikdən sonra Mizə Camal rus hərbi idarəsi tərəfindən məhkəməyə işə keçirilir. 18 il məhkəmə sistemində işlədikdən sonra ***Camal bəy*** 1840-cı ildə istefaya çıxır. O, tibb elmini gözəl bildiyi üçün ömrünün sonuna qədər adamları həkim kimi pulsuz müalicə edirdi. Onun Qarabağın əksər mahallarında çoxlu mülkü olduğu üçün Mirzə Camal bəyi mülkədar kimi də tanıyırdılar. Zəngin kitabxanası olan *Mirzə Camal bəy* həm də gözəl tarixçi idi.

Mirzənağılı – Rayon mərkəzindən 34 kilometr cənub-şərqdə, Araz çayının sol sahilində, düzənlik ərazidə yerləşən kənd. Kənd 1993-cü ildə erməni silahlı birləşmələri tərəfindən işğal olunsa da, 1994-cü ilin yanvar döyüşlərindən sonra işğaldan azad edilmişdir. İşğalda qaldığı müddətdə kəndə xeyli ziyan dəymişdir. Bu yaşayış məntəqəsini ***Mirzənağılı*** nəslinə mənsub olan ailələr saldığı üçün kənd belə adlandırılmışdır.

Mollaməhərrəmli – Rayon mərkəzindən 33 kilometr cənub-şərqdə, düzənlik ərazidə yerləşən kənd. 1993-cü ildə bu yaşayış məntəqəsi ermənilər tərəfindən işğal edilmişdi. 1994-cü ilin əvvəllərində kənd digər qonşu yaşayış məntəqələri kimi erməni işğalçılarından azad edilmişdir. İşğalda qaldığı müddətdə kəndə xeyli ziyan dəymişdir. ***Mollaməhərrəmli*** yaşayış məntəqəsi XVIII əsrin sonu – XIX əsrin birinci yarısında yaşamış böyük nüfuz sahibi ***Molla Məhərrəm Vəliməmməd oğlu*** adlı şəxs ilə əlaqədardır. Gəncə quberniyasının Qarabulaq nahiyəsinə daxil olan ***Mollaməhərrəmli*** kəndinin adı bir sıra sənədlərdə, xüsusilə XIX əsrə aid sənədlərdə ***Qaratəpə*** kimi göstərilmişdir.

Mollavəli – Rayon mərkəzindən 12 kilometr cənubda, Qoçəhmədli kənd inzibati ərazi vahidində, Qarabağ silsiləsinin ətəyində yerləşən kənd. Mollavəli kəndi ***2 iyul 1993-cü il*** tarixdə erməni işğalçı qüvvələri tərəfindən işğal olunmuşdu. 22 oktyabr 2020-ci il tarixdə kənd erməni işğalçılarından azad edilmişdir. Kəndin əsl adı ***Mollavəlilər*** olmuşdur. Yaşayış məntəqəsi ***Boyəhmədli*** tayfasının ***Mollavəlilər*** tirəsinin vaxtilə burada məskunlaşması nəticəsində yaranmışdır. ***Mollavəli kəndi*** yaşayış məntəqəsi kimi XIX əsrin II yarısında salınsa da, oba yeri kimi adı çox qədimdir. 1593-cü ilə aid olan tarixi qaynağa görə kəndin yerləşdiyi ərazidə əvvəllər də yaşayış məntəqəsi mövcud olmuşdur. Həmin sənədə görə ***Mollavəli*** adı kənd kimi yox, torpaq, yer kimi çəkilmişdir. Yerli məlumata görə, kəndin əhalisi burada XIX əsrdə məskunlaşmışdır.

Molokan – Füzuli rayonunun və şəhərinin əvvəlki adlarından biri ***Molokan*** olub. ***Molokanlıq*** Rusiyada XVIII əsrin 60-cı illərində kəndlilər arasında yayılmış təriqət idi. Sonralar o, kiçik sənətkar və tacirlər arasında da tərəfdarlar qazanmışdır. ***Molokan*** adı XVIII əsrin sonlarında Rusiyanın Tambov vilayətində (*quberniyasında*) təşəkkül tapmış, sonralar ölkənin bir sıra ərazilərinə yayılmış dini təriqət ilə əlaqədardır. Təriqətin banisi Semyon Uklein hesab edilir. ***Molokanlar*** öz dinlərini "*süd kimi pak sözlər*" ("çistoe ***moloko*** slovesnoe") adlandırırlar. Təriqətin adı da elə buradan götürülmüşdür. ***Molokanlar*** pravoslav kilsəsini, kilsə ayinlərini və mərasimlərini tanımır, hər yerdə mövcud olan və bütün canlılara düşüncə verən vahid "*ruh-allaha*" etiqad edirlər. Pravoslavlığa, onun kilsə iyerarxiyasına, ikonalara, rahibliyə və s. müqəddəs əşyalara sitayiş etməyə qarşı olan bu təriqət mənsubları dinin və ictimai həyatın yeganə qaynağının Bibliya olduğunu qeyd edirlər. Onlar Bibliyanı "ruhun tədricən yüksəlməsi və allahı dərk etməsi haqqında ilahi hekayət" kimi başa düşürlər. İbadət edən zaman onlar Bibliyadan psalomlar oxuyurlar. ***Molokançılıq*** feodal təhkimçilik sisteminin böhranı şəraitində kilsə əleyhinə kəndli hərəkatının formalarından biri kimi yaranmışdı. Onlar rəsmən kilsəyə qarşı çıxdıqları üçün çar hökuməti molokanları təqib etmiş, onları müxtəlif ərazilərə sürgünə göndərmişdir. Don kazaklarından fərqli olaraq Krasnodar vilayətinin I və II Armavir üsyançı molokanları Beloreçensk çayı boyunca çar üsul-idarəsinə qarşı daha amansız idilər. Hətta, onlar Nikolayın 300 baş cins atını ələ keçirib onlardan istifadə edirdilər. Bu cür hərəkətlərinə görə çar Nikolay Krasnodar molokanlarının ölkədən qovulmaları haqqında 1821-ci ildə fərman verdi. Bu məqsədlə çar öz yaxın məmuru Stepan Qavrilovu Krasnodara göndərdi, ona molokanların cənuba, isti regionlara, o cümlədən, Azərbaycana köçürülmələri, sürgün edilmələri haqqında tapşırıq verdi. XIX əsrin I yarısında Azərbaycanda

(Qarabağda, Qazaxda, Göyçayda, Şamaxıda) sürgün edilmiş molokanlara aid bir neçə ***Molokan kəndi*** yarandı. Çarizm hər vasitə ilə molokanları yerli müsəlman əhali ilə toqquşdurmağa çalışırdı. 1822-ci ildə ***Qarabulaq*** (Füzuli rayonu) bölgəsinə 46 ***molokan*** ailəsi köçürüldü. Onlar az bir zaman içərisində Soltanbud meşələrindən ağacları doğrayıb araba və atlarla daşıyaraq Qarabağda taxta evlər tikdilər. Yerli əhali də molokanların yaratdıqları şəraitə baxaraq özləri üçün abad evlər tikib oturaq həyata keçməyə başladılar. Bir neçə ilin içərisində yerli qarabulaqlılarla ***molokanlar*** gözəl bir bazar da tikdilər. Mallarını Horadiz, Pirəhmədli, Qarğabazar və Xanlıq kəndlərinin bazarlarında satan tacirlər və digər kənd adamları ***Molokan*** bazarına üz tutmağa başladılar. Şuşaya (*Qalaya*) gedən bəzi İran tacirləri də mallarını burada xırıd etməyə başladılar. ***Molokan* (*Qarabulaq*)** zaman ötdükcə böyüyüb-gözəlləşir, öz görkəmini dəyişirdi. Məhz elə bu baxımdan 1827-ci ildə ***Qarabulaq*** (***Molokan***) şəhər adlandırıldı. El arasında bu şəhər ***Molokan*** adlandırılsa da, rəsmi sənədlərdə adı ***Qarabulaq*** kimi göstərildi. XIX əsrin 80-ci illərində - Cavanşir və Cəbrayıl qəzalarının təşkili ilə əlaqədar ***Qarabulaq*** nahiyə statusu aldı. 1906-cı ildə ***Qarabulağa* (*Molokana*)** 100 il əvvəl I Rus-İran müharibəsində döyüşmüş və qəhrəmanlıqlar göstərmiş polkovnik ***P.Qaryaginin*** adı verilmişdir.

Murğuzlu yurdu – Füzuli rayonunda yurd yeri; rayon mərkəzindən 4 kilometr cənubda, Qarabağ silsiləsinin ətəklərində, Məngələn ata dağının yaxınlığında, Düdükçü və Çimən kəndləri dövrəsində yerləşirdi. Tarixi mənbələrdə ***Murğuzlu yurdu*** adına tez-tez rast gəlirik. ***Murğuz -*** sarı dərili dağ keçisidir. Ehtimal etmək olar ki, həmin ərazilərdə ***murğuz dağ keçisinə*** tez-tez təsadüf edildiyindən toponim belə adlanmışdır. Bəzi araşdırıcılar toponimi taxıllar fəsiləsindən olan və qarğıya oxşayan ***murğuz bitkisinin*** adı ilə əlaqələndirirlər. 1727-ci ilə aid olan "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı tarixi sənəddə ***Murğuzlu kəndinin*** adı çəkilir.

Musabəyli – Rayon mərkəzindən 16 km cənubda, Pirəhmədli kənd inzibati ərazi vahidində, Qozluçay sahilində, dağətəyi düzənlikdə yerləşən kənd. 1993-cü ildə kənd erməni silahlı birləşmələri tərəfindən işğal olunmuşdu. 17 oktyabr 2020-ci il tarixdə kənd erməni işğalçılarından azad edilmişdir. Yaşayış məntəqəsinin əsasını Musabəy adlı şəxs qoyduğu üçün kənd belə adlandırılmışdır. Toponim "*Musabəyin nəslindən olanlar, musabəylilər*" mənasını ifadə edir. ***Musa bəy*** dövrünün nüfuzlu bir şeyxi olmuşdur. ***Şeyx Musa bəy İsmayıl oğlu*** XVIII əsrin sonu – XIX əsrin birinci yarısında yaşamışdır.

Pirəhmədli – Eyniadlı ərazi inzibati vahidində, rayon mərkəzindən 12 km cənubda, Qarabağ silsiləsinin ətəyində yerləşən kənd. Bəzən adına ***Böyük Pirəhmədli*** də deyirlər. Kənd 1993-cü ilin yayında erməni işğalçıları tərəfindən işğal edilmişdi. 17 oktyabr 2020-ci il tarixdə kənd erməni işğalçılarından azad edilmişdir. Yaşayış məntəqəsi ***Yal Pirəhmədli*** kəndindən böyük olduğu üçün yerli əhali kəndi ***Böyük Pirəhmədli*** adlandırmışdır. XVIII əsrə aid olan bir çox tarixi qaynaqlarda, o cümlədən 1727-ci ilə aid "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*"ndə Dizaq nahiyəsinə tabe olan kəndlərin sırasında ***Pirəhmədli*** kəndinin də adı var. XIX əsrdə dövlət tərəfindən həyata keçirilmiş siyahıyaalmalarda ***Pirəhmədli*** kəndinin adı qeydə alınmışdır. Yaşayış məntəqəsi dağ yalında yerləşdiyi üçün keçmiş adı ***Yal Pirəhmədli*** olmuşdur.

Saracıq – Rayon mərkəzindən 14 km cənubda, Qarakollu kənd inzibati ərazi vahidində, Qarabağ silsiləsinin ətəyində yerləşən kənd. Yaşayış məntəqəsi *9 noyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir. ***Saracıq*** toponimi ***saray*** (yəni, *karvansara*) sözündən və -***cıq*** komponentindən ibarət olub, "*kiçik karvansara*" anlamını ifadə edir. Kənd ticarət və karvan yolunun kənarında, kiçik karvansaranın ətrafında salındığına görə belə adlandırılmışdır.

Başqa bir fikrə görə, oykonim türk dillərində "*düzən, çöl, tarla, sahə*" mənalarında işlənən ***sara*** sözündən və -***cıq*** komponentindən ibarət olub, "*kiçik düzən sahə*" mənasını əks etdirir. Mənbələrin verdikləri məlumatlara görə, XIII – XIV əsrlərdə monqollar burada torpağı, suyu və təbiəti yaxşı olduğu üçün qış *sarayları* tikmişlər. 1593-cü ilə aid Osmanlı qaynağında yaşayış məntəqəsinin adı ***Saraycıq*** kimi çəkilir. 1727-ci ilə aid olan "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı tarixi sənəddə də kəndin adı ***Saraycıq*** kimi göstərilmişdir.

Seyidmahmudlu – Rayon mərkəzindən 8 kilometr şərqdə, Mirzəcamallı kənd inzibati ərazi vahidində, Köndələnçayın sahilində, Qarabağ silsiləsi ətəyində yerləşən kənd. Yaşayış məntəqəsi *9 noyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir. Yaşayış məntəqəsi ***Seyidmahmudlu*** adlı nəslin burada məskunlaşması nəticəsində yaranmış və həmin nəslin adı ilə də adlanmışdır. ***Seyid Mahmudlu oymağı*** Cavanşir tayfasının bir qoludur. 1727-ci ilə aid "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri" adlı tarixi qaynaqda bu oymağın Arazbar sancağında qışlaması, Naxçıvan sancağında, Sisyan yaxınlığında yaylaması göstərilir. Həmin mənbəyə görə ***Seyid Mahmudlu oymağı*** Dizaq nahiyəsində, Gülbar adlı çayın kənarında əkinçiliklə məşğul olur, üşr və behrələrini torpaq sahibinə verirdilər.

Sərdarlı – Rayon mərkəzindən 12 kilometr cənubda, Qarabağ silsiləsində, dağətəyi ərazidə yerləşən kənd. Yaşayış məntəqəsi Ərgünəş dağının ətəyində yerləşən Qoçəhmədli, Pirəhmədli və Mollavəli kəndlərinin əhatəsindədir. Kənd 1993-cü ilin yayında erməni silahlı birləşmələri tərəfindən işğal edilmişdi. 17 oktyabr 2020-ci il tarixdə kənd erməni işğalçılarından azad edilmişdir. 1593-cü ilə aid Osmanlı qaynağında ***Sərdarlı*** kəndinin adı çəkilir. XVIII əsrdə - İbrahimxəlil xanın hakimiyyəti zamanı kəndin kovxaları, kəndxudaları Vəliməmməd ağa Teymuraz bəy oğlu və İmamverdi bəy Dostməhəmməd ağa oğlu olmuşdur. 1797-ci ilə aid olan sənədə görə Ağaməhəmməd şah Qacarın hücumu zamanı Qarabağda yandırdığı kəndlərin siyahısında ***Sərdarlı*** kəndinin də adı vardır. Bəzi sənədlərdə kəndin adı ***Sərdərli*** kimi də qeyd olunur. Yaşayış məntəqəsi öz adını el arasında "***sərin dərəli***" komponentinin assimilyasiyaya uğramış ***Sərdərli*** ifadəsindən almışdır. Bəzi ehtimallara görə, kənd XVIII əsrdə Qarabağ xanının vəkili olmuş Mirzə Xələfin oğlu Həsənqulunun mülk yeri olmuşdur. Kəndin bünövrəsini qoyan Həsənqulunun qardaşı İmamqulu isə atasının mülkü olan qonşu ***Xələfşa*** (bəzən ***Xələfşə*** kimi də qeyd edirlər) kəndində yaşayırmış. Həsənqulunun oğlanları Mirzə Məhəmməd və Mirzə Əhməd öz bacıları ilə birlikdə Sərdərlidə yaşamışlar. ***Sərdərli*** kəndinin qonşu Qoçəhmədli, Xələfşə kəndləri ilə qohumluq əlaqələri vardır. ***Sərdərli*** toponimi yerin landşaft komponentini özündə əks etdirir. Bir qisim tədqiqatçılar ***Sərdarlı*** sözünü antroponim kimi – şəxs adı ilə izah etməyə çalışırlar.

Şəkərcik – Rayon mərkəzindən 2 kilometr şimalda, Ayıbasanlı kənd inzibati ərazi vahidində, düzənlik ərazidə yerləşən kənd. Şəkərcik kəndi *23 avqust 1993-cü il* tarixdə erməni silahlı birləşmələri tərəfindən işğal edilmişdi. Yaşayış məntəqəsi *9 noyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir. Yerli məlumata görə bu kənd vaxtilə ***Şəkər*** adlı varlı bir qadının mülkü, bostan yeri olmuşdur. XIX əsrin əvvəllərində Qarabulaqdan olan dövlətli, varlı bir kişi bu yeri pul ilə ondan almışdır. O zamandan həmin ərazi ***Şəkər xanımın bostanı***, ***Şəkərin yeri*** adlandırılmışdır. ***Şəkər*** sözünə "***cik***" hissəciyinin artırılması ərazinin bir qədər kiçik olması ilə əlaqələndirilir. 1593-cü ilə aid olan Osmanlı qaynağında ***Şəkər*** mülk, yurd, torpağın adı kimi çəkilir. Bəzi mənbələrdə ***Şəkərcik*** kəndinin yerləşdiyi ərazinin adına ***Qaraköpək*** formasında da rast gəlirik. Kənd ***Şəkərciklər*** adı ilə məşhurdur. Kəndin adını orta əsrlərdə Qarabağda yaşamış ***Cavanşir*** tayfasına mənsub olan ***Şəkərciklər*** tirəsinin adı ilə bağlayan tədqiqatçılar da vardır.

Şıxımlı – Vaxtilə Füzuli rayonunda, rayon mərkəzindən 7 km qərbdə, Gövşadlı və Üçbulaq kəndləri yaxınlığında, dağətəyi ərazidə yerləşən kənd. Bu kənd 1950-ci illərin sonuna qədər mövcud olmuşdur. Sonralar kəndin nəsil və tirələri müxtəlif yaşayış məntəqələrinə köçürülmüş və beləliklə, müəyyən tarixi hadisələr ilə əlaqədar olaraq kənd dağıdılmış və boşaldılmışdır. Oykonimin tərkibindəki ***şıx*** komponenti "*şeyx*" dini titulu ilə bağlıdır.

Şıxlı – Rayon mərkəzindən 3 km şərqdə, Ayıbasanlı kənd inzibati ərazi vahidində, dağətəyi ərazidə yerləşən kənd. Yaşayış məntəqəsi 23 avqust 1993-cü il tarixdə erməni silahlı birləşmələri tərəfindən işğal edilmiş, *9 noyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad olunmuşdur. ***Şıxlı*** yaşayış məntəqəsinin adı ***Qazax*** tayfasının ***Şıxlı*** tirəsinin adı ilə əlaqədardır. XVIII əsrdə Qazaxların bir hissəsi siyasi hadisələrlə əlaqədar Qarabağa köçərək orada məskunlaşmışlar. Mənbələrdə ***Qazaxlar*** tayfasının mənşəcə ***Xəzərlər*** ilə bağlılığı da əks olunmuşdur. Göründüyü kimi, geniş yayılmış ***Qazax*** etnik birliyinə aid olan etnotoponimlər içərisində ***Şıxlı*** tayfaları da vardır və onlar XVIII əsrin siyasi hadisələri ilə bağlı Qarabağa gələnlərin sırasında olub. XIX əsrdə bu tayfanın adı bəzi mənbələrdə ***Şıxılu*** kimi qeyd edilmişdir. Çox güman ki, Şıxlı tayfası 1537-ci ildə Şəmkirdən Qazax mahalına köçmüş Ağdolaqlı Məhəmməd ağanın oğlu ***Şıxı*** və övladlarının adı ilə bağlıdır. ***Şıx*** oykonimini ***şeyx*** (*dini titul*, eləcə də "*elmli*, *savadlı*" mənasında) kimi yozanlar da var. Şıxlı obasının əhalisi 1842, 1849, 1863, 1873 və 1886-cı illərdə dövlət tərəfindən qeydə alınmışdır.

Şükürbəyli – Rayon mərkəzindən 21 kilometr cənub-şərqdə, Köndələnçay ilə Quruçay arasında, düzənlik ərazidə yerləşən kənd. 1993-cü ildə işğal olunsa da, bir neçə aydan sonra – 1994-cü ilin əvvəllərində erməni işğalçılarından azad edilmişdir. İşğalda olduğu müddətdə kəndə xeyli ziyan dəymişdir. Güman ki, kəndin adı onun ilk sakinlərindən olan ***Şükürün (Şükür bəyin)*** adı ilə bağlıdır. Mənbələrin verdiyi məlumatlardan aydın olur ki, cəbrayıllı elinin qollarından biri də ***şükürbəyli*** adlanır. ***Şükürbəyli*** oykonimi XVIII əsrdə yaşamış dövrünün böyük nüfuz sahibi olan ***Şükür bəy Hümbətəli bəy oğlunun*** adı ilə əlaqədardır. 1823-cü ilə aid olan "*Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı qaynaqda göstərilir: "***Şükürbəyli*** *– 20 tüstü vergi ödəyirdi. Vergi ödəməyənlər: kəndxuda – 1 tüstü, rəncbər – 5 tüstü, nökər – 3 tüstü, kasıb – 2 tüstü, molla – 1 tüstü*". Yerli məlumata görə, kəndin ərazisi ***Xədicəxanım*** adlı bir varlı qadının atası tərəfindən ona mülk kimi hədiyyə verilmişdir. Tarixi mənbələrdə Vəzirovların mülkü hesab olunan ***Xədicəxanım yurdu*** oykoniminin də adı çəkilir.

Üçbulaq – Rayon mərkəzindən 7 kilometr qərbdə, eyniadlı inzibati ərazi vahidində, Qarabağ silsiləsinin ətəyində, dağətəyi ərazidə yerləşən kənd. Yaşayış məntəqəsinin əvvəlki adı ***Hoğa*** olub. ***Üçbulaq kəndi*** 31 mart 1992-ci il tarixdə erməni silahlı qüvvələri tərəfindən işğal olunmuşdu. 9 noyabr 2020-ci il tarixdə kənd erməni işğalçılarından azad edilmişdir. *29 aprel 1992-ci il* tarixdə ***Hoğa*** kəndinin adı ***Üçbulaq*** adlandırılmışdır. ***Üçbulaq kəndi*** Füzuli rayonunun qədim tarixə malik olan kəndlərindəndir. 1727-ci ilə aid olan "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı qaynaqda ***Hoğa*** (*Üçbulaq*) kəndinin də adı çəkilir.

Üçüncü Mahmudlu – Rayon mərkəzindən 6 kilometr şərqdə, Gecəgözlü kənd inzibati ərazi vahidində, Quruçayın sahilində, Qarabağ silsiləsinin ətəyində yerləşən kənd. Yaşayış məntəqəsi 23 avqust 1993-cü il tarixdə erməni silahlı birləşmələri tərəfindən işğal olunmuşdu. 7 noyabr 2020-ci il tarixdə kənd erməni işğalçılarından azad edilmişdir. Oykonimin əsasını ***Mahmudlu*** komponenti təşkil edir. Toponimin əvvəlindəki ***üçüncü*** sözü onu eyniadlı digər yaşayış məntəqəsindən fərqləndirmək üçündür.

Yalpirəhmədli – Rayon mərkəzindən 13 kilometr cənubda, Qarabağ silsiləsində, Ərgünəş dağının ətəyində, Qaryağdı dağının yaxınlığında yerləşən kənd. Kəndin adı bəzi sənəd və materiallarda ***Yal Pirəhmədli*** şəklində də yazılır. ***Yalpirəhmədli kəndi*** 1993-cü ilin avqust ayında erməni silahlı qüvvələri tərəfindən işğal olunmuşdu. Yaşayış məntəqəsi *9 noyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir. Oykonim "*yalda, zirvədə yerləşən Pirəhmədli kəndi*" mənasını ifadə edir. Yerli məlumata görə, kəndin 300 ildən çox yaşı vardır. 300 il bundan əvvəl ***Əhməd*** adlı xeyirxah, əməlisaleh, ***pir*** kimi nurani bir şəxs gəlib bu yerlərə çıxmış, təpənin başında oturaraq ətrafı nəzərdən keçirmiş, bu yerləri və onun suyunu bəyənib burada məskən salmışdır. Onun nəsli tədricən genişlənib, nəticədə böyük kənd əmələ gəlmişdir. ***Əhməd*** dünyasını dəyişəndə onu kənddəki təpədə, yalda dəfn edirlər. Adamlar onun dəfn olunduğu yalı ***Pir*** adlandırır. Elə o zamandan da yaşayış məntəqəsi ***Yalpirəhmədli*** adlanmışdır.

Yuxarı Ayıbasanlı – Dilağarda kənd ərazi inzibati vahidində, rayon mərkəzindən 2 kilometr cənub-şərqdə, düzənlik ərazidə yerləşən kənd. Kənd 23 avqust 1993-cü il tarixdə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdi. 20 oktyabr 2020-ci il tarixdə kənd erməni işğalçılarından azad olunmuşdur. ***Yuxarı Ayıbasanlı kəndi*** (adına bəzən ***Aybasanlı*** da deyirlər) ***Cavanşir*** tayfasının ***Ayıbasanlı*** tirəsinin burada məskunlaşması nəticəsində yaranmışdır. Yuxarı komponenti fərqləndirici əlamət ifadə edir. Oykonimi ***Əyyub Həsənli*** kimi izah etməyə cəhd edən araşdırıcılar da var. Mənbələrin verdikləri məlumatlara görə aybasanlılar (ayıbasanlılar) sərhəd boyunda çapar kimi xidmət etmişlər. ***Hacılı*** icmasına daxil olan ***Ayıbasanlı*** (***Aybasanlı***) obasının əhalisi dövlət tərəfindən 1842, 1849, 1863, 1873, 1886-cı illərdə siyahıya alınmışdır. ***Ayıbasanlı*** obasının *cəfərəli, gülməmmədli, allahverdili, qululu, məmmədhəsənli, ağalarlı, əliqulular, tanrıverdilər, həsənseyidxanlar, abdullalar, bayramalılar, zeynallılar, novruzlılar, qaralar, xudaqulular, isixanlar, baxşalılar, camallar, atakişilər, qayıbalılı, mirzalılar, nəcəfqulular, əlişahməmmədlilər, şükürlülər, ibrahimlilər, zeynalabdinlilər, gülmalılar, rüstəmlilər, mirzəəiaslanlılar, qurbanlılar, mollaəliəkbərlilər, məmmədcəfərlilər, ərəbəliqululqr, nəzərlər, şahverənlər, ərəbxanlı, oruclu, nəsrullahlı, hüseynqulular, cəfərqulular, mahmudlular, kərimkərbəlayiməmmədlilər, adınaəhzrətqulular, mehdisəfərlilər, kərbəlayiməmmədtağılar, xankişilər, imamqulular* və s. tayfa, tirə, nəsilləri vardır. SSDNZK kitabında Gəncə quberniyasının Cəbrayıl qəzasında 53 evdən, 308 nəfər əhalidən ibarət ***Ayıbasanlı*** adlı kəndin, AUPKKK əsərində isə Qaryagin qəzasında ***Ayıbasanlı*** adlı iki kəndin olduğu göstərilir. Görünür bu kəndlər ***Aşağı Ayıbasanlı*** və ***Yuxarı Ayıbasanlı*** adı ilə fərqlənmişdir. İƏV və ATD kitablarında kəndin adı ***Ayıbasanlı*** şəklində yazılmışdır. ***Ayıbasanlı*** türk mənşəli antroponiminin hər iki komponenti arxaikləşmişdir.

Yuxarı Dilağarda – Rayon mərkəzindən 11 kilometr şimalda, dağətəyi ərazidə yerləşən kənd. Toponimin tərkibindəki ***yuxarı*** komponenti yaşayış məntəqəsini digər yaşayış məntəqəsindən ayırmaq üşün oykonimə əlavə edilmişdir. ***Dilağarda*** *qaraqoyunlu* tayfasına aid olan tirələrdən birinin adıdır.

Yuxarı Əbdürrəhmanlı – Rayon mərkəzindən 7 km cənub-şərqdə, Füzuli-Horadiz avtomobil yolunun sol kənarında yerləşən kənd. Kənd 1993-cü ilin avqustunda erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdi. *27 sentyabr 2020-ci il* tarixdə yaşayış məntəqəsi erməni işğalçı qüvvələrindən azad olunmuşdur. Yaşayış məntəqəsinin keçmiş adı ***Əbdürrəhmanlı***, ondan yaranmış yeni məntəqə ***Aşağı Əbdürrəhanlı***, əvvəlki isə ***Yuxarı Əbdürrəhmanlı*** adlandırılmışdır. ***Əbdürrəhmanlı*** – kəndin əsasını qoyan nəslin adıdır. ***Yuxarı*** sözü kəndi eyniadlı digər yaşayış məntəqəsindən fərqləndirmək üçün işlədilmişdir. ***Əbdürrəhmanlı*** obası ***Cəbrayıllı*** elinin bir qoludur. ***Yuxarı Əbdürrəhmanlı*** kəndinin adı XVIII əsrdə yaşamış ***Əbdürrəhman bəy Ağası bəy oğlunun*** adı ilə əlaqədardır.

Yuxarı Güzlək – Rayon mərkəzindən 18 klometr cənubda, Qarakollu kənd inzibati ərazi vahidində, Qarabağ silsiləsinin ətəyində, Qozluçayın sahilində yerləşən kənd. Kənd 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdi. Yaşayış məntəqəsi *9 oktyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir. Kəndin keçmiş adı ***Güzlək*** olub. XIX əsrdə salınmış eyniadlı məntəqə ***Aşağı Güzlək***, əvvəlki kənd isə ***Yuxarı Güzlək*** adlandırılmışdır. ***Güzlək*** toponimi qədim türk dillərindəki ***küz*** ("*payız otlağı*") sözündən və məkan bildirən -***lək*** şəkilçisindən ibarətdir. ***Güzlək*** (***Güzdək***) toponimində türk və Azərbaycan dillərində məkan bildirən ***lək***, ***dək*** şəkilçiləri iştirak edir. ***Dək*** formantı türk dillərində ***d*** səsinin ***l*** səsi ilə əvəz olunması nəticəsində dəyişilən ***lək*** sözünün fonetik variantıdır. Çobanlar adətən payızda doğulan quzuya ***güz*** deyirlər. Elə bəlkə də dilimizdəki ***quzu*** sözü ***güzü*** sözünün özündən törənib. ***Güz*** (***quz***) etnoniminin fars dilində ***Deh*** ("*kənd*") sözü ilə birləşib, "*Oğuz kəndi*" mənasını verdiyini söyləyənlər də var. ***Güz*** sözü qədim türk dilində "*payız*" və ya "*payız otu*" mənasındadır.

Yuxarı Rəfədinli – Rayon mərkəzindən 18 km cənubda, Qarakollu kənd inzibati ərazi vahidində, Füzuli-Cəbrayıl şose yolunun kənarında, Qarabağ silsiləsinin ətəyində yerləşən kənd. Kənd 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal olunmuş, 22 oktyabr 2020-ci il tarixdə erməni işğalçılarından azad edilmişdir. Yaşayış məntəqəsinin keçmiş adı ***Rəfədinli*** olub. Ondan törəmiş məntəqə ***Aşağı Rəfədinli***, əvvəlki isə ***Yuxarı Rəfədinli*** adlandırılmışdır. ***Rəfədinli*** kəndin əsasını qoymuş nəslin adıdır. 1727-ci ilə aid "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı tarixi sənəddə Dizaq nahiyəsinə tabe olan kəndlər sırasında ***Rəfədinli*** (***Rəfdinli***) kəndinin də adı vardır. Bəzi tarixi sənədlərdə kəndin adı ***Ruhudinli*** formasında da çəkilir. ***Rəfədinli obası*** qədim ***Qaradağlı*** elinin bir qoludur.

Yuxarı Seyidəhmədli – Rayon mərkəzindən 13 km şərqdə, düzənlikdə yerləşən kənd. Yaşayış məntəqəsi 1993-cü ilin avqustunda ermənilər tərəfindən işğal olunmuş, *9 noyabr 2020-ci il* tarixdə işğalçı qüvvələrdən azad edilmişdir. Kəndi ***Seyidəhmədli*** nəsli saldığı üçün o, belə adlanmışdır. *Seyidəhmədli* obası ***Hacılı*** icmasına daxildir. ***Seyidəhmədli*** obası ***Cavanşir*** elinin aparıcı tayfalarından olan ***Yağlıvənd*** oymağının bir qoludur. 1727-ci ilə aid Osmanlı qaynağında göstərilir ki, Cavanşir tayfasının Yağlıvənd oymağına bağlı ***Seyidəhmədli*** nəsilləri Dizaq nahiyəsində, Köndələnçayın yaxasında əkinçiliklə məşğul olur, məhsullarını torpaq sahiblərinə verir, vergilərini də ödəyirlər. Cavanşir əsilli Hacılı icmasına qatılan ***Seyidəhmədli obası*** 1842, 1849, 1863, 1873, 1886-cı illərdə dövlət tərəfindən siyahıya alınmışdır. Seyidəhmədli obası ***2*** şenliyə - ***Aşağı Seyidəhmədli*** və ***Yuxarı Seyidəhmədli*** kəndlərinə ayrılır.

Yuxarı Veysəlli – Rayon mərkəzindən 20 kilometr şimalda, eyniadlı kənd inzibati ərazi vahidində, Füzuli-Xocavənd avtomobil yolu kənarında yerləşən kənd. Kənd *22 fevral 1992-ci il* tarixdə erməni silahlı qüvvələri tərəfindən işğal olunmuşdu. İşğaldan sonra ermənilər kəndi ***Zoravan*** adlandırmışlar. *7 noyabr 2020-ci il* tarixdə kənd erməni işğalçı qüvvələrindən tam azad edilmişdir. Əvvəllər kəndin adı ***Veysəlli*** olub. Bəzi tarixi mənbələrdə oykonimin adı ***Ağbaşlı*** kimi də göstərilir. Yaşayış məntəqəsindən 10 kilometr şərqdə yerləşən kənd ***Aşağı Veysəlli***, bu kənd isə ***Yuxarı Veysəlli*** adlandırılmışdır. ***Veysəlli*** kəndin əsasını qoymuş nəslin adıdır. Veysəl sözü ərəb dilində "*güc*, *qüvvə*", "*qərar*, *hökm*, *fərman*" deməkdir. 1593-cü ilə bağlı Osmanlı qaynağında otuziki elinin 27 oymağının adı və yaşadıqları yerlərin siyahısında ***Veysəlli*** (*Calaberd*) də göstərilir. Tarixi qaynaqlardan məlum olur ki, ***Otuziki*** tayfasının ***Veysəlli*** adlı oymağı da olmuşdr. ***Veysəllilər*** Otuzikilərin bir qoludur.

Yuxarı Yağlıvənd – Rayon mərkəzindən 12 km şimalda, Dilağarda kənd inzibati ərazi vahidində, Qarabağ silsiləsinin şimal-şərq ətəyində yerləşən kənd. Yaşayış məntəqəsi *9 noyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir. ***Yağlıvənd*** toponiminin əsasını ***Yağlavənd*** komponenti təşkil edir. Oykonim keçmişdə bu ərazilərdə maldarlıqla məşğul

olan elatın adındandır. Çox güman ki, oykonim həmin elatın adını özündə əks etdirir. Tarixi qaynaqlardan məlum olur ki, ***Yağlıvənd*** oymağı ***Cavanşir*** tayfasına daxildir. 1727-ci ilə aid olan "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı tarixi sənəddə ***Cavanşir*** elinin ***Yağlıvənd*** oymağı ilə bağlı məlumat verilmiş və göstərilmişdir ki, bu oymaq Arazbar sancağında, Xan arxı tərəfdə, eləcə də Köndələn və Kamalkənd çayları kənarında, aral və Həsirkörpü adlanan ərazilərdə qışlayır; İrəvan sərhədində - Güney, Zilxac, Pərixan və Yaxınlı adlı sahələrdə yaylayırlar. ***Yağlıvənd*** toponimini "*yağmalanmış*" anlamı ilə əlaqələndirənlər də var. ***Vənd*** termininin fars dilində "*el, oba, kənd, zirvə*" mənaları da vardır. Kənddə *Kovxalı, Havsalı, Külədərli, Bədirli, Hümbətalılar, Ciyəli* və s. tayfalar vardır. ***Yağləvənd*** sözünün tərkibindəki ləvənd komponentinin bir anlamı da "yağmaçı, soyğunçu" mənasına uyğun gəlir. Tanınmış türkoloq V.Radlova görə ***ləvənd*** sözünün türkcə "*azad, sərbəst, döyüşçü, avara, cəsus, məğrur*" anlamları da vardır. Bu söz toxuculuq termini kimi də işlədilir. Son orta əsrlər dövründə Azərbaycan dövlət qurumlarında müxtəlif tayfalardan toplanmış qeyri-nizami hərbi dəstələrə, çəriklərə ***ləvənd*** deyilərmiş. ***Ləvənd*** sözü osmanlılarda "*dəniz piyadası*" anlamında da işlənidi. ***Vənd*** hissəciyinin "*yer, məkan, uşağı*" anlamları da vardır. Görkəmli Azərbaycan tarixçi-alimi Süleyman Əliyarlı "*Azərbaycan tarixi*" əsərində ***Vənd*** sözünü adam adı kimi izah edir. O, göstərir ki, m. ö. II əsrdə ***Bulqar Vənd*** özü ilə gətirdiyi adamları əsasən Böyük və Kiçik Qafqazın ətəklərində yerləşdirmişdir. Həmin yerlər sonralar onun adı ilə ***Vənd***, yaxud ***Vənənd*** adlandırılmışdır. Çox güman ki, Azərbaycan Respublikasının ərazilərindəki ***Qərvənd, Papravənd, Sırxavənd, Yağlıvənd*** və başqa bu tipli yaşayış məntəqələri də həmin ***vənd*** komponenti ilə əlaqədardır.

Zərgər – Rayon mərkəzindən 5 km şimal-qərbdə, Dövlətyarlı kənd inzibati ərazi vahidində, dağətəyi düzənlikdə yerləşən kənd. ***Zərgər kəndi*** 1993-cü ilin avqust ayında ermənilər tərəfindən işğal edilmişdi. Yaşayış məntəqəsi *21 oktyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir. ***Zərgər*** tayfaları Qarabağın qədim sakinlərindən hesab edilir. Onların bir qolu vaxtilə müəyyən tarixi şəraitlə əlaqədar şahsevənlərə qoşularaq İrana getmiş və xeyli sonra gedənlərin bir hissəsi geri qayıtmışdır. M.Baharlı (1890 – 1937) Azərbaycanda qədim tayfa, qəbilə, nəsil adlarını qeyd edərkən Zərgərli tayfasının da adını çəkir. ***Zərgərlilər*** vaxtilə Cənubi Azərbaycanda, Savalan dağının cənub-şərq ətəklərində yaşamış Azərbaycan tayfalarından biridir. Bəzi məlumatlara görə əhali indiki ***Zərgər*** kəndinə Səfəvilər dövründən əvvəl gəlmişlər. Şahsevənlərin ən nüfuzlu başçılarından olan – Kürdbəyin tayfasından ayrılan nəsillərdən (*xəlfəli, udyuqlu, muradlı, milli, bəydili, inallı*) birinin adı ***zərgər*** olmuşdur. XIX əsrin 70-ci illərinə aid məlumata görə ***Zərgər kəndi*** şahsevənlərin ***Zərgərli*** tayfasına məxsus ailələrin burada məskunlaşması nəticəsində yaranmışdır.

Zərgərqıyıqçı – Füzuli rayonununda, Qarabağ silsiləsinin ətəyində yerləşən kənd. Kənd 1993-cü ilin avqust ayında erməni silahlı birləşmələri tərəfindən işğal olunmuşdu. 21 oktyabr 2020-ci il tarixdə kənd erməni işğalçılarından azad edilmişdir. Yaşayış məntəqəsini şahsevənlərin ***zərgər*** tayfasının ***qıyıqçı*** tirəsinə mənsub olan ailələr salmışlar. ***Qıyıqçı*** tayfasının adı Səlcuq oğuzlarının məşhur ***kıyık*** tayfasının adından və mənsubiyyət bildirən -***çı*** şəkilçisindən ibarətdir. Oykonim "*zərgər tayfasına mənsub olan qıyıqlar*" mənasındadır.

Zobucuq qəsəbəsi – Füzuli şəhərindən 22 km məsafədə qeydə alınan oroqrafik obyekt belə adlanır. ***Zobucuq qəsəbəsi*** ayrı-ayrı ***5*** qəsəbədən ibarətdir. Bu qəsəbələr 2007-ci ildə salınmışdır. Burada 1988-ci ildən başlayan Qarabağ müharibəsi ilə bağlı doğma yurd yerlərini dəyişməyə məcbur olmuş Füzuli rayonunun məcburi köçkünləri müvəqqəti məskunlaşmışdır. Bu oykonimin ad açımı ilə bağlı müxtəlif fikir və mülahizələr vardır. Bəzi tarixi sənədlərdə oykonimin adına ***Zavıcıq*** kimi də rast gəlirik. ***Zobucuq*** toponimi çox güman ki, təhrifə məruz qalmışdır...



Mirəli türbəsi – XIV əsr
(Aşağı Veysəlli kəndi). İşğaldan əvvəl

Mirəli türbəsi – XIV əsr
(Aşağı Veysəlli kəndi).
İşğaldan sonra

Hacı Ələkbər məscidi (Füzuli şəhəri). İşğaldan əvvəl

Hacı Ələkbər məscidi (Füzuli şəhəri). İşğaldan sonra

Şeyx Babı türbəsi – 1272-1273-cü illər (Babı kəndi)

Qoç heykəli

Əhmədalılar (Arğalı) türbəsi – XIII əsr



Hacı Qiyasəddin məscidi
(Qarğabazar kəndi)

Quruçay

Qaraköpəktəpə, qədim yaşayış yeri



Qarğabazar karvansarası
(Qarğabazar kəndi)

XOCALI RAYONU

(RAYON HAQQINDA ÜMUMİ MƏLUMAT)

XOCALI – Azərbaycanda, qədim Qarabağda, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində, indiki Qarabağ iqtisadi rayonunda inzibati ərazi vahididir. Şimaldan və şimal-şərqdən Kəlbəcər və Ağdam rayonları, cənubdan və cənub-şərqdən Şuşa və Xocavənd rayonları, qərbdən isə Laçın rayonu ilə həmsərhəddir. Ərazisi ***926*** kvadrat kilometr, əhalisinin sayı isə ***21 000*** nəfər idi. 1930-cu ildə yaranan bu rayonun əvvəlki adı ***Xankəndi*** *(Stepanakert)*, sonralar isə ***Əsgəran*** *(1978-1991-ci illər)* olmuşdur. ***26 noyabr 1991-ci il*** tarixdən rayon ***Xocalı*** adlandırılmışdır.

Rayonun qərb sərhədi boyunca *Qarabağ silsiləsi* uzanır. Rayonun ən yüksək zirvələri ***2843*** metr hündürlüyü olan *Qızqala* və ***2827*** metr yüksəkliyi olan *Qırxqız* dağlarıdır. Rayonun ərazisi qəhvəyi dağ-meşə, dağ-çəmən və çimli dağ-çəmən torpaqlarından ibarətdir. Xocalı rayonu ərazisində Yura, Tabaşir, Antropogen çöküntüləri geniş yayılmışdır. İqlimi əsasən, qışı quraq keçən mülayim istidir. Orta temperatur qışda 0 dərəcəyə yaxın, yayda 24 dərəcə olur. Ərazidə illik yağıntının miqdarı 500 – 700 mm-dir.

Xocalı rayonunun ərazısından Qarqar, Badara və İlis çayları axır. Rayon ərazisinin 40 faizini meşələr (palıd, fısdıq, tut və s) təşkil edir. Dağlıq sahələri alp və subalp çəmənləri ilə örtülmüşdür. Alçaq dağətəyi sahələrdə kserofit kolluqlar və çəmənlər vardır.

Rayon ərazisi faydalı qazıntılarla *(gil, gillicə, çağıl, qum və s.)* zəngindir.

Xocalı rayonunun tərkibinə azərbaycanlıların yaşadıqları *Xocalı şəhəri, Başkənd, Qaragav, Yaloba, Kərkicahan, Kosalar, Meşəli, Həsənabad, Cavadlar, Canhəsən, Cəmilli, Daşbulaq* kəndləri daxildir. Xocalı rayonu və şəhərinin adı burada məskunlaşmış ***xocalı*** nəslinə mənsub olan ailələrin adı ilə əlaqədardır.

Başdan-başa tarixi memarlıq diyarı olan Xocalı rayonunun ərazisində miladdan öncə XIII-VII əsrlərə aid ***Xocalı-Gədəbəy arxeoloji mədəniyyət abidələri***, yenə də təxminən həmin dövrə – son tunc və ilk dəmir dövrlərinə aid ***Nekropol, Kurqan çölü***, eramızın IV-VI əsrlərinə aid çoxlu sayda ***Alban kilsələri***, XIV əsrə aid ***Hacı Əli günbəzi***, 1356-cı ildə inşa olunan ***Dairəvi türbə***, XVIII əsrdə tikilmiş ***Əsgəran qalası***, ***qədim qəbiristanlıqlar*** və s. abidələr qeydə alınmışdır. Ərazidəki qazıntılar nəticəsində aşkar edilən qədim kurqanlar, türbələr, qəbirlər, tökmə təpələr, abidələr bu yerlərin qədim insan məskənləri olduğunu sübut edir.

Xocalı rayonunun inzibati mərkəzi Xocalı şəhəridir. Şəhər 3 hissədən (***Qaladərəsi Xocalısı, Qaşqınlar Xocalısı, Köhnə Xocalı***) ibarətdir. Xocalı şəhərinin əhalisinin sayı 1992-ci ildə 6500 nəfər idi. ***Xocalı şəhəri***, Qarabağ silsiləsinin ətəyində, *Qarqar, İlis* (Hilis), *Xocalı* çaylarının qovuşduğu ərazidə, *Ağbulaq, Noraguh, Badara, Daşbulaq, Ballıca, Mehdikənd (Mehdibəyli), Naxçıvanlı (Naxçıvanik)* kəndləri əhatəsində, Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi olan *Xankəndi* şəhərindən 12 km şimal-şərqdə yerləşir. Bu yaşayış məntəqəsi əvvəllər *Stepanakert*, sonralar *Əsgəran* rayonunun tərkibində kənd olmuşdur. *Xocalı şəhəri* 1991-ci ildən Xocalı inzibati rayonunun mərkəzidir. Şəhər statusu alandan sonra xeyli böyümüş və gözəlləşmişdir. İşğaldan sonra ermənilər onun adını dəyişərək ***İvanyan*** qoymuşdular.

Xocalı şəhərini erməni hərbi birləşmələri **26 fevral 1992-ci il** tarixdə işğal edərək vəhşicəsinə yandırmışlar. Həmin gecə, saat ***23*** radələrində erməni cəlladları Xankəndində yerləşən, əslində Rusiyaya məxsus olan ***4-***cü ordunun ***23-***cü diviziyasının ***366-***cı motoatıcı alayının *(bu alay 2 mart 1992-ci il tarixdə axşam radələrində vertolyotlarla Gürcüstanın Vaziani şəhərinə aparılmış, az sonra – 10 martda marşal Şapoşnikovun əmri ilə ləğv edilmişdir),* Ermənistan Respublikası Silahlı Qüvvələrinin tabeçiliyində olan silahlı qrupların, müxtəlif ölkələrdən gəlmiş muzdlu əsgərlərin, özünü *Artsax Xalq Ordusu* adlandıran Dağlıq Qarabağın erməni silahlı birləşmələrinin yaxından köməkliyi ilə Xocalıya soxulub, onu tamamilə yandırmış və məhv etmişlər. Alayın zirehli texnikalarının *(az sonra bu motoatıcı alayın əksər zirehli texnikaları, hərbi sursatları ermənilərə verilmişdir. Bu işdə general-polkovnik Qromov, general-leytenant Qrekov, general-leytenent Hakopyan, polkovnik Y.Zarviqarov (24 fevral 1992-ci il tarixində o, general-mayor rütbəsi almışdır), polkovnik O.Kraule, deputat Andranov və başqaları iştirak etmişlər. Beləliklə, alayın texnika və silahlarının təxminən **80 %**-i ermənilərin əlinə keçdi)* arxasınca erməni silahlı piyadaları böyük qüvvə ilə ***3*** istiqamətdən Xocalı şəhərinə soxularaq yaşayış məntəqəsini qarət və talan etmişlər.

Həmin gecə vədəsiz ölümdən qaçmaq istəyən xocalı əhalisi meşələrə, dağlara səpələndi. Qarda, çovğunda hara gəldi gedənləri, şirin yuxuda mışıl-mışıl yatmalı olan körpələri, uşaqları pusqularda duran, azərbaycanlının qanına susayan ermənilər əllərinə keçənləri – qoca, cavan, uşaq demədən işgəncə ilə öldürdülər. O meyitlərin bəziləri dərələrdə, təpələrdə, meşələrdə – məzara gömülməmiş qaldı.

Xocalı şəhərinin işğalının faciəli nəticələri bunlardır:

613 nəfər – o cümlədən **106** qadın, **63** uşaq, **40** qoca qətlə yetirilib;

8 ailə tamamilə məhv olub;

25 uşaq hər iki valideynini itirib;

130 uşaq valideynlərindən birini itirib;

60 nəfər xüsusi amansızlıqla qətlə yetirilib;

487 nəfər müxtəlif dərəcəli güllə, qəlpə yarası alaraq şikəst, əlil olub;

1275 adam erməni əsirliyinin dəhşətlərindən keçib;

155 nəfər itkin düşüb;

280 meyiti götürüb dəfn etmək mümkün olmayıb;

Xalqımıza qarşı yönəlmiş ***Xocalı soyqırımı*** ağlasığmaz dəhşətləri və qəddarlığı ilə bəşəriyyət tarixində analoqu olmayan bir vəhşilikdir. Tarixə çevrilmiş bu *cinayəti*, ermənilər tərəfindən millətimizə vurulmuş *bu ağır yaranı* heç birimiz, heç bir zaman unutmamalıyıq!!!

Xocalı soyqırımı qurbanlarının xatirəsini yad etmək məqsədi ilə hər il 26 fevral saat 17:00-da Azərbaycanda sükut dəqiqəsi elan olunur...

RAYONUN YAŞAYIŞ MƏNTƏQƏLƏRİ

Ağbulaq – Xocalı rayonunda, dağətəyi ərazidə, Ağdam dəmiryol stansiyasından 22 km aralıda yerləşən kənd. ***Ağbulaq*** kəndinin keçmiş adı ***Talıbxanbəyli*** olmuşdur. Kənd ***Talıbxan bəy*** adlı bir nəfərə məxsus maldar ailələrin ***Agbulaq*** adlanan yerdə məskunlaşması nəticəsində yaranmışdır. DQMV yarananda sonra kənd əvvəllər Stepanakert rayonunun, sonralar isə Əsgəran rayonunun tərkibində olmuşdur. ***Ağ*** sözü bulağın üzə çıxdığı yerdə süxurların *ağ* rəngdə olmasını bildirir. Toponimin tərkibindəki ***ağ*** sözü həm də keyfiyyət bildirmə xüsusiyyətinə malikdir. Bu toponim oradakı su obyektinin adı ilə adlanmışdır. ***Ağbulaq*** kəndi "*Qarabağnamə*"nin (*1845-ci il*) müəllifi Mirzə Adıgözəl bəyin mülkü olub.

Ağgədik – Xocalı rayonunda, dağətəyi ərazidə yerləşən kənd. Kəndin keçmiş adı ***Ağdar***, sonralar ***Kötük, Kətük*** olmuşdur. Bəzi tədqiqatçılar kəndin ***Kətik*** (***Kətük***) adlanmasını Qafqaz Albaniyasındakı məşhur ***Kətik*** (***Ketik***) məbədinin (XII əsr) adı ilə əlaqələndirirlər. ***Kətik*** sözü qədim türk dilində "***gədik***" deməkdir. *29 dekabr 1992-ci il* tarixdə yerləşdiyi fiziki-coğrafı mövqeyə əsasən kəndə ***Ağgədik*** adı verilmişdir. Toponim ***ağ*** (burada süxurların rənginə görə) və ***gədik*** ("*dağ belində batıq*") sözlərindən ibarətdir. Ümumiyyətlə, ***gədik*** – iki dağ zirvəsi və ya yüksəkliyi arasında alçaq sahəyə, çətin keçilən aşırıma, yola, dağ cığırına deyirlər.

Almalı – Xocalı rayonunda, dağətəyi ərazidə yerləşir. Tarixdən məlumdur ki, Azərbaycanın şimal hissəsi Rusiya tərəfindən işğal olunduqdan sonra burada ermənilər yerləşdirilmişdir. Kəndin adı kalka vasitəsilə tədricən ermənileşərək ***Xndzrıstan*** olmuşdur. Hətta, Sovet hakimiyyəti illərində kəndin adı belə rəsmiləşmişdir. ***Xndzor*** – erməni dilində "*alma*" deməkdir. Yaşayış məntəqəsi ***Almalı*** adlanan sahədə salındığına görə belə adlanmışdır.

Aranzəmin – Rayon mərkəzindən 6 kilometr məsafədə, Qarabağ silsiləsində, Naxçıvanlı kənd inzibati ərazi vahidində, dağətəyi ərazidə yerləşən kənd. Kənd bir müddət ***Mirzəbəyli*** (*Mirzənin yurdu*) da adlanmışdır. Bəzi məlumatlara görə, kəndin əsl adı ***Mirzəboyun*** olub. Bir çox tədqiqatçıların fıkrincə, VI əsrdə alban hökmdarı Varazın burada iqamətgahı olduğu üçün kənd müəyyən müddət ***Varazabun*** da adlanmışdır. Kənd əhalisinin XIX əsrin əvvəllərində İranın Qaradağ mahalından gəlmə ermənilər olması məlumdur. ***Aranzəmin*** oykonimi ***aran*** və ***zəmin*** sözlərindən ibarətdir. ***Zəmin*** sözü fars dilində "*yer, məkan*" mənasındadır. ***Aranzəmin*** toponimi "*isti və mülayim iqlimə malik mülayim yer*" anlamındadır. ***Aranzəmin*** toponimi "*aran yeri*" mənasındadır və şübhəsiz ki, özündə türkdilli ***aran*** (***uran//oran***) etnonimini əks etdirir. Mənbələrin məlumatına görə, XIX əsdə Cənubi Azərbaycanın Qaradağ əyalətindən köçüb gəlmiş bəzi ailələr Şuşa şəhərindəki *Aranzəmin* adlı sahədə məskunlaşmışlar.

Aşağı Qılıncbağ – Xanabad inzibati ərazi vahidində, dağətəyi ərazidə, rayon mərkəzindən 15 km şimalda yerləşən kənd. Kəndin adı bəzi sənədlərdə ***Aşağı Qılıçbağ*** kimi də qeyd olunur. XIX əsrin 20-ci illərində (*1926-1928-ci illər*) Rusiya-İran müharibəsi nəticəsində İrandan köçüb gəlmiş erməni ailələri burada məskunlaşdıqdan sonra kənd ***Nergin Qılınçbağ*** adlanmışdır. ***Nerkin*** sözü erməni dilində "*aşağı*" deməkdir. 1992-ci ildə kəndin əvvəlki ***Aşağı Qılıncbağ*** adı bərpa edilmişdir. Oykonimin birinci komponenti olan ***Aşağı*** sözü kəndin coğrafi mövqeyi ilə bağlıdır. Toponim ***Qılınc*** şəxs adından və ***bağ*** sözündən ibarətdir. Çox göman ki, toponim "*Qılınca məxsus bağ*" anlamını daşıyır.

Badara – Badara çayı sahilində, Qarabağ silsiləsinin ətəyində, rayon mərkəzindən 7 km məsafədə yerləşən kənd. Bəzən kəndin adını ***Bədərə*** (***Badara***) formasında da yazırlar. ***Badara*** kəndinin adı salındığı ərazi ilə bağlıdır. Kəndin yaxınlığından eyniadlı çay axır. Azərbaycan dilinin bəzi dialektlərində ***badara*** sözü "*kiçik əkin yeri*" mənasında işlənir. ***Bad*** toponimi "*uçurulmuş, dağıdılmış*" mənasında da işlədilir. ***Badara (Badərə)*** kəndi vaxtilə Xaçın məlikliyinin tabeliyində olmuşdur.

Ballıca – Qarabağ silsiləsinin ətəyində, Qarqarçayın qolu olan Ballıca çayının sol sahilində, rayon mərkəzindən 10 kilometr cənub-qərbdə yerləşən kənd. ***Ballıca*** kəndinin ərazisi XIX əsrə qədər Gəncə (*Yelizavetpol*) qəzasındakı ***Əhmədbəyli*** kəndinin əhalisinin yaylaq yeri idi. Sonralar başqa ərazilərdən o cümlədən, İrandan köçürülən ermənilər burada məskunlaşdırılmışdı. Bu yaylaq özündə ***ballıca*** bitkisinin adını əks etdirir. ***Ballıca*** bitkisinin başqa bir adı isə öfkəotudur. ***Ballıca kəndi*** məşhur xanəndə Xan Şuşinskinin babasının mülkü olub. Sonralar kənd onun nökəri erməni Cümşüdə qalıb.

Başkənd – Qarabağ silsiləsinin şimal-şərq yamacında, Mıxtökən dağının ətəyində, Yaəli dağı yaxınlığında, Çoban Daşaşıran qayası ətrafında rayon mərkəzindən 17 km cənub-qərbdə yerləşən kənd. Kənd erməni işğalı altındadır. ***Başkənd kəndi*** qonşuluqda yerləşən kəndlərə nisbətən bir qədər yuxarıda (*başda*) yerləşdiyinə görə belə adlanmışdır. ***Başkənd*** toponiminin mənası "*yuxarıda, başda yerləşən kənd*" deməkdir.

Beşdəllər – Kosalar kəndi yaxınlığında, Qarabağ silsiləsində yerləşən kənd. ***Beşdəllər*** toponimini bəzi araşdırıcılar ***beş dəli*** yozumu ilə mənalandırırlar.

Bəhlulun kəndi – Xankəndi-Kosalar şose yolunun sol tərəfində, azərbaycanlılara aid təzə qəbiristanlığın yaxınlığında yerləşən kənd. Ermənilər həmin kəndi dağıtmışlar. Oykonim ***Bəhlul*** şəxs adı ilə əlaqədar olaraq belə adlanmışdır. Toponim "*Bəhlula məxsus kənd*" mənasındadır.

Canhəsən – Qarabağ silsiləsinin yamacında, rayon mərkəzindən 16 km cənub-qərbdə yerləşən kənd. Kənd ermənilər tərəfindən işğal edilmişdir. Bu yaşayış məntəqəsini ***Canhəsən*** adlı şəxs salmışdır. Oykonim də "*Canhəsənin nəsli yaşayan kənd, canhəsəngillər*" mənasındadır. ***Canhəsən kəndi*** işğaldan bir müddət əvvəl – *I Qarabağ müharibəsi* zamanı Ağdaş rayonu tərəfindən hamiliyə götürülmüşdür.

Cavadlar – Qarabağ silsiləsində, rayon mərkəzindən 16 km cənub-qərbdə yerləşən kənd. Kənd ermənilər tərəfindən işğal edilmişdir. ***Cavadlar*** toponimi ***Cavad*** şəxs adı ilə əlaqədardır. Toponim "*Cavadın nəslindən olanlar, cavadlar, cavadgillər*" mənasındadır. ***Cavad*** adlı Azərbaycanda tarixi şəhər də olub. Mənbələrdə XVI əsrdə adı çəkilən Cavad şəhəri Kür və Araz çayları qovuşağında yerləşirmiş. XVIII əsrin ortalarında Şamaxı, Talış, Qaradağ və Qarabağ xanlıqları ilə həmsərhəd ərazidə *Cavad xanlığı* da mövcud olmuşdur. 1868-ci ildə həmin ərazidə, Bakı quberniyasının tərkibində ***Cavad qəzası*** yaranmışdır. ***Cavad*** adlı indi Sabirabad rayonunda, rayon mərkəzindən 5 km şimalda, Kür çayının sahilində kənd də vardır. Bəziləri ***Cavadlar*** toponimini vaxtilə indiki Sabirabad rayonundan Qarabağa köçən ailələrlə əlaqələndirirlər. Kəndi *I Qarabağ müharibəsi* zamanı, işğaldan 1 il əvvəl Ağsu rayonu hamiliyə götürmüşdür.

Cəmilli – Qarabağ silsiləsində, dağətəyi ərazidə, rayon mərkəzindən 10 km cənub-qərbdə yerləşən kənd. ***Cəmilli*** yaşayış məntəqəsi mənşəcə XVIII əsrin sonlarında Qazax mahalından Qarabağa köçmüş ***cəmilli*** tayfasına mənsub ailələrin burada məskunlaşması nəticəsində yarandığına görə elə həmin tayfanın adını daşıyır. **Cəmilli kəndi** ermənilər tərəfindən **16 dekabr 1991-ci il** tarixdə işğal edilərək yandırılmışdır.

Çanaqçı – Qarabağ silsiləsində, dağətəyi ərazidə, rayon mərkəzindən 30 km cənubda yerləşən kənd. ***Çanaqçı*** yaşayış məntəqəsini XIX əsrin ortalarında keçmiş Qaradağ kəndindən köçüb gəlmiş dörd ailə salmışdır. Həmin ailələr əvvəllər ağacdan ***çanaq*** deyilən məişət qabları düzəldib satmaqla məşğul olduqları üçün onlara *çanaqçı* deyirdilər. ***Çanaq*** məişət qabları əsasən qoz, fındıq və qızılağacdan hazırlanırdı. Azərbaycanda ənənəvi həcm ölçüsünə və 1921-ci ildə ərzaq vergisi əvəzində verilən könüllü məhsul rüsumuna da ***çanaq*** deyilirdi.

Dağdağan – Qarabağ silsiləsinin ətəyində, rayon mərkəzindən 14 km cənubda yerləşən kənd. ***Dağdağan*** oykonimi *dağdağan* ağacının adı ilə əlaqədar yaranmışdır. El arasında dağdağanı körpələri şər qüvvələrdən qoruyan müqəddəs ağac kimi səciyyələndirirlər. *Dağdağan* – bərk oduncağı olan, əsasən meşələrdə bitən ağac və ya koldur.

Dağyurd – Qarabağ silsiləsində, rayon mərkəzindən 26 km cənub-qərbdə, dağətəyi ərazidə yerləşən kənd. XIX əsrin 20-ci illərində İrandan köçüb gələn erməni ailələri ***Dağyurd*** kəndində məskunlaşdıqdan sonra kəndi ***Saruşen*** (***sar*** sözü erməni dilində "*dağ*", ***şen*** isə "*kənd*" deməkdir) adlandırmışlar. 1992-ci ildə kəndin əvvəlki ***Dağyurd*** adı bərpa edilmişdir.

Daşbaşı – Qarabağ silsiləsində, dağətəyi ərazidə, rayon mərkəzindən 13 kilometr şimalda yerləşən kənd. ***Daşbaşı*** toponimindəki ***daş*** sözü "*qaya*" mənasındadır, ***başı*** sözü isə "*zirvəsi*", "*üstü*" mənasını əks etdirir. Bu mənada toponimi "*qaya üstündəki kənd*" anlamı kimi yozmaq olar. Toponim "*başı (zirvəsi) daşlı*" mənasındadır.

Daşbulaq – Qarabağ silsiləsinin ətəyində, Qarqarçayının qolu olan Bədərə çayının sol sahilində, rayon mərkəzindən 6 kilometr şimal-qərbdə yerləşən kənd. ***Daşbulaq kəndi*** yaxınlığındakı eyniadlı dağın adı ilə adlanmışdır. ***Daşbulaq*** oykonimi ***daş*** sözündən və ***bulaq*** hidronimik apelyativindən ibarətdir.

Daşkənd – Qarabağ silsiləsində, rayon mərkəzindən 20 km cənubda yerləşən kənd. 1828-ci ildə İrandan gəlmə erməni ailələrini çar hökuməti orada yerləşdirdikdən sonra kəndin adı dəyişdirilərək (***kənd*** sözü erməni dilindəki ***şen*** komponenti ilə əvəz edilmişdir) ***Daşuşen*** qoyulmuşdur. Əhalisi Cənubi Azərbaycanın *Xoy* mahalından gəlmişdir. ***Şen*** sözü çox ola bilsin ki, Azərbaycan və türk dillərindən erməni dilinə keçib. *Şen* komponenti ilə bağlı Azərbaycanda çoxlu yer adları vardır. Belə toponimlər əsasən Azərbaycan mənşəli olur. 1992**-**cı ildə kəndin əvvəlki ***Daşkənd*** adı bərpa edilərək özünə qaytarılmışdır.

Dəhrəv – Qarabağ silsiləsinin yamacında, rayon mərkəzindən 7 km şimal-qərbdə yerləşən kənd. Kəndin keçmiş adı ***Qayabaşı*** olub. Bu yaşayış məntəqəsi yerləşdiyi fiziki-coğrafı mövqeyi ilə əlaqədar olaraq belə adlanmışdır. XIX əsrin əvvəllərində Cənubi Azərbaycanın Qaradağ mahalından, ***Dəhrəv*** kəndindən gəlmə erməni ailələri burada məskunlaşdıqdan sonra kəndi ***Dəhrəv*** adlandırmışlar. ***Dəhrəv*** sözü ***Daharav*** sözündən olub, "*təpəlik*" anlamını ifadə edir. 1992-ci ildən kəndin adı ***Qayabaşı*** kimi rəsmiləşmişdir.

Dəhrəz – Rayon mərkəzindən 7 kilometr məsafədə, Qarabağ silsiləsinin yamacında yerləşən kənd. Bəzən adı ***Dəhraz*** kimi də yazılır. Kəndin keçmiş adı ***Qayabaşı*** olub. Bu yaşayış məntəqəsinin ərazisi XVIII əsrdə Qarabağ xanlarına məxsus mülk yeri idi. XIX əsrin əvvəllərində Cənubi Azərbaycandan gəlmə erməni ailələri burada məskunlaşdıqdan sonra yaşayış məntəqəsi indiki adla adlanmışdır. ***Dəhrəz*** (***Dəhraz***) oykonimi fars dilindəki ***dəhliz*** sözünün variantı kimi "*ensiz, dar keçid*" anlamını ifadə edir. ***Dəhrəz*** toponiminin elmi mənası hələlik tam dəqiqliklə izah olunmamışdır.

Dəmirçilər – Qarabağ silsiləsinin ətəyində, Qarabulaq inzibati ərazi vahidində, rayon mərkəzindən 28 km cənub-qərbdə yerləşən kənd. Kənd ***dəmirçilər*** nəslinə mənsub olan ailələrin burada məskunlaşması nəticəsində yaranmışdır. ***Dəmirçilər*** – türkdilli tayfadır. XIII əsr tarixçisi Şəhabəddin Nəsəvi *dəmirçiləri* Çingiz xanın nəsli ilə bağlayır. ***Dəmirçilər*** XVI əsrdə Türkiyənın Qars şəhəri ətrafında yaşamışlar. XVI əsrdə *qızılbaş* tayfaları sırasında adları çəkilən ***dəmirçilər*** sonralar *qazax* tayfa birliyinin ən qüdrətli tirələrindən birinə çevrilmişlər. Mirmehdi Xəzaniyə görə, *dəmirçilər* Azərbaycana (*əsasən Qarabağa*) Pənahəli xan dövründə gəlmişlər.

Əsgəran şəhər tipli qəsəbəsi – Rayon mərkəzindən 5, Xankəndi şəhərindən 17 kilometr şərqdə, Qarqar çayının sol sahilində, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində, Qarabağ silsiləsinin ətəyində, dağətəyi ərazidə yerləşən qəsəbə. Bəzi sənədlərdə adı ***şəhər*** kimi də qeyd olunur. 1967-ci ildən ***qəsəbə*** statusu alıb. Əhalisinin sayı 1500 nəfər idi. Qəsəbədə ermənilərlə yanaşı, azərbaycanlılar da yaşayırdı. Qəsəbədə orta məktəb, klub, kitabxana, uşaq bağçası, dispanser, tibb və baytar məntəqələri, rabitə şöbəsi, şərab-spirt və pivə zavodları, park, stadion, XVIII əsrə aid qala və s. vardır. 1992-ci ildə ermənilər tərəfindən işğal edilmişdir. Oykonim ***əski*** ("*köhnə*", "*qədim*") və ***aran*** sözlərindən ibarət olub, "*qədim Aran*", "*köhnə Aran*" anlamındadır. ***Əsgəran*** toponimi XVIII əsrdə Qarabağ xanı olan Pənahəli xanın tikdirdiyi ***Əsgəran*** qalasının adındandır. Qala keçmişdə ***Əsgəran*** adlanan yerdə tikilmişdir. Musa Kalankatlının "*Albaniya tarixi*" əsərində yaşayış məntəqəsinin adı ***Metsaran, Mets Aran*** ("*Böyük Aran*", ***mets*** – *"böyük" deməkdir*) formasında çəkilmişdir. Toponimin tərkibindəki ***aran*** komponentini ***Arran*** ilə də əlaqələndirən tədqiqatçılar vardır.

Farux – Rayon mərkəzindən 13 kilometr şimalda, Qarabağ silsiləsində, dağətəyi ərazidə yerləşən kənd. Bəzən sənədlərdə yaşayış məntəqəsinin adı ***Fərrux*** kimi də yazılır. Bu yaşayış məntəqəsinin əsasını ***Farux*** (***Fərrux***) adlı şəxs qoyduğuna görə, kənd də onun adı ilə adlandırılmışdır. Kəndin lap yaxınlığında ***Farux*** (***Fərrux***) ***gölü***, ***Farux*** (***Fərrux***) ***yeri*** və s. bu kimi mikrotoponimlər də qeydə alınmışdır. ***Farux*** sadə oykoniminin 1907-ci və 1918-ci illərdə fəaliyyət göstərmiş müxtəlif millətlərin zəhmətkeşləri arasında beynəlmiləlçiliyi möhkəmləndirmək məqsədi güdən ***Faruq*** (hərfi mənası "*ədalət tərəfdarı*") sosial-demokrat qrupunun adı ilə bağlılığı ehtimal edilir.

Harov – Qarabağ silsiləsində, dağətəyi ərazidə, rayon mərkəzindən 16 km cənub-şərqdə yerləşən kənd. Əhalisinin sayı 300 nəfər idi. Bəzi tədqiqatçıların fikrinə görə, ***Harov*** toponimi iran dillərindəki ***hor*** və ***ov*** sözlərindən ibarətdir. ***Hor*** – "*isti*", ***ov*** – "*su*" deməkdir. Əgər bununla razılaşsaq, toponimin "*isti su*" mənasında olduğunu qeyd etmək olar. ***Hor*** komponentini fars dilindəki ***oura*** ("*qala*") sözü ilə də əlaqələndirənlər vardır. Bir çox tədqiqatçılar isə kəndin XIX əsrdə Cənubi Azərbaycanın ***Horov*** kəndindən gəlmiş ailələr tərəfindən salındığına görə belə ad almasını iddia edirlər.

Həsənabad – Qarabağ silsiləsində, dağətəyi ərazidə yerləşən kənd. ***Həsənabad*** toponimi ***Həsən*** (*şəxs adı*) və ***abad*** sözlərindən ibarət olub, "*Həsənə məxsus kənd*" deməkdir. Bəzi tədqiqatçılar ***Həsənabad*** oykonimindəki ***abad*** sözünü yanlış olaraq türkdillı "***avat***" tayfa adı ilə əlaqələndirməyə çalışırlar.

Xaçmaz – Qarabağ silsiləsinin ətəyində, rayon mərkəzindən 30 km cənubda, Qızıloba inzibati ərazi vahidində, Xankəndi-Füzuli avtomobil yolunun kənarında yerləşən kənd. Yaşayış məntəqəsi yaranmazdan əvvəl bu yerlərin adı ***Xaçmaz*** olmuşdur. Kəndin adı mənbələrdə bəzən ***Xaçmaç*** formasında da yazılır. Bir fikrə görə, ***Xaçmaz*** coğrafi adı oradakı sütunda ***xaç*** formalı daşların olması ilə əlaqədardır. Oykonimi V əsrdə Qafqaz Albaniyasının şimal-şərqində yaşamış ***xaçmatan*** (*xaçpərəstlər*) tayfasının adı ilə əlaqələndirənlər də var.

Xanabad – Qarabağ silsiləsində, dağətəyi ərazidə, rayon mərkəzindən 11 km şimalda yerləşən kənd. ***Xanabad kəndi*** əvvəllər **Həsən xanın** kəndi olub. Ermənilər onları ailəlikcə öldürüb mülklərinə sahib olublar. Bu yaşayış məntəqəsinin ərazisi vaxtilə Qarabağ xanlarına məxsus olduğuna görə belə adlandırılmışdır. Toponim ***xan*** və ***abad*** sözlərindən ibarətdir. ***Xanabad*** toponimi "*xanın saldığı kənd*", "*xanın abadlaşdırdığı yaşayış məntəqəsi*" mənasındadır.

Xanbağı yaşayış məntəqəsi – Qarabağ silsiləsinin ətəyində, Xocalı rayon mərkəzindən 4 kilometr aralıda, Xocalı-Xankəndi avtomobil yolunun kənarında, gözəl bir ərazidə yerləşir.

Bu ərazi vaxtilə Qarabağ xanlarının bağ yeri, istirahət məkanı olmuşdur. XX əsrin əvvəllərində ***Xanbağı*** yaşayış sahəsində dövrünün varlı və nüfuzlu ağası olan Məhəmməd ağanın tikdirdiyi 2 və 3 mərtəbəli binalar indiyə kimi qalmaqdadır. Bu evlərin yerləşdiyi ərazidə çox dərin buz anbarı da vardır. Buradakı evlərdə tarixən azərbaycanlılar yaşamışlar. ***Xanbağı*** (*Xankəndi* də daxil olmaqla) Qarabağ xanlığının sonuncu hakimi olan Mehdiqulu xanın şəxsi torpaq mülkü olmuşdur. Sonralar bu mülklər Məhəmməd ağanın atası Əbrəxana məxsus olmuş və ondan sonra da onun oğluna qalmışdır.

Xankəndi şəhəri – Azərbaycanda, Qarabağ silsiləsinin şərq ətəyində, Qarqarçayın sahilində, Bakıdan 390 km məsafədə, Şuşa şəhərindən 12 kilometr aralıda yerləşən ***Xankəndi şəhəri*** Azərbaycanın inkişaf etmiş sənaye mərkəzidir. Sahəsi 29 kv. km-dir. Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin 1923-cü il tarixli qərarı ilə "DQMV erməni əhalisinin müraciəti nəzərə alınaraq" bu yaşayış məntəqəsinin adı dəyişdirilərək Kommunist partiyası və Sovet dövlət xadimi, Azərbaycan xalqının düşməni, millətçi erməni ***Stepan Georgiyeviç Şaumyanın*** (*13 sentyabr 1878, Tiflis – 20 sentyabr 1918*) şərəfinə ***Stepanakert*** ("***kert***" erməni dilində "*şəhər*" deməkdir) adlandırılmışdır. ***Xankəndi*** şəhərinin 52 000 nəfər əhalisi vardı. 1933-1938-ci illərə qədər ***Xankəndi*** azərbaycanlılar yaşayan məhəllələrdən ibarət idi. Bu yaşayış məntəqəsini Qarabağ xanı Pənahəli xanın oğlu Mehdiqulu xan saldığına görə o, ***Xankəndi*** adlanmışdır. Qarabağ xanlığı Rusiyaya birləşdirildikdən sonra kənd Mehdiqulu xanın arvadı ***Pəricahan*** bəyimə bağışlanmışdır. 1847-cü ildə Rusiya ordusunun ***Sünjen*** (***Sunca***) alayı Xankəndi ərazində yerləşdirilmişdir. Sonralar burada İran, Türkiyə və s. yerlərdən gələn ermənilərin ailələri yerləşdirilmişdir. Çar hakimiyyəti zamanında burada rus əsgərləri və ***ştab*** olduğu üçün *Xankəndi* bir müddət ***Ştab*** da adlandırılmışdır. ***18 sentyabr 1988-ci il*** tarixdə Xankəndi şəhərində yaşayan azərbaycanlılar demək olar ki, bütünlüklə oradan qovulmuşlar. 1991-ci ildə *Stepanakertin* tarixi adı olan ***Xankəndi*** özünə qaytarılmışdır. Lakin elə həmin ilin dekabrında ***Xankəndi şəhəri*** ermənilər tərəfindən tam işğal edilmişdir. Azərbaycanın tarixi şəhərlərindən biri olan ***Xankəndi şəhəri*** bu gün də düşmən əsirliyindədir.

Xanyeri – Qarabağ silsiləsində, dağətəyi ərazidə yerləşən kənd. ***Xanyeri*** toponimi "*xana məxsus olan yer*", "*xan yeri*" mənasındadır. ***Xanyeri*** toponimini ermənilər ***Xantsk*** formasında rəsmiləşdirməyə çalışmışlar.

Xanyurdu – Qarabağ silsiləsində, dağətəyi ərazidə yerləşən kənd. **Xanyurdu** yaşayış məntəqəsi XIX əsrdə Zəngəzur qəzasından köçüb gəlmiş erməni ailələri tərəfindən ***Xan yurdu*** adlanan ərazidə salınmışdır. Kəndin adını ermənilər ***Xanadzax*** formasında rəsmiləşdirmişdilər. ***Xənəzək*** (***Xanadzax***) ***kəndi*** Məhəmməd ağanın atası Əbrəxanın mülkü olub. 1992-ci ildə kəndin keçmiş ***Xanyurdu*** adı bərpa edilmişdir.

Xəlilli – Qarabağ silsiləsinin ətəyində yerləşən kənd. ***Xəlilli*** toponimi ***Xəlilli*** tayfasının burada məskunlaşması nəticəsində yaranmışdır. *Xəlilli tayfası* türkdilli *qayıların* ***xəlilli*** tayfasının adı ilə əlaqədardır. Onlar XIII əsrdə Qərbi Türküstandan köçürülmüşdür. Toponimi ***Xəlil*** şəxs adı ilə də bağlayanlar var.

Xocalı şəhəri – Qarabağ silsiləsinin ətəyində, Qarqar, İlis, Xocalı çaylarının qovuşduğu ərazidə, Xankəndi şəhərindən 13 klometr şimal-şərqdə yerləşən şəhər. Əvvəllər Stepanakert, sonralar Əsgəran rayonunun tərkibində kənd olmuşdur. Bu yaşayış məntəqəsi rayonun inzibati mərkəzi hesab olunurdu. 1991-ci ilin sonunda əhalisinin sayı 6500 nəfər idi. Əhali əsasən heyvandarlıq, üzümçülük, taxılçılıq, sənətkarlıq və ticarət ilə məşğul olurdu. Şəhərdə iki orta məktəb, mədəniyyət evi, iki kitabxana, klub, tibb məntəqəsi, poçt-rabitə şöbəsi, məişət-xidməti müəssisəsi, xəstəxana və s. vardı. Xocalı yaşayış məntəqəsinin ərazisi arxeoloji və tarixi memarlıq

abidələri ilə zəngin idi. Kəndin ərazisində tarixi abidələrdən Son Tunc və İlk Dəmir dövrlərinə aid nekropollar, XİV əsrə aid türbə və s. var idi. Xocalı – Gədəbəy mədəniyyət abidəsi tarixin dərin qatlarından xəbər verir. Xocalı şəhəri ***26 fevral 1992-ci il*** tarixdə ermənilər tərəfindən işğal olunmuşdur. Ermənilər şəhəri vəhşicəsinə yandırmışlar. Tarixi sənədlərdə göstərilir ki, ***Xocalı*** yaşayış məntəqəsi 1905-1906-cı və 1918-1920-ci illərdə də ermənilər tərəfindən yandırılmışdır. Bundan sonra hörmətli Xocalı bəylərindən olan Səfiyar bəy və digərlərinin təklif və məsləhətləri ilə dağılmış Xocalının xarabalığı yaxınlığında – Allahverdi bəyin tut bağının cənub hissəsində yeni Xocalı yaşayış məntəqəsi yaradılmışdır. 1991-ci ildə *Xocalı* 3 yaşayış məntəqəsini – Xocalı, Dərələyəz və Qaladərəsini əhatə edən şəhərə çevrildi. ***Xocalı qəsəbəsi*** (*kəndi*) özü 3 hissəyə bölünür: 1) Xocalı çayının sol sahilində, İlis çayının Xocalı çayına qovuşduğu sahənin əmələ gətirdiyi üçbucaqda yerləşən ***Köhnə Xocalı*** (bu ərazi sonralar Qarqar çayına qədər genişlənərək Xocalı şəhərinə çevrilmişdir); 2) Xocalı çayının sağ sahilində, Köhnə Xocalı kəndindən bir qədər cənubda XX əsrin əvvəllərində müxtəlif ərazilərdən qovulub gələnlər tərəfindən salınan ***Qaladərəsi Xocalısı***; 3) Xocalı və Qarqar çayları arasındakı köhnə poçt stansiyası ərazisində 1918-1920-ci illərdə Ermənistandan qovulmuş qaçqınlar tərəfindən salınan ***Qaçqınlar Xocalısı***. Xocalı şəhəri ***xocalı*** nəslinə mənsub olan ailələr tərəfindən salındığı üçün belə adlanmışdır. Bəzi tədqiqatçılar toponimi səhvən ***Xoca*** komponenti ilə əlaqələndirməyə çalışırlar. Məlumdur ki, orta əsrlərdə iri ticarətlə məşğul olan tacirlərə, məşhur din adamlarına ***Xoca*** deyilirdi.

Xramort – Qarabağ silsiləsində, dağətəyi ərazidə, rayon mərkəzindən 15 km şimalda yerləşən kənd. Adı bəzən sənədlərdə ***Xoramord*** kimi də yazılır. Kəndin əsl adı ***Pirkənd*** olmuşdur. Vaxtilə kənd ərazisində müqəddəs hesab edilən məbəd Pir-ziyarətgah olmuşdur. ***Xramort*** sözü ilə bağlı müxtəlif fərziyyələr vardır. Toponimin mənası hələlik tam aydınlaşdırılmamışdır. ***Xram*** sözü bəzi Qafqaz xalqlarının dillərində (gürcü, erməni və s.) "*dərədən axan dərin yataqlı dağ çayı*" mənasındadır. ***Xramort*** (***Xoramurd***) kəndi vaxtilə *Xaçın* məlikliyinin tərkibində olub.

İlis – Qarabağ silsiləsinin ətəyində yerləşən kənd. ***İlis*** yaşayış məntəqəsi XIX əsrdə Cənubi Azərbaycanın Qaradağ vilayətindən köçüb gəlmiş erməni ailələrinin ***İlis*** adlı yerdə məskunlaşması nəticəsində yaranmışdır. ***İlis*** (***Hilis***) iki çayın – Qarqar hövzəsi çaylarının qovuşduğu yerin adıdır. Toponimin izahı hələlik dəqiq açıqlanmayıbdır. Kəndin əvvəlki adı ***Qarakötük*** olub. 1992-ci ildə yaşayış məntəqəsinin əvvəlki adı bərpa olunmuşdur. Xocalı rayonu ərazisində, İlis kəndi yaxınlığında ***İlis*** adlı çay da vardır.

Kərkicahan qəsəbəsi – Rayon mərkəzindən 15 km cənubda, Xankəndi şəhərindən 1,5 kilometr çənub-şərqdə, Xankəndi şəhər inzibati ərazi dairəsində, Qarabağ silsiləsinin şərq yamacında, Qarqar çayından bir kilometr məsafədə, Xocalı-Şuşa avtomobil yolunun kənarında yerləşən yaşayış məntəqəsi. Kərkicahan ərazisində 3 qəbiristanlıq vardır. Bu qəbiristanlıqlarda orta əsrlərə aid abidələr də var. Burada XIV əsrə aid üzərində müxtəlif yazılar olan qəbirlər, bir qədər aralıda, Kilsəli deyilən yerdə Alban kilsəsi, qədim qəbirlər, 800 il əvvələ aid edilən müsəlman qəbiristanlığının qalıqları, Alban pir-ocağı və s. vardır. *Kərkicahan qəsəbəsi* Xankəndi şəhərinin qeyri-rəsmi ***26-cı məhəlləsi*** hesab olunurdu. Kərkicahanda 320 azərbaycanlı evi, 60 erməni evi vardı. 1960-cı illərdən DQMV-nin millətçi erməni rəhbər orqanlarının işçiləri bu kəndin (qəsəbənin) adını yaşayış məntəqələrinin rəsmi siyahısından çıxarmış, Xankəndi şəhərinə birləşdirərək onun ərazi vahidliyinə qatmışlar. ***21 aprel 1990-cı il*** tarixdə bu yaşayış məntəqəsinə ***şəhər tipli qəsəbə*** statusu verilmişdir. ***Kərkicahan*** yaşayış məntəqəsi ***28 dekabr 1991-ci il*** tarixdə ermənilər tərəfindən işğal edilmişdir. ***Kərkicahan*** yaşayış məntəqəsinin adı rəsmi sənəd və mənbələrdə çox zaman ***Kirkəcan*** və ya ***Kırkıcan*** kimi qeyd edilmişdir. Yaşayış məntəqəsinin əsl adı çox güman ki, ***Kərkican*** olmuşdur. Bu etnotoponim türkdilli *ersarı*

tayfasının ***kərki*** etnonimindən və -***can*** ("*yer, məskən*") topoformantından ibarət olub, "*kərki tayfasının məskəni*" mənasını daşıyır. Azərbaycanda bağçılıqda işlədilən toxa əmək alətinə ***kərki*** deyilir. Ondan ağac yonmaqla bərabər, mismar çalmaq və çıxarmaq üçün çəkic-kəlbətin kimi də istifadə edilir. ***Kərkicahan*** toponiminin *kərki* əmək aləti ilə əlaqələndirmək istəyənlər yanılırlar. Bəzi mütəxəssislər isə bu toponimi ***Qarqarçay*** sözü ilə əlaqələndirirlər. Sədərək rayonunda da ***kərki*** etnonimi ilə bağlı oykonim qeydə alınmışdır. Sədərək rayonunun ***Kərki kəndi*** – 1990-cı ilin yanvarında ermənilər tərəfindən işğal edilmişdir.

Kətik – Rayon mərkəzindən 8 kilometr məsafədə, dağətəyi ərazidə, Xanabad inzibati ərazi vahidində qeydə alınan kənd. Kəndin əvvəlki adı ***Ağdar*** olub. İndiki adı isə ***Ağgədik*** kimi qeyd olunur. Bir çox tədqiqatçılar kəndin adının ***Kətik*** (***Ketik***) olmasını Qafqaz Albaniyasındakı məşhur ***Kətik*** (***Ketik***) məbədinin adı ilə əlaqələndirirlər. ***Kətik*** sözü qədim türk dilində "*gədik*" deməkdir.

Kosalar – Rayon mərkəzindən 16 km cənub-qərbdə yerləşən kənd. ***Kosalar kəndi*** erməni işğalçı qüvvələri tərəfindən işğal edilmişdir. ***Kosalar*** toponimi XIX əsrin əvvəllərində Qarabağ xanı Mehdiqulu xana mənsub olan ***xəlfəli*** tayfasının (*bu tayfa şahsevən tayfa ittifaqına daxil idi*) ***kosalar*** tirəsinin adı ilə bağlıdır. Yerli məlumata görə, ***Kosalar*** yaşayış məntəqəsini keçmiş Zəngəzur qəzasının *Kosalar* (Ağoğlan) kəndindən köçmüş ailələr salmışlar. Bir sıra məlumatlara görə, kəndi Avaz adlı igid və varlı bir kişi salıb.

Qarabulaq – Qarabağ silsiləsinin ətəyində, dağətəyi ərazidə, rayon mərkəzindən 30 km cənub-şərqdə yerləşən kənd. ***Qarabulaq kəndi*** XIX əsrin əvvəllərində Cənubi Azərbaycanın Qaradağ mahalından gəlmiş ailələrin ***Qarabulaq*** adlanan yerdə məskunlaşması nəticəsində yaranmışdır.

Qaragav – Qarabağ silsiləsinin şimal-şərq yamacında, rayon mərkəzindən 16 km cənub-qərbdə, Qırxqız yaylası ərazisində Kosalar kənd sovetliyində yerləşən kənd. ***10 may 1992-ci il*** tarixdə bu yaşayış məntəqəsi ermənilər tərəfindən işğal edilmişdir. ***Qaraqav*** sözü ***qara*** və ***gav*** (*fars dilində bu sözün "çətin keçilən dağ aşırımı" mənası vardır*) sözlərindən ibarətdir. ***Qara*** türk dilində "*böyük*"mənasındadır. ***Qaragav*** oykonimi "*çətin keçilən böyük dağ aşırımı*" deməkdir.

Qarakötük – Qarabağ silsiləsində, rayon mərkəzindən 14 km şimal-qərbdə yerləşən kənd. ***Qarakötük*** kəndinin adını bəzən sənədlərdə ***İlis*** kimi də qeyd edirlər. Məlumdur ki, bu kəndin yaxınlığında arxeoloji tədqiqatlar nəticəsində çoxlu qiymətli, tarixi maddi-mədəniyyət nümunələri aşkar edilmişdir. XIX əsrdə Cənubi Azərbaycanın Qaradağ mahalından köçüb gələn erməni ailələri ***Qarakötük*** adlı yerdə məskunlaşdığından bu yaşayış məntəqəsi də belə adlandırıldı. Sonralar kəndin adı ***İlis*** kimi rəsmiləşdi. **Qarakötük** toponiminin dəqiq elmi mənası hələlik tam məlum deyildir. 1992-ci ildə kəndin ***Qarakötük*** adı bərpa edilmişdir.

Qayabaşı – Qarabağ silsiləsinin yamacında, Bədərə çayının sahilində, rayon mərkəzindən 7 km şimal-qərbdə yerləşən kənd. Kənd coğrafı mövqeyi ilə əlaqədar belə adlanırdı. Kəndin yerləşdiyi ərazi ***Qayabaşı*** adlandığından kənd də bu ad ilə adlandırılmışdır. ***Qayabaşı*** toponimi "*qayaüstü*" mənasındadır. XIX əsrin əvvəllərində Cənubi Azərbaycanın ***Dehrəv*** kəndindən gələn erməni ailələri burada məskunlaşdıqdan sonra kənd ***Dəhrəv*** adı daşımışdır. Sonralar – *29 dekabr 1992-ci il* tarixdə kəndin keçmiş *Qayabaşı* adı bərpa edilmişdir. ***Qayabaşı kəndi*** vaxtilə Xaçın məlikliyinin tərkibində olub.

Qışlaq – Rayon mərkəzindən 7 km qərbdə yerləşən kənd. Bu yaşayış məntəqəsi keçmiş ***qışlaq*** yerində salındığı üçün belə adlanmışdır.

Mehdibəyli – Qarabağ silsiləsinin ətəyində, rayon mərkəzindən 11 km cənub-qərbdə yerləşən kənd. Bəzi sənədlərdə adı ***Mehdikənd*** kimi də çəkilir. XIX əsrdə İrandan gələn ermənilər burada yerləşdirildikdən bir müddət sonra ***Mehdibəyli*** yaşayış məntəqəsi ***Mehdişen*** adlanmışdır. 1992-ci ildə kəndin keçmiş adı bərpa olunmuşdur. ***Mehdibəyli*** toponimi "*Mehdibəyin kəndi, Mehdibəyə məxsus olan kənd*" mənasındadır.

Meşəli – Qarabağ silsiləsində yerləşən kənd. Kənd ermənilərin millətçi rəhbər orqanları tərəfindən uzun müddət yaşayış məntəqələrinin rəsmi siyahısına salınmamışdır. ***Meşəli*** yaşayış məntəqəsi **23 dekabr 1991-ci il** tarixdə ermənilər tərəfindən işğal edilərək vəhşicəsinə yandırılmışdır. Bu hadisədən sonra əhali kənddən didərgin düşmüşdür.

Mədətkənd – Qarabağ silsiləsində, dağətəyi ərazidə yerləşən kənd. Adı bəzən ***Mədədkənd*** kimi də yazılır. Bu yaşayış məntəqəsinin keçmiş adı ***Almanasqomer*** olmuşdur. Azərbaycanın şimalına yiyələnmək üçün gedən Rusiya-İran müharibəsinin (1826-1828-ci illər) iştirakçısı, milliyyətcə erməni olan general ***Mədətov*** kəndi öz mülkiyyətinə çevirdikdən sonra yaşayış məntəqəsi onun adı ilə əlaqədar **Mədətkənd** (***Mədədkənd***) adlandırılmışdır.

Mikayıllı – Qarabağ silsiləsində yerləşən kənd. Bu yaşayış məntəqəsi 1990-cı ildə erməni millətçiləri ilə mübarizədə qəhrəmancasına həlak olmuş polis baş leytenantı ***Mikayıl Əhmədiyyə oğlu Cəbrayılovun*** adı ilə adlandırılmışdır. Kənd erməni quldurları tərəfindən vəhşicəsinə talanaraq yandırılmışdır.

Mirzəkənd – Qarabağ silsiləsinin şimal-şərq yamacında, Lələkənd yüksəkliyi ətrafında yerləşən kənd. ***Mirzəkənd*** yaşayış məntəqəsi iki əsr bundan əvvəl burada Mehdiqulu xana məxsus xəlfəli tayfasının ***Mirzələr*** adlı nəslinin məskunlaşması nəticəsində yaranmışdır.

Muxtarkənd – Qarabağ silsiləsinin ətəyində yerləşən kənd. XIX əsrdə Çar Rusiyası Azərbaycanı işğal etdikdən sonra gəlmə ermənilər burada yerləşdirilmiş və bir müddət kənd ***Mxitarikənd*** (***Mxitar Karapetin*** adı ilə əlaqələndirilib) adlandırılmışdır. ***Muxtar*** toponimi şəxs adı ilə bağlıdır.

Naxçıvanlı – Qarabağ silsiləsində, dağətəyi ərazidə, rayon mərkəzindən 7 km şərqdə yerləşən kənd. ***Naxçıvanlı kəndi*** vaxtilə Xaçın məlikliyinin Çiləbird mahalının tərkibində olmuşdur. **Naxçıvanlı** kəndini vaxtilə Naxçıvandan köçüb gələn ailələr saldığı üçün kənd belə adlanmışdır. Sonralar burada gəlmə ermənilər yerləşdirilmişdir. Kəndin adı sənədlərdə bəzən ermənilər tərəfindən ***Naxçıvanik*** kimi də yazılır.

Pircamal – Qarabağ silsiləsində, dağətəyi ərazidə, rayon mərkəzindən 6 km şərqdə yerləşən kənd. ***Pircamal*** yaşayış məntəqəsini qədim Beyləqandan köçüb gəlmiş ailələrin saldığı güman olunur. Bu toponimin keçmişdə orada mövcud olmuş ***Pircamal*** pirinin adı ilə bağlı olduğunu iddia edən tədqiqatçılar da var.

Rev – Rayon mərkəzindən 17 km şimalda yerləşən kənd. ***Rev*** toponiminin dil mənsubiyyəti və mənası hələlik dəqiq müəyyənləşdirilməmişdir. Rayon ərazisində ***Rev*** adlı dağ da var. ***Rev*** kəndinin əvvəlki adı ***Şəlvə*** olub. Ermənilər burada yerləşdikdən sonra kəndi *Rev* adlandırıblar.

Saruşen – Rayon mərkəzindən 25 kilometr məsafədə, Xankəndi-Füzuli avtomobil yolunun kənarında yerləşən kənd. Kəndin əvvəlki adı ***Dağyurd*** olub. Erməni ailələri bu yaşayış məntəqəsinə köçdükdən sonra kəndi ***Saruşen*** adlandırmışlar.

Seyidbəyli – Xocalı rayonunda Qarabağ silsiləsində dağətəyi ərazidə yerləşən kənd. XIX əsrin əvvəllərində köçüb gəlmə erməni ailələri burada məskunlaşdıqdan sonra kəndi ***Seyidişen*** adlandırmışlar. 1992-ci ildə kəndin əvvəiki ***Seyidbəyli*** adı bərpa edilmişdir.

Sərdarkənd – Xocalı rayonunda, Qarabağ silsiləsində, dağətəyi ərazidə yerləşən kənd. Bəzən adı ***Sərdar kəndi*** kimi də yazılır. Kəndin keçmiş adı ***Yengicə*** olmuşdur. XIX əsrdə köçüb gəlmə ermənilər burada məskunlaşdıqdan sonra kənd ***Sardaraşen*** ("*Sərdarın kəndi*") adlanmışdır. Kəndin ***Sərdarkənd*** adı 1992-ci ildə bərpa edilmişdir.

Sığnax – Qarabağ silsiləsinin ətəyində, rayon mərkəzindən 26 km cənubda, Çanaqçı inzibati ərazi vahidində yerləşən kənd. ***Sığnax*** toponimi keçmişdə müdafiə məqsədilə istifadə olunan "*sığınacaq yeri*" mənasında işlədilən ***sığnaq*** coğrafi termini ilə əlaqədardır. Ümumiyyətlə, ***sığnaq*** toponimi geniş areala malikdir. Hələ erkən orta əsrlərdə Dəşti Qıpçaq çölündə qıpçaqların ***Sıqnak/Suqnak*** adlı mərkəz şəhəri mövcud olmuşdur. Azərbaycan Sacilər sülaləsinin banisi Əbu Sac Divdad (?-879) mənşə etibarı ilə ***Sıqnak*** mahalından idi. 1229-cu ildə şəhəri monqollar işğal edib dağıtmışlar.

Suncinka – Qarabağ silsiləsinin yamacında, rayon mərkəzindən 8 km qərbdə, dağətəyi ərazidə yerləşən kənd. Bu yaşayış məntəqəsi *Sunca çayı* yaxınlığında yerləşdiyinə görə ***Suncinka kəndi*** adlanmışdır. 1847-ci ildə çar Rusiyası Xankəndi ərazisində, çay kənarında ***Sunca*** polkunu yerləşdirmişdir. Sonralar həmin çay ***Sunca*** və bu kənd də onunla əlaqədar ***Suncinka*** adlandırılmışdır.

Şəlvə – Xocalı rayonunda, Qarabağ silsiləsində, dağətəyi ərazidə yerləşən kənd. Ermənilər kənddə yerləşdikdən sonra ***Şəlvə*** kəndi ***Rev*** adlanmağa başladı. Toponimin dil mənsubiyyəti və mənası dəqiq müəyyən olmadığı üçün kəndə ***Şəlvə*** adı verilmişdir. ***Şəlvə*** toponimi ***şelu*** və ***av/ava*** komponentlərindən ibarətdir. ***Şelu*** – "*bulanıq*", ***ava*** – "*su*" deməkdir. Deməli, ***Şəlvə*** sözü "*bulanıq su*" mənasındadir (*əlavə məlumat üçün bax:* **Rev kəndi**).

Şuşikənd – Xocalı rayonunda, Qarabağ silsiləsində, Füzuli-Xankəndi avtomobil yolunun kənarında, dağətəyi ərazidə yerləşən kənd. Bəzən sənədlərdə adı ***Şuşakənd*** və ya ***Şuşukənd*** kimi də qeyd olunur. ***Şuşikənd*** adı eramızın əvvəllərində Şimali Qafqaz çöllərində yaşamış türkdilli tayfaların özləri ilə gətirdikləri addır. II əsr müəllifi Tatsit Şimali Qafqazda – *dondarlarda* mərkəz şəhərin ***Şoşu*** adlandığını yazmışdır. Latın dilində "***ş***" səsi olmadığı üçün həmin müəllif onu ***Sosu*** kimi qeyd etmişdilər. III-IV əsrlərdə Şərqdən Cənubi Avropa çöllərinə gələn hunlar dondarları da özlərinə tabe etmişlər. Çox güman ki, qədim türkdilli ***dondarlar*** hunların bir hissəsi ilə birlikdə Azərbaycan ərazisinə gəlib məskunlaşdıqda, bəzi yaşayış məntəqələrinə ***Şoşu*** şəhərinin adını vermişlər. Bəzi tədqiqatçılara görə ***Şuşa şəhəri*** sonralar yaxınlığındakı bu ***Şuşukənd*** kəndinin adı ilə adlanmışdır. Ancaq bunun özü də yanlışdır. Ehtimal etmək olar ki, *Şuşa* coğrafi adı ***şiş*** ("*dik, iti uclu zirvə*") sözü ilə bağlı yaranmışdır. Klassik ədəbiyyatda ***Şuşa*** şəhərinin adı ***Şişə*** kimi çəkilir.

Tağaverd – Xocalı rayonunda, Qarabağ silsiləsində, dağətəyi ərazidə yerləşən kənd. Yerli məlumata əsasən, ***Tağaverd*** yaşayış məntəqəsini Şuşa qəzasının keçmiş Şüşülü, Dırnavos, Tuğ və Domu kəndlərindən köçüb gəlmiş ailələr yaratmışdır. Kəndin keçmiş adı ***Aşağı Tağaverd*** olub. Rayonun indiki *Zərdanaşen* kəndi isə *Yuxarı Tağaverd* adlanırdı. ***Tag*** – memarlıqda divarlarda pəncərə və qapı yerlərinin, yaxud, iki dayaq (*sütun, dirək və s.*) arasındakı boşluğun üstünü örtmək üçün əyrixətli örtük konstruksiyasına deyilir. *Tag* yarımdairə, çatma, nalvarı və s. formalarda olur. Bəzi tədqiqatçıların fikrincə, ***Tağaverd*** toponimi "*qala məhəlləsi*" mənasını daşıyır. Bu oykonimi "*güllük*" mənası ilə izah edənlər də vardır.

Təzəbinə – Rayon mərkəzindən 9 km qərbdə yerləşən kənd. ***Təzəbinə*** (bəzən ***Təzəkənd*** də deyirlər) yaşayış məntəqəsi uzun müddət ***Keşişkənd*** kimi də tanınmışdır. Sonralar isə ***Noragüğ*** (***Noragur***) adı ilə rəsmiləşmişdir. ***Nor* sözü** erməni dilində "*təzə, yeni*", ***güğ*** – isə "*kənd*" deməkdir. 1992-ci ildə kənd ***Təzəbinə*** adlandırılmışdır.

Ulubab – Rayon mərkəzindən 13 km şimal-qərbdə yerləşən kənd. Kəndin əsl adı ***Ulubabi*** olmuşdur. Bəzi sənədlərdə ***Ulubaba*** kimi də qeyd olunmuşdur. ***Ulubabi*** toponiminin tərkibindəki ***Ulu*** komponenti türk dillərində "*böyük, əzəmətli, qədim, müqəddəs*" və s. mənalarını daşıyır. Toponimin tərkibindəki ***babi*** komponenti isə qədim pir adıdır. Çox güman ki, ***pir*** şiəliyin ***babi*** məzhəbinə mənsub olanlara məxsusluğuna görə belə adlanmışdır. Mənbələrə görə, ***Ulubab*** yaşayış məntəqəsini XIX əsrin ortalarında ***Seyidbəyli*** kəndindən çıxmış ailələr salmışdır.

Yaloba – Rayon mərkəzindən 16 km cənub-qərbdə yerləşən kənd. Adı sənədlərdə bəzən ***Yalobakənd*** kimi də qeyd olunur. Kənd erməni işğalı altındadır. Bu yaşayış məntəqəsinin adı ***Yal***, ***oba*** və ***kənd*** sözlərindən ibarətdir. ***Yal*** -"*dağ beli*"nə deyilir. Kənd əvvəllər mövcud olmuş ***oba*** əsasında əmələ gəlmişdir.

Çanaqçı alban məbədi, 1065-cil il

Xocalı-Gədəbəy mədəniyyət abidəsi

Türbə – XIV əsr (Xocalı şəhəri).

Qarabulaq məbədi

Əsgəran qalası – XVIII əsr (Əsgəran qəsəbəsi)

XOCAVƏND RAYONU

(RAYON HAQQINDA ÜMUMİ MƏLUMAT)

Azərbaycan Respublikasının **26 noyabr 1991**-ci il tarixli, **279-XII** nömrəli Qanununa əsasən **DQMV** ləğv edilərək keçmiş Martuni və Hadrut rayonlarının bazası əsasında **Xocavənd rayonu** yaradılmışdır. Rayonun ümumi sahəsi **1458** km^2, əhalisi **42 000** (o cümlədən azərbaycanlılar – **11 000**) nəfər idi. **Xocavənd rayonu** Ağdam, Ağcabədi, Füzuli, Cəbrayıl, Qubadlı, Laçın, Şuşa, Xocalı rayonları ilə həmsərhəddir.

Rayonda **1** şəhər (*Xocavənd şəhəri* – rayon məkəzi), **2** iri qəsəbə (*Qırmızı Bazar və Hadrut*), **82** kənd var. Bu kəndlərdən **10**-u tamamilə azərbaycanlılar yaşayan kəndlərdir. Məlum ***Qarabağ müharibəsi*** zamanı rayonun bütün azərbaycanlılar yaşayan kəndləri erməni hərbi birləşmələri tərəfindən işğal olunmuşdu.

XOCAVƏND RAYONUNUN KƏNDLƏRİNİN İŞĞAL VƏ İŞĞALDAN AZAD OLUNMA TARİXLƏRİ:

Tuğ, Salakətin	30.10.1991-ci ildə işğal edilib; 09.11.2020-ci ildə azad edilib
Xocavənd	19.11.1991-ci ildə işğal edilib
Axullu	09.01.1992-ci ildə işğal olunub; 16.10.2020-ci ildə azad edilib
Qaradağlı	17.02.1992-ci ildə işğal edilib
Muğanlı, Əmirallar, Kuropatkino	02.10.1992-ci ildə işğal edilib
Günəşli	23.07.1993-cü ildə işğal olunub; 20.10. 2020-ci ildə azad edilib
Xətai	20.08.1993-cü ildə işğal olunub; 20.10.2020-ci ildə azad edilib

1988-ci ilin fevralından başlayan Qarabağ müharibəsində Xocavənd rayonu **146 şəhid** (*onların **15** nəfəri qadın, **13** nəfəri uşaqdır*) vermişdir. Müharibənin əsas ağırlığını rayonun Tuğ, Salakətin, Xocavənd, Axullu, Qaradağlı, Muğanlı, Əmirallar, Kuropatkino, Günəşli və Xətai kəndlərinin əhalisi çəkmişlər.

Erməni hərbi birləşmələri **17 fevral 1992-ci il** tarixdə xarici ölkələrdən gətirilmiş muzdlu və Xankəndindəki Rusiyaya məxsus ***366***-cı mexanikləşdirilmiş atıcı alayın köməyi ilə Qaradağlı kəndini işğal edərək, orada ***soyqırım*** törətmişdir. Kəndin **54** nəfər sakini bir günün içərisindəcə şəhid olmuşdur (ümumilikdə kəndin **77** nəfər şəhidi var).

Xocavənd toponimi 2 hissədən – **Xoca** sözündən və **vənd** komponentindən ibarətdir. ***Xoca*** sözü türk dilində *"müəllim, öyrətmən"* anlamındadır. Toponimin tərkibindəki ***vənd*** komponenti İran dillərində *"uşağı, nəsli, törəməsi"* mənası daşıyır.

RAYONUN YAŞAYIŞ MƏNTƏQƏLƏRİ

Abdal qışlağı – Əmirallar kəndi yaxınlığında qeydə alınmışdır. ***Abdal qışlağı*** coğrafi adı türkmənşəli ***abdal*** etnonimi əsasında əmələ gəlmişdir. Suriyalı tarixçi Zaxari Ritor (*VI əsr*) Şimali Qafqazda, Hun əyalətində yaşayan müxtəlif tayfaların arasında türkdilli ***abdel*** (***abdal***) tayfasının da adını çəkmişdir. Akademik V.V.Bartold ***abdal*** tayfasını ***hun*** tayfası hesab edir. ***Abdal*** tayfasının adı mənbələrdə ***abdal, abadel, heftal, heptal, eftal*** kimi də çəkilir. Bütün bunlar əslində ***abdal*** adının müxtəlif variantlı fonetik formalarıdır. İbn Durayd yazır: **Abdal** (*tək halda* ***Badil***) – *müqəddəslər nəslidir* (*salehun*), dünya onlardan əskik olmur. Onlar cəmi 70 nəfərdirlər; onlardan *40*-ı Suriyada, 30-u isə digər ölkələrdə yaşayır. Onlara **pir** də deyirlər. ***Abdal*** (***badil***) sözü "*bogi eli*" deməkdir. Bu söz qədim türk dilində "*nurlanmış*" mənasında işlənmişdir. ***Abdal*** (***bədəl***) sözü ərəb dilində "*nəcabətli*", "*müdrik*", "*zahid*", "*mömin*", "*dərviş*", "*qələndər*", mənalarını ifadə edir. ***Abdal*** sözünün "*avara*", "*qanacaqsız, mərifətsiz*", "*bilici*", "*sərsəri*", "*dərbədər*" anlamları da mövcuddur. 1588-ci ilə aid olan tarixi mənbədə Qarabağ düzündə ***Həsən Abdallı*** elinin yaşadığı göstərilir.

Ağbulaq – Rayon mərkəzindən 31 kilometr cənub-qərbdə, dağlıq ərazidə, qonşu Füzuli rayonunun Çimən və Xocavənd rayonunun Axullu, Edilli kəndləri yaxınlığında yerləşən kənd. Bu yaşayış məntəqəsi XIX əsrdə Cənubi Azərbaycanın Qaradağ mahalından siyasi hadisələrlə əlaqədar köçüb gəlmiş ailə və tirələrin ***Ağbulaq*** adlı yerdə məskunlaşması nəticəsində yaranmışdır. ***Ağbulaq*** hidronimik oykonimdir. 1727-*ci* ilə aid olan "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı tarixi sənəddə Vərəndə nahiyəsinə tabe olan yaşayış məntəqələri içərisində ***Ağbulaq kəndi*** adına da rast gəlirik. Xocavənd rayonunda ***2*** **Ağbulaq kəndi** var. Əlavə məlumat üçün bax: **Ağbulaq (*Mısmına*) kəndi.**

Ağbulaq – Xocavənd rayonunda, Qarabağ silsiləsinin ətəyində, yerləşən kənd. Rayonun o biri ***Ağbulaq*** kəndindən fərqli olaraq bu kənd daha qədim tarixə malikdir. XIX əsrdə – "*Gülüstan*" və "*Türkmənçay*" müqavilələrindən az sonra bu kənddə İrandan (*əsasən Cənubi Azərbaycanın Qaradağ mahalından*) gəlmə ermənilər yerləşdirildi. Ermənilər ***Ağbulaq*** kəndinə köçəndən bir qədər sonra onun adını dəyişərək mənası məlum olmayan **Mısmına** qoydular. Sovet dönəmində də kənd bu adla sənədləşdirildi. Azərbaycanın müstəqiliyyinin ilk aylarında (1992-ci ilin əvvəli) kəndin keçmiş adı özünə qaytarıldı. Quruluşca mürəkkəb toponim olan ***Ağbulaq*** coğrafi adı "*içməyə yararlı, keyfiyyətli su*" mənasında işlənən ***ağ*** sözü ilə ***bulaq*** hidroniminin birləşməsindən əmələ gələn hidrotoponimdir.

Ağcakənd – Rayon mərkəzindən 75 kilometr cənub-qərbdə, Tağlar kəndinin yaxınlığında, Çaxmaqçayın sahilində, Qarabağ silsiləsində, dağətəyi ərazidə yerləşir. **1727**-ci ilə aid olan "*Gəncə – Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı tarixi qaynaqda Dizaq nahiyəsinə tabe olan kəndlər içərisində ***Ağcakənd*** adı da çəkilir. Türk dilində ***ağca*** sözü "*ağımtıl, quru, şumlanmamış, bozumtul yer, torpaq*" mənasındadır. Quruluşca mürəkkəb olan ***Ağcakənd*** toponimi "*ağımtıl, bozumtul yerdə kənd*" anlamındadır.

Ağdam – Rayon mərkəzindən 60 kilometr cənub-qərbdə, Ataqutçayın sahilində, Qarabağ silsiləsinin ətəyində yerləşən kənd. XIX əsrdə burada gəlmə ermənilər məskunlaşmış, kəndin adı da o zamandan mənası məlum olmayan ***Akak***, ***Akaku*** kimi sənədləşdirilərək rəsmiləşmişdir. Mənbələrdə ***Ağdam*** yaşayış məntəqəsi adına ilk dəfə 1357-*ci* ildə rast gəlirik. Oykonim ***ağ*** və ***dam*** sözlərindən ibarətdir. ***Ağ*** sözü "*rəng*", "*kiçik*" mənası bildirir. **Dam** sözü isə qədim türk uyğur dillərində mövcud olmuş, amma müasir Azərbaycan dilində saxlanılmayan ***tam*** formantının azacıq təhrifidir. ***Tam*** – "*qala*", "*qala divarı*", "*möhkəmləndirilmiş yer*", "*ev*", "*divar*", "*sədd*", "*istehkam*" anlamlarını daşımışdır. ***Ağdam*** toponimi "*kiçik qala*", "*ağ qala*", "*ağ rəngli qala divarı*", "*ağ ev*", "*ağ divar*" mənası ifadə edir. Toponim relyef əsasında yaranıb.

Ağkənd – Rayon mərkəzindən 11 kilometr şimal-qərbdə, Ağkənd inzibati ərazi vahidində, keçmiş Vərəndəli kəndinin ərazisində, Qarabağ silsiləsində, dağətəyi ərazidə yerləşən kənd. Bu yaşayış məntəqəsi ***2 avqust 1966-cı il*** tarixdə kənd inzibati ərazi vahidinin mərkəzi olmuşdur. XIX əsrdə, 1828-ci ildə İranın Xoy əyalətindən (*Cənubi Azərbaycan*) buraya ermənilər köçürülmüşdür. Kənddə məskunlaşan ermənilər kəndin adını dəyişərək (*erməni dilinə kalka edərək*) **Spitakşen (*Ağkənd*)** qoydular. ***Spitak*** – "*ağ*", ***şen*** – "*kənd*" deməkdir. 1992-ci ildən kənd yenidən ***Ağkənd*** adlandırılıb.

Axullu – Qarabağ silsiləsinin ətəyində, Ərgünəş dağının ətəyində, rayon mərkəzindən 33 km cənubda yerləşən kənd. **9 yanvar 1992**-ci **il** tarixdə Yuxarı Qarabağın Xocavənd rayonunun **Axullu kəndi** erməni silahlı birləşmələri tərəfindən işğal edilmişdir. Yaşayış məntəqəsi yerli əhali arasında şərti olaraq ***Aşağı Axullu*** və ***Yuxarı Axullu*** kəndlərinə bölünür. Kənd Bəzirgan yolunun kənarında yerləşdiyi üçün bir çox ölkələrlə əlaqəsi olmuşdur. Məmməd Səid Ordubadinin "*Döyüşən şəhər*" əsərində kəndin adı ***Naxullu***, "*Qanlı illər*" əsərində isə ***Axullu*** şəklində çəkilmişdir. Bəzi sənəd və materiallarda bu yaşayış məntəqəsinin adı ***Dərə Haqullu*** kimi də çəkilmişdir. Axullu kəndində *Qulular* (*həsənxanlılar, sadıxlılar*), *Sadıqoğulları* (*qarallar, abbaslar, qasımlılar, məmmədlilər, albaşlar*), *Alməmmədlilər, Ağakişibəylilər, Şadmanlılar, Kəbirlilər* və digər tayfa, tirə, nəsillər yaşamışdır. Tarixdən məlum olduğu kimi, son orta əsrlərdə və ondan bir qədər sonra bağlanmış müqavilələrin şərtlərinə uyğun olaraq İrandan, Türkiyədən və başqa ölkələrdən bu ərazilərə köçürülən bəzi erməni ailələri qonşu Ağbulaq, Edilli, Düdükçü kəndləri ilə yanaşı Axullu kəndinin yuxarı hissəsində məskunlaşmışdılar. Əksər tədqiqatçılara görə, ***Axullu*** toponimi təhrifə məruz qalmışdır. Əslində ***Haxullu*** və ya ***Haxıllı*** olmalıdır. ***Haxıllı*** – etnonimdir. Yaşayış məntəqəsini ***haxıllı*** nəsli saldığı üçün kənd belə adlandırılmışdır. Yerli məlumata görə, kənd bir müddət ***Şərifbəyli*** də adlanmışdır. Bəzi araşdırıcılar **Axullu** adının fonetik dəyişikliyə uğradığını qeyd edirlər: ***Axullu-Ağullu-Ağilli-Ağelli-Ağıllı***. Bu çevrilmə və uyuşmaların baş verə bilməsini ana dilimiz üçün bəzi məqamlarda xarakterik qanunauyğun hal hesab etmək olar. Digər türkdilli xalqların yaşadıqları ərazilərdə olduğu kimi Azərbaycanda, eləcə də Qarabağda tərkibində ***ağ*** termininin iştirak etdiyi çoxlu sayda toponimlərə rast gəlirik. ***Akullar*** (***Ağsullar***) Dağıstanın cənubunda (***Aqul*** *və Qurax rayonlarında*) yaşayan türkdilli xalqın adıdır. Onlar etnoqrafik və döyüşkənlik cəhətdən bir qədər də ləzgilərə yaxındırlar. Kəndin ərazisində *Ləzgisuyu* adlı oroqrafik obyektin olması da bunu bir daha sübut edir. ***Axu*** (***axul***) Qafqaz xalqlarının (*abxaz* və s.) dilində "*təpə*", "*yüksəklik*" deməkdir. ***Axullu (Ağıllı)*** sözünün İkinci hissəsi olan ***ul*** komponenti ***il, el*** termininin bir formasıdır və "*adamlar*", "*camaat*" mənasını bildirir. ***İl/el*** sözü tarixdən də məlumdur ki, "*başqa bir xalqa, dövlətə tabe olan*", "*vassal*" mənasında işlədilir. Bir qisim araşdırıcılar ***Axullu*** sözünü ***haqlı*** ("*haqqın ulusu*") və yaxud "***ağıllı***" kimi izah edirlər. Yuxarıda deyilənləri ümumiləşdirib belə bir fikri vurğulamaq olar ki, ***Axullu (Ağelli)*** toponimi "*xüsusi hörmətə malik", "uca", "etibarlı", "yuxarı eldən olanlar*", "*ağıllılar*" mənalarını ifadə edir.

Akaku (Atayurd) – Tuğ inzibati ərazi vahidində dağətəyi sahədə yerləşən kənd. Oykonimin izahı ilə bağlı müxtəlif fikir və mülahizələr vardır. Toponimin elmi izahı hələ dəqiqləşdirilməyib. 1727-ci ilə aid olan "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı tarixi mənbədə bu yaşayış məntəqəsinin adı ***Həkəki*** kimi çəkilmişdir. Oykonim sonralar ***Ağoğlan***, ***Ağdam*** kimi rəsmiləşmişdir. 1933-cü il sənədlərində bu kənd ***Ataqut*** inzibati ərazi vahidinin tərkibində verilmişdir. ***Aka*** sözü türk dillərində "*baba, böyük qardaş, ata*" mənasını ifadə edir. ***Ku*** (*həm də* ***u****t*) komponenti "*davamçı*", "*vəliəhd*", "*şahzadə*", "*arxasınca gedən*" anlamlarındadır. Əgər bu sinonimliyə ***Ağoğlan*** oykonimini də əlavə etsək, görərik ki, eyni ərazidə yerləşən ***Ataqut***, ***Akaku*** yaşayış məntəqələrinin adları "*atanın oğlu*", "*atanın davamçısı*", "*kiçik şahzadə*" mənalarına uyğun gəlir. Kənd 1992-ci ildə ***Ağoğlan*** adlandırılmışdır. Yaşayış məntəqəsi *9 noyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir.

Alıqulu qışlağı – Xocavənd rayonunun ərazisində, Muğanlı kəndi yaxınlığında qeydə alınan toponimlərdən biri ***Alıqulu qışlağı*** adlanır. Yerli camaatın dediklərinə görə, vaxtilə bu ərazilərdə ***Alıqulu*** adlı varlı bir kişi olub. Bu ərazilər Alıquluya və onun oğlanlarına məxsus idi. Bu səbəbdən də obanın yerləşdiyi ərazi (*bəzən bu əraziyə* ***Kəndəlaşlıq*** *da deyilir*) *Alıqulu qışlağı* adlanır. Ərazinin hər tərəfi *kəndalaş* bitkisi ilə örtüldüyü üçün camaat buranı ***Kəndalaşlıq*** da adlandırır.

Amaras şəhəri – Vaxtilə Qafqaz Albaniyasında mövcud olmuş yepiskopluq mərkəzi və *şəhəri* ***Amaras*** adlanırdı. Onun xarabalığı hazırda Xocavənd rayonu ərazisində, Xonaşen çayının sağ sahilindədir. Ekrən orta əsrlərə aid mənbələrdə *Amarasın* adı IV əsr hadisələri ilə əlaqədar olaraq çəkilir. Aparılan arxeoloji qazıntılar Amarasda hələ antik dövrdən yaşayış olduğunu göstərir. Burada antik dövrə aid yarımqazma evlər, küp qəbirlər qəbiristanı da aşkarlanmışdır. Amarasda IV əsrdə məbəd tikilmiş və burada alban yepiskoplarından *Qriqoris* dəfn olunmuş, sonralar bu ərazi ziyarətgaha çevrilmişdir. IX əsrdə Amarasda böyük *monastır* kompleksi inşa edilmişdir. XIII əsrdə baş verən monqol hücumları zamanı ***Amaras monastırı*** dağıntıya məruz qalmışdır. **1858**-ci ildə ***Amaras monastır kompleksi*** bərpa edilmişdir. Tarixi mənbələr və sənədlərdən aydın olur ki, Amarasda daşişləmə, dulusçuluq, şüşə istehsalı və s. geniş inkişaf etmişdir. ***Amaras monastırı*** – bu qiymətli arxeoloji mədəniyyət abidəsi **1992**-ci ildən erməni əsirliyində zillət çəkir. Xocavənd rayonu ərazisindəki ***Amaras monastırı*** *tarixi-mədəniyyət abidəsi* vaxtilə Qafqaz Albaniyası ərazisində mövcud olmuş ***Amaras*** şəhərinin adı ilə əlaqədar olaraq belə adlandırılmışdır. Rayon ərazisindən ***Amaras çayı*** da axır. Qədim Alban şəhəri olan ***Amaras*** yaşayış məntəqəsinin xarabalığı bu çayın sahilindədir. ***Amaras*** hidronimi ***amar*** və ***as*** sözlərindən ibarətdir. Qədim türk dilində ***amar*** sözü "*çay*" deməkdir; ***as*** komponenti isə "*böyük çay qolu*" anlamındadır. ***Amaras*** hidronimi "*böyük çayın qolu*" mənasındadır.

Arpadüzü – Rayon mərkəzindən 20 kilometr cənub-qərbdə, Qarabağ silsiləsinin ətəyində yerləşən kənd. *2 avqust 1966-cı il* tarixdə yaşayış məntəqəsi inzibati ərazi vahidinin mərkəzi olmuşdur. Bir sıra tarixi sənəd və materiallara görə, Azərbaycanlıların yaşadıqları ***Arpadüzü*** yaşayış məntəqəsinə XIX əsrdə müxtəlif ərazilərdən erməni nəsilləri köçürülmüşdür. Sovet Hakimiyyəti illərində ***Arpadüzü*** oykoniminin adı ***Kolxozaşen*** kimi "*ermənilaşərək*" rəsmiləşdirilmişdir. Göründüyü kimi, ***Kolxozaşen*** **(*Kolxozkənd*)** adı tərkib etibarı ilə mənşəcə erməni sözü olmayıb, sadəcə o dilə tərcümədir. 1992-ci ildə kəndin əvvəlki ***Arpadüzü*** adı özünə qaytarılmışdır (amma ermənilər *29 dekabr 1992-ci il* tarixdə kəndin adını yenidən ***Kolxozaşen*** adlandırmışlar). Yaşayış məntəqəsi öz adını ərazidəki "*arpa əkilən düz, çöl*" mənalı eyniadlı sahədən almışdır. Mahmud Kaşğari (XI əsr) lüğətində ***düz*** sözünü qeydə almışdır. Tarixdən məlumdur ki, Elxani tayfasının da ***Arpa*** adlı tirəsi olmuşdur.

Arpagədik – Çaylaqqala inzibati ərazi vahidində, rayon mərkəzindən 80 km cənub-qərbdə, Laçın rayonu ilə həmsərhəd ərazidə yerləşən kənd. Kəndin yaxınlığında maksimal hündürlüyü 2095 metr olan eyniadlı dağ da var. Toponim ***arpa*** və ***gədik*** sözlərindən ibarətdir. ***Gədik*** coğrafi termini "*dağ belində batıq*", "*dağ belində enli yarıq, uçuq, batıq yer*" anlamı ifadə edir. İlk dəfə adı ***Arpa*** formasında XII əsrə aid mənbədə çəkilmişdir. ***Arpagədik*** yaşayış məntəqəsi öz adını salındığı yerin adından almışdır. Bəzi mənbələrdə Qarabağ ərazilərində ***Arpadöşü*** oroqrafik obyekti də qeydə alınmışdır. Bəzi araşdırıcılara görə, ***Arpagədik*** oykonimindəki ***arpa*** sözü, ***ər*** və ***pi*** komponentlərindən formalaşmışdır. Zaman ötdükcə ***ərpi*** qalınlaşaraq ***arpa*** sözünə çevrilib. Onların fikrincə bu sözün mənası "*müqəddəs adam*" deməkdir.

Aşan – Aşan inzibati ərazi vahidində, Qarabağ silsiləsinin ətəyində, Xonaşen çayının sol sahilindən bir qədər aralıda yerləşən kənd. Yaşayış məntəqəsi öz adını həmin ərazidəki ***Aşandağ*dan** almışdır. Kəndin adı sənədlərdə bəzən ***Heşan*** kimi də yazılır.

Ataqut (***Atayurd***) – Tuğ inzibati ərazi vahidində, Xocavənd rayonunda, rayon mərkəzindən 55 km cənub-qərbdə, Ataqutçay sahilində yerləşən kənd. ***Ataqut*** toponiminin izahı ilə bağlı müxtəlif fikir və mülahizələr vardır. Oykonim öz adını ərazidəki eyniadlı çaydan almışdır. Oykonimin elmi izahı hələlik öz dəqiq təsdiqini tapmamışdır. Bəzi sənədlərdə yaşayış məntəqəsinin adı ***Atayurd*** kimi də yazılıb. ***Ataqut*** sözü ***ata*** və ***qut*** hissələrindən ibarətdir. Azərbaycanda ***qut*** komponenti ilə bağlı bir sıra yaşayış məntəqələri vardır: ***Ataqut, Siyaqut, Qoçaqut*** (Qarabağ), ***Keşqutan*** (Naxçıvan) və s. Türk dillərində ***qut*** sözünün "*ruh*", "*can*", "*həyat*", "*xoşbəxtlik*", "*səadət*", "*şad*", "*şən*", "*mübarək*", "*uğur*", "*bərəkət*" və s. anlamları vardır. Görkəmli alim M.Seyidov əski türk inanclarından danışarkən belə bir fikri də vurğulayır: "*Türklərə görə, göydən uşaq ruhu – **qut** enib, gələcək atanın bədəninə daxil olur*". Deməli, qədimdən "***qut***"un ucadan, göydən, Tanrıdan gəlməsi haqqında türk inancları mövcud imiş. **Ataqut** totemi – "*başqut*", "*insanı, heyvanı qoruyan ata*", "*göydən, günəşdən gələn **qut***" anlamı ifadə edir. Buradan aydın olur ki, ***Ataqut*** oykonimi yaşayış məntəqəsinin həm islamdan, həm də xristianlıqdan əvvəlki adı olmuşdur. Toponimin tərkibindəki ***qut*** sözünün "*öymə*", "*istək*", "*xahiş*", "*yalvarmaq*" mənaları da var. Türk dillərinin çox qədim çağlarına gedib çıxan ***qut*** sözünün müxtəlif türk dillərində "*səadət*" (cığatay, qırğız, uyğur, qazax, teleut, çuvaş, saxa), "*xoşbəxtlik*", "*bərəkət*", "*həyat qüvvəsi*", "*ruh*", "*uğurlu*", "*mübarək*" (türk, qədim türk, qaqauz, qırğız dillərində) anlamları da vardır. Saxa nağıllarına müraciət etsək görərik ki, orada şamanizmlə bağlı ifadələr də öz əksini tapıb: *ağa kut* ("*ata ruh*"), *şur kut* ("*dirilik ruhu*") və s. Burada ***kut*** (***qut***) termini "*ruh*", "*can*" mənası ifadə edir. ***Qut*** (***kut***) sözünün derivatları da maraqlıdır: ***kut+at*** (**maq**) – "*xoşbəxt etmək*". Azərbaycan dilində işlənən "*Matım-**qut**um qurudu*", "***Qut**lu olsun*", "*Ürəkdə **qut** olmaq*" ifadəsi ayrı-ayrılıqda dilimizin mövqeyi, frazeologiya rolu və Orxon-Yenisey abidələrinin dilində işlənməsi ***qut*** sözünün əsl türk sözü olmasına bir əsasdır. Türk dillərində ***qut*** ("*ruh*") sözü insanı və heyvanı qoruyan totem mənasında işlənir. Tarixdən o da məlumdur ki, miladdan çox əvvəllər Azərbaycan ərazilərində yaşamış ***kuti*** adlı türkdilli tayfalar var idi. Çox guman ki, elə bu tayfa adı da ***kut / qut*** söz kökü əsasında formalaşaraq ***kuti*** şəklinə düşmüşdür. ***Qut/kut*** kökü *yakut, telenqut* və s. türk tayfalarının adında da var.

Avdur – Rayon mərkəzindən 20 kilometr şimal-qərbdə, dağətəyi meşəlik ərazidə yerləşən kənd. ***Avdur*** yaşayış məntəqəsi bir sıra sənəd və materiallarda ***Avdur Takır*** kimi qeydə alınıb. Yerli məlumatlara görə, ***Avdur kəndi*** Buğuz qalasının ərazisində salınıb. Yaşayış məntəqəsinin ərazisində bu qalanın xarabalıqları qalır. Qala yaxınlığındakı köhnə müsəlman qəbiristanlıqlarının olması bu yerlərdə hələ çox-çox əvvəllər də müsəlman əhalinin məskunlaşmasından xəbər verir. Görünür kənd tarixi-siyasi şəraitlə əlaqədar olaraq bir neçə dəfə öz yerini dəyişmişdir. Axırıncı dəfə isə kənd XVIII əsrdə əvvəlki yerindən 5 kilometr aşağıda salınmışdır. **Avdur** (***Abdur***) formasında tərcümə edilən bu yerin adı ***Bəylik bulağı*** olmuşdur. ***Avdur*** toponiminin elmi izahı araşdırıcılar tərəfindən hələlik tam aydınlaşdırılmayıb. Bir qisim tədqiqatçılar bu toponimin izahını ***ab*** və ***duru*** komponentləri ilə əlaqələndirib yozurlar. ***Ab* (*av*)** farsca "*su*" deməkdir. Bu yozumla ***avdur* (*abdur*)** toponimi "*duru, təmiz su*" anlamını ifadə edir. Toponimi qədim türk dillərində "*təpəlik yer*", "*kiçik təpə*", "*yüksəklik*", "*yamaclı yer*", "*sıldırım*", "*yarğan*" mənalarında işlədilmiş ***avdur*** sözünü uyğur və qırğız dillərində ***adur*** sözü ilə də əlaqələndirənlər vardır. Mənbələrə görə ilin bütün fəsillərində çılpaq, yalnız yazda seyrək otlar bitən təpəliklərə ***adur*** deyilir. Oykonimi ***avur*** variantı ilə də yozanlar var; ***ov*** sözünün qədim ***av*** variantı da var; ***ur*** komponentinin qədim türk dillərində "*bol*", "*çox*" anlamı var. Toponim bu yozumda

"*ovlaq*", "*ov çox olan yer*" mənası daşıyır. İkinci komponent olan **Takur** türk dillərində "*uğultu*", "*gurultu*" mənalarını ifadə edir. Moldovanın ərazisində, Linqa çayının sağ, Yalpuq çayının sol qolu **Avdarma** (***Avdırma***) adlanır. Çayın kənarında qaqauzlar yaşayan eyniadlı yaşayış məntəqəsi də yerləşir. Qaqauz toponimikasında bu hidronim qıpçaq dilinin elementi kimi "*bulanıq, çevrilmiş, qarışmış*" mənalarında izah olunur.

Azıx – Rayon mrkəzindən 44 km cənub-qərbdə, Quruçayın sol sahilindən 2 km aralıda, dağətəyi ərazidə yerləşən kənd. Bu yaşayış məntəqəsi öz adını yaxınlığındakı Aşağı Paleolit dövrünə aid olan məşhur ***Azıx*** mağarasının adından almışdır. Yaşayış məntəqəsi *9 noyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir. XIX əsrin birinci yarısında Cənubi Azərbaycanın Qaradağ mahalından gəlmiş erməni ailələri burada məskunlaşandan sonra yaşayış məntəqəsini ***Azox*** adlandırmışlar. Mənbələrdə ***Azıx, Azıq, Azuq, Azox, Adıq, Ayıq*** ("***ayı***") variantlarında qeydə alınmış bu coğrafi ad qədim qıpçaq dilindəki ilkin fonetik formasını mühafizə edib saxlamışdır. **1727**–ci ilə aid olan "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı tarixi mənbədə Dizaq nahiyəsinə tabe olan yaşayış məntəqələri sırasında ***Azıq*** kəndinin də adı vardır. Qədim türk dillərində ***azıx*** sözü "*ayı*" mənasındadır. Bunları nəzər alsaq ***Azıx*** oykonimini "*azılar*", "*böyük insanlar birliyi*" kimi mənalandıra bilərik. Ə. Fərzəli göstərir ki, ***Azıx*** adı "*Az oymağı*", "*Azərbaycanlılar oymağı, yurdu, məskəni*" deməkdir. Nəticə etibarı ilə demək olar ki, ***Azıx/Azıq/ Azox*** kənd və mağara adı "*az adamlar, azlar*" mənasını verən etnotoponimdir. Ümumiyyətlə, türklərin yaşadığı ölkələrdə çoxlu sayda ***Azıx* (*Azıq*)** kəndləri vardır. Türk dünyasının görkəmli şəxsiyyəti, alim, tədqiqatçı, "*Divani-Luğəti Türk*" kimi qiymətli əsərin müəllifi Mahmud Kaşgari Çinin *Uyğur* muxtar vilayətindəki ***Azıq*** adlı kənddə doğulmuşdur.

Bayrambəyli – Qarabağda, indiki Xocavənd rayonunun ərazisində, vaxtilə Dizaq nahiyəsinin tərkibində mövcud olmuş kənd. **1593**-cü ilə bağlı olan osmanlı qaynağında kəndin adı ***Bayrambəy*** kimi çəkilib. **1727**-ci ilə aid olan "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı tarixi qaynaqda yazılır: "***Bayram kəndi***. *Kənddə heç kim yaşamır. Dənli bitkilərdən əldə edilən gəlir:* ***7200*** *axça*". Xanlıq dönəmində bu kəndin ərazisində Cəbrayıllı elinin ***Əbdülrəhmanlı obası*** yerləşirdi. Qarabağ xanı İbrahimxəlil xan bu torpağı Hacı Ağası bəyə və onun ağıllı, gözəl arvadı Pəri xanıma bağışladı. *Əbdülrəhman bəy* onların övladıdır.

Bəhrəmli – Əmirallar və Muğanlı kəndləri yaxınlığında vaxtilə mövcud olmuş yaşayış məntəqəsi. Bir müddət ***Bəhrəmli qışlağı*** adlanmışdır. ***Bəhrəmli kəndi*** XX əsrin ortalarına qədər mövcud olmuş, sonralar mənfur qonşularımız olan ermənilərin siyasəti nəticəsində digər yaşayış məntəqələrimiz kimi boşaldılmışdır. Bəhrəmli kəndi artıq ləğv olunub. Son zamanlara qədər (*erməni işğalına kimi*) də bu kəndin xarabalığı dururdu. ***Bəhrəmli*** oykonimi patronimik toponimdir. Bu kəndin ayrı-ayrı nəsilləri kənd boşaldıqdan sonra yaxınlıqdakı Əmirallar, Muğanlı kəndləri və digər yaşayış məntəqələrində məskunlaşmışlar.

Bəhrəmli qışlağı – Əmirallar və Muğanlı kəndləri yaxınlığında, dağlıq ərazidə XX əsrin ortalarına qədər mövcud olmuş qışlaq. Bu ***qışlaq*** bir müddət ***Bəhrəmli kəndi*** adlanmışdır...

Bəylik qışlağı – Rayon mərkəzindən 10 kilometr məsafədə, Muğanlı kəndinin yaxınlığında qeydə alınmış qışlaq yeri. ***Bəylik qışlağı*** toponimi "*bəyə məxsus olan qışlaq*" mənasındadır.

Binə – Rayon mərkəzindən 50 km cənub-qərbdə qeydə alınmış kənd. ***Binə kəndi*** Qarabağ silsiləsinin dağətəyi ərazisində yerləşir. Kəndin yerləşdiyi ərazi kurort iqliminə malikdir. ***Binə*** sözü "*mal-qara saxlanılan yer*" deməkdir. ***Binə*** yaşayış məntəqəsi bir müddət **Domı, (*Domu, Tomu*)** adlanıb. **1992**-ci ildə kəndin əvvəlki adı (***Domu***) bərpa edilib. **1727**-ci ilə aid "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı tarixi qaynaqda Dizaq nahiyəsinə tabe olan yaşayış

məntəqələri sırasında ***Tomu kəndi*** adına rast gəlirik. ***Tomu/Domu*** sözü binə sözünə yaxın "*oturmaq, ayağını qatlayıb aşağı çökmək*" mənaları ilə bağlıdır. Yaşayış məntəqəsi *9 noyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir.

Binədərəsi – Rayon mərkəzindən 52 km cənubda, dağətəyi ərazidə yerləşən kənd. **1727**-ci ilə aid olan "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı tarixi sənəddə Dizaq nahiyəsinə tabe olan yaşayış məntəqələrinin adları sırasında ***Banazur kəndi*** adına da rast gəlirik. Kənddə o zamanlar Azərbaycanlılar yaşayırdı. XIX əsrdə gəlmə ermənilər burada məskunlaşdıqdan sonra bir müddət toponim təhrif olunaraq ***Banazur*** kimi qeydiyyata alınmışdır. ***Banazur*** sözü erməni dilində "*binə dərəsi*" deməkdir. **1992**-ci ildən kəndin indiki adı bərpa edilmişdir. ***Binədərəsi*** oykonimi "*müvəqqəti yaşayış məntəqəsi olan dərə*" mənasındadır. *29 dekabr 1992-ci il* tarixdə ermənilər kəndi yenidən ***Banazur*** adlandırmışlar.

Böyük Tağlar – Böyük Tağlar inzibati ərazi vahidində, rayon mərkəzindən 42 km cənub-qərbdə, Qırmızı Bazar yaşayış məntəqəsinin 10 kilometrliyində, Molla Nəsrəddin yolunun kənarında, dağətəyi ərazidə yerləşir. XIX əsrdə ***Böyük Tağlar*** kəndində gəlmə ermənilər yerləşdirildikdən sonra yaşayış məntəqəsinin adı tədricən ermənileşdirilərək ***Metstağlar*** ("*böyük məhəllə*") adlandırılmışdır. ***Mets*** sözü erməni dilində "*böyük*" deməkdir. Bu adın özü də tərkibində Azərbaycan dilinə məxsus söz olan qarışıq toponimlərdəndir. ***Böyük Tağlar*** toponiminin əsasını təşkil edən ***taq/tağ*** sözü türkcə "*sahə*", "*yer*", "*məhəllə*" mənasını ifadə edir. ***Böyük Tağlar kəndi*** *9 noyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir.

Bulutan – Rayon mərkəzindən 40 km cənubda, Xırmancıq və Məlikcan kəndləri yaxınlığında, Hadrut şəhər tipli qəsəbəsinin 8 kilometrliyində, Füzuli rayonunun Arış kəndi ilə qonşuluqda, Qarabağ silsiləsində, Ərgünəş dağının ətəyində yerləşən kənd. Bəzi sənədlərdə yaşayış məntəqəsinin adı ***Bolutan*** kimi də yazılmışdır. Yaşayış məntəqəsi *30 iyun 1954-cü il* tarixdən kənd inzibati vahidinin mərkəzi (*Xırmancıq, Məlikcanlı kəndləri*) olmuşdur. Tarixi sənəddən aydın olur ki, bu kənd 1823-cü ildə cəmi bir ailədən ibarət məntəqə olmuşdur. Yerli məlumata görə, kəndin adı ***Bultan (Bulutan)*** şəxs adındandır. ***Bulutan*** toponiminin elmi izahı hələlik tam dəqiqliklə müəyyənləşmədiyindən onun uzun şərhini verməyi məqsədəuyğun hesab edirik. ***Bulu*** (***bolu, balı***) sözü qədim türk dillərində "*igid*", "*döyüşçü*" deməkdir. Oykonimin tərkibindəki ***tan*** komponenti "*dan yeri*", "*dan üzü*", "*dan ulduzu*", "*üfüq*" anlamını ifadə edir. ***Bulutan (Bolutan)*** oykonimi ***bulu/bolu*** etnonimindən törəyən etnotoponimdir. ***Bulutan/ Bolutan*** toponimi "*yüksək igidliyə malik olan*", "*ən igid, qoçaq*" mənasındadır.

Bünyadlı – Rayon mərkəzindən 60 km cənub-qərbdə, Xocavənd rayonunda yerləşən kənd. ***Bünyadlı*** yaşayış məntəqəsi *1840-ci* ildə Cənubi Azərbaycanın Qaradağ mahalından köçüb gəlmiş ailələrin burada məskunlaşması nəticəsində yaranmışdır. ***Bünyadlı*** kəndin əsasını qoymuş nəslin adıdır. Kəndin adı bəzi sənədlərdə ***Binnətli*** şəklində də yazılmışdır.

Cağadüz (*Çağdüz, Cəğadis*) – Xocavənd rayonunda, Qarabağ silsiləsinin ətəyində, rayon mərkəzindən 28 km cənub-qərbdə, Tağaverd inzibati ərazi vahidində, Köndələnçayın sahilində, meşəlik ərazidə yerləşən kənd. Ermənilər burada məskunlaşdıqdan sonra (XIX əsrin 20-ci illərin sonu) yaşayış məntəqəsinin adını ***Sərkisaşen*** **(*Sərkiskənd*)** formasında rəsmiləşdirmişlər. 1992-ci ildə kəndin köhnə adı olan ***Cagadüz*** bərpa edilmişdir. Qədim monqol dilində ***cağan*** **(*sağan*)** sözü "*ağ*" deməkdir. ***Cağadüz*** toponiminin mənası "*ağ düz*" anlamını ifadə edir. Oykonim ***Cağa*** ("*kiçik, balaca*") sözündən və mənfi relyef forması bildirən ***düz*** terminindən ibarət olub "*balaca, düz*" deməkdir. Kənd öz adını ərazidəki eyniadlı düzənlikdən almışdır. **1727**-ci ilə aid olan "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlanan tarixi qaynaqda Vərəndə nahiyəsinə tabe olan kəndlər sırasında ***Cəğadiz*** kənd adına rast gəlir.

Cəmiyyət – Cəmiyyət inzibati ərazi vahidində, Xonaşençay sahilində, rayon mərkəzindən 19 km qərbdə, Xocavənd-Xankəndi avtomobil yolu kənarında, dağətəyi ərazidə yerləşən kənd. Bu yaşayış məntəqəsi keçmişdə Azərbaycanlıların yaşadıqları kəndlərdəndir. Xeyli sonralar – XIX əsrdə burada vaxtilə Ermənistanın Ararat əyalətindəki ***Ningi*** mahalından köçüb gəlmə erməni ailələri məskunlaşdıqdan sonra kəndin adı dəyişdirilərək mənası aydın olmayan **Ninki** (***Ningi***) kimi rəsmiləşdirilmişdir. 1992-ci ildə yaşayış məntəqəsinin əvvəlki qədim ***Cəmiyyət*** adı bərpa edilmişdir

Cilən – Rayon mərkəzindən 55 km cənub-qərbdə, Hərəkül inzibati ərazi vahidində, Qarabağ silsiləsinin ətəyində yerləşən kənd. Yaşayış məntəqəsini 1840-ci ildə Qərbi Azərbaycanın (*indiki Ermənistanın*) Qafan rayonunun Balx kəndindən və Cənubi Azərbaycanın Qaradağ mahalından köçüb gəlmiş erməni ailələri **Cilan (*Cilən*)** adlanan ərazidə saldıqları üçün kənd də belə adlandırılmışdır. ***Cilan*** sözü "*bataqlıq yer*", "*sucaq yer*" mənasındadır. Kənd öz adını salındığı yerin adından almışdır. ***Cil*** sözü "*bataqlıq*" deməkdir. Bataqlıqda, rütubətli yerdə, bitən bitkilərdən biri də **cil** adlanır. Ərazi bu bitki ilə örtüldüyü üçün yaşayış məntəqəsi də belə adlandırılıb.

Cütçü – Rayon mərkəzindən 21 kilometr cənub-qərbdə, Sos inzibati ərazi vahidində, dağətəyi sahədə yerləşən kənd. Kəndin yerləşdiyi ərazidə qədim tarixi abidələr qeydə alınmışdır. Məlumatlara görə, vaxtilə yaşayış məntəqəsinin ərazisi *xırmanlıq* və *binə yeri* olmuşdur. XIX əsrdə Çar Rusiyası gəlmə erməni ailələrini burada məskunlaşdırdıqdan sonra bu daimi yaşayış məntəqəsi ***Maçkalaşen*** adlandırılmışdır. *Maçkalaş* sözü ermənicə "*əkinçi kəndi*", "*cütçü*" anlamı ifadə edir. 1992-ci ildə bu yaşayış məntəqəsi ***Cütçü*** ("*torpağı becərən, sürən*") adı kimi rəsmiləşdirilmişdir.

Çaylaqqala – Rayon mərkəzindən 55 km cənub-qərbdə, Xoşgədikçay sahilində, Güllücə dağı yaxınlığında, Qarabağ silsiləsinin ətəyində yerləşən kənd. Oykonimin əsasını təşkil edən ***çaylaq*** sözü "*quru çay yatağı*" deməkdir. Əvvəllər Azərbaycanlıların yaşadıqları bu kəndə sonralar – XIX əsrdə Cənubi Azərbaycanın (*İran*) Qaradağ mahalından erməni ailələri köçürülmüş və bu yaşayış məntəqəsi həmin gəlmə ermənilər tərəfindən ***Xtsabert*** ("*çınqıl daşı*", "*çınqıl qala*") kimi rəsmiləşdirilmişdir. 1992-ci ildə kəndin adı özünə qaytarılmışdır.

Çiraquz – Qarabağ silsiləsində, Ərgünəş dağının ətəyində, rayon mərkəzindən 40 kilometr cənub-qərbdə yerləşən kənd. **1727**-ci ilə aid olan "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı tarixi qaynaqda kəndin adı ***Cərəquş*** kimi qeyd olunub. ***Çiraquz*** oykonimi ilə bağlı, onun adının toponimik açımı ilə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur. Bəzi araşdırıcılar belə güman edirlər ki, ***Çiraquz*** toponimi ***Çərhovuz*** (***Çaharhovuz*** – "*dörd hovuz*") sözündən yaranmışdır. Bəzi araşdırıcılar bu fikirdədirlər ki, ***Çiraquz*** toponimi "***Çiraq*** *adlı yerdə yaşayan* ***uzlar*** *tayfası*" deməkdir. XIX əsrdə Qarabağda **Uz** kəndinin adı çəkilir və göstərilirdi ki, kəndin 15 ailədən ibarət əhalisini sahibkar Hacı Ağalar bəy kənardan gətirmişdir. ***Uz*** – qədim türk tayfalarından biridir. Tarixi bilgilərə görə, hələ erkən orta əsrlərdə Cənubi Rus çöllərində peçeneqlərlə sərhəddə yaşamış uzlar sonralar xəzərlərlə birləşərək peçeneqlərə qarşı mübarizə aparmışlar. Onların müəyyən hissəsi Azərbaycana çox güman ki, xəzərlərin tərkibində gəlmişlər. ***Çiraquz*** oykonimi Qarabağda vaxtilə *siraqların* yaşamalarından xəbər verir. ***Çıraquz*** toponimi ***Çiraqlı, Çiraqlar*** toponimlərinin variantı olub, "*çiraq tayfasının yaşadığı kənd*", "*çıraqlılara məxsus olan kənd*" mənasındadır. ***Çiraquz*** – "*Çiraq eli", "Çiraq tayfası*" deməkdir. ***Çiraquz*** oykonimi ***çiraq*** **(*siraq*)** və ***uz*** komponentlərindən ibarətdir. M. Seyidov yazır: *"VII əsr müəllifi A. Siraqasinin "Coğrafiya" əsəri üzərində aparılan araşdırmadan aydın olur ki,* ***çiraq/siraq*** *tayfası Ağvan və Arsak (Qarabağ) ərazilərində yaşamışlar; bu torpaqlar çoxdan onların adı ilə adlanırmış"*. Q.Qeybullayev ***çiraq*** **(*sirak*)** etnonimini türkdilli *sarmat* qəbiləsi ilə əlaqələndirir. Mənbələrdə

göstərilir ki, XIX yüzildə Azərbaycanda 79 ailədən ibarət ***Siraq*** (***Siraqlu***) tayfası yaşamışdır. V.V.Vinoqradov ***Çıraq/Sirak*** tayfasından geniş bəhs edir. Müəllifə görə, onların Kuban çöllərində yaşamaları, II əsrdə Zaqafqaziyaya gəlmələri göstərilir. D.D.Paqirevin yazdığına görə ***Çıraquz*** (*Şuşa qəzası*), ***Çıraqlu, Çirax, Çiraxtar, Çiraklu*** (*Cavanşir qəzası*) yaşayış məntəqələri olmaqla bərabər, Zəngəzur, Terek vilayəti, İrəvan quberniyası, Şərur-Dərələyəz, Dağıstan, Qars, Şamaxı, Quba, Nalçik, Stavropol vilayəti, Lənkəran, Ərs və başqa yerlərdə də var.

Çörəkli – Günəşli inzibati ərazi vahidində, rayon mərkəzindən 20 kilometr şimal-qərbdə, dağətəyi ərazidə yerləşən kənd. Tarixi sənədlərə görə, bu yaşayış məntəqəsi XIX əsrin əvvəllərində İrandan gəlmiş erməni ailələrinin ***Çörəkli*** adlanan ərazidə məskunlaşması nəticəsində yaranmışdır. Ermənilər burada məskən saldıqdan sonra yaşayış məntəqəsinin adı onlar tərəfindən dəyişdirilərək ***Hatsi* (*Çörəkli*)** kimi rəsmiləşdirilmişdir. 1992-ci ildə kəndin əvvəlki ***Çörəkli*** adı bərpa edilmişdir.

Dağdöşü – Rayon mərkəzindən 45 kilometr cənubda, Domı kəndi yaxınlığında, dağətəyi ərazidə yerləşən kənd. *29 dekabr 1992-ci il* tarixdə ermənilər kəndi ***Tyak*** adlandırmışlar. Yaşayış məntəqəsinin adı XIX əsrə aid olan sənədlərdə ***Tağ*** kimi qeydə alınmışdır. XX əsrdə ***Tyuak (Tyak)*** variantında işlənmişdir. Bəzi tədqiqatçılar bu adın yaranmasını türk dillərində "*sığınacaq*", "*koçəbə*", "*oba*" mənalarında işlədilən ***töyək*** sözü ilə əlaqələndirir. ***Dağdöşü*** adı kəndə 1992-ci ildə coğrafi mövqeyinə görə verilmişdir. Kəndin ərazisində çoxlu tövlə və *pəyələr* olduğu üçün bəzən yaşayış məntəqəsini ***Pəyələr*** də adlandırırlar.

Dağlıq Qarabağ Muxtar Vilayəti – Azərbaycanda, Kiçik Qafqazın şərq hissəsində yerləşirdi. **DQMV** Sovetlər dönəmində – **7 iyul 1923-cü il** tarixində təşkil edilmişdir. **5** inzibati rayon (*Şuşa, Əsgəran, Hadrut, Mardakert, Martuni*) – **2** şəhər, **222** kənd və **6** qəsəbəni əhatə edirdi. Orta hündürlüyü dəniz səviyyəsindən **1100** metr idi. Şimal-qərbdən Murovdağ sıra dağları ilə əhatə olunmuşdu. Bu sıra dağları tədricən alçalaraq çay dərələri və çox parçalanmış yüksəkliklər şəklində Kür-Araz ovalığına qovuşurdu**. DQMV**-nin çayları tropik dağ çayları olub, Kür çayı hövzəsinə aid idi. İri çayları *Tərtər, Xaçın, Qarqar, Quruçay* və *Köndələnçay* idi. Azərbaycan Respublikasının ***26 noyabr 1991-ci il*** tarixli Qanununa əsasən ***DQMV*** ləğv edilmişdir.

Daşbaşı – Rayon mərkəzindən 55 kilometr cənub-qərbdə, Qarabağ silsiləsinin ətəyində yerləşən kənd. Yerli məlumata görə, ***Daşbaşı*** yaşayış məntəqəsini indiki Xocalı rayonundakı ***Daşbaşı*** kəndindən köçüb gəlmiş bir qrup ailə salmışdır. Toponim Azərbaycan dilində "*dağ, qaya*" mənasında işlədilən ***daş*** sözü ilə "*yuxarı*", "*zirvə*", "*yüksəklik*" anlamı ifadə edən ***baş*** terminindən əmələ gəlmişdir. ***Baş*** sözü toponimlərin tərkibində "*dağın zirvəsi*" mənasında işlənir. Kənd həqiqətən hündür bir yerdə, daşların üstündə qərar tutub. ***Daşbaşı*** sözündəki ***daş*** və ***başı*** komponentləri "*daşın ən hündür yeri – başı*" mənasındadır.

Daşkənd – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 50 kilometr cənub-qərbdə, Qarabağ silsiləsinin ətəyində yerləşən kənd. Oykonim adından da göründüyü kimi, ***daş*** və ***kənd*** sözlərindən ibarətdir. Yaşayış məntəqəsi ***daşlıq***, *qayalıq* ərazidə yerləşdiyi üçün belə ad almışdır. Adı bəzən sənədlərdə ***Dərəkənd*** kimi də yazılır.

Dərəkənd – Qarabağ silsiləsinin ətəyində, Dərəkənd inzibati ərazi vahidində, rayon mərkəzindən 50 kilometr cənub-qərbdə, Xocavənd rayonunda yerləşən kənd. XIX əsrdə ermənilər burada məskunlaşdıqdan sonra yaşayış məntəqəsinin adı ***Zamzur*** kimi rəsmiləşdirilmişdir. ***Zamzur*** sözü qədim türk dillərində "*bataqlıq yer*", "*sucaq*" mənasında olan ***zam/çam*** komponentindən və İran mənşəli "*dərə*" anlamı bildirən ***zur*** terminindən ibarətdir. 1992-ci ildən bu yaşayış məntəqəsi yerləşdiyi coğrafi mövqeyə görə ***Dərəkənd*** adlandırılmışdır. Mürəkkəb quruluşlu ***Dərəkənd*** toponimi "*dərədə yerləşən kənd*", "*dərədə salınan kənd*" mənasındadır.

Dolanlar – Dolanlar inzibati ərazi vahidində, Qarabağ silsiləsinin yamacında, Teydağ silsiləsində, rayon mərkəzindən 70 kilometr cənub-qərbdə yerləşən kənd. Kəndin Ağdızı yaylasında m. ö. IX-IV əsrlərə aid qədim qəbirstanlıq vardır. Buradakı qəbirlərdən tunc bəzək şeyləri, muncuq, baş bəzəkləri, zəng şəkilli asmalar, bıçaqlar, cam, nizə ucları və s. tapılmışdır. Yaşayış məntəqəsinin keçmiş adı ***Ərgünəş*** olub. ***Ərgünəş*** həm də yaşayış məntəqəsi yaxınlığında yerləşən dağın adıdır. ***Dolanlar*** oykonimi etnotoponimdir. ***Dolanlar*** oykonimi orada məskunlaşmış ailə və tirələrin etnik adıdır. ***Dolanlar*** sözü, tarixi sənədlərdən də məlumdur ki, XIII əsrdə monqol işğallarında iştirak etmiş **dolon (*dolan*)** tayfasının adını özündə əks etdirir. ***Dolanlar*** toponimi ilə ***Dolon/Dolan*** troyalı adının bağlılığı vardır. Hər ikisi dol köklüdür. ***Dolon/Dolan*** tayfa adı türkdilli xalqların yaşadıqları əksər ərazilərdə ***Dolanlar*** və s. şəkildə toponimləşərək saxlanılmışdır. Xocavənd rayonundakı **Dolanlar kəndi** 1828-ci ildən sonra Cənubi Azərbaycandan köçüb gəlmiş ailələrin ***Ərgünəş*** adlı yerdə məskunlaşması nəticəsində yaranmışdır.

Domı – Domı inzibati ərazi vahidində, Qarabağ silsiləsinin yamacında yerləşən kənd. Oykonimin belə adlandırılması haqqında müxtəlif fikir və mülahizələr vardır. ***Domı*** toponiminin hələlik dəqiq elmi izahı verilməyib. Bəzi mülahizələrə görə, kənd ərazisindən axdığı eyniadlı çayın əyildiyi, burulduğu yerdə salındı üçün yaşayış məntəqəsi belə adlandırılmışdır. Sonralar bu kəndin əvvəlki adı – ***Binə*** bərpa edilmişdir. Yaşayış məntəqəsi *9 noyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir (*əlavə məlumat üçün bax:* **Binə kəndi**).

Düdükçü – Edilli inzibati ərazi vahidində, rayon mərkəzindən 38 kilometr cənubda, Qarabağ silsiləsinin ətəyində, təbiət etibarı ilə çox səfalı bir ərazidə yerləşən kənd. 1930-cu ilə qədər bu kənddə azərbaycanlılar yaşamışlar. Sonralar kəndə erməni ailələri köçürülmüşdür. Ermənilərin gəlişindən sonra azərbaycanlı ailələr kəndi tədricən tərk etmişlər. ***Düdükçü*** yaşayış məntəqəsinin keçmiş adı ***Kolatağ*** olub. Yerli məlumata görə, vaxtilə bu yaşayış məntəqəsində ***düdükçü*** nəslinə mənsub olan ailələr məskunlaşdığı üçün kənd belə adlandırılmışdır. ***Düdükçü*** toponimini "*tütəkçi*", "*tütək hazırlayan sənətkarların kəndi*" mənası ilə yozanlar var.

Edilli – Edilli inzibati ərazi vahidində, rayon mərkəzindən 37 kilometr cənubda, Qarabağ silsiləsinin cənub-şərq ətəyində yerləşən kənd. Toponim çox guman ki, ***edil/adil/idil*** adlı qədim türk tayfasının (*qırğızlarda* ***edil***, ***edilli,*** *qaraqalpaqlarda* ***adil***, *başqırdlarda* ***idil***) adından və mənsubiyyət ifadə edən -***li*** şəkilçisindən ibarətdir. Tarixdən məlumdur ki, xəzər tayfalarına daxil olan qəbilələr arasında **edel** (***edil***) qəbiləsinin də adı var. Vaxtilə xəzərlərin şəhərlərindən biri də bu tayfanın adı ilə ***İdil, İtil*** adlanırdı. İndinin özündə də türkdilli tatar və başqırdlar Volqa çayına ***İdel / İtel / İtil*** deyirlər. Oykonimi ***Ədil (Adil)*** şəxs adı ilə də əlaqələndirənlər vardır. XX əsrin əvvəllərinə qədər bu kənddə azərbaycanlılar yaşamışlar. Sonralar bu yaşayış məntəqəsində də erməni ailələri yerləşdirildi. ***Edilli*** oykonimi ***Edil*** etnonimindən düzələn etnotoponimdir. *Edilli* etnoniminin mənasını odla, Günəşlə bağlayanlar (***Udulu*** – "*odu, Günəşi ilkin, yaradıcı, müqəddəs sayanlar*") da var. O.Süleymanov Şümər və türk dilləri paralellərindən danışarkən qeyd edir ki, ***udu*** sözü Şümər dilində "*qoç*", "*Günəş tanrısı*" deməkdir. Qədim türk dillərində **iduk/uduk** sözü "*müqəddəs*" anlamında işlənmişdir. **1727**-ci ilə aid "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı tarixi qaynaqda ***Edilli*** kəndinin adı ***Əydilli*** şəklində yazılır.

Edişə – Rayon mərkəzindən 45 kilometr cənubda, Hadrut qəsəbəsi yaxınlığında, dağətəyi ərazidə yerləşən kənd. Bu oykonim Gürcüstandakı ***Edisə*** toponimi ilə eyni mənşəlidir. Məlumdur ki, XIX əsrdə Qars əyalətində də **Edişe** adlı yaşayış məntəqəsi mövcud olmuşdur. ***Edişə*** toponimi türk mənşəli ***edişə*** tayfasının adı ilə bağlıdır. ***Edişə*** oykonimi etnotoponimdir. XX əsrin əvvəllərində Şimali Qafqazda ***Edişe*** adlı **4** kənd qeydə alınmışdır. Şimalı Qafqazda noqayların tərkibində indi də **edişə** adlı tayfa var. **Edişlərin** XII-XIII əsrlərdə qıpçaqların tərkibində Şimali Qafqazdan Azərbaycana gəlmələri ehtimal olunur.

Əmirallar – Rayon mərkəzindən 3 kilometr şimal-şərqdə, Ağdam-Füzuli şose yolu (*Bəzirgan*) kənarında, Qarabağ silsiləsinin ətəyində yerləşirdi. Kənddə ***əmirallar, bəhrəmlilər, avşarlar, avdallar*** və s. tayfa, tirə və nəsillər yaşayırdı. *Əmirallar kəndi **2 oktyabr 1992-ci il*** tarixdə erməni silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. ***Əmirallar*** oykoniminin bəzi sənəd və materiallarda ***Əmiranlar*** formasında yazıldığının da şahidi oluruq. Əslində toponimin düzgün yazılışı ***Əmiralılar*** şəklində olmalıdır. Bu yaşayış məntəqəsini ***əmiralı*** nəslinə mənsub olan ailələr saldığı üçün kənd belə adlandırılmışdır. Toponimi "*əmr alanlar*" kimi də yozanlar vardır. Deyilənə görə, bura çatdırılan ***əmrlər***, fərmanlar ərazidə elan olunur, həm də onun icrasına nəzarət edilirmiş. Elə bəlkə də bu səbəbdən kənd ***əmr alanlar***, yaxud azacıq təhriflə ***əmirallar*** adlanıb. ***Əmiralılar* (*eymuralılar*)** etnonimdir.

Gavahın – Gavahın inzibati ərazi vahidində rayon mərkəzindən 20 kilometr cənub-qərbdə, Qarabağ silsiləsinin ətəyində yerləşən kənd. Bəzi sənədlərdə yaşayış məntəqəsinin adı ***Gavahan, Qavaxan, Kavahan, Kovaxan*** kimi də yazılmışdır. *29 dekabr 1992-ci il* tarixdə ermənilər kəndi ***Gavahan*** adlandırmışlar. Oykonimin tərkibindəki ***gav*** sözü türk dilində "*eniş*", "*dağ yamacı*", "*sürüşkən yer*", "*od*" mənasındadır. ***Gav*** sözünün İran dillərində "*öküz*", "*mal*" anlamları vardır. Tarixi sənədlərdən aydın olur ki, XIX əsrdə Şuşa qəzasında ***Gavahın*** adlı kənd və dağ da qeydə alınmışdır. Həmin dövrün salnaməçisi olan M.C.Cavanşır oykonimi ***Kovaxan*** kimi göstərmişdir: "*Ağa Məhəmməd şah Qacar bütün İraq, Fars, Azərbaycan və Xorasan qoşunları ilə Şuşa qalasının üstünə gəlib, qalanın bir ağaclığında – **Kovaxan** düşərgəsində ordusunu yerləşdirdi*". ***Gava/qava*** komponenti ilə bağlı türkdilli xalqlarda çoxlu sayda antroponimlər mövcuddur. Tarixi mənbələrdə **gav/gava, *qav/qava*** adlı türk qəbiləsinin də adına rast gəlmək mümkündür. **Gavahın** oykonimi ***gav*** etnonimindən və titul bildirən ***xan*** sözündən yaranan etnotoponimdir. Bəzi araşdırıcıların fikirlərinə görə, ***Cavahın*** oykonimi qədim türk dillərindəki ***gav*** və ***ahın/axın*** komponentlərindən ibarətdir. ***Gav*** – "*dağ yamacı*", "*eniş*", "*sürüşkən yer*" mənasındadır; ***ahın*** isə "*zirvə*", "*yüksəklik*" deməkdir. Bu prizmadan izah etdikdə **Gavahın** toponimi "*dağ ətəyi*" anlamına uyğun gəlir. ***Gavahın* (*Qavaxan*)** toponimi (***gava/qava, gav/qav*** – "*od*", "*yandırmaq üçün saxlanan od*", "***xan –*** *hun*") "*yandırmaq üçün saxlanan hun odu*" anlamı ilə də yozulur.

Güneyçartar – Güneyxırman inzibati ərazi vahidində, rayon mərkəzindən təxminən 11 kilometr cənub-qərbdə, Qarabağ silsiləsinin ətəyində yerləşən kənd. Yaşayış məntəqəsinin adı keçmiş ədəbiyyatlarda **Güneyçartaz** (***Güneyçarpaz***) kimi qeydə alınmışdır. Oykonimin tərkibindəki ***çartar*** sözü ilə bağlı müxtəlif fikir və mülahizələr var. ***Çar*** sözü bəzi türk dillərində "*yarğan*", "*uçurum*", "*sıldırım*" mənası ifadə edir. ***Çartar/Çartaz*** sözü "*dağda uçurum*", "*yarğan*" anlamındadır. Kənd yerləşdiyi ərazinin coğrafi mövqeyi ilə bağlı belə adlanmışdır. ***Tar/taz*** komponenti qədim türk dilində "*daş*", "*dağ*", "*dağətəyi*", "*yüksəklik*" mənasındadır. ***Güneyçartar*** toponimi "*günəşin çox düşdüyü sıldırımlı dağ*", "*günəşli, sıldırımlı yarğan*", "*günəşli dağətəyi uçurum*" anlamındadır. Xocavənd rayonunda bu qəbildən olan ***Quzeyçartar kəndi*** də var. Bu yaşayış məntəqəsi ***Güneyçartar*** kəndindən şimalda, *quzeydə*, yəni günəş az düşən ərazidə yerləşdiyi üçün belə adlandırılmışdır.

Güneyxırman – Güneyxırman inzibati ərazi vahidində, rayon mərkəzindən təxminən 10 kilometr cənub-qərbdə, Qarabağ silsiləsinin ətəyində yerləşən kənd. Yerli məlumata görə, ***Güneyxırman*** kəndini vaxtilə ***Güneyçartar*** yaşayış məntəqəsindən köçüb gəlmiş ailələr keçmiş əkin sahəsində salmışlar. Gəlmə ermənilər kəndin adını bir müddət ***Güneyqaler*** kimi rəsmiləşdirərək sənədləşdirmişlər. ***Qaler*** sözü ermənijə "*xırman*" deməkdir. 1992-ci ildən kəndin keçmiş adı özünə qaytarılmışdır. ***Güneyxırman*** toponimi "*cənub xırmanı*" deməkdir.

Günəşli – Rayon mərkəzindən təxminən 45 kilometr cənubda, dağətəyi düzənlikdə yerləşən kənd. Yaşayış məntəqəsi *25 may 1991-ci il* tarixdən (*həmin vaxra qədər kənd* ***Noraşen*** *adlanmışdır*) ərazi inzibati vahidinin (Quşçular kəndi) mərkəzidir. Yaşayış məntəqəsi **23 iyul 1993-cü il** tarixdə ermənilər tərəfindən işğal edilmişdir. Yaşayış məntəqəsinin keçmiş adı ***Noraşen*** (***Norşen***) olub. ***Noraşen*** – "*Yeni kənd*" deməkdir. Yaşayış məntəqəsi XIX əsrdə Çar Rusiyası Azərbaycanı işğal etdikdən sonra Cənubi Azərbaycanın Qaradağ mahalından və Hörutdən köçüb gəlmiş erməni ailələrinin burada məskunlaşması nəticəsində yaranmışdır. Kənd rəmzi olaraq ***Günəşli*** adlandırılmışdır. ***Günəşli*** toponimi əsasında ***Gun*** kosmonimi durur. Lap qədim zamanlardan əski türklər *Günəşi* müqəddəs tapınaq hesab etmişlər. Rəvayətə görə Oğuz xanın oğlanlarından biri *Gün* idi. Ümumiyyətlə, türk mifologiyasında ***Günəşə*** tapınmanın xüsusi yeri var. Günə inamın nəticəsidir ki, "*O Gün haqqı*", "*Günəş haqqı*", "*Gün işığına kor baxım*" kimi andlar da içilir.

Hadrut şəhər tipli qəsəbəsi – Xocavənd rayonunda, Hadrut inzibati ərazi vahidində, rayon mərkəzindən təxminən 46 kilometr cənubda, Horadiz dəmir yol stansiyasından 48 kilometr aralıda, Qarabağ silsiləsində, Arqu dağının ətəyində, Qozluçayın dərəsində yerləşən yaşayış məntəqəsi. Yaşayış məntəqəsi 1963-cü ildə ***qəsəbə*** statusu alıbdır. Əhalisinin sayı 3000 (*burada ermənilərlə bərabər, azərbaycanlılar da yaşayırdılar*) nəfər idi. 1992-ci ildə ermənilər tərəfindən işğal edilmişdi. *9 oktyabr 2020-ci il* tarixdə kənd erməni işğalçı qüvvələrindən azad olunmuşdur. Yaşayış məntəqəsinin keçmiş adı ***Ağoğlan*** (*XIX əsrdə*) olub. 1939-cu ilə qədər bu yaşayış məntəqəsi ***Dizaq*** adlandırılıb. ***Hadrut*** toponimi ***ha, du*** və ***rut*** komponentlərindən ibarətdir. ***Ha*** – İran dillərində "*ara*", ***du*** – "*iki*", ***rut/rud*** isə "*çay*" deməkdir. ***Hadrut*** toponiminin mənası "*iki çayın arası*" anlamını ifadə edir. Oykonimi "*aralıqda, ortada olan yer, yurd, sahə*", "*ucalıqda olan yurd yeri*", "*ucalıqda yerləşən yaşayış məntəqəsi*" kimi də mənalandıranlar var. ***1727***-ci ilə aid "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı mənbədə yaşayış məntəqəsinin adı ***Haderud*** şəklində çəkilmişdir.

Heşan – Xocavənd rayonunda, Qarabağ silsiləsinin ətəyində yerləşən kənd. Məlumatlara görə, ***heşan*** sözü "*taxil dərzlərinin vəllə döyülməsi*", "*dərzlərin döyüldüyü yer*", "*xırman*" deməkdir. Yaşayış məntəqəsi xırman yaxınlığında salındığı üçün belə adlandırılmışdır. ***Heşan*** coğrafi adı iqtisadi həyatla, əkinçiliklə bağlı formalaşıb yaranan toponimlərdəndir. Bu toponimin yaranması taxılçılıqla əlaqədardır. Taxıl biçildikdən sonra dərzlər xırmana daşınaraq üstündə vəl gəzdirmək üçün yerə sərilir ki, buna da **heşan** deyirlər. **1992**-ci ilədək yaşayış məntəqəsinin adı ***Aşan*** olub. ***Heşan*** oykonimi sadə toponimdir.

Xaçmaz – Qarabağ silsiləsində, Xocavənd rayonu ərazisində qeydə alınan kənd. Kəndin yaxınlığında qeydə alınan coğrafi adlardan biri ***Xaçmaz dağı*** adlanır. Bu oronimin Qafqaz Albaniyasının şimal-şərqində yaşamış V əsrdən adı mənbələrdə qeyd olunan ***xaçmatak*** ("*xaçpərəst*", "*xaçpərəst xalq*" deməkdir) tayfasının adı ilə əlaqədar olması güman olunur. Bir fikrə görə, ***Xaçmaz*** adı oradakı sütunda ***xaç*** formalı daşların olması ilə bağlıdır. Kənd dağın adı ilə əlaqədar olaraq belə adlandırılması mülahizəsi də vardır. Vaxtilə ***Xaçmaz dağı*** yerləşən ərazinin yaxınlığında ***Xaçmaz*** adlı kənd mövcud olmuşdur. Bu kəndin əhalisi əsasən Zəngəzur mahalının ermənilər tərəfindən dağıdılmış *Köhnə Kötük* kəndindən gələn nəsillərdən, ailələrdən ibarət idi.

Xanoba – Kiş inzibati ərazi vahidində, dağətəyi ərazidə, rayon mərkəzindən 9 kilometr cənub-qərbdə yerləşən kənd. ***Xanoba*** oykonimi ***xan*** və ***oba*** sözlərindən ibarət olub, "*xana məxsus olan oba*" anlamındadır. Yaşayış məntəqəsi Qarabağ xanlarına məxsus məntəqələrdən biri olub. XIX əsrin 20-ci illərində İrandan köçüb gələn erməni ailələri burada məskunlaşmışlar. Sovet dönəmində ermənilər yaşayış məntəqəsinin adını dəyişərək ***Xnuşinak*** qoymuşdular. **1992**-ci ildə kəndin keçmiş adı ***Xanoba*** özünə qaytarılmışdır.

Xərxan – Herher inzibati ərazi vahidində, rayon mərkəzindən 21 kilometr cənub-qərbdə, Qarabağ silsiləsinin ətəyində yerləşən kənd. Bəzi tədqiqatçılar oykonimin erkən orta əsrlərdə Qafqaz Albaniyasının Arsax əyalətində, keçmiş Ağdərə rayonu ərazisində mövcud olmuş ***Xarx*** qalasının adından və fars dilində məkan və cəmlik bildirən ***-an*** şəkilçisindən ibarət olduğunu söyləyirlər. Əslində isə toponim "*xərklilər*" mənasındadır. ***Xarx/Xərk*** qalasının adı ilk dəfə XIII əsrə aid olan mənbədə çəkilir. ***Xərxan*** (***Xoraxan***) kəndi Qarabağın ən qədim yaşayış məskənlərindən biri hesab olunur. Ağdərə rayonu ərazisində ***Xərxan*** adlı kənd mövcud olmuş, sonralar (orta əsrlərdə) dağıdılmışdır. Bu yaşayış məntəqəsinin əhalisi Xocavənd və Şuşa rayonları ərazisində ***Xərxan*** adlı **2** kənd salmışdır. ***Xərx*** komponentinin mənası hələlik tam məlum deyildir. Bu sözlə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur. Xocavənd rayonunun ərazisində vaxtilə ***Xərxan*** adlı ***qala*** da mövcud olmuşdur. ***Xərxan*** oykonimi türk dillərindəki ***xarx*** ("*boş*", "*kimsəsiz*") və İran dillərindəki ***an*** ("*yer*") komponentlərinin birləşməsindən düzəlib "*kimsəsiz, boş yer*" mənasındadır. Çox güman ki, ***qala*** XIII əsrdə artıq boşalmış və kimsəsiz olduğu üçün bu adla qeydə alınmışdır.

Xətai – Rayon mərkəzindən 55 kilometr cənubda, Çaylaq çayının sol sahilində, Qarabağ silsiləsinin cənub-şərq ətəyində yerləşir. Yaşayış məntəqəsi *15 noyabr 1991-ci il* tarixdə ermənilər tərəfindən işğal edilmişdi. Yaşayış məntəqəsi *9 noyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir. Kəndin əvvəlki adı ***Qara Quzey*** olub. Kəndin əhalisini əsasən vaxtilə Ermənistanın Qafan mahalının Bəlx, Sevakar kəndlərindən köçüb gələn nəsillər təşkil edir. Yaşayış məntəqəsinin keçmiş adı ***Hərəkül*** (***Arakül***) olmuşdur. Hətta ermənilər tərəfindən kənd ***Arakel*** də adlandırılıb. ***Arakel*** (*Arakul*) oykonimi türk dillərindəki ***arak*** və ***el*** sözlərindən ibarət olub, "*su, çay kənarında yerləşən kənd, oba*" mənasına uyğundur. ***Hərəkül*** (***Arakül***) adının mənası elmi şəkildə hələlik müəyyənləşdirilməmişdir. 1988-ci ildə Ermənistandan ermənilərin zorla qovduqları bir qisim Azərbaycanlı ailələr burada da məskunlaşmışlar. Əhalinin xahişi ilə bu yaşayış məntəqəsi 1988-ci ildə məşhur Azərbaycan şairi və Səfəvilər dövlətinin banisi *Şah İsmayıl Xətainin* şərəfinə ***Xətai*** adlandırılmışdır.

Xırmancıq – Bulutan inzibati ərazi vahidində, rayon mərkəzindən 37 kilometr cənubda, Ərgünəş dağının yaxınlığında, Füzuli rayonunun Arış kəndi ilə həmsərhəd sahədə, dağətəyi ərazidə yerləşən kənd. Bu yaşayış məntəqəsi 1826-1828-ci illərdə baş verən Rusiya-İran müharibəsindən sonra ("*Türkmənçay*" müqaviləsindən az sonra) Cənubi Azərbaycanın Qaradağ mahalından gəlmiş erməni ailələrinin Ərgünəş dağı yaxınlığındakı ***Xırmancıq*** adlanan ərazidə məskunlaşması nəticəsində yaranmışdır. ***Xırmancıq*** oykonimi sadə toponimdir. Toponim ***xırman*** sözündən və -***cıq*** hissəciyindən ibarətdir. ***Xırman*** – "*taxıl döyülən yer*" deməkdir; -***cıq*** komponenti "*kiçiklik*" anlamı ifadə edir. ***Xırmancıq*** toponimi "*kiçik xırman*" mənasındadır.

Xnuşinak – Xocavənd rayonunda, dağətəyi ərazidə yerləşən kənd. Oykonimin izahı ilə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur. Toponimin dəqiq elmi izahı hələ verilməmişdir. Çox güman ki, adın tərkibindəki ***xnu*** formantı ***hun*** sözünün təhrif edilimiş formasıdır. Yaşayış məntəqəsi bir müddət ***Xanoba*** da adlandırılmışdır.

Xocavənd şəhər tipli qəsəbəsi – Xocavənd rayonunun inzibati mərkəzidir. Əvvəllər ***Xocavənd kəndi*** adlanırdı. Kəndin sahəsi 4350 hektar idi. Keçmiş ***Martuni*** şəhər tipli qəsəbəsinin 1 kilometrliyində yerləşir. Əhalisinin sayı 1100 nəfər idi. Kənddə 205 ev, orta məktəb, klub, kitabxana, mədəniyyət evi, uşaq bağçası, daş mədəni, bulaq, kəhriz və s. vardı. Bu yaşayış məntəqəsinin qədim adı ***Qaranluq*** olub. XX əsrin 20-ci illərində Türkiyədən gətirilən ermənilər buraya köçürülüblər. Sonralar yaşayış məntəqəsi həm ***Nijni Qaranluq,*** həm də ***Cüməbazarı***

adlanmışdır. Daha sonralar bir müddət ***Xonaşen*** adlanan bu yaşayış məntəqəsinə 1940-ci ildə sovet dövlət və partiya xadimi Aleksandr Fyodoroviç Myasnikovun (*A.F.Myasnikyan;* 09. 02. 1886, Naxçıvan, Rostov-Don yaxınlığında – 22. 03. 1925, Tiflis, təyyarə qəzası) təxəllüsü (*Martuni*) ilə əlaqədar ***Martuni*** adı verilmişdir. *27 iyun 1985-ci il* tarixdə ***şəhər*** inzibati ərazi vahidi kimi tanınmışdır. ***1991***-ci ildə yaşayış məntəqəsi nəhayət ki, öz tarixi ***Xocavənd*** adını almışdır. ***26 noyabr 1991-ci il*** tarixdə ***Xocavənd rayonu*** yaradılarkən ***Xocavənd qəsəbəsi*** (***Xocavənd şəhəri***) onun inzibati mərkəzi kimi qəbul edilmişdir. ***Xocavənd*** oykonimi "*Xocalı nəsli*" mənasındadır. ***Xoca*** sözünü ***kuç*** etnonimi ilə də bağlayanlar vardır. Toponimin tərkibindəki ***vənd (bənd)*** sözü İran dillərində "*törəmə*", "*nəsil*", "*tirə*" mənası daşıyır. ***Xocavənd*** yaşayış məntəqəsinin ərazisində Azərbaycanın onlarla, yüzlərlə qədim tarixi hadisələrinə, faciələrinə şahidlik edən ***Xonaşen çayı, Xonaşen dərəsi,*** müqəddəs ziyarətgah hesab olunan ***Cicim ocağı,*** bəzi qədim tarixlərin, qanlı olayların şahidləri olan ***İmmi bulağı, Damcı bulaq, Hacı Kərim kəhrizi, Qoşa günbəz, Gödək burun, Tut bağı, Narlıq*** və s. coğrafi adlar qeydə alınmışdır. Qəsəbədə əl ilə qazılmış çoxlu sayda su quyuları vardır. Son yüz ildə bu yaşayış məntəqəsi 3 dəfə erməni –azərbaycanlı münaqişəsinə şahidlik etmişdir. **Xocavənd qəsəbəsi** erməni-rus hərbi birləşmələri tərəfindən ***19 noyabr 1991-ci il*** tarixdə işğal edilmişdir. Bəzi araşdırıcılar ***Xocavənd*** toponimini ***Xaçabənd*** ("*oda tapınan*", "*odsevən*") sözü ilə izah edirlər. ***Xoca*** sözünün "*müəllim*", "*dini titul*" və "*tacir*" mənaları da var. Tarixən burada ən çox ***xocalar***, *xanlar*, *bəylər* məskən salmışlar. Bəlkə də elə bu səbəbdən yerli əhali buranı ***Xocaşen*** ("*xocaların şənləndikləri, istirahət etdikləri yer*") adlandırmışdır. ***Xocaşen*** sözündəki ***şen*** komponenti Azərbaycan-türk sözü olub, "*şənlik*", "*şenlik*", "*kənd*" anlamını ifadə edir (*Xocavəndin yerləşdiyi ərazi* ***Xocaşen*** *dərəsi, oradan axan çay isə* ***Xonaşen çayı*** *adlanırdı*). Görünür zaman keçdikcə ***Xocaşen*** sözü assimilyasiyaya uğrayaraq ***Xocavənd*** şəklinə düşmüşdür. Bu sözün "*yer*" anlamı da var. Rayonun qədim sakinləri oğuz türklərindən olan azərbaycanlılar olmuşlar. Bu fikri çoxlu sayda tarixi məxəzlər də təsdiq edir. Rayon ərazisindəki qədim abidələr, tarixi yerlər yazılı ədəbiyyatlarda da öz əksini tapmışdır. Məsələn, VII əsrə aid ən böyük yazılı abidəmiz olan "*Kitabi-Dədə Qorqud*" əsərində adı çəkilən ***Qaraçuq dağı***, həmin dağdan *Qaraca çobanın* kafirlərə atdığı iri daşların *Nərgiztəpə* deyilən yerdə indiyə qədər qalması, Nərgiztəpə ərazisində nəhəng Qaraca çobanın dəfn olunduğu ehtimal edilən qəbir (*ayaq, qol, bədən*), Qaraçuq dağında qoyunların saxlandığı yer və s. bu kimi nişanələr qədim Azərbaycan tarixindən xəbər verir.

Kemraquç – Kemraquç inzibati ərazi vahidində dağətəyi ərazidə yerləşən kənd. Bəzi sənəd və materiallarda kəndin adı ***Kəmərəkoç***, ***Komraquç*** kimi də yazılıb. Kəndin əvvəlki adı ***Qırmızıqaya*** olub. XIX əsrin 20-ci illərinin sonunda buraya gələn erməni ailələri sonralar kəndi ***Kemraquç*** adlandırmışlar. 1992-ci ildə kəndin əvvəlki adı bərpa edilmişdir. Oykonimin izahı ilə bağlı müxtəlif fikir və mülahizələr vardır. Toponimin elmi izahı hələlik dəqiqləşdirilməyib. **Kemraquç** oykonimi mənası aydın olmayan coğrafi adlardandır. Bəzi tədqiqatçılara görə bir qədər təhrifə uğramış bu oykonim Azərbaycan dilindəki ***kəmrə*** (*heyvan ağılı*) və ***qoç*** (*erkək qoyun*) sözlərinin birləşməsindən əmələ gəlib "*qoç saxlanılan ağıl*" mənasındadır. **1727**-ci ilə aid olan "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı tarixi qaynaqda kəndin adı ***Kəmərəköç*** kimi çəkilmişdir.

Kəndxurd – Kəndxurd inzibati ərazi vahidində, rayon mərkəzindən 16 km qərbdə, Qarabağ silsiləsinin şimal-şərq ətəyində yerləşən kənd. Yaşayış məntəqəsinin əhalisi XIX əsrdə Cənubi Azərbaycanın Qaradağ mahalından, Tiflisdən, eləcə də Türkiyənin Qars, Muş və Sarıqamış əyalətlərindən köçüb gələn nəsillərdən ibarətdir.

Kiş – Kiş inzibati ərazi vahidində, rayon mərkəzindən 11 kilometr cənub-qərbdə, Qarabağ silsiləsi ətəyində yerləşən kənd. Yaşayış məntəqəsi uzun illər ***Qiş*** **(***Qişi***)** kimi tanınmışdır. XIX əsrin sonu – XX əsrin əvvəllərində Yuxarı Qarabağ ərazisində, indiki Xocalı rayonunda ***Keş kəndi*** də mövcud olub. Mənası aydın olmayan ***kis*** sözünü Alban tarixçisi M.Kalankatlı "*Alban tarixi*" əsərində işlətmişdir. Onun yazdığına görə, ilk xristian missionerlərindən biri olan Yelisey Uti vilayətinin ***Kis*** kəndinə gəlib kilsə tikmişdir. Bütün Cənubi Qafqaz ərazisində bu, ilk xristianlıq məbədi idi. Kilsə əvvəllər burada mövcud olmuş qədim sitayiş yerində tikilmişdir. Fars dilində **kiş** sözünün "*sitayiş yeri, kult*" mənası vardır. 1992-ci ildən kəndin adı ***Kiş*** kimi rəsmiləşdirilmişdir. Erkən orta əsrlərdə Albaniyada (*indiki Xocavənd və İsmayıllı rayonları ərazisində*) **Kiş** adlı toponimlərə tarixi sənəd və materiallarda rast gəlmək olur.

Köhnətağlar – Köhnətağlar inzibati ərazi vahidində, rayon mərkəzindən 65 kilometr cənub-qərbdə, Qarabağ silsiləsində yerləşən kənd. Bəzi sənəd və materiallarda yaşayış məntəqəsinin adı ***Köhnə Tağlar*** şəklində də yazılır. **Köhnətağlar** oykonimi ***köhnə*** və ***tağlar*** (*silsilələr*) sözlərindən ibarətdir. Hələ VI-VII əsrlərə aid qədim türk kitabələrində ***dağ*** sözü "*tağ*" kimi yazıya alınmışdır. Oykonim "*silsilədə yerləşən köhnə kənd*" mənasındadır. ***Köhnətağ*** yaşayış məntəqəsi yerləşdiyi ərazinin coğrafi xüsusiyyətlərinə görə belə adlanmışdır. Sonralar burada yerləşdirilən ermənilər kəndin adını ***Hintağlar*** (*"köhnə məhəllə"*) kimi rəsmiləşdirməyə cəhd etmişlər. Bu adın özü də tərkibində Azərbaycan dilinə mənsub söz olan qarışıq toponimdir.

Kuropatkino – Rayon mərkəzindən 8 kilometr şimal-şərqdə, dağətəyi ərazidə yerləşən kənd. Bəzən adı ***Kurapatkino*** kimi də yazılır. Əhalisi heyvandarlıq, taxılçılıq, baramaçılıq, üzümçülük və bostançılıqla məşğul olub. Kənddə qaradağlılar, mərzililər, avşarlar və digər tayfalara mənsub nəsillər yaşayıblar. **2 oktyabr 1992-ci il** tarixdə ***Kuropatkino kəndi*** ermənilər tərəfindən işğal edilmişdir. Bu yaşayış məntəqəsini 1960-ci illərdə Dağlıq Qarabağ Muxtar Vilayətinin rəhbərliyində təmsil olunan millətçi erməni şovinistləri yaşayış məntəqələrinin rəsmi siyahısından çıxarıb keçmiş ***Martuni*** (***Xocavənd***) qəsəbəsi ilə birləşdirmişdilər. Sonralar (1990-ci il) ona yenidən kənd statusu verilmiş və bundan sonra yaşayış məntəqələrinin rəsmi siyahısına daxil edilmişdir. Yerli məlumata görə, kənd bu ərazidə çoxlu kəklik quşu (rus dilində ***kuropatka***) olduğu üçün belə adlanmışdır. Oykonimi ***Kuropatkin*** rus familiyası (soyadı) ilə də əlaqələndirirlər. Kəndin yaranma tarixi bəzi sənədlərdə **1920**-ci ilə aid olunur. Belə ki, o zamanlar kəndin yerləşdiyi bu əraziyə ruslar və digər millətlər sürgün edilmişlər. Yaşayış məntəqəsi də rus generalı ***Kuropatkinin*** adı ilə adlandırılmışdır. Ruslar tədricən öz vətənlərinə və digər ərazilərə qayıtdıqdan sonra qonşu Ağdam (*əsasən Mərzili kəndinin sakinləri*) və Ağcabədi rayon sakinləri (*əsasən Avşar kəndindən olan əfşarlar*) işləmək məqsədi ilə buraya gəlmiş və yeni yaradılmış üzümçülük sovxozunda çalışmaqla bu yaşayış məntəqəsində məskunlaşmışlar. Son illərdə Xocavənd rayon İcra Hakimiyyətinin qərarı ilə bu yaşayış məntəqəsinin adı dəyişdirilərək ***Qaraçuq*** adlandırılmışdır.

Qağartsi – Rayon mərkəzindən 18 kilometr qərbdə, Xonaşen çayının sahilində, dağətəyi ərazidə yerləşən kənd. Oykonimlə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur. Güman etmək olar ki, oykonim ***qaq*** ("*yumru*"), ***art*** ("*dağ*") və ***si*** ("*su*") sözlərindən ibarət olub, "*yumru başlı dağdan axan su*" mənasındadır və bu, Xonaşen çayına işarədir. ***Qağartsi*** coğrafi adı mənası məlum olmayan oykonimlərdəndir. Toponimin elmi izahı hələlik tam dəqiqləşdirilməyib. **1727**-ci ilə aid "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı tarixi qaynaqda Vərəndə nahiyəsinə tabe olan yaşayış məntəqələri içərisində adı ***Qağazca*** kimi çəkilmişdir.

Qara Xatunabad – Vaxtılə Xocavənd bölgəsində qeydə alınan əski yurd yerlərindən biri ***Qara Xatunabad kəndi*** adlanırdı. Bu kənd Dizaq nahiyəsi tabeliyində olmuşdur. Hazırda bu kənd

mövcud deyil. 1593-cü ilə aid olan Osmanlı qaynağına görə Arazbar nahiyəsində iki ***Xatunabad mülkü*** var idi. Sonrakı tarixi dönəmlərdə bu mülklərdən biri sıradan çıxmış, digəri isə Dizaq nahiyəsi tərkibində olmuşdur. 1727-ci ilə aid olan başqa bir Osmanlı qaynağında Cavanşir tayfasının Göyəhmədli (Göyməhəmmədli) oymağının ***Qaraxatunabad çayı*** kənarında əkinçiliklə məşğul olmaları ilə bağlı məlumat öz əksini tapmışdır. Toponimiyada ***qara*** sözünün müxtəlif məna çalarları (*"böyük", "nəhəng", "qaranlıq", "rəng", "xalq", "qəm", "sevinc", "pis", "bədbəxt", "güclü", "tünd", "ağır", "çoxluq", "qərb", "sıx", "Tanrı"* və s.) vardır. Oykonimin adındakı ***xatun*** sözü ilə bağlı müxtəlif fikirlər mövcuddur. Mahmud Kaşğari ***xatun*** sözünü "*xan qadını*" kimi mənalandırır. Onun verdiyi şərhə görə ***Xatun*** (***Katun***) Əfrasiyabın qızlarından birinin adıdır. Tanınmış coğrafiyaçı-toponimçi alim E.M.Murzayevə görə, ***xatun*** sözü toponimiyada "*çay*" anlamı daşıyır. Onun fikrincə, ***katun*** sözü qədim türkcə "*çay*" anlamı daşımış, sonralar bu məna unudularaq sıradan çıxmışdır. N.Q.Dobrodomov isə E.M.Murzayevin bu fikrinə qarşı çıxaraq ***xatun*** (***katun***) sözünü "*qadın*" mənasında izahlandırır. İ.S.Məlikov ***katun*** sözünü ***kat/***, yaxud ***katta*** ("*od-ocaq sahibi*") və ***un*** ("*qədim və müasir türk dillərində sifət düzəldən şəkilçi*") hissəciklərinə ayırır. M.C.Təhməzova görə, ***katun*** sözü ***kat*** və ***unq*** (***onq***) sözlərinin birləşməsindən əmələ gəlib "*su, göl*" mənası bildirir. Tarixi qaynaqlara görə, Köndələn çayı sahilində qərar tutan ***Qara Xatunabad kəndi*** orta əsrlərdə hərbi-köçəri əmirlərin ara savaşları dönəmində dağıdılmış, əhalisi isə oradan köçürülmüşdür. XVIII əsrin ikinci yarısında ***Qara Xatunabad mülkü*** uzun müddət ***Məraxatun*** adlanmışdır. **1797**-ci ildə Ağaməhəmməd şah Qovanlı – Qacarın hücumu zamanı yandırılan yurd yerlərinin siyahısında *Məraxatun mülkünün* də adı var. "*Kitabi-Dədə Qorqud*" dastanında ***Xatunbəyli, Xatunbulaq*** adlarına da rast gəlirik. Azərbaycanda adının tərkibində **xatun** sözünün iştirak etdiyi çoxlu sayda toponimlər qeydə alınmışdır.

Qaraçuq yurdu – Vaxtilə Qarabağın keçmiş Vərəndə mahalında, indiki Xocavənd rayonunda, rayon mərkəzindən 10 kilometr məsafədə yerləşən yurd yerlərindən biri ***Qaraçuq*** adlanmışdır. Bəzi araşdırıcılar belə hesab edirlər ki, ***Qaraçuq yurdu*** ünlü oğuz bahadırı Qaraca çobanın düşərgəsidir və ***Qaraca çoban*** tarixi Vərəndə mahalının örüşlərində, ormanlarında Qazan xanın 10 000 baş qoyununu otararmış. Yerli məlumatlara görə, Qaraca çobanın qəbri də Qaraçuqdadır; o, vəfat edəndə tərəkəmələr oğuz ölüsünü bir qəbirdə dəfn edə bilməyib, onu 6 bölük edərək ayrı-ayrı qəbirlərdə basdırmışlar. ***Qaraçuq*** toponiminin tərkibində qara, üç, ox komponentləri özünü açıq-aşkar göstərir. ***Üç ox*** tayfasını bildirən toponimin əvvəlində işlənən ***qara*** sözü, qədim türk dillərində çoxmənalı söz kimi (*"böyük, qüdrətli, sıx, çox, çoxluq, pis, bədbəxt, şimal, başçı, güclü, qərb, ağır, nəhəng, dərd, dərin, uca, uzaq, tünd, qalın, rəng və s.*) məşhurdur. ***Qara*** obrazı türk dillərində, xüsusilə, "*Kitabi-Dədə Qorqud*"da müxtəlif semantik tutumlarda işlədilmişdir. Bu söz ***Qaraçuq*** toponimində də ilk anlamda "*böyük*" mənasını verir. Bu söz dastanda əsasən *3* mənada (*1. At adı kimi, 2. Hər kəsin minə biləcəyi at kimi, 3. Yer adı, toponim kimi*) işlənmişdir: *– Qarağuc, Qaraqoca, Qızağuc*. Mətndə söz *qaraqoç* kimi də işlənmişdir. ***Qarağuc*** sözü ***qaracıq (qaraçuq)*** sözünün metateza (*yerdəyişmə*) nəticəsində dəyişmiş formasıdır. Əslində toponim ***üç ox*** etnonimi ilə əlaqədardır. Deməli ***Qaraçuq*** toponimi etnotoponimdir.

Qaradağlı – Rayon mərkəzindən 13 kilometr qərbdə, Xocavənd-Xankəndi avtomobil yolu kənarında, dağətəyi ərazidə, Xonaşen çayının sahilində yerləşən kənd. **17 fevral 1992-ci il** tarixdə **Qaradağlı kəndi** ermənilər tərəfindən işğal edilib və həmin gün burada soyqırımı hadisəsi baş verib. ***Qarabağ*** müharibəsində kənd üzrə **43** ailə öz başçısını itirib. Kənd **77** nəfər şəhid verib. 1951-ci ildə ***Vərəndəli kəndi*** bir neçə kolxozda (***Qaradağlı****, Vərəndəli, Qağarza, Paravatumb*) birləşdirildi. **1956**-cı ildə ***Vərəndəli*** torpağının xeyli hissəsi Spitakşen və Müşkabad kəndlərinə (?) paylandı. ***Vərəndə*** Dağlıq Qarabağın **5** tarixi mahalından (***Vərəndə, Dizaq, Ceraberd, Xaçın, Talış***) birinin adıdır. Məlumdur ki, mənşəcə qıpçaq tayfa birliyinə daxil olan tayfalardan biri də ***vərəndələr*** olmuşdur. Kənd bir müddət **Xonaşen Qaradağlısı** da adlanmışdır. ***Qaradağlı*** toponimi XVI əsrdə ***qızılbaş*** tayfa birliyinə daxil olan ***qaradağlı*** tayfasının

adındandır. Bu tayfa Səfəvilər hakimiyyəti uğrunda mübarizədə böyük rol oynamışlar. Tayfa öz adını Cənubi Azərbaycanın ***Qaradağ*** mahalından almışdır. Səfəvilər hakimiyyətə gələndən sonra ***qaradağlı*** tayfaları müxtəlif ərazilərə yayılmışlar. Azərbaycan Respublikasında olan ***Qaradağlı*** adlı kəndlər də məhz həmin tayfalara məxsus nəsillərin, ailələrin etnik adını özündə əks etdirir. Kəndin əsasını Cənubi Azərbaycanın ***Qaradağ*** mahalından gələn nəsil və tirələr qoymuşlar. ***Qaradağlılar*** türkdilli tayfa birliyi olan oğuzların *kəngərli* tayfasının *qaraxanbəyli* tirəsindəndir. Onlar XIII əsrdə Orta Asiyadan Cənubi Azərbaycanın ***Qaradağ*** mahalına gələrək orada məskunlaşmışlar. ***Qaradağlılar*** əvvəl *ağqoyunluların, səfəvililərin, şahsevənlərin*, XVI əsrin əvvəllərində isə *qızılbaşların* tərkibində olmuşlar. Səfəvi şahı I Şah Abbas (*1587-1629*) qaradağlıları şahsevənlərlə birlikdə Şimali Azərbaycan ərazisinə köçürmüş, Şirvan hakimini onlardan təyin etmişdir. ***Qaradağlı*** adlı kəndlər məhz belə yaranmışdır. Cənubi Azərbaycanda ***Qaradağ*** tarixi vilayəti hazırda ***Arasbaran*** adlanır. Bəzz qalası Qaradağın ərazisindədir. XVIII əsrin ortalarında Azərbaycanda yaranan xanlıqlardan biri ***Qaradağ xanlığı*** idi; o, İranla Rusiya arasında bağlanmış "***Gülüstan sülh müqaviləsi***"nə (*1813-cü il*) əsasən İranın hakimiyyəti altında qalmışdır. ***Qara*** sözü qədim türk dilində "*böyük*" və "*rəng*" anlamları daşımışdır. Deməli, ***Qaradağ*** sözü "*böyük, uca dağ*", "*süxurlarının rəngi qara olan dağ*" anlamındadır. ***Dağ*** (***tağ***) sözünə VI-VIII əsrlər qədim türk yazılı abidələrində, XI əsr Mahmud Kaşğari lüğətində, XI-XII əsr "*Kitabi-Dədə Qorqud*" dastanlarında da rast gəlinir.

Qarakənd – Qarakənd inzibati ərazi vahidində, rayon mərkəzindən 13 km şimal-qərbdə, Qarabağ silsiləsinin ətəyində, Sarenxart dağı (*958 m*) yaxınlığında yerləşən kənd. Rayon ərazisində ***Qarakənd kəndi*** adına 2 yerdə rast gəlirik. Arxiv sənədlərinin dili ilə desək, çox güman ki, bu kəndlərin ərazisində rayonun indiki ***Muğanlı*** əhalisinin əcdadları yaşamışlar. Yaşayış məntəqəsinin keçmiş adı ***Qızqala*** olub. Bəzən sənədlərdə bu kəndin adı indi də ***Qızqala*** şəklində yazılır. Kəndin yerləşdiyi ərazidə doğrudan da böyük qayalıqda ***Qız qalası*** adlanan *qala xarabalıqları* vardır. Bu *Qız qalası* ilə bağlı müxtəlif əfsanələr mövcuddur. Kəndin ***Qarakənd*** adlandırılması onu bura gəlmə ermənilərin ***Karaşen*** (***kar*** – "*qaya*", ***şen*** – "*kənd*") adlandırmalarına görə, başqa sözlə, ***şen*** sözünün ***kənd*** sözü ilə əvəz edilməsi ilə əlaqədardır. Toponim türk dilində "*böyük*" mənasında işlənən ***qara*** sözünə ***kənd*** coğrafi nomeninin birləşməsindən əmələ gəlmişdir. Quruluşca mürəkkəb olan ***Qarakənd*** oykonimi relyef əsasında yaranmışdır.

Qaratəpə – Rayon mərkəzindən 17 km qərbdə, Xocavənd-Xankəndi avtomobil yolu kənarında, dağətəyi ərazidə yerləşən kənd. ***Qaratəpə*** toponimi "*böyük təpə*" deməkdir. XIX əsrin 20-ci illərində İrandan köçüb gəlmiş erməni ailələrinin burada məskunlaşmasından sonra bu yaşayış məntəqəsi onlar tərəfindən ***Paravatumb*** adlandırılmışdır. Bu ad ***Qaratəpə*** adının ermənicə kalkasıdır (***parava*** – *"qədim, köhnə"*, ***tumb*** – *"təpə" anlamındadır*). 1992-ci ildə kəndin əvvəlki adı özünə qaytarılmışdır.

Qarazəmi – Sos inzibati ərazi vahidində, rayon mərkəzindən təxminən 22 kilometr cənub-qərbdə, dağətəyi ərazidə yerləşən kənd. ***Qarazəmi*** yaşayış məntəqəsi salındığı ərazinin adı ilə adlanmışdır. Bəzən sənədlərdə ***Qarazami*** kimi də yazılmışdır. Oykonim ***qara*** ("*böyük*", "*rəng*") və ***zəmi*** sözlərindən ibarətdir. XIX əsrin əvvəllərində ermənilər burada yerləşdikdən sonra toponim tərkibindəki ***zəmi*** sözü erməni dilinə çevrilərkən ***honc*** ("*zəmi*", "*biçənək*") şəklinə düşmüş və kəndin adı ***Qarahonc*** kimi rəsmiləşdirilmişdir. 1992-ci ildə kəndin keçmiş adı (***Qarazəmi***) bərpa edilmişdir.

Qarqar – Rayon mərkəzindən 25 kilometr cənub-qərbdə, Qarabağ silsiləsinin ətəyində yerləşən kənd. Tarixi mənbələrdə görürük ki, bu yaşayış məntəqəsinin adı X əsrdə ***Gərgər*** formasında qeydə alınmışdır. ***Gərgər*** – qədim Qafqaz Albaniyasında yaşamış ***qarqar*** tayfasının adını özündə əks etdirir. Sonralar burada yaşayan ermənilər kəndin adını ***Herher*** kimi rəsmiləşdirərək sənədləşdirmişlər. ***1992-ci*** ildən kənd ***Qarqar*** adlanır. V əsrə aid olan tarixi mənbələrdə Albaniyada qarqarların adı, II əsrdə onların burada yaşamaları qeyd olunur.

Strabon *qarqarların* Qafqaz Albaniyasından şimalda yaşamalarını göstərmişdir. Qarqarların Mil və Qarabağ düzlərində yaşadıqlarına görə həmin düzlər erkən orta əsrlərdə (V-IX əsrlərdə) ***Qarqar düzü*** adlanmışdır. XIII əsr müəllifi Yaqut Həməvi Mil düzündə ***Karkar*** adlı şəhər adını çəkir. XIX əsrdə Azərbaycanın müxtəlif qəzalarında ***Qarqar*** adlı bir neçə yaşayış məntəqəsi vardı. Azərbaycanda, Qarabağda uzunluğu **115** km olan, Zarıslı və Xəlfəli çaylarının birləşməsindən əmələ gələn ***Qarqar çayı*** da var. M.Xorenli və M.Kalankatlı qarqarların aborigen kimi Albaniyada yaşamaları haqqında məlumat vermişlər. Onlar Alban dili əsasında əlifbanın tərtib olunduğunu da söyləmişlər. ***Qarqar*** toponimləri təbii ki, ***qarqarlar*** tayfası ilə bağlıdır.

Qırmızı Bazar qəsəbəsi – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 24 km cənub-qərbdə, Qarabağ silsiləsi ətəyində, Füzuli-Xankəndi avtomobil yolunun kənarında, dağarası çökəklikdə, Arazın qolu olan Köndələnçayın sol sahilində yerləşən qəsəbə. Bu yaşayış məntəqəsi 1947-ci ildə ***qəsəbə*** statusu almışdır. Qəsəbənin əhalisinin sayı 1300 nəfər idi. Əhalisi əsasən taxılçılıq, üzümçülük, heyvandarlıq, sənətkarlıq və ticarətlə məşğul olur. *Qırmızı Bazar* şəhər tipli qəsəbəsində şərab və yağ-pendir zavodları, üzümçülük təsərrüfatı, orta məktəb, kitabxana, klub, uşaq bağçası, kinoteatr, xəstəxana, rabitə şöbəsi, avtomat telefon stansiyası, park, stadion, müxtəlif ticarət-iaşə obyektləri, diametri 600 sm, hündürlüyü 25 m, yaşı 2000 il olan Şərq çinarı və s. var. 1992-ci ildə qəsəbə və onun azərbaycanlılara məxsus yaxın ətrafı ermənilər tərəfindən tam işğal edilmişdi. Bu şəhər tipli yaşayış məntəqəsinin ərazisi keçmişdə ***bazar*** yeri olmuşdur. Yerli məlumata görə, 1924-cü ildə ilk dəfə burada *1 May Həmrəylik günü* keçirilmiş və elə həmin zamandan da bu yaşayış məntəqəsi ***Qırmızı Bazar*** (***Qərmürbazar***) adlanmışdır. Tədricən yaxın və uzaq kəndlərdən – Mavas, Sıxtoraşen, Bilbilək, Şıxer və Tağaverd yaşayış məntəqələrindən köçüb gələnlər üçün bura daimi yaşayış məntəqəsinə çevrilmişdir. ***Qırmızı Bazar*** oykonimi etnonimdən törənmiş toponimdir. Tarixi mənbələrdən aydın olur ki, ***bazar, basel*** adlı etnonimlər mövcud imiş. ***Bazar*** komponentinin əvvəlində işlədilən ***qırmızı*** rəng adı, həm də münasibət ifadə edir. Yəni, ***qırmızı*** sözü ***bazar*** etnoniminə "*çoxluq*", "*müsbətlik*", "*xoş əməl*", "*üstün gələn qırmızı*" anlamı vermək üçün əlavə edilmişdir. ***Qırmızıbazar*** etnotoponimi "*xoş əməl*", "*üstün gələn qırmızı*" anlamı ilə də mənalandırılır.

Qızılqışlaq – Xocavənd rayonunun ərazisində vaxtilə mövcud olmuş yaşayış məntəqələrindən biri ***Qızılqışlaq kəndi*** adlanırdı. Kəndin başqa bir adı ***Həkənur şenliyi*** olub. **1593**-cü ilə bağlı olan Osmanlı qaynağında ***Həkənur*** kəndinin adı çəkilir. **1727**-ci ilə aid olan "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı tarixi qaynaqda isə yazılır ki, ***Həkənur*** kəndində **8** qeyri-müsəlman ailəsi yaşayır. Kəndin gəliri **6000** axçadır. Camaat əkinçiliklə məşğul olur. Dənli bitkilərdən buğda, arpa və pirinc əkilir. Baramaçılıqla da ilgilənənlər var. Xanlıq dönəmində ***Qızılqışlaq kəndi*** xəzinə mülki idi. Mehdiqulu xan sonralar bu kəndi *Əsəd bəy Rüstəm bəy oğlu Sarıcalı-Cavanşirə* verdi. **1823**-cü ilə aid olan sənəddə kəndin adı ***Qızılqışlaq***, **1842**-ci ildə isə ***Həkəri*** şəklində yazılaraq mötərizədə ***Qızılqışlaq*** kimi qeyd olunmuşdur. **1851**-ci ilə aid olan qaynaqda kənddə Mirzə Camal bəyin də torpağı olduğu göstərilmişdir.

Qoçbəyli – Rayon mərkəzindən 43 kilometr cənubda, Qarabağ silsiləsi ətəyində yerləşən kənd. 1727-ci ilə aid "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı tarixi mənbədə kəndin adı ***Köşbək*** kimi çəkilmişdir. Yaşayış məntəqəsinin qədim adı ***Qoçbək*** (***Köçbək***) olub. ***Qoçbəy*** – bu yaşayış məntəqəsinin əsasını qoymuş şəxsin adıdır. 1992-ci ildə kəndin adı dəyişdirilərək ***Qoçbəyli*** adlandırılmışdır. ***Köçbək*** toponimini bəzi araşdırıcılar "*köç yeri*", "*müvəqqəti yurd yeri*" kimi mənalandırır. ***Qoç/kuç*** tayfalarını *təkəlilər* və *qıpçaqlarla* da bağlayanlar var. Orta əsr qaynaqlarında ***qoç*** *(****kuç****)* qəbilə adına da rast gəlirik. Belə bir fikir də yürütmək olar ki, ***Qoçbəy*** toponimi ***qoç*** etnonimindən və ***bəy*** titul bildirən apelyativindən ibarətdir. Bu etnonim "*qoç qəbiləsi adamı*" mənasındadır.

Quzeyçartar – Quzeyxırman inzibati ərazi vahidində, rayon mərkəzindən 12 kilometr cənub-qərbdə, Qarabağ silsiləsinin ətəyində yerləşən kənd. Yerli məlumata görə, ***Quzeyçartar*** yaşayış məntəqəsini Şəmkir nahiyəsinin Çardaqlı (*indiki Çənlibel*) kəndindən köçüb gəlmiş ailələr salmışlar. Keçmiş tarixi sənəd və materiallarda yaşayış məntəqəsinin adı ***Çartaz*** formasında yazılmışdır. Kəndin adındakı ***çartar*** komponenti haqqında müxtəlif fikir və mülahizələr var. Bəzi türk dillərində **çar** sözü "*üçurum*", "*yarğan*", "*sıldırım*" mənasında işlədilir. ***Tar/taz*** komponenti əski türk dillərində "*dağ*", "*daş*", "*dağətəyi*", "*yüksəklik*" alnlamını ifadə edir. ***Quzey*** coğrafi termini "*həmişə kölgəli yer*", "*dağın, binanın və s.-nin günəş düşməyən tərəfi*", "*guneyin əksi*", "*şimal*" mənasındadır.

Quzeyxırman – Güneyxırman inzibati ərazi vahidində, rayon mərkəzindən 14 km cənub-qərbdə, Qarabağ silsiləsinin ətəyində yerləşən kənd. ***Quzeyxırman*** toponiminin mənası "*şimal xırmanı*" deməkdir. Bu yaşayış məntəqəsi yerləşdiyi coğrafi mövqeyə görə – *quzeydə* yerləşən ***xırman*** yerində salındığı üçün belə adlandırılmışdır. XIX əsrdə burada erməni ailələri məskunlaşdıqdan sonra kəndin adı dəyişdrilərək ***Quzeyqaler*** (yəni, ***Quzeyqışlaq***) şəklinə düşmüşdür. 1992-ci ildə kəndin əsl tarixi adı – ***Quzeyxırman*** bərpa edilərək özünə qaytarılmışdır.

Quzumkənd – Rayon mərkəzindən 20 km cənub-qərbdə, Qarabağ silsiləsinin şimal-şərq ətəyində, səfalı təbiət qoynunda yerləşən kənd. XIX əsrin əvvəllərində müxtəlif ərazilərdən gəlmə erməni ailələri burada yerləşdirildikdən sonra yaşayış məntəqəsinin adı ***Kert*** kimi rəsmiləşdirildi. Ermənilərin mənimsədikləri ***kert*** sözü *Hind-Avropa* dillərində "*şəhər*", "*qala*", "*kənd*", "*tikili*" deməkdir. 1992-ci ildə kəndin keçmiş adı bərpa olunmuşdur. ***Quzumkənd*** oykonimi ***quzum*** ("*payızlıq əkin yeri*") və ***kənd*** sözlərindən ibarət olub, "*payızlıq əkin yeri olan kənd*" mənasındadır.

Maçkalaşen – Rayon mərkəzindən 21 kilometr cənub-qərbdə, dağətəyi ərazidə yerləşən kənd. Oykonimin izahı ilə bağlı müxtəlif fikir və mülahizələr var. ***Maç*** sözünün əski türk dillərində "*sarmaşıq bitkilərin sarılması üçün yerə dikilən ağac*", "*cütçü*" mənası vardır. Bəzilərinə görə ***Maçkalaşen*** oykonimi "*cütçü kəndi*" deməkdir. Oykonimin tərkibindəki ***şen*** termini "*kənd*", "*yurd*" anlamı bildirir. Toponimin elmi şərhi hələlik tam dəqiqliklə izah olunmayıb. 1992-ci ildə yaşayış məntəqəsinin adı ***Cütçü*** kimi rəsmiləşmişdir.

Martuni qəsəbəsi – *1960*-cı ildən ***qəsəbə*** statusu alan ***Martuni*** yaşayış məntəqəsi keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində eyni adlı rayonun inzibati mərkəzi idi. ***Martuni qəsəbəsi*** Ağdam-Füzuli avtomobil yolu kənarında, Xonaşen çayının sahilində, dağətəyi düzənlikdə yerləşir. Yaşayış məntəqəsinin əvvəlki adı ***Küznüt***, ***Karaqlux***, ***Xonaşen*** olub. Müxtəlif tarixi sənəd və materiallardan aydın olur ki, rayonun tarixi adı ***Aşağı Qaranlıq*** olmuşdur. Sadəcə olaraq ermənilər heç bir rəsmi sənəd olmadan, tələm-tələsik yaşayış yerinin tarixi adını ***Martuni*** ilə əvəzləyiblər. ***Martuni rayonu*** və ***Martuni qəsəbəsi*** A.F.Myasnikovun şərəfinə "***Martuni***" təxəllüsü ilə adlandırılmışdır. ***26 noyabr 1991***-ci il tarixli, 279-XII nömrəli Azərbaycan Respublikasının qanununa əsasən **DQMV** statusu ləğv edilərək ***Martuni*** və ***Hadrut*** rayonlarının bazaları əsasında ***Xocavənd rayonu*** yaradılmışdır. ***Martuni qəsəbəsi*** də ***Xocavənd qəsəbəsi*** adlandırılmışdır.

Mavas – Qırmızı Bazar inzibati ərazi vahidində, Köndələnçayın sahilində, dağətəyi ərazidə yerləşən kənd. Türk dillərində ***mavas*** sözü "*mavi gözlü, sarışın*" mənasında işlənir. Oykonimin etnotoponim olması da ehtimal olunur. Bu coğrafi adın elmi izahı ilə bağlı müxtəlif fikir və mülahizələr vardır. Toponimin hələlik dəqiq şərhi verilməyib.

Mədədkənd – Xocavənd rayonunda qeydə alınmış oykonimlərdən biri ***Mədədkənd*** adlanır. Bu coğrafi ad ***Mədəd*** şəxs adından və ***kənd*** sözündən ibarətdir.

Məlikcanlı – Rayon mərkəzindən 41 kilometr cənubda, Bulutan inzibati ərazi vahidində, Qarabağ silsiləsi ətəyində yerləşən kənd. Bu yaşayış məntəqəsi XIX əsrin əvvəllərində Cənubi Azərbaycanın Qaradağ mahalından gəlmiş ***məlikcanlı*** nəslinə mənsub olan ailələrin burada məskunlaşması nəticəsində yaranmışdır. ***Məlikcanlı*** oykonimi antroponim əsasında formalaşan toponimdir. Maraqlıdır ki, **1727**-ci ilə aid olan "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlanan tarixi qaynaqda Dizaq nahiyəsinə tabe olan yaşayış məntəqələri içərisində ***Məlikcan*** kəndinin adı çəkilir, lakin orada heç kimin yaşamadığı göstərilir.

Məmmədd ərə – Çirağuz inzibati ərazi vahidində, rayon mərkəzindən 42 kilometr cənub-qərbdə, Qarabağ silsiləsində, dağətəyi ərazidə yerləşən kənd. Yaşayış məntəqəsinin keçmiş adı ***Məmmədkənd*** (***Məmmədd ərə***) olub. XX əsrin əvvəllərində müxtəlif yerlərdən gəlmə erməni ailələri burada yerləşdirildikdən sonra kəndin adı onlar tərəfindən (onların təşəbbüsü ilə) dəyişdirilərək ***Məmmədadzor*** ("***Məmməd dərəsi***") qoyulmuşdur. Erməni dilində ***dzor*** sözü "*dərə*" deməkdir, "***-a***" bitişdirici saitdir. ***Məmmədadzor*** adının özü də tərkibində Azərbaycan sözü olan oykonimdir, qarışıq toponimdir. Toponimin mənası "*Məmməd dərəsi*" deməkdir. **1992**-ci ildə kəndin ***Məmmədd ərə*** adı bərpa olunmuşdur. **1727**-ci ilə aid "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı tarixi sənəddə yaşayış məntəqəsinin adı ***Məhəmmədzur*** kimi yazılır.

Mirikənd – Mirikənd inzibati ərazi vahidində, rayon mərkəzindən 30 kilometr qərbdə, Qarabağ silsiləsinin şimal-şərq ətəyində yerləşən kənd. Kəndin qədim adı ***Takır (Təkir)*** olub. XIX əsrdə Çar Rusiyası Azərbaycanın şimalını işğal etdikdən sonra kəndə gəlmə erməni ailələri yerləşdirilmişdir. Bundan sonra yaşayış məntəqəsi bir müddət ***Mirikənd*** adlandırılsa da, sonralar oykonim ermənileşdirilərək ***Miruşen*** formasına düşmüşdür. 1992-ci ildə kəndin keçmiş adı bərpa olunmuşdur. ***Mirikənd*** toponimi "*Mirinin kəndi*", "*Miriyə məxsus kənd*" mənasındadır.

Muğanlı – Muğanlı inzibati ərazi vahidində, rayon mərkəzindən 6 km şimal-şərqdə, Qarabağ düzündə yerləşir. Yaşayış məntəqəsi **2 oktyabr 1992-ci il** tarixdə ermənilər tərəfindən işğal edilmişdi. ***Muğanlı*** toponimi türk mənşəli ***muğanlı*** etnonimi əsasında əmələ gəlmişdir. *Muğanlı* etnotoponimi sadə quruluşlu etnotoponimdir. ***Muğan*** sözü "*Muq*" etnonimindən və ***-an*** topoformantından ibarətdir. "*Muqan*" leksik vahidi uzun müddətli tarixi prosesdə bir növ sadələşərək toponimik adların tərkibində müasir dövrə gəlib çıxmışdır. Zonanın ərazisindəki *Muğancıq* adlı toponim etnotoponimdir və *muq/muğ* etnosunun adı ilə bağlıdır. B.A.Nikonov "*Muğan*" toponiminin əsasını "***muğ***" (*atəşpərəst*) sözü ilə bağlayır. S.Karayev də Özbəkistandakı *Muğan* və *Muğat* yaşayış məntəqələrinin adlarındakı "***muğ***" komponentini "*atəşpərəst*" mənasında izah edir. Tədqiqatçıların bəziləri ***Muğan*** toponimini şəxs adı, daha doğrusu, VI əsr Hun sərkərdəsi *Muqan* xanın adı ilə əlaqələndirirlər. Bu fikir dəqiq deyildir. Çünki Muğan xanın yaşadığı dövrdən düz min il əvvəl (eradan əvvəl VI əsrdə) *Muğ/Muk* tayfasının adı antik mənbədə çəkilir. Əksər araşdırıcıların fikrincə, Oğuz elinin bir qolu olan *Muğ/Muk* və İran dilində cəm göstəricisi *-an* ("*yer*") sonluğunun birləşməsindən ***Muğan*** toponimi və adonimi yaranmışdır. Deməli, *Muğanlı* toponimi "*muğ tayfalarının yaşadıqları yer*" anlamındadır. Professor A.Qurbanov *Muğan* toponimindən və *Muğ* etnonimindən danışarkən onun türk mənşəli söz olması fikrini irəli sürür və "*Maq/Muq*" sözünün Azərbaycan dilində yaranmış derivatlarını qeyd edir. Müəllifə görə, dilimizdəki *mağar, muğam, müğənni* sözləri *muq/müğ/mağ* komponentinin müxtəlif variantıdır. Bu deyilənlərdən belə bir nəticəyə gəlmək olur ki, *Muğan* Azərbaycan dilinin kökündə dayanan toponimdir və bir söz kimi iki hissədən ibarətdir. *Muğan* sözü haqqında söhbət gedərkən ilk öncə onun *muğlar* vətəni olduğu göstərilir. Amma elmdə *muğların* kim

olması hələ də demək olar ki, mübahisəlidir. Məlumdur ki, *muğlar* İranın şimalında yaşamış, ancaq İran dillərində danışmamışlar. Onların danışıq dilləri də bizə tam məlum deyil. Onlardan bizə yadigar yalnız etnik qruplarının adıdır. *Muğal* (və ya *muğan*) adlı qədim türk tayfası da olub. Bu tayfa sonralar türk xalqlarının içərisində (əsasən özbəklərdə) əriyib-getmişdir. ***Muğanlı*** tayfa adı kimi XVI əsrin əvvəllərindən məlumdur. Mənbələrdə onlar şahsevənlərin tərkibində **300** ailədən ibarət müstəqil tayfa kimi qeyd olunmuşdur. M.Avdeyev bu tayfanın XX əsrin əvvəllərində **275** ailədən ibarət *musanlılar*, *əlicanlı, oruclu, təmişli, qarabayramlı, telemanlı, çilovxanlı, əliyərməzli, cəfərli, allahmədədli, mamışlı, təmrazlı, nurəhmədli* nəsillərindən ibarət olduğunu göstərmişdir. XIX əsrin əvvəllərində ***muğanlılar* 8** tirədən ibarət olmuşlar. Bu tayfa vaxtilə ***Muğan düzü*** ərazilərində yaşadıqlarına görə həmin düzün adı ilə tanınmışdır. Comərdliyi, döyüşkənliyi ilə məşhur olan bu tayfa demək olar ki, şah ordusunun aparıcı qüvvələrindən biri hesab olunurdu. Məlumatlara görə, indiki Xocavənd rayonunun ***Muğanlı*** kəndinin binə yerləri vaxtilə rayonunun Qarakənd kəndinin ərazisində mövcud olmuşdur. Bəzi sənədlərdə rast gəldiyimiz ***Qarakənd Muğanlısı*** ifadəsi də bunu təsdiq edir.

Mülküdərə – Rayon mərkəzindən 15 kilometr cənub-qərbdə, Qarabağ silsiləsinin ətəyində yerləşən kənd. Bu yaşayış məntəqəsi iki dağ arasında salınmışdır. Bəzi tədqiqatçılara görə ***Mülküdərə*** toponimi güman ki, keçmişdə kəndin yerləşdiyi ***dərədə*** çoxlu sayda ***mülk*** olduğu üçün belə adlanmışdır. Oykonimi ***Mülki*** şəxs adı ilə də əlaqələndirirlər. Bu anlamda ***Mülküdərə*** toponimi "*Mülkinin dərəsi*", "*Mülkiyə məxsus olan dərə*" mənasını da ifadə edir.

Müskabad – Kəndxurd inzibati ərazi vahidində, rayon mərkəzindən 15 kilometr cənub-qərbdə, dağətəyi ərazidə yerləşən kənd. Oykonimin tərkibi ***müşk*** (fars dilində bitki və heyvan mənşəli, ətriyyatı sabitləşdirmə xassəsi olan xoş iyli maddə; adına bəzən ***mişk*** də deyirlər) və ***abad*** sözlərindən ibarətdir. Coğrafi adın tərkibindəki **müşk** sözü bəzi araşdırıcılara görə ***Muş*** sözündən təhrifdir. Oykonimin ***Müşqapat***, ***Muşqapat*** variantlarına da təsadüf olunur. ***Müşkabad*** toponimi "*Muş kəndi*" mənasını daşıyır. Bəzi sənədlərdə kəndin adı ***Müşkapat*** kimi də yazılmışdır. ***Abad*** komponenti Azərbaycan, eləcə də əksər türk xalqlarının toponim yaradıcılığında geniş arealda işlənən topoformantlardan biridir.

Paravatumb – Rayonun mərkəzindən 17 kilometr qərbdə, dağətəyi ərazidə yerləşən kənd. Bəzi sənədlərdə yaşayış məntəqəsinin adı ***Qaratəpə*** kimi yazılır. Bəzi məlumatlara görə, ***Paravatumb*** kəndinin ilkin əhalisi vaxtilə *Zəngəzur* mahalından köçüb buraya gəlmişlər. Yaşayış məntəqəsinin adı ilə bağlı çoxlu fikir və mülahizələr var. Oykonimin tərkibindəki ***para*** ("*hissə*") formantı qərb dialektlərində "*dənli və bostan bitkiləri üçün ayrılmış sahə"* anlamındadır. Əski türk dillərində ***parav*** (***parağ***) sözünün "*heyvan saxlamaq üçün çəpərlənmiş yer*", "*böyük, qədim*" mənaları var. ***Tumb*** *(təpə, tumbul)* sözünün "*şişman*" anlamı da vardır. Bəzi araşdırıcılar ***Paravatumb*** oykoniminin izahını "*qara təpə*", "*qarı təpəsi*" mənası ilə də yozurlar.

Salakətin – Rayon mərkəzindən 42 kilometr cənub-qərbdə, Qarabağ silsiləsində, dağətəyi ərazidə, Azıx mağarasının yaxınlığında, Azıx inzibati ərazi vahidində yerləşən kənd. Salakətin kəndinin ərazisində *Qədim Alban kilsəsi, Rizvan məscidi, Ovçu yeri, Qoç gədiyi, Kənd yeri, Mərəçüyüdlük, Dırbanabənd, Dəmirçi dərəsi, Paşa bağı, Dağdağan ocağı, Qələm dərəsi, Dəmirov dağı, Cəfərin yeri, Həzər bulağı, Kötük bulaq, Noxudlu bulaq, Soyuq bulaq* və s. toponimlər qeydə alınmışdır. Kənd *30 oktyabr 1991-ci il* tarixdə ermənilər tərəfindən işğal olunmuşdu. Yaşayış məntəqəsi *9 noyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir. **1727**-ci ilə aid olan "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı tarixi mənbədə Dızaq nahiyəsinə tabe olan kəndlər içərisində ***Salakətin*** kəndinin də adı var. Çox güman ki, ***Salakətin*** oykoniminin adında səs dəyişikliyi baş verib. Əksər araşdırıcılar oykonimi ***Salatəkin*** kimi qəbul edir. Toponimin tərkibindəki ***sal*** komponenti ***hun*** tayfa birliyinə daxil olan tayfalardan biri hesab

olunur. ***Sal*** sözü türk dillərində "*hündür*", "*yüksək*", "*uca*" anlamı ifadə edir. Quruluş etibarı ilə mürəkkəb toponim olan ***Salakətin*** oykonimi türk dillərindəki ***sala*** ("*sıra dağlardan ayrılan qol*") və ***tin/din*** ("*düşərgə*", "*məskən*") komponentindən düzəlib (***kə*** – *istiqamət halının əlamətidir*), "*sıra dağlardan ayrılan qol üzərində məskən*", "*sıra dağların arasından ayrılan yol*" anlamını daşıyır. Mənası türk dillərində "*bənzər*", "*oxşar*" hesab edilən ***təkin*** sözü dilimizdə bir zamanlar "*şahzadə*", "*vəliəhd*" mənasında işlənmişdir. Bu terminə digər toponimlərdə də rast gəlirik. "*Kültekin*" abidəsində rastlaşdığımız ***tekin*** komponenti ***təkin*** ("*şahzadə*", "*vəliəhd*", "*oxşar*") sözünün azacıq təhrif edilmiş bir variantıdır. Qeyd olunan fikirlərimizi ümumiləşdirsək, ***Salakətin*** (***Salatəkin***) toponimini "*bənzərsiz şahzadə*", "*uca vəliəhd*", "*yüksək şahzadə*", "*hündürəbənzər*", "*sıra dağlardan ayrılan qol üzərində məskən*" və s. anlamlarla izah edə bilərik.

Sor – Rayon mərkəzindən 50 kilometr cənubda, Qarabağ silsiləsində, dağətəyi ərazidə yerləşən kənd. Bu qədim yaşayış məntəqəsi XIX əsrin 20-ci illərində İrandan gəlmiş erməni ailələrinin məskunlaşmasından sonra ermənicə ***Tsur*** adlanmışdır. 1992-ci ildə kəndin əvvəlki adı olan ***Sor*** oykonimi bərpa edilmişdir. Tarixi mənbələrdə Azərbaycanda yaşayan ***sor*** (***sor-sor***, ***sor-sur***) tayfasının adı çəkilir. Bəzi araşdırıcılar onların Elxanilər dövründə Azərbaycana gəldiklərini güman edirlər. ***Sor-sorlar*** (***sorsorlar***) XV əsrin sonlarında və sonralar Səfəvi hökmdarı I Şah İsmayıl Xətainin hakimiyyətə gəlməsində və Səfəvilər dövlətinin möhkəmlənməsində yaxından iştirak etmiş qızılbaş tayfalarından biri olmuşdur. Sonralar onlar Azərbaycanın müxtəlif ərazilərində məskunlaşmışdılar. XVI əsrdə onların bir qismi Qarabağda və Şirvanda yaşayırdı. ***Sor*** oykonimi çox güman ki, həmin tayfanın adı ilə əlaqədardır.

Sos – Rayon mərkəzindən 20 km cənub-qərbdə, dağətəyi ərazidə yerləşən kənd. Bu yaşayış məntəqəsi XIX əsrin əvvəllərində Cənubi Azərbaycandan (İran) və Xocavənd rayonunun Tuğ kəndindən köçüb gəlmiş müxtəlif ailə və nəsillərin burada məskunlaşması nəticəsində yaranmışdır. Yerli məlumata görə, oykonim kənd ərazisinin dumanlı, çiskinli, sisli olmasına görə belə adlanıdırılmışdır. Türk dillərində ***sos*** sözü "*yağmurlu yer*", "*nəm və rütubətli yer*" mənasındadır. Bəzi mənbə və ədəbiyyatlarda oykonimin adına ***Suz, Sus*** formasında da rast gəlinir.

Susanlıq – Tuğ inzibati ərazi vahidində, rayon mərkəzindən 57 kilometr cənub-qərbdə, dağətəyi ərazidə yerləşən kənd. Yaşayış məntəqəsi *9 noyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir. Bəzi araşdırmalara görə, ***Susanlıq*** yaşayış məntəqəsini orta əsrlərdə İranın ***Zuzan*** əyalətindən köçüb gəlmiş Azərbaycanlı ailələr salmışlar. Bəzən bu kəndin adı sənədlərdə ***Susalıq*** kimi də qeyd olunur. Oykonimin mənası ilə bağlı müxtəlif fikir və mülahizələr var. ***Susanlıq*** toponimi "*Susandan gələnlər*", "*suzanlılar*" anlamındadır. **1727**-ci ilə aid olan "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı tarixi sənəddə Dizaq nahiyəsinə tabe olan yaşayış məntəqələrinin adları içərisində ***Susalıq kəndi*** də özünə yer tapmışdır. Həmin "*dəftər"də* göstərilir ki, bu kənddə adları qeyri-müsəlman adı olan **8** nəfər "*bennak və subay vergisi*" ödəyir. Qeyri-müsəlman adları daşımalarına baxmayaraq, onlar müsəlmanlar kimi "*bennak və subay vergisi*" ödəyirlərsə, çox güman ki, bu şəxslər müsəlmanlığı qəbul etmişdilər.

Şahyeri – Rayon mərkəzindən 52 kilometr cənub-qərbdə, Qarabağ silsiləsində, dağlıq ərazidə yerləşən kənd. Bu yaşayış məntəqəsinin adı XIX əsrin əvvəllərində Cənubi Azərbaycanın Qaradağ mahalından gəlmiş erməni ailələrinin burada məskunlaşmasından sonra dəyişdirilərək ***Şaqax*** şəklinə düşmüşdür. 1992-ci ildə kəndin əvvəlki ***Şahyeri*** adı bərpa edilmişdir. ***Şahyeri*** oykonimi ***şah*** və ***yer*** sözlərindən ibarətdir. ***Şahyeri*** toponimi "*yüksək yer*" mənasındadır. Doğrudan da kəndin yerləşdiyi coğrafi mövqe bu izaha uyğundur. Kənd dəniz səviyyəsindən **1691** metr hündürlükdə yerləşir.

Şaqax (**Şahyeri**) – Xocavənd rayonunda, rayon mərkəzindən 52 kilometr cənub-qərbdə, dağlıq ərazidə yerləşən kənd. Kəndin əhalisini əsasən Cənubi Azərbaycanın (*İran*) Qaradağ mahalından vaxtilə köçüb gələn ailələr təşkil edir. Toponimi ***şaq*** (***saq***) və ***ax*** komponentlərinə ayırmaq olar. Oykonim ***saq*** (***şaq***) etnonimi ilə əlaqədar olaraq belə adlanmışdır. Toponimin tərkibindəki ***ax*** hissəciyi isə **ağ**dan törəmədir.

Şəkər – Qırmızı Bazar inzibati ərazi vahidində, rayon mərkəzindən 30 kilometr cənub-qərbdə, Qarabağ silsiləsinin ətəyində yerləşən kənd. Yaşayış məntəqəsinin adı bəzi sənədlərdə ***Şəhər*** kimi də yazılır. Yaşayış məntəqəsi *9 noyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir. Bu yaşayış məntəqəsi ***Şəkər*** adlı şəxs tərəfindən salındığı üçün belə adlandırılmışdır. R.Ördək miladdan əvvəl VII əsrdə İran hökmdarı Keyxosrovun Turan hökmdarı Alp ər Tunqanı məğlub etməsini Firdovsinin "Şahnamə" əsərində təsvir etdiyini göstərərək bildirir ki. Turan hun dövlətindən əvvəl yaranmış türk dövlətidir. Bu dövlətin ***Saka*** türk dövləti olduğunu söyləyənlər çoxdur. M.Vəliyev (*Baharlı*) göstərir ki, iranlılar skifləri ***sak*** və ya *turanlılar* adlandırırdılar. M.İsmayılov qeyd edir ki, İran şahı Daranın məqbərəsi üzərindəki kitabədə ***3 sak*** kütləsinin adı (*tiqraxaur, xaumvarka, saka-tiay-tara-darayya*) çəkilir; axırıncının mənası "*dənizin o tayındakı saklar*" deməkdir. Tarixçi-alim M.İsmayılov V.B.Lukinin və Q.A.Stratanovskinin ***massagetlərin*** "*böyük saklar*" mənası verdiyini söyləmələrini qeyd edir. Görkəmli türk tarixçisi Bahəddin Ögəl yazır: "***Saka*** *adını daşıyan tayfalardan yunan və İran qaynaqları miladdan öncə VI əsrdən sonra söz açmağa başlamışdır. İlk məlumatlar İran şahı Daranın sakalara qarşı etdiyi axınlar dolayısı ilə görünməyə başlamışdır. Sakalar daha əvvəllər İran şahı Koruşu məğlubiyyətə uğratmış və böyük bir qüvvəyə sahib olduqlarını sübut etmişdir. Bəzi məlumatlara görə isə bunların Fərqanə zonasının hər halda dağlıq əhatəsində yaşamaları tez-tez təkrar olunmuşdur. Bəzi araşdırmaçılar isə sakaların Sırdəryanın arxasında da yayıla biləcəklərini irəli sürmüşdür. Sakaların qərbə köçü ancaq yuecilərin basqını ilə başlamışdır. Amma Orta Asiya sakaları qərbə və Hindistana tamamilə köçməmişdilər*" (B.Ögəl: "Böyük Hun imperiyası", I kitab, Bakı, "Gənclik", 1992). B.Ögəlin məlumatı ilə sakaların miladdan öncə VI əsrdən mənbələrdə – xüsusən İran, yunan mənbələrində qeyd edildiyinin göstərilməsidir. Qarabağ ərazisinin bir hissəsinin ***Arsak*** (***Ərsak***) adlanması haqqında XVII əsr müəllifi Həsən Cəlal Yesayidə də rast gəlirik (H.C.Yesayi: "*Alban ölkəsinin qısa tarixi 1702-1722*", Bakı, "İşıq", 1992). İ.M.Dyakonov m.ö.VI əsrdə sakların ermənilərin də etnogenezində müəyyən rol oynadığını göstərir. Tarixdən məlumdur ki, ermənilər uzun müddət sakların hakimiyyəti altında yaşamışlar. T.Əhmədov V.F.Minorskiyə əsaslanaraq göstərir ki, ***Şəki*** toponiminin meydana gəlməsi ***sak*** tayfaları ilə əlaqəlidir. Orta əsrlərdə Azərbaycanın Kür-Araz ovalığının şimal-qərb hissəsi, o cümlədən Qarabağın çox hissəsi **Sakasena** (***Sisakan***) adlanmışdır. M.Seyidova görə *Arsaq* sözü **Ərsaq** anlamındadır. Mənası Ü***saq*** *qəbiləsi birləşməsindən olanlar*" deməkdir. Q.Qeybullayev göstərir ki, **saka** türkdilli qəbilədir və toponimlərdə onun böyük izi var. Ə.Fərzəli qeyd edir ki, ***saqlar*** (***saqoq***) Qarabağın ən qədim sakinləridir. Ə.Sumbatzadə göstərir ki, ***saklar*** Kürün sağ sahilində yaşamışlar. ***Şəkər*** oykoniminin ***Sakər*** etnonimindən formalaşdığını əsas gətirərək ahəng qanununa tabe olma nəticəsində ***Şakər*** sözünün ***Şəkər*** sözünə çevrilməsini deyə bilərik.

Şıx Dursun – Rayon mərkəzindən 28 kilometr cənub-qərbdə, dağətəyi ərazidə yerləşən kənd. XIX əsrin 20-ci illərində İrandan köçüb gəlmiş erməni ailələri burada məskunlaşdıqdan sonra yaşayış məntəqəsi ***Sıxtoraşen*** (***sxto*** erməni dilində "*sarımsaq*" deməkdir) adlanmışdır. 1992-ci ildə kəndin əvvəlki ***Şıx Dursun*** adı bərpa edilmişdir. ***Şıx Dursun*** oykonimi ***Şeyx Dursunun*** adındandır.

Tağaser – Rayon mərkəzindən 45 kilometr cənubda, Qarabağ silsiləsində, dağətəyi ərazidə yerləşən kənd. Oykonimin izahı ilə bağlı müxtəlif fikir və mülahizələr vardır. Coğrafi adın tərkibindəki farsdilli ***tağ*** sözü "*məhəllə*", "*dairə*", "*qübbə*", "*günbəz*" anlamlarındadır, ***ser (sər)*** isə "*baş*" mənasını ifadə edir. ***Tağaser*** toponimi "*günbəzin başında (yəni yuxarı hissəsində) yerləşən kənd*" mənasındadır. Toponimin tam elmi izahı hələlik dəqiqləşdirilməyib. ***Tağaser*** oykonimi

mənası aydın olmayan coğrafi adlardandır. **1727**-ci ilə aid olan "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı tarixi qaynaqda *Dizaq* nahiyəsinə tabe olan yaşayış məntəqələri sırasında ***Tağaser*** kəndinin adı ***Təğasir*** kimi əks olunmuşdur.

Tağaverd – Rayon mərkəzindən 35 kilometr cənub-qərbdə, Füzuli-Xankəndi avtomobil yolunun kənarında, dağətəyi ərazidə yerləşən kənd. Yaşayış məntəqəsi *9 noyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir. **1727**-ci ilə aid olan "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı tarixi qaynaqda *Vərəndə* nahiyəsinə tabe olan kəndlər sırasında ***Təğavert*** adına da rast gəlirik. ***Tağaverd*** oykonimi mürəkkəb toponimdir. Yerli məlumata görə yaşayış məntəqəsini Şuşa qəzasının keçmiş *Şüşülü, Dırnavas, Tuğ* və *Domu* kəndlərindən köçüb gəlmiş ailələr salmışlar. Kəndin keçmiş adı ***Aşağı Tağaverd*** olub. Xocavənd rayonunun indiki ***Zərdanaşen kəndi*** isə ***Yuxarı Tağaverd*** adlanmışdır. Bəzi tədqiqatçıların araşdırmalarına əsasən ***Tağaverd*** oykonimi "*qala məhəlləsi*" mənasını ifadə edir. Bir qisim araşdırıcılar isə oykonimi ***tağavarat*** ("*güllük, çiçəklik*") sözü ilə bağlayırlar. Ümumiyyətlə, oykonim haqqında müxtəlif fikir və mülahizələr mövcuddur. ***Tağaverd*** sözü ***tağ*** və ***verd*** sözlərindən, eləcə də "***a***" bitişdiriji saitindən ibarətdir. ***Tağ*** sözünün "*məhəllə*" mənası məlumdur. Yaşayış məntəqəsinin konkret tayfaya, şəxsə və yerə mənsubluğu, aidliyi bildirilir. ***Tağaverd*** coğrafi adı ***tağ*** sözü və qədim alban mənşəli ***verd*** (***berd***) topoformatı əsasında formalaşan oykonimdir.

Tağlar – Rayon mərkəzindən 60 kilometr cənub-qərbdə yerləşən kənd. Oykonim qədim paleolit dövrünə aid edilən ***Tağlar*** mağarasının adı ilə əlaqədar olaraq belə adlandırılıb. ***Tağ*** sözü "*qübbə*", "*məhəllə*", "*bostan*" və s. mənaları ifadə edir.

Tsakuri – Rayon mərkəzindən 44 kilometr cənub-qərbdə, Çiraquz inzibati ərazi vahidində, Qarabağ silsiləsində, dağətəyi ərazidə yerləşən kənd. Oykonimin izahı ilə bağlı müxtəlif fikir və mülahizələr vardır. Toponimin elmi izahı hələlik dəqiq məlum deyil. ***Tsakuri*** oykonimi mənası aydın olmayan coğrafi adlardandır. Əslində kəndin adı ***Zakirli*** olmalıdır. Ermənilər buraya gələndən sonra kəndin adını ***Tsakuri*** formasında rəsmiləşdirmişlər. XIX əsrə aid olan rus mənbələrində yaşayış məntəqəsi ***Zakurlı*** variantında qeydə alınmışdır. Oykonimin ***Zakirli*** tirəsinin adı ilə bağlılığı güman edilir. 1992-ci ildən kəndin ***Zakirli*** adı bərpa edilmişdir. Sənədlərdə görürük ki, vaxtilə – 1933-cü ildə Laçın rayonunda ***Zəkir*** adlı yaşayış məntəqəsi mövcud olmuşdur.

Tsur – Banazur inzibati ərazi vahidində, Qarabağ silsiləsində, dağətəyi ərazidə yerləşən kənd. ***Tsur*** toponimi ilə bağlı müxtəlif fikir və mülahizələr vardır. ***Tsur*** oykonimi mənası aydın olmayan coğrafi adlardandır. Bəzi yerli məlumatlara görə, yaşayış məntəqəsi XIX əsrin 20-ci illərində İrandan gəlmiş erməni ailələrinin burada məskunlaşmasından sonra ***Tsur (Sor) kəndi*** adlandırılmışdır. ***Sor*** sözü türkdilli xalqların toponimiyasında coğrafi termin kimi "*duzlu göl*", "*bataqlıq*", "*kiçik göl*", "*aşağı yer, ətək*" mənalarında işlənir. Dağ ətəyində yerləşən bu kəndin adı məhz "*aşağı yer, ətək*" mənasını ifadə edir.

Tuğ – Rayon mərkəzindən 44 kilometr cənub-qərbdə, Yuxarı Qarabağın cənub-qərbində, Qarabağ silsiləsinin ətəyində, dəniz səviyyəsindən 1400-1500 metr yüksəklikdə yerləşən kənd. Tuğ kəndinin *məlikyeqanovlar, məlikaslanovlar, cahangirlilər, mehdibəylilər, aslanbəylilər, gülməmədlilər, talıbxanlılar, səlimbəylilər, cəfərlilər, vəliuşağılar* və s. adlı tayfa, tirə və nəsilləri vardır. Azərbaycanda və dünyada məşhur olan *Azıx mağarası* və *Tağlar mağarası* Tuğ kəndi yaxınlığındadır. Aparılmış son tədqiqatlar burada insanların hələ təqribən 1,5 milyon il əvvəl məskunlaşdığını göstərir. Kəndin ərazisində erkən orta əsrlərə aid olan bir neçə alban (Qafqaz) xristian abidəsi, *Garrav – Qırmızı məbəd* (1000-ci il) , eləcə də – *Hamam dərəsi, Atayurd dərəsi, Pırıxlı, Dəyirman dərəsi, Aşağı bulaq, Baş bulaq, Orta bulaq, Qara bulağı, Məmməd bulağı, Qotur bulaq, Şor bulaq, Qızaran düz, Kənd yeri, Garrav vadisi, Dırbanabənd, Bayram bulağı, Gəmi qayası, Dəhliz, Güngörməz, Salman bulağı, Hacı tut bağı* və s. coğrafi adlar vardır. Bu coğrafi

adların hər biri sırf türk mənşəli adlardır. ***Tuğ*** kəndinin sakinləri tarixən öz qəhrəmanlıqları ilə seçilmişlər. Kənd ərazisindəki ***K-Tiş vəngi,*** Tuğ dağının zirvəsindəki *məbəd*, kənddəki **3** *məbəd*, miladdan öncəyə aid olan üstü yazısız olan qəbiristanlıq və s. bunlara əyani sübutdur. Erməni işğalından sonra məcburi köçkünə çevrilmiş Tuğ kəndinin əhalisinin 70%-i Beyləqan rayonunun Haramı ərazisində salınmış Yeni Tuğ kəndində, 30%-i isə Azərbaycanın 20 inzibati rayonunda məskunlaşmışdır. ***Tuğ*** oykonimi türkdilli qıpçaqların ***tuğ*** tayfasının adı ilə bağlıdır. Türk dilində ***tuğ*** sözü "*ucuna at quyruğunun saçağı bənd olunan mizraq*", "*müharibədə qoşunun önündə aparılan bayraq*", "*çiçək*", "*hakimiyyət rəmzi*", "*Tuğra şah fərmanı; gerb, dövlət nişanı*", "*aləmə bənzər dini mərasimlərdə istifadə edilən bayraq*" anlamı ifadə edir. Orta əsrlər dönəmində bir ***tuğu*** olmaq sancaqbəyini, iki ***tuğ*** bəylərbəyini, üç ***tuğ*** paşanı göstərirdi. Azərbaycan dilində ***tuq*** sözü "*bayraq*" mənasında hazırda da işlədilir. Bayraqlar haqqında yazan A.P.Okladnikov öz məqaləsində D.Banazorova əsaslanaraq yazır ki, monqollar xanın şəxsiyyətinə onun təbəsini gözəgörünməz şəkildə qoruyan ilahi, hər şeyə qadir qüvvə kimi baxırdılar. Bu keyfiyyətə ***sulde*** deyirlər. Monqol suldesinin təcəssümü *xan bayrağı* idi, hər şeydən qabaq imperiyada hakim sülalənin əsasını qoyan Çingizin ***Sulde*** adlanan **9** buncuqdan ibarət olan *bayrağı* idi. A.P.Okladnikovun yazdığına görə ***bayraq*** hakimiyyət rəmzidir. *Bayrağı ələ keçirmək* qalib gəlmək, *bayrağı itirmək* isə məğlub olmaq deməkdir. M.Kaşgarlı "*Divani-lüğət-it-türk*" əsərində ***tuqer*** qəbiləsinin adını çəkib. M.C.Cavanşir Qarabağlı ***Tuğ*** toponimini ***Tuq*** şəklində işlətmişdir. Ə.Əliyev göstərir ki, ***duk/tuq*** qədim türk dilində "*min nəfərlik döyüşçü*" deməkdir. Ə.Fərzəli qeyd edir ki, oğuz dillərindəki ***dağ*** (***tau, tao***) variantına ***Tuğ*** sözünü də əlavə etmək olar. Q.Qeybullayev ***tuk*** adlı qıpçaq qəbiləsinin də adını çəkir. Tarixi qaynaqlardan məlum olur ki, **216**-ci ildə həbs edilib Çinə aparılmış Tanhu Mətənin qəbiləsi ***Tuku*** olub. ***Tuğ*** etnonimini özünə soy adı götürən türk hakimi və ***Tuğluq*** sülaləsi *1321*-ci ildən *1913*-cü ilə qədər Hindistandakı *türk* dövlətini idarə etmişdir. Akademik Ziya Bünyadov "Azərbaycan VII-IX əsrlərdə" əsərində ***Tuğ*** kəndinin də adını çəkmişdir. XVIII əsrə aid olan "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı mənbədə ***Tuğ*** kəndinin də adı çəkilir. N.A.Baskakov belə hesab edir ki, ***tuğ*** "*hakimiyyət rəmzi*" mənasındadır. Ensiklopedik lüğətdə ***tuğ*** sözünün mənası "*bayraq*" anlamında izah olunur. Azərbaycan toponimiyası ilə məşğul olan əksər mütəxəssislər Qarabağın ***Tuğ*** kəndinin adını məhz əslən türk sözü olan ***tuğ*** ("*bayraq*") termini ilə izahlandırırlar. Yuxarıda dediklərimizdən bu nəticəyə gələ bilərik ki, ***bayraq*** anlamlı **tuğ** sözü türk dillərində əvvəlcə apelyativ leksik vahid kimi işlənmiş, sonra isə etnonim və toponimlərdə sabitləşmişdir. Qədim tarixə malik olan cənnətməkan *Tuğ kəndi 30 oktyabr 1991-ci il* tarixdə ermənilər tərəfindən işğal olunmuşdu. *9 noyabr 2020-ci il* tarixdə ***Tuğ kəndi*** erməni işğalçılarından azad edilmişdir.

Tyak – Xocavənd rayonunda, Dağətəyi ərazidə yerləşən kənd. ***Tyak*** oykonimi ilə bağlı müxtəlif fikir və mülahizələr var. Bu oykonim mənası aydın olmayan coğrafi adlardandır. Toponimin tam elmi izahı hələ dəqiqləşməyib. Bəziləri bu adı türk dillərində "*sığınacaq*", "*oba*", "*köçəbə*" mənasında işlədilən ***töyək*** sözü ilə əlaqələndirir. Kəndin adı ***Dağdöşü*** kimi rəsmiləşdirilmişdir.

Vəng – Rayon mərkəzindən 41 kilometr cənub-qərbdə, dağlıq və dağətəyi ərazidə yerləşən kənd. ***Vəng*** oykoniminin izahı ilə bağlı müxtəlif mülahizələr var. Bəzi sənədlərdə oykonimin adına ***Vanq, Vanklu*** formalarında da rast gəlirik. ***Vank*** (***Vanq, Vəng***) sözü "*kilsə*", "*monastr*" mənasındadır. ***Vanklu*** coğrafi adı "*kilsəli*" anlamındadır. ***Vəng*** yaşayış məntəqəsi oradakı XIV-XV əsrlərə aid xristian məbədinə (***Vəng***) görə belə adlandırılmışdır. *1727-ci* ilə aid olan "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı tarixi sənəddə *Dizaq* nahiyəsinə tabe olan yaşayış məntəqələri sırasında ***Vəng kəndi*** adına da rast gəlirik. Ancaq nədənsə həmin "*dəftər*"də kənddə heç kimin yaşamadığı göstərilir.

Vərəndə mahalı – Yuxarı Qarabağda tarixi mahal. "*Qarabağnamələr"*də yazılır: *"**Vərəndə mahalı** ərazisi Kirs dağından başlayaraq Əlibaba düzənliyinə qədər uzanır. Eni Kirs dağından Şuşakənd çayına və Xəlfəliyə qədərdir. Bu mahalın torpağı çox məhsuldardır. Burda buğda və başqa dənli bitkilər çox yaxşı yetişir*" ("Qarabağnamələr", II kitab, Bakı, "Yazıçı", 1991, səh.13). Mahalın başçısı 1650-ci ildən Məlik Şahnəzər Məlik Bağı oğlu olmuşdur. 1708-ci ildə Gəncə-Qarabağ bəylərbəyi Uğurlu xan Ziyadoğlu-Qacar təliqə ilə III Məlik Şahnəzəri ***Vərəndə*** mahalının məliyi təsdiq edir. III Məlik Şahnəzərdən sonra ***mahala*** qardaşı Məlik Mirzəbəy başçılıq etmişdir. 1722-ci ildə II Təhmasib Səfəvinin fərmanı ilə Vərəndə mahalına Məlik Bağır Məlik Mirzə bəy oğlu başçı təyin olunur. 1727-ci ildə II Təhmasib Məmməd Hüseyn bəy Məlik Şahnəzər oğlunu mahala məlik təyin edir. Sonra mahala Məlik Mirzəbəy Məlik Bağır oğlu başçılıq etmişdir. Nadir şah Qırxlı-Avşar Məlik Mirzəbəyi edam etdirir. Onun qardaşı Həsən bəy Vərəndə mahalına *məlik* təyin olunur. 1747-ci ildə Məlik Hüseynin oğlu Şahnəzər bəy əmizadəsi Məlik Həsəni öldürüb Vərəndə mahalının hakimi olur. IV Məlik Şahnəzər Qarabağ xanı Pənahəli xana itaət edir. O, 1791-ci ilədək Vərəndəyə başçılıq edir. İbrahimxəlil xan arvadı Hürzad xanımın (*Məlik Şahnəzərin Sona xanımdan olan qızı*) xatirinə qardaşı Hüseyn bəyi mahala başçı təyin edir. Xanın bu seçimi varislər arasında dartışmaya səbəb olur. Cahanbəxş bəy (*Məlik Şahnəzərin digər oğlu*) İrana qaçaraq Ağaməhəmməd xandan məliklik fərmanı alır. Qarabağa qayıdanda təklənir. Hüseyn bəy qardaşının evinə hücum edib onun əmlakını mənimsəyir. Cahanbəxş bəy qardaşı Cahangir bəylə Şirvana, Mustafa xan Xançobanlının yanına qaçır. 1791-ci ildə İbrahimxəlil xan işin yoğunlaşdığını görüb Məlik Şahnəzərin başqa bir oğlu Cümşüd bəyi Vərəndə mahalına *məlik* təyin edir. Məlik Cümşüd yerini möhkəmləndirdikdən sonra asi olan yağı məliklərlə (*Məcnun, Abov, Rüstəm*) bir araya gəlib, İbrahimxəlil xanın əleyhinə birlik yaratmağa başlayır. İbrahimxəlil xan onu Qarabağdan qovur. 1805-ci ildə Məlik Cümşüd Qarabağa, Vərəndə mahalına qayıdır və çox keçmir ki, öyrətməsi ilə İbrahimxəlil xanın axırına çıxır. ***Vərəndə*** mahalının tərkibinə daxil olan yaşayış məntəqələri və kəndlər bunlardan ibarət olmuşdur: *Vərəndə, Çanaxçı, Keşişkəndi, Cəmiyyət, Kaqarza, Dəhraz, Şaşin (Saşin), Xaşin (Haşin), Əşrəflu (Əsrəflu), Şıx-Əlilli, Hacı-Özü, Güney Çartaz, Arpadöşü, Qalakəndi, Yemişcə, Siznik (Seynik), Meşka, Xaçmaz, Ağbulaq, Kutahis, Sarıbəyli, Təfavrən (Nefavrən), Keki (Koki), Şeyx Dursun, Qaraxan, Kəndxurd, Müşkabad, Keşin, İsfahancıq, Quzey Çartaz, Bebrikəndi (Beynikəndi, Pirokəndi), Şuşi, Müşkənək, Beycan (Yeycan), Yenicə, Didyan, Muşaşyar, Dardan, Ağcaberd, Sərkələp, Kiratak, Xaşendam, Abdal, Caqadüz, Balacıq, Taxtadaşı, Xaitan, Vərəndəcik, Qaraqışlaq, Kandira, Qanlı Gədik, Qaraçuq, Sökütlü, Rudxanaye-Pirəhməd, Keçiqıran, Dövlətyar, Müsəlləm, Korlayı, Hərnəgərək (Xərnəgərək)*.

Vərəndə məlikliyi – Orta əsrlərdə Qarabağın dağlıq ərazisində yaranmış kiçik feodal hakimliyindən biri ***Vərəndə məlikliyi*** adlanırdı. Səfəvilər zamanında ***Vərəndə məlikliyi*** Qarabağ bəylərbəyiliyinə daxil idi. XVIII əsrin ortalarından ***Vərəndə məlikliyi*** Qarabağ xanlığının vassalına çevrildi. Tarixi sənədlərdə qeyd olunur ki, əslən Göyçə əsilzadələrindən olan *Vərəndə məliyi* Şahnəzər Qarabağdakı digər məlikləri özünə tabe etməyə çalışan Pənahəli xana köməkliklər göstərmişdir.

Vərəndəli – Xocavənd rayonu ərazisində ***Vərəndəli*** sözü ilə bağlı bir neçə ad qeydə alınıb. ***Vərəndəli*** adlı yaşayış məntəqəsi XX əsrin ortalarında Qaradağlı kəndinin ərazisinə birləşib. Tarixdən məlumdur ki, Xocavənd rayon mərkəzinin, Xocavənd qəsəbəsinin cənub-qərb hissəsi **Vərəndəli** adlanır. Uzun əsrlərdir ki, burada yaşayan Azərbaycanlılar özlərini ***vərəndəli*** nəsli, ***vərəndəli*** tayfasının nümayəndələri adlandırırlar. Z.Kanakertsi "*Xronika*" əsərində ***Vərəndə*** adını çəkir: "*Qarabağ xanlığının mövcudluğu dövründə bu bölgə **Vərəndə məlikliyi** adlanmışdır*". XVII əsr müəllifi A.Davrişetsinin "*Tarix kitabı"*nda da ***Vərəndə*** adı xatırlanmışdır. D.D.Paqirevin göstərdiyi kimi, XIX əsrdə Qafqazda mövcud olmuş *Berenda çayı, Berenda kəndi, Varanda*

Bolşoy, Varanda Malıy, Varanta uçuqluğu ***vərəndə*** adı ilə əlaqədardır. M.C.Cavanşir də ***Vərəndə*** haqqında belə bir məlumat vermişdir: "*İranda olan cənnətməkan Səfəvi sultanlıqlarının dövründə Qarabağ vilayəti və Dizaq,* ***Vərəndə****, Xaçın, Giləberd, Talışdan ibarət olan* ***Xəmsə*** *mahalları və elləri rəhmətlik Nadir şahın zamanına qədər Gəncə bəylərbəyiliyinin hökmünə tabe olmuşdur*". XX əsrin Sovetlər dönəmində ***Vərəndə*** toponimi sıxışdırılaraq ***Martuni*** adı ilə əvəzlənib rəsmiləşdirildi. Toponimçi-tarixçi alim Q.Qeybullayev ***Vərəndə*** adı haqqında məlumat verərək göstərir ki, rus salnamələrində peçeneqlərlə bağlı ***berendey*** tayfalarının adı elə ***vərəndə*** adının variantıdır və ***Vərəndə*** toponimi mənbələrdə ***Pazkank*** adlanan ***Peçeneq*** mahalında mövcud olmuşdur. Oljas Süleymanov ***vərəndə/berendey*** tayfası haqqında məlumat verərək göstərir ki, ***vərəndə/berendey*** tayfası peçeneqlərdən ayrılmadır. Peçeneqlər rusların tərəfinə keçən həmtayfalarını ***berindi*** "*satılmış*", "*özünü vermiş*", "*ayrılmış*" adlandırmışlar. Çox güman ki, peçeneqlərdən ayrılan ***vərəndə*** tayfası "*getmiş*", "*varmış*", "*ayrılmış*" mənasından törənən bir addır. XII əsrdə yaşamış ***berendey/vərəndə*** başçılarından Dudar Satmazoviçin, Karakoz Miyuzoviçin və Koraz Kokeyin adları knyaz Mstislavla bağlı olaraq çəkilir. Onlar Mstislava xidmət təklif edib əvəzində şəhər istəyirlər, knyaz razılıq verir. ***Vərəndə*** formasında toponimləşmiş etnonim sənəd və materiallarda ***Varanda, Vərəndəcik, Baranda, Vərəndəli*** şəklində də işlədilmişdir. Yerli sakinlərin dediklərinə görə, ***Vərəndə kəndi*** XIX əsrdə mövcud imiş. 1918-1920-ci illərdə Vərəndənin bəzi əkin sahələri, üzüm bağları qonşuluqdakı *Ağkənd* (Spitakşen) kəndinin torpaqlarına qatılıb. XX əsrdə bu kəndin 270 hektar sahəsi, 250 nəfər əhalisi olub. O zamanlar kənddə xeyli sayda xüsusi təsərrüfatlar fəaliyyət göstərmişdir. 1930-cu illərdə ***Vərəndəlidə*** "*Qırmızı Oktyabr*" adlı kolxoz (*1951-ci ilədək müstəqil olub*) yaradılıb. 1951-ci ildən ***Vərəndəli***, Qağarza, Qaradağlı, Paravatumb kolxozları birləşdirilib. 1956-cı ildə isə ***Vərəndəli*** torpağının bir hissəsi alınıb Spitakşen və Müskabad erməni kəndlərinə verildi. Nəhayət, erməni siyasəti nəticəsində ***Vərəndəli*** bir kənd kimi "*ömrünü başa vurur*". Əhalisi Qaradağlı kəndinə köçürülür. Erməni xəyanətinin qurbanı olan ***Vərəndəli kəndi*** həmin tarixi dönəmdə Martuni rayonunda məhv edilmiş Xanlıq kəndinin, Bəhrəmli kəndinin (*bu kəndin əhalisi yaxınlıqdakı Muğanlı kəndinə və digər yaşayış məntəqələrinə köçmüşdür*) aqibətini yaşamışdır.

Yemişcan – Qarakənd inzibati ərazi vahidində, rayon mərkəzindən 11 kilometr şimal-qərbdə, Qarabağ silsiləsinin ətəyində yerləşən kənd. **1727**-ci ilə aid olan "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı tarixi qaynaqda Vərəndə nahiyəsinə daxil olan kəndlər sırasında ***Yemişcə*** kəndinin də adı var. Bəzi tədqiqatçılara görə, ***Yemişcan*** oykonimi azacıq təhrifə məruz qalmışdır. 1727-ci ilə aid "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*"ndə kəndin adı ***Yemişcə*** kimi çəkilmişdir. Bəzən kəndin adı fitonimlərdən əmələ gələn makrotoponim kimi ***Yemişçi*** formasında da çəkilir. Əslində yaşayış məntəqəsinin adı ***Yemişan*** olmalıdır. Kənd orada bitən ***yemişan*** ağacının çoxluğuna görə belə adlandırılmışdır.

Yenikənd – Rayon mərkəzindən 19 km şimal-qərbdə, dağətəyi ərazidə yerləşir. XIX əsrin 20-ci illərində Cənubi Azərbaycanın Qaradağ mahalından və digər yerlərdən köçüb gəlmiş erməni ailələri burada məskunlaşmış və sonralar onlar kəndin adını erməni dilinə tərcümə olunmuş formada – ***Norşen*** (*Yenikənd, Təzəkənd*) adlandırmışlar. 1992-ci ildə kəndin əvvəlki ***Yenikənd*** adı bərpa edilmişdir. ***Yenikənd*** oykonimi quruluş etibarı ilə mürəkkəb toponimdir.

Zakirli – Çiraquz inzibati ərazi vahidində, Qarabağ silsiləsində, rayon mərkəzindən 44 km cənub-qərbdə, dağətəyi ərazidə yerləşən kənd. XIX əsrə aid olan rus mənbələrində yaşayış məntəqəsinin adı ***Zakurlı*** variantında qeydə alınıb. Oykonimin ***zakirli*** tirəsinin adı ilə bağlılığı ehtimal olunur. Gəlmə ermənilər burada məskunlaşdıqdan sonra kənd ***Tsakuri*** (***tsaqor*** *ermənicə "****əzgil****" deməkdir*) adı kimi rəsmiləşdirilmişdir. 1992-ci ildə kəndin indiki adı bərpa edilmişdir.

Zavadıq – Herher inzibati ərazi vahidində, rayon mərkəzindən 24 kilometr cənub-qərbdə, Qarabağ silsiləsinin ətəyində yerləşir. Bəzən kəndin adı ***Zavadıx*** kimi də yazılır. ***Zavadıq*** – mürəkkəb toponimdir. Bir sıra tədqiqatçıların fikrincə, ***Zavadıq*** oykoniminin əsli qədim türk dillərindəki ***sav/suv/su*** sözündən ibarət olub, "*su, göl yanındakı kənd*" mənasındadır. Oykonimin əsli ***Zabadeh*** olub, fars dilindəki ***zab*** ("*çeşmə, bulaq*") və ***deh*** ("*kənd*") sözlərindən ibarətdir. Yaşayış məntəqəsinin adı "*bulaqlı, çeşməli kənd*" anlamındadır. XIX əsrdə gəlmə erməni ailələri burada məskunlaşdıqdan sonra toponim təhrifə uğrayaraq indiki şəklinə düşmüşdür. Coğrafi adın izahı ilə bağlı digər fikir və mülahizələr, izahlar da vardır.

Zərdanaşen – Rayon mərkəzindən 35 kilometr cənub-qərbdə, Xocalı rayonu ilə həmsərhəd ərazidə, dağətəyi ərazidə yerləşən kənd. Yaşayış məntəqəsi *9 noyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir. Oykonimin izahı ilə bağlı müxtəlif fikir və mülahizələr var. Əski türk dilində ***zərd*** sözünün "*sarı*" mənası var; ***şen*** termini "*kənd*" anlamındadır. ***Zərdənaşen*** toponimi "*sarı yerli kənd*" mənasındadır.

Zoğalbulaq – Azox inzibati ərazi vahidində, rayon mərkəzindən 40 kilometr cənub-qərbdə, dağətəyi ərazidə, Quruçayın sahilində yerləşən kənd. XIX əsrdə erməni ailələri burada yerləşdikdən sonra ***Zoğalbulaq*** yaşayış məntəqəsinin adı onlar tərəfindən ***Traxtik*** kimi rəsmiləşdirilmişdir. ***Traxtik*** sözü erməni dilində "*cənnət yeri*", "*cənnət guşəsi*" deməkdir. 1992-ci ildə kəndin keçmiş ***Zoğalbulaq*** adı bərpa edilmişdir.. Yaşayış məntəqəsi *9 noyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir. Oykonim ***zoğal*** və ***bulaq*** sözlərindən ibarətdir. Yaşayış məntəqəsinin yerləşdiyi ərazidə **zoğal** ağacları və zoğallara yaxın yerdə suyu dumduru, soyuq ***bulaq*** olduğuna görə kənd belə adlandırılmışdır.

Azıx mağarası (Xocavənd rayonu, Salakətin və Tuğ kəndlərinin yaxınlığında)

Amaras məbədi – IV əsr (Cütçü kəndi)



Müqəddəs İohann kilsəsi (Tuğ kəndi)

Nərgiztəpə yaşayış yeri – (Xocavənd rayonu).
İlk və orta tunc dövrü

Katarovəng məbədi – IV-VI əsrlər (Çaylaqqala kəndi)

ŞUŞA RAYONU

(RAYON HAQQINDA ÜMUMİ MƏLUMAT)

Başdan-başa gözəlliklər məskəni olan ***Şuşa*** inzibati rayon kimi 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə onun ərazisi *Stepanakert* rayonuna *(1978-ci ildən 1991-ci ilə qədər Əsgəran adlandırılmışdır)* verilmiş, 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Rayonun sahəsi 289 kvadrat kilometrdir. 37 kəndi olan Şuşa rayonunun ən yüksək zirvəsi 2725 metr olan Böyük Kirs dağıdır. Ərazisi qışı quraq keçən mülayim-isti, qışı quraq keçən soyuq-iqlim tiplərinə aiddir. Şuşada orta temperatur yanvarda -2^{0}C, iyulda 18^{0}C-dir; illik yağıntı 700-800 mm-dir. Torpaqları qəhvəyi dağ-meşə, qonur dağ-meşə, çimli dağ-çəməndir. Rayon ərazisinin 20 % -i fısdıq və sair meşələrdən ibarətdir. *Heyvanları*: ayı, canavar, tülkü, boz dovşan, cüyür, kəklik, turac, göyərçin və sairədən ibarətdir.

Rayonda əhalinin orta sıxlığı hər kvadrat kilometrə 64 nəfər təşkil edir; ən iri yaşayış məntəqələri ***Şuşa şəhəri, Malıbəyli*** və ***Daşaltı*** kəndləridir.

XVIII əsrin 50-ci illərindən ***Şuşa şəhəri*** Qarabağ xanı Pənahəli xanın şərəfinə ***Pənahabad*** adlanmışdır. XVIII əsrın 80-ci illərində əhalisi sürətlə artan şəhərin ətrafına qala divarları çəkildiyi üçün xalq arasında ona ***Qala*** da deyirdilər. Bir çox müəlliflərə görə, Şuşa – yaxınlıqda yerləşən *Şuşikəndin* adı ilə bağlıdır. II əsr müəllifi Tatsit Şimali Qafqazda – dondarlarda ***Şoşu*** adlı şəhərin olduğunu qeyd etmişdir. Tatsit Şimali Qafqazda dondarlarda mərkəzi şəhərin ***Şoşu*** (*latın dilində "**ş**" səsi olmadığı üçün müəllif bu sözü **Sosu** şəklində qeyd etmişdir*) adlandığını yazmışdır. Çox güman ki, ***dondarlar*** hunların bir hissəsi ilə Azərbaycana gəlib məskən saldıqda yaratdıqları bəzi yaşayış məntəqələrinə **Şoşu** şəhərinin adını vermişlər. Qubadlının Dondarlı kəndi yaxınlığında da ***Şoşu*** adlı yaşayış məntəqəsi olub. Altay qəbiləsinə daxil olan ***Şoşu/sosu*** tayfa adından formalaşıb əmələ gəlmiş ***Şuşa*** etnotoponiminin mənası "*hündür, nəm yer*" deməkdir.

Şuşa şəhərinın adı bir çox mənbələrdə **Şişə** formasında da qeyd olunur. Bəzi tədqiqatçılara görə**, *Şuşa*** toponimi ***Şuş/Şüş/Şiş*** komponenti ilə bağlı olub, mənası *"şiş", "yüksək", "uc", "hündür"* deməkdir...

Şuşa şəhəri Azərbaycanda, Qarabağ silsiləsində (*Şuşa platosunda*), Bakıdan 402 kilometr aralıda, dəniz səviyyəsindən *1500* metr yüksəklikdə yerləşir. ***8 may 1992-ci il*** tarixdə Şuşa şəhəri erməni hərbi birləşmələri tərəfindən işğal edilmişdi. ***8 noyabr 2020-ci il*** tarixdə **Şuşa şəhəri** işğaldan azad olunmuşdur.

Şuşa şəhəri quruluş etibarı ilə Azərbaycan-Şərq memarlığının bariz nümunəsidir. Şəhərin ***Aşağı Bazar, Rastabazar, Bazarbaşı, Meydan, Karvansara, Şeytanbazar*** və digər komplekslərinin tikintisi XVIII əsrin ortalarından başlayaraq XX əsrin əvvəllərinədək müxtəlif fasilələrlə şərq üslubunda tikilməkdə davam etmişdir. Bütün tarixi qaynaqlarda Qarabağın və Şuşanın bütünlüklə Azərbaycan torpağı olduğu göstərilmişdir. Hətta, orta əsr və sonrakı dövrlərdə Qarabağ əhalisinin ta qədim zamanlardan türkdilli olmaları məlumatları da qaynaqlarla təsdiqlənmişdir.

RAYONUN YAŞAYIŞ MƏNTƏQƏLƏRİ

Ağbulaq – Şırlan kənd inzibati ərazi dairəsində, Qarabağ silsiləsində yerləşən kənd. Toponim ərazidəki bulağın adı ilə əlaqədar olaraq belə adlanmışdır.

Allahqululular – Səfixanlar kənd inzibati ərazi dairəsində (*əvvəllər Şırlan kənd inzibati ərazi dairəsində olmuşdur*), Xəlfəli çayının sahilində, Qarabağ silsiləsində, rayon mərkəzindən 18 kilometr şimal-qərbdə, düzənlik ərazidə yerləşən kənd. Bu coğrafi ad etnooykonimdir. Yaşayış məntəqəsinin keçmiş adı ***Allahquluuşağı*** olmuşdur. Bu kəndi XIX əsrin əvvəllərində Qarabağ xanı Mehdiqulu xana mənsub olan *xəlfəli* elatının ***allahquluuşağı*** şəcərəsinin nəsli saldığı üçün o, belə ad almışdır. ***Allahqulu*** kəndi binə edən şəxsin adıdır.

Aşağı Quşçular – Rayon mərkəzindən 17 kilometr şimal-şərqdə, Malıbəyli kənd ərazi inzibati dairəsində, Yuxarı Quşçular və Malıbəyli kəndlərinin yaxınlığında, dağətəyi ərazidə yerləşən kənd. Yaşayış məntəqəsi ***11 fevral 1992-ci il*** tarixdə erməni hərbi birləşmələri tərəfindən işğal edilmişdi. Bu oykonum etnotoponimdir. Toponim "*aşağıda yerləşən Quşçular kəndi*" anlamındadır. Yaşayış məntəqəsi keçmişdə Qarabağda yaşamış böyük arealı əhatə edən türkdilli ***quşçu*** tayfasının adı ilə bağlıdır. Bəzi tədqiqatçılar quşçuları ***qara hunların*** bir qolu ilə, bəzi araşdırıcılar isə ***sarmat*** tayfasına aid ***quşilərlə*** (***xuşilərlə***) əlaqələndirirlər. Qafqazda, eləcə də Azərbaycanda ***quş***, ***quşçu***, ***quşan*** etnonimi ilə əlaqədar onlarla toponim qeydə alınmışdır.

Böyük Qaladərəsi – Qaladərəsi kənd inzibati ərazi dairəsində, rayon mərkəzindən 38 kilometr cənub-qərbdə, Qarabağ silsiləsinin cənub-qərb ətəyində, bir qədər yüksəklikdə yerləşən kənd. ***Böyük Qaladərəsi*** kəndinin əvvəlki adı ***Köhnəkənd***, sonralar isə ***Kirov*** (*Sovet hakimiyyəti illərində*) olmuşdur. Ermənilər vaxtilə yaşayış məntəqəsinin adını dəyişdirərək ***Metsqaladərəsi*** qoymuşdular. 1992-ci ildən ***Böyük Qaladərəsi*** adı ilə rəsmiləşdirilmişdir. Toponimin tərkibindəki ***qala*** sözü Şuşa qalasına işarədir. Oykonim "*Qala dərəsindəki böyük kənd*" anlamını ifadə edir.

Cəmillər – Şırlan kənd inzibati ərazi dairəsində, Qarabağ silsiləsində, dağətəyi sahədə yerləşən kənd. Kəndin ərazisində eyniadlı göl də vardır. ***Cəmillər*** oykonimi etnotoponimdir. Yaşayış məntəqəsi XVIII əsrin axırlarında Qazax mahalından Qarabağa köçmüş ***cəmilli*** tayfasına mənsub olan ailələr tərəfindən salınmışdır.

Çaykənd – Şırlan inzibati ərazi dairəsində, rayon mərkəzindən 24 kilometr məsafədə, Qarabağ silsiləsində, dağətəyi ərazidə yerləşən kənd. Yaşayış məntəqəsi coğrafi mövqeyinə – ***çay*** kənarında yerləşdiyinə görə ***Çaykənd*** adlandırılmışdır.

Daşaltı – Rayon mərkəzindən 5 kilometr cənubda, Daşaltı kənd inzibati ərazi dairəsində, Qarabağ silsiləsinin ətəyində, Qarqar çayının qolu olan Zarıslı (*Daşaltı*) çayının sol sahilində yerləşən kənd. Yaşayış məntəqəsi 9 noyabr 2020-ci il tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir. Yaşayış məntəqəsinin ərazisində müxtəlif müdafiə qalaları, XVIII əsrdə İbrahimxəlil xanın tikdirdiyi sığınacaq ev, tövlə və hamam qalıqları, təbii mağaralar və s. vardır. Uzunluğu 125 metr, eni və hündürlüyü 10 metr olan Şuşa (*Şahnəzər*) mağarası da bu kənddədir. Bu mağaradan 2 kobud daş çapacaq, çaxmaqdaşı və obcidiandan (*vulkanik dəvəgözü*) hazırlanmış 6 kiçik bıçaq, miladdan öncə IV – II minilliklərə və eramızın X – XIV əsrlərinə aid saxsı qablar, orta əsrlərə aid müsəlman qəbirləri aşkar edilmişdir. ***Daşaltı*** ətrafda yaşayan əhalinin ***Xəznədağ*** adlandırdığı mağaranın adıdır. Kənd XVIII əsrdə Qarabağ xanı İbrahimxəlil xanın hakimiyyəti zamanında Zəngəzur qəzasının ***Düzəburd*** kəndindən köçüb gəlmiş azərbaycanlı ailələrinin Şuşa qalasının cənub divarlarının ətəyindəki dərədə – ***Daşaltı*** ("*qayaaltı*" mənasında) adlanan yerdə məskunlaşması nəticəsində yaranmışdır. Kənd yerləşdiyi obyektin (***Daşaltı***) adını daşıyır. Bir çox mənbələrdə göstərilir ki, əhalini buraya Qarabağ xanı İbrahimxəlil xan köçürmüşdür.

Dükanlar – Rayon mərkəzindən 9 kilometr şimal-qərbdə, Xəlfəli kənd inzibati ərazi dairəsində, dağlıq ərazidə yerləşən kənd. Yerli məlumata görə, ***Dükanlar*** yaşayış məntəqəsi ərazisində vaxtilə bir neçə ***dükan*** olduğu üçün toponim belə ad almışdır. Tarixdən məlumdur ki, ***duk/tuk*** və ya ***dük/tük*** adlı *qıpçaq* qəbiləsi də vardır. Çox güman ki, bu tipli toponimlər həmin ***dük*** etnonimindən törənmişdir.

Göytala – Eyniadlı inzibati ərazi dairəsində, rayon mərkəzindən 27 kilometr cənub-qərbdə, Qarabağ silsiləsinin cənub-qərb yamacında, Şuşa-Laçın avtomobil yolunun kənarında, Həkəri çayının qolu olan Yağlıdərə çayının sağ sahilində yerləşən kənd. Kəndin əvvəlki adı ***Göytala*** olmuşdur. Oykonim ***göy*** və ***tala*** sözlərindən ibarətdir. XIX əsrdə gəlmə ermənilər burada məskunlaşdıqdan sonra yaşayış məntəqəsini ***Qanaçtala*** adlandırmışlar. ***Qanaç*** erməni dilində "*göy*", "*yaşıl*" deməkdir. *7 fevral 1991-ci il* tarixdə kəndin keçmiş ***Göytala*** adı bərpa olunmuşdur. ***Göytala*** toponimi "*yaşıl çəmən*" anlamını ifadə edir. ***Göytala*** – təsviri toponimlərdəndir. Toponimin görkəmi ilə adı arasında bağlılıq var. ***Tala*** – meşənin ortasında çox da iri olmayan ağacsız sahəyə deyilir. ***Tala/dala*** Qazax dilində "*düzənlikdə açıq yer, çöl*", Qırğız dilində (***talaa***) "*tarla, çöl, açıq sahə*", Yakut dilində (***talay***) "*çöl, tarla*" mənalarını daşıyır.

Həsənabad – Rayon mərkəzindən 28 kilometr məsafədə, Xanalı kənd inzibati ərazi dairəsində, Qarabağ silsiləsində yerləşən kənd. Oykonim ***Həsən*** şəxs adından və ***abad*** ("*kənd*") komponentindən ibarət olub, "*Həsənə məxsus kənd*" deməkdir.

Həsənqulular – Rayon mərkəzindən 29 kilometr məsafədə, Səfixanlar kənd inzibati ərazi dairəsində, Qarabağ silsiləsində yerləşən kənd. Oykonim "*Həsənqulugillər*", "*Həsənqulunun nəsli*" anlamındadır.

Xanalı – Eyniadlı inzibati ərazi dairəsində, rayon mərkəzindən 27 kilometr qərbdə, Qarabağ silsiləsinin ətəyində yerləşən kənd. ***Xanalı*** kəndinin əsl adı ***Xanalılar*** olmalıdır. Yerli məlumata görə, ***Xanalı*** yaşayış məntəqəsini Araz çayı sahilində yerləşən Xələfli kəndindən köçüb gələn ailələr salmışdır. Kəndin adı ***xanalılar*** nəsli ilə bağlıdır. Toponimin yaranmasını ***Xanəli/Xanalı*** şəxs adı ilə də bağlayırlar.

Xanlıqpəyə – Rayon mərkəzindən 26 kilometr qərbdə, Səfixanlar kənd inzibati ərazi dairəsində (*əvvəllər Şırlan inzibati dairəsində olmuşdu*r), Qarabağ silsiləsində, dağətəyi ərazidə yerləşən kənd. ***Xanlıqpəyə*** kəndinin ərazisi vaxtilə Qarabağ xanlığının yurd yeri olmuşdur. Burada Qarabağ ***xanlığının*** at ilxıları saxlandığı üçün kənd sonralar belə adlandırılmışdır. ***Pəyə*** – mal-qaranın saxlanıldığı təsərrüfat tikilisidir.

Xəlfəli – Eyniadlı inzibati ərazi dairəsində, rayon mərkəzindən 10 kilometr şimal-qərbdə, Qarabağ silsiləsində yerləşən kənd. Bu yaşayış məntəqəsinin adı bəzən sənədlərdə **Xəlifəli** kimi də yazılır. ***Xəlifəli*** – "*Xəlifə xidmətində olan*" deməkdir. ***Xəlfəli*** kəndinin adı Qarabağda yaşamış ***xəlfəli*** tayfasının adı ilə bağılıdır. Kəndin tam adı ***Milli Xəlfəli***dir. ***Xəlfəlilər*** mənşə etibarilə *Şahsevən* tayfa ittifaqına (*Kürdbəy qoluna*) daxil idilər. Onlar daha çox maldarlıqla, heyvandarlıqla məşğul olmuşlar. Qarabağ xanı Mehdiqulu xanın da (*1806 – 1822*) mənsub olduğu ***xəlfəlilər*** xan İrana qaçdıqdan sonra oturaqlaşaraq bir neçə yaşayış məntəqəsi yaratmışlar. XIX əsrin ortalarında onlar təqribən 250 ailədən ibarət olmuşlar. ***Xəlfəli*** toponimini orta əsr ərəb ***xəlifələri*** ilə bağlayanlar da var. ***Xəlfə*** – mollaxanada nizam-intizamı qorumaq üçün mollanın şagirdlər içərisindən təyin etdiyi sinif nümayəndəsi deməkdir. ***Xəlfələr*** əsasən mollanın özünün yaxın adamları olub, şagirdlərdən sədəqə yığardılar.

Xudaverdilər – Rayon mərkəzindən 48 kilometr məsafədə, Qaybalı kənd inzibati ərazi dairəsində, Qarabağ silsiləsində yerləşən kənd. ***Xudaverdilər*** yaşayış məntəqəsi "*Xudaverdinin nəsli, Xudaverdigillər*" mənasındadır.

İmamqululular – Xanalı kənd inzibati ərazi dairəsində, rayon mərkəzindən 29 kilometr məsafədə, Qarabağ silsiləsində, dağətəyi ərazidə yerləşən kənd. Kəndin ərazisində ***imamqululular*** nəslinin adı ilə bağlı ***meşə*** və ***bulaq*** da vardır.

İmanlar – Rayon mərkəzindən 21 kilometr məsafədə, Şırlan kənd inzibati ərazi dairəsində, Qarabağ silsiləsində yerləşən kənd. Yaşayış məntəqəsinin adı orada məskunlaşmış ***imanlar*** nəsli ilə əlaqədardır.

Kiçik Qaladərəsi – Eyniadlı inzibati ərazi dairəsində, rayon mərkəzindən 30 kilometr məsafədə, Qarabağ silsiləsində yerləşən kənd. Oykonim "*Qala* (Şuşa şəhəri nəzərdə tutulur) *dərəsindəki kiçik kənd*" deməkdir.

Qarabulaq – Xəlfəli kənd inzibati ərazi dairəsində, rayon mərkəzindən 15 kilometr məsafədə, Qarabağ silsiləsində yerləşən kənd. ***Qarabulaq*** oykonimi ***qara*** sözündən və ***bulaq*** hidronimik apelyativindən ibarətdir. Vaxtilə Füzuli şəhərinin də adı ***Qarabulaq*** olmuşdur.

Qeybalı – Rayon mərkəzindən 13 kilometr şimal-qərbdə, eyniadlı kənd inzibati ərazi dairəsində, Qarabağ silsiləsində, Qarqarın qolu olan Xəlfəli çayının sol sahilində yerləşən kənd. Adı bəzən sənədlərdə ***Qayıbalı*** və ya ***Qaybalı*** kimi də yazılır. Bu yaşayış məntəqəsinin adı keçmişdə ***Qeybalıkənd*** olmuşdur. ***Qeybalı*** toponimi qismən təhrifə uğramışdır. Qeybalı yaşayış məntəqəsini Cənubi Azərbaycanının Xoy mahalındakı ***Qeybeyli (Qayıbəyli)*** kəndindən köçüb gəlmiş ailələr salmışdır. Bu toponimin mənası dəqiq məlum olmasa da, bəzi tədqiqatçılar onu ***Qeybalı*** şəxs adı ilə əlaqələndirirlər. Bəzi mənbələrdə ***qayı*** tayfa adı kimi verilir. Məlumdur ki, oğuz türklərinin ***Kayı/Qayı*** adlı qolu da var. Gün xaqanının oğlunun adı da **Kayı** olub. "***Kayı***" sözünün başqa bir mənası "***ilan***" deməkdir.

Laçınlar – Rayon mərkəzindən 13 kilometr qərbdə, Xəlfəli kənd inzibati ərazi dairəsində, Qarabağ silsiləsində, Xəlfəli çayının sahilində yerləşən kənd. Yerli əhalidən alınan məlumatlara görə, ***Laçınlar*** yaşayış məntəqəsini qonşuluqda yerləşən *Xəlfəli* kəndindən köçüb gəlmiş ***Laçın*** adlı şəxs salmışdır. Elə bu səbəbdən də kənd belə adlanmışdır. Kənd sakinlərinin dediklərindən məlum olur ki, XIX əsrdə burada Laçın Məmməd adlı şəxs yaşamışdır. Kənd də "***laçınlar***" nəslinin adını daşıyır. ***Laçınlar*** toponimi "*Laçın nəslindən olan*", "*laçınlılar*" mənasını ifadə edir. Nəslin adı Azərbaycan dilində "*vuran*", "*tutan*", "*dəliqanlı*", "*qoçaq*" mənalarında işlənən ***laçın*** sözündəndir. Bəzən kəndin adı türk dillərindəki ***yalçın*** ("*sıldırım*") sözünün təhrif edilmiş fonetik forması ilə əlaqələndirilir.

Malıbəyli – Eyniadlı inzibati ərazi dairəsində, rayon mərkəzindən 14 kilometr şimal-şərqdə, Xankəndi şəhərindən 2 km məsafədə, Qarqar çayı sahilində, Ağdam-Şuşa avtomobil yolundan 1,5 km aralıda, Qarabağ silsiləsində, dağətəyi ərazidə, əsrarəngiz gözəlliyə malik olan səfalı bir məkanda yerləşən kənd. Kəndin ərazisində son tunc dövrünə aid kurqanlar, Qafqaz Albaniyası tayfalarından olan qarqarların və Albaniya (*Qafqaz*) dövlətinin adını özündə saxlamış toponimlər (*Ağvan* (*Aqvon*) çayı, *Ağvan* (*Aqvon*) düzü, *Qarqar* çayı və s.) mövcuddur. 1909-cu ildə tanınmış məktəbdar müəllim Məmməd Qarayev Malıbəyli kəndində qızlar üçün Azərbaycanda ilk rus-tatar məktəbi açmışdır. XX əsrdə bu kənddən ümumilikdə 500-ə qədər müəllim çıxmışdır. Onu da qeyd etmək yerinə düşər ki, Malıbəyli kəndinin 39 alimi vardır. Bu *ziyalı* kənd ölkəmizə onlarla tanınmış mühəndis, musiqiçi, siyasətçi, həkim, hərbçi, coğrafiyaçı, ədəbiyyatçı, şair,

filosof, rəssam, xalçaçı, idmançı və s. bəxş etmişdir. Qarabağ müharibəsində kəndin 22 sakini şəhid olmuşdur. Yerli məlumata görə, ***Malıbəyli kəndi*** XIX əsrdə o dövrün tanınmış sahibkarı, hörmətli və nüfuzlu şəxsiyyət kimi tanınan ***Malıbəyə*** məxsus ailələrin burada – məhz bu yaşayış məntəqəsi ərazisində məskən salmaları nəticəsində elə onun adı ilə də adlanmış və az müddət içərisində böyümüşdür. Aparılmış tədqiqatlar bunu deməyə əsas verir ki, ***Malıbəyli kəndi*** Qarabağın qədim yaşayış məntəqələrindəndir. Bir çox tarixi mənbələrə görə hələ erkən orta əsrlərdə bu ərazilərdə yaşayış olmuşdur (*bəzi sənədlərdə isə səhv olaraq göstərilir ki, guya kəndi Laçın rayonunun* ***Malıbəy*** *kəndindən gəlmiş ailələr salmışlar*). Qədim tarixə malik olan bu kəndin hər məhəlləsinin öz adı vardır. Məhəllələrin hər birində müxtəlif dükanlar olmuşdur. Bu məhəllələrin küçələri neft lampaları ilə işıqlandırılırdı. Bir çox tədqiqatçılar ***Malıbəyli*** sözünü "***malı*** *tayfasından olan adamlar*" anlamını verən etnotoponim kimi izah etməyə çalışır. Oykonimi rus dilindən tərcümədə "*kiçik bəylər*" anlamını verən "***malıye beki***" söz birləşməsi ilə də əlaqələndirirlər. Belə bir fikir də vardır ki, kəndin coğrafi mövqeyinin əlverişli olması səbəbindən yaşayış məntəqəsinin ərazisi *Qarabağ* bəylərinin iri və xırda buynuzlu heyvanlarının – ***mal*** binələrinin yerləşdiyi məkan olmuşdur. Malıbəyli kəndi ***11 fevral 1992-ci il*** tarixdə erməni hərbi birləşmələrinin güclü hücumu nəticəsində işğal edilmişdir.

Məmişlər – Rayon mərkəzindən 15 kilometr qərbdə, Şırlan kənd inzibati ərazi dairəsində, Qarabağ silsiləsində, Sarıbaba dağının ətəyində yerləşən kənd. Tərkibi maqneziumlu komponentlərin çoxluğu ilə seçilən karbonatlı "*Şırlan*" mineral bulaq suyu(*Üçbulaq*) Məmişlər kəndinin yaxınlığındadır. ***Məmişlər*** adlanan bu yaşayış məntəqəsi XIX əsrin əvvəllərində Mehdiqulu xana məxsus *xəlfəli* tayfasına mənsub olan ***məmişlər*** nəslinin burada məskən salması nəticəsində yaranmışdır.

Mirzələr – Rayon mərkəzindən 20 kilometr şimal-qərbdə, Xəlfəli kənd inzibati ərazi dairəsində, Qarabağ silsiləsində, Mirzələr çayının sahilində yerləşən kənd. ***Mirzələr*** yaşayış məntəqəsi XIX əsrin əvvəllərində Mehdiqulu xana məxsus olan *xəlfəli* tayfasının ***mirzələr*** adlı nəslinin burada məskunlaşması nəticəsində yaranmışdır.

Nağılar – Qaybalı kənd inzibati ərazi dairəsində, rayon mərkəzindən 13 kilometr məsafədə, Qarabağ silsiləsi ətəyində yerləşən kənd. ***Nağılar*** yaşayış məntəqəsi ***Nağılar*** nəslinin burada məskunlaşması nəticəsində yaranmışdır.

Nəbilər – Rayon mərkəzindən 15 kilometr məsafədə, Zarıslı kənd inzibati ərazi dairəsində, Qarabağ silsiləsində yerləşən kənd. Yaşayış məntəqəsi ***Nəbilər*** nəslinin burada məskunlaşması ilə əlaqədar yaranmışdır.

Onverst *yaşayış məntəqəsi* – Sarıbaba inzibati ərazi dairəsində, rayon mərkəzindən 26 kilometr məsafədə, Qarabağ silsiləsində yerləşən kənd. Yaşayış məntəqəsi Qaladan ***on verst*** məsafədə yerləşdiyinə görə belə adlanmışdır.

Paşalar – Rayon mərkəzindən 28 kilometr qərbdə, Şırlan kənd inzibati ərazi dairəsində, Qarabağ silsiləsində, Sarıbaba dağının ətəyində yerləşən kənd. Yaşayış məntəqəsi erməni işğalı zamanı 23 evdən ibarət olmuşdur. Toponimin mənası "*Paşa nəslindən olanlar, paşagillər*" deməkdir. Yerli məlumata görə, ***Paşalar*** yaşayış məntəqəsinin əhalisi həmin rayonun Şırlan kəndindən köçüb gəlmiş ***Paşa*** adlı şəxsin törəmələridir. Bəzi tədqiqatçılar toponimi XV-XX əsrlərdə Osmanlı imperiyasında ali hərbi və mülki məmurların fəxri titulu olan ***paşa*** termini ilə əlaqələndirirlər.

Salatın – Rayon mərkəzindən 25 kilometr cənub-qərbdə, Qarabağ silsiləsində, dağətəyi ərazidə yerləşən kənd. Əvvəllər azərbaycanlılar yaşayan bu yaşayış məntəqəsini XIX əsrdə siyasi zəmində İrandan köçüb gəlmiş erməni ailələri mənimsəmişlər. Sonralar toponim ***Yextsahoğ*** ("*kilsə yeri*") formasında rəsmiləşdirilmişdir. ***Yexts –*** "*kilsə*", ***hoğ –*** "*yer*" deməkdir. Yaşayış məntəqəsinə 9 yanvar 1991-ci il tarixdə ermənilərin vəhşicəsinə qətlə yetirdiyi jurnalist, Azərbaycanın Milli Qəhrəmanı ***Salatın Əziz qızı Əsgərovanın*** adı verilmişdir. Adı bəzən ***Salatınkənd*** formasında da yazılır.

Sarıbaba – Eyniadlı inzibati ərazi dairəsində, rayon mərkəzindən 32 kilometr məsafədə, Qarabağ silsiləsində yerləşən kənd.

Səfixanlar – Eyniadlı inzibati ərazi dairəsində, rayon mərkəzindən 25 kilometr qərbdə, Qarabağ silsiləsində, Sarıbaba dağının yaxınlığında yerləşən kənd. Ərazidə ***Səfixanlar*** adlı çay da vardır. ***Səfixanlar*** kəndinin ərazisində *Alçalı yal, At məhəli, Ayı məhəli, Bütdülüklü düz, Canavar talası, Gicitkanlı dərə, Gövrüşlü tala, Həmərsünlü tala, Kəklikotulu güney, Qarağatlı dərə, Qırxbuğumlu yal, Quzğunlu qaya, Yaz yurdu* və s. coğrafi adlar qeydə alınmışdır. ***Səfixanlar*** etnooykonimdir; onlar ***sərkar*** tayfalarının tirələrindən biri olmuşdur.

Şırlan – Eyniadlı inzibati ərazi dairəsində, rayon mərkəzindən 22 kilometr qərbdə, Qarabağ silsiləsində, dəniz səviyyəsindən 1 600 metr yüksəklikdə, Sarıbaba dağının ətəyində yerləşən kənd. Yaşayış məntəqəsi *xəlfəli* tayfasına mənsub olan ailələrin burada məskunlaşması nəticəsində yaranmışdır. ***Şırlan*** yaşayış məntəqəsi ***Şırran, Şırram*** variantlarında da qeydə alınmışdır. Kənd adını yaxınlığındakı bulağın adından almışdır. ***Şırlan bulağı*** Sarıbaba dağının ətəyindən çıxan 3 bulağın ümumi adıdır. Suyu turş və içməlidir. Bulaq su rejiminə (***şırıltı*** *ilə tökülməsinə*) görə belə adlandırılmışdır.

Şuşa şəhəri – Qarabağ silsiləsində, Bakıdan 400 km məsafədə, dəniz səviyyəsindən 1550 metr yüksəklikdə yerləşən şəhər, eyni adlı rayonun mərkəzi. ***Şüşa*** şəhərində istehsalat kombinatı, şərq musiqi alətləri fabriki, çörəkbişirmə müəssisəsi, Bakı radioqayırma birliyinin filialı, Qarabağ ipək kombinatının sexi, elekrik şəbəkəsi, kənd təsərrüfatı texnikasın təmiri müəssisəsi, kənd təsərrüfatı texnikumu, mədəni-maaruf texnikumu, musiqi və texniki peşə məktəbləri, mədəniyyət sarayı, tarix muzeyi, Üzeyir Hacıbəyovun və Bülbülün ev-muzeyləri, şəkil qalereyası, mərkəzi rayon və şəhər kitabxanaları, poeziya evi, tarix-ölkəşünaslıq muzeyi, mərkəzi rayon xəstəxanası, poliklinika, sanitar-epidemiolojı stansiya, sanatoriyalar, istirahət evləri, pansionatlar, turist bazası, yanacaq doldurma stansiyası, avtovağzal, stadion və s. var idi. Əhalisinin sayı 9 min nəfər idi. **8 may 1992-ci il** tarixdə Azərbaycan dilbər güşəsi, Qarabağın tacı, muzeylər şəhəri **Şuşa şəhəri** erməni işğalçı qüvvələri tərəfindən işğal olunmuşdu. İşğalçılar bu qədim mədəniyyət mərkəzində olan tarixi abidələri məhv edərək dağıtmışlar. Şuşa şəhəri ***8 noyabr 2020-ci il*** tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir. Elmi mənbələrdə Şuşanın əsasının XVIII əsrin ortalarında Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulduğu göstərilsə də, əslində əlimizdə olan bəzi məlumatlara görə, onun daha qədim yaşayış məntəqəsi olduğu şəksizdir. XVIII əsrin 50-ci illərindən ***Şuşa şəhəri*** Qarabağ xanı Pənahəli xanın şərəfinə ***Pənahabad*** adlanmışdır. XVIII əsrın 80-ci illərində əhalisi sürətlə artan şəhərin ətrafına qala divarları çəkildiyi üçün xalq arasında ona ***Qala*** da deyirdilər. Bir çox müəlliflərə görə, Şuşa adı yaxınlıqda yerləşən *Şuşikəndin* adı ilə bağlıdır. II əsr müəllifi Tatsit Şimali Qafqazda – *dondarlarda* ***Şoşu*** adlı şəhərin olduğunu qeyd etmişdir. Tatsit Şimali Qafqazda ***dondarlarda*** mərkəzi şəhərin ***Şoşu*** (*latın dilində "**ş**" səsi olmadığı üçün müəllif bu sözü **Sosu** şəklində qeyd etmişdir*) kimi adlandığını yazmışdır. Çox güman ki, dondarlar hunların bir hissəsi ilə Azərbaycana gəlib məskən saldıqda yaratdıqları bəzi yaşayış məntəqələrinə **Şoşu** şəhərinin adını vermişlər. Qubadlının

Dondarlı kəndi yaxınlığında da ***Şoşu*** adlı yaşayış məntəqəsi olub. Belə bir ehtimal da var ki, ***dondarlar*** hunlarla birgə Azərbaycana gəlib məskən salanda yaratdıqları yaşayış məntəqələrinə ***Şoşu*** adını verirmişlər. Altay qəbiləsinə daxil olan ***Şoşu/sosu*** tayfa adından formalaşıb əmələ gəlmiş ***Şuşa*** etnotoponiminin mənası "*hündür, nəm yer*" deməkdir. 1727-ci il sənədlərində Qarabağ düzündə, indiki Ağcabədi rayonu ərazisində ***Şuşa*** (*Şuşi*), Zəngəzurun Çulundur (indiki Ermənistan ərazisində olan Mehri rayonu) mahalında ***Şoşu,*** Xocavənd rayonunda ***Sos*** kəndi, indiki Cəbrayıl rayonunda ***Susalıq*** kəndi, Dağlıq Qarabağda ***Şuşalıqışlaq,*** XIX əsrdə Şimali Qafqazda ***Şuşi, Şuşanova, Şuşanay*** kəndlərinin adı çəkilir. **Şuşa** şəhərinin adı bir çox mənbələrdə **Şişə** formasında da qeyd olunur. Bəzi tədqiqatçılara görə**, *Şuşa*** toponimi ***Şuş/Şüş/Şiş*** komponenti ilə bağlı olub, mənası *"şiş", "yüksək", "uc", "hündür"* deməkdir. XVIII əsrin ikinci yarısından şəhərdə yeni-yeni məhəllələr salınırdı. Qısa müddət ərzində iqtisadi, siyasi və mədəni cəhətdən Azərbaycanın ən çox inkişaf etmiş şəhərlərindən birinə çevrilən Şuşada boyaqçı, dəmirçi, dərzi, başmaqçı, misgər, papaqçı və s. sənətkar məhəllələri, bir neçə karvansara, bazar, hamam və s. tikilmişdi. XIX əsrin ortalarında Şuşada aşağıdakı məhəllələr olmuşdur: *Seyidli, Hacı Yusifli, Dördçinar qurdu, Dördçinar, Uridlər, Çuxurməhlə, Quyuluq, Culfalar, Qazançılı, Əylisli, Mehrili, Dərə, Çiləbörd, Çölqala* – ***aşağı məhəllələr***; *Qurdlar/Qurtlar, Dəmirçilər, Qutluqçuxur, Köçərli, Mərdinli (Merdinli), Cuhudlar, Saatlı, Qut Mamayı, Təzə məhəllə, Xoca Mərcanlı (Xocamircanlı) və Hamamarası (Hamamqabağı)* – ***yuxarı məhəllələr*** sayılırdı.

Şuşa qəzası – Vaxtilə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazilərini və bölgədəki digər ərazini də əhatə edən ***Şuşa qəzası*** çar hökumətinin Qafqazda 1840-ci il 10 aprel tarixli inzibati islahatına əsasən **1 yanvar 1841-ci il** tarixində Kaspi vilayətinin tərkibində yaradılmışdır. Qəzanın ərazisi Cavanşir, Göyçay, Cavad, Cəbrayıl (*Qaryagin*), Zəngəzur qəzaları ilə həmsərhəd idi. Qəzanın inzibati mərkəzi ***Şuşa şəhəri*** olmuşdur. ***Qəza*** 1846-ci ildən Şamaxı, 1867-ci ildən isə Gəncə (*Yelizavetpol*) quberniyasının ərazisinə daxil edilmişdir. Qəzanın inzibati ərazi bölgüsü ***4911*** kvadrat kilometr, əhalisinin sayı **140 740** (1897-ci il üçün) nəfər olmuşdur. 1840-cı il islahatından sonra ***Şuşa qəzası*** Xəzər vilayətinin tərkibində idi. XIX əsrin 60-90-cı illərində ***Şuşa qəzası*** ərazisində yüzlərlə xırda emalatxana ipək açmaqla məşğul idi. İpək sapdan müxtəlif növ məmulatlar hazırlanırdı. Bu dövrdə mülkədar malikanələrinin yaradılması, kəndli və qaçaq hərəkatı Şuşa qəzasında da kütləvi hal almışdı. Digər yerlərdə olduğu kimi, Şuşada da gildiya ticarət müəssisələri açılmışdı. 1866-cı ildə islahatla əlaqədar Bakı, Tiflis, İrəvan qəzaları ilə birlikdə Şuşada da bəy komissiyaları yaradılmışdı. Tarixi sənədlərdən aydın olur ki, XIX əsrdə Şuşada Avropa tipli teatr tamaşaları (1848 və 1882-ci illər) göstərilmişdir. ***Şuşa*** qəzasından yüzlərlə tanınmış ziyalı – elm, mədəniyyət və incəsənət xadimi çıxmışdır. 1830-cu ildə Şuşada ilk Qəza məktəbi açılmışdır. ***Şuşa qəzası*** 1929-cu ildə ləğv edilmişdir.

Şuşulu – Rayon mərkəzindən 13 kilometr məsafədə, Xəlfəli kənd inzibati ərazi dairəsində, Qarabağ silsiləsində yerləşən kənd. 1933-cü ildə kəndin adı ***Şüşülü*** kimi qeyd olunmuşdur. Çox güman ki, ***Şuşulu*** (***Şüşülü***) oykonimi *Şüşükənddən* çıxmış ailələrin saldığı yaşayış məntəqəsinin adıdır. ***Şüşükənd*** toponimi isə "*dik kənd*", "*zirvədə olan kənd*" mənasındadır.

Turabxan – Rayon mərkəzindən 25 kilometr qərbdə, Şırlan kənd inzibati ərazi dairəsində, Qarabağ silsiləsində, dağətəyi ərazidə yerləşən kənd. Yerli məlumata görə, ***Turabxan kəndi*** vaxtilə ***Turabxan*** adlı bir şəxsə məxsus olduğu üçün toponim belə adlanmışdır.

Turşsu qəsəbəsi – Eyniadlı inzibati ərazi dairəsində, rayon mərkəzindən 18 kilometr cənub-qərbdə, Qarabağ silsiləsində, dağətəyi ərazidə, Turşsu aşırımı yaxınlığında, Turşsu çayının sol sahilində, Zarıslı çayının dərəsində, Zarıslı və Göytala yaşayış məntəqələri arasında yerləşən qəsəbə. 1977-ci ildə ***qəsəbə*** statusu alıb. Əhalinin bir qismi cins heyvandarlıqla məşğul olurdu.

Turşsu yaşayış məntəqəsi 1992-ci ilin mayında ermənilər tərəfindən işğal edilmişdi. Bu yaşayış məntəqəsi 1972-ci ilə qədər ***Lisoqorsk*** sovxozu yanında qəsəbə adlanırdı. ***Lisoqorsk*** (***Keçəldağ*** *sözünün rus dilində tərcüməsi*) yaşayış məntəqəsini çarizmin milli ucqarlara köçürmə siyasəti nəticəsində XX əsrin ilk illərində rus kəndliləri salmışlar. Qəsəbənin ərazisi keçmişdə ***Nəcəfqulu ağa*** adlı bir şəxsin yaylaq yeri olmuşdur. Yaşayış məntəqəsinə ***Turşsu*** adı burada mövcud olan mineral su bulaqlarına görə verilmişdir. ***Turşsu*** çox debitli soyuq sulu üç bulaqdan ibarətdir. Tərkibində karbon qazı vardır. Suyunun dadı ***turşməzə*** olduğundan bulaqlar da məhz belə adlandırılmışdır.

Yuxarı Quşçular – Rayon mərkəzindən 17 km şimal-şərqdə, Malıbəyli kənd inzibati ərazi dairəsində, Qarabağ silsiləsində, dağətəyi ərazidə, Quşçular çayı sahilində yerləşən kənd. Bir çox tədqiqatçılar *quşçuları* hunlarla, kuşanlarla, bəziləri isə qara hunlarla əlaqələndirirlər. ***Quşçu*** etnonimi ilə bağlı toponimlərin hələ erkən orta əsrlərdə meydana çıxması güman olunur. VII əsrə aid mənbədə *sarmat* tayfaları arasında ***quşilərin*** də adları çəkilir. ***Quşçular*** türkdilli etnik birlik olub Azərbaycan, özbək, qırğız, başqırd və digər xalqların etnogenezində yaxından iştirak etmişdir. Yerli məlumata görə ***Yuxarı Quşçular*** yaşayış məntəqəsini XVIII əsrin ortalarında baş vermiş siyasi hadisələrlə əlaqədar Qazax mahalından köçüb gələn ***quşçu*** tayfasına mənsub olan ailələr saldığına görə kənd də bu cür adlanmışdır. ***Quşçular*** oykonimi "*yüksəklikdə olan Quşçular kəndi*" anlamını ifadə edir. **Yuxarı Quşçular kəndi** *11 fevral 1992-ci il* tarixdə erməni hərbi birləşmələri tərəfindən işğal olunmuşdu.

Zamanpəyəsi – Rayon mərkəzindən 10 kilometr şimal-qərbdə, Xəlfəli kənd inzibati ərazi dairəsində, Qarabağ silsiləsində, dağətəyi ərazidə yerləşən kənd. Yaşayış məntəqəsinin əsasını *xəlfəli* tayfasına mənsub olan ailələr qoymuşlar. ***Zamanpəyəsi*** oykonimi kəndin vaxtilə *Zaman* adlı şəxsə və ya *Zamanlı* kəndinə məxsus yaylaq yurdu olması haqqında məlumat verir.

Zarıslı – Eyniadlı kənd inzibati ərazi dairəsində, rayon mərkəzindən 12 kilometr cənubda, Qarabağ silsiləsində, Sarıbaba dağının ətəyində, Qarqar çayının qolu olan Zarıslı çayının ətəyində yerləşən kənd. Yaşayış məntəqəsi Azərbaycan şairəsi, xan qızı Xurşidbanu Natəvana məxsus kəndlərdən olmuşdur. Kəndin yaxınlığında ***Zaris*** qalasının xarabalığı var. Mənbələrdə XIII əsrdən adı çəkilən ***Zaris*** toponimi güman etmək olar ki, əslində *Sarısudur*. Monqol dilində ***s-z*** əvəzlənməsi mümkündür. Çox ehtimal ki, monqollar bu toponimi ***Zarıs*** variantında qeydə almışlar. ***Zarıslı*** yaşayış məntəqəsi ərazisindən axan çayın adı ilə əlaqədar olaraq belə adlanmışdır.

Mehmandarovların malikanəsi

Yuxarı Gövhər Ağa məscidi. İşğaldan əvvəl

Aşağı Gövhər Ağa məscidi. İşğaldan əvvəl



Yuxarı Gövhər Ağa məscidi. İşğaldan sonra



Aşağı Gövhər Ağa məscidi. İşğaldan sonra

Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Yuxarı Gövhər Ağa məscidində. Bərpadan sonra

Aşağı Gövhər Ağa məscidi. İşğaldan sonra

Molla Pənah Vaqifin məqbərəsinin açılışı. Şuşa 1982-ci il

Vaqifin məqbərəsi. İşğaldan əvvəl

Molla Pənah Vaqifin məqbərəsinin açılışı. Şuşa 2021-ci il

Vaqifin məqbərəsi. İşğal zamanı

Prezident İlham Əliyev Molla Pənah Vaqifin məqbərəsində

Vaqifin məqbərəsi. İşğaldan sonra

TƏRTƏR RAYONU

(RAYON HAQQINDA ÜMUMİ MƏLUMAT)

Tərtər rayonu **8 avqust 1930-cu il** tarixdə yaradılıb. **24 fevral 1931-ci il** tarixdə Tərtər rayonu ləğv edilərək Bərdə rayonunun inzibati tabeliyinə verilmişdir. **27 yanvar 1934-cü il** tarixdə ***Tərtər rayonu*** yenidən yaradılmışdır. **17 sentyabr 1939-cu ilə** qədər ***Cerabert rayonu,*** **5 avqust 1949-cu il** tarixdə ***Mirbəşir rayonu*** adlandırılmışdır. **4 yanvar 1963-cü il** tarixdə Mirbəşir rayonu ləğv edilərək *Bərdə* rayonunun inzibati tabeliyinə keçirilmişdir. **6 yanvar 1965-ci il** tarixdə yenidən *Mirbəşir rayonu* yaradılmışdır. **7 fevral 1991-ci il** tarixdə Mirbəşir rayonunun adı dəyişdirilərək yenidən *Tərtər rayonu* adlandırılmışdır. Azərbaycan Respublikası Milli Məclisinin ***13 oktyabr 1992-ci il*** tarixli ***327*** saylı qərarı ilə Azərbaycan Respublikasının ***Ağdərə rayonu*** ləğv edilərək həmin rayonun Ağdərə şəhəri və irili-xırdalı 27 kəndi (*Umudlu, Zəylik, Metsşen, Möhrətağ, Ağabəyələnc, Mağavuz, Akop Kamari, Minqrelsk, Nerkin Oratağ, Qasapet, Canyataq, Dəmirli, Gülyataq,* ...) Tərtər rayonunun inzibati ərazisinə verilmişdir. Ağdərə rayonu ərazisindən verilən yaşayış məntəqələri də daxil olmaqla hazırda Tərtər rayonunda 2 şəhər, 1 qəsəbə və 74 kənd vardır.

Tərtər rayonu Kür-Araz ovalığının qərb hissəsində $40^0\,21^{I}32^{II}$ en dairəsi $46^0\,51^{I}\,48^{II}$ uzunluqda yerləşir. Rayon 1934-cü ildə yaradılmış və hazırda ərazisi 960 kvadrat kilometr olmaqla ölkə ərazisinin 1,1 faizini təşkil edir. Rayonun mərkəzi Tərtər şəhəridir. Rayonun inzibati mərkəzi olan ***Tərtər şəhəri*** Tərtərçayın sağ və sol sahillərində, qədim karvan yolu üzərində yerləşir. Buranın tarixi adı ***Çaparxana*** olmuşdur. Alban dövlətinin qədim paytaxtı Bərdədən 17 km aralıda yerləşən bu ərazidə vaxtilə karvansara və qala mövcud olmuşdur.

Rayonun əhalisinin sayı 100 000 nəfər idi. Ümumi əhalinin 30 000 nəfəri şəhərdə, 70 000 nəfəri isə kənddə yaşayır.

1992-ci ilin oktyabrında Ağdərə rayonu ərazisindən verilən yaşayış məntəqələri də daxil olmaqla hazırda Tərtər rayonunda 2 şəhər, 1 qəsəbə və 74 kənd vardır.

Yuxarı Qarabağ ərazisində yerləşən Tərtər ***Qarabağ müharibəsi*** dövründə erməni təcavüzündən kifayət qədər əziyyət, ziyan çəkmişdir. I Qarabağ müharibəsi dövründə Tərtər rayonundan ***307*** nəfər şəhid olmuşdur.

Tərtər rayonu Tərtər çayının aşağı hissəsində yerləşir və şimaldan İncə çayı ilə həmhüduddur. Rayonda iqlim şəraiti mülayim iqlimdən başlamış isti yarımsəhra və səhra iqliminə qədər dəyişir. Tərtər və Xaçınçay çayları bu rayonun ərazisi ilə axır. Rayon Kür-Araz ovalığının qərb hissəsində, Qarabağ düzündə yerləşir. Burada neft yataqları, tikinti materialları mövcuddur.

Tərtər rayonunun tarixi-memarlıq abidələri: Rayon ərazisində qeydə alınmış 26 tarix və mədəniyyət abidəsi vardır. Onlardan 1 ədədi dünya, 15 ədədi ölkə əhəmiyyətli arxeoloji abidə, 8 ədədi yerli əhəmiyyətli memarlıq, 2 ədədi isə yerli əhəmiyyətli arxeoloji abidədir. Həmin abidələr Tərtər şəhərində, eləcə də rayonun *Buruc, Hacıqərvənd, Evoğlu, Hüsənli, Sarov, Borsunlu, Bəyim Sarov, Xoruzlu, Dəmirçilər, Talış, Mağavuz* və digər kəndlərinin ərazilərində yerləşir. Göstərilən ərazilərdə 3 *məscid*, 15 *kurqan*, 2 *nekropol*, 2 qədim *yaşayış yeri*, 1 *buzxana*, 1 *türbə*, 2 *məbəd*, 1 *qala*, 1 *körpü* mövcuddur. XII – XIII əsrlərə aid ***qala qalıqları, məbəd*** (*Mağavuz kəndi*), Tərtər çayı üzərindəki qədim ***körpü***, XII əsrə aid olan ***Urek məbədi*** (*Talış kəndi yaxınlığında*), tikildiyi il hələlik dəqiq məlum olmayan ***Hatəm Məlik qalası*** (*Qasapet kəndi*) və digər tarixi tikililər rayonun qiymətli memarlıq abidələrindən hesab olunur. Son dövrlərdə rayonun ərazisində olan tarixi-memarlıq abidələrinin təmiri və bərpası istiqamətində müəyyən işlər görülmüşdür.

RAYONUN YAŞAYIŞ MƏNTƏQƏLƏRİ

Ağabəyyal – Tərtər rayonunda, Ağabəyyal inzibati ərazi vahidində, dağətəyi ərazidə yerləşən kənd. ***Ağabəyyal*** vaxtilə Dağlıq Qarabağ Muxtar Vilayətinin Ağdərə (*Mardakert*) rayonunun Möhrətağ inzibati ərazi vahidində kənd olmuşdur. Kəndin adı XIX əsrdə ***Ağabəyyal*** kimi qeydə alınmışdır. 1933-cü ildə oykonim ***Ağabəyəlinc***, 1979-cu ildə isə ***Ağabəyələnc*** (***Ağabəyəlenc***) adlandırılmışdır. ***Ağabəyələnc*** oykonimi ***Ağabəy*** (*Ağabəyli* etnoniminin qısaldılmış forması) sözündən və ***lənc*** (***linc***) komponentindən (***lənc*** və ya ***linc*** tat dilində "*ətək, yer, yüksəklik*" anlamını ifadə edir) ibarət olub, "*ağabəylilərə məxsus yüksəklik*" deməkdir. 1992-ci ildə kəndin əvvəlki ***Ağabəyyal*** adı bərpa edilmişdir. Bəzən sənədlərdə kəndin adı ***Ağabəyalı*** kimi də qeyd olunur.

Ağdərə şəhəri – Azərbaycanda, Tərtər rayonu tabeliyində şəhər tipli qəsəbə. ***Ağdərə*** yaşayış məntəqəsi (*1960-cı ildən* ***şəhər tipli qəsəbə***) Tərtər-İstusu avtomobil yolunun kənarında, Xankəndi şəhərindən 60 kilometr şimalda, dağətəyi ərazidə yerləşən yaşayış məntəqəsidir. Keçmişdə eyniadlı rayonun mərkəzi olmuşdur. XIX əsrdə burada məskunlaşdırılmış ermənilər rayonun və qəsəbənin (*Ağdərənin*) adını 1923-cü ildən ***Cerabert*** (17 sentyabr 1939-cu ilə qədər ***Cerabert rayonu*** adlanmışdır), 1939-cu ildən isə ***Mardakert*** kimi (***kert*** *ermənicə "şəhər" deməkdir*) rəsmiləşdirmişdilər. 1992-ci ildən rayonun böyük bir ərazisi Tərtər rayonuna birləşdirilmiş, qəsəbə isə keçmiş adı ilə (***Ağdərə***) adlandırılmışdır. İşğala qədər ***Ağdərə*** şəhərində 10 000 nəfərə yaxın əhali yaşayırdı. Şəhərdə məişət xidməti, yerli sənaye və istehsalat kombinatları, şərab zavodu, inkubator-quşçuluq stansiyası, texniki peşə və 4 ümumtəhsil məktəbləri, 2 mədəniyyət sarayı, kinoteatr, mərkəzi rayon xəstəxanası, elektrik şəbəkəsi idarəsi, parklar, stadion, istirahət mərkəzi, ticarət-ictimai iaşə obyektləri və s. vardı. ***Ağdərə*** toponimi ***ağ*** sözündən və mənfi relyef forması ifadə edən ***dərə*** coğrafi terminindən ibarətdir.

Çardaqlı – Tərtər rayonunda, eyniadlı inzibati ərazi vahidində, Tərtər rayon mərkəzindən 26 kilometr cənub-qərbdə, Ağdərə şəhərindən 12 kilometr şimal-qərbdə, Ulu Qarabəy kəndindən 4 kilometr aralıda, dağətəyi ərazidə yerləşən kənd. 1593-cü ildə Osmanlı dövləti tərəfindən tərtib edilmiş mənbədə ***Mağavuz*** (***Məğavuz***) nahiyəsinin oba, kənd, qışlaq və məzrələrinin siyahısı açıqlanmışdır. 1727-ci ilə aid olan Osmanlı qaynağında ***Mağavuz*** (***Məğavuz***) nahiyəsi Xaçın nahiyəsinin tərkibində verilmiş və nahiyənin tərkibində olan kəndlərin, qışlaq və məzrələrin adları çəkilmişdir. XIX əsrdə keçmiş Zəngəzur qəzasındakı eyniadlı kənddən (***Maqavuz***) köçüb gəlmiş ermənilər bu qədim ***Çardaqlı*** yaşayış məntəqəsini ***Mağavuz (Maqavuz) kəndi*** kimi rəsmiləşdirmişlər. Məlumdur ki, XX əsrin 60-70-ci illərinə qədər Laçın rayonunun 11 kəndini özündə birləşdirən Şəlvədərə bölgəsi ***Mağavuz*** adlanırdı. İndiki Xocavənd rayonunun ərazisində də *Mağavuz* adlı toponimə rast gəlirik. Bəzi araşdırıcılar bu coğrafi adı mənası tam aydın olmayan toponimlər sırasına aid edirlər. Tədqiqatçı Abdulla Faziliyə görə, toponimin tərkibindəki ***mağ*** komponenti "*atəşpərəst*" anlamındadır. Türkoloq-alim Tofiq Hacıyev türkmıənşəli ***mağ*** sözünün "*ilan*" və tayfanın toteminin adı olduğunu qeyd edir. Dilçi-alim Afat Qurbanov isə ***mağ*** tayfasının ovsunçuluqla məşğul olduğunu və bunun nəticəsində bəzi xalqlarda qədim ibtidai icma dinlərindən biri olmuş ovsunçuluğun ***Maqiya*** adlandırılmasına səbəb olduğunu qeyd edir. Türk mənşəli ***mağ*** və ***uz*** komponentlərindən ibarət olan ***Mağavuz*** sözünü "*Mağlar ölkəsi*" mənası ilə əlaqələndirənlər də vardır. Çox güman ki, ***Mağavuz*** oykonimi türk dillərindəki ***mağız*** sözündən olub, "*orta, mərkəz*" deməkdir. Belə bir versiya da vardır ki, ***Mağavuz*** toponimi ***maqov*** (*etnonim*) və ***uz*** (qədim türk dillərində "*başlanğıc, kök, nəsil*", həmçinin "*cəmlik*" anlamını bildirir) komponentlərindən düzəlib, ***maqovlar*** mənasındadır. 1992-ci ildə kəndin keçmiş ***Çardaqlı*** adı bərpa edilmişdir. Toponim keçmişdə orada gözətçi məntəqəsi kimi mövcud olmuş ***çardağın*** adı ilə əlaqədardır.

Çaylı – Tərtər rayonunda, eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 10 kilometr qərbdə, Ağdərə şəhərindən 30 kilometr şimalda, Kürəkçayın və Tərtər çayının sahilində, Qarabağ silsiləsinin ətəyində, Tərtər – Madagiz şose yolu kənarında, dağətəyi ərazidə yerləşən kənd. ***Çaylı kəndi*** 1988-1994-cü illər Qarabağ müharibəsində çox ziyan çəkmişdir. XIX əsrdə ermənilər burada məskunlaşdıqdan sonra yaşayış məntəqəsinin adını ***Verin Çaylı*** ("***Yuxarı Çaylı***") qoymuşdular. 1992-ci ildən bu oykonim ***Çaylı*** kimi rəsmiləşdirilmişdir. Yaşayış məntəqəsi *9 oktyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir.

Çıraqlı – Tərtər rayon mərkəzindən 23 kilometr məsafədə, Ortakənd inzibati ərazi vahidində, dağətəyi ərazidə yerləşən kənd. ***Çıraqlı*** oykonimi ***qızılbaş*** tayfalarının *çıraqlı* tirəsinin adını özündə əks etdirir. Səfəvilərin hakimiyyəti zamanı çıraqlıların bir hissəsi Şirvana köçürülmüşdü. XIX əsrdə onların bir qolunun Cavad qəzasında yaşaması haqqında məlumat verilir.

Dəmirçilər – Vaxtilə indiki Tərtər rayonu ərazisində, Tərtər rayon mərkəzindən 44 kilometr cənub-qərbdə, Ağdərə şəhərindən 25 kilometr qərbdə, Umudlu kəndi yaxınlığında qeydə alınan oykonimlərdən biri ***Dəmirçi*** adlanmışdır. ***Dəmirçi*** toponimi ehtimal ki, türkdilli ***dəmirçilər*** tayfasının burada məskunlaşması ilə əlaqədardır.

Dəmirli – Tərtər rayonunda, Ortakənd inzibati ərazi vahidində, rayon mərkəzindən 25 kilometr cənub-qərbdə, Ağdərə şəhərinin 4 kilometrliyində, dağətəyi ərazidə yerləşən kənd. Yaşayış məntəqəsinin adı yerli əhali arasında ***Dəmirlər*** kimi də işlədilir. Kəndin başqa bir adı ***Xoruzlu*** (***kəngərlilərin*** *bir qolu olan* ***xoruzlu kəngərlisinin*** *adı ilə əlaqədar olaraq*) olmuşdur. ***Dəmirli*** oykonimi orada məskunlaşmış ***dəmirli*** (***dəmirçi***) türkdilli tayfasının adı ilə adlanmışdır. XIII əsr tarixçisi Şəhabəddin Nəsəvi *dəmirçiləri* Çingiz xanın nəsli ilə əlaqələndirir. *Dəmirçilərin* XVI əsrdə Türkiyənin Qars şəhəri ətrafında yaşadıqları da məlumdur. Türkdilli ***dəmirçilər tayfası*** XIX əsr tarixçisi M.M.Xəzaniyə görə, Azərbaycana (əsasən *Qarabağa*) Qarabağ xanı Pənahəli xanın hakimiyyəti zamanında gəlmişlər.

Göyarx – Tərtər rayonunda, Həsənqaya kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 9 kilometr qərbdə, Qarabağ düzündə yerləşən kənd. ***Göyarx*** kəndini XIX əsrin ikinci yarısında Goranboy rayonunun ***Rus Borusi*** kəndindən ayrılmış malakan-rus ailələri *Levonarx* çayının kənarında salmışlar. Sonralar gəlmə ermənilər bu kəndin adını da təhrif edərək ***Levonarx*** (toponimiyada ***lev*** komponenti "*kənar*" mənasında işlədilir) kimi rəsmiləşdirmişdilər. 1992-ci ildə yaşayış məntəqəsi ***Göyarx*** adlandırılmışdır.

Gülyataq – Tərtər rayonunda, Canyataq inzibati ərazi vahidində, rayon mərkəzindən 32 kilometr cənub-qərbdə, Ağdərə şəhərindən 14 kilometr cənub-qərbdə, Qarabağ dağ silsiləsinin ətəyində, düzənlik ərazidə yerləşən kənd. Yaşayış məntəqəsinin adı keçmişdə ***Külətağ*** variantında da qeydə alınmışdır.

Həsənqaya – Tərtər rayonunda, Həsənqaya inzibati ərazi vahidində, rayon mərkəzindən 9 kilometr cənub-qərbdə, Ağdərə şəhərindən 20 kilometr şimalda, dağətəyi ərazidə yerləşən kənd. Qarabağ müharibəsi zamanı bu kənd də çox ziyan çəkmişdir. Kəndin keçmiş adı ***Buruc*** olmuşdur. Yaşayış məntəqəsi **Həsənqaya** adlı yerdə salındığına görə belə adlandırılmışdır.

Kiçik Qarabəy – Tərtər rayonunda, eyniadlı inzibati ərazi vahidində, Tərtər rayon mərkəzindən 27 kilometr cənub-qərbdə, Ağdərə şəhərindən 7 kilometr qərbdə, dağətəyi ərazidə yerləşən kənd. XIX əsrdə Cavanşir qəzasında ***Böyük Qarabəy*** və ***Kiçik Qarabəy*** adlı ***2*** kənd qeydə alınmışdır. Çar Rusiyası Azərbaycanın şimalını işğal etdikdən sonra, XIX əsrdə – "*Türkmənçay*" müqaviləsindən (*10 fevral 1828-ci il*) az sonra İrandan köçüb gələn erməni ailələri ***Kiçik Qarabəy***

kəndində məskunlaşaraq kəndi ***Möhrətağ*** (“*palçıqdan tikilmiş barılı məhəllə*”) adlandırmışdılar. ***Möhrə*** sözünün “*hövzə*”, “*qab*” mənaları da vardır. Toponim salındığı ərazidəki su hövzəsinə görə belə ad almışdır. *29 dekabr 1992-ci il* tarixdə kəndin keçmiş adı (***Kiçik Qarabəy***) bərpa edilmişdir. ***Kiçik Qarabəy*** coğrafi adı mürəkkəb oykonim olub, “*kiçik Qarabəy kəndi*” deməkdir.

Qızıloba – Tərtər rayonunda, Qızıloba inzibati ərazi vahidində, rayon mərkəzindən 8 kilometr məsafədə, dağətəyi ərazidə, Qarabağ düzündə yerləşən kənd. XIX əsrdə Azərbaycanın şimalı çar Rusiyası tərəfindən işğal edildikdən sonra burada gəlmə ermənilər məskunlaşdı və yaşayış məntəqəsinin adı ermənilər tərəfindən ***Qarmirovan*** (“*Qırmızı, qızıl oba*”) kimi rəsmiləşdi. 1992-ci ildən kəndin əvvəlki ***Qızıloba*** adı bərpa edilmişdir. Yaşayış məntəqəsinin yerləşdiyi ərazinin torpaq örtüyü bərəkətli qaratorpaq olduğu üçün o, belə adlandırılmışdır.

Lüləsaz – Tərtər rayonunda, rayon mərkəzindən 15 kilometr məsafədə, dağətəyi ərazidə yerləşən kənd. Yaşayış məntəqəsi XIX əsrin sonu – XX əsrin əvvəllərində İrandan köçüb gəlmiş erməni ailələrinin burada məskunlaşmasından sonra ***Akop-komari*** (“*Akopun pəyəsi*”) adlanmışdır. 1992-ci ildə kəndin əvvəlki ***Lüləsaz*** adı bərpa edilmişdir. ***Lüləsaz*** oykonimi ***lülə*** (“*dar*”) və ***saz*** (“*bataqlıq, qamışlıq*”) komponentlərindən ibarət olub, “dar qamışlıq” mənasındadır.

Madagiz – Tərtər rayonunda, Çaylı inzibati ərazi vahidində, Ağdərə şəhərindən 13 kilometr şimal-qərbdə, Tərtər çayının sahilində, Murovdağ silsiləsinin ətəyində, Azərbaycanın keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti tərkibində, Ağdərə (*Mardakert*) rayonunun Verin Çaylı inzibati ərazi vahidində yerləşən kənd. Kəndin adı orta əsrlərdə Xaçın əyalətində mövcud olmuş və xarabalıqları qalmış ***Metagis*** qalasının adındandır.

Meqrelalay – Tərtər rayonunda, Çardaqlı inzibati ərazi vahidində, Tərtər rayon mərkəzindən 26 kilometr cənub-qərbdə, Ağdərə şəhərindən 14 kilometr şimal-qərbdə, dağətəyi ərazidə yerləşən kənd. ***Meqrelalay*** yaşayış məntəqəsi çar hakimiyyəti dövründə ***Meqrel*** (***Minqrel***) adlı alayın məskən saldığı ərazidə *xutor* kimi yaranmış və 1992-ci ilə qədər ***Minqrelsk*** adlandırılmışdır. Oykonim ***meqrel*** (gürcü xalqının özəyini təşkil edən tayfalardan – ***meqrel***, kartli, svan və s. biri) və ***alay*** (“*döyüşçü dəstəsi*”) komponentlərindən ibarətdir.

Seysulan – Tərtər rayonunda, eyniadlı inzibati ərazi vahidində, Tərtər rayon mərkəzindən 20 kilometr cənubda, Ağdərə şəhərindən 20 kilometr şərqdə, dağətəyi düzənlikdə, Ağdam rayonunun sərhədi yaxınlığında yerləşən kənd. Bəzi sənədlərdə ***Seyitsulan*** variantında da qeydə alınmış ***Seysulan*** oykoniminin əsl adı ***Seyidsultan*** olmalıdır. Yaşayış məntəqəsi köhnə yaylaq yurdunun adı ilə əlaqədar olaraq belə adlandırılmışdır.

Suqovuşan – Tərtər rayonunda, Çaylı inzibati ərazi vahidində, rayon mərkəzindən 10 klometr qərbdə, Tərtər çayının sahilində, dağətəyi ərazidə yerləşən kənd. Yaşayış məntəqəsinin adı əvvəllər ***Madagiz*** olmuşdur. *3 oktyabr 2020-ci il* tarixdə yaşayış məntəqəsi erməni işğalçı qüvvələrindən azad edildikdən sonra kənd ***Suqovuşan*** adlandırılmışdır. ***Suqovuşan*** mürəkkəb oykonimi ***su*** sözündən və ***qovuşan*** (“*qovuşmaq*” felinin feli-sifət forması) komponentindən ibarətdir. Yaşayış məntəqəsi kəndin ərazisində çay sularının bir-biri ilə qovuşması ilə əlaqədar olaraq ***Suqovuşan*** adını almışdır. ***Suqovuşan*** coğrafi adı kəndin fiziki-coğrafi mövqeyini əks etdirir.

Talış – Tərtər rayonunda, eyniadlı inzibati ərazi vahidində, Tərtər rayon mərkəzindən 27 kilometr qərbdə, Ağdərə şəhərindən 34 kilometr şimalda, dağətəyi ərazidə yerləşən kənd. Yaşayış əntəqəsi 3 oktyabr 2020-ci il tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir. Oykonim ***talış*** etnonimi ilə əlaqədar olaraq belə adlandırılmışdır.

Təpəkənd – Tərtər rayonunda, Çaylı inzibati ərazi vahidində, rayon mərkəzindən 11 kilometr qərbdə, dağətəyi ərazidə yerləşən kənd. ***Təpəkənd*** coğrafi adı yaşayış məntəqəsinin fiziki-coğrafi mövqeyini əks etdirir. Toponim "*təpədə, yüksəklikdə yerləşən kənd*" anlamındadır.

Ulu Qarabəy – Tərtər rayonunda, eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 30 kilometr cənub-qərbdə, Ağdərə şəhərindən 13 kilometr qərbdə, dağətəyi ərazidə yerləşən kənd. Yerli məlumata görə, vaxtilə Turağayçayın Tərtər çayına töküldüyü yerdə mövcud olmuş ***Bəhram Qoçaq*** adlı kənd 1794-1795-ci illərdə Ağa Məhəmməd şah Qacarın hücumu zamanı dağıdılmışdır. Sonralar əhali burada ***Ulu Qarabəy***, ***Kiçik Qarabəy*** və ***Yengicə*** yaşayış məntəqələrini yaratmışlar. XIX əsrdə çar Rusiyası Azərbaycanın şimalını işğal etdikdən sonra İrandan köçüb gələn erməni ailələri *Ulu Qarabəydə* yerləşdirildi və kəndin adı ermənileşdirilərək ***Metsşen*** ("*Böyük kənd*") adlandırıldı. 1992-ci ildən kəndin keçmiş adı bərpa edilib. ***Ulu Qarabəy*** oykonimi "*böyük Qarabəy kəndi*" mənasındadır.

Umudlu – Tərtər rayonunda, eyniadlı inzibati ərazi vahidində, Tərtər şəhərindən 45 kilometr cənub-qərbdə, Ağdərə şəhərindən 34 kilometr qərbdə, Sərsəng su anbarı yaxınlığında, anbarın şimalında, dağətəyi ərazidə yerləşən kənd. Kəndin əvvəlki adı ***Arıxana*** olmuşdur. Tarixdən məlumdur ki, *kolanı* tayfasının ***umudlu*** adlı tirəsi vardır. Yaşayış məntəqəsi ***umudlu*** tirəsinə məxsus olan ailələrin burada məskunlaşması ilə əlaqədar olaraq belə adlanmışdır. Tərtər rayonunun Sarov inzibati ərazi vahidində keçmiş adı ***Umudlu Kolanısı*** olan digər ***Umudlu kəndi*** də var.

Yarımca – Tərtər rayonunda, rayon mərkəzindən 15 kilometr cənubda, Qızıloba inzibati ərazi vahidində (*əvvəllər Seysulan inzibati vahidində*), dağətəyi ərazidə yerləşən kənd. ***Yarımca*** oykonimi "*kəndin yarısı*" mənasındadır. Yeni kəndin əhalisi köhnə kəndlə eyni icaya daxil olduğuna görə müstəqil ad daşımırdı.

Zəylik – Tərtər rayonunda, Umudlu inzibati ərazi vahidində, Tərtər rayon mərkəzindən 44 kilometr cənub-qərbdə, Ağdərə şəhərindən 34 kilometr qərbdə, dağətəyi ərazidə yerləşən kənd. Oykonim öz adını ***Zəylik*** çayının adından almışdır. Bəzi məlumatlara görə isə toponim ərazidə ***zəy*** yatağı olduğu üçün belə adlandırılmışdır.

Ağdərə şəhəri. İşğaldan sonra

Gəncəsər monastırı

Müqəddəs Yelisey məbədi

Müqəddəs Yelisey məbədinin divar görüntüləri

ŞƏRQİ ZƏGƏZUR İQTİSADİ RAYONUNUN İŞĞALDAN AZAD OLUNMUŞ OYKONİMLƏRİ

CƏBRAYIL RAYONU

(RAYON HAQQINDA ÜMUMİ MƏLUMAT)

Cəbrayıl rayonu Azərbaycanda *8 avqust 1930-cu il* tarixdə təşkil edilmiş inzibati-ərazi vahididir. Kiçik Qafqaz dağlarının cənub-şərq ətəklərində, Araz çayının sol sahilində yerləşən ***Cəbrayıl rayonu*** cənub-qərbdən *Zəngilan rayonu*, qərbdən *Qubadlı rayonu*, şimaldan *Xocavənd rayonu*, şimal-şərqdən *Füzuli rayonu*, cənubdan və cənub-şərqdən *İran İslam Respublikası* ilə həmsərhəddir. Rayon yaranan zaman əhalisi 24.300 nəfər, ərazisi 1050 kvadrat kilometr idi. İşğala qədər (*23 avqust 1993-cü il*) rayonda 52 604 nəfər əhali yaşayırdı. Hazırda rayonun əhalisi 69 000 nəfərdir. Mərkəzi ***Cəbrayıl*** şəhəridir. Rayonda ***1*** şəhər, ***4*** qəsəbə, ***92*** kənd vardır. **23 avqust 1993-cü il** tarixdə **Cəbrayı rayonu** erməni qəsbkarları tərəfindən işğal edilmişdi. ***4 oktyabr 2020-ci il*** tarixdə rayonun mərkəzi olan ***Cəbrayıl şəhəri*** və eləcə də bir sıra kəndləri erməni işğalçı qüvvələrindən azad edilmişdir.

Rayonun ən iri yaşayış məntəqələri *Cəbrayıl şəhəri* (9500), *Böyük Mərcanlı kəndi* (4200 nəfər), *Yuxarı Mərcanlı kəndi* (4100 nəfər), *Soltanlı kəndi* (2650 nəfər), *Horovlu kəndi* (1850 nəfər), *Balyand kəndi* (1700 nəfər) idi.

Cəbrayıl adını ***cəbrayıllı*** türk mənşəli tayfa adı ilə də əlaqələndirirlər, Tarixi məlumatlara görə, *cəbrayıllı tayfası* son orta əsrlərdə müvafiq olaraq *Qaraqoyunlu*, *Ağqoyunlu, Qızılbaş*, *Şahsevən*, XVIII əsrdə isə *Əfşar* və *Cavanşir* tayfa ittifaqlarının tərkibinə daxil olmuşlar. Əlbəttə, bütün bunlar o dövrdəki siyasi vəziyyətlə əlaqədar baş vermişdir.

Bəzi məlumatlara görə, ***Cəbrayıl*** rayonunun adı orta əsrlərdə yaşamış ***oğuz*** əsilli ***əfşar*** tayfasından olan ***Cəbrayıl Ata*** adlı şəxs ilə əlaqədardır. ***Cəbrayıl Ata*** dövrünün nüfuzlu şəxslərindən biri olmuş və hazırda qəbri rayonda ***Cəbrayıl Ata*** piri kimi indi də məşhurdur. Tayfa başçısı kimi dövrünün sayılıb-seçilən, xeyirxah, nüfuzlu, müdrik, zəkalı oğlu olduğu üçün ona ***Ata*** deyilərdi. O, vəfat edəndə türk tayfalarının adət və ənənələrinə uyğun olaraq yüksək təpədə, Alıpaşa dağında dəfn edilmiş və qəbrinin üzərində türbə tikilmişdir.

Cəbrayıl rayonu tarixi memarlıq abidələri ilə zəngindir. Rayon ***arxeoloji abidələri, tarixi memarlıq inciləri, ziyarətgahları*** ilə də məşhurdur. Onlara nümunə olaraq *Şıxlar mağarası* (daş dövrü, Şıxlar kəndi), *Divlər sarayı* (daş dövrü, Çələbilər kəndi), *Torağaytəpə yaşayış yeri* (ilk tunc dövrü, Şükürbəyli kəndi), *Karxulu kurqanları və yaşayış yeri* (tunc dövrü, Karxulu kəndi), *İmanqazan təpələri* (tunc dövrü, Şıxlar kəndi), *Məscidtəpə kurqanı* (tunc dövrü, Qalacıq kəndi), *Naftalı kurqanları* (son tunc və ilk dəmir dövrü, Naftalılar kəndi), *Qışlaq kurqanları və yaşayış yeri* (son tunc və ilk dəmir dövrü, Qışlaq kəndi), *Hovuslu kurqanları* (son tunc və ilk dəmir dövrü, Hovuslu kəndi), Cinlitəpə yaşayış yeri (ilk dəmir dövrü, Horovlu kəndi), miladdan öncə III minilliyə aid *Siklop tikililəri* (Tatar kəndi), miladdan öncə III – II minilliklərə aid *Canqulu* və *Qumtəpə* kurqanları (Mahmudlu kəndi), miladdan əvvəl III – II minilliklərə aid olan *Məscid təpəsi* (Qalacıq kəndi), miladdan əvvəl II minilliyə aid "*Şəhərcik qalıqları*", *Qışlaq yerləri* (Şıxalıağalı kəndi), bir-birindən 800 metr aralıda yerləşən, miladdan öncə (*bəzi tarixi sənədlərdə VI-VII əsrlərdə inşa olunduğu da göstərilir*) kərpicdən inşa edilmiş 11 və 15 aşırımlı (*tağlı*)

Xudafərin körpüləri (Qumlaq kəndi; *hansı səbəbdənsə sovet dönəmində Xüdafərin körpüsünün tikilməsi XII əsrə -1027-ci ilə aid edilmişdir*), yaşı 2000 ili haqlamış *Kəhriz* (Mahmudlu kəndi), *Qaladağ qalaçası və yaşayış yeri* (ilk orta əsrlər, Qalacıq kəndi), V – VI əsrlərə aid *Qala bürcü* (Sirik kəndi), V – VII əsrlərə aid *Sirik qalası* (Sirik kəndi), *Ağoğlan nekropolu* (ilk orta əsrlər, Cəbrayıl şəhəri), *Mazannənə* və ya *Mərmərnənə abidələri* (Xələfli kəndi), *Qız qalası* (XII əsr, Diridağ dağı yaxınlığında, Xələfli kəndi), XIII – XIV əsrlərə aid *Başıkəsik günbəz* (Xələfli kəndi), XIII – XIV əsrlərə aid *Sərdabə* (Dağtumas kəndi), XIV əsrə aid *Şıxbaba türbəsi, Dairəvi türbə* (Şıxlar kəndi), orta əsrlərə aid *Qala qülləsi* (Sirik kəndi), *Dairəvi türbə* (XIV əsr, Şıxlar kəndi), 1307-ci ildə inşa olunmuş *Daş məqbərə* (Şıxlar kəndi), XV əsrə aid *Ərəb yazılı qoyun abidəsi* (Şıxalıağalı kəndi), orta əsrlərə aid *Xanəgah* (Şıxlar kəndi), XVI əsrə aid *Məscid kompleksi* (Çələbilər kəndi), XVII əsrə aid *Səkkizguşəli türbə* (Xubyarlı kəndi), orta əsrlərə aid *Xanəgah* (Xubyarlı kəndi), son orta əsrlərə aid *Məscid* (Çələbilər kəndi), "*Divlər sarayı*" (Dağtumas kəndi), *Məscid* (XIX əsr, Daşkəsən kəndi), *Məscid* (XIX əsr, Papı kəndi), XIX əsrə aid *Məscid* (Məzrə kəndi), *Sultan Allahverdi hamamı* (XIX əsr, Cəbrayıl şəhəri), XIX əsrə aid *Məscid* (Süleymanlı kəndi), *Xırda pir*, *İspiri ocağı*, *Düldül ocağı* (Balyand kəndi), *Zingir ocağı*, *Qarnıyarıq ziyarətgahı* (Cəfərabad kəndi), *Hacı Qaraman ocağı*, *Tumas Ata ziyarətgahı*, *Çomaq Ata ziyarətgahı* (Dağtumas kəndi), *Çaxmaq piri* (Tinli kəndi), *Düldül ziyarətgahı* (Hacılı kəndi), *Qarı ocağı*, *Çələbi ocağı*, *Sarı ocaq* (Horovlu kəndi), *Pir Əhməd* (Yarəhmədli kəndi), *Lalə ocağı* (Böyük Mərcanlı kəndi), *Seyid ocağı*, *Əfəndilər piri* (Əfəndilər kəndi), *Miri evi ziyarətgahı* (Quycaq kəndi), *Qərib Seyid ziyarətgahı* (Tatar kəndi), *Düldül ziyarətgahı* (Gödəklər kəndi), *Seyid ziyarətgahı* (Çocuq Mərcanlı kəndi), *Qara molla ziyarətgahı* (Daşkəsən kəndi), *Dağdağan ocağı* (Qumlaq kəndi), Xudayarlı kəndindəki *Dairəvi türbə*, *Səkkizguşəli türbə* (XIX əsr), Diri dağındakı *Qız qalası*, Dağtumas kəndindəki *Başıkəsik kümbəz*, Gordubaba dağındakı *Məzar yeri*, "*Mədəd armudu*" adlanan tarixi yeri və onlarla başqalarını göstərmək olar.

Cəbrayıl rayonu mühüm coğrafi mövqeyinə, təbii sərvətlərin, zəngin və çoxəsrlik tarixinə görə respublikamızın tanınmış guşələrindən biridir. Qədim tarixə malik Cəbrayıl bölgəsinin keçmişini, toponimlərini araşdırmaq, mövcud tarixi qaynaqların işığında bəzi qaranlıq məqamları aydınlaşdırmaq, əlbəttə ki, mühüm əhəmiyyət kəsb edir. Rayon ərazisində çoxlu sayda patronimik (nəsil adları), antroponimik (şəxs adları) və etnonimik (tayfa adları) toponimlər mövcuddur.

Cəbrayıl rayonu zəngin coğrafi landşafta malik olduğu üçün burada müxtəlif tipli oronimlər qeydə alınmışdır. Bu oronimlər yarandığı dövrün ictimai-siyasi, mədəni həyatını özündə əks etdirən qiymətli tarixi incilərdir. Bu coğrafi adlarda ulu əcdadlarımızın adət-ənənəsi, xalqımızın tarixi keçmişi, zəngin mədəni irsi, dini, dili, məşğuliyyəti və s. yaşayır.

Cəbrayıl rayonunun səthi, əsasən, maili düzənlik (İncəçöl, Gəyan çölü), şimalda Qarabağ silsiləsinin cənub-şərq ətəkləri olan alçaq dağlıqdır. Rayonun hündürlüyü Araz çayı sahilində təxminən 200 metr, şimalda 1000 metr və daha yüksəkdir. Dağlıq hissədə Tabaşir, düzənlik hissədə Neogen və qismən Antropogen çöküntüləri yayılmışdır. İqlimi cənubda yayı quraq keçən mülayim isti yarımsəhra və quru çöl, şimalda yayı quraq keçən mülayim istidir. Rayonun əsas çayları Araz hövzəsinə aid olan İncəçay və Çaxmaqçaydır. İqtisadiyyatında əsas sahəni taxılçılıq, üzümçülük və heyvandarlıq tutur. Baramaçılıq və quşçuluq da əhalinin məşğul olduğu sahələrdəndir. Erməni silahlı qüvvələri tərəfindən işğal olunana qədər rayonda tikiş, xalça və cihazqayırma sexləri, eləcə də müxtəlif sənaye obyektləri fəaliyyət göstərmişdir.

RAYONUN YAŞAYIŞ MƏNTƏQƏLƏRİ

Ağtəpə - Cəbrayıl rayonunun Minbaşılı inzibati ərazi vahidində kənd. XX əsrin 30-cu illərində rayonun Daş Veysəlli kəndindən ayrılmış bir qrup ailə tərəfindən Ağtəpə adlanan yerin yaxınlığında salınmışdı. ***Ağtəpə*** oykonimi öz adını ərazidəki eyniadlı dağın adından almışdır.

Alıkeyxalı – Maşanlı inzibati ərazi vahidində kənd. Əhalisinin sayı 650 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal olunmuş, 19 oktyabr 2020-ci il tarixdə işğaldan azad edilmişdir. Dizaq-Cəbrayıllı mahalına bağlı olan yaşayış məntəqələrindən biri də ***Alıkovxalı*** obasıdır. Oba öz adını Cəbrayıllı elinin oba başçılarından olmuş ***Alı*** kovxadan almışdır. ***Alı Mədət oğlu*** 1874-cü ildə Dizaq-Cəbrayıllı mahalının ***Bəydili*** qışlağında anadan olub. ***Kovxa (koxa)*** termini XVI – XIX əsrlərdə Azərbaycanda da mövcud olmuş rütbə (*bəzən* ***yüzbaşı*** *da deyirlər*) anlamındadır. Bu söz ***kətxuda*** sözünün sinonimidir.

Aşağı Maralyan – Karxulu inzibati ərazi vahidində yerləşən kənd. Əhalisinin sayı 1300 nəfər idi. 3 oktyabr 2020-ci il tarixdə işğaldan azad edilmişdir. Bəzi tədqiqatçıların fikrincə, ***Aşağı Maralyan kəndi*** (yerli əhali kəndin adını bəzən ***Maraylan*** şəklində tələffüz edir) Cənubi Azərbaycanın ***Maraluy*** kəndindən olan ailələrin XIX əsrdə şimala köçərək burada məskunlaşması nəticəsində yaranmışdır. Toponimin ***Aşağı*** komponenti kəndin yerləşdiyi coğrafi mövqeyi ifadə edir. Toponimi ***Maral*** şəxs adı ilə əlaqələndirənlər görünür, səhvə yol vermişlər. ***Maralyan*** toponimi "*isti və ilanlıq yerdə məskunlaşanlar*" mənasındadır.

Aşağı Məzrə – Cəbrayıl rayonunda iki **Məzrə kəndi** vardır: *Aşağı Məzrə* və *Yuxarı Məzrə*. ***Aşağı Məzrə kəndi*** *Sarıcalı* inzibati ərazi vahidində yerləşir. Kəndin əhalisi ***1 000*** nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə erməni işğalçı qüvvələri tərəfindən zəbt olunmuş, 5 oktyabr 2020-ci il tarixdə işğaldan azad edilmişdir. ***Məzrə*** toponimi ərəb dilində "*əkin üçün yararlı yer*", "*şum yeri*", ""*düzən yerdə əkin*", "*suvarıla bilən əkin yeri*" mənalarındadır. Bu söz fars dilində də "*əkin yeri*" mənasını ifadə edir. XVIII və XIX əsrlərə aid tarixi mənbələrə görə, Cəbrayıl elinin ***18*** oymağından biri olan ***Məzrəli obası*** Uzundərə adlanan ərazi torpaqlarında məskunlaşmışdır.

Aşağı Sirik – Sirik inzibati ərazi vahidində kənd. Əhalisinin sayı 400 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmiş, 9 noyabr 2020-ci il tarixdə işğaldan azad olunmuşdur. ***Sirik*** toponiminin ***Sırak*** (***Şirak***, ***Çırak***) tayfasının adi ilə bağlılığı güman olunur. İlk dəfə I əsrdə Strabon bu tayfanın adını çəkmiş, onların Şimali Qafqazda yaşadıqlarını qeyd etmişdir.

Balyand – Balyand inzibati ərazi vahidində, Qozluçayın sağ sahili yaxınlığında kənd. Əhalisinin sayı 1700 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal olunmuş, 21 oktyabr 2020-ci il tarixdə işğaldan azad edilmişdir. Xalq etimologiyasına görə, əvvəllər burada ***balı yandıraraq*** alınan şəkərdən çay hazırlayarmışlar və elə buradan da ***Balyand*** adı formalaşmışdır. ***Balyand*** coğrafi adı çox güman ki, yerli əhalinin dilində ***bələn*** sözünün təhrif olunmuş formasıdır. Oykonimi fars mənşəli ***bolənd*** ("*hündür yer*", "*təpə*") sözü ilə əlaqələndirənlər də vardır.

Böyük Mərcanlı – eyniadlı inzibati ərazi vahidində kənd. Əhalisinin sayı *4100* nəfər idi. ***Böyük Mərcanlı kəndi*** 1993-cü ildə ermənilər tərəfindən işğal olunmuş, 27 sentyabr 2020-ci il tarixdə işğaldan azad edilmişdir. Xalq etimologiyasına görə, burada yaşayan əhali ***malcanlı*** (*mal-heyvan saxlamağı sevənlər*) olmuşlar. Oykonimin tərkibindəki nisbət bildirən ***böyük*** sözü kəndi həm də eyniadlı digər yaşayış məntəqəsindən fərqləndirən əlamətdir. Bu yaşayış məntəqəsinin keçmiş adı ***Mərcanlı*** olmuşdur. Bəzi araşdırıcılar toponimi "*mərdcanlı*", "*mərdlər yurdu*" yozumu ilə mənalandırırlar. Tarixi qaynaqların verdiyi məlumatlara görə, türkdilli ***Mərcanlı eli*** Azərbaycana XVI əsrdə Türkiyədən gəlmişlər.

Cəbrayıl şəhəri – Əvvəllər ***Cəbrayıl kəndi*** adlanan yaşayış məntəqəsinin yerində salınmış şəhər. 1950-1980-ci illərdə ***şəhərtipli qəsəbə*** olmuşdur. 23 avqust 1993-cü il tarixdə erməni işğalçı qüvvələri tərəfindən zəbt olunarkən ***Cəbrayıl*** şəhərinin əhalisi 9000 nəfər (*hazırda 10 000 nəfərdir*) idi. Cəbrayıl şəhəri 4 oktyabr 2020-ci il tarixdə işğaldan azad edilmişdir. Tədqiqatçılar ***Cəbrayıl*** toponimini müxtəlif aspektdən izahlandırırlar. Rayonun adını İslamda və monoteist dinlərdə allaha ən yaxın mələk olan ***Cəbrayılın*** adı ilə də bağlayanlar var. Bir sıra məlumatlara görə isə, şəhər ***Cəbrayıl*** adlı şəxsin adı ilə əlaqədardır və *Cəbrayıl* şəhərinin (*kəndinin*) əsasını da o qoymuşdur. ***Cəbrayıl*** – deyilənə görə orta əsrlərdə yaşamış *əfşar* tayfasının nüfuzlu şəxslərindən biri olmuşdur. Hazırda qəbri ***Cəbrayıl Ata*** adı ilə ***pir*** kimi indi də məşhurdur.

Cəfərabad – Karxulu inzibati ərazi vahidində kənd. Əhalisinin sayı 150 nəfər idi. ***Cəfərabad kəndi*** 1993-cü ildə erməni işğalçı qüvvələri tərəfindən işğal edilmiş, 4 oktyabr 2020-ci il tarixdə işğaldan azad edilmişdir. ***Cəfərabad*** yaşayış məntəqəsini Qarabağ xanı İbrahimxəlil xanın nəvəsi, Məhəmmədhəsən ağanın oğlu, general-mayor ***Cəfərqulu xana*** (1783-1864) məxsus olan ailələr burada saldıqları üçün kənd onun adı ilə adlanmışdır.

Çaxırlı – Mehdili inzibati ərazi vahidində kənd. Əhalisinin sayı 670 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdi. 3 oktyabr 2020-ci il tarixdə işğaldan azad olunmuşdur. Bir məlumata görə, buraya əvvəlcə *dörd* ailə köçmüş və ətraf yerlərin əhalisi oranı ***Çaharlı*** adlandırmışdır (***çahar*** farsca "*dörd*" deməkdir). Sonralar kənddə əhali artmış, onun adı isə getdikcə yerli şivədə el dilinə uyğun olaraq ***Çaxırlı*** formasında tələffüz olunmuşdur.

Çapand – Horovlu inzibati ərazi vahidində kənd. Əhalisinin sayı 160 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmiş, 2 noyabr 2020-ci il tarixdə işğaldan azad olunmuşdur. ***Çapand*** toponiminin dəqiq izahı hələlik tam araşdırılmayıbdır. Qədim türk sözü olan ***çap*** termini "*yamac*", "*yarğan*", "*sıldırım*", "*yüksəklik*", "*eniş*" və başqa mənalarda işlənir. XVIII əsrə aid olan tarixi sənədə görə, ***Çapand kəndi*** Xırdapara Dizaq mahalının tərkibində olmuşdur.

Çələbilər – Dağ Tumas kənd inzibati ərazi vahidində kənd. Əhalisinin sayı 30 nəfər idi. Əhalinin əsas məşğuliyyəti taxılçılıq və heyvandarlıq sayılırdı. **Çələbilər kəndi** 1993-cü ildə ermənilər tərəfindən işğal olunmuş, 25 oktyabr 2020-ci il tarixdə işğaldan azad edilmişdir. Kəndin ərazisində XVII əsrə aid olan *Məhəmməd ibn-Hacı Qaraman Əhmədli* tərəfindən 1678-ci ildə tikilmiş əzəmətli bir məscid-mədrəsə var idi. Bu mədrəsədə dövrünün nüfuzlu alimləri, din xadimləri dərs deyirdilər. XVIII əsrdə yaşamış Azərbaycanın böyük şairi Molla Vəli Vidadi uzun müddət bu kənddə yaşamış və məktəbdarlıq etmişdir. XX əsrin 30-cu illərində repressiyaya məruz qalmış Qarabağın məşhur təriqət sahibi Alı Çələbi Qasım oğlu ***Çələbilər*** kəndindəndir. ***Çələbilər*** oykonimi öz adını ***Çələbiyanlı*** elindan almışdır. Yaşayış məntəqəsini mənşəcə ətraf əhali arasında ***çələbi*** adı ilə məşhur olan bir qrup ailə-nəsil burada saldığı üçün kənd də belə adlanmışdır. ***Çələbi*** ("*Allahı sevən, bilici, şair, yazıçı, mövlanə*") sözü "*mövləvi dərviş ordeninin başçısı*" deməkdir. ***Çələbilər*** toponimi "*çələbi nəslindən olanlar, çələbigillər*" mənasındadır.

Çərəkən – Çərəkən inzibati ərazi vahidində kənd. Əhalisinin sayı 600 nəfər idi. ***Çərəkən*** yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdi. 4 oktyabr 2020-ci il tarixdə işğaldan azad edilmişdir. ***Çərəkən kəndi*** bəzi yerli məlumata görə, ***Çərə*** adlı sahədə salınmışdır. ***Çərə*** ("örüş yeri") və ***kənd*** (*görünür* ***d*** *səsi sonralar assimilyasiyaya uğramışdır*) komponentlərindən düzəlmiş bu mürəkkəb toponim "*örüş yerində salınmış kənd*" mənasındadır. 1933-cü ildə kəndin adı ***Çərəkənt*** şəklində qeydə alınmışdır. 1842-ci ildə ***Çərəkənli*** obasının əhalisi dövlət tərəfindən siyahıya alınmışdır. ***Çərəkən*** kəndinin adını vaxtilə yaxınlıqdan axan ***Çərəkən*** çayı ilə əlaqələndirənlər də var.

Çocuq Mərcanlı – Çocuq Mərcanlı inzibati ərazi vahidində kənd. Adı sənədlərdə bəzən Cocuq Mərcanlı kimi də qeyd edilir. Əhalisinin sayı 1250 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal olunmuşdusa da, 1994-cü ilin yanvarında erməni işğalçılarından azad edilmişdir. Mənbələrdə göstərilir ki, ***mərcanlı*** tirəsinin Qarabağda yaşayan ***otuzikilər*** tayfası ilə bağlılığı var.

Çullu (***Çiçəkli***) – Qazanzəmi inzibati ərazi vahidində kənd. Əhalisinin sayı 800 nəfər idi. ***Çullu*** yaşayış məntəqəsi 1993-cü ildə erməni işğalçı qüvvələri tərəfindən işğal olunmuş, 28 oktyabr 2020-ci il tarixdə işğaldan azad edilmişdir. Dizaq-Cəbrayıllı mahalına bağlı olan yaşayış məntəqələrindən biri ***Çullu obası*** olmuşdur. Mahalın türk mənşəli coğrafi adlarından biri də ***Çullu*** oykonimidir. Yerli məlumata görə, ***çullular*** çox-çox qədimlərdə Diridağ ətrafında yaşamış, sonralar meşəli yer olan indiki əraziyə köçmüşlər. Bəzi tədqiqatçıların fikirlərinə görə, ***Çullu*** oykoniminin ilkin forması ***Çollu*** şəklində olmuşdur. ***Çol*** etnonimi özündə hun mənşəli qədim türkdilli ***çol*** tayfasının adını əks etdirir. Türk mənşəli ***çol*** tayfası II əsrdə hunların tərkibində Qafqaza gələrək burada məskunlaşmışlar.

Dağ Tumas – Dağ Tumas kənd inzibati ərazi vahidində kənd. Bəzən sənədlərdə kəndin adı ***Dağtumas*** şəklində də yazılır. Əhalisinin sayı 1250 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmiş, 23 oktyabr 2020-ci il tarixdə işğaldan azad olunmuşdur. ***Dağ Tumas*** kəndinin keçmiş adı ***Tumas*** olub. Müxtəlif məlumatlara görə, bu kənddən ayrılmış ailələr sonralar Bərdə və Şərur rayonlarında ***Tumaslı***, Qubadlı rayonunda ***Çaytumas*** kəndlərini salmışlar. Cəbrayıl rayonunda ***Çaytumas kəndi*** də olmuşdu. ***Tumas*** sözünün əvvəlində gələn ***dağ*** ("*yerin hündür, dik, yamaclı və zirvəli hissəsi*") və ***çay*** komponentləri kəndləri bir-birindən fərqləndirmək üçün işlənilmişdir. Kənd ***Dağ Tumas*** dağının yamacında yerləşdiyi üçün o, ***Dağ Tumas*** adlandırılmışdır.

Dağmaşanlı – Qazanzəmi inzibati ərazi vahidində kənd. Bəzən kəndin adını sənədlərdə **Dağ Maşanlı** şəklində də yazırlar**.** Əhalisinin sayı 520 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal olunmuş, 25 oktyabr 2020-ci il tarixdə işğaldan azad edilmişdir. Oykonim ***dağ*** və ***Maşan*** sözlərindən, eləcə də -***lı*** şəkilçisindən ibarətdir. ***Maşan*** şəxs adıdır. Oykonimin tərkibindəki ***dağ*** sözü kəndi digər yaşayış məntəqəsindən ayırmaq, fərqləndirmək üçün işlənmişdir. Bəzi araşdırıcılar oykonimi ***maşanlı*** adlı türkdilli tayfa adı ilə əlaqələndirirlər. Yerli məlumata görə, ***əfşar*** əsilli *Cəbrayıl Atanın* oğlanlarından birinin adı ***Maşan*** olmuşdur və bu yaşayış məntəqəsi də onun adını daşıyır. XVIII – XIX əsrlərə aid tarixi mənbələrə görə, Cəbrayıl elinin ***18*** oymağından biri olan ***Maşanlı oymağı*** keçmiş *Bəydilli* adlı ərazidə məskunlaşmışdır. Yerli məlumata görə, ***Dağ Maşanlı*** kəndinin əhalisi vaxtilə ***Araz Maşanlı*** kəndindən gəliblər.

Daşkəsən – Süleymanlı kənd inzibati ərazi vahidində kənd. Əhalisinin sayı 580 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal olunmuş, 4 oktyabr 2020-ci il tarixdə işğaldan azad edilmişdir. ***Daşkəsən*** oykonimi ***daş*** və ***kəsən*** sözlərindən ibarət olub, "*daş kəsilən yer*", "*daş karxanası*" mənasındadır. ***Daşkəsən*** yaşayış məntəqəsi ***Daşkəsən dağı (təpəsi)*** adlanan yerin şərqində salındığına görə belə adlanmışdır.

Daşveysəlli – Minbaşılı kənd inzibati ərazi vahidində kənd. Kəndin adını bəzən ***Daş Veysəlli*** şəklində də yazırlar. Əhalisinin sayı 1200 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ilin avqustunda erməni işğalçı qüvvələri tərəfindən zəbt edilmiş, 20 oktyabr 2020-ci il tarixdə işğaldan azad olunmuşdur. Toponimiyada ***daş*** (***taş, dış***) termini "*kənar*", "*qıraq*", "*daşlıq*", "*qayalıq*" mənalarını ifadə edir. ***Veysəlli*** sözü tirə, nəsil adını ifadə edir. Bu tirənin adı kəndin əsasını qoymuş ***Veysəl*** (***Veyis***) şəxs adı ilə bağlıdır.

Dəcəl – Şükürbəyli inzibati ərazi vahidində kənd. Yerli əhali kəndin adını ***Dəjəl*** şəklində də tələffüz edir. Bu yaşayış məntəqəsinin adı 1917-ci ildə ***Dejaq*** variantında qeydə alınmışdır. ***Dəjək*** sözü dialektlərimizdə "***nişangah***" anlamını ifadə edir. Yerli məlumata görə, kəndi XVIII əsrdə *Şıxalı* ağanın qardaşı ***Əhmədxan*** (*Vəli ağanın oğlu*) salmışdır.Kənd 4 oktyabr 2020-ci il tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir.

Dərzili – Qumlaq kənd inzibati ərazi vahidində kənd. Əhalisinin sayı 300 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə erməni işğalçıları tərəfindən zəbt edilmiş, 22 oktyabr 2020-ci il tarixdə işğaldan azad olunmuşdur. ***Dərzili*** yaşayış məntəqəsi XIX əsrin ikinci yarısında Zəngəzur qəzasında əsasən maldarlıqla məşğul olmuş ***dərzili*** tayfasının adını özündə əks etdirir.

Diri – Diri dağın ətəyində, Araz çayının sol sahilində yerləşən kənd.. ***Diri*** kəndinin (*kənd öz adını bu dağın adından götürmüşdür*) və qalasının xarabalıqları hazırda da qalmaqdadır. XVI yüzillikdə yaşayıb-yaradan məşhur *Dirili Qurbani* və Aşıq Surxay (*Dirili Surxay*) bu kənddəndirlər. Qəbirləri də dağın ətəyindədir.

Doşulu – Balyand kənd inzibati ərazi vahidində kənd. ***Doşulu*** sözü düzəltmə oykonimdir. ***Doşulu*** kəndinin adı ***Doşu*** (şəxs adı) sözündən və -***lu*** mənsubiyyət şəkilçisindən ibarət olub, "*Doşuya məxsus kənd*", "*Doşunun nəslindən olanlar", "doşulular*" mənasındadır. Yerli məlumata görə, vaxtilə Cənubi Azərbaycandan gəlmiş ***Doşu*** və *Şəybəy* adlı iki qardaş burada məskunlaşaraq, indiki ***Doşulu*** və *Şəybəy* yaşayış məntəqələrinin əsasını qoymuşlar. Kənd 15 oktyabr 2020-ci il tarixdə işğaldan azad edilmişdir.

Əfəndilər – Çərəkən inzibati ərazi vahidində yerləşən kənd. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal olunmuş, 9 oktyabr 2020-ci il tarixdə işğaldan azad edilmişdir. Kənd əvvəllər ***Kühülyataq*** adlanmışdır. Qubadlı rayonunun ***Əfəndilər*** kəndindən ayrılmış seyidlər nəslinə mənsub olan ailələr yaşayış məskənini ***Kühülyataq*** adlanan binə yerində salmışlar. Yaşayış məntəqəsi sonralar ***Əfəndilər*** adlanmışdır.

Əmirvarlı – Sarıcalı kənd inzibati ərazi vahidində kənd. Əhalisinin sayı *1 200* nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmiş, 19 oktyabr 2020-ci il tarixdə işğaldan azad olunmuşdur. ***Əmirvarlı*** (adına bəzən ***Tinli Əmirvarlı*** da deyilir) yaşayış məntəqəsinin digər bir adı ***Hüseynbəyli*** olmuşdur. Kənd ***əmirvarlı*** nəslinə mənsub olan ailələrin burada məskunlaşması nəticəsində yaranmışdır.

Əsgərxanlı – Sirik inzibati ərazi vahidində yerləşən kənd. İşğala qədər kəndin 15 evi vardı. Əhalisinin sayı 55 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə erməni işğalçıları tərəfindən zəbt edilmiş, 9 noyabr 2020-ci il tarixdə işğaldan azad olunmuşdur. ***Əsgərxanlı*** yaşayış məntəqəsi ***Əsgər*** (***Əsgərxan***) şəxs adı ilə əlaqədar yaranmışdır.

Fuqanlı – Şükürbəyli inzibati ərazi vahidində yerləşən kənd. Bəzən bu yaşayış məntəqəsinin adı sənədlərdə ***Fuğanlı*** kimi də yazılır. Kəndin əhalisi 300 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmiş, 20 oktyabr 2020-ci il tarixdə işğaldan azad olunmuşdur. ***Fuqanlı*** kəndinin keçmiş adı ***İmambağı*** olmuşdur. Bəzi ədəbiyyatlarda səhvən bu yaşayış məntəqəsinin adı ***İmambaş*** formasında da qeyd olunmuşdur. Kəndin adı ***Fuğani*** ağanın adı ilə bağlıdır.

Göyərçin Veysəlli – Şahvəlili inzibati ərazi vahidində kənd. Əhalisinin sayı *900* nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal olunmuş, 19 oktyabr 2020-ci il tarixdə işğaldan azad edilmişdir. ***Göyərçin Veysəlli*** toponimi ***Göyərçin*** sözündən və ***Veysəlli*** etnonimindən ibarətdir. ***Veysəlli*** tirəsinin əsasını ***Veysəl*** adlı dövrünün nüfuzlu şəxsi qoymuşdur.

Hacıisaqlı – Şahvəlili inzibati ərazi vahidində kənd. Kəndin 140 evi vardı. Əhalisinin sayı 630 nəfər idi. ***Hacıisaqlı*** yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmiş, 2 noyabr 2020-ci il tarixdə işğaldan azad olunmuşdur. ***Hacıisaqlı*** oykonimi ***Hacı İshaq*** şəxs adından və mənsubluq bildirən ***-lı*** şəkilçisindən ibarət olub, "*Hacıisağa məxsus olan oba*", "*Hacıisaqlılar*" mənasındadır.

Hacılı – Hacılı kənd inzibati ərazi vahidində kənd. Əhalisi 400 nəfər idi. ***Hacılı*** yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmiş, 21 oktyabr 2020-ci il tarixdə işğaldan azad olunmuşdur. ***Hacılı*** yaşayış məntəqəsi (*Pirəyatağı*) Dübar adlı sahədə ***hacılı*** türk tayfa tirəsinə mənsub olan ailələrin burada məskunlaşması nəticəsində yaranmışdır.

Havuslu – Havuslu inzibati ərazi vahidində kənd. Əhalisinin sayı 1330 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal olunmuş, 25 oktyabr 2020-ci il tarixdə işğaldan azad edilmişdir. ***Havuslu*** (*bəzən adını sənədlərdə* ***Hovuslu, Hafizli*** *kimi də yazırlar*) kəndini ***havuslu*** tirəsinə mənsub olan ailələr saldığına görə kənd belə adlanmışdır.

Həsənqaydı – Şükürbəyli inzibati ərazi vahidində kənd. Əhalisinin sayı 180 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmiş, 20 oktyabr 2020-ci il tarixdə işğaldan azad olunmuşdur. ***Həsənqaydı*** kəndinin başqa bir adı da ***Vəlixanlı*** olmuşdur. Bir sıra sənəd və materiallarda göstərilir ki, əsasən maldarlıqla məşğul olan ***vəlixanlı*** tirəsinə mənsub ailə və nəsillər XIX əsrdə bu yaşayış məntəqəsini salmışlar. ***Həsənqaydı*** yaşayış məntəqəsi ***Həsənqaydı*** adlanan köhnə kənd yerində salındığı üçün oykonim belə adlanmışdır.

Həsənli – Maşanlı inzibati ərazi vahidində kənd. Yaşayış məntəqəsinin adı bəzən sənədlərdə ***Hasanlı*** kimi də yazılır. Əhalisinin sayı 490 nəfər idi. Kənd 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal olunmuş, 19 oktyabr 2020-ci il tarixdə işğaldan azad edilmişdir. ***Həsənli*** (***Hasanlı***) toponimi antroponim (*adam adı*) ilə ifadə olunan oykonimdir. Oykonim ***Həsən*** şəxs adından və ***-li*** şəkilçisindən ibarətdir. Yaşayış məntəqəsi yerli əhali arasında ***Hasanlı*** adı ilə tanınır.

Horovlu – Horovlu inzibati ərazi vahidində, rayon mərkəzindən 8 kilometr şərqdə, dağətəyi düzənlikdə yerləşən kənd. Əhalisinin sayı *1850* nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmiş, 4 oktyabr 2020-ci il tarixdə işğaldan azad olunmuşdur. Yerli məlumata görə, ***Horovlu*** yaşayış məntəqəsini Cənubi Azərbaycanın ***Horov*** kəndindən XVIII əsrdə (*bəzi sənədlərdə XIX əsr də göstərilir*) gələn ailələr saldığı üçün kənd belə adlandırılmışdır.

Hüseynalılar – Hacılı inzibati ərazi vahidində kənd. Əhalisinin sayı 200 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə erməni işğalçı qüvvələri tərəfindən işğal edilmiş, 9 noyabr 2020-ci il tarixdə işğaldan azad olunmuşdur. ***Hüseynalılar kəndi*** Cəbrayıl qəzasının ***hacılı*** icmasına mənsub olan ***hüseynalılar*** tirəsinin burada məskunlaşması nəticəsində yaranmışdır.

Xanağabulaq – Qazanzəmi inzibati ərazi vahidində kənd. Əhalisinin sayı 30 nəfər idi. Taxılçılıq və heyvandarlıq əhalinin əsas məşğuliyyəti sayılırdı. Yaşayış məntəqəsi 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal olunmuş, 28 oktyabr 2020-ci il tarixdə azad edilmişdir. ***Xanağabulaq*** adı iki sözdən – ***Xanağa*** şəxs adından və ***bulaq*** hidronimik apelyativindən ibarətdir.

Xələfli – Xələfli kənd inzibati ərazi vahidində, Xələf dağının ətəyində yerləşən kənd. Bəzən yaşayış məntəqəsinin adına (onu *Stansiya Xələflidən* (***Xələfli qəsəbəsi***) fərqləndirmək üçün) ***Dağ Xələfli*** də deyirlər. Kəndin əhalisi 700 nəfər idi. Yerli məlumata görə, ***Xələfli*** yaşayış məntəqəsi ***Xələf*** şəxs adı ilə bağlıdır.

Xələfli qəsəbəsi (***Stansıya Xələfli***) – Qumlaq inzibati ərazi vahidində yerləşən yaşayış məntəqəsi. Əhalisinin sayı 450 nəfər idi. ***Xələfli*** yaşayış məntəqəsi 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal olunmuş, 23 oktyabr 2020-ci il tarixdə işğaldan azad edilmişdir. ***Xələfli*** qəsəbəsini rayonun ***Xələfli*** kəndindən çıxmış ailələr salmışlar. 1965-ci ildən bu yaşayış məntəqəsi ***Xələfli qəsəbəsi*** adlanmışdır.

Xubyarlı – Cəbrayıl şəhər inzibati ərazi vahidində kənd. Əhalisinin sayı 80 nəfər idi. Xubyarlı yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmiş, 28 oktyabr 2020-ci il tarixdə erməni işğalçı qüvvələrindən azad olunmuşdur. Yerli məlumata görə, ***Xubyarlı*** yaşayış məntəqəsini vaxtilə Dağ Maşanlı (*1968-ci ildən* ***Təzəkənd***) kəndindən çıxmış ***Xubyar*** adlı şəxs saldığına görə belə adlandırılmışdır.

Xudafərin qəsəbəsi – Xələfli dağının cənub ətəyində yerləşən yaşayış məntəqəsi. 1977-ci ildə qəsəbə statusu alıbdır. Əhalisinin sayı 250 nəfər idi. 1993-cü ildə erməni hərbi birləşmələri tərəfindən işğal olunmuş, 2020-ci ilin payızında işğaldan azad edilmişdir. Yaşayış məntəqəsinin adı ***Xudafərin*** körpüsünün adı ilə bağlıdır.

Xudaverdili – Cəbrayıl şəhər inzibati ərazi vahidində kənd. Əhalisinin sayı 230 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə erməni hərbi birləşmələri tərəfindən işğal edilmiş, 2020-ci ilin payızında işğaldan azad olunmuşdur. Yerli məlumata görə, ***Xudaverdili*** yaşayış məntəqəsini vaxtilə qonşu Hacılı kəndindən köçüb gəlmiş ***Xudaverdi*** adlı şəxs salmışdır. Kənd də onun adı ilə ***Xudaverdili*** adlanmışdır.

Xudayarlı – Qumlaq inzibati ərazi vahidində kənd. Əhalisinin sayı 300 nəfər idi. **Xudayarlı** yaşayış məntəqəsi 1993-cü ildə erməni silahlı birləşmələri tərəfindən işğal edilmiş, 2020-ci ilin payızında işğalçılardan azad olunmuşdur. ***Xudayarlı*** yaşayış məntəqəsini vaxtilə ***Xudayar*** adlı şəxs saldığına görə kənd də onun adı ilə adlandırılmışdır. ***Xudayar bəy*** (*onun adı bəzi tarixi sənədlərdə* ***Xudayar yüzbaşı*** *kimi də çəkilir*) dövrünün nüfuzlu şəxsiyyətlərindən olmuşdur.

İmambağı – Cəbrayıl şəhər inzibati ərazi vahidində kənd. Əhalisinin sayı 50 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü il tarixdə erməni silahlı birləşmələri tərəfindən işğal edilmiş, 20 oktyabr 2020-ci il tarixdə işğaldan azad olunmuşdur. ***İmambağı*** kəndinin adı bəzi sənədlərdə ***İmanbağı*** şəklində də qeyd olunur. ***İmambağılılar*** nəsli *mirzəcanlı* tirəsinin bir qoludur. Yerli məlumata görə, ***İmambağı*** yaşayış məntəqəsini keçmiş *Mirzəcanlı* kəndindən köçmüş ailələr ***İmamqulu bəyə*** məxsus olan *İmambağı* adlı ərazidə saldığı üçün kənd də belə adlandırılmışdır.

İsaqlı – Havuslu inzibati ərazi vahidində kənd. Yerli tələffüzdə adı ***İsaxlı*** şəklində deyilir. Əhalisi 260 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmiş, 19 oktyabr 2020-ci il tarixdə işğaldan azad edilmişdir. Kənd XIX əsrdə Zəngəzur qəzasında yaşayan ***xocaisaqlı*** tayfasına mənsub olan ***İsaqlı*** qışlağında salındığı üçün qışlağın adı ilə adlandırılmışdır.

Karxulu – Karxulu inzibati ərazi vahidində kənd. Əhalisinin sayı 850 nəfər idi. Kənd 1993-cü ildə erməni işğalçıları tərəfindən zəbt edilmiş, 4 oktyabr 2020-ci il tarixdə işğaldan azad olunmuşdur. XVIII əsrə aid olan sənədə görə, ***Karxulu kəndi*** (*adı əvvəllər* ***Sərkərli*** *olub*) Xırdapara Dizaq mahalının tərkibində olmuşdur. ***Karxulu*** yaşayış məntəqəsini Qarabağdan gəlmiş *Allahverdi* və *Xudaverdi* adlı qardaşlar ***Karxulu*** adlanan yerdə salmışlar.

Kavdar – Hacılı inzibati ərazi vahidində, Arazboyu düzənlikdə yerləşən kənd. Əhalisinin sayı 250 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə erməni işğalçı qüvvələri tərəfindən zəbt edilmiş, 4 noyabr 2020-ci il tarixdə işğaldan azad olunmuşdur. Xalq etimologiyasına görə, ***Kavlar*** şəxs adı olmuşdur. Sonralar bu söz ***Kavdar*** formasında kəndin adına çevrilmişdir. Çox güman ki, oykonim özündə qədim türkdilli ***qov (qovlar)*** etnonimini əks etdirir. XIX əsr mənbəsinin məlumatına görə, Cəbrayıl elinin *Əlibəyli* obası ***Kavdar*** adlanan ərazinin torpaqlarında məskunlaşmışdır. Bu səbəbdən də kənd sonralar ***Kavdar*** adlanmışdır. Bu kənd Cəbrayıl rayonunun qədim tarixə malik kəndlərindəndir.

Keçəlməmmədli – Vaxtilə Cəbrayıl rayonu ərazisində mövcud olmuş kənd. Oykonim ***keçəl*** və ***Məmməd*** sözlərindən əmələ gəlmişdir. Kənd erməni işğalçıları tərəfindən işğal edildikdən sonra dağıdılmışdır. Yaşayış məntəqəsinin ərazisi 19 oktyabr 2020-ci il tarixdə işğalçı ermənilərdən azad edilmişdir.

Kürdlər – Xəlfəli inzibati ərazi vahidində, Qarabağ silsiləsinin ətəyində yerləşən kənd. Əhalisinin sayı 170 nəfər idi. ***Kürdlər*** yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmiş, 26 oktyabr 2020-ci il tarixdə işğaldan azad olunmuşdur. Bəzi məlumatlara görə, ***Kürdlər*** yaşayış məntəqəsini 1887-ci ildə Cənubi Azərbaycanın, Qaradağın Çələbiyanlı elindən çıxmış ailələr salmışlar.

Qalacıq – Havuslu inzibati ərazi vahidində kənd. Yaşayış məntəqəsinin adını bəzən ***Qalaçıq*** formasında da yazırlar. Əhalisinin sayı 400 nəfər idi. ***Qalacıq*** yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal olunmuş, 9 noyabr 2020-ci il tarixdə işğaldan azad edilmişdir. ***Qalacıq*** yaşayış məntəqəsinin keçmiş adı ***Əhmədli*** olub. Kəndin əhalisi ***Əhmədli*** türk tayfasına məxsusdur. ***Qalacıq*** yaşayış məntəqəsi orta əsrlərə aid qədim ***Qala*** xarabalığının yaxınlığında salındığı üçün belə adlanmışdır.

Qaracallı – Balyand inzibati ərazi vahidində kənd. Bəzən bu yaşayış məntəqəsinin adını ***Qaraçallı*** şəklində də yazırlar. Əhalisinin sayı 800 nəfər idi. ***Qaracallı kəndi*** 1993-cü ildə ermənilər tərəfindən işğal olunmuş, 9 oktyabr 2020-ci il tarixdə işğaldan azad edilmişdir. Yaşayış məntəqəsinin adı XVIII əsrdə Naxçıvandan Qarabağlı Pənahəli xanın Qarabağa köçürdüyü kəngərlilərin ***qaracallı*** tayfasının adını özündə əks etdirir. Əvvəllər Qarabağa köçmüş ***qaracallı*** nəsilləri orada yaşamış, sonralar Azərbaycanın müxtəlif rayonlarına yayılaraq bir neçə ***Qaracallı*** adlı yaşayış məntəqəsi bina etmişlər.

Qarağac – Dağ Tumas inzibati ərazi vahidində kənd. Əhalisinin sayı 172 nəfər idi. Əslində kəndin adı ***Qaraağac*** (***Qaraağaclı***) şəklində olmalıdır. Bu yaşayış məntəqəsi ***Qaraağac yeri*** adlı ərazidə salındığı üçün belə adlandırılmışdır. Yaşayış məntəqəsi 28 oktyabr 2020-ci il tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir.

Qarar – Xələfli inzibati ərazi vahidində kənd. Əhalisinin sayı 180 nəfər idi. 9 noyabr 2020-ci il tarixdə işğaldan azad olunmuşdur. Bəzi sənədlərdə bu yaşayış məntəqəsinin adı ***Qərər*** formasında qeyd olunmuşdur. Yerli əhali bəzən kəndi ***Qərar Dursun*** da adlandırır. Əhali kəndin adına ***Qərar Dursun*** (***Qərar Tursun***) da deyirdi. Bəzi məlumata görə, bu yaşayış məntəqəsi XIX əsrin əvvəllərində buradakı ***Qarar Dursun*** pirinin yanında salındığı üçün belə adlandırılmışdır.

Qazanzəmi – Qazanzəmi inzibati ərazi vahidində kənd. Əhalisinin sayı 462 nəfər idi. ***Qazanzəmi*** yaşayış məntəqəsi ***25 avqust 1993-cü il*** tarixdə ermənilər tərəfindən işğal olunmuş, 28 oktyabr 2020-ci il tarixdə işğaldan azad edilmişdir. ***Qazanzəmi*** kəndinin adı ***Qazan*** və ***zəmi*** ("*taxıl əkilən sahə*", "*taxıl əkilən yer*") sözlərindən ibarətdir. ***Qazan*** – şəxs adıdır

(bu ada "*Kitabi-Dədə Qorqud*" dastanında da rast gəlirik). Oykonimin tərkibindəki ***zəmi*** sözü isə, "*əkin yeri*", "*taxıl əkilən sahə*" deməkdir. ***Qazanzəmi*** toponimi "*Qazanın yurdu*", "*Qazana məxsus yer*", "*Qazanın yeri*", "*Qazanın əkin sahəsi*" mənasındadır.

Qıraxdın – Cəbrayıl rayonunun və şəhərinin adı bir müddət ***Qıraxdın*** olmuşdur. Bəzi tədqiqatçılar bu oykonimi Avropa mənşəli, İtalyan əsilli ***karantin*** ("*qırx gün*") sözü ilə əlaqələndirirlər. Oykonimi "*mal-qara xəstəliyinə qarşı mübarizə*" anlamlı ***karantin*** sözü ilə məhdudlaşdırmaq düzgün olmazdı. Bəzi tədqiqatçılar ***Qıraxdın*** sözünü XVIII əsrdə Nadir şahın hakiyyəti dövründə Azərbaycana köçmüş cəlair türk qəbiləsinə mənsub olan ***Qıraqlı*** (***Qıraxlı***) nəslinin adı ilə əlaqələndirirlər. ***Qıraxdın*** toponimini "*qıraqdan gələnlər*" kimi də şərh edənlər var. Bəzi araşdırıcılar ***Qıraxdın*** sözünü "*dindən kənar*" anlamı ilə şərh edir. Toponimi qədim ***qır*** tayfalarının adı ilə bağlayanlar da var.

Qışlaq – Süleymanlı inzibati ərazi vahidində kənd. Əhalisinin sayı 250 nəfər idi. ***Qışlaq kəndi*** 1993-cü ildə ermənilər tərəfindən işğal olunmuş, 9 oktyabr 2020-ci il tarixdə işğaldan azad edilmişdir. Yaşayış məntəqəsi keçmiş ***qışlaq*** yerində salındığı üçün belə adlandırılmışdır; toponim "*qış yurdu*" mənasındadır.

Qoşabulaq – Şahvəlili inzibati ərazi vahidində kənd. Əhalisinin sayı 220 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə erməni işğalçıları tərəfindən zəbt edilmiş, 2 noyabr 2020-ci il tarixdə işğaldan azad olunmuşdur. ***Qoşabulaq kəndi*** öz adını ərazisindəki ***Qoşabulaq*** hidronimindən almışdır.

Qovşutlu – Şahvəlili inzibati ərazi vahidində kənd. Bəzən adı ***Qovşudlu*** şəklində də yazılır. Əhalisinin sayı 450 nəfər idi. ***Qovşutlu*** yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal olunmuş, 26 oktyabr 2020-ci il tarixdə işğaldan azad edilmişdir. *Cəbrayıllı* elinin tərkibində olan obalardan biri də ***Qovşudlu*** (***Hüseynbəyli***) ***obası*** idi. ***Qovşut (Qovşud)*** qədim türkdilli tayfanın adıdır.

Qumlaq – Qumlaq inzibati ərazi vahidində kənd. Əhalisinin sayı 700 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə erməni işğalçıları tərəfindən zəbt olunmuş, 19 oktyabr 2020-ci il tarixdə işğaldan azad edilmişdir. ***Qumlaq*** yaşayış məntəqəsi XIX əsrdə, *Qumlaq* adlı qoyun yatağı yerində salındığı üçün belə adlanmışdır.

Qumlaq (*qəsəbə*) – Qumlaq inzibati ərazi vahidində, Araz çayının sol sahilində yerləşən yaşayış məntəqəsi. Əhalisinin sayı 250 nəfər idi. Əhalisi əsasən heyvandarlıq, taxılçılıq, üzümçülük və baramaçılıqla məşğul olurdu. XVIII əsrə aid tarixi mənbədə ***Qumlaq*** sözü *minbaşılı* nəslinin bir tirəsi kimi göstərilmişdir. ***Qumlaq qəsəbəsi*** yaxınlıqdakı ***Qumlaq*** dəmir yolu keçidi yanında salındığına görə belə adlandırılmışdır. Bəzən adı sənədlərdə Stansiya Qumlaq kimi də qeyd olunur.

Qurbanlı – Vaxtilə Cəbrayıl rayonunda mövcud olmuş, sonralar müəyyən səbəblərdən dağılmış kəndlərdən biri də ***Qurbanlı*** kəndidir. Bəzi məlumatlardan aydın olur ki, bir zamanlar kəndin ərazisində ilanlar çoxaldığından qorxuya düşən əhali Arazın o tayına – Cənubi Azərbaycana (hazırda o tayda ***Qurbanlı*** adlı kənd də var) köçmüşdür. Sonralar gedənlərin bir neçəsi qayıdıb gəlmiş, amma Mazannənədə yox, bir qədər kənarda – Xudayarlı qışlağında məskunlaşmışlar. Deyilənə görə, Aşıq Qurbani öz adını bu kəndin adından almışdır...

Qurbantəpə – Cəbrayıl şəhər inzibati ərazi vahidində kənd. Əhalisinin sayı 40 nəfər idi. Toponim "*Qurbanın təpəsi*", "*Qurbana məxsus olan təpə*" və ya "*qurban kəsilən təpə*" mənasındadır. 30 oktyabr 2020-ci il tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir.

Quşçular – Cəbrayıl rayonunda qədim tarixə malik olan kənd. 28 oktyabr 2020-ci il tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir. Məlumdur ki, ***quşçular*** toponimləri ***quş*** etnonimindən formalaşan etnotoponimdir. ***Quşçu*** tayfaları qara hunlara – ***quşanlara*** aid olan türkdilli bir qəbilədir. Oykonim türkdilli ***quşçu*** tayfasının adını daşıyır. Quşçuların yayılma arealları çox genişdir. ***Quşçu*** etnonimi ilə bağlı toponimlərin hələ erkən orta əsrlərdə meydana çıxması güman olunur. Mənbələrə görə, ***quşçu*** tayfası Cənubi Qafqaza hələ III – IV əsrlərdə gəlmişdir. Bəzi araşdırıcılar quşçuları *qara hunların* bir qolu ilə, bəziləri isə *sarmat* tayfaları arasındakı *quşilərlə* əlaqələndirir. ***Quşilər*** (***xuşilər***) – qədim pəhləvi qəbilələrindən birinin adıdır. ***Quşçu*** türk tayfaları Orta Asiyada I – III əsrlərdə *Kuşan çarlığı* da yaratmışlar. Vaxtilə Cəbrayıl qəzasının tərkibində olan ***Quşçular*** kəndinin əhalisi *Əhmədli* tayfasına mənsubdur.

Quycaq – Quycaq inzibati ərazi vahidində, düzənlik ərazidə yerləşən kənd. Bəzən bu yaşayış məntəqəsinin adını ***Quyçaq*** formasında da yazırlar. Əhalisinin sayı 800 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə erməni işğalçıları tərəfindən zəbt edilmiş, 3 oktyabr 2020-ci il tarixdə işğaldan azad olunmuşdur. 1828-ci ilə aid olan tarixi mənbəyə görə, ***Quyucaq kəndi*** qışlaq yeri olmuşdur. Yaşayış məntəqəsi əvvəllər ***Qışlaq***, daha sonra Azərbaycanın cənubundan gəlmiş ailələrin burada saldığı kənd su quyusunun yanında yerləşdiyi üçün ***Quyucaq*** adlanmışdır. Oykonimin tərkibindəki ***caq*** formantının məna xüsusiyyəti şor dilindəki ***cuq*** mənasına uyğun gəlir. Əvvəl qışlaq yeri olmuş və ***Qışlaq*** adlanmış bu ərazi (*kənd*) sonralar Azərbaycanın cənubundan gəlmiş ailələrin burada məskən saldıqları böyük bir kəndə (*yaşayış məntəqəsinə*) çevrilmişdir.

Mahmudlu (*qəsəbə*) – Karxulu inzibati ərazi vahidində, Gəyan çölündə, düzənlikdə yerləşən yaşayış məntəqəsi. Bu yaşayış məntəqəsi vaxtilə kənd olubdur. 1976-cı ildə o, ***qəsəbə*** statusu almışdır. Əhalisinin sayı 700 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmiş, 4 oktyabr 2020-ci il tarixdə işğaldan azad olunmuşdur. Tarixdən məlumdur ki, vaxtilə Dizaq-Cəbrayıllı mahalına bağlı məntəqələrdən biri ***Mahmudlu*** obasıdır. ***Mahmudlu (məhmudlu, mamudlu)*** – qədim türk tayfasıdır. ***Mahmudlu oymağı*** Oğuz xanın oğullarından olan Ulduz xanın kiçik oğlu Qızıq bəyin soyundan gəlir. ***Mahmudlu*** oykonimi ***Mahmud*** şəxs adından və mənsubluq bildirən ***-lu*** şəkilçisindən törəmişdir.

Maralyan – Əslində ***Maralyan*** oykonimi ***Maraylan*** formasında olmalıdır. Oykonim keçmiş ədəbiyyatlarda ***Maralian*** kimi də qeydə alınmışdır. ***Maralyan*** oykonimi ilə bağlı çoxlu rəvayətlər vardır. Bəzi araşdırıcılara görə, ***Maralyan*** oykonimi ***mara*** ("*örüş*") sözündən və ***-li*** mənsubluq ifadə edən şəkilçidən, eləcə də məkan bildirən ***-an*** şəkilçisindən ibarətdir. Bu mənada oykonim "*örüşü olan yer*" anlamındadır.

Maşanlı – Maşanlı inzibati ərazi vahidində, Araz çayının sol sahilində, düzənlikdə yerləşən kənd. Əhalisinin sayı 362 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmiş, 19 oktyabr 2020-ci il tarixdə işğaldan azad olunmuşdur. ***Maşanlı*** kəndinə bəzən ***Araz Maşanlı*** da deyirlər. Yerli məlumata görə, bu yaşayış məntəqəsini həmin rayondakı ***Dağ Maşanlı*** (*Qazanzəmi kənd inzibati ərazi vahidində*) kəndindən köçüb gəlmiş ailələr Araz çayı sahilində saldığına görə, kənd də belə adlandırılmışdır. Oykonim ***maşanlı*** nəslinin adını özündə daşıyır.

Mehdili – Mehdili inzibati ərazi vahidində, düzənlikdə yerləşən kənd. Əhalisi ***1 500*** nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmiş, 3 oktyabr 2020-ci il tarixdə işğaldan azad olunmuşdur. ***Mehdili*** obasının tarixi haqqında el arasında müxtəlif fikirlər, versiyalar vardır. ***Mehdili kəndi*** XVIII əsrin ikinci yarısına aid olan sənədə görə, *Xırdapara Dizaq mahalı* tərkibində olmuşdur. Xirdapara-Dizaq mahalında yaşam sürən ***Mehdili obası*** Məhəmmədhəsən ağa İbrahimxəlil xan oğlunun arvadı Mahşərəf xanıma aid idi. XVIII əsrin sonlarında obanın başçısı ***Mehdi Sərkar*** olmuşdur.

Məstalıbəyli – Qumlaq inzibati ərazi vahidində, Gəyan çölündə, düzənlik ərazidə yerləşən kənd. Əhalisinin sayı 430 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmiş, 22 oktyabr 2020-ci il tarixdə işğaldan azad olunmuşdur. Vaxtilə Dizaq-Cəbrayıllı mahalına daxil olan obalardan biri də ***Məstalıbəyli*** adlanmışdır. ***Məstalıbəyli*** obasının adı ***Məstalı bəy Cəfər ağa oğlu Cəbrayıllı*** şəxs adı ilə bağlıdır. Toponim Azərbaycan tayfalarından olan şahsevənlərin ***məstalıbəylilər*** tirəsinin adı ilə bağlıdır.

Məzrə - Bax: **Aşağı Məzrə** və **Yuxarı Məzrə**.

Minbaşılı – Minbaşılı inzibati ərazi vahidində, Arazboyu düzənlikdə yerləşən kənd. Əhalisi 350 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə erməni işğalçıları tərəfindən zəbt olunmuş, 23 oktyabr 2020-ci il tarixdə işğaldan edilmişdir. ***Minbaşılı*** yaşayış məntəqəsi *bəylik kəndi* kimi məşhur idi. XIX əsrdə bu kənd ***Köhnəqışlaq*** adlanan sahədə bir neçə oymaqdan ibarət olmuşdur. Sonralar ***Parayataq*** adlı əraziyə köçmüşdür. Kənddə ***Minbaşılı*** və ***Cəfəralılı*** adlı iki nəsil vardı. Yaşayış məntəqəsi ***Minbaşılı*** nəslinin (*niyazqulular, qumlaqlılar* tirələri ilə bu nəslin qolu arasında bağlılıq var) adını daşıyır. ***Minbaşı*** – səfəvilər dövründə yaranan tituldur. Toponim "*min nəfərin başçısı*" anlamındadır. Orta əsrlərdə Yaxın Şərq ölkələrində, o cümlədən, Azərbaycanda ***min*** nəfərlik qoşun başçısına ***minbaşı*** deyilirdi.

Miraq – Hacılı inzibati ərazi vahidində, Arazboyu düzənlikdə yerləşən kənd. Bəzi sənədlərdə adı ***Mirək*** şəklində də yazılmışdır. Əhalisi 300 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə erməni işğalçıları tərəfindən zəbt edilmiş, 4 noyabr 2020-ci il tarixdə işğaldan azad olunmuşdur. ***Cəbrayıllı*** elinə daxil olan obalardan biri də ***Mirəkli*** obasıdır. Oba ***Mirək*** şəxs adından yaranmışdır. XVIII əsrə aid mənbəyə görə, ***Mirəkli obası*** Kavdar torpaqlarında məskunlaşmışdır. 1842-ci ildə ***Mirəkli*** obasının əhalisi dövlət tərəfindən siyahıya alınmışdır. Yerli əhali arasında kəndin adı ***Miray*** şəklində tələffüz olunur.

Mollahəsənli – Sirik inzibati ərazi vahidində kənd. Əhalisinin sayı 70 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmiş, 9 noyabr 2020-ci il tarixdə işğaldan azad olunmuşdur. Yerli məlumata görə, ***Mollahəsənli*** yaşayış məntəqəsini ***Molla Həsən*** adlı şəxs və ona mənsub olan ailələr burada saldıqları üçün kənd belə adlandırılmışdır. Oykonim "*Mollahəsənə məxsus olan, mollahəsəngillər*" mənasındadır.

Niftalılar – rayon mərkəzindən 31 kilometr məsafədə, Qarabağ silsiləsinin ətəyində yerləşən kənd. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal olunmuş, 9 noyabr 2020-ci il tarixdə işğaldan azad edilmişdir. ***Niftalılar*** oykonimi ***Niftalı*** şəxs adı ilə bağlıdır. Toponim "*Niftalının nəslindən olanlar*" mənasındadır.

Niyazqulular – Şahvəlili inzibati ərazi vahidində, düzənlik ərazidə yerləşən kənd. Əhalisinin sayı 600 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə erməni işğalçı qüvvələri tərəfindən zəbt olunmuş, 19 oktyabr 2020-ci il tarixdə işğaldan azad edilmişdir. Yerli məlumata görə, ***Niyazqulular*** yaşayış məntəqəsini rayonun Quycaq kəndindən köçüb gəlmiş ***Niyazqulu*** adlı şəxs saldığına görə kənd də belə adlandırılmışdır. ***Niyazqulular*** toponimi "*Niyazqulunun nəslindən olanlar*", "*niyazqulugillər*" mənasındadır. ***Niyazqulular*** əslən ***minbaşılı*** nəslinin bir qolu, bir tirəsidir. Əvvəllər Araz çayının sahilində ***İlxac*** adlı sahədə yerləşən kənd sonralar ***Səlim bəy yurdu*** adlanan sahəyə köçürülmüşdür.

Nüsnüs – Xələfli inzibati ərazi vahidində, dağətəyi ərazidə yerləşən kənd. Bəzi sənədlərdə kəndin adı ***Nüsüs*** kimi də qeyd olunur. Əhalisi 350 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə erməni işğalçı qüvvələri tərəfindən zəbt olunmuş, 23 oktyabr 2020-ci il tarixdə işğaldan azad edilmişdir. Bəzi tədqiqatçıların fıkrincə, bu oykonimin adı ***Nousus*** şəklində olmalıdır. ***Nüsnüs*** toponimi "*yeni Sus kəndi*" mənasındadır. ***Nüsnüs*** toponimi ilə bağlı başqa fikirdə olan tədqiqatçılar da vardır...

Nüzgər – Quycaq inzibati ərazi vahidində, dağətəyi düzənlikdə yerləşən kənd. 27 sentyabr 2020-ci il tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir. Bəzi sənədlərdə adı ***Nüzyar***, ***Nüzgar*** kimi də qeyd edilmişdir. Əhalisi 900 nəfər idi. ***Nüzgər*** – tayfa adı ilə bağlı olan oykonimlərdəndir. Bəzi yerli sakinlər bu sözü "*qoçaq*", "*höcət*" izahları ilə mənalandırırlar. Bu yaşayış məntəqəsi Cəbrayılın qədim kəndlərindən biri hesab olunur.

Papı – Çərəkən kənd inzibati ərazi vahidində, Gəyan çölündə, düzənlik ərazidə yerləşən kənd. Əhalisinin sayı 350 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə erməni işğalçıları tərəfindən zəbt olunmuş, 21 oktyabr 2020-ci il tarixdə işğaldan azad edilmişdir. ***Papı*** kəndinin keçmiş adı ***Dursunlu*** olmuşdur. ***Papı*** toponimi vaxtilə İranın Luristan əyalətində yaşayan bir tayfasının ***papı*** qolunun adı ilə bağlıdır. Əslində indi heç həmin ***papılar*** ilə kəndin sakinləri arasında etnik əlaqə yoxdur. Yerli əhali keçmiş ***Qərər Dursun*** (*indiki* ***Qarar***) kəndindən köçmüş azərbaycanlı (*türk*) ailələrindən ibarətdir. Bəzi araşdırıcılar ***Papı*** oykonimini ***Babı*** sözü ilə də əlaqələndirirlər.

Sarıcalı – Sarıcalı inzibati ərazi vahidində, düzənlik ərazidə yerləşən kənd. Əhalisinin sayı ***1 000*** nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə erməni işğalçıları tərəfindən zəbt olunmuş, 5 oktyabr 2020-ci il tarixdə işğaldan azad edilmişdir. ***Sarıcalı*** yaşayış məntəqəsi ***cavanşir*** tayfasının, ***bəhmənlilər*** tirəsinin ***sarıcalı*** (əslində ***sarıcaəlili***) qolunun burada məskunlaşması ilə əlaqədar olaraq belə adlanmışdır. Azərbaycan tayfasından olan ***sarıcalılar*** qədimdə ***bəhmənli*** elinə mənsub olmuşlar. ***Sarıca*** – türk mənşəli qədim tayfalardan biridir. Orta əsrlərdə onlar *cavanşir* tayfasına qarışmışlar. Bir çox araşdırıcılar ***Sarıcalı*** oykonimini *kəngərli* tayfasının ***sarıcallı*** tirəsinin adı ilə bağlayırlar. Bəzi tədqiqatçılara görə ***Sarıcalı*** coğrafi adının ilkin forması ***Sarıhacılı*** olmuşdur.

Sədi – Minbaşılı inzibati ərazi vahidində, Arazboyu düzənlikdə, Gəyən çölündə yerləşən kənd. Əhalisinin sayı 250 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmiş, 2020-ci ilin payızında işğaldan azad olunmuşdur. Bu yaşayış məntəqəsi əslində ***Sədili*** adlanır. ***Sədi*** oykonimi sadə quruluşlu antroponimdir. Yerli məlumata görə, kəndi ***Sədi*** adlı şəxs saldığı üçün yaşayış məntəqəsi də onun şərəfinə belə adlandırılmışdır. Əslində yaşayış məntəqəsi azərbaycanlıların etnogenezində iştirak etmiş ***sədulu*** türk tayfasının adı ilə bağlıdır. Sədililərin *sofulu* tayfasına bağlılığı da vardır...

Səfərşa – Horovlu inzibati ərazi vahidində, düzənlik ərazidə yerləşən kənd. Əhalisinin sayı 60 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmiş, 20 oktyabr 2020-ci il tarixdə işğaldan azad olunmuşdur. ***Səfərşa*** (sənədlərdə kəndin adını bəzən səhvən ***Safarşa*** kimi də yazırlar) yaşayış məntəqəsini Cənubi Azərbaycandan gəlmiş və özünü şah nəvəsi kimi təqdim edən ***Səfərşalı*** adlı şəxs saldığına görə kənd də onun adı ilə əlaqədar olaraq belə adlanmışdır. Oykonimin adı öz müstəqim mənasından uzaqlaşaraq kiçicik təhrifə uğramış və ***Səfərşa*** (***Safarşa***) adını almışdır. Çox güman ki, oykonim ***səfəruşağı*** etnoniminin qısaldılmış formasıdır.

Sirik – Sirik inzibati ərazi vahidində, Qarabağ silsiləsinin ətəyində yerləşən kənd. Əhalisinin sayı 450 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmiş, 22 oktyabr 2020-ci il tarixdə işğaldan azad olunmuşdur. ***Sirik*** toponiminin ***Sırak*** (***Şirak***, ***Çırak***) tayfasının adi ilə bağlılığı ehtimal olunur. ***Sirakların*** Orta Asiyadan, Volqadan Qafqaza qədər ərazidə nəhəng imperiyası olub. 1917-ci ilə aid olan sənəddə kəndin adı ***Sirikli*** kimi göstərilmişdir. ***Sirik*** toponimini türkdilli ***saqlar*** (***saklar***) ilə də bağlayanlar var. Bəziləri isə ***sirik*** sözünü "*könüllü əsgər*" anlamında izah etməyə çalışır. Bir qrup tədqiqatçılar toponimi "*sirli yer*" kimi mənalandırır.

Sofulu – Dağ Tumas inzibati ərazi vahidində, Qarabağ silsiləsinin ətəyində yerləşən kənd, Kəndin 220 nəfər əhalisi var idi. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmiş, 26 oktyabr 2020-ci il tarixdə işğaldan azad olunmuşdur. ***Sofulu*** yaşayış məntəqəsinin adı azərbaycanlıların etnogenezində iştirak etmiş kəngərlilərin ***sofulu*** tayfasının adı ilə bağlıdır. ***Sufi*** təriqəti bu sözlə əlaqədardır. ***Sofulular*** *sufi* təriqətinin nümayəndələri hesab olunurlar.

Soltanlı – Soltanlı inzibati ərazi vahidində, Arazboyu düzənlikdə yerləşən kənd. Əhalisi 2600 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmiş, 19 oktyabr 2020-ci il tarixdə işğaldan azad olunmuşdur. ***Soltanlı*** patrooykonimdir. ***Soltanlı kəndi*** (*yaşayış məntəqəsinin adı tarixən* ***Sultanlıq*** *şəklində olub*) türk-oğuz tayfalarından olan və orta əsrlərdə Azərbaycana gələn *Bəydililərə* məxsus olan torpaqlarda, ərazilərdə salınmışdır. Kənd Cəbrayılın qədim yaşayış məskənlərindəndir. ***Soltanlı*** kəndinin adı *şahsevən* tayfasının ***soltanlı*** tirəsinin adı ilə əlaqədardır. Xalq arasında kənd bəzən ***Böyük Soltanlı*** da adlanır. Soltanlının ***Soltanbud*** tayfalarının qalığı olması haqqında da müəyyən fıkirlər var.

Söyüdlü – Qazanzəmi inzibati ərazi vahidində kənd. Əhalisinin sayı 60 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmiş, 9 noyabr 2020-ci il tarixdə işğaldan azad olunmuşdur. Oykonim salındığı ərazidə ***söyüd*** ağaclarının olmasına görə və yaxınlıqdakı ***Söyüdlü dərə*** oroqrafik obyektinin adı ilə əlaqədar olaraq belə adlanmışdır. ***Söyüdlü*** etnooykonimdir.

Stansiya Xələfli – Araz çayının sol sahilində, İran İslam Respublikası ilə sərhəddə, Diri dağın ətəyində yerləşən yaşayış məntəqəsi. Bu yaşayış məntəqəsinin adını bəzən sənədlərdə ***Xələfli qəsəbəsi*** və ya ***Stansı Xələfli*** kimi də yazırlar. Diri dağın ətəyində yerləşdiyi üçün el arasında bu kəndə bəzən ***Diridağ kəndi*** və ya ***Diri dağı kəndi*** də deyirlər. ***Stansiya Xələfli*** yaşayış məntəqəsi 1993-cü ildə erməni hərbi qüvvələri tərəfindən işğal edilmiş, 2020-ci ilin payızında işğaldan azad olunmuşdur. Yerli məlumata görə, bu yaşayış məntəqəsinin əsası ***Xələfli*** kəndindən gəlmiş nəsillər tərəfindən qoyulduğu üçün belə adlandırılmışdır.

Stansiya Xudafərin qəsəbəsi – Cəbrayıl rayonunda qeydə alınmış oykonimlərdən biri də ***Stansiya Xudafərin qəsəbəsi*** adlanır. Bu yaşayış məntəqəsinə sonralar ***qəsəbə*** statusu verilmişdir. Ərazisindən dəmir yolu keçdiyi üçün oykonimə ***Stansiya*** sözü də əlavə edilmişdir. Yaşayış məntəqəsinin adındakı ***Xudafərin*** sözü öz adını yaxınlıqda yerləşən *Xudafərin* körpüsünün adından götürmüşdür. Oykonimi bəzən ərazidə yerləşən *Xudayarlı* kəndinin adı ilə əlaqədar olaraq ***Xudayarlı*** formasında da qeyd edirlər.

Stansiya Qumlaq – *Bax:* **Qumlaq qəsəbəsi.**

Stansiya Mahmudlu – Şükürbəyli inzibati ərazi vahidində, Araz çayının sol sahilində, yerləşən yaşayış məntəqəsi. Bu yaşayış məntəqəsinin adına bəzən sənədlərdə ***Stansı Mahmudlu*** kimi də rast gəlinir. Kəndin əhalisinin sayı 900 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmiş, 2020-ci ilin payızında işğaldan azad olunuşdur. XVIII – XIX əsrlərdə

mahmudlular Cəbrayıl elinin ***18*** oymağından biri kimi keçmişdə Əyri adlanan ərazidə yaşamışlar. Qədim türk tayfası olan ***Mahmudlular*** Azərbaycana müxtəlif vaxtlarda gəlmişlər. ***Mahmudlu*** yaşayış məntəqəsi ***mahmudlu*** türk taylasının burada məskunlaşması nəticəsində yaranmışdır. Bu tayfa qışı Qarabağda, yayı Zəngəzurda keçirərdi. XVI – XVII əsrlərdə Türkiyə ərazisində Van gölündən şərqdə yaşamış, sonralar ermənilərlə münasibət zəminində bir hissəsi Zaqafqaziyaya gəlmiş ***mahmudlu*** tayfası Azərbaycanın bir sıra inzibati rayonlarında yaşayış məskənləri salmışlar.

Süleymanlı – Süleymanlı inzibati ərazi vahidində, Qarabağ dağ silsiləsinin ətəyində yerləşən kənd. Əhalisinin sayı 650 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal olunmuş, 9 oktyabr 2020-ci il tarixdə işğaldan azad edilmişdir. ***Süleymanlı kəndi*** şəxs adı ilə bağlı olan oykonimdir. Qədim tarixə malik ***Süleymanlı*** yaşayış məntəqəsini vaxtilə Cənubi Azərbaycandan gəlmiş ***Süleyman*** adlı bir şəxs saldığına görə kənd də onun şərəfinə belə adlanmışdır. Oykonim ***Süleyman*** antroponimindən və mənsubluq ifadə edən ***-lı*** şəkilçisindən ibarətdir.

Şahvələdli – Cəbrayıl şəhər inzibati ərazi vahidində, Qarabağ silsiləsinin ətəyində kənd. Əhalisinin sayı 85 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmiş, 28 oktyabr 2020-ci il tarixdə işğaldan azad olunmuşdur. ***Şahvələdli*** oykonimi ***Şahvələd*** şəxs adından və mənsubluq ifadə edən ***-li*** şəkilçisindən ibarətdir.

Şahvəlili – Şahvəlili inzibati ərazi vahidində, düzənlik ərazidə yerləşən kənd. Bəzən adını ***Şahvəlli*** kimi də yazırlar. Əhalisinin sayı 500 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə erməni işğalçı qüvvələri tərəfindən zəbt olunmuş, 19 oktyabr 2020-ci il tarixdə işğaldan azad edilmişdir. ***Şahvəlili kəndi*** əvvəllər Çaxmaqçaydakı ***Çay yatağı*** deyilən yerdə olub. Sonra camaat köçüb indiki yerə gəliblər.

Şəybəy – Quycaq inzibati ərazi vahidində, düzənlik ərazidə yerləşən kənd. Kəndin əhalisinin sayı 350 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə erməni işğalçı qüvvələri tərəfindən zəbt edilmiş, 3 oktyabr 2020-ci il tarixdə işğaldan azad olunmuşdur. ***Şəybəy*** (bəzi sənədlərdə adı ***Şəybəq, Şeybəy*** kimi də qeyd olunmuşdur) yaşayış məntəqəsinin keçmiş adı ***Şəfibəyli*** olub. XVIII əsrin ikinci yarısına aid olan tarixi sənədlərdə ***Şəybəy kəndi*** Xırdapara Dizaq mahalının tərkibində olmuşdur.

Şıxalıağalı – Şükürbəyli inzibati ərazi vahidində, düzənlik ərazidə yerləşən kənd. Əhalisinin sayı *1000* nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmiş, 5 oktyabr 2020-ci il tarixdə işğaldan azad olunmuşdur. ***Şıxalıağalı*** yaşayış məntəqəsini ***Şıxalı ağa (Şıxəli ağa)*** adlı şəxs saldığı üçün kənd belə adlandırılmışdır. ***Şıxalıağalı*** yaşayış məntəqəsi XIX əsrin əvvəllərində Qarabağ xanı Mehdiqulu xanın Zəngəzurdan və ona qonşu olan ərazilərdən (*əsasən, indiki Zəngilan rayonu ərazisindəki Ağalı kəndindən*) köçürdüyü ailələrin burada məskunlaşması nəticəsində yaranmışdır. ***Şıxalı ağa*** adlı şəxs bu ailələrin başçısı olmuşdur.

Şıxlar – Sirik inzibati ərazi vahidində, dağətəyi ərazidə yerləşən kənd. Əhalisinin sayı 240 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmiş, 22 oktyabr 2020-ci il tarixdə işğaldan azad olunmuşdur. ***Şıxlar*** oykoniminin əsli ***Şeyxlər*** olmuşdur. ***Şıxlar*** adını daşıyan kəndlərdə vaxtilə şeyxlərə məxsus xanəgah, pir, türbə, müxtəlif tikililər, qəbirlər, sərdabələr mövcud idi. Bu tipli coğrafi adlar "*şeyxlərə məxsus*", "*şeyxlər yaşayan yer*", "*şeyxlərin nəsli*", "*şeyxlərin dəfn olunduğu yer*" anlamlarına uyğun gəlir.

Şükürbəyli – Şükürbəylı inzibati ərazi vahidində, Araz çayının sahili yaxınlığında, Ziyarət dağının ətəklərində yerləşən kənd. Əhalisinin sayı 850 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal olunmuş, 4 oktyabr 2020-ci il tarixdə işğaldan azad edilmişdir. Kəndin keçmiş adı ***Əyrili*** olmuşdur. Kənd əvvəllər ***Əyrili*** adlı yerdə salınmış, sonralar yerini dəyişmişdir. Oykonim sonralar yeni ərazidə kəndin əsasını qoymuş ***Şükür bəyin*** adını daşımışdır. Doğrudan da bəzi tarixi sənədlərdə göstərilir ki, ***Şükürbəyli*** yaşayış məntəqəsini ***Şükür bəy*** adlı şəxs salmışdır. Tarixi mənbələrdən məlum olur ki, ***Şükür bəy Hümbətalı bəy oğlu*** XIX əsrin birinci yarısında yaşamışdır. ***Şükürbəyli*** oykonimi "*Şükürbəyin nəsli yaşayan kənd, şükürbəylilər*" mənasını bildirir.

Tatar – Xələfli inzibati ərazi vahidində kənd. Əhalisinin sayı 310 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmiş, 2020-ci ildə işğaldan azad olunmuşdur. ***Tatar*** yaşayış məntəqəsi ***Əhmədli*** elinə məxsus olmuşdur. ***Əhmədli*** obasına ***tatarlar*** ilə birgə *gödəklilər, şahvəlilər, hacıisaqlılar, hacıismayıllılar, isaqlılar, şıxlar* və digər tirələr də daxil idi. ***Tatar*** kəndinin adı ***tatar-monqol*** mənşəli sözdən ibarətdir. ***Tatar*** oykonimi özündə türk tayfalarından olan ***tatarların*** adını əks etdirir.

Tinli – Şahvəlili inzibati ərazi vahidində, düzənlik ərazidə yerləşir. Əhalisinin sayı 450 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmiş, 21 oktyabr 2020-ci il tarixdə işğaldan azad olunmuşdur. Yerli məlumata görə, toponim Qovşudlu kəndi ilə həmsərhəd olan dağın ***tini*** ilə əlaqədar belə ad almışdır. Bəzi tədqiqatçılar hesab edir ki, ***Tinli*** yaşayış məntəqəsi XIX əsrin axırlarında Cənubi Azərbaycanın ***Tin*** kəndindən köçüb gəlmiş ailələr tərəfindən salındığı üçün belə adlanmışdır. Tarixdən ***Tinli*** (***tin***) adlı türk tayfası və tirəsi olması da məlumdur. Güman ki, toponim elə bu tayfanın adındandır.

Tulus – Hacılı inzibati ərazi vahidində, Arazboyu düzənlikdə yerləşir. Əhalisinin sayı 320 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmiş, 21 oktyabr 2020-ci il tarixdə işğaldan azad olunmuşdur. ***Tulus*** oykonimi çox güman ki, qədim türkdilli ***tolos//teles*** tayfasının adı ilə bağlıdır. Miladdan öncə III əsrdə Orta Asiyada, Ordosdan qərbdə yaşamış ***teles (tölös, tolos, tolis)*** adlı tayfanın varisləri hesab olunan ***tulusların*** adı "*Orxon-Yenisey*" yazılıı abidələrində ***tolis//talas*** kimi qeyd olunmuşdur. VII əsrdə – 626-cı ildə ***tuluslar*** Qərbi Türk Xaqanlığına daxil olmuşlar, 938-ci ildə onlar Cunqariyaya köçərək Qərbi Monqolustana – *Sələng* çayının hövzələrinə gəlmişlər. Hazırda bu söz qaraqalpaqlarda və tatarlarda ***tolos*** şəklində işlədilir. ***Tulus kəndi*** həmin ***tolos*** tayfasına mənsub olan ailələrin burada məskunlaşması nəticəsində yaranmışdır.

Yanarxac – Soltanlı kənd inzibati ərazi vahidində, düzənlik ərazidə yerləşən kənd. Əhalisinin sayı 150 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmiş, 7 noyabr 2020-ci il tarixdə işğaldan azad olunmuşdur. ***Yanarxac*** oykonimi heyvandarlıqla, qoyunçuluqla əlaqədar olaraq meydana gəlmişdir. Toponimin tərkibindəki ***arxac*** sözü "*otlaq şəraitində adətən gecələr, hava isti olduqda isə gündüzlər qaramal və qoyunların dincəlməsi üçün yer*", "*qoyunların yatan yeri*", "*yayda qoyunları saxlamaq üçün çəpər çəkilmiş yer*" mənasındadır. ***Yanarxac*** toponimi ***yan*** və ***arxac*** komponentlərindən ibarət olub, "*yan tərəfdəki yataq, arxac*" mənasındadır. Kənd ***arxac*** *yanında* yerləşdiyi üçün belə adlanmışdır.

Yarəhmədli – Cəbrayıl şəhər inzibati ərazi vahidində yerləşən kənd. Əhalisinin sayı 250 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmiş, 20 oktyabr 2020-ci il tarixdə işğaldan azad olunmuşdur. Yerli məlumata görə, ***Yarəhmədli*** yaşayış məntəqəsini Azərbaycanın ***Əfşar*** tayfasına məxsus və təxminən XVI əsrdə yaşayan ***Cəbrayıl*** (o, dövrünün nüfuzlu şəxslərindən biri olmuşdur) adlı şəxsin oğlanlarından biri olan – ***Yarəhməd*** adında şəxs saldığına görə kənd belə adlanmışdır.

Yuxarı Maralyan – Karxulu kənd inzibati ərazi vahidində, düzənlik ərazidə kənd. Əhalisi 250 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən zəbt edilmiş, 4 oktyabr 2020-ci il tarixdə işğaldan azad olunmuşdur. ***Maralyan*** kəndinin yaranması bəzi tədqiqatçıların fikrincə, Cənubi Azərbaycanın ***Maraluy*** kəndindən çıxmış ailələrin XIX əsrdə (*əsrin əvvəllərində*) şimala köçərək burada məskunlaşması ilə əlaqədardır. Əslində kəndin adı ***Yuxarı Maraylan*** olmalıdır. Toponim "*yuxarıdakı isti, ilanlı yer məskəni*" mənasında işlənir. Toponimin adındakı ***Yuxarı*** sözü onu digər yaşayış məntəqəsindən fərqləndirmək üçündür.

Yuxarı Mərcanlı – Böyük Mərcanlı inzibati ərazi vahidində, düzənlik ərazidə yerləşən kənd. Əhalisinin sayı ***4 100*** nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə erməni işğalçıları tərəfindən işğal olunmuş, 2020-ci ilin payızında işğaldan azad edilmişdir. ***Mərcanlı nəsli*** Qarabağda yaşayan ***otuzikilər*** türk tayfa birliyinin bir qoludur. Tarixi sənədlərdən aydın olur ki, XIX əsrdə Qarabağ xanı İbrahimxəlil xanın oğlu Cəfərqulu xanın mülkü olmuş, indiki Bərdə rayonunun Ləmbəran kəndinin əhalisi ilə *Böyük Mərcanlı* yaşayış məntəqəsinin sakinlərinin qohumluğu var. ***Böyük Mərcanlı*** yaşayış məntəqəsindən köçən bir qrup ailə yaxınlıqda yerləşən yeni bir yaşayış məntəqəsinin – ***Yuxarı Mərcanlı*** kəndinin əsasını qoymuşdur. Həmin dövrdən də bu yaşayış məntəqəsi ***Yuxarı Mərcanlı kəndi*** adlanmağa başlamışdır. ***Yuxarı*** sözü ***kəndi*** eyniadlı digər yaşayış məntəqəsindən fərqləndirmək üçün oykonimə əlavə edilmişdir.

Yuxarı Məzrə – Cəbrayıl rayonunda, Qarabağ silsiləsinin ətəyində yerləşən kənd. Əhalisinin sayı 120 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmiş, 7 noyabr 2020-ci il tarixdə işğaldan azad olunmuşdur. Məlumdur ki, ***məzrə*** toponimi ərəb dilində "*əkin üçün yararlı yer*", "*şum yeri*", "*əkin yeri, tarla*", "*əkin yerləri əsasında yaradılan məntəqə, oba, kiçik yaşayış məntəqəsi*", "*düzən yerdə əkin*", "*düzən yerdə suvarıla bilən əkin yeri*" mənalarındadır. ***Məzrə*** sözü fars dilində də "*əkin yeri*" mənasını ifadə edir. XVIII və XIX əsrlərə aid tarixi mənbələrə görə, Cəbrayıl elinin ***18*** oymağından biri olan ***Məzrəli*** obası *Uzundərə* adlanan ərazi torpaqlarında məskunlaşmışdır.

Yuxarı Nüsnüs – Xələfli inzibati ərazi vahidində, dağətəyi ərazidə yerləşən kənd. Bəzi sənədlərdə kəndin adı ***Yuxarı Nüsüs*** kimi də qeyd olunur. Kəndin əhalisi 330 nəfər idi. Yaşayış məntəqəsi 1993-cü ildə erməni işğalçı qüvvələri tərəfindən zəbt olunmuş, 9 noyabr 2020-ci il tarixdə işğaldan azad edilmişdir. Bəzi tədqiqatçıların fıkrincə, ***Nüsnüs*** toponimi bir qədər təhrifə uğramışdır. Bu oykonim tayfa adı ilə əlaqədar yaranmış coğrafi adlardandır. Əslində bu oykonimin adı ***Yuxarı Nousus kəndi*** şəklində olmalıdır. ***Nüsnüs*** toponimi "*yeni Sus kəndi*" mənasındadır.

Şıx Baba türbəsi

Xudafərin körpüsü

Qız qalası

11 və 15 tağlı Xudafərin körpüləri

"Tumas ata" abidəsi



"Dostluq" bulağı.
İşğaldan əvvəl və sonra

KƏLBƏCƏR RAYONU

(RAYON HAQQINDA ÜMUMİ MƏLUMAT)

Kəlbəcər rayonu – 8 avqust 1930-cu il tarixdə təşkil edilmişdir. O, qərbdə Ermənistan respublikası, şimalda Daşkəsən, Göygöl, Goranboy, şimal-şərqdə Tərtər, şərqdə Ağdam, Xocalı, cənubda Laçın rayonları ilə həmsərhəddir. Kəlbəcər rayonunun sahəsi 3054 kvadrat kilometrdir (keçmiş Ağdərə rayonundan ona verilən ərazi ilə biriıkdə). Kəlbəcər rayonunda 145 kənd, 1 şəhər və 1 şəhər tipli qəsəbə var. Rayonun əhalisinin sayı 69 000 nəfər idi. Mərkəzi ***Kəlbəcər*** şəhəridir. Dəniz səviyyəsindən 1600 metr yüksəklikdə yerləşən ***Kəlbəcər şəhərı*** rayonun mərkəzidir. Rayonun səthi dağlıqdır. Ən yüksək zirvələri Camış dağı (*3724 metr*) və Dəlidağdır (*3616 metr*). Ala göllər, Qaragöl, Zalxa gölü və s. gölləri var. Rayonda əsasən çimli dağ-çəmən və qonur dag-meşə torpaqları yayılmışdır. Meşələrin ümumi sahəsi 30 min hektara yaxındır. Geniş yay düzənliyi üzərində yerləşən Kəlbəcər şəhərini əhatə edən dağlar sanki öz ətəklərini şəhərin ayaqları altında yerə sərmişdir. Rayonda qonur ayı qayakeçisi, çöldonuzu, maral, ceyran, tülkü, canavar, çaqqal, ular, daşlıq dələsi, qartal, qırqovul, turac və s. var. Kəlbəcər rayonunun iri yaşayış məntəqələri Kəlbəcər şəhəri, Istisu qəsəbəsi, Başlıbel, Zəylik, Zar, Qılıçlı və Zülfuqarlı kəndləridir. Rayonda 11 mədəniyyət evi, 35 klub, 65 kitabxana, 20 kinoqurğu, 3 məktəbəqədər müəssisə, 8 ibtidai, 43 səkkizillik, 40 orta məktəb, 9 xəstəxana, 30 feldşer-mama məntəqəsi, şanitariya-epidemioloji stansiya, məişət xidməti kombinatı, yerli radio verilişləri redaksiyası və s. fəaliyyət göstərirdi. Rayon əhalisi başlıca olaraq heyvandarlıq və tütünçülüklə məşgul olurdu.

Kəlbəcər toponiminin mənşəyi və mənası ilə bağlı müxtəlif fikirlər vardır. Bəzi araşdırıcılara görə, ***Kəlbəcər*** sözü fars bdilində "*viranə şəhər*" anlamını ifadə edir. Bəzi araşdırıcılar oykonimi ***Kevlicer*** (qədim türk dillərində "*çay üstündə qala*" mənasında) sözü ilə əlaqələndirir. Yaşayış məntəqəsinin yerləşdiyi qayada Tərtər çayı boyunca cərgə ilə düzülmüş qədim süni mağaralar mövcuddur ki, bu səbəbdən də ***Kəlbəcər*** toponimini ***kevil*** (***kəvl***) və qədim türk dillərindəki ***cər*** ("*yarğan, qaya*") komponentləri ilə izahlandıranlar da var. Bəzi yerli əhali ***Kəlbəcər*** toponimini "*gəl becər*" kimi izah etməyə çalışır ki, əlbəttə, bu, yanlışdır. ***Kəlbəcər*** toponimi haqqında bu vaxtadək hələlik yekdil, dəqiq elmi fikir yoxdur...

Bu kitabda ***Kəlbəcər*** rayonunun etnoqrafiyası, coğrafiyası, toponimiyası ilə əlaqədar xeyli məlumatlar öz əksini tapmışdır. Məlumdur ki, hər bir toponimi insan yaradır. Toponim öyrənilərkən onun etimologiyası, tarixi kökü düzgün araşdırılmalı, yarandığı məkan və zaman mütləq, özü də dəqiq nəzərə alınmalıdır. Yaddaş xəzinəsi olan toponimlər daim müqəddəs tutulmalıdır. Ümumiyyətlə, toponimik adların dəqiq öyrənilməsinin böyük əhəmiyyəti vardır. Kitabda yüzlərlə ***Kəlbəcər*** toponimi haqqında dəyərli izah və məlumatlar verilmişdir.

2 aprel 1993-cü il tarixdə ***Kəlbəcər rayonu*** erməni separatizminin qurbanı olub, işğal edilmişdi. Kəlbəcərlə birlikdə rayon tarix-diyarşünaslıq muzeyinin 25 000 qiymətli eksponatı da əsir düşmüşdü. ***15 noyabr 2020-ci il*** tarixdə ***Kəlbəcər rayonu*** erməni işğalçı qüvvələrindən azad edilmişdir.

RAYONUN YAŞAYIŞ MƏNTƏQƏLƏRİ

Abdullauşağı – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 47 km cənub-şərqdə, Mozçayın sahilində, dağətəyi ərazidə yerləşən kənd. ***Abdullauşağı*** kəndinin keçmiş adı ***Şahsevənli*** olub. Yerli məlumata görə, XIX əsrin axırlarında indiki Ağcabədinin ***Şahsevən*** kəndindən gələn ***Abdulla*** adlı bir şəxsin nəslindən olan ailələr əvvəl ***Çobangərəkməz*** kəndinin yaxınlığına (*bu yerlər* ***Abdulla yurdu*** *adlanırdı*), sonra isə bu əraziyə köçərək binə salmışlar. Binə tədricən daimi yaşayış məntəqəsinə çevrilmişdir. XX əsrin əvvəllərinə aid bəzi sənədlərdə, ədəbiyyatlarda Cavanşir qəzasında *Böyük Abdullauşağı* və *Kiçik Abdullauşağı* adlı iki binə adı qeyd olunmuşdur.

Ağcakənd – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 50 kilometr məsafədə, Qarasu çayının sol sahilində, Qonqar silsiləsinin ətəyində, dağətəyi ərazidə yerləşən kənd. ***Ağcakənd*** yaşayış məntəqəsinin başqa bir adı ***Kamyanlı*** olmuşdur. ***Kamyanlı*** vaxtilə burada məskunlaşmış nəslin adıdır. XIX əsrin əvvəllərində Laçın rayonunun *Ağcakənd* kəndindən çıxmış bir qrup ailənin burada məskunlaşması nəticəsində kəndin adı da dəyişdirilərək ***Ağcakənd*** qoyulmuşdur.

Ağdaban – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzəindən 35 km şimal-qərbdə, Ağdaban çayının sağ sahilində, Ağdaban dağının yamacında, Murovdağ silsiləsinin cənub ətəyində yerləşən kənd. 8 aprel 1992-ci il tarixdə kənd ermənilər tərəfindən dağıdılaraq işğal edilmişdi. 15 noyabr 2020-ci il tarixdə kənd erməni işğalçılarından azad edilmişdir. XIX əsrdə kəndin indiki ərazisində ***Dəmirçidam*** kəndinin binəsi olmuşdur. 1905**-**ci ildə həmin kənddən *dəlikli, məmmədli, məhərrəmli, feyzalılar* adlı nəsillərə mənsub olan ailələr buraya köçüb daimi məskən salmışlar. Kənd də ***Agdaban*** dağının adı ilə əlaqədar olaraq belə adlandırılmışdır. Toponimin tərkibindəki ***ağ*** komponenti "*ağımtıl-bozumtul rəng*", "*kiçik*", "*alçaq*", "*çox da hündür olmayan*" və s. anlamları ifadə edir. Oykonimin tərkibindəki ***daban*** sözü türk dillərlində "*dağ keçidi*", "*aşırım*", "*dağ yüksəkliyi*", "*təpə*", "*dağ və ya qaya ayağının aşağı hissəsi*" mənalarını daşıyır. Toponim "*kiçik aşırım*", "*ağ rəngli aşırım*", "*ağımtıl dağ keçidi*" mənasındadır. ***Daban*** sözü geniş arealda yayılmışdır. Azərbaycanda (*Kəlbəcər, Şərur, keçmiş Ağdərə rayonları*) ***Ağdaban*** adlı dağlar mövcuddur. Kəlbəcər rayonu ərazisində ***Ağdaban çayı*** adlı hidronim də vardır.

Ağdaş – Rayon mərkəzindən 13 kilometr məsafədə, dağlıq ərazidə yerləşən kənd. Yerli məlumata görə, ***Ağdaş*** kəndini XIX əsrdə Laçın rayonunun *Alxaslı* kəndindən olan *Xıdır* adlı bir nəfər salmışdır. Kənd ***Ağdaş dağı*** adlanan yüksəkliyin döşündə salındığı üçün belə adlanmışdır.

Ağqaya – Mərcimək inzibati ərazi vahidində, rayon mərkəzindən 45 kilometr məsafədə, dağlıq ərazidə yerləşən kənd.

Ağyataq – Abdullauşağı kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 40 kilometr məsafədə, dağətəyi ərazidə yerləşən kənd. XIX əsrdə yaxınlıqdakı *Abdullauşağı* kəndının əhalisi onlara məxsus olan ***Ağyataq*** adlı kəndin yerində yeni kənd salmış və bura köçən ailələr kəndi ***Ağyataq*** binəsinin adı ilə adlandırmışlar. Oykonim adını eyniadlı civə yatağı olan dağdan almışdır. Kiçik Qafqazda, Kəlbəcər rayonu ərazisində, Kilsəli kəndindən azacıq aralıda, Ağyataq kəndinin yaxınlığında maksimal hündürlüyü 2389 metr olan ***Ağyataq dağı*** da vardır. ***Ağyataq*** toponimi ***ağ*** (*rəng*) və ***yataq*** (burada "*faydalı mineral çıxarılan yer*" mənasındadır) sözlərindən ibarətdir.

Alaqaya – Taxtabaşı kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 74 kilometr məsafədə, dağətəyi ərazidə yerləşən kənd.

Alçalı – Daşbulaq kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 8 kilometr məsafədə, dağətəyi ərazidə yerləşən kənd. ***Alçalı*** adlı kəndlər Kəlbəcər rayonunda Qılınclı və Günəşli inzibati ərazi vahidlərində də vardır.

Alçalı – Qılınclı kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 17 kilometr məsafədə, dağətəyi ərazidə yerləşən kənd.

Alçalı – Günəşli inzibati ərazi vahidində, rayon mərkəzindən 47 kilometr məsafədə, dağətəyi ərazidə yerləşən kənd.

Alırzalar – Başlıbel ərazi inzibati dairəsində, rayon mərkəzindən 45 kilometr məsafədə, Dəlidağın ətəyində, Qaraxan çayının sahilində yerləşən kənd. Yerli məlumata görə, ***Alırzalar*** yaşayış məntəqəsinin əsasını vaxtilə Laçın rayonunun keçmiş Muncuqlu kəndinin sakini ***Hacı Alırza*** (***Əlirza***) adlı şəxs qoyduğu üçün kənd də onun adı ilə adlanmışdır. ***Alırzalar*** oykonimi etnotoponimdir.

Allar – Yellicə kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 5 km cənub-qərbdə, Tərtər çayının qolu olan Alolar çayının sahilində, dağətəyi ərazidə yerləşən kənd. ***Allar*** toponimi etnooykonimdir. Bu etnooykonim bəzi sənəd və materiallarda ***Alar, Alılar*** kimi də qeyd olunur. Tarixdən məlumdur ki, ***alarlar*** XIII əsrdə, monqol yürüşlərində iştirak etmiş türk-monqol mənşəli ***oyrat*** tayfasının bir qolu olmuşdur. XIX əsrin ortalarında alarlar *canşalı* (*cahanşahlı*) tayfa birliyinə daxil idilər...

Allıkənd – Daşbulaq inzibati ərazi vahidində, rayon mərkəzəindən 5 km şimal-qərbdə, Sahdağ silsiləsinin ətəyində yerləşir. Bəzi sənədlərdə bu yaşayış məntəqəsinin adı ***Alıkənd*** kimi də yazılır. Kəndin keçmiş adı ***Alı*** olub. Yerli məlumata görə, ***Alıkənd*** yaşayış məntəqəsini XIX əsrdə kəlbəcərli ***Alı Kərbəlayı Avaz oğlu*** özünə məxsus olan binə yerində saldığına görə ***Alılıkənd*** (***Allıkənd***) adlanmışdır. XX əsrin əvvəllərinə aid sənədlərdə kəndin adı ***Alılı*** kimi də qeyd olunmuşdur.

Almalıq – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 30 km şərqdə, Laçın dağları ətəyində, Tutqunçayın sahilində, dağətəyi ərazidə yerləşirdi. XIX əsrin ortalarında ***Almalıq*** kəndinin ərazisi *sarallı* tayfasına mənsub səkkiz evdən ibarət elatın qışlaq yeri olmuşdur. Qışlaq cır ***alma*** ağacları olan ərazidə yerləşdiyi üçün ***Almalıq*** adlanmışdır. ***Almalıq*** (***Almalı***) yaşayış məntəqəsi 1930**–**1940**-**cı illərdə yaxınlıqdakı *Otaqlar, Gözlübulaq, Ortakənd, Çayqışlaq* kəndlərindən köçənlərin Tutqunçayın sahilində, ***Almalıq*** adlanan yerdə məskunlaşmaları nəticəsində yaranmışdır.

Alolar – Tərtər çayının qolu olan Alolar çayı sahilində, rayon mərkəzindən 6 km cənub-qərbdə, dağətəyi ərazidə yerləşən kənd. ***Alolar kəndi*** XIX əsrin ortalarında *Keşdək* kəndinə məxsus binə olmuşdur. Sonralar həmin kənddən ***alolar*** nəslinə mənsub olan ailələrin burada daimi məskunlaşması ilə bu yaşayış məntəqəsi yaranmışdır. ***Alolar*** oykonimi etnotoponimdir.

Armudlu – Yellicə kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 8 kilometr məsafədə, Tərtər çayının sol sahilində, dağətəyi ərazidə yerləşirdi.

Aşağı Ayrım – Boyaqlı kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 7 kilometr məsafədə yerləşən kənd. ***Aşağı Ayrım kəndi*** Kəlbəcər rayonu ərazisində, *Ayrım dərəsi* binəsinin yerində salınmışdır. Kənd ***Ayrım*** çayının ***aşağı*** hissəsində yerləşdiyi üçün belə adlandırılmışdır. ***Ayrım*** – azərbaycanlıların etnoqrafik qrupudur. Əsasən əkinçilik və maldarlıqla məşğul olan ***ayrımlar*** Azərbaycanın qərbində (*Gədəbəy, Kəlbəcər, Qazax, Daşkəsən, Göygöl, Tovuz* rayonları

ərazilərində) yaşayırlar. Onların məskunlaşdığı ərazi *Ayrım mahalı* adlanırdı. Bir məlumata görə, Əmir Teymur 1402-ci il Ankara vuruşmasından sonra Türkiyə ərazisindən köçürdüyü 50 min ailəni Gəncə, Qarabağ və indiki Ermənistanda yerləşdirmiş, onlar sonralar ***ayrım*** adı ilə tanınmışdır. Türk dillərində ***ayrım*** – "*bölük, hissə*" deməkdir. Gəncə xanı Cavad xanın general Knorrinqə yazdığı məktubda ***ayrımlar*** "*Gəncə xanlığının qədim elatı*" adlandırılır. XVII əsrdə *ayrımların* bir hissəsi İrana keçərək şahsevənlərə qarışmışlar. Digər bir hissəsi isə Azərbaycanın Kiçik Qafqaz zonasında və s. yerlərdə yaşamaqda davam etmişlər.

Aşağı Qaraçanlı – Qaraçanlı kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 9 kilometr məsafədə, Tərtər çayının qolu olan Uluxan çayının sahilində, dağətəyi ərazidə yerləşən kənd. Yerli məlumata görə, ***Aşağı Qaraçanlı*** yaşayış məntəqəsini XIX əsrdə Zəngəzur qəzasının Laçın rayonu ərazisindəkı ***Qaraçanlı*** kəndindən gəlmiş *Uluxan* və *Əhmədxan* adlı iki qardaş salmışdır.

Aşağı Xaç – Çaykənd inzibati ərazi vahidində, rayon mərkəzindən 11 kilometr məsafədə, Tərtər çayının sahilində, dağətəyi ərazidə yerləşən kənd. Yaşayış məntəqəsinin adını bəzən sənədlərdə ***Aşağıxaç*** formasında da yazırlar. ***Aşağı Xaç*** oykoniminin birinci komponenti olan ***aşağı*** sözü yaşayış məntəqəsinin tutduğu coğrafi mövqeyi ilə bağlıdır. Toponimin tərkibindəki ikinci komponent olan ***xaç*** termini isə abidələrin dilində "*xristianlığın rəmzi işarəsi*", "*kilsə bayrağı*", "*kilsə*" mənalarında işlənmişdir. Ərazidəki *Sınıqkilsə* yer adı bu sözün məhz "*kilsə*" anlamını qəbul etməyə əsas verir.

Aşağı Şurtan – Dəlidağın ətəyində, Tərtər çayının sahilində, rayon mərkəzindən 15 km cənubda, Yevlax-İstisu şose yolunun kənarında yerləşən kənd. Toponimin əsasını ***Şurtan*** komponenti təşkil edir. Bu yaşayış məntəqəsini kollektivləşmə illərində ***Yuxarı Şurtan*** kəndindən çıxmış ailələr salmışdır. Yaşayış məntəqəsi ərazidəki ***Şurtan*** çayının ***aşağı*** axarında yerləşdiyi üçün belə adlandırılmışdır.

Babaşlar – Təkəqaya kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 38 kilometr aralıda, Murovdağ silsiləsinin ətəyində, Ağçayın sahilində yerləşən kənd. Yaşayış məntəqəsinin əsl adı ***Babakişilər*** olub. ***Babaşlar*** toponimi iki komponentdən ibarətdir. ***Babaş*** şəxs adı, ***-lar*** isə cəm şəkilçisidir. Toponim "*Babaşgillər, Babaş nəslindən olanlar*" mənasını daşıyır. Ayrımlara məxsus ***Babaşlar*** nəslinin olması da məlumdur.

Bağırlı – Bağlıpəyə kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 27 km şimal-şərqdə, Bulanıqsu çayının sahilində, Murovdağ silsiləsinin cənub ətəyində yerləşən kənd. Kəndin tam adı ***Lələ Bağırlı*** şəklindədir. Kəndin adı keçmişdə qışı Ərəş qəzasında, yayı isə Kəlbəcər yaylaqlarında maldarlıqla məşğul olmuş ***Bağırlı*** adlı bir elatın adı ilə əlaqədardır.

Bağırsaq – Qamışlı kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 32 kilometr məsafədə, dağətəyi ərazidə yerləşən kənd. Kəndin yerləşdiyi ərazi əvvəllər yaxınlıqdakı Qamışlı kəndinin binəsi olmuşdur. Zaman keçdikcə, tədricən həmin kənddəki ağayarlı və qazıxanlı nəsillərinə mənsub olan ailələr bu ərazilərdə məskunlaşdıqdan sonra bu yerlər daimi yaşayış məntəqəsinə çevrilmişdir. Kənd yerləşdiyi ***Bağırsaq*** dərəsinin adı ilə əlaqədar olaraq belə adlandırlmışdır. Tərtər çayının qolu olan *Bağırsaq çayı* da Kəlbəcər rayonu ərazisində, *Bağırsaq dərəsi* adlanan ərazidən axdığı üçün belə ad almışdır.

Bağlıpəyə – Bağlıpəyə kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 25 kilometr məsafədə, Murovdağ silsiləsinin ətəyində, Tərtər çayının sahilində yerləşən kənd.

Barmaqbinə – Dalqılınclı kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 10 kilometr məsafədə, Dikyurd dağının ətəyində yerləşən kənd. Toponimin birinci hissəsi olan barmaq komponenti qədim türk dillərindəki ***parmak*** sözündən olub "*təpə, dağ tirəsi*" mənasındadır.

Baş Qaraçanlı – Qaracanlı inzibati ərazi vahidində, rayon mərkəzindən 13 kilometr məsafədə, Uluxan çayının sahilində yerləşən kənd. Yerli məlumatlara görə, XIX əsrdə Laçın rayonu ərazisindəki ***Qaraçanlı*** kəndindən gəlmiş Uluxan və Əhmədxan adlı iki qardaş Kəlbəcərdəki ***Aşağı Qaraçanlı*** kəndini salmışdır. Uluxanın əmisi oğlu *Balo* ləqəbli Bayram isə ***Baş Qaraçanlı*** kəndini salmışdır. Bəzən yerli sakinlər bu kəndi ***Balouşağı*** da adlanırlar.

Baş Şurtan – Şurtan kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 30 kilometr məsafədə, dağətəyi ərazidə yerləşən kənd. ***Şurtan*** oykonimini bəzən ***Şortan*** şəklində də qeyd edirlər. XX əsrə qədər indiki Kəlbəcər rayonunun ərazisində ***Şortan*** adlı kənd də mövcud olmuşdur. Bu söz Azərbaycan dilinin bəzi dialektlərində "*turşumuş qatıq*" anlamında işlədilir.

Başkənd – Hacıkənd inzibati ərazi vahidində, rayon mərkəzindən 13 kilometr məsasfədə, Murovdağ silsiləsinin ətəyində yerləşən kənd. ***Başkənd kəndi*** qonşuluqda yerləşən kəndlərə nisbətən ***baş*** hissədə, yuxarıda yerləşdiyi üçün belə adlandırılmışdır.

Başlıbel – Başlıbel kənd inzibati ərazi vahidində, rayon mərkəzəindən 60 km cənub-şərqdə, Tutqunçayın sol qolu olan Başlıbel çayının sahilində, Dəlidağın ətəyində yerləşirdi. ***Başlıbel*** yaşayış məntəqəsini XIX əsrdə Laçın rayonunun Seyidlər kəndindən gəlmiş *seyidabbaslı, alıxəlfəli, əsədlər, kərbəlayicəfərli, mirilər, seyidnəbilər* nəsilləri saldığına görə, kənd əvvəllər bir müddət ***Seyidlər,*** yaxud ***Başlıbel Seyidləri*** də adlanmışdır. 1917-ci ildə *Başlıbel* kəndi ***Seyidlər*** variantında qeydə alınmışdır.

Bazarkənd – Rayon mərkəzindən 40 kilometr məsafədə, Dovşanlı inzibati ərazi vahidində, Qarabağ silsiləsinin ətəyində, Xaçınçayın sahilində yerləşən kənd. Kəndin adını vaxtilə Şimali Qafqaz çöllərində yaşamış ***bazarlar*** (***basarlar***) qıpçaq tayfasının adı ilə əlaqələndirirlər. ***Bazarkənd*** oykonimi etnotoponimdir. XIX əsrdə İrandan köçüb gəlmiş ermənilər burada yerləşdikdən sonra kəndin adı dəyişdirilərək ***Tısmaqahoğ*** (erməni dilində "*meşə yeri*" deməkdir) kimi rəsmiləşdirilmişdir. 1992-ci ildə kəndin keçmiş adı olan ***Bazarkənd*** bərpa edilmişdir.

Bəzirxana – Zar inzibati ərazi vahidində, rayon mərkəzindən 25 kilometr cənub-qərbdə, Qarabağ yaylasının ətəyində yerləşən kənd. Adı bəzi sənədlərdə səhvən ***Vəzirxana*** şəklində də qeydə alınmışdır. ***Bəzir*** sözü Azərbaycan dilinin qərb qrupu dialektlərində "*kətan yağı, kətan toxumu*", "*bitki yağı istehsal edilən yer*" mənasında işlənir. ***Bəzirxana*** oykonimi "*kətan yağı və toxumu istehsal edilən yer*" anlamı ilə izah edilə bilər. 1917-ci ildə Cavanşir qəzasında ***Birinci Bəzirxana*** və ***İkinci Bəzirxana*** adlı iki kənd olmuşdur...

Birinci Milli – Milli kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 13 kilometr məsafədə, Qoçdaş dağının ətəyində, Tərtər çayının sahilində yerləşən kənd. Yerli məlumata görə, bu toponim ***Milli*** tayfasının adı ilə əlaqədardır. Tərəkəmə kökənli yörüklərin (Türkiyə) tərkibində də ***Milli*** tayfasının adı çəkilir. ***Birinci Milli*** yaşayış məntəqəsini ***İkinci Milli*** kəndindən ayrılıb gələn ailələr salmışlar.

Boyaqlı – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindəmn 3 kilometr məsafədə, Tərtər çayının sahilində, dağətəyi ərazidə yerləşən kənd.

Boyur – Daşbulaq inzibati ərazi vahidində, dağətəyi ərazidə, rayon mərkəzindən 8 km məsafədə yerləşən kənd.

Bozlu – Təkəqaya inzibati ərazi vahidində, rayon mərkəzindən 41 kilometr məsafədə, Murovdağ silsiləsinin yamacında yerləşən kənd. Bu yaşayış məntəqəsi XIX əsrin sonlarında Kəlbəcərin *Babaşlar* kəndindən çıxmış **bozlu** adlı nəslin ərazidə məskunlaşması nəticəsində yaranmışdır. ***Bozlu*** (***bozulu***) adlı kürddilli tayfa da vardır.

Böyürbinə – Daşbulaq inzibati ərazi vahidində, dağətəyi ərazidə, rayon mərkəzindən 8 km məsafədə yerləşən kənd. ***Böyürbinə*** yaşayış məntəqəsinin adı bəzən sənədlərdə ***Boyur*** və ya ***Boyurbinə*** kimi də yazılır. ***Boyurbinə*** (***boyur*** *sözü* ***bair*** (*"dağ döşü"*, *"dağ yamacı"*) *sözünün tələffüz formasıdır*) kəndinin əsl adı ***Böyürbinə*** şəklindədir.

Cəmilli – Seyidlər inzibati ərazi vahidində, rayon mərkəzindən 53 km şimalda, dağətəyi ərazidə yerləşən kənd. Yerli məlumata görə, ***Cəmilli*** yaşayış məntəqəsini Gədəbəy rayonunun *Ağcakənd* kəndindən köçüb gəlmiş ***cəmilli*** nəslinə mənsub ailələr salmışdır. Tarixi mənbələrə əsasən XVIII əsrin axırlarında Qazax mahalından Qarabağa və onun ətrafına *cəlairli* tayfaları da köçmüşlər.

Comərd – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzəindən 28 km şərqdə, Qonqur dağının ətəyində, Tutqunçayın sahilində yerləşən kənd. Kəndin əsl adı ***Comərdli*** formasında olmalıdır. Kəndin ərazisi XX əsrin əvvəllərinə qədər Ermənistanın Sisyan rayonundakı ***Comərdli*** kəndinin binəsi olmuşdur.

Çapar – Kəlbəcər rayonunda, Qarabağ silsiləsinin yamacında yerləşən kənd. ***Çapar*** yaşayış məntəqəsini 1887-ci ildə keçmiş Zəngəzur mahalının Qaraqışlaq, Zamzur, Tatev kəndlərindən çıxmış ailələr salmışdır. Kənd yaranmazdan əvvəl oradakı poçt məntəqəsinin adı ***Çapar*** olmuşdur. ***Çapar*** – keçmişdə poçtu aparan dövlət qulluqçusuna deyilirdi.

Çaykənd – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzəindən 7 km şimal-şərqdə, Tərtər çayının sahilində yerləşən kənd. Kəndin keçmiş adı ***Alxaslı*** olub. ***Çaykənd*** yaşayış məntəqəsi *Alxaslı* kəndindən köçüb gəlmiş ailələr tərəfindən onlara məxsus olan binə yerində salınmışdır.

Çayqovuşan – Ağdaban kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 33 kilometr məsafədə, Murovdağ silsiləsinin ətəyində yerləşən kənd. ***Çayqovuşan*** yaşayış məntəqəsini XX əsrin əvvəllərində *Dəmirçidam* kəndindən çıxmış ailələr ***Buzluq*** (*Qaraçay* da adlanır) və ***Qurdlusu*** çaylarının ***qovuşduğu*** sahədə salmışlar.

Çəpli – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 50 kilometr məsafədə, Lev çayının sahilində, dağlıq ərazidə yerləşən kənd. Bəzi tədqiqatçıların fikrincə, bu toponim oğuz tayfalarından *çəpnilərin/cəbnilərin* adı ilə bağlıdır. ***Çəpnilər*** – oğuz tayfalarındandır. Onlar əvvəllər Orta Asiyada yaşamış, səlcuqların tərkibində Azərbaycana gəlmişlər. Mənbələrdə adı ***cəbni, cəbən, çibni, çilli*** kimi də çəkilir. ***Çəpnilər*** 1220 – 1231-ci illərdə Cəlaləddinin yürüşlərində iştirak etmişlər. ***Cəpni*** tayfası Türkiyədəki *Çanik* (*Samsun*) mahalındandır. Onlar Oğuz xanın oğlu Gün xanın nəslindəndirlər...

Çərəkdar – Kəlbəcər rayonunda, eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 35 kilometr məsafədə, dağətəyi ərazidə yerləşən kənd. ***Çərəkdar*** yaşayış məntəqəsini *kolanı* tayfasına mənsub olan ailələr ***Çərəkdar*** adlanan ərazidə saldıqları üçün kənd belə adlandırılmışdır.

Çıldıran – Kəlbəcər rayonunda, dağətəyi ərazidə yerləşən kənd. ***Çıldıran*** yaşayış məntəqəsini 1828-ci ildə Türkiyənin ***Çıldıran*** adlı ərazisindən (*hazırda həmin ərazidə* ***Çıldıran*** *adlı kənd də var*) köçüb gəlmiş erməni ailələri salmışdır.

Çıraq – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 25 km cənubda, Tərtər çayının sahilində, Kəlbəcər-İstisu şose yolunun kənarında yerləşən kənd. Kəndin əsl adı ***Çıraqlı*** formasında olmalıdır. Bəzən adını ***Çıraq*** kimi də qeyd edirlər. Bu yaşayış məntəqəsini XIX əsrdə Laçının ***Çıraqlı*** kəndindən köçüb gəlmiş ailələr salmışdır. Azərbaycanda ***çıraqlı*** etnonimi ilə bağlı bir çox oronim qeydə alınmışdır. Orta əsrlərdə ***qızılbaş*** tayfalarından birinin adı da

çıraqlı olub. ***Çıraqlı*** etnoniminin mənşəyi elmi şəkildə hələlik dəqiq məlum deyildir. Strabonun "*Coğrafiya*" əsərində ***çirak/sirak*** adlı tayfanın adı çəkilir. Ehtimal ki, bu tayfa eradan əvvəl Şimali Qafqazda yaşamış ***sirak*** tayfası ilə eyni mənşəlidir. Eramızın I əsrindən sonra bu tayfanın bütün Qafqaz ərazisində yaşaması da mənbələrdə qeyd olunub. Bütün bunlardan belə bir nəticə çıxır ki, ***çıraq*** ilə bağlı bütün oroqrafik obyekt adları özündə ***çıraq*** (***sirak***) tayfasının adını əks etdirir.

Çobangərəhməz – Əsrik inzibati ərazi vahidində, rayon mərkəzindən 50 kilometr məsafədə, Qonqur dağının ətəyində, Tutqun çayının sahilində yerləşən kənd.

Çopurlu – Lev inzibati ərazi vahidində, rayon mərkəzindən 36 km şimalda, Lev çayı sahilində, Murovdağ silsiləsi ətəyində yerləşən kənd.

Çorman – Əsrik inzibati ərazi vahidində, rayon mərkəzindən 60 km cənub-şərqdə, Qonqur dağının ətəyində yerləşən kənd.

Çormanlı – Kəlbəcər rayonunda, Xaçın çayının sahilində, Qaradağ silsiləsinin ətəyində yerləşən kənd. XIX-XX əsrlərdə burada məskunlaşmış ermənilər (Dovşanlı və Vəng kəndləri) məskən saldıqdan sonra ***Çormanlı*** kəndini ***Qarnakar*** adlandırdılar. ***Qarnakar*** – *"oyuq, sərhəd nişangahı və daş"* mənasındadır. 1992-ci ildə kəndin *Çormanlı* adı bərpa edilmişdir.

Çovdar – Başlıbel kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 47 kilometr məsafədə, Çovdar çayının sahilində yerləşən kənd. ***Çovdar*** yaşayış məntəqəsi çovdar tayfasının adı ilə adlanmışdır. ***Çovdar/çondar*** (*çavuldar, çavundur, cüvəldər*) Səlcuq oğuz tayfalarındandır. XI – XII əsrlərdə çovdarların bir qismi oğuzların tərkibində Anadoluya və Azərbaycana gəlmişlər. XVIII əsrin əvvəllərində I Pyotrun Stavropola köçürdüyü türkmənlər arasında ***çovdarlar*** da vardı. Bəzi tədqiqatçılar toponimi vaxtilə burada taxıllar fəsiləsindən birillik və çoxillik bitki cinsi olan çovdarla əlaqələndirirlər. Oronimi ***çodar*** (*davar*) alverçisi sözü ilə bağlayanlar da var.

Dağ Qılıclı – Dikyurd yaylasının ətəyində yerləşən kənd.. ***Dağ qılıçlı*** toponiminin birinci hissəsindəki ***dağ*** sözü kəndin yerləşdiyi cografi mövqe ilə əlaqədardır. Toponim "*qılıçların dağda yerləşmiş kəndi*" mənasındadır.

Dalqılınclı – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 3 kilometr məsafədə, dağətəyi ərazidə yerləşən kənd.

Damğalı – Kəlbəcər rayonunda, dağətəyi ərazidə yerləşir. ***Damğalı*** toponimi çox ehtimal ki, XIII əsrdə monqol yürüşlərində iştirak etmiş, daha sonralar Azərbaycanda məskunlaşmış ***damğalı*** tayfasının adı ilə əlaqədardır.

Daşbulaq – **E**yniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 7 kilometr məsafədə, dağətəyi ərazidə yerləşən kənd.

Dəmirçidam – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 60 km şimalda, dağətəyi ərazidə yerləşən kənd. Məlumatlara görə, ***Dəmirçidam*** yaşayış məntəqəsini təxminən XIX əsrin əvvəllərində indiki Gədəbəy rayonunun Şınıx kəndindən gəlmiş ailələr keçmiş ***dəmirçi damı*** yaxınlığında (*dəmirçixananın yanında*) saldığı üçün kənd ***Dəmirçidam*** adlanmışdır. ***Dəmirçi*** adlı türkdilli tayfa da mövcuddur. XIII əsr tarixçisi Şəhabəddin Nəsevi dəmirçiləri Çingiz xanın nəsli ilə bağlayır. Onlar XVI əsrdə Türkiyənin Qars şəhəri ətrafında yaşamışlar. Mir Mehdi Xəzaninin fikrincə, ***dəmirçilər*** Azərbaycana – Qarabağ və ona yaxın ərazilərə Pənahəli xanın dövründə gəlmişlər. XVI əsrdə qızılbaş tayfaları sırasında adları çəkilən ***dəmirçilər*** sonralar *qazax* tayfa birliyinin ən qüdrətli tirələrindən birinə çevrilmişlər.

Dərəqışlaq – Dalqılınclı kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 7 kilometr məsafədə, dağlıq ərazidə yerləşən kənd. Kəndin yerləşdiyi ərazi keçmişdə *Dalqılınclı* kəndinin ***qışlağı*** olmuş ***dərə*** sahəsində yerləşdiyinə görə kənd ***Dərəqışlaq*** adlandırılmışdır. Kəndi XIX əsrdə *qılıclı* tirəsindən olan ***Hüseynalı*** adlı şəxs saldığına görə yerli əhali bəzən kəndi ***Hüseynalılar*** adlandırırlar.

Dəvədaşı – Kəlbəcər rayonunda, dağətəyi ərazidə yerləşən kənd.

Dovşanlı – Kəlbəcər rayonunda, Qarabağ silsiləsinin ətəyində, Xaçınçayının sahilində yerləşən kənd. XIX əsrdə burada yerləşmiş ermənilər kəndi ***Araçadzor*** kimi adlandıraraq sənədlər üzrə rəsmiləşdirmişlər. ***Araçadzor*** – "*ayı dərəsi*" mənasındadır. Oykonimin tərkibindəki ***dzor*** sözü ermənicə "*dərə*" deməkdir. Yalnız 1992-ci ildə kəndin keçmiş ***Dovşanlı*** adı bərpa edilib.

Elyaslılar – Çəpli kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 47 kilometr məsafədə, Murovdağ silsiləsinin ətəyində yerləşən kənd. Kəndın adını bəzən ***Elyasalı*** kimi də yazırlar. Yerli əhali kəndin adını ***Ellazalılar*** şəklində işlədir. XIX əsrdə ***Elyasallı*** (***Ellazalı***) adlı bir şəxs indiki Gədəbəy rayonunun Arıqdam kəndindən gələrək Güneydamı adlanan bu ərazidə kəndin bünövrəsini qoymuşdur. Kənd də sonralar onun adı ilə əlaqədar olaraq ***Elyaslılar*** adlanmışdır.

Əli Bayramlı – Kəlbəcər rayonunda, dağətəyi ərazidə yerləşən kənd. Kəndin keçmiş adı ***Mollabayramlı*** olub. Yerli məlumata görə, kəndi vaxtilə Laçın rayonunun Mirik kəndindən gəlmiş ***Molla Bayram Həsən oğlu*** saldığına görə belə adlandırılmışdır. Sonralar kənd inqilabçı *Əli Bayramovun* adı ilə əlaqədar olaraq ***Əli Bayramlı*** adlandırılmışdır.

Əsrik – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 50 km cənub-şərqdə, Tutqunçayın sağ sahilində, Qonqur dağının şərq ətəyində yerləşən kənd.

Fətalılar – Abdullauşağı kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 41 kilometr məsafədə, Mos çayının sahilində, dağətəyi ərazidə yerləşən kənd. Kəndin keçmiş adı ***Qaraçanlı*** olub. Yerli məlumata görə, *Fətalılar* kəndini Laçın rayonunun *Qaraçanlı* kəndindən köçüb gəlmiş ***Qara Fətalı*** adlı bir şəxs saldığına görə belə adlanmışdır.

Göydərə – İstibulaq inzibati ərazi vahidində, rayon mərkəzindən 16 km məsafədə, dağ ətəyi ərazidə yerləşən kənd.

Güneypəyə – Sarıdaş kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 28 km şimal-şərqdə yerləşən kənd.

Günəşli – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 40 kilometr məsafədə, dağətəyi ərazidə yerləşən kənd. Yaşayış məntəqəsi salındığı ərazinin adı ilə adlanmışdır. ***Günəşli*** coğrafi adı rəmzi bir addır. Bəzi araşdırıcılara görə, oykonim oğuz türkmənlərinin tərkib hissələrindən biri olan ***günəşli*** (***gündəşli***) oymağının adı ilə əlaqədardır.

Hacıdünyamalı – Zar inzibati ərazi vahidində, rayon mərkəzindən 18 kilometr məsafədə, dağətəyi ərazidə yerləşən kənd. ***Hacıdünyamalı*** toponimi haqqında müxtəlif fikir və mülahizələr mövcuddur. Tarixdən məlumdur ki, *xələc* tayfasının ***dünyamalı*** adlı nəsilləri olmuşdur...

Hacıkənd – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 11 kilometr məsafədə, dağətəyi ərazidə yerləşən kənd.

Hayad – Kəlbəcər rayonunda, dağlıq ərazidə yerləşən kənd. Yaşayış məntəqəsinin adı bəzi ədəbiyyatlarda ***Ayad*** formasında da qeyd olunur. Yerli məlumata görə, kəndin keçmiş adı ***Axmaxlı*** olub. Kəndin adının vaxtilə *Axmaxlı* olması *axmaxlı* nəslinin adı ilə bağlı olmuşdur. Kəndin adı sonralar ***Hayad*** adlanmışdrr. Bu adın mənası hələlik tam izahını tapmayıbdır.

Heyvalı – Qarabağ silsiləsində, Yevlax-İstisu şose yolunun kənarında yerləşən kənd. XIX əsrdə Cənubi Azərbaycandan gəlmiş erməni ailələri burada yerləşdikdən sonra kənd ***Drmbon*** (***Heyvalı*** toponimindən kalkadır) kimi rəsmiləşdi. Yalnız 1992-ci ildə kəndin keçmiş ***Heyvalı*** adı bərpa edildi.

Həsənlər – Yellicə kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 12 kilometr məsafədə, Şərqi Göyçə silsiləsinin ətəyində, Həsənlər çayının sahilində yerləşən kənd.

Həsənriz – Kəlbəcər rayonunda, Tərtər çayının sol sahilində yerləşən kənd. O, ***Aterk / Haterk qalası*** kimi məlum idi. Toponimin bəzi türkdillərindəki ***atrak*** ("*çayın mənsəbə töküldüyü yer*") sözündən fonetik forma olması ehtimal edilir. XIII əsrdən etibarən Xaçın knyazı ***Həsən Cəlalın*** adı ilə əlaqədar olaraq kənd ***Həsənriz*** adlandırılmışdır.

Hopurlu – Zəylik kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 23 kilometr məsafədə, Qarabağ yaylasında, dağətəyi ərazidə yerləşən kənd. ***Hopurlu*** toponimini kürd mənşəli *şeylanlı* tayfasının ***hopurlu*** tirəsinin adı ilə izah edirlər.

Xallanlı – Başlıbel kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 53 km cənub-şərqdə, Başlıbel çayının sahilində, Dəlidağın ətəyində yerləşən kənd.

Xöləzək – Qaracanlı kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 10 kilometr məsafədə, dağətəyi ərazidə yerləşən kənd. Yaşayış məntəqəsinin adına ***Xöləzəy Alxaslı*** da deyilir. ***Xöləzək*** komponenti rayon ərazisindəki Alxaslı adlı iki yaşayış məntəqəsini bir-birindən fərqləndirməyə xidmət edir. ***Xöləzəy*** (***Xoləzəy, Xolasay***) komponenti "*çayın qolu*" deməkdir.

İkinci Milli – Milli kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 11 kilometr məsafədə, Tərtər çayının sahilində, dağətəyi ərazidə yerləşən kənd. Bu yaşayış məntəqəsi XIX əsrin sonunda **Milli** kəndindən (*Üçüncü Milli kəndindən*) ayrılmış ailələrin burada məskunlaşması nəticəsində yaranmışdır.

İmambinəsi – Vaxtilə Kəlbəcər rayonunda, Qaracanlı kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 7 kilometr məsafədə, dağətəyi ərazidə yerləşən kənd. Yaşayış məntəqəsi 1961-ci ildə yerini dəyişmişdir...

İmarət Qərvənd – Kəlbəcər şəhərindən 41 kilometr şərqdə, Ağdərə şəhərindən 53 kilometr qərbdə, İmarət Qərvənd inzibati ərazi dairəsində, Murovdağ silsiləsinin cənub ətəyində, Ağdaban çayının sahilində yerləşən kənd. Bəzən adı ***İmarət-Qərvənd*** kimi də yazılır. ***İmarət Qərvənd*** kəndini Qarabağda yaşamış ***qərvənd*** tayfasına mənsub olan ailələr salmışdır. ***Kəbirli*** tayfasının bir qolunu təşkil edən bu tayfanın adı da ***qərvəndlərlə*** bağlıdır. Rus məxəzlərində kəndin adı ***Qerravend*** (***Qeravend***) şəklində yazılmışdır. Bir çox tədqiqatçılara görə isə, oykonim ***gərayvənd*** tayfasının adı ilə bağlıdır. Bu qisim tədqiqatçılar toponimin ***Gəray*** şəxs adı və ***vənd*** ("*nəsil, törəmə", "uşağı"*) sözlərindən ibarət olub "*Gərayın nəsli, törəməsi*" kimi mənalandırıldığını qeyd edirlər. ***İmarət-Qərvənd*** toponiminin əvvəlinə ***imarət*** sözü (vaxtilə burada olmuş "*tikili*", "*mülk*" mənası daşıyır) oykonimə onu eyni adlı digər kəndlərdən fərqləndirmək üçün artırılmışdır.

İstibulaq – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 14 kilometr məsafədə, Qarabağ yaylasında yerləşən kənd. ***İstibulaq*** yaşayış məntəqəsini Laçın rayonunun *Alxaslı* kəndindən köçüb gəlmiş ailələr *İstibulaq* adlanan hidronimin yaxınlığında saldığı üçün kənd belə adlandırılmışdır. Başqa bir məlumata görə, ***İstibulaq*** toponiminin ikin variantı ***Üstübulaq*** olmuşdur.

İstisu şəhər tipli qəsəbəsi – Kəlbəcər rayonunda, rayon mərkəzindən 25 kilometr məsafədə, Qarabağ yaylasında, Tərtər çayı vadisində, Tərtər çayının hər iki sahilində, 2100 – 2200 metr yüksəklikdə yerləşən yaşayış məntəqəsi. Bu yaşayış məntəqəsi 1960-cı ildə ***qəsəbə*** statusu alıb. ***İstisu*** toponimi *İstisu* mineral bulaqlarının adı ilə əlaqədardır. Mineral bulaqlar isə 1139-cu ildə güclü zəlzələ zamanı yerin çatlaması nəticəsində əmələ gəlmişdir.

Kaha – Yellicə kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 5 km cənub-qərbdə, Tərtərçayın sahilində, dağətəyi ərazidə yerləşən kənd. ***Kaha*** kəndinin yerində əvvəllər Keşdək kəndinin binəsi olmuşdur. Sonralar həmin kənddən ayrılmış ailələr burada daimi məskunlaşmışlar. ***Kaha*** – Azərbaycanın bəzi rayonlarında mağaraya verilən addır. Kəndin ərazisindəki qədim ***kaha*** ("***zağa***") indi də qalır.

Keçiliqaya – Zülfüqarlı kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 46 km şərqdə, dağlıq ərazidə yerləşən kənd. ***Keçiliqaya*** kəndinin keçmiş adı ***Qoşunəlilər*** olub. Kəndi qoşunəlilər nəslinə mənsub olan ailələr *Keçiliqaya* deyilən ərazidə saldığına sörə kənd belə adlandırılmışdır. ***Keçiliqaya*** toponimi vaxtilə bu *qayada* tez-tez çoxlu *dağ keçilərinə* rast gəlinməsi ilə əlaqədar olaraq belə adlanmışdır.

Keşdək – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 8 km cənub-qərbdə, Şərqi Göyçə silsiləsinin ətəyində, Tərtər çayının sahilində yerləşən kənd. ***Keşdək*** yaşayış məntəqəsini XIX əsrdə keçmiş Dərələyəz mahalından gəlmiş fərruxxanlı tayfasına və kərimlər tirəsinə mənsub olan ailələr salmışlar. Kənd salındığı *Keşdək* ərazisinin adı ilə adlanmışdır. Yerli əhali toponimi "*keçid*", "*keçid olan yer*" kimi izah edir. Bəzi tədqiqatçılara görə, kəndin adı ***keşlək*** sözünün təhrif olunmuş variantıdır. ***Keşdək*** toponimi türk dillərindəki ***köş/koş*** sözündən və məkan bildirən ***-lək*** şəkilçisindən ibarətdir. ***Köş –*** *"köç – elat düşərgəsi"* deməkdir. Görünür, toponimdəki "***l***" və "***d***" səs əvəzlənmələri bir çox türk sözlərində olduğu kimi, bu söz üçün də xarakterikdir. Toponim "*elat düşərgəsi olan yer*" və ya "*köç*" mənasındadır. ***Keşdək*** toponimini türk dillərində "*çox da böyük olmayan dik*", "*sıldırım eniş*", "*hündür yer*" mənasında işlədilən ***keşdək/keştək*** sözü ilə də əlaqələndirənlər var.

Kəlbəcər şəhəri – Bakıdan 450 km qərbdə yerləşən şəhər. ***Kəlbəcər*** şəhərinin 9000 nəfər (*2400 ailə*) əhalisi vardı. Kəlbəcər şəhərində Dövlət Kənd Təsərrüfatı İstehsal Texniki-Təminat Komitəsinin rayon şöbəsi, məişət xidməti kombinatı, sanitariya-epidemioloji stansiya, feldşer-mama məntəqəsi, 4 orta məktəb, musiqi məktəbi, 2 mədəniyyət evi, 2 kütləvi kitabxana, klub, kinoteatr, muzey, mərkəzi rayon xəstəxanası, poliklinika, doğum evi, 11 uşaq bağçası, 3 rabitə məntəqəsi, mətbəə redaksiyası, 3 idman və sağlamlıq mərkəzi, 2 hamam, 5 anbar, 3 çörəkbişirmə sexi, 2 tədarük məntəqələri və emal zavodu, iri ticarət obyektləri, bir sıra sənaye müəssisələri və s. vardı. Kəlbəcər şəhəri Tərtər çayı sahilində, sıldırım qayalıqlar üzərində, dəniz səviyyəsindən 1600 metr yüksəklikdə, Bakı şəhərindən 450 km qərbdə, Bərdə-Istisu avtomobil yolunun kənarında yerləşir. Məlumdur ki, hər bir toponimi insan yaradır. Toponim öyrənilərkən onun etimologiyası, tarixi kökü düzgün araşdırılmalı, yarandığı məkan və zaman mütləq, özü də dəqiq nəzərə alınmalıdır. Yaddaş xəzinəsi olan toponimlər müqəddəs tutulmalıdır. Ümumiyyətlə, toponimik adların dəqiq öyrənilməsinin böyük əhəmiyyəti vardır. ***Kəlbəcər*** toponiminin mənşəyi və mənası ilə bağlı müxtəlif fikirlər, mülahizələr, baxışlar vardır. Bəzi araşdırıcıların fikrincə ***Kəlbəcər*** sözü fars dilində "*viranə şəhər*" deməkdir. Toponimi elmi tərəfdən izah etmək istəyən bəzi tədqiqatçılar oykonimin ilkin formasını ***Kevlicer*** (***Kevliçer***) kimi qəbul edib, onu qədim türk dillərində "*çay üstündə qala*" kimi mənalandırırlar. Bir qisim tədqiqatçılar ***Kəlbəcər*** oykoniminin qədim türk dillərindəki ***kevli*** və ***car*** sözlərindən əmələ gəldiyini bildirirlər. Onlara görə, ***kevli*** komponenti "*çayın ağzı*", "*çayın üstü*", "*mağara*", ***çer/car/cər*** hissəciyi isə "*qala*", "*dərə*", "*yarğan*",

"*əks tərəf*" deməkdir. Bu mənada toponimi "*çay ağzının əks tərəfi*" anlamı kimi də yozmaq olar. Yaşayış məntəqəsinin yerləşdiyi qayada Tərtər çayı boyunca cərgə ilə düzülmüş qədim süni mağaralar mövcuddur. Buna görə də bəzi mütəxəssislər ***Kəlbəcər*** toponimini ***kevil/kəvl*** və qədim türk diliərində ***cər*** (*"qaya yarğan"*) komponentləri ilə əlaqələndirirlər. ***Kevil*** sözü fars dilində "*magara*" deməkdir (azərbaycanlılar bu sözü ***kühül*** şəklində işlədirlər). Belə variantda toponimi "*kühüllü yarğan*","*mağaralı yarğan*" kimi mənalandırmaq olar. Bəzi yerli əhali ***Kəlbəcər*** toponimini "*gəl, becər*" kimi izah etməyə çalışırlar. Ümumiyyətlə isə, hələlik bu günədək ***Kəlbəcər*** toponimi haqqında yekdil, dəqiq elmi fikir mövcud deyildir.

Kəndyeri – Çaykənd inzibati ərazi vahidində, rayon mərkəzindən 9 km şimal-şərqdə, Tərtərçayın sahilində yerləşən kənd.

Kilsə – Çaykənd inzibati ərazi vahidində, rayon mərkəzindən 13 kilometr məsafədə, dağətəyi ərazidə yerləşən kənd. Yerli məlumata görə, ***Kilsə*** yaşayış məntəqəsini XIX əsrdə indiki Laçın rayonunun *Alxaslı* kəndindən gəlmiş ***Qasım Məhərrəmoğlu*** saldığına görə kəndin adına bəzən ***Qasımlı*** da deyilir. Bu yaşayış məntəqəsi meşənin ortasında, köhnə kənd yerində, qədim alban kilsəsinin ətrafında salındıgı üçün beləcə ***Kilsə*** adlanmışdır. ***Kilsə*** sözü türkcə ***kilise, kinise***, farsca ***kenista*** "*toplanış yeri*", "*məktəb*", "*sinaqoq*" mənalarında işlənir.

Kilsəli – Rayon mərkəzindən 34 km şərqdə, dağətəyi ərazidə yerləşən kənd. Yerli məlumatlara görə, ***Kilsəli*** yaşayış məntəqəsini XIX əsrin əvvəllərində Dağıstanın ***Cardinsk*** rayonundan gələn bir qrup ləzgi ailələri saldıqları üçün kəndin adına bəzən ***Ləzgilər Kilsəsi*** də deyilir.

Kolatağ – Kəlbəcər rayonunda, Qarabağ silsiləsinin şimal-şərq yamacında yerləşən kənd. Kənd yaxınlığında Xaçın çayının sahilində orta əsrlərə aid yaşayış yeri və qəbiristanlıq var. Həmin yaşayış yerindən tapılmış kitabəyə görə, ***Kolatağ kəndi*** 1243-cü ildə salınmışdır. Kənd yaxınlığında, eyni adlı dağın üstündə orta əsrlərə aid məbəd xarabalığı tapılmışdır. Yaşayış məntəqəsinin əsl adı ***Kolətəkdir.*** Bir qisim tədqiqatçıların fikrincə, ***Kolatağ*** toponimi əslində ***Gülyataq*** olub, "*güllü, çiçəkli yataq*" mənasındadır.

Qalaboynu – Tirkəşəvənd inzibati ərazi vahidində, rayon mərkəzindən 53 kilometr məsafədə, Qalaboyun çayı sahilində, dağətəyi ərazidə yerləşən kənd. ***Qalaboynu*** toponimi bəzi rəsmi sənədlərdə, ədəbiyyatlarda səhv olaraq ***Qalaboyun*** kimi işlənir. ***Qalaboynu*** yaşayış məntəqəsi Şişqala və Dəyirman (qədim adı *Salsal)* adlı qalaların boynunda, yəni keçidində yerləşdiyinə görə belə adlanmışdır.

Qamışlı – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 30 kilometr məsafədə, dağətəyi ərazidə yerləşən kənd. Yerli məlumata görə, keçmişdə Karyagin qəzasının (indiki Füzuli rayonunun) ***Mərcanlı*** kəndindən (hazırda bu kənd Cəbrayıl rayonunundur) ***Qazıxan*** adlı bir şəxsin bu yerlərdə binəsi olmuşdur. Sonralar onun övladları həmin yerdə daimi məskən salmışlar. Kənddəki nəsillərdən biri indi də qazıxanlı adlanır. Kənd ***Qamışlı*** çayının adı ilə əlaqədar belə adlanmışdır. Kəlbəcər rayonunun ərazisindəki *Qamışlı çayı* Tərtər çayının qoludur.

Qanlıkənd – Dəmirçidam kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 70 kilometr məsafədə, dağətəyi ərazidə yerləşən kənd. ***Qanlıkənd*** toponimi türk mənşəli ***kanqlı*** tayfasının adından və ***kənd*** sözündən ibarətdir. ***Kanqlılar*** III əsrdən məlumdurlar. Bu tayfa qazaxların, qırğızlann və qaraqalpaqlann tərkibində də vardır. Orta Asiya kanqlıları VIII əsrədək Sırdərya hövzələrində yaşamış, sonra oğuzların təzyiqi ilə iki yerə parçalanmışdır. Onların bir hissəsi Aral dənizindən şimal-qərbə hərəkət etmiş, digər hissəsi isə 6 tayfa ilə birlikdə Səlcuq oğuzlarına qarışmışdır. Səlcuq işğallarında və monqolların Yaxın Şərqə yürüşlərində ***kanqlı*** tayfaları da yaxından iştirak etmişlər.

Qaraçanlı – Abdullauşağı kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 39 kilometr məsafədə, dağətəyi ərazidə, Mozçayın sahilində yerləşən kənd. Kənd *Alaqaya* yaxınlığında olduğuna görə, onun tam adı ***Qaraçanlı Alaqaya*** olmuşdur. Bu yaşayış məntəqəsi keçmişdə maldarlıqla məşğul olmuş ***qaraçanlı*** (*bəzən adı* ***qaracanlı*** *kimi də qeyd olunur*) elinin adındandır.

Qaragüney – Zülfüqarlı kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 44 kilometr məsafədə, dağətəyi ərazidə yerləşən kənd. Kəndin tam adı ***Qoşunəlilər Qaragüneyi*** kimi qeyd olunmalıdır. Bəzən kəndin adına ***Məmmədli*** də deyirlər. Bu yaşayış məntəqəsini ***Qoşunəli oğlu Məmməd*** adlı bir nəfər ***Qaragüney*** adlı ərazidə saldığı üçün kənd belə adlanmışdır.

Qaragüney – Comərd kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 33 kilometr məsafədə, dağətəyi ərazidə yerləşən kənd. Yaşayış məntəqəsinin keçmiş adı ***Comərd Qaragüneyi*** olmuşdur. Yerli əhalinin məlumatına görə, yaşayış məntəqəsini *Comərd* adlı şəxs ***Qaragüney*** adlanan ərazidə saldığı üçün kənd belə adlanmışdır.

Qaraxançallı – Tirkəşəvənd kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 53 kilometr məsafədə, dağətəyi ərazidə, Qaraxan çayının sahilində yerləşən kənd. ***Qaraxançallı*** yaşayış məntəqəsi Laçın rayonundakı Muncuqlu kəndi yaxınlığında, Muncuqluçay sahilində vaxtilə mövcud olmuş ***Qaraxançallı*** kəndindən gəlmiş ailələr tərəfindən salınmışdır.

Qasımbinəsi – Susuzluq kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 28 kilometr məsafədə, dağətəyi ərazidə yerləşən kənd. Yaşayış məntəqəsinin keçmiş adı ***Seyid Qasım binəsi*** olub. XIX əsrin ortalarında Füzuli rayonunun ***Qərvənd*** kəndindən gəlmiş ***Sevid Qasım*** adlı bir şəxs ailəsi və yaxın qohumları ilə birlikdə buraya köçərək ***binə*** salmış və onun əsasında da ***Qasımbinəsi kəndi*** yaranmışdır.

Qazıxanlı – Tirkəşəvənd kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 6 km cənub-şərqdə, dağətəyi ərazidə yerləşən kənd.

Qılınclı – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 12 km şimal-şərqdə, Tərtərçayın sahilində, Şərqi Göyçə silsiləsinin ətəyində yerləşən kənd. ***Qılıclı*** (***Qılıçlı***) yaşayış məntəqəsini XVIII əsrin sonu, XIX əsrin əvvəllərində Laçın rayonunun ***Qılıçlı*** kəndindən köçüb gəlmiş ailələr saldığına görə kənd belə adlanmışdır.

Qızılqaya – Rayon mərkəzindən 58 kilometr şərqdə, Ağdərə şəhərindən 44 kilometr cənub-qərbdə, Tərtər çayından 2 kilometr aralıda, dağətəyi ərazidə yerləşən kənd. ***Qızılqaya*** toponiminin mənası, suxurlarıının rənginin *qızılıya* (*qırmızıya*) çalması ilə əlaqədar olaraq "*qırmızı rəngli qaya*" deməkdir. ***Qızılqaya*** kəndini XX əsrin 30-cu illərində ***Qızılqaya*** adlı yerdə erməni ailələri məskunlaşdıqdan sonra ***Arutunaqomer***, ***Arutyunqomer*** (***Arutyun*** şəxs adından və ***qomer*** – "*tövlə, sığırxana*") adlandırmışlar. 1992-ci ildə kəndin əvvəlki adı (***Qızılqaya***) bərpa edilmişdir.

Qozlukörpü – Kəlbəcər rayonunda, dağətəyi ərazidə yerləşən kənd. ***Qozlukörpü*** yaşayış məntəqəsi XIX əsrin 20-ci illərində erməni ailələrinin *Qozlukörpü* adlanan yerdə məskunlaşması nəticəsində yaranmış, bir müddət ***Hetavan*** adlanmışdır. Kəndin əvvəlki adı (***Qozlukörpü***) bərpa edilmişdir.

Quşyuvası – Kəlbəcər rayonunda, dağətəyi ərazidə yerləşən kənd. ***Quşyuvası*** yaşayış məntəqəsini XIX əsrdə Laçın rayonunun ***Alxaslı*** kəndindən köçüb gəlmiş bəzi ailələr qızılquş yuvaları olan və ***Quşyuvası*** adlanan meşəlik bir sahədə saldığına görə belə adlandırılmışdır.

Quzeyçirkin – Qılınclı kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 14 kilometr məsafədə, dağətəyi ərazidə yerləşən kənd. ***Quzeyçirkin kəndi*** iki sözdən – ***quzey*** və ***çirkin*** sözlərindən ibarətdir. ***Quzey*** "*dağın və s.-nin günəş düşməyən tərəfi, şimalı*", "*güneyin əksi*" deməkdir. Toponimin tərkibindəki ***çirkin*** sözü etnonimdir. ***Çirkin*** – XIII əsrdə monqolların işğalçılıq müharibələrində iştirak etmiş monqol-türk mənşəli ***karait*** tayfasınm ***çirkin*** qolunun adıdır.

Laçın – Almalıq kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 39 kilometr şərqdə, Laçındağın ətəyində yerləşən kənd. Kənd XIX əsrin əvvəllərində ***Laçın*** rayonunun *Alxaslı* kəndindən gəlmiş *xudayarlı* və *çıraqlı* nəsillərinin burada məskunlaşması nəticəsində yaranmışdır. Kəndin adının ***Laçın*** olmasını yaxınlıqdakı *Laçın* dağının adı ilə əlaqələndirirlər.

Lev – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 42 km şimalda, Murovdağ silsiləsinin ətəyində, Lev çayının sahilində yerləşir. Əslində kəndin tam adı ***Levkənd*** şəklində yazılır. Kəndin adı oradakı ***Lev*** (***Leh***) adlı qədim qalanın adındandır. Qala Tərtər çayı sahilində, sıldırım qaya üzərindədir. Xalq arasında ***Löküm qalası*** da adlanır. Qalanın adı XII əsrdən məlumdur. ***Lev*** sozünün dəqiq mənası hələlik tam müəyyənləşdirilməmişdir.

Mehmanə – Kəlbəcər rayonunda, dağətəyi ərazidə yerləşən kənd. Adı bəzən ***Mehmana*** kimi də yazılır. ***Mehmana*** yaşayış məntəqəsinin əvvəlki əhalisi yunanlar (*bu sözün rus dilindəkı variantı qreki formasındadır*) olduğuna görə kənd ***Qrek*** adlandırılırdı. XIX əsrdə çar Rusiyası Azərbaycanın şimalını işğal etdikdən sonra bu yaşayış məntəqəsində gəlmə ermənilər yerləşdirilmişdi. Kəndin ***Mehman*** şəxs adı ilə də adlandırılması güman edilir. Başqa bir mülahizəyə görə, ***Mehman*** toponimi "*qonaq*" mənası daşıyır.

Məmmədsəfi – Çıraq kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 30 km cənubda, Məmmədsəfi çayının sahilində, Dəlidağın ətəyində yerləşir.

Məmməduşağı – Şaplar kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 8 kilometr nəsafədə, dağətəyi ərazidə yerləşir.

Mərcimək – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 50 km şərqdə, dağətəyi ərazidə yerləşir. Yerli məlumata görə, ***Mərcimək*** yaşayış məntəqəsini vaxtilə Ağdərə rayonunun *Kolanı* kəndindən gəlmiş ailələr ***mərcimək*** bitən ərazidə saldığı uçün kənd belə adlanmışdır.

Mişni – Çaykənd inzibati ərazi vahidində, rayon mərkəzindən 14 km şimalda, Tərtər çayının yuxarı axarında, dağətəyi ərazidə yerləşir. Yerli məlumata görə, ***Mişni*** yaşayış məntəqəsi XIX əsrdə indiki Gədəbəy rayonunun *Şınıx* zonasından gəlmiş ailələrin burada məskunlaşması nəticəsində yaranmışdır. Türkdilli xalqların toponimiyasında ***miş*** sözü "*buynuz*", "*burun*", "*çay döngəsi*", "*dirsək*" mənalarında işlədilir. ***Mişni*** oykonimi "*çay döngəsi*" anlamını ifadə edir. Toponimin mənası dəqiq müəyyən olunmadığından hələlik tam izah edilməmişdir.

Mollabayramlı – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 25 kilometr məsafədə, dağətəyi ərazidə yerləşir. ***Mollabayramlı*** yaşayış məntəqəsi ***molla*** dini titul bildirən sözdən, ***Bayram*** şəxs adından və ***-lı*** şəkilçisindən ibarətdir. Toponim "*mollabayramlılar*" anlamını ifadə edir.

Moz – Abdullauşağı kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 42 kilometr məsafədə, dağətəyi ərazidə yerləşir. Yerli məlumata görə, keçmişdə buraya ***Xaraba Moz*** deyilirmiş. ***Moz*** sözünün mənası hələlik dəqiq məlum olmadığı üçün tam izah edilməmişdir. Güman ki, ***Moz, Mozkənd, Moziata, Mozn*** toponimləri eyni mənşəlidır. Tutqunçayın qolu olan *Mozçay çayı* da (adına bəzən *Moz çayı* da deyirlər), Kəlbəcər rayonu ərazisindədir.

Nadirxanlı – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 12 km şimal-şərqdə, Tərtər çayının sahilində, dağətəyi ərazidə yerləşir.

Narışlar – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 50 kilometr məsafədə, dağətəyi ərazidə yerləşir. Kəndin keçmiş adı ***Qoca Qurt*** olub. ***Narışlar*** toponimi təhrifə uğrayaraq ***Narıştar/Nareştar*** kimi qeydə alınmışdır. 1992-ci ildə kəndin adı ***Narınclar*** kimi rəsmiləşmişdir.

Nəbilər – Günəşli kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 44 kilometr məsafədə, dağətəyi ərazidə yerləşir.

Nəcəfalılar – Comərd kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 34 km şərqdə, dağətəyi ərazidə yerləşir.

Oktyabrkənd – Rayon mərkəzindən 8 km şimal-qərbdə, dağətəyi ərazidə yerləşir. Kəndin keçmiş adı ***Kilsəli*** olub. Bu yaşayış məntəqəsini XIX əsrdə Kəlbəcər kəndindən gəlmiş ailələr qədim bir alban *kilsəsinin* ətrafında salmışlar. Elə bu səbəbdən də kənd ***Kilsəli*** adlanmışdır. 1956-cı ildə kəndə ***Oktyabrkənd*** adı verilmişdir.

Orta Qaracanlı – Qaracanlı kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 11 km cənubda, dağətəyi ərazidə, Uluxan çayının sahilində yerləşir.

Orta Şurtan – Şurtan kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 27 km cənubda, dağətəyi ərazidə yerləşir. ***Orta Şurtan*** yaşayış məntəqəsi ***Aşağı Şurtan*** kəndindən ayrılıb gəlmiş ailələr tərəfindən ***Şurtan dərəsi*** yaxınlığında salındığına görə belə adlanmışdır.

Oruclu – Ağcakənd inzibati ərazi vahidində, rayon mərkəzindən 55 km cənub-şərqdə, Qarasu çayının sahilində yerləşir.

Otaqlı – Dalqılınclı kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 5 kilometr məsafədə, dağətəyi ərazidə yerləşir.

Otqışlaq – Dalqılınclı kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 12 klometr məsafədə, dağətəyi ərazidə yerləşir.

Pirilər – Comərd kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 34 kilometr məsafədə, dağətəyi ərazidə yerləşir. Kəndin keçmiş adı ***Pirməmmədli*** olub. Yerli məlumata görə, ***Pirilər*** yaşayış məntəqəsini Dağıstandan gəlmiş ***Məşədi Pirməmməd*** salmışdır.

Sarıdaş – Eyniadlı kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 25 kilometr məsafədə, Lev çayı ilə Tərtər çayı arasında, dağətəyi ərazidə yerləşir. ***Sarıdaş kəndi*** XIX əsrdə *Qılıçlı* kəndindən ayrılmış ailələr tərəfindən ***Sarıdaş*** dağının yaxınlığında salındığına görə belə adlandırılmışdır.

Seyidlər – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 50 km şimalda, dağətəyi ərazidə yerləşir. ***Seyid*** sözü toponimlərdə geniş yayılmışdır. ***Seyid –*** mənşəcə Məhəmməd Peyğəmbərin nəslindən olan müsəlmanların fəxri tituludur. Onlar müqəddəs adamlar kimi tanınır, sevilir. Yerli məlumata görə, ***Seyidlər*** kəndini Gədəbəy rayonunun *Arıqdam* kəndindən gəlmiş ***Seyid İmamqulu*** adlı şəxs bina etmişdir.

Sınıqkilsə – Rayon mərkəzindən 13 km şimal-şərqdə, dağətəyi ərazidə yerləşir. ***Sınıqkilsə*** yaşayış məntəqəsini Laçın rayonunun *Alxaslı* kəndindən köçüb gəlmiş ailələr köhnə, uçuq (***sınıq***) alban ***kilsəsi*** ətrafında saldığına görə, kənd ***Sınıqkilsə*** adlanmışdır.

Soyuqbulaq – Şurtan inzibati ərazi vahidində, rayon mərkəzindən 25 km cənubda, Tərtərçayının sahilində yerləşir.

Susuzluq – Susuzluq inzibati ərazi vahidində, rayon mərkəzindən 35 kilometr məsafədə, Murovdağ silsiləsinin cənubunda yerləşir. Yerli məlumata görə, XIX əsrdə Gədəbəy rayonunun *Sarıköynək* kəndindən (əvvəllər kəndin adı ***Əliyli*** olub) gəlmiş ailələr tərəfindən ***Susuzluq*** dərəsinin və dağının yaxınlığında salındığı üçün bu yaşayış məntəqəsi **Susuzluq** adlanmışdır.

Şahkərəm – Başlıbel inzibati ərazi vahidində, rayon mərkəzindən 50 km cənub-şərqdə, Dəlidağın ətəyində yerləşir.

Şahmansurlu – Qarabağ silsiləsinin yamacında, dağətəyi ərazidə yerləşir. Bəzən bu yaşayış məntəqəsinin adını ***Şahmasur*** şəklində də yazırlar. Yaşayış məntəqəsi XX əsrin əvvəllərinə qədər qışlaq yeri olmuşdur. 1917-ci ildə oykonim ***Şaqmasur***, 1933-cü ildə ***Şaxnasur*** variantında qeydə alınmışdır. Toponim türk dillərindəki ***şaxma / şaxna*** ("*dairə, halqa*") komponentindən və ərəb dilindəki ***sur*** ("*əhatə olunmuş*", "*çəpər, hasar*") sözündən ibarət olub, "*dairəyə alınmış, çəpərlənmiş*" mənasındadır.

Şaplar – Eyniadlı kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 5 kilometr məsafədə, dağətəyi ərazidə yerləşir. Kəndin keçmiş adı ***Şahpərilər*** olub. Kəndin başqa bir adı isə ***Şapı*** olmuşdur. Kürdlər arasında şəxs adlarının yuvarlaq işlənməsi nəticəsində ***Şahpərilər*** şəxs adı ***Şapı*** formasına düşmüşdür. Yerli məlumata görə, kəndi XIX əsrdə *Kərbəlayı Ellaz qızı Şahpəriyə* (*Şapıya*) cehizlik verilmiş bu binə yerində onun övladları saldığına görə belə adlandırılmışdır.

Şeyinli – Zəylik inzibati ərazi vahidində, rayon mərkəzindən 21 km cənub-qərbdə, Qarabağ yaylasının ətəyində yerləşir. Kəndin keçmiş adı ***Təkdam*** olub. Yerli məlumata əsasən, ***Şeyinli*** yaşayış məntəqəsini Laçın rayonundakı Mirik kəndindən köçüb gəlmiş ***Şeyin*** adlı şəxs salmışdır.

Şorbulaq – Bağlıpəyə kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 22 kilometr məsafədə, dağətəyi ərazidə yerləşir.

Tatlar – Qaracanlı kənd inzibati ərazi vahidində, rayon mərkəsinzən 12 km cənubda, dağətəyi ərazidə yerləşir. Bu yaşayış məntəqəsini XIX əsrdə Dərələyəz mahalından gəlmiş ***Cəfər*** adlı şəxs salmış və kənd də onun adı ilə adlanmışdır. Sonralar Cənubi Azərbaycandan gəlmiş bir şəxs də burada məskunlaşmış və onun törəmələrinə ***tatlar***, yaxud ***tatoğlu*** demişlər. ***Tat*** sözü burada "*İrandangəlmə*" mənasındadır. Ümumiyyətlə, ***tat*** sözünün mənşəyi barədə müxtəlif fikir və mülahizələr mövcuddur. Bəzi tədqiqatçılara görə "*tabe şəxs*" , "*kasıb*", "*kafir*", "*əkinçi*", "*qul*", "*oturaq həyat keçirən şəxs*" və s. mənalarda işlənən ***tat*** sözü əvvəllər etnik ad olmamışdır. Bu termin sonralar İran dillərindən birində danışan müəyyən bir xalqın adına çevrilmişdir.

Taxtabaşı – Eyniadlı kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 70 km cənub-şərqdə, Dəlidağın ətəyində yerləşir.

Təzəkənd – Ağcakənd inzibati ərazi vahidində, rayon mərkəzindən 77 kilometr cənub-şərqdə, dağətəyi ərazidə yerləşən kənd. Kəndin keçmiş adı ***Çıraqlı*** olub. Bu yaşayış məntəqəsi 1934-cü ildə həmin rayonun ***Çıraq*** kəndindən köçmüş ailələr tərəfindən salındığı üçün belə adlanırdı. ***Çıraqlılar*** 1961-ci ildə buradan köçmüşlər. 1962-ci ildə qonşu Ağcakənddən köçüb gəlmiş ailələr burada məskunlaşdıqdan sonra yaşayış məntəqəsi ***Təzəkənd*** adlanmışdır.

Təkdam – Yellicə kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 7 kilometr məsafədə, dağətəyi ərazidə yerləşir. Bəzi sənədlərdə kəndin adı ***Takdam*** kimi yazılır. ***Təkdam*** yaşayış məntəqəsini qonşu *Keşdək* kəndindən köçüb gəlmiş ailələr qədim dövrdə daşdan tikilmiş və indi də yaxşı saxlanmış kiçik bir binanın (yerli əhali ona ***dam*** deyir) ətrafında saldığına görə kənd belə adlandırılmışdır.

Təkəqaya – Eyniadlı kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 38 kilometr məsafədə, Təkəqaya çayının sahilində, dağətəyi ərazidə yerləşir. Bəziləri bu oronimi ***təkəli*** tayfası ilə bağlayırlar. Anadolunun cənubunda Albaniyadan qərbdə və Qocaçayın şərqində yerləşən torpaqlar ***Təkə eli*** adlanırdı. Yerli məlumata görə, bu yaşayış məntəqəsini Daşkəsən rayonunun Qabaqtəpə və Gədəbəy rayonunun Arıqdam kəndlərindən köçüb gəlmiş ailələr salmışdır. Kənd ***Təkəqaya*** (***təkə*** – dağ keçisidir) adlı oroqrafik obyektin yaxınlığında salındığı üçün belə adlanıb.

Tirkəşəvənd - 1 – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 50 km cənub-şərqdə, Tutqun çayın sahilində, dağətəyi ərazidə yerləşir. Yerli məlumata görə, ***Tirkəşəvənd*** yaşayış məntəqəsi keçmiş ***Bəylik*** kəndinə məxsus olan *qışlaq* yerində salınmışdır. Sonralar qonşu Qazıxanlı kəndindən və Ağzıbir binəsindən köçmüş ailələr burada məskunlaşmışlar. Kəndin yaxınlığında ***Tirkeşəvənd qəbiristanı*** və ya ***Türk qəbiristanı*** adlanan qədim məzarlığın mövcudluğu buranın çox qədimdən yaşayış yeri olduğunu sübut edir. Hansı səbəbdənsə sonralar yaşayış məntəqəsi dağılmışdır. ***Tirkəşəvənd*** toponimi qədim türk mənşəli ***tirkəş*** tayfasının adını özündə əks etdirir.

Tirkəşəvənd - 2 – Əsrik kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 40 kilometr məsafədə, dağətəyi ərazidə yerləşir. Oykonim türk mənşəli ***tirkəş*** tayfasının adından və "*uşağı, nəsli, törəməsi*" anlamını ifadə edən ***vənd*** sözündən ibarətdir.

Tövlədərə – Çıraq kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 27 kilometr məsafədə,dağətəyi ərazidə yerləşir.

Üçüncü Milli – Milli kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 13 kilometr məsafədə, dağətəyi ərazidə yerləşən kənd. Bu yaşayış məskəni XIX əsrin ortalarında Dərələyəz mahalının ***Milli*** kəndindən köçüb gəlmiş ailələr tərəfindən salınmışdır. ***Milli*** – nəsil adıdır. Yaşayış məntəqəsini Kəlbəcərdə toponimik cərgə əmələ gətirən ***Birinci Milli*** və ***İkinci Milli*** kəndlərindən fərqləndirmək üçün belə adlandırmışlar. Yəni, oykonimin tərkibindəki ***Üçüncü*** sözü onu eyni adlı digər yaşayış məntəqəsindən fərqləndirmək üçün əlavə edilmişdir.

Vəng – Rayon mərkəzindən 30 kilometr məsafədə, Ağdaban inzibati ərazi vahidində, Tərtər çayının sahilində, dağətəyi ərazidə yerləşən kənd. ***Vəng*** kəndini 1942-1943-cü illərdə Kəlbəcər rayonunun ***Malaslar*** kəndindən (*hazırda mövcud deyildir*) gəlmiş ailələr Tərtər çayı sahilində salmışlar. Kənd qədim alban məbədi (*kilsəsi*) olan Xotavəngin (*təxminən VIII – IX əsrlər*) yaxınlığında yerləşdiyinə görə belə adlanmışdır. Yerli məlumata görə, ***malaslar*** kəndini salmış ***Malas*** adlı şəxs Kolanı kəndindən (*Tərtər rayonu*) gəlmədir.

Vəng – Zar inzibati ərazi vahidində yerləşən kənd. 1950-ci ilədək ***Şorbulaq*** adlanırdı. XIX əsrdə Kəlbəcərdən ***hacıellazlar*** nəsli və Zar kəndindən ***mollaməhəmmədlər*** nəslindən olan ailələr Tərtər çayının sahilində, ***Bəzirxana*** (***Vəzirxana***) kəndinin binə yerində, qədim məbədin xarabalığı yanında saldığına görə kənd belə adlanmışdır.

Vəngli – Rayon mərkəzindən 55 kilometr şərqdə, eyniadlı inzibati ərazi vahidində, Xaçınçayın sahilində, dağətəyi ərazidə yerləşən kənd. ***Vəngli kəndi*** XII əsrdə tikilmiş *Gəncəsər* məbədinə görə belə adlanmışdır.

Vəzirxana – Zar kənd inzibati ərazi vahidində, rayon mərkəzindəın 24 km cənub-qərbdə, Qarabağ yaylasının ətəyində yerləşən kənd. ***Vəzirxana*** oykonimi ilə bağlı bir çox fikir və mülühizələr, rəvayətlər var. Əslində oykonim ***Bəzirxana*** şəklində olmalıdır. Azərbaycan dilinin qərb qrupu dialektlərində ***bəzir*** sözü "*kətan yağı və ya kətan toxumu istehsal edilən yer*" anlamı ilə ifadə olunur.1917-ci ildə Cavanşir qəzasında ***Birinci Bəzirxana*** və ***İkinci Bəzirxana*** adlı yaşayış məntəqələri olmuşdur.

Yanşaq – Eyniadlı kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 30 km şimal-şərqdə, Murovdağ silsiləsinin cənub yamacında yerləşən kənd. ***Yanşaq*** sözü qədim türk dillərində "*aşıq*", "*ozan*" deməkdir. ***Yanşaq*** sözünün "*səsli-küylü*" mənası da var. Kəndin yaxınlığından axan çay da *Yanşaq çayı* adlanır.

Yanşaqbinə – Yanşaq inzibati ərazi vahidində, rayon mərkəzindən 29 kilometr məsafədə, Murovdağ silsiləsinin cənub yamacında yerləşən kənd. ***Yanşaqbinə*** toponimi "*Yanşaq kəndinin binəsi*" mənasındadır. ***Yanşaq*** sözu qədim türk dillərində "*ozan*", "*aşıq*" deməkdir. ***Binə*** – əsasən, maldarlıqla məşğul olan əhalinin yaylaqlarda, kənd yaxınlığında yurd, məskən saldıqları yerə deyilir.

Yellicə – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 15 km cənub-qərbdə, dağətəyi ərazidə yerləşən kənd. ***Yellicə*** yaşayış məntəqəsini XIX əsrdə qonşu *Keşdək* kəndindən köçüb gəlmiş ailələr salmışlar. ***Yellicə*** toponiminin mənası *"yelli, küləkli"* deməkdir.

Yenikənd – Qonqur silsiləsinin ətəyində, rayon mərkəzindən 51 km cənub-şərqdə, ***Alaqaya*** adlı dağın yaxınlığında yerləşən kənd. Yerli əhali arasında kənd ***Alaqaya*** adı ilə tanınır. ***Alaqaya*** yaşayış məntəqəsinin adının rəsmi surətdə dəyişdirilərək ***Yenikənd*** adlandırılmasının səbəbi bir qədər şübhəli və qəribədir. Bu mənada oykonimin elmi izahı hələlik dəqiq müəyyənləşdirilməmişdir.

Yuxarı Ayrım – Boyaqlı kənd inzibati ərazi vahidində, rayon mərkəzdən 8 km şimal-qərbdə, Ayrım çayının sahilində, dağətəyi ərazidə yerləşən kənd. Kəndin keçmiş adı ***Yuxarı Binə*** olub. Yerli məlumata görə, ***Yuxarı Ayrım*** yaşayış məntəqəsini indiki Qazax rayonu ərazisindən buraya gəlmiş **Qazax Alı** adlı şəxs salmışdır. Elə bu səbəbdən də kəndin adına əvvəllər ***Alıuşağı*** deyirmişlər. ***Ayrım*** – türk dillərində "*hissə*", "*bölük*" deməkdir. ***Ayrım/Ayrum*** adı Kiçik Qafqazda yaşamış azərbaycanlıların qədim etnoqrafik adıdır. Onların məskunlaşdığı ərazi ***Ayrum mahalı*** adlanırdı. Gəncə xanı Cavad xanın general Knorrinqə göndərdiyi məktubda ***ayrımlar*** Gəncə xanlığının qədim elatı adlandırılmışdır. XVII əsrdə ayrımların bir hissəsi İrana keçərək Şahsevənlərə qarışmışdır. Digər hissəsi isə Azərbaycanın Kiçik Qafqaz zonasında və indiki Ermənistan ərazisində yaşamaqda davam etmişlər.

Yuxarı Oratağ – Rayon mərkəzindən 33 kilometr məsafədə, dağətəyi ərazidə yerləşən kənd. Kəndin qədim adı ***Oratağ*** olmuşdur. XIX əsrin 20-ci illərin sonunda İrandan köçüb gəlmiş erməni ailələri burada məskunlaşdıqdan sonra ondan aşağı eyni adda digər yaşayış məntəqəsi (***Nergin Oratağ***), yəni, ***Aşağı Oratağ*** yarandığına görə ***Verin Oratağ*** adlanmışdır. ***Verin*** sözü erməni dilində "***yuxarı***" mənasındadır. ***Oratağ*** toponimi qədim türk dillərindəki ***ur/or*** və mənası hələlik tam məlum olmayan ***tağ*** ("*dağ*, *təpə*, *yüksəklik*") sözlərindən ibarət olub, "*şiş təpə*" deməkdir. ***Ur*** – "*yüksəklik, hündürlük*", "*şiş*, *qabarıq*" mənasını daşıyır. Bəzi tədqiqatçıların fikrincə, ***Oratağ*** toponimi qədim iran dillərinə mənsub olan ***ora/oura*** və ***tağ/teğ*** sözlərindən ibarətdir. ***Ora*** və ya ***oura*** "*qala*" mənasındadır. ***Tağ*** və ya ***teğ*** isə "*yer*" deməkdir. Deməli, toponim "*qala yeri*" mənasındadır.

Yuxarı Şurtan – Rayon mərkəzindən 16 km cənubda, Tərtərçayın sahilində, Dəlidağın ətəklərində yerləşən kənd. ***Yuxarı Şurtan kəndi*** yerli əhali arasında ***Baş Şurtan*** kimi də tanınır. ***Şurtan*** (***şortan***) sözü Azərbaycan dilinin dialektlərində "*turşumuş qatıq*" anlamında işlədilir.

Zağalar – Ağcakənd inzibati ərazi vahidində, rayon mərkəzindən 78 kilometr məsafədə, dağətəyi ərazidə yerləşir. ***Zağalar kəndi*** yaşayış məntəqəsini 1935-ci ildə qonşu Ağcakənddən köçüb gəlmiş ailələr *Zagalar* adlanan yerdə saldığı üçün kənd belə adlanmışdır. ***Zağalar kəndi*** Taxra düzünün baş tərəfində yerləşdiyinə görə yerli əhali arasında ***Ağcakənd taxtabaşısı*** kimi də tanınır.

Zallar – Yanşaq kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 32 kilometr məsafədə, Murovdağ silsiləsinin yamacında yerləşən kənd. Yerli məlumata görə, ***Zallar*** yaşayış məntəqəsini Şəmkir rayonunun ***Qaracəmirli*** kəndindən gəlmiş ***zallar*** nəslinə mənsub olan ailələr saldığına görə kənd də belə adlanmışdır. Əslində həmin nəslin adı ***Zallar*** yox, ***Zalılar*** kimi yazılmalıdır.

Zar – Eyniadlı inzibati ərazi vahidində, mərkəzdən 22 km cənub-qərbdə, Qarabağ yaylasının ətəklərində, Yevlax-İstisu şose yolu kənarında yerləşən kənd. ***Zar*** yaşayış məntəqəsinin

adı ilk dəfə XIII əsr mənbəsində çəkilmişdir. Bir qisim tədqiqatçıların fikrincə toponim ***zar*** etnoniminin adını özündə əks etdirir. 1590-cı il sənədinə görə Şərur qəzasında *Zar nahiyəsi* olmuşdur. V əsr tarixçisi Favstoz Buzandın əsərində və həmçinin VII əsr mənbələrində Cənubi Azərbaycanda Zaravənd, Zarişat (*Türkiyənin indiki Zaruşt ərazisində*) yaşayış məntəqələrinin adı çəkilir. Mənbələrdə zar tayfa adı kimi qeyd olunur. Tarixi mənbələrdə zarların fars vilayətinin cənubunda, fars körfəzinin sahillərindən Kirmana qədər olan ərazidə yaşadıqları göstərilir. İran mənşəli zarlar qədim dövrlərdə İranın şimal-qərbində, habelə keçmiş Sünik ərazisində (Qarabağın müəyyən hissəsi, Qubadlı- Zəngilan zonası, Ermənistanın cənub-şərq hissəsi) yaşamış və sonralar müəyyən tarixi hadisələrlə əlaqədar müxtəlif ərazilərə yayılmışlar. ***Zar çayı*** Kəlbəcər rayonu ərazisində axan çayın adıdır. ***Zar*** kəndinin adı ilə adlanan *Zar çayı* Tərtərçayın qoludur.

Zardaxaç – Rayon mərkəzindən 44 kilometr şərqdə, İmarət-Qərvənd inzibati ərazi vahidində, Murovdağ silsiləsinin ətəyində yerləşən kənd. ***Zardaxaç*** toponiminin əsl adı ***Zərdəxaç*** kimi yazılmalıdır. ***Zardaxaç*** toponimi "*qızıl xaç*" mənasını bildirir.

Zərqulu – Tırkeşəvənd inzibati ərazi vahidində, rayon mərkəzindən 6 kilometr məsafədə, Uzunyal dağının ətəyində yerləşən kənd. Yerli məlumata görə, kəndin bünövrəsini ***Zərqulu*** adlı bir şəxs qoyduğu üçün kənd də onun adı ilə adlanmışdır.

Zəylik – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 25 km cənub-qərbdə, Şərqi Göyçə silsiləsinin ətəyində yerləşən kənd. 1826-1828-ci illər Rusiya-İran müharibəsi zamanı bir qrup azərbaycanlı ailələr Kəlbəcər rayonu ərazisindən indiki Ermənistan ərazisinə köçmüşlər. Sonralar həmin gedənlər geri qayıtmış, bir müddət Zar kəndində yaşadıqdan sonra orada su çatışmazlığına görə ***Zəylik*** çayının sahilinə köçərək burada məskunlaşmışlar. ***Zəylik kəndi*** öz adını çayın adından almışdır.

Zivel – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 30 kilometr məsafədə, Dəlidağın ətəyində yerləşən kənd. ***Zivel*** sözü kürd dilində "*şırım*", "*zolaq*" mənasındadır. ***Zivel*** yaşayış məntəqəsi üç tərəfı sıldırım olan uzunsov və ensiz yerdə salındığı üçün belə adlandırılmışdır. Yerli məlumatlara və bir çox tədqiqatçıların fikrinə görə, ***Zivel kəndi*** qaraçorlu tayfasına mənsub olan ailələr tərəfindən salınmışdır. *Qaraçorlular* hazırda ***çorlu*** nəsilləri adlanır.

Zülfüqarlı – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 40 km şərqdə, dağətəyi ərazidə yerləşən kənd. ***Zülfüqarlı kəndi*** XIX əsrin əvvələrində *Zülfüqarlı* nəslinin burada məskunlaşması nəticəsində yaranmışdır.

Kəlbəcərdə qayaüstü təsvir



Kəlbəcər Tarix-Diyarşünaslıq muzeyi

Gəncəsər monastri

Comərd qalası

Böyük Arran məbədi



Lök qalası – VII-VIII əsrlər
(Qanlıkənd kəndi)

Xudavəng monastrı

QUBADLI RAYONU

(RAYON HAQQINDA ÜMUMİ MƏLUMAT)

Qubadlı rayonunun ərazisi tarixən Midiyanın, Əhəməni imperiyasının, Albaniyanın, Ərəb xilafətinin, orta əsr Şəddadilər feodal dövlətinin, Səlcuq imperiyasının, Atabəylər, Elxanilər *(Hülakülər)*, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər dövlətlərinin, Qarabağ xanlığının, Yelizavetpol *(Gəncə)* quberniyasının, Zəngəzur qəzasının, Azərbaycan Demokratik Respublikasının, Sovet Azərbaycanının sonralar isə Azərbaycan Respublikasının tabeliyində olmuşdur.

Rayon kimi ***Qubadlı rayonu*** 1933-cü ildə təşkil edilmişdir. Rayon Qarabağ yaylasının cənub-şərq qurtaracağında, Həkəri çayı hövzəsində yerləşir. ***Qubadlı*** oykonimi **qubadlı** tirəsinin adı ilə əlaqədardır *(bəzi yerli məlumatlara görə, **Qubadlı** toponimi V-VI əsrlərdə yaşamış Sasani hökmdarı* **I Qubadın** *adı ilə bağlıdır)*. 1963-cü ildə rayonun ərazisi ləğv edilərək Zəngilan rayonu ilə birləşdirilmiş, lakin 1964-cü ildən yenidən müstəqil rayon olmuşdur. *Qubadlı rayonu* Laçın, Xocavənd, Cəbrayıl, Zəngilan rayonları və eləcə də Qərbi Azərbaycanın *(Ermənistanın)* Gorus, Qafan rayonları ilə həmsərhəddir. Rayonun ərazisi ***802 kv. km.***-dir. Əhalisinin sayı ***35 000*** nəfər idi. Rayonda ***96*** yaşayış məntəqəsi vardır. Rayon əhalisinin çoxu kəndlərdə yaşayır. Rayonun ən iri yaşayış məntəqələri ***Qubadlı qəsəbəsi***, eləcə də ***Xanlıq, Mahmudlu*** və ***Dondarlı*** kəndləridir. 1969-cu ildə Qubadlı rayonunda ***Dövlət yasaqlığı*** yaradılmışdır.

Kiçik Qafqazın, Qarabağ yaylasının cənub-şərq qurtaracağında, Bərgüşad *(Bazarçay)* çayının sahilində yerləşən və Qubadlı rayonunun inzibati mərkəzi hesab olunan ***Qubadlı şəhər tipli qəsəbəsi*** (1962-ci ildən) Azərbaycan Respublikasının paytaxtı ***Bakı*** şəhərindən **390** kilometr məsafədə yerləşir.

Rayonun təbiəti əsasən dağlıqdır. İqlimi əsasən mülayım, isti, quru və subtropikdir. Bitki örtüyü – kol, meşəli çəmən, fıstıq, palıd, vələs, tut və s.-dir. Ərazidə illik yağıntı 400 – 600 mm-dir. Heyvanları – canavar, tülkü, dovşan, oxlu kirpi, süleysin, əlik, qumsiçanı və s., quşları – turac, qırqovul, boz kəklik, göyərçin və s.-dir. Əsas çayları Bazarçay (Bərgüşad çayı), Həkəri çayı, Kiçik Həkəri çayı, Meydandərəsi çayıdır.

Tarixi-memarlıq abidələri – Qubadlı qəsəbəsi yaxınlığındakı ***Xırman yeri*** yaşayış məskəni *(Son tunc və ilk dəmir dövrü)*, Əliquluuşağı kəndi ərazisindəki ***Koroğlu qalaçası*** *(son tunc və ilk dəmir dövrü)*, ***Sığınacaq*** *(IV əsr)*, ***Göy qala*** *(V əsr)*, Gavur dərəsindəki ***Mağara-ibadətgah*** *(IV əsr)*, Balahəsənli kəndindəki ***Sığınacaq*** *(IV əsr)*, Zor kəndindəki ***Sığınacaq*** *(IV əsr)*, Muradxanlı kəndindəki ***Qalalı qalası*** *(V əsr)*, Məzrə kəndindəki ***Məbəd*** *(XI əsr)*, Qayalı kəndindəki ***Qəbiristanlıq*** *(XIV əsr)*, Dəmirçilər kəndindəki ***1 saylı türbə*** və ***2 saylı türbə*** *(XIV əsr)*, ***Məscid*** *(XIX əsr)*, Yazı düzündəki ***Cavanşir qala türbəsi*** *(XIV əsr)*, Məmər kəndindəki ***Daş sandıq*** *(XV əsr)*, Xələc kəndindəki ***Məscid*** *(XV-XVI əsrlər)*, Gürcülü kəndindəki ***İmamzadə türbəsi*** *(XVII əsr)*, Seytas kəndindəki ***Anabat abidəsi*** *(XVII əsr)*, Məmər kəndindəki ***Şirin bulaq*** *(XVIII əsr)*, Dondarlı kəndindəki ***Məscid*** *(XIX əsr)*, ***Hacı Bədəl körpüsü*** *(XVIII əsr)*, Yusifbəyli kəndindəki ***Məscid*** *(XVIII əsr)*, Boyunəkər kəndindəki ***Türbə*** *(XVIII əsr)*, Mollalı kəndindəki ***Məscid*** *(XVIII əsr)*, Mirlər kəndindəki ***Məscid*** *(XVIII əsr)*, Məmər kəndindəki ***Məscid*** *(XVIII əsr)*, Xocamusaxlı kəndindəki ***Göy qala*** *(V əsr)*, ***Mağara–ibadətgah*** *(XVIII əsr)*, Əliquluuşağı kəndindəki ***Bulaq*** *(XIX əsr)*, ***Laləzar körpüsü*** *(1867–ci il)*, Mahrızlı kəndindəki ***Məscid*** *(XIX əsr)*, Mahmudlu kəndindəki ***Daş qoyun fiquru*** *(XV əsr)*, ***Körpü*** *(XIX əsr)* və s.

Qubadlı rayonu ***31 avqust 1993-cü il*** tarixdə erməni hərbi birləşmələri tərəfindən işğal edilmişdi. ***25 oktyabr 2020-ci il*** tarixində rayon erməni işğalçılarından azad edilmişdir.

RAYONUN YAŞAYIŞ MƏNTƏQƏLƏRİ

Abdalanlı – Qayalı kənd inzibati ərazi vahidində, dağətəyi ərazidə yerləşən kənd. Yaşayış məntəqəsi 23 oktyabr 2020-ci il tarixdə erməni silahlı qüvvələrindən azad edilmişdir. XIX əsr mənbələrində ***Ocaqqışlaq*** adında qeydə alınıb. Bu, yaşayış məntəqəsinin keçmiş ***qışlaq*** yerində salındığını bildirir. Bir çox tədqiqatçılar bildirirlər ki, ***Abdalanlı*** toponimi *Abdalanlı* adlı nəsil və ya elatın adını özündə əks etdirir.

Alaqurşaqlı – Mahruzlu kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 18 kilometr cənub-şərqdə, Həkəri çayının sahilində, dəniz səviyyəsindən 1350 metr yüksəklikdə yerləşən kənd. Yaşayış məntəqəsi 23 oktyabr 2020-ci il tarixdə erməni silahlı qüvvələrindən azad edilmişdir. Bu kənd *şotlanlı* tayfası tərəfindən ***Alaqurşaq*** yeri adlı bir sahədə salınmışdır. ***Alaqurşaq*** toponimi "***ala***" (*boz rəng*) və "***qurşaq***" (*daşları kəmərə və qurşağa bənzədiyi üçün*) sözlərinin birləşməsindən əmələ gəlib, "*boz rəngli qurşaqda salınmış kənd*" mənasını verir.

Altunca – Ulaşlı kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 18 kilometr cənub-qərbdə, Bərgüşad çayının (Bazarçay) sağ sahilində, Həkəri çayının sahilində, dəniz səviyyəsindən 750 metr yüksəklikdə yerləşən kənd. Bəzən adına **Altınca** da deyilir. Kəndin ərazisində *Çinar pir, Saqqızlı pir, Ağalı dərə, Gilavar dağı, Göy daş, Nərgizli, Qurd dərəsi, Narlı dərə, Kəpircik aşırımı, Zilanlı yurdu, Sumaxlı bulaq, Həsənxan bulağı* və s. adlı coğrafi adlar qeydə alınmışdır. Yaşayış məntəqəsinin qədim adı ***Altınca Qiyaslı***, ***Narlı Qiyaslı*** olmuşdur. Kənd camaatı isə kəndlərinə uzun müddət ***Qiyaslı*** demişlər. Yerli məlumata görə, *Qiyaslı* tirəsi XIX əsrdə Naxçıvanın Nehrəm kəndindən gəlib, indiki kəndin bünövrəsini qoymuşlar.

Armudlu – Başarat kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 37 kilometr şimal-qərbdə, dəniz səviyyəsindən 1400 metr yüksəklikdə, dağlar əhatəsində yerləşən kənd. Kəndin ərazisində *Ağ bulaq, Dərə yeri, Yal yeri, Pirin daşı, Ənkəran* və s. adlı coğrafi adlar qeydə alınmışdır. Kənd *Əliyanlı* tayfasına mənsub olan ailələr tərəfindən salınmışdır. 1948-ci ilədək kəndin adı ***Amuduq*** olmuşdur. Kənd yaxın ərazidəki ***Amuduq*** dağının adı ilə adlandırılıb (*yaşayış məntəqəsinin adı bəzən sənədlərdə* ***Armudluq*** *kimi də qeyd olunmuşdur*). Sonralar ***Amuduq*** sözü ***Armudlu*** kimi təhrif olunmuş və kəndin adı da belə qeydə alınmışdır.

Aşağı Cibikli – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 23 kilometr şimal-qərbdə, Bərgüşad çayının qolu olan Kosakərəm çayınının sahilində, dəniz səviyyəsindən 1250 metr yüksəklikdə, Ermənistan Respublikası ilə sərhəddə yerləşən kənd. Kəndin ərazisində *Abbas bulağı, Arxac qayası, Çalayer, Kazım bulağı, Keçəltəpə, Kərim bulağı, Kolavat, Düz zəmi, Qənşərqaya, Qırnıq, Quyubulaq, Meşəyeri, Yölyer* və s. adlı coğrafi adlar qeydə alınmışdır. Kəndin qədim adı ***Kosakərəm*** olub. XIX əsrdə yaxınlıqda yerləşən ***Cibikli*** kənd sakinlərinin bir hissəsi burada məskunlaşandan sonra kənd ***Aşağı Cibikli*** adını alıb. Kəndin adını ***Cibilli*** kimi yozanlar da var. "***Cib***" ərəbcə "*dağ*", "*təbiət*" deməkdir. ***Cibikli*** adlı tayfa da vardır. Mənbələrdə XV əsrdə bu ərazidə *Cibikli, Cibiklu* adlı qədim türk tayfasının yaşaması məlumdur.

Aşağı Xocamusaqlı – Yuxarı Xocamusaqlı kənd inzibati ərazi vahidində, Bərgüşad silsiləsinin ətəyində, Ağa çayının sağ sahilində, rayon mərkəzindən 7 kilometr cənub-qərbdə, dəniz səviyyəsində 900 metr yüksəklikdə yerləşən kənd. Kəndin ərazisində *Ağa Çayı, Arpa dərəsi, Ballı qaya, Bulaq güneyi, Daş arası, Dəvəuçan, Dəyirman yolu, Əv dərəsi, Gav, İki yal arası, Kosa dağ, Qızıl qaya, Qoçəli yeri, Mirhüseyn bulağı, Pirin güneyi, Sarı dərə, Şınaxara, Şırdannı bulağı* və s. adlı coğrafi adlar qeydə alınmışdır. Yaşayış məntəqəsinin qədim adı əvvəllər ***Qalacıq Xocamusaxlı*** olub. Toponim qədimdə Zəngəzur qəzasında yaşamış ***Xocamusaxlı (Xocamusaqlı)*** tayfasının adındandır. Bu tayfa ötən əsrlərdə Zəngəzurda yaşayıb. Ümumiyyətlə, tayfanın adı ***Xacəəbishaqlı*** olmuşdur.

Aşağı Mollu – Yuxarı Mollu kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 18 km cənub-şərqdə, Həkəri çayınının sağ sahilində yerləşən kənd. 9 noyabr 2020-ci il tarixdə erməni silahlı qüvvələrindən azad edilmişdir. Aşağı Mollu kəndinin ərazisində *Avşar dərəsi, Böyük qarovun dərəsi, Ceyran bulaq, Çaybaxarı-halbaxar dərəsi, Dərviş baba piri, Dik daş, Əziz kələyi, Fətəlinin kağ yeri, Güneyyataq, Halyolu, Hüseyn baba piri, İsmayılbəy dərəsi, Kəklik bulağı, Kiçik Qarovun dərəsi, Kortuzan, Qara quzüey, Qəziyan navı, Qırmalar, Qoca dərəsi, Molla Əhmədin yurdu, Nəbi kələyi, Nəzərin sulu qobusu, Osmanlı qəbiristanlığı, Seyidlər dərəsi, Top daşlar, Yolaşan* və s. coğrafi adlar qeydə alınmışdır. *Qaçaq* hərəkatının görkəmli nümayəndəsi Nəbi Alı oğlu (*Qaçaq Nəbi*) bu kənddəndir. Kəndi XVI-XVII əsrlərdə Cənubi Azərbaycanın ***Mollu*** kəndindən gələn ailələr salmışdır. Toponimin tərkibindəki ***Mollu*** komponentinin düzgün elmi açımı hələ ki, tam müəyyənləşməyibdir.

Bala Həsənli – Teymur Müskənli kənd inzibati ərazi vahidində, Bərguşad çayının sahilində, Yazı düzündə, Qarabağ yaylasının ətəyində, dəniz səviyyəsindən 600 metr yüksəklikdə yerləşən kənd. Kəndin ərazisində *Arifdərə, Damcılı bulaq, Yeddibulaq* və s. adlı coğrafi adlar qeydə alınmışdır. Yaşayış məntəqəsinin adı bəzi sənədlərdə ***Balahəsənli*** şəklində də yazılır. Yerli məlumata görə, kəndi 1918-ci ildə milli qırğın zamanı indiki Ermənistan ərazisindəki ***Ağvanlı*** kəndindən (*Qafan rayonu*) didərgin salınmış ailələr salmışdır. Toponim ***Bala Həsənli*** nəslinin adı ilə əlaqədardır.

Bala Soltanlı – Bala Soltanlı kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 25 km şimal-şərqdə, Laçın-Həkəri şose yolu kənarında, Qarabaq silsiləsinin ətəyində, dəniz səviyyəsindən 790 metr yüksəklikdə, Həkəri çayınının sol sahilində yerləşən kənd. 7 noyabr 2020-ci il tarixdə erməni silahlı qüvvələrindən azad edilmişdir. Kəndin ərazisində *Quru dərə, Mal təpə* və s. adlı coğrafi adlar qeydə alınmışdır. Yaşayış məntəqəsini XIX əsrdə indiki ***Soltanlı*** (*Cəbrayıl rayonu*) kəndindən köçmüş ailələr salmışlar. Kəndin adı *şahsevənlərin* ***soltanlı*** tirəsinin adı ilə bağlıdır. Toponim "*kiçik Soltanlı kəndi*" mənasındadır.

Ballıqaya – Hal kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 13 kilometr cənubda, dağətəyi ərazidə, dəniz səviyyəsindən 750 metr yüksəklikdə yerləşən kənd. 9 noyabr 2020-ci il tarixdə erməni silahlı qüvvələrindən azad edilmişdir. Kəndin ərazisində Ballıqaya dərəsi, Samanlı dərəsi, Taxtala düzü və s. coğrafi adlar qeydə alınmışdır. Qədim adı ***Mahmuduşağı*** olub. Kənd ərazidə olan *Ballıqaya* dərəsinin adı ilə bağlıdır.

Başarat – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 36 km şimal-qərbdə, Qarabağ silsiləsinin ətəyində, dəniz səviyyəsindən 1410 metr yüksəklikdə, Kiçik Həkəri çayınının sahilində, Başarat dağının yaxınlığında yerləşən kənd. 2 noyabr 2020-ci il tarixdə erməni silahlı qüvvələrindən azad edilmişdir. Kəndin ərazisində *Abbasın yalı, Çinarlı bulaq, Dərə yurd, Əli bulağı, Əmən dağı, Hatın çayı, Hürneyid, Top ağac, Yağlı yurd* və s. adlı coğrafi adlar qeydə alınmışdır. ***Başarat*** adını dəqiq mənası məlum deyildir. Kəndin qədim, köklü sakinləri olan *əliyanlılar* XVIII əsrin axırlarında baş verən ictimai-siyasi hadisələrlə əlaqədar Türkiyə ərazilərinə köçmüşdür. Kəndin indiki əhalisi isə XIX əsrdə yaxınlıqda mövcud olmuş ***Hürneyit*** kəndindən köçən ailələrin nəsilləridir. XVI əsrə aid bir çox mənbədə ***Başaratbəy*** şəxs adı çəkilir. ***Başarat*** toponimini ***bəsirət*** sözü ilə də əlaqələndirənlər var. Bəlkə də şəhadət barmağımızı çox zaman "*başarat barmaq*", yəni, istiqamət verən barmaq kimi adlandırmağımız da bu anlamdan irəli gəlir.

Bəxtiyarlı – Göyərcik kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 28 kilometr şimal qərbdə, Bərgüşad çayının sahilində, dağətəyi və dağlıq ərazidə, dəniz səviyyəsindən 1300 metr yüksəklikdə yerləşən kənd. Kəndin ərazisində *Atlı Məmmədli, Bəxtiyarlı piri, Darlar, Daş*

arası, Korabulaq, Quyu bulağı, Məmmədli qəbiristanlığı, Məmmədli yeri və s. adlı coğrafi adlar qeydə alınmışdır. Bu etnotoponim özündə *qızılbaşların* ***Bəxtiyarlı*** tayfasının adını əks etdirir. ***Bəxtiyarilər*** cənub-qərbi İranda, əsasən Luristanda (*Bəxtiyariyyə*) yaşayan tayfalar qrupunun adıdır.

Bizmin – Həkəri çayı ilə onun qolu olan Xoşgədik çayı arasında, Muradxanlı kəndinin şərqində, dağətəyi ərazidə yerləşən kənd. Bəzi tədqiqatçılara görə, toponim türk dillərində "*dağ*" mənasında işlənən ***biz*** sözündən və ***Minq*** adlı türk mənşəli tayfanın adından ibarətdir. Dağın orada vaxtilə mövcud olmuş qədim ***min*** (***minq***) yaşayış məntəqəsinin adı ilə əvvəllər ***Biz Min*** adlanması, sonralar isə ***Bizmin*** formasında yazıya alınması güman edilir.

Boyunəkər – Çərəli kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 15 kilometr cənub-qərbdə, Bazarçayın sahilində, dağlıq və dağətəyi ərazidə, dəniz səviyyəsindən 910 metr yüksəklikdə yerləşən kənd. 9 noyabr 2020-ci il tarixdə erməni silahlı qüvvələrindən azad edilmişdir. Kəndin ərazisində *Ağ düz, Boruqlu dərə, Daşlı yoxuş, Hacı Nurzaha günbəzinin yanı, Qurd dərəsi, Qurd ölən yer, Mövlan yolu, Nərgizli yeri, Saqqızlı dərə* və s. adlı coğrafi adlar qeydə alınmışdır. Kənd ***Boyunəkərə*** yeri adlı sahənin yanında salındığına görə belə adlanıb.

Cılfır – Göyərcik kənd inzibati ərazi vahidinin tabeliyində, rayon mərkəzindən 28 kilometr şimal-qərbdə, Bərgüşad silsiləsinin yamacında, dəniz səviyyəsindən 1300 metr yüksəklikdə, Səlkin dağı (*hündürlüyü 1270 metr*) ətrafında yerləşən kənd. Kəndin ərazisində *Abbasqulu bulağı, Çətən qaya, Hüseynalının yeri, Qaranlıq bulağı, Pənahovun düzü, Səlkin dağı, Səlkin qayası* və s. coğrafi adlar qeydə alınmışdır. Bu yaşayış məntəqəsini XIX əsrin sonlarında ***Göyərcik*** kəndindən köçüb gəlmiş ailələr ***Cılfır meşəsi*** adlanan ərazidə saldıqları üçün kənd belə adlanmışdır. Azərbaycan dilinin Qərb dialektində ***Cılfır*** sözü "*çətin keçilən, sıx, kollu-koslu yer*" mənasını verir.

Çardaqlı – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 10 kilometr qərbdə, dağətəyi ərazidə yerləşən kənd. Kəndin ərazisində *Ehsan bulağı, Qarağac bulağı, Qısraq bulağı, Qızıl qaya, Sarıyoxuş* və s. adlı toponimlər qeydə alınmışdır. Xalq etimologiyasına görə, ***Çardaqlı*** toponimi keçmişdə orada gözətçi məntəqəsi kimi mövcud olmuş hündür təpədə düzəldilmiş daş ***çardağın*** adı ilə əlaqədardır.

Çaytumas – Həmzəli kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 20 kilometr cənub-şərqdə, dəniz səviyyəsindən 730 metr yüksəklikdə, Həkəri çayının sahilində yerləşən kənd. Yaşayış məntəqəsi 25 oktyabr 2020-ci il tarixdə erməni silahlı qüvvələrindən azad edilmişdir. Kəndin ərazisində *Dəvə aynağı, Gəmi, İbadullah dərəsi, İbrahim kahası, İsrafil piri, Kirişli dərə, Soltanlı* və s. coğrafi adlar qeydə alınmışdır. Yaşayış məntəqəsinin keçmiş adı ***Tumaslı*** olub. Qarşılığı ***Dağ Tumas*** kəndidir (*Cəbrayıl rayonu*). ***Çaytumas*** toponiminin əvvəlinə ***çay*** sözü onu eyniadlı digər yaşayış məntəqəsindən fərqləndirmək üçün əlavə edilib. Kənd XIX əsrdə indiki Cəbrayıl rayonunun ***Dağ Tumas*** kəndindən köçmüş ailələrin burada, Həkəri çayı sahilində məskunlaşması nəticəsində yaranıb. ***Tumas***-***Tumaslı*** tayfa adıdır.

Çərəli – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 13 kilometr cənub-qərbdə, dağlıq ərazidə, dəniz səviyyəsindən 920 metr yüksəklikdə yerləşən kənd. 9 noyabr 2020-ci il tarixdə erməni silahlı qüvvələrindən azad edilmişdir. Kəndin ərazisində *Ağ düz, Ağ yol, Bağ dərə, Böyük güney, Göynava, Hana dərə, Xəçin dərə, Xırman dərəsi, Qara Çuxur, Qaraquzey, Qaramalı dərə, Qaya dibi, Qəhrəman düşən, Qızıl ölən, Qoçu aşan, Mavdan, Şahsuvar bağı, Şəmsəddin piri, Taxtalar, Topallıq* və s. coğrafi adlar qeydə alınmışdır. ***Çərəli*** yaşayış məntəqəsini *sofulu* tayfasına mənsub olan ailələr ***Çərəli*** adlı yerdə saldığı üçün toponim belə adlanmışdır.

Davudlu – Rayon mərkəzindən şimalda, Novlu kənd inzibati ərazi vahidində, Bərgüşad çayının qolu olan Gorus çayınının dərəsində, dağətəyi ərazidə yerləşən kənd. Kəndin ərazisində *Laləzar körpüsü* və *Göy qala* kimi qədim abidələr var idi. Oykonim ***Davud*** şəxs adı ilə əlaqədar yaranmışdır.

Deştahat – **R**ayon mərkəzindən 38 kilometr şimal-qərbdə, Başarat kənd inzibati ərazi vahidində, Qarabağ silsiləsinin ətəyində, dəniz səviyyəsindən 1400 metr yüksəklikdə yerləşən kənd. Kəndin ərazisində *Dərə yeri, Cığa düz, Çöpün düzü* və s. coğrafi adlar qeydə alınmışdır. ***Deştahat*** (***Deşdahat***) yaşayış məntəqəsini *Böyük Hat* (indiki *Hat kəndi*) kəndindən ayrılmış ailələr ***Dəşt*** adlanan yerdə saldığına görə bu cür adlanmışdır. ***Dəşt*** sözü irandilli söz olub "*çöl*" mənasındadır. Bəzi mülahizələrə görə, yaşayış məntəqəsini *əliyanlı* tayfasına mənsub olan ailələr salmışdır. Bir çox tədqiqatçılar ***hat*** komponentini ***həd*** ("*qıraq, kənar"*) mənasında izah edirlər. Toponimin tərkibindəki ***hat*** komponenti alban tarixi ilə əlqədardır. Moisey Kalankatuklunun "*Alban tarixi*" adlı əsərində belə cümlələr də vardır: "*Babik püşk atdı. Qorun bəxtinə* ***Hat kəndi*** *düşdü, Qazanın bəxtinə isə Şalat kəndi düşdü*". Toponimin digər izahı ***daş*** komponenti ilə bağlıdır. Oykonim yerli tələffüz formasına uyğun olaraq ***Daşdı Hat*** şəklində işlənmişdir**.** XIX əsrdə aparılan kameral siyahıyaalma sənədlərində, eləcə də rus tədqiqatçısı Z.P.Zelinskinin 1886-cı il tarixli "*Yelizavetpol quberniyasının Zəngəzur qəzasında dövlət himayəsində olan kəndlərin iqtisadi məişət vəziyyəti*" adlı tədqiqat əsərində əliyanlı tayfasına mənsub ***Böyük Hat***, ***Kiçik Hat*** və ***Daşlı Hat*** kəndlərinin adı çəkilir.

Dəmirçilər – Rayon mərkəzindən 6 km cənubda, Dəmirçilər inzibati ərazi vahidində, Bazarçayın sağ sahilində, Bərgüşad və Ağa çayları yaxınlığında, dəniz səviyyəsindən 730 metr yüksəklikdə yerləşən kənd. Kəndin ərazisində *Ağ qaya, Arx altı bulağı, Avdarxana düzü, Bağmanlar düzü, Böyük dərə, Çaxır-Çuxur dərəsi, Əhmədin bulağı, Hacı Bədəl körpüsü, İnnablı dərə, Kosa dağı, Qara qaya, Qaravul dərəsi, Qaya dibi, Qazan qayası, Qız-Oğlan qayası, Qilbə dibi, Mağal yeri bulağı, Sarılıq bulağı, Sumaxlı təpə, Şahtaxtı, Taxt yurdu, Yemliki dərə, Yumru təpə* və s. coğrafi adlar qeydə alınmışdır. Yaşayış məntəqəsinin adı ***dəmirçilər*** tayfasının adı ilə əlaqədardır. XVI əsrdə *qızılbaş* tayfaları sırasında adları çəkilən ***dəmirçilər*** sonralar *qazax* tayfa birliyinin ən qüdrətli tirələrindən birinə çevrilmişlər.

Diləli Müskənli – Dondarlı kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 6 kilometr cənubda, Bərgüşad çayının sol sahilində, dəniz səviyyəsindən 740 metr yüksəklikdə yerləşir. Ərazidəki iki ***Müskənli*** kəndini fərqləndirmək üçün biri ***Diləli Müskənli***, o biri ***Teymur Müskənli*** adlandırılmışdır. Bu toponimin mənası "*Diləli kəndinin yaxınlığındakı Müskənli kəndi*" deməkdir. Yerli sakinlərin dediklərinə görə, kəndin salınması XVIII əsrə təsadüf edir. Deyilənə görə kəndin adı əvvəllər ***Dinovlu Müskənli*** olmuş, sonra tədricən ***Diləli Müskənli*** adına çevrilmişdir. Bir çox tədqiqatçılar toponimin tərkibindəki ***diləli*** komponentini ***deləli*** tayfasının adı ilə izah edirlər. Orta əsrlərdə indiki Özbəkistan ərazisində ***Müskan*** adlı şəhər və əyalət olmuşdur. Güman ki, XIII əsrdə monqol işğalları və Teymurun yürüşləri zamanı *Müskan* əhalisinin bir qismi Azərbaycana köçərək burada məskunlaşmışlar. ***Müskənli*** sözü "*Müskandan olanlar*", "*Müskənlilər*" mənasını daşıyır.

Dondarlı – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 7 km məsafədə, Bərgüşad silsiləsində, dəniz səviyyəsindən 750 metr yüksəklikdə, Hərtiz dağının ətəyində, Bazarçayın sağ sahilində yerləşən kənd. Kəndin ərazisində *Ağ dərə, Ağ yol, Ağa çayı, Allahverdi təpəsi, Bazar düzü, Bərgüşad çayı, Böyük gözət, Dağbaşı, Hacı Bədəl körpüsü, Hərtiz dağı, İt uçan, Kürd qəbri, Mir arxı, Mir Mehdi ziyarətgahı, Nəsir zəmisi, Muncuqlu təpə, Saqqız ağacı, Sarı yamac, Şərif bağı, Yel piri, Zerzək* və s. coğrafi adlar qeydə alınmışdır. ***Dondarlı*** toponimi qədim türkdilli ***dondar***

tayfasının adı ilə əlaqədardır. Antik mənbələrdə ***dondarlar*** m. ö. V əsrdən məlumdur. Strabona, Pliniyə, Plutarxa görə ***Dondarlar*** Şimali Qafqazda və Azov dənizi sahillərində yaşamışlar. Azərbaycanda orta əsrlərdə ***dondar*** etnonimindən törənən toponimlər çoxdur. "*Kitabi-Dədə Qorqud*" dastanının qəhrəmanlarından birinin adı *Dəli Dondardır*. Kəndin ərazisində XIX əsrə aid məscid və "*Hacı Bədəl körpüsü*" memarlıq abidəsi var.

Eyvazlı – Rayon mərkəzindən 30 kilometr şimalda, Novlu kənd inzibati ərazi vahidində, Qarabağ silsiləsində, dağlıq ərazidə, dəniz səviyyəsindən 1500 metr yüksəklikdə yerləşən kənd. Tarixi mənbələrdən aydın olur ki, ***eyvazlılar*** *Qızılbaş* tayfa birliyinə daxil olan *şahsevənlərin* ***təklə*** tirəsinə mənsub olmuşlar.

Əbilcə – Ulaşlı kəndi inzibati ərazi vahidində, rayon mərkəzindən 18 kilometr cənub-qərbdə, Bərgüşad və Həkəri çaylarının qovuşduqları sahənin yaxınlığında, Bərgüşad çayının sağ sahilində, dağətəyi ərazidə, dəniz səviyyəsindən 730 metr yüksəklikdə yerləşən kənd. Yaşayış məntəqəsi 28 oktyabr 2020-ci il tarixdə erməni silahlı qüvvələrindən azad edilmişdir. Toponim ***Əbil*** şəxs adından və kürd dilində yer, məkan bildirən -***cə*** şəkilçisindən ibarət olub.

Əfəndilər – Həmzəli kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 24 kilometr cənub-şərqdə, dəniz səviyyəsindən 730 metr yüksəklikdə, Həkəri çayının sahilində yerləşən kənd. Yaşayış məntəqəsi 25 oktyabr 2020-ci il tarixdə erməni silahlı qüvvələrindən azad edilmişdir. Kəndin ərazisində *Çələbi dərəsi, Çələbi ocağı, Hacı Qaraman piri, Xalıddin baba piri, Qara güney, Qulu bulağı, Söyüdlü kanalı, Yəhər daş* və s. coğrafi adlar qeydə alınmışdır. Kəndin keçmiş adı ***Türk Əfəndilər*** olub. Bəzi məlumatlara görə, vaxtilə XVIII əsrdə Türkiyədən gəlmiş ***Məmməd Əfəndi*** adlı biri bu kəndin bünövrəsini qoyduğuna görə kənd də onun adı ilə adlanmışdır.

Əliquluuşağı – Eyniadlı kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 17 kilometr şimal-qərbdə, dağətəyi ərazidə yerləşən kənd. Əliquluuşağı kəndinin ərazisində Göy qala (*V əsr*), bulaq (*XIX əsr*), Laləzər körpüsü (*1867-ci il*), Qalalı qalası kimi tarixi-memarlıq abidələri var. Kənddə *Allahverdi bulağı* (*1834-cü il*), *Ağca yazı, Balaban təpə, Çay bağlar, Çinar bağlar, Çürük dağ, Dar dərə, Hamar dərə, Həcətkə ocağı, İmamzadə piri, Qalaaltı, Qara qaya, Qaraçı yurdu, Qızıl qaya, Quru dərə, Mağara ibadətgah* (*I-IV əsrlər*), *Nəbi bağı, Paşa bulağı* (*1835-ci il*), *Pələngölən, Oğuz qəbiristanlığı, Orta dərə, Şiş qayalıq, Taya daş, Tənəkli dərə, Vəli düzü, Yolaşan* adlı coğrafi adlar qeydə alınmışdır. Yaşayış məntəqəsinin qədim adı ***Qarabaşlı*** olub. Toponimin mənası "*Əliqulunun törəmələri*", "*Əliqulunun uşaqları*" deməkdir. ***Qarabaşlı*** kəndindən buraya köçmüş ilk ailələr ***Əliquluuşağı*** nəslindən olduğuna görə yaşayış məntəqəsi belə adlanmışdır.

Əyin – Çardaqlı kənd inzibati ərazi vahidində, dağətəyi ərazidə yerləşən kənd. Kəndin ərazisində *Armudluq, Çayzəmi, Fındıqlıq, Həcər bulağı, Səngər dağı* və s. coğrafi adlar qeydə alınmışdır. ***Əyin*** yaşayış məntəqəsini keçmiş ***Hacılı*** kəndindən (hazırda Qubadlı şəhərinə birləşmişdir) köçmüş ailələr ***Ayin*** dağında (indiki ***Səngər dağı***) saldığına görə belə adlanmışdır.

Fərcan – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 15 kilometr cənub-qərbdə, dağətəyi ərazidə, dəniz səviyyəsindən 1100 metr yüksəklikdə, Novruz və Hərtiz dağlarının ətəyində yerləşən kənd. Bəzən adı ***Fərəcan*** kimi də yazılır. Kəndin ərazisində *Alı dərəsi, Bəybulaq, Bəylik, Böyük yer, Cılfır, Daşlı yer, Dül-Dül piri, Ədi dağı, Əhmədbəy evi, Gur-Gur, Hacıqurbanlı, Kilsənin yalı, Qalaboynu, Qalatəpəsi, Mal təpəsi, Maraldaş, Novruz dağı, Soltanlı, Şam düzü, Şızxı, Yetər yurdu* və s. coğrafi adlar qeydə alınmışdır. Kəndin əsl adı ***Fərəcan*** olmalıdır. Kənd keçmişdə ***Sarallı Fərəcan*** da adlanmışdır. Bu da kəndin ***sarallı*** tayfasının qışlaq yerində salınması ilə bağlıdır.

Gödəklər – Qubadlı inzibati ərazi dairəsində, Bərgüşad çayının sol sahilində yerləşən kənd. Kənd keçmişdə Mil düzündə yaşamış ***xələclər*** tayfasının ***gödəkli*** tirəsinə məxsus olan ailələrin bir hissəsinin burada, Bərgüşad çayı sahilində məskunlaşması nəticəsində yaranmışdır.

Göyər Abbas – Göyərcik kənd inzibati ərazi dairəsində, Bərgüşad silsiləsinin yamacında, rayon mərkəzindən 26 kilometr şimal-qərbdə, dağətəyi ərazidə yerləşən kənd. Kəndin ərazisində *Alpaşa yeri, Batıq, Bərəhe düzü, Biçənək, Əzgilli, Göyərabbas dəyirmanı, Güllə bulağı* və s. coğrafi adlar qeydə alınmışdır. ***Göyər Abbas*** oykoniminin birinci komponenti ***Göyərcik*** sözünün ellipsiyaya uğramış variantıdır.

Göyərcik – Eyniadlı kənd inzibati ərazi dairəsində, rayon mərkəzindən 22 kilometr qərbdə, Bazarçayı silsiləsinin şimal-şərq yamacında, dəniz səviyyəsindən 1300 metr yüksəklikdə yerləşən kənd. Kəndin ərazisində *Bədəl bulağı, Əli bulağı, Əzizin kahası, Göyərəbas çay, Güllü yer, Kəpəz dağı, Qalaça,Quşçu bulağı, Quşçunun düzü, Maraluçan qaya, Pədərə, Top daş, Zağlıq bulağı* və s. coğrafi adlar qeydə alınmışdır. Yerli məlumatlara görə, ***Göyərcik*** yaşayış məntəqəsini XIX əsrin ortalarında qonşu *Qiyaslı* kəndindən köçüb gələn ailələr salmışlar. Bəzi tədqiqatçılar ***Göyərcik*** toponimini "*göylük, yaşıllıq, otluq*" mənası ilə izah edirlər. Bəziləri isə onu ***kuvər*** ("*arxac*") sözü ilə əlaqələndirir. Toponimi türkdilli ***kuvərçi*** etnonimi ilə də bağlayanlar var.

Göyyal – Fərcan kənd inzibati ərazi dairəsində, rayon mərkəzindən 12 kilometr cənub-qərbdə, dağlıq ərazidə, dəniz səviyyəsindən 1100 metr yüksəklikdə, Bərgüşad çayının sağ sahilində yerləşən kənd. Kəndin ərazisində *At qız, Bozlu yal, Cəvizdər dərəsi, Cümcümə, Gözət daş, Həcətgah piri, Hərtiz piri, Qalaça, Quru dərə, Maral duracağı, Muzla bulaq, Şeyx Əfəndi, Tayfca, Türk qəbri, Yeddi şərik, Yol aşan* və s. coğrafi adlar qeydə alınmışdır. ***Göyyal*** toponimi ***Göy*** və ***yal*** sözlərindən ibarətdir. ***Göy*** sözü "*yaşıl*", "*göylük*" mənasında, ***yal*** isə "*dağ beli*" anlamındadır.

Gürcülü – Novlu kənd inzibati ərazi dairəsində, Bərgüşad silsiləsinin yamacında, dəniz səviyyəsindən 1500 metr yüksəklikdə yerləşən kənd. Kənddə səkkiz bucaqlı türbə, bulaq və s. vardı. Kəndin ərazisində *Fındıqlı bulaq, Söyüdlü bulaq, Türbə yolu* və s. coğrafi adlar qeydə alınmışdır. ***Gürcülü*** yaşayış məntəqəsinin salınması haqqında iki fikir var. Birinci ehtimala görə, kəndin ilk sakinləri *Gürcüstandan* gəlmiş azərbaycanlı ailələr olduğu üçün kənd belə adlanmışdır. İkinci ehtimala görə isə, mülkədarlar ***gürcü*** əsirlərini öz torpaq sahələrində işlətmiş, sonralar onlar geri qayıtsalar da kənd ***Gürcülü*** adlandırılmışdır.

Hal – Eyniadlı inzibati ərazi dairəsində, Bərgüşad çayının (*Bazarçayın*) sahilində, rayon mərkəzindən 11 km cənub-şərqdə, dağlıq ərazidə, dəniz səviyyəsindən 750 metr yüksəklikdə yerləşən kənd. 9 noyabr 2020-ci il tarixdə erməni silahlı qüvvələrindən azad edilmişdir. Hal kəndinin ərazisində *Kaftarrı, Körpü yanı, Nərgizdi, Ortaclar, Şıx Məmməd piri, Taxtalar, Toxmaq təpə, Vənli dərə* və s. coğrafi adlar qeydə alınmışdır. ***Hal*** yaşayış məntəqəsinin adı ədəbiyyatlarda ***Gal, Gəl, Kol, Xal, Qal*** variantlarında da qeydə alınmışdır. Azərbaycan türklərində cinlərin dişisinə *hal* deyilir. Folklorumuzda *hal* anasının ən çox qorxduğu əşya iynədir. Təsəvvürlərə görə, əgər onların üstünə iynə sancılarsa gözə görünər, insana tabe olarlar.

Hat – Başarat kənd inzibati ərazi dairəsində, rayon mərkəzindən 35 kilometr şimal-qərbdə, Qarabağ silsiləsinin ətəyində, dəniz səviyyəsindən 1400 metr yüksəklikdə yerləşən kənd. Kəndin ərazisində *Hatın çayı, Hatın düzü, Söyüdlü bulaq* və s. coğrafi adlar qeydə alınmışdır. Yaşayış məntəqəsininin keçmiş adı ***Böyük Hat*** olub. ***Hat*** yaşayış məntəqəsini ***əliyanlı*** tayfasına mənsub olan ailələr salmışdır. Bəzi tədqiqatçılara görə, toponim ***həd*** ("*qıraq, kənar*") sözündəndir.

Həkəri – Muradxanlı kənd inzibati ərazi dairəsində, rayon mərkəzindən 34 kilometr şimalda, Həkəri çayının sol sahilində, dağətəyi ərazidə, dəniz səviyyəsindən 850 metr yüksəklikdə yerləşən kənd. ***Həkəri*** adına qədim mənbələrdə rast gəlinir. Qədim salnaməçilər, tarixçilər *Babək hərəkatı* ilə əlaqədar 831-ci il hadisələrindən bəhs edərkən ***Həkəri*** qalasının adını çəkir. Həmin qala hazırda ***Qalacıq*** adı ilə məlumdur. ***Həkəri*** ilə bağlı toponimlər ***həkəri*** tayfasının adı ilə əlaqədardır. ***Həkəri*** adı ilə bağlı toponimlər XVI–XVII əsrlərdə Türkiyənin ***Hakkari*** vilayətindən Zəngəzura köçürülmüş ***həkəri*** tayfasının adı ilə bağlıdır. İndi Türkiyə və İran ərazilərində də ***Həkərilər*** yaşayırlar. Zəngilan rayonunda da *Həkəri* (*Akara*) adlı qəsəbə var.

Həmzəli – Eyniadlı kənd inzibati ərazi dairəsində, rayon mərkəzindən 22 kilometr cənub-şərqdə, dəniz səviyyəsindən 730 metr yüksəklikdə, Həkəri çayının sol sahilində, Laçın–Məmmədbəyli avtomobil yolu kənarında, İncə düzündə yerləşən kənd. 9 noyabr 2020-ci il tarixdə erməni silahlı qüvvələrindən azad edilmişdir. Kəndin ərazisində *Gəyən düzü, İlanlı daş, Kaftar qaya, Kərbəlayı kahası, Məşədi Dadaş novu, Pir daş, Sulu daş, Şiş təpə, Tut piri, Yel piri* və s. coğrafi adlar qeydə alınmışdır. Bu yaşayış məntəqəsi el arasında ***Dəlilər Həmzəlisi*** adı ilə tanınır. ***Həmzəli*** yaşayış məntəqəsini vaxtilə indiki ***Qarakişilər*** kəndinə birləşmiş ***Həmzəli*** (*el arasında bəzən ona* ***Korlar Həmzəlisi*** *də deyirlər*) kəndindən çıxmış ailələr saldığı üçün belə adlanmışdır. Bir rəvayətə görə, kişi paltarı geymiş bir qız *Həmzəlidə*, Həkəri çayının üstündə körpü tikdirir. Bir neçə ildən sonra körpü hazır olduqda qız paltarını dəyişir və guya onun qadın olduğunu başa düşmədikləri üçün kəndi ***Korlar Həmzəlisi*** adlandıraraq çıxıb gedir. Sonralar ***Korlar*** ləqəbini mənliklərinə sığışdırmayan bir neçə ailə kənddən köçüb yeni yaşayış məntəqəsi saldıqda , guya ata-baba yurdlarını tərk etdikləri üçün onların kəndini də ***Dəlilər Həmzəlisi*** adlandırmışlar.

Hərtis – Fərcan kənd inzibati ərazi dairəsində, rayon mərkəzindən 9 kilometr cənubda, Bərgüşad silsiləsinin cənub-qərb qurtaracağında, dağlıq ərazidə, dəniz səviyyəsindən 1150 metr yüksəklikdə yerləşən kənd. Bəzən adını ***Hərtiz*** kimi də yazırlar. Kəndin ərazisində *Baxış bağı, Böyük Güney, Çuxur yurd, Hərtiz piri, Keçəl təpə, Mürsəlin bağı, Vənətli, Yel piri* və s. coğrafi adlar qeydə alınmışdır. ***Hərtis*** yaşayış məntəqəsi öz adını ərazisinə yaxın yerləşən ***Hərtis*** dağının adından almışdır. XX əsrin əvvəllərinə qədər rusca mənbələrdə toponimin ***Qartikiz***, ***Xartiuz*** variantları da olub.

Hüseynuşağı – Qaralar kənd inzibati ərazi dairəsində, rayon mərkəzindən 18 kilometr cənubda, Həkəri çayının sahilində, dəniz səviyyəsindən 900 metr yüksəklikdə, Yazı düzündə yerləşən kənd. Yaşayış məntəqəsini ***Hüseynuşağı*** (hazırda ***Xudaverdilər*** adlanır) nəslindən olan ailələr saldığı üçün toponim belə adlanmışdır. Sonralar Qarabağdan *Əbilli* və Dağıstandan *Xələflilər* nəsli də köçüb bura gəlmişlər.

Xandək – Muradxanlı kənd inzibati ərazi dairəsində, Həkəri çayının sahilində, dağətəyi ərazidə, dəniz səviyyəsindən 850 metr yüksəklikdə yerləşən kənd. Kəndin adı X əsrdə Orta Asiyada Çu çayının vadisində və Talas Alatausu ərazisində yaşamış və sonra Səlcuq oğuzlarına qoşulmuş türk – ***xandak*** tayfasının adı ilə bağlıdır. Yerli məlumata görə, yaşayış məntəqəsini Cənubi Azərbaycanın ***Xandək*** kəndindən köçüb gəlmiş ***Hacı Məmməd*** adlı şəxs salmışdır. Yaşayış məntəqəsinin adı bəzən ***Xəndək*** şəklində də yazılır.

Xanlıq – Eyniadlı inzibati ərazi dairəsində, rayon mərkəzindən 16 km cənub-şərqdə, Həkəri çayının sahilində, dağətəyi ərazidə, Gəyən düzü ətrafında yerləşən kənd. Yaşayış məntəqəsi 25 oktyabr 2020-ci il tarixdə erməni silahlı qüvvələrindən azad edilmişdir. ***Xanlıq*** kənd yaşayış məntəqəsinin ərazisi əvvəllər eyniadlı mülkün adı olmuşdur. ***Xanlıq*** mülkü Qarabağ xanı

Pənahəli xanın oğlu Mehrəli bəyin malikanəsi olmuşdur. Sonralar burada salınmış ***Xanlıq kəndi*** də həmni mülkün adı ilə adlanmışdır. Orta əsrlərdə türkdilli xalqlarda ictimai-siyasi birliyə ***Xanlıq*** deyilərdi.

Xələc – Çardaqlı kənd inzibati ərazi dairəsində, Bərgüşad çayının sahilində, dağlıq ərazidə, Qarabağ silsiləsində yerləşən kənd. Kəndin ərazisində *Ağ yazı, Atılmış, Əsgər bulağı, Hacıqulu bulağı, Xəs zəmi, Qaranlıq dərə, Zeynəb bulağı* və s. coğrafi adlar qeydə alınmışdır. Yaşayış məntəqəsinin adı ***Xələc*** türkdilli oğuz tayfasının adı ilə bağlıdır. ***Xələclər*** – erkən orta əsrlərdə Amudərya çayının cənub sahilində yaşamış oğuz tayfalarındandır. Ərəb xəlifəsinin qvardiyasında və ordusunda xələclər də xidmət etmişlər. ***Xələclər*** Səlcuq oğuz tayfa birliyinə daxil idi. Səlcuqlar dövründə onların bir qismi İrana, oradan da Azərbaycana gəlmişdir. XII-XVII əsrlərdə Yaxın Şərqin işğal olunmasında iştirak etmiş xələclərin bir hissəsi indi də İranda və Türkmənistan ərazisində yaşayırlar. XIX əsrin II yarısında ***Xələclər*** Cavad qəzasında yaşayır və maldarlıqla məşğul olurdular. *Xələclər* XIX əsrdə 27 tirədən ibarət idi. ***Xələc*** sözü Azərbaycan toponimiyasında omonim yer adlarındandır. ***Xələc*** haqqında Əbdülqazi Bayandurun belə bir rəvayəti var: *Xələc tayfası ta qədimdən Xorasanda və İraqda yaşamış qədim türk tayfalarından biridir. Monqol hücumları zamanı bir çox* ***xalaclar*** *(****xələclər****) məhv oldu, bir hissəsi isə Azərbaycanda sığınacaq tapdı. Türk xaqanı Oğuz xanın İrana yürüşü vaxtı onun əsgərlərindən biri yük heyvanı çatışmadığından və arvadı hamilə olduğundan ordudan geri qalmışdır. Əsgər xaqanın yanına gətirilərdə Xaqan ondan geridə qalmasının səbəbini öyrənir. Əsgərin arvadı doğmuşdu. Çağa ana südü olmadığı üçün əziyyət çəkirdi. Oğuz xan əsgərə hədiyyələr verdi və onu hərbi xidmətdən azad etdi, uşağı isə "****qal ac****" adlandırdı...* Bu rəvayətə görə, ***Qalac/Xalac (Xələc, Xılıc, Xalıc, Xlıç)*** adı həmin uşağın adından əmələ gəlmişdir.

Xəliloba – Aşağı Cibikli kənd inzibati ərazi dairəsində, dağətəyi ərazidə yerləşən kənd. Bəzi tədqiqatçılara görə ***Xəliloba*** toponimi təhrifə uğramışdır. Əslində yaşayış məntəqəsinin adı 1979-cu ilə qədər rəsmi sənədlərdə qeyd olunduğu kimi ***Xallava*** , ya da ***Xanlava*** formasında olmuşdur. Onların fikrincə, ***xallava – xal*** (*yer,torpaq*) və -***la -va/lau/ləv*** (*sahil*) sözlərinin, ***Xanlava*** isə ***xan*** (*ev, məskən*) və ***lava*** komponentlərinin birləşməsindən ibarət olub, birinci formada "*sahil yeri*", ikinci formada isə "*sahildə ev, məskən*" mənasındadır.

Xəndək – Muradxanlı kənd inzibati ərazi dairəsində, Həkəri çayının sahilində, dağətəyi ərazidə, dəniz səviyyəsindən 850 metr yüksəklikdə yerləşən kənd. 9 noyabr 2020-ci il tarixdə erməni silahlı qüvvələrindən azad edilmişdir. Kəndin ərazisində *Sulu dərə, Yazı düzü* və s. coğrafi adlar qeydə alınmışdır. Bu yaşayış məntəqəsini vaxtilə Cənubi Azərbaycanın ***Xəndək*** kəndindən gəlmiş ***Hacı Məmməd*** adlı şəxs saldığına görə kənd belə adlanmışdır. Oykonimi X əsrdə Orta Asiyada Çu çayının vadisində və Talas Alatausu ərazisində yaşamış və sonra Səlcuq oğuzlarına qoşulmuş ***Xandak*** türk tayfasının adı ilə də bağlayanlar var.

Xıdırlı – Teymur Müskənli kənd inzibati ərazi dairəsində, Bərgüşad çayının sahilində, dağlıq ərazidə, dəniz səviyyəsindən 550 metr yüksəklikdə yerləşən kənd. ***Xıdırlı*** oykonimi etnotoponimdir. Yerli məlumata görə, kəndi ***Xıdır*** adlı şəxs salıbdır. Kənd ***Xıdırlı*** nəslinin adı ilə bağlıdır.

Xocahan – Eyniadlı inzibati ərazi dairəsində, rayon mərkəzindən 22 km cənub-şərqdə, Həkəri çayının sağ sahilində yerləşən kənd. 9 noyabr 2020-ci il tarixdə erməni silahlı qüvvələrindən azad edilmişdir. Kəndin ərazisində *Əjdaha dərəsi, Həmid ağa ocağı, Quzey bulağı, Mavdan dərəsi, Umud kahası* və s coğrafi adlar qeydə alınmışdır. Toponimin əsasını ***xoca*** komponenti təşkil edir. Kəndin adı "*Xocalar, xocaların məskunlaşdığı yer*" mənasındadır.

Xocik – Eyniadlı inzibati ərazi dairəsində, rayon mərkəzindən 25 kilometr şimalda, Həkəri çayının sahilində yerləşən kənd. 9 noyabr 2020-ci il tarixdə erməni silahlı qüvvələrindən azad edilmişdir. Kəndin ərazisində *İldırım çaxan, Qara Güney, Qanlı yal, Nazı ölən, Pir yeri, Yal qəbiristanlıq* və s. coğrafi adlar qeydə alınmışdır. Bəzi məlumatlara görə, yaşayış məntəqəsini Cənubi Azərbaycanın ***Xocik*** kəndindən köçüb gələn ailələr saldıqları üçün o, belə adlanmışdır. ***Xocik*** ifadəsinin tam mənası isə hələ ki, məlum deyildir. ***Xoca*** sözünün "*kiçik tacir*" anlamı da var.

İşıqlı – Muradxanlı inzibati ərazi dairəsində, rayon mərkəzindən 26 kilometr məsafədə, Həkəri çayının sahilində, dəniz səviyyəsindən 850 metr yüksəklikdə, dağətəyi ərazidə yerləşən kənd. 2 noyabr 2020-ci il tarixdə erməni silahlı qüvvələrindən azad edilmişdir. Kəndin ərazisində *Binədərə məhəlləsi, Damlanac yurdu, Xəndək yalı, Şeyx Şərif qəbiristanlığı, Şıxlı* və s. coğrafi adlar qeydə alınmışdır. Kəndin keçmiş adı ***Ciyciyi*** olub. Kənd sonralar ***Şeyx Şərif*** adlı şəxsin adı ilə ***Şıxlı*** adlanmış, daha sonralar tələffüzdə ***İşıqlı*** formasına düşərək belə də rəsmiləşdirilmişdir. Kəndin şimal**-**şərqindəki köhnə qəbiristanlıq *Şeyx Şərif qəbiristanı* adlanır. Yaxınlıqda mövcud olmuş Binədərə, Damlanıc və Narcaq kəndləri də 1937**-**ci ildə İşıqliya birləşdirilmiş və kəndin ərazisi xeyli böyümüşdür.

Kavdadıq – Rayon mərkəzindən 18 kilometr cənubda, Qaralar kənd inzibati ərazi dairəsində, Bazarçay (*Bərgüşad*) ilə Həkəri çaylarının birləşdiyi yerdə, Yazı düzündə, dəniz səviyyəsindən 900 metr yüksəklikdə yerləşən kənd. Yaşayış məntəqəsi 30 oktyabr 2020-ci il tarixdə erməni silahlı qüvvələrindən azad edilmişdir. Kəndin ərazisində *Göyərtmə daşı, Sarı Əhməd qəbiristanlığı, Yerlicə dağı* və s. coğrafi adlar qeydə alınmışdır. Xalq etimologiyasına görə, ***Kavdadıq*** toponimi ***Kovxalıq*** (*kovxaya, yəni kəndxudaya məxsus*) sözündəndir. Bəzi araşdırıcılar bu toponimi iki variantda yozmağa çalışır. İlkin mülahizəyə görə, kəndin adı ***Kavdoabdıq*** olub. İkinci mülahizəyə görə isə, adın tərkibindəki ***kavda*** kompenenti fars dilində ***kövdən*** ("*yabı"* deməkdir) sözündən təhrifdir və toponim "*arıq düşmüş atlar saxlanılan yer*", "*arıqlamış atlar üçün ayrılmış otlaq, örüş sahəsi*" və yaxud, "*yabılar saxlanan yer*", " *yabılar üçün ayrılmış otlaq, örüş sahəsi*" mənasındadır.

Kürd Mahrızlı – Rayon mərkəzindən 23 kilometr cənub-şərqdə, Zilanlı kənd inzibati ərazi dairəsində, Həkəri və Bərgüşad çaylarının birləşdikləri yerdə, Həkəri çayının sol sahilində, dağətəyi düzənlikdə, Qarabağ silsiləsində, dəniz səviyyəsindən 350 metr yüksəklikdə yerləşən kənd. Yaşayış məntəqəsi 23 oktyabr 2020-ci il tarixdə erməni silahlı qüvvələrindən azad edilmişdir. Kəndin ərazisində *Əyri dərə, Qamışlıq, Yazı düzü* və s. coğrafi adlar qeydə alınmışdır. Toponimin əsl adı ***Kürd Mafruzludur***. Yaşayış məntəqəsi 1820**-**ci ildə İrandan köçüb gəlmiş *mafruzluların* bir tayfasının adından yaranmışdır. Kənd Cənubi Azərbaycanın ***Mahrızlı*** kəndindən gəlmiş ailələrin burada məskunlaşması nəticəsində yaranmışdır.

Qaraağac – Rayon mərkəzindən 20 kilometr şimal-qərbdə, Qaracallı kənd inzibati ərazi dairəsində, Həkəri çayının sağ sahilində, dağlıq ərazidə, dəniz səviyyəsindən 1150 metr yüksəklikdə yerləşən kənd. Kəndin əsl adı ***Qaraağaclı*** olmalıdır. Yaşayış məntəqəsi ***Qarağaclı*** adlı yerdə salındığı üçün belə adlandırılmışdır. ***Qaraağac*** oykonimi ***qara*** və ***ağac*** sözlərindən ibarətdir. ***Qarağac*** toponimindəki "***qara***" sözü "*böyük*" mənasını daşıyır.

Qarabulaq – Arazın qolu olan Köndələnçayın sahilində, Qarabağ silsiləsinin ətəyində, rayon mərkəzindən 30 km cənub-şərqdə yerləşən kənd. Kənd XIX əsrin əvvəllərində Cənubi Azərbaycanın Qaradağ mahalından gəlmiş ailələrin ***Qarabulaq*** adlanan yerdə məskunlaşması nəticəsində yaranmışdır.

Qaracallı – Eyniadlı inzibati ərazi dairəsində, rayon mərkəzindən 24 km şimal-şərqdə, Həkəri çayının sağ sahilində, dağətəyi ərazidə, dəniz səviyyəsindən 1200 metr yüksəklikdə, Laçın-Məmmədbəyli şose yolu kənarında yerləşən kənd. 4 noyabr 2020-ci il tarixdə erməni

silahlı qüvvələrindən azad edilmişdir. Kəndin ərazisində *Çoban taxtı, Humaq qayası, Qaladərəsi, Qorxunc dərə* və s. coğrafi adlar qeydə alınmışdır. Kəndin adı XVIII əsrdə Naxçıvandan Pənahəli xanın Qarabağa köçürdüyü kəngərlilrin ***Qaracallı*** tayfası ilə bağlıdır. Sonralar Qarabağda yaşamış ***qaracallılar*** Azərbaycanın müxtəlif rayonlarına yayılmış, ***Qaracallı*** adlı bir neçə yaşayış məntəqəsi binə etmişlər. Bəzi məlumatlara görə, türkləşmiş kürdlər "***Qaracallı***", yaxud "*Qaraçorlu*", "*Bərgüşad*" , "*Bəxtiyarlı*" və "*Kürd*" tayfalarına mənsubdur.

Qarağac – Qaracallı kənd inzibati ərazi dairəsində, Həkəri çayının sahilində, dağlıq ərazidə yerləşən kənd. Yaşayış məntəqəsi ***Qaraağaclı*** adlı yerdə salındığı üçün belə adlanmışdır. Sonralar bu toponimin tərkibindəki ***-lı*** şəkilçisi düşmüşdür.

Qaraimanlı – Bala Soltanlı kənd inzibati ərazi dairəsində, rayon mərkəzindən 29 kilometr şərqdə, Həkəri çayının sol sahilində, dağətəyi ərazidə, dəniz səviyyəsindən 820 metr yüksəklikdə yerləşən kənd. 9 noyabr 2020-ci il tarixdə erməni silahlı qüvvələrindən azad edilmişdir. Kəndin ərazisində *Şorca bulağı, Şorca dərəsi, Yanıx düzü* və s. coğrafi adlar qeydə alınmışdır. ***Qaraimanlı*** yaşayış məntəqəsini XIX əsrin sonlarında ***Qara İman*** adlı şəxs saldığına görə kənd belə adlanmışdır. ***Qaraimanlı*** (***Qaramanlı***) adındakı ***qara*** sözü cəsarət, igidlik bildirir. ***Qaramanlar*** Səlcuq sultanı Toğrulun zamanında (1038**-**1063) əvvəlcə Anadoluya, buradan da başqa yerlərə, o cümlədən, Azərbaycana yayılmışlar. Onların XII əsrdə Azırbaycana şimaldan gəlmələri fikri də mövcuddur. ***Qaramanlar*** əsasən *varsaq, qara, qıştəmir, isa* və *kosun* qollarından ibarətdir. XV əsrdə Cənubi Azərbaycanda yaşayan **Qaramanlar** *qızılbaş* tayfalarından biri olmuşlar. Səfəvi şahları bu tayfaya hərbi xidmətlərinə görə Azərbaycanda çoxlu müxtəlif yerlər, torpaqlar vermişlər. Tarixdən məlumdur ki, ***Qaramanlı*** əsasən Kiçik Asiyada yaşayan türkdilli tayfadır. Onlar Azərbaycana XIII əsrin I yarısında gəliblər. ***Qaramanlar*** oğuzların ***samur*** tayfa birliyinə mənsubdurlar. Onlar Səlcuq sultanı Toğrulun zamanında Anadoluya gələrək müstəqil ***Qaraman bəyliyi*** yaradıblar. Azərbaycandakı ***qaramanlar*** azərbaycanlıların etnogenezində iştirak ediblər. Qaraqoyunlu hökmdarı Qara Yusifin qoşun başçısının adı ***Qaraman*** olub. Qarabağın hakimi Yarəhməd (XIV əsr) ***qaramanlı*** tayfasındandır. Səfəvi ordusunda *Qaramanlı bəyləri* də vardı. ***Qaramanlı*** tayfası öz adını Şeyxin oğlu ***Nur-Sofi Qaraman*** tərəfindən Anadoluya Səlcuq sultanlığının süqutundan sonra yaranan xüsusi müstəqil ***Qaramanlı*** knyazlığından almışdır. 1471**-**ci ilə qədər oranı 7 hökmdar idarə edib. Həmin knyazlığın bəzi sakinləri oranı tərk edib Azərbaycana gəlmiş və burada tayfalarının adi ilə bir neçə kənd salmışlar.

Qarakişilər – Rayon mərkəzindən 20 kilometr şimal-qərbdə, Qaracallı kənd inzibati ərazi dairəsində, Həkəri çayınının sağ sahilində, dağətəyi ərazidə, dəniz səviyyəsindən 1150 metr yüksəklikdə yerləşən kənd. 4 noyabr 2020-ci il tarixdə erməni silahlı qüvvələrindən azad edilmişdir. Kəndin ərazisində *Gəyə dərəsi, Qaragil təpəsi, Şiş yal, Top qaya* və s. coğrafi adlar qeydə alınmışdır. ***Qarakişilər*** toponimi "*Qarakişilər nəslindən olanlar, qarakişigillər*" mənasını verir.

Qaraqoyunlu – Rayon mərkəzindən 25 kilometr cənubda, Tatar kənd inzibati ərazi dairəsində, dağətəyi ərazidə, dəniz səviyyəsindən 750 metr yüksəklikdə yerləşən kənd. 9 noyabr 2020-ci il tarixdə erməni silahlı qüvvələrindən azad edilmişdir. Kəndin ərazisində *Ağalı düzü, Böyük kəhriz, Ciyciyi dərəsi, Emincan piri, İsyiotlu dərə, Kum dərəsi, Qanqallı dərə, Sofu yeri* və s. coğrafi adlar qeydə alınmışdır. Yerli məlumata görə, təxminən XVIII əsrdə *Xanqaraqoyunlu* kəndindən (indiki Bərdə rayonundakı *Qaraqoyounlu kəndi*) ayrılmış ailələr əvvəlcə *Şayıflı* kəndinin (Zəngilan rayonu) yaxınlığında, *Xanyeri* deyilən ərazidə məskunlaşmış, sonra isə indiki yerə köçərək ***Qaraqoyunlu*** kəndini salmışlar. Köçəri türk tayfalarından olan *qaraqoyunlular* 24 tirədən ibarətdir. ***Qaraqoyunlular*** 1410**-**cu ildə Azərbaycan Qaraqoyunlu dövlətinin əsasını qoymuşlar. XV əsrin sonlarında Qaraqoyunluların bir hissəsi *qızılbaş* tayfalarının tərkibinə daxil olublar..

Qaralar – Rayon mərkəzindən 19 kilometr cənubda, eyniadlı inzibati ərazi dairəsində, dağətəyi ərazidə, dəniz səviyyəsindən 900 metr yüksəklikdə, Həkəri və Bərgüşad çaylarının arasında yerləşən kənd. Kəndin ərazisində qazıntılar zamanı müxtəlif tarixi dövrlərə aid rəngli küplər üzə çıxmışdır. ***Qaralar*** toponimi "*Qaranın nəslindən olanlar*", "*Qaragillər*" mənasını bildirir. Toponim "*böyüklər*" anlamındadır. Ta qədimdən bu yerlərdə yadelli qəsbkarlara əyilməyən böyük insanlar yaşayırmışlar. ***Qaralar*** kəndində *Hinduverd burnu* adlanan qalanın qalıqları vardır. Babəkin bu yerlərdə möhkəm cəbbəxanaları olub. Qala ilə Həkəri çayını birləşdirən yeraltı yolun xarabalıqları da Qaralar kəndindədir. Bəzi məlumatlara görə, ***Qaralar*** Cənubi Azərbaycanın *Kəbirli* kəndindən gələn nəslin adıdır.

Qayalı – Eyniadlı inzibati ərazi dairəsində, rayon mərkəzindən 7 km şimalda, Qarabağ yaylasında, dağətəyi ərazidə, Bərgüşad çayının sol sahilində, Bazarçayın sol sahilindən 2 km aralıda, dəniz səviyyəsindən 780 metr yüksəklikdə yerləşən kənd. Kəndin ərazisində *Boğazsəpməz, Böyük quzey, Cavanşir türbəsi, Düyü torpağı, Kəklik bulağı, Kollu dərə, Qaban dərəsi, Qara qaya, Qızıl qaya dərəsi, Maral dərəsi, Səbətkeçməz, Şirin bulaq, Şor bulaq, Yazı düzü* və s. coğrafi adlar qeydə alınmışdır. Kəndin qədim adı ***Qarıkahası*** olub. Bəzi mütəxəssislərə görə, əslində yaşayış məntəqəsinin adı ***Qayılı*** (Oğuzların ***Qayı*** adlı boyunun olması da məlumdur) formasında olmalıdır.

Qazyan – Rayon mərkəzindən 10 kilometr cənubda, Hal kənd inzibati ərazi dairəsində, Bərgüşad çayının (*Bazarçayın*) sahilində, dağlıq ərazidə, dəniz səviyyəsindən 750 metr yüksəklikdə yerləşən kənd. Yaşayış məntəqəsinin adı bəzən sənədlərdə ***Qəzyan*** kimi də yazılır. 7 noyabr 2020-ci il tarixdə erməni silahlı qüvvələrindən azad edilmişdir. Kəndin ərazisində *Aşağı Qarovun, Yuxarı Qarovun, Çürük qaya, Molla Məhərrəm düzü, Nəbi darı, Papaqlı qaya, Şıx Məhəmməd piri* və s. coğrafi adlar qeydə alınmışdır. Yaşayış məntəqəsinin düzgün adı ***Qazian*** (*Qazılar*) olmalıdır. ***Qazı*** sözü ərəb dilində "*kafirlərə qarşı vuruşan döyüşçü və dəstə, qoşun başçısı*" mənasındadır. Orta əsrlərdə ***qazilər*** həm sərhəd qoşunu, həm də dini qurumların və dövlətin ön zərbə qüvvəsini təşkil edirdilər. Bu söz "*Dədə Qorqud*" dastanında ***qazi –*** "*ərənlər*" formasında işlənir. Səfəvilərin hakimiyyəti dövründə ***qazi*** sözü "*təriqət döyüşçüsü*", "*mürid*" mənasında işlənirdi. Səfəvilər *qazilərə* böyük imtiyazlar verirdilər.

Qədili – Novlu kənd inzibati ərazi dairəsində, rayon mərkəzindən 25 kilometr şimal-qərbdə, dağətəyi ərazidə, dəniz səviyyəsindən 1500 – 1700 metr yüksəklikdə yerləşən kənd. Kəndin qədim adı ***Qarapərilər*** olub. ***Qədili*** toponimi ***qədirli*** tayfasının adı ilə bağlıdır. Məlumdur ki, Səlcuq qəbilələri Azərbaycanda 130**-**dan çox kənd (***Qədirli***, *Şahsevən, Muradlı, Təkə, Uduqlu, Boyadəyəli* və s.) bina etmişlər.

Qılıcan – Rayon mərkəzindən 21 kilometr cənub-şərqdə, Xocahan kənd inzibati ərazi dairəsində, Həkəri çayının sahilində, Bərgüşad dağ silsiləsinin ətəyində, dəniz səviyyəsindən 720 metr yüksəklikdə, Qubadlı – Akara yolu kənarında yerləşən kənd. Yaşayış məntəqəsi 28 oktyabr 2020-ci il tarixdə erməni silahlı qüvvələrindən azad edilmişdir. ***Qılıcan*** (***Qilican***) kəndini 1915-ci ildə yaxınlıqdakı *Seyidəhmədli* kəndindən (hazırda bu kənd mövcud deyil) gəlmiş *seyidlər* nəsli ***Qılıcan*** adlı köhnə yurd yerində salmışlar. Toponim "*dağ tirəsi yeri*" mənasındadır.

Qiyaslı – Rayon mərkəzindən 25 kilometr cənubda, Tatar kənd inzibati ərazi dairəsində, dağətəyi ərazidə, dəniz səviyyəsindən 750 metr yüksəklikdə, Bakı – Qubadlı şose yolunun kənarında yerləşən kənd. Yaşayış məntəqəsi 28 oktyabr 2020-ci il tarixdə erməni silahlı qüvvələrindən azad edilmişdir. Kəndin ərazisində *Xanım qız piri, Muncuqlu düzü, Şor dərə* və s. coğrafi adlar qeydə alınmışdır. Yaşayış məntəqəsi Naxçıvan MR-in Babək rayonunun Nehrəm kəndindən gələrək əvvəlcə ***Altınca Qiyaslı*** kəndində məskunlaşmış, sonralar isə müəyyən bir hissəsi ayrılaraq ***Qiyaslı*** kəndinin indiki yerinə köçüb yurd salmış ***qiyaslı*** nəsli tərəfindən bina edildiyi üçün belə adlanmışdır.

Qubadlı şəhəri – Qubadlı rayonunun mərkəzi; Azərbaycan Respublikasının cənub-qərbində, Kiçik Qafqazın cənub-şərqində, Bərgüşad (*Bazarçay*) çayınının sahilində, Bakıdan 389 km məsafədə, Qarabağ yaylasının cənub-şərq qurtaracağında yerləşirdi. Əhalisinin sayı 6440 nəfər idi. Şəhərdə 3 ümümtəhsil məktəb, mərkəzi rayon xəstəxanası, 2 kütləvi kitabxana, kinoteatr, mədəniyyət evi, klub, respublika kənd təsərrüfatı texnikası birliyinin rayon şöbəsi, asfalt zavodu, inkubator-quşçuluq fabriki, texniki-təchizat idarəsi, tikiş fabriki, Azərbaycan "Neft-qaz avtomat" təcrübə zavodunun filialı, mərmər sexi, pendir zavodu, üzümün ilkin emalı zavodu, daş karxanası, balıqyetişdirmə vətəgəsi, ictimai iaşə, mədəniyyət, məişət, tikinti obyektləri, stadionlar, parklar, bağlar, qədim xırman yeri, bulaqlar və s. vardı. ***Qubadlı*** toponimi *Qubadlı* tirəsinin adındandır. 1823-cü ilə aid mənbəyə görə Qarabağ xanı İbrahimxəlil xan kəndə məxsus torpaq sahəsini pulla satın almış və qardaşı Mehdiqulu xana bağışlamışdır. Azərbaycanın şimalının Rusiyaya birləşdirilməsindən sonra viranə qalmış kəndi general P.S. Kotlyarevski göstərdiyi xidməti müqabilində *Hacı Ağalar bəy* adlı birisinə vermişdir. Bəzi məlumatlara görə, ***Qubadlı*** toponimi V-VI əsrlərdə yaşamış Sasani hökmdarı ***I Qubadın*** adı ilə bağlıdır.

Qundanlı – Rayon mərkəzindən 25 kilometr şimal-qərbdə, Məlikəhmədli kənd inzibati ərazi dairəsində, Bərgüşad çayınının sağ sahilində, dağətəyi ərazidə, dəniz səviyyəsindən 1025 metr yüksəklikdə yerləşən kənd. Kəndin ərazisində *Ağ dərə, Araşqın dərə, At ağılı, Çömçəli dərə, Daqan düşən, Dərbənd, Ərəb yurdu, Kalafalıq, Kuyul, Qaraxan bağı, Qarğuluq, Qaya arası, Mayak, Sal daşın düzü* və s. coğrafi adlar qeydə alınmışdır. ***Qundanlı*** oykonimi *qundanlı* nəslinin adı ilə bağlıdır. Kəndin 1917-ci ilə qədər olan adları ***Qundanlı Müskanlı***, *Daşaltı*, *Əzizobası*, *Şərəfli* olmuşdur. Bir versiyaya görə, oykonim ***hun*** tayfalarının adı ilə bağlıdır.

Ləpəheyranlı – Rayon mərkəzindən 12 kilometr aralıda, Qayalı kənd inzibati ərazi dairəsində, Bərgüşad çayınının sol sahilində, dağətəyi ərazidə, dəniz səviyyəsindən 790 metr yüksəklikdə yerləşən kənd.

Mahmudlu – Rayon mərkəzindən 3 kilometr şimalda, eyniadlı inzibati ərazi dairəsində, Bərgüşad çayının sol sahilində, dağlıq ərazidə, dəniz səviyyəsindən 500 – 700 metr yüksəklikdə yerləşən kənd. Kəndin ərazisində *Ağ qaya dağları, Döllək düzləri, Keçəl təpə, Kosalar bulağı, Qara qaya, Qayalı yastanı, Qoçlar, Molla bulağı, Nov bulaq, Sarı qaya, Seyid Mir Yusif qəbri yanı, Şirin bulaq, Şiş qaya, Teştixan, Yazı düzü* və s. coğrafi adlar qeydə alınmışdır. ***Mahmudlu kəndi*** XVI – XVII əsrlərdə Türkiyə ərazisində Van gölündən şərqdə yaşamış, sonralar bir hissəsi Zaqafqaziyaya gəlmiş ***Mahmudlu*** tayfasının məskunlaşması nəticəsində yaranmış yaşayış məntəqələrindəndir. ***Mahmudlular*** XVII əsrdə naxələf qonşu olan ermənilərin pis münasibətlərindən təngə gəlib Azərbaycana üz tutmuşlar. ***Mahmudlu*** qədim türk tayfalarından birinin adıdır. ***Mahmudlu*** etnonimi bəzi kəndlərin adlarında ***Kürd Mahmudlu*** kimi də öz əksini tapmışdır (*İmişli, Füzuli* rayonları). Cəbrayıl və Şəmkir rayonlarında da ***Mahmudlu*** adlı kənd vardır.

Mahrızlı – Rayon mərkəzindən 19 kilometr cənub-şərqdə, eyniadlı inzibati ərazi dairəsində, Həkəri çayınının sahilində, dəniz səviyyəsindən 1370 metr yüksəklikdə yerləşən kənd. 9 noyabr 2020-ci il tarixdə erməni silahlı qüvvələrindən azad edilmişdir. Kəndin ərazisində *Bulaq Gəyən düzü, Gülablı bağı* və s. coğraf adlar qeydə alınmışdır. ***Mahrızlılar*** (adına bəzən ***Mafruzlu*** və ya ***Mahruzlu*** da deyilir) XIX əsrin 20-ci illərində Cənubi Azərbaycanın ***Mahrızlı*** kəndindən gəlmişlər.

Mehrili – Rayon mərkəzindən 14 kilometr cənub-qərbdə, Yuxarı Xocamusaxlı kənd inzibati ərazi dairəsində, dəniz səviyyəsindən 1100 metr yüksəklikdə, dağətəyi ərazidə yerləşən kənd. Kəndin ərazisində *Bahar ölən, Böyük dib, Cəvizlik yeri, Dağdağan piri, Dəmir qayalıq, Düzlər, Əyədli, Göl yeri, Kahalar, Qırağın başı, Qoşa armud, Qum qazılan, Pirin yanı, Soyuq bulaq, Tayıbca, Yetər yurdu* və s. coğrafi adlar qeydə alınmışdır. Toponimin tam adı ***Əyədi Mehrili***dir. Oykonimin tərkibindəki ***Əyədi*** yer adı *sarallı* tayfasının qışlaqlarından biri olmuşdur.

Məlikəhmədli – Rayon mərkəzindən 20 kilometr şimal-qərbdə, eyniadlı inzibati ərazi dairəsində, Bərgüşad çayınının sol sahilində, dağətəyi ərazidə, dəniz səviyyəsindən 1230 metr yüksəklikdə yerləşən kənd. Kəndin ərazisində *Çadır dərəsi, Çəvlik, Çömçəli bulaq, Balaban təpəsi, Dəlik daş, Xırda bulaq, İbrahim bulağı, İydəli yer, Qara kahı, Qızıl qaya, Qoçu ərəsi, Qurban təpəsi, Mərdan bulağı, Paraxlı daş, Yazı düzü* və s. coğrafi adlar qeydə alınmışdır. Kəndin başqa adı da ***İydəli*** olmuşdur. ***Məlikəhmədi*** kəndini vaxtilə *İydəli* adlanan sahədə *Məlikəhmədli* nəsli saldığına görə o, belə adlanmışdır. Bəzi yerli sakinlərin verdiyi məlumata görə, kənddə ilkin məskunlaşma 1880-ci illərdə olmuşdur. Amma yaxınlıqda olan köhnə qəbiristanlıq və bir neçə kaha bunu deməyə əsas verir ki, kəndin tarixi daha qədimdir.

Məmər – Hal kənd inzibati ərazi dairəsində, Həkəri çayının sahili yaxınlığında yerləşən kənd. Yaşayış məntəqəsi 30 oktyabr 2020-ci il tarixdə erməni silahlı qüvvələrindən azad edilmişdir. Kəndin adı ərəb mənşəli ***məmər*** sözündən ibarət olub, "*çay keçidi*" və ya "*dağ keçidi*" mənasındadır.

Mərdanlı – Rayon mərkəzindən 25 kilometr şimalda, Xocik kənd inzibati ərazi dairəsində, Həkəri çayınının sahilində, dağətəyi ərazidə, dəniz səviyyəsindən 1100 metr yüksəklikdə yerləşən kənd. 7 noyabr 2020-ci il tarixdə erməni silahlı qüvvələrindən azad edilmişdir. Kəndin ərazisində *Alagöz yurdu, Arpa çuxuru, Qara güney, Orta dərə, Seyid Ədil türbəsi, Şorca dərəsi, Uzun dərə, Uzun quzey* və s. coğrafi adlar qeydə alınmışdır. ***Mərdanlı*** yaşayış məntəqəsi kəndin əsasını qoymuş ***Hacı Mərdan*** adlı şəxsin adını daşıyır.

Məzrə – Rayon mərkəzindən şimalda, Novlu kənd inzibati ərazi dairəsində, Qarabağ silsiləsində, dağətəyi ərazidə, dəniz səviyyəsindən 2300 metr yüksəklikdə yerləşən kənd. İşğala qədər kənddə 8 ev olmuşdur. Kəndin ərazisində qədim alban kilsəsi, qəbiristanlıq və s. vardı. Məzrə yaşayış məntəqəsinin yerləşdiyi ərazidə *Alban kilsəsi, Fındıqlı dərə, Qarğıdalı dərəsi, Məzrə düzü, Sarı bulaq, Şahin bulağı* və s. coğrafi adlar qeydə alınmışdır. ***Məzrə*** toponimi ərəb dilində "*əkin üçün yararlı yer, əkin yeri, tarla*" və "*əkin yerləri əsasında yaranan məntəqə", "oba", "kiçik yaşayış məntəqəsi*" mənalarını verən ***məzrəə*** sözündəndir.

Milanlı – Başarat kənd inzibati ərazi dairəsində, rayon mərkəzindən 39 kilometr şimal-qərbdə, Qarabağ silsiləsində, dağətəyi ərazidə, dəniz səviyyəsindən 1400 metr yüksəklikdə yerləşən kənd. 2 noyabr 2020-ci il tarixdə erməni silahlı qüvvələrindən azad edilmişdir. Kəndin ərazisində *Çinar bulağı, Əvgilin dağı, Meşəli yurd, Polad bulaq, Rüstəmin düzü* və s. coğrafi adlar qeydə alınmışdır. Yaşayış məntəqəsinin adı çar Rusiyası Azərbaycanın şimalını işğal etdikdən sonra (1828-ci il) Türkiyədən köçüb gəlmiş ***milanlı*** tirəsinin adındandır.

Mirlər – Rayon mərkəzindən 6 kilometr cənub-qərbdə, Dondarlı kənd inzibati ərazi dairəsində, Bərgüşad çayınının sahilində, dağətəyi ərazidə, dəniz səviyyəsindən 740 metr yüksəklikdə yerləşən kənd. Kəndin ərazisində *Ağ hasar, Böyük hasar, Çoban yeri, Döl çuxur, Hasar düzü, İlanlı dərə, Kiçik gözət, Kotan dərə, Qoçaşan, Sarı dərə, Şahsuvar düzü, Şəhid dərəsi, Vənlik* və s. coğrafi adlar qeydə alınmışdır. Bəzi məlumata görə, ***Mirlər*** yaşayış məntəqəsini XVIII əsrdə ***Şeyx Mir İbrahim ağa*** saldığı üçün onun titulu (***mir***) ilə adlanmışdır.

Mollabürhan – Rayon mərkəzindən 18 kilometr cənub-şərqdə, Yuxarı Mollu kənd inzibati ərazi dairəsində, Həkəri çayınının sahilində yerləşən kənd. Yaşayış məntəqəsi 25 oktyabr 2020-ci il tarixdə erməni silahlı qüvvələrindən azad edilmişdir. Kəndin ərazisində *Ara yeri, Ardıclu yeri, Arvadı ölmüş, Ayı dərəsi, Bal qayası, Binə adamları yeri, Böyük qarovun, Cəmil dərəsi, Çaylim, Dar dərə, Əyri dərə, Gen dərə, Xırda qarovun, Kaha dərəsi, Qaraquzey dərəsi, Qarovun dərəsi, Leylək dərəsi, Mehirli dərəsi, Məlləli əkini, Mollu quzeyi, Nisənin dərəsi, Sulu dərə, Şamatlı, Yastı quzey* və s. coğrafi adlar qeydə alınmışdır.

Mollalı – Rayon mərkəzindən 14 kilometr cənubda, Hal kənd inzibati ərazi dairəsində, Bərgüşad (*Bazarçay*) çayınının sahilində yerləşən kənd. Yaşayış məntəqəsi 30 oktyabr 2020-ci il tarixdə erməni silahlı qüvvələrindən azad edilmişdir. Kəndin ərazisində *Çinar bulağı, Gen dərə, Narrı dərə, Taxtalar* və s. coğrafi adlar qeydə alınmışdır. Kəndin əsl adı ***Molla Alı*** olmalıdır.

Muğanlı – Rayon mərkəzindən 19 kilometr cənub-şərqdə, Mahruzlu kənd inzibati ərazi dairəsində, Həkəri çayınının sol sahilində,dəniz səviyyəsindən 1370 metr yüksəklikdə yerləşən kənd. Yaşayış məntəqəsi 23 oktyabr 2020-ci il tarixdə erməni silahlı qüvvələrindən azad edilmişdir. Kəndin ərazisində *Əli cahan daş məbədinin yanı, Gəyən düzü, Alaqurşaq yalı* və s. coğrafi adlar qeydə alınmışdır. Yerli məlumatlara görə, ***Muğanlı*** yaşayış məntəqəsini XVIII əsrin sonlarında və XIX əsrin əvvəllərində Cənubi Azərbaycanın ***Muğanlı*** kəndindən gəlmiş ailələr saldığına görə belə adlanmışdır.

Muradxanlı – Rayon mərkəzindən 33 kilometr şimalda, eyniadlı inzibati ərazi dairəsində, dağətəyi ərazidə, dəniz səviyyəsindən 850 metr yüksəklikdə yerləşən kənd. Yaşayış məntəqəsi 2 noyabr 2020-ci il tarixdə erməni silahlı qüvvələrindən azad edilmişdir. Kəndin ərazisində *Dəvə dərə, Qarağac, Qışlaq yeri, Yazı düzü* və s. coğrafi adlar qeydə alınmışdır. ***Muradxanlı kəndi*** keçmişdə yayı Zəngəzurda, qışı isə Qarabağda keçirmiş *Təklə* tayfasının ***Muradxanlı*** tirəsinə mənsub ailələrin burada məskunlaşması nəticəsində yaranmışdır.

Novlu – Eyniadlı inzibati ərazi dairəsində, dağətəyi ərazidə yerləşən kənd. Kəndin keçmiş tam adı ***Novlu dərə* (*Novludərə*)** olub. ***Novlu kəndi*** salındığı dərənin adını daşıyır.

Padar – Balasoltanlı inzibati ərazi dairəsində, rayon mərkəzindən 27 kilometr şərqdə, Həkəri çayınının sol sahilində, dağətəyi ərazidə, dəniz səviyyəsindən 800 metr yüksəklikdə yerləşən kənd. Yaşayış məntəqəsi 26 oktyabr 2020-ci il tarixdə erməni silahlı qüvvələrindən azad edilmişdir. Kəndin ərazisində *Xan dərəsi, Kiçik Həkəri dərəsi, Kötüklü düzü, Yaqub dərəsi* və s. coğrafi adlar qeydə alınmışdır. ***Padar*** yaşayış məntəqəsi oğuz-səlcuq tayfalarından biri olan *Padarların* adı ilə bağlıdır. ***Padarlar*** Elxanilər dövründə (XIII əsr) Azərbaycana Orta Asiyadan gəlmişlər. Təxminən 8 əsr bundan əvvəl İran səltənəti monqolların əlində olan vaxt hakimiyyəti qoruyub saxlamaq üçün Türküstandan 200 min türkdilli ailə *Ağ Hun* tayfasına mənsub olan *Qayı* türklərinin tərkibində *Qacar, Əfşar, Çobanı, Ustaclı* qəbilələri ilə birlikdə ***Padar*** ailələri də Anadoliya, o cümlədən Azərbaycana köç etmişlər. Padarların mənşəyi oğuz tayfaları ilə bağlıdır. Bəzi alimlərə (*akademik İ.M.Meşşaninov və başqaları*) görə, ***Padar*** oykonimi m. ö. VIII əsrdə Urartu kitabələrində adı çəkilən, Manna kantonunun mərkəzi şəhəri kimi göstərilən ***Patari, Padduri*** oykonimi ilə əlaqədardır. Ləzgilər padarları "*kyure*" adlandırmışlar. Əvvəllər Azərbaycanın cənubunda yaşamış padarları Səfəvilər dövründə XVI – XVII əsrlərdə – Şah İsmayıl, Şah Təhmasib və digərlərinin zamanında dağlı tayfaların basqınlarının qarşısını almaq üçün şimal zonalarına, indiki Quba rayonu və ona yaxın ərazilərə köçürmüşlər. Şahsevən tayfa ittifaqında mühüm rol oynayan ***padarlar*** sonralar müəyyən ərazilərə səpələnmişdir. Yeni saldıqları yaşayış məntəqələri onların etnik adı ilə adlandırıldığı üçün bu, təkrarlanan adların yaranmasına səbəb olmuşdur. XIX əsrdə Cavad qəzasında yaşayan *padarlar* bir çox tirə və qollardan (*ilxıçı, qaraçörüklü, axtaçı, pölüklü, küyülçü* və s.) ibarət idilər.

Poladlı – Dəmirçilər kənd inzibati ərazi dairəsində, rayon mərkəzindən 6 kilometr məsafədə, dağlıq ərazidə, Qarabağ silsiləsində, dəniz səviyyəsindən 760 metr yüksəklikdə yerləşən kənd. Kəndin ərazisində *Çınqıllı dərə, Kola bulaq, Sarı dərə, Şor su bulağı, Turş su bulağı* və s. adlı coğrafi adlar qeydə alınmışdır. *Poladlı* yaşayış məntəqəsi *Şahsevənlərin* ***Poladlı*** qolunun burada məskunlaşması nəticəsində yaranmışdır.

Saldaş – Rayon mərkəzindən 16 kilometr cənub-qərbdə, Çərəli kənd inzibati ərazi dairəsində, Qarabağ silsiləsində, Hərtiz dağının cənub-qərbində, dağətəyi ərazidə, dəniz səviyyəsindən 900 metr yüksəklikdə yerləşən kənd. Kəndin ərazisində *Almakəsən, Atqız, Baş hamar, Düyü torpağı, Hamarın yeri, Xanzadə yeri, Qanlı zəmi, Quzu qıran, Məhəmməd bulağı, Mollanın yeri, Novruzlu yeri, Şəhrixan sel aparan dərə, Şükürün palıdı, Tapdıq yeri, Zalxa yeri* və s. coğrafi adlar qeydə alınmışdır. ***Saldaş*** yaşayış məntəqəsinə çevrilməzdən əvvəl *sofulu* tayfasının qışlaq yeri olmuşdur. Kənd Hərtiz dağının cənub-qərbində ***Saldaşlıq*** adlı ərazidə yerləşdiyinə görə ***Saldaş*** adlanmışdır.

Saray – Rayon mərkəzindən 5 kilometr cənub-qərbdə, Dondarlı kənd inzibati ərazi dairəsində, Bərgüşad çayınının sol sahilində, Zəngəzurun dağlıq hissəsində, Qarabağ silsiləsində, dəniz səviyyəsindən 750 metr yüksəklikdə yerləşən kənd. Kəndin ərazisində *Arpa çuxuru, Bərəhir, Böyük düz, Bulaq dərəsi, Çaylı dərə, Dəvə uçan, Kiçik düz, Qala, Qara qaya, Məmməd keçi vuran, Məscid yeri, Sara xanım düzü, Səfər yeri, Yazı düzü* adlı coğrafi adlar qeydə alınmışdır. Kəndin keçmiş adı ***İkinci Diləli***, sonralar isə ***Diləli Saray*** olub. Bəzi mülahizələrə görə, yaşayış məntəqəsi XIX əsrin sonlarında ***Saray*** xanım adlı bir qadına məxsus olduğuna görə – *Saray* adlanmışdır. Lakin bəzi tədqiqatçılar toponimi XIII əsrdə monqolların tərkibində Azərbaycana gəlmiş *Saray* tayfasının adı ilə əlaqələndirirlər. ***Saray kəndi*** vaxtilə Saray, Dondarlı, Diləli Müskənli, Mirlər, Dəmirçilər kəndlərini birləşdirən bəyliyin mərkəzi olmuşdur.

Sarıyataq – Rayon mərkəzindən 15 kilometr cənub-qərbdə, eyniadlı inzibati ərazi dairəsində, Həkəri çayınının sahilində, dağlıq ərazidə, dəniz səviyyəsindən 800 metr yüksəklikdə yerləşən kənd. Yaşayış məntəqəsi 26 oktyabr 2020-ci il tarixdə erməni silahlı qüvvələrindən azad edilmişdir. Kəndin ərazisində *Ağ yarğan, At ağılı, Böyük yovşanlı yol, Əlişin binəsi, Gamış öldürən, İldırımvuran, Kazım quzeyi, Qara qaya, Məmmə quzeyi, Sarı yoxuş, Səbətkeçməz, Təpə arası, Tut dərəsi, Tülkü dərəsi, Uzun dərə, Yazı düzü, Yeddi bulaq* və s. coğrafi adlar qeydə alınmışdır. Yerli məlumata görə, ***Sarıyataq*** yaşayış məntəqəsi ***Sarı*** adlı şəxsin ***yataq*** yerində salındığı üçün toponim bu cür adlanmışdır.

Seləli – Rayon mərkəzindən 25 kilometr cənub-şərqdə, Zilanlı kənd inzibati ərazi dairəsində, Həkəri çayınının sol sahilində, Həkəri və Bərgüşad çaylarının birləşdiyi yerdə, dəniz səviyyəsindən 300 metr yüksəklikdə yerləşən kənd. Kəndin ərazisində *Çiçək yarğanı, Narlı dərə, Seləli bulağı, Uzun dərə, Yazı düzü* və s. coğrafi adlar qeydə alınmışdır. Yerli məlumatlara görə, ***Seləli*** yaşayış məntəqəsini XIX əsrdə Cənubi Azərbaycanın **Seləli** kəndindən gəlmiş ailələr saldığına görə kənd də belə adlanmışdır.

Seytas – Rayon mərkəzindən 28 kilometr şimal-qərbdə, Göyərcik kənd inzibati ərazi dairəsində, Qarabağ silsiləsində, dağətəyi ərazidə, dəniz səviyyəsindən 1250 metr yüksəklikdə yerləşən kənd. Kəndin ərazisində *Abbaslı gabı, Ağbulaq, Alban məbədi, Alma bağı, Anabad, Kərimlər, Novqırılan bulağı, Seytas yalı, Talıb bulağı, Top ağac* və s. coğrafi adlar qeydə alınmışdır. Kənddə qədim dövrə aid müxtəlif mədəniyyət abidələri vardır. Elmi şəkildə təsdiqlənməmiş bəzi məlumatlara görə, ***Seytas*** yaşayış məntəqəsini vaxtilə Ermənistanın Aqvan və Danzaver (hazırda mövcud deyildir) kəndlərindən qaçıb gəlmiş ailələr ***Seytas*** adlanan köhnə kənd yerində salmışdır. Toponimin tam mənası hələ izah olunub sübut edilməmişdir.

Tarovlu – Çardaqlı kənd inzibati ərazi dairəsində, dağətəyi ərazidə yerləşən kənd. Kəndin ərazisində *Ərik, Kərtdağ, Sillanlı, Şiş təpə, Tarverdi dərəsi, Təndir* və s. coğrafi adlar qeydə alınmışdır. Kəndin əsl adı ***Taroğlu*** olmalıdır. Bəzi məlumatlara görə, ***Tarovlu*** yaşayış məntəqəsini XIX əsrdə həmin rayondakı Teymur Müskənli kəndindən köçüb gəlmiş *Tanrıverdi* (Tarverdi, yaxud da qısaldılmış formada *Tar*) və *Allahverdi* (*Alo*) adlı iki qardaş salmışdır.

Tatar – Rayon mərkəzindən 25 kilometr cənubda, eyniadlı inzibati ərazi dairəsində, Qarabağ silsiləsində, dağətəyi ərazidə, dəniz səviyyəsindən 750 metr hündürlükdə yerləşən kənd. Kəndin ərazisində *Arpa dərəsi, Balaca dərə, Böyük dərə, Cabbar çalası, Kalafalı dərə, Kar daş, Kələk, Qaraqoyunlu piri, Qəflə-bulaq dərəsi, Quş armudu, Muncuqlu, Sarı yoxuş, Şərəf dərəsi, Tatar bulağı, Yeddi dərə* və s. coğrafi adlar qeydə alınmışdır. Toponim özündə türk tayfaları olan ***tatarların*** adını əks etdirir. Erkən orta əsr abidələrinə aid Orxon-Yenisey kitabələrində də *tatarların* adı çəkilir. ***Tatar*** etnonimi ilk dəfə VI-IX əsrlərdə Baykal gölündən cənub-şərqdə köçəri həyat sürən monqol tayfaları arasında meydana gəlmişdir. XIII əsrdə monqol işğalları dövründə *tatarların* adı avropalılara da məlum oldu. XIII əsrin 30-cu illərindən monqol işğalları zamanı Azərbaycana gəlmiş tatarların bir qismi sonralar burada məskunlaşdılar. *Tatar tayfası* monqol işğallarında iştirak ediblər. Monqol tarixi tədqiqatçısı Rəşid-əd-Din monqol yürüşlərində türkdilli tayfaların iştirakından danışarkən ***tatar*** tayfasının da adını çəkir. Hətta, bəzi tədqiqatçılar güman edirlər ki, ***tatarlar*** monqollarda olan həmin "*ta-ta*" tayfalarındandır. ***Tatar*** sözünün mənası "*yoxlamaq*", "*sınamaq*" deməkdir. ***Tatar*** sözünün "*yad adam*" mənasını verən "***tat***" və "*kişi*" mənası əks etdirən "***ar***", "***ər***" sözlərindən əmələ gəlməsini güman edənlər də var. Bəzi mülahizələrə görə, "***tatar***" sözü "*dağ adamı*" mənasındadır. Monqol əsilli *tatar* tayfaları Azərbaycana Hülakü xanın hakimiyyəti zamanı köçürülüblər.

Teymur Müskənli – Eyniadlı inzibati ərazi dairəsində, Bərgüşad çayınının sahilində, dağətəyi ərazidə yerləşən kənd. Kəndin ərazisində *Allahqulu bulağı, Armud təpə, Calafırın bulağı, Düzdər, Xanzadə bulağı, Qəhrəman təpə, Qızıl təpə, Qozğuluq bulağı, Livil dərə, Məhəmməd bulağı, Molomot təpə, Paplan dərə, Sərk dağı, Yazı düzü, Zoğal bulağı, Zoğal dərə* və s. coğrafi adlar qeydə alınmışdır. İnqilaba qədərki rus dilində olan ədəbiyyatda ***Kunanlu Muskanlı*** (***Qundanlı Müskanlı*** adının təhrif olunmuş forması) kimi yazılmışdır.

Tinli – Rayon mərkəzindən 22 kilometr cənub-şərqdə, Xocahan kənd inzibati ərazi dairəsinin tabeliyində, Həkəri çayınının sahilində, Həkəri çayı ilə Bərgüşüd çaylarının birləşdiyi ərazinin sağ sahilində, dağətəyi ərazidə, dəniz səviyyəsindən 720 metr hündürlükdə yerləşən kənd. 9 noyabr 2020-ci il tarixdə erməni silahlı qüvvələrindən azad edilmişdir. Şifahi mənbələrə əsasən, ***Tinli*** yaşayış məntəqəsi XVII əsrin əvvəllərindən mövcuddur. Yerli məlumata görə, bu yaşayış məntəqəsini vaxtilə indiki Cəbrayıl rayonunun ***Tinlik*** kəndindən köçüb gələn ailələr saldığı üçün kənd belə adlanmışdır.

Ulaşlı – Rayon mərkəzindən 16 kilometr cənub-qərbdə, eyniadlı inzibati ərazi dairəsində, Bərgüşad çayınının sahilində, Bərgüşad silsiləsinin ətəyində, dəniz səviyyəsindən 730 metr yüksəklikdə yerləşən kənd. 9 noyabr 2020-ci il tarixdə erməni silahlı qüvvələrindən azad edilmişdir. Kəndin ərazisində *Əyri dərə, İsti qaya, Kahalı dərə, Köhnə qışlaq yurd yeri, Qaya qaşqa dağ massivi, Mollalı başı, Sulu dərə, Şəvitli dərə* və s. coğrafi adlar qeydə alınmışdır. Coğrafi adın düzgün yazılışı ***Hulaşlı*** şəklində olub. Bunu XIX əsr yazılı mənbələri də sübut edir. ***Ulaşlı*** oykonimi erkən orta əsrlərdə Şimali Qafqazda yaşamış ***Hulaslar*** tayfasının (Suriya mənbələrində *kulas)* adı ilə əlaqədardır. Bir çox ərəb mənbələrində onlardan ***Xəzər*** tayfalarından biri kimi bəhs olunmuşdur. XII əsrədək Volqa çayınının sahilində bulqarların ***Hulaş şəhəri*** olub. "*Kitabi-Dədə Qorqud*" dastanlarında ***Ulaş*** antroponim kimi qeyd olunmuşdur.

Yuxarı Cibikli – Rayon mərkəzindən 25 kilometr şimal-qərbdə, Aşağı Cibikli kənd inzibati ərazi dairəsində, Bərgüşad çayınının qolu olan Kosakərəm çayınının sahilində, dəniz səviyyəsindən 1300 metr yüksəklikdə yerləşən kənd. Kəndin ərazisində *Almalıq, Dolu vuran yer, Əhməd bulağı, Qanlı gədik, Qara bulağı, Qara daş, Qurd daş, Novlu bulaq, Üç ağac* və s. coğrafi adlar qeydə alınmışdır. Yaşayış məntəqəsinin əvvəlki adı ***Təzəcür*** olub. ***Aşağı Cibikli*** kəndinə nisbətən ***yuxarı*** tərəfdə yerləşdiyi üçün ***Yuxarı Cibikli*** adlanıb.

Yuxarı Xocamusaxlı – Rayon mərkəzindən 11 kilometr cənub-qərbdə, eyniadlı inzibati ərazi dairəsində, Ağa çayının sağ sahilində, dağətəyi ərazidə, dəniz səviyyəsindən 950 metr yüksəklikdə yerləşən kənd. Kəndin ərazisində *Ağa çayı, Ayı qayası, Buğlar düşən, Dabana daş, Kolovat, Kürd dərəsi, Qaratikan çuxuru, Qoyun damı, Quzey zəmi, Laçın qaya, Saqqız çuxuru, Üç armudlar, Zor dərəsi* və s. coğrafi adlar qeydə alınmışdır. XIX əsrdə bu rayonun Dondarlı kənd icmasında ***Xocamusaxlı*** adlı iki yaşayış məntəqəsi vardı. Onları bir-birindən fərqləndirmək üçün biri ***Qalacıq Xocamusaxlı*** (yəni, *Qalacıq* yaxınlığındakı ***Xocamusaxlı***), o biri isə ***Məzitti Xocamusaxlı*** (*Məzitti yerindəki Xocamusaxlı)* adlanırdı.

Yuxarı Mollu – Rayon mərkəzindən 20 kilometr cənub-şərqdə, eyniadlı inzibati ərazi dairəsində, Həkəri çayınının sahilində yerləşən kənd. 9 noyabr 2020-ci il tarixdə erməni silahlı qüvvələrindən azad edilmişdir. Xalq qəhrəmanı Qaçaq Nəbinin arvadı və silahdaşı Həcər bu kənddə anadan omuşdur. Kəndin ərazisində *Babaxan kələyi, Böyük dərə, Cəbrayılın tut bağı, Dəlik daş, Düyü torpağı, Əyri dərə, Kəcəbli navı, Kəklik bulağı, Kişnişli dərə, Qaramıxlı, Qulu navı, Muncuqlu təpə Nəsibin bağı, Pirin orta dərəsi, Orta güney, Sarı təpə, Seyidin yeri, Sətinin qayası, Sınıq qaya, Şor bulaq, Tapan dərəsi, Tənəkli dərə, Tülkülü dərə, Üç qardaş piri, Yel piri, Zilinin bağı* və s. coğrafi adlar qeydə alınmışdır. Kəndin ərazisi əvvəllər ***Aşağı Mollu*** kəndinin binə yeri olub. XVIII əsrin axırlarında və XIX əsrin əvvəllərində *Aşağı Mollu* kəndindən ayrılmış ailələr burada məskunlaşaraq ***Yuxarı Mollu*** yaşayış məntəqəsini salmışlar.

Yusifbəyli – Rayon mərkəzindən 23 kilometr cənub-şərqdə, Həmzəli kənd inzibati ərazi dairəsində, Həkəri çayınının sahilində, İncə düzündə, dəniz səviyyəsindən 730 metr yüksəklikdə yerləşən kənd. Yaşayış məntəqəsi 26 oktyabr 2020-ci il tarixdə erməni silahlı qüvvələrindən azad edilmişdir. Kəndin ərazisində *Çələbi ocağı, Dəlləklər, Dəvə aynağı, Dəyirman arxı, Hacı Qaraman, Gəyən düzü, Xaləddin baba piri, Xəlil bəyin bağı, Yastı təpə* və s. coğrafi adlar qeydə alınmışdır. ***Yusifbəyli*** toponiminin yerli tələffüzdə adı ***Usubbəyli*** kimi işlədilir.

Zilanlı – Rayon mərkəzindən 25 kilometr cənub-şərqdə, eyniadlı inzibati ərazi dairəsində, Həkəri və Bərgüşad çaylarının birləşdiyi yerdə, dağətəyi düzənlikdə, dəniz səviyyəsindən 300 metr yüksəklikdə yerləşən kənd. Yaşayış məntəqəsi 23 oktyabr 2020-ci il tarixdə erməni silahlı qüvvələrindən azad edilmişdir. Kəndin ərazisində *Çiçək yarğanı, Əyri dərə, Həcər qəbri, Kahalar, Qırx arşın quyu, Qoşnalı bulağı, Narlı dərə, Seləli bulağı, Uzun dərə, Yazı düzü, Zöralan (Zöhrə ölən) təpəsi* və s. coğrafi adlar qeydə alınmışdır. ***Zilanlı*** toponimi ***zilanlı*** tayfasının adı ilə bağlıdır. Rusiya-İran müharibəsindən sonra (1826-1828) ***zilanlılar*** İrandan köçüb Azərbaycanda məskən salmışlar. ***Zilanlı*** tayfası bir neçə tirəyə bölünmüşdü. XIX əsr mənbələrində göstərilir ki, ***zilanlılar*** Hüseyn xan Zilanlının başçılığı ilə Azərbaycana gələrək, burada bir sıra yaşayış məntəqələri salmışlar.

Zor – Rayon mərkəzindən 8 kilometr aralıda, Fərcan kənd inzibati ərazi dairəsində, Ağa çayı sahilində, dağətəyi ərazidə, dəniz səviyyəsindən 980 metr yüksəklikdə yerləşən kənd. Kəndin ərazisində *Ağ güney, Biçənəklər, Əhmədalı yeri, Əyri güney, Xatun bağı, Qəcir qayası, Muradın bulağı, Top meşə, Zoğallı dərə* və s. coğrafi adlar qeydə alınmışdır. ***Zor*** sözü qədim fars dilində "*qala*", "*yarğanlı yer*" mənasını verir.

Hacı Bədəd körpüsü (XIX əsr) -
(Qubadlı rayonu, Dondarlı kəndi)



Laləzar körpüsü (1867-ci il) -
(Qubadlı rayonun, Əliquluuşağı kəndi)

Qoç heykəli



Gürcülü türbəsi, XVIII əsr



Məmər kənd məscidi. İşğaldan əvvəl

Məmər kənd məscidi. İşğaldan sonra

Qubadlı şəhəri

LAÇIN RAYONU

(RAYON HAQQINDA ÜMUMİ MƏLUMAT)

Laçın rayonu ***8 avqust 1930-cu il*** tarixdə təşkil olunmuşdur. 1923-cü ilə qədər indiki Laçın şəhəri ***Abdallar kəndi*** adlanmışdır. Şəhər ***10 avqust 1923-cü il*** tarixdə təşkil edilmişdir. Laçın şəhərindən Bakıya qədər olan məsafə 443 kilometrdir.

Laçın rayonu coğrafi mövqeyinə, təbii sərvətlərinə, zəngin və qədim tarixinə görə respublikamızın mühüm guşələrindən biridir. Rayonun inzibati mərkəzi olan indiki ***Laçın şəhəri*** 1923-cü ilə qədər *Abdallar kəndi* adlanmışdır. ***Laçın*** adını 1924-cü ildə oradakı eyniadlı dağ ilə əlaqədar olaraq görkəmli yazıçımız Tağı Şahbazi (*Simürğ*) də işlətmişdir. Tarixdən məlumdur ki, vaxtilə əsasən Türküstanda yaşamış ***Laçın*** adlı bir türk qəbiləsi də mövcud olmuşdur.

F.Rəşidəddin oğuzların 24 onqonundan birinin ***Cüdə Laçın*** olduğunu göstərir. ***Laçın*** boyu türk dünyasına çoxlu dövlət xadimləri, igidlər bəxş edib. XIII əsrin sonlarında Misir sultanı olmuş əl-Məlik Hüsaməddin Laçın əl-Mənsuri və başqaları belələrindən idi. Azərbaycanda ata-analar öz övladlarına uzun illərdir ki, ad verərkən **Laçın** adını da unutmurlar...

Məlumdur ki, ***laçın*** quş adı el arasında həmişə qəhrəmanlıq, hünər, cəsarət rəmzi hesab olunub. Şahin quşunun erkəyinə ***laçın*** deyilir. ***Laçın*** – şahin cinsindən olan yırtıcı və alıcı quş adıdır...

Dağlıq relyefə malik olan **Laçın rayonu** Qarabağ silsiləsinin qərb ətəklərində yerləşir. ***Laçın rayonu*** şimaldan Kəlbəcər, şərqdən Xocalı, Şuşa, Xocavənd, cənubdan Qubadlı rayonları, qərbdən isə Ermənistan ilə həmsərhəddir. Laçın rayonunun Ermənistan və keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti (*Yuxarı Qarabağ*) ilə sərhədlərinin ümumi uzunluğu **240** kilometrdir.

Rayonun əsas təbii sərvətləri: Faydalı qazıntılar və mineral bulaqlar; tikinti materialları (*çay daşı, qum, gil*), qızıl, dağ bülluru, mərmər, ipək daşı, qranit, civə yatağı, əhəng daşı, pemza, travertin, isti su, turş su və s. çoxlu təbii bulaqları...

Dağları: *İşıqlı, Qızılboğaz, Farmaş, Mıxtökən, Qırxqız* və s.

Heyvanları: *ayı, canavar, tülkü, dələ, bəbir, maral, cüyür, oxlu kirpi, dovşan, çöl siçanı, kaftar, porsuq, əlik, müxtəlif ilanlar, dağ qartalı, qızıl quş, kəklik, qaratoyuq, bildirçin, qırqovul, şanapipik, turac* və s.

Meşələri: *Altıntaxta, Zavod, Qaladərəsi, Qırmızı palıd, Xəlfəzur, Katos, Hacısamlı, Çorman, Şəlvə* və s.

Əlvan süxurları: ***Xrizonpraz*** (Lələbağırlı kəndi), ***Qırmızı Linstvenit*** (Qarabəyli kəndi), ***Nefimoid*** (Bozdoğan kəndi), ***Farelşteyn*** (İpək kəndi), ***Tuf*** (Hocaz kəndi)...

Bitkilər aləmi: *palıd, vələs, ardıc, qarağaç, cökə, qoz, qırmızı palıd, ulas* və s.

Meyvələr və güləmeyvələri: *alma, armud, əzgil, şaftalı, heyva, ərik, qarağat, çiyələk, moruq, quşarmudu, quşüzümü* və s.

Dərman bitkiləri: *kəklikotu, itburnu, boymadərən, qatırquyruğu, gəvən, baldırğan, çaşır, çobanyastığı, solmazçiçəyi, yemişan* və s.

18 may 1992-ci il tarixdə Azərbaycanın dilbər guşələrindən biri olan Laçın rayonu Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi. İşğaldan sonra ***Laçın*** şəhərini ermənilər ***Berdzor*** adlandırmışlar. ***1 dekabr 2020-ci il*** tarixdə ***Laçın rayonu*** erməni işğalçılarından azad olunmuşdur.

RAYONUN YAŞAYIŞ MƏNTƏQƏLƏRİ

Abdallar – Laçın rayonunda kənd. Toponimiyamızda bir qrup oroqrafik obyektlər qəbilə, tayfa, etnik qrup, xalq və nəsil adlarını özündə əks etdirir. Belə etnooronimlərin mənşəyinin izah edilməsi ilə biz bir növ Azərbaycanın qədim əhalisinin etnik tərkibini və tarixini, Azərbaycan xalqının soykökünü öyrənmiş oluruq. Laçın rayonunda yerləşən ***Abdal dağı, Abdal dərəsi, Abdal təpəsi*** oroqrafik obyektləri etnonimlə bağlı olan oronimlərdəndir. Suriyalı alim-tarixçi Zaxari Ritor VI əsrdə Şimali Qafqazda, Hun əyalətində yaşayan müxtəlif tayfalar arasında türkdilli ***Abdel*** tayfasının da adını çəkir. **Abdal** qədim türk tayfalarından (***Ağ hun***) biridir. Bu tayfa V-VI əsrlərdə Orta Asiya, Çin, Türküstan və Əfqanıstanı əhatə edən dövlətin başçısı ***Eptalın*** adı ilə adlanmışdır. ***Abdal*** sözü ərəbcə ***bədəl*** sözündən olub, "*zahid*", "*müdrik*", "*mömin*" deməkdir. Bu sözün "*bilici*", "*avara*", "*mərifətsiz*" və s. anlamları da mövcuddur. ***Abdal*** tayfası mənşə etibarı ilə vaxtilə Orta Asiyada mövcud olmuş **Eftal** dövlətinin adındandır. Qərbi Türk xaqanlığı bu dövlətin varlığına son qoyandan sonra ***abdallar*** müxtəlif ölkələrə köçmüşlər. Abdal adlı tayfa adına VI əsrə aid olan Suriya mənbələrində, Şimali Qafqazda, Hun əyalətində də rast gəlirik. Vaxtilə Cənub-Şərqi Avropada yaşayan bulqarların bir tayfası da ***Abdal*** adlanırdı. ***Abdal*** sözü ərəbcə "*nəcabətli*" mənasındadır. XI – XIII əsrlərdə səlcuqların və monqolların tərkibində abdalların yeni köçü Qafqaza və Türkiyə ərazisinə gəlmişlər. 1588-ci ilə aid olan mənbədə Qarabağ düzündə ***Həsən Abdallı*** elinin yaşadığı da göstərilir. ***Abadel/abdal*** tayfasını akademik V.V.Bartold Hun tayfası hesab edir. A.A.Bakıxanov da ***Abdal*** adlı tayfanın hələ çox-çox əvvəllər Azərbaycanda yaşamasını qeyd etmişdir. Türkiyədə (Amasiya bölgəsindəki *Yaycı Abdal kəndi*, Kastomonı bölgəsindəki *Abdal kəndi* və s.), Bolqarıstanda (Varna şəhəri yaxınlığında olan *Yunus Abdal kəndi*), Başqırdıstanda, Qazaxıstanda, Türkmənistanda, Qırğızıstanda və Özbəkistanda (Qaraqalpak) da ***Abdal*** adlı oykonim və oronimlər mövcuddur. Bir sıra mənbələrdə ***Heftal, Heptal, Eftal*** kimi qeyd edilən etnonim ***abdal*** adının müxtəlif fonetik formalarındandır. Albaniyada yaşayan ***abdal*** tayfasının adını Alban tarixçisi M.Kalankatlı da çəkmişdir. O yazır ki, m. ö. IV əsrdə Makedoniyalı İsgəndərin zamanında **Abdallar** buraya köçürülüblər. Ümumiyyətlə, qədim türkdilli ***Abdal*** tayfasının Qafqaz Albaniyasında yaşaması çox güman ki, eramızdan əvvəllərə gedib çıxır. Azərbaycandakı ***Abdal*** adı ilə bağlı toponimlər həmin tayfanın adını özündə əks etdirir. Laçın şəhərinin 1923-cü ilədək adı ***Abdallar kəndi*** olmuşdur.

Ağalaruşağı – Oğuldərə kənd inzibati ərazi dairəsində, rayon mərkəzindən 68 kilometr məsafədə, dağlıq ərazidə yerləşirdi. Bəzi tarixi sənədlərdə göstərilir ki, bu yaşayış məntəqəsi XVIII əsrdə, Pənahəli xanın hakimiyyəti zamanında Qarabağ xanlığının baş sərkərdəsi, Zəngəzurun sultanı Qara Murtuza bəyin mülklərindən biri olmuşdur. Ondan sonra kənd Murtuza bəyin böyük oğlu Ağa bəyə və onun nəslinə mənsub olmuşdur.

Ağanus – Fətəlipəyə inzibati ərazi dairəsində, rayon mərkəzindən 10 kilometr məsafədə, dağətəyi ərazidə yerləşir. ***Ağanus*** yaşayış məntəqəsinin adı oradakı qədim məbədin xarabalığının adı ilə izah olunur. Toponim ***Ağ*** və ***naus*** sözlərindən ibarətdir. Toponimin tərkibindəki ***ağ*** komponenti rəng mənası ifadə edir. ***Ağ*** sözü ərəb dilində "*itaət etməyən*", "*inadcıl*", "*sözə qulaq asmayan*", "*üzə **ağ** olan*" mənalarında da işlənir. Bir çox alimlər ***naus*** terminini ərəb mənşəli söz hesab edirlər və onun tərcümədə "*məbəd*" variantını qəbul edirlər. Bəzi alimlərin tədqiqatlarına görə, Sasanilər zamanında zərdüştliyə sitayiş edənlərin qəbirlərinin üzərindəki tikiliyə ***naus*** deyilirmiş. Əgər bu deyilənləri nəzərə alsaq, ***Ağanus*** toponimini "*ağ rəngli məbəd*" kimi mənalandıra bilərik. Yerli əhali toponimi ***Ağa Yunus*** kimi də işlədir. Kəndin adını ***Əqənus*** kimi də yozanlar vardır.

Ağbulaq – Ağbulaq adlı iki kənd var. Onlardan biri Qarabağ silsiləsinin ətəyində, o birisi isə Hocazsu çayının sağ qolu sahilində yerləşən kənd. Ağbulaq kəndi eyniadlı inzibati ərazi vahidində, dəniz səviyyəsindən 200 metr yüksəklikdə, rayon mərkəzindən 60 kilometr məsafədə yerləşir. ***Ağbulaq*** yaşayış məntəqəsi öz adını ***Ağbulaq*** hidronimindən alıb. Başqa bir ***Ağbulaq kəndi*** isə Hocazsu çayının sağ qolu sahilində yerləşir. ***Ağbulaq*** keçmişdə Zəngəzur qəzasında yaşayan *ağkörpü* adlanan elatın qışlaq yerlərindən biri olmuşdur.

Ağbulaq – Rayon mərkəzindən 15 kilometr məsafədə, Zerti kənd inzibati ərazi dairəsində, dəniz səviyyəsindən 1750 metr yüksəklikdə, dağətəyi ərazidə yerləşən kənd. Kəndin ərazisində Qalacıq, Sarı Baba dağı, Bəzirganın düzü, Bulaq və s. coğrafi adlar qeydə alınmışdır. ***Ağbulaq*** toponimi Azərbaycan dilində "*içməyə yararlı, keyfiyyətli*" anlamında işlənən ***ağ*** sözü ilə ***bulaq*** hidroterminindən əmələ gəlib. Kəndin adı yaxınlığındakı bulağın adı ilə əlaqədardır.

Ağcakənd – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 65 kilometr məsafədə, Kiçik Qafqazın Mıxtökən silsiləsinin ətəyində, Qabaqtəpə dağının ətəyində, Qarabağ yaylasında, dəniz səviyyəsindən 2000 metr yüksəklikdə, Ağdərə və Hocazsu çaylarının sahilində yerləşən kənd. Toponim ***Ağca*** sözündən ibarətdir..

Ağcayazı – Arduşlu kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 47 kilometr məsafədə, Piçənis çayının sol sahilində, Qarabağ silsiləsinin ətəyində, dəniz səviyyəsindən 1450 metr yüksəklikdə yerləşən kənd. Yaşayış məntəqəsinin ərazisi XIX əsrdə Piçənis kəndinə məxsus binə yeri olmuşdur. Sonralar həmin kənddən ayrılan ailələr ***Ağcayazı*** düzündə daimi yaşayış məskəni salmışlar.

Ağoğlan (*Kosalar*) – Malıbəy inzibati ərazi dairəsində, rayon mərkəzindən 29 kilometr məsafədə, Qarabağ yaylasında, Ağoğlan çayının sahilində yerləşir. Kəndin əvvəlki adı ***Kosalar*** olub. ***Kosalar*** – XIX əsrin əvvəllərində Qarabağ xanı Mehdiqulu xana mənsub olan ***xəlfəli*** tayfasının bir tirəsidir. ***Kosalar*** tirəsinin adı ilə Ağdam və Xocalı rayonlarında da ***Kosalar kəndi*** vardır. *22 noyabr 1965-ci il* tarixdə kəndin adı ***Ağoğlan*** adlandırılıb. ***Ağoğlan*** yaşayış məntəqəsi oradakı *Ağoğlan* pirinin, məbədinin adı ilə əlaqədar belə adlanmışdır. Bir rəvayətə əsasən, ***Ağoğlan*** qədimdə buraya basqın etmiş yadellilərlə döyüşdə öldürülmüş və yaxınlıqdakı alban kilsəsi ərazisində dəfn edilmiş bir igidin adıdır.

Alxaslı – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 39 km şimal-qərbdə, Hocaz dağının şimal-şərq yamacında, dağətəyi ərazidə, dəniz səviyyəsindən 1750 metr yüksəklikdə, Hocazsu çayının sağ sahilində yerləşən kənd. 1992-ci ildə ermənilər bu yaşayış məntəqəsini işğal etdikdən sonra kəndin adını dəyişərək, ***Şrvakan*** və ya ***Arvakan*** qoymuşlar. Kəndin ərazisində XII-XIII əsrlərə aid Qafqaz Albaniyası dövrünə məxsus 2 möhtəşəm abidənin qalıqları mövcuddur. Bəzi məlumatlara görə, **Alxaslı** yaşayış məntəqəsini XVIII əsrdə Qazax sultanlığından köçmüş ailələr salmışlar. Kəndin bünövrəsini ***Alxas*** adlı şəxs qoyub. Kəndin bir neçə tirəsi – *binnətalılar, əhmədxanlılar, hüseynlər* və *şalıxlı* nəsilləri özlərini *Alxasın* törəmələri hesab edirlər. Yerli sakinlərin bəziləri ***Alxas*** sözünü ***Əlxas*** sözü ilə əlaqələndirir.

Alıcan – Rayon mərkəzindən 75 kilometr məsafədə, Köhnəkənd inzibati ərazi dairəsində, dağlıq ərazidə yerləşən kənd. Bəzi mülahizələrə görə, ***Alıcan*** kəndini Xocavənd rayonunun Susalıq kəndindən gələn ***Alıcan*** adlı şəxs və onun əqrəbaları salmışlar. ***Alıc*** coğrafi adı bəzi tədqiqatçıların fikrincə, qədim türk yazılı mənbələrində "*çayın ağzı, mənsəbi, axar suyun hövzəyə tökülən yeri*" mənasında işlənən ***alış/alıc*** sözü ilə əlaqədardır. Mənbələrdə ***Alıcan (alacan)*** adlı tayfanın da adı çəkilir.

Alıqulu – Pircahan kənd inzibati ərazi dairəsində, rayon mərkəzindən 40 kilometr şimal-qərbdə, Kiçik Qafqazın Mıxtökən silsiləsinin yamacında, dəniz səviyyəsindən 1550 metr yüksəklikdə yerləşən kənd. Kəndin ərazisində *Şeş taxta düzənliyi, Yalkənd dağı, Qabaqtəpə dağı, Mirəyal dağ meşələri, Daş bulaq, Qızdırma bulağı, Suludərə* və s. coğrafi adlar qeydə alınmışdır. Yerli sakinlərin dediklərinə görə, kəndin ərazisi vaxtilə *Alı uşağı* nəslindən olan ***Alıqulu*** adlı bəyin torpaqları olmuşdur.

Alməmmədli – Vaxtilə Laçın rayonunda mövcud olmuş kəndlərdən biri ***Alməmmədli*** adlanır. Bu kənd yeri Qarabağ xanlığının mövcudluğu zamanı xanın baş sərkərdəsi olmuş *Alməmməd bəyin* mülkü olmuşdur. ***Alməmməd bəy*** Qarabağ xanlığının banisi Pənahəli xanın yaxın silahdaşı *Qara Murtuza bəyin* nəvəsi idi. Kəndin başqa adı ***Yalkənd*** olub. Kənd haqqında sonuncu məlumat 1924-cü ilə aiddir. Sənədlərə əsasən, bu zaman kənddə 29 nəfərin yaşadığı göstərilir. Görünür, az sonra – *kollektivləşmə* ilə əlaqədar olaraq kənd dağılmış, əhalisi isə ***Alıqulu*** kəndinə köçmüşdür.

Alpoud – Qoşasu kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 46 kilometr məsafədə, dəniz səviyyəsindən 2200 metr yüksəklikdə, Qabaqtəpə dağının ətəyində, Hocazsu çayının sol sahilində yerləşən kənd. Bəzən adı ***Alpout*** kimi də yazılır. ***Alpout*** toponimi qədim türk mənbələrində erkən orta əsrlərdən adı çəkilən ***alpout/alpavit*** türk tayfasının adı ilə bağlıdır. ***Alpoutlar (alpovutlar, alpağutlar)*** XI-XII əsrlərdə Səlcuq oğuzlarının, sonrakı əsrlərdə Qaraqoyunlu və Ağqoyunlu, XV əsrin axırlarından isə qızılbaşların tərkibində Qabaq Asiya və Cənubi Qafqazın siyasi hadisələrində fəal iştirak etmişlər. Səfəvilər dövründə *alpoutların* Çuxursəddə və Şirvanda yaşamaları məlumdur. Onlara Səfəvilər tərəfindən hərbi xidmətlərinə görə müxtəlif yerlərdə torpaq da verilmişdir. Qədim türk mənşəli ***Alpout*** tayfasının adı rus mənbələrində ilk dəfə Kulikovo döyüşü (*1380-ci il*) ilə əlaqədar çəkilir. ***Alp*** sözü "*igid*" mənasında Azərbaycan dilində hələ VI-VII əsrlərdən işlənir. "*Kitabi-Dədə Qorqud*" dastanında da bu söz öz əksini tapmışdır. ***Alp*** sözü XV əsrdən Azərbaycan dilində eyni semantikalı "*dəli*" sinonimi ilə əvəz olunub. *Alp* sözü qədim türk-azəri dilində "*cəsur, qəhrəman, igid*" mənası daşıyır. Azərbaycan toponimiyasındakı ***Alpout*** sözü böyük maraq doğuran bir termindir. Qədim türk dilində ***alp*** sözünün mənası isə "*qəhrəman*" ifadəsi ilə izah oluna bilər (L.Q.Kertsenberq; Ob issledovanii rodstva altayskix yazıkov. Voprosı yazıkoznanya. M., 1974, 2 s., s.43-49). Qaraqoyunluları təşkil edən tayfalar içərisində ***Alpout*** da vardı. Akademik A.N.Kononov göstərir ki, ***alp*** və ***alva (p)*** sözləri ***al*** kökü əsasında yaranıb; monqol dilində isə *alva (p)* sözünün mənası "*xidməti vəzifə borcu*" deməkdir. Deməli, ***"alp" -al+v+ap"*** "*feodal drujina döyüşçüsü*" adlanırdı (Kononov A.N. Rodoslovnaya turkmen soçinenii Abu-i Qazi xana Xivinskoqo. M.-L., 1958, s.97-98). Orxon abidələrində də *alp* sözü "*qəhrəman*", "*igid*" mənasında işlənmişdir. Bunu Mahmud Kaşğari də təsdiq edir ("*Divani-lüğəti-türk*". Ankara tərcüməsi, 1939-1941, səh.144, 422). ***Alp-Arslan*** (***alp*** sözündən) kimi şəxs adları, həm də ***Alpo-ut, Alpout, Alpan*** toponimləri VII-XII əsrlərin Zaqafqaziya mənbələrində də qeyd olunub. Türkdilli səlcuq-oğuz tayfalarından biri olan *alpoutlar* (alpavutlar, alpağutlar) Azərbaycanda, o cümlədən, Cənubi Azərbaycanda məskən salmışlar.

Ardıclı – Arduşlu kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 49 kilometr məsafədə, Piçənis çayının sahilində, Qarabağ silsiləsinin ətəklərində, dağətəyi ərazidə, dəniz səviyyəsindən 1455 metr yüksəklikdə yerləşən kənd. Laçın rayonunun ***Ardıclı kəndi*** adındakı ***ardıclı*** sözü "*ardıclı yer*" mənasını ifadə edir.

Arıqlar – Vaxtilə Laçın rayonunda ***Arıqlar*** adlı kənd mövcud olmuşdur. Ehtimal ki, ***Arıqlar*** oykonimi bölgədəki ***Arıqlı***, ***Ərikli*** toponimləri ilə eyni mənalıdır. Bəlkə də bu coğrafi ad vaxtilə Sisyan rayonundan gətirilmə toponimdir və Ağqoyunlu tayfa birliyinə daxil olan ***arıqlı*** türk tayfasının adını özündə əks etdirir.

Aşağı Avazlar – Laçın rayonunda vaxtilə mövcud olmuş kəndlərdən biri ***Aşağı Avazlar*** adlanır. Toponimin mənası kəndin bünövrəsini qoyan ***Avaz*** (***Əvəz***) adlı şəxslə bağlıdır.

Aşağı Cicimli – Rayon mərkəzindən 35 kilometr şərqdə, Cicimli kənd inzibati ərazi vahidində, Həkəri çayının sahili yaxınlığında, Qarabağ yaylasında, dəniz səviyyəsindən 1275 metr yüksəklikdə yerləşən kənd. Kənd Yuxarı Cibiklidəki ***Cicim ocağı*** pirinn adı ilə adlandırılmışdır. Oykonimin tərkibindəki ***Aşağı*** sözü kəndi eyniadlı digər yaşayış məntəqəsindən ayırmaq üçün coğrafi ada əlavə edilmişdir.

Aşağı Fərəcan – Eyniadlı inzibati ərazi vahidində, Qarabağ silsiləsinin cənub-qərb ətəyində, Həkəri çayının sol sahilindən 6 km aralıda, rayon mərkəzindən 44 km cənubda, dəniz səviyyəsindən 1500 metr yüksəklikdə yerləşən kənd. Adı bəzən sənədlərdə ***Fərəcan*** kimi yazılır. Kəndin keçmiş adı ***Haral*** olub. Yaşayış məntəqəsinin adı bir müddət ***Cəfərabad*** da olub. *20 yanvar 1954-cü il* tarixdən kənd ***Aşağı Fərəcan*** adlandırılmışdır. Kənd sakinlərinin dediklərinə görə, ***Fərəcan*** kəndini Səfiyan kəndindən köçən ***Fərəc*** adlı şəxs salmışdır. Kənd əvvəl ***Fərəc***, sonralar isə ***Fərəcan*** adlanmışdır.

Aşağı Qarasaqqal – Qozlu çayının sahilində, Kürdhacı (*Qurdhacı*) kənd inzibati ərazi dairəsində, rayon mərkəzindən 58 kilometr şimalda, dəniz səviyyəsindən 1500 metr yüksəklikdə yerləşən kənd. Yaşayış məntəqəsi ***qarasaqqal*** tirəsinin adı ilə əlaqədar olaraq belə adlanmışdır. Kəndin adına ***Aşağı*** sözü onu digər eyniadlı yaşayış məntəqəsindən fərqləndirmək üçün əlavə edilmişdir.

Avazlar – Hoçaz kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 18 kilometr məsafədə, Qarabulaq yaylasında, dağətəyi ərazidə yerləşən kənd. Bəzi mülahizələrə görə, kəndin adı orada məskən salmış ***avazlar*** nəslinin (*tayfasının*) adı ilə əlaqədardır. Toponim özündə qədim türkdilli xəzərlərin ***avaz*** **(*abas*)** tayfasının adını əks etdirir.

Ayıbazar – Bülüldüz kənd inzibati ərazi dairəsində, rayon mərkəzindən 25 kilometr məsafədə, Ayıbazar (*Şəlvə çayının qolu*) çayı kənarında, Qarabağ silsiləsinin ətəyində, dağətəyi ərazidə yerləşən kənd. ***Ayıbazar*** yaşayış məntəqəsi (kəndin adı bəzi tarixi sənəd və materiallarda ***Aybasar*** şəklində də göstərilir) meşəlik ərazidən zolaq şəklində ayrılmış bir sahədədir. Toponimin əsl adı ***Ayıbasar*** kimi izah olunur.

Bağırbəyli – Laçın rayonunda vaxtilə mövcud olmuş kəndlərdən biri də ***Bağırbəyli*** yaşayış məntəqəsidir. Bu yaşayış məntəqəsi *Bağırlı* kəndindən çıxmış ailələr tərəfindən salınmışdır. ***Bağırbəyli*** toponimi XVIII-XIX əsrlərdə Zəngəzurda, Qarabağda məşhur olan ***Bağır bəy*** adlı şəxsin adı ilə bağlıdır.

Baldırğanlı – Mığıdərə kənd inzibati ərazi dairəsində, rayon mərkəzindən 28 kilometr məsafədə, Qarabağ silsiləsinin ətəyində, Həkəri çayının sahilində yerləşən kənd. ***Baldırğanlı*** yaşayış məntəqəsi XX əsrin əvvəllərində *Haqverdiuşağı* nəsli tərəfindən salınmışdır.

Bəylik – Zabux kənd inzibati ərazi dairəsində, rayon mərkəzindən 15 kilometr məsafədə, dağətəyi ərazidə yerləşirdi. Kəndin yaxınlığında ***Bəylik bağı*** deyilən böyük bir bağ sahəsi olmuşdur. 1924-cü ilə aid olan sənədə görə, kənddə 11 nəfərin yaşadığı göstərilir. Rayon ərazisində qeydə alınan və çox qədim tarixə malik olan oroqrafik obyektlərdən biri də ***Bəylik*** **(*Abdallar*)** adlanır. Yaşayış məntəqəsinin ərazisində, Həkəri çayı üzərində XVIII əsrə aid tarixi körpü tikilisi, Dəmir dövrünə aid Daş qutu qəbir abidəsi, qədim qəbiristanlıq və s. qeydə alınmışdır. ***Bəylik*** yaşayış məntəqəsi XVIII – XIX əsrlərdə yaşamış böyük nüfuz sahibi olan ***Qara Murtuza*** bəyin 30-a qədər yurd yerlərindən biri olmuşdur...

Birinci İpək – Laçın rayonunda, dağətəyi ərazidə yerləşən kənd. Kəndə ***İpək*** adının verilməsinin səbəbi elmi şəkildə hələlik dəqiq müəyyən olunmamışdır. XIX əsrdə almanlar qazıntı işləri nəticəsində kənd ərazisində yeraltı sərvət aşkar etmiş, oradan qiymətli *ipək* daşlar və s. üzə çıxarmışlar. 1933-cü ildə ərazidə Birinci, İkinci və Üçüncü İpək adlı 3 kənd qeydə alınmışdır. Sonralar iki kəndin adı dəyişdirilmiş, yalnız ***Birinci İpək*** saxlanılmışdır.

Birinci Tığiq – Rayon mərkəzindən 15 kilometr məsafədə, Zerti kənd inzibati ərazi vahidliyinin tabeliyində, dəniz səviyyəsindən 1700 metr yüksəklikdə, şose yolunun üst tərəfində yerləşən kənd. Yaşayış məntəqəsinin əsl adı ***Birinci Tığiq*** kimi yazılır. Kənd ***Tığiq*** dağının ətəyində salındığı üçün belə adlanmışdır. Yerli məlumata görə, ***tığiq*** sözü "*yeni kənd*" anlamını ifadə edir. Kəndin əhalisinin çoxu Dərə kəndindən köçüb gələn İlyas kişinin nəsli hesab edilir. Bəzən də elə buna görə kəndi ***İlyasuşağı*** adlandırırlar. İkinci qardaş olan Allahverdi isə ***İkinci Tığiq*** kəndində məskunlaşmışlar. Çox güman ki, ***Tığiq*** toponimi Qarabağ və Zəngəzurda yaşamış türksoylu ***tuğ*** (***tağ***) tayfasının adı ilə bağlıdır.

Bozdağan – Şamkənd inzibati ərazi vahidində, rayon mərkəzindən 60 kilometr şimalda, dağlıq ərazidə yerləşən kənd. ***Bozdağan*** kəndinin adı sənədlərdə bəzən ***Bozdoğan*** kimi də yazılır. Bir çox ehtimallara əsasən, ***Bozdoğan*** toponimi eyniadlı etnik qrupun adı ilə əlaqədardır. Həmin etnik qrup **doğan/dağan** adlı quşu özlərinə inam, səcdə mənasında totem hesab edirdi. ***Doğan*** sözünün bəzi türk dillərində "*qırğı*", "*şonqar*", "*çalağan*", "*ağquş*" mənalarında işlənən "*şahin*" sözü ilə bağlılığını da güman edən tədqiqatçılar vardır. **Bozdoğan** oykonimi oğuzlara məxsus olan ***bozdoğan*** adlı türk tayfasının adından formalaşmışdır.

Bozgüney – Vağazin kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 46 kilometr şimalda, Qarabağ silsiləsinin yamacında, dəniz səviyyəsindən 2200 metr yüksəklikdə, Minkənd çayının sol tərəfində, Kalafalıq çayı yaxınlığında yerləşən kənd. ***Bozgüney*** yaşayış məntəqəsi ***Bozgüney*** adlı sahədə salındığına görə həmin yerin adı ilə adlandırılmışdır.

Bozlu – Rayon mərkəzindən 36 km şimal-qərbdə, eyniadlı inzibati ərazi vahidində, Minkənd çayının sol sahilində, Qalaça kəndindən 3 kilometr məsafədə, Qarabağ yaylasında, dəniz səviyyəsindən 1400 metr yüksəklikdə yerləşən kənd. Bozlu kəndinin etnik tərkibi müsəlman kürdlərindən ibarətdir. Yaşayış məntəqəsinin keçmiş tam adı ***Bozlu Ağcakənd*** olub. Kənd XVIII əsrdə indiki Ermənistanın *Dərələyəz* mahalından gəlib burada məskən salmış ***bozlu (bozulu)*** tayfasının adını özündə əks etdirir. ***Boz*** termininin rəng mənası da var.

Budaq – Vaxtilə Laçın rayonunda mövcud olmuş kəndlərdən biri ***Budaq kəndi*** adlanırdı. Toponim təklə türk tayfasının ***budaqlı*** qoluna mənsub olan ailələrin adı ilə bağlıdır. Təklə türklərinin XVI əsrdə Türkiyədən Azərbaycana gəlməsi ehtimal olunur.

Budaqdərə – Hacıxanlı kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 60 kilometr şimalda, Qarabağ yaylasında, dəniz səviyyəsindən 1690 metr yüksəklikdə yerləşən kənd. Oykonimi ***Budaq*** şəxs adı ilə əlaqələndirirlər. ***Budaq*** nadir adlarımızdandır ki, oğuz babalarımızdan bizim günlərə qədər gəlib çatıb. Bu qədim ada "*Dədə-Qorqud*" dastanında da rast gəlirik. Bu sözün maraqlı məcazi mənası var; belə ki, oğul *budaqdır*, ailənin, nəslin davamçısıdır. Bəzi tədqiqatçılara görə ***Budaqdərə*** oykonimi təklə türklərinin ***budaqlı*** tirəsinin adı ilə bağlıdır.

Bülövlük – Qoşasu kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 50 kilometr məsafədə, Kiçik Qafqazın Mıxtökən silsiləsinin ətəyində, dəniz səviyyəsindən 2000 metr yüksəklikdə, Piçənis çayının sağ sahilində yerləşən kənd. ***Bülövlük*** toponimi "*bülöv daşı olan yer*" mənası daşıyır.

Bülüldüz – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 21 kilometr şimalda, Qarabağ silsiləsinin ətəyində, dəniz səviyyəsindən 1500 metr yüksəklikdə, Şəlvə çayının sol sahilindən 1,5 km aralıda yerləşən kənd. ***Bülül*** – "*hamar*", "*yumru*" mənasında işlənir. Taxılın içinə qarışmış yabanı otun toxumuna da bu ərazilərdə ***bülül*** deyirlər. Yerli sakinlərin verdiyi məlumata görə, kəndin adının mənası "*Büllur düz*" deməkdir. Yaşayış məntəqəsi iki dağın arasında, maili düzənlik olan bir sahədə yerləşdiyi üçün ona bu ad verilmişdir.

Cağazur – Laçın rayonunda, eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 35 km qərbdə, Qarabağ yaylasında, dəniz səviyyəsindən 1260 metr yüksəklikdə, dağətəyi ərazidə yerləşən kənd. Kəndin adına ***Baharlı*** da deyirlər. ***Cağazur*** oykonimini tədqiqatçılar müxtəlif variantda izah edirlər. Toponimin dəqiq mənası hələlik elmi şəkildə tam müəyyən olunmayıb. Versiyalar isə çoxdur. Belə gümanlardan bir neçəsini araşdırmaq olar: ***Ca*** – fars dilində "*yer*", "*məkan*" deməkdir. Evin, bağçanın ətrafına çəkilən hasara, arabanın yan taxtalarına, corab milinə ***cağ*** deyilir. Toponimi ***cağa*** ("*kiçik*"), ***sur*** ("*qala, divar*") komponentləri ilə də izah edənlər var. Bu yozumda toponim "*kiçik qala*", "*kiçik zirvə*" anlamını ifadə edir. ***Cağan*** – qədim monqol dilində "*ağ*" mənası verir. ***Zur*** komponenti farsca "*qol gücü*", ərəbcə "*yalan*" mənası daşıyır.

Cicimli – Laçın rayonunda, rayon mərkəzindən 38 kilometr cənubda, Cicimli kənd inzibati ərazi vahidinin tabeliyində, Həkəri çayının sahili yaxınlığında, Qarabağ yaylasında, dəniz səviyyəsindən 1260 – 1290 metr yüksəklikdə yerləşən kənd. Dövrünün görkəmli ziyalısı, şair Şeyx Hacı Mirhəmzə Əfəndi Seyid Nigari (1815-1886) bu kənddə yaşayıb-yaratmışdır. Kəndin ərazisində *Ağ çay, Başmaqçı, Camalxan bulağı, Cinlicə, Çınqıllı, Çobandaş, Dibək dərəsi, Günbəzin düzü, Quşoturan, Mahmudun təpələri, Nəbioğlunun qayası, Oyuğun yalı, Salamın bulağı, Tac bulağı, Tənəkli, Yeddi bulaq* və s. coğrafi adlar qeydə alınmışdır. Kənd *Yuxarı Cibikli* kəndindəki ***Cicim ocağı*** adlanan qəbir-pirin adı ilə adlandırılmışdır. Bəzi mənbələrdə və ədəbiyyatlarda kəndin adının ***Cimcimli***, ***Cimçimli*** variantına da rast gəlirik.

Çaylı – Vaxtilə Laçın rayonunda mövcud olmuş kənd. Çayın kənarında yerləşdiyi üçün ***Çaylı*** adlanmışdır.

Çəmbərəkənd (***Çəmbərxaç***) – İrçan kənd inzibati ərazi dairəsində, Qarabağ silsiləsinin yamacında yerləşən kənd. ***Çəmbərəkənd*** (***Çəmbərxaç)*** yaşayış məntəqəsi *bəysülülər* nəslinə mənsub olan ailələrin buradakı ***Çəmbərəxaç*** adlı yerdə məskunlaşması nəticəsində yaranmışdır. Dilimizdə "*dağ döşündə böyük hamar yer*" ***çəmbərə*** adlanır. Yerli əhali kəndin adını əksər hallarda ***Çəmbərəxaç*** formasında tələffüz edirlər. ***Çəmbər*** – təzəkdən yapılan dairəvi yaymaya, gərmə qalağına deyilir. Fars dilində **çəmbər/çənbər** sözünün "*əyri*", "*halqavari*", "*dairəvi*", "*doğanaq*", "*ağac və dəmir həlqə*" anlamları da var. ***Çəmbərxaç*** toponimi "*çəmbər, dairə formalı xaç*" mənasındadır. Yerli məlumata görə, burada üstündə ***xaç*** şəklində olan *çəmbərə* (*dairəvi*) formalı daş varmış.

Çıraqlı – Kamallı kənd inzibati ərazi vahidində, Kamallı kəndinin 1,5 kilometrliyində, rayon mərkəzindən 41 kilometr şimal-qərbdə, Həkəri çayının Minkənd qolunun sağ sahilində, Qarabağ silsiləsinin ətəyində, dəniz səviyyəsindən 1650 metr yüksəklikdə yerləşən kənd. Kənd əhalisinin etnik tərkibi müsəlman kürdlərindən ibarətdir. Kəndin ərazisində *Çaxmaq daşı, Damcılı bulağı, Dik yurd, Nəbi yurdu, Nəcəf bulağı, Pir bulağı, Şabanzadə çuxuru* və s. coğrafi adlar qeydə alınmışdır. Yerli məlumata görə, ***Çıraqlı*** yaşayış məntəqəsini XVIII əsrdə Dərələyəz mahalından gələn ***Çıraq*** adlı kor bir şəxs salıb. ***Çıraqlı (Çiraqlı)*** toponimini Azərbaycanın *qılıçlı* tayfasının *çıraqlı* tirəsinin adı ilə də əlaqələndirirlər. Oykonimi qızılbaşların ***Çıraqlı*** tayfasının adı ilə də bağlayan tədqiqatçılar var. ***Siraq*** qəbilə birləşməsi xalqımızın soykökündə iştirak etmişdir. Böyük imperiyası olan Orta Asiyadan, Etil çayı sahillərindən tutmuş Qafqaza kimi böyük bir ərazidə ağalıq etmiş *Siraq* Qafqazın ictimai-siyasi həyatında görkəmli yer tutmuşdur. ***Siraq*** adlanan qəbilə birləşməsi adına eradan qabaq və eranın VII-VIII yüzilliklərinə kimi yunan qaynaqlarında, Orxon-Yenisey və başqa abidələrdə də rast gəlirik. ***Siraq*** qəbilə birləşmələri Qafqazın ictimai-siyasi həyatında müəyyən rol oynamışlar. Bəzi yunan müəllifləri siraqlıların əsasən oturaq həyat sürdüklərini göstərmişdir. VII əsrdə "*Coğrafiya*" əsərini yazmış A.Şiraqasi ***Siraq*** əvəzinə ***Şiraq*** sözünü işlədir. Onun fikrincə, şiraqlar Alban və Arsaq *şiraqların* ayrıca xaqanlıqları olmuşdur. ***Siraq*** **(Şiraq) s**özü ***sir*** **(*şir*)**sözündən götürülmüşdür. Türk dillərində ***s*** və ***ş*** səsləri oxşar olduğu

üçün bir-birilə əvəz olunurlar. Bu baxımdan demək olar ki, Siraqın adı bəlkə də Şiraq olmuşdur. Fars döyüşçülərini susuz səhraya gətirib məhv edən Siraqın mənsub olduğu qəbilənin adının məhz Şirlər sözü ilə əlaqədar olması da diqqəti cəlb edir. Deməli, ***Siraq* (*Şiraq*)** öz ulu babasının, ulu onqonunun, ulu Tanrısının adı kimi götürülmüşdür. Siraqın mənsub olduğu türkdilli saq qəbilə birləşməsinə ***şir*** adının verilməsi də təsadüfi deyildir. Əslində ***sir*** "*işıq*" deməkdir. Yəni, ***siraqlar*** özlərini doğma tanrılarının adı ilə adlandırmışlar. ***Siraq (Şiraq)*** qəbilə birləşmələri Orta Asiya,Kuban, Ön Qafqaz və Qafqaz ərazilərində yaşamışlar. Azərbaycan ərazisində də ***sir* (şir)** kökü ilə başlayan yer adları mövcuddur. Orta əsrlərdə ***Çıraqlı*** (*Çiraqlı*) adlı qızılbaş tayfası da olmuşdur. *Çıraqlı t*oponimi qızılbaşların ***çıraqlı*** tayfasının adını özündə əks etdirir. Onların bir hissəsi Səfəvi hakimiyyəti zamanı Şirvana köçürülmüşdür. XIX əsrin 80-ci illərində *çıraqlıların* bir qolu (*79 ailə*) Cavad qəzasında yaşayırdı. ***Çıraqlı*** tayfası mənşə etibarı ilə eramızdan çox-çox əvvəl Şimali Qafqazda yaşamış ***çirak/sirak*** tayfasının varisləridir. Bu tayfa sonralar Cənubi Qafqazda da geniş ərazidə yayılmışdır. ***Çıraq*** sözü fars dilində "*işıq, ziya, nur*" mənasındadır. XIX əsrdə Azərbaycanda Qılınclı tayfasının ***çıraqlı*** adlı qolu olması da məlumdur. ***Çıraqlı*** etnonimi ilə bağlı çoxlu oronim qeydə alınıb. ***Çıraqlı*** etnoniminin mənşəyi hələlik elmi şəkildə dəqiq tədqiq olunmayıb. Məşhur yunan alimi Strabon "*Coğrafiya*" əsərində ***çirak/sirak*** adlı türk mənşəli tayfanın da adını çəkmişdir. I əsrdən sonra Qafqazda ***çirak/sirak*** tayfasının yaşaması bir çox mənbələrdə qeyd olunmuşdur.

Çorman – Piçənis kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 60 km şimal-qərbdə, Qarabağ silsiləsinində, dağətəyi ərazidə, Nağdalı çayı sahilində yerləşən kənd. Tanınmış müğənni, respublikanın əməkdar artisti, mərhum *Məhəbbət Kazımov* bu kənddəndir. ***Çorman*** yaşayış məntəqəsi ***Çorman meşəsi*** adlanan ərazidə salındığına görə belə adlanmışdır. Güman etmək olar ki, ***çorman*** türk mənşəli *orman* sözünün variantı olub, "*meşə*" mənası ifadə edir. Bəzi tədqiqatçılar səhv edərək ***"çor"*** komponentini "*dərə*" kimi izah etməyə çalışırlar. Bu toponimin ***çur*** peçeneq tayfası ilə bağlılığını iddia edən tədqiqatçılar da vardır. Tarixdən məlumdur ki, eramızın əvvəllərində Azərbaycan ərazisində azərbaycandilli tayfalar içərisində ***çul/çor*** tayfası da olmuşdur. Türk dillərində bitkilərdəki hörümçək xəstəliyinə ***çor*** deyilir. Məcazi anlamda ***çor*** sözünün "*küfür*" mənası da var.

Çorman – Şamkənd inzibati ərazi vahidində, rayon mərkəzindən 55 kilometr məsafədə, dağətəyi ərazidə yerləşən kənd. Bəzi tədqiqatçılar səhv edərək ***"çor"*** komponentini "*dərə*" kimi izah etməyə çalışırlar. Bu toponimin ***çur*** peçeneq tayfası ilə bağlılığını iddia edən tədqiqatçılar da vardır. Tarixdən məlumdur ki, eramızın əvvəllərində Azərbaycan ərazisində azərbaycandilli tayfalar içərisində ***çul/çor*** tayfası da olmuşdur.

Çuxurqışlaq – Vaxtilə Laçın rayonunun ərazisində mövcud olmuş kəndlərdən biri ***Çuxurqışlaq*** adlanır. Oykonim ***çuxur*** və ***qışlaq*** sözlərindən ibarət olub, yaşayış məntəqəsinin yerləşdiyi ərazi ilə bağlıdır.

Dambulaq – Şəlvə kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 70 kilometr şimalda, Kiçik Qafqazın Mıxtökən silsiləsinin yamacında, dəniz səviyyəsindən 1800 metr yüksəklikdə yerləşən kənd. Yerli sakinlərin dediklərinə görə, kənd əvvəllər Seyid Alı Xəlfənin yaylaq yeri olmuşdur. Burada – *Dambulaq düzü* deyilən yerdə vaxtilə Seyid Alı Xəlfənin *damı* varmış və kənddə içməli su yox imiş. Bu səbəbdən onun uşaqları susuzluqdan əziyyət çəkirmişlər. Seyid Alı Xəlfə *damın* içərisində çəliyini yerə vuraraq su diləyib və bundan az sonra yerdən su çıxıb. Oykonim bu mənada "*damdan bulaq çıxır*" anlamını verir. ***Dambulaq*** toponimi ***dam*** və ***bulaq*** sözlərindən ibarətdir. ***Dam*** – daxma, tövlə, qazma, ev, tikiliyə deyilir.

Daşlı – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 69 kilometr şimal-qərbdə, dağətəyi ərazidə, Çalbayır silsiləsinin ətəyində, dəniz səviyyəsindən 2000 metr yüksəklikdə, Həkəri çayının qolu olan Şəlvə çayının hər iki sahilində yerləşən kənd. ***Daşlı*** yaşayış məntəqəsi XIX əsrdə Zəngəzur qəzasında yaşamış *qaraçorlu* tayfasının *əliyanlı* qolunun qışlaq yerlərindən biri olmuşdur. Sonralar həmin tayfaya mənsub olan ailələr, nəsillər bu yeri daimi kəndə çevirmişlər. Qışlağın yeri ***daşlı*** olduğu üçün və kənd də həmin qayalı, daşlı ərazidə salındığına görə, toponim də ***Daşlı*** adlandırılmışdır. Yeli əhali bəzən kəndin adını ***Daşdı, Daştı*** formasında tələffüz edir.

Dəflər – Vaxtilə Laçın rayonunda mövcud olmuş kəndlərdən biri ***Dəflər*** adlanmışdır.

Dərə – Vaxtilə Laçın rayonunda mövcud olmuş kəndlərdən biri ***Dərə binəsi*** adlanırdı.

Dərəkənd – Laçın rayonunda vaxtilə mövcud olmuş yaşayış məntəqələrindən biri ***Dərəkənd*** adlanır.

Dəvəboynu – Vaxtilə Laçın rayonunda mövcud olmuş kəndlərdən biri ***Dəvəboynu kəndi*** adlanır.

Dəyhan – Mığıdərə inzibati ərazi vahidində, rayon mərkəzindən 24 kilometr cənub-şərqdə, Qarabağ silsiləsinin cənub-qərb ətəyində, dəniz səviyyəsindən 1200 metr yüksəklikdə yerləşən kənd. **Dəyhan (*dəhan*)** sözünün "*cilov*" anlamı məlumdur. **Dəyhan/dəhan** fars dilində "*ağız*" mənasında da işlədilir. ***Dəyhan kəndi*** iki dərənin ağzında yerləşdiyi üçün belə adlanmışdır. ***Dəyhan*** kəndinin ərazisindən eyniadlı çay axır.

Dəyirmanyanı – Mığıdərə kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 34 kilometr məsafədə, Qarabağ silsiləsinin ətəyində yerləşirdi. Yaşayış məntəqəsinin keçmiş adı ***Dəyirmandərəsi*** olub.

Əhmədli – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 55 kilometr şimal-qərbdə, Həkəri çayının qolu olan Ağoğlan (*Minkənd*) çayının sağ sahilində, dəniz səviyyəsindən 1650 – 2000 metr yüksəklikdə yerləşirdi.. 1992-ci il erməni işğalından sonra ermənilər ***Əhmədli*** kəndinin adını gah ***Hayri***, gah ***Herik*** adlandırmışlar. Kəndin keçmiş adı ***Molla Əhməd (Mollaəhmədli)*** olub. Yerli məlumata görə, ***Molla Əhməd*** XIX əsrin ikinci yarısında Qaryagin (*hazırki Füzuli rayonu*) qəzasından (*Araz boyu kəndlərin birindən*) gələrək bu kəndin bünövrəsini qoymuşdur. Kənd əvvəllər hazırda *Varazğun yeri* deyilən ərazidə olub və XIX əsrin ikinci yarısında buraya köçüb.

Ələkçi – Laçın rayonunda, Şamkənd inzibati ərazi vahidində, rayon mərkəzindən 63 kilometr şimalda, dağətəyi ərazidə yerləşən kənd. ***Ələkçi*** yaşayış məntəqəsi XIX əsrdə ***Qasımuşağı*** adlı tayfanın burada oturaqlaşması nəticəsində yaranmışdır. ***Qasımuşağı*** tayfasının başqa bir adı bəzi mənbələrə istinadən *kürdhacı* ***(qurdhacı)*** olmuşdur. ***Ələkçi*** tirəsi isə həmin ***qasımuşağı*** (*qurdhacı*) tayfasına məxsus olan nəslin adıdır. Kəndin adı da bu tirənin, nəslin adı ilə əlaqədar olaraq ***Ələkçi*** adlandırılmışdır.

Əlimərdanlı – Vaxtilə Laçın rayonunda mövcud olmuş kəndlərdən biri ***Əlimərdanlı*** adlanırdı.

Ərdəşəvi – Təzəkənd inzibati ərazi vahidində, rayon mərkəzindən 40 kilometr şimal-qərbdə, dağətəyi ərazidə, dəniz səviyyəsindən 1500 metr yüksəklikdə yerləşən kənd. Çox güman ki, toponimin düzgün yazılış forması ***Ərdəşəvə*** olmalıdır. Toponimi türk dillərindəki ***artaş*** ("*dağ çökəyi*", "*gəzdək*") sözü ilə də əlaqələndirmək olar. Yerli məlumata görə, kəndin adı ***Ərdəşəvi*** dağının adı ilə əlaqədardır. ***Ərdəşəvi*** toponiminin dəqiq izahı elmi şəkildə hələlik tam aydınlaşdırılmayıb.

Ərəb – Fətəlipəyə inzibati ərazi dairəsində, rayon mərkəzindən 16 kilometr məsafədə, dağətəyi ərazidə, dəniz səviyyəsindən 1250 metr yüksəklikdə yerləşirdi. *Ərəb* yaşayış məntəqəsini *bağırbəyli* tayfasına mənsub olan ailələr ***Ərəbdüzü*** adlanan yerdə salmışlar. Kəndin yerləşdiyi ərazidə qabaqlar ***Ərəbdüzü*** adlanan düzənlik olmuşdur. Azərbaycanda ***ərəb*** etnonimi ilə bağlı çoxlu kənd adları yaranmışdır. Sonralar gəlmə ***ərəblər*** yerli əhali ilə qaynayıb-qarışaraq onun dilini, mədəniyyətini qəbul edib azərbaycanlılaşmışlar. Gəlmə *ərəblər*, əsasən, Azərbaycanın şimal-qərb ərazilərində məskən salmışdılar.

Ərəbli – Vaxtilə Laçın rayonunda ***Ərəbli*** adlı kənd mövcud olmuşdur. Toponim ərəblərin ərazilərə gəlişindən sonra yaranan etnonimlərlə eyni mənalıdır.

Ərikli – Kürdhacı (*Qurdhacı*) kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 58 kilometr şimal-qərbdə, Həkəri çayının Şəlvə qolunun sol sahilində, dağətəyi ərazidə, dəniz səviyyəsindən 1650 – 1750 metr yüksəklikdə yerləşən kənd. 1992-ci ildə ermənilər kəndi işğal etdikdən sonra adını dəyişərək ***Arkuqet*** (*bəzən* ***Arko*** *kimi də yazırlar*) qoymuşdu.

Əyərək – Köhnəkənd inzibati ərazi dairəsində, rayon mərkəzindən 63 kilometr məsafədə, Qarabağ silsiləsinin yamacında yerləşən kənd. Bəzən sənədlərdə adı ***Əyrik*** kimi də yazılır. Kəndin ərazisində *Çalçıxan bulağı, Söyüdlü bulaq* və s. toponimlər qeydə alınmışdır. Bəzi rəsmi ədəbiyyatlarda yaşayış məntəqəsinin adı səhv olaraq ***Əyrik*** kimi yazılır. ***Əyərək*** toponimi ***Əkərək*** adının fonetik formasıdır. XIX əsrə aid ədəbiyyatda kəndin adı ***Əkərək*** **(*Aqaraq/ Akarak*)** kimi qeyd olunmuşdur. ***Əkərək*** **(*Aqarak*)** toponimi Qafqazda çox geniş yayılıb. Vaxtilə Qərbi Azərbaycanda (*Ermənistanda*) İrəvan əyalətinin Sürməli nahiyəsində (*XIX əsrə qədər*) ***Əyrək*** adlı kənd də olmuşdur. ***Əkərək*** toponimi keçmişdə "*sahibkar mülkü*", "*sahibkar təsərrüfatı*", "*yaşayış yeri*" mənalarında işlənmişdir. Həmin söz mənşə etibarı ilə şumer dilinə aid edilən **aqar/akar** sözü ilə əlaqələndirilir. ***Aqar*** – əkin yerinə, əkilən sahəyə deyilirdi.

Əzizpəyəsi – Vaxtilə Laçın rayonunda mövcud olmuş kənd. Bu toponim XIX əsrdə Zəngəzur bölgəsində yaşamış *Qara Bayramlı* tayfasının qışlaqlarından (***Əzizpəyəsi***, *Daşlı, Zor, Keşiş, İsgəndərpəyəsi, Qovuşuq, Aşağı Uluxan*) birinin adıdır.

Fərəcan – Rayon mərkəzindən 43 kilometr məsafədə, dağətəyi ərazidə yerləşən kənd. Əvvəllər kəndin adı ***Fərəc*** olub. ***Fərəcan*** yaşayış məntəqəsi həmin rayondakı Səfiyan kəndindən *Fərəc* adlı bir şəxsin öz yaxın adamları ilə köçüb burada məskunlaşması nəticəsində yaranmışdır.

Fərraş – Fərraş kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 60 kilometr məsafədə, Qarabağ silsiləsində, dağlıq ərazidə, dəniz səviyyəsindən 1200 metr yüksəklikdə yerləşən kənd. Toponim ***Fərraş*** şəxs adı ilə əlaqədardır. ***Fərraş*** – ərəb sözü olub, "*xidmətçi*", "*gözətçi*" mənasındadır.

Fətəlipəyə – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 13 kilometr cənubda, dəniz səviyyəsindən 1200 metr yüksəklikdə, Laçın-Qubadlı şose yolu yaxınlığında yerləşən kənd. Oykonim ***Fətəli*** şəxs adı ilə əlaqədardır.

Fingə – Qozlu kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 50 kilometr şimal-şərqdə, dağətəyi ərazidə, Fingə dağı yaxınlığında, dəniz səviyyəsindən 2350 metr yüksəklikdə yerləşən kənd. Kəndin ərazisində *Pirin düzü, Sarı baba dağı yolu, Kərim ağanın qoruğu* və s. adlı coğrafi adlar qeydə alınmışdır. ***Fingə*** XIX əsrin əvvəllərinə aid ədəbiyyatda dağ və qışlaq adları kimi qeyd olunmuşdur. Fingə kəndi eyniadlı dağın ətəyində salınmışdır. Fingə toponimi ***fin*** və ***gə/gah*** sözlərinin birləşməsindən əmələ gəlmişdir. ***Finka/finkə*** sözünün "*fin bıçağı*" mənası da var. ***Fin*** sözü – "*soyuq*", "*sərin*" mənası daşıyır; ***gə/gah*** – "*məkan, yer*" anlamınndadır. Deməli, ***Fingə*** toponimi "*sərin, soyuq yer*" mənasını ifadə edir.

Güləbird – Eyniadlı inzibati ərazi vahidində, Həkəri çayının sahilində, rayon mərkəzindən 33 km cənubda, Kiçik Qafqaz dağlarının ətəyində, dəniz səviyyəsindən 600 metr yüksəklikdə yerləşən kənd. Güləbird kəndi *9 noyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir. Bəzi sənəd və materiallarda kəndin adı ***Küləbird*** kimi də əks olunmuşdur. Kəndin başqa bir adı ***Qaracanlı*** **(Qaracanlı Güləbird)** olmuşdur. *Qaracanlı* vaxtilə kənddə məskən salmış nəslin adıdır. Bu yaşayış məntəqəsi yerli əhali arasında ***Kovurqala*** adı ilə tanınan **Güləbird** qalasının yaxınlığında yerləşdiyi üçün belə adlanmışdır. Kəndin yaxınlığında vaxtilə ***Qaradağlı*** adlı yaşayış məntəqəsi olmuşdur. ***Güləbird*** toponimini fars dilində ***gilə*** ("*iki dağ ayrıcında olan yol*") və ***bird*** ("*dağ döşü*"), ***bürid*** ("*kəsik, kəsilmiş*") sözləri ilə bağlayanlar var. Bəzi araşdırıcılar oykonimi ***gülab*** sözü ilə əlaqələndirirlər. **Gülab** – keçmişdə sabun əvəzinə işlədilən xüsusi torpaq növünə deyilirdi. Tarixdən məlumdur ki, qədim türkdilli albanlarda ***bird*** sözünün "*qala*" anlamı da olmuşdur. Bu yozumda toponim "*Güllüqala*" anlamına uyğun gəlir. Bəzi araşdırıcılara görə, ***Güləbird*** sözünün tərkibindəki ***gül*** komponenti peçeneq əsilli ***kul*** türk tayfasının adı ilə bağlıdır. Bu mənada toponim "*kul tayfasına aid olan çətin keçilən yer*" anlamını daşıyır.

Güney Dəyhan – Laçın rayonunda vaxtilə mövcud olmuş kəndlərdən biri ***Güney Dəyhan*** adlanır. Bu yaşayış məntəqəsi ***Dəyhan*** kəndindən çıxan ailələr tərəfindən salınmışdır. Yerli sakinlərin verdiyi məlumata görə, ***Dəyhan*** adı fars dilindəki dəhan sözündən götürülüb və "*ağız*" mənasındadır. *Dəyhan kəndi* iki kəndin arasında ("*ağzında*") yerləşdiyi üçün belə adlandırılmışdır.

Hacıxanlı – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 63 kilometr şimalda, dağətəyi ərazidə, dəniz səviyyəsindən 1690 metr yüksəklikdə, Şəlvə çayının sağ və sol sahili boyunda yerləşən kənd. ***Hacıxanlı*** yaşayış məntəqəsi XIX əsrin əvvəllərində gəlmə ermənilər burada yerləşdirildikdən sonra salındığı ərazinin adı ilə ***Zorkeşiş / Zorkeşin*** adlanırdı. *7 fevral 1991-ci il* tarixdə yaşayış məntəqəsi yenidən ***Hacıxanlı*** adlanmışdır.

Hacılar – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 45 kilometr cənub-qərbdə, Qarabağ yaylasında, dəniz səviyyəsindən 2000 metr yüksəklikdə, Minkənd çayının sağ sahilində yerləşən kənd. XX əsrin əvvəllərində erməni işğalçılarına qarşı fəal mübarizə aparanlardan biri Gülləçi Ağalar bu kənddəndir. ***Hacılar*** kəndinin yerləşdiyi ərazi ***Qarıqışlaq*** kəndinin binə yerlərindən biri olmuşdur. Kənd ***Hacı qəbri*** adlandırılan sahədə yerləşdiyinə görə, beləcə – ***Hacılar*** adlanmışdır.

Hacısamlı (***Haştamlı***) – Kürdhacı (*Qurdhacı*) kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 50 kilometr şimal-qərbdə, Şəlvə çayının sahilində, dağətəyi ərazidə yerləşən kənd. 1862-ci ilə aid olan coğrafi xəritədə kəndin adı ***Hacı-Samlı*** kimi qeyd olunmuşdur. 1992-ci ildə ermənilər tərəfindən işğal edildikdən sonra kənd ***Zarist*** adlandırılmışdır. ***Hacısamlı kəndi*** qədimdən Qarabağda yaşamış ***Qaraçorlu*** tayfasının ***hacısamlı*** tirəsinin burada məskunlaşması nəticəsində yaranmışdır. Bəzi tarixi sənədlərdə göstərilir ki, XIX əsrin 30-cu illərində *hacısamlıların* bir hissəsi Naxçıvanda yaşamışdır.

Haqnəzər – Təzəkənd inzibati ərazi vahidində, rayon mərkəzindən 50 kilometr məsafədə, Həkəri çayının sağ sahilində, Qarabağ silsiləsinin yamacında, dəniz səviyyəsindən 2000 metr yüksəklikdə yerləşən kənd. Kəndin tam adı ***Haqnəzərdərəkənd*** olmalıdır. ***Haqnəzər*** yaşayış məntəqəsini Laçın rayonunun *Ərdəşəvi* kəndindən köçüb gəlmiş ailələr salmışlar. ***Haqnəzər*** isə orada ilk dəfə məskunlaşmış adamın (*şəxsin*) adıdır. Yerli sakinlərin məlumatına görə, kəndin adının mənası "*Allaha yaxın yer*" və ya "*Allahın sevdiyi məkan*" anlamındadır.

Haqverdilər – Vaxtilə Laçın rayonunda mövcud olmuş kəndlərdən biri ***Haqverdilər kəndi*** adlanır.

Hətəmlər – Daşlı kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 69 kilometr aralıda, dağlıq ərazidə, dəniz səviyyəsindən 2000 metr yüksəklikdə yerləşən kənd. Bəzən bu yaşayış məntəqəsinin adını sənədlərdə ***Hətəmlilər*** kimi də yazırlar. ***Hətəmlər*** toponiminin mənası "*Hətəmin nəslindən olanlar", "Hətəmgillər*" deməkdir.

Hocaz – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 19 kilometr qərbdə, Hocaz (*Hocazsu*) çayının sağ sahilində, *Laçın – Alxaslı* şose yolu kənarında, Qarabağ yaylasında yerləşən kənd. Vaxtilə indiki kənddən bir qədər aralıda qədim tarixə malik olan Köhnə Hocaz kəndinin xarabalığı da olmuşdur. 1992-ci ildə kənd ermənilər tərəfindən işğal edildikdən sonra ***Hunçak***, ***Haçany***, ***Hoçes*** adlandırılmışdır. Kəndin qərbində ***Hocazdaşı*** adlı *dağ* da var. Dağın adına ***Hocaztəpə*** də deyirlər. Bu toponimlərin tərkibindəki ***Hocaz*** komponentinin mənası hələlik elmi şəkildə tam müəyyən olunmamışdır. Yerli sakinlərin verdiyi məlumata görə, Şah Abbas bu əraziyə gələrkən yer onun xoşuna gəlir və bura ***Hoçaz*** deyir. Toponimi ***həcaz, əcaz*** sözləri ilə əlaqələndirənlər var. Ərəfat dağından Məkkəyə, Mədinəyə gedən boğaza oxşar yal var ki, ərəblər ona indiyə qədər də *Əcaz* deyirlər.

Hüsülü – Malıbəy kənd inzibati ərazi dairəsində, rayon mərkəzindən 25 kilometr qərbdə, dağətəyi ərazidə yerləşən kənd. Yaşayış məntəqəsinin keçmiş adı ***Sultanlar*** olub (XIX əsr mənbələrində ***Sultanlı***, ***Sultankənd*** kimi də işlənmişdir). Toponim *qaraçorlu* tayfasından olan ***Həmzə Sultanın*** adı ilə adlandırılmışdır. Kənddəki XVIII əsrə aid Həmzə Sultana məxsus olan memarlıq saray abidəsi işğala qədər qorunurdu. 1931-ci ildə bu yaşayış məntəqəsində Kürdüstan Qəza İcraiyyə Komitəsinin sədri olmuş ***Hüsü Hacıyevin*** (1897-1931) adına kolxoz yaradılmışdır. Yaşayış məntəqəsi də elə o vaxtdan onun adı ilə ***Hüsülü*** adlanmışdır.

Xaçınyalı – Piçənis kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 50 kilometr şimal-qərbdə, Qarabağ silsiləsinin ətəyində, dəniz səviyyəsindən 1550 metr yüksəklikdə yerləşən kənd. Kənd XIX əsrin ortalarında bir qrup ailənin (*Almədət uşağı*) ***Xaçın yalı*** adlanan yerdə məskunlaşması nəticəsində yaranmışdır. Yerli sakinlərin verdiyi məlumata görə, ərazi əvvəllər ***Laçın yalı*** adlanırmış, sonradan məlum olmayan səbəblərdən ***Xaçınyalı*** kimi tanınmışdır. Tarixdən məlumdur ki, Azərbaycanda *Xaçın knyazlığı* da mövcud olmuşdur...

Xallanlı – Vaxtilə Laçın rayonunda mövcud olan kəndlərdən biri ***Xallanlı*** adlanırdı. Yaşayış məntəqəsinin adı rayonun Bozlu kəndindən çıxmış ***Xallanlı*** tayfasının adı ilə bağlıdır.

Xanalılar – Rayon mərəzindən 36 kilometr cənub-şərqdə, Səfiyan kənd ərazi inzibati dairəsində, dağətəyi ərazidə, dəniz səviyyəsindən 1500 metr yüksəklikdə yerləşən kənd. Kəndin əsl adı ***Xanallar*** (*bəzi sənəd və materiallarda belə yazılıb*) kimi yazılmalıdır. *Xanallar* yaşayış məntəqəsini XIX əsrin ortalarında ***Xanalı*** adlı şəxsin saldığı bildirilir.

Xarar – Laçlın rayonunun ərazisində vaxtilə qeydə alınmış kəndlərdən biri ***Xarar*** adlanırdı.

Xırmanlar – Zerti kənd inzibati ərazi dairəsində, rayon mərkəzindən 19 kilometr məsafədə, Qarabağ yaylasında, dəniz səviyyəsindən 1600 metr yüksəklikdə yerləşən kənd. Bu yaşayış məntəqəsi 1930-cu ilə qədər binə yeri olub. Köhnə *xırmanların* yanında ***Xırmanlar*** adlanan binə sonralar daimi yaşayış məntəqəsinə çevriləndə kənd həmin adı saxladı. ***Xırmanlar kəndi*** bir müddət *Qarıkaha* kənd sovetinin tərkibində olmuşdur.

Xumarta – İrçan inzibati ərazi dairəsində, rayon mərkəzindən 54 kilometr məsafədə, Qarabağ silsiləsinin yamacında yerləşən kənd. Kəndin əsl adı ***Xumartı*** olmalıdır. Bəzi yerli məlumata görə, ***Xumartı*** yaşayış məntəqəsini *atlıxanlı* nəsli salmışdır. Bəzi tədqiqatçılara görə, ***Xumar*** komponenti ***Qumar*** etnoniminin təhrif edilmiş formasıdır. Onların fikrincə, yaşayış

məntəqəsinin adı məhz ***Qumar*** tayfasına mənsub olan ailələrin müəyyən tarixi hadisələrlə əlaqədar Azərbaycan ərazisində məskunlaşması nəticəsində meydana gəlmişdir. XIII-XIV əsrlərdə Ön Asiyada qarşılıqlı assimilyasiya və yenidən qruplaşma nəticəsində bir çox Oğuz və Türkmən tayfaları əvəzinə yeni tayfalar yaranırdı ki, onların arasında ***Qumar tayfası*** da vardı.

İkinci Tığiq – Zerti kənd inzibati ərazi dairəsində, rayon mərkəzindən 18 kilometr məsafədə, Qarabağ silsiləsinin ətəyində, dəniz səviyyəsindən 1550 metr yüksəklikdə yerləşən kənd. Yaşayış məntəqəsinin adı bəzi sənədlərdə ***İkinci Tığıq*** kimi də yazılır. ***Tığıq*** sözünün mənası hələlik tam müəyyənləşdirilməmişdir. ***Tığiq*** sözünü türk mənşəli ***tıyıq, tuyuq*** termini ("*hər tərəfi əhatə olunmuş yer*", "*bağlı yer*") ilə də izah edirlər.

İmanlar – Şəlvə kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 68 kilometr şimalda, dağətəyi ərazidə, dəniz səviyyəsindən 1800 metr yüksəklikdə yerləşən kənd. Kəndin adı orada əvvəllər məskən salmış ***imanlar*** nəslinin, tirəsinin adını özündə əks etdirir.

İpək-1 – Bülüldüz kənd inzibati ərazi dairəsində, rayon mərkəzindən 37 kilometr məsafədə, Qarabağ sıra dağlarının qərb tərəflərində, dəniz səviyyəsindən 1800 metr yüksəklikdə, dağətəyi ərazidə yerləşən kənd. Kəndin ərazisində *Göy bulaq, Gülxanımın bulağı, Kişnişli qəyənin bulağı, Meşə yurdunun bulağı, Nübarın bulağı, Rəsulun bulağı, Oruclu novu, Sarı bulaq* və s. coğrafi adlar qeydə alınmışdır. Bəzi sənəd və materiallarda oykonim ***Birinci İpək*** şəklində də öz əksini tapmışdır. Toponimin belə ad alması hələlik elmi şəkildə tam əsaslandırılmamışdır. Yerli sakinlərin verdiyi məlumata görə, kəndin ərazisində "*Asbest*" ("*ipəyə oxşar daş*") süxuru çox olduğuna görə yaşayış məntəqəsinə ***İpək*** adı verilmişdir.

İpək-2 – Bülüldüz kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 39 kilometr məsafədə, dağətəyi ərazidə yerləşən kənd.

İrçan – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 22 kilometr məsafədə, Qarabağ silsiləsinin ətəklərində, dağlığ ərazidə, dəniz səviyyəsindən 1200 metr yüksəklikdə yerləşirdi. Kəndin ərazisində *Bala Kirs dağı, Camış yatağı, Əli bulağı, Koroğlu daşı zirvəsi, Köhnə qala, Qızlar bulağı, Orta bulaq* və s. coğrafi adlar qeydə alınmışdır. ***İrçan*** toponimi Azərbaycan dilindəki ***arçan*** sözü ilə əlaqədardır. **Arçan** – *ardıc* ağacının adıdır. ***İrçan*** toponimi "*ardıclı yer*" mənasındadır. Türk dillərində ***ardıc*** ağacına ***arça*** da deyirlər.

İsgəndərli – Laçın rayonunda vaxtilə mövcud olmuş kəndlərdən biri İsgəndərli kəndi adlanır. Bu yaşayış məntəqəsi Qara Murtuza bəyin otuza qədər yurd yerlərindən biri olmuşdur.

Kaha – Rayon mərkəzindən 72 kilometr məsafədə, Daşlı kənd inzibati ərazi vahidində, Daşlı çayı sahilində, Çalbayır silsiləsinin ətəyində, dəniz səviyyəsindən 2200 metr yüksəklikdə yerləşən kənd. Toponim ***kaha*** sözü ilə bağlıdır. ***Kaha*** – *"mağara, zağa"* deməkdir. Qədim kahaların qalıqları kəndin ərazisində indiyəcən durur. Onlardan birinin adına *İsgəndər kahası* deyilir. Elə buna görə də kənd keçmişdə ***İsgəndər kahası*** adlanırdı. Kənd XVIII – XIX əsrlərdə Zəngəzurda məşhur ailələrdən biri olan Qara Bayram bəyin tayfasının qışlaqlarından olmuşdur.

Kahalar – Vaxtilə Laçın rayonunda ***Kahalar*** adlı kənd də mövcud olmuşdur. Toponim yaşayış məntəqəsinin yerləşdiyi ərazidəki çoxlu kahanın olması ilə əlaqədar olaraq yaranmışdır.

Kalafalıq – Vağazin kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 51 kilometr şimalda, Şəlvə çayının qolu olan Ərdəşəvi çayı sahilində, Qarabağ silsiləsinin yamacında, dəniz səviyyəsindən 2100 metr yüksəklikdə yerləşən kənd. Kalafalıq kəndində zəngin civə yataqları aşkar olunmuşdur. Yerli məlumata görə, kəndin ilk sakinləri Laçın rayonunun ***Vağazin*** kəndindən

gələnlər olmuşlar. Bəzi sənədlərdə göstərilir ki, ***Kalafalıq*** yaşayış məntəqəsi Laçın rayonunun *Cağazur* (*Baharlı*) kəndindən çıxmış bir qrup ailənin ***Kalafalıq*** adlı yerdə məskunlaşması nəticəsində yaranmışdır. ***Kalafa*** – köhnə kəndin, yaxud mal-qara saxlamaq üçün tikilmiş pəyələrin xarabalıqlarına, böyük çökəkliklərinə deyilir.

Kamallı – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 53 kilometr şimal-qərbdə, dağlıq ərazidə, dəniz səviyyəsindən 1600 metr yüksəklikdə, təbiətin çox səfalı bir guşəsində yerləşən kənd. Kəndin keçmiş adı ***Bozlu*** olub. ***Kamallı*** yaşayış məntəqəsini indiki Ermənistan ərazisindəki qədim Azərbaycanın Dərələyəz mahalından köçüb gəlmiş ***bozlu*** tayfasına mənsub olan ailələr salmışdır. Burada ilk evi ***Kamal*** adlı şəxs tikdiyinə görə kənd ***Kamallı*** adlanır.

Katos – Rayon mərkəzindən 63 kilometr şimal-qərbdə, Qarakeçdi inzibati ərazi dairəsində, dağ yamacında, dəniz səviyyəsindən 1700 – 1800 metr yüksəklikdə, Həkəri çayı yaxınlığında yerləşən kənd. ***Katos*** (***Qatos***) kəndinin etnik tərkibi müsəlman kürdlərdən ibarətdir. 1992-ci ildə kənd ermənilər tərəfindən işğal edildikdən sonra ***Qetuz*** adlandırılmışdır. ***Katos*** (*bəzən adı* ***Qatos*** *kimi də yazılır*) yaşayış məntəqəsini XX əsrin əvvəllərində yaxınlıqdakı ***Şeylanlı*** kəndindən ayrılmış *nəbilər, xudular, əsədlər* nəsillərindən olan ailələr ***Katos meşəsi*** adlanan ərazidə salmışlar. ***Katos*** adının mənası, etimologiyası hələlik tam dəqiqliklə açılmamışdır. Yerli sakinlərin verdiyi məlumata görə, ***Katos*** adının mənası kürd dilində "*xırman*" deməkdir. Qədim türk dillərində ***katıs*** sözü "*birləşmək*", "*qarışmaq*" anlamında işlənmişdir. Türk dillərində ***kadus*** sözünün "*gözəllik*", "*sənət əsəri*" mənaları da olmuşdur.

Kərəviz – Fətəlipəyə kənd inzibati ərazi dairəsində, rayon mərkəzindən 11 kilometr şərqdə, dağətəyi ərazidə, dəniz səviyyəsindən 1200 metr yüksəklikdə yerləşən kənd. Kəndin ərazisində *Abdallar, Dəyirman çayı, Kaha dərəsi, Qoyun damı, Mələyin yeri* və s. coğrafi adlar qeydə alınmışdır. ***Kərəvüz kəndi*** XX əsrin ortalarına – 60-cı illərin sonuna qədər mövcud olmuşdur. Bəzi yerli məlumatlara görə, toponim çətirçiçəklilər fəsiləsindən bir, iki və çoxillik bitki cinsi olan və Azərbaycanda, o cümlədən Laçında yabanı halda yayılan, becərilən, yeyilən, ədviyyat kimi işlədilən, kulinariyada və s. istifadə edilən ***kərəvizin*** adı ilə əlaqədar yaranmışdır (*maraqlıdır ki, kənddən bir qədər aralıda vaxtilə bu qəbildən olan* ***Sivit kəndi*** *də mövcud olmuşdur*). ***Kərəvüz*** toponimini farsca ***kəp*** ("***kap***") və ərəbcə ***əvəz/əvüz*** ("*bir şeyə qarşı verilən və ya alınan qarşılıq*") komponentləri ilə də izah edənlər var. Toponim ***kər*** və ***oğuz*** kimi də mənalandırılır.

Komayalı – Vaxtilə Laçın rayonunda qeydə alınmış kəndlərdən biri ***Komayalı*** adlanırdı. Oykonim ***koma*** və ***yal*** sözlərindən ibarət olub, "*yalda tikilmiş koma*" mənasındadır.

Korcabulaq – Qarabəyli kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 70 kilometr şimal-qərbdə, dağlıq ərazidə, Laçın – Kəlbəcər şose yolunun sol tərəfində, Namlı çayının sahilində yerləşən kənd. Kəndin ərazisində *Alban məbədi, Qara bulaq, Ocaq bulağı* və s. coğrafi adlar qeydə alınmışdır. Kənd XIX əsrin ikinci yarısında yaranmışdır. Bəziləri toponimi orta əsrlərdə "*sultan qvardiyasının əsgəri*", "*qulam*" mənalarını verən ***qorçu/qorçi*** sözü ilə əlaqələndirir. ***Korcabulaq*** yaşayış məntəqəsi eyniadlı bulağın yanında salındığına görə onun adını da daşıyır. ***Korcabulaq*** adlı həmin ***bulaq*** quraqlıq vaxtlarda quruyur.

Kosalar – Vaxtilə Laçın rayonunda, indiki Zeyvə və Hüsülü kəndləri yaxınlığında mövcud olmuş kəndlərdən biri ***Kosalar*** adlanırdı. ***Kosalar*** (***Kosalı***) ***kəndi*** vaxtilə ***Qaraçorlu*** mahalının ən qədim yaşayış məntəqələrindən biri hesab edilirdi. Oykonim XIX əsrin əvvəllərində Qarabağ xanı Mehdiqulu xana mənsub olan ***xəlfəli*** tayfasının ***kosalar*** tirəsinin adı ilə əlaqədar olaraq yaranmışdır. Bu kənd ***Ağoğlankənd*** də adlandırılmışdır. ***Kosalar*** kəndinin ən möhtəşəm abidəsi Qafqaz Albaniyası dövrünə – IV – IX əsrlərə aid olan ***Ağoğlan*** qəsr-kompleksidir. Dağətəyi ərazidə yerləşən bu qəsr-kompleksdə "*müşahidə qalası*" var idi. Kosalar kəndinin ərazisi bədii daş nümunələri, at və qoç fiqurları ilə zəngindir. Bu ərazidə tarixi bizə dəqiq məlum olmayan qədim yeraltı keçidlər və tunellər öz varlıqlarını indiyədək qoruyub saxlamaqdadır. 1992-ci ildə Laçın işğal edildikdən sonra ermənilər tərəfindən ***Ağoğlan*** qəsrinin adı ***Tzitzernavank*** adlandırılmışdır.

Köhnə Çorman – Piçənis kənd inzibati ərazi dairəsində, Qarabağ silsiləsində, dağlıq ərazidə, Qırxqız dağının ətəyində, dəniz səviyyəsindən 1550 netr yüksəklikdə, Şamkənd çayı yaxınlığında yerləşən kənd. Yaşayış məntəqəsi ***Çorman meşəsi*** adlanan sahədə salındığına görə, kənd həmin ərazinin adı ilə də adlanmışdır. ***Çorman*** sözü güman ki, türk mənşəli ***"orman"*** sözünün variantıdır. Əgər belədirsə, onda toponim "*meşə*" mənasını daşıyır. Toponimin əvvəlindəki "***köhnə***" sözü onu yaxınlıqda yerləşən digər ***Çorman*** kəndindən fərqləndirmək üçün əlavə edilmişdir.

Köhnəkənd – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 32 kilometr məsafədə, Qarabağ silsiləsinin cənub-qərb yamacında, dəniz səviyyəsindən 2720 metr yüksəklikdə, Kiçik Kirs dağının ətəyində yerləşən kənd. Kəndin keçmiş adı ***Kirs*** olub. Yerli məlumata görə, kəndin yerində vaxtilə ***Kirs*** adlı yaşayış məntəqəsi olmuşdur. Həmin yaşayış məntəqəsi Əmir Teymurun işğalı zamanı XV əsrin əvvəllərində tamamilə dağıdılmışdır. Sonralar Xocavənd rayonunun Susanlıq kəndindən gələn ailələrin burada – ***köhnə kənd*** yerində məskunlaşması ilə əlaqədar olaraq yeni yaranan yaşayış məntəqəsi ərazinin adı ilə ***Köhnəkənd*** adlandırılmışdır.

Kümətli – Vaxtilə Laçın rayonunun ərazisində qeydə alınmış kəndlərdən biri ***Kümətli*** adlanırdı.

Kürdhacı (*Qurdhacı*) – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 53 km şimal-qərbdə, Qarabağ silsiləsinin cənub-qərb yamacında, dəniz səviyyəsindən 1500 metr yüksəklikdə yerləşən kənd. Kəndin ərazisində *Kilsə yeri, Qaraxanköşən, Qatar qaya, Qənşər göl, Pirin başı, Sarı yarğan, Taxtalar, Yal yolu* və s. coğrafi adlar qeydə alınmışdır. ADR dövründə hərbi və əkinçilik naziri olmuş *Xosrov bəy Əlipaşa bəy oğlu Sultanov*, onun qardaşı, xalq qəhrəmanı *Sultan bəy Əlipaşa bəy oğlu (1871 – 1955)*, onların atası, dövrünün tanınmış ziyalısı *Paşa bəy* (*Əlipaşa bəy*) *Xanmurad bəy oğlu* (*1837 – 1915*) bu kənddəndirlər. 1905 – 1906 və 1918 – 1920-ci illərdə baş vermiş erməni-müsəlman münaqişələrində Sultan bəy Paşa bəy oğlu Andronikin, Dronun, Njdenin qoşunlarına qarşı qəhrəmanlıqla döyüşmüş və mübarizə aparmışdır. Bəzi tədqiqatçılar ***Kürdhacı*** toponimini səhvən ***kürd*** etnonimi və ***Hacı*** şəxs adı ilə əlaqələndirirlər. Əslində isə, toponim *kürd* yox, ***qurd*** ("*igid*", "*cəsur*") sözü ilə bağlıdır. Toponim ***Qurdhacı*** adının təhrifidir. Azərbaycanda əski inama görə, *Günəş* hər nəsnənin yaradanı, anası sayılırdı. Azərbaycanda indi də *günəşli* havada yağış yağarkən *"qurd doğdu"* deyirlər. ***Qurd*** mif səciyyəli olduğundan ona həmişə üstünlük verilmişdir. Qədim köklərə malik olan ***qurd*** kultu türklərin etnik yaddaşında dərin iz qoyub. İnama görə, yuxuda və ya gerçəkdə ***qurd*** görmək uğurlu əlamətdir.

Qalaça – Bozlu kənd inzibati ərazi dairəsində, rayon mərkəzindən 38 kilometr məsafədə, Minkənd kəndindən 6 kilometr məsafədə, Minkənd-Laçın şose yolu kənarında, "*İstisu*"

sağlamlıq mərkəzinin 2, 5 kilometrliyində, Ağoğlan çayının sahilində, dağətəyi düzənlikdə, dəniz səviyyəsindən 1450 – 1500 metr yüksəklikdə yerləşən kənd. Kəndin ərazisində *Alban kilsəsi, Fatma bulağı, Köhnə Pul yeri, Məhərrəm bağı, Nərdivan dərəsi, Nəvşə dərəsi, Seyid Əmir körpüsü, Su dəyirmanı yalı, Novlu bulaq, Şamın düzü* və s. coğrafi adlar qeydə alınmışdır. 1992-ci ildə ermənilər tərəfindən işğal edildikdən sonra kəndin adı dəyişdirilərək ***Hayri*** (***Qayiri***) adlandırılmışdır. Yaşayış məntəqəsi kiçik təpənin üstündə yerləşən tsiklopik tikili ***qalaçanın*** yaxınlığında salındığı üçün belə adlanmışdır. ***Qalaça*** toponimi "*qalacıq*", "*kiçik qala*" mənasındadır. Hazırda həmin qalaçanın yerləşdiyi ərazi ***Top Qalaça*** adlanır. Relyef əsasında yaranan düzəltmə toponim olan ***Qalaça*** oykonimi "*kiçik qala yaxınlığında yerləşən kənd*" mənasındadır.

Qarabağlı – Vaxtilə Laçın rayonunun ərazisində mövcud olmuş kəndlərdən biri ***Qarabağlı*** adlanırdı. Yaşayış məntəqəsini *Qarabağdan* gəlmiş ailələr saldığı üçün belə adlanmışdır.

Qarabəyli – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 69 km şimal-qərbdə, Şəlvə çayının qolu olan Qorçu çayının sol sahilindən 2 kilometr aralıda, Qaracanlı kəndi yaxınlığında, Mıxtökən silsiləsinin yamacında, dəniz səviyyəsindən 1700 metr yüksəklikdə yerləşən kənd. Kəndin adı yaşayış məntəqəsinin əsasını qoymuş ***qarabəyli*** nəslinin adı ilə bağlıdır. Başqa bir ehtimala görə isə, ***qəryə*** (ərəb dilində "*kənd*" deməkdir) və ***bəy*** sözlərindən ibarət olan toponim "*bəy kəndi*" mənasındadır. Bir ehtimala görə, kəndin adı ***Qarabəy*** şəxs adındandır.

Qaracalı – Vaxtilə Laçın rayonunun ərazisində mövcud olmuş kəndlərdən biri ***Qaracalı*** adlanırdı. Kəndin adı Qarabağda və Zəngəzurda yaşayan *kəngərlilərin* ***qaracallı*** tayfasının adından götürülmüşdür.

Qaraçanlı-1 – Pircahan kənd inzibati ərazi dairəsində, rayon mərkəzindən 40 kilometr qərbdə, dağətəyi ərazidə, dəniz səviyyəsindən 1600 metr yüksəklikdə yerləşən kənd. Kəndin adını sənədlərdə bəzən ***Aşağı Qaraçanlı kəndi*** kimi də yazırlar. ***Qaraçanlı kəndi*** (bəzən yaşayış məntəqəsinin adını ***Qaracanlı*** kimi də yazırlar) yaşayış məntəqəsinin tam adı ***Qaracanlı Zeynallı*** olmuşdur. Toponim keçmişdə maldarlıqla məşğul olmuş ***qaracanlı*** tayfasının, *elinin* adı ilə bağlıdır.

Qaraçanlı-2 – Pircahan kənd inzibati ərazi dairəsində, rayon mərkəzindən 50 kilometr məsafədə, dağətəyi ərazidə yerləşən kənd. Bəzən yaşayış məntəqəsinin adını sənədlərdə ***Yuxarı Qaraçanlı kəndi*** kimi də yazırlar.

Qaragüney – Piçənis kəndi yaxınlığında Qarabağ silsiləsində yerləşən kənd. ***Qaragüney*** toponimi iki sözdən – ***qara*** və ***güney*** sözlərindən ibarətdir. ***Qara*** – rəng bildirən söz, ***güney*** isə müsbət relyef ifadə edən termindir.

Qarıkaha – Laçın şəhər inzibati ərazi dairəsində, Həkəri çayının sol *sahilində*, rayon mərkəzindən 3 km şimal-qərbdə, Qarabağ silsiləsinin ətəyində, dağlıq ərazidə yerləşən kənd. Qədim tarixə malik olan bu kəndin ərazisində müalicə əhəmiyyəti olan kükürdlü su çıxır. Kənd **Qarı kahası** adlı mağaranın adı ilə adlanmışdır. 1990-cı ildə kənd rayon XDS-nin qərarı ilə Laçın şəhərinin tərkibinə daxil edilib. Kəndin adı bəzi mənbələrdə ***Qarakaha*** kimi də yazılır.

Qarakeçdi – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 59 kilometr şimal-qərbdə, dağlıq ərazidə, dəniz səviyyəsindən 1990 – 2080 metr yüksəklikdə, Ağdərə (*Həkəri*) çayı yaxınlığında, Həkəri çayının Minkənd qolunun mənbəyində yerləşən kənd. Bəzən sənədlərdə adı ***Qarakeşdi*** kimi də yazılır. Ermənilər kəndin adını dəyişərək ***Yeznaqomer*** adlandırmışdılar.

Oykonim ***Qara*** şəxs adından və ***keçdi*** sözündən ibarətdir. Sovetlər dönəmində bəzi sənədlərdə yaşayış məntəqəsinin adı ***Qarakeşiş*** kimi qeyd olunmuşdur. Toponim ***qarakeş*** tayfasının adı ilə bağlıdır. ***Qarakeş*** tayfası Altayda və Tibetdə yaşamış bir türk soyudur. XI – XII əsrlərdə monqol-tatarların tərkibində 350 ailə olaraq Azərbaycana gəlmiş, Qarabağ, Zəngəzur, Şirvan və Muğanda məskunlaşmışlar. Çar Rusiyası dövründə kəndin adı təhrif olunaraq ***Qarakeşiş*** kimi yazılmışdır. Sovetlər dönəmində – 1936-cı ildə kənd Vladimir İliç Leninin şərəfinə ***Leninkənd*** adlandırılmışdır. 5 oktyabr 1999-cu il tarixdə isə yaşayış məntəqəsinə ***Qarakeçdi*** adı verilmişdir. Yerli məlumata görə, kənd XVIII əsrdə Cənubi Azərbaycandan gəlmiş ailələrin ***Qara keşiş damı*** adlı yerdə məskunlaşması nəticəsində yaranmışdır. Rəvayətə görə, oradakı ***Qarakeşiş damı*** adlanan ***qara*** daş "*Əsli və Kərəm*" dastanındakı Əslinin atası Qara Məlikdir. Hazırda kənddəki bulaqlardan biri də *Əsli-Kərəm bulağı* adlanır.

Qarıqışlaq – Eyniadlı inzibati ərazi vahidində, Həkəri çayının qolu olan Minkənd çayının sol sahilində, rayon mərkəzindən 33 km qərbdə, Qarabağ yaylasında, dəniz səviyyəsindən 1220 – 1290 metr yüksəklikdə, Ağoğlan çayının sol sahilində yerləşən kənd. Çar Rusiyasının 1888-ci ildə nəşr etdirdiyi coğrafi xəritədə kəndin adı ***Qarı-Qışlaq*** kimi göstərilir. ***Qarıqışlaq*** (*bəzi sənədlərdə kəndin adı* ***Qaraqışlaq*** *şəklində yazılıb*) kəndində XI əsrə aid Dəmirovlu pir-məbəd, Qafqaz Albaniyası dövrünə məxsus birnefli sovmə, XVI – XVII əsrlərə aid bir neçə memarlıq abidələri, XVIII əsr (1718-ci il) tarixi memarlıq abidəsi olan məscid və s. vardı. ***Qarıqışlaq*** yaşayış məntəqəsi yerli əhalinin *Qarıqışlaq* adlı yerdə məskunlaşması nəticəsində yaranmışdır.

Qayğı qəsəbəsi – Laçın rayonunda, Həkəri çayının sol sahilində, rayon mərkəzindən 19 kilometr məsafədə, Qarabağ vulkanik yaylasında, dağətəyi ərazidə yerləşən qəsəbə. 1999-cu ildə ***qəsəbə*** statusu alıb. ***Qayğı*** yaşayış məntəqəsi 1992-ci ildə erməni işğalçı qüvvələri tərəfindən işğal edilmişdi. ***Qayğı*** yaşayış məntəqəsi 1988-1989-cu illərdə Ermənistandan didərgin salınmış, deportasiyaya uğramış azərbaycanlı ailələri üçün respublikada fəaliyyət göstərən "***Qayğı***" cəmiyyətinin vəsaiti hesabına salındığı üçün belə adlanmışdır.

Qaynarbulaq – Vaxtilə Laçın rayonunun ərazisində mövcud olmuş kəndlərdən biri ***Qaynarbulaq*** adlanırdı. Kəndin adı ərazidə qaynayan bulaqlarla əlaqədar olaraq belə adlanmışdır.

Qazaxlar – Laçın rayonunda vaxtilə mövcud olmuş kəndlərdən biri də ***Qazaxlar*** adlanırdı. Yaşayış məntəqəsi XVIII əsrdə ***Qazax*** mahalından Qarabağa və Zəngəzura köçmüş ailələr tərəfindən salındığı üçün belə adlandırılmışdır.

Qazıdərəsi – Cicimli kənd inzibati ərazi dairəsində, Qarabağ yaylasında, rayon mərkəzindən 32 kilometr məsafədə yerləşən kənd. XX əsrin əvvəllərinə kimi (*1917-ci il inqilabına qədər*) sənədlərdə bu yaşayış məntəqəsinin adı ***Qazı Qurdalı*** kimi qeyd olunurdu. Əslində isə ***Qazıdərəsi*** və ***Qurdalı*** ayrı-ayrı yaşayış məntəqələri olmuşdur. Kəndlər eyni icmaya daxil idilər. Bəzi yerli məlumatlara əsasən, kənd onun əsasını qoyan ***Qazı*** və ***Qurdalı*** (*Qurd Alı*) adlı iki qardaşın adı ilə əlaqədardır.

Qılıçlı – Qarıqışlaq kənd inzibati ərazi dairəsində, rayon mərkəzindən 40 kilometr məsafədə, dağlıq ərazidə yerləşən kənd. ***Qılıçlı*** (*bəzən sənədlərdə* ***Qılınclı*** *kimi də yazılır*) yaşayış məntəqəsi ***Qılıçdaş*** adlanan sahədə salındığına görə belə adlanmışdır.

Qışlaq – Köhnəkənd inzibati ərazi dairəsində, rayon mərkəzindən 64 kilometr məsafədə, Qarabağ silsiləsinin cənub-qərb yamacında yerləşən kənd. Yaşayış məntəqəsi keçmiş ***qışlaq*** yerində salındığına görə belə adlanmışdır.

Qızılca – Zabux kənd inzibati ərazi dairəsində, rayon mərkəzindən 11 kilometr məsafədə, Qarabağ yaylasında yerləşirdi. Yerli məlumata görə, ***Qızılca*** yaşayış məntəqəsini vaxtilə Ermənistanın Sisyan rayonundakı ***Qızılca*** kəndindən köçməyə məcbur olmuş ailələr 1918-ci ildə salmışdır. Bir sıra sənədlərdə yaşayış məntəqəsinin adı ***Qızılça*** kimi də yazılmışdır. Tarixi sənədlərdən aydın olur ki, ***Bayandur*** (***Bayandır***) türkmənlərinin bir boyunun adı da ***Qızılca*** olmuşdur.

Qorçu – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 65 km şimal-qərbdə, Kiçik Qafqazın Mıxtökən silsiləsinin yamacında, dəniz səviyyəsindən 1800 metr yüksəklikdə, Laçın – Kəlbəcər şose yolunun kənarında, Qorçu çayının sahilində yerləşən kənd. Kəndin adı türk dillərindəki ***Qorçu*** sözündəndir. ***Qorçu –*** "*qoruyan, qoruyucu*", "*sultan qvardiyasının üzvü*", "*silah daşıyan*" deməkdir. **Qorçu** sadə quruluşlu patronimik toponimi Səfəvilər zamanında yaranan şah qvardiyasını bildirən ***qorçu*** sözündən əmələ gəlmişdir. Kəndin yaxınlığında ***Qorçu əkən yer*** coğrafi adı da qeydə alınmışdır. Monqol dilində ***qorçi/xorçi*** "*atıcı*" anlamındadır.

Qoşasu – Eyniadlı kənd inzibati ərazi vahidində, Hocaz çayının sol sahilində, rayon mərkəzindən 49 kilometr şimal-qərbdə, Kiçik Qafqazın Mıxtökən silsiləsinin (*Qabaqtəpə dağı*) ətəyində, dəniz səviyyəsindən 2200 metr yüksəklikdə yerləşən kənd. Yaşayış məntəqəsi ***Qoşasu*** adlanan yerdə (*Həkəri və Hoçaz çayları arasında*) salındığına görə belə adlandırılmışdır.

Qovuşuq – Hacıxanlı kənd inzibati ərazi vahidində, rayon mərkəzindənndən 66 kilometr şimalda, Mıxtökən silsiləsinin və Nərdivan dağının ətəyində, Qızıl qayanın dibində, iki çay arasında, dəniz səviyyəsindən 1800 metr yüksəklikdə yerləşən kənd. Bəzi tarixi sənədlərdə kəndin adı ***Qovuşut*** kimi göstərilib. Yaşayış məntəqəsi mənşəcə XIX əsrdə Ağdərə rayonundakı *Gilətağ* kəndindən köçüb gəlmiş ailələrin ***Qovuşuq*** adlı ərazidə məskunlaşması nəticəsində yaranmışdır. ***Qovuşuq*** – Murovdağdan axan Mıxtökən və Nərdivan çaylarının birləşərək Şəlvə çayını əmələ gətirdiyi yerə deyilir. Toponim coğrafi mövqeyinə – iki çayın *qovuşduğu* yerdə salındığına görə belə adlandırılmışdır.

Qozlu – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 40 kilometr şimal-şərqdə, Qarabağ silsiləsinin ətəyində, Sarıbaba və Qırxqız dağlarının arasında, dəniz səviyyəsindən 2150 metr yüksəklikdə, Laçın – Şəlvə şose yolu kənarında yerləşən kənd. ***Qozlu*** yaşayış məntəqəsi XVIII əsrdə Qarabağdan köçürülmüş ailələrin ***Qozlu*** adlanan yerdə məskunlaşması nəticəsində yaranmışdır.

Quşçu – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 47 kilometr cənubda, Mirik və Sadınlar kəndlərinin 3 kilometrliyində, dağlıq ərazidə, dəniz səviyyəsindən 1500 – 1600 metr yüksəklikdə yerləşən kənd. Kəndin ərazisində *Arıx yeri, Bayram dərəsi, Biçənək, Boz dağ, Böyük bulaq, Daranın dərəsi, Dəmirovlu pirin yalı, Dəyirman, Ev damı, Fındıqlı, Həşim kahası, Korcabulaq, Qalacıq, Qara dam, Qızxanım bulağı, Quşçu qalacığı, Mis yeri, Musa yurdu, Pirin yanı, Sadınlar qalası* və s. coğrafi adlar qeydə alınmışdır. ***Quşçu*** toponimi özündə *Quşçu* tayfasının adını əks etdirir. ***Quşçu*** türkdilli tayfanın adıdır. Quruluşca sadə olan ***Quşçu*** etnotoponimi qədim ***quşçu*** türk etnonimi əsasında yaranmışdır. Hun qəbilələrindən biri olan ***quşanlar*** (*qara hunlar*) bir neçə dəfə Azərbaycan ərazisinə hücum etmişlər. Azərbaycanda indi həmin qəbilənin yadigarı olan kəndlər qalmaqdadır. VII əsr mənbələrində sarmat tayfaları arasında ***xuşilərin (quşilərin)*** də adı çəkilir. Bəzi müəlliflər quşçuları hunlarla, digərləri isə qara hunlarla bağlayırlar. ***Quşçular*** türkdilli etnik birlik olub, Azərbaycan, Başqırd, Türkmən, Özbək, Qırğız xalqlarının etnogenezində yaxından iştirak ediblər. Tarixi faktlar göstərir ki, ***Quşçular*** qədim etnik addır. XIII əsr tarixçisi F.Rəşidəddinin məlumatına görə, Əhməd Təkudar (1282 – 1284) və Arqun xanın (1284 – 1291) hakimiyyəti zamanında nüfuzlu sərkərdələrin əksəriyyəti *quşçu*

tayfalarından idi. Elxani hökmdarı Olcaytu xanın (1304 – 1316) dövründə ***quşçu*** ulusu qıpçaq tayfa ittifaqına daxil idi. Mənbələrin məlumatlarına görə, ***quşçular*** Batı xanın (1224 – 1256) əsas hərbi qüvvələrindən biri olub. ***Quşçu*** etnonimi ilə əlaqədar olan toponimlərin yaranması çox güman ki, hələ erkən orta əsrlərə təsadüf edir. Quşçuların yayılma arealları çox genişdir. XIX əsrin əvvəllərndə Azərbaycanın siyasi xadimləri içərisində ***Quşçu*** tayfasının nümayəndələri də olub. XIX əsrdə ümumiyyətlə, Ermənistan ərazisindəki ***quşçu*** etnonimi ilə bağlı yer adları ucdantutma dəyişdirilmişdir. Sonuncu belə yer adı orada 1946-cı ildə ləğv olunmuşdur.

Quzey Dəyhan – Vaxtilə Laçın rayonunun ərazisində mövcud olan kəndlərdən biri ***Quzey Dəyhan*** adlanır. Bu yaşayış məntəqəsi Qara Murtuza bəyin ixtiyarında olan 30-a qədər yurd yerlərindən biri olmuşdur. Kəndi ***Dəyhan*** kəndindən olan ailələr salmışdır. Yerli sakinlərin verdiyi məlumata görə, ***Dəyhan*** toponimi fars dilindəki ***dəhan*** sözündən götürülüb, "*ağız*" anlamını ifadə edir.

Laçın şəhəri – Qafqaz dağlarının cənub yamacında, Qarabağ silsiləsinin ətəyində, dəniz səviyyəsindən 1590 metr yüksəklikdə yerləşən şəhər. Laçın rayonunun inzibati mərkəzidir. Əhalisinin sayı 12 000 nəfər idi. Şəhərdə 2500-dən çox ev, 3 orta məktəb, internat məktəbi, kitabxana, klub, 350 – 400 yerlik kinoteatr binası, mədəniyyət evi, 450 yerlik mədəniyyət sarayı, muzey, musiqi məktəbi, şəkil qalereyası, Baza Tbb Texnikumunun filialı, texniki peşə məktəbi, texniki yaradıcılıq mərkəzi, uşaq yaradıcılıq mərkəzi, gənclər idman mərkəzi, şahmat mərkəzi, ekoloji tərbiyə mərkəzi, uşaq bağçası, texnikum, 180 çarpayılıq xəstəxana, uşaq xəstəxanası, poliklinika, gigiyena və epidemioloji mərkəz, təcili tibbi yardım stansiyası, 1200 nömrəli ATS, radio qovşağı, teleqraf, asfalt zavodu, beton zavodu, yağ-pendir zavodu, kombinat, Maşınqayırma və Alüminium zavodlarının filialları, Böyük Vətən müharibəsində həlak olan həmyerlilərin xatirəsinə ucaldılmış abidə kompleksi, avtovağzal, aptek, ictimai iaşə, ticarət, məişət obyektləri, yanacaqdoldurma məntəqəsi, park, stadion və s. vardı. Laçın şəhəri ***18 may 1992-ci il*** tarixində erməni işğalçıları tərəfindən zəbt edilmişdi. 1 dekabr 2020-ci il tarixdə Laçın rayonu işğaldan azad olunmuşdur. Şəhərin bünövrəsi 1924-cü ilin əvvəllərində Laçın dağının yamacındakı maili düzənlikdə, qəza mərkəzi kimi ***Abdallar poçtu*** və ***Qarakaha*** kəndlərinin yerində qoyulmuşdur. Yaşayış məntəqəsi dağın adı ilə əlaqədar olaraq ***Laçın*** adlandırılmışdır Tarixi sənədlərdən məlum olur ki, ***Laçın şəhəri*** 1923-cü ilə qədər ***Abdallar kəndi*** adlanmışdır. Şəhər ***10 avqust 1923-cü il*** tarixdə təşkil edilmişdir. Şəhərdən Bakıya qədər olan məsafə 443 kilometrdir. ***Laçın*** adını 1924-cü ildə oradakı eyniadlı dağ ilə əlaqədar olaraq görkəmli yazıçımız Tağı Şahbazi (*Simürğ*) işlətmişdir. ***Laçın şəhəri*** rayonun ən iri yaşayış məntəqəsi idi. İşğaldan sonra ermənilər onun adını dəyişərək ***Berdzor*** qoymuşdular. Tarixdən məlumdur ki, Laçın adlı bir türk qəbiləsi mövcud olmuşdur. Həmin türk qəbiləsi əsasən, Türküstanda yaşamışdır. Bu nəslin adamları içərisindən öz igidliyi, şücaəti ilə fərqlənən çoxlu sayda insanlar çıxmışdır. Mənbələrə istinad etsək, görərik ki, Nizami ədəbi məktəbinin görkəmli davamçısı hesab olunan, Hindistanda yaşayıb, fars dilində yazıb-yaratmış dahi şair Əmir Xosrov Dəhləvi ***laçın*** qəbiləsindəndir. ***Laçın*** sözü türk dillərində alınmaz, sıldırım, hündür, sərt qayalıqlara deyilir. ***Laçın*** quş adı el arasında həmişə qəhrəmanlıq, hünər, cəsarət rəmzi hesab olunub. Ümumiyyətlə, şahin quşunun erkəyinə ***laçın*** deyilir. *Laçın* – şahin cinsindən olan yırtıcı və alıcı quş adıdır. Fəzlullah Rəşidəddin oğuzların 24 onqonundan birinin ***Cüdə Laçın*** olduğunu göstərir. ***Laçın*** boyu türk dünyasına çoxlu dövlət xadimləri, igidlər bəxş edib. Azərbaycanda ata-analar öz övladlarına uzun illərdir ki, ad verərkən ***Laçın*** adını unutmurlar. *Quş* anlayışı ifadə edən ***çın/çin*** komponentini bəzi araşdırıcılar "*uca, yüksək, hündür, yuxarı*" anlamı ilə də mənalandırırlar. Bəzi sənəd və mənbələrdə ***çın/çin*** sözü "*aşağıdan yuxarıya qalxan*", "*yüksələn*", "*ucalan*", "*haqq olan*" və s. kimi mənalandırılır. V.V.Radlov öz lüğətində (Opıt slovar tyurkiskix nareçiy. Tom. IV, c. 1497) osmanlı-türk dilində *balıqçın, bayırçın*... sözlərini *quş* adı kimi işlətmişdir. O, **Laçın**

sözünün həm də qəbilə adı olmasını göstərmişdir. Bütöv Çin dövlətinin ərazisinə *Çin,* Cənubi Çin ərazisinə isə qaynaqlarda *Maçin* də deyilir. Çin qaynaqları göstərir ki, göytürklər, uyğurlar, qırğızlar hunların nəslindəndir. ***Laçın*** sözü türk dillərindəki ***yalçın*** sözünün təhrif olunmuş formasıdır. ***Yalçın*** sözü "*sıldırım*" mənası daşıyır. ***Laçın şəhərinin*** adının laçın quşunun adından götürüldüyünü söyləyən tədqiqatçılar da var. T.Nafasov göstərir ki, *"Laçın"* etnonimdir. ***Laçın*** toponimi etnonimdən yaranmışdır. ***"Laçın"*** sözünün birinci hecasında yerdəyişmə olduğundan, başqa sözə ("***laçın***" – "***alçın***") çevrilmişdir (özbəkcə "***olçin***" – "***loçin***").

Laçınkənd – Laçın rayonunda, Qarabağ silsiləsinin ətəyində yerləşir. Əhali əsasən heyvandarlıq və taxılçılıq ilə məşğul olurdu. Kənddə məktəb, kitabxana, klub və s. vardı. Toponim ***Laçın*** və ***kənd*** sözlərinin birləşməsindən ibarətdir. ***Laçınkənd kəndi*** hazırda Laçın şəhərinin tərkibindədir.

Lələbağırlı – Qarabəyli kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 65 kilometr məsafədə, Quruçayın qolu olan Məməliçayın sahilində, dağlıq ərazidə, dəniz səviyyəsindən 1700 metr yüksəklikdə, Qəbirli dağının ətəyində, Laçın – Kəlbəcər şose yolunun sağ tərəfində yerləşən kənd. ***Lələbağırlı*** kəndinin **(*Lölöbağırlı*)** adının yerli əhali arasında ***Lolabağırlı*** variantı və ya forması da işlənir. Yaşayış məntəqəsini vaxtilə ***Lələbağır*** adlı şəxs saldığına görə, kənd də onun adı ilə adlandırılmışdır. Rəvayətə görə, kənddə ***Bağır*** adlı bir kişi yaşayırmış. Onun gözünün ağı-qarası bircə oğlu varmış. Oğlan çox dikbaş imiş. Kənd ağasının sözünə baxmadığı üçün onu boğazından asırlar. ***Bağır*** oğlunu kəndin başı üzərində, yüksək təpədə basdırır. O, hər gün təpənin başına, oğlunun qəbri üstə gedir, ***lölö*** çəkib ağlayırmış. Cavan oğlunun itkisinə dözə bilməyən ata onun məzarının yanından ayrıla bilmir. Nəhayət, o, qəbrin üstündə ***lölö*** çəkə-çəkə ölür. Lələnin kəndə dönmədiyini görən ailə üzvləri və qohumları gəlib onu burda, oğlunun məzarının başında ölmüş görürlər. Camaat *Bağırı* oğlunun yanında dəfn edir. Ailə üzvləri və qohumları qəbirə yaxın yerdə, Qəbirli dağının ətəyində ev tikib yurd salırlar. Guya bundan sonra kəndin adı ***Lələbağırlı*** qalır. Başqa bir versiyaya görə, kənd Zəngəzur bəylərindən olan ***Bağır*** bəyə mənsub olmuş və ilk zamanlarda ***Bağırbəyli*** adlanmışdır. Bağır bəyin dayıları Gəncə hakimi Ziyadoğlular olmuş və bu səbəbdən də Bağır bəy Gəncədə dayılarının himayəsində yaşamış, təhsil almışdır. Zəngəzura qayıdandan sonra Gəncədə müraciət forması kimi geniş işlənən "*lələ*" sözündən çox istifadə etdiyinə görə yerliləri ona ***Lələ Bağır***, yaxud ***Lələ bəy*** ləqəbini vermişlər. ***Lələ*** sözünün "*yetim*", "*ata*", "*nökər*", "*beşik*", "*məsləhətçi*", "*tərbiyəçi*" və s. mənaları var. ***Lölö*** sözünün ərəb dilində "*inci, dürr*" anlamı da məlumdur.

Maqsudlu – Vaxtilə Laçın rayonunda mövcud olmuş kəndlərdən biri ***Maqsudlu*** adlanır.

Malxələf – Malxələf kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 25 kilometr cənubda, Həkəri çayının qolu olan Dəyirmanyanı çayının sahilində, Qarabağ silsiləsi ətəyində, dəniz səviyyəsindən 1200 metr yüksəklikdə yerləşən kənd. Yerli məlumata görə, yaşayış məntəqəsini XIX əsrdə Cəbrayıl qəzasından olan Hacı adlı şəxsin oğlu ***Xələf*** ona məxsus olan ***mal binəsi*** ətrafında saldığına görə belə adlanmışdır. 1933-cü ildə bu kənd Məlikpəyə icmasının tərkibində ***Malxələf*** adı ilə qeydə alınmışdır.

Malıbəy – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 23 kilometr cənub-qərbdə, Qarabağ yaylasında, Minkənd çayının sağ sahilində yerləşən kənd. Kəndin ərazisində *Bab oğlunun yalı, Göyçə dərə, Oruclar dərəsi, Palıdlıq dağı, Sarı bulaq* və s. coğrafi adlar qeydə alınmışdır. Bu yaşayış məntəqəsinin keçmiş adı ***Malıbəyli***, yəni ***Malı bəyin kəndi*** olub. ***Malı bəy*** *Təhməzli* nəslinə mənsub olan və kəndin əsasını qoyan ailələrin başçısı olmuşdur.

Mayis – Sonasar kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 29 kilometr şimalda, Qarabağ yaylasında, Hoçaz dağı ilə Soyuqbulaq dağlarının arasında, dəniz səviyyəsindən 1250 metr yüksəklikdə, Hocaz çayı sahilində, Laçın – Alxaslı şose yolu yaxınlığında yerləşən kənd. Yerli əhali kəndin adını ***Mayıs*** kimi tələffüz edir. Kəndin keçmiş adı ***Qızxanımatoyolan*** olub. XX əsrin 30-cu illərində burada "***Pervomaysk***" kolxozu təşkil olunmuş və kəndin adı da ***Maysk*** şəklinə düşmüşdür. Sonralar toponim təhrif edilərək ***Mayis*** formasına çevrilmişdir. Kənd ***Bir May*** bayramının adı ilə əlaqədardır. Əslən yunan sözü olan ***mayus*** məişətimizə ***Mayas*** kimi daxil olub. ***Mayus*** sözü yunan əsatirləri ilə bağlıdır. Əsatirə görə, həmin təqvim ay ticarət Allahı *Mayanın* şərəfinə ***May*** adlandırılıb.

Mazutlu – Malxələf kənd inzibati ərazi dairəsində, rayon mərkəzindən 34 kilometr cənubda, dəniz səviyyəsindən 1500 metr yüksəklikdə, Qarabağ silsiləsinin ətəyində, səfalı bir ərazidə yerləşən kənd. Yerli əhali kəndin adını ***Məzitti*** tələffüzündə işlədirdi. Bu yaşayış məntəqəsi XIX əsrin ortalarında *Xocamusaxlı* (əslində *xacəabuishaqlı*) tayfasına mənsub olan ailələrin ***Mazutlu*** adlanan qışlaq yerində məskunlaşması nəticəsində yaranmışdır. Yerli sakinlərin verdiyi məlumata görə, kəndə dəvə ilə ***mazut*** gətirib satan zaman dəvə yıxılır, *mazut* dağılır və bu hadisədən sonra kəndi ***Mazutlu*** adlandırırlar. I Şah Abbasın ***Mazutbəy*** adlı bir vəziri də olub.

Məlik – Vaxtilə Laçın rayonunda mövcud olmuş kəndlərdən biri ***Məlik*** adlanırdı. Oykonim ***Məlik*** şəxs adı ilə əlaqədar yaranmışdır.

Məlikpəyə – Malxələf kənd inzibati ərazi dairəsində, rayon mərkəzindən 35 kilometr cənubda, Qarabağ silsiləsinin ətəyində, dəniz səviyyəsindən 1500 metr yüksəklikdə yerləşən kənd. Kəndin ərazisində *Alı əminin bulağı, Çiyələkli, Əjdaha bulağı, Göy bulaq, Qalın quzey, Qasımın bulağı, Novlu bulaq, Şahqulu, Uzun günlük, Yazdıqlar* və s. coğrafi adlar qeydə alınmışdır. ***Məlikpəyə*** yaşayış məntəqəsinin keçmiş adı ***Soltanlı*** olub. Kənd ***Qışlaq*** da adlanırdı. Yerli məlumata görə, XIX əsrdə Cəbrayıl qəzasının ***Soltanlı*** kəndindən ***Məlik*** (***məlik*** sözünün mənası *"hökmdar, padşah"* deməkdir) adlı bir nəfər qardaşı ilə birlikdə burada ***pəyə*** tikərək mal-qara saxlamışdır.

Məzməzək – Laçın rayonunda vaxtilə mövcud olmuş kəndlərdən biri ***Məzməzək*** adlanırdı. Bu yaşayış məntəqəsi Güləbird kəndinin yaxınlığında, ***Məzməzək dərəsi*** adlanan ərazinin üstündə yerləşirdi. Yerli məlumata görə, kənd XV – XVI əsrlərdə yaranmışdır. Məşhur Sarı Aşığın bir bayatısında da ***Məzməzək*** kəndinin adı çəkilir:

Mən aşıq ağ zindəyəm,

Aləmin ağzındayam.

Əslim Qaradağlıdır,

Məzməzək ağzındayam.

S.Zelinski 1886-cı ildə tərtib etdiyi əsərdə bu kənddə 17 ev və 61 nəfər əhali olduğunu göstərir. Hazırda Laçın rayonunun ərazisində ***Məzməzək*** adlı dağ və çay vardır.

Mığıdərə – Rayon mərkəzindən 25 km cənub-şərqdə, Mığıdərə kənd inzibati ərazi dairəsində, Həkəri çayının sahilindən 7 kilometr aralıda, Qarabağ silsiləsinin cənub-qərb ətəyində, dəniz səviyyəsindən 1180 – 1280 metr yüksəklikdə yerləşən kənd. Kəndin ərazisində *Alçalı, Alçalı çuxur, Cümşüdün bulağı, Çiyələkli, Qara qaya, Qəribin bulağı, Qızıl qaya, Surxayın bulağı, Yazdıqlar* və s. coğrafi adlar qeydə alınmışdır. ***Mığıdərə*** yaşayış məntəqəsini XIX əsrin ortalarında Laçın rayonunun Məlikpəyə kəndindən köçüb gəlmiş Məmməd adlı şəxs ***Mığı dərəsi*** adlanan ərazidə bina etmişdir. Yerli məlumata görə, guya yaşayış məntəqəsinin yerləşdiyi dərədə vaxtilə

Mığı adlı kənd mövcud olduğu üçün binə yerinə ***Mığıdərəsi*** deyilmişdir. ***Mığı*** komponentinin elmi izahı hələlik tam aydın deyildir. Bu sözlə bağlı müxtəlif fikirlər dolaşmaqdadır.

Minkənd – Eyniadlı inzibati ərazi vahidində, Laçın rayonunun mərkəzindən 49 km cənub-qərbdə, Qarakeçdi və Əhmədli kəndlərindən 4 km aralıda, Həkəri çayının Minkənd qolunun sağ sahilində, Qarabağ yaylasında, dağlıq ərazidə, dəniz səviyyəsindən 1800 – 2300 metr yüksəklikdə yerləşən kənd. 1992-ci ildə ermənilər tərəfindən işğal olunduqdan sonra yaşayış məntəqəsi ***Xak*** adlandırılmışdır. 2020-ci ilin noyabrında kənd erməni işğalçılarından azad edilmişdir. 1905 və 1918-ci illərdə ermənilərə qarşı vuruşmalarda fərqlənən igidlər – ***Səfər oğlu Gülü***, ***Muradəli***, ***Hacıvəli*** bu kənddəndirlər. Qafqaz Albaniyası zamanı Minkənddə Misir ehramlarına bənzəyən tarixi memarlıq abidəsi tikilmişdir. ***Minkənd*** yaşayış qəsəbəsi öz adında qədim türkdilli ***min/minq*** (*bəzi mənbələrdə adı* ***minqat*** *kimi də çəkilir*) tayfasının adını əks etdirir. VII – VIII əsrlərdə tokuz oğuz konfederasiyasına daxil olan ***minqlər*** XII – XIII əsrlərdə qıpçaqların, XIII – XIV əsrlərdə isə Qızıl Ordanın (*Ordunun*) iri tayfa birləşmələrindən biri olmuşdur. Əmir Teymurun yürüşlərində fəal iştirak edən ***minqlər*** müxtəlif ərazilərdə, o cümlədən Azərbaycanda məskunlaşmışlar. XIV əsrdə Əmir Teymurun dövründə baş vermiş siyasi hadisələrdə fəal iştirak edən ***minqlər*** sonralar müxtəlif ərazilərdə məskən salmışlar. Tədqiqatçı V.M.Sısoyev də ***Minkənd*** toponimi ilə bağlı maraqlı fikirlər bildirmişdir. O, qeyd edirdi ki, ***Minkənd*** oykoniminin tərkibindəki ***min*** sözü burada kəndlərin sayının ***min*** olduğunu və ya kəndin böyük olduğunu deyil, əhalisinin təxmini sayını bildirir. Həqiqətən də 1924 – 1925-ci illərdə əhalinin qeydə alınması zamanı kənd əhalisinin sayı ***1000*** (***min***) civarında – *800* nəfər olmuşdur. Sənədlərdə göstərilir ki, bundan əvvəl kəndin əhalisi daha çox (*800*-dən çox) olmuşdur. ***Minkənd*** adı ilə bağlı belə bir əfsanə də yayılıb: *guya Teymurləng Azərbaycanı tutarkən 999 şəhər və kəndi dağıtmış,* ***Minkənd kəndi*** *isə onun dağıtdığı* ***mininci*** *(axırıncı) kənd olmuşdur. Bir rəvayətə görə, Əmir Teymur kəndləri saya-saya gəlib* ***Mininci kəndi*** *bəyənib; orada düşərgə salıb.* Əski oğuzlar *kəndə* – "*oba*", şəhərə isə *"kənd" ("kand")* demişlər. ***Minkənd*** oykonimi bu baxımdan *"xalq şəhəri"* mənasındadır. 1870-ci ildə kənddə rus-tatar məktəbi açılmışdır.

Mirik – **E**yniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 40 kilometr şimal-qərbdə, Həkəri çayının Minkənd qolunun sol sahilində, Bozlu kəndindən 2 kilometr məsafədə, Qarabağ yaylasında, dəniz səviyyəsindən 1400 – 1500 metr yüksəklikdə yerləşən kənd. Kənd 1992-ci ildə ermənilər tərəfindən işğal edildikdən sonra ***Merik*** və ya ***Herik*** adlandırılmışdı. Kəndin keçmiş adı ***Mirik Həsənalı*** olub. ***Mirik*** yaşayış məntəqəsini təxminən XVIII əsrin sonları – XIX əsrin əvvəllərində indiki Ermənistanın *Dərələyəz* mahalından gələn ***Həsənalı*** tayfasına mənsub olan ailələr ***Herik*** adlı sahədə saldığına görə, bəzən ***Herik*** də adlanırdı. Kənd qədim ***Mirik*** qalasının yaxınlığında yerləşdiyi üçün həmin qalanın adını daşıyır.

Mişni – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 35 kilometr şimalda, Hocazsu çayının (*Həkəri çayının qolu*) sol sahilində, Hocaz sıra dağlarının (*Ərtəpə*) ətəyində, dəniz səviyyəsindən 1400 – 1500 metr yüksəklikdə yerləşən kənd. Kəndin ərazisində *Cabbarın bulağı, Ər təpə, Gavurqala, Korca bulaq, Qızıl bulaq, Maral bulaq, Nadirin bulağı, Orta burunun dərəsi, Seyidlər dərəsi, Yarğanın dərəsi* və s. adlı coğrafi adlar qeydə alınmışdır. 1992-ci ildə ermənilər tərəfindən işğal edildikdən sonra kənd ***Mşeni*** adlandırılmışdı. ***Mişni kəndi*** ərazisində yerli əhalinin Govurqala **(*Mişni qalası*)** adlandırdığı qala da mövcuddur. ***Miş*** sözü fars dilində "*qoç, qoyun*" deməkdir. ***Mişni*** oykonimi "*Qoçdağ*" deməkdir. Toponimin mənası elmi şəkildə hələlik tam izah edilməmişdir.

Mollalar – Hoçaz kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 15 kilometr aralıda, Hoçaz çayının sağ sahilində, Laçın-Alxaslı şose yolu kənarında, Qarabağ yaylasında yerləşən kənd. Yerli məlumata görə, ***Mollalar*** yaşayış məntəqəsini Cənubi Azərbaycandan gəlmiş bir ***molla*** saldığı üçün kənd də sonralar belə adlanmışdır.

Muncuqlu – Vaxtilə Laçın rayonunda mövcud olmuş kəndlərdən biri ***Muncuqlu*** adlanırdı.

Muradlı – Laçın rayonunda vaxtilə mövcud olmuş kəndlərdən biri ***Muradlı*** adlanırdı. Oykonim ***Murad*** şəxs adı ilə bağlı olaraq yaranmışdır.

Müsəlmanlar – Vaxtilə Laçın rayonunun ərazisində mövcud olmuş kəndlərdən biri ***Müsəlmanlar*** adlanırdı.

Nağdalı – Şamkənd inzibati ərazi vahidində, rayon mərkəzindən 64 kilometr şimalda, dağətəyi ərazidə, Qırxqız dağı ətrafında, Nağdalı çayı sahilində yerləşən kənd. ***Nağdalı*** yaşayış məntəqəsini ***Nağdalı*** adlı şəxs saldığı üçün kənd onun adı ilə də adlanmışdır. Laçın rayonu ərazisində ***Nağdalı*** adlı *çay* (kəndin adındandır) da var.

Narışlar – Daşlı kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 73 kilometr məsafədə, Çalbayır silsiləsinin ətəyində, dəniz səviyyəsindən 2300 metr yüksəklikdə yerləşən kənd. Kənd ***narışlar*** nəslinin adını daşıyır. XIX əsrdə Cavanşir qəzasında ***Narışlı*** adlı binə də olmuşdur. Məlumata görə, kəndin 1805-1810-cu illərdə salındığı ehtimal edilir. Yerli sakinlərin dediyinə görə, kənd ***Narınc*** adlı bir ağbirçəyin adını daşıyır.

Narzan – Vaxtilə Laçın rayonunda mövcud olmuş kəndlərdən biri ***Narzan*** adlanırdı. Yaşayış məntəqəsinin adı yerləşdiyi ərazidən qaynayan ***narzan*** bulaqlarla əlaqədar yaranmışdır.

Nəcəfli – Laçın rayonunda vaxtilə mövcud olmuş kəndlərdən biri ***Nəcəfli*** adlanırdı. Kəndin adı burada yaşayan ***nəcəfli*** nəslinin adı ilə bağlıdır.

Novruzlu – Laçın rayonunda vaxtilə mövcud olmuş kəndlərdən biri ***Novruzlu*** adlanırdı. Kəndin adı onun əsasını qoyan ***Novruzlu*** nəslinin adı ilə bağlıdır.

Nurəddin – Fərraş kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 50 kilometr şimal-qərbdə, dağlıq ərazidə, Qırxqız dağının ətəyində, dəniz səviyyəsindən 1200 metr yüksəklikdə yerləşən kənd. Kəndin ərazisində *Allahverdi bulağı, Cərgələr, Civə yatağı, Cıdır düzü, Dərə yurdu, Əzgillər meşəsi, Gölçük, Güllütəpə, İmamqulubəy, Qənşəryal, Palçıqlı dərə, Sənəm bulağı, Sərvanlar, Səsli qaya, Yağlıbulaq* və s. coğrafi adlar qeydə alınmışdır. Yaşayiş məntəqəsini ***Piçənis*** kəndindən çıxmış ailələr keçmiş binə yerində salmışlar. Bəzən kəndin adını ***Noradin*** kimi də qeyd edirlər.

Oğuldərə – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 70 kilometr məsafədə, Mıxtökən silsiləsinin yamacında, Qızılqaya dağının ətəyində, dəniz səviyyəsindən 2000 metr yüksəklikdə, Qorçu çayının sahilində, ***Oğuldərə*** adlanan ərazidə yerləşən kənd. Bu yaşayış məntəqəsinə ***Oğrudərə*** və yaxud ***Şaplar*** da deyilirdi. Bir fikrə görə, kəndi 1805-ci ildə Türkiyədən gəlmiş ailələr ***Oğru dərəsi*** **(*Oğrudərə*)** adlanan yerdə saldığına görə, kənd də belə adlanmışdır. Bəzi araşdırıcılar ***Oğuldərə*** adındakı ***oğul*** komponentini *"igid, ər, oğul"* mənaları ilə izah edir. Bu mənada toponimi *"igidlər məskəni olan dərə"* kimi mənalandırmaq olar. Başqa bir fikrə görə isə, kəndin əhalisi Kəlbəcər rayonunun *Şaplar* kəndindən gəlmişdir. Toponimin ***Ağıldərə*** adından təhrifi də güman edilir. ***Ağıldərə –*** *"mal-qara və davar saxlanan dərə"* mənasındadır.

Piçənis – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 46 kilometr şimal-qərbdə, Həkəri çayının Piçənis qolunun sağ sahilində, dağətəyi ərazidə, dəniz səviyyəsindən 1450 – 1550 metr yüksəklikdə, yerləşən kənd. Bəzən yaşayış məntəqəsinin adını **Biçənis** formasında da yazırlar. Yaşayış məntəqəsi 1992-ci ildə ermənilər tərəfindən işğal edildikdən sonra ***Bçany*** adlandırılmışdı. 2020-ci ilin noyabrında kənd erməni işğalçılarından azad edilmişdir. Yaşayış məntəqəsi *qaraçorlu* tayfasına mənsub ailələrin ***Piçənis*** adlı yerdə məskunlaşması nəticəsində yaranmışdır. ***Piçənis*** toponimi fars dilindəki ***piç*** və türk dilindəki ***ənіz*** sözlərindən ibarətdir. ***Piç*** sözü "*çayın döngəsi, dirsəyi*" deməkdir. "***Ənіz***" sözü isə "*düzən, çuxur yer*" anlamındadır. Toponim "*çayın döngə yerindəki düzən*" mənasındadır. Laçın rayonu ərazisindən axan çaylardan biri ***Piçənis*** adlanır. Bəzi sənəd və materiallarda hidronimin adına ***Piçanis*** və ya ***Piçənizçay*** formasında da rast gəlmək olur. Oykonim ərazisindən axdığı eyniadlı çayın **(*Piçənis*)** adı ilə adlanmışdır.

Pircahan – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 31 kilometr şimal-qərbdə, dağətəyi ərazidə, dəniz səviyyəsindən 1500 metr yüksəklikdə yerləşən kənd. Kəndin keçmiş adı ***Bebi*** olub. Yerli məlumata görə, kəndi İrandan gəlmiş ***Bebi*** adlı bir nəfər saldığına görə, belə adlanmışdır. ***Pircahan*** toponimi keçmişdə həmin ərazidə mövcud olmuş *Pircahan* pirinin adı ilə əlaqədardır.

Rəfilər – Vaxtilə Laçın rayonunun ərazisində mövcud olmuş kəndlərdən biri ***Rəfilər*** adlanırdı. Yaşayış məntəqəsi kəndin əsasını qoyan ***rəfilər*** nəslinin adı ilə əlaqədardır.

Sadınlar – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 44 kilometr qərbdə, Quşçu kəndindən 3 kilometr şimal-şərq istiqamətində, Qarabağ yaylasında, dəniz səviyyəsindən 1500 metr yüksəklikdə, Qaragöl yaylasının ətəklərində yerləşən kənd. Kənd 1992-ci ildə ermənilər tərəfindən işğal edildikdən sonra ***Stunis*** adlandırılmışdı. ***Sadınlar*** yaşayış məntəqəsi XIX əsrdə Qarıqışlaq kəndinə məxsus binə yeri olmuşdur.

Sarıyal – Laçın rayonunun ərazisində vaxtilə mövcud olmuş kəndlərdən biri ***Sarıyal*** adlanmışdır. Kəndin adı ***sarı*** və ***yal*** komponentindən ibarət olub, yerləşdiyi ərazinin relyefi ilə bağlı olaraq yaranmışdır.

Seyidlər – Pircahan kənd inzibati ərazi dairəsində, rayon mərkəzindən 28 kilometr məsafədə, dağətəyi ərazidə, dəniz səviyyəsindən 1200 metr yüksəklikdə yerləşən kənd. Yerli sakinlərin dediklərinə görə, ***Seyidlər*** yaşayış məntəqəsi çox qədim tarixə malikdir. Kəndin ərazisində olan Alban qəbiristanlığı da buna əyani misaldır. Təqribən XVI əsrdə Peyğəmbər nəslindən olan *Seyid Alı Xəlifə* və onun 7 oğlu bu əraziyə köçərək məskunlaşmışlar. Həmin vaxtdan da kənd ***Seyidlər*** adlanmışdır. Kəndi ***Böyük Seyidlər*** kimi də adlandırırlar. Bütün Qarabağın tanınmış, məşhur din xadimi Seyid Lazım Ağa (*o, uzun illər* ***Ağdam*** *rayonunun* ***Şıxbabalı*** *kəndində yaşamışdır; kənd erməni hərbi birləşmələri tərəfindən işğal edildikdən sonra haqq dünyasına qovuşmuş və Ağdam rayonunun* ***Çəmənli*** *kəndində dəfn olunmuşdur*) öz soykökü etibarı ilə Laçın rayonunun ***Seyidlər*** kəndindəndir. ***Seyidlər*** özlərini Məhəmməd peyğəmbərin mənsub olduğu "*Qureyşi*" tayfasından hesab edirlər. Ərəbistanda qəbilə və tayfa aristokratiyası nümayəndələrinə ***seyid*** deyilirdi. Böyük əksəriyyəti İran Azərbaycanından türkləşmiş halda gələn *seyidlər* özlərini ***"seyid", "mir"*** və ya ***"ağa"*** adlandırmaqla tanınırlar. ***Seyidlər*** toponimi "*seyid övladları, nəsilləri, törəmələri*" mənasındadır. Yaşayış məntəqəsi burada ***seyid*** nəsillərinin məskunlaşması ilə əlaqədar belə ad almışdır. Bu kənddən çoxlu müqəddəs ocaqlar – övliyalar çıxmışdır. Onların bir qismi sonralar başqa rayonlarda yaşayaraq böyük hörmət və nüfuz sahibi olmuşlar. Şahsevən tayfa qrupuna daxil olan, əsasən maldarlıq və əkinçiliklə məşğul olaraq, Cənubi Azərbaycanın Meşkin və Muğan ərazilərində yaşayan Azərbaycan tayfalarından biri ***Seyidli*** adlanır.

Səfiyan – Rayon mərkəzindən 36 kilometr cənub-şərqdə, Səfiyan kənd ərazi inzibati dairəsində, Həkəri çayının sahilində, Qarabağ silsiləsinin ətəyində, dəniz səviyyəsindən 1450 metr yüksəklikdə yerləşən kənd. Səfiyan kəndi *9 noyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir. XIX əsrin ortalarında ***Səfiyan*** kəndindən ayrılmış ailələr Şuşa qəzasında *Səfiyanlı* adlı kənd (bu kənd hazırda mövcud deyildir) də salmışlar. S.Zelinski 1886-cı ildə tərtib etdiyi "*Yelizavetpol quberniyasının Zəngəzur qəzasında dövlət himayəsində olan kəndlilərin iqtisadi vəziyyəti*" adlı tədqiqat əsərində Səfiyan kəndində 49 tüstü (*ev təsərrüfatı*) olduğunu, orada 301 nəfər əhalinin yaşadığını və ***Dəyirman dərəsi, Suarası, Fərraş*** yaşayış məntəqələrinin bu kənddən ayrılan ailələr tərəfindən salındığını qeyd edir.

Sonasar – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 27 kilometr şimalda, Mişni kəndindən 2 kilometr cənub-şərqdə, Mais və Soyuqbulaq kəndləri yaxınlığında, Həkəri çayının sol sahilində, Haçazçayın axarı istiqamətində, Qarabağ yaylasında, Sarıbaba və Hoçaz dağlarının arasında, dəniz səviyyəsindən 1250 – 1350 metr yüksəklikdə yerləşən kənd. Kəndin ərazisində *Ağayar bulağı, Ağsu bulağı, Alban kilsəsi yanı, Aralıq düzü, Daşbulaq, Naibin düzü* və s. coğrafi adlar qeydə alınmışdır. 1992-ci ildə ermənilər tərəfindən işğal edildikdən sonra kənd ***Dziasar*** adlandırılmışdır. ***Sonasar*** yaşayış məntəqəsi XIX əsrdə Hocaz kəndinə məxsus olan və adına ***Qaraxanlar*** deyilən binə yeri olmuşdur. Bəzi sənədlərdə kəndin adı ***Sunasar*** kimi də qeyd olunur. Bəzi araşdırıcılar toponimi ***Sunasır*** forması ilə izah etmək istəyir. Yerli məlumata görə, ***Sonasar*** toponimi ***Sona*** və ***sar*** sözlərindən ibarətdir. ***Sona*** – qadın, qız adı, ***sar*** – "*başçı rəhbər*", "*əhatə etmək*", "*qanad altına almaq*", "*dağ*" deməkdir. ***Sar*** adlı tayfa da var.

Soyuqbulaq – Qarıqışlaq kənd inzibati ərazi dairəsində, rayon məkəzindən 41 kilometr məsafədə, Qarabağ yaylasında yerləşən kənd. Bu yaşayış məntəqəsi XIX əsrdə Qarıqışlaq kəndinə məxsus olan binələrdən biri olmuşdur. Sonralar həmin binədən köçmüş ailələr burada daimi məskən salmışlar. ***Soyuqbulaq*** yaşayış məntəqəsi ***soyuq*** sulu ***bulağın*** yaxınlığında yerləşdiyinə görə belə adlanmışdır.

Suarası – Səfiyan kənd inzibati ərazi dairəsində, rayon mərkəzindən 39 kilometr cənub-şərqdə, Qarabağ silsiləsinin ətəyində, dəniz səviyyəsindən 1500 metr yüksəklikdə yerləşən kənd. Bu yaşayış məntəqəsini XIX əsrdə həmin rayondakı Səfiyan kəndindən köçüb gəlmiş ailələr ***Binələr*** adlı sahədə salmışdır. ***Suarası*** sözü iki kiçik çay (sağda ***Vəlilər suyu*** və solda ***Noxudlu suyu***) arasında yerləşdiyini bildirir.

Sultanlar – Uzun illər ***Qaraçorlu*** mahalının mərkəzi olmuş ***Sultanlar kəndi*** müəyyən dövrlərdə ***Qaraçorlu***, daha sonralar ***Hüsülü*** adlandırılmışdır. Rəvayətə görə vaxtilə burada iki saray kompleksi olub. Bu sarayın birincisi ***Soltan Əjdər sarayı*** adlanır. Onun tikilmə tarixi dəqiqləşməmişdir. İkinci saray ***Həmzə Sultan sarayı*** adlanır. Bu sarayın tikilmə tarixi 1761-ci il ehtimal olunur. Sarayın ümumi mənzərəsindən aydın olur ki, qəsrin vaxtilə hündür qülləsi olmuşdur. Ehtimallara görə, burada yaradılan ***sultanlıqdan*** Zəngəzur vilayətinin böyük hissəsi idarə edilmişdir. Bu ərazi 1730-cu ildə Türk imperiyasının tərkibinə qatılmış, 1735-ci ildə farslar tərəfindən işğal olunmuş və dağıdılmışdır. 1747-ci ildə Nadir şahın ölümündən sonra yenidən əsarətdən xilas olan ***Sultanlıq*** 1761-ci ildə özünə köhnə saray qalıqları üzərində, daha müasir bir saray inşa etdirir. Bundan sonrakı illərdə ***Sultanlıq*** rus işğalına qədər qədim Zəngəzur vilayətinin əsas mərkəzlərindən biri olmuşdur. Kənd ermənilər tərəfindən işğal edildikdən sonra ***Melikatun*** adlandırılmışdı. D.D.Paqirevin 1913-cü ildə tərtib etdiyi "*Qafqazın beşverstlik xəritəsinin adlar göstəricisi*" toplusunda kəndin adı ***Sultankənd*** kimi göstərilmişdir.

Sus – Zabux kənd inzibati ərazi dairəsində, rayon mərkəzindən 11 kilometr məsafədə, dağətəyi ərazidə yerləşən kənd. Bu əraziyə yaxın yerdə vaxtilə ***Sus Zabux*** adlı yaşayış məntəqəsi mövcud olmuşdur. D.D.Paqirevin 1913-cü ildə tərtib etdiyi "*Qafqazın beşverstlik xəritəsinin adlar göstəricisi*" toplusunda kəndin adı ***Sus Zabux kəndi*** kimi göstərilmişdir.

Şamkənd – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 61 kilometr şimal-qərbdə, Qarabağ silsiləsinin ətəyində, Nağdalı çayı sahilində yerləşən kənd. Yaşayış məntəqəsinin adı əslində ***Şamkəndi*** olmalıdır. ***Şam*** komponenti **sami** sözüdür, "*qamışlıq*" mənasındadır. **Şam** sözü "*Suriya*" anlamında da başa düşülür. Oykonimi azərbaycanlıların etnogenezində iştirak edən ***şamlı*** türk tayfasının adı ilə də əlaqələndirənlər var.

Şeylanlı – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 60 kilometr məsafədə, Həkəri çayının Hocaz qolundan 250 metr yuxarıda, Ağbulaq və Qarakeçdi kəndlərindən 3 kilometr aralıda, dağlıq ərazidə, dəniz səviyyəsindən təxminən 2400 metr yüksəklikdə yerləşən kənd. Yaşayş məntəqəsi 1992-ci ilin mayında ermənilər tərəfindən işğal edilmişdi. ***Şeylanlılar*** Qaraçorlu tayfa ittifaqına daxil idilər. Onlar XII əsrin əvvəllərində İrandan gəlmişlər. ***Şey*** – ərəb dilində "*əşya*", "***Lanə***" isə fars dilində "*yuva*" deməkdir. ***Şeylanlı*** toponimi XVIII əsrin ortalarında *Osmanlı – Səfəvi* müharibəsi zamanı İrandan Zəngəzura köçürülmüş kürd tayfalarından biri olan ***Şeylanlı*** tayfasının adını özündə əks etdirir.

Şəfilər – Vaxtilə Laçın rayonunda mövcud olmuş kəndlərdən biri ***Şəfilər*** adlanırdı.

Şəlvə – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 60 kilometr şimal-qərbdə, Şəlvə çayının sahilində, Qarabağ yaylasında, dəniz səviyyəsindən 1480 – 1550 metr yüksəklikdə, dağətəyi ərazidə yerləşən kənd. Kəndin ərazisində *Alban məbədi, Çal-Bayır, Göy bulaq, Göz bulaq, Keşikçi, Qabaqtəpə, Qatar daş, Qəbirli yal, Laçın güney, Mıxtökən, Sağsağan dağları* və s. coğrafi adlar qeydə alınmışdır. Kəndin adı ***Şəlvə çayı*** ilə bağlıdır. Yerli sakinlərin verdiyi məlumata görə, kənd sıx meşə, kol və otlarla örtülü olduğundan əvvəllər ***Şəllik*** adlandırılıb.

Tərxanlı – Mığıdərə kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 26 kilometr məsafədə, Qarabağ silsiləsinin ətəyində, dəniz səviyyəsindən 1200 metr hündürlükdə, meşələr əhatəsində yerləşən kənd. Kəndin ərazisində *Çəpərlinin dağı, Əhəng quyusu, Qızartı, Qopara dağı, Qoşa bulaq, Qoz bulaq, Polad bulağı, Tərxanlı yalı* və s. coğrafi adlar qeydə alınmışdır. Zəngəzur mahalının ***Eyvazuşağı*** kəndinin (*hazırda mövcud deyil*) əhalisinin bir hissəsi Təbrizə gedərək Cənubi Azərbaycanda Səttərxanın rəhbərlik etdiyi demokratik hərəkatda (*1905-1911-ci illər*) iştirak etmişlər. Hərəkat yatırıldıqdan sonra çarizm bu səbəbdən kənd camaatını bütünlüklə sürgün etmiş və yaşayış məntəqəsi də tamamilə dağıdılmışdır. Kənd salındığı ərazinin adı ilə adlanmışdır. XX əsrin əvvəllərində ermənilərə qarşı mətanətlə vuruşmuş igid *Tərxanlı Fərzalı bəy* bu kənddəndir. Kəndin yaxınlığında ***Tərxanlı*** adlı dağ var.

Təzəkənd – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 45 km şimalda, Həkəri çayının sağ sahilində, dağətəyi ərazidə, dəniz səviyyəsindən 1300 metr hündürlükdə yerləşən kənd. Yerli məlumata görə, XIX əsrin sonlarında qonşu Ərdəşəvi kəndindən çıxmış bir qrup ailənin burada məskunlaşması nəticəsində yaranmışdır.

Turablı – Vaxtilə Laçın rayonunda mövcud olmuş kəndlərdən biri ***Turablı*** adlanırdı. Oykonim ***Turab*** şəxs adı ilə bağlı olan coğrafi adlardandır.

Turşsu – Fətəlipəyə kənd inzibati ərazi dairəsində, rayon mərkəzindən 9 kilometr cənubda, dağətəyi ərazidə, dəniz səviyyəsindən 1200 metr hündürlükdə yerləşən kənd. Kəndin ərazisində *Ağakişibəyin yeri, Ağdaş, Alı yeri, Eyvaz pəyəsi, Qərəmələk, Turşsu yalı* və s. coğrafi adlar qeydə alınmışdır. ***Turşsu*** tərkibində ***su*** hidronimik vahidi olan toponimlərdəndir.

Türklər – Səfiyan kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 34 kilometr cənub-şərqdə, Qarabağ silsiləsinin ətəyində, dəniz səviyyəsindən 1450 metr hündürlükdə yerləşən kənd. Türklər kəndi 9 noyabr 2020-ci il tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir. Kəndin ərazisində *Çinar dərəsinin yalı, Xəlfəzurun ayağı, İman ölən, İsgəndərlinin yalı, Keçi qalanın yalı, Quşçuların yalı, Sarı İbrahim yurdu, Yazının düzü* və s. coğrafi adlar qeydə alınmışdır. ***Türklər*** yaşayış məntəqəsini Zəngilan rayonunun ***Babaylı*** kəndindən köçüb gəlmiş ailələr bina etmişlər. Kənd ***Türklər*** qəbiristanlığının yaxınlığında, sakinlərin özlərinə məxsus qışlaq yerində salınmışdır. XIX əsrə aid ədəbiyyatlarda kəndin adı ***Babaylı*** kimi qeyd olunmuşdur. Kənd sonralar qədim qəbiristanın adı ilə ***Türklər*** adlanmışdır.

Uludüz – Hoçaz kənd inzibati ərazi vahidində, rayon mərkəzindənndən 13 kilometr məsafədə, dağətəyi ərazidə, Altıağac dağının ətəyində yerləşən kənd. ***Uludüz*** kəndinin keçmiş adı ***Yuxarı Mollalar*** olub. Laçının Mollalar kəndindən köçüb gəlmiş ailələrin ***Uludüz*** adlı ərazidə məskunlaşması nəticəsində bu yaşayış məntəqəsi yaranmışdır.

Uluqışlaq – Vaxtilə Laçın rayonunun ərazisində mövcud olmuş kəndlərdən biri ***Uluqışlaq*** adlanırdı. Oykonim "*böyük qışlaq*" anlamını ifadə edir.

Unannovu – Rayon mərkəzindən 18 kilometr şərqdə, Fətəlipəyə kənd inzibati ərazi dairəsində, dağətəyi ərazidə, dəniz səviyyəsindən 1250 metr hündürlükdə yerləşən kənd. Kəndin ərazisində *Alban kilsəsi, Çiyələkli, Hovuzun dərəsi, Xudumların dərəsi, İbilər, Kol piri, Meyinkahası, Palçıqlı, Sarıyal, Tədaran* və s. coğrafi adlar qeydə alınmışdır. Çox güman ki, ***Unan*** – şəxs adıdır. **Unannovu** toponimi "*Unanın novlu bulağı*" mənasındadır.

Vağazin – **E**yniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 40 kilometr şimalda, Şəlvə çayının qolu olan Ərdəşəvi çayının sağ sahilində, dağətəyi ərazidə, Qarabağ silsiləsinin yamacında, dəniz səviyyəsindən 1900 metr yüksəklikdə yerləşən kənd. Yerli məlumata görə, ***Vağazin*** yaşayış məntəqəsini təqribən XVIII əsrin ikinci yarısında əslən Türkiyədən olan, sonralar İranın Xoy şəhərinə gəlib orada məskunlaşan, daha sonra tarixi şəraitdən asılı olaraq kəndin yerləşdiyi indiki ərazisinə köçüb gələn ***Şavalat*** adlı şəxs və onun ailə üzvləri binə etmişlər. Bir rəvayətə görə, ***Vaqazin*** kəndinin adı şəxs adı ilə əlaqədardır. Başqa bir rəvayətə görə isə, toponim ***vağ*** quş adındandır. ***Vağ*** sözünü "*kömür hazırlamaq üçün qazılan çala*" anlamında da mənalandırırlar. Bəzi araşdırıcılar göstərirlər ki, ***Vaqazin*** (***Vağazin***) oykonimi ***vaqa*** ("*kömür*") və ***zin*** (İran dillərində ***-di***-nin sinonimi kimi "*yer*" mənasını bildirir) sözlərindən düzəlmiş və "*kömürçü kəndi*", "*kömür yeri*", "*kömür quyusu*" anlamını ifadə edir. Yaşayış məntəqəsi 1933-cü ildə ***Vağazin*** şəklində qeydə alınmışdır. ***Vağ*** sözünün "*maymaq*" anlamı da məlumdur. Bəzi məlumatlara görə, ***Vaqazin*** kəndinin başqa bir adı ***Şorcur*** (***Şor su***) olub.

Varazğun –Vaxtilə Laçın rayonunda qeydə alınmış kəndlərdən biri ***Varazğun (Varazuğun)*** adlanırdı. Toponimin mənası elmi şəkildə hələlik tam aydınlaşdırılmamışdır. 1992-ci ildə ermənilər Laçın rayonunu bütünlüklə işğal etdikdən sonra bu qışlağın adını ***Varazqom*** qoymuşdular. Unikal ***Varazuğun məbədi*** iki otaqdan ibarətdir. Onun üstü bir günbəzlə örtülmüşdür. Silindrik formada olan bu abidənin XVI – XVII əsrlərdə bərpa edildiyi ehtimal olunur. 1995 – 2000-ci illərdə ermənilər bu abidənin ətrafına xeyli sayda yeni yonulmuş *xaç daşları* atmışdılar.

Vəlibəyli – Daşlı kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 70 kilometr məsafədə, dağətəyi ərazidə, Həkəri çayının qolu olan Şəlvə çayının sahilində, Çalbayır silsiləsinin ətəyində, dəniz səviyyəsindən 2100 metr yüksəklikdə yerləşən kənd. Kəndin ərazisində *Damcı bulaq, Əlik bulağı, Maral dağı, Mıxtökən dağı* və s. coğrafi adlar qeydə alınmışdır. Yerli məlumata görə, kəndin adı 1807-ci ildə bu yaşayış məntəqəsinin əsasını qoyan ***Vəli bəy*** ilə bağlıdır.

Yuxarı Ağkörpü – Vaxtilə Laçın rayonunda qeydə alınmış yaşayış məntəqələrindən biri ***Yuxarı Ağkörpü*** adlanırdı. Kəndin adı Zəngəzurda bir neçə yaşayış mənrtəqəsində məskunlaşan ***ağ-körpü*** tayfasının adından götürülmüşdür.

Yuxarı Avazlar –Vaxtilə Laçın rayonunda qeydə alınmış oykonimlərdən biri ***Yuxarı Avazlar*** adlanırdı. Kəndin adı ***Avazlar*** nəslinin adı ilə əlaqədar yaranmışdır.

Yuxarı Çaykənd – Vaxtilə Laçın rayonunda qeydə alınmış kəndlərdən biri ***Yuxarı Çaykənd*** adlanırdı. Yaşayış məntəqəsi ***Çaykənd*** kəndindən çıxan ailələr tərəfindən salınmışdır.

Yuxarı Fərəcan – Fərəcan inzibati ərazi dairəsində, rayon mərkəzindən 49 kilometr cənubda, dağətəyi ərazidə, dəniz səviyyəsindən 1500 metr yüksəklikdə yerləşən kənd. Kəndin ərazisində *Bəxşəlinin dəyirmanı, Çiyin düzü, İşıq yurdu, Qacar dağ, Pirin dağı* və s. coğrafi adlar qeydə alınmışdır. Toponimin mənası "*Fərəcin yuxarı yurd yeri*" deməkdir.

Yuxarı Qarasaqqal – Kürdhacı (Qurdhacı) kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 60 kilometr şimalda, dəniz səviyyəsindən 1500 metr yüksəklikdə yerləşən kənd. Kəndin ərazisində *Alban məbədi, Böyük Güneyvə, Daşın başı, Qırmızı bulaq, Qurd yuvası, Pirin güneyi, Sərhəd suyu, Səvindiyin dam-daş yeri, Turş su* və s. coğrafi adlar qeydə alınmışdır. Yaşayış məntəqəsi vaxtilə onu bina edən ***qarasaqqal*** nəslinin (*tayfasının*) adı ilə bağlıdır.

Zabux – Eyniadlı kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 16 km cənubda, Laçın – Görus şose yolunun 16 kilometrliyində, Zabux çayının sahilində, eləcə də Həkəri çayının Minkənd qolunun sağ sahilində, Qarabağ yaylasında, dəniz səviyyəsindən 1500 metr yüksəklikdə yerləşən kənd. Əvvəllər ***Zabux*** yaşayış məntəqəsinin yerində iki ***Zabux*** adlı kənd olub. Onları bir-birindən fərqləndirmək üçün birinə ***Xut Zabux***, o birinə ***Sus Zabux*** deyilirdi. İndiki ***Zabux*** kəndinin əvvəlki adı ***Xut Zabux*** olub. ***"Xut"*** türk mənşəli söz olub, *"düşərgə"* deməkdir. ***Hut (Xut)*** sözü "*balıq bürcü*" mənasında da işlənir. Əfsanəyə görə, iğtişaş zamanı Yunis peyğəmbəri öz qarnında gizlədən nəhəng balığın adı da ***Hut (Xut)*** olmuşdur. ***Zabux*** toponimi ***zaboq*** sözü ilə əlaqədardır. ***Zaboq*** əski türk dillərində *"döngə"* deməkdir. Kənd XIX əsrdə Şuşa – Gorus yolunun döngəsində poçt dayanacağı olmuş, mövqeyinə görə ***Zabux/Zabox*** adlanmışdır. Sonralar yaxınlıqdakı ***Baharlı*** və ona birləşən ***Şadmanlı*** kəndləri də həmin ad ilə tanınmışdır. Zabux kəndindəki tarixi körpü 1988-ci ildə ermənilər tərəfindən dağıdılıbdır.

Zağaaltı – Qorçu kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 71 kilometr şimalda, Qarabağ yaylasında, Kiçik Qafqazın Mıxtökən silsiləsinin yamacında, dəniz səviyyəsindən 1800 metr yüksəklikdə yerləşən kənd. Oykonim bəzən sənədlərdə ***Zağaltı*** kimi də yazılır. Yerli əhalinin verdiyi məlumata görə, kəndin başqa bir adı ***Alıbəyli*** olubdur.

Zerti – Eyniadlı kənd inzibati ərazi dairəsində, rayon mərkəzindən 11 kilometr şimalda, Qarabağ silsiləsinin ətəyində, Laçın dağının sağında, dəniz səviyyəsindən 1500 metr yüksəklikdə yerləşən kənd. ***Zerti*** yaşayış məntəqəsi *zertiyu* tayfasının adı ilə əlaqədardır. Bu tayfa orta əsrlərdə İran-Türkiyə sərhəd zonasında yaşamışdır. Bəzi tədqiqatçıların fikrincə, toponim kürd dilindəki ***zer/zər*** və ***ti*** sözlərindən ibarətdir. ***Zer*** – *qırmızı*, ***ti*** isə *kənd* mənasındadır. Deməli, ***zerti*** toponimi *"qırmızı kənd"* mənasını verir. ***Zerti*** sözünü *"qızıl mədəni"* anlamı ilə də izah edirlər.

Zeyvə – Rayon mərkəzindən 33 kilometr qərbdə, Qarıqışlaq kəndindən 3 kilometr şimal-şərqdə, Qarıqışlaq kənd inzibati ərazi dairəsində, Qarabağ yaylasının ətəklərində, dəniz səviyyəsindən 1500 metr yüksəklikdə yerləşən kənd. Kəndin ərazisində *Sultanbaba türbəsi*, *Şeyx Əhməd türbəsi*, *Əli bulağı, Üçhücrəli günbəz* və s. coğrafi adlar qeydə alınmışdır. ***Zeyvə*** adlı yaşayış məntəqələri ömürlərini ibadətlə keçirən ruhanilər, camaatdan kənarda yaşamaq həvəsli tərkidünyalar (onlara *zaviyənişin* deyirdilər) üçün salınan məntəqələr idi. ***Zaviyə*** sözü orta əsrlərdə "*şeyxlərin, dərvişlərin ibadətgahlarının yerləşdiyi malikanə*" mənası bildirirdi.

Ziyrik – Malıbəy inzibati ərazi vahidində, rayon mərkəzindən 34 kilometr qərbdə, Qarabağ yaylasında yerləşən kənd. Yaşayış məntəqəsinin adı 1917-ci il inqilabına qədərki ədəbiyyatda ***Zikrik*** kimi qeyd olunub. Yerli məlumata görə, ***Ziyrik*** yaşayış məntəqəsini Cənubi Azərbaycanın ***Ziyrik*** kəndindən köçüb gəlmiş ailələr salmışlar. ***Zikr*** – Allahın varlığını, bütünlüyünü beynində və qəlbində hissetmə halıdır.

Həmzə Soltan sarayı (Hüsülü kəndi)



Ağoğlan məbədi

Sarı Aşığın ev muzeyi (Güləbird kəndi)

Laçın Tarix-diyarşünaslıq muzeyi

Mələk Əjdər türbəsi



Varazuğun məbədi (Mirik kəndi)

Minkənd qəbiristanlığı

ZƏNGİLAN RAYONU

(RAYON HAQQINDA ÜMUMİ MƏLUMAT)

Zəngilan inzibati rayon kimi Azərbaycan Respublikası Mərkəzi İcraiyyə Komitəsinin və Xalq Komissarları Sovetinin qərarı ilə ***8 avqust 1930-cu il*** tarixdə təşkil olunmuşdur. Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin ***24 noyabr 1931-ci il*** tarixli qərarı ilə Qubadlı rayonu ***18*** kənd sovetliyi ilə birlikdə Zəngilan rayonunun ərazisinə daxil edilmlşdir. Azərbaycan SSR MİK-nin ***14 mart 1933-cü il*** tarixli qərarı ilə *Qubadlı rayonu* yenidən təşkil edilmiş və ***18*** kənd sovetliyi Zəngilan rayonundan alınaraq Qubadlı rayonuna qaytarılmışdır. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin ***4 yanvar 1963-cü il*** tarixli qərarı ilə Qubadlı rayonu bir daha ləğv edilmiş, ərazisi Zəngilan rayonuna verilmişdir. Lakin bundan bir müddət sonra – ***17 iyun 1967-ci il*** tarixində *Qubadlı rayonu* yenidən bərpa edilərək təşkil olunmuş və həmin kəndlər onun tərkibinə keçmişdir.

Zəngilan rayonu qərbdən və şimal-qərbdən *Qərbi Zəngəzur* (Ermənistan – *Mehri* və *Qafan* rayonları), cənub və cənub-şərqdən *İran İslam Respublikası*, şimaldan *Qubadlı rayonu* və şərqdən *Cəbrayıl rayonu* ilə həmsərhəddir. Azərbaycanın gözəl guşələrindən biri olan ***Zəngilan*** rayonunun ərazisi ***707*** kv km, əhalisinin sayı isə ***38 000*** nəfər idi. Vaxtilə rayon XDS İK Zəngilana ***Pircivan*** adı versə də, Respublika Ali Soveti bunu təsdiq etməmişdir. Zəngilan ***1957***-ci ilə qədər qəsəbə olmuş, ***1967***-ci ildə isə bu qəsəbəyə şəhər statusu verilmişdir. Bakıdan rayon mərkəzinə qədər olan məsafə ***380*** kilometrdir. Zəngilan rayonunda ***1*** şəhər, ***83*** kənd və başqa yaşayış məntəqələri vardır.

Zəngilan rayonunun ərazisi qədim maddi-mədəniyyət abidələri ilə zəngindir. Rayonun tarixi-memarlıq abidələrindən *Quyudərə Xəştab* kəndindəki miladdan öncə VI –IV əsrlərə aid ***Nekropol***, *Hacallı* kəndi yaxınlığında olan qədim ***Şərifan şəhər yaşayış yeri***, *Bartaz* kəndindəki VI əsrə aid olan ***Şükrataz qalası***, *Keçikli* kəndindəki VII əsrə aid olan ***Əsgülüm qalası***, *Yazı düzündəki* VII əsrə aid olan ***90***, ***40***, ***20*** sm ölçülü ***Ağ daş*** (bəzən adına ***Koroğlu daşı*** da deyirlər), *Rəzdərə* kəndindəki VII əsrə aid olan ***Türbə*** və IX əsrə aid olan ***Məscid***, *Zəngilan* rayonunun ərazisindəki orta əsrlərə aid ***Ağca Aşıq yaşayış yeri*** və ***Qız qalası***, *Bartaz* ilə *Vejnəli* kəndləri arasındakı ***Bartaz Qız qalası***, *Oxçuçayın Araza töküldüyü yerdə* orta əsrlərə aid olan ***Qəsr qalası***, *Vejnəli* kəndindəki IX əsrə aid olan ***Yol piri***, *Hacallı* kəndindəki XII əsrə aid olan ***Dairəvi bürc (Hacallı qülləsi)***, *Əmirxanlı* kəndindəki XII əsrə aid olan ***Qız qalası***, *Top* kəndindəki XII əsrə aid olan ***Körpü***, *Şərifan* kəndində yerləşən ***XII-XIII əsrlər sərdabəsi***, *Malatkeşin* kəndindəki XIII əsrə aid olan ***Dağdağan piri***, XIV əsrə aid olan ***Türbə***, *Məmmədbəyli* kəndində *1305-ci ildə (h. 704)*, müqəddəs Ramazan ayında Məhəmməd əl-Xacənin qəbri üzərində tikilmiş ***Səkkizguşəli türbə***, *Babaylı* kəndindəki XIV əsrə aid olan ***Türbə***, *Ağalı* kəndindəki XIV əsrə aid olan ***Türbə***, Yenikənd kəndindəki XIV əsrə aid tarixi abidə olan ***Yenikənd sərdabəsi***, *Gülətağ* kəndindəki XVI əsrə aid olan ***Günəş abidə piri***, *Zəngilan* şəhərindəki XVII əsrə aid olan ***Məscid***, *Şükrataz* dağının ərazisindəki ***Oyuq yüksəkliyi***, həmin dağın ətəyində yerləşən ***Xənəzür piri***, *Qıraq Muşlan* kəndindəki XVII əsrə aid olan ***Məscid***, *Zəngilan* şəhərində XVII –XVIII əsrlərə aid edilən ***Məscid***, yenə də *Zəngilan* şəhərindəki XVIII əsrə aid ***Tağlı qalası***, *Muşlan* kəndindəki XIX əsrə aid olan **Məscid**, *Oxçuçay* sahilindəki ***Pir*** və başqalarını nümunə göstərmək olar.

Zəngilan toponimi haqqında müxtəlif fikir və mülahizələr vardır. VII əsrə aid olan tarixi mənbədə Xudafərin körpüsü yaxınlığında adı çəkilən ***Zəngixan*** yaşayış məntəqəsinin indiki *Zəngilan* olması haqqında fikirlər mövcuddur. **Zəngilan** toponiminin *"zəngi"* etnonimindən

törəndiyini söyləyən araşdırıcılar da var. Mənbələrdə ***zəngi*** adlı tayfanın olduğu məlumdur. Bəzi tədqiqatçılar ***Zəngilan*** toponimini ***qızılbaşların*** tərkibinə daxil olmuş ***zəngənə*** tayfasının adı ilə də əlaqələndirirlər. *Zəngənələrin* Elxanilər tərəfindən Türkmənistandan İrana köçürülmələri və onların qədim türk tayfalarından olmaları haqqında tarixi mənbələrdə kifayət qədər məlumatlar vardır. Səfəvilərin hakimiyyəti zamanında ***zəngənələr*** xüsusilə çox geniş ərazilərdə yayılmışdılar. Hazırda *zəngənələr* əsasən İraqın *Küfri, Samux* və *İbrahimhacı* kəndlərində, eləcə də İranın *Luristan* əyalətində yaşayırlar. Bu tayfa bir çox ***Şahsevən*** birliklərinə qarışmış, yad mühitə düşərək, hətta, dillərini də dəyişmişlər. Son orta əsrlərdə ***Zəngi*** tayfalarına mənsub olan ailə və nəsillər müxtəlif ərazilərə səpələnmişlər. Tarixdən o da məlumdur ki, vaxtilə İranda ***bəxtiyarlı*** tayfalarından biri ***zəngi*** adlanmışdır. Yaşayış məntəqəsi kimi **Zəngilan** coğrafi adı XIV əsrdən məlumdur. XIV əsrdə Kirokos Qanzaketsi özünün *"Tarix"* əsərində coğrafi məkan kimi ***Zəngilan*** yaşayış məntəqəsinin adını çəkmişdir. *Zəngilan* adı çox maraqlı mənşəyə malik olan coğrafi addır.

Zəng (səng) komponentini qədim fars dilində *"daşlı qaya"* kimi mənalandırırlar. ***Zanq (sanq)*** fars dilində *"tək daş, təpə"* deməkdir. ***Zəngilan*** toponimindəki ***lan*** komponenti *"məskən, məkan, yer"* mənasını ifadə edir. Qədim şərq dillərinin birində ***zən*** termininin *"təzə, yeni"* mənası da vardır.

Belə bir ehtimal da vardır ki, ***Zəngilan*** sözü orta əsrlərdə dağıdılmış ***Gilan*** şəhərindən köçənlərlə bağlıdır. Məlumatlara görə, Gilandan köçən bir tayfa indiki *Zəngilan* ərazisinə gəlib burada məskunlaşmışlar. Onlar bir-birinə müraciətlə: ***"Sən gilanlı?"*** – deyərmişlər. Bu ifadə sonralar azacıq dəyişikliyə məruz qalmışdır. Belə ki, ***S – Z*** hərf əvəzlənməsi ilə ***Zəngilan*** sözü formalaşmışdır...

Zəngilan adı ilə bağlı daha bir ehtimal da ***ilan*** sözü ilə əlaqələndirilir. Guya bu ərazilərdə ***zəng*** cingiltisinə oxşar səslər çıxaran ***ilanlar*** (***zəngli ilanlar***) olduğu üçün oykonim belə ad almışdır.

Başqa bir fikrə görə, *Zəngilan* sözü ***Zəngalan*** termini ilə bağlıdır. Belə ki, qədim İpək Yolunun üzərində yerləşən *Zəngilan* yaşayış məntəqəsini əvvəllər **Zəngalan** adlandırarmışlar. ***Alan*** türk sözü *"ərazi, sahə"* anlamı ifadə edir. Bu mənada ***Zəngilan*** toponimi *"zəngin ərazi", "məhsuldar sahə"* anlamına uyğun gəlir. Bəzi yerlilər indi də oykonimi ***Zəngalan*** kimi tələffüz edirlər.

Zəngilan toponimi *"zəngilərin məskəni, yaşadıqları yer"* kimi mənalandırılır. ***Zəngi*** etnonimi ilə bağlı Azərbaycanda çoxlu sayda toponimlər mövcuddur: ***Zəngi çayı*** (İsmayıllı rayonu), ***Zəngi çayı*** (Qərbi Azərbaycan – ermənilər indi onun adını dəyişib *Hrazdan* qoymuşlar), ***Zəngəzur silsiləsi*** (Azərbaycanla Ermənistan sərhədində yerləşir), ***Zəngənə kəndi*** (Sabirabad rayonu), ***Zəngələ kəndi***, ***Zəngəran kəndi*** (Yardımlı rayonu), ***Zəngibasar*** (Qərbi Azərbaycan), ***Zəngişalı kəndi*** (Ağdam rayonu), ***Zəngidərə çayı*** (Qobustan rayonu) və s.

Cənubi Azərbaycan (*İran*) ərazilərində də ***Zəngi, Zenqabad, Zəngibasar, Zəngilan*** coğrafi adlarına rast gəlinir.

30 oktyabr 1993-cü il tarixdə **Zəngilan rayonu** da erməni qəsbkarları tərəfindən zəbt edilmişdi. Həmin günlərdə onlarla *zəngilanlı* faciəli şəkildə sərhəd zonasında ermənilər tərəfindən qətlə yetirilərək, eləcə də Araz çayının soyuq sularında boğularaq dünyasını dəyişdi. ***20 oktyabr 2020-ci il*** tarixdə ***Zəngilan şəhəri***, eləcə də rayonunun ***Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı*** kəndləri erməni işğalçı qüvvələrindən azad edildi.

RAYONUN YAŞAYIŞ MƏNTƏQƏLƏRİ

Ağ oyuq qəsəbəsi – Rayon mərkəzindən 12 kilometr məsafədə, Araz çayının sol sahilində, Oxçu və Həkəri çayları yaxınlığında, düzənlik ərazidə, Ağ oyuq (*Ağoyuq*) düzənliyində yerləşən qəsəbə. Bu yaşayış məntəqəsi 1999-cu ildə qəsəbə statusu alıb. ***Ağ oyuq*** yaşayış məntəqəsi 1993-cü ildə erməni işğalçı qüvvələri tərəfindən zəbt edilmişdi. Yaşayış məntəqəsinin yaxınlığında, rayonun cənub-şərqində 548 metr hündürlüyü olan dağ (***Ağoyuq dağı***) vardır. Rayonun ərazisində, Oxçu və Həkəri çaylarının arasında ***Ağoyuq düzü*** yerləşir. Yerli əhali arasında bəzən bu düzün adına ***Yazı düzü*** də deyilir. Həmin düzənlikdə 1,5 metr hündürlükdə, yanaşı şəkildə olan və torpağa sancılan 2 daş var. Bu daşlar yerli əhali arasında Oyuq və ya Koroğlu daşları adlanır. Daşların üzərində qədim yazılar vardır. Əhali həmin daşları müqəddəs pir hesab edir. Görünür, Ağoyuq düzü öz adını ərazidəki eyniadlı dağdan almışdır. Bu yaşayış məntəqəsi bəzən sənədlərdə ***Ağoyuq*** kimi də yazılır. ***Ağoyuq*** toponimi "*kiçik mağara*", "*kiçik kaha*" mənasındadır. Keçmişdə əkin sahələri arasında sərhədi bildirmək üçün süni düzəldilmiş hər hansı süni torpaq qalağı, yerə basdırılmış dik daş və ya ağac ***oyuq*** adlanırdı.

Ağakişilər – İsgəndərbəyli inzibati ərazi vahidində, rayon mərkəzindən 28 kilometr şimalda, Qubadlı rayonu sərhədi yaxınlığında, dağlıq ərazidə yerləşən kənd. Kənd *8 noyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir. ***Ağakişilər*** kəndinin sakinlərinin ulu babaları əvvəllər Qafan rayonu ərazisində yaşamışdır. Zəngilan rayonundakı ***Ağakişilər kəndi*** yaşayış məntəqəsini vaxtilə Qafan rayonunun *Kirs* kəndindən ermənilər tərəfindən zorakılıqla qovulmuş ***Ağakişilər*** nəslinə mənsub olan ailələr saldığına görə, sonralar yaşayış məntəqəsi də belə adlandırılmışdır. Kəndin ərazisi keçmişdə həmin nəslin – *kirsli ağakişilərin* qışlaq yeri olmuşdur.

Ağalarbəyli – Vaxtilə Zəngilan rayonunda, indiki Quyudərə Xəştab kəndinin yaxınlığında, dağətəyi ərazidə, meşəlik sahədə mövcud olmuş kənd. 1930-cu illərdə sovet hökumətinin uğursuz kolxoz quruculuğu planı (*kəndləri birləşdirməklə iri kolxoz təsərrüfatları yaratmaq*) ilə əlaqədar olaraq ***Ağalarbəyli kəndi*** xarabalığa çevrilmişdir. Yaşayış məntəqəsi ***Ağalar bəy*** adlı şəxsin adını daşıyır. Toponim "*Ağalarbəylilər, Ağalarbəyligillər, Ağalar bəyin nəslindən olanlar*" mənasındadır.

Ağalı – *Bax:* **Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı.**

Ağayarlar – Vaxtilə Zəngilan rayonunda, indiki Yusiflər və Nəcəflər kəndləri arasında, dağətəyi ərazidə, meşəlik sahədə mövcud olmuş kənd. 1930-cu illərdə sovet hökumətinin uğursuz kolxoz quruculuğu planı (*kəndləri birləşdirməklə iri kolxoz təsərrüfatları yaratmaq*) ilə əlaqədar olaraq ***Ağayarlar kəndi*** xarabalığa çevrilmişdir. Yaşayış məntəqəsi ***Ağayar*** adlı şəxsin adını daşıyır. Toponim "*Ağayarlılar, Ağayarlıgillər, Ağayarın nəslindən olanlar*" mənasındadır.

Ağbənd qəsəbəsi – Vejnəli inzibati ərazi vahidində, rayon mərkəzindən 43 kilometr cənub-qərbdə, Araz çayının sol sahilində, Ağbənd və Bartaz dağlarının ətəyində, *Bakı – İrəvan*, *Bakı – Culfa* dəmir yolunun kənarında, Bakı – Mehri avtomobil yolunun solunda yerləşən kənd. ***Ağbənd kəndi*** 1977-ci ildə ***qəsəbə*** statusu almışdır. Yaşayış məntəqəsinin adı bəzən sənədlərdə ***Ağbənd dayanacağı qəsəbəsi*** kimi də qeyd olunur. *Ağbənd qəsəbəsi 27 oktyabr 1993-cü il* tarixdə erməni işğalçı qüvvələri tərəfindən zəbt edilmişdi. Kənd *22 oktyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad olunmuşdur. ***Ağbənd*** yaşayış məntəqəsi öz adını ətəyində salındığı dağın adından almışdır. Süxurları ***ağ*** rəngdə olan dağ Araz çayının dərəsinə doğru ***bəndi*** xatırladan formada uzandığı üçün belə adlandırılmışdır. Kənardan baxdıqda ***ağ*** rəngli bu

dağ, doğrudan da Araz boyu uzanan bir ***bəndə*** bənzəyir. ***Ağbənd*** yaşayış məntəqəsi 1930-cu illərdə Bakı – Naxçıvan dəmir yolu xəttinin çəkilişində və istismarında çalışan işçilər üçün salınmış, 1958-ci ildən başlayaraq əsasən, *Bartaz, Vejnəli, Dəlləkli, Əmirxanlı, Baharlı, Çöpədərə* və *Sürtün* kəndlərindən gəlmiş bəzi ailələrin hesabına genişlənərək ***qəsəbə*** statusu (*1977-ci il*) almışdır.

Ağbiz – İsgəndərbəyli inzibati ərazi vahidində, rayon mərkəzindən 29 kilometr şimal**-**şərqdə, dağlıq ərazidə, dəniz səviyyəsindən 1300 metr yüksəklikdə, Ağbiz dağının yamacında yerləşən kənd. Kəndin adı bəzən sənədlərdə ***Ağbis*** kimi də qeyd olunur. Kəndin ərazisi 900 hektara yaxındır. Yaşayış məntəqəsi *27 oktyabr 1993-cü il* tarixdə erməni hərbi qüvvələri tərəfindən işğal edilmişdi. Kənd 9 noyabr 2020-ci il tarixdə erməni işğalçı qüvvələrindən azad olunmuşdur. Bəzən bu toponimi ***Ağbis*** formasında da yazırlar. Yaşayış məntəqəsi əvvəllər *sofulu* tayfasına məxsus olan qışlaq yerində salınmışdır. Oykonim öz adını ***Ağbiz*** dağının adından almışdır. ***Biz*** (***bis***) komponenti "*dik*", "*şiş*", "*yüksəklik*", "*hündürlük*", "*çıxıntı*", "*oyuq*", "*yuva*" mənalarını ifadə edir. Yerli məlumata görə, yaşayış məntəqəsini XVIII əsrdə Ordubadın ***Bis*** kəndindən gələn ailələr salmışlar. VII əsrə aid olan mənbələrdə Albaniya ərazisində ***Aqbid*** adlı yaşayış məskəni yad olunur. *1933***-**cü ildə Zəngilan rayonu ərazisində 2 ***Ağbiz*** kənd adı qeydə alınmışdır.

Ağkənd – Canbar inzibati ərazi vahidində, rayon mərkəzindən 37 kilometr məsafədə, Oxçuçayın sağ sahilində, dəniz səviyyəsindən 1250 metr yüksəklikdə, dağətəyi ərazidə yerləşən kənd. Yaşayış məntəqəsi ***10 dekabr 1992-ci il*** tarixdə erməni hərbi qüvvələri tərəfindən işğal edilmişdi. Kənd 2020-ci ilin oktyabrında erməni işğalçılarından azad olunmuşdur. ***Ağkənd*** yaşayış məntəqəsi XIX əsrdə *Sarallı* tayfasına mənsub olan *Aldavudlu*, *Qəzənfərli*, *İsmayıllı*, *Hacıaxundlu* nəsilləri tərəfindən onlara məxsus binə yerində salınmışdır. Kəndin yerləşdiyi ərazi ***ağ***-***boz*** rəngdə olduğu üçün belə adlandırılmışdır.

Aladin – Gilətağ inzibati ərazi vahidində, rayon mərkəzindən 14 kilometr məsafədə, dağlıq ərazidə yerləşən kənd. Yaşayış məntəqəsi *27 oktyabr 1993-cü il* tarixdə erməni hərbi qüvvələri tərəfindən işğal edilmişdi. Kənd *30 oktyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad olunmuşdur. ***Aladin*** kəndinin ərazisində *Cənnət dərə, Muradxan dərəsi, Şahgəldi dərəsi* və s. adlı coğrafi adlar qeydə alınmışdır. Kəndin adının mənşəyi ilə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur. Kəndi XIX əsrin əvvəllərində *II Rusiya-İran müharibəsindən* (*1826 – 1828-ci illər*) sonra Cənubi Azərbaycandakı ***Aladin*** kəndindən gələn azərbaycanlı ailələr saldığına görə yaşayış məntəqəsi belə adlanmışdır. Tədqiqatçılar oykonimin ***alan*** və ***dən*** sözlərindən ibarət olub, "*hamar, düz yer*" və "*vilayət, dairə*" mənasını ifadə etdiyini qeyd edirlər. Lakin əslində bütün türkdilli xalqların toponimiyasında geniş yer tutan ***ala*** topokomponenti "*müxtəlif rəngli*", "*qonur rəng*", "*böyük*", "*geniş*" mənalarını bildirir. Qədim türk dillərində ***din*** (***dın***) komponenti "*düşərgə, məskən*", "*dincəlmək üçün yer*" mənalarını ifadə etmişdir.

Alıbəyli – *Bax*: **Birinci Alıbəyli, İkinci Alıbəyli.**

Aşağı Göyəli – Canbar inzibati ərazi vahidində, rayon mərkəzindən 14 kilometr məsafədə, dağətəyi ərazidə yerləşən kənd. Yaşayış məntəqəsi *10 dekabr 1992-ci il* tarixdə erməni hərbi qüvvələri tərəfindən işğal edilmişdi. Kənd 2020-ci ilin oktyabrında erməni işğalçılarından azad olunmuşdur. Bəzi sənəd və materiallarda kəndin adı ***Aşağı Gəyəli*** kimi də qeyd olunur. ***Aşağı Göyəli*** yaşayış məntəqəsini ***Yuxarı Göyəli*** kəndindən köçüb gələn ailələr salmışdır. ***Göyəli*** etnotoponimi XIX əsrdə Zəngəzur qəzasında yaşamış və əsasən maldarlıqla məşğul olmuş ***göyəli*** (***gəyəli***) tayfasının adını özündə əks etdirir. ***Göyəli*** adlı kol bitkisi də var ki, bəzi tədqiqatçılar toponimi məhz bununla əlaqələndirməyə çalışırlar. Araşdırıcıların bir qismi ***Göyəli*** toponimini türkdilli ***gəkəli*** tayfasının adı ilə də bağlayırlar.

Aşağı Yeməzli – Rayon mərkəzindən 24 kilometr məsafədə, İsgəndərbəyli – Saralı Xəştab yolunun üstündə, dağətəyi ərazidə yerləşən kənd. Yaşayış məntəqəsi *27 oktyabr 1993-cü il* tarixdə erməni hərbi qüvvələri tərəfindən işğal edilmişdi. Kənd 2020-ci ilin oktyabrında erməni işğalçılarından azad olunmuşdur. ***Aşağı Yeməzli*** yaşayış məntəqəsini ***Orta Yeməzli*** kəndindən köçüb gələnlər salmışdır. Ərazi əvvəllər ***Orta Yeməzli*** kəndinin qışlaq yeri olmuşdur. Əhali qışlaq yerinə köçərək burada məskunlaşdıqdan sonra yeni yaşayış məntəqəsi ***Qışlaqlı*** adlanmış, bir müddət sonra isə kənd ***Orta Yeməzli*** adlandırılmışdır. ***Aşağı Yeməzli*** oykoniminin birinci komponenti olan ***aşağı*** sözü yaşayış məntəqəsinin coğrafi mövqeyi ilə bağlıdır; oykonimin ikinci komponenti isə ***atyeməzli*** etnoniminin qısaldılmış formasıdır. Bəzi məlumatlara görə, ***Orta Yeməzli*** yaşayış məntəqəsi Ağdam rayonunun *Ətyeməzli* kəndindən gəlmiş ailələrin burada məskunlaşması nəticəsində yaranmışdır. Əvvəllər həmin kəndin adı ***Ətyeməzli*** olub. Bir müddət keçdikdən sonra ***ət*** komponenti hansısa səbəbdən toponimin tərkibindən düşmüşdür. Həmin yaşayış məntəqəsindən ***Aşağı Yeməzli*** və ***Yuxarı Yeməzli*** kəndləri ayrıldıqdan sonra kəndin adına ***orta*** sözü də əlavə edilmişdir. Oykonimin ikinci komponenti ***ətyeməzli*** (***atyeməzli***) tayfa adını özündə əks etdirir. Yerli məlumata görə, bu tayfa orta əsrlərdə İranın Xorasan vilayətindəki ***Atyeməzli*** mahalından Qarabağa (*güman ki, əvvəl indiki Ağdam rayonuna və bəlkə də əksinə*) gəlmiş, sonralar ***Kəbirli*** tayfasının ***Qərvənd*** qoluna qaynayıb-qarışaraq Qarabağ və Zəngəzurda bir neçə yaşayış məntəqəsi yaratmışlar. ***Atyeməzli*** sözü "*at əti yeməyənlər*" anlamını ifadə edir. Yerli əhalinin verdiyi məlumata görə, kənd bir müddət ***Dəlləkli*** və ***Aşağı Qışlaq*** da adlanmışdır.

Babaylı – Məmmədbəyli inzibati ərazi vahidində, rayon mərkəzindən 37 kilometr şərqdə, Həkəri çayınının sol sahilində, İran İslam Respublikası sərhədi ilə qonşuluqda yerləşən kənd. Kəndin ümumi ərazisi 125 hektardır. Yaşayış məntəqəsi *27 oktyabr 1993-cü il* tarixdə erməni işğalçı qüvvələri tərəfindən zəbt olunmuşdu. Kənd *21 oktyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad edilmişdir. Bəzi sənəd və materiallarda kəndin adına ***Babalı*** kimi də rast gəlmək olar. Yaşayış məntəqəsi 1917-ci ildə ***Baba Yaqublu*** şəklində qeydə alınmışdır. Görünür, sonralar oykonimin ikinci komponenti hansı səbəbdənsə ixtisara düşmüşdür. ***Babaylı*** etnotoponimdir. Babaylıların ulu babaları Cənubi Azərbaycanın ***Babaylı*** kəndinin sakinləri olub. XIX əsrin əvvəllərində Cənubi Azərbaycanın ***Babaylı*** kəndindən köçüb gələn nəsillər Zəngilanda bu yaşayış məntəqəsini saldıqlarına görə kənd də belə adlanmışdır. Oykonimi Azərbaycan xalqının qəhrəman oğlu ***Babək Xürrəminin*** adı ilə də əlaqələndirənlər vardır. Bəzi araşdırıcılar toponimi *Qarabağlılar* tayfasının ***Babaylı*** qolu ilə bağlayırlar. *Qarabağlılardan* fərqli olaraq *babaylıların* şirin Təbriz ləhcələri (*məsələn, onlar* ***bajı*** *əvəzinə* ***bacı*** *deyirlər və s.*) vardır.

Baharlı – Çöpədərə inzibati ərazi vahidində, rayon mərkəzindən 15 kilometr cənub-qərbdə, Bəsitçayın sahilində, Bəsitçayın Araza qovuşduğu yerin yaxınlığında, dağətəyi sahədə yerləşən kənd. Yaşayış məntəqəsi *1993*-cü ildə erməni işğalçı qüvvələri tərəfindən zəbt edilmişdi. Kənd *21 oktyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad olunmuşdur. Kəndin ərazisində *Ağa kələyi, Qızıldaş yüksəkliyi, Sobu alası, Şıxılcan bulağı, Yazı düzü* və s. adlı coğrafi adlar qeydə alınmışdır. Yaşayış məntəqəsini qədim türk tayfalarından olan ***baharlılar*** salmışlar. ***Baharlı*** etnotoponimi quruluş etibarı ilə sadə toponimdir. ***Baharlı*** toponimi oğuzların qədim ***baharlı*** tayfasının adını özündə əks etdirir. Tarixin müəyyən dönəmlərində biz ***baharlı*** tayfalarını *Qaraqoyunluların* tərkibində görürük. ***Baharlı*** tayfası vaxtilə Həmədan yaxınlığındakı ***Bahar*** əyalətində yaşadığına görə belə adlanırdı. ***Baharlılar*** orta əsrlərdə oğuzların tərkibində Orta Asiyadan Yaxın Şərqə və Azərbaycana gəlmiş türkdilli tayfadır. "*Baharlı*" etnik terminə ilk dəfə XV əsr məxəzlərində rast gəlinir. *Baharlılar* müxtəlif vaxtlarda *səlcuqların*, *qaraqoyunluların*, *ağqoyunluların* tayfa ittifaqına daxil olmuşlar. *Qaraqoyunlular* süqut etdikdən sonra ***baharlılar*** Ağqoyunlulara tabe olmaq istəməyib, Xorasana gedərək, Teymurilərə sığınmışlar. 1478-ci ildə

Ağqoyunlu hökmdarı Uzun Həsən öləndən sonra *baharlılar* Qaraqoyunlular dövlətini bərpa etmək istəsələr də, onların bu təşəbbüsü nəticə verməmişdir. Onların bir hissəsi Babura qoşulub Hindistana gedərək orada *Qütbşahilər* dövlətini (*bu dövlət 1687-ci ilə qədər mövcud olub*) yaratmışlar. Onların digər qismi isə Xorasanda qalıb Səfəvilər dövründə İran və Azərbaycanın siyasi həyatında fəaliyyət göstərmişlər. XV əsrdə *baharlılar* Səfəvilərin hakimiyyətə gəlməsinə hərbi qüvvə ilə kömək etmişlər. ***Baharlı*** tayfası Xorasanda yaşayandan sonra ilbaşı *Bayram xanın* başçılığı ilə Cənubi Azərbaycana gəlmiş və Marağa yaxınlığında məskən salmışlar. XVI əsrin sonlarında ***Baharlılar*** Şahsevənlərə qoşulmuşdular. İran Azərbaycanında ***Baharlı*** adında Şahsevən tayfası da var. *Baharlılar* sonralar Qafqaz Azərbaycanına gələrək burada yurd salmışlar. Onlar əsasən Göyçə mahalında, Zəngəzurda və Qarabağda yaşamışlar. Qarabağ xanlığının yaradılmasında ***baharlılar*** yaxından iştirak etmişlər. İndi də onlar Azərbaycan Respublikası ərazisində, eləcə də Cənubi Azərbaycanda, Türkiyədə və İranın fars əyalətlərində *şahsevənlərin* tərkibində bir tirə kimi yaşayırlar. Görkəmli tədqiqatçı, etnoqraf *Məhəmmədhəsən bəy Vəlili* (*Baharlı*) yazılarında, qeydlərində mənsub olduğu doğma oymağının Azərbaycanda yerləşməsindən bəhs edir. O, hesab edir ki, ***baharlılar*** Oğuzların ***qayı*** boyundandır. ***Baharlı*** oymağının ilk məskən yerlərindən biri *Həmədan* ətrafıdır. Ünlü araşdırıcı-yazar Faruq Sümer də bu fikrə şərik çıxır. Onun qeydlərindən belə nəticəyə gəlmək olur ki, hələ monqol istilasından qabaq *Bərçəni* bəyin başçılığı altında olan Yıvaların yaşadıqları Həmədan ətrafında Qaraqoyunlu dövlətinin dayağı hesab edilən və hökmdar ailəsi ilə qohumlaşan ***Baharlı tayfası*** yurd salmışdır. Tarixdən məlumdur ki, Qaraqoyunlu dövlətinin süqutundan sonra baharlıların bir hissəsi Ağqoyunlulara tabe olmamışlar. Onların böyük bir hissəsi Pirəli bəy, Bayram bəy və Yarəli bəy qardaşları ilə birlikdə Xorasana köçərək Sultan Hüseyn Bayqaranın xidmətinə daxil olmuşlar. Ağqoyunlu Uzun Həsən onların təslim edilməsini dəfələrlə Bayqaradan tələb etsə də, müsbət cavab ala bilməmişdir. Uzun Həsənin ölümündən sonra Qaraqoyunlular dövlətini bərpa etmək istəyən *baharlılar* 1479-cu ildə Sistan Bəm yolu ilə Ağqoyunlulara tabe olan Kirman əyalətini tuturlar. Bundan sonra ***baharlılar*** Fars əyalətini də tutmaq istəyərkən Ağqoyunlu hökmdarı Sultan Yaqub tərəfindən onların bu yürüşlərinin qarşısı alınır və *baharlılar* Kirmana, oradan da Gürgana qayıtmağa məcbur olurlar. Pirəli bəy Sultan Hüseyn Bayqara tərəfindən öldürüldükdən sonra baharlıların bir qismi Hindistana gedir və sonradan orada ***Qütbşahilər*** dövlətini yaradırlar. İranda qalan ***baharlılar*** Səfəvilər dövründə öz mövqelərini qoruyub saxlayırlar; hətta onların bəzi başçıları mühüm vəzifələrə təyin edilirlər. O da bəllidir ki, ***baharlılar*** Ağqoyunlulara qarşı üsyanlara başlamışdılar. ***Baharlı*** adına ilk dəfə orta əsrlərə aid mənbələrdə təsadüf edilir. Bu soyadı ilk dəfə XV yüzildə yaşamış ***Əlişəkər bəy Baharlı*** daşımışdır. O, yaxın qohumu, Qaraqoyunlu dövlətinin hökmdarı Cahanşahın hakimiyyəti illərində *Həmədan hakimi* olmuşdur. ***Baharlı*** oymağının bir qolu da indiki İranın Fars əyalətində yaşamışdır. Onlar buraya *Qarabağdan* gəlmişlər. ***Baharlılar*** Qarabağ xanlığının ictimai-siyasi həyatında əhəmiyyətli rol oynamışlar. Bu qol XVIII əsrdə əsas ***Xəmsə boy birliyi*** nəsillərini təşkil edirdi. Xəmsə birliyinə çoxlu ***Baharlı tayfa tirələri*** (*Aşıqlı, Aşırlı, Böyükcaməli, Çahərdəh Çərik, Dərəşur, Əbülqasımlı, Əhmədli, Ələmdar, Əmələ, Əminə, Əminli, Əmirhacılı, Əzizbəyli, Əzizli, Hacıbaranlı, Hacıəttarlı, Hacıxanlı, Heydərli, Həsənbəyli, Xosrovlu, İbrahimxanlı, İsabəyli, İsmayılxanlı, Kamanlı, Kazımbəyli, Kərimli, Qağaxanlı, Qaraxanlı, Qaraxaslı, Lor, Məhəmmədxanlı, Məmmədli, Nəzərbəyli, Övladlı, Rəsulxanlı, Sadıxlı, Səfixanlı, Səkkizli, Süleymanlı, Şəkərli, Təkkə, Zərgər*) daxil idi. Nadir şah Qırxlı-Avşarın hakimiyyəti zamanı ***baharlı*** oymağına ***Hacı Hüseyn xan Nəfər*** başçılıq etmişdir. 1852-ci ildə ***Baharlı oymağı*** Nəfər elinin tərkibindən çıxaraq, özlərindən *Molla Əhməd* adlı birini kələntərliyə qəbul etmişlər. Hökumət tərəfindən yeni kələntərə xanlıq ünvanı (*titulu*) verilmişdir. ***Molla Əhməd xan*** tayfanın müxtəlif tirələri arasında sülh və sakitlik yarada bilmişdir. ***Baharlı eli*** oymaq şəklində Qarabağda, bir neçə mahalın ərazisində qərar tuturdu. ***Baharlı*** obasının ikisi Kəbirli

mahalında, biri Çulundur mahalında, biri isə Qapan (*Qafan*) mahalında yaşam sürürdü. ***Baharlı*** oykonimləri qədim ***qayı*** türk tayfasına mənsub olan ***baharlı*** etnonimi əsasında əmələ gəlmişdir. 1823-cü ilə bağlı olan "*statistik təsvir*"də ***Baharlı obası*** haqqında da məlumatlar verilir. Qarabağ xanlığı dövründə Zəngəzur qəzasının daxil olduğu Zəngilanın Baharlı, Şayıflı, Çöpədərə və digər bir neçə qonşu kəndlərin idarə olunması *baharlılara* tapşırılmışdı. Oğuz türklərinin yaşadıqları Zəngəzurda Qərbi Azərbaycanın ayrı-ayrı bölgələrində ***baharlı*** tayfası ilə bağlı onlarla toponim formalaşmışdır. Bu etnonim əsasında yaranan toponimlərin əksəriyyəti oykonimik adlardır. Yeri gəlmişkən onu da qeyd etmək lazımdır ki, Zəngilan rayonunun ərazisindəki ***Baharlı*** kəndini də əhatə edən Arazboyu uzanan ***Çinar meşəsi*** Kanadadan sonra dünyanın ikinci ən böyük nadir möcüzəli incisi olan çinar meşəsidir. Zəngilan rayonunun ***Baharlı*** kəndinin əsas yerli əhalisi ***Əlişəkər bəy Baharlının***, onun nəslindən olan ***Mirzə Vəli bəy Baharlının*** övladlarıdır.

Bartaz dayanacağı qəsəbəsi – Bartaz inzibati ərazi vahidində, rayon mərkəzindən 28 km cənub-qərbdə, Bartaz dəmir yolu stansiyasından 7 kilometr aralıda, Bartaz çayının sol sahilində, Təlid dağının ətrafında, Hacıyan düzənliyində, Araz çayının sol sahili yaxınlığında, Mehri silsiləsinin ətəyində yerləşir. Qəsəbənin adı bəzən ***Bartaz qəsəbəsi*** kimi də qeyd olunur. Yaşayış məntəqəsi 1977-ci ildə ***qəsəbə*** statusu alıb. ***Bartaz dayanacağı qəsəbəsi*** 1993-cü ildə erməni işğalçı qüvvələri tərəfindən işğal edilmişdi. Kənd *22 oktyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad olunmuşdur. Yerli əhalinin dediklərinə görə, bu yaşayış məntəqəsi 1840-cı ildə Rusiya – İran sərhədini qoruyan hərbçilərin sərhəd məntəqəsi kimi salınmış və yerli əhali tərəfindən ***barak*** ("*taxta ev*") sözü rus dilindən təhrif olunmuş şəkildə ***Paraxlar*** adlandırılmışdır. ***Bartaz dəmir yolu stansiyası*** yaşayış məntəqəsi 1952-ci ildə qonşu kəndlərdən gəlmiş ailələrin hesabına genişlənərək qəsəbəyə çevrilmişdir. Toponim öz adını ***Bartaz*** dağının adından almışdır. Toponimiyada ***bart*** (***bard***) termini "*dağ*", **az** (***as, ats***) – "*su*", "*iti uc*", "*iti zirvə*" deməkdir. Yaşayış məntəqəsinin yaxınlığında *Bartaz* adlı dağ var.

Bartaz – Bartaz inzibati ərazi vahidində, rayon mərkəzindən 33 kilometr cənub-qərbdə, Bartaz çayının sol sahilində, Mehri (Mehri-Güney) silsiləsinin ətəyində, Bəsitçay qoruğu yaxınlığında, dəniz səviyyəsindən 689 metr yüksəklikdə, Şinnərə, Qızılqaya, Qanlıağac dağlarının əhatəsində yerləşir. ***Bartaz*** yaşayış məntəqəsi *26 oktyabr 1993-cü il* tarixdə erməni hərbi qüvvələri tərəfindən işğal edilmişdi. Kənd *22 oktyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad olunmuşdur. Yaşayış məntəqəsi öz adını yaxınlıqda yerləşən eyniadlı dağdan almışdır. Bir fikrə görə, yaşayış məntəqəsi vaxtilə Ordubad və Samux rayonlarından gəlmiş ailələrin ***Pəri Bartaz*** adlanan yerdə məskunlaşması nəticəsində yaranmışdır. ***Bart*** komponentinin toponimiyada "*dağ*", ***az*** termininin isə "*iti zirvə*" anlamları var. Bu mənada ***Bartaz*** toponimi "*iti zirvəli dağ*" kimi mənalandırılır. Bəzi araşdırıcılara görə ***Bartaz*** toponiminin əsasını ***bar*** sözü təşkil edir. ***Bar*** sözü farsca ***baran*** ("*yağış*") sözünə daha yaxındır. ***Bartaz*** ərazisi əslində rayonda yağmurların daha çox müşahidə olunduğu sahədir və adın mənası ilə uyğunluq təşkil edir. Toponimin ikinci komponenti olan ***taz*** ("*taz*", "*çökək*", "*çuxur*") termini "*yağmurlu, barlı-bərəkətli dərə*" anlamını ifadə edir. Yerli əhalinin danışıq dialekti digər kəndlərdən fərqlənir. Kənddən bir qədər yuxarıdakı meşəlik sahə ***Pəri Bartazı*** adlanır.

Bayıroğlu Gəzin – Vaxtilə Zəngilan rayonunun ərazisində mövcud olmuş kənd. Hər hansı bir rayonun, regionun müasir və tarixi toponimlərinin toplusu həmin rayonun, regionun toponimik fondu hesab edilir. Təəssüf ki, hələ indiyədək respublikamızın, rayonlarımızın, regionlarımızın müfəssəl toponimik fondu yaradılmamışdır. Adətən toponimik fonddakı toponimlər 2 yerə bölünür: 1) Fəal toponimlər; 2) Passiv toponimlər. Fəal toponimlərə hazırda ünvan funksiyasını yerinə yetirməkdə olan toponimlər aiddir. Passiv toponimlər coğrafi obyekt daha mövcud

olmadıqda və yaxud obyektin adı dəyişdirildikdə yaranır. Başqa sözlə, onun köhnə adı passiv fonda keçir. Vaxtilə Zəngilan rayonunun ərazisində mövcud olmuş ***Bayıroğlu Gəzin kəndi*** də artıq çoxdan passiv fonda keçmiş toponimlər sırasındadır.

Bayrışlar – Vaxtilə Zəngilan rayonunda, indiki Nəcəflər kəndinin cənub hissəsində, dağətəyi ərazidə, meşəlik sahədə mövcud olmuş kənd. 1930-cu illərdə sovet hökumətinin uğursuz kolxoz quruculuğu planı (*kəndləri birləşdirməklə iri kolxoz təsərrüfatları yaratmaq*) ilə əlaqədar olaraq ***Bayrışlar kəndi*** xarabalığa çevrilmişdir. Zəngilan rayonunun ərazisində vaxtilə mövcud olmuş ***Bayrışlar kəndi*** də artıq çoxdan passiv fonda keçmiş toponimlərdəndir...

Beşdəli – Zəngilan şəhər inzibati ərazi vahidində, rayon mərkəzindən 8 kilometr şimal-qərbdə, Əsgülüm dağının ətəyində, dəniz səviyyəsindən 550 metr yüksəklikdə yerləşən kənd. ***Beşdəli*** yaşayış məntəqəsi *27 oktyabr 1993-cü il* tarixdə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdi. Kənd *7 noyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad olunmuşdur. Bəzi tədqiqatçıların fikrincə, ***beşdəli*** tirəsi şahsevənlərin ***ataxanlı*** qolundandır. *Şahsevənlərin* ataxanlı qoluna mənsub olan ***beşdəlilər*** tirəsinin bu ərazidə məskunlaşması nəticəsində ***Beşdəli kəndi*** yaranmışdır. Bəzi yerli məlumatlara əsasən, yaşayış məntəqəsini Ordubad rayonunun Tivi kəndindən gələn ***beş*** igid, cəsur, ***dəliqanlı*** qardaş saldığına görə kənd belə adlanmışdır. ***Beşdəli*** toponimi "*beş dəli*", "*beş igid*" anlamındadır.

Birinci Ağalı – Rayon mərkəzindən 41 kilometr şimal-şərqdə, Ağalı kənd inzibati ərazi dairəsində, Həkəri çayının sol sahilində, dəniz səviyyəsindən 450 metr yüksəklikdə yerləşən kənd. Yaşayış məntəqəsi 1993-cü ildə erməni hərbi qüvvələri tərəfindən işğal edilmişdi. Kənd *28 oktyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad olunmuşdur. Tarixi sənədlərdən aydın olur ki, ***ağalı*** etnotoponimdir. Yerli məlumata görə, kəndin adı vaxtilə onun əsasını qoymuş üç qardaşdan biri olan ***Ağəli*** adlı şəxsin adından götürülmüşdür. Yerli əhali ***Birinci Ağalı*** kəndinə ***Baş Ağalı***, İkinci Ağalı kəndinə ***Orta Ağalı***, Üçüncü Ağalı kəndinə isə ***Böyük Ağalı*** deyərdilər. Yaşlı nəsil isə bu kəndlərin əsasını qoymuş üç qardaşın adıyla ***Birinci Ağalı*** yaşayış məntəqəsinə ***Ağalı***, İkinci Ağalı yaşayış məntəqəsinə ***Hüseynxanlı (Hüseynbəyli)***, Üçüncü Ağalı yaşayış məntəqəsinə isə ***Alırzalı*** deyirmişlər...

Birinci Alıbəyli – Alıbəyli inzibati ərazi vahidində, rayon mərkəzindən 41 kilometr şərqdə, Həkəri çayının sağ sahilində, Həkəri – Xocahan yolu üstündə, Bərgüşad silsiləsinin ətəyində, dəniz səviyyəsindən 750 metr yüksəklikdə yerləşən kənd. *27 oktyabr 1993-cü il* tarixdə yaşayış məntəqəsi erməni işğalçı qüvvələri tərəfindən zəbt edilmişdi. Kənd *25 oktyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad olunmuşdur. ***Birinci Alıbəyli*** (***Əlibəyli***) kəndini Ağdam rayonunun ***Alıbəyli*** (***Əlibəyli***) kəndindən köçüb gələn ailələr (*17 ailə*) saldığına görə, kənd belə adlanmışdır. Kəndin ərazisi əvvəllər ***Əlibəyli*** kəndinin yaylaq yeri olub. Sonralar həmin kənddən köçüb gəlmiş ailələr bu yaylaq yerində məskunlaşmış, yeni kəndə də öz adlarını vermişlər. *Əlibəylilər* ***tərəkəmə*** elatının tirəsi hesab olunur.

Birinci Muğanlı – Rayon mərkəzindən 14 kilometr şimal-qərbdə, Böyük Gilətağ kənd inzibati ərazi vahidində, Araz çayının sol sahilində, Həkəri çayının sağ sahilində, dəniz səviyyəsindən 900 metr yüksəklikdə yerləşən kənd. Yaşayış məntəqəsi ***27 oktyabr 1993-cü il*** tarixdə erməni hərbi birləşmələri tərəfindən işğal edilmişdi. Kənd 2020-ci ilin oktyabrında erməni işğalçılarından azad olunmuşdur. Kəndin ərazisində *Arpa dərəsi, At yalı, Babaylı düşən düzü, Daşlı yer, Davalı dərə, Düz aşağı, Əli qayası, Günəş piri, Qara qaya, Qəbiristanlıq dərəsi, Niftəli dərəsi, Sarı burun təpəsi, Səhliyalı dərəsi, Süsən çayı, Süsən dağı, Şəfli dərə, Şıxəli dərəsi* və s. coğrafi adlar qeydə alınmışdır. ***Muğanlı*** yaşayış məntəqəsini Cənubi Azərbaycanın ***Muğanlı*** kəndindən gəlmiş ailələrin nəsilləri

saldığına görə, kənd belə ad almışdır. Yerli məlumata görə, *Muğanlı* kəndindən köçüb gələn ailələr əsasən *Mollahəsənli, Mehdili* və *Cabbarlı* nəsillərindən ibarət olmuşlar. Toponimi ***muğ*** komponenti ilə də bağlayanlar var. Herodot və Hekati Miletski Muk tayfasının adını çəkmişlər. Bir qisim tədqiqatçılar ***Muğan*** sözünü miladdan öncə VI yüzillikdə yaşamış ***muk*** (***muğlar***) soyunun (*Herodot da bunu qeyd etmişdir*) adı ilə bağlayırlar. Bəziləri ***muğ*** komponentini "atəşpərəst" mənası ilə izah edir. Toponimi VI əsr hun sərkərdəsi olan ***Muqan xanın*** adı ilə əlaqələndirənlər də var. Əksər araşdırıcıların fikrincə, Muğan sözü ***muğ*** komponentindən və *cəmlik*, *məkan* ifadə edən ***-an*** sonluğundan ibarətdir. ***Muğan*** sözü Azərbaycan dilinin kökündə dayanan toponimdir. ***Muğanlı*** oykonimi türk mənşəli ***muğanlı*** etnonimi əsasında əmələ gəlmişdir. Zəngilan rayonunun ***Muğanlı kəndi*** türkdilli azərbaycanlı tayfası olan muğanlıların adı ilə bağlıdır. Türkdilli ***azərbaycanlı*** tayfası olan ***muğanlılar*** Muğanda ta qədimdən yaşamışlar. ***Muğanlı*** tayfa adı kimi XVI əsrin əvvəllərindən məlumdur. Onların bir hissəsi sonralar Şahsevənlərin tərkibinə daxil olmuşdur. XIX əsrin ortalarında əsasən 8 tirədən ibarət olan ***Muğanlılar*** Cavad qəzasında da məskunlaşmışdılar. Mil**-**Muğan tərəkəmələri iki qola ayrılır. Birinci qol ***təklələr*** adlanır. İkinci qola isə ***Muğanlı*** deyilir. Məlumdur ki, mənbələrdə 393**-**cü ildə ***Muğan*** düzünün adı çəkilmişdir. Bir sıra mənbələrdə XI – XIII əsrlərdə ***Muğan*** adlı şəhərin olması da göstərilmişdir. Azərbaycanda ***Muğan*** adlı şəhər də olmuşdur. Orta əslərdə baş verən tarixi hadisələrlə əlaqədar olaraq ***muğanlılar*** müxtəlif ərazilərə səpələnmişlər. *Muğanlı* tayfaları tarixən yaylaq-qışlaq maldarlığı ilə məşğul olmuşlar. Onların qışlaqları əsasən Xəzər sahillərində yerləşirdi. Araz çayı ətrafının düzən sahillərində olan otlaqlar isə Osmanlı zonasına daxil idi. *Rusiya-Osmanlı* sərhəd razılaşmalarından sonra şahsevən və muğanlıların böyük hissəsi osmanlı zonasında qalmışdır. Osmanlı hökuməti onların tayfa hakimi olan Səfiqulu xanı öz vəzifəsində təsdiq etmişdir; ancaq müğanlılar və şahsevənlərin üzərinə vergilər qoyaraq onların narazılığına səbəb olmuşdur. XVIII əsrin ikinci yarısında muğanlıların bir qolu şahsevənlərin tərkibində müstəqil tayfa kimi qeyd olunmuşdur.

Böyük Gilətağ – Gilətağ inzibati ərazi vahidində, rayon mərkəzindən 18 kilometr məsafədə, Bərgüşad silsiləsinin ətəyində, dəniz səviyyəsindən 900 metr yüksəklikdə, Araz çayının sol qollarından biri olan Oxçuçayın sol sahilindən 10 km aralıda, Süsən dağı yaxınlığında yerləşən kənd. Yaşayış məntəqəsi *27 oktyabr 1993-cü il* tarixdə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdi. Kənd *2 noyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad olunmuşdur. ***Böyük Gilətağ*** kəndinin keçmiş adı ***İydəli Gilətağ*** olub. Bəzi sənədlərdə yaşayış məntəqəsinin adına ***Böyük Gülyataq*** şəklində də rast gəlmək olur. XIX əsrə aid olan bəzi mənbələrdə kəndin adı ***Kirətağ*** (***Girətağ***) kimi də qeyd olunmuşdur. Kənd ərazisi *Xocahan* (Qubadlı rayonu) bəylərinə məxsus olub. ***Girətağ*** (***Gilətağ***) kəndinin yararlı əkin sahəsi az olduğu üçün onun camaatı vaxtilə bu ərazini Xocahan bəylərindən almış və kol-kosdan təmizləyərək əkin yerinə çevirmişlər. XIX əsrin ortalarında ***Girətağdan*** bəzi ailələr köçüb həmişəlik burada məskunlaşmışlar. Yeni yaşayış məntəqəsi də keçmiş kəndin adı ilə adlanmışdır.

Bursalılar – Vaxtilə Zəngilan rayonunda, indiki Aşağı Gəyəli kəndi ilə Ermənistan Respublikasının arasında, dağətəyi ərazidə, meşəlik sahədə mövcud olmuş kənd. 1930**-**cu illərdə sovet hökumətinin uğursuz kolxoz quruculuğu planı (*kəndləri birləşdirməklə iri kolxoz təsərrüfatları yaratmaq*) ilə əlaqədar olaraq ***Bursalılar kəndi*** xarabalığa çevrilmişdir.

Bürünlu – Rayon mərkəzindən 20 kilometr məsafədə, Oxçuçayın sahilində, dağətəyi ərazidə yerləşən kənd. Yaşayış məntəqəsi erməni hərbi qüvvələri tərəfindən işğal edilmişdi. Kənd 2020-ci ilin oktyabrında erməni işğalçılarından azad olunmuşdur. Bəzi sənəd və materiallarda yaşayış məntəqəsinin adı ***Burunlu*** kimi də yazılır. ***Bürünlu*** kəndini *dərzili* tayfasına mənsub olan ailələr

salmışlar. Yaşayış məntəqəsi Zəngəzur silsiləsində Xüstub dağının tirələrindən birinin ***burun*** hissəsində yerləşdiyinə və *buruna* oxşadığına görə belə adlanmışdır. Yerli əhali ***Bürünlu*** kəndinin adını ***Büründü/Bürünlü*** kimi də tələffüz edir.

Cahangirbəyli – Cahangirbəyli kənd inzibati ərazi vahidində, Oxçuçayın sahilində, Oxçuçayın Araza qovuşduğu yerin yaxınlığında, rayon mərkəzindən 11 kilometr cənub-şərqdə, Bakı – İrəvan dəmiryolu kənarında, Horadiz – Mehri şose yolu üstündə, dəniz səviyyəsindən 1350 metr yüksəklikdə yerləşən kənd. Yaşayış məntəqəsi *27 oktyabr 1993-cü il* tarixdə erməni hərbi qüvvələri tərəfindən işğal edilmişdi. Kənd *21 oktyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad olunmuşdur. ***Cahangirbəyli*** yaşayış məntəqəsini XIX əsrdə keçmiş ***Tərəkəmə*** (*indiki* ***Məmmədbəyli kəndi***) kəndindən köçüb gəlmiş ***Cahangir bəy*** adlı şəxs bina etdirdiyi üçün onun adı ilə adlandırılmışdır. Bəzi fikirlərə görə, ***Cahangir bəy*** Uzun Həsənin nəslindən olmuşdur. Antroponimdə əksini tapmış ***Cahangir bəy*** ilə kənd əhalisinin qohumluq əlaqəsi yoxdur. Bəzi məlumata görə, ***Cahangir bəy*** buraya gələnə qədər də ərazidə əhali yaşamışdır. Belə ki, indi də kəndin böyük bir hissəsi ***Cavadbəyli*** adlanır. Kənd ərazisində Şahnisə yeri, Şirinbəy arxı və s. mikroobyektlərin mövcudluğu da bunu deməyə əsas verir. Yaşayış məntəqəsinin ərazisindəki qəbiristanlıqda qoç formalı bir abidə, yanında isə üzərində naməlum yazılar olan daş lövhə mövcud olmuşdur. Bu qoç formalı abidəyə əsasən kəndin qədim yaşayış məntəqəsi olması fikrini irəli sürmək olar. Çünki heyvan formalı bu tipli abidələr İslamdan qabaqkı dövrləri əhatə edir. Deməli, kəndin ən azı 1300 il yaşı vardır.

Canbar – Canbar inzibati ərazi vahidində, rayon mərkəzindən 30 kilometr şimal-qərbdə, dəniz səviyyəsindən 1200 metr yüksəklikdə, dağətəyi ərazidə, Ermənistanın Qafan rayonu ilə sərhəddə, Zəngilan – Qafan şose yolu üzərində, Bakı – Qafan dəmiryolunun kənarında yerləşən kənd. Yaşayış məntəqəsi *10 dekabr 1992-ci il* tarixdə erməni hərbi qüvvələri tərəfindən işğal edilmişdi. Kənd 2020-ci ilin oktyabrında erməni işğalçılarından azad olunmuşdur. İnqilaba qədər (*1917-ci il*) olan ədəbiyyatlarda toponimin ***Cambar*** formasına da təsadüf edilir. ***Canbar*** yaşayış məntəqəsini *dərzili* tayfasının *azadlı, ələsgərli* və *güllü* tirələrinə mənsub olan ailələr ***Canbar*** adlı ərazidə saldığı üçün toponim belə adlanmışdır. Oykonimi ***Candar*** kimi də yozanlar vardır. Orta əsrlərdə Şərqdə, o cümlədən Azərbaycanda uzun müddət saray vəzifələrindən biri ***candar*** ("*keşikçi, cangüdən, mühafizəçi*" mənasında) olmuşdur. Candarlara saraydakı xidmətlərə görə verilən pay torpaqları onların vəzifə adları ilə adlandırılırdı. Başqa bir dəqiqləşdirilməmiş fikrə görə, toponim ***çənbər*** sözündən olub, "*dairə*" mənasındadır. Yerə isə bu ad relyef formasına görə verilmişdir.

Çanaqçı – Vaxtilə Zəngilan rayonunda, Oxçuçayın sol sahilində, Qaragöl ilə üzbəüz sahədə, dağətəyi ərazidə mövcud olmuş kənd. 1930-cu illərdə sovet hökumətinin uğursuz kolxoz quruculuğu planı (*kəndləri birləşdirməklə iri kolxoz təsərrüfatları yaratmaq*) ilə əlaqədar olaraq ***Çanaqçı kəndi*** xarabalığa çevrilmişdir.

Çöpədərə – Çöpədərə inzibati ərazi vahidində, rayon mərkəzindən 19 kilometr cənub-qərbdə, Horadiz – Mehri şose yolundan 3 kilometr aralıda, Sobu çayının üst tərəfində, dağətəyi düzənlikdə yerləşən kənd. Yaşayış məntəqəsi 1993-cü ildə erməni hərbi qüvvələri tərəfindən işğal olunmuşdu. İşğadan sonra ermənilər kəndin adını dəyişərək ***Tsabatzor*** qoymuşdular. Kənd *22 oktyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad edilmişdir. Bəzi sənəd və materiallarda yaşayış məntəqəsinin adı ***Çəpədərə*** kimi də yazılır. Yerli əhalinin verdiyi məlumata görə, yaşayış məntəqəsi Cənubi Azərbaycanda olan ***Çöpədərə*** kəndindən köçüb gəlmiş ailələr tərəfindən salındığına görə belə adlanmışdır. ***Çöpədərə*** toponimi "*payız otlağı olan dərə*" mənasındadır. Toponimi başqa prizmadan da izah edən araşdırıcılar vardır. Onlara görə, oykonim ***çəp*** və ***dərə***

sözlərindən düzəlmişdir. ***Çəp*** sözünün türk dillərində "*xırda daşlı və qumlu yer*", "*bitkisiz dağ yamacı*" və s. anlamları vardır.

Çuxuryurd – Vaxtilə Zəngilan rayonunda, Əsgülüm dağının ətəyində, dağətəyi ərazidə, meşəlik sahədə mövcud olmuş kənd. 1930-cu illərdə sovet hökumətinin uğursuz kolxoz quruculuğu planı (*kəndləri birləşdirməklə iri kolxoz təsərrüfatları yaratmaq*) ilə əlaqədar olaraq ***Çuxuryurd kəndi*** xarabalığa çevrilmişdir. Əvvəllər yaylaq yeri olmuş bu yaşayış məntəqəsi ***çuxurda***, çökəklikdə yerləşdiyi üçün belə adlandırılmışdır.

Dəlləkli – Çöpədərə inzibati ərazi vahidində, rayon mərkəzindən 17 kilometr cənub-qərbdə, dağətəyi ərazidə, Bakı-Naxçıvan dəmir yolu və Bakı-Mehri şose yolu kənarında yerləşən kənd. Yaşayış məntəqəsi *27 oktyabr 1993-cü il* tarixdə erməni hərbi qüvvələri tərəfindən işğal edilmişdi. İşğadan sonra ermənilər kəndin adını dəyişərək ***Dalk*** qoymuşdular. Kənd *22 oktyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad olunmuşdur. ***Dəlləkli*** yaşayış məntəqəsi *dəlləkli* nəslinə mənsub olan ailələr saldığı üçün oykonim belə adlanmışdır. Bəzi yerli məlumata görə, kəndin əsasını cənubdan gələn nəsillər qoymuşlar. Keçmiş zamanlarda *Mərzili* və *Ərəbbaloğlan* icmalarının tərkibində ***dəlləkli*** tirəsi də qeydə alınmışdır. ***Dəlləkli*** etnotoponimdir. ***Dəlləkli*** oykonimi yaşayış məntəqəsinin başqa bir adı olan ***Güman Dəlləkli*** ilə bağlıdır.

Dərə Gilətağ – Gilətağ inzibati ərazi vahidində, rayon mərkəzindən 19 kilometr şimal-şərqdə, dağlıq ərazidə, dəniz səviyyəsindən 800 metr yüksəklikdə, Bərgüşad silsiləsinin, Süsən dağının ətəyində yerləşən kənd. Yaşayış məntəqəsi *27 oktyabr 1993-cü il* tarixdə erməni hərbi qüvvələri tərəfindən işğal edilmişdi. Kənd *2 noyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad olunmuşdur. Yaşayış məntəqəsini 1918-ci ildə ***Böyük Gilətağ*** kəndindən gəlmiş ailələr salmışdır. ***Dərə Gilətağ*** kəndinin adı ***dərə*** (*çökək*) və ***Gilətağ*** (*kənd adı*) sözlərindən ibarət olub, "*dərədə, çökəkdə yerləşən Gilətağ kəndi*" mənasındadır.

Dərəli – Rayon mərkəzindən 34 kilometr məsafədə, Canbar inzibati ərazi vahidində, dağətəyi ərazidə, dəniz səviyyəsindən 1200 metr yüksəklikdə yerləşən kənd. Yaşayış məntəqəsi *10 dekabr 1992-ci il* tarixdə erməni hərbi qüvvələri tərəfindən işğal olunmuşdu. Kənd *2 noyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad edilmişdir. Kənd iki təpənin arasında - ***dərədə*** yerləşdiyi üçün belə adlandırılmışdır. Bu yaşayış məntəqəsi 2000-ci ilə qədər *Qazançı* kəndinin tərkibində olmuşdur.

Əmirxanlı – Vejnəli inzibati ərazi vahidində, rayon mərkəzindən 34 kilometr cənub-qərbdə, *Mincivan – Mehri* şose yolunun sağında, dağlıq ərazidə, dəniz səviyyəsindən 800 metr yüksəklikdə, Araz çayı sahilindən 2 kilometr aralıda yerləşir. Yaşayış məntəqəsi *27 oktyabr 1993-cü il* tarixdə erməni hərbi qüvvələri tərəfindən işğal olunmuşdu. İşğadan sonra ermənilər kəndin adını dəyişərək ***Artsaxhamayr*** qoymuşdular. Kənd *22 oktyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad olunmuşdur. Yaşayış məntəqəsinin keçmiş adı ***Püşənli*** olub. Yerli əhalinin məlumatlarına əsasən, ***Əmirxanlı*** yaşayış məntəqəsini XIX əsrdə ***püşənli*** tayfasından olan ***Əmirxan*** adlı bir şəxs salmışdır. Bəzi tədqiqatçılar kəndin adını Şahsevənlərin ***əmirxanlı*** tirəsi ilə əlaqələndirirlər.

Əriklik – Vaxtilə Zəngilan rayonunda, indiki Babaylı kəndinin yaxınlığında, dağətəyi ərazidə, meşəlik sahədə mövcud olmuş kənd. 1930-cu illərdə sovet hökumətinin uğursuz kolxoz quruculuğu planı (*kəndləri birləşdirməklə iri kolxoz təsərrüfatları yaratmaq*) ilə əlaqədar olaraq ***Əriklik kəndi*** xarabalığa çevrilmişdir.

Əsgərli – Vaxtilə Zəngilan rayonunda, indiki Keçikli kəndi ilə Beşdəli kəndinin arasında, dağətəyi ərazidə, meşəlik sahədə mövcud olmuş kənd. 1930-cu illərdə sovet hökumətinin uğursuz kolxoz quruculuğu planı (*kəndləri birləşdirməklə iri kolxoz təsərrüfatları yaratmaq*) ilə əlaqədar olaraq ***Əsgərli kəndi*** xarabalığa çevrilmişdir.

Genanlı – Vaxtilə Zəngilan rayonunda, Hacallı kəndinin yaxınlığında, dağətəyi ərazidə, meşəlik sahədə mövcud olmuş kənd. 1930-cu illərdə sovet hökumətinin uğursuz kolxoz quruculuğu planı (*kəndləri birləşdirməklə iri kolxoz təsərrüfatları yaratmaq*) ilə əlaqədar olaraq ***Genanlı kəndi*** xarabalığa çevrilmişdir.

Genlik – Zəngilan şəhər inzibati ərazi vahidində, rayon mərkəzindən 5 kilometr məsafədə, Oxçu çayının sol sahilində, dağətəyi ərazidə, dəniz səviyyəsindən 500 metr yüksəklikdə yerləşən kənd. ***Genlik kəndi*** 1993-cü ilin oktyabrında erməni hərbi qüvvələri tərəfindən işğal edilmişdi. Kənd *22 oktyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad olunmuşdur. Yaşayış məntəqəsi öz adında kəndin salındığı ***Genlik*** adlanan ərazinin, yerin adını yaşadır. ***Genlik*** toponimi "*geniş yer*", "*geniş sahə*", "*gen ərazi*" mənasını bildirir.

Gəyəli – Şayıflı kənd inzibati ərazi dairəsinin tabeliyində, rayon mərkəzindən 24 kilometr şimalda, dəniz səviyyəsindən 1400 metr yüksəklikdə, dağətəyi ərazidə yerləşən kənd. Yaşayış məntəqəsi erməni hərbi qüvvələri tərəfindən işğal edilmişdi. Kənd 2020-ci ilin oktyabrında erməni işğalçılarından azad olunmuşdur. Yerli əhali kəndi ***Aşağı Göyəli*** adlandırır. Yaşayış məntəqəsi XVI – XVII əsrlərdə Anadoluda, Van gölündən şərqdə yaşamış ***Mahmudlu*** tayfasının ***Gəgəli*** (***Gigili***) tirəsinin sonralar Zəngəzurda məskunlaşması nəticəsində yaranmış kəndlərdəndir. Araşdırıcıların bir qismi ***Göyəli*** toponimini türkdilli ***gəyəli*** (***göyəli***, ***gəkəli***) tayfasının adı ilə də bağlayırlar. Bəzi araşdırıcılar toponimi ***Göylər*** oykonimi ilə əlaqələndirirlər. Məlumdur ki, *səlcuq* oğuzlarının *salor* tayfasına mənsub olan tirələr içərisində ***göglər*** qolunun da adı çəkilir.

Gəzərəxun – Vaxtilə Zəngilan rayonunda, Süsən dağının quzey tərəfində, Seyidlər kəndinin yaxınlığında, dağətəyi ərazidə, meşəlik sahədə mövcud olmuş kənd. 1930-cu illərdə sovet hökumətinin uğursuz kolxoz quruculuğu planı (*kəndləri birləşdirməklə iri kolxoz təsərrüfatları yaratmaq*) ilə əlaqədar olaraq ***Gəzəraxun kəndi*** xarabalığa çevrilmişdir.

Gilətağ – *Bax*: **Böyük Gilətağ, Dərə Gilətağ.**

Günqışlaq – Canbar inzibati ərazi vahidində, rayon mərkəzindən 35 kilometr şimal-qərbdə, Ermənistan sərhədi yaxınlığında, dağətəyi ərazidə, dəniz səviyyəsindən 1200 – 1300 metr yüksəklikdə yerləşən kənd. Yaşayış məntəqəsi *10 dekabr 1992-ci il* tarixdə erməni hərbi qüvvələri tərəfindən işğal edilmişdi. Kənd 2020-ci ilin oktyabrında erməni işğalçılarından azad olunmuşdur. ***Günqışlaq*** kəndinin əsl adı ***Güneyqışlaq*** formasında olmalıdır. Yaşayış məntəqəsinin keçmiş adı ***Düşmənli*** olub.

Hacallı – Hacallı inzibati ərazi vahidində, rayon mərkəzindən 27 kilometr şərqdə, Araz çayının sol sahilində, *Bakı – Naxçıvan* dəmiryolu yaxınlığında, düzənlik ərazidə, İran İslam Respublikası ilə sərhəddə yerləşən kənd. Kəndin adı sənədlərdə bəzən ***Hacıalılı*** və ya ***Hacılı*** kimi də qeyd olunur. Yaşayış məntəqəsi *27 oktyabr 1993-cü il* tarixdə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdi. Kənd *21 oktyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad olunmuşdur. Oykonim şəxs adı ilə bağlı olub, "*Hacı Alının kəndi*", "*Hacı Alılılar, Hacı Alıgillər*" anlamını ifadə edir. Yerli məlumata görə, yaşayış məntəqəsi ***Həcc*** ziyarətindən gələn zəvvarın dəfn edildiyi yer olduğu üçün əvvəllər ***Hacılar***, sonralar isə ***Hacallı*** adlandırılmışdır.

Hacısünmi – Vaxtilə Zəngilan rayonunda, indiki Ördəkli kəndi ilə Şəfibəyli kəndinin arasında, dağətəyi ərazidə, meşəlik sahədə mövcud olmuş kənd. 1930-cu illərdə sovet hökumətinin uğursuz kolxoz quruculuğu planı (*kəndləri birləşdirməklə iri kolxoz təsərrüfatları yaratmaq*) ilə əlaqədar olaraq ***Hacısünmi kəndi*** xarabalığa çevrilmişdir.

Havalı – Zərnəli inzibati ərazi vahidində, rayon mərkəzindən 33 kilometr şərqdə, Araz çayının sahilində, düzənlik ərazidə yerləşən kənd. Yaşayış məntəqəsi 1993-cü ildə erməni hərbi birləşmələri tərəfindən işğal olunmuşdu. Kənd *20 oktyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad olunmuşdur. Yerli məlumata görə, ***Havalı*** yaşayış məntəqəsini XIX əsrdə Cənubi Azərbaycandan gəlmiş ***Həvva*** **(*Hava*)** adlı bir qadının övladları bina etdiyi üçün kənd belə adlandırılmışdır. Yerli əhali ***Həvva*** adının tələffüz formasını ***Hava*** kimi səsləndirir. Azərbaycan toponimiyasında ***Havalı*** oykonimini "*yaxşı iqlimli*" mənasında işlənən ***yelli*** topokomponentinin sinonimi kimi də qəbul etmək olar.

Həkəri qəsəbəsi – Hacallı (*Hacıalılı*) inzibati ərazi vahidində, rayon mərkəzindən 30 kilometr məsafədə, Bakı – Naxçıvan dəmir yolu xəttinin kənarında, Gəyən çölündə, Həkəri çayının Araza töküldüyü yerə yaxın (*2,5 km*) ərazidə yerləşən yaşayış məntəqəsi. ***Həkəri kəndi*** 1977-ci ildə ***qəsəbə*** statusu alıb. Yaşayış məntəqəsi ***27 oktyabr 1993-cü il*** tarixdə erməni işğalçı qüvvələri tərəfindən zəbt edilmişdi. Kənd 20 oktyabr 2020-ci il tarixdə erməni işğalçılarından azad olunmuşdur. Qəsəbənin ərazisində *Ağ təpə, Hüseyn bulağı* və s. coğrafi adlar qeydə alınmışdır. Yaşayış məskəni 1950-ci illərdə ***Həkəri*** dəmiryol stansiyası yaxınlığında salınmış və həmin stansiyanın adı ilə adlanmışdır. Oykonim ***Həkəri*** çayının adı ilə bağlıdır. Alban tarixçisi Musa Kalankatlı *Babək hərəkatı* ilə əlaqədar 831– 832-ci illər hadisələrindən bəhs edərkən ***Həkəri*** adlı yerin (*qalanın*) adını çəkmişdir. Həmin qala hazırda ***Qalacıq*** adlanır. Bəzi araşdırıcılara görə, ***Həkəri*** adı ilə bağlı toponimlər ***Həkəri*** tayfasının adı ilə bağlıdır. ***Həkəri qəsəbəsi*** adına bəzən ***Akara*** (***Əkərə***) da deyirlər. Əvvəllər adı sənədlərdə bəzən ***Akara*** kimi də qeyd olunurdu.

Hənəzor – Vaxtilə Zəngilan rayonunda qeydə alınmış oykonim və oronim. Həmin ərazidə ***Hənəzor dərəsi***, ***Hənəzor piri*** coğrafi adları da qeydə alınmışdır. Bəzən bu coğrafi ad sənədlərdə ***Hənəzur*** kimi də yazılmışdır. Əslində adı ***Hunzor*** olmalıdır. Azərbaycan xalqının etnogenezində ***hunlar*** iştirak etmişdir. Qafqaz Albaniyası ərazisində vaxtilə mövcud olmuş *Xunan* şəhərinin adı da ***Hun*** tayfasının adı ilə əlaqədardır.

Xanəhmədli – vaxtilə Zəngilan rayonunda, indiki Ağakişilər kəndinin yaxınlığında, dağətəyi ərazidə, meşəlik sahədə mövcud olmuş kənd. 1930-cu illərdə sovet hökumətinin uğursuz kolxoz quruculuğu planı (*kəndləri birləşdirməklə iri kolxoz təsərrüfatları yaratmaq*) ilə əlaqədar olaraq ***Xanəhmədli kəndi*** xarabalığa çevrilmişdir.

Xınzır – Vaxtilə Zəngilan rayonunda, indiki Rəzdərə kəndindən bir neçə kilometr yuxarıda, dağətəyi ərazidə, meşəlik sahədə mövcud olmuş kənd. 1930-cu illərdə sovet hökumətinin uğursuz kolxoz quruculuğu planı (*kəndləri birləşdirməklə iri kolxoz təsərrüfatları yaratmaq siyasəti*) ilə əlaqədar olaraq xarabalığa çevrilmişdir.

Xumarlı – Alıbəyli inzibati ərazi vahidində, rayon mərkəzindən 35 kilometr şimal-şərqdə, Həkəri çayının sahilində, Həkəri – Qubadlı şose yolunun üstündə, dəniz səviyyəsindən 750 metr yüksəklikdə yerləşən kənd. *27 oktyabr 1993-cü il* tarixdə bu yaşayış məntəqəsi erməni hərbi birləşmələri tərəfindən işğal edilmişdi. Kənd *21 oktyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad olunmuşdur. Yaşayış məntəqəsinin adı ***qumar*** tayfasına mənsub olan ailələrin müəyyən tarixi hadisələrlə əlaqədar Azərbaycan ərazisində məskunlaşması nəticəsində yaranmışdır. Başqa bir fikrə görə isə, etnonim ***Xumar*** şəxs adı ilə bağlıdır.

Xurama – Hacallı inzibati ərazi vahidində, rayon mərkəzindən 23 km aralıda, Araz çayı sahilində, düzənlik ərazidə yerləşən kənd. *27 oktyabr 1993-cü il* tarixdə bu yaşayış məntəqəsi erməni hərbi birləşmələri tərəfindən işğal olunmuşdu. Kənd *21 oktyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad edilmişdir. ***Xurama*** yaşayış məntəqəsini XVIII əsrdə Cənubi Azərbaycanın ***Xurama*** kəndindən gəlmiş ailələr saldığı üçün belə adlanmışdır. Çox güman ki, oykonim ***Xürrəmilər hərəkatı*** ilə bağlı olaraq belə ad almışdır. Yerli əhalinin verdikləri məlumatlardan da aydın oldu ki, ***Xurama*** kəndinin yerləşdiyi ərazi vaxtilə *Babək Xürrəminin* dayaq məntəqələrindən biri olmuşdur. Görünür ***Xürrəmi*** sözü bir qədər assimilyasiyaya məruz qalaraq ***Xurama*** sözünə çevrilmişdir.

İçəri Muşlan – Rayon mərkəzindən 5 kilometr cənubda, Zəngilan şəhər inzibati ərazi vahidində, Oxçuçayın sol sahilində, dağətəyi ərazidə, dəniz səviyyəsindən 400 metr yüksəklikdə yerləşir. Kəndin adı bəzən sənədlərdə ***İçəri Müşlan*** kimi də qeyd edilir. Yaşayış məntəqəsi *28 oktyabr 1993-cü il* tarixdə erməni hərbi birləşmələri tərəfindən işğal edilmişdi. Kənd *21 oktyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad olunmuşdur. Oykonimi qədim türkdilli ***muş*** tayfasının adı ilə əlaqələndirənlər vardır. Kəndin keçmiş adı ***Muşlan*** olub. Yaşayış məntəqəsini vaxtilə Türkiyənin ***Muş*** əyalətindən köçüb gəlmiş ailələr saldığına görə belə adlandırılmışdır. Bu kənddən çıxmış ailələr Oxçu çayının sağ sahilində ***Qıraq Muşlan*** kəndini saldıqdan sonra buraya ***İçəri Muşlan*** (yəni, *iç Muşlan, əsas Muşlan*) deyilmişdir.

İkinci Ağalı – Ağalı inzibati ərazi vahidində, rayon mərkəzindən 40 km şərqdə, Həkəri çayının sahilində, dağətəyi ərazidə yerləşən kənd. ***İkinci Ağalı*** yaşayış məntəqəsi 1993-cü ildə erməni hərbi birləşmələri tərəfindən işğal olunmuşdu. Kənd *28 oktyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad olunmuşdur. Kəndin keçmiş adı ***Hüseynxanlı (Hüseynbəyli)*** olub. Yerli əhali arasında kəndə ***Orta Ağalı*** da deyilir. Kəndin əsasını qoyan ***Ağalı*** nəsli olmuşdur. Sonralar qonşuluqda yerləşən ***Birinci Ağalı*** kəndinin adı bu kəndə aid edilmişdir.

İkinci Alıbəyli – Rayon mərkəzindən 39 kilometr şərqdə, Bərgüşad silsiləsinin ətəyində, dəniz səviyyəsindən 750 metr yüksəklikdə, Həkəri çayının sağ sahilində, Zəngilan – Qubadlı şose yolu yaxınlığında yerləşən kənd. Yaşayış məntəqəsi *27 oktyabr 1993-cü il* tarixdə erməni hərbi birləşmələri tərəfindən işğal edilmişdi. Kənd *25 oktyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad olunmuşdur. Kəndin keçmiş adı ***Balabəyli*** olub. Bəzən yerli əhali kəndə ***İkinci Alıbəyli*** də deyir. Yaşayış məntəqəsi vaxtilə indiki Ağdam rayonunun ərazisində mövcud olmuş ***Alıbəyli*** kəndindən köçüb gəlmiş ailələr tərəfindən salınmış və həmin yaşayış məntəqəsinin adı ilə də adlandırılmışdır. Bu kəndin ərazisi əvvəllər mövcud olmuş həmin kəndin yaylaq yeri olmuşdur. Kəndi ***İkinci Əlibəyli*** (***Alıbəyli***) kəndindən (bu kənd hazırda mövcud deyil) köçüb gəlmiş ailələr salmışdır.

İkinci Muğanlı – Zəngilan rayonunda, rayon mərkəzindən 20 kilometr məsafədə, Hacallı (*Hacıalılı*) kənd inzibati ərazi vahidində, Bakı-Naxçıvan dəmir yol xəttinin kənarında yerləşən kənd. Yaşayış məntəqəsi *27 oktyabr 1993-cü il* tarixdə Ermənistan hərbi birləşmələri tərəfindən işğal edilmişdi. Kənd *20 oktyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad olunmuşdur. ***Muğanlı*** yaşayış məntəqəsini Cənubi Azərbaycanın ***Muğanlı*** kəndindən gəlmiş ailələrin nəsilləri saldığına görə, kənd belə ad almışdır.

İmamqululular – Vaxtilə Zəngilan rayonunda, indiki Saralı Xəştab kəndi ilə Yeməzli kəndinin arasında, dağətəyi ərazidə, meşəlik sahədə mövcud olmuş kənd. 1930-cu illərdə sovet hökumətinin uğursuz kolxoz quruculuğu planı (*kəndləri birləşdirməklə iri kolxoz təsərrüfatları yaratmaq*) ilə əlaqədar olaraq ***İmamqululular kəndi*** xarabalığa çevrilmişdir.

İsgəndərbəyli – İsgəndərbəyli inzibati ərazi vahidində, rayon mərkəzindən 20 kilometr şimal-şərqdə, dağətəyi ərazidə, dəniz səviyyəsindən 1270 metr yüksəklikdə yerləşən kənd. *27 oktyabr 1993-cü il* tarixdə bu yaşayış məntəqəsi erməni hərbi birləşmələri tərəfindən işğal edilmişdi. Kənd *9 noyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad olunmuşdur. Kəndin yaşlı sakinlərinin dediklərinə görə, kəndin bəzi əhalisi əslən ***Gorus*** rayonundan gəlmişdir. Oykonim ***İsgəndər*** şəxs adı ilə əlaqədar yaranmışdır. Kəndin keçmiş adı ***Dəmirçilər*** olub. Belə bir fikir mövcuddur ki, ***İsgəndər bəy*** bu kənddə məskən salmış *dəmirçilər* nəslinin başçısı olmuşdur.

Keçikli – Zəngilan şəhər inzibati ərazi dairəsində, rayon mərkəzindən 12 kilometr şimal-qərbdə, Əsgülüm dağının yamacında, dəniz səviyyəsindən 640 metr yüksəklikdə yerləşən kənd. 1993-cü ildə bu yaşayış məntəqəsi erməni hərbi dəstələri tərəfindən işğal olunmuşdu. İşğaldan sonra ermənilər kəndin adını dəyişərək ***Karatak*** qoymuşdular. Kənd *9 noyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad olunmuşdur. Yerli məlumatlara əsaslanan tədqiqatçıların fikirlərinə görə ***Keçikli*** yaşayış məntəqəsini XIX əsrdə Cənubi Azərbaycandan gəlmiş *məmmədkərimli* tirəsinə və Naxçıvanın Hüsülü kəndinə məxsus ailələr dağda ***keçid*** yerində salmışdır. Yerli məlumata görə, oykonim "*keçid olan yer*" anlamını ifadə edir. Məlumdur ki, Türkmənlərdə ***yersarı*** tayfasının qollarından biri də ***keçili*** adlanırdı. ***Keçili*** tayfası Türkiyədə yörüklər arasında da qeyd olunub. Mənbələrdə oğuz mənşəli *qayı* tayfa birliyinə mənsub olan ***qızılkeçili*** qolundan bəhs olunur.

Kilsəli – Vaxtilə Zəngilan rayonunun ərazisində mövcud olmuş yaşayış məntəqələrindən biri ***Kilsəli*** adlanmışdır. Kənd qədim alban kilsəsi yaxınlığında salındığı üçün belə adlanmışdır. Yerli əhalinin məlumatlarına görə ***Kilsəli kəndi*** 1906-cı ildə birinci erməni-müsəlman davası nəticəsində ermənilər tərəfindən dağıdılmışdır.

Kolluqışlaq – Rəzdərə kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 19 kilometr qərbdə, Bəsitçayın sahilində, dağətəyi ərazidə, meşəlik sahədə, dəniz səviyyəsindən 450 metr yüksəklikdə yerləşən kənd. 1993-cü ildə bu yaşayış məntəqəsi erməni hərbi qüvvələri tərəfindən işğal edilmişdi. İşğaldan sonra ermənilər kəndin adını dəyişərək ***Nerkin Hand*** qoymuşdular. Kənd *22 oktyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad olunmuşdur. Yaşayış məntəqəsinin adı bəzən sənədlərdə ***Kollu*** kimi də qeyd olunur. Oykonim adından da göründüyü kimi, "*kolkos olan yer*" mənasını verir. Yerli sakinlərin məlumatına görə, kəndi 1905 və 1918-ci illərdə Qafandan qovulmuş azərbaycanlılar salmışlar.

Kosakan – Cahangirbəyli inzibati ərazi vahidində, dağətəyi ərazidə yerləşən kənd. 1993-cü ildə bu kənd erməni hərbi qüvvələri tərəfindən işğal edilmişdi. Kənd 2020-ci ilin oktyabrında erməni işğalçılarından azad olunmuşdur. Kəndin keçmişdəki tam adı ***Kosakan Tatar*** olmuşdur. Əhali arasında ***Tatar Kosalar***, ***Əhmədbəy Tatar*** da adlanmışdır. Bəzən sənədlərdə **Tatar** kimi də yazılır. ***Kosakan*** yaşayış məntəqəsini XIX əsrdə *Qubadlı* rayonunun ***Tatar*** kəndindən gəlmiş ailələr ***Kosakan*** adlı ərazidə salmışlar. ***Kosakan*** oykonimi qədim türk dillərindəki ***kosak*** ("*bağlanmış*", "*birləşmiş*") sözündən və ***an*** ("*yer*", "*məkan*") şəkilçisindən düzəlib, insanların oturaq həyata keçməsi ilə əlaqədar yaranmışdır. Bəzi tədqiqatçılara görə, ***Kosakan*** XII əsrdə monqolların Türkiyə ərazisində dağıtdığı ***Kusakan*** şəhərindən gəlmiş ailələrin adı ilə bağlıdır.

Kosakənd – vaxtilə Zəngilan rayonunda mövcud olmuş yaşayış məntəqəsi. Hazırda rayon tabeliyində bu adda kənd yoxdur.

Kotanlar – Vaxtilə Zəngilan rayonunda, Sobu kəndinin yaxınlığında, dağətəyi ərazidə, meşəlik sahədə mövcud olmuş kənd. 1930-cu illərdə sovet hökumətinin uğursuz kolxoz quruculuğu planı (*kəndləri birləşdirməklə iri kolxoz təsərrüfatları yaratmaq*) ilə əlaqədar olaraq ***Kotanlar kəndi*** xarabalığa çevrilmişdir.

Qarababa – Rayon mərkəzindən 20 kilometr məsafədə, eyniadlı inzibati ərazi vahidində, Oxçu çayının sahili yaxınlığında, dağətəyi ərazidə yerləşən kənd. Yaşayış məntəqəsi erməni hərbi qüvvələri tərəfindən işğal edilmişdi. Kənd 2020-ci ilin oktyabrında erməni işğalçılarından azad olunmuşdur. Yerli məlumata görə, *Qarababa kəndi* vaxtilə burada yaşamış ***Qarababa*** adlı şəxsin adını daşıyır.

Qaradərə – Ördəkli kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 19 kilometr qərbdə, Bəsitçayın sahilində, Mincivan – Mehri şose yolundan 4 kilometr şimalda, dağətəyi ərazidə yerləşən kənd. Yaşayış məntəqəsi 1993-cü ildə erməni hərbi qüvvələri tərəfindən işğal olunmuşdu. Kənd *22 oktyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad edilmişdir. Toponimin birinci hissəsini təşkil edən ***qara*** komponenti "*böyük*" mənasındadır. ***Qaradərə kəndi*** rayonun qədim tarixə malik olan kəndlərindəndir. "Dədə Qorqud" dastanında kəndin adı çəkilir.

Qaragöl – Şayıflı inzibati ərazi vahidində, rayon mərkəzindən 15 kilometr şimalda, Oxçuçayın sahili yaxınlığında, Mincivan – Qafan dəmiryolunun sağ tərəfində, dağətəyi ərazidə, dəniz səviyyəsindən 1400 metr şimalda yerləşən kənd. Yaşayış məntəqəsi *10 dekabr 1992-ci il* tarixdə erməni hərbi birləşmələri tərəfindən işğal edilmişdi. Kənd 2020-ci ilin oktyabrında erməni işğalçılarından azad olunmuşdur. ***Qaragöl*** yaşayış məntəqəsi ***Dərzili*** tayfasının keçmiş ***Qaragöl*** adlı qışlaq yerində salınmışdır. Yaşlı kənd sakinlərinin dediklərinə görə, vaxtilə kəndin ərazisində suyu bulanıq olan göl olub və kəndin adı da oradan götürülübdür.

Qaragöz – Ördəkli inzibati ərazi vahidində, rayon mərkəzindən 18 kilometr qərbdə, Bəsitçayın sol sahilində, düzənlik ərazidə, *Tannıcı, Həşimxanlı, Yazı* düzlərinin əhatəsində yerləşən kənd. Yaşayış məntəqəsi erməni işğalçı qüvvələri tərəfindən zəbt edilmişdi. Kənd 2020-ci ilin oktyabrında erməni işğalçılarından azad olunmuşdur. Ehtimallara görə, türkdilli ***qaragözlülər*** tayfası Ön Asiyaya Səlcuqların dövründə gəliblər. Onların adı mənbələrdə XVI əsrdən etibarən çəkilir. Oykonim yerli əhali arasında ***Qarayüz*** kimi də tələffüz olunur.

Qaraşlar – vaxtilə Zəngilan rayonunda, indiki Çöpədərə kəndi ilə Sobu kəndinin arasında, çayın sağ tərəfində, yolun üstündə, dağətəyi ərazidə, meşəlik sahədə mövcud olmuş kənd. 1930-cu illərdə sovet hökumətinin uğursuz kolxoz quruculuğu planı (*kəndləri birləşdirməklə iri kolxoz təsərrüfatları yaratmaq*) ilə əlaqədar olaraq ***Qaraşlar kəndi*** xarabalığa çevrilmişdir.

Qarqulu – Bartaz inzibati ərazi vahidində, rayon mərkəzindən 29 km cənub-qərbdə, Mehri silisiləsinin ətəyində, dəniz səviyyəsindən 555 metr yüksəklikdə yerləşən kənd. 1993-cü ildə yaşayış məntəqəsi erməni işğalçı qüvvələri tərəfindən işğal edilmiş, *22 oktyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad olunmuşdur. İşğaldan sonra ermənilər kəndin adını dəyişərək ***Boradutağ*** qoymuşdular. Yerli məlumata və bəzi tədqiqatçıların fikrinə görə, ***Qarqulu*** yaşayış məskənini XIX əsrdə Naxçıvanda mövcud olmuş ***Qarqulu*** kəndindən gələn ailələr salmışlar. Yaşayış məntəqəsinin adı çox güman ki, ***qarqu*** (*qamış*) sözü ilə əlaqədardır.

Qazançı – Canbar inzibati ərazi vahidində, rayon mərkəzindən 38 kilometr şimal-qərbdə, dağlıq ərazidə, dəniz səviyyəsindən 1350 metr yüksəklikdə, Qafan rayonu ilə sərhəddə yerləşən kənd. Yaşayış məntəqəsi *10 dekabr 1992-ci il* tarixdə erməni hərbi qüvvələri tərəfindən işğal edilmişdi. Kənd 2020-ci ilin oktyabrında erməni işğalçılarından azad olunmuşdur. Yerli sakinlərin məlumatına görə, kəndin adı ***Qazan*** xanın adı ilə bağlıdır. Bəzi araşdırıcıların fikrinə görə, ***Qazançı*** oykonimi bulqar türklərinin ***Kazan*** (***Qazan***) tayfasının adı ilə bağlıdır. Toponim türkdilli qədim bulqarların ***kazan***(***qazan***) tayfasının adını özündə əks etdirir. Tarixdən məlumdur ki, ***Qazan*** tayfası ilk dəfə m. ö. II əsrdə bulqarların tərkibində Zaqafqaziyaya gəliblər. ***Kazanlar/qazanlar*** eramızın ilk əsrlərində hunların, sonralar suvar və avarların, daha sonralar isə xəzərlərin tərkibində Azərbaycana gələrək burada məskunlaşmışlar. XIII – XIV əsrlərdə qıpçaqların tərkibində ***qazan*** tayfasının olduğu da göstərilir.

Qıraq Muşlan – Zəngilan kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 4 kilometr cənubda, Oxçu çayının sahilində, Zəngilan – Mincivan şose yolunun sağ tərəfində, dağətəyi ərazidə, dəniz səviyyəsindən 400 metr yüksəklikdə yerləşir. Bəzən sənədlərdə yaşayış məntəqəsinin adı ***Qıraq Müşlan kəndi*** şəklində də qeyd olunur. Qıraq Muşlan kəndi *28 oktyabr 1993-cü il* tarixdə erməni hərbi qüvvələri tərəfindən işğal olunmuşdu. Kənd *21 oktyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad edilmişdir. Kəndin adı bəzən ***Qıraq Müşlan*** kimi də qeyd olunur. Oykonim ***Qıraq*** və ***Muşlan*** sözlərindən ibarətdir. ***Qıraq Muşlan*** kəndini ***İçəri Muşlan*** kəndindən ayrılmış (***qırağa*** *çıxmış*) ailələr saldığına görə, toponim belə ad almışdır. Bəzi araşdırıcılar oykonimi qədim ***muş*** türk tayfalarının adı ilə əlaqələndirirlər. Başqa bir versiyaya görə isə, toponimin izahı Culfa ilə Ordubad arasında olan *Gilan* xarabalıqlarından bura köç etmiş tayfalarla əlaqəlidir.

Quyudərəxəştab – Rayon mərkəzindən 26 kilometr məsafədə, Qarababa inzibati ərazi vahidində, dağətəyi ərazidə, dəniz səviyyəsindən 1900 metr yüksəklikdə yerləşən kənd. *27 oktyabr 1993-cü il* tarixdə ***Quyudərəxəştab kəndi*** erməni işğalçı qüvvələri tərəfindən işğal edilmişdi. Kənd 2020-ci ilin oktyabrında erməni işğalçılarından azad olunmuşdur. Bu yaşayış məntəqəsinin adı bəzi sənəd və materiallarda ***Quyudərə Xəştab kəndi*** kimi də qeyd olunur. Toponimin ad açımı ilə bağlı müxtəlif fikir və mülahizələrvardır. Oykonim ***quyu***, ***dərə*** və fars mənşəli ***xəştab*** (***həştab***) sözlərindən ibarətdir. ***Xəştab*** sözünün mənası "*səkkiz bulaq*" deməkdir. ***Quyudərəxəştab*** toponimi "*dərə dibindəki səkkiz bulaq*" mənasındadır. Yerli məlumata görə, keçmişdə bu ərazidə ***Xəştab*** adlı iki kənd mövcud olub. Fərqləndirilməsi üçün biri ***Sarılıxəştab*** (*Sarılı kəndi* yaxınlığındakı ***Xəştab***), o biri isə ***Quyudərəxəştab*** (*Quyudərə* yaxınlığındakı ***Xəştab***) adlanmışdır.

Malatkeşin – Zəngilan şəhər inzibati ərazi vahidində, rayon mərkəzindən 3,5 kilometr şərqdə, Oxçu çayının sol sahilində, dağətəyi ərazidə, Yazı düzünün qurtaracağında yerləşən kənd. Yaşayış məntəqəsi *29 oktyabr 1993-cü il* tarixdə erməni hərbi qüvvələri tərəfindən işğal olunmuşdu. Kənd *22 oktyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad olunmuşdur. Yerli əhali yaşayış məntəqəsinin adını ***keçid*** komponenti və *maldarlıqla* bağlayaraq ***2*** cür izah edirlər: 1) ***mal, at keçidi*** ("*mal-heyvan keçən yer*"); 2) ***Malatkeşin*** yaşayış məntəqəsinin adını bəzən ***Malatkeşiş*** kimi də yazırlar. Oykonim ***malat*** ("*maldarlar*") və ***keşin*** (türk dillərində "*düşərgə*", "*dayanacaq*") komponentlərindən düzəlib, "*maldarların düşərgəsi*" anlamındadır.

Məlikli – Zəngilan kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 3 kilometr cənubda, dəniz səviyyəsindən 400 metr yüksəklikdə, Oxçu çayının sağ sahilində, *Mincivan – Qafan* dəmiryolu xəttinin solunda yerləşən kənd. ***Məlikli*** yaşayış məntəqəsi *28 oktyabr 1993-cü il* tarixdə erməni hərbi birləşmələri tərəfindən işğal edilmişdi. Kənd *21 oktyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad olunmuşdur. Yaşayış məntəqəsini ***məlikli*** nəsli saldığı üçün toponim belə ad almışdır.

Məmmədbəyli – Rayon mərkəzindən 30 kilometr şərqdə, Məmmədbəyli inzibati ərazi vahidində, Ara və Həkəri çaylarının sol sahilində, *Zəngilan – Bakı* şose yolunun və *Bakı – Mincivan* dəmiryolunun kənarında, İran İslam Respublikasının sərhədi yaxınlığında, Cəbrayıl və Qubadlı rayonlarının qonşuluğunda yerləşən kənd. *27 oktyabr 1993-cü il* tarixdə **Məmmədbəyli kəndi** erməni hərbi birləşmələri tərəfindən işğal edilmişdi. Kənd *20 oktyabr 2020-ci i*l tarixdə erməni işğalçılarından azad olunmuşdur. Kəndin keçmiş adı ***Tərəkəmə*** olub. XIX əsrdə ***Məmmədbəyli*** yaşayış məntəqəsi *Məmməd bəy Zəngilaniyə* məxsus olduğu üçün sonralar kənd onun adı ilə tanınmışdır. Kənd XIX əsrin 20-ci və 30-cu illərindən formalaşmışdır.

Məşədiismayıllı – Şəfibəyli inzibati ərazi vahidində, rayon mərkəzindən 11 kilometr qərbdə, Bəsit çayının sahilində, dağətəyi ərazidə, dəniz səviyyəsindən 500 metr yüksəklikdə yerləşən kənd. Bəzən sənədlərdə kəndin adı ***Məşədi İsmayıllı*** kimi də qeyd olunmuşdur. Yaşayış

məntəqəsi *27 oktyabr 1993-cü il* tarixdə erməni hərbi birləşmələri tərəfindən işğal edilmişdi. İşğadan sonra ermənilər kəndin adını dəyişərək ***Ditsmayri*** qoymuşdular. Kənd *4 noyabr 2020-ci il* tarixdə erməni işğalçı qüvvələrindən azad edilmişdir. Oykonim Məşədi İsmayıl adlı şəxsin adı ilə bağlıdır. ***Məşədiismayıllı*** kəndinin ərazisi keçmişdə *Əbdülsəməd bəy Zəngilani* adlı bir şəxsə məxsus olmuşdur. O, həmin torpaq sahəsini Rəzdərə kəndindən olan *İsmayıl bəyə* bağışladığından bu yeni yaşayış məntəqəsi də burada yurd salmış ***İsmayıl*** bəyin (***Məşədi İsmayıl***) adı ilə tanınmışdır.

Mincivan qəsəbəsi – Mincivan inzibati ərazi vahidində, Araz çayının sol sahilində, Oxçuçayın Araza birləşdiyi yerdə, rayon mərkəzindən 11 kilometr cənub-şərqdə, Bakı-Culfa dəmir yolunun kənarında, İran İslam Respublikasının sərhədi yaxınlığında, dəniz səviyyəsindən 400 metr yüksəklikdə, düzənlik ərazidə yerləşir. 1958-ci ildə ***qəsəbə*** statusu alıb. ***Mincivan qəsəbəsi*** *30 oktyabr 1993-cü il* tarixdə erməni işğalçı qüvvələri tərəfindən zəbt edilmiş, *21 oktyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad olunmuşdur.İşğaldan sonra ermənilər yaşayış məntəqəsinin adını dəyişərək ***Mijnavan*** qoymuşdular. Yaşayış məntəqəsi 1795-1798-ci illərdə aclıq səbəbindən Cənubi Azərbaycanın ***Mincivan*** kəndindən gəlmiş ailələrin burada məskunlaşması nəticəsində yaranmışdır. Əhali əvvəlki kəndin adını yeni məntəqəyə vermişdir. Oykonimi "***min cavan***" kimi də yozurlar. ***Mincivan*** toponiminin "*min cavan*" izahı xalq etimologiyasıdır. ***Mincivan*** toponiminin tərkibindəki ***min*** komponenti bəzi ehtimallara görə, qədim türkdilli ***min/ming/ minq*** tayfasının adı ilə əlaqədardır. Toponimin tərkibindəki -***van*** hisəciyi məkan ("*yer, məskən*") bildirən şəkilçidir. ***Mincivan*** toponiminin mənası "*minqlərin məskəni*", "*ming yurdu*", "*minqlərin yaşadığı məkan*", "*minglər*" deməkdir.

Mirzəhəsənli – Rayon mərkəzindən 13 kilometr məsafədə, Gilətağ kənd inzibati ərazi vahidində, Bərgüşad silsiləsinin ətəyində yerləşən kənd. Kəndin adı bəzən sənədlərdə ***Mirzə Həsənli*** kimi də yazılır. Yaşayış məntəqəsi *27 oktyabr 1993-cü il* tarixdə erməni hərbi birləşmələri tərəfindən işğal edilmişdi. Kənd *23 oktyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad olunmuşdur. Yerli məlumata görə, ***Mirzəhəsənli*** yaşayış məntəqəsini XIX əsrdə Qubadlı rayonunun *Mollu* kəndindən gəlmiş ***Mirzəhəsənli*** nəslinə mənsub olan ailələr saldığına görə kənd də həmin nəslin adı ilə adlandırılmışdır.

Mollalar – Vaxtilə Zəngilan rayonunda, indiki Saralı Xəştab kəndi ilə Aşağı Yeməzli kəndləri arasında, dağətəyi ərazidə, meşəlik sahədə mövcud olmuş kənd. 1930-cu illərdə sovet hökumətinin uğursuz kolxoz quruculuğu planı (*kəndləri birləşdirməklə iri kolxoz təsərrüfatları yaratmaq*) ilə əlaqədar olaraq ***Mollalar kəndi*** xarabalığa çevrilmişdir.

Muğanlı – *Bax:* **Birinci Muğanlı, İkinci Muğanlı.**

Musalar – Vaxtilə Zəngilan rayonunda, Oxçuçayın sol sahilində, Şayıflı kəndinin yaxınlığında, dağətəyi ərazidə, meşəlik sahədə mövcud olmuş kənd. 1930-cu illərdə sovet hökumətinin uğursuz kolxoz quruculuğu planı (*kəndləri birləşdirməklə iri kolxoz təsərrüfatları yaratmaq*) ilə əlaqədar olaraq xarabalığa çevrilmişdir.

Müşlan – *Bax:* **İçəri Müşlan, Qıraq Müşlan.**

Nəcəflər – Şayıflı inzibati ərazi vahidində, rayon mərkəzindən 18 km şimalda, dağətəyi ərazidə, dəniz səviyyəsindən 1600 metr yüksəklikdə yerləşən kənd. Yaşayış məntəqəsi *10 dekabr 1992-ci il* tarixdə erməni hərbi birləşmələri tərəfindən işğal edilmişdi. Kənd 2020-ci ilin oktyabrında erməni işğalçılarından azad olunmuşdur. Ətraf kəndlərin sakinləri onları *tağlı tayfası* adlandırır.

Nüvədi – Vaxtilə Zəngilan rayonunun tərkibində olmuş, sonradan Mehri rayonunun (*Ermənistan*) tabeliyinə verilmiş yaşayış məntəqələrindən biri də qədim türk-oğuz yurdu ***Nüvədi kəndi*** idi. ***Nüvədi kəndi*** Mehri rayonunun mərkəzindən 19 kilometr şərqdə, Zəngilan şəhərindən 40 kilometr cənub-qərbdə, Araz çayı sahili yaxınlığında, Zəngilan – Mehri avtomobil və dəmir yolları kənarında, gözəl bir məkanda yerləşirdi. Bu kənd ***Gəncə*** (*Yelizavetpol*) quberniyasının ***Zəngəzur*** qəzasının ərazisində (*hazırda Mehri rayonu ərazisində*) qərar tuturdu. Dəniz səviyyəsindən 625 metr yüksəklikdə, Qarqadaş dağı ətrafında yerləşən *Nüvədi* kəndinin ümumi sahəsi 119 kvadrat kilometrdir. Qədim tarixə malik olan ***Nüvədi*** kəndinin yaşı ən azı min ildən çoxdur. IX əsrdə yaşamış Xalq Qəhrəmanı Babəkin (*796 – 838*) yaxın adamlarının, eləcə də həyat yoldaşı Kalandanuyənin qəbri Nüvədi kəndinin ərazisindəki qədim qəbiristanlıqdadır. *1590* və *1593*-cü illərə aid olan Osmanlı və digər mənbələrdə, qaynaqlarda Masırı nahiyəsinin kəndi kimi adı çəkilir. *1727*-ci ilə aid olan "Təfsir"də də Nüvədidən bəhs edilir. Tarixə ekskursiya etsək, görərik ki, bu kəndin başı tarixən çox bəlalar çəkmişdir. Birinci erməni – müsəlman davası (*1905-1906*) və İkinci erməni – müsəlman davası (*1918 – 1920*) bu kəndin də başı üzərindən yan keçməmişdir. Yaşayış məntəqəsi *1929*-cu ilə qədər ***Zəngilan rayonu*** ilə birlikdə *Cəbrayıl* qəzasının tərkibində olmuşdur. Rayonlaşmaya keçid ərəfəsində – ***18 fevral 1929-cu il*** tarixli fərmanla ***Nüvədi*** kəndi ***Yernəzir*** və ***Tuğut*** kəndləri ilə birlikdə Mehri rayonunun tabeliyinə verilmişdir. 1968-ci ildə o zaman milli zəmində baş verən məlum hadisələr ilə əlaqədar olaraq kəndin əhalisi Azərbaycana, o cümlədən ***Zəngilan*** rayonuna qovulmuş, az sonra ara düzəldikdə isə gedənlərin 95 %-i kəndə geri qayıtmışdır. 1988-ci ilin fevralından başlayan ***Qarabağ müharibəsi*** zamanı kənd adamları 3 il düşmənə qarşı sözün əsil mənasında bir sipər olmuşlar. ***Nüvədi*** igidləri çətin də olsa, illərlə erməni silahlı quldur dəstələrinə qarşı mətənətlə döyüşmüş və fərqlənmişlər. *8 avqust 1991-ci il* tarixdə Ermənistandan çıxarılan sonuncu yaşayış məntəqəsi ***Nüvədi kəndi*** oldu. ***Nüvədi*** coğrafi adının ad açımı ilə bağlı müxtəlif fikir və mülahizələr vardır. ***Nüvədi*** toponimi ***nüy*** (***nüək, nüyək***) sözündən olub, "*dağ ətəyində çökək, ovuq yer*", "*iki tərəfi qaya olan sahə*" anlamını ifadə edir. 1994-cü ildə ərköyün ermənilər Ermənistanda işğala qədər vaxtilə azərbaycanlıların yaşadıqları digər yaşayış məntəqələri kimi, ***Nüvədi*** kəndinin adını da dəyişərək ***Nonanodzor*** (***Nrnadzor***) qoymuşlar. Bu coğrafi ad "*nar dərəsi, nar vadisi*" anlamını ifadə edir.

Orta Yeməzli – Yeməzli inzibati ərazi vahidində, rayon mərkəzindən 18 kilometr məsafədə, Ermənistan ilə sərhəddə, dağlıq və dağətəyi ərazidə, dəniz səviyyəsindən 1800 metr yüksəklikdə yerləşən kənd. Yaşayış məntəqəsi *27 oktyabr 1993-cü il* tarixdə erməni hərbi birləşmələri tərəfindən işğal edilmişdi. Kənd 2020-ci ilin oktyabrında erməni işğalçılarından azad olunmuşdur. ***Orta Yeməzli*** yaşayış məntəqəsi Ağdam rayonunun *Ətyeməzli* (əsli *Atyeməzli*) kəndindən köçüb gəlmiş ailələrin burada məskunlaşması nəticəsində yaranmışdır.

Otuzuncu qəsəbə – Şayıflı inzibatı ərazi vahidində, rayon mərkəzindən 30 km şimal-qərbdə, dağətəyi ərazidə, 1250 metr yüksəklikdə yerləşir. Bəzən adı sənədlərdə ***Otuzikinci qəsəbə*** kimi də qeyd edilir. Yaşayış məntəqəsi rayon mərkəzindən ***otuz*** kilometr məsafədə yerləşdiyi üçün belə adlandırılmışdır. Yaşayış məntəqəsi 10 dekabr 1992-ci il tarixdə işğal edilmiş, 2020-ci ilin oktyarında işğalçılardan azad olunmuşdur.

Ördəkli – Ördəkli kənd inzibati ərazi vahidində, Bəsitçayın sağ sahilində, dağətəyi ərazidə, rayon mərkəzindən 14 kilometr cənub-qərbdə yerləşən kənd. Yaşayış məntəqəsi 1993-cü ildə erməni hərbi qüvvələri tərəfindən işğal edilmişdi. İşğaldan sonra ermənilər kəndin adını dəyişərək ***Varduak*** qoymuşdular. Kənd *9 noyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad olunmuşdur. Kəndin keçmiş adı ***Hacısünnü*** (***Hacı Hüseynli***) olub. Yaşayış məntəqəsi əvvəllər

indiki ərazidən 1,5 km şimalda *Hacısünnü* adı ilə mövcud olmuşdur. XIX əsrin ortalarında kəndin əhalisi yaxınlıqdakı ***Ördəkli yer*** adlanan daha əlverişli sahəyə köçmüş və o vaxtdan da kənd ***Ördəkli*** adlanmışdır. *Oğuz* tayfalarının tərkibində də ***ördəkli*** adına rast gəlirik.

Pirçivan – *Bax:* **Zəngilkan**

Pirveysli – Canbar inzibati ərazi vahidində, rayon mərkəzindən 33 kilometr şimal-qərbdə, dağlıq ərazidə, dəniz səviyyəsindən 1200 metr yüksəklikdə, yerləşən kənd. Yaşayış məntəqəsi *10 dekabr 1992-ci il* tarixdə erməni hərbi birləşmələri tərəfindən işğal edilmişdi. Kənd 2020-ci ilin oktyabrında erməni işğalçılarından azad olunmuşdur. ***Pirveysli*** (bəzən kəndin adını ***Pirveys*** şəklində də yazırlar) yaşayış məntəqəsini *Pirveysli* tirəsinə mənsub olan ailələr onlara məxsus qışlaq yerində salmışlar. Yaşayış məntəqəsi ***Dərzili*** tayfasının ***pirveyisli*** tirəsinə məxsus olan qışlaq yerində salınmışdır. Tədqiqatçılar ***pirveysli*** toponimini "***veyslilərin piri***" anlamı ilə yozurlar.

Rəbənd – Yenikənd inzibati ərazi vahidində, rayon mərkəzindən 44 kilometr şimal-qərbdə, Oxçu çayının sahilində yerləşən kənd. Kəndin adı bəzi sənədlərdə ***Rabənd*** şəklində qeyd olunmuşdur. Yaşayış məntəqəsi *27 oktyabr 1993-cü il* tarixdə erməni işğalçı qüvvələri tərəfindən işğal edilmişdi. Kənd *25 oktyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad olunmuşdur. Tədqiqatçılar oykonimi ***rəvan*** tayfasının adı ilə əlaqələndirirlər. ***Rəbənd*** toponimi ***rəvənd*** tayfasının adı ilə əlaqədar olaraq belə adlanmışdır.

Rəzdərə – Rəzdərə kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 14 kilometr şimal-qərbdə, Bəsitçayın sahilində, dünyada məşhur olan Çinar meşəsinin qoynunda, dağətəyi ərazidə, dəniz səviyyəsindən 400 metr yüksəklikdə, *Zəngilan – Qafan* şose yolu kənarında yerləşən kənd. Yaşayış məntəqəsi 1993-cü ildə erməni hərbi qüvvələri tərəfindən işğal edilmişdir. Kənd 2020-ci ilin oktyabrında erməni işğalçılarından azad olunmuşdur. Yerli məlumata görə, vaxtilə Bəsitçay yaz və yay aylarında o qədər daşarmış ki, ətrafı tamam su yuyub-apararmış. Bu səbəbdən də onu Araz ilə müqayisə edərək ***Araz dərəsi*** və ya ***Arazdərə*** deyərmişlər. Sonralar bu ad ***Rəzdərə*** kimi işlənmişdir. Bəzi sənəd və materiallarda toponim ***Rizadərə*** formasında da işlənmişdir.

Saralıxəştab – Rayon mərkəzindən 28 kilometr şimal-qərbdə, İsgəndərbəyli kənd inzibati ərazi vahidində, Yuxarı Yeməzli kəndindən 3 kilometr aralıda, dağlıq ərazidə, dəniz səviyyəsindən 1800 metr yüksəklikdə yerləşən kənd. Yaşayış məntəqəsi *27 oktyabr 1993-cü il* tarixdə erməni işğalçı qüvvələri tərəfindən işğal edilmişdi. Kənd 2020-ci ilin oktyabrında erməni işğalçılarından azad olunmuşdur. Kəndin adı 1933-cü ildə ***Sarallı Xəştab*** kimi qeydə alınmışdır. Bəzi sənədlərdə kəndin adı ***Sarılı Xəştab***, ***Sarallıxəştab***, ***Sarallı Xəştab*** kimi də qeyd olunmuşdur. ***Saralıxəştab*** oykoniminin birinci komponenti ***Sarallı*** tayfasının adını, ikinci komponenti (***Xəştab***) isə, bu tayfaya məxsus olan qışlağın adını əks etdirir. ***Xəştab*** komponenti fars dilindəki ***həşt*** ("*səkkiz*") və ***ab*** ("*su*") sözlərindən ibarət olub, "*səkkiz su*", "*səkkiz bulaq*" (*1.Abbas;; 2.Daşbulaq; 3. Eyvaz; 4.Əmralı; 5. Güney su. 6. Mərkəzi su; 7. Şatırlı. 8. Ürqiyə*) deməkdir. ***Sarallı*** tayfasının adı bəzi mənbələrdə ***sarıəlili*** kimi də qeyd olunmuşdur.

Sarıqışlaq – Zəngilan şəhər inzibati ərazi vahidində, rayon mərkəzindən 4 kilometr məsafədə, Genlik kəndi yaxınlığında, Oxçu çayının sağ sahilində, dağətəyi ərazidə yerləşən kənd. Yaşayış məntəqəsi *28 oktyabr 1993-cü il* tarixdə erməni hərbi qüvvələri tərəfindən işğal edilmişdi. Kənd 2020-ci ilin oktyabrında erməni işğalçılarından azad olunmuşdur.

Sarıl – Alıbəyli inzibati ərazi vahidində, rayon mərkəzindən 38 kilometr şərqdə, Həkəri çayının sağ sahilində, Bərgüşad silsiləsinin ətəyində, dəniz səviyyəsindən 750 metr yüksəklikdə yerləşən

kənd. Yaşayış məntəqəsi *27 oktyabr 1993-cü il* tarixdə erməni hərbi qüvvələri tərəfindən işğal edilmişdi. Kənd 21 oktyabr 2020-ci il tarixdə erməni işğalçılarından azad olunmuşdur. Yerli məlumata görə, yaşayış məntəqəsini XIX əsrdə ***Əhməd*** və ***Süleyman*** adlı şəxslər ***Sarıl*** adlanan ərazidə salmışlar. 1917-ci ildə kəndin adı ***Sarılar*** kimi qeydə alınmışdır.

Seyidlər – Şərikan inzibati ərazi vahidində, rayon mərkəzindən 37 km məsafədə, dağ döşündə yerləşən kənd. Yaşayış məntəqəsi *10 dekabr 1992-ci il* tarixdə erməni hərbi qüvvələri tərəfindən işğal edilmişdi. Kənd 2020-ci ilin oktyabrında erməni işğalçılarından azad olunmuşdur. Yaşayış məntəqəsi ***seyidlər*** nəslinin burada məskunlaşması nəticəsində yaranmışdır. Deyilənə görə, əvvəlcə burada bir seyidin nəsli yaşayırmış. Onun möcüzəsini görən İran şahı həmin ərazini bu seyidə bağışlamışdır.

Səfərli – vaxtilə Zəngilan rayonunda, indiki Yusiflər kəndi ilə Ermənistan sərhədi arasında, Nəcəflər kəndindən 5 kilometr aralıda, dağətəyi ərazidə, meşəlik sahədə mövcud olmuş kənd. 1930-cu illərdə sovet hökumətinin uğursuz kolxoz quruculuğu planı (*kəndləri birləşdirməklə iri kolxoz təsərrüfatları yaratmaq*) ilə əlaqədar olaraq xarabalığa çevrilmişdir.

Sivəcir – vaxtilə Zəngilan rayonunda, indiki Sobu kəndinin yaxınlığında, dağətəyi ərazidə, meşəlik sahədə mövcud olmuş kənd. 1930-cu illərdə sovet hökumətinin uğursuz kolxoz quruculuğu planı (*kəndləri birləşdirməklə iri kolxoz təsərrüfatları yaratmaq*) ilə əlaqədar olaraq ***Sivəcir kəndi*** xarabalığa çevrilmişdir.

Sobu – Çöpədərə kənd inzibati ərazi vahidinin tabeliyində, rayon mərkəzindən 26 kilometr qərbdə, Sobuçayın sahilində, Bakı-Naxçıvan dəmiryolu kənarında, dağətəyi ərazidə, meşə içərisində yerləşən kənd. Zəngilanlıların müqəddəs tapınaq, inanc yeri hesab etdikləri Seyid Qurban ağa ziyarətgahı ("*İlan ocağı*") da Sobu kəndindədir. Yaşayış məntəqəsi 1993-cü ildə erməni hərbi qüvvələri tərəfindən işğal edilmişdi. Kənd *9 noyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad olunmuşdur. *Sobulular* adətən uzun bığları ilə fərqlənirlər. Yerli məlumata görə, ***Sobu*** oykonimi "***su bu***" ("*yaxşı su*") mənasını ifadə edir. ***Sobu*** yaşayış məntəqəsi 1827-ci ildə Cənubi Azərbaycandan gəlmiş (*Sobu kəndindən köçənlər*) ailələr tərəfindən salındığına görə belə adlandırılmışdır. Kəndin əsasını *şamlı* tayfaları qoymuşlar.

Şamlı – Rayon mərkəzindən 16 kilometr şimal-qərbdə, Gilətağ kənd inzibati ərazi dairəsinin tabeliyində, Süsən dağının ətəyində yerləşən kənd. Sınanılmış müqəddəs övliyalardan olan Seyid Mahmud və Seyid Həbib qardaşlarının ocaqları bu kənddə idi. Yaşayış məntəqəsi *27 oktyabr 1993-cü il* tarixdə erməni hərbi qüvvələri tərəfindən işğal olunmuşdu. Kənd 2020-ci ilin oktyabrında erməni işğalçılarından azad olunmuşdur. Yaşayış məntəqəsinin əsasını cənubdan gələn ***şamlı*** tayfaları qoymuşdur. *Şamlılar* Şah İsmayıl Səfəvinin əsas dayaqlarından biri olmuşlar. Şah İsmayılın hamisi və qəyyumu Hüseyn bəy Lələ də ***şamlı*** idi. ***Şamlı*** Əmir Teymurun 1402-ci ildə türk sultanı Bayazid üzərindəki qələbəsindən sonra Suriyadan (*Şamdan*) apardığı ***bəydili*** tayfasına mənsub olan ailələrin adıdır.

Şatarız – Rəzdərə inzibati ərazi vahidində, rayon mərkəzindən 18 kilometr şimal-qərbdə, Bəsitçayın sahilindən 3 kilometr aralıda, dəniz səviyyəsindən 500 metr yüksəklikdə, dağətəyi ərazidə yerləşən kənd. Yaşayış məntəqəsi 1993-cü ildə erməni birləşmiş hərbi qüvvələri tərəfindən işğal edilmişdi. Kənd 2020-ci ilin oktyabrında erməni işğalçılarından azad olunmuşdur. Yaşayış məntəqəsinin ərazisindəki Alban türbəsi və digər qədim abidələr bu yaşayış məntəqəsinin ən azı erkən orta əsrlərdən mövcud olduğundan xəbər verir. Bəzi məlumata görə, kəndin yerləşdiyi ərazi, relyefi nataraz olduğu üçün, gediş-gəliş çətin olduğuna görə oykonim "*nataraz yer*" mənasını bildirir. Bəzi məlumata görə isə kəndi vaxtilə ***Şatır*** ləqəbli şəxs və onun övladları

saldığına görə, belə adlanmışdır. Mənbələrdə ***Şatar/Şatır*** adlı qədim türkdilli tayfanın mövcud olduğu bildirilir. Hun tayfalarından birinin adı *Şatırdır*.

Şayıflı – Rayon mərkəzindən 19 kilometr şimal-qərbdə, Şayıflı inzibati ərazi vahidində, Oxçuçayın sahilində, Bakı-Qafan dəmiryolu kənarında, dağətəyi ərazidə, dəniz səviyyəsindən 1400 metr yüksəklikdə yerləşən kənd. Yaşayış məntəqəsi *10 dekabr 1992-ci il* tarixdə erməni hərbi birləşmələri tərəfindən işğal edilmişdi. Kənd 2020-ci ilin oktyabrında erməni işğalçılarından azad olunmuşdur. ***Şayıflı*** (***Şayıf*** şəxs adıdır) yaşayış məntəqəsini ***Şayıflı*** nəslinə mənsub olan ailələr burada saldığı üçün kənd belə adlandırılmışdır.

Şəfibəyli – Şəfibəyli inzibati ərazi vahidində, rayon mərkəzindən 12 kilometr məsafədə, Bəsitçayın sahilində, dağətəyi ərazidə, dəniz səviyyəsindən 500 metr yüksəklikdə yerləşən kənd. Yaşayış məntəqəsi *27 oktyabr 1993-cü il* tarixdə erməni hərbi birləşmələri tərəfindən işğal edilmişdi. Kənd *4 noyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad olunmuşdur. Yerli məlumata görə, ***Şəfibəyli*** yaşayış məntəqəsini Cənubi Azərbaycandan gələn nəsillər burada binə etmişlər.

Şərifan – Hacallı kənd inzibati ərazi dairəsinin tabeliyində, rayon mərkəzindən 31 kilometr şimalda, Həkəri çayının sağ sahilində, Bakı – Naxçıvan şose yolu kənarında yerləşən kənd. *27 oktyabr 1993-cü il* tarixdə kənd erməni hərbi birləşmələri tərəfindən işğal edilmişdi. Kənd *20 oktyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad olunmuşdur. Yerli məlumata görə, kənd ***Şəhri-Şərifan*** (yəni *Şərifan şəhəri*) adlı qədim yaşayış yeri ərazisində salındığı üçün belə adlanmışdır. Burada aparılan arxeoloji tədqiqat işləri nəticəsində kəndin ərazisində IX – XI əsrlərə aid yaşayış məskəninin olduğu sübut olunmuşdur.

Şərifan şəhəri – vaxtilə indiki Zəngilan rayonunun Şərifan kəndinin ərazisində, Hacıalılı (*Hacallı*) kəndinin yaxınlığında mövcud olmuş qədim şəhər. 1974 və 1979-cu illərdə Azərbaycan Elmlər Akademiyasının Tarix İnstitutunun Arxeologiya şöbəsi (*indi həmin şöbə özü ayrıca bir institutdur*) Xudafərin su qovşağının yaradılması ilə əlaqədar Zəngilan rayonunun ərazisində tədqiqat işləri aparmışdır. Aparılan bu arxeoloji qazıntı-tədqiqat işləri nəticəsində məlum olmuşdur ki, rayonun ***Şərifan kəndi*** ərazisində vaxtilə ***Şəhri-Şərifan*** kimi tanınan qədim orta əsr şəhəri mövcud imiş. Aşkar edilən ***Şəhri-Şərifan*** şəhərinin xarabalıqlarından çoxlu sayda maddi-mədəniyyət nümunələri əldə olunmuşdur. Bəzi tarixi mənbələrdə bu şəhərin adı ***Şəhri-Xəlifan*** kimi də çəkilir.

Şərikan – Şərikan inzibati ərazi vahidində, rayon mərkəzindən 24 kilometr məsafədə, Oxçuçayın sağ sahilində yerləşən kənd. Yaşayış məntəqəsi *10 dekabr 1992-ci il* tarixdə erməni hərbi qüvvələri tərəfindən işğal edilmişdi. Kənd *2020-ci ilin oktyabrında* erməni işğalçılarından azad olunmuşdur. ***Şərikan*** qəsəbəsi Mincivan-Qafan dəmiryol stansiyası əsasında yaranmışdır. Yaşayış məntəqəsinin keçmiş adı ***Kazarma*** olub. Rəsmi sənəd və ədəbiyyatlarda əksər hallarda adı səhvən ***Otuzikinci*** kimi də qeyd olunur.

Şirinlər – vaxtilə Zəngilan rayonunda, indiki Yusiflər kəndi ilə Nəcəflər kəndinin arasında, dağətəyi ərazidə, meşəlik sahədə mövcud olmuş kənd. 1930-cu illərdə sovet hökumətinin uğursuz kolxoz quruculuğu planı (*kəndləri birləşdirməklə iri kolxoz təsərrüfatları yaratmaq*) ilə əlaqədar olaraq ***Şirinlər kəndi*** xarabalığa çevrilmişdir.

Tağlı – Şayıflı inzibati ərazi vahidində, rayon mərkəzindən 15 kilometr şimalda, Oxçu çayının sol sahilində, Süsən dağının ətəyində, dəniz səviyyəsindən 1400 metr yüksəklikdə yerləşən kənd. Yaşayış məntəqəsi 1993-cü ildə erməni hərbi qüvvələri tərəfindən işğal olunmuşdu. Kənd 2020-ci ilin oktyabrında erməni işğalçılarından azad olunmuşdur. ***Tağlı*** oykonimi ilə bağlı araşdırıcılar

arasında müxtəlif fikir və mülahizələr vardır. Toponimi müxtəlif cür izahlandıranlar var. Oykonim ***tağ*** tayfa adından və ***-lı*** şəkilçisindən ibarətdir. Yaşayış məntəqəsi Qarabağda və Zəngəzurda yaşamış türksoylu ***tağ*** (***tuğ***) tayfasının burada məskunlaşması nəticəsində yaranmışdır.

Tağlı – Vaxtilə Zəngilan rayonunda, Süsən dağının qərb hissəsində, Oxçuçayın sol sahilində, dağətəyi ərazidə, meşəlik sahədə mövcud olmuş kənd. ***Tağlı kəndi*** sovet dönəmində xarabalığa çevrilmişdir.

Tatar – Cahangirbəyli kənd inzibati ərazi dairəsinin tabeliyində, rayon mərkəzindən 8 kilometr şərqdə, Oxçuçayın sahilində, dağətəyi ərazidə, dəniz səviyyəsindən 1300 metr hündürlükdə yerləşən kənd. Yaşayış məntəqəsi *28 oktyabr 1993-cü il* tarixdə erməni hərbi birləşmələri tərəfindən işğal edilmişdi. Kənd *22 oktyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad olunmuşdur. Kənd əvvəllər ***Kosakan*** (***Köçəyən***) da adlanmışdır. Yalnız sovet dövründə ***Tatar*** adlandırılmışdır.

Tərəkəmə – Zəngilan rayonunda vaxtilə mövcud olmuş yaşayış məntəqələrindən biri də ***Tərəkəmə*** adlanırdı. Hazırda rayonda rəsmi şəkildə bu adda kənd yoxdur. Həmin kəndin adı dəyişdirilərək ***Məmmədbəyli*** adlandırılmışdır.

Tərnəvid – vaxtilə Zəngilan rayonunda, indiki Çöpədərə kəndi ilə Sobu kəndinin arasında, Çöpədərədən Sobuya gedən yolun sol tərəfində, çay kənarında, dağətəyi ərazidə, meşəlik sahədə mövcud olmuş kənd. 1930-cu illərdə sovet hökumətinin uğursuz kolxoz quruculuğu planı (*kəndləri birləşdirməklə iri kolxoz təsərrüfatları yaratmaq*) ilə əlaqədar olaraq xarabalığa çevrilmişdir. Oykonimin əsil adı ***Tanaut*** olmalıdır. XIX əsrin axırlarında Şuşa qəzasında ***Tarnavuş*** kənd adına da rast gəlinir. Bəzi sənədlərdə kəndin adı ***Tarnaut***, ***Tarnakut***, ***Tərnəvid*** kimi də qeyd olunmuşdur. Çox güman ki, yaşayış məntəqəsinin adı xəzərlərin ***tarna*** (***tərnə***) tayfasının adı ilə əlaqədardır.

Təzəkənd – Vaxtilə Zəngilan rayonunda, Əsgülüm dağının yaxınlığında, meşəlik sahədə mövcud olmuş kənd. 1930-cu illərdə sovet hökumətinin uğursuz kolxoz quruculuğu planı (*kəndləri birləşdirməklə iri kolxoz təsərrüfatları yaratmaq*) ilə əlaqədar olaraq ***Təzəkənd kəndi*** xarabalığa çevrilmişdir.

Tiri – Cahangirbəyli kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 13 kilometr şərqdə, Araz çayının sahilində, Oxçu çayının Araza qovuşduğu yerdə, dəniz səviyyəsindən 1300 metr hündürlükdə yerləşən kənd. Yaşayış məntəqəsi *30 oktyabr 1993-cü il* tarixdə erməni hərbi birləşmələri tərəfindən işğal edilmişdi. Kənd *22 oktyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad olunmuşdur. ***Tiri*** kəndi öz adını yaxınlıqdakı erkən orta əsrlərə aid ***Tiri*** qalasının adından almışdır. ***Tiri qalası*** Oxçu çayının Araz çayına qovuşduğu yerdədir. ***Tir*** (***tır***) qədim türk dilində inanclı insanların ibadət üçün bir yerə toplanmasına deyilirdi. Tədqiqatçılar belə güman edirlər ki, Qafqaz Albaniyasında erkən orta əsrlərdə indiki ***Tiri kəndi*** ərazisində ***Tri*** adlı əyalət və qala mövcud olmuşdur.

Top – Vaxtilə Zəngilan rayonunda, Sobu kəndindən yuxarıda, Rəzdərə kəndindən bir neçə kilometr məsafədə, dağətəyi ərazidə, meşəlik sahədə mövcud olmuş kənd. 1930-cu illərdə sovet hökumətinin uğursuz kolxoz quruculuğu planı (*kəndləri birləşdirməklə iri kolxoz təsərrüfatları yaratmaq*) ilə əlaqədar olaraq ***Top kəndi*** xarabalığa çevrilmişdir.

Turaabad – Cahangirbəyli kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 10 kilometr məsafədə, Oxçu çayının sahilində, dağətəyi ərazidə, dəniz səviyyəsindən 1300 metr hündürlükdə

yerləşən kənd. Adı bəzən sənədlərdə ***Turabad*** kimi də yazılır. Yaşayış məntəqəsi 1993-cü ildə erməni hərbi qüvvələri tərəfindən işğal edilmişdi. İşğaldan sonra ermənilər kəndin adını dəyişərək ***Alaskert*** qoymuşdular. Kənd *21 oktyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad olunmuşdur. Yerli məlumata görə, toponim qədim türk dillərindəki ***tura*** sözü ilə bağlıdır. ***Tura*** komponenti – "*yaşayış məntəqəsi*", "*şəhər*", "*səngər*", "*qala*" mənasındadır.

Üçüncü Ağalı – Ağalı inzibati ərazi vahidində, rayon mərkəzindən 38 km şimal-şərqdə, Həkəri çayının sahilində, dağətəyi düzənlikdə, Qubadlı rayonu ilə sərhəd yaxınlığında yerləşən kənd. *27 oktyabr 1993-cü il* tarixdə yaşayış məntəqəsi erməni hərbi qüvvələri tərəfindən işğal edilmişdi. Kənd *21 oktyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad olunmuşdur. Kəndin keçmiş adı ***Alırzalı*** (***Əlirzalı***) olub. Yaşayış məntəqəsi yerli əhali arasında ***Kiçik Ağalı***, ***Yuxarı Ağalı*** kimi də tanınır.

Üdgün – Zəngilan kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 5 kilometr məsafədə, dağətəyi ərazidə, dəniz səviyyəsindən 400 metr yüksəklikdə yerləşən kənd. Yaşayış məntəqəsi 1993-cü ilin oktyabrında erməni hərbi birləşmələri tərəfindən işğal edilmişdi. Kənd *21 oktyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad olunmuşdur. Kəndi vaxtilə Cənubi Azərbaycandan və Qarabağdan gəlmiş ailələr salmışlar. İnqilaba (1917) qədər yazılan ədəbiyyatlarda yaşayış məntəqəsinin adı ***Güdgün*** kimi qeydə alınmışdır. Yerli məlumata görə isə, kəndin keçmiş adı ***Güdgün*** olmuşdur. ***Üdə*** komponenti türk dillərində "*köçmək, köçəri həyat sürmək*" mənasını ifadə edir. Çox güman ki, toponim "*köçkün*", "*gəlmə*" mənasındadır. ***Üdgün*** toponiminin dəqiq mənası hələ ki, elmi şəkildə müəyyənləşdirilməmişdir.

Üdgün – Vaxtilə Zəngilan rayonunda, indiki Alıbəyli və Balabəyli kəndlərinin arasında, dağətəyi ərazidə, meşəlik sahədə mövcud olmuş kənd. 1930-cu illərdə sovet hökumətinin uğursuz kolxoz quruculuğu planı (*kəndləri birləşdirməklə iri kolxoz təsərrüfatları yaratmaq*) ilə əlaqədar olaraq ***Üdgün kəndi*** xarabalığa çevrilmişdir.

Üzümçülər qəsəbəsi – Zəngilan şəhər inzibati ərazi vahidində, rayon mərkəzindən 3 km məsafədə, dağətəyi ərazidə yerləşən yaşayış məntəqəsi. ***Üzümçülər qəsəbəsi*** yaşayış məntəqəsi *29 oktyabr 1993-cü il* tarixdə erməni hərbi birləşmələri tərəfindən işğal edilmişdi. Qəsəbə *2020-ci ilin oktyabrında* erməni işğalçılarından azad olunmuşdur.

Vejnəli – Vejnəli kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 38 kilometr cənub-qərbdə, Araz çayının sol sahilində, Bakı – Mehri şose yolundan 2 kilometr şimalda, dəniz səviyyəsindən 1000 metr yüksəklikdə yerləşən kənd. Kəndin ərazisində zəngin qızıl yataqları vardır. Yaşayış məntəqəsi *27 oktyabr 1993-cü il* tarixdə erməni hərbi dəstələri tərəfindən işğal olunmuşdu. Kənd *30 oktyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad edilmişdir. ***Vejnəli*** toponimi inqilabdan əvvəlki ədəbiyyatlarda ***Vejner, Vejneri*** kimi qeyd olunmuşdur. *Puşanlı* tayfasına məxsus olan qışlaq yerində ***Vejnəli*** tirəsi məskunlaşdıqdan sonra yaşayış məntəqəsi də həmin tirənin adı ilə adlanmışdır. Bəzi yerli sakinlər oykonimi təxmini olaraq ərəb feodalı ***Vəcnə ibn Ər-Rəvvadın*** adı ilə əlaqələndirirlər. Rəvayətə görə, İmam Əlinin sərkərdələrindən biri bura gəlib. Yerli məlumata görə, ***Vejnəli*** oykonimi "*Əli sərkərdəsi*" anlamını bildirir.

Vəliqulubəyli – Rayon mərkəzindən 13 kilometr şərqdə, Cahangirbəyli kənd inzibati ərazi vahidində, dağətəyi ərazidə, dəniz səviyyəsindən 1300 metr yüksəklikdə, Araz çayı sahilində, Bakı – İrəvan dəmir yolu kənarında yerləşən kənd. Yaşayış məntəqəsi 1993-cü ilin oktyabrında erməni hərbi birləşmələri tərəfindən işğal edilmişdi. Kənd *22 oktyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad olunmuşdur. ***Vəliqulubəyli*** toponimi "*Vəliqulubəylilərə məxsus olan kənd, Vəliqulubəyligillər*" mənasındadır.

Vənətli – Gilətağ inzibati ərazi vahidində, rayon mərkəzindən 14 kilometr məsafədə, Süsən dağı yaxınlığında, təpəli-düzənlik ərazidə, dəniz səviyyəsindən 550 metr yüksəklikdə yerləşən kənd. Yaşayış məntəqəsi *27 oktyabr 1993-cü il* tarixdə erməni hərbi birləşmələri tərəfindən işğal edilmişdi. Kənd *23 oktyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad olunmuşdur. Kəndin adı bəzi sənəd və materiallarda ***Vənəndli*** kimi də qeyd olunur. Vaxtilə Ordubad rayonunun ***Vənənd*** kəndindən gəlmiş ailələr əvvəlcə *Dondarlı* (Qubadlı rayonu) kəndinin qərbində ***Dağbaşı Vənətli*** kəndini salmış, sonralar isə indiki əraziyə köçmüşlər. V əsr tarixçisi Moisey Xorenlinin məlumatına görə toponim qədim türkdilli bulqarlardan- ***Vahandur Vəndin*** adı ilə əlaqədardır.

Yeməzli – *Bax:* **Aşağı Yeməzli, Yuxarı Yeməzli.**

Yenikənd – Yenikənd inzibati ərazi vahidində, rayon mərkəzindən 38 km məsafədə, dağətəyi ərazidə, *Qubadlı – Akara* (*Həkəri*) şose yolu üstündə yerləşən kənd. Yaşayış məntəqəsi *27 oktyabr 1993-cü il* tarixdə erməni hərbi birləşmələri tərəfindən işğal edilmişdi. Kənd *26 oktyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad olunmuşdur. Yaşayış məntəqəsinin əvvəlki adı ***Qarakilsə*** olmuşdur. Keçmiş ***Hüseynbəyli*** və ***Qarakilsə*** kəndləri birləşdikdən sonra kənd beləcə – ***Yenikənd*** adlandırılmışdır. Kəndin ***Yenikənd*** adlandırılması *11 aprel 1959*-cu ilə təsadüf edir.

Yuxarı Çöpədərə – Çöpədərə inzibati ərazi vahidində, rayon mərkəzindən 17 kilometr cənub-qərbdə, dağətəyi düzənlikdə yerləşən kənd. Yaşayış məntəqəsi 1993-cü ildə erməni hərbi qüvvələri tərəfindən işğal olunmuş, *2020-ci ilin oktyabrında* erməni işğalçılarından azad edilmişdir. Bəzən sənəd və materiallarda yaşayış məntəqəsinin adı ***Çəpədərə*** kimi də yazılır. Bəzi məlumatlara görə, yaşayış məntəqəsi Cənubi Azərbaycanın ***Çöpədərə*** kəndindən gəlmiş ailələr tərəfindən salındığına görə belə adlanmışdır.

Yuxarı Genlik – vaxtilə Zəngilan rayonunda, Süsəndağın Oxçuçay tərəfində, dağətəyi ərazidə, meşəlik sahədə mövcud olmuş kənd. 1930-cu illərdə sovet hökumətinin uğursuz kolxoz quruculuğu planı (*kəndləri birləşdirməklə iri kolxoz təsərrüfatları yaratmaq*) ilə əlaqədar olaraq ***Yuxarı Genlik kəndi*** xarabalığa çevrilmişdir.

Yuxarı Gəyəli – Rayon mərkəzindən 30 kilometr şimal-qərbdə, Canbar kənd inzibati ərazi vahidində, dağətəyi ərazidə, dəniz səviyyəsindən 1200 metr yüksəklikdə, Ermənistan sərhədi yaxınlığında yerləşən kənd. Yaşayış məntəqəsi *10 dekabr 1992-ci il* tarixdə erməni hərbi birləşmələri tərəfindən işğal edilmişdi. Kənd *2020-ci ilin oktyabrında* erməni işğalçılarından azad olunmuşdur. Kəndin adı yerli əhali arasında ***Göyəli*** şəklində də tələffüz olunur. Yaşayış məntəqəsinin keçmiş adı ***Göyəli*** olmuşdur. Yerli məlumata görə, bu kənddən ayrılmış ailələr bir qədər aralıda yeni yaşayış məntəqəsi salaraq, onu ***Aşağı Göyəli*** adlandırdıqdan sonra keçmiş kənd ***Yuxarı Göyəli*** adlanmışdır. ***Gəgəlilər*** Türkiyədən gəlmə ***gığılı*** tayfasının bir qolu hesab olunur.

Yuxarı Yeməzli – Yeməzli kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 21 kilometr şimal-qərbdə, Ermənistanın Qafan rayonu ilə sərhəddə, düzənlik ərazidə, dəniz səviyyəsindən 800 metr yüksəklikdə yerləşən kənd. Yuxarı Yeməzli kəndi ***26 oktyabr 1993-cü il*** tarixdə erməni işğalçı qüvvələri tərəfindən zəbt edilmişdi. Kənd *2020-ci ilin oktyabrında* erməni işğalçılarından azad olunmuşdur. Yaşayış məntəqəsini yaxınlıqdakı ***Yeməzli*** (indiki ***Orta Yeməzli kəndi*** nəzərdə tutulur) kəndindən ayrılmış ailələr həmin kəndin ***yuxarı*** hissəsində saldığına görə toponim bu adı özündə əks etdirir.

Yusiflər – Şayıflı inzibati ərazi vahidində, rayon mərkəzindən 17 kilometr şimal-qərbdə, Şayıflı dəmiryol stansiyasından 3 kilometr aralıda, dağətəyi ərazidə, dəniz səviyyəsindən 1500 metr yüksəklikdə yerləşən kənd. Yaşayış məntəqəsi *10 dekabr 1992-ci il* tarixdə erməni hərbi birləşmələri tərəfindən işğal edilmişdi. Kənd *2020-ci ilin oktyabrında* erməni işğalçılarından azad olunmuşdur. ***Yusiflər*** yaşayış məntəqəsini həmin rayonun *Qaragöl* kəndindən gəlmiş ailələr salmışlar. Toponimi *Kəbirli* tayfasına mənsub olan ***Yusifli*** tirəsinin adı ilə də əlaqələndirənlər var. *Yusifli* tirəsi *Kəbirli* tayfasına mənsub olan *Qərvəndli* qolunun ***Yusifli*** nəslinin adını özündə əks etdirir.

Zəngilan – Eyniadlı inzibati ərazi vahidində, rayon mərkəzindən 4 kilometr aralıda, Oxçu çayının sağ sahilində, *Mincivan – Qafan* dəmir yolunun solunda, düzənlik ərazidə, dəniz səviyyəsindən 400 metr yüksəklikdə yerləşən kənd. Yaşayış məntəqəsi ***29 oktyabr 1993-cü il*** tarixdə erməni hərbi birləşmələri tərəfindən tamamilə işğal edilmişdi. Kənd ***22 oktyabr 2020-ci il*** tarixdə erməni işğalçılarından azad olunmuşdur. Yaşayış məntəqəsi 1930 – 1932-ci illərdə ***Zəngilan*** rayonunun inzibati mərkəzi olmuşdur. Həmin illərdə burada yayılmış *malyariya* xəstəliyindən rayon mərkəzi ***Pirçivan*** kəndinə köçürülmüşdür. ***Zəngilan kəndi*** yaşayış məntəqəsi kimi XIV əsrdən məlumdur. Həmin əsrdə Kirakoz Qanzaketsi özünün "*Tarix*" əsərində ***Zəngilanın*** adını çəkmişdir. *Zəngilan* çox maraqlı mənşəyə malik olan coğrafi bir addır. VII əsrə aid olan mənbədə Xudafərin körpüsü yaxınlığında adı çəkilən ***Zəngixan (Zəngiyan)*** yaşayış məntəqəsinin indiki ***Zəngilan*** olması haqqında müəyyən fikirlər də var. ***Zəngilan*** toponiminin hətta "***Zənci***" etnonimindən törəndiyini söyləyənlər də vardır. Bəzi araşdırıcılar ***Zəngilan*** sözünü orta əsrlərdə indiki Ordubad rayonunun ərazisində mövcud olmuş, sonralar dağılmış ***Gilan*** şəhərinin adı ilə bağlayırlar. Deyilənə görə orta əsrlərdə Ordubad rayonundan bir neçə tayfa indiki *Zəngilan* rayonunun ərazisinə gəlmişlər. Yerli əhali onları "***sən gilanlı?***" – deyə çağırırmışlar. ***Zəngilan*** toponimini ***qızılbaşların*** tərkibinə daxil olmuş ***zəngənə*** tayfası ilə bağlayanlar da var. Zəngənələrin Elxanilər tərəfindən Türkmənistandan İrana köçürülmələri və onların qədim türk tayfaları olması haqqında mənbələrdə kifayət qədər məlumatlar mövcuddur.

Zəngilan şəhəri – Azərbaycan Respublikasında şəhər; eyniadlı rayonun inzibati mərkəzi. Zəngilan rayonunun mərkəzi olan ***Zəngilan şəhəri*** Şərqi Zəngəzur iqtisadi rayonunda, Bakıdan 385 km məsafədə, İran İslam Respublikasının sərhədindən 11 kilometr aralıda, Oxçu çayının sağ sahilində, Zəngəzur dağ silsiləsinin qurtaracağında, dağətəyi ərazidə, dəniz səviyyəsindən 550 metr yüksəklikdə yerləşir. 31 avqust 1957-ci il tarixinə qədər bu yaşayış məntəsi ***Pirçivan*** adlanmışdır. Zəngilan şəhəri 1957 – 1967-ci illərdə şəhər tipli qəsəbə olmuşdur. 9 sentyabr 1967-ci il tarixdə şəhər kimi təşkil edilmiş və ***şəhər*** statusu almışdır. *29 oktyabr 1993-cü il* tarixdə erməni hərbi qüvvələri tərəfindən işğal edilmiş, *20 oktyabr 2020-ci il* tarixdə işğaldan azad olunmuşdur. Qədim coğrafi adlardan hesab edilən ***Zəngilan*** toponimi və onun ad açımı ilə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur. Əksər araşdırıcıların verdikləri məlumatlardan aydın olur ki, toponimiyamızda özünə yer almış ***Zəngilan*** sözü türkkökənli yer adları siyahısına daxil olan coğrafi adlardandır. Toponim yaradıcılığı ilə məşğul olan əksər tədqiqatçılar ***Zəngilan*** toponimini ***Zəngi*** etnonimi və *"məskən, məkan, yer"* anlamı bildirən ***-lan*** komponenti ilə əlaqələndirirlər. Toponim "*Zəngilərin məskən saldığı yer*", "*Zəngilərin məskəni, məkanı*" mənasındadır. VII əsrə aid olan bir tarixi mənbədə Xudafərin körpüsü yaxınlığında adı çəkilən ***Zəngixan*** yaşayış məntəqəsinin indiki ***Zəngilan*** olması haqqında fikirlər mövcuddur. ***Zəngilan*** toponiminin *"**zəngi**"* etnonimindən törəndiyini söyləyən araşdırıcılar da var. Doğrudan da müxtəlif tarixi mənbələrdən türk əsilli ***zəngi*** tayfasının olduğu məlumdur. Bəzi tədqiqatçılar ***Zəngilan*** toponimini ***qızılbaşların*** tərkibinə daxil olmuş ***zəngənə*** tayfasının adı ilə də əlaqələndirirlər. Tarixdən məlumdur ki, vaxtilə İranda ***bəxtiyarlı*** tayfalarından biri ***zəngi*** adlanmışdır. Toponimi hətta ***zənci*** sözü ilə də bağlayanlar olmuşdur. Məşhur İran tarixçisi

və coğrafiyaşünası Həmdullah Mustovfi əl-Qəzviniyə (*1281-1350*) görə, ***Zəngilan*** yaşayış məntəqəsinin əsası hicri tarixin *15*-ci ilində (*miladi tarixlə 636-cı ildə*) qoyulmuşdur. Hazırda cənub-qərbi İranda yaşayan ***bəxtiyarlı*** tayfasının tirələrindən birinin adı da ***Zəngidir***. *Zəngilan* adı çox maraqlı mənşəyə malik olan coğrafi addır. Bəzi araşdırıcılar ***Zəng (səng)*** komponentini qədim fars dilində *"daşlı qaya"* kimi mənalandırırlar. ***Zanq (sanq)*** fars dilində *"tək daş, təpə"* deməkdir. Toponimi qədim fars dilində işlədilən ***səng*** ("*daş*") sözü ilə ("*daşlı yer*", "*daşlı məkan*") də əlaqələndirirlər. Çox güman ki, ***Səngəçal*** oykonimi də bu tipli toponimlərdəndir. ***Zəngilan*** toponimini ***zəngin*** və ***alan*** ("*ərazi*", "*sahə*", "*yer*") komponentləri ilə, yəni, "*zəngin yer*", "*zəngin ərazi*" kimi də izah edənlər vardır. Başqa belə bir ehtimal da vardır ki, ***Zəngilan*** sözü son orta əsrlərdə dağıdılmış ***Gilan*** şəhərindən və vilayətindən köçənlərlə bağlıdır. Qədim şərq dillərinin birində ***zən*** termininin *"təzə, yeni"* mənası da vardır. ***Zəngilan*** oykonimini ***zən*** ("*yeni*") + ***gil*** ("*torpaq*") + ***an*** ("*məkan*") kimi "*yeni torpaq*", "*yeni məkan*", "*yeni məskən*", "*yeni yurd*" anlamı ilə də izahlandıranlar var. ***Zəngilan*** adı ilə bağlı daha bir ehtimal da ***ilan*** sözü ilə əlaqələndirilir. Guya bu ərazilərdə ***zəng*** cingiltisinə oxşar səslər çıxaran çoxlu ***ilan*** (***zəngli ilan***) olduğu üçün oykonim belə ad ("*zəngli ilanlar yurdu, məskəni", "ilanlarla zəngin məkan*") almışdır. Digər bir fikrə görə, *Zəngilan* sözü ***Zəngalan*** termini ilə bağlıdır. Belə ki, qədim İpək Yolunun üzərində yerləşən *Zəngilan* yaşayış məntəqəsini əvvəllər ***Zəngalan*** adlandırarmışlar. ***Alan*** türk sözü olub, *"ərazi, sahə"* anlamı ifadə edir. Bu mənada ***Zəngilan*** toponimi *"zəngin ərazi", "məhsuldar sahə"* anlamına uyğun gəlir. Bəzi yerlilər indi də oykonimi ***Zəngalan*** kimi tələffüz edirlər.

Zərnəli – Məmmədbəyli inzibati ərazi vahidində, rayon mərkəzindən 26 kilometr şərqdə, Araz çayının sol sahilində, Həkəri çayının sağ sahilində, təpəli-düzənlikdə, dəniz səviyyəsindən 1500 metr yüksəklikdə yerləşən kənd. Yaşayış məntəqəsi *30 oktyabr 1993-cü il* tarixdə erməni hərbi birləşmələri tərəfindən işğal edilmişdi. Kənd *20 oktyabr 2020-ci il* tarixdə erməni işğalçılarından azad olunmuşdur. ***Zərnəli*** toponimi XIX əsrin əvvəllərində Cənubi Azərbaycanın Qaradağ mahalından, Araz çayının sağ sahili boyunda yerləşən ***Zərnə*** kəndindən köçüb gəlmiş ailələrin burada məskunlaşması nəticəsində yaranmışdır.

Qız qalası (Bartaz kəndi)

Zəngilan şəhər məscidi. İşğal zamanı

Səkkizguşəli Məmmədbəyli türbəsi – XIV əsr

Zəngilan şəhər məscidi. İşğaldan sonra

Birinci Ağalı kəndi. Erməni vəhşiliyinin təzahürü

Birinci Ağalı kəndi. Müasir Ağıllı kənd

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURUN ORONİMLƏRİ

Abadxeyir dərəsi – Laçın rayonunda, Qarabağ yaylasında, Minkənd çayı sahilində; Azərbaycanın ən cənnət guşələrindən birində yerləşən istirahət guşəsi. Abadxeyir dərəsinin yamacından, qayadan "narzan" tipli, insan orqanizmi üçün çox xeyirli mineral su çıxır. ***Abadxeyir dərəsi*** *"yaşayış üçün hər cür xeyirli, şəraiti olan dərə"* mənasındadır. Toponimin bir çox tədqiqatçılar tərəfindən türkdilli ***"avat"*** tayfası ilə bağlı olduğu da vurğulanıb.

Abbasvurulan yer – Cəbrayıl rayonunun ərazisində, Tumaslı dağının Çinafarlıya enən ətəyində, meşə talasında qeydə alınan sahə ***Abbasvurulan yer*** adlanır. Belə ki, vaxtilə burada Dağtumas kənd sakini ***Abbas Rüstəm oğlu*** daşnaklar və rus əsgərləri tərəfindən vəhşicəsinə qətlə yetirilmişdir.

Abdal dağı, Abdal dərəsi, Abdal təpəsi – Laçın rayonunda qeydə alınan oroqrafik obyektlər. Bu coğrafi adlar etnonimlə bağlı olan oronimlərdəndir. Oronimiyamızda bir qrup oroqrafık obyektlər qəbilə, tayfa, etnik qrup, xalq və nəsil adlarını özündə əks etdirir. Belə etnoronimlərin mənşəyinin izah edilməsi' ilə biz bir növ Azərbaycanın qədim əhalisinin etnik tərkibini və tarixini, Azərbaycan xalqının soykökünü öyrənmiş oluruq. Suriyalı alim-tarixçi Zaxari Ritor VI əsrdə Şimali Qafqazda, Hun əyalətində yaşayan müxtəlif tayfalar arasında türkdilli ***Abdel*** tayfasının da adını çəkir. ***Abdal*** qədim türk tayfalarından ***(Ağ hun)*** biridir. Bu tayfa V-VI əsrlərdə Orta Asiya, Çin, Türküstan və Əfqanıstanı əhatə edən dövlətin başçısı ***Eptalın*** adı ilə adlanmışdır. ***Abdal*** sözü ərəbcə ***bədəl*** sözündən olub, "*zahid*", "*müdrik*", "*mömin*" deməkdir. Bu sözün "*bilici*", "*avara*", "*nəcabətli*" və s. anlamları da mövcuddur. *Abdal tayfası* mənşə etibarı ilə vaxtilə Orta Asiyada mövcud olmuş ***Eftal*** dövlətinin adındandır. Qərbi Türk xaqanlığı bu dövlətin varlığına son qoyandan sonra ***abdallar*** müxtəlif ölkələrə köçmüşlər. ***Abdal*** tayfa adına VI əsrə aid olan Suriya mənbələrində, Şimali Qafqazda, Hun əyalətində də rast gəlirik. Vaxtilə Cənub-Şərqi Avropada yaşayan bulqarların bir tayfası da ***Abdal*** adlanırdı. ***Abdal*** sözü ərəbcə "*nəcabətli*" mənasındadır. 1588-ci ilə aid olan mənbədə Qarabağ düzündə *Həsən Abdallı* elinin yaşadığı göstərilir. ***Abadel/abdal*** tayfasını akademik V.V.Bartold *Hun* tayfası hesab edir. A.A.Bakıxanov da ***Abdal*** adlı tayfanın hələ çox-çox əvvəllər Azərbaycanda yaşamasını qeyd etmişdir. Bir sıra mənbələrdə ***Heftal, Heptal, Eftal*** kimi qeyd edilən etnonim ***abdal*** sözünün müxtəlif fonetik formalarındandır. Qafqaz Albaniyasında yaşayan ***abdal*** tayfasının adını tarixçi M.Kalankatlı da çəkmişdir. O yazır ki, m. ö. IV əsrdə Makedoniyalı İsgəndərin zamanında ***Abdallar*** buraya köçürülüblər. Ümumiyyətlə, qədim türkdilli ***Abdal*** tayfasının Qafqaz Albaniyasında yaşaması çox güman ki, eramızdan əvvəllərə gedib çıxır. ***Abdal dağı***, ***Abdal dərəsi***, ***Abdal təpəsi*** oronimlərindəki ***dağ***, ***dərə*** və ***təpə*** komponentləri relyef forması ifadə edən terminlərdir.

Abdal qışlağı – Xocavənd rayonunda, Əmirallar kəndi yaxınlığında, kənddən 3 kilometr aralıda, yaxın keçmişə qədər mövcud olmuş Bəhrəmli kəndinin ərazisində qeydə alınmış oroqrafik obyekt. Tarixi sənəd və materiallardan aydın olur ki, vaxtilə bu ərazidə ***Abdal qışlağı*** adlı yaşayış məntəqəsi mövcud olmuşdur.

Abdal yurdu – Son orta əsrlərdə Qarabağda Abdal adlı 3 yurd yeri olmuşdur. Bunlardan biri də vaxtilə mövcud olmuş Dizaq nahiyəsinin tərkibində, indiki Cəbrayıl rayonunun Xələfli kəndinin yaxınlığında idi. O biri ***Abdal*** yaşayış məntəqələri indiki *Ağdam* və *Füzuli* rayonlarının ərazilərində olmuşdur.

Abdalanlı sahə – Qubadlı rayonunda, Abdalanlı kəndi yaxınlığında, dağətəyi ərazidə qeydə alınan oroqrafik obyekt. XIX əsr mənbələrində ***Ocaqqışlaq*** kimi qeydə alınıb. Bir çox tədqiqatçılar bildirirlər ki, ***Abdalanlı*** toponimi *Abdalanlı* adlı nəsil və ya elatın adını özündə əks etdirir.

Abiyurd qayası – Laçın rayonunda qaya. Maldar ellərin hər il yaylaq yerində eyni ərazidə yaşadığı və mal-qara saxladığı yer ***yurd*** adlanır. ***Abi* sözü** türkcə "Böyük q*ardaş*" deməkdir.

Acı almalıq – Cəbrayıl rayonunun Dağ Tumas kəndinin yaxınlığında, Xanağabulağı kəndinin şimal-şərqində yerləşən Almurad dərəsi ilə Zunqur bağçası arasında, dağətəyi ərazidəki meşə zolağında qeydə alınan oronim ***Acı almalıq*** adlanır.

Acıdərə – Ağdam rayonunun ərazisində qeydə alınan oroqrafik obyekt. ***Acıdərə*** oronimi suyunun dadı və rejiminə görə adlandırılan oronimlərdəndir.

Adsız təpə – Füzuli rayonunun Divanalılar kəndi yaxınlığında qeydə alınmış oroqrafik obyektlərdən biri ***Adsız təpə*** adlanır. Buradan müxtəlif tarixi dövrlərə aid maddi-mədəniyyət nümunələri - bəzək əşyaları, gil qablar və s. də tapılmışdır. Təpəyə ad verilmədiyindən o, ***Adsız təpə*** kimi qeydə alınmışdır.

Adsız təpə – Xocavənd rayonunun Muğanlı kəndi yaxınlığında qeydə alınmış obyektlərdən biri ***Adsız təpə*** adlanır. Buradan müxtəlif tarixi dövrlərə aid maddi-mədəniyyət nümunələri – bəzək əşyaları, gil qablar və s. tapılmışdır. ***Təpəyə*** ad verilmədiyindən o, ***Adsız təpə*** kimi qeydə alınmışdır.

Aeroportun başı – Qarabağ silsiləsinin ətəyində, Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 2 kilometr məsafədə, Xocalı şəhəri ilə Mehdikənd arasında qeydə alınan oroqrafik obyektlərdən biri ***Aeroportun başı*** adlanır. Yerli əhali aeroportun yuxarı hissəsinə ***Aeroportun başı*** adını vermişdir.

Ağ cığır – Füzuli rayonunun Qacar kəndi yaxınlığında, Xəzəz dağında qeydə alınan oroqrafik obyektlərdən biri ***Ağ cığır*** adlanır. ***Ağ cığır*** Xəzəz dağının zirvəsi ilə Qacar kəndini birləşdirir.

Ağ ev – Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 20 kilometr məsafədə qeydə alınan toponimlərdən biri ***Ağ ev*** adlanır.

Ağ ev – Şuşa payonunda, İsa bulağı yaxınlığında, ağacların qalınlığında yerləşən meşəbəyinin evinə ***Ağ ev*** deyilirdi.

Ağ qəbir – Ağdam rayonunun Abdal kəndindən bir qədər aralıda, Xan yurdu deyilən ərazidə, Gəvənli dağında qeydə alınmışdır. Qəbir kənardan *dümağ* rəngdə göründüyü üçün yerli əhali oronimi ***Ağ qəbir*** adlandırmışdır.

Ağ qobu – Xocavənd rayonunun ərazisində, Tuğ kəndinin yaxınlığında qeydə alınan oronimlərdən biri ***Ağ qobu*** adlanır. ***Qobu*** sözü monqol mənşəli söz olub "*dərə*", "*çökəklik*", "*su basan yer*", "*çox kiçik çay*", "*axar su*", "*çayın dərin yeri*", "*çay sularının axdığı yer*", "*düzənlik*", "*sel sularının uzun müddət axması nəticəsində əmələ gələn çuxur*", "*kiçik dərə*", "*quru dərə*", "*kənarları tamamilə aşınıb, qırağından dibinə tədrici enişi olan dərə forması*" və s. mənalarda işlədilir. Tədqiqatçılar ***qobu*** termininin türk dillərində semantik izahını, fonetik xüsusiyyətlərini izah etmişlər. Tədqiqatlardan da görünür ki, ***qobu*** leksemi coğrafi termin kimi yer-yurd adlarının yaranmasında yaxından iştirak etmişdir.

Ağ Seyid piri – Cəbrayıl şəhərinin günbatanındakı Xubyarlı düzündə, səkkizguşəli türbələr yerləşən qədim məzarlığın Niftalılar adlanan hissəsində qeydə alınmışdır. Bu ***pir*** izi itməkdə olan qəbir yeridir. Deyilənə görə burada əslən Cicimli ocağından olan ***Ağ Seyid*** adlı mömin bir şəxs dəfn olunmuşdur.

Ağ yoxuş – Xocavənd rayonunun Muğanlı kəndi ərazisində, kənddən 4 kilometr aralıda geydə alınmış oroqrafik obyektlərdən biri ***Ağ yoxuş*** adlanır. Bəzən bu coğrafi adı ***Ağyoxuş*** kimi də yazırlar.

Ağ yoxuş – Qubadlı rayonunun Sarıyataq kəndinin ərazisində qeydə alınan coğrafi ad. Bu toponim rəng bildirən ***"ağ"*** **terminindən** və müsbət relyef forması ifadə edən ***"yoxuş"*** komponentlərindən ibarətdir.

Ağa körpüsü – Xocalı rayonu ərazisində, Xankəndi şəhərindən 1,5 km cənubda, Xocalı-Şuşa avtomobil yolu üstündə, Qarqar çayı üzərində tikilmiş körpü. Körpü ***Ağa*** şəxs adı ilə əlaqədardır. Yerli məlumata görə, ***Ağa körpüsü*** Qarabağın varlı adamlarından olmuş, böyük mülk sahibi *Məhəmməd ağanın* adı ilə bağlıdır.

Ağa Qəhrəman Mirsiyab oğlunun karvansarası – Şuşada bir neçə məşhur karvansara olmuşdur ki, onlardan biri də ***Ağa Qəhrəman Mirsiyab oğlunun karvansarası*** adlanır. Ümumiyyətlə. Şərq ölkələrində, o cümlədən, Azərbaycanda bir çox şəhərlərdə və ticarət yollarında, xüsusilə orta əsrlərdə karvanların dayanacaq yeri kimi mehmanxana tipli ***karvansara*** tikililəri olmuşdur.

Ağa yatağı – Cəbrayıl rayonunun Qazanzəmi kəndi ərazisində, kəndin qərbində qeydə alınan oroqrafik obyektlərən biri ***Ağa yatağı*** adlanır. Bu ***yataq*** yeri ***Ağa*** adlı bir şəxs ilə bağlıdır.

Ağababa zirvəsi – Kəlbəcər rayonu ərazisində, Qarabağ silsiləsində yerləşən dağ; zirvəsinin hündürlüyü 2367 metrdir. **Ağababa** zirvəsini çox zaman mənbələrdə ***Ağbaba*** kimi də qeyd edirlər. Toponim burada sitayiş yeri olan ***Altun Ağababa*** pirinin adı ilə əlaqədardır.

Agabəyli düzü – Laçın rayonunun ərazisində qeydə alınmış oroqrafik obyekt. ***Ağabəy*** - şəxs adını bildirir. Toponim "*Ağabəyə məxsus olan düz*" mənasındadır.

Ağacan kəhrizi yeri – Ağdam rayonunun Gülablı kəndi ərazisində qeydə alınan hidronimlərdən biri də ***Ağacan kəhrizi yeri*** adlanır. ***Ağacan*** şəxs adıdır. ***Kəhriz*** vaxtilə Gülablı kənd sakini olmuş ***Ağacan*** tərəfindən üzə çıxarılmışdır.

Ağacan yaylağı – Xocalı rayonu ərazisində, Xocalı qəbiristanlığı yaxınlığında yerləşir. Toponim ***Ağacan*** şəxs adı ilə əlaqədardır.

Ağaxan yeri – Laçın rayonunun Ağcakənd kəndi yaxınlığında qeydə alınan sahə. Bəzən adına **Axan** da deyilir. Oronim qismən təhrifə uğrayıbdır. Əslində ***Axan*** yox, ***Ağaxan*** olmalıdır.

Ağamalı yurdu – Kərkicahan qəsəbəsindən 2 kilometr aralıda qeydə alınan oroqrafik obyektlərdən biri ***Ağamalı yurdu*** adlanır. Toponim "*Ağamalıya məxsus olan yurd yeri*" anlamını ifadə edir.

Ağaöylə ocağı – Füzuli rayonunun Yuxarı Divanalılar kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Ağaöylə ocağı*** adlanır. ***Ağaöylə ocağı*** işğala qədər ziyarət yeri olmuşdur. Çox güman ki, ***Ağaöylə*** adı ***Ağa*** və ***övliya*** söz birləşməsinin təhrif olunmuş formasıdır.

Ağasənəm dərəsi – Füzuli rayonunun ərazisində qeydə alınan coğrafi ad. Bu dərə rayonun Yağlıvənd kəndinin yaxınlığındadır. Toponim *"Ağasənəmə məxsus dərə"* mənasındadır. Xətti istiqamətdə uzanan, başlanğıcından qurtaracağına doğru meyilli mənfi relyef formasına **dərə** deyilir. Dərələr əsasən eroziya mənşəli olsalar da onların meydana gəlməsində və inkişafında digər amillər də (tektonika, buzlaşma və s.) müəyyən rol oynayır. Dərələrin əsas morfoloji elementləri onun dibi, ətəkləri və yamaclarıdır. Dərələrin dibində formalaşmış yataq ilə çay axırsa, ona ***canlı*** və ya ***diri***, quru olduqda isə ***ölü*** dərələr deyilir.

Ağaverdi yurdu – Cəbrayıl rayonunun Nüzgər kəndinin ərazisində qeydə alınan coğrafi adlardan biri ***Ağaverdi yurdu*** adlanır. Toponim "*Ağaverdiyə məxsus olan yurd yeri*" mənasındadır. ***Yurdlar*** adətən bir qayda olaraq ailə, nəsil və ya icma başçısının adı ilə adlandırılırdı. ***Yurd*** məfhumunun "*vətən*", "*ev*" mənaları da vardır.

Ağbaşı dağı – Füzuli rayonunun Yuxarı Veysəlli kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri ***Ağbaşı dağı*** adlanır. ***Ağbaş*** sözünün "*Əxiyə məxsus əkin yeri"* mənası da var.

Ağbaşı dağı – Xocavənd rayonunun Güneyxırman kəndi ərazisində, Çartaz kəndi yaxınlığında qeydə alınan coğrafi adlardan biri ***Ağbaşı dağı*** adlanır. Tarixi mənbələrdən aydın olur ki, Azərbaycanda, o cümlədən də Qarabağda ta qədimdən ***oğuz*** mənşəli ***ağbaş*** tayfası yaşamışdır. Çox güman ki, oronim elə bu səbəbdən belə adlanmışdır. ***Ağbaş*** sözünün ***Əxibaş*** – *"Əxiyə məxsus əkin yeri"* mənası da var.

Ağbeyin düzü – Laçın rayonunda, Hocaz kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri **Ağbeyin düzü** oronimidir. Yerli əhali ***Ağbeyin düzü*** ərazisinə "*Laçının Ukraynası*" deyirdilər. Toponim əslində bir qədər təhrifə uğramışdır. Yerli əhalinin verdikləri bəzi məlumatlara görə, oronim ***Ağabəyin düzü*** formasında yazılmalıdır.

Ağbis dağı – Zəngilan rayonunun ərazisində, Ağbis kəndi yaxınlığında qeydə alınmış oroqrafik obyektlərdən biri ***Ağbis dağı*** adlanır. Oronim öz adını ***Ağbiz*** kəndinin adından almışdır.

Ağbulaq təpəsi – Xocalı rayonunun ərazisində, Ağdam dəmiryol stansiyasından 22 km aralıda qeydə alınan təpə. ***Ağ*** sözü bulağın üzə çıxdığı yerdə süxurlarının *ağ* rəngdə olmasını bildirir.

Ağburun dağı – Ağdam rayonu ərazisində qeydə alınan ***Ağburun dağı*** metafor strukturlu oronimi ***ağ***, ***burun*** və ***dağ*** komponentlərindən ibarətdir. ***Ağburun dağı*** toponimi "*ağ süxurlardan ibarət dağın sivri bucaq şəklində uzanmış hissəsi*" mənasındadır.

Ağburun təpəsi – Xocavənd rayonunun ərazisində, Ağcaqoşun çayının sol sahilində qeydə alınan oroqrafik obyektlərdən biri də ***Ağburun təpəsi*** adlanır. Təpənin hündürlüyü 196 metrdir. ***Ağburun təpəsi*** malik olduğu özünəməxsus rənginə (*ağımtıl, ağ*) və ***burun*** ("*çıxıntı*", "*qurunun dənizə, gölə sivri surətdə soxulan hissəsi*", "*sıra dağlardan ayrılan qol*") formasına görə belə adlandırılmışdır.

Ağca duzu piri – Cəbrayıl rayonunun Quşçular kəndinin ərazisindəki qəbiristanlıqda tökmə təpə və daş hərləməsindən ibarət olan oroqrafik obyekt ***Ağca duzu piri*** adlanır. Bəzən onun adına ***At piri*** də deyirlər. Yerli sakinlər burada dəfələrlə xəstə atların sağalmasının şahidi olmuşlar. Elə bu səbəbdən də *pir* ***At piri*** adlandırılmışdır. Toponimin tərkibindəki ***Ağca*** sözü ilə bağlı müxtəlif fikir və mülahizələr vardır. Mənbələrdə ***Ağca*** sözünü şəxs adı ilə əlaqələndirirlər. Bu söz həm də "*boz*", *"bozumtul*", "*ağımtıl*", "*çöx da yüksək olmayan*", "*alçaq*" anlamlarını ifadə edir.

Ağcaqayınlı zəmi – Zəngilan rayonu ərazisində qeydə alınmış oroqrafik obyektlərdən biri ***Ağcaqayınlı zəmi*** adlanır. Bu *zəmi* sahəsində bir neçə *ağcaqayın* ağacı bitdiyi üçün toponim belə adlandırılmışdır.

Ağcayazı çölü, dağı, düzü, təpəsi – Laçın rayonu ərazisində, Zabux kəndi yaxınlığında, Qarabağ silsiləsinin ətəyində qeydə alınan oronimlər ***Ağcayazı dağı***, ***Ağcayazı düzü*** adlanır. ***Ağcayazı*** toponimi türk mənşəli ***ağca*** sözündən və qədim türk dillərində, o cümlədən, Azərbaycan dilinin bəzi dialekt və şivələrində "*çöl*, *düz*, *düzənlik*" mənasında işlənən ***yazı*** sözlərinin birləşməsindən əmələ gəlib. Toponimi ***Ağca*** şəxs adı ilə də əlaqələndirənlər var. Yerli əhali arasında toponim bəzən ***Ağcaəzi*** formasında da tələffüz olunur. ***Ağcayazı dağı*** da öz adını eyniadlı düzənliyin adından almışdır.

Ağdaban dağı – Kəlbəcər rayonunun ərazisində, Murovdağ silsiləsində yerləşən dağ. Bu oronim ***ağ*** və ***daban*** sözlərindən ibarətdir. V.A.Nikonovun fikrinə görə, ***daban*** türk və monqol mənşəli termin olub "*aşırım*" mənasını ifadə edir. ***Daban*** terminin "*təpə*", "*dağ yüksəkliyi*" və başqa məna çalarları da var. ***Daban*** komponentinin türk dillərində *"dava", "daba", "dabaqan", "davan", "daban"* və s. variantları da geniş yayılmışdır.

Ağdağ – Kəlbəcər rayonu ərazisində qeydə alınmış dağ. ***Ağdağ*** toponimi rəng bildirən ***ağ*** sözündən və müsbət relyef ifadə edən ***dağ*** terminindən ibarətdir. ***Ağ*** sözünün türk dillərində müxtəlif məna çalarlan var. T.M.Əhmədova görə, ***Ağdağ*** və s. bu kimi oronimlərin tərkibindəki ***ağ*** komponenti rəng mənasındadır.

Ağdam Cümə məscidi – Ağdama dəvət olunan məşhur memar Kərbəlayi Səfixan Qarabağı 1868-1870-ci illərdə Ağdamda qoşa minarəli yeni bir ***məscid*** tikir. Məscid sonralar ***Ağdam Cümə məscidi*** adlanır. Bu məscidin tikilməsilə o, özünü sərbəst bir memar kimi göstərmişdir. *Ağdam Cümə məscidinin* ümumi kompozisiyasına daxil olan bir cüt minarə də xüsusi şövqlə bəzədilib. Hər iki minarənin kürsülüyü məscidin divarlarında işlədilmiş yerli əhəng daşı ilə inşa olunub. Kürsülükdən sonrakı hissələri çardağa qədər bişmiş kərpiclə hörülüb. Silindrik şəkilli minarə gövdələrinin bir hissəsi relyefə malik olan qursaqlarla altı hissəyə ayrılır.

Ağdam Çörək muzeyi – Azərbaycanın Ağdam şəhərində ilk dəfə təşkil edilən bu muzey müqəddəs nemət olan çörəyə ehtiram rəmzi, ***çörək*** şərəfinə ucaldılan abidədir. Onun özünəməxsus maraqlı tarixi, səciyyəvi xüsusiyyətləri vardır; belə ki, muzey, köhnə dəyirmanda yaradılmışdır. Muzeyin girəcəyindəki ərazidə dən üyüdülürdü. Muzeydə xəmirin yoğurulması və təndirə yapılmasma baxmaq, isti çörəkdən dadmaq, botanika guşəsində ətir saçan limon ağaclarının ətrafında gəzinmək, bülbüllərin məlahətli səsinə qulaq asmaq buranı seyr edənlərə xoş təsir bağışlayır. ***Ağdam Çörək muzeyi*** özünəməxsus bir tərbiyə və mədəniyyət ocağını, ideoloji mərkəzi xatırladır. Burada olanlar dünya əkinçiliyi tarixini öyrənir, odlar yurdu olan Azərbaycanımızda əkinçilik mədəniyyətində baş vermiş dəyişikliklərlə tanış olurlar. Geoloji kəşfiyyatlar zamanı tapılan nadir; taxıl növləri əkinçilik alətləri, ulularımızın məişətdə işlətdikləri çörəklə bağlı çoxlu əşyalar və başqa nümunələr muzeydə nümayiş etdirilir. Əfətli kəndi ərazisində yerləşən Çalağan təpəsindən tapılmış 7 min il tarixi yaşa malik daşlaşmış buğda da muzeydə saxlanılır. Xalqımızın çoxəsrlik əkinçilik mədəniyyətindən bəhs edən bu eksponat böyük elmi əhəmiyyət daşıyır. Əkinçilikdən, taxıl növləri, milli çörəklərimizin xüsusiyyətləri və üstünlüklərindən bəhs edən kitabların, qəzet və jurnalların, nadir əlyazmaların muzeydə cəmləşməsi onun elmi ocaq kimi formalaşmasına zəmin yaradır. Muzeydə nümayiş olunan qədim əkinçilik alətləri: xış, kərki, qara kotan, oraq, çin, kirkirə, vəl, car-car, daş dibək, boyunduruq bəşəriyyətin keçdiyi tarixi yollara güzgü tuturdu. ***Muzey*** çörəyin iqtisadi və mənəvi tərbiyə

problemlərinin həllində böyük rola malik idi. ***Çörək muzeyi incisinin*** Ağdamda açılması heç də təsadüfi deyildir. Çünki, bu varlı, torpağı bərəkətli diyar binayı-qədimdən *çörəkli* olub. Elə buna görə də orta əsrlərdən üzü bəri müxtəlif ərazilərdən onlarla, yüzlərlə tayfa və tirələrə Ağdam öz qoynunda yer ayırmışdır.Çox təəssüf ki, ***Ağdam Çörək muzeyi*** işğal dövründə erməni vandalları tərəfindən dağıdılmış, viran qoyulmuşdur.

Ağdam dərəsi, Ağdam düzü, Ağdam yatağı – Bu oroqrafik obyektlər Cəbrayıl rayonu ərazisində **-** Nüsüs, Şəybəy, Kavdar kəndləri yaxınlığındadır. ***Ağdam dərəsi*** Nüsüs kəndində, ***Ağdam düzü*** Şəybəy kəndində, ***Ağdam yatağı*** oronimi isə Kavdar kəndində qeydə alınmışdır. Toponimin tərkibindəki ***Ağdam*** sözü *Ağdam* tirəsinin adı ilə əlaqədardır.

Ağdaş – Xocavənd rayonunun ərazisində qeydə alınmış coğrafi ad. ***Ağdaş*** sözü Azərbaycan dilində "*ağ çöl, ağ səhra, ağımtıl boş sahə*" məna kompleksi əsasında formalaşan coğrafi adlardandır.

Ağdaş dağı – Füzuli rayonunun Yağlıvənd kəndi ilə Dövlətyarlı kəndi arasında, Füzuli rayonunun şimal-qərbində qeydə alınan dağdır. Oronim "ağ rəngli dağ, qaya" deməkdir. Dağın zirvəsi həqiqətən ağ rəngli sal qayadan ibarətdir.

Ağdaş dağı – Kəlbəcər rayonunun ərazisində dağ.

Ağdaş dərəsi – Xocalı rayonu ərazisində, Kərkicahan yaşayış məntəqəsi yaxınlığında qeydə alınan coğrafi ad. Buradakı karxanadan ***ağ*** rəngli sal daş və əhəng çıxarılırdı.

Ağdaş güneyi – Cəbrayıl rayonunun Quycaq kəndi ərazisində qeydə alınmışdır. Qədim türk dillərində ***güney*** sözünün "*cənub*" mənası vardır. Türkdilli xalqlarda bu söz indi də işlədilir.

Ağdaş yüksəkliyi – Xocalı rayonu ərazisində. Kərkicahan yaşayış məntəqəsinin yaxınlığında yerləşən starteji yüksəklikdir. Bu yüksəkliyin yaxınlığında *Ağdaş* adlı dərə də var.

Ağdərə – Cəbrayıl rayonunun Çərəkən kəndi yaxınlığında qeydə alınan oronimlərdən biri də ***Ağdərə*** oroqrafik obyektidir.

Ağdərə ağzı, Ağdərə ağılı – Laçın rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlər. ***Ağdərə ağzı*** adlanan oroqrafik obyekt Laçın rayonunda, dağətəyi-düzənlik ərazidə yerləşir.

Ağgədik dağı – Laçın rayonu ərazisində qeydə alınan ***Ağgədik dağı*** coğrafi adı ***ağ*** və ***gədik*** sözlərindən ibarətdir. ***Ağ -*** "*kiçik*" mənasındadır. ***Gədik -*** "*dağ belində batıq yer*", "*dağ keçidi*", "*aşırım*" mənaları daşıyır. ***Aggədik*** töponimi "*dağ keçidi*" anlamındadır.

Ağgədik yurd yeri – Xocalı rayonunda, Xanabad inzibati ərazi vahidində, dağətəyi ərazidə qeydə alınan toponim. Bu oroqrafik obyektin keçmiş adı ***Ağdar***, sonralar – 1992**-**ci ilə qədər ***Kötük***, ***Kətük*** olmuşdur. 1992-ci ildə yerləşdiyi fiziki-coğrafi mövqeyə əsasən əraziyə ***Ağgədik*** adı verilmişdir. Ərazidə Ağgədik adlı kənd də var.

Ağgüney – Laçın rayonunda, Dəyhan kəndi yaxınlığında qeydə alınmış oroqrafik obyektlərdən biri də ***Ağgüney*** adlanır. Toponim "*günəşli kiçik təpə*" mənasındadır.

Ağıl dərəsi – Cəbrayıl rayonunun Aşağı Məzrə kəndində qeydə alınmışdır. Toponimin tərkibindəki ***ağıl*** sözü "*mal-qara və davar saxlanan yer*" deməkdir. ***Ağıl dərəsi*** toponimi "*mal-qara və davar saxlanan dərə*", "*mal-qara saxlanan çay yatağı*" mənasındadır.

Ağıl dərəsi – Füzuli rayonunun ərazisində qeydə alınan oronim. ***Ağıl dərəsi*** rayon mərkəzindən 40 km cənub-şərqdə, Kərimbəyli kəndi yaxınlığındakı dərədə qeydə alınıb. Bu oronim dərədə keçmişdə ***ağılların*** yerləşməsi ilə bağlıdır. ***Ağıl*** - *"gecələr qoyunların saxlandığı yer"* mənasındadır.

Ağıldərə – Füzuli rayonunun ərazisində qeydə alınan dərə. Bəzi coğrafi adların tərkibində iştirak edən ***ağıl*** sözü *"gecələr qoyun saxlanılan yer"* anlamındadır.

Ağız güneyi – Qubadlı rayonunun ərazisində qeydə alınmış oroqrafik obyekt. ***Ağız*** – çoxmənalı metofor termindir; "*çayın, axar suyun, su obyektinə, dənizə, gölə töküldüyü yer*', "*dərənin düzənliyə çıxan hissəsi*", "*bir yerin giriləcək tərəfi*", "*girəcək, qapı*" və s. mənalarda işlədilir. ***Ağız güneyi*** toponimi "*Güneyə daxil olan yer*" mənasındadır. Bu yer dərədən düzənliyə keçildiyinə, düzənliyə çıxıldığına görə belə adlandırılmışdır.

Ağqaya – Ağdam rayonunun Abdal kəndi ərazisində qeydə alınmışdır. ***Ağqaya*** coğrafi addır. ***Ağ*** sözünün toponimiyada müxtəlif məna çalarları vardır. Türk dillərində bu sözün "*bəyaz*", "*kiçik*", "*saf, təmiz*", "*ləkəsiz*", "*irq*", "*itaət etməmək*" və s. anlamları var. Mürəkkəb quruluşlu ***Ağqaya*** oroniminin tərkibindəki ***ağ*** komponenti qədim Azərbaycan dilində "*uca"* mənasında işlədilirdi.

Ağqaya – Cəbrayıl rayonu ərazisində, Dağ Tumas kəndi yaxınlığında qeydə alınmış oronimlərdən biri ***Ağqaya*** adlanır.

Ağqaya – Füzuli rayonunun ərazisində, Dilağarda kəndi ətrafında qeydə alınan qaya.

Ağqaya – Xocalı rayonunun ərazisində, Meşəli kəndi yaxınlığında qeydə alınan toponimlərdən biri də ***Ağqaya*** adlanır.

Ağqaya – Xocavənd rayonunun ərazisində qaya. Respublikamız ərazisində bir sıra ***qaya***, dağ, yoxuş, gədik, zirvə, təpə, dərə, çuxur və digər oroqrafik obyektlərə süxurlarının rənginə görə ad verilmişdir.

Ağqaya – Laçın rayonunda, İkinci Tığıq kəndi ərazisində qeydə alınmış oroqrafik obyekt. ***Ağ*** sözünün toponimiyada müxtəlif məna çalarları var. ***Ağ*** sözü türk dillərində "*bəyaz*", "*təmiz*", "*saf*", "*kiçik*", "*itaət etməmək*", "*irq*", "*ləkəsiz*" və s. anlamlarda işlənir. Mürəkkəb quruluşlu ***Ağqaya*** oroniminin tərkibindəki ***ağ*** komponenti qədim Azərbaycan dilində "*uca*" mənasında işlədilmişdir. Bu coğrafi ad süxurlarının rənginə görə belə adlandırılıb.

Ağqaya dağı – Kəlbəcər rayonunda qeydə alınmış coğrafi ad.

Ağqaya dağı – Şuşa rayonu ərazisində qeydə alınmış dağ.

Ağoğlan abidəsi – Cəbrayıl rayonunda, Cəbrayıl şəhərinin yaxınlığında, Çərəkən kəndinin günbatanında, Ağoğlan dağı zirvəsində yerləşən köhnə qəbiristanlıq ərazisində qeydə alınmışdır. Adına bəzən ***Ağoğlan piri*** də deyirlər. Qəbrin üstündə 0,8m × 2m × 1,8m ölçülü daş kitabə vardır. Mütəxəssislərin dediklərinə görə, onun üzərindəki yazılar türk-rum hərfləri ilə döyülmüşdür. ***Ağoğlan*** oroniminin adı eyniadlı pirin adından götürülmüşdür. Çox güman ki, yerli türk əhali əvvəl pirə, sonra isə dağa bu adı vermişdir. Türk dillərində ***oğlanak*** sözü "*kiçik oğlan*", "*kiçik şahzadə*" anlamını ifadə edir. Bu tarixi ***abidə*** ilə bağlı yerli əhali arasında bir neçə əfsanə-rəvayət formalaşmışdır. Onlardan birinin süjeti də təxminən bundan ibarətdir ki, ***ağappaq*** gözəl, igid bir oğlan (*bəlkə də* ***Ağoğlan*** *adı bu mənada işlənmişdir*) burada qeyri-bərabər döyüşdə öldürülmüş, elə buradaca dəfn olunmuşdur. Əfsanələrə görə, ***Ağoğlan dağı***

ilk insanın yaşayış məskəni olmuşdur. *Ağoğlan piri*, *Ağoğlan dağı* adlandırılan bu ərazidə miladdan öncə I minillikdə böyük şəhərin olduğu güman edilir. Bəzi tarixi sənədlərdən aydın olur ki, *Ağoğlan şəhəri* XIII əsrdə monqollar tərəfindən dağıdılmışdır. İ.Petruşevskinin "*Ağ oğlan*" haqqında yerli əhalidən eşitdiyi tarixi əfsanənin qısa məzmunu belədir: *İgid, yenilməz Ağ oğlan xalqını yağılardan qoruyurdu. Yağılar yenə hücuma keçir. Ağ oğlan onlarla vuruşur. Yağılar çox idi. Ağ oğlan döyüşdə yaralanır və ölür. O, elə orada – dağda basdırılır*". Cəbrayıl rayonu ərazilərinin tarixi coğrafiyası haqqında bir çox cəfəngiyyatlar uydurmuş XIX əsr erməni müəllifi M.Barxudaryanın, yanlış olaraq "*Spitaq tığa*" ("***Ağ oğlan***") adlandırdığı bu ***qəbir-abidə*** onun fıkrincə, guya, erməni abidəsi olmaqla, xaçpərəstlik dövründən qalmışdır. ***Ağoğlan*** toponimi "*müqəddəs övlad*" mənasındadır.

Ağoğlan dağı – Laçın rayonu ərazisində, Qarabağ yaylasında, Ağoğlan çayı sahilinin yaxınlığında yerləşən dağ. ***Ağoğlan dağı*** oronimindəki ***ağ*** sözü "*paklıq*", "*müqəddəslik*" mənasındadır. ***Ağoğlan*** toponimi "*müqəddəs oğlan*" anlamına uyğundur.

Ağoğlan dərəsi – Füzuli rayonunun Yuxarı Veysəlli kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Ağoğlan dərəsi*** adlanır. İ.Petruşevskiyə və R.Göyüşova görə, ***Ağoğlan*** coğrafi adları müqəddəsliklə, tapınaqla bağlıdır. Onlar belə bir fərziyə irəli sürürlər ki, ***Ağ oğlan*** mifi bitki (*Ağac*) və *Günəş* mifi ilə ilişgilidir. ***Ağ oğlan*** mif obrazı göy tanrısı, dünya ağacı ilə bağlıdır. ***Ağ oğlan*** tapınağı astrial miflə əlaqəlidir. Türk xalqları arasında geniş yayılmış əfsanədə ***Ağoğlan*** ilk insandır. Azərbaycan mifində deyilir ki, o, gündə 3 dəfə gözə görünər, günün qalan vaxtını isə meşəyə çəkilib tək yaşayarmış.

Ağoğlan qəsri – Laçın rayonunun Kosalar kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri də ***Ağoğlan qəsri*** adlanır. Onun tikilməsi ilə bağlı çoxlu maraqlı rəvayətlər var ki, onlardan biri də belədir: - Qədim zamanlarda bu ərazidən keçən gənc bir səyyah buranın gözəl təbiətinə vurulduğundan burada qəsr tikdirməyi qərara alır. Bu məqsədlə o, ustalar toplayıb könüllülərdən ibarət bir dəstə düzəldərək işə başlayır. Gənclərin arasında biri çox gözəl olduğu üçün əhali onu ***ağ oğlan*** adlandırır. Bir dəfə günorta yeməyinə toplaşan vaxt bir qaranquş aşpazın başına fırlanıb, onun camaata yemək verməsinə mane olmağa çalışır. Quşun bu hərəkətinə hamı maraqla tamaşa edir, ancaq heç kim bir şey başa düşmür. Birdən qaranquş özünü qaynar qazanın içinə ataraq öldürür. Bundan hiddətlənib-acıqlanan aşpaz yeməyi kənara boşaldan zaman qazanın içində ölü bir ilanın olduğunu görəndə hamı heyrətdən donub qalır. Qəsrin sahibi də bu xilaskar quşun cəsədini təntənəli surətdə basdırır və qəsri ***Qaranquş qəsri*** elan edir. Amma zaman ötdükcə xalq arasında qəsri tikdirənin xeyirxahlığının şərəfinə onu ***Ağoğlan*** adlandırırlar. ***Ağoğlan*** tapınağının (*məbədinin*) xarabalığı indi də durur. O, dağın başında, tək ağacın yanında tikilib. Onun belə yerdə tikilməsi əski türk xalqlarının mif görüşünə görə başlıca şərt idi. Görünür, Qarabağda yaşayan türkdilli, azərbaycandilli saqlar və arsaqlarda da ***Ağoğlan*** mif dastanı varmış. Bu dastanın "izlərini" xalqımız indi də yaşadır. Ağoğlanın atası tanrıdır. O, göydə doğulub. Ata-anası ona dirilik suyu vermiş və onu yerə endirmişlər. Bir gün Ağoğlan vuruşmada ölür; üzərinə dirilik suyu sıçradılandan sonra, o dirilir. Dastanın bütün variantlarında Ağac Xaqan ilk insan olan Ağoğlanı himayə edir, qoruyur, bəsləyir. Bəzi sənədlərdə ***Ağoğlan qəsri*** abidəsi IX əsr memarlıq incisi kimi göştərilsə də, məbədin daha əvvəllər tikildiyi ehtimal edilir.

Ağoğlan piri – Füzuli rayonu ilə Xocavənd rayonlarının sərhədləri yaxınlığında qeydə alınmış pir-abidə. Oronimin belə adlanması ilə bağlı el arasında müxtəlif rəvayətlər uydurulmuşdur. Onlardan birinin süjet xətti belədir: *ağappaq*, gözəl, igid bir oğlan (bəlkə də ***Ağoğlan*** adı bu mənada işlədilmişdir) bu yerlərdə qeyri-bərabər bir döyüşdə öldürülür və elə buradaca dəfn olunur. Vaxtilə bu yerlərdə **Ağoğlan** adlı bir monastr da olub. Professor Petruşevskiyə görə, **Ağoğlan piri** bütpərəstlik dövrünün abidəsidir. Bu fikri digər tədqiqatçılar da təsdiq edir. Sonrakı dövrlərdə ***Ağoğlan piri*** xristianlıq məbədinə və müsəlmanların ibadətgahına çevrilmişdir.

Ağoğlan piri – Xocavənd və Füzuli rayonları ərazilərində qeydə alınmış oronim. Oronimin belə adlanması ilə bağlı el arasında müxtəlif rəvayətlər uydurulmuşdur. Ağac xaqanın döşünü əmən ***Ağ oğlan*** onun məsləhəti ilə yol gedir və Qaraxan ölkəsində cəhənnəmin yiyəsi Buura Dohsunu öldürür və orada evlənir. "*Ağ oğlan*"dakı Günəşlə ilişgili Dünya Ağacı da ***Ağ oğlana*** yardım edir. ***Ağoğlan*** sözü "*pak, təmiz, müqəddəs oğlan, övlad*" mənasındadır.

Ağsu dərəsi – Laçın rayonunun Budaqdərə kəndi ərazisində qeydə alınan dərə.

Ağsu təpəsi – Laçın rayonunun Budaqdərə kəndi ərazisində təpə.

Ağtəpə – Cəbrayıl rayonunun Ağtəpə kəndi yaxınlığında qeydə alınan oronim. Bir qısım tədqiqatçılara görə ***Ağtəpə*** oronimindəki ***ağ*** sözü təpənin süxurlarının rəngini özündə əks etdirir.

Ağtəpə – Füzuli rayonunun Dövlətyarlı kəndi yaxınlığında qeydə alınmış oroqrafik obyekt ***Ağtəpə*** adlanır. Kəndin yaşlı sakinlərinin dediklərinə görə, vaxtilə ***Ağtəpə*** və ona yaxın ərazilərdə qaçaqlar gizlənirmiş, burada qanlı toqquşmalar baş vermiş, kütləvi qırğınlar törədilmişdir.

Ağtəpə – Kəlbəcər rayonu ərazisində qeydə alınmış təpə adı.

Ağtəpə – Laçın rayonunun Hocaz kəndi yaxınlığında qeydə alınan coğrafi adlardan biri.

Ağvan dərəsi – Qarabağ silsiləsində, Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 12 kilometr məsafədə, Şuşa rayonunun ərazisi ilə sərhəddə, Malıbəyli kəndi yaxınlığında qeydə alınan coğrafi adlardan biri də *Ağvan dərəsi* toponimidir. Yerli əhali toponimi bəzən ***Alvan dərəsi*** kimi də tələffüz edir. Tarixdən məlumdur ki, Azərbaycanın qədim türk mənşəli tayfalarından biri ***alban*** (***ağban, ağvan***) olmuşdur. Bəzi qədim mənbələrdə Qafqaz Albaniyasının adı da ***Ağvan*** formasında çəkilmişdir. ***Ağvan*** (***alban***) sözü türk mənşəli toponimdir. ***Ağvan*** (***alban***) adı ilk dəfə miladdan öncə IV əsrin ikinci yarısında baş verən hadisələrlə əlaqədar çəkilir (*II əsr müəllifi Arrian – N.T.*). Toponimin tərkibindəki ***ağ*** (al) "*ucalıq*" mənasını ifadə edir. ***Ağvan*** (***alban***) toponimini "*idarə edənlərin mühafizə olunan yurdu*" mənası ilə yozanlar vardır. Toponimin tərkibindəki ***van*** (***ban***) komponenti "*işıqlı, sulu, uca yer*" anlamındadır. ***Ağvan*** (***aqban***) sözünün mənası "*ən ucalar*" deməkdir. ***Ağuvan*** sözünün "*atəşpərəstlər məmləkəti*" mənası da məlumdur. ***Ağu*** – "*atəş*" anlamındadır. İ.Şopen, N.Y.Mar, K.V.Trever və başqaları ***Ağvan*** (***Alban***) sözünü "*dağlıq ölkə*" kimi mənalandırırlar. ***Ağvan*** (***Alban***) etnonimini Qafqaz dil ailələrinə mənsub edənlər də vardır. ***Alban*** (***Alpan***) etnonimini ***alb*** (***alp***) və ***an*** hissələrinə ayıran tədqiqatçılar da var. Türk dilinə mənsub olan ***alb*** (***alp***) sözü "*qəhrəman*" mənasındadır; -***an*** isə cəm şəkilçisidir. Deməli bu anlamda ***alban*** etnonimi "*qəhrəmanlar*" anlamına uyğun gəlir. ***Ağvan*** (***Alban***) toponiminin paralellərinə Azərbaycanın müxtəlif ərazilərində də rast gəlmək mümkündür.

Ağvan düzü – Şuşa rayonunun Malıbəyli kəndinin ərazisində qeydə alınan ***Ağvan düzü*** oroniminin tərkibindəki ***Ağvan***/***Ağban*** sözünün mənası "*ən uca ev*" deməkdir. ***Ağ***/***al*** – "*ucalıq*" mənasındadır.

Ağvanbaşı – Şuşa rayonunun Malıbəyli kəndində qeydə alınan ***Ağvanbaşı*** oroniminin tərkibindəki ***Ağvan*** sözünün mənası "*ən uca ev*" deməkdir. ***Ağ/al*** – "*ucalıq*" mənasındadır.

Ağyal – Laçın rayonunun Zabux kəndi ərazisində qeydə alınıb. Toponim rəng bildirən ***ağ*** sözündən və müsbət relyef formasını ifadə edən ***yal*** terminindən düzəlmişdir.

Ağyar dağı – Laçın rayonunun Qarıqışlaq kəndi ərazisində yerləşir. Xalq coğrafiya terminlərindən olan **yar** mənfi relyef forması bildirən sözü toponimiyada "*yarğan*", "*çay sahilində uçurum*" mənalarında işlədilir.

Ağyataq civə yatağı – Kəlbəcər rayonunda, Moz çayı ilə Kilsəli kəndi arasında qeydə alınan yataq. Yatagın geoloji quruluşunda Üst Təbaşir, Orta Eosen və Pliosen vulkanogen-çökmə süxurları, hiperbazitlər, Üst Eosen-Oliqqsen yaşlı qabbro və qranitoid intruzivləri və Pliosen subvulkanik dasitləri iştirak edir. Filizləşmə damarcıq və möhtəvi tiplidir. Civə mineralı olan kinovann (HgS) mənşəyi yataq sahəsində hiperbazitlərlə əlaqədardır.

Ağyataq dağı – Kəlbəcər rayonunun Kilsəli kəndi ərazisində dağ. Oronımin tərkibindəkı ***ağ*** sözü *yataqların* yerləşdiyi ərazinin torpağının *ağımtıl* olması ilə əlaqədardır. **Ağyataq dağı** Kiçik Qafqazda, Kəlbəcər rayonunda maksimal hündürlüyü 2389 metr olan yüksəklikdədir. Dağın yamacları meşə, yüksək hissəsi isə subalg çəmənləridir. Ağyataqda civə yataqları da var. Kəlbəcər rayonunda ***Ağyataq kəndi*** də var.

Ağyazı – Qubadlı rayonunun Xələc kəndində qeydə alınmış coğrafi ad. Qanıx çayının sol sahilində də ***Ağyazı*** adlı düz vardır.

Ağyoxuş – Laçın rayonunun Zabux kəndi ərazisində qeydə alınmış yoxuş.

Ağyoxuş düzü – Xocavənd rayonunun Muğanlı kəndi ərazisində qeydə alınan oroqrafik obyekt.

Ağzıyastı kaha – Şuşa rayonunun çox mənzərəli yerində, Cıdır düzünün yuxarı hissəsində, Üçmıx dağının altındakı çeşmənin ətrafında yerləşir. "*Uç mıx*"ın cənub tərəfində yerləşən bu təbii kahanın qarşısında təxminən 30 kvadrat metrə bərabər yastıfason düz bir sahə olduğu üçün bu kahaya ***"Ağzı yastı kaha"*** deyirlər. Kahaya doğru gedən nazik bir cığırın sağ tərəfi Üç mıx dağı, sol tərəfi isə uçurumdur.

Axar-baxar dağ – Kəlbəcər rayonu ərazisində, Ermənistanla sərhəddə yerləşən dağ. ***Axar-baxar*** oronimi Azərbaycan dilindəki ***axar*** və ***baxar*** sözlərindən ibarətdir.

Axar-baxarlı – Cəbrayıl rayonunda, Nüzgər kəndinin ərazisində qeydə alınmış oroqrafik obyektlərdən biri ***Axar-Baxarlı*** adlanır.

Axərəm piri – Cəbrayıl rayonunun Göyərçin Veysəlli kəndinin şimal-qərbində, qədim karvan yolunun üstündə qeydə alınan oroqrafik obyektlərdən biri də ***Axərəm piri*** adlanır. Bəzən bu coğrafi adı sənədlərdə ***Ağhərəm*** şəklində də yazırlar. Pirin giriş qapısı hasarın şimalındandır. ***Pir-ocaq inanışı*** Azərbaycanda yaranan atəşpərəstlik və bura kənardan gətirilən xristian, İslam dinlərinin təsirinə məruz qalsa da, yaşantısını itirməmişdir. Pirlərdə kəsilən qurbanlar qutsal sayılır.

Axmaz – Füzuli rayonu ərazisində, Qorqan kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Axmaz*** adlanır. Toponimin adından da göründüyü kimi, ***Axmaz*** dedikdə, su tutumu olan, amma "*axmayan su yığımı*" nəzərdə tutulur.

Axullu yalı – Füzuli şəhərindən 10 km qərbdə, Xocavənd (*keçmiş Martuni və Hadrut rayonları*) rayonu ilə sərhəddə yerləşən yüksəklik. ***Axullu yalı*** Qarabağ silsiləsinin ətəyində yerləşir. Toponim vaxtilə Füzuli rayonu ərazisində yaşayan ***Haxıllı*** nəslinin adındandır. *Haxıllı* nəsli həmin ərazidə ***Axullu*** adlı kənd də salmışdır.

Ala göllər dağı – Laçın rayonu ərazisinin şimal-qərbində, Qarabağ yaylasında yerləşən dağın adıdır. Dağın hündürlüyü 3175 metrdir. ***Ala göllər*** dağı öz adını yaxınlıqdakı eyniadlı ***göllərin*** adından almışdır. ***Dağın*** ətraf süxurlarının rəngi ***aladır.***

Ala öküz dərəsi – Cəbrayıl rayonunun Nüzgər kəndi ərazisində qeydə alınan coğrafi ad.

Alabaxtalı düz – Cəbrayıl rayonunun Qalacıq kəndi yaxınlığında, Baş Butar ilə Budaqlı dərə arasında qeydə alınan oroqrafik obyektlərdən biri. Həmin *düzdə* vaxtilə tez-tez meşə göyərçini hesab edilən ***alabaxta*** quşları olduqlarına görə yerli əhali bu yeri belə adlanmışdır.

Alaçıqlar – Qarabağ silsiləsinin ətəyində, Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 22 -24 kilometr məsafədə qeydə alınan oroqrafik obyekt. Adətən, köçərilərin "*mənzilinə*" ***alaçıq*** deyirlər. ***Alaçıqlar*** dairəvi şəkildə yerə basdırılan, yuxarı ucları günbəzvarı birləşdirilən, bəzən üzərinə keçə və s. salınan çubuqlardan qurulan çadırlardır. Onun ətrafı çubuq və ya qamışdan toxunan cığ ilə dövrələnir. Adətən alaçıqların girəcəyi keçə və kilim ilə örtülür.

Aladaş dərəsi – Qubadlı rayonunun ərazisində qeydə alınan dərə.

Alağacın düzü – Laçın rayonunun Qızılca kəndi ərazisində qeydə alınan oroqrafik obyekt adlarından biri də ***Alağacın düzü*** oronimidir. Toponim bir qədər təhrifə uğrayıb: əslində ***Alaağacın düzü*** olmalıdır.

Alakol – Vaxtilə Cəbrayıl rayonunun ərazisində qeydə alınan coğrafı adlardan biri də ***Alakol*** adlanırdı. Rayon ərazisində bu adda yaşayış məntəqəsi mövcud olmuşdur.

Alakölgə – Cəbrayıl şəhərində qeydə alınan oroqrafik obyektlərdən biri ***Alakölgə*** adlanır. ***Alakölgə*** toponimi "*həm kölgə, həm işıq olan yer*", "*həm kölgəli, həm işıqlı olan yer*", "*həm kölgəlik, həm işıqlıq*" anlamındadır.

Alaqaya dağı – Qarabağ silsiləsinin şimal hissəsində, Kəlbəcər, Laçın, Ağdərə rayonları sərhədində yerləşir. Dagın hündürlüyü 2583 metrdir. Uzaqdan alabəzək göründüyü üçün o, ***Alaqaya dağı*** adının almışdır.

Alaqaya təpəsi – Cəbrayıl rayonunun Aşağı Məzrə kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri də ***Alaqaya təpəsi*** oronimidir.

Alaqurşaq yeri – Qubadlı rayonu ərazisində, Alaqurşaqlı kəndi yaxınlığında, Həkəri çayı sahilində qeydə alınmış oroqrafik obyekt. Bu yerlərdə əvvəllər *Şotlanlı* tayfasına mənsub olan nəsillər yaşamışdır. ***Alaqurşaq*** toponimi ***ala*** ("*boz rəng*") və ***qurşaq*** (*həmin sahədəki daşlar kəmərə və qurşağa bənzədiyi üçün*) sözlərinin birləşməsindən əmələ gəlib, "*boz rəngli qurşaqda salınmış yer*" mənasını verir.

Alapalıdlıq – Şuşa rayonunda, Turşsu ərazisində qeydə alınmış oronim. ***Alapalıdlıq*** həmin ərazidə ***palıd*** ağacının çoxluğunu bildirən coğrafi nomensiz mikrotoponimlərdəndir.

Alastan dərəsi – Cəbrayıl rayonunun Nüzgər kəndi ərazisində qeydə alınan oronim. ***Alastan*** - şəxs adıdır. Bəzi tədqiqatçılar toponimi oronimin tərkibindəki ***ala*** sözü ilə əlaqələndirərək, dərənin bitki aləminin seyrəkliyi, *alabulalığı* ilə bağlayırlar...

Alaşar qaya – Laçın rayonunda qeydə alınan oronim. Azərbaycan toponimiyasında rast gəlinən terminlərdən biri də ***alaşar* (*alışar*)** sözüdür. ***Alaşar*** sözü qədim türk dillərində "alçaq dağ" anlamında işlənir. ***Alaşar*** sözü bəzən ***Alasar*** kimi də qeyd olunur.

Alaşar yalı – Cəbrayıl rayonunun Daş Veysəlli kəndi ərazisində qeydə alınmışdır. ***Alaşar*** (***alasar***) sözü qədim türk dillərində "*alçaq dağ*", "*hündür təpə*", "*alçaq dağlıq*", "*dağ*" mənaları bildirir. ***Alaşar yalı*** toponimi "*alçaq dağ yalı*" mənasındadır.

Alban baş daşı – Cəbrayıl rayonu ərazisində, rayonun İsaqlı kəndinin qəbiristanlığının yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri. Yerli məlumata görə, qədim tarixə malik olan bu *alban baş daşını* ermənilər Qarabağ hadisələrinin ilk illərində **-** 1988**-**ci ildə rus əsgərləri ilə birlikdə vertolyota qoyaraq naməlum istiqamətə aparıblar...

Alban düzü – Cəbrayıl rayonunun Qazanzəmi kəndi yaxınlığında, Çullu kəndinə gedən yolun quzey hissəsində, Daşlı yoxuşun alt tərəfində qeydə alınan oroqrafik obyekt ***Alban düzü*** adlanır. Vaxtilə burada *albanların* məskunlaşması ilə əlaqədar olaraq toponim belə adlandırılmışdır.

Alban kilsəsi – Xocavənd rayonunun ərazisində, Tuğ kəndindən 5 kilometr aralıda, Salakətin kəndinin 2 kilometrliyində, Qarabağ silsiləsinin ətəyində qeydə alınan kilsə. Bu ***Alban kilsəsi*** V əsrə aid olan tarixi memarlıq abidələrimizdəndir. Kilsənin ***Alban*** adlanması Qafqaz Albaniyasının qədim əhalisi olan ***albanlar*** ilə bağlıdır. ***Kilsə*** – xrisitan dinində ibadət binasıdır. Tuğ kəndinin işğalından (*30.10.1991-ci il*) sonra bu mədəni və dini abidə də ermənilər tərəfindən qismən dağıntıya məruz qalmışdır. Yerli məlumata görə, əvvəllər ***Alban*** kilsəsinin yerləşdiyi bu ərazilərdə azərbaycanlılar yaşamışlar. Sonralar bu kilsənin yaxınlığında ermənilər (*onların böyük bir hissəsi Draxtik ermənilərdir*) məskunlaşdırılmışdır. XX əsrin ortalarında ermənilər Salakətin kəndinin aşağısında yeni bir kənd salmışlar. 2020-ci ilin payızında ***Alban kilsəsi*** erməni işğalından azad edilmişdir.

Alban qəbiristanlığı – Xocavənd rayonunda, Qaradağlı kəndi ərazisində qeydə alınmış oroqrafik obyektlərdən biri ***Alban qəbiristanlığı*** adlanır. Yerli məlumata və araşdırmalara görə bu ***qəbiristanlıq*** ərazidə ***albanlar*** dəfn olunmuşdur. Tarixi bilgilərə görə, ***albanlar*** 26 tayfadan ibarət (*Strabon və başqaları*) olmuşlar. Onlar Azərbaycan xalqının əsas etnik komponentlərini təşkil edir. Respublikamız ərazisində aparılan arxeoloji qazıntılar zamanı Qarabağ və Şirvan bölgələrində qədim və orta əsrlərə aid ***Alban abidələri*** aşkarlanmışdır. Füzuli rayonunun ərazisində də ***Alban qəbiristanlığı*** coğrafi adına rast gəlirik.

Alban mağarası – Bozdağın sıldırım qayalığında, Xaçın çayının sahilində, Ağdam rayonunun ərazisində qeydə alınmışdır. Adətən mağaraları speleologiya elmi öyrənir. Mağaraya Azərbaycanda kaha və ya zağa da deyilir. ***Mağara*** vaxtilə albanlara məxsus olduğu üçün belə adlanmışdır. Albanlar Qafqaz Albaniyasının əsas əhalisi olmuşdur. Antik və erkən orta əsr müəllifləri onlar haqqında kifayət qədər məlumat vermişlər. Azərbaycan ərazisində formalaşmış albanlar Azərbaycan xalqının əsas etnik komponentlərindən biri olmuşdur. Azərbaycanda aparılan arxeoloji qazıntılar zamanı tapılmış abidələr alban tayfalarının təsərrüfatının, ictimai, iqtisadi və mədəni həyatının yüksək inkişaf etdiyini göstərir.

Alban məbədi – Xocavənd rayonunda, Böyük Tağlar kəndi ərazisində qeydə alınmış məbəd. XIII əsrə aid olan bu *məbəd* **1241**-ci ildə inşa olunmuşdur. ***Alban məbədi*** Xocavənd rayonunun qiymətli tarixi-memarlıq abidələrindən biri hesab olunur. Məbədlərin əhəmiyyəti yerinə yetirdiyi dini funksiyalardan, həyata keçirdiyi dini ideyalardan daha genişdir. Milli memarlıq abidəsi hesab olunan ***məbədlər*** ictimai yığıncaq, təntənəli mərasim yeri olmuş və memorial xarakter daşımışdır. ***Məbəd*** tikililəri (*məscid, kilsə, iqamətgahlar, sınaqoqlar*) müxtəlif ölkələrdə memarlığın

inkişafına uyğun olaraq tarixən formasını dəyişmiş və milli xüsusiyyət kəsb etmişdir. Məbədin ***Alban*** adı alması Qafqaz Albaniyasının qədim əhalisi olan ***albanlarla*** əlaqədardır. Albanların adı ilk dəfə miladdan öncə IV əsr hadisələri (*Makedoniyalı İsgəndərlə Daranın döyüşlərində*) ilə bağlı çəkilmişdir (*II əsr müəllifi Arrian*). Strabonun verdiyi məlumata görə **26** alban tayfası olmuşdur. Qədim müəlliflər albanları formaca ucaboylu, yaraşıqlı, alagözlü, sarışınsaçlı kimi təsvir etmişlər. ***Albanlar*** Azərbaycan ərazisində formalaşmış Azərbaycan xalqının əsas etnik komponentlərindən biridir. Arxeoloji tədqiqatlar, qazıntılar zamanı Azərbaycan ərazisində çoxlu sayda qədim ***Alban*** abidələri üzə çıxarılmışdır...

Alban məbədi – Qarabağ silsiləsində, Xocalı rayonu ərazisində bir neçə ***Alban məbədi*** vardır. Onlara nümunə olaraq VII əsrdə Badara kəndində tikilmiş məbədi, *905*-ci ildə Şuşikənd kəndində tikilmiş məbədi, *1065* və *1100*-cü illərdə Çanaxçı kəndində inşa edilmiş məbədləri, eləcə də *1100*-cü ildə Xaçmaz kəndində, *1122*-ci ildə Xansex kəndində, *1202*-ci ildə Armudlu kəndində tikilmiş məbədləri, Kərkicahan qəsəbəsi ərazisində orta əsrlərdə tikilmiş Alban məbədini və digərlərini göstərmək olar. İbadət və dini mərasimlər keçirilməsi üçün nəzərdə tutulan tikili ***məbəd*** adlanır. ***Məbəd*** binaları (*ibadətgahlar, məscidlər, kilsələr, sinaqoqlar*) müxtəlif ölkələrdə memarlığın inkişafına uyğun olaraq tarixən şəklini dəyişmiş və milli xüsusiyyət kəsb etmişdir. ***Məbədlər*** tarixən ictimai yığıncaq, təntənəli mərasim yeri olmuş, memorial xarakteri daşımışdır. Məbədlərin əksəriyyəti dövlət tərəfindən qorunur. Orta əsrlər dönəmində Qarabağ ərazilərində, o cümlədən Xocalı rayonu ərazisində onlarla ***məbəd*** inşa edilmişdir. Bu məbədlərin bəziləri Albaniya dövlətinin varlığı dönəmində inşa edildiyi üçün ***Alban məbədi*** kimi tarixiləşmişdir...

Alçalı çuxur – Laçın rayonunda qeydə alınmış oronim. ***Alçalı çuxur*** oronimi Mığıdərə kəndi ərazisində qeydə alınıb. ***Alçalı*** fitotoponimi quruluşca düzəltmə toponimdir.

Alçalı dağ – Laçın rayonunda qeydə alınmış dağ.

Alçalı dərə – Cəbrayıl rayonu ərazisində qeydə alınan dərə.

Alçalı dərə – Kəlbəcər rayonunda qeydə alınmış oroqrafik obyekt adlarından biri də ***Alçalı dərə*** adlanır.

Alçalı dərə – Qubadlı rayonunun ərazisində qeydə alınan dərə.

Alçalı yal – Şuşa raonunun ərazisində qeydə alınan yal.

Alçalıq – Xocalı rayonunun ərazisində, rayon mərkəzindəın 40 kilometr aralıda, Qırxqız dağının ətəyində, Qarabağ silsiləsinin yamacında, Qayabaşı kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri də ***Alçalıq*** adlanır. Oronim həmin ərazidə bitən gülçiçəklilər fəsiləsindən olan çəyirdəkli, hündürlüyü 3-10 metrə çatan ***alça*** meyvə ağacının adı ilə bağlıdır.

Alxan düzü – Xocavənd rayonunda, Axullu kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri ***Alıxan düzü*** adlanır. ***Düz*** coğrafi termini mənfi relyef forması bildirir.

Alı dərəsi – Cəbrayıl rayonunun Şükürbəyli kəndində qeydə alınan ***Alı dərəsi*** oronimi antroponimik oronimlərdəndir.

Alı körpüsü – Füzuli rayonunun Saracıq kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri də ***Alı körpüsü*** adlanır. Bu ***körpü*** XIX əsrdə inşa edilmişdir. Toponim ***"****Alıya məxsus olan körpü****"*** anlamındadır. ***Alı körpüsü*** Füzuli rayonunun yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrindən hesab olunur.

Alı təpəsi – Xocavənd rayonunda, Muğanlı kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri ***Alı təpəsi*** adlanır. ***Alı təpəsi*** toponimi "*Alıya məxsus olan təpə*" mənasındadır.

Alıqulu qışlağı – Xocavənd rayonunun ərazisində, Muğanlı kəndi yaxınlığında qeydə alınan toponimlərdən biri ***Alıqulu qışlağı*** adlanır. Yerli əhalinin dediyinə görə, vaxtilə bu ərazilərdə ***Alıqulu*** adlı varlı bir kişi olub. Bu ərazilər Alıquluya və onun oğlanlarına məxsus idi. Bu sahənin hər tərəfi kəndalaş bitkisi ilə örtüldüyü üçün yerli camaat buranı ***Kəndalaşlıq*** da adlandırır. Təxminən 6 min illik tarixi olan qışlaqlardan indi də geniş istifadə olunur.

Alıpaşa dağı – Qarabağın dağlıq hissəsində, Cəbrayıl rayonu ərazisində, Cəbrayıl şəhərindən bir neçə kilometr şimalda, yüksəklikdə qeydə alınan ***Alıpaşa dağı*** haqqında müxtəlif fikir və mülahizələr, əfsanələr uydurulmuşdur. Mənbələrdə göstərilir ki, son orta əsrlər dönəmində Anadoludan Cəbrayıl elinə köçüb gələn və səlcuq türklərindən olan Sultan Əhməd adlı nüfuzlu bir şəxsi çox götür-qoydan sonra *Alaçıq* kəndini özünə məskən, iqamətgah seçmişdir. Müəyyən müddətdən sonra ***Alı Paşa*** adlı bir türk Sultan Əhməddən bu ərazidə yaşamaq üçün sığınacaq istəmişdir. Sultan Əhməd də onu öz yaxını olan Cəbrayıl Atanın yanına göndərmişdir. Cəbrayıl Ata *Alı Paşanın* öz mülkünə yaxın bir yerdə məskunlaşmasına razılıq vermiş və ***Alı Paşa*** da indiki Cəbrayıl rayonunun Qərar (*Dursunlu*) kəndinin ərazisində məskən salmışdır. Kəndin cənub hissəsində bütün sututan sahələr (*Ata Alı bağı, Həkul düzü, İlan düzü* və s.), eləcə də Cəbrayıl Atanın dəfn olunduğu dağlıq sahə vaxtilə Alı Paşaya məxsus yerlər olmuşdur. Ümumiyyətlə, Xələflidən Daş Veysəlliyə, Sacayaq təpəliyinə qədər olan ərazilər, əkin və otlaq sahələri Alı Paşaya məxsus imiş. Dövrünün böyük nüfuz sahiblərindən olan ***Alı Paşa*** ilə ***Cəbrayıl Ata*** həmişə bir-biri ilə səmimi, mehriban, yaxın olmuşlar. Cəbrayıl Ata dünyasını dəyişdikdə ***Alıpaşa*** dağında dəfn olunmuşdur. Onun dəfn olunduğu həmin yer *Cəbrayıl Ata piri* kimi ermənilərin işğalına qədər yerli əhali tərəfindən müqəddəs ziyarətgah kimi əziz tutulmuşdur.

Allahqulunun bağı – Füzuli rayonunun Dövlətyarlı kəndi yaxınlığında, Köndələn çayının sahilində, mənzərəli bir ərazidə təxminən 15 hektarlıq sahə ***Allahqulunun bağı*** adlanır. ***Bağ*** onun yaradıcısı olan ***Allahqulu Yadigar oğlunun*** adı ilə əlaqədar olaraq belə ad almışdır.

Allahverdi bəyin tut bağı – Qarabağ silsiləsinin ətəyində, Xocalı şəhəri yaxınlığında, şəhərdən 2 kilometr aralıda qeydə alınan "*Cahan ocağı*" ziyarətgahının yanında əsasən ***tut*** ağaclarından ibarət olan *bağ* ***Allahverdi bəyin tut bağı*** adlanır. Bu ***bağ*** Xocalının nüfuzlu bəylərindən biri olan **Allahverdi bəy** tərəfindən salındığı üçün toponim belə adlanmışdır.

Allahverən qışlağı – *Allahverən qışlağı* adlanan oroqrafik obyekt adı Cəbrayıl rayonunun Ağtəpə kəndi ərazisində qeydə alınmışdır. ***Allahverən qışlağı*** toponimi "*Allahverənə məxsus olan otlaq sahəsi, qışlaq*", "*Allahverənin qış yurd*"u mənasındadır.

Alma bağı – Cəbrayıl rayonunun Qalacıq kəndində qeydə alınan oronimlərdən biri də ***Alma bağı*** adlanır.

Alma bağları – Qarabağ silsiləsinin ətəyində, Xocalı şəhərindən 8 kilometr aralıda, Həsənabad kəndinin ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Alma bağları*** adlanır.

Almabaşı – Qarabağ silsiləsinin ətəyində, Xocalı rayonunun ərazisində, Həsənabad kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Almabaşı*** adlanır. Yerli məlumata görə, həmin ərazinin yuxarı (***baş***) hissəsində ***alma*** bağları olduğundan toponim belə ad almışdır.

Almadərən bağı – Cəbrayıl rayonunun Dağ Tumas kəndindən 5 kilometr məsafədə, Daşlı çuxur ilə Qozlu bulaq arasındakı sahədə qeydə alınan oroqrafik obyektlərdən biri ***Almadərən bağı*** adlanır. Bəzən onun adına ***Almadərilən bağ*** da deyirlər.

Almalı – Cəbrayıl rayonunun Xələfli kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Almalı*** adlanır.

Almalı çuxur – Laçın rayonu ərazisində qeydə alınan coğrafi adlardan biri də ***Almalı çuxuru*** oronimidir. Tədqiqatçı Nəcdət Sevinc Hələb türkmənlərinin tayfa birliyinə daxil olan tayfalardan birinin ***Almalı*** olduğunu göstərir.

Almalı dərə – Laçın rayonu ərazisində qeydə alınan coğrafi adlardan biri ***Almalı dərə*** oronimidir. ***Almalı*** həm də etnonimdir. Araşdırıcı Nəcdət Sevinc Hələb türkmənlərinin tayfa birliyinə daxil olan tayfalardan birinin *Almalı* olduğunu göstərir.

Almalı düzü – Kəlbəcər rayonunda qeydə alınmış oroqrafik obyekt adlarındandır.

Almalı ərazisi – Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 12 kilometr məsafədə qeydə alınan coğrafi adlardan biri də ***Almalı ərazisi*** adlanır.

Almalıq – Xocalı rayonu ərazisində, rayon mərkəzindən 5 kilometr məsafədə, Ağdam**-**Şuşa avtomobil yolu kənarında qeydə alınan coğrafi adlardan biri ***Almalıq*** adlanır.

Alpout dərəsi – Laçın rayonu ərazisində, Qabaqtəpə dağının ətəyində, Hocazsu çayının sol sahilində yerləşən dərə ***Alpout*** adlanır. ***Alp*** sözü "*igid*" mənasında Azərbaycan dilində hələ VI-VII əsrlərdən işlənir. "Kitabi-Dədə Qorqud" dastanında da bu söz öz əksini tapmışdır. ***Alpout*** toponimi qədim türk mənbələrində erkən orta əsrlərdən adı çəkilən ***alpout/alpavit*** tayfasının adı ilə bağlıdır. ***Alpoutlar*** (***alpovutlar, alpağutlar***) XI-XII əsrlərdə Səlcuq oğuzlarının, sonrakı əsrlərdə Qaraqoyunlu və Ağqoyunlu, XV əsrin axırlarından isə qızılbaşların tərkibində Qabaq Asiya və Cənubi Qafqazın siyasi hadisələrində fəal iştirak etmişlər. Səfəvilər dövründə ***alpautların*** Çuxursəddə və Şirvanda yaşamaları məlumdur. Onlara Səfəvilər tərəfindən hərbi xidmətlərinə görə müxtəlif yerlərdə torpaq da verilmişdir. Qədim türk mənşəli ***Alpout*** tayfasının adı rus mənbələrində ilk dəfə Kulikovo döyüşü (*1380-ci il*) ilə əlaqədar çəkilir. ***Alp*** sözü qədim türk-azəri dilində "*cəsur*, *qəhrəman*, *igid*" mənası daşıyır. Azərbaycan toponimiyasındakı ***Alpout*** sözü böyük maraq doğuran bir termindir. Qədim türk dilində ***alp*** sözünün mənası isə "*qəhrəman*" ifadəsi ilə izah oluna bilər (L.Q.Kertsenberq; Ob issledovanii rodstva altayskix yazıkov. Voprosı yazıkoznaniya. M., 1974, 2-ci c. s. 43 – 49). Qaraqoyunluları təşkil edən tayfalar içərisində ***Alpout*** da vardı. Akademik A.N.Kononov göstərir ki, ***alp*** və ***alva*** (***p***) sözləri **al** kökü əsasında yaranıb; monqol dilində isə ***alva*** (***p***) sözünün mənası "*xidməti vəzifə borcu*" deməkdir. Deməli, ***"alp"-al+v+ap"*** "*feodal drujina döyüşçüsü*" adlanırdı (Кононов А.Н. Родословная туркмен сочинени Абу-и Гази хана Хивинского. М.-Л., 1958, с.97-98). Orxon abidələrində də ***alp*** sözü "*qəhrəman*"; "*igid*" mənasında işlənmişdir. Bunu Mahmud Kaşğari də təsdiq edir ("*Divani-lüğəti-türk*". Ankara tərcüməsi, 1939 - 1941, səh. 144, 422). ***Alp-Arslan*** (***alp*** sözündən) kimi şəxs adları, həm də ***Alpo-ut, Alpout, Alpan*** toponimləri VII - XII əsrlərin Zaqafqaziya mənbələrində də qeyd olunub. Türkdilli səlcuq-oğuz tayfalarından biri olan ***alpoutlar*** (*alpavutlar*, *alpağutlar*) Azərbaycanda, o cümlədən, Cənubi Azərbaycanda məskən salmışlar. Güney Azərbaycanda ***Alpavut,*** mərkəzi İranda ***Alfavut,*** İran Kürdüstanında ***Alpout*** toponimləri mövcuddur.

Altıntaxta aşırımı, çalası, meşəsi – Qarabağ silsiləsində, Laçın rayonunda, Alıcan kəndi ərazisində, Laçın, Şuşa və Xocavənd rayonları arasında, Böyük Kirs dağından cənubda yerləşir. Aşırımın hündürlüyü 2242 metrdir. ***Altıntaxta*** aşırımında subalp çəmənlikləri var. ***Altıntaxta*** oronimi ***altın*** və ***taxta*** sözlərindən ibarətdir: ***Altın*** türk, tatar dillərində "*qırmızı*", "*qızıl*"

deməkdir. ***Altun*** - Osmanlı imperiyasında 1454-cü ildə İstambulda kəsilən qızıl sikkədir. ***Taxta*** sözü xalq coğrafi termini olub, "*dağlıq ərazidə hündür hamar sahə*", "*şumlanmış yer*", "*şumlanmış sahədə şumlanmamış saxlanan ərazi*", "*çəltik əkilmiş sahənin bir kvadratı*", "*dağda düzənlik*" mənalarında işlənir. Deməli, ***Altıntaxta*** toponimi "*qırmızı düz*" mənasını ifadə edir. Aşırımdakı düzənlik yer qırmızı süxurlardan ibarət olduğu üçün toponim belə ad alıb. "Kitabi-Dədə Qorqud" dastanlarında da *Altıntaxta* yer adına rast gəlinir. XIII əsrdə monqolların tərkibində ***oltin*** adlı tayfa da olub. ***Taq*** sözü isə "*dağ*" mənasındadır. ***Altıntaxta*** sözü türk dilində vulkan mənşəli qaya adlarında "*qırmızı*" mənasında işlənən ***altın*** sözü ilə, "*dağ zirvəsində hamar, düzən yer*" anlamını ifadə edən ***taxta*** sözünün birləşməsindən əmələ gəlib.

Amaras monastırı – Xocavənd rayonunun ərazisindəki monastır. Vaxtilə Qafqaz Albaniyasında mövcud olmuş yepiskopluq mərkəzi və şəhəri ***Amaras*** adlanırdı. Onun xarabalığı hazırda Xocavənd rayonu ərazisində, Xonaşen çayının sağ sahilindədir. Ekrən orta əsrlərə aid mənbələrdə *Amaras* adı IV əsr hadisələri ilə əlaqədar olaraq çəkilir. Aparılan arxeoloji qazıntılar Amarasda hələ antik dövrdən yaşayış olduğunu göstərir. Burada antik dövrə aid yarımqazma evlər, küp qəbirlər aşkarlanmışdır. Amarasda IV əsrdə məbəd tikilmiş və burada alban yepiskoplarından *Qriqoris* dəfn olunmuş, sonralar bu ərazi ziyarətgaha çevrilmişdir. IX əsrdə Amarasda böyük *monastır* kompleksi inşa edilmişdir. XIII əsrdə baş verən monqol hücumları zamanı ***Amaras monastırı*** dağıntıya məruz qalmışdır. **1858**-ci ildə ***Amaras monastır kompleksi*** bərpa edilmişdir. Tarixi mənbələr və sənədlərdən aydın olur ki, Amarasda daşişləmə, dulusçuluq, şüşə istehsalı və s. geniş inkişaf etmişdir. ***Monastır*** sözü yunan dilində "*zahidin hücrəsi*" anlamındadır. Bəzi dinlərdə vahid həyat tərzi qəbul etmiş rahib (*kişi Monastırı*) və rahibə (*qadın Monastırı*) icması ***Monastır*** adlanır. Xocavənd rayonu ərazisindəki ***Amaras monastırı*** *tarixi-mədəniyyət abidəsi* vaxtilə Qafqaz Albaniyası ərazisində mövcud olmuş ***Amaras*** şəhərinin adı ilə əlaqədar olaraq belə adlandırılmışdır. Rayonun ərazisindən ***Amaras çayı*** da axır. Qədim Alban şəhəri olan ***Amaras*** yaşayış məntəqəsinin xarabalığı bu çayın sahilindədir. ***Amaras*** hidronimi ***amar*** və ***as*** sözlərindən ibarətdir. Qədim türk dilində ***amar*** sözü "*çay*" deməkdir; ***as*** komponenti isə "*böyük çay qolu*" anlamındadır. ***Amaras*** oronimi "*böyük çayın qolu olan yer*" anlamını bildirir.

Amuduq dağı – Qubadlıda dağ. Armudlu (keçmiş ***Amuduq***) kəndinin şərqində yerləşir. Dağda qədim yaşayış məskəninin yeri və təbii istehkamı xatırladan Amuduq adlı məbəd var. Xalq etimologiyasına görə, ***Amuduq*** coğrafi adı ***Armudluq*** sözünün təhrif edilmiş formasıdır. Toponimin Türkiyədə Van gölü yaxınlığındakı *Amud* qalasının adı ilə eyni mənşəli olması ehtimal olunur.

Anabat düzü – Xocavənd rayonunun ərazisində qeydə alınmış oroqrafik obyekt. ***Anabat düzü*** coğrafi adının tərkibindəki ***abat/abad*** komponentini tarixdən bizə məlum olan ***abat*** (***avat***) türk tayfasının adı ilə də əlaqələndirmək mümkündür. Asiyada çox geniş yayılmış ***abad*** məhsuldar topoformantı türk xalqlarının xüsusi ad yaradıcılığında yaxından iştirak etmişdir.

Anavad dərəsi – Laçın rayonu ərazisində, Hocaz kəndi yaxınlığında qeydə alınan oronimlərdən biri ***Anavad dərəsi*** adlanır. Toponimi müxtəlif mənalarla izah edirlər; onun hələlik dəqiq elmi izahı verilmədiyi üçün bu izahların üzərində "*dayanmaq*" çətindir...

Anbarın gözü – Cəbrayıl rayonunun Tumaslı dağının yaxınlığında, İncə çayının ətrafında, çayın iki sıldırım dağ silsiləsinin arasından keçən yatağın gündoğanında, gözəl təbiət qoynunda, dağətəyi ərazidə qeydə alınan hidronim ***Anbarın gözü*** adlanır. ***Anbarın gözü*** qaya dibindən çıxan ***3*** yan-yana bulaqdan ibarətdir. Yaxınlıqdakı *anbara* görə hidronim belə ad almışdır.

Araba yolu – Füzuli rayonunun Yal Pirəhmədli kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri **Araba yolu** adlanır. XVIII əsrdə kəndə təzə ***araba yolu*** çəkildiyindən sonralar

bu ***yol*** yerli əhali arasında beləcə adlandırılmışdır. Bu **yol** XX əsrin II yarısına qədər (*avtomobillərin hərəkətinə qədər*) işlək yol olmuşdur.

Aralıq dərəsi – Cəbrayıl rayonunun Nüzgər kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyekt ***Aralıq dərəsi*** adlanır.

Aran – Azərbaycanda bir neçə rayonun daxil olduğu yayı isti, qışı mülayim iqlimli ovalıq və düzənlik əraziləri (*Kür Araz, Samur-Dəvəçi, Lənkəran ovalığı, Gəncə-Qazax, Arazboyu düzənliklər və s.*) ***Aran*** adlanır. Azərbaycanın əsas pambıqçılıq rayonları və qışlaqları Arandadır. Respublikamızda yayı isti, qışı mülayim iqlimə malik olan ovalıq və düzənlik yerlərə ***aran*** deyilir. Kür-Araz, Samur-Dəvəçi, Gəncə-Qazax düzənlikləri və s. ərazilər ***aran*** adlanır. Azərbaycan dilində və onun dialektlərində ***aran*** sözü "*düzən yer*", "*qışlaq yeri*", "*isti yer*" və s. mənalarındadır. Qədim türk dillərində də ***aran*** termini "*isti yer*" deməkdir. Tədqiqatçılar Qafqaz Albaniyasının başqa bir adı olan ***Arran*** toponimini də **aran** sözü ilə əlaqələndirirlər. Bu termin yeganə **Boz-Aran,** (Goranboy rayonu) coğrafi adında əks olunmuşdur (bu oronimin tərkibindəki ***boz*** komponenti ərazinin torpağının boz rəngdə olmasını bildirir). Erkən orta əsrlərdə Şimali Azərbaycanın adı ***Aran*** olub. İlk dəfə onun adı məşhur yunan alimi Klavdi Ptolomey (II əsr (87- 165-ci il)) tərəfindən "Coğrafi təlimnamə" əsərində ***Tosaren*** (qədim türk dillərindəki ***tus***-"*düz*" və ***aran*** "*qışlaq yeri*", "*isti yer*" sözlərindən) kimi qeyd olunub. ***Aran*** adı qədim Suriya mənbələrində ***Aran, Arran*** ərəb mənbələrində *əl-Ran*, gürcü mənbələrində *Rani* kimi çəkilir. Qədim mənbələrdə *Albaniya ölkəsi* həm də ***Aran, Arran*** adlanır. ***Aran*** əvvəl Kür-Araz ovalığının adı olmuş, sonralar isə bəzi qonşu xalqlar Albaniyanı bütövlükdə ***Aran*** adlandırmışlar. VI əsrin ortalarına aid bir Suriya mənbəyində ***Aran*** adına rast gəlinir. Bəzi araşdırıcılara görə, *aran* toponimi mənşəcə qıpcaq tayfalarından olan türkdilli ***aran/oran/uran*** etnoniminin təhrif olunmuş variantıdır. I əsr müəllifi Plini Şimali Qafqazda yaşayan ***aran/oran*** tayfaları haqqında qısa da olsa, məlumat vermişdir.

Aran təpə – Kəlbəcər rayonunun Mozkənd kəndində qeydə alınmış oronim. Erkən orta əsrlərdə Cənubi Rusiya çöllərində yaşamış qıpçaqların içərisində başqa tayfalarla yanaşı ***uran*** tayfası da vardı. Həmin ***uran*** (***aran***) tayfasının adı ilə Azərbaycanda çoxlu oronimlər yaranmışdır.

Arazbar (***Arasbar***) – Azərbaycanda ərazi. ***Arazbar*** toponimi iki komponentdən - **Araz** (çay adı) və **bar** (fars dilində *"sahil", "kənar"*) sözlərindən ibarət olub, "Araz çayı kənarı, sahili" mənasındadır. **Arasbar** sözünü ilk dəfə XIII əsrdə Fəzlullah Rəşidəddin "Məktublar" əsərində işlətmişdir. Türk səyyahı Övliya Çələbinin (XVI əsr) yazdığına görə, Araz çayının nisbətən yuxarıdan töküldüyü ərazi yerli əhali arasında **Arazbar** adlanırmış. XVIII əsrin sonlarında **Arazbar** Qarabağ xanı Pənahəli xanın atası İbrahim ağanın otlaq yeri olmuşdur. XIX əsrə aid mənbədə Araz çayının Ordubadla Zəngilan arasındakı dar dərədən axdığı yer **Arasbar** adlanırmış. Araz çayının Füzuli rayonu ərazisindəki sahilində əvvəllər (hətta erkən orta əsrlərdə də) yaşayış məntəqələri olmuşdur. ***Arazbar*** bölgəsi Araz çayının hər iki sahili boyunca quzeydə Xudafərindən Beyləqana qədər olan bir ərazini əhatə edir. Güneydə isə bu bölgə tarixi Qərbi Dizmar mahalından başlayıb, Oltan ərazisinə qədər uzanır. Quzey Arazbara ***Qarabağ Arazbarı***, Güney Arazbara isə ***Qaradağ Arazbarı*** deyirlər. Qədim yunan müəllifləri Strabon və başqaları Arazbar adını ***Araksena*** kimi işlətmişlər. ***Araksena*** adı ***Arazan*** sözünün yunanca tələffüz formasıdır. Orta əsr müəllifləri - Fəzlullah Rəşidəddin, Zeynəddin bin Həmdullah Qəzvini, Şərəf xan Bitlisi, Övliya Çələbi, İsgəndər bəy Münşi Türkman, Qaraqoyunlu hökmdarı Cahanşah Həqiqi, onun oğlu Sultan Həsənəli, Şah İsmayıl Xətai və başqaları tarixi, coğrafi əsərlərində, fərmanlarında tez-tez **Arazbar** inzibati ərazi adını hallandırmışlar. 1589-cu ildə Osmanlı ordusu Qarabağı ələ keçirmişdi. Məlumdur ki, 1590-cı il İstanbul sülhü səbəbi ilə Azərbaycanı bütövlükdə ələ keçirən Sultan Murad tərəfindən əyalətlərdə bürokratik idarəetmə aparatı yaradılmışdı. 1593-cü ildə "Gəncə-Qarabağ əyalətinin

icmal dəftəri" hazırlanmış və həmin dəftərdə Dizaq sancağına bağlı Arazbar nahiyəsindən geniş bəhs olunmuş və burada Arazbarın 115 yaşayış məntəqəsinin adı verilmişdir. 1727-ci il tarixli "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri"ndə göstərilir ki, Gəncə əyalətinə tabe olan Arasbar livası və Arasbar qəzasına *Larıcan, Riyan, Nurpaşa, Sultanlı, Qızqələm, Aşağı Balağay, Balağay, Davu- dan, Çaxırlı, Babı, Göyşatlı, Yuxarı Yalıncaq, Aşağı Yalıncaq, Xanarxı, Taşqa, Seyidabad, Kələçi Keşli, Köhərli, Köyük, Amadili (Ohaltı), Arslandüz, Qasımabad, Qutuşan, Qaraqovaq, Alaqarğı (Güllü), Xatunabad, Xərələn Kəbirli, Şəkərabad, Ərişə, Eymirli, Qadılı, Yenili, Yenicə, Dərvişbulaq, Dəlmə, Cırğın, Cərgəlan, Mahmudabad, Firdovsabad, Dürrəxanlı, Nehrəbaz, Çatı, Dəstəcu, Tərkibalı, Nəsriyyə, Kələdən, Kərmə- dən, Diri, Yaylaq, Qırmızıçay, Siyasər, Abdulla, Kavdar, Yuxarı Cəcirli, Arığlı, Danıyal, Balçaq Əmir Seyid, Kəli Kamalabad (Cəyirli, Cılğay), Aşağı Gəlincə, Yuxarı Gəlincə, Fəthabad, Aşağı Bala Nürkü, Məhəmmədcəlil, Əbülfətan, Qaraxanlı, Mədətli, Cünan, Soyuqaş, Sarıxan, Cəyirli, Seyid Mahmudlu, Qaşqa, İncili, Gəlinci, Çobanbəyli, Sarısu, Yazılmərə, Əmirməhəmməd* adlı kəndlər daxil idi. ***Arazbar*** toponiminin tərkibindəki **bar** sözünün XIX əsr qaynaqlarına görə, Azərbaycan dilində *"köç yeri", "hər hansı bir icma yurdu"* anlamları da var. Ümumiyyətlə, ***Arazbar*** sözü *"Araz yaxası ", "Araz çayı kənarı "* deməkdir. Cavanşir elinə bağlı Yağlıvənd, Dədəli, Tamətli, Gecəgözlü, Seyidəhmədli, Qarıbənd, Dəmirli, Seyidmahmudlu, Molla-Fazilli, Köçərli, Qaraburunlu oymaqları, Otuziki elinə bağlı Barani, Qaraqoyunlu, Mollalar, Eymirli, Ozan oymaqları, Şahsevən elinin Hacıəlili oymağı, Kəngərli elinin 1 oymağı Arazbar sancağında yaşayan el və oymaqlardır...

Arazboyu qoruq – Zəngilan rayonunun ərazisində qeydə alınmış ***qoruq*** (*yasaqlıq*). Araz çayının sol sahili boyunca uzanır. Qoruğun uzunluğu 40 kilometrdən çoxdur. Eni isə 40 metrdən 300 metrə qədərdir. ***Arazboyu*** yasaqlığın ümumi sahəsi 2,2 min hektardır. ***Arazboyu qoruğu*** rəsmi şəkildə 1993-cü ilin iyununda Bəsitçay Dövlət Təbiət Qoruğunun tərkib hissəsi kimi yaradılmışdır. Ərazidə çoxlu sayda quşlara və çöl heyvanlarına rast gəlmək mümkündür. Zəngin flora və faunaya malik olan bu ***qoruq*** rayonun təbii sərvətləri arasında özünəməxsus yer tutur. Qoruğun əksər ərazisi ***Araz çayı*** sahili boyunca sahələrdən ibarət olduğu üçün əsasən gildən ibarətdir. Qoruğun belə adlanması ***Araz*** çayının adı ilə bağlıdır.

Ardıc dağı – Kəlbəcər rayonunun ərazisindədir. Ağac növü adı ilə düzələn oronimlərdəndir.

Ardıc piri – Cəbrail rayonunun ərazisində, Qarağac kəndindən 1 kilometr cənubda qeydə alınan oroqrafik obyektlərdən biri ***Ardıc piri*** adlanır. Onun adına bəzən ***Pir dayı*** da deyirlər. Bu ***pir*** iri gövdəli ***ardıc*** ağacından ibarətdir. Burada dəfn olunan adamın, övliyanın kimliyi dəqiq bilinmir. Pirin ərazisində ərəb əlifbası ilə yazılmış daş kitabələr vardır. Azərbaycanın bəzi zonalarında ***pir*** əvəzinə ***ocaq*** ifadəsi də işlədilir. ***Pirlər*** ta qədimdən sağalmaz dərdlərə düçar olanların və qəlbində niyyət tutanların nəzir-niyaz, ibadət yeri olmuşdur. Azərbaycanlıların əksəriyyəti pirləri ziyarətgah, ümidgah hesab edirlər.

Argünəş dağı – Xocavənd rayonu ərazisində, Xırmancıq kəndi yaxınlığında qeydə alınan oronimlərdən biri ***Argünəş (Ərgünəş)*** **dağı** adlanır. Dağın hündürlüyü **1468** metrdir. Toponimik ədəbiyyatlarda ***Ərgünəş*** şəklində təqdim olunan bu oronim belə izah olunur: *"Yaxınlığındakı dağlardan hündür olmasına və günəş şüası ilk dəfə həmin dağın zirvəsinə düşməsinə görə* **dağ** *belə ad almışdır"*. ***Ar*** sözü *"gözətçi, keşikçi", "quru çay dərəsi"* mənaları ilə yanaşı buryat, yakut və monqol dillərində *"qərb, arxa, tərəf, şimal, dağın kölgə düşən hissəsi, quzey"* mənalarını da ifadə edir.

Arıçılıq, Arıçılıq sovxozu – Qarabağ silsiləsinin ətəyində, Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 4 kilometr məsafədə, Haçatəpə yaxınlığında, Suncinka istiqamətində qeydə alınan oroqrafik obyektlərdən biri də ***Arıçılıq*** (*həmin ərazidə* ***Arıçılıq sovxozu*** *da var*) adlanır.

Arısaxlanan dərə – Meşəli kəndinin yaxınlığında, Qarabağ silsiləsinin ətəyində qeydə alınan oroqrafik obyektlərdən biri ***Arısaxlanan dərə*** adlanır.

Arış körpüsü – Füzuli rayonunun Qoçəhmədi kəndi ərazisində qeydə alınan oroqrafik abidələrdən biri ***Arış körpüsü*** adlanır. XIX əsrdə inşa edilmiş bu körpü Füzuli rayonunun yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələri siyahısında əsas yer tutur. Körpünün belə adlandırılması Qoçəhmədli yaşayış məntəqəsinin yaxınlığında yerləşən ***Arış*** kəndinin adı ilə bağlıdır. Bu ***körpü*** Arış kəndini Qoçəhmədli kəndi ilə birləşdirir.

Arxac çalası – Laçın rayonunun Qozlu kəndi ərazisində qeydə alınmış oronim.. ***Arxac çalası*** oronimi maldarlıqla əlaqədar olaraq yaranan coğrafi adlardandır.

Arxac dərəsi – Cəbrayıl rayonu ərazisində, Çələbilər kəndindən Bazavuza gedən yolun sağ tərəfində, meşəli çökəklikdə, geniş bir sahədə qeydə alınan oronimlərdən biri də ***Arxac dərəsi*** adlanan coğrafi addır. Yerli məlumata görə, Sofulu hacıları yaylağa çıxardıqları qoyun sürülərini gecələr bu dərədəki *arxaca* vurarmışlar. ***Arxac*** sözü türk dillərində "*dağın arxası, gün düşməyən hissəsi, quzeyi*" mənasında işlədilir.

Arxac dərəsi – Füzuli rayonu ərazisində qeydə alınan oronimlərdən biri ***Arxac dərəsi*** adlanır. Otlaq şəraitində həm gecələr, həm də hava isti olanda gündüzlər qoyun və qaramalın dincəlməsi üçün düzəldilmiş yerə ***arxac*** deyirlər.

Arxac dərəsı – Xocavənd rayonu ərazisində, Axullu kəndinin yaxınlığında qeydə alınan oronimlərdən biri ***Arxac dərəsi*** adlanır.

Arxac düzü – Zəngilan rayonunun ərazisində qeydə alınan oronimlərdən biri ***Arxac düzü*** adlanır.

Arıqoyulan taxta – Laçın rayonunun Zabux kəndi ərazisində qeydə alınmış oronim. ***Arıqoyulan taxta*** toponimi "*arı qoyulmuş dağlıq yerdə hamar ərazi*" mənasındadır.

Armud ağacı – Füzuli rayonunun Dövlətyarlı kəndindən 3 kilometr aralıda, "el yolu" qırağında, Füzuli-Ağdam avtomobil yolunun kənarında ***Armud ağacı*** deyilən bir coğrafi ad qeydə alınmışdır. Bu cır ***armud ağacı*** neçə on illərdir ki, buradan ötən minlərlə yorğun adamın istirahət, kölgəlik yeri olmuşdur. Yerli əhalinin dediyinə görə, kəndin işğalı ərəfəsində ***armud*** ağacının yarım əsrə qədər yaşı olmuşdur...

Armud piri – Cəbrayıl rayonunun ərazisində, Qovşudlu kəndinin köhnə yurd yerində, Qoturlu kövşənində qeydə alınan oroqrafik obyektlərdən biri ***Armud piri*** adlanır. Bu ***pir*** daş hərləməsi olan və yabanı halda bitən iri ***armud*** ağacından ibarətdir. Ermənilər tərəfindən zəbt olunana qədər (*1993-cü il*) bu piri ziyarətə gələnlər ağacın qol-budağına ip, sap, parça bağlayıb niyyət edərdilər.

Armudlu dağ, Armudlu dərə, Armudlu düz – Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyeklər. Respublikamızda gülçiçəklilər fəsiləsinin almakimilər yarımfəsiləsindən olan ***armud*** meyvə ağacının adı ilə bağlı çoxlu sayda oronimlər meydana gəlmişdir ki, onlardan biri də Cəbrayıl rayonunun ərazisində, Dağ Tumas kəndinin yaxınlığında, Sarı dərədən şərqdə qeydə alınmış ***Armudlu dərə*** coğrafi adıdır. Rayon ərazisində ***Armudlu düz*** adlı oroqrafik obyekt də qeydə alınmışdır.. Həmin *dərədə* və *düzdə* uzunsov, girdə və şirəli meyvəsi olan ***armud*** ağacları bitdiyinə görə oronim belə ad almışdır. Bunlardan başqa rayonun ərazisində ***Armudlu dağ*** adlı oronim də qeydə alınmışdır.

Armudlu dağ – Kəlbəcər rayonunun ərazisində dağ. ***Armudlu dağ*** toponimi dağın yerləşdiyi ərazidə bol ***armud*** ağacının olması ilə əlaqədardır.

Armudlu dərə – Azərbaycanda meyvə ağacı növlərini bildirən sözlərdən düzələn fitonimik oronimlər çoxdur. Onlardan biri də Ağdam rayonu ərazisində qeydə alınmış ***Armudlu dərə*** coğrafi adıdır.

Armudlu dərə – Şuşa rayonu ərazisində qeydə alınmış oronim. ***Armudlu dərə*** həmin ərazidə ***armud*** ağaclarının çox olması ilə əlaqədar belə ad almışdır. Toponim "*armud əkilən dərə*" mənasındadır. Qazax, Kəlbəcər, Laçın, Cəbrayıl rayonlarında da ***Armudlu dərə*** oroqrafik obyektləri qeydə alınmışdır.

Armudlu dərə, Armudlu düz – Laçın rayonunun ərazisində qeydə alınan oronimlər.

Armudlu düz – Qubadlı rayonunun ərazisində qeydə alınan düz. ***Armudlu düzü*** Qubadlı rayonunun dağlıq ərazisində yerləşən Armudlu kəndinin yaxınlığında olduğu üçün belə adlanmışdır.

Armudlu güz – Cəbrayıl rayonunun Dağ Tumas kəndindən 4 kilometr məsafədə, Mirənşədən Qarağac istiqamətində yerləşən kiçik ölçülü düzənlik ərazidə qeydə alınan oronim ***Armudlu güz*** (bəzən adına ***Armudlu gəz*** də deyirlər) adlanır. Oronimiyada ***güz*** termininin "***payız***" anlamı olduğu məlumdur. Yaşı çox olan yerli sakinlərin sözlərinə görə keçmişdə bu ərazidə əsasən *payız* zamanı yetişən çoxlu ***armud*** ağacları və bulaq olmuşdur. Görünür sonralar hansı səbəbdənsə (*bəlkə də baxımsızlıq ucbatından*) ağaclar və bulaq qurumuşdur.

Armudluq – Qarabağ silsiləsində, Qırxqız dağının ətəyində, Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 18 kilometr məsafədə qeydə alınan oroqrafik obyektlərdən biri ***Armudluq*** adlanır.

Armudluq – Şuşa rayonunun Malıbəyli kəndində qeydə alınmış oronim. ***Armudluq*** mikrotoponimi həmin ərazidə ***armud*** ağaclarının çoxluğu ilə bağlı olaraq belə ad almışdır.

Arpa çuxuru – Qubadlı rayonunun ərazisində qeydə alınan çuxur. ***Çuxur*** sözü toponimiyada "*oyuq*", "*çala*", "*yer səthinin aşağı hissəsi*", "*yerin oyulmuş çökək hissəsi*" və s. anlamları ifadə edir.

Arpa dərə – Laçın rayonunun Ağcakənd kəndi yaxınlığında qeydə alınan dərə.

Arpa dərəsi – Kəlbəcər rayonunun ərazisində qeydə alınmış oroqrafik obyekt.

Arpa dərəsi – Qubadlı rayonunun ərazisində qeydə alınan dərə.

Arpa düzü – Kəlbəcər rayonunun ərazisində qeydə alınan oronimlərdən biri belə adlanır.

Arpa gədiyi – Laçın rayonunun Ərikli kəndi ərazisində qeydə alınıb. Oronim ***arpa*** və ***gədik*** sözlərindən ibarətdir.

Arpa yalı – Kəlbəcər rayonunun ərazisində qeydə alınan oronimlərdən biri ***Arpa yal***ı adlanır. ***Yal*** coğrafi termini müsbət relyef forması ifadə edir.

Arpa yalı – Qubadlı rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri belə adlanır.

Arpa yalı – Şuşa rayonunun ərazisində qeydə alınan coğrafi ad.

Arpa yeri – Şuşa rayonunun ərazisində qeydə alınan oronim. Ölkəmizdə iqtisadi həyatla əlaqədar formalaşmış toponimlərimiz çoxdur. Bunlardan biri də Şuşa rayonunda, Turşsu yaxınlığında qeydə alınmış ***Arpa yeri*** toponimidir. Həmin ərazidə vaxtilə çoxlu arpa bitkisi əkildiyindən toponim belə adlandırılmışdır.

Arpa yurd yeri – Xocavənd rayonunun Xtsabert kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Arpa yurd yeri*** adlanır. Bu ərazidə vaxtilə çoxlu ***arpa*** əkildiyinə görə toponim belə adlandırılmışdır. Toponimin yozumuna başqa prizmadan da yanaşanlar vardır.

Arpaçı günbəzi, **Arpaçı təpəsi** – Cəbrayıl rayonu ərazisində qeydə alınmış maraqlı oronimlərdən biri də ***Arpaçı günbəzi*** və ya ***Arpaçı təpəsi*** adlanır.

Artəpə düzü – Laçın rayonunun Soyuqbulaq kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri də ***Artəpə düzü*** oronimidir. ***Artəpə*** sözünü müxtəlif formalarda izah edirlər. Fikrimizcə, toponim azacıq təhrifə uğrayıb, əslində ***Ərtəpə*** olmalıdır. ***Ər -*** "*kişi*, *comərd*, *mərd*, *igid*, *qorxmaz*" anlamındadır.

Aslan dərəsi – Füzuli rayonunun ərazisində qeydə alınan dərə. Azərbaycan oronimiyasında şəxs adlarından düzəlmiş müsbət və mənfi relyef formaları olan antroponimik oronimlər mühüm yer tutur. Bəzən antroponimlər ayrı-ayrı şəxslərin adını əks etdirir. Füzuli rayonunun Horadiz kəndi ərazisində qeydə alınan ***Aslan dərəsi*** coğrafi adı da bu qəbildəndir. Oronimin tərkibindəki ***Aslan*** sözü şəxs adıdır.

Aslan qalası – Qarabağda, Xocalı rayonu ərazisində, Anabart kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Aslan qalası*** adlanır. Azərbaycanda ən qədim ***qalalar*** siklop tikintiləridir. Azərbaycanda əsasən ***3*** tip qalalar vardır: 1) məbədləri və din xadimlərinin əmlakını qorumağa xidmət edən qalalar; 2) feodal şəhərlərinin yaradılması ilə meydana gələn şəhərtipli qalalar; 3) sığınacaq rolu oynayan qalalar. Xocalı rayonunun ərazisindəki bir çox ***qalalar*** (***Aslan qalası***, Əsgəran qalası, Qırxqız qalası və s.) sığınacaq tipli qalalardandır. ***Aslan qalası*** ilə bağlı bir neçə əfsanə və rəvayətlər də qoşulmuşdur.

Astan ölən dərə – ***Astan ölən dərə*** toponimi ***Astan*** adlı bir adamın həmin dərədə ölməsi ilə əlaqədardır. Bu tip oronimlərə digər ərazilərdə də rast gəlirik.

Astan ölən yal – Kəlbəcər rayonunun Baş Qaraçanlı kəndinin ərazisində qeydə alınan oroqrafik obyekt.

Aşağı dəyirman – Füzuli rayonunun ərazisində qeydə alınan oroqrafik obyekt. ***Aşağı dəyirman*** oronimi rayonun Yuxarı Əbdürrəhmanlı kəndi ərazisində qeydə alınıb.

Aşağı Xanbağı dərəsi – Xocalı rayonunda, rayon mərkəzindən 6 kilometr məsafədə qeydə alınan oroqrafik obyektlərdən biri də ***Aşağı Xanbağı dərəsi*** adlanır. Bu coğrafi ad Qarabağda ictimai motiv əsasında yaranıb formalaşan toponimlərdəndir. Coğrafi adın tərkibindəki ***xan*** sözü xana məxsusluğu ifadə edir; ***aşağı*** sözü isə fərqləndirici əlamət bildirir. Toponim "*xanın aşağıda, dərədə olan bağı*" anlamındadır.

Aşağı Xanbağı yeri – Şuşa rayonunun Malıbəyli kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri də ***Aşağı Xanbağı yeri*** adlanır. Bu toponim Qarabağda ictimai motiv əsasında yaranıb formalaşan oykonimlərdəndir. *Yuxarı Xanbağı* oykonimi də ***Aşağı Xanbağı yeri*** yaxınlığında – bir qədər yuxarı hissədədir. Bu tip adların yaranması Qarabağda ***xan*** olan tarixi şəxsiyyətlərlə əlaqədardır.

Aşağı Qaranlıq yeri – Xocavənd rayonunun ərazisində qeydə alınmış coğrafi ad. Məlumdur ki, Xocavənd rayonunun 1923-cü ilədək adı ***Aşağı Qaranlıq*** olmuşdur. Oykonimin birinci komponenti olan ***Aşağı*** sözü yaşayış məntəqəsinin coğrafi mövqeyi ilə bağlıdır. Bu yaşayış məntəqəsi öz adını ərazidəki ***Qaranlıq*** dağından almışdır. Ərazidə ***Aşağı Qaranlıq çayı*** da vardır. Vaxtilə Martuni rayonunun adı da 1946-cı ilədək ***Aşağı Qaranlıq*** olmuşdur. XX əsrin ortalarına qədər mövcud olmuş ***Aşağı Qaranlıq yeri*** sahəsinin xarabalığı qalmaqdadır.

Aşağı yal – Xocalı rayonunda, Kərkicahan qəsəbəsi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Aşağı yal*** adlanır.

Aşandağ – Xocavənd rayonunun ərazisində, Aşan kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Aşandağ*** adlanır. ***Aşandağ*** oronimi ***aşan*** və ***dağ*** sözlərinin birləşməsindən biarət olub, "*dağ aşırımı*", "*keçidi olan dağ*" deməkdir. ***Aşan*** komponenti "*aşırım*", "*dağ keçidi*" mənasındadır.

Aşıq Məmməd bağı – Cəbrayıl rayonunun Qalacıq kəndi yaxınlığında, kəndin baş hissəsində qeydə alınan oronimlərdən biri ***Aşıq Məmməd bağı*** adlanır. Toponim ***Aşıq Məmmədin*** adı ilə bağlıdır.

Aşıqlı qoşa günbəzi – Xocavənd rayonunun memarlıq, mədəniyyət və incəsənət abidələrindən biri ***Aşıqlı Qoşa günbəzi*** adlanır. Bu ***günbəz*** Xocavənd kəndi yaxınlığındadır. Oroqrafik obyektin adındakı **qoşa** sözü orada *cüt* günbəzin olması ilə əlaqədardır. ***Aşıqlı Qoşa günbəzi*** erməni işğalından (***19 noyabr 1991-ci il***) sonra dağıntıya məruz qalmışdır.

At ağılı dərəsi, **At piri dərəsi** – Cəbrayıl rayonunda, Yarəhmədli kəndinin ərazisində qeydə alınmışdır. Həmin kəndin ərazisində ***At piri***, ***At piri dərəsi ayağı*** coğrafi adları da qeydə alınıb. ***Ağıl*** – "*mal-qara və davar saxlanan üstüaçıq yer*" deməkdir. Heyvanlar adətən axşamlar *ağıllara* salınır. ***At piri*** daş hərləməyə alınmış *ardıc* ağacından ibarətdir. Sahibləri adətən xəstə atları aparıb həmin hasarın başına dolandırırmışlar. Oronimin tərkibindəki ***pir*** komponenti "*müqəddəslik*" anlamındadır. Azərbaycanda ***pir-ocaq*** kultu və inanc tarixin çox qədim çağlarına gedib çıxır.

At çapılan yal – Cəbrayıl rayonunun Yuxarı Sirik kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri də ***At çapılan yal*** oronimidir.

At daşı – Füzuli rayonunun ərazisində qeydə alınan oroqrafik obyekt. ***At daşı*** oronimi rayonun Merdinli kəndinin qəbiristanlığında qeydə alınmışdır. Yerli məlumata görə, ***daşdan*** yonulmuş bu ***at*** fiqurunun ən azı 350 yaşı vardır. Əhali bu ***At daşı*** abidəsini müqəddəs hesab edir. Son vaxtlara qədər ***At daşı*** ziyarətgah idi. Adamlar buraya gələrək ürəklərində niyyət tutub nəzir də verərdilər.

At dərəsi – Qubadlı rayonunda qeydə alınan oroqrafik obyekt.

At qoruğu – Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 8 kilometr məsafədə qeydə alınan coğrafi adlardan biri də ***At qoruğu*** adlanır. Ümumiyyətlə, toponimiyamızda zoonimlər əsasında formalaşan coğrafi adlar üstünlük təşkil edir...

At qoruğu – Şuşa rayonunun ərazisində, Malıbəyli kəndi yaxınlığında qeydə alınmış oronim. Malıbəyli kəndinin ərazisindəki həmin qoruqda atlar otarıldığı üçün toponim belə adlanmışdır.

At məhəli – Şuşa rayonunun Səfıxanlar kəndinin ərazisində qeydə alınmış oroqrafik obyekt.

At uçan qaya – Laçın rayonunda qaya. Bədbəxt hadisə ilə əlaqədar yaranmış oronimlərdən biri də Laçın rayonunun Avazlar kəndi ərazisində qeydə alınmış ***At uçan qaya*** coğrafi adıdır. Bu coğrafi ad vaxtilə ***at*** ev heyvanının ***qayadan*** yıxılması ilə əlaqədar olaraq belə ad almışdır.

Atayurd dərəsi – Xocavənd rayonunda, Tuğ kəndinin ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Atayurd dərəsi*** adlanır. Toponim "*ata yurdu olan dərə*" mənasındadır.

Atdağ – Kəlbəcər rayonu ərazisində qeydə alınmış oronimlərdən biri ***Atdağ*** adlanır. ***Atdağ*** oroqrafik obyekti orada çoxlu at sürülərinin otarılması ilə əlaqədar yaranan oronimlərdəndir.

Atlı bulaq dağı – Laçın rayonunun Əhmədli kəndi ərazisində qeydə alınmış oronimlərdən biri ***Atlı bulaq dağı*** adlanır. Yerli məlumata görə, oronim *dağın* ərazisində olan *bulaqdan* vaxtilə bir ***atlının*** su içməsi ilə əlaqədar olaraq belə adlandırılmışdır.

Atlı gəzən dağ – Laçın rayonunun Hacılar kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri də ***Atlı gəzən dağ*** oronimidir. Oronim həmin dağda vaxtilə bir atlının *gəzməsi* ilə əlaqədar olaraq belə ad almışdır.

Avaz təpəsi – Laçın rayonunda, Qarabulaq yaylasında qeydə alınan təpə. Ərazidə eyniadlı kənd də var. Bəzi mülahizələrə görə, oronim orada məskən salmış ***avazlar*** nəslinin adı ilə əlaqədardır. Toponim özündə qədim türkdilli xəzərlərin ***avaz*** **(*abas*)** tayfasının adını əks etdirir. Hal-hazırda türkdilli özbək və noqaylarda ***appas/abas*****,** qaraqalpaqlarda ***Abas*** adlı tayfalar mövcuddur. ***Avaz*** oroqrafik obyekt adının mənşəyini "*səs*", "*səda*" mənasında izah etmək sadəlövhlük olardı.

Avşar tağı – Bu oroqrafik obyekt ***əfşar*** tayfası ilə əlaqədardır. Xocavənd rayonunda, Xocavənd qəsəbəsinin ***Avşar tağı*** deyilən ərazisində əsasən azərbaycanlılar yaşayırdılar. Bu əhalinin böyük bir hissəsini ***avşar*** (***əfşar, oşar***) tayfasından olan sakinlər təşkil etdiyi üçün toponim belə ad almışdır. Ölkəmizin ərazisində arealı geniş maraq doğuran etnotoponimlərdən biri də ***Əfşardır.*** Məlumdur ki, azərbaycanlıların etnogenezində iştirak etmiş türk tayfalarından biri də əfşarlardır. *Əfşarlar* Azərbaycan xalqının kökünü və əsasını təşkil edən oğuzların ***24*** tayfasından biridir. ***Əfşarlar*** əsasən, İranda (*Cənubi Azərbaycanda*), Türkiyədə, Əfqanıstanda (*Kabil ətrafında*) və Azərbaycanda yaşayırlar. ***Əfşarlar*** əsas etibarı ilə maldarlıq və əkinçiliklə məşğuldurlar. Dindardırlar, müsəlmandırlar. IX əsrədək Dəşti Qıpcaqda (*XI-XV əsrlərdə Sırdəryanın mənsəbinədək uzanan çöllərin ərəb və fars mənbələrində adı*) yaşayan ***əfşarlar*** sonralar Səlcuqların tərkibində Xorasana, Azərbaycana və Kiçik Asiyaya gəlmişdir. Azərbaycanın və İranın siyasi həyatında mühüm rol oynamış ***əfşarlar*** qızılbaş tayfa birliyinin tərkibində Səfəvilər dövlətinin yaranmasında iştirak etmişlər. 1727-ci ilə aid olan "*Gəncə – Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı tarixi sənəddə *əfşarlar* Bərdə livasının Bayad nahiyəsinə tabe olan camaat kimi göstərilib. ***Avşar*** kəndinin *kalvanəcəfqululər, günəşli, yetimlər, araxlılar, mollalar, rəfilər, əmirgünəli, kəlbəcəfərlilər, qaralar, cəfərlilər, əmənqululər* və digər tayfa və tirələri var. ***Əfşarlar*** hazırda *Kirklu, Cəlayir, İnanlu, Ərəslu, Kosa Əhmədli, Alplu, İmirlu* və digər qollara bölünürlər. F.Rəşidəddin ("*Cəmi-ət-təvarix*"), Yazıçıoğlu Əli ("*Səlcuqnamə*") və Əbülqazi Bahadır xan Xivəliyə ("*Şəcəreyi-tərəikəmə*") görə, ***Avşar*** adının anlamı "*işlərini cəld görən və ova həvəsli*"dir. K.Vamberi bu adı əsərinin bir yerində "*toplayıcı*", digər yerində "*əfsər, zabit*" kimi açıqlayır. K.Nemət isə ***Avşar*** adının "*itaətli*" mənasında olduğunu yazır. Məşhur türkoloq Mahmud Kaşğari "*Divani-lüğəti-türk*" əsərində oğuz tayfalarından biri kimi ***Əfşar// Avşar*** tayfasının adını da qeyd etmişdir. Fəzlullah Rəşidəddin oğuzların boyları, damğası, geneologiyasını daha dəqiq və stabil təsnif etmişdir. Onun əsərində ***Avşar*** bölüyü ***Bozok*** qrupuna mənsub olub, *Ulduz* xanın oğlu kimi təsvir olunmuşdur. ***Avşar*** – "*çevik və vəhşi*

heyvan ovuna həvəsli" anlamındadır (*F.Rəşidəddin, Oğuznamə, Bakı, 1987, səh. 65*). Yazıçıoğlu Əli bəy, Əbülqazi Bahadır xan Xivəli də oğuz tayfalarını ***24*** boya bölmüş, onların sırasında ***Avşar*** tayfasının da adını qeyd etmişlər. Kaşğaridən fərqli olaraq F.Rəşidəddin və Əbülqazi xan Xivəlidə bu söz ***avşar*** formasında işlənmişdir. ***Avşar*** etnonimi İran toponimiyasında – ***Əfşar, Əfşarcıq*** (Azərbaycan), ***Əfşaran, Təpəəfşar*** (Kermanşah), ***Əfşarlı, Qışlaqəfşar*** (Zəncan), ***Əfşarməhəmməd, Hüseynabadəfşar***, ***Ərəbabadəfşar, Cərməəfşar, Cülgəəfşar, Siyahəfşar*** (Mərkəzi İran), ***Qavəfşar*** (Yəzd), ***Çəmənəfşar*** (Kerman) çox geniş yayılmışdır (*Bax:* Onomastika Vostoka. Moskva, 1980. V.İ.Savina. Etnonimı i toponimi İrana; – *səhifə 150, rus dilində*). ***Avşar*** etnoniminin paralellərinə indiki Ermənistanın Ararat vadisində də rast gəlirik. Belə bir nəticəyə gəlirik ki, türkdilli ***avşar//afşar*** adlı tayfa Azərbaycan, Orta Asiya, İran (əsasən Cənubi Azərbaycanda) və ümumən Qafqaz ərazisində geniş yayılmış, yayıldığı ərazinin toponimiyasında öz izini qoruyub saxlamışdır. ***Avşar eli*** hamılıqla ***Qızılbaş*** tayfa ittifaqına qoşulmuşdur. ***Avşarlar*** tariximizdə ən davamlı rol oynamış böyük bir boydur. Bu baxımdan heç bir oğuz boyu onunla müqayisə edilə bilməz. Səlcuqlar dövründə öz fəaliyyətləri ilə qaynaqlarda iz buraxmış *3-4* boy var ki, onlardan biri də avşarlardır. F.Rəşidəddinin "*Türklərin tarixi*" kitabında avşarların hökmdar yetirən ***5*** boydan biri olduğu yazılır. ***Avşarlar*** XVI əsrdə ***kayı*** boyundan sonra ikinci olmaq üzrə Anadoluda ən çox yer adına sahib boylardan biri olmuşdur. Bu, onların Anadolunun fəth edilməsi və məskunlaşdırılmasında ən mühüm rol oynamış boylardan biri olduğunu göstərir. XVIII yüzilə aid ərəb əlifbası ilə yazılmış sənədlərdə, həmçinin, məşhur Azərbaycan coğrafiyaçısı Qafur Rəşad Mirzəzadənin 1920-ci ildən qabaq çap etdirdiyi bir xəritədə ***Abşeron*** adı ***Əfşaran*** şəklində yazılmışdır. Faruq Sümər yazır ki, XVI əsrdə Anadoluda ***86*** oykonim ***Avşar*** adını daşımışdır. Bunlardan ən böyük yaşayış məntəqəsi Şanlı Urfa şəhəri yaxınlığındakı ***Kanlı Avşar*** yaşayış məntəqəsidir (*Türkiyə fiziki xəritəsi Kurbağalıdere Cad. Altunel İşhanı 51-43 81010, Kadıköy-İstanbul*). Y.Nemet oğuz etnonimi avşarın semantikası haqqında fikir yürütmüş və onu "*dinc, sakit*", "*sədaqətli*" kimi izah etmişdir. Müəllif eyni zamanda V.V.Radlova əsaslanaraq bu etnonimi "*kiməsə meyl etmək, inanmaq*" və ya "*davam gətirmək, özünü ələ verməmək*", "*güzəştə getmək*", "*razılaşmaq*" kimi mənalandırmışdır. F.Xalıqov N.A.Baskakova əsaslanaraq ***əfşa****r* etnoniminin semantikası haqqında yazır ki, fars dilindəki ***Avşar*** ("*təzyiq etmək, sıxmaq, sıxışdırmaq*") sözündən olan ***əfşar*** Azərbaycan dilinin dialektlərində ***avşar*** formasında "*süd*", həmin formada türkmən dialektlərində "*özünü yüksək tutmaq*", türk dilində "*möhkəm, cəld, etibarlı, işi tez yerinə yetirən*" mənasındadır. Müəllif davam edərək yazır ki, ***əfşar*** sözünün daşıdığı leksik məna haqqında qəti fikir deyilməmişdir. ***Əfşar*** etnonimi hazırda ölkəmizin antroponimlər sistemində soy adı kimi yaşamaqdadır.

Ayaqyalın dağ diki – Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyekt. Respublikamızın ərazisində bir qrup adlar vardır ki, onlar insan və ya heyvan bədən üzvləri adları ilə adlandırılmışdır. İnsan və heyvan bədən üzvləri adı ilə əlaqədar yaranan metafor adlar həmin oroqrafik obyektlərin bir növ xarici formasını ifadə edir. Cəbrayıl rayonu ərazisində, Böyük Mərcanlı kəndi yaxınlığında qeydə alınan ***Ayaqyalın dağ diki*** oronimi də bu qəbildən olan coğrafi adlardandır. ***Ayaqyalın dağ*** coğrafi adının tərkibindəki ***ayaq*** termini – "*dağın düzənliklə birləşməsi*", ***yalın*** komponenti isə "*çılpaq, bitkisiz qayalı dağ*" mənasındadır.

Ayaqyalınlar məhəlləsi – Şuşa şəhərində ən kasıb məhəllələrdən biri də yerli şuşalıların tez-tez danışıqlarında işlətdiyi ***Ayaqyalınlar*** məhəlləsidir. Yerli camaat bəzən bu məhəllənin adına ***Lütlər məhəlləsi*** də deyir. Bu məhəllədəki dabbaqlar dərini ***ayaqyalın*** tapdaladıqlarına görə, onların yaşadıqları ***məhəllə*** də ***Ayaqyalınlar məhəlləsi*** adlanırdı. Məşhur müğənni, SSRi xalq artisti *Bülbül* də bu məhəllədəndir. Onun atası Rza kişi bu məhəllənin dəriçilərindən idi.

Ayaz görməz dərə – Cəbrayıl rayonu ərazisində, Dağ Tumas kəndinin yaxınlığında, Böyük demilərlə Çaytumas kəndinin sərhəd ərazisi arasında qeydə alınımış oronimlərdən biri də ***Ayaz görməz dərə*** adlanır. Bu oroqrafik obyekt əkin bitkilərini *ayazlı-şaxtalı* havadan mühafizə edən böyük çaladan ibarətdir. Dərənin yerləşdiyi ərazi elədir ki, adətən şaxta, ***ayaz*** onu "***görmür***". Toponim "*şaxta, ayaz tutmayan dərə*" mənasındadır.

Ayğır dərəsi – Xocalı rayonunun ərazisində, Qarabağ silsiləsində, rayon mərkəzindən 35 kilometr məsafədə qeydə alınan oroqrafik obyektlərdən biri ***Ayğır dərəsi*** adlanır. ***Ayğır*** dedikdə minilməmiş, əhliləşməmiş yetkin erkək *at* nəzərdə tutulur. ***Ayğırlar*** cinsi yetişkənliyə 1,5 yaşda çatır, amma döllük məqsədilə 3 yaşından istifadə edilir. Döl götürmək üçün cins ayğırlardan istifadə olunur.

Ayğır yurdu yeri – Qarabağ silsiləsində, Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 38 kilometr məsafədə qeydə alınan oroqrafik obyektlərdən biri ***Ayğır yurdu*** adlanır.

Ayı dağı, **Ayı qayası** – Cəbrayıl rayonunun ərazisində qeydə alınmış oroqrafik obyektlər. Görünür ki, həmin ərazilərdə vaxtilə *ayı* yaşadığına və yaxud orada *ayılara* rast gəlindiyinə görə, bu tip oronimlər ***ayı*** heyvan adını özündə əks etdirir. Həmin *qayada* və *dağda* vaxtilə tez-tez ***ayıya*** rast gəlindiyi üçün bu oroqrafik obyektlər belə adlanmışdır. ***Ayı dağı***, ***Ayı qayası*** oroqrafik obyektləri rayonun Dağ Tumas kəndinin yaxınlığında, Sulu küfüldan qərbdə, Tumaslı dağının arxasına gedən meşə yolunun kənarında yerləşir.

Ayı dərəsi – Qubadlı rayonunda qeydə alınmış dərə. Ölkəmizdə ***ayı*** adını əks etdirən çoxlu oronimlərə rast gəlmək mümkündür: *Ayı dağı* (Cəbrayıl rayonu); *Ayı dərəsi* (Ağsu, Qubadlı, Şahbuz, Qax rayonları) və s.

Ayı qayası – Xocalı rayonunun ərazisində, Kərkicahan yaşayış məntəqəsinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Ayı qayası*** adlanır. ***Qaya*** zahirən *ayını* xatırlatdığı, ona oxşadığı üçün belə ad almışdır.

Ayı mağarası – Qubadlı rayonunun ərazisində qeydə alınan mağara.

Ayı məhəli – Şuşa rayonunun Səfıxanlar kəndi ərazisində qeydə alınan toponim. Oronim ayı heyvan adından və məhəllə sözünün təhrif olunmuş məhəl şəklindən ibarətdir.

Ayı ölən yamac – Cəbrayıl rayonu ərazisində, Diridağın yamacında qeydə alınmış oroqrafik obyekt.

Ayı talası – Xocalı rayonunun ərazisində qeydə alınan maraqlı toponimlərdən biri də ***Ayı talası*** coğrafi adıdır.

Ayı talası – Şuşa rayonunun Malıbəyli kəndində qeydə alınmış oroqrafik obyekt.

Ayıçınqılı dağı – Kəlbəcər rayonu ərazisində, Qarabağ yaylasında, Tərtər və Bazarçayın mənbəyi yaxınlığında qeydə alınan dağ. Dağın hündürlüyü 3344 metrdir (*bəzi mənbələrdə 3005 metr göstərilir*). Sönmüş vulkan konusu olan dağın yamacları çınqıllıdır. Ərazisində kiçik göllər də var. Dağın əsl adı ***Ayıçınqıllığıdır***. Mənbə və ədəbiyyatlarda bu adın ***Ayıçınqıllığı*** formasına rast gəlmək mümkündür. Yanmadan aşınma nəticəsində irili-xırdalı dağ yığnaqları – ***çınqıllar*** ilə örtülmüşdür. Dağa ***Ayıçınqılı*** adı ərazisində çoxlu ***çınqıl*** olmasına və burada əvvəllər tez-tez ***ayıya*** təsadüf edilməsinə görə verilmişdir.

Ayıvurulan qaya – Kəlbəcər rayonunun ərazisində qeydə alınan oroqrafik obyekt adlarından biri də ***Ayı vurulan qaya*** adlanır. ***Ayıvurulan qaya*** oronimi öz adında orada baş vermiş hadisəni əks etdirir.

Ayna dərəsi - Cəbrayıl rayonunun Qazanzəmi kəndi ərazisində qeydə alınmışdır. Oronim *dərənin* ətraf yüksəklikləri, hündürlükləri güzgü, ***ayna*** kimi əks etdirməsi ilə əlaqədar olaraq belə ad almışdır.

Ayrım dərəsi – Kəlbəcər rayonunun Qamışlı kəndi ərazisində qeydə alınan dərə. Bu oronim Kiçik Qafqazda yaşamış əhalinin qədim etnoqrafik adı olan ***Ayrım*** və ya ***ayrum*** ilə əlaqədardır. Tərtər çayının qolu olan ***Ayrım çayı*** sahilində XIX əsrin ortalarına qədər ***Ayrım binəsi*** olmuşdur. Oronim həmin binənin adı ilə əlaqədar olaraq belə adlanmışdır. Sonralar binənin yerində *Aşağı Ayrım kəndi* salınmışdır. ***Ayrım –*** azərbaycanlıların etnoqrafik qrupudur. Əsasən əkinçilik və maldarlıqla məşğul olan ***ayrımlar*** Azərbaycanın qərbində yaşayırlar (*Gədəbəy, Kəlbəcər, Qazax, Daşkəsən, Xanlar, Tovuz rayonları*). Onların məskunlaşdığı ərazi *Ayrum mahalı* adlanırdı. Bir məlumata görə, Teymur 1402-ci il Ankara vuruşmasından sonra Türkiyə ərazisindən köçürdüyü 50 min ailəni Gəncə, Qarabağ və indiki Ermənistanda yerləşdirmiş, onlar sonralar ***ayrım*** adı ilə tanınmışdır. Türk dillərində ***ayrım –*** "*bölük*, *hissə*" deməkdir. Gəncə xanı Cavad xanın general Knorrinqə yazdığı məktubda *ayrımlar* Gəncə xanlığının qədim elatı adlandırılır. XVII əsrdə ayrımların bir hissəsi İrana keçərək şahsevənlərə qarışmışlar. Onların digər hissəsi isə Azərbaycanın Kiçik Qafqaz zonasında və s. yerlərdə yaşamaqda davam etmişlər.

Ayrım qışlağı – Laçın rayonunun Mollalar kəndi ərazisində qeydə alınmış oroqrafik obyekt. Oronim ***Ayrım*** tayfasının adı ilə əlaqədar yaranmışdır. D.D.Pagiryev Cavanşir qəzasında ***Ayrım dərəsi*** oronimik adını da çəkmişdir. ***Ayrım*** türk etnonimi ilə bağlı çoxlu sayda oronimlər qeydə alınmışdır.

Azıx faunası – Azərbaycan ərazisində, Xocavənd rayonunun Salakətin və Azıx kəndləri yaxınlığında Aşağı Paleolit dövründə vaxtilə mövcud olmuş onurğalı heyvanlar kompleksi ***Azıx faunası*** adlanır. Bu fakt Azıx mağarasında arxeoloq-alim Məmmədəli Hüseynovun rəhbərliyi ilə aparılan arxeoloji qazıntılar zamanı təsdiq olunmuşdur. ***Azıx faunasına*** hazırda Qafqaz regionunda nəsli kəsilmiş nəhəng maral, dama (*lan*), kərgədan, mağara kaftarı, mağara ayısı daxildir. Qazıntı yerində bunlarla yanaşı amfibiyaların, yunan tısbağasının, sərçəkimilər dəstəsindən kiçik quşların, oxlu kirpinin, müxtəlif gəmiricilərin və yarasaların; təkdırnaqlılardan vəhşi at və Avropa vəhşi eşşəyinin; cütdırnaqlılardan Qafqaz maralı, qaban, qaya keçisinin; yırtıcı məməlilərdən canavar, çaqqal, tülkü, bəbir, qamış pişiyi və porsuğun sümük qalıqları tapılmışdır. Sümüklərin çaxmaqdaşından qayrılmış alətlərlə bir yerdə tapılması, onlarda yanıq izlərinin olması göstərir ki, indiki Azərbaycan ərazisinin cənub-qərb hissəsində Daş dövründə yaşamış ibtidai insanlar Azıx faunasına aid iri məməliləri ovlamışlar. ***Azıx faunası*** Aşağı Palleolit insanlarının yaşadığı təbii şəraiti öyrənməyə imkan verir.

Azıx mağarası – Azərbaycanda ən qədim və böyük karst mağarası olan ***Azıx mağarası*** Xocavənd rayonunun Salakətin kəndi yaxınlığında, kəndin 2 kilometrliyində, Tuğ kəndindən 3 kilometr məsafədə, Füzuli şəhərindən 16 km qərbdə, Quruçayın sol sahilində, dəniz səviyyəsindən 900 metr hündürlükdə yerləşir. 1960-cı ildə tarixçi-arxeoloq M.Hüseynovun rəhbərliyi ilə mağarada tədqiqat işlərinə başlanılmışdır. ***Azıx*** paleolit düşərgəsində 1960-cı ildən 1987-ci ilə qədər aparılan arxeoloji qazıntılar zamanı müəyyən edilmiş ***arxeoloji təbəqələr*** illik hesabatlar və Azıx düşərgəsinin stratiqrafiyası haqqında çap edilmiş əsərlər əsasında təhlil edilmişdir. Çoxtəbəqəli Azıx paleolit düşərgəsində 1960-1986-cı illərdə aparılan qazıntılar

zamanı ***10*** təbəqə qeydə alınıb tədqiq olunmuşdur. Yaxın Şərq və Qafqaz ərazisində ən zəngin stratiqrafiyaya malik Azıx paleolit düşərgəsində qeydə alınmış arxeoloji təbəqələrin ümumi qalınlığı 14 metrdir. Burada aparılan arxeoloji qazıntılar zamanı eniolit dövrünə aid maddi mədəniyyət qalıqları qeydə alınmamışdır. Mağarada dar keçidlərlə birləşmiş 6 salon var. Ən büyüyü 3-cü salondur. Mağaranın 2 girişi var. Mağara Aşağı Paleolit dövrünə aid nadir abidədir. **1968**-ci ildə mağaradan (V təbəqədən) Aşel dövrünə aid ibtidai insanın – ***Azıxantropun*** (*19 yaşlı qadının*) çənə sümüyünün (*professor D.Hacıyev müəyyən edib ki, tapılmış bu çənə keçmiş SSRİ ərazisində ən qədim insan çənəsdir*) bir hissəsi – alt çənəsinin qırılmış hissəsi tapılıb. Bu qırılmış hissə alt çənənin sağ qanadıdır. Üstündə gövdənin arxa hissəsi və yüksələn şaxənin aşağı yarısı qorunub saxlanılmışdır. Dişlərdən yalnız ***üçüncü azı*** bütöv saxlanılmış, ***ikinci azı*** isə ortadan sınmışdır; ***birinci azı*** isə tamamilə yoxdur, lakin onun diş yuvaqları, çənənin iri olması olduqca yaxşı nəzərə çarpır. Bu baxımdan *azıxantropun* alt çənəsi avstrolopiteklərdən fərqlənir və müəyyən cəhətlərinə görə arxantroplara bənzəyir. *Azıx mağarasından* tapılmış çənənin quruluşundakı spesifik cəhətlərə görə, bu tapıntı bir tərəfdən pitikantroplara (*xüsusilə* ***mauer adamı*** *çənəsinə*) yaxınlıq təşkil etməklə yanaşı, digər tərəfdən də Fransadakı Araqonun aşel təbəqələrindən aşkar olunmuş preneandertallara daha yaxındır. Azıxantropun yaşı ***350 000 – 400 000*** ilə bərabərdir. Azərbaycan arxeologiya elminin nailiyyəti olan bu tapıntı yaşının çoxluğuna görə dünyada ***üçüncü*** tapıntıdır. ***Azıx*** Paleolit düşərgəsində aşkarlanmış maddi mədəniyyət nümunələri xüsusiyyətlərinə görə yeni bir mədəniyyət olduğunu söyləməyə imkan vermiş və ***Quruçay mədəniyyəti*** adlandırılmışdır. Quruçay mədəniyyətinin bir neçə inkişaf mərhələsinin olması da elmi şəkildə aşkarlanmışdır. Arxeoloji cəhətdən mağara **1960**-cı ildən öyrənilir. Mağaradan Preneandertal – Azıxantropun alt çənə sümüyünü mərhum arxeoloq-alim ***Məmmədəli Hüseynov*** **1968**-ci ilin yayında (***23 iyun***) aşkara çıxarıb. Bu abidə Qarabağın Xocavənd və Füzuli bölgələrində paleolit dövrünün mövcudluğunu sübut edir. Aşağı Antropogen dövrünə aid yeganə çoxtəbəqəli abidə olan ***Azıx mağarası*** mağara tipli insan düşərgələrindən ən qədimidir. Xocavənd rayonunun ərazisində təxminən milyon il bundan əvvəl yaşayış olduğunu sübut edən ***Azıx mağarası*** arxantropların və daha qədim adamların məskəni olmuşdur. Azıx mağarasının və onun ətraf zonasının paleocoğrafi şəraitinin tədqiqi nəticəsində elmi şəkildə sübut olunmuşdur ki, Azıx mağarasında ilk ibtidai insan **1,2** milyon il bundan əvvəl məskunlaşmış, ***120 000*** il əvvəl isə mağaranı tərk etmişdir. Lakin insanlar ***20 000*** il keçdikdən sonra yenidən mağaraya qayıtmış və burada daha ***50 000*** il yaşamışlar. Paleolit dövrü arxeoloji abidələrindən sayılan ***Azıx mağara düşərgəsi*** dünya əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidəsidir.

Azıxantrop – ***22 iyul 1968-ci il*** tarixdə Odlar yurdunun qədim Qarabağ ərazisində, Xocavənd rayonunun Azıx və Tuğ kəndləri yaxınlığında Məmmədəli Hüseynovun rəhbərliyi altında Paleolit arxeoloji ekspedisiyası tərəfindən dünya elmini zənginləşdirən böyük bir elmi ***kəşf*** olundu. ***Azıx*** sözündəki ***Az*** öncə ***od-ad-oz-odər-Azər*** – Azərbaycan yer və xalq adının baş komponenti kimi aydındır; ***-ıx*** komponenti isə ***maq*** kökünə bağlıdır. Bəzi tədqiqatçılara görə ***Azıx*** yer adı ***Azərbaycan*** sözü ilə əlaqəlidir və "*Az oymağı, Azərbaycanlılar oymağı, yeri, yurdu, məskəni, kəndi, mağarası*" deməkdir. ***Azıx*** sözünün ***Azox, Azux, Azax, Azex, Azıx, Azəx, Azıq*** və s. variantlarının hamısı məna etibarı ilə məhz bu ulu məzmunu əks etdirir. Deməli, ***Azıxantrop - Azıx adamı*** bütün variantlarda "*Az adamı*"**,** "*Od adamı*"**,** "*Azərbaycan adamı*" deməkdir. Yuxarıda qeyd etdiyimiz kimi ***1968***-ci ildə Azıx mağarasında alt çənə sümüyünün bir hissəsi tapılmış və bununla da ibtidai insana verilən ad ***Azıxantrop*** kimi ("*Azıx adamı*") rəsmiləşdirilmişdir. Onun çənə sümüyü qalın, dişləri isə xırdadır. ***Azıxantrop*** elmi məlumatlara görə təqribən ***350 000 – 400 000*** il bundan əvvəl yaşamışdır. Antropoloji xüsusiyyətlərinə görə o, *Sinantrop* və *Heydelberq* adamlarına uyğun gəlir, eyni zamanda *Neandertal* adamına da yaxındır. Professor D.V.Hacıyevin

azıxantrop üzərində apardığı elmi araşdırmalardan məlum olmuşdur ki, *çənə* quruluşundakı xüsusiyyətlərə görə, bir tərəfdən pitikantroplara, xüsusilə Mauer adamının çənəsinə, digər tərəfdən isə Fransanın cənubunda olan Kondel-Araqo düşərgəsinin qədim Aşel mədəniyyətinə aid təbəqəsindən tapılmış preneandertal tipli insanlara daha çox yaxındır. Azıx mağarasından tapılmış ibtidai insana məxsus olan *çənə* tamamilə daşlaşmış və rəngini dəyişmişdir. Bu ***çənə*** ibtidai insanın alt çənəsinin sağ hissəsidir. Çənənin alveol hissəsində üçüncü ***azı*** (*ağı*) dişi tam şəkildədir, ikinci azı dişinin üst hissəsi sınmışdır. Azıxantropun çənəsinin qalınlığı, dişlərinin quruluşu və ölçüləri paleantropoloji müqayisə üçün mühüm elmi əhəmiyyətə malikdir. Bu *alt çənə* avstralopitek, arxantrop, sinantrop və pitikantropla müqayisə edilmişdir. Ehtimal etmək olar ki, Azərbaycanda və Qafqaz dağlarında yaşamış Aşel dövrü adamları ***azıxantrop*** tipli insanlar olmuşlar. ***Azıxantrop*** ilk paleantropa keçid pilləsini təşkil edir. ***Azıxantrop*** sümüyünün tapıldığı Aşel təbəqəsindən çoxlu daş alətlər də əldə edilmişdir.

Babadinlu – Laçın rayonu ərazisində vaxtilə qeydə alınmış toponimlərdən biri də ***Babadinlu*** adlanır. Toponimi müxtəlif cür izah edən araşdırıcılar var. ***Baba*** sözünü şəxs adı ilə əlaqələndirənlər də vardır. Toponimi ***Bab***, ***Babi*** məzhəb adı ilə yozanlara da hardasa bəraət qazandırmaq olar. ***Ba*** komponentinin ***ab*** sözü ilə mənaca qohumluğu da məlumdur. Bu anlamda söz "*üzə çıxan, yerdən qaynayan su*" deməkdir. **Din -** "*başla, tərpən*" deməkdir. Bu termini "*dinçi, dinli*" kimi də mənalandırmaq olar. Pirlərə də el arasında çox vaxt ehtiram əlaməti olaraq ***Baba*** deyirlər. Toponim hələlik elmi şəkildə tam aydınlaşdırılmamışdır.

Babaləndər meşəsi – Şuşa rayonunun Malibəyli kəndi ərazisində qeydə alınan meşə. Bu meşəyə hansı səbəbdən belə bir adın verilməsi hələlik elmi şəkildə tam izah edilməmişdir. Böyük maraq doğuran bu toponim hələlik tam izah olunmamışdır.

Babaləndər təpəsi – Şuşa rayonunun Malibəyli kəndi ərazisində qeydə alınan təpə. ***Babaləndər təpəsi*** coğrafi adı ***Babaləndər*** sözündən, müsbət relyef formasını ifadə edən ***təpə*** terminindən, eləcə də mənsubluq bildirən -***si*** şəkilçisindən ibarətdir. Böyük maraq doğuran bu toponim hələlik tam şəkildə izah olunmamışdır.

Babalı tapı – Xocavənd rayonunun ərazisində qeydə alınan oronim. Respublikamız ərazisində "*su çıxmayan düz yer*", "*dağ ətəyində su çıxmayan düz yer*", "*düzən yerdə təpə*", "*dağ döşündə düzənlik*", "*dağ düzənliyi*" anlamlarında işlənən ***tap*** termini ilə bağlı çöl materialları içərisində *500* coğrafi ad qeydə alınıb. Xocavənd rayonunun Tağaverd kəndi ərazisində qeydə alınan ***Babalı tapı*** oroqrafik obyekti də bu tipli oronimlərdəndir.

Babaşın kühülü – Cəbrayıl rayonunun Qalacıq kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Babaşın kühülü*** adlanır. Yerli əhali bəzən bu coğrafi adı ***Babaşın küfülü*** şəklində də işlədir. ***Kühül*** Cəbrayıl rayonundan olan dövrünün igid, mübariz oğlu ***Qaçaq Babaşın*** adı ilə əlaqədar olaraq belə adlandırılmışdır. 5 metr hündürlükdə qanlı daşlardan ibarət olan bu *kühülün* içərisində çıraq qoyulması və 5-6 adamın oturması üçün yer vardı. Süni düzəldilmiş yeraltı yaşayış məskəni olan ***kühül*** qədim ev tipi hesab edilir. ***Kühüllər*** keçmişdə Azərbaycanın Qarabağ və Şirvan ərazilərində geniş yayılmışdı. Zaman keçdikcə əhəmiyyətini itirən kühüllərdən təsərrüfat binası kimi istifadə olunmuşdur.

Babaylı düzü – Zəngilan rayonunun ərazisində, Babaylı kəndi ətrafında qeydə alınan oronim. Çöl materialları içərisində respublikamızın ərazisində ***düz*** coğrafi termini ilə bağlı ***10 000***-dən çox coğrafi ad qeydə alınmışdır.

Babı türbəsi – Füzuli rayonunun ərazisində qədim türbə. ***Babı türbəsi*** Babı kəndinin yaxınlığındakı qəbiristanlıqda yerləşir. Türbənin kitabəsi üzərində onun hicri **670**-ci ildə *(miladi **1272**-ci il)* Şeyx ƏbuYaqub ibn Səd tərəfindən tikildiyi qeyd olunub. Bu ansambl-abidədən indi ancaq türbə və zədələnmiş minarə qalmışdır. Türbə planda səkkiz güşəlidir. O, ağ daşdan hörülüb, üst hissəsi isə səkkiz bucaqlı çatma günbəzlə örtülüdür. Türbənin günbəzi bir qat sıra daşdan hörülüb. Ornament bəzəklərinə görə türbənin tikintisində Əcəmi memarlıq məktəbinin təsiri duyulur. Bəzi məlumatlara görə, abidə görkəmli Azərbaycan ilahiyyatçısı, şair, filosof, sərkərdə Şeyx Babi Yaqubun şərəfinə ucaldılıb. Bəlkə də, elə bu səbəbdən el arasında bəzən ona ***Şıxbaba türbəsi*** də deyirlər. Göründüyü kimi, ***türbə*** minarədən ayrı düşmüşdür. Bəzi mülahizələrə görə, minarənin türbədən ayrılmasına səbəb ya ildırımvurma, ya da top mərmisinin dəyməsi olmuşdur. Orta əsrlər dövrünün tanınmış tədqiqatçısı A.Brozqula və akademik T.Roskovski "*Şeyx Babı Yəqub*" türbəsinin XII əsrə aid olduğunu iddia edirdilər. Sonralar professor V.Kraçkovskaya da ***"Şeyx Babı** türbəsinin öyrənilməsi tarixinə dair*" məruzəsində Brozqula və Roskovskinin fikirlərini təsdiqləmişdir. 1940-cı illərdə Peterburq Akademiyasının şərqşünas alimi M.Xonikov da **Babı türbəsi** haqqında maraqlı açıqlamalar vermişdir. XX əsrin ortalarında rus alimləri ilə yanaşı, Azərbaycan alimləri *(Ə.Salamzadə, Ş.Fətullayev, M.Nemətova, K.Məmmədzadə və s.)* də ***Şeyx Babı Yəqub*** türbəsinin öyrənilməsi istiqamətində maraqlı araşdırmalar aparmışlar. Onlar bu fikrə gəlmişlər ki, Füzuli rayonu ərazisindəki ***Babı*** və ***Əhmədalılar*** türbələri Naxçıvan *(Əcəmi)* memarlıq məktəbinin təsiri ilə inşa edilmişdir. Babı günbəzinin yerləşdiyi ərazi araşdırıcılar tərəfindən ***Xanəgah*** da adlandırılmışdır. Günbəzin kitabəsinin üzərindəki yazıların tərcüməsi belədir: *"Bu müqəddəs məqbərənin Zahid, Kamil, Şeyx Babı, Yəqub ibn İsmayıl Qur Xər üçün tikilməsinə 672-ci ildə əmr olunmuşdur. Yer üzərində nə varsa, hamısı məhv olacaqdır"*. Daş kitabədə qeyd olunan sözlər burda dəfn edilənin sufi şeyxi, məqbərənin müqəddəs ziyarətgah olduğunu Şeyxin kamil və zahidliyini ifadə edir. M.Nemətova kitabədəki ***Zahid, İsmayıl, Qur Xər*** ləqəblərini tarixi qaynaqlarla əlaqədar araşdırmışdır. Tarixi mənbələrdən aydın olur ki, *Şeyx Babi Yəqub* öləndən sonra da onun işini müridləri davam etdirmişdir. Eyni zamanda qaynaqlarda göstərilir ki, bu hərəkat Azərbaycanın digər ərazilərini də əhatə etmişdir. Kitabədə *Şeyx Babi Yəqubun **İsmayıl, Qur Xər oğlu*** kimi qeyd olunması onun *İsmaillər hərəkatı* ilə əlaqəli olmasından xəbər verir. Qarabağda, Arranda, Azərbaycanın digər ərazilərində aşkar edilmiş bu tipli daş kitabələr *İsmaillər* hərəkatının burada da yayılmış olduğunu sübut edir. Əgər mövcud tarixi qaynaqlara istinad etsək, deyə bilərik ki, ***Şeyx Babi Yəqub*** Qarabağda və Arranda böyük nüfuzu, hörməti olan sufi şeyxi olmuşdur. ***Şeyx Babı türbəsi*** ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət, memarlıq abidəsi hesab olunur. *Şeyx Babı Yəqub türbəsinin* yanında qədim hamam xarabalığı da aşkar edilmişdir. Yerli əhalinin dediklərinə görə, türbədən Əhmədalılar kəndinə və İrana yeraltı yol var. Amma burada əsaslı arxeoloji qazıntılar aparılmadığından yolların istiqamətini müəyyən etmək çətindir. Günbəzdən azacıq aralıda hamam xarabalığı var. Yeraltı hissəsi salamat qalan bu hamamın divar ornamentləri göy firuzə rəngli mozaika ilə bəzədilmişdir.

Babınovu – Füzuli rayonunun Horadiz kəndi yaxınlığında qeydə alınan oronimlərdən biri ***Babınovu*** adlanır. Toponimin tərkibindəki ***babı*** sözü çox güman ki, keçmişdə köçəri həyat tərzi keçirən ***babı* (*bavi*)** adlı ərəb tayfasının adını özündə əks etdirir. Oronimi XIX əsrin ortalarında İranda "***Bab***" ləqəbli Mirzə Əli Məhəmməd tərəfindən ortaya atılan ***babi*** dini təriqət ilə də əlaqəndirirlər.

Badamın yurd yeri – Laçın rayonunda, Güləbird kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri də ***Badamın yurd yeri*** adlanır. ***Badam*** sözü toponimiyada "*ağac*" mənası ilə bərabər, "*yarğan*", "*çapılmış yer*", "*əksik yer*" anlamlarında da işlədilir. ***Badam*** - şəxs adıdır. ***Badamın yurd yeri*** toponimi "*Badama məxsus olan yurd yeri*" mənasındadır.

Badar oymağı – Arazbar qəzasında, indiki Füzuli rayonu ərazisində vaxtilə Qarabağın sayılıb-seçilən ellərindən olan Otuziki elinin ***Badar*** adlanan ***oymağı*** olmuşdur. Bu coğrafi ad Bəhmənli və Horadiz kəndləri yaxınlığında qeydə alınmışdır. **Badar oymağı** toponimi öz adında **otuziki elinə** aid olan oymağın adını əks etdirir. **1593**-cü ilə aid olan Osmanlı qaynağında Otuziki elinin oymaqlarının sırasında **Badar (***Arazbar qəzası***)** adına da rast gəlirik. **Badar** sözü türk dillərində "*kiçik tarla", "dağınıq sahə", "kiçicik ərazi"* mənalarında işlədilir.

Badar oymağı – Xocavənd rayonunun Əmirallar kəndinin yaxınlığında vaxtilə Qarabağın sayılıb-seçilən ellərindən olan ***Otuziki*** elinin ***Badar*** adlanan ***oymağı*** olmuşdur.

Badara düzü – Xocalı rayonunun ərazisində, Qarabağ silsiləsinin ətəyində qeydə alınan oroqrafik obyektlərdən biri ***Badara düzü*** adlanır. Oronim yaxınlıqdakı ***Badara*** kəndinin adı ilə əlaqədar olaraq belə adlandırılmışdır.

Badara yurd yeri – Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 6-8 kilometr məsafədə qeydə alınan toponimlərdən biri də ***Badara yurd yeri*** adlanır. Bu ***yurd*** yeri ***Badara*** kəndinin ərazisi olduğu üçün ***Badara yurd yeri*** adlanır.

Bağça yeri – Xocavənd rayonunun Axullu kəndi ərazisində, Daşbulaq yaxınlığında qeydə alınan oroqrafik obyekt.

Bağırsaq dərəsi – Kəlbəcər rayonunun ərazisində, Murovdağ silsiləsinin cənub yamacında, Bağırsaq kəndinin yaxınlığında qeydə alınmış oroqrafik obyekt. Yaxınlığında vaxtilə Qamışlı kəndinin binəsi olmuşdur. Kəlbəcər rayonu ərazisində yerləşən **Bağırsaq dərəsini** çox uzun, əyri-üyrü, dolanbac olduğuna və **bağırsağa** bənzədiyinə görə belə adlandırmışlar.

Bağırsaq meşəsi – Xocavənd rayonunun Cəmiyyət (*Ningi*) kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Bağırsaq meşəsi*** adlanır. Bəzi araşdırıcılara görə, oronim quruluş etibarı ilə ***bağırsağa*** bənzədiyi üçün belə ad almışdır.

Bağrıqan dağı – Xocavənd rayonu ərazisində, Gavahın kəndinin 10 kilometrliyində, Şuşa şəhərinin şərq hissəsində, Qarabağ silsiləsində qeydə alınmış dağ. Bəzən sənədlərdə ***Bağırqan dağı*** şəklində də qeyd olunur. ***Bağrıqan dağı*** Şuşanın sərhəd ərazilərini təşkil edən Kirs, Dotələb, Murov, Qırxqız, Sarıbaba dağları kimi şəhəri əhatələyən dağlardan biridir. Dağın ***Bağrıqan*** adlanması, məcazi məna (*bağrının qanlı olması*) daşıyır. ***Bağrıqan dağı*** haqqında Qarabağda müxtəlif rəvayətlər dolaşmaqdadır. Bəzən bu oroqrafik obyekti yerli əhali ***Bağırqan dağı***, ***Baxır xan dağı*** şəklində də tələffüz edirlər. ***Bağır*** türk sözü olub, mənası "*ciyər*" deməkdir. Bu oronimin "*Günəşin doğması ilə dağın qırmızımtıl rəng alması*" fikri ilə yarandığını güman edənlər də var. ***Bağrıqan*** toponimi haqqında vaxtilə M.M.Nəvvab da xalq etimologiyasına əsaslanan rəvayət söyləmişdir: "*Şuşa qalasının şərq tərəfində* ***Bağrıqan*** *deyilən bir uca qaya və dağ vardır. Həmin dağda Avan koxa adlı bir erməni yaşayırdı. O, öz təbəələrinə demişdi ki, harada əlinizə müsəlman düşsə, mənim hüzuruma gətirin. Avan Koxanın əmri ilə tutulmuş müsəlmanı çılpaqlayıb üzüüstə yerə yıxar, bundan sonra onun arxasının dərisindən dörd barmaq enində bıçaqla soyub boynundan qom ətinəcən iki tərəfdən xətt çəkərdilər, dərinin ucunu aşağı əydirilmiş ağacın qüvvətli bir budağına bənd edib, budağı buraxardılar. Ağacın budağı qüvvətlə yuxarı qalxanda yazıq müsəlmanın dərisi boynuna qədər soyulardı və bağırtısı o* ***dağa*** *yayılardı. Bu əhvalatı görənin də* ***bağrı qan-qan*** *olardı. Elə buna görə də həmin qayaya* ***Bağrıqan dağı*** *adı vermişlər*".

Bağrıqan meşəsi – Xocavənd rayonunun ərazisində, Qarabağ silsiləsində, Gavahın kəndinin 10 kilometrliyində qeydə alınan ***Bağrıqan meşəsi*** haqqında Qarabağda müxtəlif rəvayətlər dolanmaqdadır. Yerli əhali ***Bağır xan meşəsi*** şəklində də tələffüz edir.

Bahadurun biçənəyi – Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 2 killometr məsafədə qeydə alınmış oroqrafik obyektlərdən biri ***Bahadurun biçənəyi*** adlanır. ***Bahadur*** Azərbaycanın Milli Qəhrəmanı Araz Səlimovun atasıdır.

Baxdik – Xocavənd rayonunun Axullu kəndi yaxınlığında, kənddən 5 kilometr aralıda qeydə alınan oroqrafik obyektlərdən biri ***Baxdik*** adlanır. Yerli sakinlər bəzən bu yerin adına ***Yuxarı dik*** də deyirlər. Əraziyə yaxın olan kəndlərin sakinləri ***Baxdik*** toponimi ilə bağlı müxtəlif rəvayətlər uydurmuşlar. Toponimin tam elmi izahı hələlik verilməyibdir.

Bakur – Xocavənd rayonunun ərazisində qeydə alınan coğrafi adlardan biri ***Bakur*** adlanır. Bu oroqrafik obyekt vaxtilə Alban keşişlərindən biri olmuş Nersesin əsl adı olan ***Bakur*** nomeni ilə bağlıdır. ***Bakur*** oykonimi quruluşca yalnız antroponimdən ibarət olan toponimlərdəndir.

Bala çökək, **Böyük çökək** – Cəbrayıl rayonunun Xələfli kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlər içərisində ***Bala çökək*** və ***Böyük çökək*** adlı oronimlər də vardır. Bu oronimlər həmin çökəkliklərin ***kiçikliyinə*** və ***böyüklüyünə*** görə belə adlandırılmışdır.

Bala dərə, **Böyük dərə** – Laçın rayonunun Dambulaq kəndi ərazisində qeydə alınmış oronimlər belə adlanır. Toponimin tərkibindəki ***bala*** və ***böyük*** sözləri dərənin *böyük* və *kiçikliyini* bildirir.

Bala düz, **Böyük düz** – Cəbrayıl rayonunun Qovşutlu kəndi ərazisində qeydə alınmış oroqrafik obyektlər arasında ***Bala düz – Böyük düz*** adlanan oronimlər də vardır. Oronim düzün *böyük* və *kiçikliyinə* görə belə ad almışdır.

Bala quzey, **Böyük quzey** – Laçın rayonunun ərazisində qeydə alınmış oronimlər. Toponimin tərkibindəki ***bala*** və ***böyük*** sözləri ***quzeyin*** böyük və kiçikliyini ifadə edir. ***Quzey*** dedikdə **-** dağın, təpənin Günəş şüası düşməyən kölgəli şimal yamacı başa düşülür.

Balaca çöl – **Böyük çöl** – Laçın rayonunun Cağazur kəndi ərazisində qeydə alınan oroqrafik obyekt.

Balaca Qaraquzey, **Böyük Qaraquzey** – Cəbrayıl rayonunun Dağ Tumas kəndi ərazisində qeydə alınmışdır. ***Quzey*** **-** dağın və ya təpənin günəş şüası düşməyən kölgəli tərəfinə deyilir. ***Qara*** komponenti "*hündür, böyük*" mənasındadır. Toponim "*böyük, hündür şimal yamacı*" deməkdir.

Balaca Qarovultəpə, **Böyük Qarovultəpə** – Cəbrayıl rayonunun Sofulu kəndi ərazisində qeydə alınmış coğrafi adlar. ***Qarovultəpə*** gözətçi məntəqəsi məqsədilə yaradılmış oronimlərdəndir.

Balaca oyuqlu – Xocavənd rayonunun Əmiralılar kəndinin ərazisində qeydə alınan oroqrafik obyektlər.

Balalar təpə yaşayış yeri – Füzuli rayonunun Qaraxanbəyli kəndindən azacıq cənub-şərqdə qeydə alınan coğrafi adlardan biri ***Balalar təpə yaşayış yeri*** adlanır. Arxeoloji baxımdan ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrindən hesab olunan ***Balalar təpə yaşayış yeri*** ilk tunc dövrünə aid edilir. Qazıntılar zamanı buradan çoxlu sayda maddi mədəniyyət nümunələri aşkara çıxarılmışdır. Yerli sakinlər ta qədim zamanlardan bu *təpəyə* ***Balalar*** adı vermişlər. Bu ***təpə*** tarixilik nöqteyi-nəzərindən çox qədim insan məskənlərindən biri hesab edilir.

Balaoylaq dağı – Xocalı rayonu ərazisində, Qarabağ silsiləsində yerləşən zirvə. ***Bala*** – "*kiçik*", ***oylaq*** – "*yer, sahə*" mənasındadır.

Balaoylaq zirvəsi – Xocalı rayonu ərazisində, Qarabağ silsiləsində hündür zirvə. ***Bala*** sözü "*kiçik*", ***oylaq*** sözü isə "*yer, meydan, sahə*" deməkdir. Deməli, ***Balaoylaq*** toponimi "*balaca yer, kiçik sahə, bala oylaq*" mənasındadır.

Baldırğanlı dərə – Laçın rayonunun ərazisində, Qarabağ silsiləsinin ətəyində, Həkəri çayının sahilində qeydə alınan dərə. Oronim ərazidə çətirçiçəklilər fasiləsindən ikiillik və çoxillik bitki cinsi olan ***baldırğan*** bitkisinin çox bitdiyi üçün belə adlandırılmışdır.

Baldırğanlı təpə – Laçın rayonunun ərazisində, Qarabağ silsiləsinin ətəyində, Həkəri çayının sahilində qeydə alınan təpə. Oronim ərazidə çətirçiçəklilər fasiləsindən ikiillik və çoxillik bitki cinsi olan ***baldırğan*** bitkisinin çox bitdiyi üçün belə adlandırılmışdır.

Ballı qaya – Cəbrayıl rayonunda qeydə alınmış yüksəklik. ***Ballı qaya*** oronimi oradakı qayada ***bal*** arısı yuvalarının olması ilə əlaqədardır. Bu qayada çoxlu şirəli ağaclar vardır. Bəzi sənəd və materiallarda oronim ***Ballıqaya*** şəklində də yazılır.

Ballı qaya – Füzuli rayonunda, Qacar kəndinin qərb sərhədi ərazisində qeydə alınan oroqrafik-obyektlərdən biri ***Ballı qaya*** adlanır. ***Ballı qaya*** toponimi *"bal arısının yuvası olan qaya"* mənasındadır.

Ballı qaya – Xocavənd rayonu ərazisində, Salakətin kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Ballı qaya*** adlanır. ***Ballı qaya*** toponimi *"bal arısının yuvası olan qaya"* mənasındadır. ***Qayadakı*** kiçik təbii oyuqlarda vəhşi ***bal*** arılarının (*arı pətəkləri yuva saldıqlarına görə*) pətək salması ilə əlaqədar olaraq oronim belə ad almışdır.

Ballıca düzü – Qarabağ silsiləsinin ətəyində, Xocalı rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Ballıca düzü*** adlanır. Oronim ***Ballıca*** kəndinin yaxınlığında yerləşdiyi üçün bu yaşayış məntəqəsinin adı ilə də adlanmışdır.

Ballıca yaylağı – Qarabağ silsiləsində, Xocalı rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri də ***Ballıca yaylağı*** adlanır. ***Ballıca çayı*** öz mənbəyini ***Ballıca*** yaylağından alır.

Ballıqaya – Xocalı rayonu ərazisində, Qaragav kəndi yaxınlığında, Qarabağ silsiləsinin şimal-şərq yamacında, Qırxqız yaylası sahəsində yerləşən yüksəklik ***Ballıqaya*** adlanır. ***Ballıqaya*** toponimi "*bal arısının yuvası olan qaya*" mənasındadır.

Ballıqaya – Laçın rayonunun ərazisində qeydə alınmış ***Ballıqaya*** oronimi ***bal*** və ***qaya*** sözlərindən ibarətdir. Vəhşi ***bal*** arılarının qayadakı oyuqlarda pətək salması ilə əlaqədar olaraq ***qaya*** belə adlanmışdır.

Barmaqlar dağı – Laçın rayonunda dağ. ***Barmaq (parmak)*** sözü qədim türk dillərində "*təpə*", "*daş*" mənasını verir. ***Barmaq dağı*** adına ilk dəfə IX əsr ərəb coğrafiyaşünası Məsudinin əsərində rast gəlirik.

Barmaqlar şişi – Laçın rayonunun ərazisində qeydə alınan oronim. ***Barmaq (parmak)*** sözü qədim türk dillərində "*təpə*", "*daş*" mənasını verir.

Bartaz dağı – Zəngilan rayonu ərazisində dağ. Bartaz kəndinin yaxınlığında, rayon mərkəzindən 41kilometr məsafədə qeydə alınan oroqrafik obyektlərdən biri ***Bartaz dağı***

adlanır. *Bartaz* dağının hündürlüyü *2270* metrdir. ***Bartaz*** dağının ad açımını müxtəlif cür izah edənlər vardır. Toponimiyada ***bart*** (***bard***) termini "*dağ*", **az** (***as, ats***) – "*su*", "*iti uc*", "*iti zirvə*" deməkdir. Dağın yaxınlığında ***Bartaz*** adlı kənd də var.

Baş yurd yaylağı – Laçın rayonunun Pircahan kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri də ***Baş Yurd yaylağı*** adlanır.

Başarat dağı – Qubadlı rayon mərkəzindən 40 km aralıda, Qarabağ silsiləsinin ətəyində, Kiçik Həkəri çayı sahilində yerləşən dağ. Ərazidə ***Başarat*** adlı kənd də var. XVI əsrə aid bir çox mənbədə ***Başaratbəy*** şəxs adı da çəkilir.

Başçinar dərəsi – Cəbrayıl rayonunun Karxulu kəndi ərazisində qeydə alınmışdır. Toponim "*baş hissəsində, yuxarısında çinar olan dərə*" mənasındadır.

Başgöz dərəsi – Cəbrayıl rayonunda, Çələbilər kəndinin gündoğanında, kəhrizin yerləşdiyi çökək ərazidə qeydə alınan oroqrafik obyekt ***Başgöz dərəsi*** adlanır. Çələbilər kəhrizinin ***baş gözü*** bu *dərədə* yerləşdiyindən oronim belə adlandırılmışdır.

Başıkəsik Dağdağan piri – Cəbrayıl rayonunun Şahvəlli kəndindən Hacı Qaraman ocağına gedən yolun el cədəsi ilə kəsişdiyi yerdə, Dar təpəsinin gündoğan ətəyindəki dərə ağzında bitən dağdağan ağacından və onun dibinə yığılmış daş qalaqlarından ibarət ziyarətgah ***Başıkəsik Dağdağan piri*** adlanır. İri gövdəli bu dağdağan ağacının ***baş*** hissəsi ***kəsilmiş*** halda olduğu üçün ***pir*** belə adlandırılmışdır. Ağacın baş hissəsi tünd qonura çalan və göy rəngli yarpaqları olan sıx zoğlarla örtülmüşdür.

Başıkəsik günbəz – Cəbrayıl rayonunun Dağ Tumas kəndi ərazisində qeydə alınmış qiymətli tarixi-memarlıq abidələrindən biri də ***Başıkəsik günbəz*** adlanır. Günbəzin ***baş*** hissəsi ***kəsik*** olduğu üçün o, belə adlandırılmışdır.

Başıkəsik təpə – Xocalı rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri də ***Başıkəsik təpə*** adlanır.

Başkənd aşırımı – Kəlbəcər rayonunun ərazisində, Keçəldağ silsiləsində, Ermənistan ilə sərhəddə, Başkənd kəndi yaxınlığında yerləşən aşırım. Onun hündürlüyü 2170 metrdir. ***Aşırım*** qədim Azərbaycan torpaqları olan və vaxtilə azərbaycanlılar yaşayan ***Başkənd*** kəndinin adı ilə əlaqədar belə adlandırılmışdır.

Başkənd-Dəstəfur çökəkliyi – Kəlbəcər rayonunun ərazisində, Kiçik Qafqazın Şahdağ və Murovdağ silsilələrinin şimal ətəklərində yerləşir. Qərbdə Əsrik və Zəyəm çaylarının suayırıcından şərqdə Gəncə çayının dərəsinədək uzanır. Çökəkliyin uzunluğu 75 km, eni isə 10-15 km-dir. Çökəkliyin dibi dəniz səviyyəsindən 1200-1800 metr hündürlükdədir. Bünövrəsi Yura yaşlı vulkanogen-çökmə süxurlardan ibarətdir. Alunit, dəmir filizi, tikinti materillan və s. faydalı qazıntılara malikdir. Ərazisində çoxlu mineral bulaqlar var. İqlimi əsasən qışı quraq keçən soyuq və mülayim istidir.

Başkənd yolu – Xocalı rayonunda, Kosalar kənd inzibati ərazi vahidində, əsrarəngiz gözəlliyə malik bir ərazidə, Qarabağ silsiləsinin şimal-şərq yamacında, Mıxtökən dağının ətəyində, Ballıca çayının sahilində yerləşən kənd yolu. Toponim kəndin adı ilə bağlıdır. ***Başkənd kəndi*** qonşuluqda yerləşən kəndlərə nisbətən bir qədər yuxarıda yerləşdiyinə görə belə adlanmışdır.

Bayandur yeri – Laçın rayonu ərazişində, Munkənd yaxınlığında, Bayandur çayının axdığı yerdə qeydə alınan oronim. Oronim türkdilli ***bayandur*** tayfasının adı ilə əlaqədardır. Hidronim qədim türk tayfalarından olan **bayandur** etnonimi ilə əlaqədardır; bu toponim etnohidronimdir.

Dədə Qorqud dastanlarında *da* ***bayandurlar*** tərənnüm olunur. XIV əsrdə onlar Qarabağda və Göyçə gölü ətrafında yaşamışlar. Ağqoyunlu tayfa ittifaqının başçıları və Ağqoyunlu dövlətinin hökmdarları ***Bayandurlar*** tayfasından idi. ***Bayandur yeri*** haqqında belə bir toponim-rəvayət mövcuddur: *Keçmiş zamanlarda İbili adlı bir qaçaq varmış. Dağlarda yaşayan bu qaçaq padşahın adamlarına divan tuturmuş, padşah onun üzərinə nə qədər qoşun göndərirmişsə, onlar İbilini tuta bilmirmişlər. Axırda şah İbiliyə sifariş edir ki, haranı istəyirsən* ***bəyən, dur****, oranı sənə verim; imarət tikdirib orada yaşa. İbili padşahın bu təklifi ilə razılaşır. Çox gəzib-dolaşandan sonra axırı gəlib indi* ***Bayandur*** *adlanan yerə çıxır; bəyənib orada durur. Padşah həmin yeri İbiliyə verir. İbili burada imarət tikdirib ölüncə yaşayır.* Elə ona görə də buranın adına ***"Bəyəndur"*** demişlər ki, sonralar da ***Bayandur*** olmuşdur. ***Bayan*** adlı qədim türk mənşəli tayfa da məlumdur.

Bayqara dərəsi – Laçın rayonunun Mirik kəndi ərazisində qeydə alınan dərə. Bir çox türkdilli xalqlarda ***bay (bəy)*** sözü, "*varlı*", "*feodal*", "*bəy*" mənasında işlənir. Güman etmək olar ki, oronimiyamızdakı ***bay*** termini həmin türk dillərindəki ***bay (bəy)*** sözləri ilə mənşəcə eynidir.

Bayquşlu dərə ağzı – Cəbrayıl rayonunun Şükürbəyli kəndi ərazisində qeydə alınan oronim ***Bayquşlu dərə ağzı*** adlanır.

Bayrambəy bağı – Füzuli rayonunun Yuxarı Əbdürrəhmanlı kəndi ərazisində, böyük sahədə yerləşən bağ.

Bayrambəy yurd yeri – Füzuli rayonunun Yuxarı Əbdürrəhmanlı kəndi yaxınlığında qeydə alınıb. Burada XIX əsrədək müxtəlif obaların tayfaları yaşamışlar. XX əsrə qədər yazılmış bəzi tarixi sənədlərdə, qaynaqlarda qonşu yurd yerləri olan *Rəbət*, *Qacar* ilə birgə ***Bayrambəy yurd yeri*** oroniminin də adı çəkilir.

Bayramqulunun bağı – Füzuli rayonunun Dövlətyarlı kəndi ərazisində, Köndələnçayın sahilində, mənzərəli bir təbiət guşəsində, Qaraköpəktəpənin yaxınlığında 5 hektarlıq sahəsi olan yer ***Bayramqulunun bağı*** adlanır. ***Bağ*** onun yaradıcısı olan ***Yadigar oğlu Bayramqulunun*** adı ilə əlaqədardır.

Bayramlı təpəsi – Cəbrayıl rayonunun Karxulu kəndi ərazisində qeydə alınmış oroqrafik obyekt. Toponim Qızılbaşların ***Bayramlı*** tayfasının adı ilə bağlıdır.

Bazar dərəsi – Qubadlı rayonunun ərazisində qeydə alınan oroqrafik obyekt. Toponimiyamızda dərin iz buraxan, qədim türk tayfalarından biri olan ***Bazar*** tayfasının adı ilə əlaqədardır.

Bazar düzü – Qubadlı rayonunun ərazisində qeydə alınan düz. ***Bazar*** qədim türk tayfalarından biridir.

Bazarbaşı – Şuşa şəhərinin mərkəzindən keçən Rastabazar küçəsinin başlangıcındakı əraziyə, sahəyə, küçəyə verilən ad. Bu ərazi şəhər bazarının başlanğıcı olduğu üçün belə adlandırılmışdır. ***Bazar*** – burada "*ticarət yeri*" mənasındadır. ***Bazarbaşı*** ümumi adlar vasitəsi ilə fomalaşan xatirə-memorial toponimlərdəndir.

Bcənəxut dağı – Xocalı rayonu ərazisində olan dağ. **Bcənəxut** toponimi qədim türk tayfası olan ***beçenə*** *(peçeneq)* və monqol dilindəki ***xut*** ("*yaylaqda düşərgə*") sözlərinin birləşməsindən ibarətdir. ***Xut*** – monqollarda maldar elin yaylaqda düşərgəsinə deyilir. ***Bcənəxut*** etnotoponiminin mənası "*maldar peçeneqlərin yaylaqda düşərgəsi*" deməkdir.

Beşdəllər – Xocalı rayonu ərazisində, Kosalar kəndi yaxınlığında, Qarabağ silsiləsində qeydə alınan oronim. ***Beşdəllər*** toponimi etnotoponimdir. ***Beşdəllər*** toponimini "*beş dəli*" yozumu ilə də mənalandırırlar.

Beşikdağ – Ağdam rayonunda qeydə alınan oroqrafik obyektlərdən biri belə adlanır. ***Dağ*** zahiri görkəm etibarı ilə formaca ***beşiyə*** bənzədiyi üçün belə adlandırılıb.

Beşikli – Ağdam rayonu ərazisində qeydə alınan coğrafi adlardan biri də ***Beşikli*** adlanır. ***Beşik*** - "*kiçik körpələrin uyuduqları yer*" anlamındadır. ***Beşik*** sözünün "*bir şeyin qaynağı, ocağı, vətəni*" mənası da var.

Bədəl bağı – Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Bədəl bağı*** adlanır. ***Bağ*** onun qurucusu hesab edilən **Bədəl** adlı bir nəfərin adı ilə adlanmışdır.

Bəhlulun kövşəni – Xocalı rayonu ərazisində qeydə alınmış oroqrafik obyekt.

Bəhrəmli piri – Xocavənd rayonunun ərazisində, Əmirallar kəndinin yaxınlığında, keçmiş *Bəhrəmli kəndi* ərazisində qeydə alınmış oroqrafik obyektlərdən biri ***Bəhrəmli piri*** adlanır. Bu coğrafi ad ***Bəhrəmli kəndi*** oykonimi ilə əlaqədar belə ad almışdır. Toponim "*Bəhrəmlidə olan müqəddəs pir-ocaq*" mənasındadır.

Bənnöv döşü – Laçın rayonunun Bozlu kəndi ərazisində qeydə alınmış coğrafi ad. Toponim ***bən*** (farsca "*xal*") və ***növ*** (ərəbcə "*çeşid*"), ***nov*** (farsca "*təzə*") sözlərindən ibarətdir. Toponimi bəzən ***bənövşə*** sözü ilə də əlaqələndirirlər.

Bərgüşad sıra dağları - Qubadlı və Zəngilan rayonları ərazisində yerləşən dağ. Ən yüksək zirvəsi *Aramazd* dağıdır (*3399 metr*). Hələ indiyə qədər ***Bərgüşad*** oronimi tamamilə dəqiq izah olunmayıb. XIX əsrin 50-ci illərinə aid ədəbiyyatda Naxçıvanda ***Bərgüşad*** adlı türkdilli tayfanın adı çəkilir. Bir çox tədqiqatçılara görə, toponimin birinci komponentini təşkil edən ***bərgü*** sözü qədim türk mənşəli ***barq*** tayfasının adındandır. Monqol hökmdarı Çingiz xanın oğlu Çucinin 1207-ci ildə qərbə doğru yürüşü zamanı başqa tayfalarla yanaşı ***bərgü*** tayfasının da torpaqlarını tutması tarixdən bizə məlumdur. İran tarixçisi Fəxrəddin Mübarəkşah (XII əsr) 58 türk tayfası arasında ***bərgü*** tayfasının da adını çəkib. Fəzlullah Rəşidəddin (XIII əsr) bu etnonimi ***bərküt*** (***bərgülər***) kimi qeydə almışdır. Tədqiqatçıların fikirlərinə görə, ***bərgülər*** monqol işğalından xeyli əvvəl Azərbaycanda məskunlaşmışdır. ***Bərgüşad*** toponiminin tərkibindəki ***şad*** (***şat***) sözü yaşayış məntəqəsi adları arasında geniş yayılıb. XV əsr Azərbaycan şairi Bədr Şirvaninin əsərlərində də *Bərgüşad* coğrafi adı çəkilir.

Bərk arxac – Qarabağ silsiləsinin ətəyində, Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 30 kilometr aralıda qeydə alınan oroqrafik obyektlərdən biri ***Bərk arxac*** adlanır. Oronim ***bərk*** və ***arxac*** sözlərindən ibarətdir.

Bəsitçay Dövlət Təbiət Qoruğu – Zəngilan rayonunun ərazisində qeydə alınan qoruq. ***Zəngilan rayonu*** coğrafi mövqeyinə, iqliminə, təbiətinə görə Azərbaycanın digər bölgələrindən fərqlənir. Rayon ərazisində, Bəsitçay ətrafında qeydə alınan **Bəsitçay dövlət təbiət qoruğu** – nadir təbii çinar meşəliyinin, Şərq çınarının qorunub saxlanılması məqsədilə Azərbaycan SSR Nazirlər Sovetinin ***4 iyul 1974-cü il*** tarixli qərarı ilə ***107*** hektar ərazidə yaradılmışdır. Qoruq Zəngilan rayonunda Kiçik Qafqaz dağlarının cənub-şərq hissəsinin Bəsitçay ətrafı boyunca ərazini əhatə edir. Qoruq ərazisinin landşaft kompleksini, xüsusilə nadir təbii çinar meşəliyini qorumaq məqsədilə təşkil edilmişdir. Çinarlıq qoruq ərazisinin 93,5 %-ni təşkil edir. Əsasən ***Şərq çınarı*** cinsindən ibarət olan bu qoruqda bir meşə tipi – müxtəlif otlu çinar meşələri formalaşmışdır.

Çinar ağaclarının orta yaşı 200 ildir. Lakin, əsl nəhəng – yaşı *1200 – 1500* il, hündürlüyü 50 metr və diametri 3 metr olan ağaclara da rast gəlmək olar. Qoruğun yerləşdiyi ərazi əsasən dağlıq və dağətəyi sahə olub, dəniz səviyyəsindən 700 metr yüksəklikdədir. Sağ sahil dik yamaclı dağlardan, sol sahil isə təpəliklərdən ibarətdir. Ərazidə əsasən *Üçüncü dövr çöküntüləri* yayılıb. Çay dərəsi boyunca ensiz allüvial meşə torpaqları və düzənlik uzanır. Buradakı dağlar Bəsitçayın qolları ilə xeyli parçalanmışdır. ***Qoruq*** ərazisi qışı quraq keçən mülayim-isti iqlim tipinə aiddir. Yayının isti olması səciyyəvidir. Havanın orta illik temperaturu burada təxminən 13 dərəcə olur. Ərazidə illik yağıntının miqdarı 600 mm-dir. Qoruq ərazisinin iqlim şəraiti çinar meşəliyinin təbii bərpası və inkişafı üçün çox əlverişlidir. ***Bəsitçay dövlət təbiət qoruğunun*** ərazisində əsasən allüvial-meşə torpaqları yayılıb. Çay dərələrinin yamaclarında, qoruğun ətraf sahələrində qəhvəyi dağ-meşə torpaqları inkişaf etmişdir. Çayın yatağı boyu və kiçik terraslarda inkişaf etmiş allüvial torpaqlar əsasən çinar meşələri altındadır. Burada daşlı-çınqıllı ərazilər də müəyyən sahəni tutur. Bunların hamısında ***çinar*** bitir və inkişaf edir. Çünki o, torpağa tələbkar deyil. Lakin çinar meşələri gillicəli, yaxşı fiziki xassəli və münbit torpaqlarda yüksək məhsuldarlığa və bonitetə malikdir. Azərbaycanda çinarın yalnız bir növü – ***Şərq çinarı*** inkişaf edir. Şərq çinarının çoxsahəli əhəmiyyəti, dünyada az yayılması, nadir bitki olması və son əsrlərdə xeyli azalması nəzərə alınaraq, onun adı Azərbaycanın "*Qırmızı Kitabı*"na daxil edilmişdir. Bəsitçay vadisindəki ***Çinar meşəliyi*** Azərbaycana deyil, bütün Avropa təbiətinə məxsus olan nadir incidir. Buradakı çinarların yaratdığı iqlim şəraiti vərəm viruslarını 19 saniyə müddətində məhv edir; məhz bunun nəticəsi idi ki, 1980 – 1990-cı illərdə bu regionlarda vərəmə tutulanların ümumi sayı respublikada ən az (*cəmi 34 nəfər*) olmuşdur. ***Bəsitçay dövlət təbiət qoruğunun*** 100 hektarını çinar meşələri tutur. Onlar Bəsitçayın və onun qolu Şıxauzçayın dərəsində yerləşir. Burada həm təmiz, həm də qarışıq çinar meşəliyi yayılmışdır. Qarışıq çinarlıqlarda dağdağan, qovaq, qoz, söyüd, tut və s. ağaclar, itburnu, murdarça, qaratikan, yemişan və s. kollar inkişaf edir. Araşdırmalar əsasında məlum olmuşdur ki, qoruqdakı çinar ağaclarının orta yaşı 200 il, orta hündürlüyü 35 m, orta diametri isə 1 metrdir. Qoruq ərazisində bəzən yaşı 1000 – 1500 il, hündürlüyü 50 metr və diametri 300 santimetr olan çinarlara da təsadüf edilir. ***Bəsitçay dövlət təbiət qoruğu*** 27 il Ermənistan ordusunun işğalı altında olduğundan ***qoruq***, demək olar ki, tamamilə məhv edilərək sıradan çıxmışdır. 1993-cü ildə ermənilər Zəngilan rayonunu işğal etdikdən sonra buradakı ***çinar*** ağaclarını qıraraq hissə-hissə müxtəlif xarici şirkətlərə satmaqla məşğul olmuşlar. 100-dən çox ***çinar ağacı*** çıxarılaraq Göyçə (*Sevan*) gölü ətrafında və İrəvan (*Yerevan*) şəhəri yaxınlığında əkilmişdir. Hektarlarla *çinar meşəsi* ermənilər tərəfindən vəhşicəsinə qırılaraq dağıdılmışdır. Ermənistan əhalisi bu qoruğu tamamilə dağıdıb. Bəsitçayın əsas təbiət kompleksi sayılan 200-300 illik tarixə malik çinar ağacları ermənilər tərəfindən qəddarcasına kökündən çıxarılaraq məişətdə istifadə edilib.

Bəy düşən – Xocalı rayonunun ərazisində, Canhəsən kəndinin 4 kilometrliyində, Qırxqız dağının ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Bəy düşən*** adlanır. Bu coğrafi ad vaxtilə nüfuzlu bir *bəyin* buraya *düşməsi*, burada daldalanması ilə əlqədar olaraq əmələ gəlmişdir.

Bəy yurdu yeri – Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 11 kilometr məsafədə qeydə alınan oroqrafik obyekt.

Bəydili yeri – Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyekt. Mənşəcə Səlcuq-oğuzlarından olan ***bəydili//bəkdili*** tayfası XV əsrdə qızılbaşlara qoşulmuşdur. M.Kaşğarinin "*Divani-lüğəti-türk*" əsərində ***bəydili*** mikrotoponiminə də rast gəlirik. Onun yazdığına görə

bəydili//beqtili 24 oğuz tayfasından biridir. Səlcuq oğuzlarının ***bəydili*** tayfasının adını özündə əks etdirən çoxlu oronimlər, oykonimlər vardır.

Bəylər dərəsi – Füzuli rayonunun Mollavəli kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri ***Bəylər dərəsi*** oronimidir. ***Bəylər dərəsi*** toponimi *"bəylərə məxsus olan dərə"* mənasındadır.

Bəylik – Ağdam rayonunun ərazisində qeydə alınmış coğrafi adlardan biri ***Bəylik*** adlanır. Tarixən Ağdamda nüfuzlu bəylər çox olub. Onların çoxlu mülk torpaqları olmuş və öz rəiyyətlərini də istədikləri kimi, lazımi səviyyədə dolandırmışlar.

Bəylik bağı – Xocavənd rayonunun Qaradağlı kəndinin yaxınlığında, dağətəyi ərazidə qeydə alınan oroqrafik obyektlərdən biri ***Bəylik bağı*** adlanır. Yerli məlumata görə, vaxtilə ətraf ərazilərin adlı-sanlı ***bəyləri*** ev tikdikdən sonra burada əylənər, dincələr və istirahət edərdilər. Elə buna görə də ***bağ*** belə ad almışdır.

Bəylik dağı – Xocavənd rayonunun Qaradağlı kəndi yaxınlığında, kənddən 3 kilometr aralıda qeydə alınan coğrafi adlardan biri ***Bəylik dağı*** adlanır. ***Bəylik dağı*** toponimi "*bəyə məxsus olan dağ*" mənasındadır.

Bəylik qışlağı – Xocavənd rayonunun ərazisində, Qarabağ silsiləsi ətəyində, rayon mərkəzindən 10 kilometr məsafədə, Muğanlı kəndinin yaxınlığında qeydə alınmış coğrafi adlardan biri ***Bəylik qışlağı*** adlanır. ***Bəylik qışlağı*** toponimi "*bəyə məxsus olan qışlaq*" mənasındadır.

Bəynəzər düzü – Şuşa rayonunun Malıbəyli kəndindən bir qədər kənarda qeydə alınmış oroqrafik obyekt belə adlanır. Toponim ***Nazar*** (***Nəzər***) ***bəy*** şəxs adı ilə əlaqədardır. Toponim həmin sahənin, ***düzün*** *Nəzər bəyə* məxsus olmasını bildirir.

Bəytəpə dağı – Füzuli rayonunun ərazisində dağ. Əsl adı ***Bəytəpəsi*** kimi yazılmalıdır. Vaxtilə ***təpə*** burada yaşamış bir ***bəyə*** məxsus olduğuna görə belə adlandırılmışdır.

Bəytəpə dağı – Xocavənd rayonunun ərazisində dağ. Əsl adı ***Bəytəpəsi*** olmalıdır. ***Təpə*** buranın bir ***bəyə*** məxsus olmasına görə belə adlandırılmışdır.

Bəzirgan aşırımı – Qarabağ silsiləsində, Xocalı rayonu ərazisində, rayon mərkəzindən 21 kilometr məsafədə qeydə alınan oroqrafik obyektlərdən biri ***Bəzirgan aşırımı*** adlanır. O, Bəzirgansu çayının mənbəyi yaxınlığında yerləşir. ***Bəzirgan*** aşırımının hündürlüyü 1633 metrdir. Toponim ***bəzirgan*** və ***aşırım*** sözlərindən ibarətdir. ***Bəzirgan*** (***bəzərgan***) sözü fars dilində "*tacir*" anlamını ifadə edir. Şərq ölkələrində ticarətlə məşğul olan adamlara, tacirlərə, sövdəgərlərə ***bəzirgan*** deyilir.

Bəzirgan (*Bəzirgən*) aşırımı – Azərbaycanda, Qarabağ silsiləsində, Şuşa və Laçın rayonlarının sərhədində, Həkəri çayının qolu olan Bəzirgansu çayının mənbə hissəsində yerləşən aşırım. ***Bəzirgan aşırımının*** hündürlüyü 1633 metrdir.

Bəzirgan yalı – Laçın rayonunun Zerti kəndi ərazisində qeydə alınmış yüksəklik. ***Yal*** coğrafi termini müsbət relyef formasını ifadə edir.

Biçənək yalı – Xocalı rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Biçənək yalı*** adlanır.

Bizmin dağı – Həkəri çayı ilə onun qolu Xoşgədik çayları arasında, Muradxanlı kəndinin şərqində, Qubadlı rayonu ərazisində yerləşən dağ. Bəzi tədqiqatçılara görə toponimin birinci komponenti qədim türk dillərində "*dağ*" mənasında işlənən ***biz*** sözündən, ikinci hissə isə ***min*** adlı türk mənşəli tayfanın adından ibarətdir. Dağın orada mövcud olmuş qədim Min yaşayış məntəqəsinin adı ilə əvvəllər ***Biz Min*** adlanması, sonralar da ***Bizmin*** formasında yazıya alınması ehtimal edilir. Dağda yerləşən ***Bizmin*** adlı qalanın qalıqları da bu mülahizəni təsdiqləyir.

Boğaz dərəsi, düzü, təpəsi, yaylağı, yamacı – Qarabağ silsiləsində, Laçın rayonunun Budaqdərə kəndinin ərazisində yerləşir.

Boğurxan dağı – Qarabağ silsiləsində, Köndələnçayın yaxınlığında, Köndələnçay və Xonaşençay arasında, Xocavənd rayonu ilə Xocalı rayonu sərhədində, Cəmiyyət kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Boğurxan dağı*** adlanır. Dağın maksimal hündürlüyü **1584** metrdir. Bu coğrafi ada bəzi sənəd və materiallarda ***Bağırxan, Bagırqan*** kimi də rast gəlmək olar. Oronim orada müqəddəs sayılan ***Boğurxan*** qayasının adı ilə bağlıdır. Qırmızı rəngli, vulkan mənşəli süxurdan ibarət olan bu qayanın başında qədim məbəd xarabalığı var. Çox güman ki, ***Boğurxan*** adlı şəxs din xadimi olmuş və orada dəfn edildikdən sonra qəbri sitayiş yerinə çevrilmişdir. Tarixi ədəbiyyatlarda ***Boğarxan, Buğraxan*** şəxs adlarına da rast gəlinir.

Bostan yeri – Xocavənd rayonunun Axullu kəndi ərazisində qeydə alınan oroqrafik obyekt.

Boyəhmədli dağı – Ağdam rayonunun Boyəhmədli kəndi yaxınlığında qeydə alınmış oroqrafik obyektlərdən biri də ***Boyəhmədli dağı*** adlanır. ***Dağ*** XVIII əsrin sonlarında (1795 -1797-ci illərdə) baş verən siyasi hadisələrlə əlaqədar Qazax mahalından köçüb gəlmiş ***boyəhmədli*** tayfasının adı ilə bağlıdır.

Boz bazı – Füzuli rayonu ərazisində Mirzəcamallı kəndi yaxınlığında qeydə alınan oronimlərdən biri də ***Boz bazı*** adlanır. Toponim "*boz rəngli su çıxmayan hündür yer*" mənasındadır.

Boz bazı – Xocavənd rayonunun ərazisində, Muğanlı kəndi yaxınlığında qeydə alınan oronimlərdən biri də ***Boz bazı*** adlanır. ***Boz bazı*** toponimi *"boz rəngli su çıxmayan hündür yer"* anlamını ifadə edir.

Boz güney – Qarabağ silsiləsinin ətəyində, Xocalı rayonu ərazisində, rayon mərkəzindən 18 kilometr məsafədə, Meşəli kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Boz güney*** adlanır. ***Güney*** coğrafi termininin "*gün tutan yer*", "*günəşli*", "*yüksəkliyin Günəşə baxan hissəsi*", "*cənub*" və s. mənaları var.

Boz qaya – Qarabağ silsiləsində, Xocalı rayonu ərazisində, rayon mərkəzindən 3 kilometr məsafədə qeydə alınan oronimlərdən biri ***Boz qaya*** adlanır. ***Qaya*** zahirən kül rənginə oxşadığı üçün toponim belə adlanmışdır.

Bozat ölən dərə – Cəbrayıl rayonunun Şıxalıağalı kəndi ərazisində qeydə alınmış oroqrafik obyekt. Bu toponim *bozatın* həmin *dərədə ölməsi* ilə əlaqədardır.

Bozdağ – Ağdam rayonunun ərazisində dağ.

Bozdağ – Xocalı rayonunda, Xocalı şəhəri ilə Əsgəran qəsəbəsi arasında qeydə alınmışdır. Əsasən rəng mənasında işlənən ***boz*** sözü ilə bağlı respublikamızda çoxlu spesifik oronimlər mövcuddur. ***Boz*** – külə bənzər, ağ rəng ilə qara rəngin qarışığından əmələ gələn rəngdir.

Bozdağ qayası – Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 2 kilometr məsafədə qeydə alınan oroqrafik obyektlərdən biri ***Bozdağ qayası*** adlanır.

Bozdüz – Xocalı rayonunun ərazisində, Qarabağ silsiləsinin ətəyində qeydə alınan coğrafi adlardan biri də ***Bozdüz*** oronimidir. Bəzən sənədlərdə bu coğrafi ad ***Bozun düzü*** kimi də yazılır.

Bozgüney – Laçın rayonunun Qarıqışlaq kəndində yerləşən güney ***Bozgüney*** adlanır.

Bozqaya – Xocalı rayonunun ərazisində qaya. ***Qaya*** kül rənginə çaldığı üçün belə adlandırılmışdır.

Bozqaya – Kəlbəcər rayonunun ərazisində qeydə alınan qaya.

Bozqobu dərəsi – Füzuli rayonu ərazisində, İşıqlı kəndi yaxınlığında qeydə alınmış oronimlərdən biri də ***Bozqobu dərəsi*** adlanır. ***Qobu*** sözü monqol mənşəli coğrafi termindir. Bu söz bizim dialektlərdə əsasən ***qovu, kobı, gobı, qobu*** formalarında tələffüz olunur. **Qobu** mənfi relyef forması bildirən termini oronimlərdə "*çökəklik*", "*dərə*", "*quru dərə*", "*su basan yer*", "*çay və sel sularının axdıgı yer*", " *dərin arx*", " *susuz çay dərəsi*" və s. məna çalarlarına malikdir.

Bozquzey – Laçın rayonunun ərazisində qeydə alınan oroqrafik obyekt. ***Quzey*** "*dağın və ya təpənin şimal yamacı, günəş şüası düşməyən kölgəli tərəfi*"nə deyilir.

Bozlu çöl – Laçın rayonunun Əhmədli kəndi ərazisində qeydə alınan oroqrafik obyekt ***Bozlu çöl*** adlanır. Oronim ***bozlu*** tayfasının adı ilə əlaqədardır.

Boztəpə – Kəlbəcər rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Boztəpə*** adlanır.

Boztəpə – Qubadlı rayonu ərazisində, Çərəli kəndində yerləşən təpə.

Boztəpə – Laçın rayonunun Avazlar və Hüsülü kəndləri ərazisində qeydə alınmış oronim.

Bozyal – Kəlbəcər rayonunun ərazisində qeydə alınan oronimlərdən biri də ***Bozyal*** adlanır. Oronimin tərkibindəki ***yal*** coğrafi termini müsbət relyef formasını bildirir.

Böyük Alagöl dağı – Kəlbəcər rayonu ərazisində qeydə alınmış dağ. Bu dağ öz adını ətəyində yerləşən ***Alagölün*** adından almışdır. ***Ala*** sözü burada ətrafdakı qaya və yamacların suda əksini bildirir. ***Alagöl*** sözünün əvvəlinə artırılan ***böyük*** komponenti onu eyniadlı göldən fərqləndirmək üçün əlavə edilmişdir.

Böyük Cümə məscidi – Şuşa şəhərində, "Yuxarı məhəllə" deyilən ərazidə qeydə alınan məscid. Tarixi abidələrlə zəngin olan Şuşa şəhərindəki bu gözəl memarlıq abidəsini Gövhər ağa 1768-ci ildə bərpa etdirərək tamam yeni bir üslubda tikdirib başa çatdırmışdır.

Böyük daş – Qarabağ silsiləsinin ətəyində, Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 4 kilometr məsafədə qeydə alınan oroqrafik obyektlərdən biri ***Böyük daş*** adlanır.

Böyük Dəhnə – Xocalı rayonunun ərazisində, rayon mərkəzindən bir qədər aralıda qeydə alınan oroqrafik obyektlərdən biri ***Böyük Dəhnə*** adlanır. ***Dəhnə*** (***baş qurğu***) – hidroenergetika, su təchizatı, irriqasiya və s. məqsədlər üçün çay, göl, su anbarı və s.-dən su götürən hidrotexniki qurğudur.

Böyük dərə – Laçın rayonunun Suarası kəndi yaxınlığında qeydə alınan coğrafi adlardan biri ***Böyük dərə*** adlanır.

Böyük dərə, **Kiçik dərə** – Laçın rayonunun ərazisində qeydə alınan oronimlər.

Böyük dik – Cəbrayıl rayonunun Göyərçin Veysəlli kəndi ərazisində qeydə alınmışdır. Bu *dik* xarici görkəminə, zahirən ***böyük*** olduğuna görə belə ad almışdır.

Böyük düz – Cəbrayıl rayonunun əazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Böyük düz*** adlanır.

Böyük düz – Laçın rayonu ərazisində qeydə alınan coğrafi adlardan biri də ***Böyük düz*** oronimidir.

Böyük güney – Xocalı rayonunun ərazisində, Kərkicahan qəsəbəsinin yaxınlığında, Qarabağ silsiləsinin ətəyində qeydə alınan oroqrafik obyektlərdən biri də ***Böyük güney*** adlanır.

Böyük güney – Laçın rayonunda, Ağcakənd kəndi ərazisində qeydə alınan oroqrafik obyekt.

Böyük Xırman – Şuşa rayonunun ərazisində qeydə alınmış coğrafi ad. Respublikamızda iqtisadi həyatla bağlı formalaşmış toponimlər çoxdur. Onlardan biri də Şuşa rayonunun Səfixanlar kəndi ərazisində qeydə alınmış ***Böyük Xırman*** oronimidir. ***Xırman*** adı əkinçiliklə bağlı formalaşan toponimlərdəndir.

Böyük İşıqlı dağı – Laçın rayonu ərazisində yerləşən dağ. Ermənistanın Şisyan və Gorus rayonları ilə həmsərhəd ərazidədir. Qarabağ yaylasında ən yüksək zirvələrdən biridir. Hündürlüyü 3552 metrdir. Sönmüş vulkan konusudur. Yamaclarında çınqıl yığınları, qədim buzlaq relyefi formaları (troq, moren), göl (İşıqlı Qaragölü) var. ***Böyük İşıqlı dağının*** zirvəsində *Dəmirdaş* adlanan vulkanik süxur mövcuddur və bir çoxları ona sitayiş edir. Bəzi tədqiqatçılar dağın adını günəşli günlərdə qarlı zirvəsinin parlaqlığı, *işıqlılığı* ilə bağlayırlar. ***Böyük İşıqlı dağı*** sözünün əvvəlindəki ***böyük*** komponenti onu eyniadlı digər coğrafi addan fərqləndirmək üçün əlavə olunmuşdur. Kiçik Qafqazın Laçında yerləşən ***Böyük İşıqlı*** (3550-3554 metr) və ***Kiçik İşıqlı*** (3450 m) vulkan mənşəli dağları əsasən, dağ-çəmən landşaftına malikdir. Azərbaycan ərazisində ***İşıqlı*** toponiminin paralelləri çoxdur.

Böyük Kirs dağı – Azərbaycanda, Şuşa, Laçın, Xocavənd rayonları sərhədində, Qarabağ silsiləsində yerləşən dağ. ***Böyük Kirs dağı*** Qarabağ dağ silsiləsinin ən yüksək zirvələrindən biridir. Dağ Xocavənd rayon mərkəzinə **55** km məsafədədir. ***Böyük Kirs dağı*** Orta Yura sisteminin vulkanogen – çökmə süxurlarından təşkil olunmuşdur. Böyük Kirs dağının hündürlüyü 2725 metrdir. Allı çayı, Quruçay, Köndələnçay öz mənbələrini *Böyük Kirsin* zirvə və ətəklərindən götürürlər. Böyük Kirsin qarşılığı Kiçik Kirs dağıdır. Toponimin tərkibindəki ***böyük*** sözü fərqləndirici əlamət daşıyır. ***Kirs*** sözü isə, dialektlərdə "*sıldırım dağ*", "*uca zirvə*", "*qar toplanan ərazi*" (Quba rayonu) və s. mənalardadır. ***Böyük Kirs dağı*** toponiminin mənası "*uca, böyük, sıldırım dağ*" deməkdir.

Böyük quzey – Laçın rayonunun Hüsülü kəndi ərazisində qeydə alınan oronimlərdən biri ***Böyük Quzey*** adlanır. **Böyk Quzey** toponimi *"təpənin, yüksəkliyin günəş şüası tutmayan böyük, kölgəli hissəsi"* mənasındadır.

Böyük Oxlu dağı – Xocavənd rayonunun ərazisində, keçmiş Vərəndə mahalının Bəhrəmli kəndi ərazisində, Əmirallar kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Böyük Oxlu dağı*** adlanır. ***Böyük Oxlu dağı*** oroniminin tərkibindəki ***böyük*** sözü fərqləndirici xüsusiyyət daşıyır.

Böyük övliya Şıx Hacı Qasım Çələbinin hasarı–- Cəbrayıl rayonunun ərazisində, məşhur Hacı Qaraman məzarlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Böyük övliya Şıx Hacı Qasım Çələbinin hasarı*** adlanır. Burada XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində yaşamış, dövrünün hörmətli nüfuz sahibi, təriqət rəhbəri, mürşidi**-**kamil, Hacı Qaraman övladı, **böyük övliya Şıx Hacı Qasım Çələbi** dəfn edilmişdir.

Böyük Şıx Hacı Alı Çələbinin qəbri – Cəbrayıl rayonunun müqəddəs Hacı Qaraman məzarlığındakı hasarda qeydə alınan oroqrafik obyektlərən biri də ***Böyük Şıx Hacı Alı Çələbinin qəbri*** adlanır. Hasarlıqda müqəddəs Hacı Qaraman övladı, təriqət rəhbəri, mürşidi-kamil ***Böyük Şıx Hacı Alı Çələbi*** dəfn olunduğu üçün bu ***qəbir*** belə adlanmışdır.

Böyük tala – Xocalı rayonunun ərazisində, Kərkicahan qəsəbəsindən 10 kilometr məsafədə qeydə alınan oroqrafik obyektlərdən biri ***Böyük tala*** adlanır. ***Tala*** komponenti *"meşənin ortasında çox da iri olmayan ağacsız açıq sahə"* mənasını ifadə edir.

Böyük yer – Füzuli rayonunun Yal Pirəhmədli kəndi yaxınlığında qeydə alınan oronimlərdən biri **Böyük yer** adlanır. Bu **yer** sahəsi **böyük** əraziyə malik olduğu üçün yerli əhali oranı ***Böyük yer*** adlandırmışdır.

Böyürtkənli dərə – Xocavənd rayonunun Qaradağlı kəndi ərazisində, kənddən 2 kilometr aralıda qeydə alınmış dərə. ***Böyürtkənli dərə*** coğrafi adı Xocavənd rayonunun Qaradağlı kəndi ərazisində qeydə alınmışdır.

Buğa yamacı – Şuşa rayonunun ərazisində qeydə alınmış yamac.

Buğa yaylağı – Şuşa rayonunun ərazisində yaylaq. Azərbaycanda heyvan adları və oroqrafik terminlərdən düzələn yüzlərlə oronim qeydə alınmışdır. ***Buğa*** – inəkdən böyük və hündür olan, qaramalın damazlıq törədici erkəyidir.

Buğadaş dağı – Şuşa rayonunun ərazisində qeydə alınmış dağ. Şuşa rayonunun Turşsu qəsəbəsi ilə Zarıslı kəndi sərhədində yerləşən, metafor xüsusiyyətinə görə ***Buğadaş dağı*** adı almış oroqrafık obyekti oradakı daşın ***buğaya*** bənzəməsi ilə bağlıdır.

Buğuz qalası – Xocavənd rayonunun Avdur kəndi ərazisində, Ağdam rayonunun Abdal-Gülablı kəndinin 5 kilometrliyində qeydə alınan oroqrafik obyektlərdən biri ***Buğuz qalası*** adlanır. *Avdur* yaşayış məntəqəsinin ərazisində bu qalanın xarabalıqları qalmaqdadır. ***Buğuz*** qalasının yaxınlığında köhnə müsəlman qəbiristanlığı olmuşdur. Buradakı qəbiristanlıqlar bu yerlərdə hələ çox-çox əvvəllər müsəlman əhalinin məskunlaşmasını bildirir. Görünür, vaxtilə buranın sakinləri siyasi şəraitlə əlaqədar olaraq öz yaşayış yerlərini dəyişmişlər. Avdur kəndinin özü XVIII əsrdə axırıncı dəfə əvvəlki yerindən 5 kilometr aşağıda salınmışdır. ***Buğuz*** sözü ilə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur. Toponimin dəqiq elmi izahı hələlik verilməmişdir.

Bulaq ocaqları – Cəbrayıl rayonunun Sarıcalı kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyekt ***Bulaq ocaqları*** adlanır. **Bulaq ocaqları** adını alan bu toponim ayrı-ayrı **5** bulaqdan ibarətdir: 1) ***Susalıq bulağı*** – kəndin şimal söykənəcəyindəki dağın başında yerləşir; 2) ***Göygöl bulağı*** – Sarıcalı ilə Kavdar kəndlərinin arasındakı dərənin başında; 3) ***Tək armud bulağı*** – kəndin aşağı başındakı nəhəng gövdəli ***tək armud*** ağacının dibində; 4) ***Üç çinar bulağı*** – Sarıcalı kənd sakini Zülfüqar Əliyevin evindən yuxarıdakı ***üç çinarın*** dibində; 5) ***Qarağac bulağı*** – kəndin aşağı ayağındakı nəhəng ***qarağacın*** dibində. Bu bulaqların hər birində qaynamadan çıxan şirin sular saflığına, duruluğuna, müalicəvi əhəmiyyətnə görə müqəddəs sayılır və ***ocaq*** kimi qorunur.

Bulaqlı dərə – Cəbrayıl rayonunun Qalacıq kəndinin ətrafında qeydə alınan oroqrafik obyektlərdən biri də ***Bulaqlı dərə*** adlanır. Həmin *dərədə* bir neçə ***bulaq*** olduğuna görə toponim belə ad almışdır.

Bulvar – Şuşa şəhərində, klub ilə X.B.Natəvanın imarəti arasında, şəhərin "Gəncə qapısı" deyilən hissəsindən bir qədər yuxarıda, Xan qızı bulağının arxasındakı sahədə qeydə alınan coğrafi ad.

Burğa dərəsi – Füzuli rayonunun Horadiz kəndi yaxınlığında qeydə alınan hidronimlərdən biri də ***Burğa dərəsi*** adlanır. Oronimi mənşə etibarı ilə qədim türkdilli ***koman*** tayfasının ***buruq*** tirəsi ilə əlaqələndirənlər var. Kəndin ərazisində ***Burğa bulağı*** hidronimi də qeydə alınmışdır.

Burun zəmi taxtası – Bu oronim Cəbrayıl rayonunun Nüsüs kəndi ərazisində qeydə alınmışdır. ***Taxta*** termini "*iki dərə arasında düz yer*", "*dağlıq yerdə hamar sahə*", "*hündür ərazidə düzənlik*", "*əkin üçün ayrılmış sahə*", "*qurunun gölün, dənizin içinə girən dağlıq, qayalıq hissəsi*" və s. mənalar daşıyır. ***Burun*** coğrafi termini "*qurunun, dağın, qayanın sivri bucaq şəklində düzə tərəf uzanan hissəsi*" mənasındadır.

Butaylı bağ – Füzuli rayonunun Sərdarlı kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri də ***Butaylı bağ*** adlanır. ***Butaylı bağ*** coğrafi adı çay yatağının "*bu tayında*" yerləşdiyi üçün belə ad alıb.

Buzlu daş – Xocalı rayonu ərazisində, Kərkicahan qəsəbəsinin yaxınlığında qeydə alınan maraqlı oroqrafik obyektlərdən biri ***Buzlu daş*** adlanır. Yerli əhalinin dediyinə görə, ilin hər bir günü bu *daş* ***buz*** kimi soyuq olduğu üçün toponim belə ad almışdır.

Buzluq dağı – Kəlbəcər rayonu ərazisində yerləşən dağın adı. ***Buzluq*** oronimi "*buz olan yer*" mənasındadır. Dağın ərazisində ***Buzxana*** adlı yer də vardır.

Bük dağı, Bük dərəsi, Bük təpəsi – Laçın rayonunun Minkənd kəndi ərazisində qeydə alınan bu oronimlər ***bük*** çoxmənalı termini ilə əlaqədar yaranmışdır. ***Bük*** termini türk dillərində "*dağ yarğanı*", "*yüksəklik, təpə*", "*dağ keçidi*", "*ensiz dağ vadisi*" anlamlarındadır. Minkənd ərazisindəki ***Bük dağı, Bük dərəsi, Bük təpəsi*** oroqrafik obyektləri də bu tipli coğrafi adlardandır.

Bütlər sarayı – Füzuli rayonunun Araz Dilağarda kəndi ərazisində qeydə alınmış oroqrafik obyektlərdən biri ***Bütlər sarayı*** adlanır. Arxeoloqların zarafatla ***Bütlər sarayı*** adlandırdıqları bu təpədə "*daşlaşmış insanlar*" aşkara çıxarılmışdır. Bu daşların üzərində aparılan tədqiqatlardan bəlli olmuşdur ki, onlar Qarabağın qədim sakinlərinin ibtidai dini təsəvvür formalarından biri olan ***bütpərəstliyin*** məhsuludur. Məlumdur ki, miladdan öncə birinci minilliyin ortalarında Qarabağda yaşayan əhali də elə düşünürdü ki, guya təbiətdə hər şeyin öz allahı var. Bu təsəvvür antik dövrdə hakim mövqe tutmuşdu. O zamanlarda Azərbaycanın başqa ərazilərində olduğu kimi, Qarabağda da çoxlu ***bütlər*** (*allahlar*) "*yaradılmışdır*".

Cahan ocağı – Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 2 kilometr məsafədə, Daşbulaq kəndindən bir qədər aşağıda, Qışlaq qəbiristanlığında, Allahverdi bəyin tut bağının yanında yerləşən ziyarətgah ***Cahan ocağı*** adlanır. ***Cahan ocağı*** adlanan bu müqəddəs ziyarətgahın adını bəzən ***Cahan nənənin ocağı*** kimi də yazırlar.

Camalxan təpəsi – Cəbrayıl rayonunun Dağ Tumas kəndinin yaxınlığında, Arpa dərəsinin baş hissəsində qeydə alınan oronimlərdən biri ***Camalxan təpəsi*** adlanır. ***Camalxan təpəsi*** toponimi "*Camalxana məxsus olan təpə*" mənasına uyğun gəlir.

Camış dərəsi – Cəbrayıl rayonunun ərazisində qeydə alınan oronimlərdən biri ***Camış dərəsi*** adlanır. Vaxtilə həmin dərədə ***camışların*** çoxluğu ilə əlaqədar olaraq toponim belə ad almışdır.

Camışuçan – Zəngilan rayonunun ərazisində qeydə alınmış oroqrafik obyektlərdən biri ***Camışuçan*** adlanır. Bu coğrafi ad vaxtilə burada baş vermiş bədbəxt hadisə ilə – *camışın* qayadan *uçması* ilə əlaqədar olaraq belə adlandırılmışdır.

Canavar talası – Şuşa rayonunun Səfixanlar kəndinin ərazisində qeydə alınan oronim. Vaxtilə həmin talada tez-tez ***canavar*** göründüyü üçün camaat həmin yeri belə adlandırmışdır.

Canavar yeri – Ağdam rayonunun ərazisində qeydə alınan coğrafi adlarından biri də ***Canavar yeri*** oronimidir. Yerli əhalinin verdiyi məlumata görə, bu ərazilərdə tez-tez ***canavara*** rast gəlindiyindən oronim belə adlanmışdır.

Canavartəpə – Xocavənd rayonunun Qaradağlı kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri də ***Canavartəpə*** oroqrafik obyektidir. Qazıntılar zamanı buradan qədim dövrlərə aid çoxlu maddi mədəniyyət nümunələri aşkarlanmışdır.

Canqu yalı – Cəbrayıl rayonunun Nüzgər kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Canqu yalı*** adlanır. Dağın ən hündür zirvəsinin yamacı oronimiyada ***yal*** termini ilə ifadə edilir. Oronimin tərkibindəki ***Canqu*** sözü ilə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur.

Canqulu dağı – Füzuli rayonu ərazisində, Alıxanlı kəndindən 3 km şimalda qeydə alınan ***dağ*** adıdır**.** O, Köndələnçayın aşağı axarından sol tərəfdədir. Dağın maksimal hündürlüyü *291* metrdir. El arasında bu yüksəkliyə ***Canqulutəpə*** də deyirlər. Oronim ***Canqulu*** şəxs adı ilə əlaqədardır.

Canqulu kurqanı – Cəbrayıl rayonunda, Mahmudlu kəndi yaxınlığında, düzənlik ərazidə yerləşir. Bu ***kurqan qəbiristanlığı*** tunc dövrünün yadigarı hesab olunur. Yerli məlumatlara görə, ***Canqulu*** şəxs adıdır. Türk mənşəli ***kurqan*** sözü "*torpaq, ağac və ya daşdan düzəlmiş, əsasən yarımkürə formalı qədim qəbirüstü abidə, süni təpə*" anlamındadır.

Cavad kalafası – Laçın rayonunun Qurdhacı (*Kürdhacı*) kəndi ərazisində qeydə alınmış oroqrafik obyekt. ***Kalafa*** sözü "*Çökəklik*", "*quyu*" anlamındadır. ***Cavad -*** şəxs adıdır.

Ceyran düzü, Çeyrançöl, Ceyrantəpə – Cəbrayıl rayonunda, Diridağ yaxınlığında qeydə alınmışdır. Vaxtilə bu düzdə, çöldə, təpədə çoxlu sayda ***ceyranlar*** olduğu üçün oronimlər belə adlanmışdır.

Ceyran zəmi – Füzuli rayonunun Yal Pirəhmədli kəndi yaxınlığında qeydə alınmış oronimlərdən biri ***Ceyran zəmi*** adlanir. Bu ***zəmi*** ərazisində vaxtilə tez-tez ***ceyrana*** rast gəlindiyindən oroqrafik obyekt yerli əhali arasında belə ad almışdır.

Ceyrançöl – Ağdam rayonunun ərazisində qeydə alınan oronim. Toponim həmin ərazidəki çöldə vaxtilə tez-tez ***ceyran*** görünməsi ilə əlaqədar olaraq belə adlandırılmışdır.

Ceyrandağ – Şuşa rayonunun ərazisində, Qarqar çayının yaxınlığında yerləşən dağ. Bu dağın adı oradakı meşədə yerləşən ***Ceyran*** yerinin adı ilə əlaqədardır. Bir rəvayətə görə, orada ***ceyran*** bir körpə uşağa süd verərək onu ölümdən xilas etmişdir.

Ceyrankeçməz – Laçın rayonu ərazisində, Güləbird kəndinin yaxınlığında qeydə alınan coğrafi adlardan biri də **Ceyrankeçməz** oronimidir. Toponim "*ceyranın keçə bilmədiyi yer*" mənasındadır.

Cəbrayıl Ata piri – Cəbrayıl şəhəri yaxınlığında, şəhərdən şimalda, Qarabağın dağlıq hissəsində, Yuxarı Qarabağ iqtisadi rayonunda, Alpaşa (bəzən *Alıpaşa* kimi də yazırlar) dağının üzərində, yaşıl çəmənlikdə yerləşən və ***Cəbrayıl-Ata*** adı ilə məşhur olan məqbərə ***Cəbrayıl-Ata piri*** adlanır. Onun uzunluğu 4,5 metr, eni 2,4 metr, hündürlüyü 1,8 metrdir. Deyilənə görə, ***Cəbrayıl-Ata*** burada dəfn olunmuşdur. Bəzi məlumatlara görə, bu ***pir*** (***türbə***) vaxtilə ***Cəbrayıl*** kəndinin təməlini qoymuş ***Ayətulla Cəbrayıl Həsənzadə Vedili*** ad və soyadlı bir şəxsin qəbri üzərində tikilmişdir. Yerli sakinlər bu piri müqəddəs tapınaq yeri kimi çox əziz tutur. Buradakı məzar və qədim yaşayış yerlərinin izləri erməni işğalına qədər yaxşı qalmışdı. İşğaldan sonra ***Cəbrayıl-Ata piri*** abidəsinin ermənilər tərəfindən dağıdıldığı məlum oldu. Bu ***pir-məqbərə*** öz adında orta əsrlərdə yaşamış ***Cəbrayıl Atanın*** adını əbədiləşdirmişdir. Bir sıra sənədlərdən məlum olur ki, ***Cəbrayıl-Ata*** orta çağda ömür sürmüş nüfuzlu tarixi şəxsiyyət olmuşdur.

Cəbrayıl bağı – Cəbrayıl rayonunun Qalacıq kəndi yaxınlığında qeydə alınan coğrafi adlardan biri ***Cəbrayıl bağı*** adlanır. Toponim "*Cəbrayıla məxsus olan bağ*" anlamını ifadə edir.

Cəbrayıldağ qaşı – Cəbrayıl rayonunun Aşağı Məzrə kəndində qeydə alınmış oroqrafik obyektlərdən biri ***Cəbrayıldağ qaşı*** adlanır. ***Qaş*** coğrafi termini "*dağın, qayanın, təpənin irəliyə çıxmış qabaq tərəfi*", "*dağın alçaq silsiləsini yuxarı hissə ilə birləşdirən zolaq*", "*dağın irəliyə çıxmış hissəsi*", "*dağ haçaları olmayan silsilə yalı*" və s. mənalarda işlədilir.

Cədəyəbaşı dağı – Laçın rayonu ərazisində qeydə alınmış oronimlərdən biri ***Cədəyəbaşı dağı*** adlanır. Oronim azacıq təhrif olunub. Əslində ***Cədyəbaşı*** olmalıdır, ***Cədy -*** ərəb dilində "*keçi balası*" (astronomiyada "*oğlaq bürcü*") deməkdir. Toponim "*keçi balası başına bənzəyən dağ*" mənasındadır.

Cəfərəkən çaxnağı – Füzuli rayonunun Mollavəli kəndi ərazisində qeydə alınmış oronim. ***Çaxnaq*** (*çaxnaq*) sözü əski türk dillərində "*çuxur yer*" mənasindadir. ***Cəfər*** həmin yeri *əkən* şəxsin adıdır.

Cəfərin yeri – Xocavənd rayonunda, Salakətin kəndi ərazisində qeydə alınmış oronimlərdən biri ***Cəfərin yeri*** adlanır. Bu əkilmiş sahə ***Cəfər*** adlı bir şəxsə məxsus olduğu üçün toponim belə ad almışdır.

Cəlil türbəsi – Füzuli rayonunun Qarğabazar və Kürdlər kəndləri arasındakı qədim qəbiristanlıqda qeydə alınan tarixi abidə ***Cəlil türbəsi*** adlanır. Təpə üzərində tikilmiş bu abidənin ümumi hündürlüyü 10 metrdir. Plan quruluşuna görə ***Cəlil türbəsi*** səkkizguşəli türbələr sırasına daxildir. Türbənin hər tərəfinin eni 2,3 m olmaqla divar qalınlığı 1 metr olsa da, bu ölçü getdikcə azalaraq günbəzin mərkəzində 21 sm-ə çatır. ***Cəlil türbəsinin*** gövdəsi *"epoxa"* adlı 22, × 22×4,5 sm ölçülü bişmiş kərpiclə hörülüb. Gövdəni günbəzindən yüngül relyefli karniz ayırır. ***Cəlil türbəsi*** üzərindəki bəzəklər Kərbəlayi Səfixanın tikdiyi minarə bəzəkləri ilə oxşarlıq təşkil edir. ***Cəlil türbəsi*** daxildən də 8 bərabər tərəflərə bölünür. Hər tərəf üzərində 21 sm dərinlikdə, 2,8 m hündürlüyündə, eni 1 m olan nişalar işlənib. ***Türbə*** daxildən 1 sm qalınlıqlı əhəng məhlulu ilə suvanıb. Türbənin kitabəsində miladi 1889-1890-cı (hicri 1307-ci il) illərdə memar İbrahim Xəlil tərəfindən ***Cəlil*** adlı nüfuzlu bir şəxs üçün tikildiyi qeyd olunmuşdur.

Cərgələr – Laçın rayonu ərazisində, Laçın rayonunun Xocalı rayonu ilə sərhədi yaxınlığında qeydə alınan oroqrafik obyekt. Toponim orada təbii surətdə sıra ilə ***cərgələnmiş*** təpəciklərin olmasına görə belə ad almışdır.

Cəyirli – Vaxtilə Arazbar qəzasında, indiki Füzuli rayonunun Seyidmahmudlu kəndi ərazisində qeydə alınan oroqrafik obyekt belə adlanırdı. 1593-cü ilə aid olan Osmanlı qaynağında göstərilir ki, Arazbarda ***Cəyirli Salqanı*** və ***Çakirli*** adlı kəndlər var. Toponim öz adını ***Cəyirli*** oymağından götürür. ***Cəyirli oymağı*** Qaraqoyunlu boy birliyinə qatılan bir neçə oymaqdan biri idi. Bu oymağın adı qaynaqlarda müxtəlif cür yazılır: ***Cagirlı, Çakurlu, Çaxırlı, Cəgirli, Cəyirli*** və s. Oymaq öz adını ilk başçısı olmuş ***Əmir Cagir*** bəydən almışdır. ***Cəyirli*** oymağının bir hissəsi Ağqoyunlu dövləti yıxılandan sonra şiəliyi qəbul edib Qızılbaşlara qoşulublar. I Şah İsmayıl Səfəvinin adlı-sanlı əmirlərindən biri ***Bəkir bəy Cəyirli*** olmuşdur. O, Şirvanşah Fərrux Yassara qarşı vuruşmada iştirak etmişdir. ***Cəyirli*** oymağının başqa bir hissəsi sünnülük məzhəbində qalaraq Qızılbaşlara qoşulmayıblar. Sünnü ***Cəyirli*** oymağının bir hissəsi Qarabağda yerləşmişdi. 1593-cü ilə aid olan Osmanlı "*Təhrir dəftəri*"ndə qeyd olunur ki, ***Cəgirli oymağı*** Kürəkbasan nahiyəsinin Nəhri-Suluk adlı arxın yaxasında sakin idi. Tarixçi A.Təbrizli ***Cəyirli*** oymağından bəhs edərək göstərir ki, guya şah Gəncəni aldıqdan sonra da Gəncə vilayətində bir müsəlman tayfası yaşayırdı və onlar özlərini *el* adlandırırdılar. Bu el ***Cəkirlü*** adı daşıyırdı; onlar sünnülük adlanan Osmanlı etiqadına və dininə riayət edirdilər. Şah əmr verdi ki, onların hamısını sel ağzında yerləşən bir yerə yığsınlar. Buradan çıxan dar cığıra farslar gözətçi qoymuşdular. Cığır getdikcə genişlənirdi, ətraf isə hündür yarğanlardan ibarət idi və buradan çıxıb qaçmaq mümkün deyildi. Şah onların hamısını qılınc ilə doğramaq əmrini verdi. Kişi və qadınları, qoca və uşaqları, hətta azyaşlı cocuqları da qılıncdan keçirib məhv etdilər (*bax: Arakel Davrijedsi. Kniqa istoriy, Moskva, 1973. s. 100*). 1727-ci ilə aid olan Osmanlı qaynağında göstərilir ki, heç kimin yaşamadığı bu kənddə Cavanşir tayfasının Seyid Mahmudlu oymağı əkinçiliklə məşğul olurdu. Hazırda Arazbarda, Füzuli rayonu ərazisində ***Cəyirli*** yaşayış məntəqəsi mövcud deyil.

Cıdır düzü – Şuşa şəhərində, şəhərin cənub-şərq hissəsindəki geniş düzəngahda qeydə alınmış tarixi ərazi. ***Cıdır düzü*** şəhərin cənub-şərq hissəsində, hündür dağ üstündə, nisbətən horizontal düzənliyi olan axar-baxarlı açıqlıq sahəni təşkil edir. Dağı təxminən 800 metr dərinlikdə uçurum dərə ayırır. Düzənliyin arxasında, bir qədər aşağıda Daşaltı çayı axır. ***Cıdır düzü*** Ağzıyastı qaya, Üçmıx, Qırxpilləkan, Gəlin qayası, Xəzinə qayası, Topxana adlı sıldırım qayalar və meşələrlə əhatələnib. Həmin yerdə (1935-ci ilə qədər) vaxtilə müntəzəm ***cıdır*** (*at çapmaq*) yarışları keçirilər, cavanlar tez-tez at yarışları təşkil edərdilər. Elə bu səbəbdən də həmin düzəngah sahə "***Cıdır düzü***" adlanmışdır. Ecazkar gözəlliyi olan ***Cıdır düzü*** ərazisində otuzdan çox nadir çiçək və dərman bitkisi qeydə alınmışdır. Cıdır düzündən baxanda qarşıdakı sıldırım qayanın düz ortasında kiçik bir ev görünür; bu evin qarşısında bir neçə meyvə ağacı da var. Yerli adamların dediklərinə görə, həmin evi Qarabağ xanı İbrahimxəlil xan tikdirmişdir. Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin (1717-1797) məqbərəsi və Azərbaycanın tanınmış şairi, rəssam, müsiqişünas, tədqiqatçı Mir Möhsün Hacı Mirəhməd oğlu Nəvvabın (1833-1918) qəbri *Cıdır* düzündədir.

Cığaldöş – Laçın rayonunun Zeyvə kəndi ərazisində qeydə alınan oronimlərdən biri ***Cığaldöş*** adlanır. Ərazidə bir-biri ilə kəsişən sahələr, yollar ilk baxışda "*mübahisəli*", "*cığal*" (*məcazi mənada*) göründüyü üçün toponim belə ad almışdır.

Cıllır yataq – Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndi ərazisində qeydə alınmışdır.

Cındırlı pir – Xocalı rayonunun ərazisində, Kərkicahan qəsəbəsi yaxınlığında, Soyuq bulağın üstündə yerləşir. Yerli əhali işğala qədər bu *Cındırlı Piri* müqəddəs ziyarət yeri hesab edirdi.

Cındırlı pir – Şuşa rayonunda, Malıbəyli kəndi ərazisində qeydə alınan pir. Buradakı ***dağdağan*** ağacından həmişə müxtəlif rəngli köhnə və ya təzə ***cındırlar*** asıldığı üçun bu coğrafi ad belə adlandırılmışdır. Bu kimi səbəblərdən yerli əhali bəzən bu pirə ***Dağdağan piri*** də deyir. *Dağdağan* ağacı Qarabağ sakinləri arasında inam ağacıdır, şər qüvvələri insanlardan uzaqlaşdıran müqəddəs inancdır.

Cındırrı pir – Ağdam rayonunun ərazisində qeydə alınan oroqrafık obyektlərdən biri də ***Cındırrı pir*** (***Cındırlı pir***) adıdır. Tanrıçılıq dünyagörüşünün ayrılmız hissəsi olan ***pir-ocaq*** inanışı mayasını təbiətdən aldığına görə müəyyən zaman kəsiyində Azərbaycanda yaranan və ya buraya kənardan gətirilən dinlərin təsirinə məruz qalsa da, əsil yaşantısını itirməmişdir. ***Pir*** sözü 5 min il əvvəl də, indi də "*müqəddəslik*" mənasında qorunub saxlanmışdır. ***Cındırlı pir*** haqqında müxtəlif fikir və mülahizələr mövcuddur.

Cır demilər – Cəbrayıl rayonunun Dağ Tumas kəndi ərazisində, Gədə yolunun üstündə yerləşir. Onun ərazisi sovxozun maşın traktor parkından Başıkəsik günbəzə qədər uzanır. Ərazisi susuz olduğuna görə orada əkilmiş ağac və kollar az məhsul verirdi. ***Cır demilər*** az bar verdiyindən və verdiyi bar da əsasən ***cır*** meyvələrdən ibarət olduğundan belə ad almışdır.

Cırğın – Vaxtilə Füzuli bölgəsində yerləşən əski yurd yerlərindən biri də ***Cırğın*** adlanırdı. Bu yurd yeri vaxtilə Arazbar qəzasında binə bağlamışdı. 1727-ci ilə aid Osmanlı qaynağında yazılır: "Burada kənddə heç kim yaşamır. Dənli bitkilərdən əldə edilən gəlir: 54.000 ağça (*Bax: Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. "Şuşa" nəşriyyatı. Bakı. 2000. səh. 478*)." ***Cırğın*** adının açımı monqolların ***curgen*** tayfasının adı ilə bağlıdır. Tayfa öz başlanığıcını monqolların mifik babası Bodonçar noyondan götürür. Bodonçar noyonun Barin Şıxertu Qabiçi bahadur adlı oğlu vardı. Onun oğlunun adı Bexir bahadur idi. Bexir bahadurun Maxa Tudun adlı övladı oldu. Maxa Tudundan da Xaçi Külük yarandı. Xaçi Külügün Xaydu noyon adlı oğlu monqollar arasında məşhur idi. Onun da Bayşinqxor Doqşin adlı oğlu vardı. Bu ünlü monqol ağasının Tumbinay Seçen adlı oğlu dünyaya gəldi. Tumbinay seçenin Xabul xaqan adlı oğlu monqolların ali rəhbəri idi. Onun oğullarından biri Ogin Baraq adlanırdı. Ogin Baraqın ***Dzoriqtu Cürgen*** adlı oğlu vardı. ***Dzoriqtu Cürgen*** oğulları Seçen bəyi və Taycunu götürüb ulusundan ayrıldı. Bir sulu yurdu özünə mülk edib yaşamağa başladı. Dzoriqtu ağanın ünvanı olan "***cürgen***" sonradan bu tayfanın adına çevrildi. ***Curgenlər*** Çingiz xanın qan qardaşı Van xana xidmət edirdilər. Bu tayfanın tanınmış əmirlərindən olan Acin-Şirun böyük noyonlardan sayılırdı. XIII yüzildə Azərbaycana və İrana gələn monqol ulusunun tanınmış tayfalarından biri ***curgen*** adlanırdı. Arazbarda yerləşən ***curgenlər*** yerli şivədə ***cırğın*** kimi tanındı. Bəzi ədəbiyatda ***çirkin*** kimi də yazılır.

Cicim ocağı – Xocavənd yaşayış məntəqəsi ərazisində, Tağ kəndinin yaxınlığında qeydə alınan və erməni təcavüzü nəticəsində dağıntıya məruz qalan mədəni və dini abidələrimizdən biri də ***Cicim ocağı*** adlanır.

Cilli göl yatağı – Laçın rayonu ərazisində qeydə alınan toponimlərdən biri də ***Cilli göl yaylağı*** adlanır. ***Cilli*** sözünün tərkibindəki ***cil*** sözü "*qamış növü*" mənasındadır. ***Cil*** toponimini ***çol/çul*** tayfalarının adı ilə də əlaqələndirənlər var...

Cin dərəsi – Cəbrayıl rayonunun Havuslu kəndinin yaxınlığında qeydə alınan maraqlı oronimlərdən biri ***Cin dərəsi*** adlanır. ***Cin dərəsi*** toponimi "*cin olan dərə*" anlamını daşıyır. Bəzi tarixi sənəd və materiallarda ***cin*** tayfasının adı ***cen*** şəklində də yazılmışdır. VII əsrə aid mənbələrdə ***cin*** (***cen***) tayfasının adı bulqarlarla birlikdə çəkilir. ***Cinli*** tayfasını *çinlilərlə* də əlaqələndirənlər var. K.Patkanov cinliləri Volqa sahillərindən köçən türklər hesab edir. V əsrdə xristianlığı qəbul etmiş ***cinli tayfası*** həm də Qərbi Azərbaycanda (Ermənistanda) yaşamışlar. III əsrdən ta 745-ci ilə qədər bütün erməni qoşun başçıları əsasən cinlilərdən olmuşlar. Onların türkdilli olmaları inkarolunmazdır. Bəzi mənbələrdə göstərilir ki, onlar Çin Türküstanından köçüb bura gəlmişlər.

Cingir nənə (*Cingir bulaq*) piri – Cəbrayıl rayonunun Keyxalı və Niyazqululular kəndləri arasında, yol üstündə, Qarquluqlu dərədə qeydə alınan oroqrafik obyektlərdən biri ***Cıngir nənə piri*** adlanır. Bəzən oronimin adına ***Cingir bulaq piri*** də deyirlər. ***Cingir bulaq*** iri lağımı olan bulaqdan ibarətdir. Yerli camaat bu *bulağı* müqəddəs hesab edirdi. ***Cingir bulaq piri*** haqqında müxtəlif əfsanə və rəvayətlər vardır. Toponimin tərkibindəki ***cıngir*** sözü qədim ***Cingir*** teonimi ilə bağlıdır. ***Dinqir*** (***Cinqir***, ***Cingir***) toponimi Al, Qaşqa, Kuər teonimləri kimi Azər boyları ilə bağlı olub, qədim Ön Asiya mənbələrində də əks olunmuşdur. ***Cingir*** sözü qədim şumer dilində ***Dinqir*** formasındadır.

Cinqobu – Füzuli şəhərində, rayon mərkəzinin 1 km şərqində, çökəklikdə yerləşir. Yerli əhali bu əraziyə, ümumilikdə buradakı bir neçə küçəyə ***"Cinqobu"*** deyir. ***"Qobu"*** termini *"dərə, çökəklik, həmişə su basan yer, arx"* mənasındadır. Məlumdur ki, xalq arasında, əfsanələrdə gözəgörünməz, xalq inamına görə guya, ***cin*** adlandırılan məxluq mövcuddur. ***Cinqobu*** da görünür, ***cin*** adı ilə bağlı toponimdir. "***Cin"*** komponenti Azərbaycan mifologiyasının tərkib hissələrindən biridir.

Cinli gədik – Laçın rayonunun Nağdalı kəndinin ərazisində qeydə alınmış oronimlərdən biri ***Cinli gədik*** adlanır. ***Cin*** **(*çinq*)** qədim türk dillərində "*sıldırım dağ yarğanı*" mənasını ifadə edir. Toponimin tərkibindəki ***Cin*** sözü mövhumi bir varlıqla əlaqədardır. Azərbaycan tarixçisi Mirzə Adıgözəl bəy yazır ki, ***cinli*** adlı vaxtilə Gürcüstan ərazisində yaşamış tayfa da olmuşdur. Müəllifə görə, həmin ***cinli*** tayfası XVIII əsrdə Qarabağa və digər ərazilərə köçmüşlər.

Comərdli obası yeri – Füzuli rayonunun ərazisində, Dədəli və Aybasanlı kəndləri yaxınlığında qeydə alınan coğrafi adlardan biri ***Comərdli obası yeri*** adlanır. ***Comərdli obası*** Hacılı icmasına qatılan şenliklərdən biridir. Bu obanın əhalisi *1842, 1849, 1863, 1886*-cı illərdə dövlət tərəfindən siyahıya alınıb. ***Comərdli obası*** XVIII əsrdə yaşamış dövrünün nüfuzlu şəxsiyyəti olan ***Comərd*** bəyin adı ilə bağlıdır. ***Comərd bəy*** İbrahimxəlil xana xidmət etmişdir.

Cüdələr dağı – Laçın rayonu ərazisində dağ. Bü dağ Şəlvə və Piçənis çayları arasında, Çorman kəndindən azacıq cənub hissədə yerləşir. ***Dağ*** çox-çox əvvəllər burada ***cüdələr*** adli nəslin yaylaq yurdu olması ilə əlaqədar belə adlandırılmışdır ***Cüdə/cüda*** sözü fars dilində "*ayrı*", "*ayrılmış*", "*ayrı düşmüş*" mənasındadır.

Cükançöl – Ağdam rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Cükançöl*** adlanır. ***Cükan*** sözü ilə bağlı toponimiyada çoxsaylı fikir və mülahizələr vardır. Hələlik araşdırıcılar arasında bu sözlə bağlı yekdil elmi rəy yoxdur...

Çaharlı dağı – Cəbrayıl rayonunun ərazisində dağ. Adına bəzi mənbə və sənədlərdə ***Çaqarlı dağı*** formasında rast gəlmək mümkündür. Bu etnonimik oronim vaxtilə Cənub-Şərqi Avropada yaşamış (*sonralar onlar müxtəlif ərazilərə səpələnmişlər*) qədim türkdilli bulqarların ***çakar*** tayfasının adını özündə əks etdirir. Oykonimiyamızda ***çaxırlı*** sözləri ***çakar*** (***çaqar, çahar***) toponimi ilə bağlıdır. Onlar arasında müəyyən zaman çərçivəsində cüzi fonetik dəyişikliklər olmuşdur. ***Çakar//çahar -*** qədim türk tayfasının adıdır. ***Çaharlar*** sözü monqol dilində *"xidmətçi, qoruyucu, xanın xidmətçiləri"* mənalarında işlədilir. "*Dörd*" mənası verən ***çahar*** sözü (fars dilində) də məlumdur; ***çah*** sözünün farsca "*quyu, çənə çuxuru və zənəxdan*" mənaları da var. D.D.Pagirev XIX əsrin ikinci yarısında Şuşa qəzasında ***Çaharlı*** (***Çağarlı***) ***dağı*** adlı oroqrafik obyekt adını qeyd etmişdir.

Çaxırlı yolu – Cəbrayıl rayonunun Nüzgər kəndinin yaxınlığında, kənddən 3 kilometr məsafədə, Çaxırlı kəndi istiqamətində qeydə alınan oroqrafik obyektlərdən biri ***Çaxırlı yolu*** adlanır. ***Çaxırlı yolu*** toponimi "*Çaxırlı kəndinə gedən yol*" mənasındadır.

Çaxmaq çaylağı – Cəbrayıl rayonunun ərazisində, Alıkeyxalı kəndinin yaxınlığında, dağətəyi sahədə qeydə alınan oroqrafik obyektlərdən biri ***Çaxmaq çaylağı*** adlanır. Mürəkkəb quruluşa malik olan ***Çaxmaq çaylağı*** toponimi ***çaxmaq*** və ***çaylaq*** sözlərindən ibarətdir. Çaxmaqdaşına sürtməklə od almaq üçün dəmir və ya polad lövhəyə ***çaxmaq*** deyirlər. Hazırda ***Çaxmaq çaylağı*** ərazisində daşın bu növünə çox rast gəlmək olur.

Çaxmaq dağı – Qarabağ silsiləsinin yamacında, Xocalı rayonu ərazisində, rayon mərkəzindən 15 kilometr məsafədə qeydə alınan oroqrafik obyektlərdən biri ***Çaxmaq dağı*** adlanır. Bəzi tədqiqatçılar dağın adını ***çaxmaq*** tayfasının adı ilə əlaqələndirirlər. ***Çaxmaq dağı*** oronimi həmin dağın yerləşdiyi sahədə çoxlu ***çaxmaq daşı*** olduğu üçün belə adlandırılmışdır.

Çaxmaq dağı – Şuşa rayonunun ərazisində, Qarabağ silsiləsinin yamacında yerləşən dağ. Bəzi tədqiqatçı müəlliflər dağın adını ***çaxmaq*** tayfasının adı ilə bağlayırlar. Oronimin *şahsevən* tayfalarından olan türkdilli ***çaxmaqlı*** tayfasının adı ilə əlaqədar yarandığını güman edənlər bəlkə də yanılırlar. Əslində isə, oronim həmin dag sahəsində çoxlu ***çaxmaq daşı*** olduğu üçün belə adlanmışdır.

Çaxmaq dərəsi – Cəbrayıl rayonunun Qalacıq və Şahvəlili kəndləri yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Çaxmaq dərəsi*** adlanır. ***Çaxmaq dərəsi*** yaxınlığında vaxtilə ***Çaxmaq*** adlı karxana da mövcud olmuşdur. Çaxmaqdaşına sürtməklə od almaq üçün dəmir və ya polad lövhəyə ***çaxmaq*** deyirlər.

Çaxmaqçay dağı – Laçın rayonu ərazisində qeydə alınan oronim. Ərazidə vaxtilə ***Çaxmaq*** adlı karxana da olmuşdur.

Çaxmaqçöl – Cəbrayıl rayonu ərazisində, Araz çayının sol sahilində yerləşən ***çöl***, düzənlik. ***Çaxmaqlı*** adlı türk tayfası da vardır.

Çaxmaqdərə, **Çaxmaqtəpə** – Cəbrayıl rayonundakı Şahvəlili kəndinin şərqində qeydə alınan oroqrafik obyektlərdən biri ***Çaxmaqdərə*** adlanır. Yaxınlıqda ***Caxmaq*** adlı karxana da vardı. Cəbrayıl rayonu ərazisində, Havuslu kəndinin cənub-şərqində, Ceyran düzünün qurtaracağında ***Çaxmaqtəpə*** oronimi də qeydə alınmışdır.

Çaxmaqlı dərə – Laçın rayonu ərazisində, Qızılca kəndi ərazisində qeydə alınan oronimlərdən biri də ***Çaxmaqlı dərə*** adlanır.

Çaqarlı dağı – Şuşa rayonunun ərazisində dağ. ***Çaqarlı*** etnonimik oronim qədim türkdilli bulqarların ***çaqar*** (***çakar***, ***çahar***) tayfasının adını daşıyır. Qədim bulqar tayfalarından biri ***çakar*** adlanırmış. Azərbaycan oykonimiyasında bu toponim çaxırlı formasındadır. D.D.Paqirev Şuşa qəzasında ***Çaqarh dağı*** adını qeyd edir. ***Çaqarlı*** oronimi cüzi fonetik dəyişikliklə ("***k***" – "***ğ***") ***çakar*** etnonimini olduğu kimi saxlamışdır. Yuxarıda adları çəkilən oroqrafik obyektlər və oykonimlər çakar tayfasının adını daşıyır. ***Çakarlılar/çəkərlilər*** eramızın əvvəllərində Şimali Qafqazda yaşamış türkdilli bulqarların çakar tayfasından təşəkkül tapmışlar.

Çaqqal qobusu – Xocavənd rayonunun ərazisində qeydə alınan coğrafi ad. Xocavənd rayonunun Əmirallar kəndi yaxınlığındakı qobuda tez-tez ***çaqqal*** çöl heyvanına rast gəlindiyi üçün oronim belə ad almışdır.

Çaqqala dağı – Şuşa rayonunun Malıbəyli kəndi yaxınlığında qeydə alınmış oroqrafik obyekt.

Çaqqallı dərə – Xocavənd rayonunun Əmirallar kəndi yaxınlığında qeydə alınmış coğrafi adlardan biri də ***Çaqqallı dərə*** adlanır. Bu *dərədə* vaxtilə *çaqqalların* olması ilə əlaqədar oronim belə ad almışdır.

Çal qaya – Laçın rayonunun ərazisində qeydə alınan oroqrafik obyekt. Bəzi oroqrafik obyekt adlarında iştirak edən ***çal*** komponenti "*boz, açıq-boz, tünd-boz*" rəng mənalarını ifadə edir. Laçın rayonunda qeydə alınmış ***Çal qaya*** oronimi də bu mənada "*bozumtul qaya*", "*süxurları açıq-boz rəngə çalan qaya*" deməkdir. ***Çal*** termini türk dillərində "*kiçik dağ, təpə*", "*təpə və daşlıq yer*", "*yal*" mənalarında işlədilir.

Çala daş – Şuşa rayonunun Malıbəyli kəndinin ərazisində, Çinar bulağı yaxınlığında qeydə alınmış coğrafi obyektin adı ***Çala daş*** adlanır. Bu daşların içi *oyuq* formasında, ***çala*** şəklində olduğu üçün oronim belə adlanır.

Çala məhlə – Füzuli rayonunun Yuxarı Əbdürrəhmanlı kəndi ərazisində qeydə alınan oronim. Bu oronim həmin ***məhlənin*** *(məhəllənin)* yaxınlığındakı digər ***məhəllələrə*** nisbətən aşağıda - ***çalada*** yerləşdiyi üçün belə ad almışdır.

Çalağan dərəsi, **Çalağan qayası** – Laçın rayonunun Ağcayazı kəndi yaxınlığında qeydə alınmış ***Çalağan dərəsi*** və ***Çalağan qayası*** zoonimik oronimləri quruluş etibarı ilə quş adı əsasında əmələ gələn mürəkkəb oronimlərdir.

Çalağan güneyi – Kəlbəcər rayonunda qeydə alınan oroqrafik obyekt.

Çalağantəpə – Ağdam-Ağcabədi şose yolunun 17-ci kilometrliyində, Əfətli kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri də ***Çalağantəpə*** coğrafi adıdır. Çox qədim tarixə malik olan bu təpədə Eneolit dövrünə aid yaşayış yeri aşkar edilib. Buradan təsərrüfat və yaşayış tikililəri, dulus kürə qalıqları, qəbir, naxışlı bina və evlər, küplər, daş və sümük alətlər, saxsı qablar və s. tapılmışdır. Sağlığında daşıdığı bütün bəzək əşyaları ilə dəfn olunmuş bir uşaq qəbrindən 2000-dən çox bəzək əşyası aşkar edilib. Çalağantəpədən tapılan ağac kömürünün radiokarbon üsulu ilə analizi bu yaşayış yerinin miladdan öncə V minilliyin I yarısına aid olduğunu göstərir. 1983-cü ildə Ağdam şəhərində açılmış "Çörək muzeyi" eksponatlarının ən qədimini bu tapıntılar təşkil edir. ***Çalağantəpə*** (eləcə də, ***İlanlı təpə***) abidəsini görkəmli arxeoloq alim İdeal Nərimanov tədqiq etmişdir. Oronim həmin təpədə vaxtilə çoxlu sayda ***çalağan*** olması ilə bağlı olaraq belə ad almışdır.

Çal-Bair dağı – Kəlbəcər rayonunda qeydə alınmış dağ adı. ***Çal*** sözü oronimlərdə bəzən əlamət bildirir. Amma ***Çal-Bair*** oronimmdəki ***çal*** formantı "*boz duman*", "*qara bulud*" mənasındadır. Deməli, ***Çal-bair / Çal-Bayır*** toponimi "*çal rəngli dumanlı Bair*" mənasındadır. Türk mənşəli ***bayır/bair*** sözü "*dağ döşü, yamac, təpə*" mənasını verir. ***Çal*** sözü isə dağın əhəng mənşəli olduğu üçün ***çal*** rəngə çalmasını bildirir. Bu mənada toponim ***"çal rəngli dağ"*** deməkdir.

Çalbayır dağ silsiləsi – Laçın rayonu ərazisində, Dambulaq kəndi yaxınlığında, Şəlvə və Piçənis çayları arasında yerləşir. Onun adını bəzən ***Çalvair*** kimi də yazırlar. ***Çalbayır dağ silsiləsi*** oroqrafik obyekti adındakı ***Çal*** - rəng bildirir, həm də bu söz türk dillərində "*təpə*", "*daş*" mənasını ifadə edir. ***Bayır/bair*** türk mənşəli sözü isə, "*dağ döşü, yamac, təpə*" mənasındadır. ***Çalbayır*** oronimi ***"çal rəngli, dumanlı Bair, təpə"*** mənasını daşıyır.

Çalbayır dağı, güneyi, quzeyi, yamacı – Laçın rayonunun Ağcayazı kəndi ərazisində qeydə alınmış oronimlər. ***Çalbayır dağı*** coğrafi adını bəzən ***Çalvair dağı*** şəklində də yazırlar.

Çaldaş – Füzuli rayonunda, Dilağarda kəndi ərazisində qeydə alınan dağ ***Çaldağ*** adlanır. ***Çaldağ*** oronimi "*boz dağ*" deməkdir. ***Dağ*** həqiqətən ***boz*** rəngli süxurlardan ibarətdir.

Çalqaya – Kəlbəcər rayonunda qeydə alınmış ***Çalqaya*** oronimi rəng bildirən ***çal*** sözündən və müsbət relyef forması ifadə edən ***qaya*** terminindən ibarətdir.

Çamırlı – Şuşa rayonunun Malıbəyli kəndi ərazisində qeydə alınmış coğrafi ad. ***Çamırlı*** coğrafi adı iqtisadi həyatla bağlı formalaşmış toponimlərdəndir. ***Çamır/çamur*** sözü "*palçıq*", "*zığ*", "*bataqlıq*", "*lil*", "*lehmə*" mənasında işlənir.

Çanaqqala – Şuşa rayonunun ərazisində qeydə alınmış oronim. ***Çanaqqala*** oroqrafik obyektinin yerli əhali arasında başqa bir adı ***Ərimgəldi*** adlanır. Ərlərini istirahət evlərinə yola salmış gəlinlər axşamlar bura gəlib onların yolunu gözləyirdilər. Dotələb dağının Şuşa şəhərinə baxan tərəfindəki *Təzə yol* adlanan nəqliyyat yolunun qurtardığı yerdə yenidən Şuşa şəhərinə doğru istiqamətlənən və şəhər meydanına qədər uzanan yol *Çanaqqaladan* (*Ərımgəldidən*) keçir. Bu ***qala*** insanda və məməli heyvanlarda oma və büzdüm sümüklərinin birləşən hissəsinə (*skeletin bir hissəsinə*) – ***çanağa*** bənzədiyi üçün ona belə ad verilmişdir. Bəziləri ***Çanaqqala*** toponimini *çanaq* məişət qabı ilə əlaqələndirirlər. Azərbaycanda vaxtilə *çanaq* – həcm ölçü vahidi də olmuşdur.

Çapalan dağı – Cəbrayıl rayonunun ərazisində, Qışlaq kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Çapalan dağı*** adlanır. Məlumdur ki, qədim türk sözü olan ***çap*** termini "*yamac*", "*yarğan*", "*sıldırım*", "*yüksəklik*", "yoxuş" və başqa mənalarda işlənir.

Çapand arx yeri – Cəbrayıl rayonunun ərazisində, Çapand kəndinin yaxınlığında qeydə alınmış toponimlərdən biri ***Çapand arx yeri*** adlanır. Toponim "*Çapand kəndinin yaxınlığındakı arx yeri*" mənasındadır.

Çarçenbent dağı, **Çarçenbent təpəsi** – Laçın rayonunun ərazisində yerləşən dağ və təpə. ***Çarçenbent dağı*** və ***Çarçenbent təpəsi*** adındakı ***bent* (*bet*)** komponenti "*dağın yamacı, dağın döşü*" mənasındadır. ***Çar* (*çahar*) -** fars dilində "*dörd*" deməkdir, ***çe -*** farsca "*nə*" mənasını ifadə edir; "*n*" hərfini bitişdirici samit kimi qəbul etsək, *Çarçenbent* toponimi "*dörd yanı yamac olan dağ yüksəkliyi*" mənasını daşımış olar.

Çardaqlı yurdu – Cəbrayıl rayonunun Qazanzəmi kəndinin yaxınlığında, kəndin qarşısında olan əkin sahəsi lap əvvəllərdən ***Çardaqlı yurdu*** adlanır. Buradakı ***yurd*** yerlərində ***çardaq***, talvar olduğu üçün toponim belə ad almışdır.

Çarıx güneyi – Cəbrayıl rayonunun Sofulu kəndi ərazisində qeydə alınmışdır. Oronim ***çarıx*** (***çarıq***) və ***güney*** sözlərindən ibarətdir. Sofulu kəndi ərazisindəki ***güney*** zahirən ***çarığa*** bənzədiyi üçün oronim belə ad almışdır.

Çataldərə – Füzuli rayonunun Mollavəli kəndi ərazisində, Qocəhmədli ilə Mollavəli kəndləri arasında qeydə alınmış oronimlərdən biri ***Çataldərə*** adlanır. ***Çatal*** sözü türk dillərində "*ikiyə ayrılmış*", "*ikiyə bölünmüş*", "*iki uclu*", "*iki tərəfli*" anlamındadır. ***Çataldərə*** toponimi "*ikiyə bölünmüş dərə*" mənasındadır.

Çay zavodunun yanı – Xocalı rayonunun ərazisində, Kərkicahan qəsəbəsinin yaxınlığında, qəsəbədən 4 kilometr aralıda qeydə alınan oroqrafik obyektlərdən biri ***Çay zavodunun yanı*** adlanır. Bu ***çay zavodu*** xarici inşaatçılar tərəfindən tikilmişdir. Yerli adamlar bu ərazini ***Çay zavodunun yanı*** kimi "*pasportlaşdırmışlar*".

Çaydağılan – Xocavənd rayonunun ərazisində, rayon mərkəzindən 5 kilometr aralıda, Əmirallar və Kuropatkino kəndləri arasında, Daşlı Suat deyilən yerin yaxınlığında qeydə alınan coğrafi adlardan biri ***Çaydağılan*** adlanır. ***Çay*** burada ***dağılaraq*** bir neçə meandr yaratdığı üçün yaxınlıqda məskunlaşan yerli əhali tərəfindən belə adlandırılmışdır.

Çayqovuşan – Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 6 kilometr aralıda qeydə alınan toponimlərdən biri ***Çayqovuşan*** adlanır. Həmin ərazidə (*Ballıca kəndi istiqamətində*) İlis çayı ilə Xocalı çayı birləşdiyi (***qovuşduğu***) üçün toponim belə adlandırılmışdır.

Çayqovuşan – Laçın rayonunun Hoçaz kəndi ərazisində qeydə alınmış oroqrafik obyekt. Xəlfəli və Həkəri çayları bu ərazidə kəsişdiyi, qovuşduğu üçün oronim belə adlanmışdır.

Çaylı dərə – Füzuli rayonunun Qoçəhmədli kəndi yaxınlığında qeydə alınmış coğrafi adlardan biri ***Çaylı dərə*** adlanır. Həmin **dərə**dən, çökəklikdən ***çay*** axıb keçdiyi üçün toponim belə ad almışdır.

Çeyil dağı – Xocavənd rayonunun ərazisində, rayon mərkəzindən 8 kilometr şimalda, Qarakənd kəndi yaxınlığında, Ağdam rayonu sərhədində qeydə alınan yüksəkliklərdən biri ***Çeyil dağı*** adlanır. Bəzi sənəd və materiallarda adı ***Çeyldağ*** və ya ***Ceyildağ*** kimi də yazılır. ***Çeyil*** dağının maksimal hündürlüyü ***416*** metrdir. Azərbaycan dialektlərində ***çeyil*** sözünün "*lilli*", "*palçıqlı*" mənaları var. ***Çeyil dağı*** toponimi "*palçıqlı dağ*" mənasındadır.

Çəkət düzü – Xocavənd rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Çəkət düzü*** adlanır.

Çələbi damı – Çələbilər kəndinin ərazisində qeydə alınmışdır. Bu *damda* böyük övliyalar, dövrlərinin nüfuzlu şəxsiyyətləri **-** Böyük Şıx Alı Çələbi və onun oğlu, təriqətin sonrakı davamçısı, xeyirxah insan Şıx Hacı Qasım Çələbi yaşamışlar. Bu ***dam*** yerli əhali tərəfindən müqəddəs yer kimi əziz tutulurdu. Toponimin tərkibindəki ***çələbi*** sözü "*mövləvi dərviş ordeninin başçısı*", "*Allahı sevən*" mənasındadır.

Çələbi meydanı – Cəbrayıl rayonunun Sirik kəndi yaxınlığında, Qabaq düzün başında, Gilavlıq adlanan yerdə qeydə alınan oroqrafik obyektə ***Çələbi meydanı*** deyilir.

Çələbi nişangahı – Cəbrayıl rayonunun ərazisində, Qazanzəmi-Söyüdlü yolu üzərində qeydə alınan daş qalağı ***Çələbi nişangahı*** adlanır. Yaxınlığında meyvəsi turş olan alma ağacı olduğu üçün bəzən yerli əhali bu coğrafi ada ***Turş alma piri*** də deyir. Yerli məlumata görə, böyük övliya ***Şıx Hacı Qasım Çələbi*** burada namaza durur və zikr edirmiş.

Çələbibabanın çevirməsi – Cəbrayıl rayonunun Hovuslu kəndinin ərazisində, kənd sakini Şülü kişinin evinin arxasında daş nişangah ***Çələbibabanın çevirməsi*** adlanır. Hovuslular buranı inanc yeri kimi əziz tutur. Tanınmış türkoloq**-**alim Tofiq Hacıyevə görə, ***Çələbi*** sözü əski türk dilində "*Allah*" mənasını verir. Osmanlı türk dilində ***çələbi*** sözü "*ağa*", "*cənab*" mənasındadır. ***Çələbi*** sözünün "*yumşaq, incə, ağa, hörmətli, ziyalı*" və s. mənaları da vardır. Tarixi bilgilərə görə, ***Çələbilər*** XIII əsrin I yarısında monqol istilaları dövründə Kiçik Asiyadan ***Qaraman*** tayfasının tərkibində Azərbaycana gəlmişlər. Dini və dünyəvi termin olan ***çələb*** sözü hakimlərin, şahzadələrin ləqəbi kimi də işlənib. Çələbilər ***Əhmədli*** obasına aiddirlər. ***Çələbiyanlı eli*** altmışdan çox obadan ibarət olmuş.

Çələbiəkən tap – oronimi Cəbrayıl rayonunun Papı kəndində qeydə alınmışdır. ***Tap*** termini qədim türk sözü olub, "*dağ ətəyində düzənlik*", "*dağ üstündə düzənlik*", "*terraslararası geniş düz*", "*su çıxmayan yer*", "*təpə*" və s. mənalarda işlənir.

Çələbilər qəbri – Cəbrayıl rayonunun Qazanzəmi kəndi ərazisindəki qəbiristanlıqda qeydə alınan oroqrafik obyektlərdən biri ***Çələbi qəbri*** adlanır. Əldə etdiyimiz məlumatlara görə, 150 il öncə *Məhyəddin Çələbinin* Qazanzəmi kəndinə, yaylağa qalxan yeniyetmə oğlu qəflətən xəstələnərək burada dünyasını dəyişir. Mərhumun cənazəsi kənd camaatının xahişi ilə Həkəri çayının sahilindəki *Türk-Əfəndilər* kəndinə aparılmır və elə Qazanzəmi kəndindəki qəbiristanlıqda dəfn edilir. Az sonra bu ***qəbir*** kənd camaatının ziyarətgahına çevrilir.

Çələbilər məscid-mədrəsəsi – Cəbrayıl rayonunun Çələbilər kəndi ərazisində, Hacı Qaraman ocağının 2 kilometrliyində qeydə alınan oroqrafik obyektlərdən biri ***Çələbilər məscid-mədrəsəsi*** adlanır. Kənddəki ***məscid*** hicri 1088-ci ildə (*miladi 1677 - 1678-ci illərdə*) Məhəmməd ibn Xıdır Hacı Qaraman tərəfindən inşa edilmişdir. ***Çələbilər məscid-mədrəsəsi*** dini elmlərlə yanaşı, dünyəvi elmləri də tədris edirdi. XVIII əsrdə yaşamış Azərbaycanın böyük klassik şairi Molla Vəli Vidadi bir müddət burada dərs demişdir. Sovet Hakimiyyəti illərində *məscid-mədrəsədən* anbar kimi istifadə edilmişdir.

Çələbilərin çevirməsi – Cəbrayıl rayonunun Qalacıq kəndi ərazisində qeydə alınan maraqlı oroqrafik obyektlərdən biri də ***Çələbilərin çevirməsi*** adlanır. Deyilənə gərə, ***Çələbilər*** (*Şıx Hacı Qasım çələbi və başqaları*) burada namaz qılar, allaha həmd-sanalar oxuyardılar.

Çələbinin məqam yeri – Cəbrayıl rayonunun ərazisində, Pirəsəddən 1 kilometr cənubda, Dağtumas – Hovuslu yolunun dolayı üstdə daş qalağı ***Çələbinin məqam yeri*** adlanır. Adətən gündoğandan gələn yolçular ilk olaraq Hacı Qaraman ocağını bu ***yerdən*** görür. Deyilənə görə, səfərlərdən qayıdan *Şıx Hacı Qasım Çələbi* həmişə bu *yerə* çatanda dayanıb durar, öz ulusu Hacı Qaramana üz tutub dua edərmiş.

Çəltik yeri – Cəbrayıl rayonunun Şükürbəyli kəndinin yaxınlığında qeydə alınan oronimlərdən biri ***Çəltik yeri*** adlanır. ***Çəltik yeri*** toponimi "*çəltik olan sahə*", "*çəltik əkilən yer*" anlamındadır.

Çəməndağ dağı – Qarabağ silsiləsi ətəyində, Xocavənd rayonu ərazisində qeydə alınan coğrafi adlardan biri ***Çəməndağ dağı*** adlanır. Bəzən bu coğrafi adı ***Çəmən dağı*** şəklində də yazırlar. Dağda ***çəmən sahələri*** **(*çəmənliklər*)** çox olduğu üçün ona belə ad verilmişdir. Məlumdur ki, türkdilli ***xələc*** tayfasının ***çəmənli*** adlı bir tirəsi də var.

Çəpdaş – Xocalı rayonu ərazisində, Qarabağ silsiləsi ətəyində, Kərkicahan qəsəbəsi yaxınlığında qeydə alınmışdır. Adını sənədlərdə bəzən ***Çəp daş*** formasında da yazırlar. Bu daş ***çəpinə, çəpəndazı*** göründüyünə görə toponim ***Çəpdaş*** adlanıb. Bəzi tədqiqatçıların yürütdükləri fikirlərə görə, ***Çəpdaş*** türk mənşəli toponimi oğuz tayfalarının bir qolu olan *çəpnilərin* (*bəzən* ***cəbni*** *kimi də qeyd olunur*) adı ilə əlaqədardır.

Çəpik Ata – Cəbrayıl rayonunun ərazisində çoxlu sayda ***Ata*** və ***Nənə*** xaqanlığını özündə əks etdirən **Ata** və **Nənə** qəbirləri vardır. Məsələn: ***Tumas Ata, Günəş Ata, Dom Ata, Cəbrayıl Ata, Şıx Ata, Müşk Ata, Çomaq Ata, Çəpik Ata*** və s. Məlumdur ki, ən qədim türklər əvvəllər Tanrıya ***Ata***, Allahlar anasına ***Nənə*** (***Nanə***) demişlər. ***Ata*** sırf türk sözüdür. ***Çəpik Ata*** Tumas Atanın *yeddi* qardaşlarından *ən kiçiyi* hesab edilir. O, Çaytumas kəndinin Çaytumas qaşı adlanan ərazisindəki təpə üzərində dəfn edilmişdir.

Çərəkən bağı – Cəbrayıl rayonu meyvə bağları ilə zəngindir. Onlardan biri də Çərəkən kəndi ərazisində qeydə alınmış ***Çərəkən bağı*** adlanır.

Çərşənbət dağı – Xocavənd rayonunun Arpagədik kəndi yaxınlığında, kəndin şimal hissəsində, rayon mərkəzindən 80 kilometr cənub-qərbdə, keçmiş Hadrut qəsəbəsindən 25 km məsafədə, Qarabağ silsiləsində qeydə alınan oronimlərdən biri ***Çərşənbət dağı*** adlanır. ***Çərşənbət*** dağının maksimal hündürlüyü **2335** metrdir. ***Çərşənbət dağı*** coğrafi adının tərkibindəki ***çər*** sözü "*örüş*" anlamındadır. Yerli məlumata görə, ***Çərşənbət dağı*** toponimi azacıq təhrifə məruz qalıb. Əslində ***Çərşəmməd*** olmalıdır. Əgər deyilənlərlə razılaşsaq, toponim "*vaxtilə Şəmmədə məxsus olmuş örüş və otlaq yeri*" anlamına uyğun gəlir.

Çətəndaş dağı – Cəbrayıl rayonu ərazisində, Dolanlar kəndi ilə Tumas meşəsinin sərhədində yerləşir. Dağın yerləşdiyi ərazi Çaxmaq və Kiçik Həkəri çaylarının suayırıcısıdır. Toponim çətənə oxşar düzülüşünə görə belə ad almışdır. ***Çətən -*** qarğıdan, ağac çubuqlarından hörülmüş çəpər və hörgüyə deyilir. Bu toponimin tərkibində ***çətən*** sözü "*cərgə*" mənasında işlənibdir. Toponim "*iki dağın birləşdiyi cərgəli daş*" mənasındadır. Bəzən oronimin adını ***Çataldaş*** şəklində də yazırlar.

Çətin təpə – Laçın rayonunun Ağcakənd kəndi ərazisində qeydə alınan oroqrafik obyekt.

Çıldıran düzü – Ağdam rayonu ərazisində, rayon mərkəzindən 35 kilometr şimal-qərbdə, Baş Güneypəyə kəndi yaxınlığında qeydə alınmışdır. ***Çıldıran düzü*** toponimi 1828-ci ildə Türkiyənin ***Çıldıran*** ərazisindən gəlmiş ailələrin bu ərazidən azacıq şimal-qərbdə saldıqları ***Çıldıran*** kəndinin adı ilə əlaqədar yaranmışdır.

Çılpağın yalı – Cəbrayıl rayonunun Dağ Tumas kəndinin yaxınlığında, kolxoz dəyirmanından Kaftar istiqamətində gedən yolun üzərində, birinci ağ göz torpaqlı aşırımda qeydə alınan oronimlərdən biri ***Çılpağın yalı*** adlanır. Həmin ***yalın*** ərazisi *bitkisiz* olduğu üçün oronim belə ad almışdır.

Çılpaq qaya – Ağdam rayonu ərazisində, Qazançı kəndindən şmal- qərbdə qeydə alınmış oronimlərdən biri də ***Çılpaq qaya*** adlanır. Qaya ***çılpaq*** ("*bitkisiz*") olduğu üçün oronim belə ad almışdır.

Çılpaqdağ – Ağdam rayonu ərazisində, Qazançı kəndindən şimal-qərbdə yerləşən dağ. Dağın yamacları aşındığından və orada bitki örtüyü olmadığından ***dağ*** yerli əhali tərəfindən ***Çılpaq*** adlandırılmışdır.

Çınqıl təpəsi – Qarabağ silsiləsinin ətəyində, Xocalı rayonu ərazisində, rayon mərkəzinin Qaladərəsi sahəsində qeydə alınmış oronim. Bəzən sənədlərdə bu oroqrafik obyektin adı ***Çınqıllı təpə*** kimi də yazılır.

Çınqıllar – Qarabağ silsiləsinin ətəyində, Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 3 kilometr məsafədə qeydə alınan oroqrafik obyekt.

Çınqıllı – Laçın rayonunun Fərraş kəndi yaxınlığında, Qırxqızın ətəyində qeydə alınmış oronim. Toponim ərazinin səthində vulkan mənşəli irili-xırdalı çoxlu ***çınqıllıqların*** olması ilə əlaqədar olaraq belə adlandırılmışdır.

Çınqıllı yamac – Cəbrayıl rayonunun Horovlu kəndi ərazisində qeydə alınan oqoqrafik obyekt.

Çınqıllıq – Çınqıllıq oroqrafik obyekti Şuşa rayonunun Malıbəyli kəndində qeydə alınıbdır. ***Çınqıllıq*** coğrafi adı həmin ərazidə vulkan mənşəli irili-xırdalı *çınqıllıqların* olması ilə əlaqədardır.

Çıraqlı dağı – Ağdam rayonunun Abdal kəndi ilə Təkirmiri kəndinin arasındakı dağ yerli əhali arasında ***Çıraqlı*** adlanır. Oronim ***çıraqlı*** etnonimi ilə əlaqədar yaranmışdır. ***Çıraqlı*** türk tayfasını mənşəcə hələ miladdan öncə Şimali Qafqazda yaşamış ***çiraq*** tayfasının varisi hesab edənlər var. Oronimi qızılbaşların ***çıraqlı*** tayfasının adı ilə də əlaqələndirirlər.

Çıraqlı yeri – Ağdam rayonunun Əhmədağalı kəndi ərazisində qeydə alınmış oroqrafik obyektlərdən biri ***Çıraqlı yeri*** adlanır. Oronim özündə qızılbaşların ***çıraqlı*** tayfasının adını əks etdirir. Bu tayfanın adı mənbələrdə ***çirak***, ***sirak***, ***şirak***, ***çıraq*** və s. kimi də göstərilmişdir.

Çıraqlı yoxuşu – Bu oroqrafik obyekt adı Laçın rayonunun ***Çıraqlı kəndi*** ərazisində qeydə alınıb. Elə toponimin tərkibindəki ***çıraq*** sözü də həmin yaşayış məntəqəsinin adı ilə bağlıdır. *Çıraqlı yoxuşu* oronimi türk mənşəli ***çirak*** **(*sirak*)** tayfasının adı ilə əlaqədardır.

Çıraqlıbaşı dağı – Laçın rayonunun ərazisində qeydə alınmış oroqrafik obyekt. ***Dağ*** Laçındakı *Çıraqlı* kəndinin ***baş*** hissəsində, yuxarı tərəfində yerləşdiyi üçün belə adlanmışdır.

Çıraqtəpə – Laçın rayonunun ərazisində qeydə alınmış oroqrafik obyektlərdən biri ***Çıraqtəpə*** adlanır. ***Təpə*** Laçın rayonunun ***Çıraqlı*** kəndinin ***baş*** hissəsində, yuxarı tərəfində yerləşdiyi üçün belə adlanmışdır. Yerli məlumata görə, ***Çıraqlı*** yaşayış məntəqəsini XVIII əsrdə Dərələyəz mahalından gələn ***Çıraq*** adlı kor bir şəxs salıb. ***Çıraqlı (Çiraqlı)*** toponimini Azərbaycanın ***qılıçlı*** tayfasının ***çıraqlı*** tirəsinin adı ilə də əlaqələndirirlər. ***Siraq*** qəbilə birləşməsi xalqımızın soykökündə iştirak etmişdir. Böyük imperiyası olan Orta Asiyadan, Etil çayı sahillərindən tutmuş Qafqaza kimi böyük bir ərazidə ağalıq etmiş *Siraq* tayfası Qafqazın ictimai-siyasi həyatında görkəmli yer tutmuşdur. ***Siraq*** adlanan qəbilə birləşməsi adına eradan qabaq və eramızın VII-VIII yüzilliklərinə kimi yunan qaynaqlarında, Orxon-Yenisey və başqa abidələrdə də rast gəlinir.

Çiləbört – Xocalı rayonu ərazisində, Qarabağ silsiləsinin ətəyində, Kərkicahan qəsəbəsi yaxınlığında qədim tarixə malik yer adı. ***Çələbört*** (***Çiləbörd, Çiləbird, Ceraberd***) toponiminin birinci komponenti qədim türk dillərində "*yarğan, uçurum*" mənasındadır. Toponim ***çilə*** və ***bört*** sözlərindən ibarətdir. **Bört** (***bert***) sözü Aşşur mixi yazılarında ("***bi-ir-ti***" formasında) "*qəsr*", "*qala*" mənasında işlənir. ***Bord//berd*** türkdilli əhali arasında "*hasar*", "*divar*" mənasında da işlənir. ***Çiləbört*** toponimi türkdilli xalqlarda "*çətin keçilən yer*", "*keçilməz yer*" mənalarını daşıyır.

Çiçək dağı – Xocavənd rayonunun ərazisində, keçmişdə mövcud olmuş Vərəndə yaşayış məntəqəsi yaxınlığında qeydə alınmış oroqrafik obyektlərdən biri ***Çiçək dağı*** və ya ***Çiçəkli dağ*** adlanır.

Çiçəkli dərə – Xocavənd rayonunun ərazisində, keçmişdə mövcud olmuş Vərəndə yaşayış məntəqəsi yaxınlığında qeydə alınmış oroqrafik obyektlərdən biri ***Çiçəkli dərə*** adlanır.

Çiçəkli düz – Xocavənd rayonunun ərazisində, keçmişdə mövcud olmuş Vərəndə yaşayış məntəqəsi yaxınlığında qeydə alınmış oroqrafik obyektlərdən biri ***Çiçəkli düz*** adlanır.

Çilgəz dağı – Kəlbəcər və Laçın ərazisində, Mıxtökən silsiləsinin şərq hissəsində dağ. **Çil –** "*xal, ləkə, çil-çil*" mənasındadır. ***Gəz*** - "*gədik*", "*gədiyin ən alçaq yeri*", "*dağ belində aşırım*" mənası ifadə edir. Dağın aşırımında və yamacında yayılan ağ-boz rəngli daşlar uzaqdan dağı ***çil-çil*** göstərdiyinə görə ona belə ad verilmişdir. Daşların üzərində vulkan mənşəli ləkələr mövcuddur.

Çilgəz ayrığı, **zirvəsi** – Bu oronimlər Laçın rayonu ərazisində, Nağdalı kəndi yaxınlığında, Mıxtökən silsiləsinin şərq hissəsində, Kəlbəcər sərhədinə yaxın sahədə qeydə alınmışdır. ***Çilgəz*** toponimi ***çil*** və ***gəz*** sözlərindən ibarətdir. ***Çil*** sözü "*ləkə*, *xal*", "*sarımtıl*" rəng mənasındadır. "*Gədiyin ən alçaq yeri*", "*dağ belində aşırım*" toponimiyada ***gəz*** termini ilə ifadə olunur. ***Gəz*** termininin fars dilində "*dəfə, kərə*", "*ölçü*", "*yulğun/yulğün*" (ağac) mənaları da var.

Çinar piri – Cəbrayıl rayonunun ərazisində, çay yatağındakı böyük çınarın yaxınlığında qeydə alınan oroqrafik obyekt ***Çinar piri*** adlanır. ***Pir*** daş topasından ibarətdir. Deyilənə görə, ***Çinar piri*** ərazisində bir mömin qətlə yetirilmişdir. Amma orada qəbir izi yoxdur. Burada yatmaq yasaqdır.

Çinarlı dağ – Laçın rayonunun ərazisində qeydə alınan coğrafi adlardan biri də ***Çinarlı dağ*** oronimidir.

Çinarlı dərə – Cəbrayıl rayonunun Dağ Tumas kəndindən 5 kilometr məsafədə, Çətəndaş dağı yaxınlığında qeydə alınan oronimlərdən biri ***Çinarlı dərə*** adlanır. ***Çinarlı*** dərənin ərazisi Çətəndaşdan başlayıb İncə çayına qədər uzanır. Bu ərazi əsasən sıx meşəlikdən ibarətdir.

Çirişli – Xocavənd rayonunun Muğanlı kəndindən 3 kilometr məsafədə qeydə alınan oronimlərdən biri ***Çirişli*** adlanır. ***Çiriş*** – zanbaq fəsiləsinə mənsub olub yabanı halda bitən bəzək bitkisidir.

Çirişli qaya – Laçın rayonunun Minkənd kəndi ərazisində qeydə alınıb. ***Qaya*** sözü müsbət relyef formasını ifadə edən coğrafi termindir. ***Çiriş*** - həmin ərazidə geniş yayılmış yeməli bitkinin adını özündə əks etdirir.

Çitər yer – Füzuli rayonunun ərazisində qeydə alınan coğrafi adlardan biri ***Çitər yer*** adlanır. Əski türk dilində ***çit*** sözü *"sərhəd", "səd", "sərhəd-sınır", "sipər"* anlamındadır. Əski türk dövlətlərində ***çit-çəpər*** qorumağa ən seçkin bahadırlar göndərilərdi. Dilimizdə işlədilən *"çəpər çitəmək"* ifadəsi də əski türklərin yaşam tərzləri ilə əlaqədar yaranmışdır. Orta əsrlərə aid olan qaynaqlarda "***Çete***" adlı uc qorumaya təhkim olunmuş bir türk-monqol tayfa birliyinin də adı çəkilir.

Çitər yeri – Xocavənd rayonunun ərazisində qeydə alınan coğrafi adlardan biri ***Çitər yeri*** adlanır. Əski türk dilində ***çit*** sözü "*sərhəd*", "*səd*", "*sərhədsınırı*", "*sipər*" anlamındadır.

Çoban gədiyi – Laçın rayonunun Çorman kəndi ərazisində qeydə alınan oroqrafik obyekt. ***Gədik*** müsbət relyef formasını bildirən coğrafi termini "*dağ belində batıq yer*", "*dağ keçidi*", "*aşırım*" mənalarında işlədilir.

Çoban yeri – Vaxtilə Arazbar qəzasında, Molla Fazilli oymağında, indiki Füzuli rayonu ərazisində qeydə alınmış oroqrafik obyektlərdən biri də ***Çoban yeri*** coğrafi adıdır. Oronim *"çobana məxsus yer"* mənasındadır.

Çobandağ – Ağdam rayonunun ərazisində qeydə alınmış oroqrafik obyektlərdən biri ***Çobandağ*** adlanır. ***Çobandağ*** oronimi burada *çobanların* yay aylarında qoyun sürülərini saxlaması ilə əlaqələndirilir.

Çobanuçan – Xocavənd rayonunun ərazisində qeydə alınmış oroqrafik obyekt.

Çoladağ – Ağdam rayonu ərazisində, Qiyaslı kəndindən azacıq qərbdə qeydə alınmış oroqrafık obyektə ***Çoladağ*** adı verilmişdir. Güman ki, oronim II əsrdə hunların tərkibində Qafqaza gəlib burada məskunlaşmış türkmənşəli ***çol*** tayfasının adı ilə əlaqədardır. Eramızın əvvəllərinə aid mənbələrdə adı çəkilən Maskut hökmdarlığındakı ***Çola*** (***çol***, ***çor***. ***sul***, ***sur*** variantları da var) şəhərinin adı da ***çol*** (***çul***) etnonimi ilə əlaqələndirilir. Müxtəlif tarixi mənbələrdə türk mənşəli ***çol*** tayfasının adına rast gəlmək mümkündür. Mürəkkəb yolla yaranan müsbət relyef formalı ***Çoladağ*** coğrafi obyektinin birinci komponenti yerində işlənən ***çola*** leksik vahidi göründüyü kimi, azacıq təhrif olunmuşdur. Bəlkə də elə bu səbəbdən belə sözləri müəyyən semantik qrupa daxil etmək mümkün deyildir.

Çölqala məhəlləsi – Çölqala məhəlləsi Şuşanın 9 aşağı məhəlləsindən (*Urudlar, Seyidli, Quyuluq, Dərdlər qurdu, Dörd çinar, Hacı Yusifli, Çuxur məhəllə, Culfalar,* ***Çölqala*****)** biridir. Şəhərə sonradan gələnlər ***çöl*** tərəfdə – ***qala*** divarlarının yaxınlığında məskən salaraq məhəllələrini ***Çölqala*** adlandırmışdılar.

Çöplü gölü – Laçın rayonu ərazisində qeydə alınan hidronimlərdən biri ***Çöplü gölü*** adlanır. Hidronimin əsasını təşkil edən ***çöp*** komponenti türk dillərində "*payız*", "*payız otlağı*" mənasındadır. Toponimi başqa izahlarla da mənalandıranlar var. Bəziləri ***çöp*** komponentini

türk dillərindəki ***çəp*** ilə ("*xırda daşlı və ya qumlu, bitkisiz dağ yamacı*", "*dağlar arası çökəklikdə yüksəklik*") əlaqələndirir.

Çörəkli yal – Xocavənd rayonunun Çörəkli kəndi yaxınlığında, dağətəyi ərazidə qeydə alınan oroqrafik obyektlərdən biri ***Çörəkli yal*** adlanır. Toponimin tərkibindəki ***Çörəkli*** sözü yaxınlıqdakı kəndin adını ifadə edir. Ermənilər kəndin adını dəyişərək ***Hatsi*** qoymuşdular. 1992-ci ildə kəndin əvvəlki ***Çörəkli*** adı bərpa olunmuşdur. Toponim "*Çörəkli kəndi yaxınlığındakı yüksəklik*" anlamındadır.

Çubuq qayası – Meşəli kəndinin 5 kilometrliyində, Xocalı rayonunun ərazisində, Xocalı yaşayış məntəqəsindən 22 kilometr məsafədə, Xocalı yaylağında qeydə alınan oroqrafik obyektlərdən biri də ***Çubuq qayası*** adlanır. Yerli məlumata görə, vaxtilə burada ***çubuq*** ilə əlik (*cüyür*) vurulduğu üçün bu qayaya ***Çubuq qayası*** deyilmişdir.

Çuxur dərəsi – Xocavənd rayonunun Muğanlı kəndi yaxınlığında qeydə alınmış dərə.

Çuxur məhəllə – Şuşa şəhərində Aşağı məhəllələrdən birinin adı da ***Çuxur məhəllə*** adlanır. Məhəllə yerləşdiyi coğrafi mövqeyə (*çökəklik*) görə belə adlanmışdır.

Çuxur Tumas dağı – Cəbrayıl rayonu ərazisində qeydə alınmış ***Çuxur Tumas dağı*** öz adında ***Tumas*** (***tumaslı***) tayfa adını əks etdirir. ***Çuxur*** termini ilə ***Tumas*** etnonimi birləşərək burada ərazinin çökək hissəsində məskunlaşan ***tumaslı*** tayfası barədə məlumat verir (*Dağ Tumas kəndi*). ***Çuxur Tumas dağı*** toponimi "*tumaslıların dağ çuxuru*" mənasındadır.

Çuxuryal – Xocavənd rayonunun Muğanlı kəndi yaxınlığında qeydə alınmış coğrafi ad. ***Çuxuryal*** toponimi "*çökəklikdə yerləşən dağ yamacı*" mənasındadır.

Çullu dağı, **Çullu dərəsi**, **Çullu quzeyi** – Cəbrayıl rayonunda, rayon mərkəzindən 40 kilometr qərbdə, Gəyən düzünün Qubadlı torpaqları ilə qovuşduğu yerdə - Həkərinin bəri üzündə, Gəyən çölündə qeydə alınan oroqrafik obyektlər ***Çullu dağı, Çullu dərəsi, Çullu quzeyi*** adlanır. Yerli məlumata görə, ***çullular*** çox**-**çox qədimlərdə Diridağ ətrafında yaşamış, sonralar meşəli yer olan indiki əraziyə köçmüşlər. Bəzi tədqiqatçıların fikirlərinə görə, ***Çullu*** oykoniminin ilkin forması ***Çollu*** şəklində olmuşdur. ***Çol*** etnonimi özündə hun mənşəli qədim türkdilli ***çol*** tayfasının adını əks etdirir. Türk mənşəli ***çol*** tayfası II əsrdə hunların tərkibində Qafqaza gələrək burada məskunlaşmışlar. Eramızın əvvəllərində Maskut hökmdarlığının ***Çola*** (***Çol, Çor, Sul, Sur***) şəhərinin adı da ***çol*** etnonimi ilə əlaqələndirilir. V əsrə aid yazılı abidələrdə ***çul / çol*** adına rast gəlirik. Həmin dövrə aid olan mənbələrdə Qafqaz Albaniyasının tərkibində ***Çul mağarası*** adına da rast gəlinir. V.Bartold belə hesab edir ki, bəzi ərəb mənbələrində rast gəlinən ***sul*** oykonimini ***çul*** kimi oxumaq daha düzgündür, çünki ***səd*** ərəb hərfi ***ç*** səsinin əvəzlənməsi kimidir. ***Çul*** sözü "*üstündə oturmaq və soyuqdan qorunmaq üçün atın və bəzi başqa heyvanların belinə salınan qıldan və ya yundan toxunma qalın örtük*" anlamındadır. Q.Qeybullayev qeyd edir ki, ***Çul*** oykoniminin əsl forması ***Çol*** olmuşdur. Q.Məşədiyev V.Yeqovorova əsaslanaraq bildirir ki, ***Çol / çul*** türk mənşəli söz olub, çuvaş dilində "*daş*", "*qaya*", "*dərə*" mənasındadır. ***Çol / çul*** sözünü ***çöl*** ("*çöllük*") sözü ilə də əlaqələndirənlər vardır. Xalq etimologiyasına görə, ***çullu*** toponiminin guya müxtəlif ev heyvanlarının (*at, dəvə, öküz* və s.) belini örtmək üçün istehsal edilən toxunulmuş bədii örtük olan ***çul*** istehsalı ilə bağlılığı vardır. Ümumiyyətlə, toponimik araşdırmalar göstərir ki, xalq etimologiyası tədqiqatçını bəzən toponimin mənasının izahı zamanı yalnış fikir yürütməyə sövq edir. XVIII **-** XIX əsrlərə aid olan mənbələrə gorə, ***Cəbrayıl*** elinin ***18*** oymağından biri ***Çullu obası*** olmuşdur. Bu obanın Diridağ yaxınlığında torpaq mülkləri vardı. Burada Mərcanlı nəslindən olan səkkiz ailə məskunlaşmışdır. Cəbrayıl rayonunun

ərazisində, ***Çullu kəndi*** yaşayış məntəqəsindən bir qədər aralıda, təpənin şimal yamacında qeydə alınan oronimlərdən biri ***Çullu quzey*** adlanır. Kəndin yaxınlığında adına ***Çullu dağı*** deyilən ***dağ*** da var. Bu oronimin də ***çullu*** etnonimi ilə əlaqədar yarandığını güman etmək olar. Toponim yaxınlıqda yerləşən ***Çullu*** kəndinin adı ilə əlaqədar olaraq belə adlanmışdır.

Çullu dərə – Qubadlı rayonunun ərazisində qeydə alınmış dərə. Hələ ötən əsrə qədər Qafqazda bu cür adlanan bir neçə (*beş*) toponim mövcud idi. Belə oronimlər ***Çullu*** etnonimi ilə bağlıdır. Bir sıra qədim Azərbaycandilli tayfaların (*kəngər*, *tərtər*, *qarqar*, *gəncə*, *çiraq*) içərisində ***Çul*** tayfası da olmuşdur.

Çullu obası – XVIII – XIX əsrlərə aid tarixi mənbələrdə göstərilir ki, Cəbrayıl elinin ***18*** oymağı (*obası*) olmuş və onlardan biri də ***Çullu*** adlanmışdır. Bu obanın bir neçə yerdə, o cümlədən Diridağ yaxınlığında böyük torpaq mülkləri var idi. ***Oba*** maldarlıq təsərrüfatının yaylağa və qışlağa köçməsi ilə əlaqədar yaradılırdı. ***Obalar*** adətən bir nəsildən və ya müxtəlif nəslə mənsub olan ailələrdən təşkil olunurdu. Türk mənşəli ***çullu*** (***çollu***, ***çol***, ***çul***) tayfası hunların tərkibində II əsrdə Qafqaza gəlib burada məskunlaşmışlar.

Çürük daşın dərəsi – Cəbrayıl rayonunun Dağ Tumas kəndindən 4 kilometr məsafədə, Qurdlu quzeyin şimal ətəyindən Kiçik Kova qədər uzanan dərə ***Çürük daşın dərəsi*** adlanır. Həmin dərədə ovuntulu ***çürük daş*** öz-özünə qəlpələnib tökülən ovuntulu *sarı qayalıq* olduğu üçün oronim belə adlanmışdır.

Dadməlik dağı – Laçın rayonunun Sisyanla sərhəd ərazisində, Bayandur çayı yaxınlığında qeydə alınmış oronim ***Dadməlik dağı*** adlanır. Onunla bağlı dillərdə dolaşan belə bir maraqlı rəvayət də mövcuddur: *Bu ərazilərdə **Məlik** adlı böyük bir mülkədar yaşayırmış. O, əhalini çox incidirmiş. Bir gün onun ağlına gəlir ki, burada elə bir **dağ** düzəltdirim ki, Pənahabad qalasından da yüksək olsun; Pənah xan oradan baxıb görsün ki, ondan da zor adam var. Odur ki, əhalini yığıb yüksək dağ düzəldir. Bu dağdan Pənahabad qalası, Pənahabad qalasından da bura açıq görünür. Deyilənə görə zülm ilə düzələn bu tökmə dağa elə o zamandan da **Dadməlik dağı** deyirlər.*

Dağ qoruq – Füzuli rayonunun ərazisində, Qozluçay dərəsi vadisində, Saracıq kəndi yaxınlığında qeydə alınan oroqrafik adlardan biri ***Dağ qoruq*** adlanır.

Dağ Tumas zirvəsi – Cəbrayıl rayonu ərazisində yerləşən dağ zirvəsi ***Dağ Tumas*** adlanır. Bəzən adını ***Dağtumas*** kimi də yazırlar. Bu ***zirvə*** Qarabağ silsiləsinin cənub-qərb ətəklərindədir. İnqilabaqədərki (*XX əsr, Böyük Oktyabr Sosialist İnqilabı*) ədəbiyyatlarda zirvənin adı ***Tumaslı dağı*** kimi qeyd olunmuşdur. ***Dağ Tumas*** dağının zirvəsinin hündürlüyü 1579 metrdir. Bu ***zirvə*** onun döşündə yerləşən Dağtumas kəndinin ərazisində, dağın yüksək yerində olan qədim ***Tumus Ata*** (***Tumas ağa*** da deyirlər) sərdabə–pirinin adı ilə adlandırılmışdır. "***Tumas ata***" qəbir piri müqəddəs yerlərdən sayılırdı. Bəzi məlumatlara görə, ***Tumas Ata*** Qafqaz albanlarından biri olmuşdur. ***Ata*** sözü türk dillərində *hörmət* titulu bildirir.

Dağar yeri – Xocavənd rayonu ərazisində, Qaradağlı kəndi yaxınlığında, Xırman yalındakı oroqrafik obyektlərdən biri ***Dağar yeri*** adlanır. Yerli əhali həmin əraziyə ***Xırman yeri*** də deyir. ***Dağar*** sözü əski türklərdə "*çəki*", "*ölçü*" anlamı daşımışdır. Əvvəllər tərəkəmələr böyük ölçülü kisəyə ***dağar***, kiçik ölçülüsünə isə ***dağarcıq*** deyərdilər. Orta çağda türk qurumlarında ordunu ərzaqla təmin etmək üçün rəiyyətdən yığılan natural vergi növünə ***tağar/dağar*** da deyilmişdir. Əski qaynaqlarda ***tağar*** həm də çəki vahidi idi. Bir *tağar* təxminən *295* kq idi. ***Tağar*** ilə əsasən taxıl məhsullarını ölçüb hesablayardılar. Qarabağda belə bir giley-güzarlı məşhur ifadə var: "*Keçən il şərikli buğda əkmişdik; bölgüdə özləri dağar-dağar götürdülər, bizə isə dırnaq ucu verdilər*".

Dağdağan ağacı piri – Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyekt. ***Dağdağan*** ağacını korpələri şər qüvvələrdən qoruyan müqəddəs ağac kimi də səciyyələndirirlər. Adına bəzən ***daşağac*** dediyimiz ***qarağackimilər*** fəsiləsindən yarpağı tökülən, çox vaxt həmişəyaşıl olan ***dağdağan*** ağacının adı ilə də çoxlu sayda oronimlər yaranmışdır. Köhnə adamlar "*harda dağdağan, orada pir*" deyərdilər. ***Dağdağan ağacı piri*** sonsuzların son ümüd yeri idi.

Dağdağan ocağı – Cəbrayıl rayonunun Xələfli kəndinin yaxınlığında qeydə alınan oronimlərdən biri ***Dağdağan ocağı*** adlanır. Azərbaycanda ***ocaq kultu*** çox-çox qədimlərə gedib çıxır. Məlumdur ki, Azərbaycanın bəzi ərazilərində ***pir*** sözü əvəzinə ***ocaq*** ifadəsi də işlədilir.

Dağdağan ocağı – Xocavənd rayonunda, Salakətin kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri ***Dağdağan ocağı*** adlanır. *30 oktyabr 1991-ci il* tarixdə erməni təcavüzü nəticəsində Xocavənd rayonunun dağıntıya məruz qalmış mədəni və dini abidələrindən biri də məhz ***Dağdağan ocağı*** tarixi abidəsidir. Yerli azərbaycanlı əhali bu ***ocağı*** müqəddəs tapınaq yeri kimi əziz tutar və tez-tez ziyarət edərdi.

Dağdağan piri – Cəbrayıl rayonunun Qalacıq kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Dağdağan piri*** adlanır.

Dağdağanlı dərə – Ağdam bölgəsində, Baş Güneypəyə kəndi yaxınlığında qeydə alınan oroqrafik obyekt.

Dağdağanlı düz – Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Dağdağanlı düz*** adlanır. Bu ərazidə ***dağdağan*** ağacları olduğu üçün oronim belə ad almışdır.

Dağkeçisi diki – Laçın rayonunun ərazisində qeydə alınan oroqrafik obyekt. Həmin yoxuşda vaxtilə çoxlu ***dağ keçisi*** olduğu üçün toponim belə ad almışdır...

Dağqoruq – Füzuli rayonunun ərazisində, Qarakollu kəndindən bir qədər quzeydə, Arıq bulağı adlanan meşə ərazisində qeydə alınan oronimlərdən biri ***Dağqoruq*** adlanır. Kənddən bir qədər kənarda yerləşməyi, ***dağ*** döşündə olması, əl-ayaqdan uzaqlığı, toxunulmazlığı ona ***Dağqoruq*** adını verdirib. Qədim keçmişin yadigarı olan Şirəviş daşı ***Dağqoruq*** ərazisindədir.

Dağlıq Qarabağ Muxtar Vilayəti – Azərbaycanda, Kiçik Qafqazın şərq hissəsində yerləşirdi. ***DQMV*** Sovetlər dönəmində – ***7 iyul 1923-cü il*** tarixində təşkil edilmişdi. **5** inzibati rayon (*Şuşa, Əsgəran, Hadrut, Mardakert, Martuni*), **2** şəhər, **225** kənd və qəsəbəni əhatə edirdi. Orta hündürlüyü dəniz səviyyəsindən **1100** metr idi. Şimal-qərbdən Murovdağ sıra dağları ilə əhatə olunmuşdu. Bu sıra dağlar tədricən alçalaraq çay dərələri və çox parçalanmış yüksəkliklər şəklində Kür-Araz ovalığına qovuşurdu**.** *DQMV*-nin çayları tropik dağ çayları olub, Kür çayı hövzəsinə aid idi. İri çayları *Tərtər, Xaçın, Qarqar, Quruçay* və *Köndələnçay* idi. Azərbaycan Respublikasının ***26 noyabr 1991-ci il*** tarixli, ***279-XII*** nümrəli Qanununa əsasən ***DQMV*** ləğv edilmişdir. Əlavə məlumat üçün bax: **Qarabağ düzü, Qarabağ silsiləsi**.

Dağtumas yatağı – Cəbrayıl rayonunun Dağtumas kəndi yaxınlığında qeydə alınan oronimlərdən biri ***Dağtumas yatağı*** adlanır. Toponim ***Dağtumas*** kənd adından və ***yataq*** sözündən ibarətdir.

Dairəvi türbə – Cəbrayıl rayonunun ərazisində, Şıxlar kəndində memarlıq üslubuna görə orta əsrlər tarixində özünəməxsus yer tutan XV əsrə aid ***Dairəvi türbə*** Azərbaycanın qorunan memarlıq abidələri siyahısına daxil edilmişdir. Cəbrayıl rayonu ərazisində qeydə alınan ***Dairəvi türbə*** adlanan bu qəbirdə də dövrünün nüfuzlu şəxsi dəfn olunmuşdur.

Dalaq daşı – Cəbrayıl rayonu ərazisində, Şükürbəyli kəndinin kövşənində, Quycaq dağı yaxınlığındakı yamacda qeydə alınan oroqrafik obyektlərdən biri ***Dalaq daşı*** adlanır. Bu oroqrafik obyekt hündürlüyü 1 metr olan prizma şəkilli daşdır. *Daşın* bir üzündə yaraqlı atlı və vəhşi heyvan şəklinin cizgiləri vardır. Oronim ***dalaq*** və ***daş*** sözlərindən ibarətdir. Qarın boşluğunun sol tərəfində olub qan kürəcikləri hazırlayan və bu proseslərlə bağlı başqa mürəkkəb vəzifələr görən bədən üzvü ***dalaq*** adlanır. *Dalağı*, eləcə də qara ciyəri ağrıyan və ya şişən xəstələr niyyət edib daşın dibinə duz basdırar, sonra isə qarın boşluğundakı ağrı olan hissələrini həmin *daşa* sürtərdilər. ***Dalaq daşı*** inanclarla bağlı yaranan toponimlərdəndir.

Dambulaq dərəsi, diki, düzü, çökəkliyi – Laçın rayonunun ərazisində, Kiçik Qafqazın Mıxtökən silsiləsinin yamacında, səfalı bir ərazidə qeydə alınan oronimlər. ***Dambulaq*** toponiminin mənası "*damlı yerdəki bulaq*" deməkdir. Yaxınlıqda ***Dambulaq*** adlı kənd də vardır. *Dambulaq* yaşayış məntəqəsi eyniadlı bulağın adı ilə əlaqədar olaraq belə ad almışdır. Oronimin tərkibindəki ***dərə, dik, düz, çökəklik*** terminləri mənfi relyef formasını ifadə edir.

Dar təpəsi – Cəbrayıl rayonunun ərazisində, Hacı Qaraman ocağından cənubda qeydə alınan oronimlərdən biri ***Dar təpəsi*** adlanır. ***Dar təpəsi*** üzü daşlarla örtülmüş ***dar*** keçidi olan təpəlikdir. Elə bu səbəbdən də toponim belə adlandırılmışdır.

Darıdağ – Respublikamız ərazisində çox maraqlı metafor oronimlərdən biri də Cəbrayıl rayonu ərazisində qeydə alınmış ***Darıdağ*** coğrafi adıdır. Bəzi tədqiqatçılar bu oroqrafik obyekti taxıllar fəsiləsindən birillik ot bitki cinsi olan ***darı*** ilə əlaqələndirirlər. Maraqlı burasıdır ki, bu oronimdə taxıl növü olan ***darı*** həqiqi mənada yox, metafor mənasında işlənmişdir. Yumru toxumları olan birillik taxıl bitkisi və bu bitkinin dəni ***darı*** adlanır. **Darıdağ** oronimi dağın ***darı*** şəklində qum dənəciklərindən ibarət olunduğu üçün ***Darıdağ*** adlanmışdır.

Darılı düzü – Xocalı rayonu ərazisində, Cəmilli kəndi yaxınlığında yer adı. Taxıllar fəsiləsindən gövdəsi silindrik, içiboş, kök sistemi saçaqlı birillik ot cinsi olan ***darı*** bitkisinin adı ilə əlaqədardır. Toponim "*darı əkilən yer*" mənasındadır.

Darılı piri – Kosalar kəndinin yaxınlığında, Cəmilli kəndi istiqamətində qeydə alınan coğrafi adlardan biri ***Darılı piri*** adlanır. Qarabağda, Xocalı rayonunun ərazisində bu tipli yer adları çoxdur.. ***Darılı piri*** toponimi "*darı əkilən yer*" mənasındadır.

Dasnı çors Mehdinin yurd yeri – Qarabağda, Şuşada ***Mehdi bəy*** adlı bir nəfər "*Dasnı çors*" ləqəbi ilə məşhur idi. Bu ləqəb ona təsadüfən verilməmişdi. Şuşa toylarının demək olar ki, hamısında iştirak edən ***Mehdi bəy*** hər dəfə çalğıçılara "*Dasnı çors*" ("*On dörd*") havasını sifariş verib oynayardı. O, bu havanı oynayarkən ayağının birini qaldırıb, o birini endirərək tapançasından havaya atəş açardı. Toydakı iştirakçılar da hamısı bir nəfər kimi onun bu hərəkətinə əl çalardılar. Bu havanı çox gözəl ifa etdiyi üçün ona "***Dasnı çors" Mehdi bəy*** deyirdilər. Onun Şuşadakı mülk yerinin ərazisinə də "***Dasnı çors Mehdinin yurd yeri***" deyilirdi.

Daş qəbir – Xocalı rayonunda, Kosalar kəndinin ərazisində qeydə alınan maraqlı oroqrafik obyektlərdən biri ***Daş qəbir*** adlanır. Bu ***qəbir*** qədim tarixə malikdir. Rayon ərazisində belə tikililər çoxdur. Bu tip tikililər əsasən siklop tikintilərdən, ***daş qutu***, kurqan, torpaq qəbirlərdən və s.-dən ibarət olur. Bəzi məlumatlara görə, bədxah qonşularımız olan ermənilər Xocalı rayonunun torpaqlarını işğal etdikdən sonra bu tipli qiymətli abidələrimizi dağıtmışlar.

Daş qutu qəbri – Xocalı şəhərinin ərazisində, köhnə qəbiristanlığın yaxınlığında, Əsgəran dağından bir qədər aralıda qeydə alınan oroqrafik obyektlərdən biri də ***Daş qutu qəbri*** adlanır. Bəzən sənədlərdə adına ***Daş qutu nekropolu*** kimi də rast gəlirik. Bu ***nekropol*** tunc dövrü abidəsi hesab olunur. Məhz elə bu mənada ***daş qutu qəbirlər*** də çox qiymətli abidələr hesab olunur. Əfsuslar olsun ki, bədxah qonşularımız olan ermənilər Xocalı rayonunun torpaqlarını işğal etdikdən sonra belə qiymətli abidələrimizi dağıntıya məruz qoymuşlar.

Daş məhəl – Şuşa rayonunun Quşçular kəndi yaxınlığında qeydə alınmış ***Daş məhəl*** mikrotoponimi naxırın yay aylarında, günorta zamanı toplandığı yerin adıdır. Həmin yer Ağçayın kənarındadır. Həmin ərazi *sal daşlardan* ibarət olduğu üçün yerli əhali buranı ***Daş məhəl*** (*bəzən adına Daş məhlə də deyirlər*) adlandırmışdır.

Daş təpə – Qarabağ silsiləsinin ətəyində, Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 2 kilometr məsafədə qeydə alınan oroqrafik obyekt.

Daşadüz – Şuşa rayonunda, Qarabağ silsiləsində qeydə alınan oroqrafık obyekt.

Daşaşıran qayası – Xocalı rayonunda, Qarabağ silsiləsində, Kosalar kəndi ilə Kərkicahan arasında yerləşən hündür qaya. Ətrafında saf büllur bulaqlar var. İşğala qədər bu qaya strateji mövqe hesab olunurdu. ***Daşaşıran*** toponimi ilə bağlı müxtəlif fikirlər mövcuddur.

Daşbulaq dağı – Xocalı rayonu ərazisində dağ. ***Dağ*** öz adını Xocalıdakı eyni adlı hidronimdən (***Daşbulaq çayı***) almışdır.

Daşdəmir dərəsi – Xocavənd rayonunun ərazisində qeydə alınan dərə.

Daşdı dərə – Ağdam rayonunun Xıdırlı kəndi ərazisində qeydə alınan ***Daşdı dərə*** oroqrafık obyektinin adı azacıq təhrifə məruz qalıb. Oronımin adı əslində ***Daşlı dərə*** şəklində olmalıdır, Qarabağ dialekti üçün -***l*** – -***d*** hərf keçidi xarakterikdir. Yerli əhali bu coğrafi adı ***Daşdı*** şəklində tələffüz edir.

Daşkəsən dağı – Cəbrayıl rayonu ərazisində qeydə alınmış oronimlərdən biri ***Daşkəsən dağı*** adlanır. Yerli əhali arasında ***Daşkəsən təpəsi*** adı ilə də tanınır.

Daşlı çuxur – Cəbrayıl rayonunun Dağ Tumas kəndində qeydə alınmışdır. ***Daşlı çuxur*** toponim "*daşlı oyuq, çökək*" mənasındadır.

Daşlı dağ – Xocavənd rayonunun ərazisində dağ. Bu ***dağ*** süxurlarının tərkibi ***daşlı*** olduğu üçün oronim belə ad almışdır. Toponim "*süxurları daşlı olan dağ*" anlamındadır.

Daşlı suat – Xocavənd rayonunun ərazisində, Muğanlı kəndi yaxınlığında, Şah yolu deyilən ərazinin ətrafında qeydə alınmış oroqrafik obyekt ***Daşlı Suat*** adlanır. Bu coğrafi adın izahı ilə bağlı çoxlu fikir və müahizələr müvcuddur...

Daşlı təpə – Xocavənd rayonunda, Kuropatkino kəndi ərazisində, kənddən 4 kilometr aralıda, Xocavənd-Ağcabədi rayonlarının sərhədi yaxınlığında qeydə alınan oronimlərdən biri ***Daşlı təpə*** adlanır.

Daşlı yoxuş – Cəbrayıl rayonunun Nüzgər kəndinin ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Daşlı yoxuş*** adlanır.

Daşlı yoxuş – Laçın rayonunda qeydə alınan yüksəklik.

Daşlıburun, Daşlıgüney – Laçın rayonu ərazisində qeydə alınan oroqrafik obyekt adlarından biri də ***Daşlıburun*** adlanır. ***Burun*** - dağın, qayanın irəli çıxmış hissəsidir. Həmin hissə qayalı, ***daşlı*** olduğu üçün, toponim belə ad almışdır.

Daşlıq təpə – Süxurlarının tərkibinə görə ad almış oroqrafik obyektlərdən biri də Xocavənd rayonu ərazisində qeydə alınan ***Daşlıq təpə*** oronimidir.

Daşlıtəpə abidəsi – Füzuli rayonunun ərazisində, Şükürbəyli kəndi yaxınlığında ***Daşlıtəpə*** deyilən yerdə qeydə alınan oroqrafik abidələrdən biri də ***Daşlıtəpə abidəsi*** coğrafi adıdır. Bu abidə Daşlıtəpənin tən ortasındadır. Yerüstü hörgüsü adi çaylaq daşlarından tikilib. Abidənin yer səthindən 40 sm hündürlükdə olan hissəsi qalır. Güman etmək olar ki, onun dam örtüyü yuxarıya qalxdıqca yığılaraq gümbəz formasında olub. Abidənin yerüstü hissəsinin hündürlüyünün 3 metrdən çox olması ehtimal olunur. Bu abidə-təpə el arasında müqəddəs hesab olunur. Yağış və qar suları zaman-zaman abidənin divarlarını uçurmuş, onun sərdabəsini dağıntıya məruz qoymuşdur. Sərdabənin yeri təsadüfən çobanlar tərəfindən tapılmışdır. Sonra türbənin sərdabəsini onun tavan hissəsindən vurub deşmişlər və beləliklə, türbənin yeraltı hissəsi məlum olmuşdur. Çox güman ki, vaxtı ilə sərdabədə insan skeletləri olub. Abidənin yerüstü hissəsi adi çaylaq daşlarından dairəvi formada, sərdabəsi isə ağ əhəng daşından düzbucaqlı formada tikilmişdir. Sərdabəyə yeganə giriş baş tərəfdəndir. Giriş qapısı bayırdan bir sal daşla bağlıdır. Qapının hündürlüyü 1,26 metrdir. Sərdabənin eni **3,5** m, uzunluğu **3,1** m, mərkəzdən hündürlüyü isə **2,23** metrdir. ***Daşlıtəpə*** abidəsinin son orta əsrlərdə inşa olunduğu güman edilir.

Daşlıtəpə dağı – Qarabağ silsiləsində, Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 2 kilometr aralıda qeydə alınan dağ ***Daşlıtəpə dağı*** adlanır.

Daştəpə dağı – Qarabağ silsiləsinin ətəyində, Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 2 kilometr məsafədə qeydə alınan dağ.

Daştəpə kurqanı – Xocavənd rayonunun Kuropatkino kəndinin 5 kilometrliyində, Muğanlı kəndindən 4 kilometr şimal-şərqdə, Xonaşençayın sol sahilində, Ağdam rayonu ilə sərhəddə qeydə alınan oroqrafik obyektlərdən biri ***Daştəpə kurqanı*** adlanır. Burada maksimal hündürlük *208* metrdir.

Dəcəlli diki – Cəbrayıl rayonunun Şahvələdli kəndi ərazisində qeydə alınan oronimlərdən biri ***Dəcəlli diki*** adlanır. Bu dikdən sonra ***Dəcəl*** kəndinin ərazisi olduğundan toponim belə ad almışdır.

Dədə dərə – Xocavənd rayonunun ərazisində dərə. Oronim ***dədə*** sözündən və ***dərə*** terminindən ibarət olub, "*əsas dərə*" mənasını ifadə edir.

Dəhliz – Xocavənd rayonunun Tuğ kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Dəhliz*** adlanır. Əslən fars sözü olan ***dəhliz*** komponentinin müxtəlif məna çalarları ("*küçə qapısı ilə pilləkən arasında aralıq*", "*böyük otağın yanında olan kiçik otaq*", "*ev ilə bağça qapısı arasındakı üstü örtülü yol*", "*keçid*", "*qulağın içində olan boşluq*", "*orta qulaq*") və s. vardır. Tuğ ərazisində qeydə alınan ***Dəhliz*** toponimi "*ev ilə həyət arasındakı üstü örtülü yol, sahə, keçid*" anlamındadır.

Dəhnə dərəsi – Xocavənd rayonunun Qaradağlı kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Dəhnə dərəsi*** adlanır. ***Dəhnə*** sözü türk və fars dillərində "*arxdan ayrılan kiçik kanalın, arxın və s.-nin ağzı, başlanğıcı*", "*köhnə yatağında çayın düzənə çıxdığı yer*", "*dəyirman kanalında suyun toplandığı yer*" mənasını ifadə edir.

Dəhnələr – Cəbrayıl rayonunun Dağ Tumas kəndindən bir neçə kilometr aralıda, İncə çayından su götürmək üçün dəyirman şırşırının cənubundakı arx başlarında qeydə alınan oroqrafik obyektlər ***Dəhnələr*** adlanır. ***Dəhnələr*** adlanan ərazi həmin sahələrdə vurulan bəndlərdən ibarətdir. Belə ***dəhnələr*** çox vaxt çayın əyri hissəsində qabarıq sahildə düzəldilir. Bu zaman suyun nisbətən duru olan üst təbəqəsi dəhnəyə, lilli alt təbəqəsi isə yenidən çayın məcrasına istiqamətlənir.

Dəli yarğan – Cəbrayıl rayonunun Dağ Tumas kəndi yaxınlığında, İncə çayının sağ ətəyində, Cədə yolunun altında qeydə alınan oronim ***Dəli yarğan*** adlanır. Bu ərazi sərt sıldırımlı olduğu üçün yerli əhali tərəfindən belə adlandırılmışdır.

Dəliçay qobusu – Füzuli rayonunun Horadiz kəndi yaxınlığında qeydə alınan oronimlərdən biri də ***Dəliçay qobusu*** adlanır. Bu oronim hidronimlə (***Dəliçay***) ifadə olunmuşdur. ***Qobu*** komponenti *"çökəklik", "su axan dərə", "qurumuş çay yatağı"* və s. mənalar daşıyır.

Dəlidağ – Cəbrayıl rayonu ərazisində qeydə alınmışdır. ***Dəli*** onun (***dağın***) əzəmətli olmasına işarədir.

Dəlidağ – Kəlbəcər rayonu ərazisində, Qarabağ vulkanik yaylasında, Laçın rayonu ilə sərhəddə, Mıxtökən silsiləsinin ən yüksək zirvəsində, hündürlüyü 3616 metr olan dağ. Dağda alp və subalp çəmənlikləri var. Dəlidağın yamaclarında qədim buzlaq izləri də qalıb. Dağ tez-tez havanın dəyişməsi, qəfildən, gözlənilmədən yağış və qar yağması, duman, tufan olması, dağ uçqunlarının baş verməsi ilə əlaqədar olaraq ***Dəlidağ*** adlanmışdır.

Dəlidağ – Laçın rayonu ərazisində, Mıxtökən silsiləsinin ən yüksək zirvəsində, Kəlbəcər rayonu ilə sərhəddə yerləşən dağ; dağın hündürlüyü 3616 metrdir. Keçmişdə bəzi maldar ellərin yaylaqları burada yerləşirdi. Toponim yay fəslində orada tez-tez havanın dəyişməsi, qəfildən, gözlənilmədən yağış və qar yağması, tufan, boran, qar uçqunlarının olması, dağın "*özünü dəli kimi aparması*" ilə əlaqədar olaraq beləcə ***Dəlidağ*** adlanmışdır. Quruluşca mürəkkəb formalı söz olan ***Dəlidağ*** etnooronimini hunların ***dəli*** (***tele***) etnonimi ilə də əlaqələndirmək olar.

Dəlik daş – Qarabağ silsiləsində, Cəbrayıl rayonunun ərazisində, Tey dağının cənub yamacında qeydə alınan oroqrafik obyektlərdən biri ***Dəlik daş*** adlanır. Toponim "*dəliyi, deşiyi olan daş*" mənasındadır. Daşın üzərində təbii oyuqların olmasına görə oronim belə ad almışdır. Türkdilli xalqların toponimiyasında ***dəlik*** komponentini əvəz edən "*deşik*" sözünə də təsadüf edilir.

Dəlikdaş – Ağdam rayonunun Xıdırlı kəndi yaxınlığında qeydə alınan oroqrafik obyekt. Bu yüksəklik vulkan mənşəlidir. Oronimin tərkibindəki ***daş*** komponenti burada "*yüksəklik, qaya, təpə*" anlamındadır. Qayada (oradakı daşlarda) təbii oyuqların çox olması ilə əlaqədar (*dəliklərin çoxluğu*) olaraq toponim belə ad almışdır.

Dəlikdaş – Cəbrayıl rayonunun ərazisində, Tumaslı dağının 3 kilometrliyində, dağın gündoğan döşündə, dağətəyi ərazidə, Yastı ardıcdan 100 metr günbatanda və onun bərabərində qeydə alınan oronim ***Dəlikdaş*** adlanır. Oronim qayalarında təbii oyuqların – *dəliklərin* olması ilə əlaqədar olaraq belə adlandırılmışdır.

Dəlikdaş dağı – Xocalı rayonu ərazisində, Qarabağ silsiləsinin qərb yamacında dağ. Dağın hündürlüyü 2304 metrdir. ***Dağ*** vulkan mənşəlidir. Qayalarında təbii oyuqların olması ilə əlaqədar *dağ* belə adlanmışdır.

Dəlikli qaya – Qarabağ silsiləsində, Xocalı rayonu ərazisində, rayon mərkəzindən 10 kilometr məsafədə qeydə alınan oroqrafik obyektlərdən biri ***Dəlikli qaya*** adlanır. Qayada təbii oyuqların olması ilə əlaqədar o, belə adlanmışdır.

Dəliqaya – Cəbrayıl rayonunun ərazisində qeydə alınmış oroqrafik obyekt.

Dəliqoyunlar – Şuşa şəhərində qeydə alınmış coğrafi ad. Şuşada "həmişə əli gətirən" bir yaxşı qumarbaz var imiş. Bir gün Moskva qumarbazlarından biri bir çemodan çervon pul, qızıl və digər qiymətli daş-qaş götürüb Şuşaya qumar oynamağa gəlir və həmin şuşalı qumarbaza onunla oynamağı təklif edir. Razılaşıb qumar oynamağa başlayırlar. "Bankı" birinci qonaq qoyası olur; gətirdiyi çemodanı "bank" qoyur. Yerli qumarbaz kartına baxıb ortaya qonaq qoyduğundan artıq pul qoyur. Nə isə, az vaxt ərzində şuşalı qumarbaz moskvalı həmkarının bütün pullarını udur, onun çemodanını da götürüb öz qarşısına qoyur. Oyunun bu tezliklə qurtaracağından əsəbiləşən rusiyalı rəqibinə "sumaşedşiy baran" ("***dəli qoyun***") deyib qumar məclisini tərk edir. Elə o zamandan həmin şuşalı qumarbaz "*Dəli qoyun*", onun tayfası isə ***"Dəliqoyunlular"*** adlanır. Onların yaşadıqları məhəlləyə də bəziləri "*Dəliqoyunlular məhəlləsi*" deyirdilər.

Dəmirçi dərəsi – Xocavənd rayonunun Salakətin kəndi ərazisində qeydə alınan oronimlərdən biri ***Dəmirçi dərəsi*** adlanır. ***Dəmirçi dərəsi*** toponimi "*dəmirçilər olan dərə*" mənasındadır.

Dəmirçihəsənli elinin yurd yerləri – Qədim-qayım Qarabağda dövran keçirən böyük ellərdən biri ***Dəmirçihəsənli*** elidir. ***Dəmirçihəsənli*** elinin əksər oymaqları Qarabağa XVIII yüzilin ikinci yarısında Gürcüstan ağzından gəlib. 1727-ci ilə bağlı Osmanlı qaynağında bu el nahiyə kimi göstərilib və orada nahiyəyə bağlı şenliklərin adları, əhalisi verilib. Qarabağ xanı Pənahəli xan Sarıcalı – Cavanşir Gürcüstan ağzından Dəmirçihəsənli, Cinli ellərini, Borçalı, Baydar və Qazax nahiyələrindən bir çox oymaqları köçürüb onları Xonaşendən tutmuş şərqdən Kür qırağına, cənub-şərqdən Araz çayına çatan ərazilərdə, əsasən də Qarabağda yerləşdirdi. Bu ərazi az sonra ***Dəmirçihəsənli mahalı*** adlandı. Qarabağda yerləşən Dəmirçihəsənli elinin əhalisi ***təklə*** adlanırdı. Xanlıq dönəmində ***Dəmirçihəsənli*** mahalından bir neçə oba köçürülüb İyirmidörd mahalının ərazisində yerləşdirilmişdi. Bir neçə ailə də Şuşa şəhərində yaşayırdı. Mamaylı obası bütünlüklə şəhərə köçmüşdü. Qarabağda ***Dəmirçihəsənli*** elinin əhalisinə ***Tərəkəmələr*** deyilir. Hazırda ***Dəmirçihəsənli elinin*** əhalisi kənd biçimində Ağcabədi, Beyləqan, Xocavənd və İmişli bölgələrində yaşayırlar. *Təklə-Muğanlı* oymağı Qarabağda qərar tutan ***Dəmirçihəsənli*** elinin bir qoludur. ***Dəmirçihəsənli mahalı*** ləğv olduqdan sonra *muğanlılar* Şuşa qəzasının Kəbirli sahəsinə bağlandılar.

Dəmirov dağı – Xocavənd rayonunun Salakətin kəndi yaxınlığında, kəndin 200 addımlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Dəmirov dağı*** adlanır. ***Dəmirov dağı*** ərazisində ***Dəmirov ocağı*** coğrafi adı da qeydə alınmışdır. Bu oroqrafik obyektlər hələ çox-çox qədim zamanlarda təbabətin heç də geniş yayılmadığı bir dövrə təsadüf edir. Yerli əhalinin (*Salakətin kənd sakinlərinin*) söylədiklərinə görə, kimin bədəninə ***dəmirov*** yarası düşərdisə, ***Dəmirov dağı*** ərazisinə gələrək oradan bir qədər torpaq götürüb həmin yaraya sürtməklə müalicə olunarmış. Görünür bu dağın ərazisi doğrudan da müalicə əhəmiyyətli olmuşdur.

Dəmirov ocağı – Xocavənd rayonunun Salakətin kəndi yaxınlığında, kəndin 200 addımlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Dəmirov ocağı*** adlanır. ***Dəmirov ocağı*** hələ çox-çox qədim zamanlarda təbabətin heç də geniş yayılmadığı bir dövrə təsadüf edir. Kənd sakinlərinin dediklərinə görə, kimin bədəninə ***dəmirov*** yarası düşərdisə, ***Dəmirov ocağı*** ərazisinə gələrək oradan bir qədər torpaq götürüb həmin yaraya sürtməklə müalicə olunarmış.

Dəmşalaq – Cəbrayıl rayonunun ərazisində qeydə alınan toponimlərdən biri də ***Dəmşalaq*** coğrafi adıdır. Bəzi araşdırıcılar ***Dəmşalaq*** toponiminin zahiri görkəminə, ilkin deyim formasına uyaraq onu "*dəm çalmaq*" mənasında izah etməyə üstünlük verirlər. Bir qisim tədqiqatçılar isə bu sözü ***dəmyə*** və ***laq*** komponentləri ilə əlaqələndirib, "*dəmyə yer*" mənasında izahlandırırlar. Ərazinin coğrafi relyefi də ikinci fikrin doğruluğunu təsdiq edir.

Dəmyələr – Qarabağ silsiləsində, Xocalı rayonu ərazisində, rayon mərkəzindən 6 kilometr məsafədə qeydə alınan oroqrafik obyektlərdən biri ***Dəmyələr*** adlanır. ***Dəmyə*** sözü "*suvarılmayan sahə*", "*su içməyən zona*" anlamını ifadə edir.

Dərbənd çökəkliyi – Ağdam rayonunun ərazisində, Xaçın çayının aşağı axınında qeydə alınan oronim ***Dərbənd çökəkliyi*** adlanır. ***Çökəklik*** - yer səthinin tam və ya qismən qapalı alçaq sahəsinə deyilir. ***Dərbənd*** sözü ***dər*** və ***bənd*** terminindən ibarətdir. ***Dər*** (***deyr***) ərəb dilində "*məbəd, monastır*", ***bənd*** (*vənd*) İran dillərində "*nəsil*, *uşaq*, *törəmə*" mənasındadır. *Çökəklikdə* qədim məbəd xarabalıqları da vardır.

Dərə yolu – Xocavənd rayonunun Muğanlı və Əmirallar kəndi yaxınlığında qeydə alınan oroqrafik obyekt.

Dərəzəmi – Ağdam rayonunun Abdal kəndi ərazisində qeydə alınmışdır. Həmin sahədə uzun illər taxıl əkilmişdir. Dərədə yerləşən bu zəmi böyük düzdən ibarətdir.

Dərin dərə – Füzuli rayonunun Yal Pirəhmədli kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Dərin dərə*** adlanır.

Dərviş dərəsi – Qubadlı rayonunun ərazisində qeydə alınmış dərə. Azərbaycan oronimiyasında bir çox obyekt adları titul və peşə sözlərinin terminlərlə birləşməsindən meydana gəlmişdir. ***Dərviş dərəsi*** də belə toponimlərdəndir. ***Dərviş*** komponenti dini vəzifə, peşə anlayışı mənasında, ***dərə*** komponenti isə "*çay yatağı*", "*çayın axdığı yer*", "*uzun dərin çuxur*", "*iki dağ və təpə arasında sahə*" mənasındadır.

Dərviş qayası, Dərviş təpə – Laçın rayonunun ərazisində qeydə alınan oroqrafik obyekt. Respublikamızda titul və peşə bildirən terminlərlə düzələn oronimlər çoxdur. ***Dərviş -*** fars dilində "*sərgərdan ruhani*" deməkdir; hərfi mənada ***dərviş -*** yoxsula, fağıra, zavallıya, dilənçiyə deyilir. *Dərvişlik* təliminin əsasını "*insanın Allahla şəxsi ünsiyyət tapması*" ideyası təşkil edir. Keçən əsrə qədər Azərbaycanda da dərvişlər olub. ***Dərviş*** sözü ilə bağlı toponimlərin çoxluğu Səfəvilər dövləti zamanında zaviyələrdə və təkyələrdə məskunlaşan dərvişlərə müəyyən torpaq sahəsi bağışlanması ilə əlaqədardır. ***Dərviş*** orta əsrlərdə sufi təriqətlərindən birinə mənsub olan adama - müsəlman mistikinə deyilirdi. Bəzən ***dərvişlər*** başlarına yaşıl əmmamələr qoyar, özləri ilə ümumi uzunluğu 20 metrə çatan kağızda "*seyid nəslindən olduqlarını göstərən şəcərə*" gəzdirərdilər. Laçın rayonunun Cağazur kəndi yaxınlığında qeydə alınmış ***Dərviş qayası*** və ***Dərviş təpə*** oronimləri də ***dərviş*** titul bildirən sözdən, eləcə də ***qaya*** və ***təpə*** müsbət relyef ifadə edən terminlərdən düzəlmişdir.

Dərvişin aşırımı – Zəngilan rayonunun Mirzəhəsənli kəndinin ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri də ***Dərvişin aşırımı*** adlanır. ***Dərviş*** adətən qapı-qapı, kənd-kənd, ölkə-ölkə gəzərək, yaxud meydançalarda adamları başına yığaraq peyğəmbərə, imamlara və Kərbəla şəhidlərinə həsr olunmuş qəsidələri avaz ilə oxuyub pul yığan adamlara deyilir. ***Dərvişlər*** sufi təriqətlərindən birinə mənsub olan mistik müsəlmanlardır. ***Dərviş*** sözünün "*sərgərdan ruhani*" mənası da var. *Dərvişlik* bir sənət, bir peşədir. Dərvişlik təliminin əsasını mistik ekstaz yolu ilə insanın Allah ilə şəxsi ünsiyyət tapması ideyası təşkil edir.

Dərvişpirim – Cəbrayıl rayonu ərazisində, Dağtumas kəndi yaxınlığında, Həkəri sahilindən Gəyən düzünə qalxan eyniadlı yoxuşun başında, yaylaq yolu altında, Hacı Qasım Çələbinin övladlarının evinə gedən yolda yerləşən kiçik təpə üzərindəki qəbir ***Dərvişpirim*** adlanır. Bəzən adını ***Dərviş Pirim*** kimi də yazırlar. Deyilənə görə Hacı Qasım Çələbini harasa qonaq aparırmışlar. Yolda o, deyibdi ki, atların başını saxlayın, elə burda dəstəmaz alıb, namaz qılacağam. Bu namaz qılınan yeri, qaratikan kolunun yerləşdiyi ərazini, camaat sonralar müqəddəs ***pir*** kimi əziz tutub, onu daş hasara alıblar. Sınanılmış bu ***qəbir-pir*** tərkidünyalığı qəbul etmiş dövrünün sufi mömin bəndəsi olan ***Dərvişpirim*** babaya məxsusdur. ***Dərvişpirim ocaq-piri*** Tumas oymaqları ilə yanaşı, tərəkəmə camaatının da etiqad, inanc ocağı olmuşdur. Yaylaq yolu üzərində yerləşdiyi üçün yaylağa çıxanlar və arana qayıdanlar burada qurbanlar kəsər, niyyət tutaraq özlərinə əmin-amanlıq diləyərdilər və deyilənlərə görə onların bu dilәkləri yerinə yetərdi.

Dərzili piri – Cəbrayıl rayonunun ərazisində, Dərzili kəndinin qəbiristanlığının kənarında qeydə alınan oroqrafik obyektlərdən biri ***Dərzili piri*** adlanır. ***Dərzili piri*** daş hərləməli nazik gövdəli ***dağdağan*** ağacından ibarətdir. ***Dərzili*** tayfa adıdır; XIX əsrin ikinci yarısında Zəngəzur qəzasında əsasən maldarlıqla məşğul olmuş ***Dərzili*** (*bəzi mənbələrdə adı* ***Tərzili*** *kimi də qeyd olunmuşdur*) adlı tayfa olmuşdur. Bu tayfanın əfşar və şahsevən qarışığı vardır.

Dəvə dərəsi – Şuşa rayonunun ərazisində qeydə alınmış dərə. Heyvan adları ilə əlaqədar yaranmış oronimlər Şuşa rayonu ərazisində də çoxdur. Onlardan biri də Malıbəyli kəndinin cənubunda yerləşən ***Dəvə dərəsi*** adlanır.

Dəvə kahası – Laçın rayonunda qeydə alınmış oronim.

Dəvə ölən dərə, **Dəvəbatan dərə** – Cəbrayıl rayonunun Xudaverdili kəndi ərazisində qeydə alınmış oroqrafik obyektlər.

Dəvəbatıran – Ağdam şəhəri yaxınlığında, Ağdamkənd ərazisində qeydə alınan ***Dəvəbatıran*** toponimi dəvələrin vaxtilə buradan keçərkən çökməsi, "*batması*" ilə əlaqədar olaraq belə ad almışdır.

Dəvəbatıran – Xocavənd rayonu ərazisində, rayonun Qaradağlı kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Dəvəbatıran*** adlanır.

Dəvəbatıran – Şuşa şəhəri ətrafında istirahət etməli, səfalı, təmiz havalı yerlər çoxdur. Onlardan biri də yerli əhali arasında ***Dəvəbatıran*** adlandırılan ərazidir. Şuşalılar və şəhərin qonaqları bu səfalı yerlərdə istirahət etməyi çox sevirdilər. Bu toponimin mənasını müxtəlif cür yözan araşdırıcılar var. İstirahət guşəsinin aşağısında yerləşən dərin dərə hətta, gövşəyən cütdırnaqlı iri dəvələri də **"***batırdığı***",** "*gizlədiyi*" üçün oronım belə ad almışdır...

Dəvəboynu – Qarabağ silsiləsinin ətəyində, Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 8 kilometr məsafədə qeydə alınan oroqrafik obyektlərdən biri də ***Dəvəboynu*** adlanır. Bəzi yerli məlumata görə, həmin ərazi xarici görünüş etibarı ilə ***dəvə boynuna*** bənzədiyi üçün belə adlandırılmışdır.

Dəvəboynu dağı – Xocavənd rayonunun ərazisində qeydə alınan dağ. Toponim "*dağın döşü ilə təpəsi arasının* ***dəvə boynuna*** *bənzər hissəsi*" mənasındadır.

Dəvəboynu dağı, Dəvədaş təpəsi – Laçın rayonunun ərazisində qeydə alınmış ***Dəvəboynu dağı*** coğrafi adı ***dəvə*** sözü ilə əlaqədar yaranmış oronimlərdəndir. Dağ ***dəvə boynuna*** bənzədiyi üçün belə adlanmışdır. Laçın rayonu ərazisində, Cağazur kəndi yaxınlığında qeydə alınan

Dəvədaş təpəsi böyük sal daşlardan ibarət olduğu üçün belə adlanmışdır. ***Dəvədaş təpəsi*** toponimi "*iri daşlı təpə*" mənası ilə izah olunur.

Dəvədaban dağı, dərəsi, təpəsi, çölü – Cəbrayıl rayonunun Hacılı kəndi ərazisində qeydə alınmış oroqrafik obyektlər.

Dəvəgözü dağı – Laçın rayonu ərazisində qeydə alınan coğrafi adlardan biri də ***Dəvəgözü dağı*** oronimidir. ***Dəvəgözü*** toponiminin tərkibindəki *dəvə* komponentini türk dillərindəki ***tava*** ("*bitkisiz, quru otlu yer*") sözü ilə də bağlayanlar var...

Dəvəölən – Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyekt.

Dəvəsurçan – Cəbrayıl rayonunun ərazisində, Dağ Tumas kəndindən 4 kilometr məsafədə, Şalın şərq hissəsində, Rəzgəyə gedən yolun sal qaya olan üstündə, dağətəyi ərazidə qeydə alınan oroqrafik obyekt ***Dəvəsurcan*** adlanır. Vaxtilə bu sal qaya üstündən keçən ***sürüşkən*** yolda ***dəvə*** sürüşüb (*surçub*) yıxıldığı üçün toponim el arasında belə ad almışdır. Qarabağ dialektinin xarakterik xüsusiyyətlərindən asılı olaraq ***sürüşən*** sözü yerli şivəyə uyğun olaraq el arasında bəzən ***surçan*** kimi işlədilir.

Dəvəuçan dərə – Laçın rayonunun ərazisində qeydə alınan oroqrafik obyekt.

Dəyə yeri – Füzuli rayonunun ərazisində, İşıqlı kəndi yaxınlığında qeydə alınmış coğrafi adlardan biri ***Dəyə yeri*** adlanır. ***Dəyə*** yeri toponimi "*bir gözlü keçə alaçıqlı sahə*" mənasındadır.

Dəyə yerı – Xocavənd rayonunun Muğanlı və Əmirallar kəndləri yaxınlığında qeydə alınmış coğrafi adlardan biri ***Dəyə yeri*** adlanır. ***Dəyə*** termini "*yonulmamış ağacdan, daşdan tikilən bir gözlü dam*" və ya "*keçə alaçıq*" anlamı ifadə edir.

Dəyhan dağı – Laçın rayonunda, Qarabağ silsiləsinin cənub-qərb ətəyində, rayon mərkəzindən 23 km cənub-şərqdə yerləşən dağ. ***Dəyhan* (*dəhan*)** sözünün "*cilov*" anlamı məlumdur. ***Dəyhan/dəhan*** fars dilində "*ağız*" mənasında da işlədilir. Toponimin adındakı "*y*" araya daxil olmuş bitişdirici samitdir. Ərazidəki ***Dəyhan kəndi*** iki dərənin ağzında yerləşdiyi üçün belə adlanmışdır. Kənd *Quzey Dəyhan* və *Güney Dəyhan* hissələrinə ayrılıb.

Dəyhan düzü – Laçın rayonunda, Qarabağ silsiləsinin cənub-qərb ətəyində, rayon mərkəzindən 23 km cənub-şərqdə yerləşən dağ. ***Dəyhan* (*dəhan*)** sözünün "*cilov*" anlamı məlumdur. ***Dəyhan/dəhan*** fars dilində "*ağız*" mənasında da işlədilir. Toponimin adındakf ***"y"*** araya daxil olmuş bitişdirici samitdir.

Dəyirman boyu – Füzuli rayonunun Dördçinar və Horadiz kəndləri arasında qeydə alınan oroqrafik obyektlərdən biri ***Dəyirman boyu*** adlanır. ***Dəyirman*** həm də Dördçinar kəhrizinin suyu ilə işləyirdi.

Dəyirman dərəsi – Ağdam rayonunun Maniklu kəndi ərazisində qeydə alınan oroqrafik obyekt.

Dəyirman dərəsi – Cəbrayıl şəhərinin girəcəyində, Turac pavilyonundan avtovağzala gedən dolanbac şose yolunun kənarında yerləşən, Hüseyn ağa kəhrizindən başlamış Yarəhmədli məhəlləsinin başlanğıcına qədər uzanan böyük çökək dərə ***Dəyirman dərəsi*** adlanırdı. Vaxtilə bu dərədə ***dəyirman*** olduğu üçün ərazi ***Dəyirman dərəsi*** adlanmışdır.

Dəyirman dərəsi – Xocalı rayonu ərazisində, Cəmilli kəndi yaxınlığında yerləşən dərə. ***Dərə*** – mənfi relyef ifadə edən termindir. Dərəyə orada vaxtilə ***dəyirman*** olması ilə əlaqədar belə ad verilmişdir.

Dəyirman dərəsi – Xocavənd rayonu ərazisində qeydə alınmış dərə.

Dəyirman dərəsi, Dəyirman yoxuşu – Laçın rayonunda, Suarası kəndi ərazisində qeydə alınan dərə. ***Dəyirman dərəsi,*** Fərraş kəndinin ərazisindəki ***Dəyirman yoxuşu*** oroqrafik obyektləri də ***dəyirman*** sözü ilə bağlıdır. ***Dəyirman dərəsi*** oronimi "*dəyirman yerləşən ərazidə dərə*" mənasındadır.

Dəyirman düzü – Laçın rayonunun Alxaslı kəndi ərazisində qeydə alınmış oroqrafik obyekt.

Dəyirman yalı – Cəbrayıl rayonunun Xudaverdili kəndi ərazisində qeydə alınmışdır. ***Dəyirman yalı*** oroniminin tərkibindəki ***yal*** coğrafi termini müsbət relyef forması ifadə edir.

Dəyirman yoxuşu – Laçın rayonunun Fərraş və Suarası kəndləri ərazisində qeydə alınan oroqrafik obyektlər. ***Dəyirman yoxuşu*** oronimi "*dəyirman yerləşən ərazidəki yoxuş*" mənasındadır.

Dəyirmantəpə – Ağdam rayonunun Göytəpə kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Dəyirmantəpə*** adlanır. Dəyirmanlar adətən su hövzələri yaxınlığında tikilir.

Dəyirmantəpə dağı – Füzuli rayonu ərazisində, Araz çayının sahilində yerləşən dağ ***Dəyirmantəpə dağı*** adlanır. *Dağa* ***Dəyirmantəpə*** toponiminin adının verilməsi dağın ətəyində keçmişdə **dəyirman** tikilisi olması ilə əlaqədardır.

Dəyirmanyanı qobu, dərə, köbər, təpə – Bu oronimlər Laçın rayonunun ***Dəyirmanyam kəndi*** ərazisində qeydə alınmışlar. ***Qobu -*** monqol mənşəli coğrafi termin olub, mənfi relyef forması bildirir. Dialektlərimizdə ***qobi, kobı, qovu, qobi*** formasında tələffüz olunan ***qobu*** sözü "*dərə*", "*su basan yer*", "*çökəklik*", "*quru dərə*" və s. mənalardadır. ***Köbər*** termini,"*dik yer*, *dikdir*, *hündür*, *yer*" mənasındadır. ***Təpə*** coğrafi termini də müsbət relyef formasını bildirir. Bu oronimlər

Dəymədərə – Cəbrayıl rayonu ərazisində qeydə alınmış oroqrafik obyekt. ***Dəymə*** termini oronimiyamızda adətən maldarlıqla əlaqədar olaraq işlədilir. Türk dillərində ***"daima, dayma, dəymə"*** – "*heyvanın, əsasən qaramalın gecələr yatması üçün yer*", "*heyvan üçün yataq yeri*", "*heyvan saxlanan dərə*" mənası kəsb edir. "*Mal-qaranın dağ ətəyində saxlandığı yer*" ***dəymə*** adlanır.

Dırbanabənd – Xocavənd rayonunun ərazisində, rayon mərkəzindən 43 kilometr məsafədə, Quruçay vadisində, Tuğ kəndinin 3 kilometrliyində, Salakətin kəndi istiqamətində, Qarabağ silsiləsinin ətəyində qeydə alınan coğrafi adlardan biri də ***Dırbanabənd*** oronimidir. ***Dırbanabənd*** sözünü müxtəlif cür izah edən araşdırıcılar var. Coğrafi adın tərkibindəki ***dır*** sözü ərəb dilində "*məbəd, monastr*" mənasındadır. ***Dırbanabənd*** toponiminin tərkibindəki ***bənd*** komponentini ***vənd*** ("*törəmə*", "*nəsil*") formantı kimi izah edənlər də var.

Dib taxta – Laçın rayonunun ərazisində, Güləbird kəndi yaxınlığında qeydə alınan coğrafi ad ***Dib taxta*** adlanır. Toponim "*lap dərinlikdə hamar sahə*" anlamındadır.

Dübəkli dərə – Laçın rayonunun Güləbird kəndi ərazisində qeydə alınan oronimlərdən biri də ***Dibəkli dərə*** coğrafi adıdır. ***Dübək*** sözü "*həvəngdəstə*" və ya "*çəltik döymək üçün yerdə qazılmış çala*" mənasındadır. Toponim bir qədər təhrifə uğrayıb. Yerli məlumata, görə, toponim "*çiçəkli dərə*" mənasındadır.

Dibətli dağı – Qarabağ silsiləsində, Böyük Kirs dağının cənub-qərbində, Xocavənd rayonu ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri də ***Dibətli dağı*** adlanır. Dağın hündürlüyü 2140 metrdir. Əslində oronimin adı ***Dübəkli*** formasında yazılmalıdır. ***Dübək*** – duz, yarma, çəltik və s. döymək üçün içi oyulmuş daş və ya kötüyə deyirlər. Yaylaqda daşlardakı təbii oyuqlardan

heyvanlar üçün yem qabı kimi də istifadə edilir. Dağda belə təbii oyuqlar olduğuna görə o, ***Dübəkli*** adını almışdır.

Dik daş – Cəbrayıl rayonunun Qalacıq kəndi yaxınlığında qeydə alınmış oronimlərdən biri ***Dik daş*** adlanır. Bəzən adını ***Dikdaş*** formasında da yazırlar. *Soyqırım qurbanları təpəsi* də bu ərazidədir. Oronim ***dik*** və ***daş*** sözlərindən ibarətdir. ***Dik*** termini oronimiyada "*aşağıdan yuxarıya doğru şaquli istiqamətdə uzanan hündür sərt yoxuş*" mənasını bildirir.

Dik göyrüşlü – Kərkicahan qəsəbəsinin ərazisində, qəsəbədən 2 kilometr məsafədə, Qarabağ silsiləsinin ətəyində qeydə alınan oroqrafik obyektlərdən biri ***Dik göyrüşlü*** adlanır. ***Göyrüş*** (*bəzən adına* ***vən*** *də deyirlər*) zeytunkimilər fəsiləsindən olan ağac cinsidir.

Dik qaya – Cəbrayıl rayonunun ərazisində, Dağ Tumas kəndinin 5 kilometrliyində, Dəyirman yolunun Böyük Gava dönən hissəsinin üstündə, gündoğan qayalıq ərazidə yerləşir. ***Dik qaya*** sərt sıldırım sal daşdan ibarət dağdır. ***Qaya*** – "*sıra dağlardan ayrılmış qol*" və ya "*dağların müəyyən hissəsində çətin keçilən yer*" anlamındadır.

Dik yer – Kərkicahan qəsəbəsinin yaxınlığında qeydə alınan oroqrafik obyekt.

Dikdaş – Füzuli rayonunun Mollavəli kəndi yaxınlığında qeydə alınıb.

Dikdaş – Qarabağ silsiləsi yamacında, Xocalı rayonu ərazisində iri qaya, daş parçası. Bu ***daş*** oradakı ***dik*** daşın, qayanın adı ilə əlaqədar olaraq belə adlanmışdır.

Dikdaş dağı – Kəlbəcər rayonunda qeydə alınmış dağın adıdır. ***Dikdaş dağı*** yaxınlıqda yerləşən ***Dikdaş*** adlı oroqrafik obyektə görə belə adlandırılmışdır.

Dikgüney dağı – Kəlbəcər rayonu ərazisində qeydə alınan coğrafi adlardan biri də ***Dikgüney*** dağıdır. ***Güney*** sözü qədim türk dillərində ***"****cənub****"*** deməkdir.

Dikpilləkən dağı – Kəlbəcər rayonu ərazisində, Qarabağ vulkanik yaylasında, Azərbaycan ilə Ermənistan sərhəddində yerləşən dağ. *Dikpilləkən dağı* ***dik*** yoxuşlu olduğuna, ***pilləkənə*** oxşadığına görə belə ad almışdır.

Diktəpə – Laçın rayonunun Cağazur kəndi ərazisində qeydə alınan yüksəklik.

Dikyurd dağı, Dikgüney dağı – Laçın rayonunun Kamallı və Soyuqbulaq kəndləri yaxınlığında qeydə alınan yüksəkliklər. ***Dikyurd -*** "*dik yerdə, hündür, sərf yoxuşda yerləşən yurd, məskən*" mənasındadır. ***Dikgüney dağı*** güneyin ***dik*** olmasına görə belə ad almışdır.

Dilağarda damı – Xocavənd rayonunun ərazisində, Xocavənd rayonu ilə Füzuli rayonunun sərhədində qeydə alınan oroqrafik obyektlərdən biri də ***Dilağarda damı*** adlanır. ***Dilağarda*** oykonimi həmin ərazidə qeydə alınan və Füzuli rayonunun tabeliyində olan yaşayış məntəqəsidir. ***Dilağarda damı*** həmin kənddən bir qədər aralıda yerləşdiyi üçün belə adlandırılmışdır. Toponimin tərkibində iştirak edən ***dilağarda*** sözü qədim ***qaraqoyunlu*** tayfa ittifaqına daxil olan ***dilağarda*** tirəsinin adı ilə əlaqədardır. Tarixi sənədlərdən məlum olur ki, ***dilağardalılar*** əvvəllər Cənubi Azərbaycan və Talış zonalarında yaşamışlar. Onlar yayı Talış silsiləsində, qışı isə Cənubi Azərbaycan (*Muğan*) ərazisində keçirirdilər. Dilağardalıların bir hissəsi XV əsrin sonlarında Ağqoyunlu zülmünə görə Araz çayını keçərək indiki Füzuli rayonunun ərazisində məskunlaşmışlar. Həmin tayfanın müəyyən bir hissəsi də 1820-ci ildə Füzuli rayonunun ərazisində məskunlaşmışdır. Mənbələrdən məlum olur ki, ***dilağardalılar*** II Rusiya – İran müharibəsində çar qoşunlarına qarşı mübarizə aparmış, döyüşlərdə rus qoşunlarına ciddi ziyan vurmuşlar. Rayonun ərazisində ***Dilağarda sırtı*** adlı toponim də qeydə alınmışdır.

Dilağarda Qaradamı – Füzuli rayonunun ərazisində qeydə alınmış oronim. **Qaradam** tipli binalar bütün Qafqaz xalqları arasında, o cümlədən də, Qarabağda geniş yayılmışdır. ***Dilağarda*** kəndindəki 2 otaqlı **Qaradam** tipli tikili bu ərazidə geniş yayılmış növlərdən hesab olunur. Belə ***damların*** geniş yayılmasının ən başlıca səbəbi ev sahibinə məxsus olan heyvanların başqa adamlar tərəfindən oğurlanması təhlükəsinin qismən aradan qaldırılması idi.

Dilağarda sırtı – Füzuli rayonunun ərazisində qeydə alınan coğrafi adlardan biri ***Dilağarda sırtı*** adlanır. Bu yüksəklik (***sırt***) ***Dilağarda kəndinin*** arxasında yerləşdiyi üçün belə adlandırılmışdır.

Dilağarda sırtı – Xocavənd rayonunun ərazisində, Xocavənd rayonu ilə Füzuli rayonunun sərhədində qeydə alınan oroqrafik obyektlərdən biri də ***Dilağarda sırtı*** adlanır. Toponimiyada ***sırt*** termini "*yüksəklik*" mənasında işlədilir. ***Dilağarda sırtı*** toponimi "*Dilağarda yüksəkliyi*" anlamını ifadə edir. Dəyirmi zirvələri və az meyilli yamacları olan təpəliklərin, eləcə də geniş dərələrin növbələşməsi ilə səciyyələnən, sərt eroziya ilə parçalanmış uzunsov yüksəklik ***sırt*** adlanır.

Dilağardatəpə – Füzuli rayonunun mərkəzindən 12 km şimalda, Qarabağ silsiləsi ətəklərində dağ.

Diridağ – Cəbrayıl rayonunun cənub**-**qərb ərazisində, Araz çayının sol sahilində qeydə alınmış dağ. Ərazidə ***Diri*** kəndinin (*kənd öz adını bu dağın adından götürmüşdür*) və qalasının xarabalıqları hazırda da qalmaqdadır. XVI yüzillikdə yaşayıb-yaradan *Dirili Qurbani* və məşhur Aşıq Surxay (*Dirili Surxay*) Bəyalı oğlu (1902 - 1945) bu kənddəndirlər. Qəbirləri də dağın ətəyindədir. Ərazidə Qurbani çağından qalma çoxlu nişanələr vardır. Aşıq Qurbaninin buta aldığı yer indi *Qurbanlı piri* kimi məşhurdur. Əski *Mazan nənə ocağı* Diri kəndinin sığınacaq yeri olub. Bəziləri (*Ə.Fərzəli və başqaları*) bu sözün ilkin formasının ***tirikan, tiriq, tiri*** olması qənaətindədir. Şumer-türk mənşəli ***diri*** sözü "*həyat*", "*dirilik*" mənası verən ***tir***, ***tiri*** sözlərindən əmələ gəlib. Bir çox tədqiqatçıların fikrincə, ***Diridağ*** toponimi özündə Qafqaz Albaniyasında erkən orta əsrlərdə mövcud olmuş ***Tri*** əyalətinin və ya eyniadlı qalanın, yaxud monastırın adını əks etdirir. "*Orxan – Yenisey*", "*Gültəkin*" və "*Bilgə xan*" abidələrində "*diri*" sözü tirik kimi qeyd olunur. ***Diri*** (***Tiri***) qədim türk sözünün "*sağlam, canlı, diri*" mənaları da vardır. ***Tiri - Diri*** sözləri arasında ***t-d*** səs əvəzlənməsi tarixi şəraitlə əlaqədardır. ***Tri***, ***Tiri*** və ***Diri*** toponimləri eyni mənşəlidir. M. Kalankatuqlu "*Albaniya tarixi*" əsərində ***Diri*** terminini Albaniyanın bir əyaləti kimi işlətmişdir. XVIII əsrdə Azərbaycana gəlmiş alim **-** səyyah A.Oleari öz əsərində "***diri***" sözünü "***tiri***" kimi işlətmişdir. Görkəmli, alim-səyyah K.Bruin də əsərində ***Diri*** sözünü ***Tiri*** şəklində vermişdir. Yaxın zamanlara qədər xalq dağın adını ***Tiri*** şəklində işlədirdi. ***Diri*** toponimi "*dirilik yurdu*" mənasındadır. Dağın adı güman ki, onun gözəl təbiəti, saf havası ilə bağlıdır.

Dirili Surxayın dəyirmanı – Cəbrayıl rayonu ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri də ***Dirili Surxayın dəyirmanı*** adlanır. Coğrafi adın tərkibindəki ***Dirili*** sözü ***Diri*** kəndinin adı ilə bağlıdır. Cəbrayıl bölgəsinin ***Xudayarlı*** oymağında dünyaya göz açan ***Dirili Surxay Bəyalı oğlu*** (1902 – 1945) məşhur el sənətkarı olmuşdur.

Div dərəsi – Cəbrayıl rayonunun ərazisində qeydə alınan maraqlı toponimlərdən biri ***Div dərəsi*** adlanır. ***Div dərəsi*** coğrafi adı mövhumi bir varlıq olan ***div*** surəti ilə əlaqədar yaranmışdır. Bu tipli coğrafi adlar Şərq xalqlarının, o cümlədən, azərbaycanlıların folklorunda qaranlıqla bağlı mənfi surət və ya xəbis ruh olan ***Div*** (***Dev***) ilahi məxluqunun adı ilə bağlıdır. ***Div*** zərdüştiliyin yayıldığı ərazilərdə yaşayan xalqların ədəbiyyatında, o cümlədən də Azərbaycan folklorunda mənfi surətə çevrilmişdir.

Div mağarası – Füzuli rayonunun ərazisində, Qacar kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri də ***Div mağarası*** adlanır. ***Mağara*** - yer qabığının üst qatında yer səthindən bir və ya bir neçə girişi olan iri boşluqdur. Yerli məlumata görə bu daşı buraya ***div*** atıb. Əlbəttə bu, əsatirlə, miflə bağlıdır.

Divanə-Maqsud ocağı – Cəbrayıl rayonunda, Şükürbəyli kəndinin ərazisində, qəbiristanlıqdan 200 metr aralıdakı kiçik təpə üzərində qeydə alınmışdır. Bu ***ocaq*** hərləmə hasardan və içərisində eni 30 sm, hündürlüyü 70 sm olan büt daşdan ibarətdir. *Ocaq* **Maqsud** adlı ürfan sahibinin məqam yeri hesab edilir.

Divlər dərəsi – Cəbrayıl rayonunun ərazisində, Dağ Tumas kəndi yaxınlığında, kənddən 1,5 – 2 kilometr şərqdə, Böyük Şələlədən 45 metr cənubda, İncəçayın Nəfəsli dərə vadisində qeydə alınmışdır. Oronim burada ibtidai insan məskənindən xəbər verir. Xalq etimologiyasına görə, vaxtilə bu ***dərə*** ərazilərində ***divlər*** məskən salmış və elə ona görə də bu oronim belə ad almışdır...

Divlər mağarası, **Divlər sarayı** – Cəbrayıl rayonunun Dağ Tumas kəndi yaxınlığında, kənddən 2 kilometr şərqdə, dağətəyi ərazidə, dəniz səviyyəsindən 870 metr yüksəklikdə qeydə alınan oroqrafik obyektlərdən biri ***Divlər mağarası*** və ya ***Divlər sarayı*** adlanır. Bu "***mağara-saray***"ın uzunluğu 30 metrdir. ***Div***, ***mağara*** və ***saray*** sözləri göstərir və sübut edir ki, *mağara-sarayın* yerləşdiyi ərazilərin ən qədim sakinləri türkdilli etnoslar olmuşdur.

Dizaq mahalı – Vaxtilə Yuxarı Qarabağda mövcud olmuş mahal. ***Dizaq mahalı*** uzunluğu Əkərə (*Həkəri*) çayı və Kültəpədən başlayaraq Maltəpəyə qədər, eni Araz çayından Xurat dağına kimi olan əraziləri əhatə edirdi. Bu ərazilərdə əsasən pambıq, taxıl, çəltik əkilir və baramaçılıqla məşğul olunurdu. ***Dizaq mahalı*** güneydən *Xırda-para Dizaq*, günbatandan *Dizaq-Cəbrayıllı*, quzeydən *Vərəndə*, gündoğandan *Cavanşir-Dizaq* mahalları ilə həmsərhəd olmuşdur. ***Dizaq*** mahalının başkəndi ***Tuğ şenliyi*** idi. 1593-cü ilə aid olan Osmanlı qaynağında ***Dizaq mahalı*** haqqında bilgilər vardır. Həmin sənədə görə, ***Dizaq*** qəzasında *Tuğ, Babı, Kasaban, Təllavəş, Mərəxatun, Sərdarlı, Şəkərli (Qaraköpək), Balaqan, Hadurut, Vəng, Hatək, Sərdərli, Vaklaşəkak, Süleymanlı, Xoşvağt, Əhmədli, Qoçəhmədli, Cuvarlı, Ərəkül, Balatır, Kavdar, Axırlı, Xzatın Əmirbəyli, Kürazar, Qışlaq məzrəsi, Saraycıq, Sitaruz, Atağud, Qaradərə, Qarabulaq, Dədəli, Kurda, Sızık, Öz avullu, Türkeş, Benazur, Kaballı, Sələkətün, Mülküdərə, Düdükçü, Dağ Pərixan, Rəfəddinli, Cəbrayıllı, Aşağı Cəbrayıllı, Zamzur, Tuması, Dərəyi Pətəklan, Azuq, Könül şadlı, Haqulu, Çavdar, Məhəmmədazur, Baysunqur, Dağ Tənki, Pirəhmədli, Məlikcan, Qarğabazarı, Nərdivan (Bərdivan), Xanəhmədli (Nəhri-Cədid), Rəbət, Bayrambəy, Xırmancıq, Tunc, Qılıçbəy timarı, Balxoş, Güzlək, Gorrazı, Xudayi-Müsəlmanan, Xudayi-Əramina, Çəkənur, İstabuzlar, Misak, İsmayıllı, Kamallı, Qonan məzrəsi, Arış, Tatar Eliriz, Çiraquz, Bosus, Deyrixantik (Aydın), Oxçu Bərəkətli, Xatınbulağı, Əsxan, Qaraçalı, Qırdə meşə, Keçi dərə, Köçkəbə, Təsbik, Naxçuvanik, Daşkəsən, Salxan, Kuxin, Tağ, Qarakəlli, Zülfüqarlı, Balyand, Şeyx Qaybi (Tatarlı), Tell övlili, Bükrəköç, Tərxanlı, Xələfşahlı qışlağı, Yaycılı, Mərdəmeşkin, Leylə, Qəzənfərabad, Əstərabad, Siyavşan, Ətməkdərə, Butacıq (Qorqan), Boyu dərə, Horadiz, Gücə, Molla Zahidli, Tülkü Suyuncaq, Yaşılənbər, Gülbar, Kələgü, Qalakəndi, Ağgeniş, Yaqublu, Heyvalıq, Cəltelli, Mollavəlili, Zülfüqarlı, Başə* kəndlərinin adı çəkilmişdir. Səfəvilər dönəmində ***Dizaq*** qəzasının və nahiyəsinin kəndləri Osmanlı qaynaqlarında qeyd olunanlar ilə eynidir. ***Dizaq qəzası*** XVII əsrin sonlarında ləğv olunub. Qarabağın valisi, İbrahim paşa, ondan sonra isə Əli paşa oldu. 1727-ci ildə Sultan III Əhmədin fərmanı ilə Dizaq nahiyəsinə hakim təyin olunur. Az sonra "*Vergi dəftəri*" – "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" hazırlanır. Bu dəftərdə inzibati ərazi vahidi kimi ***Dizaq*** artıq ***nahiyə*** kimi qeyd olunur. Həmin "*Dəftər*"ə əsasən ***Dizaq*** nahiyəsində qərar tutan kəndlər bunlardır: *Tuğ, Kütülparaq, Tağan, Cəbrayıllı, Daşkəsən, Haderud, Sur, Məhəmmədazur, Benazur, Köndələn, Ədilşah, Atayud, Həkəki, Köşbək, Azuq, Sələkətün, Hoğa, Siyavuşan, Doqquzpərçim (Gərşimli, Qızoğlan məzrələri), Düdükçü, Süleymanlı, Susalıq, Tomu, Hetas, Həknüd, Kamallı, Zamazur, Qaç, Eydilli, Dərəaxunlu, Kəmərəköç, Ağcakənd, Hərəkin (Qaradağlı, Soyuqaş arxları), Pirəhmədli, Əriş, Qoçəhmədli, Cərəguş, Seyidli, Təğasir, Meticahan (qışlaqlar), Tumaslı, Əhmədli,*

Güzlək-Gorrazı, Şeyxlər, Qaraxatunabad, Qarabulaq qışlağı, Bayram, Rabat, Qaradağlı məzrəsi, Rəfəddinli, Xanəhmədli, Qorğan qışlağı, Ziyad qışlağı, Pasiban, Şahpirili, Qarğabazarı, Horədis, Biləqan, Ləbgünəş, Cuvarlı, Xoşvaxt, Sirikli, Deyrhətik, Ərcəğur, Murğuzlu, Maralyan, Əyri, Konan, Kürzanlı, Dövlətyar, Xələfşahlı, Məzrə, Bulataq, Oxçu, Xırdaxaç, Namxoş, Həkərim (Çəkəri), Xırmancıq, Məklədərə (Mülkədərə), Nurkişi, Zimmi Çoğay, Vəng, Manik, Nureşin, Məlikcan, Çimənək. 1797**-**ci ildə İran şahı Ağaməhəmməd şah Qovanlı**-**Qacarın Qarabağa yürüşündə onun viran etdiyi mülklərin siyahısında ***Dizaq*** mahalına bağlı olan kəndlər də vardır. ***Dizaq nahiyəsi*** xanlıq dönəmində ləğv edilib. Nahiyənin kəndləri *Dizaq, Xırdapara- Dizaq, Cavanşir-Dizaq, Dizaq-Cəbrayıllı* mahalları arasında bölünüb. Dizaq mahalını məliklər idarə edirdilər. Məlik mahalın başkəndi ***Tuğ*** şenliyində əyləşirdi. Məliklik vəzifəsi atadan oğula irsi keçirdi. *Rusiya-İran* müharibələrində ***Dizaq mahalı*** və onun başkəndi olan ***Tuğ kəndi*** tapdaq yeri olmuşdur. ***Dizaq*** sözünun mənası "*qala*", "*qalaça*" deməkdir. ***Dizə*** sözü Qədim İran dillərində "*qala*" anlamını ifadə edir. Bəzi araşdırıcılar (*professor Ə.Dəmirçizadə və başqaları*) ***Dizaq*** sözünü ***Duzlaq*** sözünün təhrif olunmuş forması kimi izah edirlər. Bəzi yerli əhali də bu fikri qəbul edir. Belə bir fikir də var ki, ***Dizaq*** adını Orta Asiyadan gəlmiş türk tayfaları gətirmişlər.

Dizaq məlikliyi – Orta əsrlərdə Qarabağın dağlıq hissəsində yaranmış kiçik feodal hakimliyi ***Dizaq məlikliyi*** adlanırdı. Səfəvilər dönəmində ***Dizaq*** məlikliyinin ərazisi ***Qarabağ*** bəylərbəyiliyinə daxil idi. ***Dizaq məlikliyi*** XVIII əsrin ortalarında Qarabağ xanlığının vassallığına çevrildi. Ağa Məhəmməd şah Qacarın Qarabağa yürüşü zamanı ona inadlı müqavimət göstərmiş Qarabağ dəstələri tərkibində ***Dizaq məlikliyi*** əhalisnin nümayəndələri də var idi. ***Dizaq məlikliyi*** 1813**-**cü ildə Qarabağ xanlığının tərkibində Rusiyaya birləşdirilmişdir.

Dizaq-**Cəbrayıllı mahalı** – Tarixi sənədlərdə göstərilir ki, vaxtilə Qarabağ xanlığı Şuşa şəhərindən və ***25*** mahaldan ibarət olmuşdur. Bu mahallardan biri də ***Dizaq-Cəbrayıllı mahalı*** idi. O, şimaldan, Dizaq mahalı, cənubdan Araz çayı, qərbdən Bərgüşad mahalı, şərqdən Xırdapara**-**Dizaq mahalı ilə əhatə edilmişdi. ***Dizaq-Cəbrayıllı mahalı*** Dizaq qəzasının ərazisində yaranmışdır. *Mahal* öz adını ***Cəbrayıllı*** elindən almışdır. ***Cəbrayıllı eli*** orta əsrlərdə Əhmədli elinin oymaqlarından biri sayılırdı. *1593*-cü ilə aid olan Osmanlı qaynağında Cəbrayıllı oymağının 2 kənddən ibarət şenlik olması göstərilmişdir. *1727*-ci ilə aid olan Osmanlı qaynağında isə ***Cəbrayıllı*** oymağı 1 kənd kimi göstərilir. ***Cəbrayıllı eli 18*** oymaqdan (*Yarəhmədli, Hasanlı, Hacılı, Maşanlı, Eyvatlı, Mirəkli, Veysəlli, Mirzəcanlı, Fuğanlı, Mahmudlu, Çərəkənli, Məzrəli, Alıkovxalı, Hərəküllü, Şayıflı, Hafizli, Çullu, Əhmədli*), ***12*** obadan (*Feyzullabəyli, Cəfərağalı, Hüseynbəyli, Kazımağalı, Əbdürrəhmanbəyli, Məlikağalı, Əhmədağalı, Əliəfəndi, Abdullabəyli, Maqsudağalı, Əliağalı*) ibarət idi. ***Dizaq*** sözünun mənası "*qala*", "*qalaça*" deməkdir. ***Dizə*** sözü Qədim İran dillərində "*qala*" anlamını bildirir.

Dizodağ – Kəlbəcər rayonu ərazisində, İstisu qəsəbəsinin cənub-şərqində yerləşən dag. Bu dağın adı azacıq təhrifə uğramışdır. Belə ki, dağın adı əslində ***Dizədağ*** olmalıdır. ***Dizə -*** fars dilində "*qala*" deməkdir. ***Dizodağ*** toponimi "*qala dağ*", "*qalalı dağ*" mənası bildirir.

Doqquz donluq təpə – Kəlbəcər rayonu ərazisində, Pirilər kəndinin qərb hissəsində dağətəyi ərazidə yerləşir. ***Doqquz donluq təpə*** oronimının tərkibindəki ***doqquz*** sözü oradakı təpələrin sayı mənasındadır. ***Donluq*** komponenti isə çox güman ki, təpələrin bir-birindən aralı olan məsafəsini bildirir. ***Doqquzdonkimilər*** adlı ikipilləli, yamacları qarşı-qarşıya düzülmüş, çoxu kol və ya ağac, bəzi növləri isə ot olan bitki fəsiləsi də vardır.

Doqquzdərə, Doqquzdərə köbəri – Füzuli rayon mərkəzindən 9 kilometr cənubda yerləşir. Oronimlərin xarakterik xüsusiyyətlərindən biri də onlarda say bildirən sözlərin geniş işlənməsidir.

Doqquzdərə, ***Doqquzdərə köbəri*** rayonun Saracıq kəndi yaxınlığında qeydə alınıb. ***Köbər*** sözü *"dikyer", "dikdir"* mənasındadır.

Dolanlar məbədi – Xocavənd rayonunun Dolanlar kəndi ərazisində qeydə alınmış tarixi memarlıq abidələrindən biri ***Dolanlar məbədi*** adlanır. Bu memarlıq abidəsi bir qisim tədqiqatçılar tərəfindən orta əsr (XII-XIV əsrlər) abidəsi hesab olunur. Məbədin ərazisində aparılan qazıntı işləri zamanı buradan müxtəlif tarixi dövrlərə aid nümunələr aşkar edilmişdir. Məbədin ***Dolanlar*** adlanması ərazidəki *Dolanlar* kəndinin adı ilə əlaqədardır.

Domı turşsuyu – Xocavənd rayonunun Domı kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri ***Domı tuşsuyu*** adlanır. Bu hidronim ***Domı kəndi*** ərazisində yerləşdiyi üçün belə adlanmışdır. ***Domı turşsuyu*** Qarabağ ərazisində güzəl istirahət guşələrindən biri hesab olunurdu.

Dotələb (*Dabtələb*) dağı – Şuşa şəhərinin şərq tərəfində, rayon mərkəzindən 2 kilometr məsafədə, Qarabağ silsiləsində yerləşir. **Dotələb** dağının adı bəzi sənəd və materiallarda ***Dovtələb***, ***Dabtələb*** kimi də qeyd edilmişdir. ***Dotələb dağı*** o qədər də hündür deyil. Bir qisim araşdırıcılar oronimin ***Dotələb*** adlanmasını müxtəlif mövqedən əsaslandırmağa çalışırlar. Bəzi tədqiqatçılar bu toponimi ***do***/***du***/***dü*** və ***tələb*** komponentləri ilə izah edirlər. ***Du*** – fars dilində *iki* deməkdir. Dotələbin şəhərə baxan tərəfindən yol qurtaran yerdə həmin nəqliyyat yolu iki istiqamətdə davam edir. Toponimin tərkibindəki ***do*** komponentini ***dov*** (farsca "*qaçış*" deməkdir) ilə də bağlayanlar var. Xanlıq zamanı hamar olan ***Dabtələb*** dağında pəhləvanlar qurşaq tutub güləşərmişlər. Buna görə də, bu ***dağ*** "*Hünər meydanı*" kimi məşhur idi.

Dovşan dərəsi – Laçın rayonunun ərazisində qeydə alınan dərə.

Dovşan dərəsi – Zəngilan rayonunun ərazisində qeydə alınmış oroqrafik obyektlərdən biri ***Dovşan dərəsi*** adlanır. Vaxtilə həmin dərədə çoxlu ***doğşana*** rast gəlindiyindən oronim belə adlandırılmışdır.

Dördçinar bağı – Fuzuli rayonunun Horadiz və Dördçinar kəndi yaxınlığında qeydə alınmış oroqrafik obyekt. ***Bağ*** yaxınlıqdakı ***Dördçinar*** kəndinin adı ilə əlaqədar olaraq belə adlanmışdır.

Dördçinar güneyi – Füzuli rayon mərkəzindən 17 km cənub-şərqdə, Horadiz kəndinin ərazisidə, dağətəyi sahədə qeydə alınan coğrafi ad. Oronimin tərkibindəki ***Dördçinar*** sözü kənd adını ifadə edir. ***Güney*** sözü coğrafi termin kimi ancaq türkdilli ölkələrdə işləndiyindən başqa dillərə tərcümə olunmur...

Dördqardaş dağı – Laçın rayonunun Ayıbazar kəndi ərazisində qeydə alınan oronimlərdən biri ***Dördqardaş dağı*** adlanır. Dağlar biri-birinə yaxın yerləşdiyinə görə toponim belə ad almışdır.

Dördtəpə dağı – Ağdam rayonunun ərazisində, Cəvahirli kəndi yaxınlığında qeydə alınan oronim ***Dördtəpə dağı*** adlanır. ***Dağ*** onu əhatə edən təpələrin sayına görə ***Dördtəpə*** adlanmışdır.

Dördtəpə dağı – Füzuli rayonunun ərazisində yüksəkliklərdən biri ***Dördtəpə dağı*** adlanır. ***Dördtəpə dağı*** saya görə adlandırılan oronimlərdəndir.

Dreydin dərəsi, Dreydin qayası – Kərkicahan qəsəbəsinin 6, Kosalar kəndinin isə 2 kilometrliyində qeydə alınmış oroqrafik obyektlər. ***Dərə*** coğrafi termini mənfi, ***qaya*** termini isə müsbət relyef formasını bildirir. Bu toponimlərin izahı ilə bağlı müxtəlif fikir və mülahizələr vardır...

Dullar məhəlləsi – Füzuli rayonunun Horadiz qəsəbəsində qeydə alınan məhəllələrdən biri ***Dullar məhəlləsi*** adlanır. Adından da göründüyü kimi, bu ***məhəllədə*** əsasən ***dul*** qalmış adamlar yaşadığı üçün kənd əhalisi arasında məhəllə ***Dullar məhəlləsi*** adını almışdır. Böyük Vətən müharibəsi illərində həmin məhəllənin kişi sakinləri cəbhədən qayıtmadıqlarına, onların həyat yoldaşlarının ***dul*** qaldıqlarına görə yerli əhali məhəlləni belə adlandırmışlar.

Dum – Şuşa rayonunda, Malıbəyli kəndinin kənarında qeydə alınmış oroqrafik obyekt belə adlanır. Adı əslində ***Dom*** olmalıdır. XIX əsrdə tikilmişdir. "***Zayejniy dom***"lar rusların Azərbaycanda, eləcə də, Qarabağda işğal etdikləri ərazinin idarə olunması üçün düşündükləri müxtəlif çoxsaylı vasitələrdən biridir. Yerli əhalinin dilində "*Zayejniy dom*" ifadəsi əvvəlcə "*Zayejnidum*"a çevrilmiş, sonralar "*Zayejniy*" komponenti atılaraq elə ***Dum*** şəklində işlənmişdir. 1905-ci ildə olan hadisələr zamanı ermənilər tərəfindən yandırılan "*Dum*"un binası çox sonralar təmir edilərək kolxoz anbarı kimi istifadə olunmuşdur. Şura hökumətindən (*Böyük Oktyabr Sosialist İnqilabı*) əvvəl ***Dum*** həm də müvəqqəti həbs otağı olmuşdur. Belə bir lətifə söyləyirlər ki, Malıbəylinin son yüzbaşısı Səlim bəy bir gün Məşədi Cümşüdü (xanəndə Cümşüd, Həmid Malıbəylinin, Əsgərin qardaşı) bir neçə yoldaşı ilə qumar oynadıqları üçün "*Düm*"a salır. Bir neçə saatdan sonra burada hələ çox saxlanacağını başa düşən Cümşüd xanəndə rəqibi Məşədi Teymurun yaşadığı məhlədəki səsizliyə işarə edərək deyir: "*Görəsən Hamam məhləsi bilmir ki, Məşədi Cümşüdü Duma salıblar?*"

Duzdağ – Kərkicahan qəsəbəsi ərazisində, qəsəbənin 1 kilometrliyində, Qarabağ silsiləsinin ətəyində qeydə alınan oroqrafik obyektlərdən biri ***Duzdağ*** adlanır.

Duzdağ yalı – Laçın rayonunun Vağazin kəndi ərazisində qeydə alınmışdır. ***Duzdağ*** (***Duzdax***) - "*şoran yer*", "*şoran torpaq*" mənasındadır.

Duzlaq yeri – Xocavənd rayonunun ərazisində, rayonun Hadrut qəsəbəsi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri də ***Duzlaq yeri*** adlanır.

Düldül – Şuşa rayonunun Malıbəyli kəndi ərazisində qeydə alınmış oroqrafik obyekt ***Düldül*** adlanır. Toponimin belə adlanması yerli əhali arasında Həzrət Əlinin ***Düldül*** atının izinin guya orada olması inamı ilə bağlıdır.

Düldül ocağı – Cəbrayıl rayonunun ərazisində, Diridağın ətəyində qeydə alınmışdır. Oronim məşhur ***Düldül*** atın adı ilə bağlıdır. Rəvayətə görə, guya İmam Əlinin sevimli atı ***Düldülün*** burada ayaq izləri varmış...

Düldül piri – Cəbrayıl rayonunun Veysəlli kəndi ilə Xudaverdi kəndi arasında qeydə alınan oroqrafik obyektlərdən biri ***Düldül piri*** adlanır. ***Düldül*** İmam Əlinin atının adıdır.. Bu ***pir*** haqqında müxtəlif rəvayətlər, əfsanələr qoşulmuşdur.

Düldül rəddi – Cəbrayıl rayonunun ərazisində qeydə alınmış oroqrafik obyekt. Azərbaycan ərazisində Həzrəti İmam Əlinin əfsanəvi ***Düldül*** atı ilə bağlı çoxlu sayda ***Düldül rəddi*** oroqrafik obyektlər qeydə alınmışdır. Cəbrayıl rayonunun ərazisində də bu qisimdən olan xeyli sayda ***Düldül rəddi*** oronimi vardır.

Düz zəmi – Füzuli rayonunun Mollavəli kəndi ərazisində qeydə alınan oroqrafik obyekt.

Düzağa yüksəklikləri – Qarabağ dağ silsiləsində, Xocavənd rayonunun şimal hissəsində qeydə alınan dağ silsiləsi ***Düzağa*** adlanır. Oronim azacıq təhrifə məruz qalıb. Əslində ***Dizaq***

olmalıdır. Bu toponim Qarabağın qədim ***Dizaq*** mahalının adından yaranmışdır. Nizami Gəncəvinin "*Xosrov və Şirin*" poemasında ***Düzaknak*** qalasının adı çəkilir.

Düzdər – Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 20 kilometr məsafədə, Kərkicahan qəsəbəsinin 4 kilometrliyində qeydə alınan oroqrafik obyektlərdən biri ***Düzdər*** adlanır. Bu coğrafi ad əslində ***Düzlər*** şəklində olmalıdır.

Düzülü daş – Məlumdur ki, Xocalı-Gədəbəy mədəniyyətinə aid abidələrin əksər hissəsini siklop tikililəri təşkil edir. Belə abidələr adətən yüksək təpələrdə, alçaq dağlarda inşa edilmişdir. Belə tikililərdən biri də Xocalı yaşayış məntəqəsinin yaxınlığında qeydə alınan ***Düzülü daş*** adlanan abidədir. ***Düzülü daş*** oroqrafik obyekti zahiri görkəminə görə – yonulmamış iri daşlardan sanki müəyyən bir plan üzrə ***düzüldüyündən*** belə adlandırılmışdır.

Edilxan çuxuru – Laçın rayonunun Quşçu kəndi ərazisində qeydə alınmış oronim. ***Edilxan*** şəxs adıdır. Toponim bir qədər təhrifə uğrayıb: əslində ***Ədilxan*** olmalıdır.

Edilli səmti yalı – Qarabağ dağ silsiləsinin ətəyində, Füzuli rayon mərkəzindən 9 kilometr cənub-qərbdə qeydə alınan oroqrafik obyekt ***Edilli səmti yalı*** adlanır. ***Edilli*** Füzuli rayonu ilə həmsərhəd olan Xocavənd (*keçmiş Hadrut rayonu*) rayonunda kənd adıdır. Oykonum qədim türk tayfası olan ***edil*** etnonimindən və mənsubluq ifadə edən ***-li*** şəkilçisindən ibarətdir. ***Edil*** tayfa adına tarixi mənbələrdə bəzən ***adil, idil*** formalarında da (qırğızlarda ***edil,*** qaraqalpaqlarda **adil,** başqırdlarda idil) rast gəlirik. Türkdilli tatar və başqırdlar Volqa çayına ***İdel*** deyirlər. Vaxtilə xəzərlərin şəhərlərindən biri də ***edil*** **(*idil*)** qədim türk tayfasının adı ilə əlaqədar ***İdil*** adlanırdı.

Edilli yalı – Füzuli rayonu ərazisində, rayon mərkəzindən 10 kilometr cənub-qərbdə qeydə alınan oroqrafik obyekt ***Edilli yalı*** adlanır. ***Yal*** - müsbət relyef forması bildirən coğrafi termindir. ***Edilli*** sözü ***yal****dan* bir neçə kilometr məsafədə yerləşən keçmiş Hadrut (*indiki Xocavənd*) rayonundakı eyniadlı kəndin adı ilə əlaqədardır.

Edıllı yalı – Xocavənd rayonu ərazisində, rayon mərkəçindən 35 kilometr cənub-qərbdə qeydə alınan oroqrafik obyekt ***Edilli yalı*** adlanır.

Egeryurd dağı – Kəlbəcər rayonu ərazisində qeydə alınmış dağ. Xalq etimologiyasına görə, dağ uzaqdan atın yəhərinə oxşadığı səbəbindən ***Yəhərdağ*** adlanmış, rusdillı xəritələrdə təhrif olunaraq ***Egeryurd*** şəklində qeydə alınmışdır. Əslində isə ***Egeryurd*** **(*Eqeryurd*)** toponimi qədim türk dillərındəki ***eqer*** və ***yurd*** sözlərindən ibarətdir. Qədim türk dillərində ***eqer -*** "*yayda ev heyvanlarının saxlandığı düşərgə*" deməkdir.

El yolu – Xocavənd rayonunun Muğanlı kəndi yaxınlığında qeydə alınan coğrafi adlardan biri ***El yolu*** adlanır. *El yolu* haqqında çoxlu əhvalatlar, rəvayətlər uydurulmuşdur. İşlək yol olduğu üçün yerli camaat arasında ona ***El yolu*** deyilmişdir.

El yolu – Qarabağ silsiləsinin ətəyində, Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 20 kilometr cənubda, Kərkicahan qəsəbəsini yaxınlığında qeydə alınan maraqlı oroqrafik obyektlərdən biri ***El yolu*** adlanır.

El yolu – Laçın rayonunun Ağcakənd kəndi yaxınlığında, Qarabağ yaylasında, Qabaqtəpə dağı ətəyində qeydə alınan oronim.

Elalı diki – Laçın rayonunun ərazisində qeydə alınan oroqrafik obyekt.

Elçi daşı, Elçi yolu – Xocavənd rayonunun Muğanlı kəndi ərazisində qeydə alınmış oroqrafik obyektlərdən biri ***Elçi daşı*** adlanır. Kəndin yerli sakinləri daşın belə adlanması ilə bağlı müxtəlif fikir və mülahizələr söyləyirlər. Onlardan birinin də məzmunu təxminən belədir: ərə getməyə yaşı çatan və ailə qurmaq istəyən qız bu daşın üzərində otursaydı, tez bir zamanda ona ***elçi*** göndərilərdi.

Elicə dağı – Xocavənd rayonunun ərazisində qeydə alınan oronimlərdən biri ***Elicə dağı*** adlanır. Əksər araşdırıcılar bu toponimin təhrifə uğradığını qeyd edirlər. Əslində ***Ellicə*** olmalıdır. Keçmişdə burada maldarlıqla məşğul olmuş ellərə məxsus olan yaylaqlar yerləşdiyi üçün dağın adı ***el*** sözü, eləcə də ***-li*** və ***-cə*** şəkilçilərindən ibarət olub, "*el yurdu*" mənasında yozulmalıdır.

Emin dərəsi – Füzuli rayonunun ərazisində, Qozluçay dərəsində, Saracıq kəndi yaxınlığında qeydə alınan oroqrafik obyekt.

Enli döş – Kəlbəcər rayonunun ərazisində qeydə alınmış oronim. Formasına, relyef quruluşunun zahiri görünüşünə görə ad almış metaforik oronimlər geniş yayılmışdır. Belə oronimləri əmələ gətirən terminlər obyektin ümumi formasına - enli və dar, yumru və uzun, hündür və alçaq olmasına görə müəyyən olunur, ayırd edilir. ***Enli döş*** coğrafi adındakı ***enli*** sözü köndələni, "*uzun olan geniş sahə*" məfhumunu bildirir.

Enli döş – Şuşa rayonu ərazisində qeydə alınan spesifik oronim. Belə metafor adlardan biri də ***Enli döş*** adlanır. ***Enli döş*** oroniminin tərkibindəki ***enli*** sözü "*köndələni*", "*uzun olan geniş sahə*" məfhumunu ifadə edir.

Enli düz – Xocavənd rayonunda qeydə alınan oroqrafik obyekt.

Enlidağ – Kəlbəcər rayonunda qeydə alınmış **Enlidağ** oronimi relyefinin ***enli*** olmasına görə belə ad almışdır.

Ergi düzü – Ağdam rayonunda, Mərzili kəndi yaxınlığında, Pirəbulaq tirəsindən şimalda mütləq hündürlüyü 100-150 metr arasında dəyişən düzənlik belə adlanır. ***Ergi düzü*** toponimi haqqında müxtəlif fikirlər mövcuddur. Toponim azacıq təhrifə uğramışdır. Əslində ***Erki*** (***Ərki***) olmalıdır. ***Ərk*** sözü İran və türk dillərində "*iç qala*", "*möhkəm hasar*" anlamındadır. Əlbəttə, ***Ergi*** sözü ilə bağlı başqa mülahizələr də var...

Ergi düzü – Xocavənd rayonunun Muğanlı, Kuropatkin və Əmiralılar kəndləri yaxınlığında, Pirəbulaq tirəsindən şimalda, Ağdam rayonunun Mərzili kəndi istiqamətində qeydə alınan oroqrafik obyektlərdən biri ***Ergi düzü*** adlanır.

Erikhat dərəsi – Cəbrayıl rayonunun Həsənqaydı kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri də ***Erikhat dərəsi*** adlanır. ***Erikhat*** sözü ilə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur. Toponimin dəqiq elmi izahı hələlik verilməmişdir.

Eşq-Abdal piri – Ağdam rayonunun Çəmənli kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri də Eşq-Abdal (*bəzən adını* ***Eşqabdal*** *kimi də yazırlar*) piri oroqrafik obyektidir. ***Eşq-Abdal*** *"Abdal eşqi", "Abdala olan eşq"* anlamındadır. ***Eşq-Abdal*** sözü türkdilli ***abdal*** (***abdel***, ***abadel***, ***eftal***, ***heptal***) etnonimi ilə əlaqədardır. Akademik V.V.Bartold abdalları *hun* tayfası hesab edir. M.Qalanğatlının yazdığına görə, ***abdallar*** buraya m. ö. IV əsrdə - Makedoniyalı İsgəndərin zamanında köçürülmüşlər. Bir sıra digər mənbələr abdalların miladdan öncə Azərbaycanda (*Qarabağda*) yaşadıqlarını göstərir. ***Eşq-Abdal piri*** toponiminin tərkibindəki ***abdal*** sözü ***abdal*** tayfasının adı ilə bağlıdır.

Eşmə dərəsi, Eşmə dərə ağzı – Laçın rayonunun Malıbəy kəndi ərazisində qeydə alınan oronimlərdən biri də ***Eşmə dərəsi*** və ***Eşmə dərə ağzı*** adlanır. ***Dərə*** sözü mənfi relyef formasını ifadə edir. ***Eşmə dərə ağzı*** toponimi "*dərənin düzənliyə çıxan eşilmiş hissəsi*" mənasını ifadə edir.

Eşşək dərəsi – Laçın rayonunun Malıbəy kəndi ərazisində qeydə alınmış dərə. ***Eşşək*** heyvan adı ilə əlaqədar olaraq respublikamızda çoxlu sayda coğrafi adlar qeydə alınmışdır. Monqol-buryat dillərində "*külək tərəfindən çox aşınan dağ süxuru*"na ***oşiq*** deyilir ki, bəzi araşdırıcılar da ***eşşək*** sözünü məhz bu sözlə əlaqələndirməyə çalışırlar.

Eşşək kovu – Cəbrayıl rayonunun ərazisində, Dağ Tumas kəndindən 5 kilometr məsafədə, Karvan yolunun Tumas meşəsindən Qarağac üzünə aşan yerdə qeydə alınmış oroqrafik obyektlərdən biri ***Eşşək kovu*** adlanır. *Eşşək kovu* oronimi təxminən ***30*** metr uzunluğu olan dar keçiddən ibarətdir. Toponim "*eşşəyin keçə bildiyi dar keçid*" anlamındadır.

Eşşək təpəsi – Kəlbəcər rayonunda qeydə alınmış təpə.

Eyvatlı obası yeri – Cəbrayıl rayonunda qeydə alınan ərazi. XVIII **-** XIX əsrlərə aid olan sənədlərdə ***Eyvatlı*** kimi adı çəkilən bu kənd vaxtilə indi *Yuxarı Xələfli* adlanan ərazidə olmuşdur. Bu obanın *Şirvanlı* (*XVIII əsrdə bu ərazilərdə yaşamış* ***Şirvan*** *adlı şəxsin adı ilə əlaqədar*) tirəsi də olmuşdur. XVIII – XIX əsrlərdə ***Eyvatlı obası*** Həreylan və Abdal adlanan ərazilərdə də yaşamışdır. Cəbrayılın Abdal və Həreylan torpaqlarında məskunlaşan xələflilər ***Eyvatlı*** obasına mənsub olmuşlar. Əski türk sözü olan ***Eyvatlı*** toponiminin izahı ilə bağlı müxtəlif fikirlər mövcuddur. Toponimin dəqiq mənası isə hələlik tam izah olunmamışdır.

Eyvazlı aşırımı, Eyvazlı yaylağı – Laçın rayonunun ərazisində qeydə alınan oronimlər. ***Aşırımın*** və ***yaylağın*** belə adlandırılması **Eyvaz** adlı şəxsin adı ilə bağlıdır.

Eyvazlılar (*Eyvazalılar*) yatağı – Xocavənd rayonunun ərazisində qeydə alınan yataq. Bəzi sənəd və materiallarda oronim ***Eyvazalılar yatağı*** kimi də qeyd olunur. Xocavənd rayonunun Əmirallar kəndi yaxınlığında, keçmiş Bəhrəmli kəndi ərazisində qeydə alınmış ***Eyvazlılar yatağı*** oroqrafik obyekti ***Eyvazlı (Eyvazalı)*** nəslinin adı ilə əlaqədar yaranmışdır. ***Yataq*** termini "*davar və mal-qaranı saxlamaq üçün müxtəlif tikililəri olan xüsusi sahə*" anlamındadır.

Əbdül Əli türbəsi – Cəbrayıl rayonu ərazisində qiymətli tarixi memarlıq abidələrindən biri ***Əbdül Əli türbəsi*** adlanır. XVIII əsrə aid edilən ***Əbdül Əli türbəsi*** həmin tarixi dövrdə yaşamış nüfuzlu ***Əbdül Əli*** adlı adamın xatirəsinə tikilmişdir.

Əbdülün dərəsi – Kərkicahan qəsəbəsi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Əbdülün dərəsi*** adlanır. ***Əbdülün dərəsi*** toponimi "*Əbdülə məxsus olan dərə*" mənasındadır.

Əbilbəyli bağı – Füzuli rayonunun ərazisində, Kürdmahmudlu, Şükürbəyli, Seyidəhmədli kəndləri arasında qeydə alınan coğrafi adlardan biri ***Əbilbəyli bağı*** adlanır. Bu ***bağ*** vaxtilə ***Əbil bəy*** adlı şəxsə məxsus olduğu üçün belə adlandırılmışdır.

Əbrişimlər – Ağdam rayonu ərazisində qeydə alınan maraqlı coğrafi adlardan biri də ***Əbrişimlər*** adlanır. Bu toponimin izahına müxtəlif prizmadan yanaşanlar var. Toponimi "*parıltılıbulud*", "*xoş iy*", "*paltar üzü*" yozumu ilə izahlandıranlar da var.

Əhəng quyusu – Şuşa rayonunun ərazisində, Malıbyəli və Quşçular kəndlərinin yaxınlığında qeydə alınan quyu. ***Əhəng*** – əsasən, kalsium-oksiddən ibarət olub, ag rəngdə, xırda parçalar şəklində tabaşir, əhəngdaşı və s. karbonat süxurlarının fırlanan sobalarda və kürədə 1100-1300°S-də yandırılması məhsuludur.

Əhəng yanan – Şuşa rayonunun ərazisində, Xanalı kəndi yaxınlığında qeydə alınan oronim.

Əhəngyandırılan – Xocavənd rayonunun ərazisində, vaxtilə mövcud olmuş Bəhrəmli kəndi (*1948-ci ildə erməni siyasəti ilə əlaqədar olaraq kəndin sakinləri başqa ərazilərə köçürüldüyündən gözəl coğrafi mövqeyə, strateji əhəmiyyətə malik olan bu yaşayış məntəqəsi boşaldılmışdır*) yaxınlığında qeydə alınmış oroqrafik obyektlərdən biri ***Əhəngyandırılan*** adlanır. XX əsrin 50-ci illərinə qədər burada ***əhəng*** yandırılırdı.

Əhməd bəyin bağı – Xocavənd rayonunda, Axullu kəndi ərazisində qeydə alınan oronimlərdən biri ***Əhməd bəyin bağı*** adlanır. ***Bağ*** onun yaradıcısı və sahibi olan ***Əhməd bəyin*** adı ilə əlaqədar olaraq belə adlanmışdır. Toponim "*Əhməd bəyə məxsus olan bağ*" mənasındadır.

Əhməd dərəsi – Cəbrayıl rayonunun ərazisində, Qalacıq kəndinin yaxınlığında qeydə alınan oronimlərdən biri ***Əhməd dərəsi*** adlanır.

Əhməd Soltan türbəsi – Füzuli rayonunun ərazisində, Ayıbasanlı kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Əhməd Soltan türbəsi*** adlanır. Hasar tipli bu türbənin ümumi sahəsi 8,6 x 6,86 metrdir. Türbənin şərq tərəfində giriş qapısı var ki, o da bişmiş kərpiclə oxvari tağbənd şəklində düzəldilmişdir. Türbənin çöl divarları boyu bir cərgə - 30 sm hündürlükdə təbii formada çay daşları düzülmüşdür. ***Əhməd*** sözü ərəbcə *"tərifli", "tərifə layiq"* mənasındadır. Türbənin içində 3 nəfər dəfn olunub: ***Əhməd Soltan,*** həyat yoldaşı *Həvva xanım* və qızları *Pəri xanım*. Bu türbə el arasında şərti olaraq ***Əhməd Soltan türbəsi*** adlandırılmışdır.

Əhmədalılar türbəsi – Füzuli rayonunun Əhmədalılar kəndi ərazisində ölkə əhəmiyyətli türbə. Türbənin daşdan tikilmiş çatma tağlı günbəzi var. Abidənin səthləri dayaz batıqlar ilə işlənmiş, girişdəki baştağı oyma həndəsi ornamentlərlə haşiyələnmişdir. Baştağın ornament bəzəklərində, səthlərinin işlənməsində Naxçıvan memarlıq məktəbinin *(Əcəmi)* təsiri duyulur. ***Əhmədalılar*** türbəsinin günbəzi ikiqatlı hörülüb və ara məsafəsi daş-əhəng qarışıqlı məhlulla doldurulub. Şimal tərəfdəki qapı ilə üzbəüz mehrab əvəzinə, ikinci qapı da vardır. Bu qapıların portal çərçivələri həndəsi naxışlarla bəzədilmişdir. Türbənin üzərində kitabəsi yoxdur. El arasında bu türbəyə **Arğalı türbəsi** (bəlkə də ***arıq Alı***) də deyilir. Orada dəfn olunan şəxsin kimliyi hələlik bilinmir. XX əsrdə – 1960-cı illərdə ***Əhmədalılar türbəsi*** bərpa edilmişdir. Əhmədalılar türbəsi Azərbaycanın ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrindən hesab edilir.

Əhmədbaba piri – Ağdam rayonu ərazisində qeydə alınan pir. Toponimin tərkibindəki ***Əhmədbaba*** sözü müqəddəs hesab olunan mövliyanın adıdır.

Əhmədli elinin yurd yeri – Cəbrayıl rayonunda qeydə alınmış coğrafi ad. ***Əhmədli eli*** təxminən XV əsrdə Anadoludan Azərbaycana köçmüş ***səlcuq*** əsilli türk nəsillərinin, tayfalarının adıdır. Vaxtilə Diyarbəkir ətrafında yaşam sürən ***Əhmədli eli*** XV yüzildə ***Ağqoyunlu*** tayfa birliyinə qatılmışdır. ***Əhmədli*** elinin başçısı olan ***Sultan Əhməd bəy*** XV əsrin ortalarında (*1457 – 1469-cu illərdə*) Uzun Həsənin Şərqi Anadoluda və İranda ən sadiq müttəfiqlərindən biri olmuşdur. Tarixi mənbələrdən məlum olur ki, ***Əhmədli eli*** XVII əsrdə Qarabağda yerləşdirilmişdir. Bu ***el*** vaxtilə Cəbrayılın Sirik kəndi yaxınlığındakı Qızılqayadan Gəyən çölünə qədər uzanan aran və qışlaq yerlərində məskunlaşmışdır. Ermənilərin müəyyən fitnə-fəsadı nəticəsində ***500*** evli Əhmədlinin demək olar ki, ***400***-ü 1905-ci ildə Osmanlı Türkiyəsinə köçmüşdür. Bir müddət köçən əhali ilə məktublaşmalar olsa da, 1930-cu illərin repressiya qorxusu bütün bunlara son qoymuşdu. XVIII - XIX əsrlərə aid olan mənbələrdən də məlum olur ki, Cəbrayıl elinin ***Əhmədli*** (***Əhməd*** *adlı şəxsin ilə əlaqədardır*) adlı oymağı olmuşdur. *Şahvəlilər, Hacıismayıllılar, Hacıisaqlılar, Gödəklilər, İsaqlılar, Tatarlılar, Çələbilər, Şıxlar* ***Əhmədli*** oymağına mənsubdurlar. Şahsevənlərin ***Əhmədli*** obasına mənsub olan tayfaları sünni olduqları üçün XVII əsrdə Osmanlı-Səfəvi müharibələrində Osmanlıların xeyrinə çalışırdılar. 1615-ci ildə I Şah Abbasın Qarabağdan və Şirvandan əhalini köçürmə siyasətinə qarşı baş verən ***Əhmədli qiyamı*** Səfəvi hökmdarı tərəfindən amansızcasına yatırıldı. Bu və buna oxşar digər səbəblərə görə I Şah Abbas 1615-ci

ildə *Əhmədliləri* Mazandarana sürgün etmişdir. Sürgünə şahın iki yaxın adamı – Lətifxan bəy Davatdar Qacar və İsfəndiyar bəy Ərəbgirli-Şamlı başçılıq edirdi. ***Əhmədli*** elinin əsas hissəsi sürgün ediləndən sonra oymaqlardan bəziləri yayınıb köç-düşünə ara verərək əkin-biçinlə məşğul olmağa başladı. Bəzi tarixi mənbələrdən aydın olur ki, adı kənd biçimində qeyd olunan Əhmədlidə yüzbaşı *Məhəmməd ağa Maqsud ağa oğlu*, *Şeyx Əhməd Məhəmməd ağa oğlu* və başqaları böyük nüfuz sahibi olmuşlar. Xanlıq dönəmində İbrahimxəlil xan Sarıcalı-Cavanşir ***Əhmədli*** obasını əmisi nəvəsi *Rüstəm bəy Qasım bəy oğlu Sarıcalı-Cavanşirə* vermişdir. Rüstəm bəyin ölümündən sonra obanı onun oğlu *Əsəd bəy* idarə etmişdir. Bəzi tarixi sənədlərdən aydın olur ki, vaxtilə ***Əhmədli*** camaatının qışlaqları olan Burnukəsikdə Qovşutlu, Göyərçində isə Veysəlli obaları yerləşdirilmişdir. XIX əsrdə ***Əhmədli*** camaatının *Əhməd yüzbaşı Mustafa yüzbaşı oğlu* və *Qurban yüzbaşı Məhəmməd ağa oğlu* kimi iki məşhur yüzbaşısı olmuşdur.

Əhmədölən təpə – Cəbrayıl rayonunun Qarar kənd ərazisində qeydə alınmış oroqrafik obyekt.

Əhməduçan qayası – Cəbrayıl rayonunun ərazisində, Maşanlı kəndi yaxınlığında, dağətəyi sahədə qeydə alınan oronim.

Əjdaha düzü, **Əjdaha kahası**, **Əjdaha qayası**, **Əjdaha yalı** – Laçın rayonunun ərazisində qeydə alınan oronimlər. Bu oronimlər *düzün*, *kahanın*, *qayanın*, *yalın* əjdahaya oxşadılmasına görə belə adlanmışdır. ***Əjdaha yalı*** oronimi Laçın rayonunun Seyidlər kəndi ərazisində qeydə alınmışdır. ***Əjdaha*** nağıllarda nəhəng, əcaib formada təsvir edilən, ağzından od püskürən, insan və heyvanları udan, qanadlı və çoxbaşlı nəhəng ilan şəklində təsəvvür olunan fantastik bir varlıq, mövhumi bir heyvandır. ***Əjdaha*** sözünü *Aja və Daha* sözləri ilə də bağlayanlar var. Varitra, Vartan, Vərəhran - Bəhram qədim təsəvvürlərə görə yağışın yağması üçün öldürülməli idi. Onu da ildırım tanrısı Tandur bacarırdı. Tandur bəzən Baritrahan, əsatirlərdə Bəhrəmgur şəklində də işlənmişdir. Əfsanəyə görə, ***Əjdaha qayası*** ərazisinin arxa tərəfi böyük mağaradır. Qədim zamanlarda bir pəhləvan bu mağaraya gedib bir *əjdaha* öldürmüşdür. Guya qayadan damla-damla həmişə axan su yox, əjdahanın yağıdır. Qayanın ətrafından da guya bir gil tapılır ki, adına padizəhər deyirlər. Qədim insanlardan kim əjdahanın yağından zəhərlənirmişsə, padizəhərdən yeyib sağalırmış. Padizəhəri də buraya pəhləvan tökmüşdür ki, hər kəs əjdahanın yağından zəhərlənərsə, yeyib yaxşılaşsın...

Əjdaha kurqanı təpələri – Ağdam rayonunun Quzanlı kəndi ərazisində qeydə alınmış oronimlərdən biri də ***Əjdaha kurqanı*** təpələri adlanır. Buradan qədim dövrlərə aid cəngavər döyüşçü qəbirləri tapılmışdır. Bu qəbirlər dairəvi saxsı qutulardan ibarətdir. Əyinlərində çürüyüb daşlaşan paltarları da vardı. Paslanmış qılınc və xəncərləri də yanlarına qoyulmuşdur. Bu cüssəli cəngavərlərin bəzisinin barmaqlarında olan üzüklərin qaş yerində heyvan şəkilləri var. Alt və üst çənələrindəki dişlərin çürüməməsi onların çox sağlam bədənli insanlar olmasından xəbər verir. Sümükləri boylarının 2 metr və daha hündür olmasından xəbər verir. Kurqandan çıxan bu skeletlərin nəhəngliyinə, böyüklüyünə görə yerli əhali buraları ***Əjdaha kurqanı təpələri*** adlandırmışdır.

Əjdaha qayası – Kəlbəcər rayonunun ərazisində qaya. Bu tip oronimlər təbii ki, xalqın təfəkkürü ilə yaranır. Kəlbəcər rayonunda qeydə alınmış ***Əjdaha qayası*** oronimi də "***əjdahaya***" oxşadığı üçün belə adlanmışdır.

Əjdaha qayası – Qubadlı rayonunun ərazisində qeydə alınmış qaya.

Əkbər dağı – Xocavənd rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Əkbər dağı*** adlanır. Toponim rəmzi anlamda "*Əkbərə məxsus olan dağ*" mənasındadır. Bəzən sənəd və materiallarda bu coğrafi adın yazılışına ***Hacı Əkbər dağı*** şəklində rast gəlinir. Ermənilər bu adı təhrifə uğradaraq ***Oxaxper dağı*** formasında yazırlar.

Əkərək tapı – Cəbrayıl rayonunun Niyazqululular kəndi ərazisində qeydə alınmış oroqrafik obyekt. Oronimin tərkibindəki ***tap*** coğrafi termini müxtəlif bölgələrdə "*su çıxmayan düz yer*", "*düzən yerdə təpə*", "*dağ döşündə düzənlik*", "*dağ düzənliyi*" və s. mənalarda işlənir. Altay-türk mənşəli Şumer dilinə mənsub olan ***akar//əkər*** sözü *"əkilən yer, sahə"* mənasındadır. *Əkin, əkmək* sözlərinin kökü olan ***ək*** sözü həmin mənanı ifadə edir. Qədim yunan və latın dillərindən keçmiş bu söz yunanca "***aqros***" ("*tarla*"), latınca "***aqer***" ("*əkin sahəsi*"), bu dillərdən rus dilinə keçmiş "***akr***" ("*torpaq sahəsi*") və "*aqronomiya*" ifadələrində öz əksini tapmışdır. ***Əkərə, Əkərək, Akarak*** adlı kəndlər quldarlara, feodallara, mülkədarlara məxsus olan əkin sahələri (*məzrələr*) əsasında yaranmışdır.

Əkiz təpə – Ağdam rayonunun ərazisində qeydə alınmış oroqrafık obyekt.

Əlağa-Əfqan yurdunun yerı – Qarabağ silsiləsinin ətəyində, Xocalı şəhəri ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Əlağa-Əfqan yurdu*** adlanır. Bu ***yurd*** yerində əfşar əsilli iki qardaş olan Xocalı sakinləri – ***Əlağa*** və ***Əfqan*** yaşadıqları üçün həmin ərazi ***Əlağa-Əfqan yurdu*** adlanırdı.

Ələkbər yalı – Füzuli rayonunda, dağətəyi ərazidə yerləşir; toponim ***Ələkbər*** şəxs adı ilə bağlıdır.

Ələm ağacı – Xocalı rayonunda, Kosalar kəndinin ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Ələm ağacı*** coğrafi adıdır. ***Ələm*** sözü ərəb dilində "*bayraq*" deməkdir. Səfəvilər dövründə ancaq döyüşlərdə qəhrəmanlıq göstərənlərə ***ələm gəzdirmək*** hüququ verilirdi. Sonralar Yaxın Şərqin bir sıra ölkələrində ***ələm*** müxtəlif təriqətlərə məxsus dini mahiyyət daşıyan əlamətə çevrildi. Şiələrdə ***ələm*** ağacının ucuna əl fiquru taxılır. Məhərrəmlik və s. dini bayramlarda ***ələm*** gəzdirilir; ***ələm*** gəzdirənlərə ***ələmdar*** ("*bayraqdar*") deyilir.

Ələmdarlar piri – Cəbrayıl rayonunun Çələbilər kəndi yaxınlığında, Hacı Qaraman ocağından 200 metr gündoğan istiqamətdə qeydə alınan ***Ələmdarlar piri*** oroqrafik abidəsi topa qəbirlərdən ibarətdir. Bəzi məlumatlara görə, bu qəbirlər din uğrunda şəhid olan ərəb əsgərlərinə məxsusdur. Qəbirlərin üzərində qol-budağı çətir kimi səpələnən nəhəng *qaramıx* kolu var. Adətən buranı ziyarət edənlər tutiyatək ovuc-ovuc torpaq götürdüklərindən *qaramıx* kolunun ətrafında böyük çala əmələ gəlmişdir. Tutiya məqsədilə götürülən torpağı ziyarətçilər öz evlərinin ətrafına və həyət-bacasına səpərdirlər və həmin evin bərəkəti artar, həyət-baca bədnəzərdən qorunardı...

Əli Çələbinin yuat yeri – Cəbrayıl rayonunda, Böyük övliyalar nəslindən olan Fatimə Çələbinin Kolavat yaşayış məntəqəsində yerləşən evinin həyətində qərar tutan nişangah ***Əli Çələbinin yuyat yeri*** adlanır. Burada vaxtilə (***12 yanvar 1962-ci il***) Haqqın dərgahına qovuşmuş böyük hörmət və nüfuz sahibi olan övliyalardan biri – ***Əli Çələbi Alı Çələbi oğlunun*** mübarək nəşi qüsl edilərək kəfənə tutulmuşdur.

Əli öldürülən yer – Xocalı rayonunun ərazisində, Kərkicahan qəsəbəsinin yaxınlığında, qəsəbədən 2 kilometr aralıda qeydə alınan oroqrafik obyektlərdən biri ***Əli öldürülən yer*** adlanır. *10 iyul 1989-cu il* tarixdə həmin ərazidə ermənilər tərəfindən ***Əli*** adlı şəxs öldürüldüyündən toponim belə ad almışdır. Həmin hadisədə Orduxan adlı bir nəfər də öldürülmüşdür; digər bir nəfər – Cəlil isə yaralanmışdır.

Əli pəncəsi – Ağdam rayonunun Əliağalı kəndi ərazisində qeydə alınmışdır. Yerli sakinlərin sözlərinə görə, bu inanc və tapınaq yeri İmam Əlinin adı ilə bağlıdır. Onların etiqadına görə sal daşın üzərindəki pəncə izi İmam Əliyə məxsusdur.

Əli yurdu yeri – Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 2 kilometr məsafədə, Qarabağ silsiləsinin ətəyində qeydə alınan oroqrafik obyektlərdən biri ***Əli yurdu yeri*** adlanır. Bu ***yurd yeri*** şəhid Şahin Abdullayevin atası ***Əli*** kişiyə məxsus olduğu üçün belə ad almışdır.

Əlihəsənbəyin bağı – Şuşadakı istirahət guşələrindən biri də ***Əlihəsənbəy bağı*** adlanır. Yerli əhali bu oroqrafık obyektin adını ***Əleysən bəyin tut bağı*** formasında da işlədir.

Əlikli dərə – Şuşa rayonunda, Quşçular kəndi yaxınlığında qeydə alınan toponim belə adlanır. Toponim "*Əlik olan dərə*" mənasındadır.

Əmidığ piri – Cəbrayıl rayonunun ərazisində, Qazanzəmi kəndinin yaxınlığında, Qubadlı rayonu ilə sərhəddə, Əmidığ dağının zirvəsində yerləşir. Bu ***pir*** alban türklərinə məxsus olan kiçik bir *məbəd* olmuşdur. Deyilənə görə dağın ətəyində ***Əmidığ*** adlı kənd də var imiş. ***Əmidığ məbəd-piri*** Dağtumas və Qazanzəmi kəndləri ilə yanaşı, Qubadlı rayonunun ətraf kəndlərinin camaatının da inanc yeri hesab olunurdu.

Əmir təpəsi – Laçın rayonunun Baharlı (*Cağazur*) kəndi ərazisində qeydə alınan təpə. Bəzi yerli sakinlərin danışdıqlarına görə, ərazidə ərəb əmiri dəfn olunub. ***Əmir*** ərəbcə "*başçı, hökmdar*" mənasındadır. Toponimi ***Əmir*** şəxs ad ilə də əlaqələndirirlər.

Əmiraslan tapı – Cəbrayıl rayonunun Şükürbəyli kəndi ərazisində, düzənlik sahədə qeydə alınan coğrafi adlardan biri ***Əmiraslan tapı*** adlanır. Bu oronim ***Əmiraslan*** şəxs adı ilə əlaqədar yaranmışdır. ***Əmiraslan*** bu kəndin sakini olmuşdur. ***Əmiraslan tapı*** toponimi "*Əmiraslan düzü*" anlamını bildirir.

Əmiraslanın bağı – Füzuli rayonunun Dövlətyarlı kəndi ərazisində, Köndələn çayı sahilində qeydə alınan oroqrafik obyektlərdən biri ***Əmiraslanın bağı*** adını almışdır. ***Bağ*** onun yaradıcısı olmuş ***Əmiraslan*** şəxs adı ilə bağlıdır. Toponim *"Əmiraslana məxsus olan bağ"* anlamındadır.

Əmiraslanın dəyirmanı – Xocavənd rayonunun ərazisində, Tuğ kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Əmiraslanın dəyirmanı*** adlanır.

Əmirvarlı dərəsi – Cəbrayıl rayonunun Tinli kəndi ərazisində qeydə alınan oronimlərdən biri də ***Əmirvarlı dərəsi*** adlanır. Toponimin tərkibindəki -***si*** şəkilçisi mənsubluq bildirir.

Əncildərə – Füzuli rayonunun ərazisində qeydə alınan oronim.

Əncirli dərə, Əncirli dərə ağzı, Əncirli döş – Cəbrayıl rayonu ərazisində qeydə alınan oroqrafik obyektlər. Əncir ağacı ilə əlaqədar belə adlandırılmışdır.

Əncirli dərə – Füzuli rayonunun ərazisində qeydə alınan oronimlərdən biri belə adlanır.

Əncirli dərə – Qubadlı rayonunun ərazisində qeydə alınmış dərə.

Əppəkkəsan – Laçın rayonunda, Hoçaz kəndi yaxınlığında qeydə alınan oronimlərdən biri ***Əppəkkəsan*** coğrafi adıdır. Oronim ***əppək*** və ***kəsan*** sözlərindən ibarətdir. Toponim azacıq təhrifə uğramışdır; əslində ***Əppəkkəsən*** olmalıdır. ***Əppək*** sözü "*çörək*" anlamındadır.

Əppəkli – Füzuli rayonunun Yuxarı Əbdürrəhmanlı kəndinin 4 kilometrliyində qeydə alınıb. ***Əppəkli*** sözünün əski türk dillərində "*çörəkli*" anlamı var.

Əppəkli dik – Laçın rayonunun ərazisində qeydə alınan oroqrafik obyekt.

Əppəkli döş, Əppəklik – Xocavənd rayonunun Muğanlı kəndi yaxınlığında, kənddən 2 kilometr aralıda, dağətəyi ərazidə qeydə alınmış oroqrafik obyektlər.

Ərdəşəvi dağı – Laçın rayonu ərazisində dağ. Çox güman ki, toponimin düzgün yazılış forması ***Ərdəşəvə*** olmalıdır. ***Ərdəşəvi*** toponimi ***ardiş*** və ***va*** sözlərindən ibarətdir: ***Ardaş - ardış*** (***ardıc***) ağacına deyilir; ***va*** isə "*yer*" mənasındadır. Görünür, toponimin tərkibindəki "-***a***" bitişdirici sait rolunu oynayır. Toponimi türk dillərindəki ***artaş*** ("*dağ çökəyi*", "*gəzdək*") sözü ilə də əlaqələndirmək olar. ***Ərdəşəvi dağı*** "*ardıclı dağ*" mənasında izah olunur. Dağətəyi ərazidə yerləşən kəndin adı ***Ərdəşəvi*** dağının adı ilə əlaqədardır. Ərazidə Şəlvə çayının qolu olan ***Ərdəşəvi çayı*** (bəzən hidronimin adını ***Ərdəşəvisu*** kimi də yazırlar) da ***Ərdəşəvi*** dağının adı ilə əlaqədar olaraq belə adlandırılmışdır. Bu sözün anlamı ilə bağlı ictimaiyyət arasında müxtəlif fikir və mülahizələr mövcuddur.

Ərəb düzü – Laçın rayonunda, dağətəyi ərazidə yerləşir. Oronimin adını bəzən sənədlərdə ***Ərəbdüzü*** şəklində də yazırlar. Bu ərazidə ***Ərəb*** adlı kənd də var. Yaşayış məntəqəsi ***Ərəbdüzü*** adlanan düzənlik sahədə salınmışdır. ***Ərəbdüzü*** adı ərəb etnonimi ilə əlaqədardır. VII əsrdən etibarən ***ərəb*** işğallarının başlanması ilə əlaqədar olaraq, xilafət tərkibinə daxil olan ərazilərə, o cümlədən də, Azərbaycana xeyli *ərəb* tayfası (əsasən, Bəni Qeys, Rəbiə və s.) köçürülməyə başlanıldı. VII əsrdən Azərbaycana köçən *ərəblər* toponimiyamızda böyük "iz buraxmışlar". Xəzər-Ərəb müharibələri dövründə təkcə Hişam ibn Mərvan 731-ci ildə şimal sərhədlərini qorumaq üçün burada Suriyadan (*Şamdan*) gələn 40 min ərəb ailəsi yerləşdirmişdir. Belə köçürmələr sonralar kütləvi hal aldı. Həmin dövrlərdən etibarən Azərbaycanda ***ərəb*** etnonimi ilə bağlı çoxlu kənd adları yaranmışdır. Sonralar gəlmə ərəblər yerli əhali ilə qaynayıb-qarışaraq onun dilini, mədəniyyətini qəbul edib azərbaycanlılaşmışlar. Gəlmə ərəblər, əsasən, Azərbaycanın şimal-qərb ərazilərində məskən salmışdılar. XIX əsr məlumatlarına görə, bütün Zaqafqaziya ərazisində adında ***ərəb*** etnoniminin iştirak etdiyi 29 kəndin on doqquzu təkcə Bakı quberniyasında idi.

Ərəbuşağı yeri – Laçın rayonunun Hocaz kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri də ***Ərəbuşağı yeri*** adlanır. Oronim ***ərəb*** etnonimi ilə əlaqədar olaraq belə ad almışdır. Tarixdən məlumdur ki, orta əsrlərdə ***ərəb*** tayfaları müxtəlif vaxtlarda Azərbaycana gəlmişlər.

Ərəbyatağı sıra dağları – Cəbrayıl rayonu ərazisində, Göyərçin Veysəlli kəndinin qərbində yerləşir. Bəllidir ki, Azərbaycan toponimiyasında alınma sözlərdən düzələn oronimlər çoxdur. Bunlardan bəziləri də ***ərəb*** adı ilə bağlı olan coğrafi adlardır. ***Ərəb*** mənşəli coğrafi adlar Azərbaycan toponimiyasında VII əsrin ortalarından çəkilir. Ərəblərin Azərbaycana gəlmələri haqqında V.Bartold, P.Juze, A.Kenko, M.Baharlı, Z.Bünyadov və başqaları da yazmışlar. Ərəblərin Azərbaycanda olmaları haqqında ərəb coğrafiyaşünasları – İbn-əl-Bəlazuri, əl-Yəqubi, İbn-əl-Fəcih-əl-Həmədani və başqa tədqiqatçılar öz əsərlərində məlumat vermişlər. Həmin dövrdən Azərbaycanın bir sıra yaşayış məntəqələri və oroqrafik obyekt adları ***ərəb*** sözləri və adları ilə adlandırılmışdır. Cəbrayıl rayonu ərazisində qeydə alınan ***Ərəbyatağı sıra dağları*** oronimi də belə coğrafı adlardandır. ***Ərəbyatağı*** toponiminin birinci komponenti olan ***ərəb*** sözü *ərəb* xalqının adını özündə əks etdirir. İkinci komponent olan ***yataq*** sözü, "*payızda, qışda davar və mal-qaranın saxlanması üçün müxtəlif tikililəri olan xüsusi sahə*" mənasındadır. Çox güman ki, dağdakı tikililərdən ***ərəb*** mənşəli ailələr yataq kimi istifadə etdiyinə görə o, belə adlanmışdır.

Ərəstə ocağı – Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Ərəstə ocağı*** adlanır. Yerli adamların verdikləri məlumatlara görə, ***Ərəstə (Arəstə)*** adlı arvad XX əsrin birinci yarısında burada yaşamışdır. Deyilənə görə, onun oğlu Allahverdi yatıb yuxusunda görür ki, evlərinin dalında, arxın başında bir ***ocaq*** var. Yuxuda ona deyiblər ki, o *ocaq* sizindir. O da anasını götürüb səhər-səhər ora gedib. Anasına deyib ki, "*yuxu görmüşəm, gedək görək gerçəkdir, yoxsa yox*". Gedib görüblər ki, gerçəkdir. Arxın başında yumru bir daşdır, ortasında da bir deşik yeri var. Onun ətrafında da çoxlu daşlar. Yerli adamlar sonralar bu qəbri ***ocaq*** kimi əziz tuturlar.

Ərgünəş dağı – ***Ərgünəş*** (*bəzən adı* ***Argünəş*** *formasında da yazılır*) ***dağı*** Füzuli rayonunun Xocavənd rayonu ilə sərhəd ərazisində (Arış, Qoçəhmədli, Mollavəli, Çimən, Tuğ, Axullu, Salakətin, Xırmancıq, Məlikcan, Edilli, Bulutan, Qırmızıqaya kəndləri yaxınlığında), Xocavənd rayon mərkəzindən 38-44 kilometr cənubda, Qarabağ silsiləsinin ətəyində yerləşir. Dağın maksimal hündürlüyü *1462* metrdir. Vaxtilə bu dağın yerləşdiyi ərazilər sıx, keçilməz meşəliklər olub. **Ərgünəş** toponimindəki ***"ər"*** sözü türk dillərində *"yüksək", "igid", "hündür", "büyük"* və s. mənalarda işlənir. Bəzi araşdırıcılara görə, "***ər***" komponenti türk dillərində *"gədik"* mənasında işlədilən ***"ar"*** sözü ilə əlaqədardır. Yerli əhali dağın adını ***Argünəş*** formasında da tələffüz edir. Tədqiqatçıların fikrincə, ***Ərgünəş dağı*** coğrafi adı yaxınlıqda olan dağlardan daha hündür olmasına və ***günəş*** şüasının daha tez onun zirvəsinə düşməsinə görə belə adlanmışdır. Bir sıra sənədlərdə dağdan Araz çayı yaxınlığına qədər olan ərazilər ***Ərgəş*** kimi qeyd olunur.

Ərgünəş dağ beli – Xocavənd rayonunun ərazisində dağ beli. ***Ərgünəş dağ beli*** toponimi "*Ərgünəş dağının hündür aşırımı*" mənasındadır.

Ərgünəş qalası – Xocavənd rayonunun ərazisində qədim tarixə malik memarlıq abidələrindən biri ***Ərgünəş*** dağının güney yamacında, sıldırım qayalar üzərində yerləşən qədim tikili ***Ərgünəş qalası*** adlanır. Bu ***qala*** ilə bağlı müxtəli əfsanələr dolaşmaqdadır.

Ərik bağı – Laçın rayonunda, Güləbird kəndi ərazisində səfalı təbiətə malik bir yerdə qərar tutan bağ.

Ərik piri – Cəbrayıl rayonununun Qalacıq kəndi ərazisində qeydə alınan maraqlı oroqrafik obyektlərdən biri ***Ərik piri*** adlanır. Deyilənə görə, yerli çələbilərdən biri əriyi yeyib çəyirdəyini yerə atmış və həmin yerdə ***ərik*** ağacı bitmişdir.

Ərik təpəsi – Xocavənd rayonu ərazisində qeydə alınmış oronim.

Ərikli dərə – Xocalı rayonu ərazisində, rayon mərkəzindən 7 kilometr məsafədə, Qarqar çayı sahilinin yaxınlığında qeydə alınan coğrafi adlardan biri ***Ərikli dərə*** adlanır.

Ərikli dərə – Laçın rayonunun ərazisində qeydə alınan dərə.

Əriməz dağı, **Əriməz yaylağı** – Laçın rayonunun ərazisində, Sisyan rayonu ilə sərhəddə qeydə alınan oronimlərdən biri də ***Əriməz dağı*** və ***Əriməz yaylağı*** adlanır. Deyilənə görə, isti yay günlərində belə dağın zirvələri ağappaq qarla örtülü olur. Küləyin süpürüb qalaqladığı qar yığınını yayın qızmar günəşi də ***əridə*** bilmir. Elə bu səbəbdən də yerli əhali ***dağı, yaylağı*** beləcə, ***Əriməz*** adlandırmışdır.

Ərmiravan – Xocalı rayonunun ərazisində, Kərkicahan yaşayış məntəqəsindən 3 kilometr məsafədə, Qeybalı kəndi istiqamətində qeydə alınmış toponimlərdən biri ***Ərmiravan*** adlanır. Bəzən sənədlərdə onu ***Ərminavan*** kimi də yazırlar. Toponimin ad açımına müxtəlif prizmalardan yanaşanlar vardır. Bu coğrafi adı ***Əmiravan*** kimi də izah edənlər var.

Əsgəran qalası – Xocalı rayonu ərazisində, Əsgəran qəsəbəsi yaxınlığında, Qarqar çayının sağ və sol sahillərində XVIII əsrə aid qala. Qarabağ xanı Pənahəli xan (*digər məlumata görə isə Mehralı xan tikdirib*) tərəfindən tikdirilmişdir. ***Qala*** iki istehkamdan ibarətdir və çay daşından tikilmişdir. Sağ sahildəki qala bürcü ikiqat daş divarlardan ibarətdir; sol sahildəki qala dördkünc bürclüdür. Divarlarının qalınlığı 2-3 metrdir. ***Əsgəran qalası*** yaxınlığında Rusiya-İran müharibəsi zamanı (1804-1813) Rus qoşunlarının düşərgəsi olmuşdur. 1810-cu ildə Rusiya ilə İran arasında sülh danışıqları *Əsgəran* qalasında aparılmışdır. Qalanın adı ***Əsgəran*** adlı yerlə bağlıdır. Toponim Azərbaycan dilindəki ***əski*** sözündən və ***Aran*** toponimindən ibarətdir. ***Əski*** sözü – "*köhnə*,

qədim" deməkdir. M.Kalankatlının "*Alban tarixi*" əsərində bu toponim ***Metsaran*** formasındadır. ***Mets*** – "*böyük*" deməkdir. Qalanın xarabalıqlarının qalıqları indi də durur. Qalaya ***Əsgəran*** adını yerli əhali vermişdir. *Əsgəran* – "*Qədim Aran*" mənasındadır.

Əsgi dərə – Cəbrayıl rayonunun Şükürbəyli kəndi ərazisində qeydə alınmışdır. ***Əsgi*** sözü "*köhnə, qədim*" mənasındadır. Türk dillərində bu sözün "*alınmaz qayalı dağ*" mənaları da vardır. Bəziləri toponimi "*əsgili* (*parçalı*) *dərə*" mənası ilə yozmağa çalışırlar.

Əstəməz – Füzuli rayonunun ərazisində, Yuxarı Veysəlli kəndi yaxınlığında, Xocavənd istiqamətində qeydə alınan oroqrafik obyektlərdən biri ***Əstəməz*** adlanır. ***Əstəməz*** sözü ilə bağlı müxtəlif fikir və mülahizələr vardır. Toponimin dəqiq mənası məlum deyildir. Çox güman ki, bu oronim müəyyən təhrifə məruz qalaraq indiki halına düşmüşdür.

Əvəlikli ərazi – Xocalı rayonunda, Qarabağ silsiləsi ətəyində, Kosalar kəndi yaxınlığındakı ərazi ***Əvəlikli ərazi*** adlanır.

Əvəlikli ərazi – Şuşa rayonu ərazisində, Qarabağ silsiləsi ətəyində, Malıbəyli kəndi yaxınlığında qeydə alınan sahə. Bu oroqrafik obyekt adı qırxbuğum fəsiləsindən olan birillik və ya çoxillik ***əvəlik*** bitkisinin adı ilə bağlıdır. Həmin ərazidə uzunsov yumurtavarı yarpaqları növbəli düzülən, meyvəsi üçtilli toxumca olan, xalq təbabətində və eləcə də, Azərbaycan mətbəxində geniş istifadə olunan ***əvəlik*** ot və yanmkol bitkisi çox bitdiyi üçün toponim belə ad almışdır.

Əvəyin dəyirmanı – Xocavənd rayonunun ərazisində, Tuğ kəndinin yaxınlığında, kənddən 3 kilometr aralıda, Quruçayın kənarında qeydə alınan oroqrafik obyektlərdən biri ***Əvəyin dəyirmanı*** adlanır. Bəzi yerli məlumata görə, ***Əvək*** adam adıdır.

Əyri meşə – Xocavənd rayonunun Əmirallar kəndi yaxınlığında qeydə alınan oroqrafik obyekt.

Əyri yer – Laçın rayonunun ərazisində, Sonasar kəndi yaxınlığında, Ağbeyin düzünün aşağısında qeydə alınan oronim.

Əyridağ – Kəlbəcər rayonunda dağ.

Əzgilli burun – Kəlbəcər rayonunda qeydə alınan oronimlərdən biri belə adlanır. Toponim ***Əzgil*** ağacının adı ilə əlaqədar belə adlandırılmışdır.

Əzgilli dağ – Qubadlı rayonunun ərazisində qeydə alınan dağ.

Əzgilli dağ – Laçın rayonunun ərazisində dağ.

Əzgilli dərə – Şuşa rayonunda qeydə alınan dərə.

Əzgilli düz – Qubadlı rayonunun ərazisində qeydə alınan düzənlik.

Əzgilli meşə – Xocavənd rayonunun Tuğ kəndinin 2 kilometrliyində qeydə alınmış meşə.

Əzgilli meşəsi – Füzuli rayonunda qeydə alınan oronimlərdən biri də ***Əzgilli meşəsi*** adlanır.

Əzgillik – Xocavənd rayonunda, Tuğ kəndinin ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Əzgillik*** adlanır.

Əzgillik – Şuşa rayonunda qeydə alınan oronimlərdən biri belə adlanır.

Əzizpəyəsi qışlağı – Vaxtilə Laçın rayonunun ərazisində, dağətəyi sahədə, rayon mərkəzindən 65 kilometr şimal-qərbdə, Zorkeşiş və Qovuşuq kəndləri arasında yerləşən qışlaq, yurd yeri. ***Əziz -*** şəxs adıdır. O, qışlaqda yaşayan obanın başçısı olmuşdur. Bu söz "*sevimli, xətri istənilən, güclü*" mənalarında işlədilir. ***Əziz*** sözünün hərfi tərcüməsi "*qüdrətlinin (yəni Allahın) qulu*" deməkdir.. ***Əzizpəyəsi*** qışlağı Zəngəzurda yaşayan Qara Bayramlı tayfasına məxsus olmuşdur.

Farmaçtəpə/Farmaştəpə dağı – Laçın rayonu ərazisində, Qarabağ yaylasında qeydə alınmış dağ. Bu dağ Hocazsu çayının qolu İldırımsu və Minkənd çayının qolu olan Zabux çaylarının suayrıcısıdır. Yerli əhali dağı ***Fərməştəpə*** adlandırır. Dağın zirvəsi (yerli əhali ***təpə*** deyir) ***farmac*** (***fərməş***) formalı olduğu üçün ***dağ*** belə adlandırılmışdır. ***Farmaçtəpə/Farmaştəpə*** coğrafi adındakı ***farmaş*** sözünü yerli sakinlər "*yorğan-döşəyi yığmaq üçün düzəldilən bağlama*"nın adından götürmüşlər. ***Farmaçtəpə*** sönmüş vulkan konusudur. Dağın hündürlüyü 2330 metrdir.

Farmaş qaya – Laçın rayonunun Çorman kəndi ərazisində qeydə alınan oronimlərdən biri də ***Farmaş qaya*** oroqrafik obyektidir.

Farmaştəpə – Cəbrayıl rayonunun Aşağı Sirik kəndi ərazisində qeydə alınmış coğrafı ad ***Farmaştəpə*** adlanır. Adına bazən ***Farmaçtəpə*** də deyirlər. Yerli sakinlər ***Farmaştəpə*** cografi adındakı ***farmaş*** (*məfrəş*) sözünü "*yorğan-döşəyi yığmaq üçün üçün düzəldilən bağlama*" anlamlı ifadə kimi qəbul edir.

Fatimə Çələbinin heykəli – Cəbrayıl rayonunun Sirik kəndi ərazisində, kəndin girəcəyindəki qəbiristanlıqda qeydə alınmışdır. Bu ***heykəl*** 4 iyul 1989-cu il tarixdə Haqq dünyasına qovuşmuş ***Fatimə Çələbi Alı Çələbi qızının*** adı ilə bağlıdır. Sirik kənd camaatının şəxsi vəsaiti hesabına ucaldılan bu ***heykəl*** kənd camaatının ziyarət yerinə çevrilmişdir. Kənd ermənilər tərəfindən işğal olunandan ***heykəl*** də işğal zonasında qalmışdı. Hər il iyulun 4-də kənd camaatı Fatimə Çələbi Alı Çələbi qızının anım gününü keçirir...

Fəncanın yalı – Qarabağ silsiləsində, Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 17 kilometr cənub-qərbdə, Kərkicahan qəsəbəsinin yaxınlığında qeydə alınan oroqrafik obyekt.

Fərhadçapan qaya – Ağdam rayonunun Abdal kəndi yaxınlığında qeydə alınan ***Fərhadçapan qaya*** oronimi adındakı ***Fərhad*** və ***çapan*** sözləri Fərhadın o qayanı yarması, *çapması* ilə əlaqədar yaranmışdır. Toponim "*Fərhadın çapdığı qaya*" mənasındadır.

Fərhadın yeri – Kərkicahan qəsəbəsi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Fərhadın yeri*** adlanır. ***Fərhad*** adlı şəxs vaxtilə Kərkicahanda yaşamış və nüfuzlu bir şəxs olmuşdur. O, Qarabağ müharibəsində Kərkicahanın işğalı zamanı girov götürülən və ermənilər tərəfindən işgəncə ilə amansızcasına qətlə yetirilən ***Fərhad Atakişiyevin*** babasıdır.

Fərman tapı – Cəbrayıl rayonunun Aşağı Sirik kəndi ərazisində qeydə alınmış oronim.

Fətəli səngərləri – Xocalı rayonunun ərazisində qeydə alınmış oroqrafik obyektlərdən biri də ***Fətəli səngərləri*** adlanır. Toponimin belə ad alması XVIII əsrin ikinci yarısında Qarabağ xanlığının ərazisinə hücum edərək onu özünə (*İrana*) birləşdirməyə cəhd edən ***Fətəli*** şahın adı ilə bağlıdır. Belə ki, döyüşlər zamanı Qarabağ xanının qoşunlarının əks-hücumlarından müdafiə olunmaq üçün ***Fətəli şah*** burada ***səngərlər*** qazdırmışdır.

Fındıqlı çala – Cəbrayıl rayonunun ərazisində *fındıq* meyvə ağacı növləri adından düzələn oronim.

Fındıqlı gədik – Laçın rayonunun Fərəcən kəndi ərazisində qeydə alınan oronimlərdən biri də ***Fındıqh gədik*** adlanır. Oronim ***fındıq*** meyvə ağacı adından və relyef formasını ifadə edən ***gədik*** terminindən ibarətdir.

Fındıqlı quzey – Kəlbəcər rayonunda qeydə alınmış oronim.

Fındıqlı meşə – Xocalı rayonunun ərazisində meşə.

Fındıqlı meşə – Şuşa rayonunun Malıbəyli kəndi ərazisində qeydə alınan meşə.

Fındıqlı şam – Kəlbəcərin Laçın kəndi ərazisində qeydə alınmış oronim.

Fındıqlıq – Şuşa rayonun ərazisində qeydə alınan oronim.

Fingə dağı – Laçın rayonunda, Fingə kəndi yaxınlığında, dağətəyi ərazidə qeydə alınan dağ. ***Fingə*** XİX əsrin əvvəllərinə aid ədəbiyyatda dağ və qışlaq adları kimi qeyd olunmuşdur. ***Fingə dağı*** eyniadlı kəndin ətrafındadır. ***Fingə*** toponimi ***fin*** və ***gə/gah*** sözlərinin birləşməsindən əmələ gəlmişdir. ***Finka/finkə*** sözünün "*fin bıçağı*" mənası da var. ***Fin -*** "*soyuq*", "*sərin*" mənası daşıyır; ***gə/gah -*** "*məkan*, *yer*" mənasındadır. Deməli, ***Fingə*** toponimi "*sərin, soyuq yer*" mənasını ifadə edir.

Firəng yolu – Qarabağ silsiləsində, Xocalı rayonunun ərazisində, Qırxqız dağının ətəyində qeydə alınan oroqrafik obyektlərdən biri ***Firəng yolu*** adlanır. XX əsrin əvvəllərində Fransadan (*Firəngistandan*) bu yerlərə gələn ***firənglər*** buradan ***yol*** çəkdikləri üçün sonralar el arasında həmin ***yol*** onların adı ilə əlaqədar olaraq ***Firəng yolu*** adlandırılmışdır. ***Firənglər*** (*fransızlar*) bu yol ilə əsasən sənayedə daha çox istifadə etdikləri palıd ağaclarını daşıyırdılar.

Firudinin yeri – Laçın rayonunun Dəyhan kəndi ərazisində qeydə alınan oroqrafik obyekt.

Fuğanlı çinarları – Cəbrayıl rayonunun Fuqanlı kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən ikisi ***Fuğanlı çinarları*** (***q*** – ***ğ*** *səs əvəzlənməsi Qarabağ dialekti üçün xarakterikdir*) adlanır. Bu ***şərq çinarları*** çox qədim tarixə malikdir. Bu çinarların birinin ***900***, digərinin ***750*** yaşı vardır. ***900*** yaşı olan çinarın gövdəsinin diametri 500 santimetr, hündürlüyü 30 metrdir. ***750*** il yaşı olan çinarın gövdəsinin diametri isə 370 satimetr, hündürlüyü 30 metrdir. Çinarlar ***Fuqanlı*** kəndinin ərazisində olduğu üçün ***Fuğanlı çinarları*** adlandırılmışdır. İşğala qədər bu ağaclar qorunurdu.

Futbol dərəsi – Xocalı rayonunun ərazisində, Kərkicahan qəsəbəsinin 1 kilometrliyində qeydə alınan coğrafi adlardan biri də ***Futbol dərəsi*** adlanır.

Gamışdağ – Murovdağ silsiləsində, Kəlbəcər, Göygöl və Goranboy rayonlarının sərhəddində yerləşən dağ. Bəzən adı sənədlərdə ***Camışdağ*** kimi də yazılır. Dağın hündürlüyü 3724 metrdir. ***Gamışdağ*** Kiçik Qafqazın ən yüksək zirvəsidir. O, Yura sisteminin süxurlarından təşkil olunmuşdur. Dağın cənub yamaclarında Qaragöl gölü, şimal yamacında qədim buzlaq relyefi formaları və alp çəmənləri var. Şimal yamacda qədim buzlaşmanın izlərini bildirən morenlər-hamarlanmış, müxtəlif formalı qara və çal rəngli daşlar (*belə daşları əhali* ***qayma*** *adlandırır*) uzaqdan nohurda oturmuş camışları *(bu söz dialektdə* ***gamış*** *formasında işlənir)* xatırladığına görə, dağ ***Gamışdağ*** (*Camışdağ*) adlanmışdır. ***Gamışdağ*** Murovdağ silsiləsinin ən yüksək zirvəsidir (*dağın hündürlüyünü bəzən 3722 metr də qeyd edirlər*). Bu oronim zahirən ***camışa*** bənzədiyi üçün dağ belə ad almışdır.

Garrav – Xocavənd rayonunda, Tuğ kəndinin ərazisində qeydə alınan coğrafi adlardan biri ***Garrav*** (***Gərrav*)** adlanır. El arasında onun başqa bir adına da ***Qırmızı məbəd*** deyirlər. ***Garrav*** sözü ilə bağlı müxtəlif fikir və mülahizələr var. Toponimin mənası hələlik elmi şəkildə tam əsaslandırılmayıbdır.

Garrav-Qırmızı məbəd – Xocavənd rayonunun Tuğ kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Garrav – Qırmızı məbəd*** adlanır. Bu tarixi abidənin ***1000*** ildən çox yaşı vardır. ***Garrav – Qırmızı məbəd*** abidəsi orta əsrlər dövrünün yadigarlarındandır. Bu coğrafi adın izahı ilə bağlı müxtəlif fikir və mülahizələr müvcuddur. Toponimin mənası hələlik dəqiq müəyyənləşdirilməmişdir. ***Gar*** (***qar***) sözünün ərəb dilində "*mağara*" anlamı da məlumdur.

Gavallıq – Xocavənd rayonunda, Axullu kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri ***Gavallıq*** adlanır. Oronim ***gavalı*** sözündən və ***-lıq*** şəkilçisindən ibarət olub, "*gavalı meyvəsi çox olan yer*" mənasındadır.

Gavur düzü – Cəbrayıl rayonunun Şahvəlli kəndi ərazisində qeydə alınmışdır. Toponimin tərkibindəki ***gavur*** sözü "*kafir*" anlamındadır. Məlumdur ki, atəşpərəstlərin zamanında onlara ***kəbr*** deyilirdi.

Gavur qala – Laçın rayonunun Qaracanlı kəndi ərazisində qeydə alınan oronim ***Gavur qala*** adlanır. Toponim *"gavurların (kafirlərin) qalası"* anlamındadır. Toponimi ***gav*** ("*uçurum*") sözü ilə əlaqələndirənlər də var.

Gen dərə – Cəbrayıl rayonu ərazisində qeydə alınmış oronim.

Gen yal – Laçın rayonu ərazisində, Güləbird kəndi yaxınlığında qeydə alınmış coğrafi adlardan biri də ***Gen yal*** oronimidir.

Gendərə – Xocavənd rayonu ərazisində qeydə alınan dərə.

Genyataq – Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Genyataq*** adlanır.

Gədikdağ – Ağdam rayonunun Abdal kəndi yaxınlığında qeydə alınmışdır. Toponimin əsasını "*dağ belində keçid*', "*dağ aşırımı*" mənasında işlənən ***gədik*** komponenti təşkil edir.

Gəlin qayası – Qarabağ silsiləsində, Xocalı rayonu ərazisində, rayon mərkəzindən 15 kilometr məsafədə qeydə alınan oroqrafik obyektlərdən biri ***Gəlin qayası*** adlanır. Bu coğrafi adla bağlı çoxlu əfsanə və rəvayətlər yaranmışdır. Onlardan biri belədir: *Günlərin birində qucağı körpəli olan bir gəlin çaya tərəf gəlir. Körpə balası ilə ləpələrin arasında yuyunmaq həvəsinə düşür. Birdən görür ki, qayınatası çaya tərəf gəlir. Həyalı gəlin çıxış yolunu Tanrıya yalvarmaqda görür. Tanrıya yalvarır ki, onu daşa, qayaya döndərsin. Ulu Tanrı ismətli gəlinin yalvarışlarını eşidir və qucağı körpəli gəlini qayaya çevirir. Elə həmin zamandan bu qayaya* ***Gəlin qayası*** *deyirlər.*

Gəlin qayası – Şuşa rayonu ərazisində, Qarabağ silsiləsində, Şırlan kəndi yaxınlığında qeydə alınmış oroqrafik obyekt ***Gəlin qayası*** adlanır. Bu oronimın yaranması ilə bağlı bir sıra rəvayətlər uydurulmuşdur.

Gəlinqaya dağı – Laçın rayonu ərazisində qeydə alınmış dağ. Bəzi məlumata görə, ***dağın*** görünən ***qaya*** hissəsi ilk baxışda nəzərəçarpacaq dərəcədə ***gəlinə*** oxşadığı üçün belə adlanmışdır. Bir rəvayətə görə isə, çox-çox əvvəllər bir ***gəlin*** özünü bu ***qayadan*** aşağı atmış

və ölmüşdür. ***Dağ*** da ona görə belə adlandırılmışdır. Oronim bəzi ədəbiyyatlarda səhv olaraq ***Qalınqaya*** variantlarında da qeydə alınmışdır.

Gəncə qapısı – Şuşa şəhərinin şimal tərəfdən əsas giriş darvazası. Şuşanın giriş qapılarından biri olan ***Gəncə qapısı*** gözəl və möhtəşəm bir tikili idi. Bu qala divarları şuşalıların qəhrəmanlıq mübarizəsini özündə yaşadırdı. Bu divarlar uzun illər müxtəlif düşmənlərə sinə gərib, şuşalıların şərəfini qoruyub. ***Gəncə qapısı*** bir neçə dəfə dağılmış, lakın sonradan bərpa olunmuşdur. Tarixin ağır sınaqlarından çıxmış ***Gəncə qapısı*** bərpa olunarkən milli xüsusiyyətlərin qorunub saxlanılmasına ciddi fikir verilmişdir. Gəncə qapısının mühafizə zonasında xarakterinə görə respublikada ilk dəfə olaraq açıq səma altında tarixi-etnoqrafık "*Daş sənətkarlıq muzeyi*" yaradılımışdır. Bəzəkli qapı tağları kompozisiyası, oyma səpkidə düzəldilmiş milli naxışlı sütunaltı daşlar adamı heyran edirdi. Naməlum el sənətkarı tərəfindən yaradılan ***Gəncə qapısı*** Şuşa işğal olunana qədər dekorativ tətbiqi sənət əsəri kimi öz dəyərini itirməmişdi.

Gəncəhan düzü – Laçın rayonunun Köhnəkənd kəndi ərazisində qeydə alınan oronimlərdən biri də ***Gəncəhan düzü*** oronimidir. ***Gəncəhan*** sözünü araşdırıcılar müxtəlif cür izah edirlər. Bu sözü ayrı-ayrı komponentlərə bölənlər də, ona antroponim kimi yanaşanlar da var. ***Gənc***, ***kənz -*** fars dilində "*xəzinə*", "*dəfinə*" deməkdir. ***Əx/əh -*** "*qardaş*" (ərəbcə) mənasını ifadə edir. ***An*** komponentini "*məkan*, *yer*", "*işarə əvəzliyi*" və ya "*zaman*" kimi də izah edənlər var. Toponim "*xəzinə saxlanan yer*" kimi İzah oluna bilər. Onu ***ğəncək*** tayfasının adı ilə də əlaqələndirirlər. Bu sözə ərəb dilindəki ***kənisə*** ("*atəşpərəstlər məbədi*") sözünün təhrif forması kimi yanaşanlar da var.

Gəvən dağı – Ağdam rayonunun Abdal və Gülablı kəndləri yaxınlığında qeydə alınan maraqlı oronimlərdən biri də ***Gəvən dağı*** oroqrafik obyektidir. Bu dağda böyük və qaranlıq tunel var. Bəzi elmi ədəbiyyatlarda toponimin ***Gavandağ*** şəklində qeydə alınması yanlışdır.

Gəyən düzü, Gəyən çölü – Azərbaycanın Cəbrayıl rayonu ərazisində, rayonun qərb hissəsində, Dərvişpirimdən başlayaraq Cəbrayıl çaylağına qədər uzanan geniş ərazidə, Qarabağ silsiləsi ilə Araz çayı arasında yerləşir. ***Gəyən*** düzünün sahəsi min hektarlarla yovşanlı düzənliklərdən ibarətdir. ***Gəyən çölü*** (bəzən adını ***Gəyan*** kimi də yazırlar) antropogen sisteminin qum, gilcə, çaqıl daşlarından təşkil olunmuşdur.

Gicitkanlı dərə – Şuşa rayonunun Səfixanlar kəndi yaxınlığında qeydə alınan dərə.

Gilaslıq – Cəbrayıl rayonunun Qalacıq kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Gilaslıq*** adlanır.

Gilaslıq – Xocavənd rayonunun Düdükçü kəndi ərazisində, kəndin aşağısında, dağətəyi ərazidə qeydə alınan oroqrafik obyekt.

Gillik – Füzuli rayonunun Qacar kəndi yaxınlığında qeydə alınan oronim. Yerli məlumata görə, hətta əvvəllər sabun qıt olanda kənd qadınları pal-paltarı burada yuyub suya çəkərdilər. ***Gil*** - tərkibi əsasən ***gil*** minerallarından ibarət olan plastiklik xassəsinə malik çökmə süxurdur.

Gizlin – Laçın rayonunun Ağcakənd kəndi ərazisində qeydə alınan maraqlı coğrafi adlardan biri də ***Gizlin*** adlanır. Həmin ərazi münasib xəlvəti, ***gizlin*** yer olduğu üçün yerli əhali ona **Gizlin** adı vermişdir.

Gor qəbri – Ağdam rayonunun Abdal kəndi yaxınlığında, dağətəyi ərazidə, meşənin qalınlığında qeydə alınmış oroqrafik obyekt ***Gor qəbri*** adlanır. Yerli məlumata görə, həmin

qəbir qeyri-müsəlman, *kafir* bir adamın qəbridir. Yerli əhali arasında bəzən onu ***Gavur qəbri*** də adlandırırlar.

Gordu baba – Cəbrayıl rayonunun ərazisində, Xələfli kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri də ***Gordu Baba*** (*bəzən adını* ***Gordubaba*** *şəklində də yazırlar*) coğrafi adıdır. *Gordu Baba* adlanan həmin ərazi yerli əhali tərəfindən müqəddəs hesab edilir. Qədim tarixə malik olan bu pir Xələfli camaatının inanc ocağıdır. ***Gordu Baba*** toponimi ilə bağlı müxtəlif əfsanələr yaranmışdır...

Govurqala şəhər xarabalığı – Ağdamın Boyəhmədli kəndi ərazisində III - X əsrlərə aid şəhər yeri və qəbiristanlıq belə adlanır. 40 hektar sahəsi olan bu şəhər xarabalığının Qafqaz Albaniyası hökmdarlarının yay iqamətgahı olması güman edilir. Çox ehtimal ki, 488-ci ildə *Kilsə məclisi* çağırılan ***Aluen*** (***Aquen***) şəhər xarabalığı elə buradır. Şəhərin ətrafına çiy kərpicdən hasar çəkilmiş (V - VII əsrlər) *Narınqala* hissəsi təpə üzərindədir. Şəhərə saxsı tünglərlə bulaq suyu çəkilmişdir. Arxeoloji qazıntılar zamanı buradan muncuq, toxuculuq alətləri, daşdan tikilən evlər, bütpərəstliyə və xristianlara məxsus məbədlər, qəbiristanlıq və s. aşkar edilmişdir. Tapıntılar içərisində Suriyada hazırlanmış şüşədən olan ətir qabı, Bizans imperatoru I Anastasinin (491-581) adına kəsilmiş pul və digər əşyalar da vardır. ***Govur***, ***gavur*** - fanatik müsəlmanların xristianlara verdiyi ərəbcə olan addır. Dinsizə, ***kafirə***, müsəlman dininə inanmayanlara ***gavur*** deyilir. Farslarda bu söz ***kəbr*** kimi əvvəllər atəşpərəstlərə ünvanlanarmış; sonralar türklərdə bu ad ***kafir*** - "*dinsiz*" mənasında işlədildi. Bəzi müsəlman xalqlarında başqa dinlərə sitayiş edənlərə, bidətçilərə və başqalarına ***kafir***, ***gavur*** deyirlər. ***Govur*** sözü ilə bağlı Qabaq və Mərkəzi Asiyada çoxlu toponimlər var.

Govurqala təpəsi – Laçın rayonunun ərazisində qeydə alınan yüksəklik. Azərbaycan dilinin dialektlərində "*daşlı keçid*" mənasında işlədilən ***gav*** türk mənşəli sözü də vardır ki, bəziləri toponimi onunla bağlayır. ***Gav*** sözünün fars dilində "*çətin keçilən dağ aşırımı*" mənası da var. ***Govur/gavur*** sözü ərəbcə "*müsəlman olmayan*, *kafir*" deməkdir. Bir çox müsəlman ölkələrində, o cümlədən, Azərbaycanda İslamdan (VII əsr) əvvəl tikilmiş qalalar və s. guya *gavurlara (govurlara)* – yəni dinsizlərə məxsus olduğu üçün onların adı ilə adlanmışdır. Toponim "*təpədə gavurların tikdiyi qala*" mənasındadır.

Gödək bazı – Füzuli rayonunun ərazisində qeydə alınmış oronim. ***Bazı*** sözü "*təpəcik*", "*tirə*", "*mərz*", "*dikdir*", "*su çıxmayan hündür yer*" mənalarında işlədilir. Kürdmahmudlu kəndi yaxınlığındakı ***Gödək bazı*** oronimi həmin ərazidəki təpəciyin ***gödək*** olması ilə əlaqədar olaraq belə ad almışdır.

Gödək bazı – Xocavənd rayonunun ərazisində, Əmirallar kəndi yaxınlığında qeydə alınan oronim. ***Bazı*** sözü "*təpəcik*", "*tirə*", "*mərz*", "*dikdir*", "*su çıxmayan hündür yer*" mənalarında işlədilir.

Gödək burun – Xocavənd rayonunun ərazisində, rayon mərkəzindən 10 kilometr məsafədə, keçmişdə rayonda mövcud olmuş Bəhrəmli kəndinin yaxınlığında qeydə alınmış oronimlərdən biri ***Gödək burun*** adlanır. Toponimiyada qurunun, qayanın və ya dağın sivri bucaq şəklində düzünə tərəf uzanmış hissəsi ***burun*** adlanır. Həmin çıxıntının zahirən ***gödək*** olması ilə əlaqədar oronim belə ad almışdır.

Gödəkburun – Cəbrayıl rayonunun Dağ Tumas kəndi ərazisində qeydə alınmışdır. ***Burun*** termini "*qayanın, dağın, qurunun sivri bucaq şəklində çıxıntısı*" mənasındadır.

Göl dərəsi – Füzuli rayonunun Gecəgözlü kəndi ərazisində qeydə alınan oronimlərdən biri ***Göl dərəsi*** adlanır. Toponim "*dərədə olan göl*" anlamındadır.

Göl yeri – Xocavənd rayonunda, Muğanlı kəndinin yaxınlığında, Ağ yoxuş ətrafında qeydə alınan oroqrafik obyektlərdən biri ***Göl yeri*** adlanır. Yerli sakinlərin dediklərinə görə, vaxtilə burada böyük ***göl*** mövcud olmuşdur.

Göldərə – Cəbrayıl rayonunun Hacılı kəndi ərazisində qeydə alınmışdır.

Göllü bağ – Xocalı rayonu ərazisində, rayon mərkəzindən 2 kilometr məsafədə qeydə alınan oroqrafik obyektlərdən biri ***Göllü bağ*** adlanır.

Göllü dərə – Xocavənd rayonunun ərazisində qeydə alınan dərə.

Göllütəpə – Xocalı rayonunun ərazisində, Kərkicahan qəsəbəsinin 2 kilometrliyində qeydə alınan oroqrafik obyektlərdən biri ***Göllütəpə*** adlanır.

Gölmə – Xocavənd rayonunun Muğanlı kəndi yaxınlığında, Ağ yoxuş ətrafında, quru çökəklikdə qeydə alınan coğrafi adlardan biri də ***Gölmə*** oroqrafik obyektidir. Adətən yağan yağışlardan sonra burada böyük ***gölməçə***, ***nohur*** əmələ gələrdi. Bu ***gölmə*** yeraltı və səth suları ilə qidalanır.

Gövhərağa məscidi – 1768-1769-cu illərdə Qarabağ xanı İbrahimxəlil xanın Şuşa şəhərinin mərkəzində, Meydan deyilən sahədə, "Yuxarı məhəllə" ərazisində tikdirdiyi Cümə məscidi. 1865-ci ildə Gövhər ağanın bərpa etdirib tamamilə yeniləşdirdiyi ***Böyük Cümə məscidi*** tikilib başa çatdı. O vaxtdan həmin məscidə yerli sakinlər ***Gövhərağa məscidi*** deməyə başladılar. ***Gövhər ağa*** Qarabağ xanı İbrahimxəlil xanın gürcü knyazı Abaşidzenin qızı Cavahir xanımdan olan qızıdır. Maarif və mədəniyyətin inkişafına çalışan ***Gövhər ağa*** bütün əmlakını təmir etdirdiyi məscidə vermiş və bunun hesabına Şuşada az sonra "*Dar üş-şəfa*" mədrəsəsi açılmışdı.

Göy atlı qəbri – Cəbrayıl rayonunun ərazisində, Sirik kəndi yaxınlığında, Qoravar düzünün baş hissəsində qeydə alınmışdır. Deyilənə görə, yaşı bilinməyən bu ***qəbirdə*** qara qazağı papaqlı ***göy atlı*** bir igid uyuduğu üçün yerli əhali tərəfindən toponim belə adlandırılmışdır.

Göy qaya – Qubadlı rayonunun ərazisində qeydə alınan qaya. Bu oronimin süxurları ***göy*** rəngdə olduğuna görə o, belə adlandırılmışdır.

Göy təpə – Füzuli şəhərinin 5 kilometrliyində qeydə alınmış coğrafi ad. Burada aparılan arxeoloji tədqiqatlar nəticəsində müxtəlif tarixi dövrlərə (Mis, Tunc, Dəmir) aid çoxlu maddi-mədəniyyət abidələri tapılmışdır. ***Göy təpə*** oronimi həmin təpənin daim ***yaşıllıq, göylük*** olduğuna görə belə ad almışdır.

Göy təpə – Xocavənd rayonunun ərazisində təpə. ***Göy təpə*** oroqrafik obyekti daim yaşıllıq, *göylük* olduğuna görə belə ad almışdır.

Göyarx dərəsi – Ağdam rayonunda dərə. Rayonun Həsənqaya kəndi ərazisində qeydə alınan ***Göyarx dərəsi*** oroqrafik obyekti dərədən axan arx suyunun *göy* rəngdə olması ilə əlaqədar belə ad almışdır.

Göyçə dərəsi, Göydərə – ***Göyçə dərəsi*** oroqrafik obyekti Cəbrayıl rayonunun Mahmudlu kəndi ərazisində qeydə alınmışdır. ***Göydərə*** oronimi Cəbrayıl rayonunun Dəcəl kəndi ərazisində qeydə alınmışdır. ***Dərə -*** mənfi relyef forması bildirən coğrafi termindir. ***Göy*** termini isə *rəng* mənasında olub, bu dərələrin yaşıllıq, ***göylük*** (*göy otlu*) olmasını əks etdirir.

Göyçələr yeri – Laçın rayonunun Hocaz kəndi ərazisində qeydə alınmış oronim. Toponim *Göyçələr* nəslinin adı ilə əlaqədar olaraq belə adlanmışdır. ***Göyçə*** sözü Qərbi Azərbaycanda

(*Ermənistanda*) yerləşən ***Göyçə*** coğrafi adı ilə bağlıdır. ***Göyçələr yeri*** toponimi "*göyçəlilərə məxsus olan yer*", "*ğöyçəlilərin yurd yeri*" mənasındadır.

Göydərə – Kəlbəcər rayonunda qeydə alınmış toponim. ***Göydərə*** oroniminin tərkibindəki ***"göy"*** sözü rəng mənasında işlənmişdir.

Göydərə Xromit yatağı – Kəlbəcər rayonunda, İstibulaq kəndindən 2 km şimal-qərbdə, dəniz səviyyəsindən 2290 metr yüksəklikdə yerləşən yataq. Bu ***yataq*** 1927-cı ildən məlumdur. ***Xromit*** filizi kütlələri uzanma istiqaməti 310-340, qalınlığı 0,5-15 metr, uzunluğu 350 metr olan serpentinləşmiş dunit süxurları zonasında yayılmışdır. Bu kütlələr diametri 4x6 metrdən 0,2x0,4 metr və daha kiçik olan girdə, nadir halda linzavari yuvalar əmələ gətirir. Yuvalar şimal-şərq istiqamətli olub, 50^0 - 75^0 bucaq altında yatır.

Göyərçin qayası, **Göyərçinli təpə** – Laçın rayonunun Minkənd kəndində qeydə alınmış ***Göyərçinli təpə*** coğrafi adı ***göyərçin*** quş adı ilə bağlı yaranan oroqrafik obyektlərdəndir. Bu oronimin yaranmasına, belə adlanmasına səbəb həmin təpədə təsadüf olunan ***göyərçin*** quşlarının çoxluğu olmuşdur.

Göyərçinli dağ – Cəbrayıl rayonunun Veysəlli kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Göyərçinli dağ*** adlanır. Bu oronim zoonim ilə ifadə olunmuşdur. Toponimiyamızda qədim türkdilli tayfalardan biri olan peçeneqlərin və onların tərkibinə daxil olmuş tayfa və tirələrin adları qalmışdır. VIII **-** IX əsrlərdə Cənubi**-**Rus çöllərində yaşamış peçeneq tayfalarından biri ***küyərçi*** (***kuyerçi***) adlanmışdır. Oronimin tərkibindəki ***göyərçin*** komponenti ***küyərçi*** tayfa adının təhrif olunmuş formasıdır. *Dağın* düzgün adı ***Kuyərçi*** olmalıdır. XIX əsrə aid olan məlumata görə, Qars əyalətinin Kaqızman dairəsində ***Göyərçin*** adlı iki kənd və bir *dağ*, Cavad qəzasında *Göyərçin qışlağı*, İrəvan qəzasında *Göyərçin* adlı xarabalıq da mövcud olmuşdur.

Göyqaya – Kəlbəcər rayonunda qeydə alınmış qaya. **Göyqaya** oroniminin tərkibindəki ***"göy"*** komponenti rəng mənasında işlənmişdir.

Göyqaya – Şuşa rayonu ərazisində qeydə alınmış qaya.

Göyrüşlü yer – Füzuli rayonunun ərazisində qeydə alınan oronim. Toponim həmin ərazidə ***göyrüş*** ağacının çoxluğu ilə əlaqədardır. **Göyrüş** - zeytun kimilər fəsiləsindən, fraxsinus cinsindən qışda yarpaqlarını tökən bitkidir. Onun adına ***dişbudaq*** da deyirlər.

Göyrüşlü zirvəsi – Ağdam rayonunun Sırxavənd kəndi yaxınlığında qeydə alınan oronimlərdən biri də ***Göyrüşlü zirvəsi*** adlanır. Zirvənin belə adlanması həmin ərazidə ***göyrüş*** ağaclarının çox olması ilə əlaqədardır.

Göytəpə – Ağdam rayonunun *Göytəpə kəndi* yaxınlığında qeydə alınmış oroqrafik obyektlərdən biri də **Göytəpə** oronimidir.

Göytəpə – Laçın rayonunun ərazisində, Güləbird kəndi yaxınlığında qeydə alınan ***Göytəpə*** oronimi rəng bildirən ***göy*** sözünün müsbət oronimik termin olan ***təpə*** komponenti ilə birləşməsi nəticəsində yaranmışdır.

Göytəpə nişangahı – Cəbrayıl rayonunun ərazisində, Göyərçin Veysəlli kəndi ilə Keyxalı kəndinin arasından keçən qədim karvan yolunun üzərində, təpə üstündə qeydə alınan oroqrafik obyektlərdən biri ***Göytəpə nişangahı*** adlanır. Hərrəmə daş qalağından ibarət olan bu oronim ***göy*** rəngə çalan ***təpə*** üzərində yerləşdiyi üçün belə adlandırılmışdır.

Göyüş təpəsi – Laçın rayonunun Zəylik kəndi ərazisində qeydə alınmışdır. Toponimin tərkibindəki ***Göyüş*** sözü şəxs adını ifadə edir.

Gup-Gup – Cəbrayıl rayonunun ərazisində, Dağ Tumas kəndinin 4 kilometrliyində, Dağ Tumasdan Qazanzəmi və Xanağabulağı kəndlərinə gedən yolların ayrıcında, Lələ bulağının üstündə, dağətəyi sahədə qeydə alınan oronimlərdən biri ***Gup-gup*** adlanır. ***Gup-gup*** oronimi dağlı-daşlı təpəliyin üzərində yerləşir. Toponimin ***Gup-gup*** adlanması ilə bağlı müxtəlif fikir və mülahizələr vardır.

Gur Mustafa piri – Cəbrayıl rayonunun Dağ Məzrə kəndinin ayağındakı tayfa qəbiristanlığında yerləşir. Adına bəzən ***Gurmuştu piri*** də deyirlər. ***Gur Mustafa piri*** daş hərləməsi olan hasardır. Bu hasarın içərisində qaramıx kolu bitir. Yerli sakinlər bu kolun dibindən tez-tez işıq şölələndiyinin şahidi olmuşlar. İnancı olanlar niyyət edib, bu kolun dibində şam yandırır, kolun qanadlarına ip, sap, parça kəsikləri düyünləyirdilər. ***Pir*** yerli sakinlər tərəfindən əziz tutulurdu. Coğrafi adın tərkibindəki ***Mustafa*** sözü adam adı ilə bağlıdır.

Gül ocaq – Cəbrayıl rayonunun Çələbilər kəndi ərazisində Hacı Qaramana məxsus qədim Qara damın *ocaq* yeri ***Gül ocaq*** adlanır. Yerli sakinlərin dediklərinə görə dəfələrlə ocaq yerində ***gül*** bitməsi, *çiçək* açması müşahidə olunur. Bu, doğrudan da möcüzədir. Qara damın başqa bir möcüzəsi də orta dirəyinin hələ də yerində olmasıdır. Bu dirəyin indi ancaq kol bitkisi kimi rast gəlinən *topurqulu* ağacından yonulduğu bildirilir.

Gülabçalan yal – Xocavənd rayonunun ərazisində, rayon mərkəzindən 10 kilometr məsafədə, keçmişdə ərazidə mövcud olmuş Bəhrəmli kəndinin yaxınlığında qeydə alınmışdır. Toponim ***Gülab*** şəxs adından və ***çalan*** sözündən, eləcə də müsbət relyef forması ifadə edən ***yal*** terminindən ibarətdir. Yaşı çox olan yerli sakinlərin dediklərinə görə, vaxtilə yaldakı həmin otlaq sahəsini ***Gülab*** adlı şəxs ***çaldığı*** üçün yer onun adı ilə adlandırılmışdır.

Gülabi yatağı – Cəbrayıl rayonunun Səfərşa kəndi ərazisində qeydə alınmış coğrafi ad. ***Gülab*** - qızılgüldən xüsusi üsullarla alınan duru mayeyə deyirlər. Ehtimal ki, toponim keçmişdə paltar yumaq üçün istifadə olunan *gilabın* çıxarıldığı yer ilə əlaqədardır.

Gülablı bağı – Qubadlı rayonunun Mahrızlı kəndinin ərazisində qeydə alınan bağ. ***Gülablı*** toponimi "*gül suyu*" mənasındadır.

Gülablı dağı – Ağdam rayonunun Gülablı kəndi yaxınlığında, Qarabağ silsiləsindən Qarabağ düzünə uzanan qol üstündəki zirvə ***Gülablı dağı*** adlanır. Oronimin adındakı ***Gülablı*** sözünü ***gilabı*** adının təhrifi kimi izah etmək istəyənlər var. ***Gilabı*** - keçmişdə paltar yumaq üçün sabun əvəzinə istifadə olunan gil növüdür. ***Dağ*** burada ***gilabı*** gili olmasına görə belə adlandırılmışdır. Toponimin izahı ilə bağlı əlbəttə ki, başqa fikirlər də mövcuddur. Yerli məlumata görə, ***dağ*** alış-verişlə məşğul olan ***Gülab*** adlı bir tacirin adı ilə bağlıdır. Erkən orta əsrlərdə indiki Dağlıq Qarabağda, Gülablı kəndinə yaxın ərazidə ***Gilab*** adlı ***qala*** olmuşdur. ***Gülablı*** coğrafi adını onunla da əlaqələndirənlər var.

Güldür dərəsi – Xocavənd rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Güldür dərəsi*** adlanır. Toponimin ad açımı ilə bağlı müxtəlif fikir və mülahizələr vardır. Bəzi araşdırıcılar ***güldür*** formantının ***quldur*** sözündən törəndiyini bildirir. Yerli məlumata görə, həmin dərədə vaxtilə *quldurlara*, soyğunçulara tez-tez rast gəlindiyindən o, belə ad almışdır.

Güllü dərə – Füzuli rayonunun Qacar kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri də ***Güllü dərə*** coğrafi adıdır. Oronimin tərkibindəki ***güllü*** sözü həmin dərədə ***güllərin*** çoxluğu ilə əlaqədardır. Bu ərazidə çoxlu ***qızılgül*** kolları da vardır. Toponim *"gül çox olan dərə"* mənasındadır.

Güllü köbər, **Güllü tap** – Ağdam rayonu ərazisində qeydə alınmış oroqrafik obyektlər. Tərkibində ***gül*** sözü olan fitonimik oronimlərə Ağdam rayonu ərazisində də rast gəlirik. ***Güllü köbər*** oronimindəki ***köbər*** sözü "*dik*, *dikdir*", "*hündür yer*", "*təpəlik*" anlamındadır. Toponim "*güllü təpəlik*" mənasındadır. Ağdam rayonu ərazisində qeydə alınan bu tipli oronimlərdən biri də ***Güllü tap*** adlanır. Qədim türk dillərində işlənən ***tap*** sözü dialektlərimizdə "*dağ düzənliyi*", "*düzən yerdə təpə*", "*su çıxmayan düzən yer*", "*dağ döşündə düzənlik*", "*təpə*" və s. mənalarda işlədilir.

Güllücə aşırımı, **Güllücə dağı** – Ağdam rayonunda, Güllücə inzibati ərazi vahidində, rayon mərkəzindən 24 kilometr şimalda, Qarabağ düzündə, Qarabağ dağ silsiləsində yerləşir. ***Güllücə*** sözü "*güllü, çiçəkli yer*", "*çoxlu gül-çiçək olan sahə*" mənasındadır. Bu fikrin özünü ərazi üçün səciyyəvi hesab etmək olar. Bir məlumata görə, eyniadlı kəndin ilk ailələri XIX əsrin əvvəllərində Qərbi Azərbaycanın (*Ermənistanın*) Amasiya mahalından gəlmişlər. Məlumdur ki, vaxtilə İrəvan əyalətinin Xınzirək və Şırakel nahiyələrində, İrəvan xanlığının Qırxbulaq mahalında, İrəvan quberniyasının Eçmiədzin, Sürməli qəzasında, Qars əyalətində (*sonralar Amasiya rayonunda*), eləcə də, Spitak (*Hamamlı*) və Abovyan (*Ellər*) rayonlarında ***Güllücə*** kəndləri vardı. Ağdam rayonunun Güllücə kəndi ***Güllücə*** adlanan ərazidə salındığı üçün belə adlanmışdır. Bəzi araşdırıcılara görə isə, oronimin adı paxlalılar fəsiləsindən olan ***güllücə*** bitkisinin adı ilə əlaqədardır. Oykonimi ***qarapapaq*** tirələri ilə bağlayan araşdırıcılar da var.

Güllücə aşırımı, Güllücə dağı – Xocavənd rayonu ərazisində, rayon mərkəzindən təxminən 65 kilometr cənub-qərbdə, Qarabağ silsiləsində, Ziyarət dağının (*hündürlüyü 2478 metr*) yaxınlığında qeydə alınan oronimlərdən biri ***Güllücə aşırımı*** və ya ***Güllücə dağı*** adlanır. Bəzi araşdırıcılara görə dağın adı *paxlalılar* fəsiləsindən olan ***güllücə*** bitkisinin adı ilə əlaqədardır. Bir sıra məlumatlara görə vaxtilə bu ərazidə ***Güllücə*** adlı kənd də olub. ***Güllücə*** oykonimini ***qarapapaq*** tirələri ilə bağlayan tədqiqatçılar da var. Ağdam rayonunda ***Güllücə kəndi*** var.

Güllücə ocağı – Ağdam rayonunun Suma və Güllücə kəndləri yaxınlığında qeydə alınan müqəddəs tapınaq yeri. Bu ***ocaq*** yerli sakinlər və ətraf ərazilərdən gələn əhali üçün müqəddəs hesab olunurdu. Bu pir-ocaq Güllücə kəndi yaxınlığında yerləşdiyi üçün ***Güllücə ocağı*** adlandırılmışdır...

Güllüdərə – Füzuli rayon mərkəzindən 12 km şimal-qərbdə, Qacar kəndi yaxınlığında, Qarabağ silsiləsinin ətəyində, Köndələnçayın sahilində yerləşir. ***Güllüdərə*** toponimi həmin *dərədə* çoxlu ***gül*** bitkisinin olması ilə əlaqədar yaranan oronimdir.

Güllütəpə - Füzuli rayon mərkəzindən 3 km cənubda, Murğuzlu yalı deyilən əraziyə yaxın olan tut bağlarının yanında qeydə alınan oronim ***Güllütəpə*** adlanır.

Güllütəpə – Xocavənd rayonunun ərazisində qeydə alınmış oroqrafik obyektlərdən biri ***Güllütəpə*** adlanır.

Gülməmmədlilər dərəsi – Cəbrayıl rayonunun ərazisində, Dağ Tumas kəndinin yaxınlığında, *Gödəkburun* ilə *El cədəsi* arasında o qədər də uzun olmayan dərə ***Gülməmmədlilər dərəsi*** adlanır. ***Gülməmmədlilər dərəsi*** toponimi "*Gülməmmədli nəslinə məxsus olan dərə*" anlamındadır.

Gülmətəpə dağı – Xocavənd rayonunun ərazisində, rayon mərkəzindən 4 kilometr şimal-qərbdə, Qaraçuq kəndi ərazində, Əmirallar və Muğanlı kəndləri yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Gülmətəpə dağı*** adlanır. ***Dağ / tağ*** sözünə VI-VIII əsrlərə aid qədim türk yazılı abidələrində rast gəlirik. ***Gülmətəpə dağı*** toponiminin ad açımı ilə bağlı yerli əhali arasında coxlu fikir və mülahizələr mövcuddur.

Güloğlan yatağı – Cəbrayıl rayonu ərazisində qeydə alınan ***Güloğlan yatağı*** oronimi ***Güloğlan*** şəxs adından və ***yataq*** terminindən əmələ gəlmişdir; "*Güloğlana məxsus olan yataq*" mənasındadır.

Gülyaz piri – Cəbrayıl rayonunun Minbaşılı kəndi ərazisində, kəndin gündoğanındakı *Pir dərəsi* deyilən yerdə qeydə alınmış oroqrafik obyekt. Kiçik daş hərləməsindən ibarət olan bu pirin mənşəyi qeyri-müəyyəndir. ***Gülyaz piri*** Minbaşılı kənd camaatının müqəddəs inanc yeri hesab olunur. Niyyət tutub ziyarətə gələnlər buradakı daşların üstündə şamlar yandırar, niyyətlərinin yerinə yetməsi üçün dualar edərdilər.

Günbəz – Qarabağ silsiləsinin ətəyində, Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 1,5 kilometr məsafədə qeydə alınan oroqrafik obyektlərdən biri ***Günbəz*** adlanır. Yerli camaat tərəfindən müqəddəs hesab olunan bu ***günbəz*** dairəvi və çoxbucaqlı tikilidir. Ümumiyyətlə, ***günbəz*** – "*dairəvi, çoxbucaqlı və ellipsvarı bina və qurğuların çevrilmiş kasa formalı örtüyü*" anlamındadır. ***Günbəzlər*** oturacaqdan yuxarıya tərəf hörgü sıralarının getdikcə daraldılması yolu ilə yaradılır. Qədim dövrlərdən məlum olan günbəzlərə bəzən *sərdabə* və ya *türbə* də deyirlər.

Günbəz diki – Laçın rayonunun ərazisində qeydə alınan yüksəklik. ***Günbəz diki*** oronimi Laçın rayonunun Nurəddin kəndi ərazisində qeydə alınmışdır.

Günbəz piri – Cəbrayıl rayonunun Dağtumas kəndindən 3 kilometr cənubda, Gəyən düzü ərazisində, tökmə təpə üzərində qeydə alınan oroqrafik obyektlərdən biri ***Günbəz piri*** adlanır. Üst örtüyü olmadığından ona ***Başıkəsik günbəz*** də deyirlər. Bu pirin üzlük daşı ağ rəngdədir. El arasında *Günəş günbəzi* hesab olunur. Havalar uzun müddət yağışlı keçəndə günbəzdə mal qurbanları kəsilər və kəsilmiş heyvanın əti evlərə paylanardı. Günbəz pirindən yağışın kəsməsi, günəş çıxması dilək edilərdi. ***Pir -*** farsca "*nurani qoca*", "*müqəddəs*", "*dini icmanın başçısı*" və s. mənalara malikdir. Azərbaycanda ***pir*** sözü ilə bağlı yüzlərlə oronim, hidronim və ***37*** yaşayış məntəqəsi (*oykonim*) vardır.

Günbəzdağ – Qubadlı rayonunun ərazisində, Bazarçay çayından sol tərəfdə yerləşən dağ. ***Dağ*** oradakı ***günbəzvari*** qədim tikilinin olması ilə əlaqədar belə adlandırılmışdır. Yüksəklik zahiri görkəm etibarı ilə ***günbəzə*** oxşadığı üçün oronim belə adlandırılmışdır.

Güney dağ – Cəbrayıl rayonunun ərazisində qeydə alınmış oroqrafik obyekt. ***Güney*** coğrafi termini – "*təpənin, dağın cənuba, cənub-şərqə tərəf baxan hissəsi*", "*Günəş şüası çox düşən tərəf*", "*dağın gündüşən, meşəsiz tərəfı*", "*cənub*" kimi mənalar ifadə edir.

Güney qobu – Zəngilan rayonunun ərazisində qeydə alınan oronimlərdən biri ***Güney qobu*** adlanır. ***Güney qobu*** oronimi "*gün tutan kiçik dərə, çuxur*" mənasındadır.

Güney yataq – Cəbrayıl rayonunun Nüzgər kəndi ərazisində qeydə alınan oronimlərdən biri ***Güney yataq*** adlanır. Oronim ***güney*** coğrafi terminindən və ***yataq*** sözündən ibarətdir. Müsbət relyef forması bildirən ***güney*** coğrafi termini "*dağın, təpənin, binanın və s.-nin gün düşən tərəfi*", "*günəşli yer*", "*cənub*" mənasını ifadə edir.

Güneyqaya – Ağdam rayonu ərazisində qeydə alınan oroqrafik obyekt. ***Güney*** termini Azərbaycan dilində "*cənub*", "*dağın, qayanın cənuba, cənub-şərqə baxan hissəsi*", "*Günəş şüası çox düşən tərəf'* anlamları mənası ilə ifadə olunur.

Günəş Ata – Cəbrayıl rayonunun ərazisində qeydə alınan pir. ***Günəş Ata*** Tumas Atanın yeddi qardaşlarından biri hesab edilir. O, Çaytumas kəndinin Yuxarı məhəllə qəbiristanlığının

cənub hissəsində, Gündoğan çalasında dəfn edilmişdir. Qəbrin üzərində qaratikan kolu və daş nişanələri vardır. İnanclara görə havalar həddindən çox yağmurlu keçəndə kənd camaatı *Günəş Ataya* qurban deyər, günəşin çıxmasını ondan diləyərdilər.

Günəştəpə yaşayış yeri – Füzuli şəhərinin şimalında, Köndələnçayın sağ sahilində Eneolit və Erkən Tunc dövrü insan məskənidir. **1964**-cü ildə arxeoloji qazıntılar zamanı *Günəştəpədə* Eneolit və Tunc dövrlərinə aid gil qablar, daş alətlər, qab nümunələri, heykəlciklər, əkinçilik alətləri və s. aşkar edilmişdir. M. ö. II minillikdə ***Günəştəpə*** qəbiristanlığa çevrilmişdir. Günəştəpədə açılan qəbirdən cam formalı 2 ədəd qab da aşkar edilmişdir. Onların biri narın qum qatışıqlı gildən hazırlanmış qara cilalı, yuvarlaq gövdəlidir. İkinci ağız kənarı düz olan boz rəngli və çiyin hissəsi ensiz zolaq şəklində ştamp vasitəsilə naxışlanmış qabın yuvarlaq gövdəsi oturacağa doğru getdikcə uzanır. Uzunsov dairəvi təpədən ibarət olan ***Günəştəpə abidəsi***nin uzunluğu ***145*** metr, eni ***70*** metrdir. ***Təpə*** şimal tərəfdən Köndələnçay yatağından 35 metr yüksəkdədir. Cənub tərəfdən onun hündürlüyü **10** metrdir. Oronim - ***"günəş"*** və ***"təpə"*** terminlərindən ibarətdir. Həmin ərazini ***Günəş*** şüası çox tutduğu üçün ona ***Günəştəpə*** deyilir. Aparılan tədqiqatlar Günəştəpənin m. ö. V-III minilliklərdə oturaq əkinçi-maldar əhaliyə məxsus olduğunu göstərir. ***Cünəştəpə*** ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidəsi hesab olunur.

Güngörməz – Xocavənd rayonunun ərazisində, Tuğ kəndi yaxınlığında, kənddən 5 kilometr məsafədə qeydə alınan oronimlərdən biri ***Güngörməz*** adlanır. Həmin ərazi günəşli günlərdə belə "*gün görmədiyi*" üçün (*bu sahədə tut ağacları o qədər sıx yerləşmişdi ki, o yerə gün düşmürdü*) yerli sakinlər onu belə adlandırmışlar.

Güzdək yalı – Kəlbəcər rayonunda qeydə alınan coğrafi ad. ***Güzdək*** coğrafi adı ***güz*** və ***dək*** sözlərindən ibarətdir. ***Güzdək*** sözünün izahı ilə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur. Bəzi tədqiqatçılar bu toponimin ***güz/quz*** etnonimindən və fars mənşəli ***dək/deh*** ("*kənd*") sözlərindən ibarət olduğunu, toponimin "*oğuz kəndi*" mənasında olduğunu qeyd edir (S.Aşurbəyli). Bəziləri isə "*güz*"ü - "*dağın gün düşməyən tərəfi, kölgə*", ***taq/dək*** komponentini "*dağ*" kimi əlaqələndirir (Y.B.Yusifov). ***Güzdək*** sözünü "*payız yurdu*" kimi mənalandıranlar da var (M.Şirəliyev). ***Güzdək / Güzlək*** toponimində məkan bildirən "***lək***" şəkilçisi iştirak edir. Oronimin tərkibindəki ***dək*** komponenti türk dillərində ***d-l*** səs əvəzlənməsi nəticəsində dəyişilən ***lək*** sözünün fonetik variantıdır. Araşdırmalardan aydın olur ki, ***güz*** qədim türk dillərində "*payız, payız otu*" mənasında işlənir. Deməli, ***Güzdək*** oroniminin mənası "*payız otu*", "*payız yurdu*" deməkdir. Bu oronim Azərbaycanın maldarlıqla məşğul olan zonalarında nisbətən geniş yayılmışdır.

Güzdək yaylağı – Kəlbəcər inzibati rayonunda yaylaqlardan biri belə adlanır. ***Güzdək yaylağı*** rayonun Başlıbel kəndi yaxınlığında qeydə alınmışdır. ***Yaylaq*** dedikdə, "*sərinliyinə görə yay istirahəti üçün əlverişli olan dağ yeri*" nəzərdə tutulur. ***Güzdək/Güzlək*** oroniminin tərkibində "*lək*" şəkilçisi məkan bildirir. Oronimin tərkibindəki ***dək*** komponenti türk dillərində ***d-l*** səs əvəzlənməsi nəticəsində dəyişilən *lək* sözünün fonetik şəklidir. ***Güz*** sözü qədim türk dillərində "*payız, payız otu*" mənasında işlədilir. ***Güzdək*** oronimi "*payız otu*", "*payız yurdu*" mənasını bldirir.

Hacanur – Cəbrayıl rayonunun Qazanzəmi kəndi yaxınlığında, Təktüklü (*Təknur*) dağı ilə üz-üzə, təpə üzərində, zirvədə yerləşən oroqrafik obyekt ***Hacanur*** (***Haçanur*** kimi də yazılır) adlanır. Bəzən sənədlərdə ona ***Hacatüklü*** (***Haçatüklü***) şəklində də rast gəlmək olur. Zirvənin tili dəvə hörgücünə bənzəyən iki kiçik təpəyə ayrılır. Hər iki təpənin başında ağcaqayın ağacı bitir. ***Hacanur*** eyniadlı təpənin iki tili arasında hasara alınmış bir qəbir yerindən ibarətdir. Kimə məxsus olduğu məlum olmayan bu qəbri yerli əhali ***ziyarətgah***, ***ocaq*** hesab edirdi. Kəndin

camaatı vaxtilə Novruz bayramları günlərində Hacanuru ziyarət edər, burada qurbanlar kəsər, şənliklər keçirər, Ulu Tanrıdan yeni ilin barlı-bəhərli, məhsuldar olmasını arzulayardı...

Hacı Axund bağı – Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Hacı Axund bağı*** adlanır. Toponim "*Hacı Axunda məxsus olan bağ*" anlamındadır.

Hacı Ələkbər məscidi – Füzuli şəhərinin mərkəzində qeydə alınmış məscid. Deyilənlərə görə bu məscidi dövrünün varlı və nüfuzlu şəxsiyyəti sayılan ***Hacı Ələkbər bəy*** inşa etdirmişdir. ***Məscid*** 1889-cu ildə məşhur memar Kərbəlayi Səfixan Qarabağı tərəfindən tikilmişdir. Məscidin plan quruluşu kvadrat şəkillidir. Portalı qeyri-simmetrikdir ki, bu da qadınlar üçün nəzərdə tutulmuş 2-ci mərtəbədəki şüşəbəndin və 1-ci mərtəbədəki köməkçi otağın böyük götürülməsi ilə əlaqədardır. Baş fasaddakı plyastırlar üzərində dördbucaqlı həndəsi fiqurlar var. Məscidin əsas girişi baş fasadı ağ fonda yerləşdirilmiş oxvarı çatma tağlı portal tərəfdədir. Məscidin interyeri elə işlənmişdir ki, yayın cırhacır istisində belə buraya daxil olan hər bir kəs sərinliyin şahidi olur. İbadət zalının 9 ədəd tağ-tavanını mərkəzdə qoyulmuş 4 ədəd səkkizbucaqlı sütun saxlayır. Onlar öz düzülüşü ilə ibadət zalını 3 nefə ayırır. Zaldakı oxvarı tağbəndlər günbəzlərlə eyni konstruktiv mövqe daşıyır. Ümumiyyətlə, ***Hacı Ələkbər məscidi*** yüksək intellekt, məharət və istedadın məhsulu idi. 1993-cü ildə Füzuli şəhəri erməni hərbi birləşmələri tərəfindən işğal edildikdən sonra bu məscidi də ermənilər dağıtmışlar. Füzuli şəhəri işğaldan azad edildikdə bu məsciddən də əsər-əlamət qalmamışdır.

Hacı Əlikərəm yatağı – Xocavənd rayonu ərazisində qeydə alınan oroqrafik obyekt. ***Hacı Əlikərəm*** adlı şəxs həmin *yatağın* sahibi olduğu üçün ***yataq*** da onun adı ilə adlanmışdır.

Hacı Ərəb ziyarətgahı – Cəbrayıl rayonunun ərazisində, Kavdar kəndi yaxınlığında, dağətəyi ərazidə, çox da hündür olmayan bir təpənin üstündə qeydə alınan oroqrafik obyektlərdən biri ***Hacı Ərəb ziyarətgahı*** adlanır. Bu ***ocaq-ziyarətgah*** səliqə ilə düzülmüş yumru və yastı daş qalağı ilə əhatələnən hasarın içərisində oturacağı çökək, hündür bir qaya parçasından ibarətdir. Yerli məlumata görə, bu daş parçasının oturacaq hissəsində vaxtilə şam yanar və ətrafa işıq saçarmış. Ocağa bəzən *Naməlum bir övliyanın nişangahı* da deyirdilər. ***Ziyarətgah*** Kavdar kəndinin ərazisində yerləşdiyi üçün adına bəzən ***Kavdar Ərəb ziyarətgahı*** deyilirdi. Yerli əhalinin verdiyi məlumatlara görə, bu ziyarətgahda ilahi qüvvə varmış. ***Hacı Ərəb ziyarətgahı*** ilə bağlı çoxlu əfsanələr, rəvayətlər vardır. Deyilənə görə hasarın içərisində iki qadın dəfn olunubdur. Onlar birlikdə Həcc ziyarətinə gediblər. Biri on iki aya gəlib, o biri on dörd aya. Gəlib kəndə çatan kimi rəhmətə gediblər. Camaat onları bu yerdə dəfn edib. Ziyarətgahın yanında bir dalaq daşı da var. Adətən yağış yağanda, nəmişlik olanda həmin daşın yuxarısından qan rəngində su çıxarmış. Mədəsi ağrıyanlar, hamilə qadınlar mədələrini, qarınlarını bu daşa sürtərdilər. Deyilənə görə bu, onlara çox xeyir edirmiş. İnsanlar şəfa tapmaq üçün 3 çərşənbə dalbadal bura gələrmişlər. Bu ərazidə Yəhya babanın, Səkinə Çələbinin, Mirhüseyn babanın da məzarları vardır.

Hacı Hüseynli bağı – Cəbrayıl rayonunun Xələfli kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Hacı Hüseynli bağı*** adlanır. Toponim "*Hacı Hüseynə məxsus olan bağ*" mənasındadır.

Hacı Xoşdan – Cəbrayıl rayonunun ərazisində qeydə alınmış oroqrafik obyekt. Tey dağının günbatan gədiyində, talada yerləşən qəbir ***Hacı Xoşdan*** adlanır. Talanın günbatanında ***Qotur-bulaq*** adlı çeşmə var. Deyilənə görə qəbirdə ***Hacı Xoşdan*** adlı pirani bir şəxs uyuyur. Vaxtilə *Hacı Xoşdan* həmin bulağın suyu ilə dəstəmaz alar, talada namaz qılarmış. Bəzi məlumatlara görə

pirin *yağış yağdırma kəraməti* var. Quraqlıq zamanlarda halal bir insanın qəbir üstə qalxmağı, əhd ilə xoruz qurbanı kəsməsi yağış yağmasına kifayət edərmiş.

Hacı Qaraman piri (ocağı) – Cəbrayıl rayonunun ərazisində, Çələbilər kəndinin yaxınlığında, Gəyən düzünün Gizgə dağı söykənəcəyində yerləşir. Bu ***pir (ocaq)*** əhali arasında ***Hacı Qaraman məzarlığı*** ilə tanınan, daş hasara alınmış qəbirdən ibarətdir. Hasarın qapısında qara daş, içərisində isə ardıc ağacı vardır. Burada zəmanəsinin böyük övliyası, sinəsi hikmət xəzinəsi olmuş məşhur din xadimi, təriqət başçısı ***Hacı Qaraman*** dəfn olunmuşdur. ***Hacı Qaraman Əfəndi*** (***Əhməd Çələbi Əfəndi***) Araz çayının sol sahilinin dini rəhbəri olmuşdur. O, çoxlu maral saxlayar və maldarlıqla məşgul olardı. Yerli məlumata görə, ***Hacı Qaraman*** (***Əhməd Çələbi Əfəndi***) buraya təxminən *600* il bundan əvvəl Diyarbəkirdən gəlmişdir. ***Hacı Qaraman*** Cəbrayıl torpaqlarına gələndən sonra burada ***Yetər*** adlı bir qadınla ailə həyatı qurmuş və onlar çoxlu oğul**-**uşaq sahibi olmuşlar. Çələbilər nəslinin davamı bu iki şəxsin adı ilə bağlıdır. ***Hacı Qaraman*** vəfat edəndən sonra onun dəfn olunduğu yer *pir*, *ocaq* kimi tanınmışdır. Məlumdur ki, Məkkəni, Kəbəni ziyarət edənlərə ***Hacı*** deyirlər. Bu ***piri*** ziyarət edənlər niyyətlərinin hasil olmaları üçün tapınağa parça qırığı, yaylıq, rəngli ***ip*** də bağlayırlar. ***Hacı Qaraman piri*** ocağında bu adət son zamanlara kimi saxlanılmışdır. Bəlkə də, elə dilimizdəki ***ipləmə*** ("*ifləmə, dəli*") ifadəsi də belə etiqadın "izlərindəndir". ***Qaraman*** adı ***qara*** və ***man*** sözlərindən ibarətdir. ***Qara*** – "*böyük*", "*igid*", "*cəsarətli*", "*güclü*", "*qorxmaz*" anlamını ifadə edir; ***man*** komponenti isə "*adam*", "*insan*" mənasını bildirir. Bu mənada ***Qaraman*** toponimi "*cəsarətli insan*", "*igid adam*" mənasındadır. Tarixdən məlumdur ki, vaxtilə ***Qaraman*** (***Karaman***) adlı qədim türk tayfası da olmuşdur. Mənbələrdən məlum olur ki, ***qaramanlar tayfası*** orta əsrlərdə geniş yayılmış qədim türk tayfasıdır. Onlar X – XI əsrlərdə Orta Asiya və Türkiyədə daha çox yayılmışlar. Bəzi tədqiqatçılara görə, oğuz tayfasından olan ***qaramanlılar*** *2000* çadırdan ibarət bir tayfa kimi XI əsrdə Səlcuq sultanı Toğrul bəyin dövründə Anadoluya, Azərbaycana və başqa ərazilərə gəlmişlər. *Qaramanların* XII əsrdə şimaldan Azərbaycana gəlmələri və onların müəyyən hissəsinin buradan Ön Asiyaya köçməsi fikri də tarixdə özünə yer almışdır. Bu da məlumdur ki, Qaraqoyunlu Qara Yusifin qoşun başçısının adı ***Qaraman*** olmuşdur. XIV əsrin ikinci yarısında *Bərdə* və *Gəncə* mahalları köçəri ***qaraman*** tayfasından olan *Əmir Yarəhməd Qaramanın* əyaləti idi. XV əsrin sonunda bu tayfa Şah İsmayıl Xətainin tərəfində Qızılbaşların tərkibinə ***Qaraman*** adı ilə daxil olmuşlar. Uralda, Volqaboyunda, Şimali Qafqazda da ***Qaraman*** etnonimi ilə bağlı toponimlərin olması onların bir hissəsinin şimaldan gəldiyini göstərir. Qaramanların ***varsaq, qara, isa, kosun, qıştəmir*** və s. qolları olub. ***Qaramanlar*** IX əsrdə Volqa boyunda bir dövlət yaratmış, XI əsrdə qıpçaqlarla toqquşmada məğlub olmuş və bundan sonra onların bir hissəsi Azərbaycana gəlmişlər. Tarixi sənədlərdən məlum olur ki, vaxtilə səlcuq türklərinə məxsus ***Qaraman xanlığı*** mövcud olmuşdur. 1471-ci ildə xanlıq Osmanlı dövləti ilə birləşmiş, bundan az sonra əhalisinin bir hissəsi Azərbaycana gəlmişdir. Mənbələrdən məlum olur ki, Çində yaşayan *salarlar* arasında da ***qaraman*** tirəsi mövcud olmuşdur. ***Hacı Qaraman piri*** ilə bağlı xalq arasında xeyli nağıllar, əfsanələr, rəvayətlər mövcuddur.

Hacı Məcnun ocağı – Cəbrayıl rayonunun ərazisində, Çələbilər kəndinin qəbiristanlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Hacı Məcnun ocağı*** adlanır. Deyilənə görə, ***Hacı Məcnun*** özü əslən Qarabağdan imiş. Çələbilər kəndində məktəbdə oxumuş, sonra özü orda müəllim kimi (*məşhur Azərbaycan şairi Molla Vəli Vidadi də Çələbilər kəndində müəllim işləmişdir*) çalışmışdır. ***Hacı Məcnun*** vəfat edəndə onu burada dəfn etmişlər. Sonralar onun *qəbri* də digər müqəddəs ziyarətgahlar kimi yerli əhali tərəfindən əziz tutulmuşdur.

Hacı Misirxan dərəsi – Cəbrayıl rayonunun ərazisində, Dağ Tumas kəndinin yaxınlığında, Sutöküləndən Cədə yoluna qədər uzanan geniş düzənlik ***Hacı Misirxan dərəsi*** adlanır. Toponim "*Hacı Misirxana məxsus olan dərə*" anlamındadır.

Hacı Rəhim ocağı – Cəbrayıl rayonunun ərazisində, Dağtumas kəndinin qədim qəbiristanlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Hacı Rəhim ocağı*** adlanır. Bu ***ocaq*** daş hasara alınmış qəbirdən ibarətdir. Burada dövrünün böyük nüfuz sahibi, ruhani-alim ***Hacı Rəhim*** adlı hörmətli bir şəxs uyuyur.

Hacı Seyid Babanın çevirməsi – Cəbrayıl rayonunun ərazisində, Hovuslu kəndinin köhnə yurd yerinin qarşısında qeydə alınmış oronimlərdən biri ***Hacı Seyid Babanın çevirməsi*** adlanır. Bu oroqrafik obyekt daş hasara alınmış ***saqqız*** ağacından ibarətdir. Yerli məlumata görə, burada Hovuslu elatının mömin bəndəsi, dövrünün böyük nüfuz sahibi olan ***Hacı Seyid Baba*** namaza durub, zikr edirmiş. Deyilənə görə *Hacı Seyid Babanın* qəbri Qərbi Azərbaycanda (*Ermənistanda*), Sisyan rayonunun ərazisində, Hovuslu kəndinin yaylaq yerindədir. Hovuslu və ətraf kəndlərin əhalisi ***Hacı Seyid Babanın çevirməsi*** adlanan bu oroqrafik obyekti işğala qədər (23 avqust 1993-cü il) müqəddəs tapınaq yeri kimi əziz tuturdu.

Hacı Səfixan bağı – Füzuli rayonunun Yal Pirəhmədli kəndi ərazisində qeydə alınmış oronimlərdən biri ***Hacı Səfixan bağı*** adlanır. ***Bağ*** onun yaradıcısı olan ***Hacı Səfixanın*** adı ilə əlaqədar olaraq belə adlanıb.

Hacı tut bağı – Xocavənd rayonunun Tuğ kəndi ərazisində qeydə alınan oroqrafik obyekt.

Hacı yurdu – Xocalı rayonunun Kərkicahan qəsəbəsindən 4 kilometr məsafədə qeydə alınan oroqrafik obyektlərdən biri ***Hacı yurdu*** adlanır. ***Hacı yurdu*** toponimi "*Hacıya məxsus olan yurd yeri*" anlamındadır.

Hacılı camaatının yurd yeri – Füzuli rayonunda qeydə alınan coğrafi ad. Sənəd və materiallardan məlum olur ki, vaxtilə Cavanşir-Dizaq mahalında qərar tutan aparıcı camaatlardan biri ***Hacılı*** imiş. ***Hacılı camaatı*** *Gecəgözlü, Seyidəhmədli, Mahmudlu, Şıxlı, Comərdli, Aybasanlı, Mirzəcamallı* və *Sarılar* obalarından ibarət olmuşdur. Sonralar Mahmudlu obasından *Hüseynbəyli* və *Ələsgərli,* Ayıbasanlı obasından *Qorqan* kəndi yaranmışdır. XVIII əsrin ortalarında Xorasandan geri dönən Arazbar cavanşirlərindən bir qrupu (*əsasən Yağlıvənd oymağının Gecəgözlü və Seyidəhmədli qolları*) tərəfindən ***Hacılı camaatı*** yaradıldı. Pənahəli xan bu camaatın başçılarını irəli çəkərək onların nümayəndələrini *Cavanşir-Dizaq* mahalına naib, minbaşı təyin etdi. *Məhəmmədşərif bəy Səlif ağa oğlu* mahalın ilk naibi oldu. O, Cavanşir-Dizaq atlılarının başında bir neçə savaşda iştirak etdi. Ondan sonra oğlu *Səlif bəy* mahal başçısı oldu. O da atası kimi mahal atlıları ilə savaşlarda iştirak edib igid və cəsur kimi ad çıxardı. 1826-1828-ci illər *Rusiya-İran* savaşı zamanı ***Hacılı camaatı*** rusların tərəfini tutmuşdu. Mahalın naibi Cavanşir-Dizaq elinin minbaşısı Qasım bəy Məhəmmədxan bəy oğlu Gecəgözlü çar ordusu tərkibində İran qoşununa qarşı səy və bacarıqla vuruşduğuna görə *XIV klas* çini ilə mükafatlandırıldı. Mahal ərazisində yaşayan obaların əhalisinin əksəriyyəti Cavanşir soylu olduqları üçün xanlıq dönəmində vergilərdən azad idilər. Rus üsul-idarəsi dönəmində isə ***Hacılı camaatı*** vergi ödəyənlər cərgəsinə daxil edildi. 1823-cü ilə bağlı olan rus qaynağında Hacılı icmasında çervon vergisini 87 tüstünün ödədiyi göstərilir. İcmanın bəyləri rus üsul-idarəsinin dönəmində bütün vergi və mükəlləfiyyətlərdən azad idilər. Yalnız Şərif bəyin ailəsi cüzi vergi ödəyirdi.

Hacılı çinarları – Cəbrayıl rayonunun Hacılı kəndi ərazisində qeydə alınan oroqrafik obyekt.

Hacılı stansiyası – Füzuli rayon mərkəzindən 45 km cənub-şərqdə, düzənlikdə yerləşən stansiya. Ərazidə ***dəmiryol stansiyası*** olduğu üçün belə adlandırılmışdır. Stansiyanın ərazisi 1994-cü ilin yanvarında erməni işğalçı qüvvələrindən azad edilmişdir. Yaşayış məntəqəsi ***zülqədər*** qızılbaş tayfasının ***hacılı*** tirəsinin burada məskunlaşması nəticəsində yaranmışdır. Türkdilli tayfa olan ***hacılılar*** Qaraqoyunlu dövlətinin siyasi həyatında yaxından iştirak etmişlər. Qaraqoyunluların subetnonimi olan ***hacılılar*** qızılbaş tayfaları ilə da qaynayıb qarışmışlar. XVIII əsrin ikinci yarısında şahsevən Məmməd xanın başçılığı ilə Ərdəbil əyalətindən Quba xanlığına köçən səkkiz Azərbaycan tayfası arasında ***hacılılar*** da var idi. XVIII və XIX əsrlərə aid olan tarixi mənbələrdə ***Cəbrayıl eli***nin ***18*** oymağı içərisində ***Hacılı*** oymağının da adı çəkilir. ***Hacılı*** toponimi ***Hacılı*** **(*Hacıəlili*)** camaatının adı ilə bağlıdır. ***Hacılı camaatı*** Cavanşir-Dizaq mahalında qərar tutmuş mühüm obalardan ibarət olub. ***Hacılı camaatı*** *Ayıbasanlı, Qorqan, Yağlıvənd, Gecəgözlü, Mahmudlu, Hüseynbəyli, Ələsgərli, Mirzəcamallı, Sarılar, Seyidəhmədli, Comərdli, Şıxılı* obalarının əhalisindən ibarətdir. ***Hacılıların*** yaşadığı Cavanşir-Dizaq mahalında əsasən divan (xəzinə) və icma torpaq mülkiyyət forması mövcud idi. Burada yaşayan obaların əksəriyyəti Cavanşir soylu olduğu üçün xanlıq dönəmində heç bir vergi ödəmirdilər. Rus üsul-idarəsi dönəmində ***Hacılı*** camaatı vergi ödəyənlər cərgəsinə qoşuldu. Bu icmadan olan bəylər isə bütün vergi və mükəlləfiyyətlərdən azad idilər. Təkcə Şərif bəydən vergi alınırdı. ***Hacılı*** camaatının qışlaq torpaq sahələri əsasən, Alaqarğuda və Arasbarlı ərazilərində idi. 1823-cü ildə Rus hərbi komandanlığı və Qafqaz canişinliyi ilə birgə hazırlanmış "*statistik təsvir*"də Cavanşir-Dizaq mahalında yaşayan ***hacılılar*** haqqında məlumat vardır. 1832-ci ildə bütün Qafqazda siyahıyaalınma keçirilsə də, Qarabağda bu, ***hacılı*** elinin nümayəndəsi Mirzə Camal bəy tərəfindən qəsdən bir qədər ləngidildi. Mirzə Camal bəyin komendanta təsir etmək gücü var idi. O, əyalətin bəylərinə məsləhət (tapşırıq) etmişdi ki, lazımi aydınlaşma almayınca siyahıları məmurlara verməsinlər. ***Hacılı*** camaatının ümumi sayı haqqında xanlıq dönəmində keçirilən siyahıyaalınmalar əlimizdə olmadığı üçün XVIII əsrin II yarısında aparılan kameral siyahılar əsas tutulur.

Hacılı tapı – Cəbrayıl rayonunun Horovlu kəndi ərazisində qeydə alınmış patronimik oronim. Toponimin tərkibindəki ***hacılı*** sözü nəsil, tirə adı bildirir. ***Tap*** termininin oronimiyamızda "*dağ döşündə düzənlik*", "*su çıxmayan düz yer*", "*düzən yerdə təpə*", "*dağ düzənliyi*" və s. mənaları vardır.

Hacımirzəağahüseyn türbəsi – Füzulu rayonunun Alıxanlı kəndində qeydə alınmışdır. ***Hacı Mirzə Ağahüsyen bəy oğlu Səfibəyov*** 1833-cü ildə Şuşa qəzasının Vərəndə sahəsinin Alıxanlı obasında anadan olmuşdur. O, mükəmməl mədrəsə təhsili almış, uzun müddət dövlət idarələrində məmur işləmiş, bir müddət obalarının yüzbaşısı olmuş. Həkəridən Qaradonluya qədər olan ərazinin qazısı vəzifəsində də çalışmışdır. ***Hacı Mirzə Hüseyn*** əsasən heyvandarlıqla məşğul olmuş, müqəddəs Məkkəyi-mükərrəmi ziyarət etmişdir. Dövrünün adlı-sanlı adamlarından biri olan ***Hacı Mirzə Ağahüseyn bəy*** 1913-cü ildə vəfat etmiş və kənddəki qəbiristanlıqda dəfn edilmişdir. Məzarı üzrərində ***türbə*** tikilmişdir.

Hacısanlı tut bağı – Cəbrayıl rayonunun Qalacıq kəndi yaxınlığında qeydə alınan oronimlərdən biri ***Hacısanlı tut bağı*** adlanır. Bu *tut bağı* ***Hacısanlı*** nəslinə mənsub olan ailələr tərəfindən salındığı üçün belə adlandırılmışdır.

Haçadağ – Ağdam rayonunun Abdal-Gülablı kəndi ərazisində qeydə alınan oronimlərdən biri də ***Haçadağ*** coğrafi adıdır. Dağın zirvəsi ***haça*** formalı olduğu üçün toponim belə adlandırılmışdır.

Haçagədik – Füzuli rayonundakı yüksəkliklərdən biri ***Haçagədik*** adlanır. ***Gədik*** - *"dağ belində aşırım", "hündür dağarası yol"* mənasındadır. Gədiyin ***haça*** formalı olmasından bu oronim yaranmışdır.

Haçaqaya – Qarabağ silsiləsinin ətəyində, Xocalı rayonunun ərazisində, Xocalı yaşayış məntəqəsindən 2 kilometr məsafədə, Xocalının Qaladərəsi adlanan məhəlləsinin yaxınlığında, Daşbulaq kəndi istiqamətində, dağətəyi sahədə qeydə alınan coğrafi adlardan biri ***Haçaqaya*** toponimidir. Həmin ***qaya*** zahirən ***haça*** şəklində olduğu üçün toponim belə ad almışdır.

Haçaqaya, **Haçatala** – Laçın rayonunun Vağazin kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri də ***Haçaqaya*** oronimidir. Bəziləri toponimi *Hacı* (şəxs adı və ya dini titul) sözü ilə bağlayırlar. Qarabağ yaylasında yerləşən bu yüksəkliyin zirvəsi ***haça*** formalı olduğu üçün ***qaya*** belə adlanmışdır. Rayonun İkinci Tığıq kəndi ərazisində də bu tipli ***Haçatala*** oronimi qeydə alınmışdır.

Haçatəpə – Qarabağ silsiləsinin ətəyində, Xocalı rayonunun ərazisində, Xocalı yaşayış məntəqəsindən 2 kilometr məsafədə, Xocalının Qaladərəsi adlanan məhəlləsinin yaxınlığında, Daşbulaq kəndi istiqamətində, dağətəyi sahədə qeydə alınan coğrafi adlardan biri də ***Haçatəpə*** toponimidir. Bu ***təpə*** zahiri görkəm etibarı ilə ***haça*** şəklində olduğu üçün oronim belə adlandırılmışdır.

Haçatəpə biçənəyi – Qarabağ silsiləsinin ətəyində, Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 5 kilometr məsafədə, Daşbulaq və Noraguh kəndlərinin arasında qeydə alınan oroqrafik obyektlərdən biri ***Haçatəpə biçənəyi*** adlanır. Həmin ***biçənək*** olan ***təpə*** zahirən ***haça*** şəkilli olduğu üçün toponim belə adlandırılmışdır.

Haçatəpə kurqanı – Xocalı rayonunun ərazisində, Qarabağ silsiləsinin yamacında yerləşən yüksəklik. Bu yüksəkliklərin zirvəsi bir qədər kənardan, uzaqdan ***haça*** şəklində göründüyünə görə oronim belə ad almışdır. ***Kurqan*** dedikdə burada qədim qəbiristanlıq nəzərdə tutulur. ***Kurqan*** – türk mənşəli sözdür. Mənası torpaq, ağac yaxud daşdan düzəldilmiş, adətən yarımkürə formalı qədim qəbirüstü abidə və ya süni təpə deməkdir. Xocalıdakı möhtəşəm ***Haçatəpə*** kurqanından müxtəlif dövrlərə aid qiymətli maddi-mədəniyyət nümunələri tapılmışdır.

Hamam dərəsi – Xocavənd rayonunda, Tuğ kəndinin ərazisində qeydə alınan coğrafi adlardan birinə ***Hamam dərəsi*** deyirlər. Vaxtilə həmin dərədə **hamam** olduğu üçün yerli əhali bu sahəni ***Hamam dərəsi*** adlandırır.

Haramı düzü – Füzuli rayonunda böyük bir sahəni əhatə edən ərazi ***Haramı düzü*** adlanır. Göründüyü kimi, toponim **2** sözdən ibarətdir. ***Haramı düzü*** haqqında müxtəlif rəvayətlər danışılır. Oronimin tərkibindəki ***haram*** sözü ərəbcə *"qadağan edilmiş", "yasaq olunmuş", "toxunulmaz", "haram mala əl uzadan", "yolkəsən", "quldur", "qaçaq", "soyğunçu"* mənalarındadır. Ərazi vaxtilə bu düzlərdə məskən salmış qaçaq-quldurlara (*Azərbaycanın bəzi zonalarında onlar **haramı** adlanır*) görə belə adlandırılmışdır. Bəzi araşdırıcılar isə oronimin tərkibində olan ***haramı*** sözünü İran dillərindəki **hor/har** *("isti")* komponenti ilə əlaqələndirir. Doğrudan da bu yerlər xüsusilə yay aylarında çox isti olur.

Haramı düzü – Xocavənd rayonunda böyük bir sahəni əhatə edən ərazi ***Haramı düzü*** adlanır. Bəzi araşdırıcılar ***Haramı*** sözünü "*quldur*", "*qaçaq-quldur*" mənası ilə yozur; bəziləri isə bu sözü "*heyvan üçün hazırlanmış yer*" mənası verən ***oron, uran*** sözü ilə bağlayır: ***Oranı-Horanı-Horamı-Haramı***. S.Mollazadə yazır ki, ***haramı*** adında "*konkret sahibi olmayan oturaq,*

mal-heyvan saxlanılan çöl" anlayışı var. ***Haramı*** oronimi sadə quruluşlu coğrafi nomensiz toponimdir.

Hasar – Xocalı-Gədəbəy mədəniyyətinə aid olan abidələrin böyük əksəriyyətini siklop tikililəri təşkil edir. Onlardan biri də Xocalı yaşayış məntəqəsinin yaxınlığında qeydə alınmış ***Hasar*** coğrafi adıdır. Yerli əhali tərəfindən ***Hasar*** adlanan bu abidə yüksək təpəlik ərazidə bina edilmişdir. Bu ***hasar*** tikintisi yonulmamış iri daşlardan, müəyyən bir plana əməl olunmadan, suvaqsız, bir neçə qat divardan ibarətdir. ***Hasar*** deyiləndə adətən müəyyən bir sahənin dövrəsinə çəkilmiş divar, barı nəzərdə tutulur.

Hatut dərəsi – Xocavənd rayonunda, Tuğ kəndinin ərazisində qeydə alınan oronimlərdən biri ***Hatut dərəsi*** adlanır. ***Hatut*** sözü ilə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur. Bu sözün elmi izahı hələlik tam dəqiqləşməyibdir.

Hav dərəsi – Füzuli rayonunun Gecəgözlü kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Hav dərəsi*** adlanır. ***Hav*** termini ərəb və fars dillərində işlədilən ***həvadar*** sözünün təhrif olunmuş formasıdır. ***Həvadar*** sözü ***"tərəfdar", "tərəf saxlayan", "kömək edən", "həvadar"*** anlamındadır. Yerli məlumata görə, XIX əsrdə Gecəgözlü kəndindən olan Cavanşir əsilli Hacı Qasım adlı varlı, xeyirxah bir insan tez-tez bu dərədə yığışan adamlara əl tutar, kömək edərmiş. Sonralar elə həmin ***dərə*** də kənd camaatı arasında qısaca ***Hav dərəsi*** adlandırılmışdır. Oronimin mənasına başqa prizmadan da yanaşanlar var. ***Hav*** - *"qızışmış", "hirsli"* və s. anlamlara da uyğun gəlir.

Hav yeri – Cəbrayıl rayonunun Dağ Tumas kəndi yaxınlığında qeydə alınan və Şaqqıldaqlıqdan Dəli yarğanın qarşısına qədər uzanan böyük düzənlik ***Hav yeri*** adlanır. Bəzi araşdırıcılara görə, ***hav*** termini ərəb və fars dillərində işlənən ***həvadar*** sözünün təhrif olunmuş formasıdır. ***Həvadar*** sözü "*tərəfdar*", "*tərəf saxlayan*", "*kömək edən*", "*həvadar*" anlamlarını ifadə edir. Yerli məlumata görə, varlı, xeyirxah olan bir insan tez-tez bu yerdə yığışan adamlara əl tutar, köməklik edərmiş. Sonralar bu ***yer*** camaat arasında ***Hav yeri*** adlanmışdır. Oronimin mənasına başqa prizmadan da yanaşanlar vardır. ***Hav*** sözünün "*qızışmış*", "*hirs*, *hirsli*" və s. anlamları da məlumdur.

Heydər quzeyi – Füzuli rayonu ərazisində qeydə alınan oroqrafik obyekt.

Heydərin bağı – Xocavənd rayonunda, Qaradağlı kəndi ərazisində qeydə alınan oroqrafik obyekt.

Heydərqulu dağı – Cəbrayıl rayonunda dağ. Bu ***dağ*** XIX əsrdə yaşamış Göyərçin Veysəlli kəndinin sakini, dövrünün nüfuzlu, hörmətli şəxsiyyəti ***Heydərqulu*** kişinin adı ilə əlaqədar olaraq belə adlanır.

Heyva piri – Cəbrayıl rayonunun Çərəkən kəndi ərazisində, kəndin gündoğan tərəfində, Alözü dərəsinin ağzında qeydə alınan oroqrafik obyektlərdən biri də ***Heyva piri*** adlanır. Burada iki bar verməyən iri gövdəli ***heyva*** ağacı olduğu üçün toponim belə ad almışdır. Ağacın həndəvərində zoğal pöhrələri vardı. ***Heyva piri*** yerli əhali üçün müqəddəs hesab olunurdu. Yerli camaat bir qayda olaraq ölüsünü qəbiristanlıqda dəfn edib qayıdanda axşamüstü bu ağacların dibində şam yandırardı. Məhz bundan sonra dəfn mərasimi bitmiş hesab edilirdi.

Heyvalı dağ, **Heyvalı dərə** – Cəbrayıl rayonu ərazisində ***Heyvalı dağ***, ***Heyvalı dərə*** adlı oroqrafik obyektlər qeydə alınmışdır. Bəziləri hesab edir ki, ***heyvalı*** - əhalinin hərəkəti (*köçü*) ilə əlaqədar olaraq Anadoludan gətirilmə addır. 1308-ci ilə aid mənbəyə görə, Anadoluda *Heyvə (Heyva) qalası* olmuşdur.

Heyvalı dərə – Laçın rayonunun ərazisində qeydə alınmış dərə.

Həci bağı – Xocavənd rayonunun Tuğ kəndi yaxınlığında qeydə alınan coğrafi adlardan biri ***Həci bağı*** adlanır. ***Hacı (həci)*** sözü həm şəxs adı, həm də dini tituldur.

Həci bağı, **Həcinin tut bağı** – Xocavənd rayonunun ərazisində, Tuğ kəndinin yaxınlığında, kənddən 1 kilometr aralıda qeydə alınan oroqrafik obyekt. Bəzən bu coğrafi ad ***Həcinin tut bağı*** kimi də yazılır. Toponimin tərkibindəki ***Həci*** (***Hacı***) sözü dini tituldur.

Hərəmilər ocağı – Cəbrayıl rayonunun ərazisində, Sofulu kəndindən bir qədər aşağıda, Şıxlar kəndinin quzey hissəsində, "*Qışgüneyi*"nə söykənən dağın başında qeydə alınan oroqrafik obyekt ***Hərəmilər ocağı*** adlanır. ***Hərəmilər ocağı*** daş hərləməsi olan qəbirdən ibarətdir. Deyilənə görə burada adı məlum olmayan və dövrünün böyük nüfuz sahibi olan bir övliya dəfn olunmuşdur...

Hərtis dağı – Bərgüşad silsiləsinin cənub qurtaracağında, Qubadlı rayonu ərazisində zirvə. XX əsrin əvvəllərinə qədər rusca mənbələrdən oronimin ***Qartikiz***, ***Xartıuz*** variantları da olub. Çox güman ki, ***Hərtis*** toponimi metal alətləri itiləmək üçün istifadə edilən ***xart,*** yaxud ***qart*** (*bülöv*) daşının adından və ***üz*** (*üst*) sözlərindən ibarət olub "*üzündə (səthində) xart daşı olan dağ*" mənasındadır.

Həsənqaydı – Laçın rayonunun ərazisində qeydə alınan ***Həsənqaydı*** oroniminin əslində düzgün yazılışı ***Həsən qayalı*** olmalıdır. Mənasının aydınlaşdırılmasına ehtiyac olan bir qisim oronimlər var ki, ***Həsənqaydı*** coğrafi adı da məhz belə oroqrafik obyekt adlarındandır. Bu adın ilkin və tam yazılış forması öz bərpasını tapmayıb. Bəziləri toponimi ***Həsən*** şəxs adi ilə əlaqələndirirlər.

Həsənli düzü – Cəbrayıl rayonunun ərazisində, Arazboyu düzənlikdə, Həsənli kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Həsənli düzü*** adlanır. Bu coğrafi adı bəzən sənədlərdə ***Hasanlı düzü*** kimi də yazırlar. ***Həsənli düzü*** toponimi "*Həsənli kəndinin yaxınlığında olan düzənlik ərazi*" anlamındadır.

Həştəfər düzü – Füzuli rayonunun Qacar kəndi ərazisində qeydə alınmış oronim. Əslində bu oronimin adı ***Hacı Səfər düzü*** kimi yazılmalıdır. Yerli əhalinin şivəsində bu coğrafi ad belə "*tarixiləşmişdir*". Oronim patronimik toponimdir. Tarixi məlumata görə, XVIII əsrdə Ağa Məhəmməd Şah Qacar Qarabağa (Şuşaya) hücum edərkən burada çadır qurdurmuş, təlim-məşq keçmişdir. Deyilənlərə görə, Qacarın nəşi (*tabutu*) İrana bu yerlərdən keçilərək aparılmışdır.

Həvəzə nənə piri – Cəbrayıl rayonunun ərazisində, Qalacıq kəndinin yaxınlığında, Marahanlı düzünün ərazisində, Çaxmaq çaylağında qeydə alınan maraqlı oroqrafik obyektlərdən biri ***Həvəzə nənə piri*** adlanır. Bəzi sənədlərdə adı ***Həvəzə Çələbinin nişangahı*** kimi də yazılır. Fuğanlı kəndinin sakini *Tapdıq Rza oğlunun* evinin arxasında olan daş *nişangah* da ***Həvəzə Çələbinin nişangahı*** adlanır. ***Pir-nişangah*** daş hərləməyə alınmış *Mərmərik* ağacından ibarətdir. Yerli məlumata görə, təmiz və müqəddəs bir adam olan ***Həvəzə nənə*** burada namaz qılar və Allaha həmd-sanalar oxuyarmış. Danışırlar ki, vaxtilə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi M.C.Bağırov Həvəzə nənəni sürgün etdirmiş, sonra isə bu hərəkətindən peşman olmuşdur. Deyilənə görə **Həvəzə nənə** Murmanskda, dustaqlıqda rəhmətə gedib. ***Həvəzə nənə*** haqqında müxtəlif əfsanə və rəvayətlər vardır.

Həzi çökəyi – Füzuli rayon mərkəzindən 13 km şimal-qərbdə, Köndələnçayın sahilində, Qacar kəndinin ərazisində qeydə alınan oronim.

Həzi ocağı dağı – Füzuli rayonunun Qacar kəndi yaxınlığında, rayon mərkəzindən 14 kilometr şimal-qərbdə, Köndələnçayın sahilindən azacıq aralıda qeydə alınan oroqrafik obyektlərdən biri ***Həzi ocağı dağı*** adlanır. ***Həzi ocağı dağı*** yerli əhali tərəfindən müqəddəs yer hesab olunur. ***Həzi*** - şəxs adıdır. ***Həzi ocağı dağı*** toponimi antroponimik oronimdir. ***Həzi ocağı*** dağının yaxınlığında ***Həzi çökəyi*** oronimi də qeydə alınıb.

Həzinin burnu – Laçın rayonunun Ağcakənd kəndi yaxınlığında qeydə alınan maraqlı coğrafi adlardan biri də ***Həzinin burnu*** adlanır. Toponim ***Həzi*** və ***burun*** sözlərindən ibarətdir. ***Həzi -*** şəxs adını bildirir. ***Burun -*** qayanın ona süxurlardan və ya gətirilmə materiallardan təşkil olunan çıxıntı şəkilli alçaq və hamar formasına deyilir. Toponimiyada dağın, qayanın, qurunun sivri bucaq şəklində düzünə tərəf uzanmış hissəsi **burun** adlanır.

Həzinin meşəsi – Cəbrayıl rayonunun ərazisində, Dağ Tumas kəndindən 4 kilometr məsafədə, Duzlaq qayasının şimalında, Kollu dərənin şərqində, yamac quzeyində qeydə alınan oroqrafik obyektlərdən biri ***Həzinin meşəsi*** adlanır. Yerli məlumatlara görə, vaxtilə bu ərazidə çoxlu *palıd* ağacları olmuşdur. Hazırda burada seyrək palıd ağacları ilə bərabər, digər növ ağaclara da rast gəlmək olar. Toponim "*Həziyə məxsus olan meşə*", "*Həzinin saldığı meşə*" mənasındadır.

Həzrətqulu yeri – Füzuli rayonunun Dədəli və İşıqlı kəndləri yaxınlığında, rayon mərkəzindən 4 kilometr cənubda qeydə alınan oronimlərdən biri ***Həzrətqulu yeri*** adlanır. ***Həzrətqulu bəy Əli bəy oğlu Cavanşir*** XVIII əsrin ikinci yarısı və XIX əsrin I yarısında Dədəli obasında yaşamışdır. Mədrəsə təhsili almış ***Həzrətqulu*** uzun illər Dədəli obasının yüzbaşısı olmuş, Rusiya-İran müharibələrində iştirak etmişdir. Mahalın böyük mülkədarlarından hesab edilən ***Həzrətqulu bəy*** çoxlu var-dövlətə, xeyli torpağa sahib olmuşdur. *Həzrətqulu bəyin* Məmmədhüseyn və Sadıq adlı oğlanları vardı. Həzrətqulu bəyin oğlu Sadıq bəy atasından miras qalan bu *yerin* bir hissəsini 1863-cü ildə qəza qazısı Molla Səfinin təsdiqlənmiş möhürü ilə 200 manata qarğabazarlılara satsa da bu *yerlər* XIX əsrdən onun sahibi olmuş ***Həzrətqulu bəyin*** adı ilə adlandırılmışdır.

Hocaz qayası – Laçın rayonunda, Hocaz kəndinin yaxınlığında qeydə alınmış qaya. ***Hocaz qayası*** çox səfalı bir ərazidə yerləşir. ***Qaya*** sözü müsbət relyef formasını bildirən coğrafi termindir. ***Hocaz*** sözünü isə tədqiqatçılar ***həcaz***, ***əcaz*** sözləri ilə əlaqələndirirlər.

Hocaztəpə – Laçın rayonunun ərazisində, Hocaz (Hocazsu) çayının sahilində, Qarabağ yaylasında, Hocaz kəndi ətrafında, rayon mərkəzindən 22 km qərbdə yerləşən yüksəklik. Bu ərazidə, vaxtilə indiki Hicaz kəndindən bir qədər aralıda, qədim tarixə malik olan Köhnə Hocaz kəndinin xarabalığı da olmuşdur. XX əsrin əvvəllərində məşhur xalq qəhrəmanı Sultan bəy kənddə ***daş ev*** (*yerli məlumata görə, bu ev Laçın rayonunda ilk daş ev olmuşdur*) tikdirmişdir. O vaxta qədər kənd sakinləri dam və kahalarda yaşayırdılar. ***Hocaztəpə*** dağının adına bəzən ***Hocazdaşı dağı*** da deyilir. Bu toponimin tərkibindəki ***Hocaz*** komponentinin mənası hələlik tam müəyyən olunmamışdır. Toponimi ***həcaz***, ***əcaz*** sözləri ilə əlaqələndirənlər var. Ərəfat dağından Məkkəyə, Mədinəyə gedən boğaza oxşar yal var ki, ərəblər ona indiyə qədər də ***Əcaz*** deyirlər. Toponimi ərəbcə ***hicaz*** ("*şəhər adı*"), ***həcz*** ("*müsadirə*"), ***əcz*** ("*acizlik*") və fars dilində ***xocəst*** ("*xoşbəxt*") sözləri ilə bağlayanlar da var.

Horter – Xocavənd rayonunun Müğanlı kəndi yaxınlığında, kənddən 3 kilometr aralıda qeydə alınan coğrafi adlardan biri ***Horter*** adlanır. Toponimin başqa bir adı ***Gölmə*** kimi qeydə alınmışdır. Ərazidə kiçik *göllər, gölməçələr* olduğu üçün yerli əhali tərəfindən bu sahə belə adlandırılmışdır. ***Horter*** sözü ilə bağlı müxtəlif fikir və mülahizələr vardır.

Hunan – Xocavənd rayonunun ərazisində qeydə alınmış coğrafi ad. ***Hun*** tayfasının adı ilə bağlı Azərbaycanda çoxlu toponimlər qeydə alınıb ki, onlardan biri də Xocavənd rayonu ərazisində rast gəldiyimiz ***Hunan*** coğrafi adıdır. Bu yerlərdə erkən orta əsrlərdə ***hunlar***

yaşadıqları üçün toponim belə ad almışdır. Azərbaycanda əsası VI əsrdən qoyulmuş ***Hunan* (*Xunan*)** adlı ***şəhər*** də mövcud olmuşdur.

Hüngüs yalı – Cəbrayıl rayonunun ərazisində, Nüzgər kəndinin yaxınlığında qeydə alınan oronimlərdən biri ***Hüngüs yalı*** adlanır. ***Hüngüs*** sözü ilə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur.

Hüseynalı zəmisi – Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyekt. ***Hüseynalı zəmisi*** adlanan tarla yeri Diri dağın qoynunda yerləşir. ***Hüseynalı xan*** – məşhur aşıq-şair Dirili Qurbanın əmisidir. Həmin ***zəmi*** də ona məxsus olduğu üçün bu oronim belə ad almışdır.

Hüseynallar düzü – Cəbrayıl rayonunun ərazisində, Daş Veysəlli və Hacılı kəndləri arasında yerləşən gillicə və iridənəli süxurlarının növbələşməsindən ***Hüseynalılar düzü*** əmələ gəlmişdir. Düzün belə adlanması Cəbrayıl qəzasının *hacılı* icmasına mənsub olan ***hüseynalılar*** tirəsinin adı ilə əlaqədardır.

Hüseynbəy düzü – Cəbrayıl rayonu ərazisində, Kavdar və Əmirvarlı kəndləri arasında, düzənlik ərazidə yerləşir. Bu düz gillicə və qumluca narındənəli süxurlarından təşkil olunmuşdur. Düzün quruluşunda iridənəli süxurlar az rol oynayır və əsasən başlanğıcında, Kavdar kəndinə yaxın ərazidə müşahidə olunur. ***Hüseynbəy düzü*** ərazisində bir çox səbəblərdən meridianal istiqamətdə çökmələr olmuşdur. Elə buna görə də ətrafdakı yataq sahəsi *Hüseynbəy* düzündən ayrılmışdır.. ***Hüseynbəy düzü*** oronimi ***Hüseynbəy*** şəxs adı ilə əlaqədardır.

Hüseynbəy yeri – Şuşa rayonunun Malıbəyli kəndi ərazisində qeydə alınan oroqrafik obyekt.

Hüseynbəyli dərəsi – Laçın rayonunun ərazisində, Güləbird kəndinin yaxınlığında qeydə alınan coğrafi adlardan biri də ***Hüseynbəyli dərəsi*** oronimidir.

Hüseynbəylilərin yurd yeri – Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Hüseynbəylilərin yurd yeri*** adlanır. Bu ***yurd yeri*** tayfanın ulu babası sayılan ***Hüseyn bəy Cəbrayıllı*** (*sənədlərə əsasən o, XVIII əsrdə yaşamışdır*) adlı bir şəxs ilə bağlıdır. ***Hüseyn bəy obası*** vaxtilə ***Cəbrayıllı*** elindən ayrılaraq Arazboyu torpaqlarda məskunlaşmışdılar. Onların törəmələri *Hüseynbəyov* və ya *Hüseynov* soyadlarını daşıyırlar. ***Hüseynbəyli*** tayfasından çoxlu sayda görkəmli adamlar, ziyalılar çıxmışdır.

Hüseynin yeri – Kərkicahan qəsəbəsi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Hüseynin yeri*** adlanır. Bu coğrafi ad ***Hüseyn*** şəxs adından və ***yer*** sözündən ibarətdir. Toponim "*Hüseynə məxsus olan sahə, ərazi*" anlamını ifadə edir. Yerli məlumata görə, əslən Kərkicahandan olan ***Hüseyn*** adlı şəxs vaxtilə ona məxsus olan bu ***yeri*** yaşayış məntəqəsinin qəbiristanlığı üçün ayırmışdır. Məhz bu səbəbdən də toponim belə ad almışdır.

Xaçbulaq abidələri kurqanları – ***Xaçbulaq*** kəndində Xocalı-Gədəbəy mədəniyyətinə aid arxeoloji obyekt. Tunc və Dəmir dövrünə aid yaşayış yeri, kurqanlar, daş qutu qəbirlər, siklop tikililəri və s. olduğu təsdiq edilmişdir. Burada qədim insanların istifadə etdiyi bir neçə zağa var. ***Xaçbulaq*** abidələrindən çoxlu keramika məmulatı, bəzək şeyləri, silahları və s. aşkar olunmuşdur. ***Kurqanlar*** m. ö. III minilliyə aid Son tunc və Erkən dəmir dövrünə aid daş torpaq töküntülü daş qutu qəbirlərdən ibarətdir. Daş qəbirlərdə adətən bir, kurqanlarda isə çoxlu sayda ölü dəfn edilmişdir. Ölülər bükülü, əlləri sifətinə doğru, sağ və ya sol böyrü üstə, başları əsasən, qərbə, bir çox hallarda isə oturdulmuş vəziyyətdə basdırılmışdır. Qəbirlərdən xəncər, qılınc, nizə, ox ucluqları; bəzək əşyaları *(qolbaq, boyunbağı, asmalar və s.)* tapılmışdır. Bunlar Xocalı – Gədəbəy mədəniyyətinin xarakterik abidəsidir.

Xaçdaş – Ağdam rayonunun Abdal kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri də ***Xaçdaş*** oroqrafik obyektidir. Təxminən 2 ton ağırlığında olan bu daşın üzərində Qafqaz albanlarına məxsus olan ***xaç*** şəkli olduğu üçün o, belə adlandırılmışdır.

Xaçın dərəsi – Ağdam rayonunun ərazisində, Xaçın çayının sahilində, Qarabağ silsiləsində qeydə alınmış dərə ***Xaçın dərəsi*** adlanır. ***Xaçın*** oronimi öz adını Qafqaz Albaniyasının ***Xaçın*** əyalətinin adından almışdır. Mənbələrdə bu əyalətin adı ilk dəfə VII - X əsrlərdəki hadisələrlə əlaqədar çəkilmişdir. XII - XIII əsrlərdə Qarabağda (*Arsaxda*) ***Xaçın hökmdarlığı*** (*knyazlığı*) yaranmışdır. Bütün bu adlar ərazidəki ***Xaçın*** qalasının adı ilə bağlıdır. ***Qala*** monqol hücumları zamanı - 1227-ci ildə dağıdılmışdır.

Xaçgədik yatağı – Laçın rayonu ərazisində, Pircahan kəndi yaxınlığında qeydə alınan coğrafi adlardan biri də ***Xaçgədik yatağı*** oronimidir. ***Xaçgədik yatağı*** toponimi *"xaç formalı dağ aşırımında təsərrüfat tikilisi"* mənasındadır. *Gədik* ***xaç*** şəkilli olduğu üçün toponim belə adlanıb.

Xaçındərbətli türbəsi – Ağdam rayonunun ərazisində qeydə alınmış türbə. Daşdan tikilən bu türbə üçpilləli kürsüük üzərində yüksələn 12 üzlü gövdədən və piramida formalı günbəzdən ibarətdir. Daxili hissəsini yeraltı sərdabə və yerüstü kamera təşkil edir. Xaçvarı planlı yerüstü kamera daxildən çoxyaruslu stalaktitli tağtavanla örtülmüşdür. Cənub divarında mehrab yerləşir. İnteryeri müxtəlif heyvan təsvirləri *(pələng, maral, vəhşi keçi, qrifon və s.)* ilə bəzədilmişdir. ***Xaçındərbətli*** *türbəsinin* giriş qapısının üstündə oyma qönçələrlə əhatələnmiş kitabə var. Kitabədə türbənin 1314-cü ildə tikildiyi tarix, türbədə dəfn olunan şəxsin *Qutlu Musa oğlu* olması və memarın adı (*ustad Şahbənzər*) yazılmışdır. Türbənin gövdəsi naxışlı frizlə tamamlanmışdır. Toponimin tərkibindəki ***dorbət*** sözü monqol əsilli ***oryat*** tayfasının ***dorbət*** ***(dərbət)*** qolunun adını özündə əks etdirir. ***Türbə*** adətən qəbir üzərində tikilən məqbərələrə deyilir. Bu məqbərə ***Xaçındərbətli*** kəndi ərazisində yerləşdiyinə görə ***Xaçındərbətli türbəsi*** adlanmışdır.

Xaçmaz dağı – Qarabağ silsiləsində, Xocavənd rayonunun ərazisində qeydə alınan coğrafi adlardan biri ***Xaçmaz dağı*** adlanır. Oronimin Qafqaz Albaniyasının şimal-şərqində yaşamış V əsrdən adı mənbələrdə qeyd olunan ***xaçmatak*** ("*xaçpərəst*", "*xaçpərəst xalq*" deməkdir) tayfasının adı ilə əlaqədar olması güman olunur. Bir fikrə görə, ***Xaçmaz*** adı oradakı sütunda ***xaç*** formalı daşların olması ilə bağlıdır. Vaxtilə ***Xaçmaz dağı*** yerləşən ərazinin yaxınlığında ***Xaçmaz*** adlı kənd də mövcud olmuşdur. Bu kəndin əhalisi əsasən Zəngəzur mahalının ermənilər tərəfindən dağıdılmış *Köhnə Kötük* kəndindən gələn nəsillərdən, ailələrdən ibarət olmuşdur.

Xaldaş – Füzuli rayonunun ərazisində, Yağlıvənd kəndi ilə Dövlətyarlı kəndinin arasındakı sahədə qeydə alınan coğrafi ad. Oronim ***xal*** və ***daş*** komponentlərindən ibarətdir. Ərazidəki bu daşın ***xallı*** olması ilə əlaqədar olaraq toponim belə ad almışdır.

Xalvar dərəsi – Cəbrayıl rayonunun Sarıcalı kəndi ərazisində qeydə alınmışdır. Toponimin tərkibindəki ***-si*** şəkilçisi mənsubluq bildirir. ***Xalvar*** sözü vaxtilə Yaxın Şərq ölkələrində, o cümlədən, Azərbaycanda və Orta Asiyada mövcud olmuş "*çəki vahidi*" mənasındadır. Adı bəzi sənədlərdə ***xarvar*** kimi də yazılır. Xalvarın həcmi ayrı-ayrı ərazi və dövrlərdə müxtəlif olmuşdur. Məsələn: ***1 xalvar*** XIX əsrdə Naxçıvanda *19 pud*, Şamaxı qəzasında *15 pud*, Lənkəran qəzasında *26 pud*, Bakı qəzasında *23,5 pud* olmuşdur.

Xan bağı – Cəbrayıl rayonunun ərazisində, Havuslu kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Xan bağı*** adlanır. Burada vaxtilə Qarabağ xanlarının ***bağ*** yeri olmuşdur. ***Xan bağı*** toponimi "*xana məxsus olan bağ*" anlamını ifadə edir.

Xan çinar – Cəbrayıl rayonunun Şükürbəyli kəndi ərazisində qeydə alınan oronimlərdən biri ***Xan çinar*** adlanırdı. Yerli əhali və qonşu kəndlərin camaatı buraya iman gətirərdilər.

Xan yurdu – Ağdam rayonunun Abdal kəndi ərazisində qeydə alınan coğrafi ad; toponim "*xanın yurdu*", "*xana məxsus yurd yeri*" mənasındadır.

Xanağa dağı – Qubadlı rayonunun ərazisində yerləşən dağ. Dağın əsl adı ***Xanəgah*** olmalıdır. Bu ***dağ*** vaxtilə onun ərazisində mövcud olmuş ***Xanəgah*** ilə bağlı olaraq belə adlandırılmış, sonralar isə adı təhrif olunmuşdur. "***Xanəgah***" – "*dərvişlərin məskəni*" mənasındadır. *Xanəgahlar* müqəddəs yerlərin üstündə tikilərdi.

Xanalı dərəsi – Laçın rayonunda, dağətəyi ərazidə, Xanallar kəndi yaxınlığında yerləşən dərə. *Xanallar* yaşayış məntəqəsini XIX əsrin ortalarında ***Xanalı*** adlı şəxs saldığına görə, kəndin adı da həmin şəxsin adı ilə əlaqədar belə adlanmışdır. Kəndin cənub-qərbində yerləşən və ***Xanalı dərəsi*** adlanan oronim də həmin Xanalının adı ilə əlaqədar yaranmışdır.

Xanalının səngər yalı – Laçın rayonunun Fərraş kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri ***Xanalının səngər yalı*** adlanır. Toponim Fərraş kənd sakini, ***gülləçi*** və ***qaçaq*** kimi şöhrət tapmış ***Xanalının*** 1918-ci ildə kəndə soxulmaq istəyən erməni quldurlarının kəndin yuxarısında, həmin bu yerdə qarşılarını alması ilə əlaqədar olaraq belə adlandırılmışdır. Həmin vaxt silahlı ermənilər kəndə 50 nəfərlə hücum etmişdilər. Bu yüksəkliyi özünə ***səngər*** edən ***Xanalı*** öz məşhur beşatılanı ilə 15 erməni basqınçısını məhv etdikdən sonra ermənilər hücumu dayandıraraq geriyə çəkilməyə məcbur olmuşlar. Həmin vaxtdan yerli əhali bu yüksəkliyə ***Xanalının səngər yeri*** adını vermişdir.

Xanəgah – Cəbrayıl rayonunun ərazisində qeydə alınmış oroqrafik obyektlərdən biri də ***Xanəgah*** adlanır. İran mənşəli ***Xanəgah*** (***Xangah***) sözü "*ev yeri*" anlamındadır. *Xanəgahlar* qonaq evi tipində dini tikililər olmuşdur. Mənbələrdən məlumdur ki, təriqətin başçıları və nüfuzlu üzvləri üçün tikilən binalar, müqəddəs ocaqlar ***Xanəgah*** adlandırılır. V.V.Bartold ***xanəgah*** sözünü ***xanaka*** variantında götürür və onun ***xane*** sözünün soqdi dilindəki ifadə forması olduğunu göstərir. Onun fikrincə, həmin söz İslamaqədərki dövrdə "*bütpərəst və manixey, zahid və tərki-dünyaların hücrəsi*" mənası daşımışdır. Sonralar müsəlman dərvişləri tərəfindən qəbul olunaraq əvvəllər "*müqəddəs yer*" kimi məlum olan ərazilərdə salınmış tikililər ***xanəgah*** adlandırılmışdır. ***Xanəgahlar*** haqqında ilk məlumatlar X **-** XV əsrlərə aid edilir. İslamiyyətə görə ***xanəgah*** sözü "*şeyx və ya mürşidin rəyasəti altında olan dərvişlərin yaşadıqları və ibadət etdikləri yer*", "*təkyə*", "*zaviyə*" mənasında işlənərək dini məzmun daşımışdır. Vaxtilə adətən dərvişlərin (*sufilərin*) yaşadıqları ***Xanəgahlar*** sufiliyin təbliğat mərkəzlərindən olmuşdur. Onlar manilik və buddizm zahidlərinin hücrələrinə bənzəyirmiş. Sonralar *xanəgahlar* müxtəlif tikililərdən (*hücrə, məscid, türbə* və s.) ibarət kompleksə çevrilmişdir. Xanəgahların əksəriyyəti mərkəz günbəzli salon və ya həyət ətrafında qruplaşmış binalardan ibarət olur. ***Xanəgahlar*** forma, kompozisiya və memarlıq bəzəklərinə görə tikildiyi dövrün və ərazinin memarlıq xüsusiyyətlərini özündə əks etdirir.

Xanhüseyn dərəsi – Xocavənd rayonunun Muğanlı kəndindən bir qədər kənarda qeydə alınmış oroqrafik obyekt. ***Xanhüseyn dərəsi*** toponimi "*Xanhüseynə məxsus olan dərə*" mənasındadır.

Xanımağa qaçan tap – Bu oronim Cəbrayıl rayonunun Papı kəndi ərazisində qeydə alınmışdır. Patronimik oronimlərdən olan ***Xanımağa qaçan tap*** coğrafi adı ***Xanımağa*** adlı qızın həmin ərazidə ***qaçması (qaçırılması)*** ilə əlaqədardır.

Xankəndi kurqanları – Xocalı rayonunun ərazisində, Xankəndi şəhərinin yaxınlığında qədim abidə. ***Kurqan*** – türk mənşəli sözdür. Mənası torpaq, ağac yaxud daşdan düzəldilmiş, adətən yarımkürə formalı qədim qəbirüstü abidə və ya süni təpə deməkdir. ***Xankəndi kurqanları*** Qarabağda, Xankəndi şəhəri yaxınlığında Eneolit və Tunc dövrlərinə aid arxeoloji abidədir. Bir neçə kurqandan ibarətdir. 1938-1939-cu illərdə buradakı bəzi kurqanlar tədqiq edilmişdir. Kurqanaltı dəfn kameraları dairə formalı olub, dayaz xəndəklə əhatələnmişdir. Bu dəfn kameralarının diametri 4,5 metrdir. Kameraya şərqdən enli sal daşla örtülmüş giriş yolu var. Bu kameralar m. ö. V-III minilliklərdə Zaqafqaziyada geniş yayılmış yaşayış binalarını xatırladır. Miladdan öncə IV minillikdən başlayaraq çöl-dözənlik dəfn qaydasının sabit, ənənəvi etnokultur göstəricisi olan ***kurqan*** anlayışı Hind-Avropa, Hind-İran və Qafqaz dillərinin heç birində yoxdur. Bu anlayışın kökü yalnız türk dillərindədir və bu dillərdəki ***qur*** ("*tikmək*", "*dözəltmək*", "*torpaq tökməklə yaratmaq*") və ***qan*** *("ata", "soy", "nəsil")* söz köklərinin birləşməsindən yaranmışdır (Azərbaycan tarixi. Bakı, "Çıraq", 2009, səhifə 159). Çoxtəbəqəli ***Xankəndi kurqanları*** kollektiv dəfn adəti ilə xarakterizə olunur. Kurqandakı ölülərin üstü gil və xırda çay daşları ilə örtülmüşdür. İlk Tunc dövrünə aid (*miladdan öncə III minilliyin əvvəlləri*) təbəqədə (*Kür-Araz mədəniyyətinin ilk mərhələsi*) uşaq və yaşlılar birgə dəfn edilmişdir. Bu, kurqanların ailəvi və ya qəbiləyə məxsus dəfn yeri olduğunu göstərir. Ailənin *(qəbilənin)* üzvləri sol və ya sağ yanı üstə bükülü, yaxud oturdulmuş, ağsaqqallar (*qəbilə başçıları*) isə arxası üstə uzadılmış vəziyyətdə dəfn olunmuşlar. ***Xankəndi*** kurqanlarından daş gürzələr, mis xəncər tiyələri, həvəngdəstə, sümük alətləri, ox ucları, qızıl muncuqlar və asmalar, müxtəlif keramika nümunələri və s., həmçinin heyvan sümükləri aşkar edilmişdir.

Xanməmməd ocağı – Ağdam rayonunun vaxtilə Üçoğlan kənd inzibati ərazi vahidindəki Səfərli yaşayış məntəqəsi yaxınlığında qeydə alınmışdır, Üçoğlan kəndi Qarabağ xanlığı zamanında Otuzikilər tayfasının oymaqlarından biri olmuşdur. Bu mülklər sonralar Behbudovların ixtiyarına keçmişdir. O vaxtlar Üçoğlan kəndinin bəylərinin xanımları döyüş və səfərlərdə yaxından iştirak edirdilər. Mənbələrin verdiyi məlumatlara görə, kəndin nüfuzlü ağsaqqallarından olan ***Xanməmməd ağa*** xanlıqda sayılıb-seçilən şəxsiyyətlərdən hesab edilirdi. Günlərin bir günü o, Səfərli meşələrinə çıxarkən köhnə qəbiristanlıqdan işıq gəldiyini görür və gəlib bunu kənd camaatına danışır. Kənd camaatı həmin yerə getdikdə heç nə görməyib geri qayıdır və Xanməmmədə heç nə görmədiklərini deyirlər. ***Xanməmməd*** özü camaatla birlikdə meşəyə gedir və onlar doğrudan da, həmin qəbrin üzərində şam yandığının şahidi olurlar. Elə o zamandan da ***Xanməmmədə*** *ocaq oğlu*, ocağa isə ***Xanməmməd ocağı*** deyilmişdir.

Xantəpə – Füzuli şəhərinin cənub-şərqində m. ö. V-II minilliklərə aid çoxtəbəqəli ***yaşayış yeri*** **Xantəpə** adlanır. Bu **təpə** dairəvi formalıdır. Onun diametri 125 metr, hündürlüyü 9 metrdir. Qazıntı və tədqiqat işləri zamanı buradan eneolit, ilk və son tunc dövrlərinə aid gil məmulatı və daş alətlər tapılmışdır. Eneolit dövrünə aid mədəni təbəqədən (5 metr qalınlığında) gil qab qırıqları, daş alətlər (bıçaqvari lövhələr, müxtəlif qəlpələr, dən daşları, həvəngdəstə, sürtgəc və s.) aşkar edilmişdir. Xantəpədən tapılan gil məmulatı içərisində üzərində od və his izi qalmış yuvarlaq formalı boz rəngli qab (*buta*) diqqəti cəlb edir. Məhz, bu qab (*buta*) Zaqafqaziyada ən qədim metal tapıntıdır. O, qum qatışıqlı gildən hazırlanmış, üzərində od və his izi qalmışdır. Mis əridilməsi üçün istifadə olunmuş bu əşyanın hündürlüyü 4 sm-dir. Buradan eneolit dövrünə aid maddi-mədəniyyət nümunələrinin ikinci qisminin daş məmulatları, eləcə də dəvəgözü daşından düzəlmiş bıçaqvari lövhələr və üzərində iş izi nəzərə çarpan çoxlu müxtəlif qəlpələr aşkar olunmuşdur. Xantəpədən qalın divarlı, boz rəngli, məsaməli daşdan yonulmuş yuvarlaq oturacaqlı daş qabın aşağı hissəsi də tapılıb. Bu tapıntılar *Xantəpəni* oturaq əkinçi yeri kimi səciyyələndirir, burada miladdan öncə V minillikdə artıq müstəqil metaləritmə işinin də mövcud

olduğundan xəbər verir. Tədqiqatlar göstərir ki, ***Xantəpə*** ərazisində Günəştəpədə olduğu kimi, m. ö. V-II minilliklərdə oturaq əkinçi-maldar tayfaları yaşamışlar. Titul bildirən **xan** komponentinə ***təpə*** termini birləşərək ***Xantəpə*** oronimini yaratmışdır. ***Xantəpə*** ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidəsidir.

Xarı bülbül gülü – Şuşa rayonunun ərazisində, əsasən Cıdır düzündə bitən, orta boylu, amma şah qamətli heyrət doğuran bir çiçəkdir. Başdan-başa möcüzə olan bu çiçəyin "sinəsindən" müxtəlif istiqamətə 3 ləçək açılır. Göz oxşayıb-könül açan bu gülün ləçəklərinin başında bir bülbül pərvazlanır; bülbülün çiynində balaca iki qoşa ləçək var. Bülbülün dimdiyi, başı, gözləri, bədəni ləçəyi tamamlayır. Xarı bülbül vətəndən qeyri torpaqda bitməz, "həsrətə dözməz". Möcüzəli ***Xarı bülbül gülü*** ilə bağlı müxtəlif rəvayətlər var: Rəvayətlərə görə, güllər, çiçəklər də insanlar kimi eşqə düşərmişlər. Bülbül sevinir ki, onun taleyinə nə yaxşı qızıl gül düşüb. Odur ki, gecə-gündüz ona eşqnamə oxuyur; qızıl gül də bu eşqə çələng toxuyur, sevgilisinə biganə qalmır. Onların ülvi məhəbbəti bütün aləmə səs salır. Başqa gül-çiçəklər bu məhəbbətə sevinirlər. Lakin buna ***Xar*** dözmür. O, aşiqlə məşuqu ayrı salmaq üçün ***gülə*** eşqnamə oxuyur. Rədd cavabı xarı hiddətləndirir. O, hirslənib gülün ləçəyinin birini yeyir. ***Bülbül*** gülün məhv olacağını görüb fəryad qoparır. Onun ah-naləsi gülləri, çiçəkləri ağladır. ***Xar*** qızıl gülü xar eləmək məqamında zərif güllər, kövrək çiçəklər tanrıdan ümid diləyərək "*bizim canımızı al, təki bu eşqə qıyma*" deyirlər. Onların diləkləri kama yetir, hamısı bitkiyə çevrilir. ***Gül, bülbül*** və ***xar*** üçlükdə bir çiçəyə – ***Xarı bülbül gülünə*** çevrilirlər. Hər il yazda üçü də beləcə bitir. Çəmən çiçəklərinin fədakarlığından riqqətə gələn bülbül hər səhər tezdən bitkiyə çevrilən gül-çiçəklərin yanına gəlir, amma oxumur, nalə edir; xar isə xəcalətindən başını gülün ləçəkləri arasına qoyub həmişəlik dünya işığına, gözəlliyə baxa bilmir. Təcrübə üçün Şuşada bitən ***Xarı bülbül gülünü*** başqa rayonların ərazilərində əkiblər, amma o, bitməyib.

Xaşvaxt – Xocavənd rayonunun cənub-şərqində, Cəbrayıl rayonu ilə sərhəd yaxınlığında qeydə alınan sıra dağlar ***Xaşvaxt*** adlanır. Oronim ***xaş*** və ***vaxt*** (*zaman*) sözlərindən ibarətdir. ***Xaş/qaş*** komponenti "*axşam, tutqun*" anlamındadır. ***Xaşvaxt*** toponimi "*qaranlıq*" mənasındadır. Bu coğrafi ad vaxtilə ərazidə mövcud olmuş ***Qaranlıq*** (*Martuni*) yer adının sinonimidir.

Xələc dağı – Qubadlı rayonunun ərazisində yerləşən dağ. ***Xələc*** mənşə etibarı ilə *Səlcuq* oğuz tayfalarından biridir. XVII əsrdə Adam Oleari Muğanda yaşayan tayfalardan birinin də ***Xələc*** olduğunu yazmışdır. Dağın adı qədim oğuz tayfası olan *Xalacın* adı ilə bağlıdır. Mahmud Kaşğarinin yazdığına görə 22 oğuz tayfasından birinin adı da ***Xələc*** olub. Azərbaycanın müxtəlif rayonlarının ərazilərində ***Xələc*** tayfa adını əks etdirən toponimlər mövcuddur.

Xələf piri – Cəbrayıl rayonunun ərazisində, Xələfli kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Xələf piri*** adlanır. ***Xələf*** – şəxs adıdır. ***Pir*** sözü fars dilində "*nurani qoca*", "*dini icmanın başçısı*", "*müqəddəs*" və s. mənalara malikdir.

Xəlfəli qışlağı – Şuşa rayonunda, Xəlfəli kəndinin yaxınlığında qeydə alınan qışlaq. ***Xəlfəli qışlağı*** Şuşa rayonunun ərazisindəki ***Xəlfəli*** kəndinin adı ilə adlandırılmışdır. ***Xəlfəli*** toponimi isə öz adını vaxtilə Qarabağda yaşamış ***Xəlfəli*** tayfasının adından götürmüşdür. ***Xəlfəlilər*** mənşə etibarı ilə *şahsevənlərin* bir qoludur. Kəndin yaxınlığından **Xəlfəli** adlanan *çay* axır. Əlavə məlumat üçün bax: **Xəlfəli çayı**.

Xəlifə Qürbət qəbri – Cəbrayıl rayonunun Sirik kəndi ərazisində, Çay dərəsinin gündoğan üzündə qeydə alınan qəbir ***Xəlifə Qürbət*** qəbri adlanır. Qəbirin böyük hərləməsi var. Hərləmənin içərisində iri gövdəli *ardıc* ağacı vardır. Bu qədim qəbirin ətrafında əvvəllər mövcud olmuş yaşayış yerinin qalıqları, yurd yerinin izləri müşahidə edilir.

Xərxan yolu – Şuşa bölgəsində qeydə alınmış maraq kəsb edən coğrafi adlardan biri də ***Xərxan yolu*** oroqrafık obyektidir. Əbd ər-Rəşid əl-Bakuvinin "Kitab təlxis əl-əsər və əcaib əl-malik əl Qəhhar" əsərində ***xarkan*** topoformantına rast gəlinir. ***Xərxan*** coğrafi adının müxtəlif variantları var. ***Kan-qan-qun-han-nun-xan*** bir sözün tələffüz fərqinə uğrayan, həmçinin, eyni mənanı ifadə edən variantlarıdır. ***Qar-qur-her-hur-xar-xər*** komponentləri isə müxtəlif mənbələrdə Qarabağın ərazisində yaşamış tayfa adı kimi çəkilir. Onda belə ehtimal etmək olar ki, ***Xərxan*** toponimi ***xər*** qəbilə adı ilə ***xan*** sözünün birləşməsindən əmələ gəlib. Ümumiyyətlə, tədqiqatçılar ***xərxan*** adını müxtəlif variantlarda izah edirlər. Qarabağda Qafqaz Albaniyası zamanında ***Xarx*** adlı qala da olmuşdur.

Xəsillik – Füzuli rayonunun Seyidmahmudlu kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri **Xəsillik** adlanır. **Xəsillik** termini dilimizdə "*kol-koslu sahə*" anlamını ifadə edir.

Xəzər dağı – Füzuli rayonunun ərazisində, rayon mərkəzindən 15 km şimalda, Qacar kəndi yaxınlığında, Xocavənd rayonu ilə sərhəddə yerləşən dağ. Hündürlüyü **816** (*bəzi sənədlərdə **862** metr də yazılıb*) metrdir. Dağın adı türkdilli ***Xəzər*** tayfalarının adı ilə bağlıdır. Xəzərlərin Cənubi Qafqazda görünmələri barədə müxtəlif fikirlər var. Onların Azərbaycana axını I-III əsrlərdə daha da güclənib. II Şapurun (Sasani hökmdarı, 309-379-cu illər) və Xosrov Ənuşirəvanın (*531-579-cu illər*) dövründə on minlərlə ***xəzər*** ailəsi Azərbaycanda yerləşdirildi. Bəzi məlumatlara görə ***xəzərlər*** Azərbaycana m. ö. 193-cü ildə gəliblər (*M.Xorenski*). Albaniya ərazisi tez-tez Şimali Qafqazda yaşayan xəzərlərin hücumlarına məruz qalmışdır. Azərbaycanda məskunlaşan ***Xəzər tayfaları*** əsasən, maldarlıqla məşğul olmuşlar. Hətta, bir çox dağlarda, o cümlədən, Füzulidəki Xəzər dağında da xəzərlərin yaylaqları yerləşirmiş. Bəzi sənədlərdə oronimin adı ***Xəzəz dağı*** **(*Xazəz*** və ya ***Xəzəz dağı*)** kimi də qeyd olunmuşdur. Yerli məlumata görə, ***dağ*** orada bitən ***xəzəz*** bitkisinin adı ilə adlandırılıb. Qacar kəndinin 4 kilometrliyində olan bu ərazidə deyilənlərə görə, vaxtilə ***Xəzər*** **(*Xəzəz*)** adlı yaşayış məntəqəsi də mövcud imiş. Görünür, bu qədim kəndin əhalisi təxminən son orta əsrlər dönəmində *(bəlkə də bir müddət sonra)* müəyyən tarixi şəraitlə əlaqədar olaraq kəndi tərk etmişdir...

Xəzərtəpə – Laçın rayonunun Qırmızı Güney kəndi ərazisində qeydə alınan oroqrafik obyekt ***Xəzərtəpə*** adlanır. Toponimin tərkibindəki ***xəzər*** sözü ***Xəzər*** etnoniminin, tayfasının adını özündə əks etdiririr. Toponimiyamızda xəzərlərin tərkibinə daxil olan *Kəbər, Abas, Tərnə* və başqa tayfaların adları da öz əksini tapmışdır. Tarixdən məlumdur ki, Sasani hökmdarı Xosrov Ənuşirəvan (531-579) Azərbaycana on min ***xəzər*** ailəsi köçürmüşdür. Xəzər xaqanlığı dağıldıqdan sonra ***xəzərlər*** müxtəlif türk xalqları ilə qaynayıb-qarışmışdır.

Xəzəz dağı – Bax: **Xəzər dağı**.

Xəzəz talası – Qarabağ silsiləsinin ətəyində, Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 19 kilometr cənubda, Kərkicahan qəsəbəsi yaxınlığında qeydə alınan oronimlərdən biri ***Xəzəz talası*** adlanır. Bu coğrafi ad ***Xəzəz*** və ***tala*** sözlərindən, eləcə də ***-sı*** şəkilçisindən ibarətdir. Yerli məlumata görə ***Xəzəz*** sözü bir qədər təhrifə uğramışdır; əslində ***Xəzər*** (***Xəzər*** *etnonimi ilə əlaqədar olaraq*) olmalıdır.

Xəzinə qayası – Şuşa rayonunda qeydə alınan oroqrafık obyektlərdən biri də ***Xəzinə qayası*** adlanır. ***Xəzinə*** – xanların və şahların, məscid və monastırların pul, daş-qaş və s. maddi dəyərlərinin saxlandığı yerdir. Odlu silahların arxasında xüsusi hissəyə də ***xəzinə*** deyirlər. Bəzi Azərbaycan dialektlərində ***xəzinə***/***xəznə*** sözü "*otlaq*", "*otla zəngin olan örüş*" mənasında işlənir. ***Xəzinə qayası*** Şuşa rayonunun Daşaltı kəndi ətrafında yerləşir. *Daşaltı* ("*qayaaltı*" mənasında) *kəndi* ətraf əhalinin ***Xəznədağ*** (***Xəzinədağ***) adlandırdığı mağaranın adıdır. ***Xəznədağ*** mağarasının, ***Xəzinə*** qayasının yerləşdiyi ərazilərdə çoxlu otlaq sahələri vardır.

Xəznədağ mağarası – Şuşa rayonunda, Daşaltı kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri də ***Xəznədağ mağarası*** adlanır.

Xəznədar yeri – Cəbrayıl rayonunun Dağ Tumas kəndindən 5 kilometr aralıda, Qırmızıların şərqində, Aralıq dərəsinin Tumas dağının zirvəsinə qalxan hissəsində, dağətəyi ərazidə qeydə alınan oroqrafik obyektlərdən biri ***Xəznədar yeri*** adlanır. ***Xəznədar yeri*** yaşıllıqlardan ibarət bol otlu sahə olduğu üçün belə adlandırılmışdır. Doğrudan da sanki burada bol ***ot xəzinəsi*** vardır.

Xırda-para Dizaq mahalı – Qarabağın mahallarından biri ***Xırda-para Dizaq*** adlanır. Mahalın sərhədi güneydə *Araz çayı*, quzeydə *Dizaq mahalı*, günbatanda *Dizaq-Cəbrayıllı mahalı*, gündoğanda *Cavanşir-Dizaq mahalı* ilə əhatələnir. Mahal əski Dizaq nahiyəsinin və Arazbar qəzasının əraziləri əsasında yaranmışdır. ***Dizaq*** (***Dizak***) Qarabağın qədim əyalətlərindən birinin adı olmuşdur. ***Xırda-para Dizaq*** mahalını Qarabağ xanı Pənahəli xan Dizaq mahalından, bir az da Arazbar mahalından, necə deyərlər, kəsib ayırmışdır. Mahal vaxtilə indiki Füzuli, Cəbrayıl və Xocavənd rayonlarının ərazisini əhatə etmişdir. Mahalın ərazisində ancaq müsəlmanlar yaşayırdılar. Mahalın ərazisində olan bəzi kəndlər və obalar Cəfərqulu xan Sarıcalı-Cavanşirə bağlı idi. Savaş zamanı kənd əhalisini meydana naib Vəli ağa Arayatılı, oba əhalisini naib Məşədi Abdulla bəy Xəlil bəy oğlu Təzəkçili aparırdı. 1797-ci ildə İran şahı Ağaməhəmməd şah Qovanlı-Qacarın Qarabağa yürüşündə mahalın onlarla kənd və obası viran edilmişdir. ***Xırda-para Dizaq*** *(bəzi sənəd və mənbələrdə* ***Xırdapara-Dizaq*** *kimi də yazılır)* mahalının inzibati mərkəzi əvvəl ***Pirəhmədli kəndi*** *(indiki Füzuli rayonunda)*, sonra ***Sarıcalı kəndi*** olmuşdur. Mahalı naiblər idarə edirdilər. İlk naibi Məlik Namazəli bəy Şəmil bəy oğlu olub. O, mahalın mərkəzi *Pirəhmədli* şenliyində otururdu. Ondan sonra mahalın başçısı Məlik Həsən bəy Saracıqlı (*o, Saracıq kəndində otururdu*), onun oğlu Məlik Həmzə bəy Saracıqlı olmuşdur. Məlik Həmzə bəyin ağalığı dövründə ***mahal*** inzibati ərazi vahidi ləğv olunur və 1822-ci ildə Dizaq-Vərəndə sahəsinin tərkibinə verilir. ***Mahal*** haqqında ilk dolğun məlumata polkovnik Yermolovun və mülki müşavir Mogilyevskinin ***1823***-cü ildə tərtib etdikləri "*Qarabağın statistik təsviri*" adlı vergi dəftərində rast gəlinir. ***Xırda*** termini burada "*kiçik*" mənasındadır; ***para*** komponenti "*yarı*" anlamını ifadə edir. ***Dizaq*** sözünün tərkibindəki ***diz*** (***dizə***) termini qədim İran dillərində "*qala*", "*istehkam*" anlamındadır. Bəzi tarixi sənədlərə əsaslansaq, görərik ki, ***Xırdapara Dizaq*** mahalının tərkibinə aşağıdakı kəndlər daxil idi: 1. *Maralyan kəndi*; 2. *Süleymanlı kəndi*; 3. *Quycaq kəndi*; 4. *Daşkəsən kəndi*; 5. *Qaracallı kəndi*; 6. *Qışlaq kəndi*; 7. *Sirik kəndi*; 8. *Çapand kəndi*; 9. *Cəfərabad kəndi*; 10. *Şəybəy kəndi*; 11. *Karxulu kəndi*; 12. *Mehdili kəndi* (*obası*); 13. *Mollalı* (*Qaradərə*) *kəndi*; 14. *Horovlu kəndi*; 15. *Nüzgər kəndi*; 16. *Çaxırlı kəndi*; 17. *Zülfüqarlı kəndi*; 18. *Balyand kəndi*; 19. *Sarıcalı kəndi*; 20. *Səfərşa kəndi*. 21. *Pirəhmədli kəndi*; 22. *Qoçəhmədli kəndi*; 23. *Xatınbulaq kəndi*; 24. *Saracıq kəndi*; 25. *Gorazıllı kəndi*; 26. *Əhmədbəyli kəndi*; 27. *Güzdək kəndi*; 28. *Qarğabazar kəndi*; 29. *Hüngütlü kəndi* (*obası*); 30. *Qaradağlı kəndi*. 31. *Babı kəndi*; 32. *Horadiz kəndi*; 33. *Molla Məhərrəmli kəndi*; 34. *Mirzə Nağılı kəndi* (*obası*); 35. *Qazaxlar kəndi*; 36. *Qarakollu kəndi*; 37. *Manaflar kəndi*; 38. *Dördçinar kəndi*; 39. *Təzəkçi kəndi* (*obası*); 40. *Allahverdi kətxuda kəndi* (*obası*); 41. *Kürdmahmudlu kəndi* (*obası*); 42. *Minəxur Hüseynqulu kəndi* (*obası*) və s. ***Dizaq*** və ya ***Dizaqlı*** toponiminin paralellərinə çox yerlərdə rast gəlirik.

Xırxa ocağı – Cəbrayıl rayonunun Balyand və Qaracallı kəndlərinin arasında, Çaqqalaşan yalının gündoğanında qeydə alınan oroqrafik obyektlərdən biri ***Xırxa ocağı*** adlanır. Bu ***ocaq*** iki yerə ayrılmış iri daş qalağından və qalaq üstə tökülmüş quru ***dağdağan*** ağacının qol-budağından və ağacın kök yerindən boy atmış 4-5 dağdağan pöhrəsindən ibarətdir. Daş qalağının ortasından cığır keçir. Ziyarətçilər niyyət edib bu cığırdan keçir, daşlar üzərinə nəzir-niyaz qoyurlar. ***Xırxa*** sözü "*çayın iki dağ arasından axıb düzənliyə çıxdığı yer*" anlamını ifadə edir.

Xırman düzü, **Xırman talası**, **Xırman təpəsi** – Laçın rayonunun Zabux, Ağcakənd və Zeyvə kəndləri ərazilərində qeydə alınmış oroqrafik obyektlər. Laçın rayonunun Zabux kəndi ərazisində ***xırman*** termini ilə bağlı ***Xırman düzü***, Zeyvə kəndi ərazisində ***Xırman talası***, Ağcakənd kəndi ərazisində isə ***Xırman təpəsi*** oronimləri qeydə alınmışdır. Azərbaycanda taxılın döyülüb-təmizlənməsi üçün ayrılmış meydançaya, əraziyə, yerə ***xırman*** deyirlər..

Xırman yalı – Xocavənd rayonunun Qaradağlı kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Xırman yalı*** adlanır. ***Xırman*** "*taxıl döymək, təmizləmək, qurutmaq və üyütmək üçün hazırlanmış düzən yer, meydança*" deməkdir. ***Xırman yalı*** toponimi "*taxıl döymək üçün yüksəklikdəki düzən meydança*" mənasındadır.

Xırman yeri – Ağdam rayonunun Cinli kəndi yaxınlığında qeydə alınan oronimlərdən biri ***Xırman yeri*** adlanır. Azərbaycanda taxılın döyülməsi, təmizlənməsi üçün ayrılmış meydançaya – yerə, əmziyə ***xırman*** deyilir. **Xırmanlar** adətən, hündür və küləktutan yerlərdə düzəldilərdi. ***Xırman yeri*** (***sahəsi***) şumlandıqdan sonra oraya su buraxılardı, sonra həmin sahəni mal-qaraya tapdadardılar; vələsdən, kəndələşdan dərz bağlayıb torpağın hamarlanması üçün onun üzərinə çəkərdilər. ***Xırman yeri*** *ərazisinin* torpağı müxtəlif daşlarla möhkəmləndirilərdi. Hər belə "*döyümdən*" əvvəl ***Xırman yeri*** sahəsinə su səpilərdi. Xırmanda vəl, şana, kürək, yaba, xəlbir, şadara və s., yaxınlığında isə adətən, su quyusu, samanlıq olardı. Müasir dövrümüzdə xırmandan kənd təsərrüfatı məhsulunun döyülməsi, qurudulması və təmizlənməsi məqsədi ilə də istifadə edilir. Bu termin bəzən türk dillərindəki *kərmən* sözü ilə də əlaqələndirilir.

Xırman yeri – Cəbrayıl rayonunun Xələfli kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri də ***Xırman yeri*** adlanır.

Xırman yeri – Xocalı rayonu ərazisində qeydə alınmış oroqrafik obyektlərdən biri ***Xırman yeri*** adlanır.

Xırmanın yalı, **Xırmanmərək yalı** – Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlər.

Xırmanlar – Şuşa rayonunun ərazisində qeydə alınmış coğrafi ad. ***Xırmanlar*** adı əkinçiliklə bağlı formalaşan toponimlərdəndir. Şuşa rayonu ərazisində qeydə alınan ***Böyükxırman, Kiçikxırman, Yengibar*** toponimləri də əkinçiliklə bağlı yaranıb. Bunlar təsviri xarakter daşıyan toponimlərdir.

Xışqalası dağı – Xocavənd rayonunun ərazisində dağ. Respublikamız ərazisində müxtəlif adlarla adlandırılmış çoxlu sayda dağlar vardır ki, onlardan da biri Xocavənd rayonunun ərazisində qeydə alınan ***Xışqalası dağı*** oroqrafik obyektidir. Dağın maksimal hündürlüyü 1811 metrdir. Bəzi sənədlərdə dağın adı ***Xış qalası*** şəklində də yazılır. Əslində dağın adı ***Kiş qalası dağı*** kimi yazılmalıdır. Bu **dağ** öz adını zirvəsində xarabalıqları indi də mövcud olan ***Kiş*** adlı erkən orta əsr alban monastırının adından almışdır. ***Xışqalası dağı*** vaxtilə burada mövcud olmuş ***Kiş*** kəndinin ərazisində yerləşir. ***Kiş*** sözünün etimologiyası ilə bağlı müxtəlif fikir və mülahizələr vardır. Fars dilində ***kiş*** sözü "*sitayiş yeri*", "*kult*" deməkdir. Alban tarixçisi M.Kalankatlı " Alban tarixi" əsərində ***Kiş*** (*o, bu adı* ***Kis*** *kimi çəkmişdir*) yaşayış məntəqəsinin adını çəkib. Onun yazdığına görə, ilk xristian missionerlərindən biri olan Yenisey təxminən 74-cü ildə Uti vilayətinin *Kis* kəndinə gəlib burada kilsə tikmişdir. Bu, bütün Cənubi Qafqaz ərazisində ilk xristianlıq məbədi idi. Məbəd əvvələr burada mövcud olmuş qədim sitayiş yerində tikilmişdir. Erkən orta əsrlərdə Albaniyada (*indiki Xocavənd və İsmayıllı rayonları ərazilərində*) ***Kiş*** adlı başqa

toponimlərə də rast gəlinir. İndinin özündə Şəki rayonunda ***Kiş kəndi*** və ***Kiş çayı*** (*Əyriçayın Qanıx hövzəsi qolu*) vardır. ***Xışqalası dağı*** Xocavənd rayonunun ərazisində vaxtilə mövcud olmuş ***Kiş kəndi*** xarabalığı yaxınlığında yerləşdiyi üçün belə adlandırılmışdır. Toponimi qədim şum aləti olan **xış** ilə də bağlayanlar var.

Xocalı dağı – Füzuli rayonunun ərazisində dağ. Dağın adı ***Xocalı*** nəslinin adı ilə bağlıdır. Həmin nəslə mənsub olan ailələr görünür, vaxtilə bu ərazilərdə – ***dağın*** ətəyində yaşamışlar.

Xocalı-Gədəbəy mədəniyyəti – Azərbaycanda, Kiçik Qafqazın dağ və dağətəyi rayonlarında, Kür-Araz çayları arasında Son Tunc və İlk Dəmir dövrlərinə (*m. ö. XIII-VII əsrlər*) aid arxeoloji mədəniyyət. ***Xocalı-Gədəbəy mədəniyyəti*** Xocalı şəhəri (qəsəbəsi) yaxınlığında və ***Gədəbəy*** rayonunda ilk dəfə tədqiq olunmuş abidələrin adı ilə adlandırılmışdır. ***Xocalı-Gədəbəy*** mədəniyyət abidələri yaşayış yerləri, emalatxanalar, qəbirlər, ibadətgahlardan ibarətdir. Mədəniyyətin yayıldığı ərazidə misəritmə kürələri, mis və tunc məmulatları hazırlayan emalatxanaların qalıqları, çaxmaqdaşından alət və silahların istehsal tullantıları aşkar edilmişdir. Buradan Neolit dövründə yaşayan insanlara aid əmək alətləri də tapılmışdır; burada əldə olunmuş maddi mədəniyyət nümunələri Neolit-Tunc dövrlərinə aiddir. Torpaq, daş qutu qəbirlərdə və kurqanlarda ölülər bükülü, uzadılmış, oturdulmuş vəziyyətdə dəfn olunmuşdur. Qəbirlərin keramikası demək olar ki, eynidir. Qəbirlərdən tunc qılınc, təbərzin, toppuz, ox, yaba, xəncər, nizə ucluğu, bardaq, qazan, cilov, bilərzik, üzük, sümükdən hazırlanmış bəzək əşyaları, gildən və daşdan müxtəlif məmulatlar aşkar edilmişdir. ***Xocalı-Gədəbəy*** mədəniyyətinin son dövrünə aid dəmir alət və silahlar, bıçaq, xəncər, aşkar edilmişdir. Əhali əkinçilik, maldarlıq, bağçılıq, ovçuluq, üzümçülük, sənətkarlıq və s. ilə məşğul olurmuş. Təsviri sənət materialları əhalinin dini və estetik görüşlərini əks etdirir. Yerli əhali qonşu tayfalarla əlaqə saxlamışdır. Bu tapıntılar ***Xocalı-Gədəbəy mədəniyyəti*** əhalisinin Zaqafqaziyanın müasir xalqlarının uzaq əcdadları olması ehtimalını əsaslandırır. ***Xocalı-Gədəbəy*** mədəniyyət abidələrinin əksəriyyəti Sankt-Peterburq Antropologiya və Etnoqrafiya muzeyinə, Moskva Tarix muzeyinə və başqa muzeylərə daşınmışdır.

Xocalı yurd yeri – Qarabağ silsiləsinin ətəyində, Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 3 kilometr məsafədə qeydə alınan böyük bir sahə ***Xocalı yurd yeri*** adlanır.

Xocayurd dağı – Azərbaycanda, Qarabağda, keçmiş Ağdərə (*Mardakert*) rayonu ərazisində, indiki Kəlbəcər və Xocalı rayonları sərhədində, Kolataq kəndi yaxınlığında yerləşən dağ. ***Xocayurd dağı*** Qarabağ silsiləsinin Tərtər və Xaçın çayları suayırıcını təşkil edən qolunun qərbindədir. Dağın hündürlüyü 2402 metrdir.

Xoruztəpə – Xocalı rayonu ərazisində, Cəmilli kəndi yaxınlığında, Qarabağ silsiləsi yamacında yerləşən yüksəklik. Yerli məlumata görə, ***Xoruztəpə*** (***Xoruzlu təpə***) uzaqdan ***xoruza*** bənzədiyi üçün bu cür adlanmışdır.

Xoşgədik dağı – Laçın rayonunun ərazisində qeydə alınan **dağ.** ***Xoşgədik*** oronimi ***xoş*** və ***gədik*** sözlərindən ibarətdir. ***Xoşgədik*** toponimi "*müvəqqəti yurd, köç olan gədik*" mənasındadır.

Xotavəng məbədi – Kəlbəcər rayonunun Vəng kəndi ərazisində, Tərtərçayın sol sahilində orta əsrlərə (IV – XIV əsrlər) aid xristian məbədi. ***Xotavəng*** məbədində Xaçın knyazlarına aid müxtəlif kitabələr var.

Xudafərin körpüsü (***körpüləri***) – Erkən orta əsrlərdə Araz çayı üzərində, Cəbrayıl rayonu ərazisində salınmış iki körpüdən ibarətdir. Bu ***körpülər*** Yaxın və Orta Şərqdə memarlıq üslubuna görə ən əzəmətli körpülər sırasına daxildir. Körpülərin biri ***15***, o biri ***11*** aşırımlıdır. Onlar bir-birindən ***800*** metr aralıda yerləşir. Bəzi məlumatlara görə, ***11 tağlı (aşırımlı) körpü*** hicri 15-ci ildə (*miladi 636-cı ildə*) *Bəkr ibn Abdullah* tərəfindən salınmışdır. Buna görə də o, "*Xuda Afərin*", yəni "*Allah yaratmış*" adlanmışdır. Yerli məlumata görə, *Karkar* ticarət mərkəzinin yaxınlığında yerləşən ***15 aşırımlı körpü*** xeyriyyə məqsədilə *Diya Əl Mülk Naxçıvani* tərəfindən salınmışdır. Kərpicdən tikilmiş ***15 aşırımlı körpü*** təbii şəraitlə üzvi əlaqələndirilmiş, onun dayaqları süni oturacaqlar əvəzinə çayın axarındakı qayalar üzərində qurulmuşdur. ***11 aşırımlı körpü*** (*Baş Xudafərin körpüsü*) tamamilə başqa quruluşa və memarlıq görkəminə malikdir. Bir sıra məlumatlara görə, bu körpü Əhəməni imperiyası zamanı tikilmişdir. Hündürlüyü ***12*** metr, uzunluğu ***130*** metr, eni ***6*** metrdir. Bir çox tədqiqatçılar hesab edirlər ki, ***11 aşırımlı körpü*** hələ eramızdan əvvəl V əsrdə tikilmişdir. Rus tarixçisi Platon Zubov 1933-cü ildə çapdan çıxmış "Gürcüstan və Qafqaz" haqqında 6 məktubun üçüncüsündə 1828-1829-cu illərdə müşahidə etdiklərini qələmə almışdır. O yazır: "*Qarabağ xanlığı ilə İran arasındakı sərhəddə salınmış* ***11 tağlı Xudafərin körpüsü*** *böyük sənətkarlıqla inşa edilmiş, ecazkar memarlıq abidəsi kimi diqqəti cəlb edir. Körpünün inşasındakı memarlıq mədəniyyətinə baxanda onun sərkərdə Pompey vaxtında Roma sənətkarlığı zirvəsində inşa edilməsinə heç bir şübhə yeri qalmır*" (həmin kitab, üçüncü məktub, səhifə 15). Həmdullah Qəzvini yazır ki, "*Xudafərin körpüsü hicri 15-ci ildə* (*miladi* ***636****-cı ildə*) ***Bəkir ibn Abdullah*** *adlı mötəbər bir şəxs tərəfindən inşa edilmişdir*". Hətta bəzi "*Azərbaycan tarixi*" dərsliklərində 15 aşırımlı ***Xudafərin*** körpüsünün Şəddadilər hökmdarı I Fəzl ibn Məhəmmədin vaxtında inşa edildiyi də göstərilir. Qədim Azərbaycan memarlarının böyük və uğurlu zəka məhsulu olan bu ***körpülər*** həm də türk xalqlarının mədəni-iqtisadi əlaqələrinin inkişafında əhəmiyyətli rol oynamışdır. ***Xudafərin körpüləri*** tarixi memarlıq abidəsi kimi Yaxın və Orta Şərqdə ən əzəmətli körpülər sırasına daxildir. ***Xudafərin*** toponimi ***xuda*** və ***afərin*** sözlərindən ibarətdir. ***Xuda*** sözü dini termindir. ***Afərin*** sözü isə dilimizdə "*alqış*" mənasındadır. ***Xudəfərin*** toponimi "*Xudaya alqış*", "*Xudaya afərin*", "*Xudaya əhsən*" mənası kəsb edir. Bu sözün fars yozumu "*Allaha mərhaba*", "*Allah tərəfindən yaradılmış*", "*Allahın yaratdığı*" deməkdir. ***Xudafərin körpüləri*** Yaxın Şərq ilə Avropa arasında tarixən möhtəşəm bir qapı olmuşdur. Tədqiqatlar ümumi şəkildə bunu qeyd etməyə əsas verir ki, *Xudafərin körpüləri* sovet dönəmində bəzi sənədlərdə göstərildiyi ***1027***-ci il tarixindən əvvəl tikilmişdir.

Xudaverdili dağı – Qarabağ silsiləsinin ətəyində, Cəbrayıl rayonunun Xudaverdili kəndi yaxınlığında, düzənlik ərazidə qeydə alınan oroqrafik obyektlərdən biri ***Xudaverdili dağı*** adlanır. Oronim ***Xudaverdi*** şəxs adından, ***dağ*** terminindən, eləcə də -***li*** və -***ı*** şəkilçilərindən ibarətdir.

Xudayarlı türbəsi – Cəbrayıl rayonunun Xudayarlı kəndinin ərazisində qeydə alınan tarixi-memarlıq abidəsi ***Xudayarlı türbəsi*** adlanır. Bu qiymətli memarlıq abidəsi, mütəxəssislərin fikirlərinə görə, XIX əsrdə inşa edilmişdir.

Xuneşin məzrəsi – Xocavənd rayonunun ərazisində qeydə alınmış oroqrafik obyektlərdən biri ***Xuneşen məzrəsi*** adlanır. **1727**-ci ilə aid olan "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı mənbədən Vərəndə nahiyəsinin tabeliyində olan yaşayış məntəqələri içərisində indiki Xocavənd rayonu ərazisindəki ***Xuneşin məzrəsi*** adlanan yer adına da rast gəlirik. ***Xuneşin*** sözünün tərkibindəki ***xun*** komponenti bəzi tədqiqatçılara görə erkən orta əsrlərdə – V-VI əsrlərdə Azərbaycanda məskunlaşmış ***hun*** etnonimi ilə bağlıdır. Toponimin tərkibindəki ***şen***

sözü "*kənd*", "*yer*", "*ərazi*" anlamındadır. ***Məzrə*** sözü ərəb dilində "*əkin üçün yararlı yer*", "*tarla*", "*əkin yeri*", "*əkin yerləri əsasında yaranan məntəqə, oba, kiçik yaşayış məntəqəsi*" mənasındadır. Cəbrayıl, Qubadlı, Ordubad rayonlarında ***Məzrə***, İmişli rayonunda isə bu qəbildən olan ***Məzrəli*** adlı kəndlər vardır.

İbə İbrahim ziyarətgahı; İbə ocağı - Füzuli rayonunun Aşağı Ayıbasanlı kəndinin ərazisində qeydə alınmış ***İbə İbrahim ziyarətgahı*** yerli camaat, xalq tərəfindən əziz tutulan müqəddəs ziyarətgahlardan idi. Rayonun Yuxarı Seyidəhmədli kəndi ərazisində ***İbə ocağı*** oroqrafik obyekti də qeydə alınmışdır. Bu ***ocaq*** da əhali tərəfində müqəddəs tapınaq, ziyarət yeri hesab edilirdi.

İbrahim bağı – Füzuli rayonunun ərazisində, Dövlətyarlı kəndinin kənarında, Köndələnçayın sahilində qeydə alınan oroqrafik obyektlərdən biri ***İbrahim bağı*** adlanır. ***Bağ*** onun yaradıcısı olan ***İbrahim*** adlı şəxsin adi ilə bağlıdır.

İkor dağı – Xocavənd rayonunun ərazisində dağ. Bəzən bu oroqrafik obyekti sənədlərdə ***Krikor dağı*** kimi də qeyd edirlər. ***İkor*** toponimi "*çay döngəsi ətrafında yerləşən dağ*" anlamı daşıyır.

İlan qayası, **İlançıxan dağ** – Laçın rayonunun ərazisində ***ilan*** komponenti ilə bağlı olan oronimlərdən bir neçəsi ***İlan qayası***, ***İlançıxan dağ*** adlanır. Bu toponimləri qədim türk mənşəli ***Alan*** tayfasının adı ilə də bağlayırlar. İndi də *Ersarı* tayfasının bir qolu ***İlanlar*** adlanır. Əslində bu tip toponimlərdə ***ilan*** sözünün konkret mənasını ayırd etmək çox çətindir.

İlanboğan dərə – Qarabağ silsiləsinin ətəyində, Xocalı rayonunun ərazisində, Meşəli kəndinin 2 kilometrliyində qeydə alınan oroqrafik obyektlərdən biri ***İlanboğan dərə*** adlanır. Bu coğrafi ad göründüyü kimi, ***ilan*** sözündən, ***dərə*** mənfi relyef forması bildirən coğrafi termindən və eləcə də ***boğan*** feli-sifətindən ibarətdir.

İlandağ – Kəlbəcər rayonunun ərazisində, Tutqunçayın hövzəsində hündürlüyü 2467 metr olan dağ. Azərbaycanda ilanla bağlı yüzlərlə dağ, dərə, qobu, yarğan, təpə və s. oronimlər vardır. Belə toponimlərə nümunə olaraq Culfa rayonunda ***İlandağ***, Füzuli rayonunda ***İlanlı dağ***, Şəmkir rayonunda ***İlanca dağı***, Ağcabədi rayonunun Qaradolaq kəndi yaxınlığında ***İlanlı düz***, Laçın rayonunda ***İlan qayası***, İmişli rayonunda ***İlanlı qobu***, Ağdam rayonunun Aşağı Qərvənd kəndində ***İlanlı təpə*** və başqalarını göstərmək olar.

İlanlı dağ – Füzuli rayonu ərazisində, Qarğabazar və Kürdlər kəndləri arasında, Yuxarı Əbdürrəhmanlı kəndindən 3 kilometr aralıda qeydə alınan dağ. Yerli əhali vaxtı ilə dağın ətəyindən yamacına doğru ***ilan*** sürüləri çıxdığına görə ***dağa*** belə ad vermişlər.

İlanlı güney – Kəlbəcər rayonunun ərazisində, Tutqunçayın hövzəsində qeydə alınan coğrafi ad. ***İlanlı güney*** ərazisində tez-tez *ilanlara* rast gəlindiyindən oronim belə adlandırılmışdır.

İlanlı təpə – Ağdam rayonunun Orta Qərvənd kəndi ərazisində qeydə alınan ***İlanlı təpə*** oroqrafik obyekti qədim tarixə malik olan, Eneolit dövrünə (m. ö. V - IV minilliklər) aid edilən arxeoloji abidələrdəndir. ***İlanlı təpə*** toponimi *"ilan olan təpə"* mənasındadır.

İldırım dağı, **İldırım diki**, **İldırım zirvəsi** – Laçın rayonu ərazisində, Kiçik Qafqazın Mıxtökən silsiləsində, Şeylanlı kəndi yaxınlığında qeydə alınmış oronimlər belə adlanır. ***İldırım dağı*** burada tez-tez qasırğalı buludlar arasında və ya qasırğalı buludla Yer arasında baş verən elektrik boşalmasına - şimşək, ***ildırım*** çaxmasına görə belə adlandırılmışdır. ***İldırım zirvəsi*** yüksəkliyinə rayon əhalisi bəzən ***İldırım dağı*** və ya ***İldırım diki*** də deyir. Laçın rayonunun ərazisindəki *İldırım*

dağına yerli əhali formasına görə ***Yeddibölük*** də deyir. Bəzi araşdırıcılar oronimi ***İldırım*** şəxs adı ilə də əlaqələndirirlər.

İldırımvuran qaya – Cəbrayıl rayonunun Qazanzəmi kəndinin qarşı tərəfində, Həsənxan dərəsinin ətrafında qeydə alınan coğrafi adlardan biri də ***İldırımvuran qaya*** adlanır. "*Sıra dağlardan ayrılan qol*", "*dağların müəyyən hissəsində çətin keçilən yer*" anlamını daşıyan ***qaya*** termini toponimiyada müsbət relyef formasını bildirir. Həmin qayanı vaxtilə ***ildırım*** vurduğu üçün oronim belə adlandırılmışdır.

İldırımvuran yal – Laçın rayonu ərazisində, Kiçik Qafqazın Mıxtökən silsiləsində, Laçın rayonunun Güləbird kəndi ilə Fətəlipəyə kəndləri arasında qeydə alınan yüksəklik belə adlanır. Toponimiyada ***yal*** termini müsbət relyef formasını bildirir. ***İldırımvuran yal*** oronimi vaxtilə burada qasırğalı buludla Yer arasında baş verən elektrik boşalmasına, şimşək və ya ***ildırım*** vurmasına görə belə ad almışdır. Kəlbəcər rayonu ərazisində də bu tipli *İldırımvuran dağ* oronimi qeydə alınmışdır.

İlxıçı qobusu – Ağdam rayonunun İlxıçılar kəndi ərazisində qeydə alınıb. ***İlxıçı*** - Şahsevən tayfa birliyinə daxil olan böyük Azərbaycan tayfalarındandır. Onlar əsasən, maldarlıqla məşğul olmuşlar. Oronimin tərkibindəki ***qobu*** termini mənfi relyef formasını bildirir.

İmam piri; İmamzadə – Füzuli rayonunun Horadiz kəndindən 2 kilometr aşağıda qeydə alınıb. Yerli məlumata görə, çox əvvəllər Horadiz kəndinin camaatı ***İmam piri*** ərazisində məskunlaşmışlar. Həmin ərazidə indi də qədim ev yerlərinin xarabalıqları qalmaqdadır. Yerli əhali tərəfindən müqəddəs tutulan *İmam piri* ocağı daşdan ucaldılmış 2 otaqdan ibarət olmuşdur. ***İmam piri*** uzun zaman insanların inam və etiqad yeri idi. Bu müqəddəs ocağa inam gətirənlər burdan ümidlə qayıdır və arzularına çatırdılar. ***İmam*** pirinə bəzən ***İmamzadə*** də deyirlər.

İmamqulular meşəsi – Şuşa rayonunun ərazisində, Qarabağ silsiləsində, dağətəyi ərazidə, rayon mərkəzindən 14 kilometr qərbdə yerləşən meşə. ***İmamqulular meşəsi*** yaxınlıqdakı ***İmamqulular*** kəndinin adı ilə bağlıdır.

İmanqulu təpəsi – Cəbrayıl rayonunun Dağ Tumas kəndinin 5 kilometrliyində, Çaytumasa gedən yol ilə Narlığa gedən yolun ayrıcında qeydə alınan oronim ***İmanqulu təpəsi*** adlanır. Oronim ***İmanqulu*** şəxs adından əmələ gəlmişdir.

İmarət – İlk Qarabağ xanı Pənahəli xan və onun nəslinin Ağdam şəhərindəki qəbir yerləri, türbələri olan ərazi ***İmarət*** adlanır. Bu tarixi abidələr əsasən, XVIII əsrə aiddir. Ağdamın işğalına qədər buradakı Pənahəli xanın türbəsi və başqa məzarlar Ağdam camaatı və ümumiyyətlə, qarabağlılar tərəfindən əziz tutulur, müqəddəs sayılırdı. ***İmarət*** - şərq memarlığında, ümumiyyətlə, "*bina, saray*" məfhumunu ifadə edən termindir, Azərbaycanda əzəmətli və möhtəşəm binalara adətən ***imarət*** deyirlər. ***İmarət*** toponimi məhz bu səbəbdən belə adlandırılmışdır.

İmirli qışlağı – Şuşa rayonunun Malıbəyli kəndi ərazisində qeydə alınan adonım. ***İmirli*** sözünün mənası haqqında müxtəlif fikir və mülahizələr mövcuddur. "Oğuznamə" əsərinin müəllifi Fəzlullah Rəşidəddin göstərir ki, "Oğuzun Üçok qolundan Dağ xanın dörd övladından ikincisinin adı ***Eymur*** olmuşdur". ***Eymur*** – "*böyük ordusu olan tamğa, onqon*" mənasındadır. ***Eymur*** sözü zaman keçdikcə ***İmir*** şəklinə düşmüşdür.

İmmi ocağı – Cəbrayıl rayonunun Keçəlməmmədli kəndinin ərazisində qeydə alınmış ***ocaq*** yeri ***İmmi ocağı*** adlanır. Bəzən adına ***Yel ocağı*** da deyirlər. Bu *ocaq* ***İmmi*** adlı mömin bir qadının dam yeri olubdur. Ziyarətçilər burada şam yandırar, torpağından bədənlərinin ağrıyan yerlərinə sürtərdilər.

İncə dərəsi – Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyekt. Oronim ***incə*** sözündən və mənfi relyef formasını ifadə edən ***dərə*** terminindən, eləcə də mənsubluq bildirən -***si*** şəkilçisindən ibarətdir.

İncə dərəsi – Füzuli rayonunun Yağlıvənd kəndi ərazisində qeydə alınan oronim. Bu coğrafi ad ***incə*** və ***dərə*** sözlərindən, eləcə də ***-si*** mənsubluq ifadə edən şəkilçidən əmələ gəlmişdir.

İncə düzü – Qubadlı rayonunun ərazisində, Bərgüşad çayı sahilinin yaxınlığında qeydə alınmış oronim belə adlanır. Oronimin tərkibindəki ***düz*** coğrafi termini mənfi relyef formasını ifadə edir.

İncəçay dərəsi – Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyekt. İncəçayın sahili boyu ***İncəçay dərəsi*** uzanır. ***Dərə*** - mənfi relyef formasını bildirən coğrafi termindir.

İncəçöl düzü – Cəbrayıl rayonu ərazisində, Kiçik Qafqazın cənub-şərq ətəyində, Araz çayının sol sahili boyunca uzanan ərazi ***İncəçöl düzü*** adlanır. İcəçayın sahili boyunca uzanan ***İncəçöl*** düzünün uzunluğu qərbdən şərqə ***18*** km, eni ***6*** kilometrdir.

İncildərə – Füzuli rayonunun Alxanlı kəndi ərazisində qeydə alınmış oroqrafik obyektlərdən biri ***İncildərə*** adlanır. Toponim ***incil*** sözündən və mənfi relyef forması bildirən ***dərə*** coğrafi terminindən ibarətdir. Yerli dialekt və şivədə əhali ***əncir*** meyvəsinə çox zaman ***incil (ıncır)*** deyir. Oronimin tərkibindəki ***incil*** komponenti ***əncir*** sözünün təhrif olunmuş formasıdır.

İncilli köbər – Füzuli rayonunun Alxanlı kəndi ərazisində qeydə alınmış oroqrafik obyektlərdən biri ***İncilli köbər*** adlanır. Toponim ***incil*** sözündən və müsbət relyef forması bildirən ***köbər*** coğrafi terminindən ibarətdir. ***Köbər*** termini "*dik yer, dikdir, dik torpaq qalağı, hündür yer*" mənalarında işlədilir.

İncilli qaya – Xocalı rayonunda, Kərkicahan qəsəbəsinin yaxınlığında qeydə alınan oroqrafik obyekt. ***İncilli qaya*** oronimi əslində fitotoponimdir (***Əncirli qaya***). ***İncilli*** toponimini qıpçaqların ***əncə/incə*** tayfasının adı ilə əlaqələndirən tədqiqatçılar da vardır. Cəlilabad rayonunda *İnçilli* adlı kənd də var.

İncir ocağı – Cəbrayıl rayonunun ərazisində, Sarıcalı kəndindən keçən asfalt yolun yaxınlığında, toxmaçarlığın içində qeydə alınmışdır. ***İncir ocağı*** topa *incir* kolluğundan ibarətdir. Bəzən onun adına ***Ziyil ocağı*** da deyirlər. Əlində, barmağında ziyili olan adamlar incirin (*əncirin*) qanadından birini burub buraxır, ağacın dibinə nəzir**-**niyaz qoyur və bununla da ziyilləri tökülür.

İncir piri – Cəbrayıl rayonu ərazisində, Diridağ ətrafında qeydə alınmış bu ***pir - ocaq*** öz adında ***əncir*** (*yerli tələffüzdə adına* ***incir*** *də deyirlər*) ağacının adını əks etdirir. *İlan ocağı* sayılan ***İncir piri*** Diridağ ərazisində ilkin inanclarımızın izini saxlayır.

İncirli pir – Cəbrayıl rayonunun İsaqlı kəndinin baş tərəfindəki yamacda yerləşir. Bu ***pir*** daş hərləmədən ibarətdir. ***Pir*** termini ilə bağlı Azərbaycanda yüzlərlə toponim qeydə alınmışdır.

İnək dağı – Kəlbəcər rayonunda dağ. Bu toponim özündə ***inək*** ev heyvanının adını əks etdirir.

İnək daş, İnək qayası, İnəkuçan qaya – Laçın rayonunun Cicimli və Ağcakənd kəndlərinin ərazisində qeydə alınmış oroqrafik obyektlər belə adlanır. ***İnək*** ev heyvanı adı ilə bağlı ölkəmizin ərazisində yüzlərlə toponim qeydə alınmışdır.

İnək qayası – Kəlbəcər rayonunda, Ağcakəndin cənubunda yerləşən yüksəkliklərdən biri ***İnək qayası*** adlanır.

İnqdərə – Xocavənd rayonunun ərazisində qeydə alınmış oroqrafik obyekt. Qədim türk sözlərindən biri olan ***in*** termini "*yataq*", "*mağara*", "*yarğan*", "*süxur*" və s. mənalarda işlənir. Bu terminin iştirak etdiyi coğrafi adlara Azərbaycan oronimiyasında tez-tez rast gəlmək olur.

İsa bağı – Cəbrayıl rayonu ərazisində, İncə çayının qərb sahilində, İsrafil ağanın bağ yerinin ayağında, Dağ Tumas kəndindən 5 kilometr aralıda qeydə alınan oroqrafik obyektlərdən biri ***İsa bağı*** adlanır. Coğrafi adın tərkibindəki ***İsa*** sözü şəxs adıdır.

İsbiri ocağı – Cəbrayıl rayonunda, Balyand kəndinin qabağında, Kollukənd adlanan köhnə qışlaq yerində qeydə alınan oronimlərdən biri topa bitişikli qaratikan kolluğu ***İsbiri ocağı*** adlanır.

İsmayıl uşağının biçənəyi – Laçın rayonunun Vağazin kəndi yaxınlığında qeydə alınmışdır.

İsrafil ağanın bağı – Cəbrayıl rayonunda. İncə çayının şərq sahilində, Keçəl təpənin qərb ətəyində, Dağ Tumas kəndindən 5 kilometr aralıda qeydə alınan oroqrafik obyektlərdən biri ***İsrafil ağanın bağı*** adlanır.

İşıqlı dağ – Laçın rayonunda, Ermənistanın Goruş və Sisyan rayonları sərhədində qeydə alınmış ***İşıqlı dağ*** (*hündürlüyü 3552 metrdir*) Qarabağ silsiləsində yerləşir. Dağın hündür zirvələrində *dəmirdaş* deyilən vulkanik parıltılı süxur mövcuddur.

İydəli piri – Cəbrayıl rayonunda, Qoşabulaq kəndindən Aşağı Sirik kəndinə gedən yolun üstündə, Qamışlı dərədə yerləşən oronim ***İydəli piri*** adlanır. Oronim ***iydə*** ağac adından və ***pir*** sözündən ibarət olub, "*iydə ağacı olan pir*" anlamındadır.

Kaftar dərəsi – Şuşa rayonunda, Malıbəyli və Quşçular kəndlərinin ərazisində qeydə alınmış oroqrafık obyekt ***Kaftar dərəsi*** adlanır. Ağdaş, Qəbələ, Qubadlı, Zəngilan və Zərdab rayonlarının ərazilərində də ***Kaftarlı dərəsi*** oronimi qeydə alınmışdır.

Kaftar yamacı – Cəbrayıl rayonunun ərazisində qeydə alınmış oroqrafik obyekt.

Kaftarlı dağ – Xocavənd rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Kaftarlı dağ*** adlanır. *Dağ* Əmirallar kəndinin şimalında yerləşir.

Kaftarlı dərə – Füzuli rayonunun Govşad kəndi ərazisində qeydə alınan oronim. Azərbaycan Respublikasının Ağdaş, Füzuli, Qəbələ, Qubadlı, Zəngilan, Zərdab rayonları ərazisində ***Kaftarlı dərə*** oroniminə rast gəlinir.

Kaha düzü – Laçın rayonunun Fərəcan kəndi ərazisində qeydə alınmışdır. Oronimin tərkibindəki mənfi relyef formasını ifadə edən ***düz*** termini "*düzənlik*" anlamındadır. ***Kaha*** sözü isə "*zağa*", "*mağara*" deməkdir. Toponim "*mağara olan düz*" mənasındadır.

Kahalar – Laçın rayonunun Dəyhan və Ağcakənd kəndləri yaxınlığında qeydə alınan oroqrafik obyekt. ***Kaha*** sözü "*mağara*, *zağa*" deməklir.

Kalafalıq – Cəbrayıl rayonunun Qalacıq kəndi ərazisində qeydə alınan oronimlərdən biri ***Kalafalıq*** adlanır. Oronim ***kalafa*** sözündən və ***-lıq*** şəkilçisindən ibarətdir. ***Kalafa*** sözü "*qazılmış, uçulmuş, köhnə, dam yeri*" anlamında işlədilir. Füzuli rayonunun Alıxanlı, Xocavənd rayonunun Çiraquz, Laçın rayonunun Vağazin kəndlərinin ərazilərində də ***Kalafalıq*** oronimi qeydə alınmışdır.

Kamallı çuxuru – Laçın rayonunda, dağlıq ərazidə, təbiətin çox səfalı bir guşəsində yerləşir. Toponim ***Kamallı*** kəndinin adı ilə bağlıdır. Oronimin tərkibindəki ***çuxur*** termini mənfi relyef formasını bildirir.

Kamanlı yurdu – Vaxtilə Xocavənd rayonunun ərazisində, Qarabağın Dizaq mahalında qərar tutmuş yurd yerlərindən biri də ***Kamanlı yurdu*** adlanırdı. *1593*-cü və *1727*-ci illərə bağlı olan Osmanlı qaynaqlarında da bu yurdun adı (***Kamanlı***, ***Konanlı, Konan***) çəkilir.

Kanqlıdağ, **Kanqlı gədik** – Laçın rayonunun Hocaz kəndi ərazisində qeydə alınan oroqrafik obyektlər. Oronimin tərkibindəki ***kanqlı*** komponenti qədim türkdilli ***Kanqlı*** tayfasının adını özündə əks etdirir.

Kar daş – Cəbrayıl rayonunun ərazisində, Dağ Tumas kəndindən Qarağaca gedən yolda, Sarı yoxuşun ayağından düzə çıxan hissəsində qeydə alınan oroqrafik obyekt ***Kar daş*** adlanır.

Kardaş – Füzuli rayonunun Horadiz kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri də ***Kardaş*** adlanır. Oronim ***kar*** və ***daş*** sözlərindən ibarətdir.

Keçəl təpə – Cəbrayıl rayonunun Göyərçin Veysəlli və Dağ Tumas kəndləri ərazisində qeydə alınıbdır. Oronim *təpənin* səthinin *bitkisiz*, ***keçəl*** olması ilə əlaqədar belə adlanmışdır.

Keçəldağ aşırımı – Azərbaycanda, Şuşa rayonunun ərazisində, Qarabağ silsiləsində qeydə alınan aşırım. Yevlax-Laçın avtomobil yolu bu aşırımdan keçir. ***Keçəldağ aşırımı*** Şuşanın 17 verstliyində dərədə yerləşir.

Keçəldağ Perlit yatağı – Kəlbəcər rayonu ərazisində, İstisu kurortundan 15 km cənub-qərbdə, dəniz səviyyəsindən 2800-3170 metr yüksəklikdə yerləşir.

Keçi dağı – Xocavənd rayonunun Susanlıq kəndi ərazisində qeydə alınan dağ. ***Keçi dağı*** oronimi ***keçi*** heyvan adından və ***dağ*** müsbət relyef forması bildirən coğrafi termindən ibarətdir,

Keçiqıran – Füzuli rayonunun Pirəhmədli kəndi ilə Qarğabazar kəndi arasında qeydə alınmış oroqrafik obyektlərdən biri ***Keçiqıran*** adlanır. Toponim azacıq təhrifə uğrayıb; əslində onun adı ***Keçiqırılan*** olmalıdır.

Keş qəbri – Ağdam rayonunun Xıdırlı kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri ***Keş qəbri*** oronimidir. Yerli ağsaqqalların, ziyalıların dediklərindən bu qənaətə gəlmək olar ki, ***keş*** termini ***keşiş*** sözünün təhrif olunmuş formasıdır. Bu qəbirdə vaxtilə bir ***keşiş*** dəfn olunduğu üçün oronim belə ad almışdır.

Keşiştəpə dağı – Laçın rayonu ərazisində yerləşən dağ adı. O, Şəlvə kəndinin şərq hissəsindədir.

Ketidağ – Kəlbəcər rayonu ərazisində yerləşən dağ. ***Keti dağı*** Azərbaycan ilə Ermənistan arasındakı sərhəddə yerləşir. Dağın adına yerli tələffüzdə ***Keyti dağı*** deyilir.

Kəbərli yeri – Ağdam rayonunun ərazisində qeydə alınan oroqrafik obyekt. Həmin ərazi vaxtilə ***kəbirli*** əsilli ailələrə məxsus olduğu üçün oronim belə adlanmışdır. Türksoylu qədim ***Kəbirli eli*** Qarabağın köklu sakinlərindən hesab edilir.

Kəhrad dərəsi – Şuşa şəhərinin yaxınlığında qeydə alınmış oroqrafik obyekt. Şuşa şəhərinin qədim at və araba yolu buradan keçirdi.

Kəhriz bağı – Cəbrayıl rayonunda, Nüzgər kəndinin yaxınlığında qeydə alınan coğrafi adlardan biri ***Kəhriz bağı*** adlanır.

Kəkilli təpə – Laçın rayonunun Hüsülü kəndi ərazisində qeydə alınan təpə. Oronimin tərkibindəki ***təpə*** coğrafi termini oronimlərdə müsbət relyef formasını ifadə edir.

Kəklik dərəsi – Qubadlının Ləpəheyranlı kəndinin ərazisində yerləşən dərə.

Kəklik qayası – Qarabağ silsiləsində, Xocalı rayonunun ərazisində, Qırxqız dağı yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri də ***Kəklik qayası*** adlanır. Oronim ***kəklik*** sözündən və ***qaya*** müsbət relyef forması bildirən termindən, eləcə də ***-sı*** mənsubluq ifadə edən şəkilçidən ibarətdir.

Kəklikotudu güney – Şuşa rayonunun Səfixanlar kəndi ərazisində qeydə alınan coğrafi ad.

Kəl dərəsi – Cəbrayıl rayonu ərazisində, Diridağın ətəyində qeydə alınan oronim ***Kəl dərəsi*** adlanır. ***Kəl dərəsi*** oronimi ***kəl*** sözündən, mənfi relyef forması bildirən ***dərə*** terminindən və mənsubluq ifadə edən -***si*** şəkilçisindən ibarətdir. Toponim "*kəl olan dərə*" mənasındadır.

Kəlbatan – Cəbrayıl rayonu ərazisində qeydə alınan coğrafi adlardan biri ***Kəlbatan*** adlanır. Bu mikrotoponim ***kəl*** və ***batan*** sözlərindən ibarətdir.

Kəlbə Həsən yurdu – Laçın rayonunun Dəyhan kəndi ərazisində qeydə alınıb.

Kəlbə Nəsir dəyirmanı – Füzuli rayonunun Şükürbəyli kəndi yaxınlığında qeydə alınan dəyirman. ***Dəyirman*** onu işlədən **Kərbəlayi Nəsirə** məxsus olduğu üçün azacıq təhrif edilmiş formada onun adı ilə də adlandırılmışdır. ***Dəyirman*** sözü ilə bağlı Azərbaycanda yüzə qədər oronim qeydə alınmışdır.

Kəlbəcər qaya təsvirləri – Kəlbəcər rayonunun Qaragöl və Zalxa gölləri sahillərində, Ayıçınqılı və Pəriçınqıl dağlarında ***qayalara*** həkk edilmiş ***təsvirlər***. Bu təsvirlər, 1966-cı ildə qeydə alınıb və 1976-cı ildən öyrənilməkdədir. Təsvirlərin çoxu dəniz səviyyəsindən 3000 metr yüksəklikdədir. Rəsmlər möhkəm bazalt qayalara döymə və kəsmə üsulla həkk edilmişdir. Bu rəsmlərdə öküz qoşulmuş ibtidai xış ilə yer şumlanması, taxıl biçini və döyülməsi, ov və dini mərasim səhnələri, maral, bəbir, dağ keçisi, canavar və s. təsvir olunmuşdur. Təsvirlərin əksəriyyəti m. ö. III minilliyə (*Tunc dövrünün başlanğıcına*) aiddir. 1976-cı ildə bu ərazilərdə Azərbaycanda ilk dəfə olaraq yüksək dağlıq zonada m. ö. III minilliyə aid yaşayış yeri aşkar edilmişdir.

Kəmər qaya – Cəbrayıl rayonunun İsaqlı və Qalacıq kəndləri yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Kəmər qaya*** adlanır. Bəzən yerli əhali onun adını ***Kəmərə qaya*** kimi tələffüz edir.

Kəmər qaya – Xocavənd rayonunun ərazisində, rayon mərkəzindən 7 kilometr aralıda, Əmirallar kəndi yaxınlığında, vaxtilə burada mövcud olmuş Bəhrəmli kəndinin (*erməni siyasəti nəticəsində XX əsrin ortalarında bu kəndin sakinləri başqa ərazilərə küçürülmüşdür*) ətrafında qeydə alınan oroqrafik obyektlərdən biri ***Kəmər qaya*** adlanır.

Kəmər qaya – Qubadlı rayonunun ərazisində qaya. Azərbaycanda bir neçə inzibati rayonun ərazisində ***Kəmər qaya*** adlı oronim qeydə alınmışdır.

Kəmərbəndli – Cəbrayıl rayonu ərazisində, Araz çayının sol sahilində qeydə alınmış oroqrafik obyektlərdən biri də ***Kəmərbəndli*** adlanır.

Kəmərələr – Cəbrayıl rayonunun Dağ Tumas kəndindən 5 kilometr aralıda, Peyintökülənin gündoğan ətəyində, dağətəyi ərazidə qeydə alınan oronim ***Kəmərələr*** adlanır. ***Kəmərələr*** – bir-birinə paralel qaya sıraları arasında qalan və zahirən ***kəmərə*** oxşayan iki torpaq zolağından ibarətdir.

Kənd yeri – Xocavənd rayonunda, Salakətin kəndinin ərazisində qeydə alınmış oroqrafik obyektlərdən biri ***Kənd yeri*** adlanır.

Kəngərli dağı – Ağdam rayonunun Boyəhmədli kəndi ərazisində qeydə alınmış oronim. ***Dağ*** yaxınlığındakı ***Kəngərli*** kəndinin adı ilə əlaqədar olaraq belə adlanmışdır. Oronim öz adında qədim türk tayfalarından olan ***kəngər*** etnonimini əks etdirir. Kəngərlilərin Azərbaycana gəlişi eramızın ilk əsrlərinə təsadüf edir.

Kəngərli qəbiristanı – Ağdam rayonunda, Qarabağ üzümçülük sovxozu ərazisində orta əsrlərə aid olan abidə. Xaçınçayın sol sahilində, Bozdağın ətəyində yerləşən **Kəngərli qəbiristanının** sahəsi təqribən 4 hektardır. Qəbiristanlıqda XVI-XVII əsrlərə aid daşdan yonulmuş at və qoyun fiqurlarından ibarət qəbirüstü abidələr, daş sənduqələr qalmaqdadır. Qəbiristanda daşdan tikilmiş türbə də var.

Kəpəz təpə – Laçın rayonu ərazisində, Minkənd kəndi yaxınlığında qeydə alınmış təpə. ***Kəpəz təpə*** türk mənşəli oronimdir. **Kəpəz** sözü türk dillərində ***kap/kapı*** - "*qaya*", "*qayalı*", "*yamaclı dərənin yuxarı başı*" anlamındadır. XII-XIII əsr müəllifləri (N.Gəncəvi, Z.Qəzvini və başqaları) ***Kəpəz*** sözünü ***Hərək*** kimi işlətmişlər. Bu söz türk dillərində "*ikihürgüclü dəvə*" (oxşarlığına görə) mənasında işlədilmişdir;

Kərəm çalı, **Kərəm yeri** – Xocavənd rayonunun Muğanlı kəndi yaxınlığında, kənddən 2 km aralıda qeydə alınan coğrafi adlardan biri ***Kərəm çalı*** adlanır. Bu oroqrafik obyekti bəzən ***Kərəm yeri*** kimi də adlandırırlar.

Kərəm körpüsü – Füzuli rayonunun Saracıq kəndi ətrafında qeydə alınan oroqrafik obyektlərdən biri də ***Kərəm körpüsü*** coğrafi adıdır. ***Körpü*** XIX əsrdə inşa edilmişdir.

Kərim qışlağı – Cəbrayıl rayonunun Dağ Tumas kəndindən 6 kilometr məsafədə, Dəyirman yolunun alt hissəsində, gündoğan qayalıq ərazidə qeydə alınan oronimlərdən biri ***Kərim qışlağı*** adlanır. Qışlağın arxa tərəfi iri təpəlikdən ibarətdir. ***Kərim qışlağı*** oroqrafik obyekti ***Kərim*** şəxs adından və ***qışlaq*** sözündən əmələ gəlmişdir.

Kətik meşəsi – Xocalı rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Kətik meşəsi*** adlanır. Meşə ***Kətük*** (***Kətik***) kəndinin yaxınlığında yerləşdiyi üçün ***Kətik meşəsi*** adlanmışdır. Oronimin adında olan ***kətik*** komponentini Qafqaz Albaniyasındakı ***Ketik*** məbədinin adı ilə əlaqələndirən tədqiqatçılar da vardır.

Kətikdağ – Xocalı rayonu ərazisində dağ. Bəzi tədqiqatçıların fikrincə, ***Kətikdağ*** toponimi qədim türk dillərindəki ***kətik*** (Azərbaycan dilində "*gədik*") və ***dağ*** sözlərinin birləşməsi nəticəsində yaranmışdır.

Kiçik İlanlı dağ – Füzuli rayonunun Qarğabazar kəndi ilə Qoçəhmədli kəndi arasında qeydə alınan coğrafi adlardan biri ***Kiçik İlanlı dağ*** adlanır.

Kiçik Kirs dağı – Şuşa və Xocalı rayonlarının ərazisində yerləşən dağ. ***Kiçik Kirs*** dağının hündürlüyü 1374 metrdir (*Böyük Kirsin hündürlüyü isə 2725 metrdir*). ***Kirs*** sözünün çoxlü məna çalarları vardır. ***Kirs*** sözü dialektlərdə "*sıldırım dağ*", "*uca zirvə*" və s. mənalar daşıyır.

Kiçik qaya – Xocavənd rayonunun ərazisində qeydə alınan qaya. Toponimiyada "*sıra dağlardan ayrılmış qol*", "*dağların müəyyən hissəsində çətin keçilən yer*" ***qaya*** coğrafi terminini ifadə edir.

Kiçik Qızılqaya dağı – Kəlbəcər rayonu ərazisində, Çalbayır silsiləsində yerləşən dağ. ***Qızılqaya dağı*** buradakı dağ süxurlarının ***qırmızı (qızılı)*** rəngə çalan ***qayaya*** görə belə adlandırılmışdır. ***Qızılqaya*** toponiminə Abşeron, Ağdam, Babək, Culfa, Əsgəran, Füzuli, Gədəbəy, Goranboy, Göygöl, Xocavənd, İsmayıllı, Qazax, Quba, Qubadlı, Qusar, Laçın, Şəki, Şəmkir, Şərur, Şuşa, Yardımlı, Zəngilan rayonlarında da rast gəlinir.

Kilsəli – Xocalı rayonunda Kərkicahan qəsəbəsi yaxınlığında, meşənin qalınlığında ***Kilsəli*** adlanan çox qədim bir yer var. Bu kilsənin qalıqları, uçuq divarları bu günə qədər qalmaqdadır. Kilsə divarları gözəl naxışlarla bəzədilmiş və səliqə ilə yonulmuş sal daşlardan ibarətdir. ***Kilsəli*** ərazisində bir neçə qədim Alban tayfalarının yaşayış yeri mövcud olmuşdur.

Kiprik quzey – Cəbrayıl rayonunun Qalacıq kəndində qeydə alınmışdır. ***Quzey*** coğrafi termini – "*dağın, təpənin şimal yamacı, günəş şüası düşməyən kölgəli tərəfi*" deməkdir. Bu söz türk dillərində "*şimal*" mənasında işlənir.

Kirişdi dərə – Füzuli rayonunun Yağlıvənd kəndi ərazisində qeydə alınan dərə. ***Dərə -*** mənfi relyef forması bildirən coğrafi termindir.

Kirişdi dərə – Xocavənd rayonunun ərazisində, Əmirallar kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Kirişdi dərə*** adlanır. Toponim ***kiriş*** və ***dərə*** sözlərindən ibarətdir.

Kirişdik – Cəbrayıl rayonunun Qalacıq kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Kirişlik*** adlanır. Yerli şivəyə uyğun olaraq bəzən onun adına ***Kirişdik*** də deyirlər.

Kirpili yal – Cəbrayıl rayonunda, Dağ Tumas kəndinin yaxınlığında, kəndin sol cinahının qənşərində qeydə alınan ***Kirpili yal*** oronimi iri təpədən ibarətdir.

Kirs dağı – Xocavənd rayonunun ərazisində, Tuğ kəndindən 9 kilometr məsafədə qeydə alınan oroqrafik obyektlərdən biri ***Kirs dağı*** adlanır. Oronim ***kirs*** ("*çöl*", "*sərhəd*", "*uca zirvə*", "*sıldırım*", "*şiş*", "*yayla*", "*dağ*" və s.) sözündən və ***dağ*** coğrafi terminindən ibarətdir.

Kol piri – Cəbrayıl rayonunun Dağtumas kəndində 3 kilometr məsafədə, Gədə yolunun altında, Dəli yarğan ilə Gədədən Qəhrəman yurduna dönən yolun arasında yerləşir. *Kol piri* iri çevrəsi olan qaramıx kolundan ibarətdir. Elə bu səbəbdən də ***Kol piri*** adlanır.

Kolabad – Qarabağ silsiləsinin ətəyində, Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 18 kilometr cənubda, Kərkicahan qəsəbəsinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri də ***Kolabad*** adlanır.

Kolanı mahalı – Azərbaycanda, o cümlədən də, Qarabağda yaşamış qədim türk tayfalarından biri də kolanılardır. XVIII əsrin ortaları, XIX əsrin birinci yarısında Qarabağ xanlığı tərkibində yaşayan kolanıların ərazisi ***Kolanı mahalı*** adlanırdı. XIX əsr Azərbaycan tarixçisi Mirzə Adıgözəl bəy Uşacıq kəndindən Göyçə sərhədlərinə qədər uzanan Tərtər çayı hövzəsini ***kolanıların məskəni*** adlandırırdı. Bəzi ehtimallara görə, kolanıları XVIII əsrin I yarısında Azərbaycana Nadir şah Əfşar Xorasandan köçürmüşdür. Onlar əsasən Qarabağ, Naxçıvan və Şirvanda yaşamış, maldarlıqla məşğul olmuşlar. XIX əsrdə Cavad qəzasında ***282*** ailədən ibarət ***Kolanı eli*** yaşayırdı. Sonralar onlar müxtəlif ərazilərdə məskunlaşmışlar. Bir çox mənbələrin verdiyi məlumatlara görə, Ağa Məhəmməd şah Qacarın hücumu zamanı Qarabağ elatlarının bir qismi, o cümlədən də, ***kolanılar*** köçərək Azərbaycanın Naxçıvan, Şirvan və başqa ərazilərində yaşamışlar.

Kolanı yurd yerləri – Xocavənd rayonunun ərazisində qeydə alınan oroqrafik obyekt. Yerli əhalinin məlumatlarına görə, vaxtilə Vərəndə mahalının tərkibində, indiki Xocavənd rayonunun ərazisində, Cəmiyyət və Qarakənd kəndləri arasında ***kolanı*** tayfalarının yaşadıqları yurd yerləri (*Kolanı yurdları*) mövcud olmuşdur. ***Kolanılar*** – qədim türk tayfalarındandır. XVIII əsrin ortaları və XIX əsrin birinci yarısında Qarabağ xanlığında yaşayan kolanıların ərazisi ***Kolanı mahalı*** adlanmışdır. Tədqiqatlardan bu nəticəyə gəlmək olar ki, ***kolanı*** etnonimi əsasən Qafqaz arealına məxsus olan etnotoponimdir.

Kollu dərə – Cəbrayıl rayonunda, Qalacıq kəndi ətrafında qeydə alınan oronimlərdən biri ***Kollu dərə*** adlanır. Toponim ***kol*** və ***dərə*** sözlərindən, eləcə də ***-lu*** şəkilçisindən ibarət olub, "*kol-kosla dolu olan dərə*" mənasındadır.

Koma yalı – Cəbrayıl rayonunun ərazisində, Qarağac kəndinin arxa tərəfində, dörd tərəfi meşəlik, zirvəsi isə çəmənlik olan çox hündür təpə ***Koma yalı*** adlanır. Oronim ***koma*** sözündən, ***yal*** terminindən və ***-ı*** şəkilçisindən ibarətdir. ***Yal*** – müsbət relyef forması bildirən coğrafi termindir. Oronimiyada dağın ən hündür zirvəsinin yamacı ***yal*** termini ilə ifadə edilir.

Kora dərəsi – Cəbrayıl rayonunun Yarəhmədli kəndi ərazisində qeydə alınmışdır. Qədim türk sözü olan ***kora*** (***qura***) termini "*mal-qara üçün tövlə*", "*qışlaqda düşərgə yeri*", "*qoyun saxlamaq üçün pəyə*" və s. mənalarda işlənir.

Korbulaq qayası – Füzuli rayon mərkəzindən 17 km şərqdə, Yuxarı Veysəlli kəndi yaxınlığındakı yüksəklik ***Korbulaq qayası*** adlanır. Qayanın adı oradakı eyni adlı bulağın adı ilə bağlıdır. Yağmurlu vaxtlarda "*gözü açılan*" qayadakı bulağın suyu quraqlıq olanda quruyur. Elə bu səbəbdən də susuz qalan, gözü tez-tez tutulan bu bulağa el arasında ***Korbulaq*** deyirlər. **Qaya** – müsbət relyef formasını bildirən coğrafi termindir.

Koroğlu daşı – Zəngilan rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Koroğlu daşı*** adlanır. Oronim türk xalqları içərisində əfsanəvi xalq qəhrəmanı olan ***Koroğlunun*** adı ilə əlaqədar olaraq belə adlandırılmışdır. ***Koroğlu daşı*** abidəsinin rəngi ağdır. Daşın baş tərəfində bir ***oyuq*** vardır. Bu *oyuqda* qədim türklər, atəşpərəstlər ocaq qalayar, müxtəlif ayınlər icra edərmişlər. Daşın üzərində qədim türk yazılarına oxşar (*çox güman ki, "Orxon-Yenisey" abidələrinə bənzər*) qəribə yazılar vardır. ***Koroğlu daşı*** yerləşdiyi əraziyə el arasında bəzən ***Yazı düzü*** də deyilir. Bu coğrafi ad bəlkə də həmin daşla və yaxud o daşın üzərində olan ***yazı*** ilə əlaqədar yaranmışdır. İşğaldan (*oktyabr, 1993*) öncə burada ***daş*** abidələrdən ibarət *muzey* də yaradılmışdı. Yonulmuş bu daşın ölçüləri *90 sm x 40 sm x 20 sm* idi. Maraqlıdır ki, əsrlərlə günün, yağışın, qarın, küləyin altında qalmasına baxmayaraq, bu ***daş*** öz keyfiyyətini itirməmişdir.

Koroğlu qalası – Ağdam rayonunun ərazisində qeydə alınan qala. Tarixdən məlumdur ki, Səlcuq oğuzlarının ***karık*** adlı tayfası olmuşdur. O da məlumdur ki, qızılbaşların Zülqədər

tayfasının ***koruqlu*** qolu da var. Bir çox sənəd və materiallarda ***karıqlı*** (təhrifi ***Koruqlu***) elinin adı ilə bağlı coğrafi adlarla xalq qəhrəmanı Koroğluya aid edilən yer adları qarışdırılmışdır.

Koroğlu qayası – Laçın rayonu ərazisində, Zeyvə kəndi ətrafında yerləşir. Oronimiyamızda ***Koroğlu*** adı ilə bağlı makro oronimlər xüsusi yer tutur.

Koroğlu qayası – Şuşa rayonunun ərazisində qeydə alınmış qaya. ***Koroğlu qayası*** oroqrafik obyekti Azərbaycanda əvvəllər Osmanlı paşalarına, şonralar isə Səfəvilərə və yerli feodallara qarşı vuruşan *cəlali* dəstələrindən birinə başçılıq etmiş *Koroğlunun* adı ilə əlaqədardır. Bir çox məlumatlara görə, XVI əsrin ikinci yarısında baş vermiş *Cəlalilər hərəkatının* başçılarından biri, xalq qəhrəmanı Koroğlu vaxtilə Şuşadakı qayada məskən salmışdır; bu səbəbə görə də həmin ***qaya*** sonralar ***Koroğlu qayası*** adlanmışdır.

Kosa Qənbər piri – Cəbrayıl rayonunda, Dağtumas kəndindən bir qədər aralıda, Gəyən düzündə, Qara qayanın arxasındakı təpə üstündə daş hasara alınmış qəbir ***Kosa Qənbər piri*** adlanır.

Kotan dərəsi – Füzuli rayonunun Mollavəli kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Kotan dərəsi*** adlanır. ***Kotan*** komponenti keçmişdə Azərbaycanda, o cümlədən, Yaxın Şərq ölkələrində sahə ölçü vahidini bildirən termin kimi işlədilmişdir. Qədim türk dillərində işlədilən ***Kotan/kutan*** sözünün "*qışlaqda maldarların düşərgə yeri*", "*qoyun saxlanması üçün ağıl*", "*gecələr heyvan salınan yer*", "*tövlə*" mənaları da məlumdur. Tarixdən məlumdur ki, türkdilli qıpçaqların ***kotan*** adlı tayfası da olmuşdur. **Kotan** həm də yer şumlamaq üçün istifadə edilən əmək alətidir.

Kotan dərəsi – Xocavənd rayonunun ərazisində, Qaradağlı kəndinin 2 kilometrliyində qeydə alınan coğrafi adlardan biri ***Kotan dərəsi*** adlanır. ***Kotan*** – torpaq şumlayan qədim kənd təsərrüfatı alətidir. Vaxtilə uzun müddət bu dərədə ***kotan*** ilə yer əkildiyindən yerli əhali bu dərəni ***Kotan dərəsi*** adlandırmışdır.

Kotanqaya dağı – Laçın rayonunun ərazisində, Fərraş kəndi yaxınlığında qeydə alınan dağ. Toponimin izahı ilə əlaqədar müxtəlif mülahizələr mövcuddur. Tarixdən məlumdur ki, qıpçaqların ***kotan*** adlı tayfası da var. Toponimi türk dillərindəki ***kutan*** ("*qışlaqda maldarların düşərgə yeri*", "*qoyun üçün ağıl*", " *tövlə*", "*gecələr heyvan salınan yer*" mənalarını verir) sözü ilə də əlaqələndirmək mümkündür.

Köbərtəpə – Ağdam rayonunun Gülablı kəndi ərazisində qeydə alınmışdır. Oronim ***köbər*** və ***təpə*** sözlərindən ibarətdir. ***Köbər*** müsbət relyef forması bildirən coğrafi termini dialektlərimizdə *"dik yer, dikdir", "təpəlik"*, *"hündür yer", "yoxuş"* mənalarında işlədilir.

Köhnə qəbiristanlıq – Qarabağ silsiləsinin ətəyində, Xocalı rayonunun ərazisində, Daşbulaq kəndi ilə Köhnə Xocalı yaşayış məntəqəsinin arasında qeydə alınan oroqrafik obyektlərdən biri ***Köhnə qəbiristanlıq*** adlanır. Bu ***qəbiristanlıq*** qədim tarixə malik olduğu və ondan bir qədər aralıda yeni ***qəbiristanlıq*** salındığı üçün belə adlandırılmışdır.

Köhnə Qışlaq – Cəbrayıl rayonunun Qalacıq kəndi yaxınlığında qeydə alınan toponimlərdən biri ***Köhnə Qışlaq*** adlanır. Yerli məlumata görə, qədim Qalacıq kəndi məhz bu ərazidə mövcud olmuşdur. Toponim ***köhnə*** və ***qışlaq*** sözlərindən ibarət olub, "*keçmiş qışlaq yeri*" anlamındadır.

Kömür aşırımı, **Kömürdağ** – Laçın rayonunun ərazisində qeydə alınmış oronim.

Kömürdağ dağı – Kəlbəcər rayonu ərazisində, rayonun qərb hissəsində, 3037 metr hündürlükdə, İstisu qəsəbəsi yaxınlığında yerləşən dağ. Vulkan mənşəli ***Kömürdağın*** süxurları qara rəngdə olub, ***kömürə*** bənzədiyi üçün ***dağ*** belə adlanmışdır.

Körpü – Xocavənd rayonunun ərazisində, Tağ və Tuğ kəndlərinin arasında qeydə alınan oroqrafik obyektlərdən biri ***Körpü*** adlanır. Həmin ***körpü*** XVII əsrdə inşa olunmuşdur. Təxminən həmin dövrdə tikilmiş daha bir ***körpü*** Tuğ və Azıx kəndləri arasında yerləşir. Hər iki *körpü* rayonun qorunan abidələr siyahısına daxil edilmişdir.

Kötüklük – Xocavənd rayonunun ərazisində, Axullu kəndinin 1 kilometrliyində, Ərgünəş dağının ətəyində qeydə alınan oroqrafik obyektlərdən biri ***Kötüklük*** adlanır. ***Kötüklük*** coğrafi adı ***kötük*** sözündən və ***-lük*** şəkilçisindən ibarətdir. Həmin ərazidə çoxlu sayda ağac və kol kötükləri olduğu üçün oronim belə ad almışdır.

Kromlexlər – Xocalı yaşayış məntəqəsinin yaxınlığında qeydə alınan maraqlı oroqrafik obyektlərdən biri də ***Kromlexlər*** adlanır. Xocalı abidələri içərisində nadir tapıntılardan biri də məhz ***kromlexlər*** hesab olunur. Neolit və Tunc dövrlərinə aid meqalit tikililərin bir növü olan ***kromlex*** adətən dairəvi düzülmüş bir və ya bir neçə konsentrik dairə yaradan, dik qoyulan və 6-7 metr hündürlüyü olan iri daşlardan ibarətdir. Qazıntılar zamanı bu ərazidə qəbirlər, cilalanmış daş baltalar, dən daşları, keramika və s. aşkar edilmişdir. Xocalıda aşkar olunan ***kromlexlər*** böyük ehtimalla dəfn və ya dini mərasimlər üçün tikilmişdir. Onların Günəş məbədi olması da güman edilir.

Ktiş qalası, **Ktiş məbədi** – Xocavənd rayonunun ərazisində qeydə alınan qala və məbəd. Orta əsrlərdə Arranda mövcud olmuş qalalardan biri də indiki Xocavənd rayonunun Tuğ kəndi ilə Domı kəndlərinin arasında yerləşən ***Ktiş qalası*** oroqrafik obyektidir. Qalanın adı mənbələrdə ***Ktiç, Qtiç, K-Tiş, Kbiş*** kimi də göstərilir. ***Qala*** Tuğ kəndinin 5 kilometrliyində yerləşir. Qalanın yaxınlığında 1241-ci ildə tikilmiş ***Ktiş məbədi*** də vardır. **Ktiş qalası** sıldırım qayaları keçilməz meşələrlə örtülmüş indiki Tuğ dağının zirvəsində tikilmişdir. Qalaya yalnız dik və ensiz dağ cığırı ilə qalxmaq mümkün idi. Ktişin şimal hissəsində gizli yeraltı yol olmuşdur. Qala Beyləqan hakimi Yesai Əbu Musaya məxsus olub. 851-ci ildə Əbu Musa Yesai Xilafətə qarşı çıxdığı üçün ***Ktiş*** qalasına çəkilmiş, Buğa əl-Kəbirin başçılıq etdiyi ərəb qoşunlarına qarşı bir ilədək döyüşmüş və onların 28 hücumunu dəf etmişdir. Ktişi tuta bilməyən Buğa əl-Kəbir danışıq aparmaq adı ilə Yesai Əbu Musanı ***Ktiş*** qalasından çıxarmağa və onu əsir almağa nail olmuşdur.

Kurqanlar – Xocalı rayonunun ərazisində, rayon mərkəzinin 2 kilometrliyində qeydə alınan oroqrafik obyektlərdən biri də ***Kurqanlar*** adlanır. Oronim ***kurqan*** sözündən və ***-lar*** cəm şəkilçisindən ibarətdir.

Küdürüstü qobusu, **Küdürüstü köbəri** – Bu oronimlər Ağdam rayonunun *Küdürlü kəndi* ərazisində qeydə alınmışdır. ***Küdürüstü qobusu*** oronimindəki ***küdür*** komponenti *"quru, susuz yer"* deməkdir. Ərazidəki kəndin adı da bu sözlə bağlıdır. ***Qobu*** mənfi, ***köbər*** isə müsbət relyef formasının bildirən coğrafi termindir.

Küfül yer – Xocavənd rayonunun ərazisində qeydə alınan coğrafi ad. Qarabağda qoyunçuluqla məşğul olan insanlar dağ və dağətəyi zonaların kəndlərində, qışlaqlarda ***küfüldən*** geniş istifadə edirlər. ***Küfül*** qazmaq üçün təpənin və ya dağın döşü küfülün en və hündürlüyü nəzərdə tutulan ölçüdə qazılır, qarşısı açılır, döşəməsi qarşıdakı yer səthi ilə eyni səviyyəyə endirilirdi. Küfüllərin eni 3-4 metr, hündürlüyü 2-2,2 metr olurdu. Dəvə saxlamaq üçün olan ***küfüllər*** təbii ki, bir qədər dərin qazılırdı.

Kültəpə – Füzuli rayonunun ərazisində, rayon mərkəzindən 40 km şərqdə, Bala Bəhmənli kəndi yaxınlığında, düzənlikdə yerləşir. Onun çoxtəbəqəli qədim yaşayış yeri olduğu aşkar edilib. *Kültəpədən* 2 kilometr şərqdə Araz çayı axır. 4 hektardan artıq sahəni əhatə edən Kültəpənin hündürlüyü *15* metrə yaxındır. Onun şərq tərəfindəki kəsiklərə əsasən Kültəpənin *süni təpə* olduğu müəyyənləşdirilmişdir. *Kültəpədən* əldə olunan tapıntılar içərisində müxtəlif daş alətlər vardır.

Kültəpə – Xocavənd rayonunun ərazisində qeydə alınmış oroqrafik obyektlərdən biri də ***Kültəpə*** adlanır. ***Kültəpə*** oronimi ***kül*** sözündən və müsbət relyef formasını bildirən ***təpə*** komponentlərindən ibarətdir.

Kültəpə – Laçın rayonunun Hüsülü kəndi yaxınlığında qeydə alınan oronimlərdən biri də ***Kültəpə*** coğrafi adıdır. Oronim ***külül*** bitkisinin adı ilə bağlıdır. Oronimi ***kühül*** ("*mağara*", "*yeraltı yaşayış məntəqəsi*") sözü ilə, eləcə də, ***Qulu*** şəxs adı ilə də əlaqələndirirlər.

Kürd dərəsi – Cəbrayıl rayonu ərazisində qeydə alınmış oroqrafik obyekt. ***Kürd*** etnonimi ilə bağlı oykonimlər və hidronimlər Azərbaycanın müxtəlif ərazilərində qeydə alınmışdır. Bu etnonim bəzi oronimlərdə də öz əksini tapmışdır. Bunlardan biri də Cəbrayıl rayonunun Sofulu və Həsənqaydı kəndləri ərazisində qeydə alınmış ***Kürd dərəsi*** oronimidir. ***Dərə*** – mənfi relyef formasını bildirən coğrafi termindir.

Kürd düzü – Qubadlı rayonunun Qundanlı kəndinin ərazisində qeydə alınan düz.

Kürd güneyi – Kəlbəcər rayonunun Elyaslılar kəndinin ərazisində qeydə alınmış coğrafi ad.

Kürdmahmudlu türbəsi – Füzuli rayonunun Yuxarı Kürdmahmudlu kəndinin ərazisindədir. Türbənin yalnız sərdabəsi salamat qalıb. Türbənin planı kvadrat (*4,4m x4,4m*) formadadır: yerüstü hissəsi düz olsa da, daxildən damı tağ-tavan şəklindədir. Tavanda 4 istiqamətli bir daş ulduz var. Sərdabəyə yeganə giriş şimaldandır. ***Kürdmahmudlu türbəsi*** XVIII əsr abidəsi hesab edilir.

Qabaq düz – Xocavənd rayonunun ərazisində qeydə alınan oroqrafik obyekt. Qədim türk dillərində ***qabaq*** (***kapak***) sözü "*təpə*", "*dağ silsiləsi*" mənasında işlədilir. Azərbaycan toponimiyasında ***qapaq*** termini ***qabaq*** sözü kimi işlənmişdir. Xocavənd rayonunun Dolanlar kəndi ərazisində qeydə alınan ***Qabaq düz*** oronimi "*silsilə dağda düz*" anlamındadır.

Qabaq gədik, Qabaqtəpə, Qabaqtəpə dağı, Qabaqtəpə yaylağı – Laçın rayonunun ərazisində qeydə alınan oronimlər belə adlanır. Qədim türk dillərində işlənən ***qabaq*** **(*kapaq*)** sözü "*təpə*", "*silsilə dağ*" mənasını ifadə edir.

Qabaqtəpə dağı – Laçın rayonu ərazisində, Şəlvə çayı ilə Qoşasu çayının suayrıcında yerləşən *dağ* ***Qabaqtəpə*** adlanır. ***Dağ*** *Qabaqtəpə* adlı hissənin adı ilə adlandırılmışdır.

Qacar meşəsi – Füzuli rayonunun Qacar kəndi ərazisində, kənddən 1 kilometr aralıda qeydə alınan coğrafi adlardan biri ***Qacar meşəsi*** adlanır. ***Meşə*** kəndin yaxınlığında yerləşdiyi üçün belə ad alıb.

Qacar meşəsi – Xocavənd rayonunun ərazisində, Qırmızı Bazar kəndinin yaxınlığında qeydə alınan coğrafi adlardan biri ***Qacar meşəsi*** adlanır. ***Qacar eli*** tarixən *Qızılbaşlar* tayfa ittifaqı içərisində sayılıb-seçilən bir qurum olub. Qarabağ, Gəncə, Çuxur-Səd, Astrabad əyalətlərinin, eləcə də Mərv vilayətinin bəylərbəyiləri, valiləri uzun illər bu eldən çıxıb. **Qacarlar** Gəncədə, İrəvanda, Astrabadda xanlıq, İranda imperatorluq yaradıblar. 1796-ci ildən 1925-ci ilə qədər İranın şahlıq tacının sahibi *qacarlar* olmuşlar. **Qacarlar** Azəri-türk tayfalarına, Qızılbaş-səfəvi türk tayfalarına mənsub edilirlər. Areal xarakterli türk-Azərbaycan mənşəli ***qacar*** adı ilə bağlı coğrafi adlar türkdilli xalqların yaşadıqları regionlarda (*Qırğızıstan, Türkmənistan, Türkiyə, İran,*

Ermənistan və s.) geniş yayılmışlar. ***Qacar*** etnotoponimi bu ərazilərdə ***qacar*** etnik qrupunun yaşaması, məskunlaşması ilə əlaqədardır. *Qacarlar* Azərbaycanın ağqoyunlu ***qacar*** tayfasının adı ilə bağlıdır. Bir sıra tədqiqatçıların fikrincə, ***Qacar*** etnotoponimi qədim türk xalqlarının dillərində "*adam, ər, kişi*" anlamında işlədilən ***ar*** sözünün yardımı, iştirakı ilə yaranmışdır. *Qaçar* (*İran mənbələrində* ***Qacar*** *kimi yazılır*) xanədanı uzun müddət İranda siyasi birliyə də nail oldu. *Qacarlar* həmişə özlərini türk hesab etmiş, türkcə danışmış və öz əcdadlarının İrana Hülakü xanla birlikdə gəldiklərinə inanmışlar. Bəzi tarixi qaynaqların verdiyi məlumatlara görə, ***Qacarlar*** XV əsrin axırlarına doğru Ağqoyunlular dövründə Anadoludan İrana gəlmiş və Azərbaycanda yurd salmışdılar. Qacarların Anadoludakı yurdları olan Bozox bölgəsi üç əsas oymaqdan (Şam Bayatı, Yıva, Ağcaqoyunlu) ibarət idi. Belə olan təqdirdə xanədan bu 3 oymaqdan birinə (*çox güman ki, Yıva oymağına*) mənsub olmuşdur. ***Qacar*** sözü öz adını bu 3 oymağın başçısı olan bir bəyin adından almışdır. Çox ehtimal ki, qacarları da Anadoludan İrana gətirən elə bu bəy olmuşdur. Qacarların bir hissəsi XVII əsrdə Qarabağa və Gəncəyə gələrək həmin ərazilərdə məskunlaşmışlar. XV əsrdə qızılbaşların tərkibinə daxil olan ***qacarlar*** Səfəvilərin hakimiyyətə keçmələrinə yaxından köməklik etmişlər. XIX əsrin sonu və XX əsrin əvvəllərində Qafqazda ***10***-dan çox ***Qacar*** adlı kənd olub. *Qacarlar* Qarabağın köklü əhalilərindən biridir. ***Qacar*** sözü türk ulusunun adı ilə bağlıdır. A.Bakıxanova görə *qacarlar* İran və Azərbaycanda orta əsrlərdə ağalıq edən cəlairlərin bir qoludur. Qacarın şəxs adı kimi işlədildiyi məlum olan ***Qaracarın*** qısaldılmış şəkli olması da ehtimal olunur. Məlumdur ki, Hülakü sülaləsinə mənsub olan Arqun xanın müəllimi Xorasan və Astrabad hakimi Sırtaq Noyan xanın oğlunun adı ***Qacar*** imiş. Onun adı ilə qəbiləsi ***Qacar*** adlandırılmışdır. ***Qacar*** türklərinin Şirvana, Qarabağa, İrəvana, Gəncəyə Əmir Teymur tərəfindən köçürülməsi artıq elmi dəlillərlə sübut olunmuşdur. Sonralar *qacarlar* Azərbaycanın müxtəlif yerlərinə yayılmışlar. Gəncə xanı Cavad xan da *qacar* nəslindən idi.

Qaçaq qəbri – Cəbrayıl rayonunun Dağ Tumas kəndindən 4 kilometr aralıda, Qara mərəkə ilə meşənin kəsişdiyi yerdə qeydə alınan oroqrafik obyektlərdən biri ***Qaçaq qəbri*** adlanır. Yerli əhalinin verdiyi məlumatlardan aydın olur ki, bu ***qəbir*** XX əsrin 20**-**30**-**cu illərində ***qaçaqlıq*** həyatı yaşayan, rus əsgər**-**zabitlərinə qarşı barışmaz olan və onlarla mübarizə apararkən qəhrəmanlıqla həlak olan bir nəfərə məxsusdur. Burada dəfn olunmuş həmin adam ***qaçaq*** həyatı yaşadığı üçün sonralar bu ***qəbir*** də ***Qaçaq qəbri*** coğrafi adını almışdır.

Qala – Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 5 kilometr məsafədə, Əsgəran qəsəbəsi yaxınlığında, Qarqar çayı sahilində qeydə alınan oroqrafik obyektlərdən biri ***Qala*** adlanır. Tarixi məlumatlardan aydın olur ki, 1804**-**1813**-**cü illər *Rusiya-İran müharibəsi* zamanı rus qoşunları bu qalanın yaxınlığında düşərgə salmışdır. Hətta bəzi sənədlərə görə, iki dövlət arasında sülh danışıqları da bir müddət bu *qalada* aparılmışdır.

Qala – Şuşa şəhərinin xalq arasında tez-tez işlədilən adı. Bəzən bu adı ***Qələ*** və ya ***Qəryə*** (ərəb dilində "*kənd*" deməkdir) formasında da işlədirdilər. Şuşa şəhərinin ətrafına çəkilmiş ***qala*** divarlarına görə şəhər belə adlanırdı. Bu qala divarlarının hündürlüyü bəzi yerlərdə 10-15 metrə çatırdı. Müdafiə məqsədilə tikilmiş bu qalanın divarlarında mazğallar da düzəldilmişdir. Şuşa qalasının müdafiəçiləri burada bir çox işğalçılara qarşı layiqli müqavimət göstərmişlər. Xanlıqlar dövründə ***Qala*** rəisinə şəhər komendantı da deyirdilər.

Qala dağı – Xocavənd rayonunda dağ. Toponim "*qala olan dağ*" mənasındadır.

Qala yeri – Cəbrayıl rayonu ərazisində, Diridağla üzbəüz sahədə qeydə alınmışdır. Bu ərazidə çoxlu qədim ***qalaların*** xarabalıqları da vardır. Xalq arasında ***Qala yeri*** adlanan bu sahədə vaxtilə alban kilsəsi və monastırı olmuşdur. *Tiri* kilsəsində saxlanılan qurudulmuş cəsəd tarixi qaynaqlara görə, Albaniyada xristianlığı yaymış missioner Pandalionundur.

Qalabad – Xocavənd rayonunun Tyak kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Qalabad*** adlanır. Toponimin mənası ilə bağlı fərqli fikirlər vardır.

Qalacıq dağı – Laçın rayonunun Zerti kəndi ərazisində qeydə alınıb. ***Dağ*** müsbət relyef forması bildirən coğrafi termindir. ***Qalacıq dağı*** toponimi "*kiçik qala olan dağ*" mənasındadır.

Qalaça dərəsi – Cəbrayıl rayonunun Qalacıq kəndi ərazisində qeydə alınan oronimlərdən biri də ***Qalaça dərəsi*** adlanır.

Qalalılar məhəlləsi – Cəbrayıl şəhərinin mərkəzi hissəsində, uşaq bağçası yaxınlığındakı ensiz asfalt yolun sağ və sol tərəfində yerləşən ərazi ***Qalalılar məhəlləsi*** adlanırdı. Yerli əhalinin dediklərinə görə, vaxtilə burada *Şuşadan* (*Şuşadan olanlara el arasında çox vaxt* ***qalalı*** *da deyilir*) olan bir neçə ailə məskunlaşdığı üçün toponim belə ad almışdır.

Qamışlı dərə ayağı – Cəbrayıl rayonunda qeydə alınmış oroqrafik obyekt. ***Qamışlı dərə ayağı*** oronimi çox güman ki, öz adında Qızılbaşların ***qaradağlı*** tayfasının ***komuşlu*** tirəsinin adını əks etdirir. Toponimi Cənubi Azərbaycanın ***Komuş*** əyalətindən gələnlərlə də əlaqələndirirlər. Metafor strukturlu ***Qamışlı dərə ayağı*** oronimi Cəbrayıl rayonunun Cəfərabad kəndi ərazisində qeydə alınmışdır. ***Ayaq*** metafor termini oronimiyada "*dağın düzənliklə birləşdiyi zolaq*", "*dağın, dərənin, çayın qurtaracağı*", "*son, axır, qurtaracaq*" və s. mənaları bildirir.

Qamqalaqlı təpə – Cəbrayıl rayonunun Qazanzəmi kəndinin yaxınlığında, yaşayış məntəqəsinin qərb hissəsində, Kiçik Həkəri çayına enən yamacda qeydə alınan oroqrafik obyektlərdən biri ***Qamqalaqlı təpə*** adlanır.

Qanqlı yal – Qubadlı rayonunda Xocalı kəndi ərazisində yerləşir. ***Kanqlı*** tayfası qədim türkdilli tayfalardan biridir. Özbək, Qırğız, Qaraqalpaq və Qazaxların etnogenezində bu tayfa fəal iştirak edib. Onlar VIII əsrədək Sırdərya çayı hövzələrində yaşamış, XI-XII əsrlərdə bir hissəsi oğuzlara, 1218-ci ildə isə monqollara qatılmışdır. Azərbaycanın monqollar tərəfindən işğal olunmasında uyğur, xələc və başqa tayfalarla birgə ***kanqlı*** tayfasının da iştirak etdiyi mənbələrdə göstərilir *(F.Rəşidəddin və s.)*. Bəzi tədqiqatçılar səhvən ***kanqlı*** terminini ***qanlı*** sözü ilə eyniləşdirirlər. Ötən əsrlər, xüsusilə, XIX əsr ədəbiyyatlarında "***kanqlı***" termini işlənmişdir. Ümumiyyətlə, kanqlılar III əsrdən məlumdur. Səlcuq işğallarında və monqolların Yaxın Şərq yürüşlərində kanqlılar da iştirak etmişlər. ***Qanqlı*** toponimi də həmin ***kanqlı*** tayfasının adını özündə əks etdirir.

Qanlı dağ – Kəlbəcər rayonunda dağ. ***Qanlıdağ*** oronimi keçən əsrə aid ədəbiyyatda ***Kanqlıdağ*** formasında qeydə alınmışdır. ***Kanqlı -*** qədim türkdilli tayfalardan birinin adıdır. Bu tayfa özbək, qırğız, qaraqalpaq və qazaxların etnogenezində fəal iştirak edib.

Qanlı dərə – Xocalı rayonu ərazisində, Kərkicahan yaşayış məntəqəsi ilə Xankəndi arasında yerləşən oroqrafik obyekt adı. ***Qanlı dərə*** oronimi ötən əsrin əvvəllərində orada baş vermiş tarixi hadisəni özündə əks etdirir. 1905 və 1918-ci illərdə burada azərbaycanlılarla ermənilər arasında toqquşma nəticəsində baş verən bədbəxt hadisədə hər iki tərəfdən çoxlu qan tökülmüşdür. Ona görə də yerli əhali bu dərənin adını ***Qanlı dərə*** adlandırmışdır.

Qanlı dərə, Qanlı gədik – Laçın rayonunun Güləbird kəndi ərazisində qeydə alınmış oronim ***Qanlı dərə*** adlanır. Bu coğrafi ad Güləbird kəndi ərazisində baş vermiş ***qanlı*** hadisələr ilə əlaqədardır. Laçın rayonu ərazisində, Bozgüney kəndi yaxınlığında qeydə alınmış ***Qanlı gədik*** oroqrafik obyekt adı da burada baş vermiş qanlı hadisəyə görə adlandırılan oronimlərdəndir.

Qanlı gədik – Xocavənd rayonunun ərazisində qeydə alınan oroqrafik obyekt. Quzeyçartar kəndi yaxınlığında qeydə alınmış ***Qanlı gədik*** oroqrafik obyekti həmin ***gədik*** ərazisində baş vermiş ***qanlı*** hadisə ilə əlaqədar olaraq belə ad almışdır.

Qanlı yer – Laçın rayonunun Hocaz kəndi ərazisində qeydə alınan oronimlərdən biri ***Qanlı yer*** adlanır. Toponim 1918-ci ildən ermənilərin həmin ərazidə azərbaycanlıları kütləvi şəkildə qətlə yetirmələri ilə əlaqədar olaraq belə ad almışdır.

Qapı yalı – Xocavənd rayonunun Akaku kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Qapı yalı*** adlanır. Toponim ***qapı*** sözündən və müsbət relyef formasını bildirən ***yal*** coğrafi terminindən ibarətdir.

Qapıqaya – Şuşa rayonunun Xanalı kəndi ərazisində qeydə alınan **Qapıqaya** oronımi *"Qaya keçidi"* mənasındadır. **Qapı** termini toponimiyada *"keçid"* və ya *"dar dağ keçidi"* mənasında işlədilir. Oronimiyamızda **qapı** termini ilə bağlı oroqrafık obyekt adları azdır.

Qapılıqaya – Kəlbəcər rayonunun ərazisində, Həsənlər kəndi yaxınlığında qaya.

Qara Baba piri – Cəbrayıl rayonunun Dağ Məzrə kəndinin ərazisindəki eyniadlı yalın üstündə qeydə alınmışdır. ***Qara Baba piri*** daş hərləmədən ibarətdir. Hərləmənin içərisində qaramıx kolu bitir. Ziyarətə gələnlər hərləmənin başına dolanaraq niyyət edir, həmin qaramıx kolunun qol-budağına rəngbərəng parça qırıntıları bağlayırdılar. Yerli camaat bu ***piri*** müqəddəs hesab edir. ***Qara Baba piri*** ilə bağlı yerli əhali arasında müxtəlif əfsanələr dolaşmaqdadır...

Qara Hüseyn dərəsi – Füzuli rayonunun Yağlıvənd kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Qara Hüseyn dərəsi*** adlanır.

Qara Xatunabad yurd yeri – Vaxtilə indiki Füzuli bölgəsində qeydə alınan əski yurd yerlərindən biri ***Qara Xatunabad yurd yeri*** adlanırdı. Bu ***yurd yeri*** Dizaq nahiyəsi tabeliyində mövcud olmuşdur. Hazırda bu kənd mövcud deyil. 1593-cü ilə aid olan Osmanlı qaynağına görə Arazbar nahiyəsində iki ***Xatunabad mülkü*** var idi. Sonrakı tarixi dönəmlərdə bu mülklərdən biri sıradan çıxmış, biri isə Dizaq nahiyəsi tərkibində olmuşdur. Tarixi qaynaqlara görə ***Qara Xatunabad yurd yeri*** orta əsrlərdə hərbi-köçəri əmirlərin ara savaşları dönəmində dağıdılmış, əhalisi isə oradan köçürülmüşdür. XVIII əsrin ikinci yarısında ***Qara Xatunabad*** mülkü ***Məraxatun*** adlanmışdır. **1797**-ci ildə Ağaməhəmməd şah Qovanlı-Qacarın hücumu zamanı yandırılan yurd yerlərinin siyahısında ***Məraxatun*** mülkünün də adı var. "*Kitabi-Dədə Qorqud*" dastanında ***Xatunbəyli, Xatunbulaq*** adlarına da rast gəlirik. Azərbaycanda adının tərkibində ***xatun*** sözünün iştirak etdiyi çoxlu sayda toponimlər qeydə alınmışdır.

Qara kaha – Qarabağ silsiləsində, Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 21 kilometr cənub-qərbdə, Kərkicahan qəsəbəsinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri də ***Qara kaha*** adlanır. ***Kaha*** sözü "*qayalıqda və ya dağda təbii və süni oyuq*", "*mağara*" anlamını ifadə edir.

Qara qaya – Füzuli rayonunun Yuxarı Veysəlli kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri ***Qara qaya*** adlanır. ***Qara*** sözünün "*rəng, böyük, geniş, uca, hündür*" və s. mənaları məlumdur. ***Qara qaya*** oroniminin tərkibindəki ***qara*** termini burada "*rəng*" anlamındadır.

Qara Molla piri – Cəbrayıl rayonunda qeydə alınan oroqrafik obyekt. El arasında adına ***Qara Molla piri*** deyilən bu ocaq Daşkəsən kəndinin girəcəyində, iki quru çaylağın qovuşağında yerləşir. Bu ***pir*** daş hasara alınmış, qabıq qoymuş yaşlı saqqız ağacından ibarətdir. Hasarın

girişindən içəri tərəfdə ocaq yeri, ətrafında daşlar vardır. Buranı ziyarətə gələnlər daşların üstündə şam yandırar, niyyət edib ağacın qanadlarına, budaqlarını parça qırıqları bağlayardılar.

Qara oyuq ocağı – Cəbrayıl rayonunun ərazisində, Qovşudlu kəndinin kövşənində qeydə alınan oroqrafik obyektlərdən biri ***Qara oyuq ocağı*** adlanır. Bu ***oyuq-ocaq*** bir metr hündürlüyü və içərisi ***oyulmuş,*** yerə bitişik ***qara*** dik daşdır. ***Qara*** daşın özünəməxsus hərləməsi vardır. Ziyarətə gələnlər adətən bədənlərinin ağrıyan nahiyələrini həmin daşa sürtər, ocaqdan özlərinə şəfa diləyərdilər.

Qaraağac dərəsi – Cəbrayıl rayonunda qeydə alınmış dərə. ***Qaraağac*** bitki cinsinin adı ilə Azərbaycanda çoxlu oykonim və oronimlər yaranmışdır. Cəbrayıl rayonunun Horovlu kəndinin ərazisində qeydə alınan bu tipli oronimlərdən biri də ***Qaraağac dərəsi*** adlanır.

Qaraağac dərəsi – Qubadlı rayonunun ərazisində qeydə alınmış oronim.

Qaraağaclı piri – Cəbrayıl rayonunda, Şahvəlili kəndinin ərazisində, Qarasu adlanan sahədə, balaca bir təpə üstündə yerləşir. Bu ***pir*** daş hərləmədən ibarətdir. Pirin ətrafında çoxlu ***qaraağac*** bitkisi olduğu üçün ***Qaraağaclı piri*** adlanır. Qəbrinin yeri bilinməsə də, deyilənə görə bura şəhid olmuş bir mücahidin nişangahı, dəfn olunduğu yerdir. Yerli əhali bu piri müqəddəs yer kimi əziz tuturdu.

Qaraarxac dərəsi – Füzuli rayon mərkəzindən 9 km şərqdə, Qorqan kəndinin ərazisində, Qaraağac adlı dağın ətəyindəki dərənin adıdır. Bu oronimdəki ***"qara"*** sözü Qaradağ adından "*dağ*" komponentinin düşməsinin nəticəsidir. ***Arxac*** sözü " *qoyun*", "*mal-qara yatağı*" mənasındadır.

Qaraarxac dərəsi – Xocavənd rayon mərkəzindən 10 km şərqdə, Kuropatkino kəndinin ərazisində böyük bir dərənin adı.

Qarabağ atçılıq zavodu (*Qarabağ atları*) – Vaxtilə Ağdam rayonunun ərazisində fəaliyyət göstərmiş zavod. Azərbaycanın ən qədim dağ minik at cinslərindən olan ***Qarabağ*** atlarının şöhrəti bütün dünyaya yayılmışdır. Qarabağda yetişdirilmiş bu atlar sonralar zaman-zaman İran, türkmən və ərəb atları ilə dölləndirilmişdir. Qarabağda yetişdirilən bu atların süysününün hündürlüyü 148,5 sm, döş qucumu 165,8 sm, əl darağının çevrəsi 18,3 sm-dir. Qarabağ atları əsasən qızılı-kürən və kəhər atlardır. Onlar ortaboylu, mütənasib bədən quruluşlu, ilxı şəraitinə davamlı və ümumiyyətlə, çox dözümlü olurlar. ***Qarabağ atları*** vaxtilə baxış (*yarış*) üçün Rusiyaya, Polşaya, İngiltərəyə, Almaniyaya və s. ölkələrə aparılmış və hamını heyran etmişdir. Zaqafqaziyada və Şimali Qafqazda müxtəlif at cinslərinin, o cümlədən Don atı cinsinin yaxşılaşdırılmasına Qarabağ atlarının böyük təsiri olmuşdur. 1946-cı ildən başlayaraq Azərbaycanın *Ağdam Atçılıq Zavodunda* (*Eyvazxanbəyli kəndində*) cinslə damazlıq işi aparılır. XX əsrin sovet dönəmlərində Ağdam ərazisində iki yerdə Qarabağ atları yetişdirilmişdir. Eyvazxanbəyli kəndində yaradılan atçılıq təsərrüfatında ***Qarabağ atları*** cinsinin qorunması, yaxşılaşdırılması üçün çox işlər görülmüşdür. Onu da qeyd etmək yerinə düşərki SSRİ rəhbəri N.S.Xruşşov burada bəslənmiş "*Zaman*" adlı atı 1957-ci ildə İngiltərə kraliçasına bağışlamışdır (*həmin at vətən həsrətindən qəribsəyərək vaxtsız dünyasını dəyişmişdir*). XX əsrin 70-ci illərindən başlayaraq İtaliya, Almaniya, Hollandiya, Avstraliya kimi ölkələrə onlarla ***Qarabağ atı*** satılıb və zavoda yüz min dollarla xeyir gəlib. 1992-ci ildə zavodda 85 cins at var idi. Ağdam işğal ediləndə ***Qarabağ atları*** da didərgin düşdü. Hazırda bu atlar Bərdə rayonunun Ləmbəran kəndi yaxınlığındakı qışlaqda çöl şəraitində saxlanılır.

Qarabağ düzü – *Kür-Araz* ovalığının bir hissəsi ***Qarabağ düzü*** adlanır. Hündürlüyü dağətəyi ərazidə 500 metrdir. Şimal-qərbdən Gəncə-Qazax düzənliyi, qərbdən Kiçik Qafqazın Murovdağ və Qarabağ silsilələri, cənubdan və cənub-şərqdən Mil düzü ilə əhatələnmişdir. ***Qarabağ düzü*** Kür çayı vasitəsilə Şirvan düzündən ayrılır. Cənub-şərq kanalında okean səviyyəsindən aşağıdır. ***Qarabağ düzü*** tarixi ***Qarabağ*** ərazisinin adı ilə əlaqədar olaraq belə adlanmışdır. *Yuxarı Qarabağ kanalı* Qarabağ düzündən keçir. Mil-Qarabağ kollektoru Qarabağ düzündə*n* başlanır. Yarımsəhra, quru-çöl və kolluq-çöl landşaftı ***Qarabağ düzü*** üçün xarakterikdir. Ərazidə düzən meşələri, Kür çayı sahilində isə seyrək tuqay meşələri, eləcə də, kolluqlar var. Qış otlaqları ilə zəngin olan Qarabağ düzündə heyvandarlıq geniş inkişaf etmişdir. Burada üzüm, pambıq, taxıl, bostan bitkiləri və quru subtropik meyvələr yetişdirilir. ***Qarabağ*** Azərbaycanda tarixi ərazinin adıdır. Kiçik Qafqaz dağlarından başlayaraq Kür və Araz çayları arasındakı geniş ərazini əhatə edən ***Qarabağ*** ən qədim insan məskənlərindəndir. Xocalı-Gədəbəy mədəniyyətinin abidələri də ilk dəfə burada aşkarlanmışdır. Ta qədimlərdən Qafqaz Albaniyasının tərkib hissəsi olan Qarabağda alban, arran, qoroz, uti, qarqar, peçeneq və başqa tayfalar yaşamışdır. Qarabağ bir neçə tarixi vilayət və əyalətlərə bölünürdü. ***Qarabağ*** adı VII əsrdən, bir əyalət kimi isə mənbələrdə XII-XIII əsrlərdən başlayaraq çəkilir (Anili Samuel: "Sev ayqi", Tovma Ardsruni "***Qarabağ***", İbn əl-Əsir "***Qarabağ***"). 1284-cü il mənbəsində də ***Qarabağ*** adına rast gəlinir. Erkən orta əsrlərdə ***Qarabağ düzü*** alban tayfalarından olan *qarqarların* adı ilə ***Qarqar düzü*** adlanmışdır. Adından da göründüyü kimi, ***Qarabağ*** toponimi türk mənşəlidir. Bu toponim haqqında müxtəlif mülahizələr mövcuddur. Əcəmlər lap qədimdən Qarabağa ***Sisaqan*** deyərdilər. Sonralar səlcuqlar ona ***Qarabağ*** adı verdi. ***Qara*** sözünün toponimiyada 30-a qədər anlamı var ("*böyük", "geniş", "azman", "uca", "ağır", "qalın", "qərb", "qoçaq", "əzəmətli", "qüdrətli", "hündür", "pis", "nəhəng", "qaranlıq", "bədbəxt", "güclü", "başçı", "qəm", "xalq", "yaraşıq", "sevinc", "sıxlıq", "keyfiyyətsiz", "şimal", "çox", "düyün", "ip", "rəng"* və s.). **Qarabağ** toponimini bir qrup araşdırıcılar *"böyük, bağlı-bağatlı yer"* kimi mənalandırır. X əsr müəllifi Konstantin Baqryanarodnı ***Qarabağ*** terminini peçeneq tayfalarından biri kimi səciyyələndirir. Azərbaycan alimi Qiyasəddin Qeybullayev də bu fikrə tərəfdar çıxır. S.Aşurbəyli ***Qarabağ*** toponiminin ***baq*** komponentini ***baq (bak, bağı)*** qəbiləsinin adı ilə bağlayır. Ş.Sədiyev *Qarabağ* sözünü ***qara*** *(rəng)* və ***bağ*** *("bağça, bağat")* hissələrinə ayırır. Ə.Fərzəli ***qara*** sözünü *"böyük", "sevinc", "xalq", "qəhrəman",* ***bağ*** sözünü isə *"tanrı"* kimi mənalandırır. M.Seyidov ***qara*** sözünü *"rəng, pis, bədbəxt, güclü, başçı",* ***bağ*** komponentini isə *"düyün, ip", "meyvə ağacı əkilmiş sahə"* anlamı ilə səciyyələndirir. Bəzi tədqiqatçılar ***Qarabağ*** düzünün adını vaxtilə Qarabağda mövcud olmuş ***Qarabağ*** şəhərinin adı ilə əlaqələndirirlər. Əksər araşdırıcılar toponimin ***qara*** *("böyük")* və ***bağ*** (qədim türk dillərində *"soy", "tayfa ", "el", "şəcərə")* sözlərindən ibarət olduğunu ehtimal edirlər. Məlumdur ki, qədim kəngər-peçeneqlərin tərkibində ***Qarabağ*** adlı tayfa da olmuşdur. ***Qarabağ*** toponiminin yayılma arealı çox genişdir. Əfqanıstan, Özbəkistan, Türkmənistan, İran, Şimali Qafqaz və digər ərazilərdə də ***Qarabağ*** toponimləri qeydə alınmışdır. Elə bütün bunlar da ***Qarabağ*** toponimini etnonimlə əlaqələndirməyə bizə haqq qazandırır.

Qarabağ xalçaçılıq məktəbi (*Qarabağ xalçası; Qarabağ kilimi*) – Azərbaycanın xalçaçılıq məktəblərindən biri. Qarabağ Xalçaçılıq məktəbinin məntəqələrində (*Şuşa, Bərdə, Cəbrayıl, Füzuli, Ağcabədi və s.*) xovlu və xovsuz xalçalarla yanaşı, məfrəş, çuval, çul, heybə, xurcun və s. toxunmuşdur. ***Qarabağ Xalçaçılıq məktəbinin*** çeşnili xalça kompozisiyaları klassik nümunələrə əsaslanır. Qarabağ xalçalarının əlvan və şux rəngləri, uzunsov forması vardır. XVIII əsrdə ***Qarabağ Xalçaçılıq məktəbi*** Şuşada mərkəzləşmişdir. XIX əsrin sonu – XX əsrin əvvəllərində Şuşada toxunulmuş süjetli xalçalarda döyüş səhnələrindən müxtəlif epizodlar, satirik lövhələr və s. əks

olunmuşdur. Bu xalçaların yaxşı nümunələri hazırda dünyanın bir çox muzeylərində saxlanaraq nümayiş etdirilməkdədir. Qarabağ xalçalarının forması uzunsov, rəngləri isə şux və əlvandır. Bu rənglər içərisində alqırmızı, dəliqırmızı, qızılı, çəhrayı, palıdı və sarı rənglər üstünlük təşkil edir. Qarabağ evlərinin interyerlərinə uyğunlaşdırılmış 4 xalçadan ibarət məşhur dəst xalıgəbə də geniş yayılmışdır. Qarabağ xalçalarında təbiət mənzərələri, ov səhnələri, insan və heyvan təsvirləri, müxtəlif tarixi qəhrəmanların obrazları və s. məharətlə əks olunmuşdur. Şuşa, Bərdə, Ağcabədi, Cəbrayıl, Füzuli və s. ***xalça*** məntəqələrində xovlu və xovsuz xalçalar, eləcə də, xurcun, məfrəş, heybə, çuval, çul və s. toxunmuşdur. Bu xalçalarda rəmzi xarakterli rəsmlər, həndəsiləşdirilmiş nəbati naxışlar, dekorativ və təsviri sənətin müxtəlif sahələrini əhatə edən kompozisiyalar və s. öz əksini tapmışdır. *"Açmayumma", "Aran", "Bağçada güllər", "Balıq", "Bərdə", "Bəhmənli", "Buynuz", "Dəryanur", "Qarabağ", "Qasımuşağı", "Qoca", "Ləmbərani", "Ləmpə", "Malıbəyli", "Muğan", "Xanqərvənd", "Xanlıq", "Xan-tirmə", "Çələbi", "Saxsıda güllər", "Şabalıdbuta" və s.* çeşnili xalça kompozisiyaları ***Qarabağ*** **xalçaçılıq məktəbinin** klassik nümunələrindəndir. Hələ XVI-XVII əsrlərdə Bərdə xalçaçılarının ipək zilləri (Berlin İncəsənət Muzeyi) və XVIII əsrdə Ləmbəran kəndində toxunan xovsuz vərni (Nyu-York, Metropoliten- muzey) dünya şöhrəti qazanmışdır. XIX əsrdə Ağdamda, Ağcabədidə, Füzulidə, Şuşada yaradılmış həndəsi ornamentli cecimlər, şəddələr xovsuz xalçaların gözəl nümunələri hesab olunur. XVIII əsrdə Şuşada klassik çeşnili xalçalarla yanaşı, Təbriz xalçaçılıq məktəbinin təsiri ilə "*Ləçəklürünc*" çeşnili xalçalar və eləcə də, *"Bulud", "Bağçadagüllər", "Saxsıdagüllər"* xalçaları və s. süjetli xalçalar toxunurdu. Berlin, Vyana, Moskva, Paris və Peterburqda açılmış incəsənət sərgilərində Qarabağ xalçaları dəfələrlə qızıl, gümüş və bürünc medallara layiq görülmüşdür. Xovsuz xalça növü olan ***kilim*** Azərbaycanda, eləcə də Qarabağda qədim dövrlərdən məlumdur. ***Kilim*** Qafqaz, Orta Asiya, İran, Türkiyə, Misir, Bolqarıstan, Ukrayna və s. yerlərdə müxtəlif adlarla *{kilim, qilam, qilem, kerim, kerem, qız qiləm* və s.) istehsal edilmişdir. Miladdan öncə V əsrə aid olan ən qədim **kilim** nümunəsi Dağlıq Altay Muxtar Vilayətinin Pozırık kurqanlarından tapılmışdır. Azərbaycanda toxunulmuş kilimlər 5 qrupa bölünür: 1) Abşeron; 2) **Qarabağ**; 3) Qazax; 4) Muğan; 5) Şirvan. **Qarabağ** xalçaları iki əsas hissədə – dağlıq və aran zonada istehsal olunurdu. XIX əsrdə dağlıq hissənin əsas aparıcı istehsal mərkəzi *Şuşa şəhəri* və *Malıbəyli, Daşbulaq, Dovşanlı, Qasımuşağı, Xanlıq, Çanaqçı, Bəhmənli, Mərcanlı, Ləmbəran* kəndləri idi. Ümumi üslub xüsusiyyətlərini özündə birləşdirən bu kilimlər kompozisiya, naxış və rəng koloritinə görə fərqlənirlər. ***Qarabağ*** kilimləri üçün nəbati motivli güllər, rombvarı, qarmaqlı elementlər, şux rənglər, iri ölçülər, bəzəkli naxışlar, incə toxunuş səciyyəvidir. Kilimlərin hər iki üzündən istifadə olunur.

Qarabağ silsiləsi – Azərbaycan Respublikasının cənub-qərbində, Kiçik Qafqazda dağ silsiləsi. ***Qarabağ silsiləsi*** şimali-qərbdən cənub-şərqə doğru təqribən 120 kilometr məsafədə uzanır. Silsilənin ən hündür zirvələri Qızqala (2843 metr), Böyük Kirs (2725 metr) və s.-dir. Silsilənin polimetal filizlər, tikinti daşları, mərmər, əhəng xammalı, gəc, gil və s. faydalı qazıntıları vardır. Yura və Tabaşir sistemlərinin çökmə və vulkanagen süxurlarından təşkil olunmuş ***Qarabağ dağ silsiləsi*** faydalı qazıntılarla (*polimetal filizlər, tikinti daşı, mərmər, gəc, gil, əhəng xammalı və s.*) zəngindir. Ərazidə müalicə əhəmiyyətli çoxlu mineral sular (*Turşsu, İstisu, Şırlan və s.*) çıxır. Qarabağ silsiləsinin qərb yamacları çox dikdir, şərq yamacları isə çay dərələri ilə kəsilərək bir neçə qola ayrılmışdır. Xaçın, Qarqar, Köndələnçay, Quruçay, Qozluçay və başqa çaylar ***Qarabağ*** silsiləsindən başlanır. Şuşa kimi gözəl və səfalı təbiəti olan dağ iqlim kurortu da ***Qarabağ*** silsiləsindədir. *Qarabağ dağ silsiləsi* öz adını ***Qarabağ*** tarixi ərazisinin adından götürmüşdür...

Qarabağ yaylası – ***Qarabağ*** vulkanik yaylası Azərbaycan və Ermənistan ərazisində – Zəngəzur və Qarabağ silsilələri arasında yerləşir. Yaylanın çox hissəsi Azərbaycan (***Qarabağ***) ərazisindədir. Qarabağ ərazisində yerləşdiyi üçün ***Qarabağ yaylası*** adlanır. Qarabağ yaylasının orta hündürlüyü 2000 – 2500 metrdir. Qarabağ yaylası faydalı qazıntılarla (*vulkan tufları, perlit və s.*) zəngindir. Şimaldan cənuba doğru daralan yayla Bazarçay və Həkəri çayı arasında üçbucaq şəklində qurtarır. Bu hissədə hündürlük 500 metrdir. Dalğavarı səthə malik olan ***Qarabağ yaylası*** cənub və cənub-şərqə tərəf meyillidir. Çayları Kür və Araz hövzələrinə aiddir. Tərtər, Hocazsu, Zabux, Bazarçay və s. çaylar öz mənbələrini Qarabağ yaylasından götürür. Yaylanın ərazisində müxtəlif mənşəli göllər (*Ala Göllər, Qaragöl və s.*) var. Yaylanın orta dağlıq hissələrində vələs-palıd meşələri vardır.

Qarabulaq – Füzuli rayonunun inzibati mərkəzi olan Füzuli şəhərindən 13 kilometr şimal-qərbdə, Qacar kəndi yaxınlığında qeydə alınan coğrafi adlardan biri də ***Qarabulaq*** adlanır. ***Qarabulaq*** buradakı yerin və bulağın adıdır. ***Qarabulaq*** oroqrafik obyekti ***qara*** və ***bulaq*** sözlərindən ibarətdir.

Qarabulaq kurqanları – Füzuli rayon mərkəzindən 2 km şimal-şərqdə, Köndələnçayın sağ sahilində, orta və Son Tunc dövrünə və Dəmir dövrünün əvvəlinə aid olan qəbir abidələri. İndi həmin ərazidə 20-yə qədər ***kurqan*** qalmışdır. Rus arxeoloq alimi A.A.İvanovski 1896-cı ildə həmin kurqanlardan beşini tədqiq etmişdir. Kurqanların ikisində ölüyandırma mərasiminin izlərinə təsadüf edilmişdir. Qəbir yerlərindən tunc bəzək əşyaları, bir çox silah nümunələri və gil qablar tapılmışdır. Beşinci kurqanda - qəbilə başçısına aid edilən bu zəngin kurqanda daha çox əşyalar tapılmışdır. Uzunluğu 10 metr, eni və dərinliyi 2 metr olan bu kurqanda qəbilə başçısının skeletindən əlavə 2 skelet, tunc, qızıl və sümükdən hazırlanmış bəzək şeyləri, daş və tunc silahlar, gil qablar və 2 dəvə skeleti aşkar edilmişdir. 1965-ci ildə **Qarabulaq** kurqanının yerləşdiyi ərazidə m. ö. II minilliyin ortalarına (Orta Tunc dövrünə) aid qəbirlər aşkar edilmişdir. ***Qarabulaq*** nekropolundan tapılan qəbirlər çox güman ki, yaxınlıqda yerləşən indiki Şəkərcik yaşayış məntəqəsinin qədim əkinçi sakinlərinə məxsus olmuşdur. Bu ***kurqanlar*** Qaraköpək-təpədən azacıq şərqdə, ***Qarabulaq*** adlı düzən yerdə olduğu üçün ***Qarabulaq kurqanları*** adlandırılmışdır. Kurqanın hazırki vəziyyəti böyük təşviş doğurur. Erməni işğalından sonra bu qiymətli tarixi-arxeoloji abidə demək olar ki, dağıdılmışdır. ***Qarabulaq kurqanları*** qədim yaşayış yeri olan ***Qaraköpəktəpəyə*** aid olmuşdur. ***Kurqan*** tarixən ***"Qarabulaq"*** (*"gur sulu bulaq"* mənasında) adlı yerdə yerləşdiyinə görə belə adlanmışdır.

Qaraca çoban yurdu – Xocavənd rayonunun ərazisində XX əsrin ortalarına qədər tarix səhnəsində mövcud olmuş Bəhrəmli kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri də ***Qaraca çoban yurdu*** adlanır. Adından da göründüyü kimi ***Qaraca çoban*** "*Kitabi-Dədə Qorqud*" dastanı ilə əlaqədar addır. Yerli sakinlərin öz dədə-babalarından eşidib dediklərinə görə, dastandan tanıdığımız məşhur ***Qaraca çoban*** məhz burada yaşamışdır. Elə bu səbəbdən də bu ***yurd yeri*** onun adı ilə adlandırılmışdır. Maraqlıdır ki, dastanın bir çox boyları ilə bağlı bu kəndin yaxınlığında müəyyən elementlər (*yer adları, dastanın qəhrəmanlarının adını əks etdirən mikrooronimlər, qəbir yerləri və s.*), uyğunluqlar vardır.

Qaraca xırmanı – Füzuli rayonunun Yal Pirəhmədli kəndi ərazisində qeydə alınan oronimlərdən biri də ***Qaraca xırmanı*** adlanır. Taxılın döyülüb-təmizlənməsi məqsədi ilə ayrılan adətən bir qədər hündür və küləktutan meydançaya, yerə ***xırman*** deyirlər. *Xırmanın* **Qaraca** adlanması buğdanın ***qaracasının*** burada təmizlənməsi ilə əlaqədardır.

Qaracalı qəbiristanlığı – Ağdam rayonunda, rayon mərkəzindən 1,5 km qərbdə yerləşən məzarıstan ***Qaracalı qəbiristanlığı*** adlanır. Qəbiristanlığın belə adlanmasını müxtəlif fikirlərlə, fərziyyələrlə əsaslandırırlar. Bir fikrə görə, ***Qaracalı*** sözü azacıq təhrifə uğramışdır: əslində ***Qarahacı*** *(****Qarahacılı****)* olmalıdır *(bu ad nəsil adı ilə bağlıdır)*. Bəzən qəbiristanlığın adına yerli ləhcədə ***Qarağacı*** da deyilir. Başqa bir fikrə görə isə, toponim kəngərlilərin ***Qaracallı*** tayfasının adı ilə əlaqədardır.

Qaraçı çuxuru – Zəngilan rayonunun Keçikli kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Qaraçı çuxuru*** adlanır. Oronim türkdilli xalqlar içərisində ***siqan*** adlanan ***qaraçı*** xalqının adı ilə bağlıdır. *Qaraçıların* mənşə etibarı ilə Hindistanın ***Kəraçi*** vilayətindən çıxmaları haqqında müxtəlif rəvayətlər mövcuddur. Məşhur tədqiqatçı Məhəmməd Vəlili qeyd edir ki, *Azərbaycan qaraçıları* öz dilləri və türk sözləri ilə qarışıq *tat* dilində danışırlar. Onların dili eyni zamanda *Hind-Avropa* dillərinin *Şimal-Qərb* qrupu əlamətlərinə malikdir. ***Qaraçılar*** əvvəllər Azərbaycanda köçəri həyat sürərdilər. Hazırda isə onlar Azərbaycanda demək olar ki, oturaq həyat sürməkdə davam edirlər. Azərbaycan Respublikasının ərazisində ***Qaraçı*** tayfalarının adı ilə əlaqədar olaraq onlarla toponim qeydə alınmışdır.

Qaraçı dərəsi – XX əsrin ortalarına qədər Xocavənd rayonunun ərazisində vaxtilə mövcud olan Bəhrəmli kəndinin yaxınlığında qeydə alınan oronimlərdən biri ***Qaraçı dərəsi*** adlanır.

Qaraçuq dağı – Qarabağ silsiləsinin Mil düzünə doğru uzanan hissəsində, Xocavənd rayonu ərazisində, Kuropatkino kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Qaraçuq dağı*** adlanır. Bu dağın adını bəzi sənəd və materiallarda ***Qaraçuqun çobanı, Qaraçoban, Qaraçuq çoban dağı, Qaraçıq dağı, Qaraca çoban dağı*** kimi də göstərirlər. "*Kitabi-Dədə Qorqud*" dastanında ***Qaraçuqun*** adı çəkilir. Əsərin baş qəhrəmanı Qazan xan "*Qaraçuqun qaplanı*" adlandırılır. Dastanın əsas qəhrəmanlarından biri ***Qaraçuq*** (***Qaraca***) çobandır. Həmin ərazidə qoyuna bənzər çoxlu ***qara*** daş indi də mövcuddur. Rəvayətə görə, ***Qaraçuq dağı*** vaxtilə ***Qaraca Çobanın*** qoyun ağılının yeri olmuşdur. Bu oronimi antroponimdən (***Qaraca Çoban***) törəyən mürəkkəb toponim hesab edirlər. ***Qaraçuq*** (***Qaraçıq***) sözünün hərfi mənası "*böyük olmayan*" deməkdir. Bəzi araşdırıcılara görə, ***Qaraçuq*** (*Q****araçux***) toponiminin tərkibi ***qara, üç*** və ***ox*** komponentlərindən ibarətdir. Tarixi sənədlərdə "*üç ox*" tayfa adına rast gəlirik. "*Üç ox*" tayfasını bildirən toponimin əvvəlindəki ***qara*** sözü qədim türk dillərində çoxmənalı söz kimi məşhurdur. ***Qara*** sözünün türk dillərində "*böyük*", "*qüdrətli*", "*geniş*", "*nəhəng*", "*çox*", "*sıx*", "*pis*", "*bədbəxt*", "*aşağı təbəqə*", "*şimal*", "*dörd*", "*rəng*" və s. mənaları vardır. ***Qaraçuq*** adında bu söz ilkin anlamda "*böyük*" mənasını bildirir.

Qaraçuq yurd yeri – Vaxtilə Qarabağın keçmiş Vərəndə mahalında, indiki Xocavənd rayonunun ərazisində, rayon mərkəzindən 10 kilometr məsafədə yerləşən yurd yerlərindən biri ***Qaraçuq*** adlanmışdır. Bəzi araşdırıcılar belə hesab edirlər ki, ***Qaraçuq yurd yeri*** ünlü oğuz bahadırı ***Qaraca*** çobanın düşərgəsidir və ***Qaraca çoban*** tarixi Vərəndə mahalının örüşlərində, ormanlarında Qazan xanın 10 000 baş qoyununu otararmış. Yerli məlumatlara görə, Qaraca çobanın qəbri də *Qaraçuqdadır*; o, vəfat edəndə tərəkəmələr onun ölüsünü bir qəbirdə dəfn edə bilməyib, onu 6 bölük edərək ayrı-ayrı qəbirlərdə basdırmışlar. Sovet dönəmində rayonun ***Kuropatkino kəndi*** kimi tanınan yaşayış məntəqəsi müstəqillik dönəmində ***Qaraçuq kəndi*** adlandırılmışdır.

Qaradağ – Cəbrayıl rayonunda qeydə alınan oroqrafik obyekt. Oronimiyamızda rəng bildirən sözlərdən və müsbət relyef forması ifadə edən terminlərdən düzələn oronimlər çoxdur. Onlardan biri də Cəbrayıl rayonu ərazisində, Şahvələdli kəndi ərazisində qeydə alınan ***Qaradağ*** oronimidir.

Qaradağ – Laçın rayonu ərazişinçlə qeydə alınan oronimlərdən biri də ***Qaradağ*** coğrafi adıdır. Oronim ***qara*** və ***dağ*** sözlərindən ibarətdir. ***Dağ -*** müsbət relyef formasını ifadə edən coğrafi termindir. ***Qara*** termini "*böyük*", "*rəng*" və s. mənalarda işlədilir.

Qaradaş bağı – Ağdam rayonunun Abdal kəndi yaxınlığında qeydə alınmışdır. ***Qaradaş*** sözü dilimizdə rəng bildirən ***qara*** komponentindən və *"daş"* anlamı ifadə edən ***daş*** sözündən ibarətdir. Toponim həmin *bağın* ərazisində *qara* daşın olması ilə əlaqədar belə ad almışdır.

Qaradaş düzü – Cəbrayıl rayonunun Qovşutlu kəndi ərazisində qeydə alınmışdır.

Qaradaş oyuqlu yamac – Laçın rayonunun ərazisində qeydə alınmış oronimlərdən biri də ***Qaradaş oyuqlu yamac*** adlanır. Bəzi sənədlərdə bu toponim bir qədər təhrifə uğrayaraq, ***Qaradaşoğlu yamacı*** şəklində əks olunmuşdur. ***Yamac*** sözü müsbət relyef formasını bildirən coğrafi termindir.

Qaradərə – Cəbrayıl rayonunun Karxulu kəndində qeydə alınmışdır. ***Qaradərə*** oronimi ***qara*** sözündən və mənfi relyef forması bildirən ***dərə*** oronimik terminindən ibarətdir.

Qaradərə – Xocavənd rayonu ərazisində qeydə alınmış oroqrafik obyekt. Respublikamızın ərazisində çöl materialları içərisində *30.000*-dən çox adında ***dərə*** termini olan oroqrafik obyekt qeydə alınmışdır. Onlardan biri də Xocavənd rayonu ərazisində qeydə alınan ***Qaradərə*** coğrafi adıdır. Oronim ***qara*** sözündən və ***dərə*** mənfi relyef forması bildirən coğrafi termindən əmələ gəlib. ***Qaradərə*** toponimi "*böyük dərə*" mənasındadır.

Qaradolaq məzrəsi – Xocavənd rayonunun ərazisində, Kuropatkino kəndindən 6 kilometr şimal-şərqdə, Ağcabədi rayonu ilə sərhəddə qeydə alınan oroqrafik obyektlərdən biri ***Qaradolaq məzrəsi*** adlanır. ***Qaradolaq məzrəsi*** oronimi ***qaradolaq*** etnonimindən, ***məzrə*** sözündən və mənsubluq ifadə edən ***-si*** şəkilçisindən ibarətdir. Ərəb mənşəli ***məzrə*** sözü "*əkin üçün yararlı yer*", "*əkin yeri*", "*tarla*", "*əkin yerləri əsasında yaranan məntəqə, oba*", "*kiçik yaşayış məntəqəsi*" mənasındadır. ***Qaradolaq məzrəsi*** XX əsrin əvvəllərinədək əsasən yarımköçəri həyat tərzi keçirmiş *qaradolaqlar* Azərbaycan tayfasının adı ilə əlaqədar yaranmışdır. Kəngərlilərin tərkibində olmuş *qaradolaqlar* keçmişdə Kür çayı sahillərində - *Çılpaqqaya, İcqan, Qaraca, Əskikür, Küratan, Canavar yeri, Mehmanhəsən yeri, Axmaz arası* və başqa ərazilərdə yaşamışlar. *Qaradolaq* tayfaları 1900-1905-ci illərdə oturaqlaşaraq müəyyən tirələrə parçalanmış və *İmamqulubəyli, Məmmədbəyli, Məşədiismayıllı, Əbişbəyli, Əmirxanlı, Qaradolaq* və s. kəndlər yaratmışlar. Azərbaycanımızın Cəbrayıl, Qubadlı, Ordubad rayonlarında ***Məzrə***, İmişli rayonunda ***Məzrəli*** adlı kəndlər var. ***Qaradolaq*** etnonimi *kəngərlilərin* tərkibinə daxil olmuş Azərbaycan tayfalarından biridir. *1820*-ci ildə Qarabağ xanı Mehdiqulu xan (*1806-1822-ci illər*) İrəvandan gətirdiyi qaradolaqları (*onların bir hissəsini*) tarixçi Mirzə Adıgözəlbəyə bağışlamışdır. *18* ailədən ibarət olan qaradolaqlar ***Əskikür***, yaxud ***Küratan*** adlı yerdə yerləşdirilmişdir. ***Qaradolaqlar*** qədimdə əsasən Naxçıvan ərazisində yaşamış və bir qismi kəngərlilərin tərkibində XVIII əsrdə Pənahəli xanın Qarabağa köçürdüyü tirələr arasında olmuşdur. *Qaradolaq kəndi* (Ağcabədi rayonu) XX əsrin 30-cu illərində maldar qaradolaqların bir hissəsinin burada məskunlaşması nəticəsində yaranmış kəndlərdəndir. *Qaradolaqlar* bu ərazilərə əsasən Qərbi Azərbaycandan və Naxçıvandan gəliblər. Bu camaat əvvəlcə Qazax rayonu ərazisinə gəlmiş, sonralar Ağcabədi, Beyləqan, Bərdə, Yevlax, İmişli, Qax, Zərdab, Xocavənd rayonlarına da köçmüşlər. *Qaradolaqlar*

Naxçıvan və Qərbi Azərbaycana həm də Cənubi Azərbaycan ərazisindən gəlmişlər. Qərbi Azərbaycandan köçüb gələn qaradolaqların bir hissəsi Xocavənd, Xonaşen və Kuropatkino kəndlərində də məskunlaşmışlar. Sonralar onlar *Küratana* gəlmişlər. Hazırda Türkiyə və İranda çoxlu ***qaradolaq*** nəsilləri yaşayır. İrili-xırdalı 30 kənddən ibarət olan *Qaradolaq eli* yayı yaylaqlarda, qışı qışlaqlarda, Kürün sağ sahillərində, Nəcəfqulubəylidən (Ağcabədi rayonu) Zərdab rayonunun ərazilərinə qədər uzanan torpaqlarda keçirərdilər. ***Qaradolaq*** camaatının bir hissəsi *köçəri həyat*, bir hissəsi isə *oturaq həyat* tərzi keçirirdi. ***Qaradolaqlılar*** əvvəllər həmişə başlarına və qollarına ***qara dolaq*** bağlayarmışlar. Bu, onları digər tayfalardan fərqləndirirdi. Elə bu səbəbdən də onlara ***qaradolaqlar*** deyilmişdir. ***Qaradolaqlar*** Qarabağa (Xocavənd, Ağcabədi və s. rayonların ərazilərinə) gələndən sonra ***Təklə Qara dolaq*** adlanırdılar. Ağcabədi rayonunda ***qaradolaq*** tayfasının adı ilə bağlı **2** oykonim – ***Qaradolaq kəndi*** və onun yaxınlığında qərar tutan ***Yeni Qaradolaq kəndi*** vardır. Bu kəndlərin yaxınlığında yerləşən yaşayış məntəqələrində (*Mehrablı, Aran və s.*) də ***qaradolaq*** tayfalarına məxsus olan nəsillər yaşayırlar. Məşhur ***Qaradolaq qoyun cinsi*** də bu tayfanın adı ilə bağlıdır.

Qaradırnaq yamacı – Kəlbəcər rayonunda qeydə alınmış yamac. Toponimiyada çoxlu sayda insan və heyvan bədən üzvlərinə oxşadılmasına görə ad almış metaforik oronımlər var. Belə oronimlər coğrafi obyektlərin xarici görünüşü ilə əlaqədar yaranmışdır, insanlar bu qəbildən olan oronimlərə coğrafi obyektlərlə insan və heyvan bədən üzvləri arasındakı oxşarlığı nəzərə alıb bədən üzvləri adları vermişlər. ***Yamac*** sözü "*dağın, təpənin ən yüksək nöqtəsindən aşağıya doğru meyilli səthi*" anlamını ifadə edir.

Qaradırnaq yaylası – Kəlbəcər rayonunun ərazisində yayla. ***Yayla*** dedikdə "*dağlıq ərazidə olan düzən yer*", "*sərinliyinə görə yay istirahəti üçün əlverişli olan dağ yeri*", "*yaylaq*" nəzərdə tutulur. Masallı rayonunun Ərkivan kəndinin ərazisində *Qaradırnaq düzü* oronimi də qeydə alınmışdır.

Qarağac dağı – Cəbrayıl rayonunun ərazisində, Qarağac kəndinin yaxınlığında qeydə alınan oronimlərdən biri ***Qarağac dağı*** adlanır. Bu coğrafi ad fitonimdən törənən oronimdir. Toponim "*qaraağac bitkisi olan dağ*" anlamındadır.

Qarağac dərəsi – Cəbrayıl rayonunun Qarağac kəndi yaxınlığında qeydə alınan coğrafi adlardan biri ***Qarağac dərəsi*** adlanır.

Qarağaclı çuxur – Laçın rayonu ərazisində, Səfiyan kəndi yaxınlığında qeydə alınmış ***Qarağaclı çuxur*** oroqrafik obyekti ağac növləri adları ilə düzələn oronimlərdəndir.

Qarağanlı dağ, Qarağanlı dərə, Qarağanlı taxta – Cəbrayıl rayonunun cənub-qərb hissəsində yerləşən sıra dağların adıdır. ***Qarağanlı*** oronimi orada üstünlük təşkil edən ***qarağan*** bitkisinin adı ilə bağlıdır. Toponim "*qarağan bitən yer*" mənasındadır. ***Qarağanlı*** oronimini ***qara*** (burada "*adi, sadə*") sözü və ***qanlı (qanqlı)*** oğuz türkləri ilə də əlaqələndirənlər var. Bir tayfa kimi III əsrdən məlum olan ***qanlılar (qanqlılar)*** XI – XII əsrlərdə səlcuq oğuzlarına birləşmişlər. VIII əsrdə Sırdərya hövzəsində yaşayan ***qanlılar*** *oğuz* və *karluqların* basqınından sonra iki yerə parçalanmışdır. Onların bir hissəsi Aral dənizinin şimal çöllərinə köçərək peçeneqlərə qarışmış, daha sonra xəzərlərin ərazisində məskunlaşmışlar. Digər hissəsi isə Xarəzmə getmiş və 1218-ci ildə monqolların tərkibinə daxil olmuşlar. Tarixdən məlumdur ki, XIII əsrdə Azərbaycanın monqollar tərəfindən işğal olunması zamanı monqolların tərkibində *uyğur* və *xeleçlərlə* yanaşı, ***qanlı*** tayfası üzvləri də iştirak etmişdir. Toponimin tərkibindəki ***qara*** komponentini "*adi, sadə, aşağı silkə mənsub*" anlamı ilə əlaqələndirənlər var. Bəzi tədqiqatçılar toponimi orta əsrlərdə Qarabağda yaşamış ***Qarağanlı*** (***Qaraqanlı***) etnonimi ilə də bağlayırlar. Görünür, *qaraqanlı*

tayfası ilə buraların bağlılığı olub. ***Qarağanlı*** türk tayfasının Azərbaycana gəlmə vaxtı dəqiq məlum deyildir. Bu etnonim ilə əlaqədar Aşağı Sirik kəndinin ərazisində ***Qarağanlı dərə***, Şükürbəyli kəndinin ərazisində ***Qarağanlı taxta*** oronimləri də yaranmışdır.

Qaragiləlik – Şuşa rayonunun ərazisində qeydə alınan oronim. ***Qaragiləlik*** nomensiz mikrotoponimi Şuşa rayonunun Malıbəyli kəndi ərazisində qeydə alınmışdır. ***Qaragilə*** – mərcangilə fəsiləsindən balverən bitki və ya giləmeyvə koludur.

Qaragülü qışlağı – Füzuli rayonunun Qacar və Divanalılar kəndləri yaxınlığında qeydə alınmışdır. Yerli məlumata görə, ***Qaragülü*** sözü adam adı ilə bağlıdır. Toponim ***Gülü*** adlı qarayanız bir qadının adı ilə bağlıdır. ***Gülü*** yaxşı at da çapırmış. ***Qışlaq*** ona məxsus olduğu üçün onun adı ilə də adlandırılmışdır.

Qaragüney – Qubadlı rayonunun ərazisində qeydə alınan oronim. Bu toponim ***qara*** və ***güney*** sözlərindən əmələ gəlib. ***Qaragüney*** sözü burada rəng bildirən ***qara*** sözündən və müsbət relyef formasını ifadə edən ***güney*** terminindən ibarətdir. ***Güney*** – "*günəş şüası çox düşən tərəf, yer*" və ya "*dağın, təpənin, yüksəkliyin cənuba, günəşə baxan hissəsi*" deməkdir. "***Güney***" sözü qədim türk dilində "*cənub*" deməkdir. Əhali gün düşən yerə əsasən "*güney*" deyir.

Qaragüney – Laçın rayonunun Piçənis kəndi ərazisində qeydə alınıb. ***Güney*** sözünün mənası dilimizdə "*dağın, təpənin cənuba baxan hissəsi*", "*yüksəkliyin günəş şüası çox düşən tərəfi*" anlamındadır.

Qarağac yalı – Kəlbəcər rayonunun Qazıxanlı kəndi ərazisində yal. Oronim ***qarağac*** bitkisinin adı ilə əlaqədardır.

Qarağantəpə dağı – Xocavənd rayonunun ərazisində, Əmirallar kəndindən 9 kilometr cənub-şərqdə, Xocavənd rayonunun Füzuli rayonu ilə sərhədi yaxınlığında, Füzuli rayonunun Aşağı Veysəlli kəndindən 3 kilometr məsafədə, Qızılqaya dağından 4 kilometr şərqdə qeydə alınmış maraqlı oronimlərdən biri də ***Qarağantəpə dağı*** adlanır. Bəzi sənədlərdə adı ***Qaraqantəpə*** kimi də yazılır. Hündürlüyü 233 metrdir. Toponimin tərkibindəki ***təpə*** coğrafi termini müsbət relyef formasını ifadə edir. ***Təpə*** termini "*ətəyi ilə zirvəsi arasında nisbi hündürlüyü 200 metrdən az olan yüksəklik*" anlamını bildirir.

Qarağatlı dərə – Şuşa rayonunun Səfixanlar kəndi ərazisində qeydə alınan ***Qarağatlı dərə*** coğrafi adı daşdələnkimilər fəsiləsindən bitki cinsi olan ***qarağat*** bitkisindən və mənfi relyef formasını bildirən ***dərə*** terminindən ibarətdir. ***Qarağatlı dərə*** toponimi "*qarağat bitən dərə*" mənasındadır.

Qarağatlı qobu – Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 4 kilometr məsafədə qeydə alınan oroqrafik obyektlərdən biri ***Qarağatlı qobu*** adlanır.

Qaraköbər – Ağdam rayonunun Qalayçılar kəndi ərazisində qeydə alınan coğrafi addır. Toponimin tərkibindəki müsbət relyef formasını ifadə edən ***köbər*** termini dialektlərimizdə "*dik yer*, *dikdir, hündür yer*, *təpəlik, yoxuş*" mənalarını ifadə edir. ***Qaraköbər*** toponimi "*böyük hündür yer*" anlamındadır.

Qaraköpəktəpə – Füzuli şəhərinin şimalında, Köndələnçayın sağ sahilində 50 metrə yaxın hündürlüyü olan təpə ***Qaraköpəktəpə*** adlanır. Bəzi mənbələrdə adı ***Taxtavus/Təxti-Tavus*** (A.A.Bakıxanov və s.) kimi də göstərilir. Burada vaxtilə çoxtəbəqəli qədim yaşayış yeri olmuşdur. ***Qaraköpəktəpə*** ərazisində müxtəlif tarixi dövrlərə aid maddi-mədəniyyət nümunələri aşkar edilmişdir. Qaraköpəktəpədə ilk Tunc dövrünə aid olan təbəqədə az yonulmuş qaya daşı və

çay daşından tikilmiş 3-7 metr diametrli dairəvi evlər, gildən bişirilmiş, bəzilərində kəsmə həndəsi naxış olan ocaq qalıqları, gildən heyvan fiqurları, daşdan oraq dişləri, ox ucları, toppuz, hə- vəngdəstələr, sümükdən nizə ucluğu və s. aşkara çıxarılmışdır. *Qaraköpəktəpədən* əldə edilən tapıntıların ən qədim nümunələri miladdan öncə VIII-VII minilliklərə aiddir. Buradan meteorit dəmirdən döyülən yarpaqvarı *nizə ucluğu* da tapılıb. Bu tapıntı bütün Qafqaz üçün nadir tapıntı hesab olunur. Bu materiallar m. ö. IV-III minilliklərə - ilk Tunc dövrünün başlanğıcına aiddir. Azərbaycanda antik dövrə aid olan ilk yaşayış yerinin Qaraköpəktəpədə olması elmi dəlillərlə artıq sübut edilmişdir. Məşhur arxeoloq alimlər Ə.Ələkbərovun, professor Qüdrət İsmayılovun axtarışları nəticəsində ***Qaraköpəktəpə*** abidəsində **10** min il əvvəl yaşayış məskəni olduğu sübuta yetirilmişdir. Bəzi tədqiqatçılar bu toponimi ***Qarıköpək*** kimi də izah edirlər. ***Qaraköpəktəpə*** ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidəsi hesab olunur.

Qaraköpəktəpə yurd yeri – Füzuli rayonunun ərazisində, Füzuli şəhər mərkəzindən 2 kilometr məsafədə qeydə alınmış qədim yurd yeri. Toponim qədim türk dilində "*qara təpə*" deməkdir. Bəzi mənbələrdə adı ***Təxtitavus*** kimi çəkilir. ***Təxtitavus*** isə "*tovuz taxtı*" anlamındadır. Bu ad şərq tarixi ədəbiyyatında, klassik ədəbiyyatda çox işlənir. Nadir şah Qırxlı-Avşar Hindistanı alarkən baburlular ona "*Təxti-Tavus*" adlı taxt verdilər. Bu taxtın bəzəyində bir milyonluq cəvahirat işlənmişdi. Şahrux Mirzə Əmir Teymur oğlu Barlas 3 aprel 1421-ci ildə burada qışlamışdı. Yanına gələn Şirvanşah Xəlilullah Şeyx İbrahim oğlunu Qara Yusif Baranlı-Qaraqoyunlunun dul arvadı ilə evləndirmişdi. Həmin arvad Əbubəkr Mirzə Miranşah Mirzə oğlu Barlasın qızı idi. Bu izdivac Teymurlularla Şirvanşahların daha da yaxınlaşmasına səbəb olmuşdu. Sultan Məhəmməd Xudabəndə şah Səfəvinin baş vəziri, etimadəddövləsi Mirzə Salman Cabiri-İsfahani 1578-ci ildə Təxtitavusda düşərgə salmışdı. Tarixçi Abbasqulu Ağa Bakıxanov yazır: *"Lakin bu əsnada İran vəziri Mirzə Səlman, qızılbaş əmirləri və əsgərləri ilə Qarabağın* ***Qaraköpək*** *(ona* ***Təxti-Tavus*** *da deyirlər) adlı yerindən sürətlə hərəkət edərək Qoyun- Ulamidən keçib Şamaxı qalasını mühasirəyə almışdı. 0, tatar və ləzgi qoşununun qayıtmasından xəbərdar olduqda, qalanın yanında bir dəstə əsgər qovub özü onların qarşısına çıxdı*". 1593-cü ilə bağlı Osmanlı qaynağında bu yerin adı **Qaraköpək** (başqa adı ***Şəkərli***) kimi çəkilmişdir. Ağaməhəmməd xan Qovanlı-Qacar 1795-ci ildə Şuşa qalasına hücum edərkən onun qoşunları bir müddət burada düşərgə salmışlar. İran tarixçisi Məhəmmədtağı Saravi "***Tarixi-Məhəmmədi***" adlı əsərində yazır: "*Qacar ordusu Şuşa yaxınlığına çatanda Süleyman xan və Mustafa xanı on min atlı ilə qalaya tərəf göndərdi. Bu qoşun yolda Qarabağ qarovulçuları ilə qarşılaşdı. Qarovulçuların bəziləri öldürüldü, qalanları isə qalaya qaçdılar. Bu zaman Qacar xanı əsas qoşunla gəlib çatdı və qalanı mühasirəyə aldı. O, Mustafa xanı 5 min nəfərlik qoşunla Əsgərana (Şuşanın 25 kilometrliyində yerləşir) Rzaqulu xanı isə Təxti-Tavusa göndərdi ki, mühasirədə olanların qaçış yollarını bağlasınlar...*" Fətəli şah Qovanlı-Qacar 1805-ci ildə ***Təxtitavusda*** düşərgə salmışdı. Tarixçi Mir Mehdi Xəzani yazır: "*Şu ilin həmin günlərində Fətəli şah bu əzmə ki, bəlkə bir əlac edə, Şuşa qalası Rusiya qoşununun əlinə düşməyə, təmam qoşunu ilə Arazdan keçib, gəlib Quruçay üstə, Dizaq mahalında* ***Təxti-Tavus*** *müsəmma olan mənzildə ki, Şuşa qalasının altı ağaclığında vaqe edir, düşüb ordu elədi*". A.A.Bakıxanov da bu barədə yazır: "*Şah özü Qarabağın* ***Təxti-Tavus*** *adlı yerinə və Naibüssəltənədə Ağoğlan və Çanaxçı yolundan Əsgəranın aşağısına gəldi...*" Feldmarşal Paskeviç də bu yurdda düşərgə qurmuşdu. Tarixçi Mir Mehdi Xəzani bu barədə yazır: "*Paskeviç sərdar dəxi o səfərdə gəlib Qarabağda,* ***Təxti-Tavusda*** *ki, Dizaq mahalında və Quruçay üstə bir məhəldir, orda qoşun ilə bir müddət əyləndi...*"

Qarakörlü təpəsi – Azərbaycan oronimləri tədqiq olunarkən onların bir qisminin təhrif olunduğu aydınlaşdırılmışdır. Ağdam rayonu ərazisində qeydə alınan ***Qarakörlü təpəsi*** oronimi də təhrifə məruz qalmışdır. Belə ki, bu coğrafi adın yazılışı *Qarakorlu təpəsi* şəklində olmalıdır. ***Təpə*** sözü müsbət relyef forması bildirən coğrafi termindir, ***-si*** mənsubluq bildirən şəkilçidir. *Qarakörlü (****Qarakörpü****)* sözünü araşdırıcılar müxtəlif mənada izahlandırırlar.

Qaraqanlıtəpə dağı – Füzuli rayonunun şimalında, rayonun Aşağı Veysəlli kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Qaraqanlıtəpə dağı*** adlanır. Bu dağın maksimal hündürlüyü *233* metrdir. Dağın ***Qaraqanlıtəpə*** adlanması qaraqanlı etnoniminin adı ilə əlaqədardır. ***Qaraqan*** sözünün "*otlaq üçün az yararlı yer*", "*yovşanlı sahə*" mənaları da vardır. Orta əsrlərdə Qarabağda yaşamış ***qaraqanlı (qarağanlı)*** tayfasının adını özündə əks etdirən coğrafi adlara nümunə olaraq *Qaraqanlı dağı, Qaraqanlı dərə* (Cəbrayıl rayonu, Aşağı Sirik kəndi), *Qarağanlı taxta* (Cəbrayıl rayonu, Şükürbəyli kəndi), *Qaraqanlı dağı* (Masallı rayonu), *Qarağanlı dərə* (Zəngilan rayonu, Məmmədbəyli kəndi), *Qarağanlı təpə* (Lerik rayonu, Ağqışlaq kəndi), *Qaraqan Saatlı kəndi, Qaraqan Sədi kəndi, Qaraqan Şıxlar kəndi* (Ağdaş rayonu), *Qarağan təpəsi* (Füzuli rayonu, Horadiz kəndi) və başqalarını göstərmək olar.

Qaraqaşlı sıra dağları – Cəbrayıl rayonunun ərazisində qeydə alınan ***Qaraqaşlı sıra dağları*** coğrafi adı etnonimdən törənən oronimdir. ***Qaraqaş tayfası*** Asiyada, Altayda yaşamış ***qarakeş*** (***qaraqaş***) tayfasının oğuz və monqolların tərkibində Azərbaycana gəlmiş bir hissəsidir.

Qaraqaşlı taxta, Quzu taxtası – Cəbrayıl rayonunun Şükürbəyli kəndində qeydə alınmışdır. ***Taxta*** müsbət relyef forması bildirən coğrafı termini "*hündür yerdə düzənlik*", "*iki dərə arasında düz*", "*dağlıq, təpəlik yerdə hamar sahə*" və s. mənalarda işlədilir. Bir çox oronimlərin yaranmasında ***taxta*** sözü iştirak edir. ***Taxta*** sözü ilə əlaqədar oronimiyamızda ***25*** coğrafi ad yaranmışdır. Cəbrayıl rayonunun Hacıisaqlı kəndinin ərazisində qeydə alınan ***Quzu taxtası*** adlı oronim də bu qəbildəndir. ***Qaraqaşlı taxta*** XIX əsrin ortalarında ***376*** ailədən ibarət olan ***qaraqaşlı*** elinin adı ilə bağlıdır. ***Qaraqaş tayfası*** Asiyada, Altayda yaşamış ***qarakeş*** (***qaraqaş***) tayfasının oğuz və monqolların tərkibində Azərbaycana gəlmiş bir hissəsidir. Ağdam, Ağsu, İmişli, Neftçala, Sabirabad və Xaçmaz rayonlarında *Qaraqaşlı kəndilər* ***qaraqaşlı*** tayfasının adı ilə bağlıdır. ***Qaş*** – "*dağın, təpənin bir qədər irəli çıxmış hissəsi*" mənasındadır.

Qaraqaya – Ağdam rayonunun Şelli və Abdal-Gülablı kəndləri ərazisində qeydə alınıb. Oronim ***qara*** və ***qaya*** sözlərindən ibarətdir. ***Qara*** sözü "*rəng*"anlamındadır. Bu komponenti "*böyük*, *geniş*", "*hündür*, *uca*" mənasında izahlandıranlar da var. ***Qaya*** coğrafi termini müsbət relyef forması ifadə edir.

Qaraqaya – Kəlbəcər rayonunun ərazisində qeydə alınan coğrafi ad.

Qaraqaya, Qaraqaya dərəsi – Laçın rayonunun ərazisində yerləşən dağ adlarından biri də ***Qaraqaya*** adlanır.

Qaraqaya, Qaraqayanın qabağı – Cəbrayıl rayonu ərazisində qeydə alınan oroqrafik obyekt. Dağ Tumas kəndinin 5 kilometrliyində, İncə çaylağının günbatan tərəfində qeydə alınan oroqrafik obyekt ***Qaraqaya*** adlanır. ***Qaraqaya*** oronimi vulkan mənşəli, soyumuş və *qara* rəng almış qayalardan ibarət olduğuna görə belə adlanmışdır.

Qaraqaya dağı – Xocavənd rayonunun ərazisində, rayon mərkəzindən 11 km məsafədə qeydə alınmış coğrafi adlardan biri ***Qaraqaya dağı*** adlanır.

Qaraqoynu dağı – Qubadlı rayonunda dağ. Əsl adı ***Qaraqoyunlu*** olmalıdır. Toponim azacıq təhrifə uğrayıb. ***Qaraqoynu*** dağı oronimi "*Qaraqoyunlu tayfasına məxsus dağ*" mənasındadır. ***Qaraqoyunlu*** toponimi azərbaycanlıların etnogenezində iştirak etmiş *Qaraqoyunlu* tayfasının adı ilə bağlıdır.

Qaraquzey – Cəbrayıl rayonu ərazisində, Qalacıq və Havuslu kəndlərinin yaxınlığında, Nəfəsçıxan dağının ətrafında qeydə alınmış ***Qaraquzey*** oronimi rəng bildirən ***qara*** sözündən

və müsbət relyef forması bildirən ***quzey*** oronimik terminindən ibarətdir. ***Quzey -*** təpənin, dağın və s.-nin "*günəş düşməyən, gün tutmayan, kölgəli şimal yamacı*" deməkdir.

Qaraquzey – Füzuli rayonunun Yağlıvənd kəndi ərazisində qeydə alınmış coğrafi adlardan biri ***Qaraquzey*** oroqrafik obyektidir.

Qaraquzey – Xocavənd rayonunun Arakül və Banazur kəndləri yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Qaraquzey*** adlanır.

Qaraquzey – Laçın rayonunun Avazlar kəndi ərazisində qeydə alınıb.

Qaraman təpəsi dağı – Laçın rayonu ərazisində qeydə alınan oronimlərdən biri də ***Qaraman təpəsi dağı*** coğrafi adıdır. Bir çox tarixi mənbələrdən məlum olur ki, ***qaramanlılar*** 2000 çadırdan ibarət olan bir tayfa kimi XI əsrdə Səlcuq sultanı Toğrul bəyin dövründə Anadoluya, Azərbaycana və başqa ərazilərə gəlmişlər. XV əsrin sonunda bu tayfa Şah İsmayıl Xətai tərəfindən qızılbaşların tərkibinə ***qaraman*** adı ilə daxil edilmişlər. Mənbələrə görə, ***Qaraman*** Xorasandan gəlmiş Nurəddin Sufi adlı bir türkmən şeyxinin oğludur; İç el Konya tərəflərdə hökm sürən Qaraman oğullarının atasıdır. ***Qaraman*** sözü "***qar adam***" anlamındadır. Mənşə etibarı ilə qədim ***qaraman*** türk tayfasının *qara, varsaq, isa, kosun, qıştəmir* və s. tirə və qolları da olmuşdur. Əsasən Kiçik Asiyada yaşayan ***qaramanlılar*** türk tayfası bəzi mənbələrə görə XVIII əsrin birinci yarısından başlayaraq Azərbaycana gəlmişlər. *Qaraqoyunlu* Qara Yusifin qoşun başçısının adı da ***Qaraman*** olub. Səfəvi ordusunda ***qaramanlı*** tayfa bəyləri də olmuşdur. Uralda, Volqaboyunda, Şimali Qafqazda, Orta Asiyada ***Qaraman*** etnonimi ilə bağlı çoxlu sayda toponimlərin qeydə alınması onların bir hissəsinin şimaldan gəldiyini göstərir. Oronimin tərkibindəki ***təpə*** və ***dağ*** coğrafi terminləri müsbət relyef formasını bildirir.

Qaramandağ – Ağdam rayonu ərazisində qeydə alınmış oroqrafık obyektlərdən biri də ***Qaramandağ*** adlanır. Dağ Qavartu və Xaçın çaylarının arasında yerləşir. ***Qaramandağ*** toponimi özündə ***qaraman*** tayfasının adını əks etdirir. ***Dağ*** - müsbət relyef forması ifadə edən coğrafi termindir. Toponim "*qaramanlı tayfasına məxsus dağ*", "*qaramanlıların yaşadığı ərazidəki dağ*" mənasını bildirir.

Qaranın ocağı – adlanan oroqrafik obyekt Xocalı rayonunda, Kərkicahan ərazisində yerləşir. Bu toponim ***Qara*** şəxs adı ilə əlaqədardır. ***Ocaq*** – burada "*ailə, nəsil*" anlamındadır.

Qaranlıq – Qarabağ silsiləsinin ətəyində, Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 15 kilometr məsafədə, meşəliklərlə örtülü bir sahədə qeydə alınan oroqrafik obyektlərdən biri ***Qaranlıq*** adlanır. Bu ərazidə hətta gündüz radələrində, günün günorta çağında meşənin içində bir neçə metrlikdə ətraf yerlər ***qaranlıq*** və gözəgörünməz olduğu üçün toponim belə ad almışdır.

Qaranlıq dərə – Füzuli rayonunun Qacar kəndi ərazisində, kənddən bir qədər şərqdə qeydə alınmış oroqrafik obyektlərdən biri də ***Qaranlıq dərə*** adlanır. ***Dərə*** - mənfi relyef forması bildirən coğrafi termindir.

Qaranlıq dərə – Xocavənd rayonunun ərazisində, Qaradağlı kəndinin yaxınlığında, kənddən 2 kilometr şərqdə qeydə alınan oroqrafik obyektlərdən biri ***Qaranlıq dərə*** adlanır.

Qaranlıq dərə – Laçın rayonunun ərazisində qeydə alınan dərə.

Qaranlıq qaya – Laçın rayonunun ərazisində qeydə alınan oronimlərdən biri də ***Qaranlıq qaya*** coğrafi adıdır. ***Qaya*** - müsbət relyef formasını bildirən coğrafi termindir.

Qarasu dərəsi, Qarasu düzü – Laçın rayonunun Mığıdərə kəndi ərazisində qeydə alınan oronimlərdən biri də ***Qarasu dərəsi*** adlanır. Laçın rayonunun Minkənd və Xaçınyalı kəndləri ərazisində ***Qarasu düzü*** coğrafi adı da qeydə alınmışdır. Oronimin tərkibindəki ***dərə*** və ***düz*** komponentləri mənfi relyef formasını ifadə edir.

Qaraşın yeri – Kərkicahan qəsəbəsinin 1 kilometrliyində qeydə alınan oroqrafik obyektlərdən biri ***Qaraşın yeri*** adlanır. Bu coğrafi ad azərbaycanlı olan ***Qaraş*** şəxs adından və ***yer*** sözündən ibarət olub, "*Qaraşa məxsus olan yer*", "*Qaraşa aid olan sahə*" mənasındadır.

Qaratəpə – Ağdam rayonunun ərazisində təpə. ***Qaratəpə*** sözündəki ***qara*** formantı "*rəng*" və ya "*böyük*" mənaları ilə izah olunur. Oronimin tərkibindəki ***təpə*** termini müsbət relyef formasını bildirir. ***Təpə*** dedikdə ətəyi ilə zirvəsi arasındakı nisbi hündürlüyü 200 metrdən artıq olmayan yüksəklik nəzərdə tutulur. ***Təpə*** termini ilə əlaqədar Azərbaycan Respublikasının ərazisində 3000-dən artıq oroqrafik obyektlər toplanmışdır.

Qaratəpə – Füzuli rayonunun Cuvarlı kəndi ərazisində qeydə alınan oronimlərdən biri ***Qaratəpə*** adlanır.

Qaratikanlı dağ silsiləsi – Cəbrayıl rayonunda qeydə alınan oroqrafik obyekt. Bəzi oronimlərin yaradılmasında coğrafi obyektin bitki və ağac örtüyü əsas götürülür və təyinedici komponent kimi ondan istifadə olunur. Amma bir sıra hallarda coğrafi nomenin ellipsisi nəticəsində sadə və düzəltmə quruluşlu ümumi fitonimlər sadə oronimlər kimi işlənməyə başlayır. Cəbrayıl rayonu ərazisində qeydə alınan ***Qaratikanlı dağ silsiləsi*** oronimi də bu tipli coğrafi adlardandır. Oronimin tərkibindəki ***dağ*** coğrafi termini müsbət relyef formasını ifadə edir.

Qaratikanlı düz – Cəbrayıl rayonunda, Qazanzəmi kəndinin yaxınlığında yerləşir.

Qaravul dağı, Qaravul dərəsi – Cəbrayıl rayonunun Ağtəpə və Dağ Tumas kəndləri ərazisində qeydə alınmışdır. Qarağac kəndi ilə Sofulu kəndi arasında, Düzgə dağının cənubunda da ***Qaravul dağı*** adlı oronimə rast gəlirik. Daş Veysəlli kəndi ərazisində qeydə alınmış ***Qaravul dərəsi*** oronimi də bu qəbildəndir. Bu oronimlər gözətçi məntəqəsi məqsədilə yaranmış oronimlərdəndir. Vaxtilə rus işğalçıları bu dağ zirvələrində kazak gözətçi postları yerləşdirmişlər.

Qaravultəpə – Laçın rayonunun Cağazur kəndi ərazisində qeydə alınmışdır. Oronimin adını bəzən **Qaraultəpə** formasında da qeyd edirlər. Yadellilərin hücumundan qorunmaq üçün hündür ərazilərdə keşik çəkilən xüsusi yeri, adətən, belə adlandırırdılar. Bəzən əkin və biçənək sahələrini mal-qaradan qorumaq üçün hündür ərazilərdə nəzarətçilər (*qaravulçular*) qoyulur ki, buna da el arasında gözətçilər deyilir. Toponim ***qaravul*** və ***təpə*** sözlərindəh ibarət olub, "*gözətçi təpəsi*" mənasındadır.

Qarayazı – Qubadlı rayonunun Davudlu kəndinin ərazisində yerləşir. ***Qarayazı*** toponimi ***qara*** ("*böyük*") və ***yazı*** ("*düz*") komponentlərindən ibarətdir.

Qarğa qayası – Kəlbəcər rayonunun ərazisində qaya. Oronim ***qarğa*** quşunun adını özündə əks etdirir. Toponimin tərkibindəki ***qaya*** sözü müsbət relyef formasını ifadə edir.

Qarğabazar karvansarası – Füzuli rayonunun ***Qarğabazar*** kəndi ərazisində çox da hündür olmayan bir təpənin döşündə inşa olunmuşdur. ***Karvansara*** tikilisinin eni **23,7** metr, uzunluğu isə **34,7** metrdir. Karvansara 1681-1683-cü illərdə tikilmişdir. Qarğabazar kəndində tikildiyi üçün ***Qarğabazar karvansarası*** adı ilə tanınır. Bu tarixi abidəyə bəzən ***Şah Abbas karvansarası*** da deyirlər. Onun memarı məlum deyil. Memarlıq üslubuna görə ***Qarğabazar karvansarası***

alban dövrü memarlığı ənənələrinin oxşarıdır. Girişin sağ və sol tərəflərində gözətçi otaqları qarşısında iki böyük sal daş vardır. ***Qarğabazar karvansarası*** Azərbaycanın ölkə əhəmiyyətli daşınmaz tarixi mədəniyyət abidələrindən hesab olunur.

Qarğulu dərəsi, Qarğulu örüşü, Qarğulu təpəsi – Cəbrayıl rayonunun Alıkeyxalı kəndi ərazisində qeydə alınmış oronimlərdən bir neçəsi ***Qarğulu dərəsi, Qarğulu örüşü, Qarğulu təpəsi*** adlanır. Coğrafi adın tərkibindəki ***dərə*** termini mənfi relyef forması, ***təpə*** termini isə müsbət relyef formasını bildirir. ***Qarqulu örüşü*** oroniminin tərkibindəki ***örüş*** sözü "*otlaq sahəsi*" anlamını daşıyır.

Qarısərnici – Füzuli şəhərindən 10 km şimalda, Dilağarda kəndinin yaxınlığında yerləşir. Bu oronim ilə bağlı belə bir rəvayət vardır: Şah kəndə gələndə hamı qaçır, təkcə bir qarı qalır. Şah qarıdan soruşur: - *Qarı, məndən nə istəyirsən?* Qarı deyir: - *Bir sərnic torpaq, yəni, öz yerimi*. Şah onun sözünün "mənasını" başa düşür. Şahın əmri ilə qoşunda olanların hər biri qarının başına bir at torbası qədər torpaq tökür. Beləliklə, böyük bir *təpə* yaranır. O vaxtdan da bu təpəyə ***Qarısərnici*** deyirlər...

Qarışqalı düz – Laçın rayonunun Minkənd kəndi ərazisində qeydə alınan oronimlərdən biri də ***Qarışqalı düz*** coğrafi adıdır.

Qarqar düzü – Vaxtilə Qafqaz Albaniyasında mövcud olan və indiki Xocalı rayonunun ərazisini də əhadə edən düz ***Qarqar düzü*** adlanır. ***Qarqar düzü*** haqqında müxtəlif tarixi sənədlərdə məlumatlar verilmişdir. M. Xorenlinin (m.ö. *VI – V əsrlər*) əsərində də onun adı çəkilir. ***Qarqar düzü*** Qafqaz tayfalarından olan ***Qarqarların*** adı ilə əlaqədardır. Bir çox dillərdə yazılan qaynaqlarda müxtəlif şəkildə yazılmış bu boy adına (*qarqar, karqar, xarxar, karaxar, kərkər, kerker, herher, qarqara*) qədim mənbələrdə Urmu gölü və Dəclə çayı sahillərində, Kiçik Asiya ölkələrində rast gəlirik, antik dövrdə, orta əsr və sonrakı mənbələrdə isə qarqarlara Güney və Quzey Qafqazda, İranda, Orta Asiya ölkələrində və s. yerlərdə rast gəlinir. ***Qarqar*** etnotoponimi ilə bağlı çoxlu oronim, oykonim, hidronimlər də mövcuddur. Türkmənlərin ərsarı boylarından birinin adı **Qarqardır.** Mosul türkmanları içində və Mardində *qerqeri* boyu da var. V.V.Bartold və S.M.Abramzon qarqarları qıpçaq soylu hesab edir. M. ö. VIII əsrin sonunda Assur hökmdarı II Sarqonun (m.ö. 722-705-ci illər) Dur-Şarrukkin sarayında ***Xarxar*** bölgəsinin mərkəzi qalası olan ***Xarxar qalası*** olmuşdur. Güney Azərbaycanda, Xarxardan yuxarıda ***Karkari-zündir*** adlı bir qala da vardır. Tarixdən məlumdur ki, III Ur sülaləsi (XXII - XXI əsrlər) çarlarının tutduqları yaşayış məskənləri sırasında Karxar yaşayış məntəqəsinin də adı var. İ.M.Dyakonov göstərirdi ki, qarqarlar quti boylarından biri olub. Miladdan öncə II minillikdə bəzi ***qarqar*** boyları Kiçik Asiyanın batı və güney-batı ərazilərində yaşamışlar. III Salmanasarın miladdan öncə 853-cü il yürüşü tarixə ***"Karkar döyüşü"*** kimi düşmüşdür. Şumer və assur mənbələrinə görə ***Qarqar*** tayfalarının ata yurdu Urmu hövzəsi olmuşsa, sonralar onlar tarix boyu Avrasiyanın müxtəlif ərazilərində görünmüşlər. Azərbaycan xalqının yaratdığı Manna, Midiya, Atropatena və Albaniya dövlətləri zamanında ***qarqar*** boylarının rolu tarixçiliyimizdə hələ öz layiqli qiymətini almamışdır. Alban tarixçiləri M.Kalankatlı və M.Xorenli (V-VI əsrlər) qarqarların Albaniyada yaşamalarını öz əsərlərində təsdiq etmişlər. M.Xorenli və M.Kalankatlı alban əlifbasının qarqarların dili əsasında tərtib olunduğu məlumatını da vermişlər. Çox güman ki, ***Qarqar*** toponimləri ***qarqarlarla*** bağlıdır. ***Qarqarlar*** utilər, albanlar və digər türkdilli xalqlarla birgə Qarabağın qədim sakinləri hesab olunurlar. ***Qarqarlar*** Mil və Qarabağ düzlərində yaşadıqlarına görə həmin düzlər III-X əsrlərdə ***Qarqar düzü*** adlanmışdır. Yunan coğrafiyaşünas alimi Strabon (I əsr) *qarqarların* Şimali Qafqazda yaşadıqlarını göstərmişdir. Qafqaz Albaniyası dövlətinin tədqiqatçılarından olan U.V.Trever III əsrdə Albaniyada *Qarqar düzü* adlı yerin mövcud olduğunu qeyd edir. ***Qarqar*** ellərinin qədim Qarabağda çoxlu maddi-mənəvi dəyərləri vardır. Ərəb tarixçi və səyyahları İbn

Xordadbeh (IX əsr), Yaqut Həməvi (XIII əsr) Mil düzündə ***Karkar*** (***Kərkər***) adlı şəhərin adını çəkmişlər. Qədim Qafqaz Albaniyasında yaşayan *qarqar tayfaları* bəzi mənbələrdə *kərkər* kimi qeyd olunur. Məşhur şərqşünas V.V.Bartold XVIII-XIX əsrə aid mənbələrdə Orta Qazaxstanda, Tyan-Şanda qarqar adlı toponimlərin olmasını qeyd edir. X əsrə aid olan "*Züdud əl-Aləm*" mənbəsində Orta Asiyada ***Qarqar*** əyalətinin adı çəkilir. Tarixçi-alim Kamal Əliyev qarqarların türkdilli olmasını qeyd edir. Qarqarların dil cəhətdən türkdilli olması ən əvvəl qarqar etonimi ilə əlaqədar toponimlərin arealına türk xalqları məskən salan ərazilərdə rast gəlinməsi ilə də təsdiq olunur. Azərbaycan xalqının formalaşmasında oğuzlarla birgə ***körgər, kəngər*** və ***qarqarlar*** da fəal iştirak etmişdir. Şumeri idarə edən qutilərin son elbəyi ***Tirikanqarqar*** boyuna mənsubdur. Boğazgöy mətnlərində ***Qarqar (/Karkar)*** adı da çəkilir.

Qarqar dağ silsiləsi – Xocalı və Şuşa rayonları ərazisində yerləşən dağ silsiləsidir. Toponim özündə ***qarqar*** tayfasının adını əks etdirir. Ərazidəki ***Qarqar*** dağının hündürlüyü (***Qarqar silsiləsi***, ***Qarqar sıra dağları***) 2300 metrdir. Ümumiyyətlə, adının tərkibində ***Qarqar*** sözü olan bütün toponimlər ***qarqar*** tayfalarının adı ilə bağlıdır. ***Qarqarlar*** utilər, albanlar və digər türkdilli xalqlarla birgə Qarabağın qədim sakini hesab edilirlər. Xalqımızın İslamaqədərki tarixi qədim türk boylarının tarixi ilə sıx bağlıdır. Miladdan öncə Urmu hövzəsində yaşamış ***qarqar*** uruqları da belə boylardandır. Bir çox dillərdə yazılan qaynaqlarda adı müxtəlif şəkildə yazılmış bu boy adına (***qarqar, karqar, xarxar, karaxar, kərkər, kerker, herher, qarqara***) qədim mənbələrdə Urmu gölü və Dəclə çayı sahillərində, Kiçik Asiya ölkələrində rast gəlirik, antik dövrdə, orta əsr və sonrakı mənbələrdə isə qarqarlara Güney və Quzey Qafqazda, İranda, Orta Asiya ölkələrində və s. yerlərdə rast gəlinir. ***Qarqar*** etnotoponimi ilə çoxlu oronim, oykonim, hidronimlər də mövcuddur. Türkmənlərin ***ərsarı*** boylarından birinin adı ***Qarqardır.*** Şumer və assur mənbələrinə görə, ***Qarqar*** tayfalarının ata yurdu Urmu hövzəsi olmuşdur. Azərbaycanda ***Qarqarlar*** Mil və Qarabağ düzlərində yaşadıqlarına görə həmin düzlər III-X əsrlərdə ***Qarqar düzü*** adlanmışdır. ***Qarqar düzü*** orfoqrafik obyekt adı Azərbaycanda qədim dövrlərdən məskən salmış türkdilli ***qarqar*** tayfasının adını bir abidə kimi qoruyub saxlamışdır. Yunan coğrafiyaşünas alimi Strabon (I əsr) *qarqarların* Şimali Qafqazda yaşadıqlarını göstərmişdir. Qafqaz Albaniyası dövlətinin tədqiqatçılarından olan U.V.Trever III əsrlə Albaniyada *Qarqar düzü* adlı yerin mövcud olduğunu qeyd edir. Tarixi qaynaqlara əsaslanaraq, deyə bilərik ki, qarqarlılar həm oturaq, həm də köçəri həyat keçirirmişlər. ***Qarqar*** ellərinin qədim Qarabağda çoxlu maddi-mənəvi dəyərləri vardır. Ərəb tarixçi və səyyahları İbn Xordadbeh (IX əsr), Yaqut Həməvi (XIII əsr) Mil düzündə ***Karkar*** (***Kərkər***) adlı şəhərin adını çəkmişlər. Qədim Qafqaz Albaniyasında yaşayan *qarqar tayfaları* bəzi mənbələrdə *kərkər* kimi qeyd olunur. Məşhur şərqşünas V.V.Bartold XVIII-XIX əsrə aid mənbələrdə Orta Qazaxstanda, Tyan-Şanda ***qarqar*** adlı toponimlərin olmasını qeyd edir.

Qarqışlaq – Cəbrayıl rayonunda, Xələfli kəndi ərazisində qeydə alınan oronimlərdən biri ***Qarqışlaq*** adlanır. Bəzən bu coğrafi ad sənədlərdə ***Qarıqışlaq*** kimi də yazılır. Toponimin tərkibindəki ***qışlaq*** termini "*mal-qaranın qışladığı ərazi, otlaq sahəsi*" anlamını ifadə edir.

Qarqışlaq piri – Cəbrayıl rayonunda, Xələfli kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Qarqışlaq piri*** adlanır. Əslində onun adı ***Qarıqışlaq piri*** olmalıdır. Toponim ***qar*** (***qarı***), ***qışlaq*** sözlərindən və ***pir*** komponentindən ibarətdir. Toponimin tərkibindəki ***qışlaq*** komponenti "*heyvanın, mal-qaranın qışladığı otlaq sahəsi olan ərazi*" mənasındadır. Deyilənə görə, vaxtilə Fatma nənənin əlində kündə olanda gavur (*kafir*) gəlib onun başının üstünü kəsibdir. Fatma nənə deyib: **-** *Allah, mənim kündələrimi daş elə, amma gavıra qismət eləmə.* Allah da onun çağırışını, duasını eşitmiş, balaca kündəni balaca daşa, yekə kündəni yekə daşa döndərmişdi. Onun duağı (*dördayağı*), oxlovu da daş olmuşdu. ***Qarqışlaq (Qarıqışlaq)*** pirini

ziyarət edənlər çıraq yandırar, bura xoruz, toyuq və s. gətirərdilər. ***Qarqışlaq piri*** Cəbrayıl rayonunda böyük ocaqlardan, pirlərdən sayılırdı.

Qarqulutəpə dağı – Füzuli rayonunun şimalında, Aşağı Veysəlli kəndindən 4 kilometr şimali-şərqdə, Xocavənd və Ağcabədi rayonları ilə həmsərhəd ərazidə qeydə alınan coğrafi adlardan biri ***Qarqulutəpə dağı*** adlanır. Bəzi sənədlərdə onun adı ***Qarğılıtəpə*** kimi də yazılır; hündürlüyü 226 metrdir.

Qarlı aşırım – Laçın rayonu ərazisində qeydə alınan coğrafi adlardan biri də ***Qarlı aşırım*** oronimidir. Bu ***aşırım*** Minkənd istiqamətdən Laçın rayonunu Ermənistan ilə ayırır. Hündür yüksəkliklərdən ibarət olan bu ***aşırım*** həmişə ***qarlı*** olduğu üçün belə adlanmışdır.

Qarmanbəytəpə dağı – Laçın rayonu ərazisində, Qaragölün şimalında yerləşən dağ. ***Qarmanbəytəpə*** toponimi qismən təhrifə uğramışdır; əslində ***Qarmanbəytəpə*** yox, ***Qaraimanbəytəpə,*** yaxud ***Qaramanbəytəpə*** olmalıdır. ***Qaraimanbəytəpə*** toponimi özündə ***Qaraiman bəy*** şəxs adını əks etdirir. Toponimi Kiçik Asiyada yaşamış türkdilli ***qaraman*** tayfası ilə bağlayan tədqiqatçılar da var.

Qarmancıq çölü – Ağdam rayonunun ərazisində qeydə alınan oroqrafik obyekt. Azərbaycan oronimləri tədqiq olunan zaman onların bir qisminin təhrif olunduğu bəlli olur. Ağdam rayonu ərazisində qeydə alınan ***Qarmancıq çölü*** coğrafi adı da belələrindəndir. Oronimi türk dilli ***Qaraman*** tasyfası ilə əlaqələndirənlər də var. Əslində oronim ***Kərmək çölü*** formasında yazılmalıdır.

Qarnıyarıq piri – Cəbrayıl rayonunda, Horovlu kəndinin mərkəzi hissəsində, Orta kəhrizin 20 metrliyində qeydə alınan oroqrafik obyekt ***Qarnıyarıq piri*** adlanır. ***Qarnıyarıq piri*** nəhəng gövdəli, iri diametrli koğuşu olan bir kötükdən çıxan üç qanad çinar ağacından ibarətdir. Çinar o qədər böyük idi ki, onun koğuşuna eyni vaxtda 5-6 adam yerləşərdi. Niyyəti olanlar Novruz bayramlarında, İlaxır çərşənbələrdə çinarın koğuşunda qara çıraq yandırardılar. Bu kimi hərəkətlər ənənə şəklini almışdı. Ümumiyyətlə, *Qarnıyarıq pirə* niyyət edənlər ziyarətə adətən çərşənbə günləri gələrdilər. Ağacın koğuşu ***yarılmış***, ***yarıq*** vəziyyətdə olduğu üçün toponim belə adlandırılmışdır.

Qartalqaya – Laçın rayonunun ərazisində qeydə alınan oroqrafik obyekt.

Qartız dağı – Qubadlı rayonu ərazisində, Qarabağ silsiləsinin cənub-şərqində, Bərgüşad silsiləsinin şərqində yerləşən dağ. Zirvəsinin hündürlüyü 1277 metrdir. Keçmişdə dağda kəsici metal alətləri itiləmək üçün istifadə edilən ***qart*** (*xart*) və yaxud da bülöv daşı çıxarılırdı. Dağın adı da görünür, həmin *qart* süxurunun adı ilə adlandırılmışdır. Bu dağ zirvəsinə bəzən ***Hərtis*** (*Xartüz*) də deyirlər.

Qaruçan yamac – Laçın rayonunun Alxaslı kəndi ərazisində qeydə alınan ***Qaruçan yamac*** oronimi *yamacdan* vaxtilə ***qarın uçması*** hadisəsi ilə bağlıdır. Bu oronim vaxtilə baş vermiş bir hadisəni tarixi fakt kimi özündə, adında əks etdirir.

Qaryagin qəzası – Əsasən indiki Füzuli və Cəbrayıl rayonlarının daxil olduqları ***Qaryagin*** (***Cəbrayıl***) ***qəzası*** 1 iyul 1873-cü il tarixində Yelizavetpol quberniyasının tərkibində (Cavanşir qəzası ilə bir yerdə) yaradılmışdır. Qəzanın əvvəlki adı ***Cəbrayıl*** olmuşdur. 1905-ci ildə "Kürəkçay" müqaviləsinin 100 illiyi ilə əlaqədar olaraq çar fərmanı ilə qəzanın adı dəyişdirilərək Rusiya-İran müharibəsinin fəal iştirakçısı, polkovnik Pavel Karyaginin şərəfinə ***Qaryagin*** (***Karyagin***) adlandırılıb. Qəzanın mərkəzi də ***Qaryagin*** şəhərinə köçürülüb. XIX əsrin ilk illərində Pavel

Karyaginin Qarabağda törətdiyi zülmlərdən qəzəblənən İbrahim xanın İranda yaşayan oğlu Əbdül Fəttah ağa (bəzi mənbədə Abbas Mirzə göstərilib) 21 iyun 1805-ci il tarixdə Karyaginin qoşunu ilə Əsgəran yaxınlığında döyüşür, döyüşdə Karyaginin qoşunu məğlub olur, özü isə yaralanır. P.D.Sisiyanovun göstərişi ilə Gəncədə müalicə olunan ***Karyagin*** sağaldıqdan sonra bir müddət Gəncədə mülki işlərdə çalışır. Qəzada yaradılmış məhkəmənin idarə olunmasında da iştirak edirdi. 3332 kvadrat kilometr sahəsi olan Qaryagin qəzasının (buraya Füzuli, Beyləqan, Cəbrayıl, Xocavənd, Qubadlı, Zəngilan rayonlarının əraziləri daxil idi) əhalisinin sayı 66 min nəfərdən (1897-ci ilə aid olan statistikaya görə 66.360 nəfər) çox olmuşdur. ***30 avqust 1918-ci il*** tarixdə Azərbaycan Demokratik Respublikası hökumətinin qərarı ilə ***Qaryagin*** qəzasının adı dəyişdirilərək əvvəlki ***Cəbrayıl qəzası*** adı qaytarıldı. ***Qaryagin*** yaşayış məntəqəsinin (*kəndinin*) adı da əvvəlki adı olan ***Qarabulaq*** adı ilə əvəz edildi. ***Qəza*** ərazisində 12 azərbaycanlı, 3 erməni icması (*inzibati ərazi vahidi kimi*) var idi. ***7 iyul 1923-cü il*** tarixində ***DQMV*** yarananda Bünyadlı, Zamzur, Əmirallar, Kuropatkin, Muğanlı, Xocavənd, Qaradağlı, Tuğ, Axullu, Salakətin, Vəng, Dolanlar, Edilli, Hadrut, Hərəkül, Bulutan, Məlikcanlı, Düdükçü və s. kəndlər Cəbrayıl qəzasından alınıb DQMV tabeliyinə keçirildi. 1929-cu ildə ***Cəbrayıl (Qaryagin) qəzası*** ləğv olundu. ***Cəbrayıl qəzası*** orta əsrlərdə burada yaşamış ***Cəbrayıl Ata*** *(o, Alıpaşa dağının görümlü bir yerində dəfn olunub)* adlı nüfuzlu bir şəxsin adı ilə əlaqədar olaraq belə adlanmışdır. ***Cəbrayıl*** adını *cəbrayıllı* türk mənşəli tayfanın adı ilə də əlaqələndirənlər var. Tarixdən adları bizə məlum olan və olmayan *Cəbrayıl elləri* də bu qəzanın tərkibində yaşamışlar. Tarixi məlumatlara görə, cəbrayıllı tayfası son orta əsrlərdə müvafiq olaraq Qaraqoyunlu və Ağqoyunlu, Qızılbaş, Şahcevən, XVIII əsrdə isə Əfşar və Cavanşir tayfa ittifaqlarının tərkibinə daxil olmuşdur.

Qasım bəyin bağı – Axullu kəndi ərazisində qeydə alınmış oroqrafik obyektlərdən biri ***Qasım bəyin bağı*** adlanır.

Qasım nişangahı – Cəbrayıl rayonunda, Keyxalı və Niyazqulular kəndlərinin arasında, Şahvəlili kəndi istiqamətindəki yolun kənarında olan Cingir bulağının qabağında qeydə alınan oroqrafik obyekt ***Qasım nişangahı*** adlanır. Bu nişangah daşdan ibarətdir. Yerli məlumata görə, *Şıx Hacı Qasım Çələbi* Cingir bulağının suyu ilə abdəst alıb, burada namaza durardı. Oronim ***Qasım*** Çələbinin adı ilə əlaqədar olaraq belə adlandırılmışdır.

Qatar qaya – Cəbrayıl rayonunda, Qazanzəmi kəndinin yaxınlığında, Söyüdlü kəndinə gedən yolun üstündə, Təktüklü dağının ətəyində yerləşir. Bu yüksək hündürlüklər cərgə ilə sıralanmış *qayalardan* ibarət olduğu üçün yerli əhali tərəfindən ***Qatar qaya*** kimi pasportlaşdırılmışdır.

Qatardaş dağı – Laçın rayonunun ərazisində dağ. ***Qatar (kadır)*** sözünün türk dillərində "*sıldırım*", "*yarğan*" mənaları da var. ***Qatardaş*** (*bəzən bu toponimi təhrif edərək atçılığa aid termin kimi maldarlıqla əlaqələndirib* ***Qatırdaş*** *variantında yazırlar*) Laçın rayonu ərazisində, Qarabağ yaylasında,' Qaranlıq və İldırımsu çaylarının suayrıcısında yerləşir. ***Qatardaş*** toponiminin mənası "*yan-yana, cərgə ilə sıralanmış dağ*" deməkdir.

Qatarqaya – Xocalı rayonu ərazisində, Kərkicahan qəsəbəsi və Kosalar kəndi yaxınlığında, Qarabağ silsiləsində yerləşən yüksəkliklər. **Qatarqaya** toponimi **qatar** və **qaya** sözlərindən ibarətdir. ***Qatar*** sözü "*cərgə, sıra ilə düzülmüş*" mənasındadır. Oronimin tərkibindəki ***qaya*** termini müsbət relyef formasını ifadə edir.

Qatarqaya – Laçın rayonu ərazisində dağ adıdır.

Qatır çuxuru – Laçın rayonunda, İkinci Tığıq kəndi yaxınlığında, dağətəyi ərazidə qeydə alınmış oronim. Oronim ***qatır*** və ***çuxur*** sözlərindən ibarətdir.

Qatır dərəsi – Cəbrayıl rayonunda qeydə alınan oroqrafik obyekt.

Qatır ölən güney – Laçın rayonunun Qızılca kəndi ərazisində qeydə alınmış oronim ***Qatır ölən güney*** adlanır. ***Güney*** termini "*təpənin, dağın cənuba baxan hissəsi, günəş şüasıçox düşən tərəfi*" anlamındadır. Toponim həmin ərazidə ***qatırın ölməsi*** ilə əlaqədar belə adlanmışdır.

Qatır yaylağı – Şuşa rayonunun ərazisində yaylaq.

Qatırçı meşəsi – Xocavənd rayonun ərazisində, Qaradağlı kəndinin yaxınlığında qeydə alınmış oronimlərdən biri ***Qatırçı meşəsi*** adlanır.

Qatırçı yalı – Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 8 kilometr məsafədə qeydə alınan oroqrafik obyektlərdən biri ***Qatırçı yalı*** adlanır.

Qatırçı yolu – Şuşa rayonunda qeydə alınan oroqrafik obyekt.

Qayabaşı – Kərkicahan qəsəbəsinin 2 kilometrliyində qeydə alınmış oroqrafik obyektlərdən biri ***Qayabaşı*** adlanır.

Qayalı təpələr – Ağdam rayonunun Xıdırlı və Qiyaslı kəndləri yaxınlığında, Ağdam şəhərindən 5 km şimal-qərbdə qeydə alınmışdır. Şahbulaq silsiləsinin cənub-şərqində, Ağdam şəhərinin 5 kilometrliyində yerləşən bu qayalı təpələrin orta nisbi hündürlüyü 25-55 metrdir.

Qayıb ocağı (**Qayıb türbəsi**) – Füzuli rayonunun Qacar kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri də ***Qayıb ocağı*** adlanır. Bəzən ona ***Qayıb türbəsi*** də deyirlər. Bu ***ocaq*** yerli əhali tərəfindən 1993-cü ilə - işğala qədər müqəddəs hesab edilərdi. Camaat vaxtilə buraya gəlib nəzir-niyaz verərdilər.

Qazax qəbiristanlığı – Şuşa rayonunun ərazisində, Aşağı Quşçular kəndi ilə Malıbəyli kəndləri arasında məzarlıq. XVIII əsrdə sıyası zəmində Qazax mahalından köçüb buraya gəlmiş ailələr (*bax: Quşçular kəndləri*) Aşağı və Yuxarı Quşçular kəndləri ərazisində də məskunlaşmışlar. O zamandan onlardan kimlər vəfat edərdisə, indiki Aşağı Quşçular kəndinin Malıbəyliyə yaxın ərazisindəki sahədə – qəbiristanlıqda dəfn olunardılar. Sonralar həmin qəbiristanlıq Qazax, Tovuz bölgələrindən gələnlərin orada dəfn olunduqları üçün ***Qazax qəbiristanlığı*** adlandırılmışdır.

Qazan (Qazançı) yeri – Xocavənd rayonunun Muğanlı kəndindən 3 km aralıda qeydə alınmış coğrafi adlardan biri ***Qazan*** (***Qazançı***) ***yeri*** adlanır. Bəzən adına ***Qazançı yeri*** də deyirlər. Ümumiyyətlə, tərkibində ***qazan*** komponenti iştirak edən toponimlərin yaranması, semantikası ilə bağlı müxtəlif fikirlər mövcuddur. ***Qazan*** tərkibli toponimlər ya tayfa, ya ***qab*** (***qazan***), ya da şəxs adı kimi yozulur. Tədqiqatçı-alim Q.Qeybullayev ***qazan*** komponentli toponimləri bulqar etnonimi kimi tədqiq edir. Tarixi qaynaqlardan məlumdur ki, ***kazan*** tayfası vaxtilə Azov dənizi sahillərində yaşamış bir bulqar tayfasının adıdır. ***Kazan*** etnosu ilə bağlı yer-yurd adlarına mənbələrdə Güney Qafqaz ərazilərində erkən orta əsrlərdə də rast gəlirik. Məşhur "*Kitabi-Dədə Qorqud*" dastanında ***Salur Qazan*** adı da vardır. Əksər araşdırıcılar ***Qazan*** onomastik vahidindəki ***qaz / kaz*** komponentini tayfa adı ilə əlaqələndirirlər. Makroonomastik vahidlərin tərkibində iştirak edən bu komponent *Qafqaz dağı* oronimində ***qaz***, eləcə də *Qazaxıstan, Qazax* makrotoponimlərində ***qaz***, *Xəzər* tayfa və dəniz adında ***xəz*** (*Kaspi tayfa və dəniz adında kas*) hissələrinin hamısı tədqiqatçılar tərəfindən artıq tayfa adı kimi öyrənilmişdir. ***Qazan*** (*Kazan*) adındakı ***qaz / kaz*** formantı da həmin tayfa adları ilə eyni kökdəndir. Qədim türkdilli tayfa bulqarlarından olan ***kazanlar*** (*qazanlar*) Azərbaycana eramızın ilk əsrlərində hunların, sonralar suvar və avarların, daha sonra isə (orta əsrlərdə) xəzərlərin tərkibində gəlmişlər. ***Qazanların*** daxil olduğu bulqar tayfasının miladdan öncə II əsrdə Şimali Qafqazdan İrəvan ərazisinə, oradan da Azərbaycana gəldikləri tarixi məlumatlar vardır. M.İsmayılova görə bulqarlar miladdan öncə və miladın I yüzilində ərazimizdə məskunlaşmışlar.

Qazantəpə – Laçın rayonunda, Qaraqaya dərəsi ərazisində qeydə alınan oronimlərdən biri ***Qazantəpə*** adlanır.

Qazyendirən (Şıxməmməd) ocağı – Füzuli rayonunun Yal Pirəhmədli kəndi ərazisində qeydə alınan oronimlərdən biri ***Qazyendirən ocağı*** adlanır. Yerli əhali bəzən onun adına ***Şıxməmməd ocağı*** da deyir.

Qədim armud – Cəbrayıl rayonunun Xələfli kəndi ərazisində qeydə alınmış toponimlərdən biri ***Qədim Armud*** adlanır. Onun diametri ***60*** santimetr, hündürlüyü isə ***9*** metrdir. Bu ***armud*** ağacının yaşı təxminən ***300*** il olduğu üçün toponim belə ad almışdır.

Qəjər ocağı – *Qəjər ocağı* (əslində ***Qacar ocağı*** şəklində yazılmalıdır) coğrafi adı Cəbrayıl rayonunun Soltanlı kəndindən şərq tərəfdə yerləşir, O, *Ağa Məhəmməd Şah Qacarın* adı ilə əlaqədar belə adlanmışdır. Rəvayətə görə, 1795-ci ildə ***Ağa Məhəmməd Şah Qacar*** Qarabağa, Şuşaya hücum edərkən indiki Cəbrayıl rayonunun Soltanlı kəndindən keçməli olur. Onun qoşunu burada güclü yağışa düşür. Burada böyük tonqal **- *ocaq*** qalanır. Əsgərlər islanmış paltarlarını qurutduqdan sonra yollarına davam edirlər. Kəndin ərazisində olan həmin yer o zamandan ***Qəjər (Qacar) ocağı*** adlanmışdır.

Qəjim nənə ocağı – Cəbrayıl rayonunda, Gordu baba dağının cənubunda, xarabazarlığı qalmış Qarıqışlaq kəndinin qədim məzarlığında yerləşir. Bəzən adına ***Çilə ocağı*** da deyilir. Bu ***ocaq-qəbirin*** üzərində haçaqanad *dağdağan* ağacı bitir. Vaxtında yeriməyi bacarmayan uşaqları dağdağan ağacının haçasından keçirirlər. Buna ***çilədən keçirmə*** deyirlər.

Qəjir qayası – Şuşa rayonu ərazisində, Yuxarı Quşçular kəndi yaxınlığında qeydə alınan oronim **Qəjir qayası** adlanır. Qarabağ dialektinin Quşçular şivəsində "***Qacar qayası***" ifadəsi "*Qəjir qayası*" şəklində işlənir. ***"Qəjir"*** sözü ***Qacar*** sözünün abreviaturasıdır. Oronim ağqoyunlu Qacar tayfasının adı ilə əlaqədardır. Qabaq Asiyada sulduz, cəlayir və tanğıt tayfaları əsasında yaranmış qacarların bir qismi əvvəlcə Şuriyada yaşamışlar. Sonralar Əmir Teymur və oğlu Miranşah qacarları İrana və başqa ərazilərə köçürmüşdür. Qacarların bir hissəsi XVII əsrdə Qarabağa və Gəncəyə gələrək həmin ərazilərdə məskunlaşmışlar. XV əsrdə qızılbaşların tərkibinə daxil olan qacarlar Səfəvilərin hakimiyyətə keçmələrinə yaxından köməklik etmişlər. İrandakı qacarlar sülaləsi də qacarlar tayfasından idi. XIX əsrin sonu XX əsrin əvvəllərində Qafqazda ondan çox ***Qacar*** adlı kənd olub. ***Qacar*** sözü türk ulusunun adı ilə bağlıdır. A.Bakıxanova görə *qacarlar* İran və Azərbaycanda orta əsrlərdə ağalıq edən cəlayirlərin bir qoludur. Hülakü sülaləsindən Arqun xanın müəllimi Xorasan və Astrabad hakimi Sırtaq Noyan xanın oğlunun adı ***Qacar*** imiş. Onun adı ilə öz qəbiləsi ***Qacar*** adlanmışdır.

Qəhrəman yurdu – Cəbrayıl rayonunda, Dağ Tumas kəndinin yaxınlığında, İncə kəhrizinin üstü adlanan düzəngah ilə Gədə yolu arasında qeydə alınan oroqrafik obyektlərdən biri ***Qəhrəman yurdu*** adlanır. ***Qəhrəman yurdu*** ərazisi uzunsov sahəyə malik bir yerdir.

Qələm dərəsi – Xocavənd rayonunda, Salakətin kəndinin ərazisində qeydə alınan coğrafi adlardan biri ***Qələm dərəsi*** adlanır. Oronim ***qələm*** sözündən, ***dərə*** terminindən və ***-si*** mənsubluq bildirən şəkilçidən ibarətdir. ***Dərə*** coğrafi termini mənfi relyef forması bildirir. ***Qələm dərəsi*** toponimi həmin dərədə çoxlu sayda calaq olunmuş ağaclarla əlaqədar olaraq belə adlanmışdır.

Qəmbər bağı – Cəbrayıl rayonunun ərazisində qeydə alınan coğrafi adlardan biri ***Qəmbər bağı*** adlanır. Toponim ***Qəmbər*** şəxs adından, ***bağ*** sözündən və ***-ı*** şəkilçisindən ibarətdir.

Qənimətin yurdu – Laçın rayonunun Yuxarı Məzməzək kəndi ərazisində, Ağ kaha və Əmirxan bulağı yaxınlığında qeydə alınan coğrafi adlardan biri də ***Qənimətin yurdu*** antroponimik oronimidir.

Qənşər təpə – Cəbrayıl rayonunda, Dağ Tumas kəndinin yaxınlığında, Düzgə dağının ətəyində, Qarağac dağının gündoğan hissəsində qeydə alınan oronimlərdən biri ***Qənşər təpə*** adlanır. ***Qənşər*** sözü "*qabaq*", "*qarşı*" anlamındadır. ***Qənşər*** təpəsinin qarşısında başqa bir ***təpə*** də olduğu üçün toponim belə ad almışdır.

Qərəl – Cəbrayıl rayonu ərazisində qeydə alınan oroqrafik obyekt. Bəzi araşdırıcılara görə, ***Qərəl*** oykonimi bir qədər tərifə məruz qalmışdır. Belə ki, onlara görə toponim ***qara*** sözündən və ***əli*** komponentindən ibarətdir.

Qərər piri – Cəbrayıl rayonunun Qarar kəndi ərazisində, *Cəbrayıl–Xələfli* yolunun üstündə qeydə alınmışdır. Bu ***pir*** Qarar kəndi ərazisində yerləşdiyi üçün belə adlanmışdır. Toponim bir qədər təhrifə uğramışdır. Əslində o, ***Qarar piri*** adlanmalıdır. Bəzən adına ***Qara Əli piri*** və ya ***Dursun piri*** də deyirlər. Yerli məlumata görə, bu *pir-qəbir* ***Dursun*** adlı bir möminin dəfn olunduğu yerdir və bu ***pir*** də ***Qərər*** (***Qarar***) kənd icmasının inanc yerlərindən biri hesab edilir.

Qərib Ağanın qəbri – Cəbrayıl rayonunda, Daşveysəlli kəndinin günbatanında, kənd qəbiristanlığının ortasında daş hərləməyə alınmış qəbir ***Qərib Ağanın qəbri*** adlanır. Yerli camaat tərəfindən bu qəbirdə dəfn olunan adamın mömin olduğu söylənilir. Burada uyuyan adamın şəxsiyyəti məlum olmadığından toponim belə adlandırılmışdır.

Qərib Seyid ocağı – Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri Qərib ***Seyid ocağı*** adlanır. Bu ***ocaq*** yerli sakinlər tərəfindən əziz tutulur.

Qətl yeri – Xocavənd rayonunun Xocavənd yaşayış məntəqəsi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Qətl yeri*** adlanır. Bu yerin ətrafında vaxtilə ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilmiş adamlara, azərbaycanlılara xatirə əlaməti olaraq günbəzlər də ucaldılmışdır.

Qılıçdaş – Kəlbəcər rayonunun ərazisində, Şərqi Göyçə silsiləsinin ətəyində qeydə alınan və zahirən ***qılınca*** oxşadığına görə yerli tələffüzdə ***Qılıçdaş*** adlanan dik, sivri qaya. Ətrafında eyniadlı kənd də vardır. Kənd də bu ***Qılıçdaş*** adlı sahədə salındığına görə belə (***Qılıçlı***) adlanmışdır.

Qılıçlı çölü – Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri də ***Qılıçlı çölü*** adlanır. İlk baxışda adama elə gəlir ki, toponim ***qılınc*** adından formalaşmışdır. Bu oronimin ***qılınc*** döyüş aləti ilə bağlılığı yoxdur. ***Qılıçlı*** sözü Mahmud Kaşğarinin lüğətində ***kilişli*** şəklindədir. XVIII əsrə aid olan mənbələrdə bu sözə ***Kılıclı*** şəklində rast gəlirik. Məlumdur ki, ***Qılıçlı*** adlı qədim türk tayfası var. Tarixi mənbələrdə bu tayfa adına tez-tez rast gəlinir. ***Qılıclı*** tayfasının ulu babası ***Qılıç*** kətxudadır. O, XVIII əsrin ikinci yarısında ***Cəbrayıllı*** elinin ***Alıkovxalı*** obasında yaşamışdır. Onun Rəhim (*1782-ci ildə anadan olub*) və Məhəmmədəli (*1784-cü ildə anadan olub*) adlı oğlanları olub.

Qılıçlı yeri – Cəbrayıl rayonunda, Soltanlı kəndində qeydə alınan ***Qılıçlı*** oronimi ***qılıç//kiliş*** qədim türk tayfalarının birinin adı olmuşdur. M.Kaşğarinin "*Divani-lüğəti-türk*" əsərində bu söz "*kiliş*" şəklindədir. Artıq XVIII əsr mənbələrində bu (***Qılıclı***, ***Qılıçlı***) etnonimə ***Kılıçlı***, ***Qılıclı*** formasında rast gəlinir.

Qılınclı düzü – Ağdam rayonunun Çullu kəndi ərazisində qeydə alınmışdır. Oronimin tərkibindəki ***qılınc*** sözünü "*dağ tirəsi*" anlamında izah edən araşdırıcılar var. ***Qılınc*** sözünü yerli tələffüzdə ***qılıc*** (***qılıç***) formasında da işlədirlər. ***Qılıçlı*** adlı tayfa da tarixdən məlumdur. Bu tayfadan olan nəsillər qışı Qarabağda, yazı Kəlbəcər dağlarında keçirərdilər. Bu elin Qarabağ ərazisində 4800 desyatinlik qışlaq ərazisi vardı.

Qılınclı düzü – Cəbrayıl rayonunda, Soltanlı kəndinin ərazisində qeydə alınan oronimlərdən biri ***Qılınclı düzü*** adlanır.

Qıpçaq aşırımı – Kəlbəcər rayonunun ərazisində yerləşən dağ aşırımı. Murovdağ silsiləsində, Yansaq kəndindən bir qədər şimaldadır. ***Qıpçıx/qıpçıq*** sözü "*çarpanaq daş*" mənasını ifadə edir. Dağın yamacları çarpanaq daşlarla örtüldüyünə görə ona bu ad verilmişdir. Bu coğrafi adı ***Qıpçı*** kimi də yazırlar. Toponimin ***Qıpçı aşırımı*** kimi qeydə alınması səhvdir.

Qıraxdın – Cəbrayılın ən qədim toponimlərindən biri ***Qıraxdın*** adlanır. ***Qıraxdın -*** bir müddət Cəbrayıl rayonunun (*şəhərinin*) adı olmuşdur. Bu sözü bəzi araşdırıcılar Avropa mənşəli, italyan əsilli (***karantin -*** italyanca "*qırx gün*" deməkdir) söz hesab etmişlər. Əslində bu söz ***karantin*** sözündən dönmə sözə bənzəmir. Bəzi araşdırıcılar ***qıraxdın*** sözünü "*dindən kənar*" anlamı ilə şərh edirlər. Toponimi qədim ***qır*** tayfalarının adı ilə də bağlayanlar vardır. Hələ I Şah Abbasın hakimiyyət vaxtında (*1587 - 1629*) qıraxdınlıların Cənubi Azərbaycandan Arazdan şimala, Şuşa və Cəbrayıl rayonlarının ərazilərinə kütləvi axınları olmuşdur. Şuşanın yerli əhalisi və oraya gələnlərin bəziləri XVIII əsrin əvvəllərindən başlayaraq Cəbrayıl ərazisinə gəlirdilər. Onlar əsasən mərkəzdən bir qədər qıraqda - *Çinarüstü* hissədə məskunlaşırdılar. O zamanlardan qıraqdan (*qıraxdan*) gələnlərin hesabına Cəbrayıl böyüyərək şəhərciyə çevrilirdi. Şəhərciyin *Yuxarı* məhəlləsində İran Azərbaycanından gələnlər, *Çökək* məhəlləsində isə şuşalılar (*qalalılar*) yaşayırdılar. ***Quraxdın*** oykonimi ***qıraqdan*** Cəbrayıla gəlib, onun *qırağında* yer götürərək yurd salanların adı ilə əlaqədar yaranmışdır. Bu "***qıraxdanlaşma***" o dövrün ictimai-siyasi və iqtisadi hadisələri ilə bağlı olmuşdur. Doğrudan da, toponimi "*mal-qara xəstəliyinə qarşı mübarizə*" anlamlı ***karantin*** (*burada ucqarlarda ruslaşdırma siyasətini də unutmaq lazım deyil*) sözü ilə məhdudlaşdırmaq düzgün olmazdı. Türkiyədə və başqa türkdilli ölkələrdə də ***Qıraxdın*** toponiminə rast gəlirik. Bəzi tədqiqatçılar ***Qıraxdın*** sözünü XVIII əsrdə Nadir şahın hakimiyyəti dövründə Azərbaycana köçmüş ***cəlair*** türk qəbiləsinə mənsub olan ***Qıraqlı//Qıraxlı*** nəslinin adı ilə əlaqələndirirlər. Tarixi mənbələrdən o da məlumdur ki, ***qır, qırlı, qırıxlı*** adlı türk tayfaları olmuşdur.

Qıratın nal daşı – Laçın rayonunda Cağazur kəndi yaxınlığında bir daş ***Qıratın nal daşı*** adlanır. Bir əfsanəyə əsasən, qoç Koroğlu atını bu daşın arxa tərəfindəki dərənin o üzündən bu üzünə hoppandırarmış. Belə sıçrayışların birində guya ***Qıratın*** dal ayağı bərk zərbə ilə daşa dəymiş və *daşın* üzərində *nalın* izi qalmışdır.

Qırğı qaya – Laçın rayonunun ərazisindəki ***Qırğı qaya*** oronimi ***qırğı*** quş adı və ***qaya*** müsbət coğrafi relyef bildirən termindən düzəlmişdir. ***Qırğı*** düzənlikdən dağlara qədər meşə, çöl, qamışlıq, qayalıq və başqa yerlərdə yaşayır. ***Qırğı qaya*** oronimini ***qırqı (kərki)*** etnonimi ilə də əlaqələndirirlər. Bu mənada toponim görünür, azacıq təhrifə uğrayıb. Toponimi ***qırğılı*** türk etnonimi ilə də əlaqələndirənlər var.

Qırğın dərə – Xocavənd rayonunda, Axullu kəndi ərazisində qeydə alınan oronimlərdən biri ***Qırğın dərə*** adlanır. Toponimin tərkibindəki ***dərə*** coğrafi termini mənfi relyef forması bildirir. Vaxtilə həmin ***dərə*** ərazisində ***qırğın*** törədildiyi üçün oronim belə adlandırılımışdır..

Qırxbuğumlu yal – Füzuli rayonunun Sərdarlı kəndinin ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Qırxbuğumlu yal*** adlanır. Fitooronim ***qırxbuğum*** (*yolotu*) və ***yal*** sözlərindən, ***-lu*** mənsubluq ifadə edən şəkilçidən ibarətdir.

Qırxbuğumlu yal – Xocalı rayonu ərazisində, rayon mərkəzindən 25 kilometr qərbdə, Laçın rayonu ilə Xocalı rayonunun sərhədi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Qırxbuğumlu yal*** adlanır.

Qırxbuğumlu yal – Şuşa rayonunun Laçın rayonu ilə sərhəd ərazisində qeydə alınan maraqlı oronimlərdən biri də Səfixanlar kəndi yaxınlığındakı ***Qırxbuğumlu yal*** adlanır.

Qırxqız – Qarabağ silsiləsinin şimal hissəsinin Kəlbəcər rayonu ərazisində daşlıq ərazi ***Qırxqız*** adlanır. Keçmişdə ***Qızqala*** da adlanmışdır. Qırxqızın zirvələrinin birində ***Qızqala*** adlanan qədim qala xarabalıqları var. Qalanın ***qırx qız*** üçün tikilməsi haqqında rəvayət də mövcuddur. Dağın bu rəvayətlə əlaqədar belə adlandırılması güman edilir. İstisuyun yanındakı qayalığa da ***Qırxqız*** deyirlər. Rəvayətə görə, Zar şəhərində zalım bir hökmdar var imiş. Bu hökmdar gözəl-göyçək qızları zor ilə öz hərəmxanasına apararmış. Bir dəfə də ***qırx*** gözəl ***qız*** hərəmxanaya getməyib qaçırlar. Zalım hökmdar qoşun göndərir ki, onları tutub hərəmxanaya gətirsinlər. *Qızlar* qoşunu görəndə allaha yalvarıb dua edirlər ki, onları daşa döndərsin. Allah da onları daşa döndərir...

Qırxqız dağ silsiləsi – Xocalı rayonu ərazisində, Qarabağ dağ silsiləsində yerləşir. Onun maksimal hündürlüyü 2827 metrdir. Əvvəllər adına ***Qızqala*** deyirmişlər. Zirvələrinin birində *Qızqala* adlanan qədim qala xarabalığı da var.

Qırxqız qayası – Şuşa rayonunun Laçın rayonu ilə həmsərhəd ərazisində, Qarabağ silsiləsində, bir tərəfi sıldırım, yalçın qayalıqlar, digər tərəfi isə sıx meşəliklərdən ibarət olan yüksəklik.

Qırxqız yaylağı – Şuşa rayonunun Laçın rayonu ilə sərhəd ərazisində, Qarabağ silsiləsində yerləşən, bir tərəfi sıldırım, yalçın qayalıqlar, digər tərəfi isə sıx meşəliklərdən ibarət olan yüksəklikdir. ***Qırxqız yaylağı*** da daxil olmaqla Azərbaycanda əksər *yaylaqlar* dəniz səviyyəsindən orta hesabla 2800 metr yüksəklikdə yerləşir.

Qırxqız yaylağı, **Qırxqız qayası** – Laçın rayonunun ərazisində, Alpout kəndi yaxınlığında, Qarabağ silsiləsində yerləşən yüksəklik; bir tərəfi sıldırım, yalçın qayalıqlar, digər tərəfi isə sıx meşəliklərdən ibarətdir.

Qırxqızlar qalası – Xocalı rayonunda, Meşəli kəndinin ərazisində qeydə alınan coğrafi adlardan biri ***Qırxqızlar qalası*** adlanır. Vaxtilə istehkam məqsədi ilə tikilmiş bu qala orta əsrlər dövrünün yadigarıdır. Toponim ***Qırxqız*** dağının yaxınlığında qeydə alındığı üçün qala bu dağın adı ilə də adlandırılmışdır.

Qırxlar qalası – Xocalı rayonunda, Badara kəndinin ərazisində, rayon mərkəzindən 5 kilometr məsafədə, Qarabağ silsiləsinin ətəyində qeydə alınan oroqrafik obyektlərdən biri ***Qırxlar qalası*** adlanır.

Qırmızı burun, Qırmızı dərə, Qırmızı güney, Qırmızı təpə – Laçın rayonunun Zeyvə kəndi ərazisində qeydə alınmış ***Qırmızı burun*** oronimi həmin yerin süxurunun rənginə görə belə ad almışdır. ***Burun*** - "*dağ çıxıntısı*" anlamındadır. Oronimin tərkibindəki ***dərə***, ***güney***, ***təpə*** sözləri relyef formalarını ifadə edir. ***Qırmızı*** sözünün müxtəlif məcazi mənaları olur.

Qırmızı dərə – Şuşa rayonunun ərazisində dərə. Toponimiyamızda rast gəldiyimiz ***qırmızı*** sözü məcazi mənada *(qan rəngli, al, qızılı, parlaqlıq, gözəllik, aydınlıq, şadlıq və s.)* işlənməklə bərabər həm də obyektin rəngini bildirir.

Qırmızı məbəd – Xocavənd rayonunda, Tuğ kəndi ərazisində qeydə alınan və X əsr abidəsi hesab olunan tarixi memarlıq incilərindən biri ***Qırmızı məbəd*** adlanır. ***Məbəd*** – ibadət və dini mərasimlər keçirilməsi üçün nəzərdə tutulan tikilidir.

Qırmızılar – Cəbrayıl rayonunda, Dağ Tumas kəndinin 5 kilometrliyində, Kollu dərənin Tumas dağının zirvəsinə çatan yerində qeydə alınan oroqrafik obyektlərdən biri ***Qırmızılar*** adlanır. Bəzən onun adına ***İtuçan*** (*yerli məlumata görə vaxtilə buradakı sıldırım qayadan* ***it uçaraq*** *öldüyü üçün oronim belə ad almışdır*) da deyirlər.

Qırnalı güneyi – Laçın rayonunun Quşçu kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri ***Qırnalı güneyi*** adlanır. ***Qır*** coğrafi termini qədim türk dillərində "*hamar çöl*", "*dağ-yamacı*", "*təpəlik, hündür yer*", "*yüksəklik*" və s. mənalar daşıyır.

Qısırmac - Cəbrayıl rayonu ərazisində, Dağ Tumas kəndindən 5 kilometr məsafədə, Zolaqlar deyilən yerin qərbində, Dağ Tumas – Maşanlı yolunun şərqində qeydə alınan oronimlərdən biri ***Qısırmac*** adlanır. Oronim bir qədər təhrifə uğramışdır; əslində ***Qısıryamac*** şəklində olmalıdır.

Qış təpəsi – Cəbrayıl rayonunda, Dağ Tumas kəndindən 5 kilometr aralıda, Maqsudun dərəsi ilə Günbəzin arasında yerləşən düzənlikdə qeydə alınan oronim ***Quş təpəsi*** adlanır.

Qışlaq – Qarabağ silsiləsinin ətəyində, Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 8 kilometr qərbdə qeydə alınan oroqrafik obyektlərdən biri ***Qışlaq*** adlanır. Bu toponim ***Qışlaq*** adlı qədim yurd yerində salındığı üçün belə ad almışdır.

Qışlaq bağı – Xocavənd rayonunun ərazisində, Axullu kəndi yaxınlığında, düzənlik sahədə qeydə alınan oronimlərdən biri ***Qışlaq bağı*** adlanır. Bu yeri soyuq çox tutmur. Ərazidəki təxminən 8 hektarlıq sahədə olan ağaclar soyuğa çox davamlıdır.

Qız qalası – Cəbrayıl rayonu ərazisində, Xələfli kəndi yaxınlığında, Diridağın zirvəsində yerləşən qalaya el arasında ***Qız qalası*** deyirlər. Mütəxəssislərin fikrincə, *Qız qalası* XVI əsrə aid olan memarlıq abidəsidir. ***Qız qalası*** ilə bağlı çoxlu əfsanə və rəvayətlər qoşulmuşdur.

Qız qəbri – Cəbrayıl rayonunun Dağtumas kəndindən Çaytumasa enən yol ilə *Gədənin* – el yolunun kəsişdiyi yerdə qeydə alınan oroqrafik obyektlərdən biri ***Qız qəbri*** adlanır. Əfsanəyə görə burada böhtana salınaraq qardaşı tərəfindən qətlə yetirilən ***elat qızı*** dəfn olunmuşdur. Günahsız olduğu bilinəndə ***qızın qəbri*** müqəddəslik, saflıq, ismət, təmizlik simvolu kimi ***pirə*** çevrilmişdir. Yerli əhali ***Qız qəbri*** abidə-pirini həmişə müqəddəs hesab edir.

Qız qəbri yeri – Laçın rayonunun Güləbird kəndi yaxınlığında qeydə alınan coğrafi adlardan biri də ***Qız qəbri*** oronimidir. Yerli məlumata görə, qədim zamanlarda arandan yaylağa köçən türk tayfaları bu yerlərdən keçib Üçtəpə dağlarına gedirmişlər. Köç zamanı sərkərdələrdən birinin bacısı yolda, indi *Avdıllanın arxacı* adlanan yerin yaxınlığında xəstələnib ölür. Onu həmin ərazidə dəfn edirlər. Elə o zamandan da həmin yer ***Qız qəbri yeri*** adlanmışdır...

Qız Perxan ocağı – Cəbrayıl rayonunda, Keçəlməmmədli kəndinin Abbaslı kövşənində, Alıkeyxalı – Cəbrayıl yolunun alt hissəsində yerləşir. Bu ***ocaq*** ətrafına daş düzülmüş çala yerindən və çala içərisində insan şəklinə bənzər daş parçasından ibarətdir. Bu ocaqla bağlı müxtəlif əfsanə və rəvayətlər vardır. Deyilənə görə, quraqlıq zamanı onun torpağından suya atanda

yağış yağarmış. Onunla bağlı rəvayətin birinin məzmunu belədir ki, *Araz çayının o biri tayında **Perxan** adlı bir **qız** aldadılaraq bu taydakı pis sifətli bir qocaya ərə verilir. Əri ilə gərdəyə girəndə onun idbar qoca olduğunu görən və aldadıldığını bilən **Perxan** ona yalan sataraq bayıra çıxır. Gecə ikən baş götürüb Arazın o tayına keçmək qərarına gəlir. Dan üzü ağaranda özünü bu yerdə tək-tənha görür. Çoban-çoluq əlinə düşməmək üçün Allaha üz tutur. Sidq-ürəkdən Allahdan dilək edir ki, onu daşa döndərsin. Böyük Yaradan da onun bu diləyini eşidərək qızı daşa döndərir. Onun əlində tutduğu yaylıq yerə düşür. Qızı soraqlayıb axtaranda onu yaylığından tanıyırlar...*

Qızaran düz – Xocavənd rayonunun ərazisində, Tuğ kəndi yaxınlığında qeydə alınan oronimlərdən biri ***Qızaran düz*** adlanır.

Qızartı döşü – Laçın rayonunun Tərxanlı kəndi ərazisində qeydə alınan oronimlərdən biri də ***Qızartı döşü*** coğrafi adıdır.

Qızıl dərə ayağı – Xocavənd rayonunun ərazisində qeydə alınan oronim. ***Ayaq*** metafor termini oronimiyada "*dağın düzənliklə birləşdiyi zolaq*", "*dağın düzənliklə birləşməsi*", "*dağın, dərənin, çayın qurtaracağı*" və s. mənalar bildirir.

Qızıl güney – Laçın rayonunun Bozdoğan kəridi ərazisində qeydə alınan ***Qızıl güney*** oronimi süxurlarının rənginə və tərkibinə görə belə adlanır. Oronimiyamızdakı ***qızıl*** sözü "*qırmızı*" anlayışını əks etdirir. ***Güney*** qədim türk dillərində "*cənub*" anlamındadır.

Qızıl təpə – Cəbrayıl rayonu ərazisində, Araz çayının sol sahilində qeydə alınan oronimlərdən biri ***Qızıl təpə*** adlanır. Oronimin belə adlanması ilə bağlı çoxlu rəvayətlər vardır. Erməni işğalından sonra alınmış məlumatlara görə, qədim İslam memarlıq abidələrindən hesab olunan ***Qızıl təpə abidəsi*** də dağıdılmışdır...

Qızılboğaz dağı, **dərəsi**, **təpəsi** – Laçın rayonu ərazisinin qərb hissəsində, Əhmədli kəndində, Qarabağ yaylasında, Ermənistanla sərhəddə yerləşir. Hündürlüyü 3581 (*bəzi sənədlərdə 3594 də yazılır*) metrdir.

Qızılca piri – Cəbrayıl rayonunda, Şıxlar kəndinin ərazisində, kəndin aşağı başında qeydə alınmış oroqrafik obyekt ***Qızılca piri*** adlanır. Bu ***pir*** üstünü qaramıx kolları basmış övliya qəbridir. Burada əl yerindən götürülən torpağı çimdik-çimdik suya qatıb ***qizilca*** tutmuş uşağa içirirlər.

Qızıldağ – Xocavənd rayonunun ərazisində, Tuğ kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Qızıldağ*** adlanır.

Qızıldaş – Kərkicahan qəsəbəsinin 2 kilometrliyində, Qayabaşı yaxınlığında qeydə alınan oroqrafik obyekt ***Qızıldaş*** adlanır.

Qızıldaş – Qubadlı rayonunun ərazisində dağ.

Qızıldaş dağı – Şuşa rayonunda qeydə alınmış oroqrafik obyekt.

Qızıldərə – Xocavənd rayonunun ərazisində qeydə alınan oroqrafik obyekt.

Qızılqaya – Azərbaycan oronimiyasında süxurlarının rənginə və tərkibinə görə ad verilmiş oronimlər yüzlərlədir. Bunlardan biri də Ağdam rayonunda, Mərzili kəndinin cənub ərazisində qeydə alınan ***Qızılqaya*** oronimidir.

Qızılqaya – Cəbrayıl rayonu ərazisində, Yuxarı Sirik kəndi yaxınlığında qeydə alınan oronimlərdən biri ***Qızılqaya*** adlanır.

Qızılqaya – Xocalı rayonunun ərazisində qaya.

Qızılqaya – Xocavənd rayonu ərazisində qeydə alınan oroqrafik obyekt.

Qızılqaya – Qubadlı rayonunun ərazisində yerləşən bu qayanın və dağın qırmızı rəngli (*qızılı rəngli*) olduğundan toponim belə adlanmışdır.

Qızılqaya, Qızıldaş, Qızıltəpə, Qızıltapılan təpə – Laçın rayonunda, Minkənd ərazisində, Hocaz kəndi ərazisində qeydə alınan ***Qızılqaya*** oronimi süxurlarının rənginə görə adlandırılan toponimlərdəndir.

Qızılqaya – Şuşa rayonunun ərazisində qeydə alınan oroqrafik obyekt.

Qızılqaya dağ yüksəkliyi – Füzuli rayon mərkəzindən 18 kilometr şimalda, Xocavənd rayonu ilə sərhəd ərazidə yerləşir. **Qızılqaya** dağının hündürlüyü 443 metrdir.

Qızılqaya yüksəkliyi – Kəlbəcər rayonunda qeydə alınan yüksəklik.

Qızılquş zirvəsi – Kəlbəcər rayonunun ərazisində zirvə.

Qızıllı təpə – Ağdam rayonunun Xıdırlı kəndi ərazisində qeydə alınan oronimlərdən biri də ***Qızıllı təpə*** adlanır.

Qızıltəpə – Xocavənd rayonu ərazisində, Tuğ kəndi yaxınlığında qeydə alınmış oroqrafik obyekt.

Qızqala dağı – Xocalı və Laçın rayonlarının sərhəddində yerləşən dağ. Qarabağ silsiləsindədir. ***Qızqala dağı*** öz adını həmin ərazidə yerləşən *Qız qalasının* adından almışdır. Hündürlüyü 2843 metrdir. ***Qızqala dağı*** rayonun ən yüksək zirvəsi hesab olunur.

Qızqala dağı – Xocavənd rayonu ərazisində yerləşir. Toponim öz adını ərazisində yerləşən ***Qız qalasının*** (yerli əhali ***Qızqala*** da deyir) adından almışdır.

Qızqala dağı – Laçın rayonu ərazisində dağ.

Qızlar piri – Cəbrayıl rayonunda, Şahvəlili kəndinin ərazisində, köhnə poçtun arxasındakı dərədə qeydə alınan oroqrafik obyektlərdən biri ***Qızlar piri*** adlanır. Bəzən el arasında onun adına ***Şəfa paylayan qızlar piri*** də deyirlər. Bu ***pir*** dairəvi daş hərləmələrindən ibarətdir. Hasarın icərisində qəbir izləri görünməsə də, yerli əhalinin məlumatlarına görə, burada mücahidlərə yardım göstərdikləri üçün qətlə yetirilmiş *iki bacı* dəfn edilmişdir.

Qızovlu bağı – Füzuli rayonunun Yuxarı Yağlıvənd kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Qızovlu bağı*** adlanır.

Qiyasəddin türbəsi – Cəbrayıl rayonu ərazisində qeydə alınan tarixi memarlıq abidələrindən biri ***Qiyasəddin türbəsi*** adlanır. Bu qiymətli memarlıq abidəsi XIV əsrdə inşa olunmuşdur. Türbədə ***Qiyasəddin*** adlı dövrünün nüfuzlu bir adamı dəfn olunduğu üçün ***türbə*** onun adı ilə adlanmışdır.

Qobu yamacı – Füzuli rayonunun Qobu Dilağarda kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Qobu yamacı*** adlanır. Bəzi araşdırıcılara görə, ***Qobu yamacı*** oronimi XIII əsrdə Orta Asiyadan monqolların tərkibində Azərbaycana gəlmiş türk tayfasının adı ilə bağlıdır.

Qobu yamacı – Xocavənd rayonunun ərazisində, Əmirallar kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Qobu yamacı*** adlanır.

Qocabağ – Xocavənd rayonunda, Axullu kəndi ərazisində, kənddən 1 kilometr aralıda qeydə alınan coğrafi adlardan biri ***Qocabağ*** adlandırılmışdır. Bağın ***Qocabağ*** adlanması ilə bağlı müxtəlif fikir və mülahizələr vardır. Bəziləri oronimin mənasını bu bağın çoxdan salınması, çox-çox əvvəllərdən mövcud olması, tarixinin dəqiq bilinməməsi ilə əlaqələndirirlər. Yerli məlumata görə, bağı Axullu kəndindən olan Sadıq adlı böyük bir nüfuz sahibi saldırmışdır.

Qoç dərəsi – Füzuli rayonunun Arayatlı kəndi ərazisində qeydə alınan oronimlərdən biri ***Qoç dərəsi*** adlanır.

Qoç dərəsi – Qubadlı rayonunun ərazisində qeydə alınmış dərə.

Qoç gədiyi – Xocavənd rayonunun ərazisində qeydə alınan oroqrafik obyekt.

Qoç yalı – Xocavənd rayonunun ərazisində yal.

Qoçdağ – Kəlbəcər rayonu ərazisində, Tərtər çayı ilə onun qolu olan Tutqunçayın arasında yerləşən dağ. Yerli əhali arasında dağın adına ***Qoçdaş dağı, Qoçdaş yaylağı*** və ***Qoşdag*** da deyilir. Dağın ətəyində daşdan yonulmuş ***qoç*** formalı qəbirüstü abidələr olan ***Qoçdaş*** adlı qədim qəbiristanlıq mövcuddur.

Qoçdaş dağı – Laçın rayonunun ərazisində dağ.

Qoduq yamacı – Laçın rayonu ərazisində qeydə alınan yamac.

Qollu dağ – Laçın və Kəlbəcər rayonlarının sərhədlərində, Mıxtökən silsiləsində yerləşən dağın adı ***Qollu dağ*** adlanır. ***Qollu dağın (Göllü dağın)*** adı bəzi coğrafi ədəbiyyatlarda səhvən ***Qollu*** getmişdir. Bəzən adı sənədlərdə ***Göllüdağ*** şəklində də yazılır. Əslində bu dağın adı ***Göllüdağ*** olmalıdır.

Qollu zirvə – Kəlbəcər rayonunda qeydə alınan **Qollu zirvə** oronimi insan qoluna oxşadığı üçün belə adlandırılmışdır. Qollu zirvə Mıxtökən silsiləsində yerləşir.

Qonaqgörməz – Füzuli rayonunun Horadiz kəndinin ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri də ***Qonaqgörməz*** adlanır. Buradakı hündür təpəliyin arxası, ***görünməz*** yeri el arasında ***qonaqgörməz*** adlandırılmışdır. Bu coğrafi ad ilə bağlı bir çox rəvayətlər də vardır.

Qonqurdağ – Kəlbəcər rayonu ərazisində dağ. ***Qonqurdağ*** Tərtər çayı ilə onun qolu olan Tutqunçayın suayırıcısıdır. Əslində oronimin adı ***Qonurdağ*** olmalıdır.

Qorçu əkən yer – Laçın rayonunda, rayon mərkəzindən 65 km şimal-qərbdə, Kiçik Qafqazın Mıxtökən silsiləsinin yamacında, Qorçu çayının sahilində, Qorçu kəndinin yaxınlığında ***Qorçu əkən yer*** coğrafi adı da qeydə alınmışdır. ***Qorçu əkən yer*** patronimik toponimi Səfəvilər zamanında yaranan şah qvardiyasını bildirən ***qorçu*** sözündən əmələ gəlmişdir. Monqol dilində ***qorçi/xorçi*** "*atıcı*" anlamındadır. Türk dillərindəki ***qorçu*** sözü "*sultan qvardiyasının üzvü*" mənasındadır.

Qorqalı dərə – Xocavənd rayonunun ərazisində, Qaradağlı kəndindən bir qədər aralıda qeydə alınmış oroqrafik obyektlərdən biri ***Qorqalı dərə*** adlanır.

Qoruğundağ - Laçın rayonu ərazisində, Qarabağ silsiləsinin yamacında yerləşən dağın adıdır. Dağın əsl adı ***Qoruqdağı*** olmalıdır. Bu oronimin qədim türk dillərindəki adı "*möhkəmləndirilmiş yer*" mənasını verən ***Qoriqan*** sözündən olması güman edilir.

Qoşa qaya – Laçın rayonunda Güləbird kəndi yaxınlığında qeydə alınan coğrafi adlardan biri də ***Qoşa qaya*** adlanır. Oronim ***qoşa*** və ***qaya*** sözlərindən ibarətdir. ***Qaya*** termini müsbət relyef formasını ifadə edir.

Qoşaçinar – Füzuli rayonunun İşıqlı kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Qoşaçinar*** adlanır. Toponim buradakı 2 yanaşı olan çinar ağaclarının adı ilə əlaqədar olaraq belə ad almışdır. Çinarın birinin koğuşunun diametri 5 metrdir. O biri çinar ağacının da gövdəsinin diametri 3 metrdən çoxdur. Mütəxəssislər bu çinarların 500 illik tarixi olduğunu ehtimal edirlər.

Qoşadərə – Xocavənd rayonunun ərazisində sayına görə qeydə alınan oronimlərdən biri ***Qoşadərə*** adlanır.

Qoşagirmə dagı – Xocavənd rayonunun ərazisində qeydə alınan oronimlərdən biri ***Qoşagirmə dağı*** adlanır.

Qoşunavar dağı – Laçın rayonu ərazisində qeydə alınan dağ. Toponimin tərkibindəki ***qoşun*** sözü vaxtilə monqol dilindən Azərbaycan dilinə keçən ***Xoşun (xuşun)*** sözü ilə əlaqədardır.

Qovaq yalı – Kəlbəcər rayonunun ərazisində qeydə alınmış yal.

Qovşutlu təpəsi – Cəbrayıl rayonunun Qovşudlu (*Qovşutlu*) kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Qovşutlu təpəsi*** adlanır. Oronim ***Qovşutlu*** kəndinin adı ilə əlaqədar olaraq yaranmışdır.

Qoyunuçan yamacı – Kəlbəcər rayonunun ərazisində qeydə alınmış yamac.

Qozlu çalası – Cəbrayıl rayonunda, Xəlfəli kəndinin ərazisində qeydə alınan oronimlərdən biri ***Qozlu çalası*** adlanır.

Qozlu çuxur – Kəlbəcər rayonunda, Qarabağ silsiləsinin yamacında qeydə alınmışdır.

Qozlu dərə – Cəbrayıl rayonu ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Qozlu dərə*** adlanır.

Qozlu dərə – Füzuli rayonunun Qacar kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Qozlu dərə*** adlanır. Oronimin tərkibindəki ***dərə*** termini mənfi relyef formasını bildirir.

Qozlu şam – Laçın rayonunun Ağcakənd kəndi ərazisində, Qarabağ silsiləsinin ətəyində qeydə alınan oroqrafik obyekt.

Qozlu yer – Şuşa rayonunun ərazisində – Xəlfəli və Şırlan kəndləri yaxınlığında qeydə alınan toponim.

Qozluçay aşırımı – Xocavənd və Füzuli rayonlarının sərhədyanı ərazilərində qeydə alınan oronimlərdən biri ***Qozluçay aşırımı*** adlanır.

Qozludağ, Qozludağ diki – Cəbrayıl rayonu ərazisində qeydə alınmışdır.

Qozludərə – Füzuli rayonunun Qarakollu kəndi ərazisində qeydə alınan oronimlərdən biri belə adlanır.

Qozludərə – Xocalı rayonu ərazisində, Kərkicahan qəsəbəsi yaxınlığında yerləşən dərə adı.

Qubadlı yasaqlığı (*qoruğu*) – Qubadlı rayonunun ərazisində yerləşən bu qoruq Azərbaycanın dövlət yasaqlığıdır. ***Qubadlı yasaqlığı*** Kiçik Qafqazın cənub-şərqində, *Qubadlı* və qismən də Laçın rayonu ərazisindədir. ***Yasaqlıq*** 1969-cu ildə *cüyür, qırqovul, çöldonuzu* və başqa heyvanları mühafizə etmək məqsədi ilə təşkil olunmuşdur. Sahəsi 20 min hektar idi. İşğal zamanı ermənilər tərəfindən dağıdılmış və viran edilmişdir.

Ququşka – Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 7 kilometr məsafədə qeydə alınan oroqrafik obyektlərdən biri ***Ququşka*** adlanır. Yerli əhali dəmir yolu tikintisindən qalan qalıq kimi tarixi körpünü el arasında qısaca olaraq "***Ququşka***" adlandırdığı üçün həmin ərazi belə adlandırılmışdır.

Qulaq piri – Xocavənd rayonunun ərazisində, Axullu kəndi yaxınlığında, Ərgünəş meşəsi ətrafında qeydə alınan coğrafi adlardan biri ***Qulaq piri*** adlanır. Yerli adamlar bu *pirlə* bağlı müxtəlif rəvayətlər uydurmuşlar.

Qulaqan çölü – Laçın rayonunun Mirik kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri ***Qulaqan çölü*** oronimidir.

Quldur dərəsi – Xocavənd rayonunun Muğanlı kəndindən 4 kilometr aralıda qeydə alınmış oroqrafik obyekt ***Quldur dərəsi*** adlanır. Bu dərədə çoxlu sayda qanlı hadisələr baş verdiyindən, orada *qaçaq-quldur* dəstələrinin çox olmasından toponim belə ad almışdır.

Qumlu təpə – Cəbrayıl rayonu ərazisində qeydə alınan yüksəkliklərdən biri ***Qumlu təpə*** adlanır.

Qumtəpə kurqanı – Cəbrayıl rayonunun Mahmudlu kəndi yaxınlığında yerləşir. Bu ***kurqan*** qədim dövr abidəsi hesab olunur.

Qurban kəl kəsən dərə – Xocavənd rayonunun Əmirallar kəndinin yaxınlığında, kənddən 10 kilometr aralıda, keçmiş Bəhrəmli kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Qurban kəl kəsən dərə*** adlanır.

Qurbançalan – Qarabağ silsiləsinin ətəyində, Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 10 kilometr aralıda qeydə alınan oroqrafik obyektlərdən biri ***Qurbançalan*** adlanır.

Qurbanlı piri – Cəbrayıl rayonunun ərazisində, Diridağın Araz çayına baxan yamacında, Stansiya Xələfli kəndinin gündoğanında, dəmiryol keçən tunelin üstündəki təpədə, qəbiristanlığın qurtaracağında qeydə alınmışdır. ***Qurbanlı piri*** çay daşlarından dairəvi şəkildə təxminən 40 santimetr hündürlüyündə hasarla əhatə olunmuşdur. Bəzi araşdırıcıların məlumatına görə, bu ***pir*** yeri ***Aşıq Dirili Qurbanın*** buta aldığı yer olduğu üçün onun adı ilə də adlanmışdır. Bu oroqrafik obyektin adına bəzi sənədlərdə ***Dirili Qurbaninin qəbri*** şəklində də rast gəlirik. ***Qurbani*** haqq aşığı olduğundan onun qəbri ziyarətgaha çevrilmişdir. Rəvayətə görə, ***Aşıq Qurbani*** gəncəli Ziyad xanın qızı Pəri xanımı alıb geri qayıdarkən indi ***pir*** olan bu yerdə yatıbdır. Bu vaxt bir ilan onu yatdığı yerdə vurub. ***Aşıq Qurbani*** ölür və onu burada basdırırlar. ***Qurbani*** haqq aşığı olduğu üçün onun məzarı ziyarətgaha çevrilir. Belə bir rəvayət də var ki, bir gün Qurbani kəndin cavanları ilə gedib gəzməyə. Gecə qayıtmayıb. Bütün gecəni onu axtarıblar, amma tapmayıblar. Səhər qoyun aparan çobanlar onu Mazannənənin başının üstündəki dağda

yatılı vəziyyətdə tapırlar. Görürlər ki, ağzından, burnundan köpük, su axır. Dünyagörmüş adamlar, başbilənlər gəlib deyirlər ki, buna vergi verilibdir. Bura ona buta verilən yerdir. Pirin ***Qurbanlı*** adlanmasını başqa cür şərh edənlər də var. Burada yerli əhali İslama qədər günəşə və s. sitayiş edər, müxtəlif ***qurbanlar*** kəsərdilər. Bu kimi inanclar İslamdan sonra da saxlanılırdı.

Qurbantəpə dağı – Qubadlı rayonu ərazisində, Qarabağ yaylasının cənub- şərqində yerləşən dağ. Əliquluuşağı kəndindən qərbdədir. Zirvəsinin hündürlüyü 1075 metrdir.

Qurbantəpə piri – Cəbrayıl şəhərinin cənub**-**qərbində, eyniadlı hündür təpə üzərində qeydə alınan oroqrafik obyektlərdən biri ***Qurbantəpə piri*** adlanır. Bu ***pir*** dibi daş topası ilə örtülmüş yemişan kolundan ibarətdir. Müqəddəs ocaq olan bu ziyarətgah *2,5 – 3* metr diametrdə daşlardan dairəvi formada 60 – 70 santimetr hündürlükdə pirdir. Yerli məlumata görə, ***Qurbantəpə piri*** çox**-**çox qədim dövrün (*bəlkə də tunc dövrünün*) nişanəsidir. Əhalinin etiqadlarında Günəşə, Aya sitayiş elementləri də vardır.

Qurd dərəsi – Xocavənd rayonunun ərazisində, Kert kəndi yaxınlığında qeydə alınmış oroqrafik obyektlərdən biri ***Qurd dərəsi*** adlanır.

Qurd yolu – Cəbrayıl rayonunun Dağ Tumas kəndindən 4 kilometr məsafədə, Salın daşı ilə Abdulla kahasının birləşdiyi ərazidə qeydə alınan oroqrafik obyekt ***Qurd yolu*** adlanır.

Qurdlu quzey – Cəbrayıl rayonunun ərazisində, Dağ Tumas kəndinin 4 kilometrliyində, Kiçik kovdan Anbar daşına qədər uzanan Tumas dağının cənub silsiləsinin *quzeyində* qeydə alınan oronim ***Qurdlu quzey*** adlanır.

Quru dərə – Ağdam rayonu ərazisində qeydə alınan oronimlərdən biri ***Quru dərə*** adlanır.

Quru dərə – Xocalı rayonunda dərə. Suyunun rejiminə – yəni, ilin yay aylarında suyun olmamasına, qurumasına görə ad almış oronimlərdən biri də Xocalı rayonunun ərazisində qeydə alınmışdır.

Quru dərə – Xocavənd rayonunun Mülküdərə kəndi ərazisində qeydə alınan dərə.

Quru qobu – Xocavənd rayonunun Axullu kəndi yaxınlığında qeydə alınan oronimlərdən biri ***Quru qobu*** adlanır.

Qusardağ – Xocalı rayonu ərazisində dağ. Oronimdəki ***qusar*** sözünün mənası tam dəqiqliklə məlum deyildir. ***Qusar*** sözü haqqında müxtəlif mülahizələr vardır. Birinci mülahizə ondan ibarətdir ki, vaxtilə Xankəndi rus ordu hissəsi (*Sunca polku*) burada yerləşdirilmiş və çox güman ki, oronimin tərkibindəki ***qusar*** sözü rus dilindəki ***qusar*** sözündəndir. İkinci mülahisəyə görə isə, bu söz türk mənşəli ***kusar /kosar*** etnonimindən ibarətdir. ***Qusar*** oykonimindən bəhs edən tarixçi-alim Qiyasəddin Qeybullayev qaraqalpaqlarda ***kosor*** adlı tayfanın olduğunu qeyd edir və həmin oykonimin ***kosor*** etnonimindən ibarət olduğunu göstərir. Buradan belə bir nəticə çıxarmaq olar ki, ***Qusardağ*** orfoqrafik obyekti ***kusar*** (***kosar***) etnoniminin adını özündə tarixi bir abidə kimi qoruyub saxlamışdır.

Quşçu ayrığı, Quşçu qalası dağı – Laçın rayonu ərazisində, Quşçu kəndi yaxınlığında qeydə alınan oronimlər belə adlanır. ***Qışçu ayrığı*** oronimini bəzən ***Quşçu ayrıcı*** şəklində də yazırlar. Ayrıc termini "*bir neçə yolun ayrıldığı və ya bir yolun bir neçə tərəfə haçalandığı yer*" deməkdir. ***Ayrıq*** dedikdə çoxillik taxıllar fəsiləsinə mənsub ot nəzərdə tutulur. Toponim özündə Azərbaycan ərazisində eramızın əvvəllərindən məlum olan ***quşçu*** tayfasının adını əks etdirir.

Quşçular dağı – Xocavənd rayonunun Tyak kəndinin ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Quşçular dağı*** adlanır. Bu oronim erkən orta əsrlərdə Azərbaycanda məskunlaşmış quşçu tayfasının adı ilə bağlıdır.

Quşoturan – Füzuli rayonunun Əbdürrəhmanlı kəndinin ərazisində qeydə alınmış coğrafi ad. Toponim həmin sahədə ***quşların*** enməsi "***oturması"*** ilə əlaqədar yaranmışdır.

Quştəpə dağı – Füzuli rayonunun ərazisində dağ.

Qutan dərəsi – Laçın rayonunun Ağcayazı kəndi ərazisində qeydə alınıb. ***Qutan*** türk mənşəli sözü "*qışlaqda qoyun saxlanılan yer*" anlamındadır. ***Qut*** sözünün "*güc*, *taqət*, *qüvvə*", "*tumurcuq*" mənaları da var.

Qutlu Musa oğlu türbəsi – Ağdam rayonunun Xaçındərbətli kəndi ərazisində qeydə alınmış tarixi memarlıq abidələrindən biri ***Qutlu Musa oğlu türbəsi*** adlanır. Bu ***türbə*** XIV əsrə aiddir. Türbənin tikintisində çöl daşlarından bəzək əşyaları kimi istifadə olunub. Türbənin divarlarının üzlüklərində yonma üsulu ilə səliqəli şəkildə vəhşi heyvanlardan bəbir, ceyran və s. təsvir edilib. Məqbərə 2 hissəyə bölünür. Məqbərənin minbəri çox yüksək sənətkarlıqla, ustalıqla işlənmişdir. Məqbərənin girişində bu ifadələr yazılıb: "*Bu imarət Allahın rəhminə ehtiyacı olan Musa Xacənin oğlu rəhmətlik* ***Qıtlunundur*** *və* 15.08.1314-cü *ildə usta Şahbənzər tərəfindən tikilmişdir*".

Quyular – Xocavənd rayonunun Ağbulaq kəndi ilə Füzuli rayonunun Çimən kəndləri yaxınlığında qeydə alınmış oroqrafik obyekt ***Quyular*** adlanır. Bu ***quyular*** Çimən kənd sakini, dövrünün varlı və nüfuzlu şəxsiyyəti hesab olunan Məşədi Gülnisə tərəfindən qazdıırılmışdır. *Çiman kəhrizi* bu quyunun vasitəsilə qidalanırdı.

Quzey bağı – Cəbrayıl rayonunda, Nüzgər kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Quzey bağı*** adlanır.

Quzey yataq – Cəbrayıl rayonunda, Nüzgər kəndinin yaxınlığında qeydə alınmış coğrafi ad. Oronimiyada ***quzey*** coğrafi termini müsbət relyef forması bildirir.

Quzeyqaya – Ağdam rayonunun Abdal-Gülablı kəndi ərazisində qeydə alınan oronim.

Quzğun qayası, Quzğunlu dərə – Laçın rayonunda qeydə alınan oroqrafik obyektlər.

Quzğunlu qaya – Şuşa rayonunun Səfixanlar kəndi ərazsində qeydə alınmış qaya.

Quzu yalı – Ağdam rayonunun Abdal kəndi yaxınlığında qeydə alınıb.

Laçın dağı – Kəlbəcər rayonu ərazisində yerləşən dağ. Yerli əhali arasında bu dağ ***Laçıntaxtı*** və ya ***Laçınqaya*** da adlanır. ***Laçın*** sözü türk dillərindəki ***yalçın*** sözünün təhrif edilmiş fonetik variantıdır. ***Yalçın*** - türk dilində "*sıldırım*" deməkdir. Dağın ***Laçıntaxtı*** adlanması onun zirvəsinin sıldırım olmasından irəli gəlir. XI əsr abidəsi olan ***Hovqala*** bu dağda yerləşir. Hovqalanın adı ilə bəzən dağı ***Levqala qayası*** da adlandırırlar. Bu qayanı əhali ***Laçınqaya*** da adlandırır. Qaya üzərində orta əsrlərdə tikilmiş qədim qala xarabalıqları vardır. ***Laçın dağı*** toponimini ***laçın*** quş adı ilə bağlayanlar da var.

Laçın dərəsi – Kəlbəcər rayonunun Comərd kəndi ərazisində qeydə alınan dərə adı.

Laçın qaya – Ağdam rayonunda, Abdal kəndinin ortasında qeydə alınan oronimlərdən biri də ***Laçın qaya*** coğrafi adıdır.

Laçın qayası – Kəlbəcər rayonunun Comərd kəndi ərazisində qeydə alınan qaya.

Laçın qayası – Şuşa rayonunun ərazisində qaya.

Laçın qoruğu – Azərbaycanda dövlət qoruğu (*yasaqlığı*). ***Laçın qoruğu*** Kiçik Qafqazda, əsasən, Laçın rayonunda, qismən isə Xocalı (Əsgəran) rayonu ərazisindədir. Qoruğun ümumi sahəsi 21,4 min hektardır. 1961-ci ildə təşkil olunmuş bu ***qoruqda*** 400 baş dağkeçisi, 500 baş cüyür, 400 baş çöldonuzu, 800-1000 turac, 2500 kəklik (*1979-cü il statistik məlumatına görə*) mühafizə olunurdu...

Lalə dağı – Cəbrayıl rayonunda, Cocuq Mərcanlı kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Lələ dağı*** adlanır. ***Lələ*** hamımızın eşitdiyimiz, tarixdən, rəvayətlərdən tanıdığımız məşhur bir şəxsiyyətdir. Onun doğum və ölüm tarixləri dəqiq bilinmir. Deyilənə görə, ***Lələ*** Azərbaycanı qarış-qarış dolanmışdır. ***Lələ*** haqqında çoxlu rəvayətlər, əfsanələr vardır.

Lalə düzü – Cəbrayıl rayonunun Nüzgər kəndi ərazisində qeydə alınmışdır. ***Lalə*** - xaşxaşkimilər fəsiləsindən birillik və ya çoxillik bitki cinsidir. Lalənin vətəni Aralıq dənizi ölkələri hesab olunur.

Laləli yer – Cəbrayıl rayonunda, Qazanzəmi kəndinin cənub-qərbində, kəndə gedən əsas yolun üstündə qeydə alınan oroqrafik obyekt ***Laləli yer*** adlanır.

Lev qalası – Kəlbəcər rayonu ərazisində, Tərtər çayı sahilində, Lev və Yanşaq kəndləri yaxınlığında, Murovdağ silsiləsində, dəniz səviyyəsindən 2000 metr yüksəklikdə, Lev çayının orta axarından sağ yamacda bir hektar sahədə yerləşən bu qala ***Lev qalası*** adlanır. Qala divarlarının hündürlüyü 4-5, bəzi yerlərdə isə 8-10 metrə çatır. Qala ərazisində yaşayış yeri və sal qayalarda 4-7 metr dərinliyində çapılmış su və ərzaq quyuları çox səliqə ilə düzəldilərək içərisinə ağ suvaq çəkilmişdir. Bir neçə yerdə qalaya möhkəm bəndlər çəkilib ki, bu da qalanın təhlükəsizliyini qorumaq məqsədini güdürmüş. Sıldırım qaya üzərində yerləşən ***Lev*** qalasına ***Loküm qalası*** da deyirlər.

Leyla armudu – Füzuli rayonunun Yuxarı Əbdürrəhmanlı kəndi ərazisində qeydə alınıb. Bu coğrafi ad ***Leyla*** adlı adama məxsus olan sahədə olduğu üçün belə adlandırılıb. Yerli məlumata görə, həmin ***armud*** ağacının yaşı 500 ilə yaxındır.

Leyli hasarı – Füzuli rayonunun Böyük Bəhmənli kəndi ərazisində, Araz çayı sahilində qeydə alınan oroqrafik obyektlərdən biri ***Leyli hasarı*** adlanır. Bu hasarın qalıqları XX əsrin 70-ci illərinə qədər dururdu. ***Hasar*** bişmiş kərpicdən tikilmişdir. Dövrünün peşəkar usta-memarı tərəfindən inşa olunan bu ***hasar*** tikilisi, yerli məlumata görə, Bəhram Gavur (?) adlı nüfuzlu adamın qızı ***Leylinin*** şərəfinə ucaldılmışdır. Təəssüflər olsun ki, bu tarixi memarlıq abidəsi baxımsızlıq ucbatından uçulub-dağılmış, sıradan çıxmışdır.

Lələ düzü, Lələ yeri – Füzuli rayonunun ərazisində qeydə alınan oroqrafik obyekt. ***Aşıq Lələ*** məşhur bayatı ustası olmuşdur. Haqq aşığı olan Lələnin doğum və ölüm tarixi dəqiq bilinmir. Azərbaycanı qarış-qarış gəzən ***Lələ*** harada olubsa, orada özündən bir iz qoyub, Cəbrayıldan, Füzulidən tutmuş Qaradağlı, Ərdəbil, Qax, Zərdab, Lerik, Astaraya qədərdir bu izlər. Azərbaycanıda ***Lələ düzü, Lələ yaylası, Lələ yeri, Lələ yurdu, Lələli, Lələkəpeştə, Lələdulan, Lələkəran*** adlı oymaqlar vardır.

Lələ piri – Cəbrayıl rayonunda, *Çələbilər* kəndinin ərazisində, daş hasara alınmış sıx yarpaqlı, gövdəsi tünd-göy qabıqlı dağdağan ağacından ibarət oroqrafik obyekt ***Lələ piri*** adlanır.

Lələ təpəsi, Lələ yaylağı – Cəbrayıl rayonunun Maralyan və Mərcanlı kəndləri yaxınlığında yerləşir. Cəbrayıl rayonunun ərazisində, Nüzgər kəndinin yaxınlığında qeydə alınan bu tipli coğrafi adlardan biri də ***Lələ yaylağı*** adlanır. Məlumdur ki, *Qızılbaşlar* dövlətində yetkin yaşa çatmamış şahzadənin hamisinə, tərbiyəçisinə ***lələ*** deyilirdi. Oronim doğum və ölüm tarixləri dəqiq bilinməyən məşhur el aşığı, ozan, şair ***Lələnin*** adı ilə əlaqədardır. Onun qəbri Füzuli rayonunun Qazaxlar kəndi yaxınlığındakı Arğalı qəbiristanlığındadır. Məşhur el sənətkarı olan ***Aşıq Lələ*** yüzlərlə bayatı qoşmuşdur.

Lələ təpəsi – Xocalı rayonu ərazisində, rayon mərkəzindən 12 kilometr məsafədə qeydə alınmış coğrafi ad.

Ləzgi dağı – Kəlbəcər rayonunun ərazisində dağ. Oronimiyamızda ***ləzgi*** xalqının adını əks etdirən oroqrafik obyekt. Azərbaycan Respublikasının ərazisində ***ləzgi*** etnonimi ilə bağlı çoxlu toponimlər qeydə alınmışdır.

Ləzgiuçan dərə – Laçın rayonunun ərazisində qeydə alınan dərə.

Lısoqor – Xocalı rayonu ərazisində, rayon mərkəzindən 23 kilometr məsafədə qeydə alınan oroqrafik obyektlərdən biri ***Lısoqor*** adlanır. Bu oroqrafik obyekt hündür aşırımı olan təpədən ibarətdir. Bu toponim rus dilində olan ***lısiy*** ("*keçəl*, *çılpaq*") və ***qora*** ("*dağ*") sözlərinin birləşməsindən əmələ gəlib, "*keçəl dağ*", "*çılpaq dağ*" anlamını ifadə edir. ***Lısoqor*** adını rus topoqrafları "***Keçəldağ***" toponimindən tərcümə edərək qeydə almışlar. Sonralar bu coğrafi ad belə də tanınmışdır. ***Dağ*** aşırımının səthi ***keçəl*** və ***çılpaq*** olduğu üçün oronim belə adlandırılmışdır. Mənzərəli bir yerdə qərar tutan ***Lısoqor*** yaxınlığında tərkibində daha çox dəmir olan və sağlamlıq üçün böyük əhəmiyyət daşıyan bulaqlar da vardır.

Lısoqor – Şuşa rayonu ərazisində qeydə alınmış hündür aşırımlı yüksəklik. Oronimin ***Lısaya qora*** variantı da var.

Löküm (*Lev*) qalası – Kəlbəcər rayonunun Seyidlər kəndi yaxınlığında yerləşən qala. Rəvayətə görə, *Kəlbəcərin* ***Löküm*** *qalasında* ***Lök*** *adlı bir adam yaşayırmış.* ***Lök*** *Allahı tanımazmış. Özü Allah heykəlləri düzəldərək onlara biət edərmiş. Özünün də çoxlu qoşunu var imiş. Heç bir padşah ona qalib gələ bilməzmiş. Bunun əlindən Əmirə şikayət edirlər. Əmir onun qoşununu qırıb* ***Löküm*** *qalasına girir.* ***Lök*** *çox tilsimkar imiş. O, hər dona düşməyi bacarırmış. Bu qalanın da bircə yolu var imiş. Əmir burada keşikçi qoyur. Əmir qalanın içinə girəndə* ***Lök*** *itə dönüb, ağzında bir çarıq keşikçinin yanından çıxıb gedir. Əmir qalanın içini ələk-vələk eləyib axtarır, amma Lökü tapmır. Keşikçidən soruşur. O deyir: - Bu yoldan bircə it çıxıb. Adam-zad çıxmayıb. Əmir durbinlə baxıb görür ki,* ***Lök*** *it donunda yeddi ağaclıqdan gedir. Əmir şir kimi qəzəblənir, bir qaya götürüb tullayır. Qaya gedib indiki Seyidlər kəndinin yanındakı gədikdə Lökün yanında yerə düşür. Lök yarıya qədər torpaq altında qalır. Əmir düldül atı minib Lökə çatır, torpaqdan çıxhaçıxda onu yaxalayır. Lök Əmirə yalvarır: - Məni öldürmə.*

Əmir onun qaşının ətindən dartıb yerə qədər uzadaraq deyir:

- Ölmə, amma ölüncə əzab çək!

Əfsanəyə görə Lök ölmür, heç ölməyəcək, həmişə əzab çəkəcəkdir.

Yenə belə rəvayət edirlər ki, guya göydən qanadlı adamlar enib ***Löküm*** qalasını tikmişlər. ***Löküm*** qalasına ***Lev qalası*** və ya ***Lök qalası*** da deyirlər. Yerli məlumata görə, ***Lök qalası*** zahiri görünüşcə dəvəyə oxşadığı üçün belə ad almışdır.

Lülpər dağı – Laçın rayonu ərazisində yerləşir. Dağın adı keçmişdə sitayiş, inanc yeri olmuş ***Lülpər*** pirinin adı ilə bağlıdır. *Lülpər piri* palıd ağaclarından ibarətdir. Başqa bir məlumata görə isə, ***Lülpər*** sözü "*şiş*" mənasında işlədilir və "*şiş uclu dağ*" deməkdir.

Mağara təpəsi – Füzuli rayonunun Babı kəndi yaxınlığında qeydə alınmış oroqrafik obyektlərdən biri ***Mağara təpəsi*** coğrafi adıdır. Bu oronimlə bağlı belə bir əfsanə - rəvayət danışılır: *1405-ci ildə Əmir Teymurun ölüm xəbərini eşidən Şirvanşah I İbrahim Teymurilər dövlətinin asılılığından çıxdığını elan edərək, ona xərac verməkdən imtina edir. Teymurun oğlu Ömər Mirzə bu xəbəri eşidəndə İbrahimi cəzalandırmaq üçün Şirvana tərəf irəliləyir. Şirvan torpaqlarında müharibənin olmasını istəməyən I İbrahim Ömər Mirzənin ordusunu yolda qarşılamaq fikrinə düşür. Ömər Mirzə öz ordusu ilə Araz çayının cənub sahilində, I İbrahim isə şimal sahilində, Babı kəndi ərazisində qarşı-qarşıya dayanırlar. Hər iki sərkərdənin o dövr üçün çox əzəmətli orduları vardı. Onlar arasında şiddətli döyüşlər olur. Deyilənə görə, Babı kəndinin yaxınlığında baş verən bu döyüşdə yüzlərlə ölmüş əsgərin cəsədi qalaqlanaraq yerli əhali tərəfindən indi* ***Mağara təpəsi*** *adlandırılan bu təpəni əmələ gətirmişdir.*

Mahmud körpüsü – Laçın rayonunun Mirik kəndi ərazisində qeydə alınmış coğrafi ad.

Maqsud dərəsi – Cəbrayıl rayonunun ərazisində, Dağ Tumas kəndinin yaxınlığında, Dəmçi təpəsinin gündoğanında qeydə alınan oronimlərdən biri ***Maqsud dərəsi*** adlanır. Bu gen ***dərə*** Şaqqıldaqlıq düzünədək uzanır.

Maqsudlu dərəsi – Laçın rayonunun Güləbird kəndi ərazisi yaxınlığında qeydə alınmışdır. ***Dərə*** həmin ərazinin yaxınlığında yaşayan ***Maqsudlu*** kəndinin sakinlərinin adı ilə əlaqədar belə adlanmışdır.

Malıbəyli hamamı – Şuşa rayonunun Malıbəyli kəndinin şimal-şərqində yaşı 300 ilə yaxın olan (*Səfəvilər dövrü abidəsi*) hamam tikilisi. Bu hamam kompleksi səkkiz guşəli, çatma tağlı iki günbəzdən və su hovuzundan ibarətdir. Hamamın isti və soyuq suyu, kanalizasiyası vardı. ***Hamam*** sal daşlardan – dağ və çaylaq daşlarından tikilmişdir. Deyilənlərə görə, həftənin cümə günlərində qadınlar, qalan günlərində kişilər çimərdilər. Hətta, indiki Xankəndi ərazisindən (*vaxtılə orada mövcud olmuş yaşayış məntəqəsindən*), qonşu Quşçular və başqa kəndlərdən də adamlar gəlib bu hamamda çimərmişlər.

Malıbəyli məhəlləsi – Ağdam şəhərindəki keçmiş S.Ağamalıoğlu küçəsinə yerli əhali rəmzi olaraq ***Malıbəyli məhəlləsi*** deyirdi. Vaxtilə Şuşa rayonunun ***Malıbəyli*** kəndindən köçüb burada məskunlaşan ailələrin, nəsillərin çoxluğuna görə qeyri-rəsmi olaraq bu məhəlləyə ***Malıbəyli məhəlləsi*** deyilirdi.

Malıbəyli məscidi – Şuşa rayonunda, Malıbəyli kəndinin mərkəzində yerləşən təkminarəli məscid. XX əsrin əvvəllərində erməni-müsəlman ixtişaşı zamanı məscidin minarəsi ermənilər tərəfindən uçurulub-dağıdılmışdır. ***Malıbəyli məscidi*** Qarqarın çay daşlarından tikilmişdir. Qiymətli tarixi-memarlıq abidəsi olan ***Malıbəyli məscidinin*** XVII əsrdə tikildiyi ehtimal olunur. Doqquz günbəzli bu məscidin hündürlüyü 7 m idi. Bu günbəzlər 4 böyük sal daş sütunların üzərində qurulmuşdu. *11 fevral 1992-ci il* tarixdə Malıbəyli kəndi işğal olunduqdan sonra erməni vandalları kənddə olan digər abidələr və tikililər kimi bu məscidi də dağıtmışlar.

Mamırlı qaya, Mumlu qaya – Laçın rayonu ərazisində qeydə alınan qaya.

Manas dərəsi – Xocavənd rayonunun ərazisində, Qaradağlı kəndindən bir neçə kilometr aralıda qeydə alınan dərə.

Mansur yalı – Xocavənd rayonunun ərazisində qeydə alınmış oroqrafik obyekt.

Mantar dağı – Qarqar çayının sağ sahilində, Ağdam rayonu ərazisində yerləşən ***Mantar dağı*** (hündürlüyü 1580 metr) Şahbulaq silsiləsinin geoloji davamının ətəyindədir.

Maraxanlı düzü – Cəbrayıl rayonunda, Havuslu və Qaraxanlı kəndlərinin yaxınlığında qeydə alınmış oronimlərdən biri ***Maraxanlı düzü*** adlanır. Bəzi sənəd və materiallarda bu coğrafi ad ***Marahan düzü*** kimi qeyd olunur.

Maral dağı – Cəbrayıl rayonunda, Nüzgər kəndi yaxınlığında qeydə alınan oronimlərdən biri ***Maral dağı*** adlanır.

Maral dərəsi – Qubadlı rayonunun ərazisində dərə.

Maral uçan dağ – Laçın rayonunun ərazisində dağ.

Maral yalı – Kəlbəcər rayonunun ərazisində qeydə alınan yüksəklik.

Maral yeri – Cəbrayıl rayonu ərazisində, Araz sahilində, Diridağdan bir qədər aralıda, "*Üryan Xıdır qalası*" ətrafında, Hacı Qaraman məqbərəsi yaxınlığında qeydə alınan oronim ***Maral yeri*** adlanır.

Maral yoxuşu – Cəbrayıl rayonunun Nüzgər kəndi ərazisində qeydə alınan təpə.

Maral zəmisi – Cəbrayıl rayonunda, Xələfli kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyekt.

Maral zəmisi – Xocalı rayonunun ərazisində qeydə alınan oroqrafik obyekt.

Maraldaş sahəsi – Kəlbəcər rayonunun ərazisində qeydə alınmış coğrafi adlardan biri belə adlanır.

Marallı düz – Füzuli rayonunda qeydə alınmış oronim.

Maraltəpə – Xocavənd rayonunun ərazisində, rayon mərkəzindən 5 km aralıda qeydə alınan zooronimlərdən biri ***Maraltəpə*** adlanır.

Maraluçan qaya – Kəlbəcər rayonunun ərazisində qeydə alınan qaya.

Mardarıx dərəsi – Cəbrayıl rayonunda, Qazanzəmi kəndinin yaxınlığında, Cimi dərəsinə gedən yolun üstündə qeydə alınan oroqrafik obyekt ***Mardarıx dərəsi*** adlanır.

Markuşin dağı – Yuxarı Qarabağda, Xocavənd rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Markuşin dağı*** adlanır. ***Markuşin*** oronimi türk dillərindəki ***mar*** və ***keşin*** sözlərinin birləşməsindən əmələ gəlmişdir. ***Mar*** sözü "*təpə*" anlamındadır. Oronimin tərkibindəki ***keşin*** (***kuşin***) termini isə "*düşərgə*", "*dayanacaq*" deməkdir. ***Markuşin*** toponimi "*düşərgə, dayanacaq olan təpə*" mənasındadır.

Maşabbas qayası – Ağdam rayonunun Abdal-Gülablı kəndləri yaxınlığında qeydə alınan coğrafi ad.

Mazan Nənə ocağı – Araz çayının sol sahilində, Cəbrayıl rayonu ərazisində, Stansı Xələfli kəndindən 5 kilometr aralıda, Diridağın zirvəsində qərar tutan ***Mazan nənə*** (*bu ad bəzən* ***Mazannənə*** *formasında, bitişik də yazılır*) ***ocağı*** lap qədim çağlardan ünlü Diri kəndinin

sığınacaq yeri olmuşdur. Deyilənə görə, ***Mazannənə piri*** tarixən mövcud olmuş madərşahlıq dövrünün abidəsidir. Bu ***pir-ocaq*** dördkünc şəkildə 3,5 – 4 metr ölçülərdə olan tikilidən ibarətdir. Abidənin yaxınlığında indiyədək nişanələri qalan qədim yaşayış məskəni – *Mazannənə kəndi* (bəziləri onun *Diri kəndi* adlandığını iddia edirlər) mövcud olmuşdur. Bir məlumata görə, XVI əsrdə yaşamış məşhur aşıq Dirili Qurbani ***Mazannənə*** ocağında yatarkən ona buta verilmişdir. Bu kəndin ətrafındakı qədim qəbiristanlıqda sinə daşı üzərində "*Əziz ibn Seyyid Əl-Məhəmməd*" sözləri yazılmış qəbir (*buradakı qəbrin üzərində doğum və ölüm illəri - hicri 750–809 rəqəmləri yazılmışdır*), eləcə də buradakı digər qəbirlər bu yerlərin ən qədim sakinlərinin dədə-babalarımızın – azərbaycanlıların olmasını təsdiq edir. ***Mazannənə piri*** ilə bağlı çoxlu əfsanələr, rəvayətlər qoşulmuşdur.

Mehdi bərəsi – Cəbrayıl rayonunun ərazisində qeydə alınan coğrafi ad.

Mehdinin bağı – Xocavənd rayonunda, Qaradağlı kəndi ərazisində qeydə alınan oroqrafik obyekt.

Mehdiuçan qaya – Şuşa rayonunun Malıbəyli kəndi yaxınlığında qeydə alınan qaya. Quşçular kənd sakini ***Seyid Mehdi*** adlı bir şəxs at ilə qayanın bir cığırından keçərkən sürüşüb yıxılmış, şikəst olmuşdur. O zamandan həmin qayanın adı ***Mehdiuçan qaya*** formasında "tarixiləşmişdir".

Mehmana polimetal yatağı – Kəlbəcər rayonunun ərazisində, Mehmana kəndi yaxınlığında, dəniz səviyyəsindən 1100-1300 metr yüksəklikdə yerləşən yataq. ***Yataq*** şimal-qərb istiqamətli antiklinal qırışıqla əlaqədardır. Yatağın geoloji quruluşunda Bayos-Bat yaşlı süxurlar iştirak edir. Damar tipli yataqda əsas filiz mineralları qalenit və sfaleritdir. Yatağın filizləri tərkibindəki sink və qurğuşunun miqdarından asılı olaraq xalis sink, xalis qurğuşun və sink-qurğuşun filizlərinə ayrılır. ***Mehmana polimetal yatağının*** filizləri selektiv flotasiya ilə asan saflaşandır.

Menhirlər – Xocalı rayonunun ərazisində, Xocalı qəbiristanlığının yaxınlığında, köhnə qəbiristanlığın sahəsində qeydə alınan oroqrafik obyektlərdən biri də ***Menhirlər*** adlanır. ***Menhir*** – torpağa dikinə basdırılmış uzunsov bütöv iri daşlardan ibarət sadə meqalit tikililərin bir növüdür. Adətən onların hündürlüyü 4-5 metr, bəzən isə daha çox olur. İngilis dilində ***menhir*** sözü ***men*** ("*daş*") və ***hir*** ("*uzun*") komponentlərindən ibarət olub, "*uzun daş*" anlamını ifadə edir. *Menhirlərin* ətrafından adətən, heyvan sümükləri, saxsı qab qırıqları, ocaq yerləri və s. aşkar edilir. Çox güman ki, ***menhirlər*** bir zaman sitayiş obyektləri olmuşlar. Menhirlərə ən çox Avropanın şimal-qərbində, eləcə də Asiya (*o cümlədən, Sibir və Qafqazda*) və Afrikada təsadüf olunur. Avropada menhirlərin əsas vətəni Böyük Britaniyadır; buradakı bəzi menhirlərin ağırlığı 50-60 tondur. Azərbaycanda ***menhirlər*** ən çox qədim Xocalı qəbiristanlığında aşkar edilmişdir. Buradan aşkarlanan ***menhirlər*** nisbətən kiçikdir. Ehtimal ki, bu ***menhirlər*** qəbilə quruluşu zamanı ölən şəxslərin qəbirləri üzərində dik basdırılmış heykələbənzər daşlardır.

Merdinli məhəlləsi – Şuşa şəhərinin yuxarı məhəllələrindən biri. Bəzi sənədlərdə məhəllənin adını ***Mərdinli*** formasında da qeyd edirlər. Qaynaqlara nəzər etsək, görərik ki, ***merdinli*** nəslinə mənsub olan insanlar mərd, qoçaq, igid, qorxmaz olmuşlar. "Tarixin atası" hesab olunan Herodota görə, ***Mərdi*** tayfaları miladdan əvvəl İran ərazisində, Xəzər sahillərində yaşamışlar. Hətta, Qavqamel döyüşündə (*miladdan öncə 331-ci il*) *mərdilər* də fars ordusu tərkibində albanlar, kadusılər və kirkanlarla bir sırada vuruşmuşlar. ***Merdinli*** toponiminə XIX əsr salnaməçisi Mirzə Yusif Qarabağinin "Tarixi-safi" əsərində də rast gəlirik. Şuşadakı ***Merdinlilər məhəlləsi*** Qutluqçuxur, Hacı Yusifli, Cühudlar məhəllələrinin yaxınlığında salınıb.

Meydan – Şuşa şəhərində küçə-məhəllə. Şuşa şəhərinin demək olar ki, bütün küçələri enişyoxuşludur; amma 3 küçəsi eninə uzandığı üçün tam düzdür. Bunlar Rastabazar, Şeytanbazar və

Merdinli küçələridir. Bu küçələrin ən böyüyü olan Rastabazar küçəsində hazır paltar, ayaqqabı, çəkməçi, dərzi, qəssab, tərəvəz və meyvə dükanları vardı. Bura şəhərin yeganə və iri ticarət mərkəzi sayılırdı. Rastabazarın başlanğıcındakı sahəyə Bazarbaşı (*bazar buradan başlandığı üçün belə deyirdilər*), qurtaracağındakı nisbətən böyük sahəyə isə ***Meydan*** deyilirdi. Gövhər ağanın vaxtilə bərpa etdiyi Böyük Cümə məscidi ilə Mərkəzi bazarın qarşısında olan bu sahə ***Meydan*** adlanırdı. Bir qədər geniş olduğu üçün yerli camaat bu sahəyə *Meydan* deyirdi.

Meydan düzü – Xocalı rayonunun ərazisində, Qarabağ silsiləsinin ətəyində qeydə alınmış oronim.

Meydan yaylağı – Qarabağ silsiləsinin ətəyində, Xocalı rayonunun ərazisində, Meşəli kəndinin yaxınlığında, rayon mərkəzindən 25 kilometr məsafədə qeydə alınan oroqrafik obyektlərdən biri ***Meydan yaylağı*** adlanır.

Meynətəpə – Füzuli rayonunun ərazisində qeydə alınmış qədim yaşayış yeri. Meynətəpə rayon mərkəzindən 6 km şimal-şərqdə, Köndələn çayının sağ sahilində yerləşir. Tarixi bilgilərdən aydın olur ki, orada ilk tunc dövründə yaşayış yerləri olmuşdur. ***Meynətəpə*** müxtəlif formalı üç ayrı-ayrı təpədən ibarətdir. Birinci təpə planda dairəvi olub, 1,5 metr hündürlükdədir; onun diametri 60 metrdir. İkinci təpə birincidən 18 metr şərqdə yerləşir. Onun uzunluğu 140 metrdir. Hündürlüyü çay yatağından 20 metrdir. Bu təpənin oturacağı düzbucaqlı şəklindədir. Üçüncü təpə planda üçbucaq formalı olmaqla, ikinci təpədən 28 metr şərqdə yerləşir. Onun hündürlüyü 4 metrdir. Üçüncü təpə ikinci ilə demək olar ki, eynidir. Tədqiqatlar nəticəsində sübut edilmişdir ki, ***Meynətəpə*** tunc dövrü qədim yaşayış yerində bütün *3* minillik boyu yaşayış davam etmişdir. ***Meynətəpə*** ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidəsi hesab olunur.

Məbəd – Xanabad kəndinin ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri XIII əsrə aid olan ***Məbəd*** adlanır.

Mədəd bağı – Füzuli rayonunun Yal Pirəhmədli kəndi ərazisində qeydə alınmış oronim.

Mədət bağı – Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyekt.

Məhəmməd ağanın otağı – Xocalı rayonunda, Kosalar kəndinin ərazisində qeydə alınan oroqrafik obyekt.

Məhəmməd ocağı – Cəbrayıl rayonunda, Soltanlı kəndinin köhnə yurd yerində, Soltanlı-Əmirvarlı kəndlərinin arasında, dəmir yolunun üstündəki İpək bağının küncündə yerləşirdi. ***Ocaq*** qara dam yerindən ibarət idi. Damın qazma yerində üstünə Quran ayəsi yazılmış daş parçaları vardı. Soltanlı kəndinin əhalisi buranı ***inanc ocağı*** kimi əziz tutar, tez-tez ziyarət edərdi.

Məhərrəmin bağı – Xocavənd rayonunda, Axullu kəndi ərazisində qeydə alınan oronim.

Məmməd yurdu – Laçın rayonunun Dəyhan kəndi ərazisində qeydə alınmış coğrafi ad.

Məmmədhüseyn məscidi – Cəbrayıl rayonunun Hovuslu kəndinin köhnə yerində, kiçik təpə üzərində, Hacı Seyid çevirməsi ilə üzbəüzdə daş hasara alınmış yurd yeridir.

Məmmədin bağı – Xocavənd rayonunda, Qaradağlı kəndi ərazisində qeydə alınan coğrafi ad.

Məmmədoynayan yal – Laçın rayonunda, Vağazin kəndi ərazisində qeydə alınan coğrafi ad.

Məngələnata dağı – Füzuli rayonunun ərazisində, Xocavənd və Füzuli rayonlarının sərhədi yaxınlığında qeydə alınan oronimlərdən biri ***Məngələnata dağı*** adlanır. ***Dağ*** özünün ən hündür yerində indi də xarabalığı qalan orta əsr abidəsi ***Mingələn*** (***Məngələn***) ata adlı qəbir-pirin adını daşıyır. Dağın zirvəsində hansı materialdan və necə tikildiyi məlum olmayan məbəd və qəbirlər var.

Mənsur yalı – Xocavənd rayonunun ərazisində qeydə alınmış yal.

Mərcanlı yatağı – Cəbrayıl rayonunun ***Miraq*** (***Mirək***) ***kəndi*** ərazisində qeydə alınmış yataq.

Mərcimək – Laçın rayonunun Ağcakənd kəndi ərazisində qeydə alınıb.

Mərəçüyüdlük – Xocavənd rayonunda, Salakətin kəndinin ərazisində qeydə alınan oroqrafik obyekt.

Mərəklər – Xocavənd rayonunun ərazisində qeydə alınmış oroqrafik obyekt.

Mərənlik – Cəbrayıl rayonunun Dağ Tumas kəndi yaxınlığında, Üçtəpə deyilən yerin yanında, Anbar daşı adlanan sahəyə qədər uzanan ərazidə qeydə alınan oronim.

Mərmər piri – Cəbrayıl rayonunun ərazisində, Mazan nənə qəbrindən cənub-şərqdə, Araz çayının sahili yaxınlığında qeydə alınmış oroqrafik obyektlərdən biri ***Mərmər piri*** adlanır. Bəzən adına ***Sarı Mərmər*** və ya ***Mərmər yel piri*** də deyərdilər. Bu ***pir*** əhali tərəfindən əziz və müqəddəs tutulurdu. Bu pirə əsasən ***yel*** xəstəliyinə mübtəla olanlar gələrdilər. Kim *yel* xəstəliyinə düçar olardısa, *yel* qurudardısa, *Mərmər yel pirinə* gedərdi.

Mərmərik piri – Cəbrayıl rayonunun ərazisində, Dağtumas kəndindən Çaytumas kəndinə gedən piyada yolunun gündoğan tərəfində, Başıkəsik günbəzin altından keçən kanalın 40 metrliyində qeydə alınan oroqrafik obyekt ***Mərmərik piri*** adlanır. ***Mərmərik piri*** dibində daş qalağı olan ***mərmərikli*** qaramıx kolundan ibarət olduğu üçün belə adlandırılmışdır.

Mərözəli düz – Qarabağ silsiləsinin ətəyində, Xocalı rayonunun ərazisində qeydə alınan oronim.

Məscid təpəsi – Cəbrayıl rayonunda, Qalacıq kəndi ərazisində qeydə alınan oronim.

Məscid yeri – Xocavənd rayonunun Axullu kəndi yaxınlığında, kənddən 3,5 kilometr aralıda, körpüdən 100 metr sağda, Bəzirgan yolunun sol tərəfində qeydə alınan coğrafi adlardan biri də ***Məscid yeri*** adlanır.

Məscid yeri – Kərkicahan qəsəbəsində qeydə alınan coğrafi ad.

Məşədi Abbas və Məşədi Əşrəfin bağları – Şuşa rayonunun Malıbəyli kəndi ərazisində qeydə alınan bağlar.

Məzməzək dağı – Laçın rayonu ərazisində yerləşən dağ. Bəzi coğrafi ədəbiyyatlarda adı səhv olaraq ***Mazmazaq*** kimi verilmişdir. Toponim vaxtilə Güləbird yaxınlığında mövcud olmuş ***Məzməzək*** kəndinin adını daşıyır. ***Məzməzək*** coğrafi adının etimologiyası hələlik elmi şəkildə tam müəyyən edilməmişdir. Ərəb və fars dillərində ***məzməzə*** sözünün "*dadmaq üçün götürülən nümunə*", "*ağzı yaxalama, qarqara*" mənaları var. ***Məzməzək*** sözünün "*güntumovu*", "*mozalanın heyvanlarda törətdiyi xəstəlik*" və s. anlamları da məlumdur.

Məzrə yatağı – Cəbrayıl rayonunun Məzrə kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Məzrə yatağı*** adlanır.

Mıxtökən dağ silsiləsi – Xocalı rayonu ərazisində, Kərkicahan ilə Şırlan (Şuşa rayonu) kəndi arasında yerləşir. Bu dağ Qarabağ silsiləsi ilə Qarabağ yaylası arasındadır. ***Mıxtökən dağı*** dik və sıldırım olmasına, gediş-gəliş üçün yollarının çətinliyinə görə belə adlanmışdır. Xalq etimologiyasına görə, ***mıxtökən*** toponimi "*at və başqa qoşqu heyvanlarının nalının mıxlarını tökən dağ*" mənasını daşıyır.

Mıxtökən silsiləsi – Kiçik Qafqazda, Qarabağ yaylası ilə Qarabağ silsiləsi arasında, Tərtər və Həkəri çayları hövzələrinin suayırıcısında yerləşən, hündürlüyü 3400 metr olan dağ silsiləsi. Silsilənin maksimal hündürlüyü Dəlidağdır (*3616 metr*). Tabaşir və Poleogenin vulkanogen-çökmə süxurlarından təşkil olunmuşdur.

Minanın bağı – Xocavənd rayonunda, Qaradağlı kəndi ərazisində qeydə alınan coğrafi ad.

Ming dağı – Laçın rayonu ərazisində yerləşir. Dağın adı vaxtilə burada məskən salmış ***ming/minq*** türkdilli tayfalarının adı ilə bağlıdır. ***Ming/minq*** tayfalarının Azəraycanda məskunlaşması çox güman ki, Əmir Teymurun hücumları ilə əlaqədardır.

Mir Mustafa piri – Cəbrayıl rayonunda, Sarıcalı kəndinin ərazisində qeydə alınmış sitayiş yeri.

Miralılar yalı – Füzuli rayonunun ərazisində qeydə alınmış patronimik oronimlərdən biri ***Miralılar yalı*** adlanır. Patronimik oronim deyəndə nəsil və tirə adlarını daşıyan müsbət və mənfi relyef formalarının adları nəzərdə tutulur.

Miranşah yoxuşu – Cəbrayıl rayonunun Nüzgər kəndi ərazisində qeydə alınmışdır. Toponimin tərkibindəki ***Miranşah*** şəxs adı Əmir Teymurun oğlu *Miranşaha* işarədir. Rəvayətə görə, *Miranşah* vaxtilə bu yoxuşda olmuşdur.

Mirəli türbəsi – Orta əsr memarlıq abidəsi sayılan, Füzuli rayonunun Aşağı Veysəlli kəndində yerləşən bu qülləvari türbə 3 pilləli kürsülük üzərində tikilib. Giriş qapısı türbənin səthindən xeyli irəli çıxmış, baştağ şəklində düzəldilmişdir. Türbənin silindr şəkilli gövdəsi konusvari günbəzlə tamamlanır. Hündürlüyü 17,7 metrdir. Bu türbə də Şeyx Babı və Əhmədalılar türbələri kimi yeraltı sərdabə və yerüstü gövdədən ibarətdir. Türbənin təxminən 9 metrlik yerüstü hissəsini 8,17 m hündürlüyə malik olan konusvari kümbəz, tamamlayır. Gövdə ilə kümbəzi bir-birindən karniz ayırır. Portalın kənarları düzbücaqlı şəkildə məhdudlaşsa da, giriş aşırımı oxvarı tağbənd şəklindədir. Giriş qapısı ilə üzbəüz daxili divarda döşəmə səviyyəsindən 4,33 metr hündürlükdə kiçik pəncərə vardır. Kitabəsi qalmadığından türbənin dəqiq tikilmə tarixi və kim tərəfindən tikilməsi məlum deyildir. Bəzi sənəd və materiallarda türbənin XIV əsrdə tikildiyi göstərilir. Bir çox mütəxəssislər türbənin XIII əsrin sonlarında tikildiyini qeyd edirlər. ***Mirəli türbəsi*** Azərbaycanın ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrindən hesab edilir. Türbə ilə bağlı çoxlu rəvayətlər var.

Mirənşə meşəsi – Cəbrayıl rayonunun ərazisində, Qarağac kəndinin şimal-qərbində qeydə alınan oronimlərdən biri ***Mirənşə meşəsi*** adlanır. ***Mirənşə meşəsi*** iki dərin dərəni birləşdirir. Yerli əhalinin söylədikləri rəvayətə görə Teymurilər dövlətinin hökmdarı olan Əmir Teymurun oğlu ***Miranşah*** öz qoşunu ilə bir müddət bu ərazidə qışlamışdır. Bu səbəbdən də onun qışladığı ***meşə*** ərazisi *Miranşahın* adı ilə adlanmışdır. Toponimin tərkibindəki ***Mirənşə*** sözü ehtimal ki, ***Miranşah*** adının təhrif edilmiş variantıdır.

Miri yatağı – Cəbrayıl rayonunun Quycaq kəndi ərazisində qeydə alınmış yataq.

Mirim evinin ocağı – Cəbrayıl rayonunda, Quycaq kəndinin aşağı hissəsində yerləşir. Bu ***ocaq*** köhnə yurd yeri olmuşdur. Üstünə çovustan vurulan bu evin ortasında əski əlifba ilə yazılmış daş kitabə var.

Mirzalı əminin bağı – Füzuli rayonunun Yal Pirəhmədli kəndi ərazisində qeydə alınan coğrafi ad.

Mirzə Həsən qəbiristanlığı – Şuşanın girəcəyində, "Gəncə qapısından bir az aralıdakı qəbiristanlıq ***Mirzə Həsən qəbiristanlığı*** adlanır. ***Mirzə Həsən Mirzə Gəfər oğlu Vəzirov*** (*Cavanşirlər nəslinin Vəzirlilər qolundandır*) XVIII əsrin sonunda Şuşada doğulub. Çoxlu şeirlər yazmışdır. O, gənc yaşlarında bir qızı sevsə də onların bu sevgisi baş tutmadığından Mirzə Nuxaya köçməyə məcbur olub. Ağır xəstələnən şair vəsiyyət etmişdi ki, onu vaxtilə çox sevdiyi o qızın tez-tez keçdiyi yerdə dəfn etsinlər. Onun cənazəsini Şuşaya gətirib həmin ərazidə, qala divarlarından bir qədər aralıda, yol üstündə basdırırlar.

Mirzəbəyli sex yeri – Xocalı şəhərindən 2 kilometr aralıda qeydə alınmış oroqrafik obyekt.

Mirzəcan dərəsi – Xocavənd rayonunun ərazisində qeydə alınan coğrafi ad.

Mirzəcanlı təpəsi – Cəbrayıl rayonunun ərazisində qeydə alınmış oroqrafik obyekt.

Mirzəmurad bağı – Füzuli rayonunun Babı kəndi ərazisində qeydə alınan oronim.

Molla Abbasqulunun qəbri – Cəbrayıl rayonunda, Qazanzəmi kəndinin ərazisində, qəbiristanlıqda qeydə alınmışdır. Məlumatlara görə, ***Molla Abbasqulu*** Qazanzəmi kəndinin hörmətli, nüfuzlu kişilərindən biri olmuşdur. O, namaz qıldığı yerdə soyğunçular tərəfindən amansızcasına qətlə yetirilmişdir. Molla Abbasqulunun cənazə namazını böyük övliya Şıx Hacı Qasım Çələbi özü qılıb və **Molla Abbasqulu** qəbiristanlığın görümlü yerində dəfn olunubdur.

Molla bağı – Füzuli rayonunun Qacar kəndi ərazisində qeydə alınmış oronimlərdən biri ***Molla bağı*** adlanır. Oronim ***Molla*** və ***bağ*** sözlərindən ibarətdir. ***Molla*** - dini tutuldur. Dini titul bildirən ***molla*** sözü ilə bağlı Azərbaycanda bir neçə coğrafi ad qeydə alınmışdır. ***Molla bağı*** toponimi ***"mollaya məxsus bag", "mollanın saldığı bag"*** anlamındadır. Bu bağın yerləşdiyi ərazidə çoxlu sayda meyvə ağacları əkilmişdir.

Molla dərəsi – Xocavənd rayonunun ərazisində, Axullu kəndinin 1 kilometrliyində, Nərgizlik deyilən ərazinin sol tərəfində qeydə alınan oronim.

Molla gədiyi – Laçın rayonunun Fərəcan kəndi ərazisində qeydə alınmış oronim.

Molla İmranın bağı – Şuşa rayonunun ərazisində qeydə alınan bağ.

Molla Nəsrəddin yolu – Xocavənd rayonu ərazisindən keçərək Füzuli şəhəri ilə Şuşa şəhərini birləşdirən avtomobil yolu el arasında ***Molla Nəsrəddin yolu*** adlanır. O, *Bəzirgan* yolunun əsas qollarından biri hesab olunur. Füzuli şəhərindən Qacar və Qırmızı Bazardan keçməklə Şuşa şəhərinə qədər olan bu kəsə yolun uzunluğu cəmi *50* kilometr idi. Bu ***yol*** qısa olduğu üçün camaat onu ***Molla Nəsrəddin yolu*** adlandırmışdır. Yolun bir hissəsi də Xudafərin körpüsü istiqamətində uzanır. Yolun belə adlanması ilə bağlı müxtəlif rəvayətlər uydurulmuşdur.

Moruqlu yal – Cəbrayıl rayonunda, Qazanzəmi kəndinin yaxınlığında qeydə alınan coğrafi ad.

Motal qaya – Laçın rayonunun Hocaz kəndi yaxınlığında qeydə alınmış qaya. Həmin ***qaya*** daşları xarici görünüşünə görə ***motala*** oxşadığı üçün bu oroqrafik obyekt belə ad almışdır.

Mövlaqulu yeri – Cəbrayıl rayonunda, İncə çayının günbatanında, Dağ Tumas kəndinin yaxınlığında, Cədə yolunun üstündə qeydə alınan oronim.

Muxranes dağı – Xocavənd rayonunun ərazisində, Susalıq kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Muxranes dağı*** adlanır.

Muncuqlu yal – Cəbrayıl rayonunun Papı kəndi ərazisində qeydə alınmış oronim.

Muncuqtapılan yal – Cəbrayıl rayonunun Qalacıq kəndi ərazisində qeydə alınan oroqrafik obyekt.

Murad burnu – Cəbrayıl rayonunda, Qalacıq kəndinin ətrafında qeydə alınan oroqrafik obyekt.

Muradxan xırmanı – Zəngilan rayonunun ərazisində qeydə alınan oroqrafik obyekt.

Muradlı bağı – Füzuli rayonunun Sərdarlı kəndi ərazisində qeydə alınan oroqrafik obyekt.

Murğuzlu yalı – Füzuli rayon mərkəzindən 3 kilometr cənubda, Qarabağ silsiləsi ətəklərində yerləşir. Bəzi ehtimallara görə yüksəkliyin adı ona görə belə adlanmışdır ki, həmin ərazidə taxıllar fəsiləsindən olan və sucaq yerdə bitən qarğıya bənzər ***murğuz*** bitkisi yayılıb. ***Yal*** komponenti müsbət relyef forması bildirən coğrafi termindir.

Murov zirvəsi – Kəlbəcər rayonunun ərazisində, Kiçik Qafqaz dağ silsiləsində ən yüksək zirvələrdən biri. Hündürlüyü 3343 metrdir. ***Murov*** adını ilk dəfə XIII əsr alimi, coğrafiyaşünas Zəkəriyyə Qəzvini işlətmişdir. Toponimin dəqiq mənası elmi şəkildə hələlik tam müəyyənləşdirilməmişdir.

Murovdağ silsiləsi – Kəlbəcər rayonunu da əhatə edən dağ silsiləsi. Kiçik Qafqazda olan dağ silsiləsidir. O, Kiçik Qafqazın ən iri qalxma sahələrindəndir. Silsilənin maksimal hündürlüyü 3724 metrdir (*Gamışdağ, Camışdağ*). Bu dağ silsiləsi Şahdağ silsiləsindən Tərtər çayının dərəsinədək en istiqamətində uzanır. Burada qədim buzlaq relyef formaları yayılmışdır. Şimal yamacları cənub yamaclarına nisbətən az meyllidir. ***Murovdağ silsiləsi*** əsasən Yura, Tabaşir və Paleogenin vulkanogen-çökmə süxurlarından təşkil olunmuşdur. Silsilə ***Murov*** zirvəsinin adı ilə əlaqədar olaraq belə adlanmışdır.

Murtuza türbəsi – Füzuli rayonunun Kürdlər kəndinin qəbiristanlığında qeydə alınan türbə ***Murtuza türbəsi*** adlanır. Bu qəbirüstü abidə Kürdlər kənd sakini ***Murtuza Dadaş oğluna*** məxsusdur. O, XIX əsrin ikinci yarısı - XX əsrin 30-cu illərində ömür sürmüşdür. Türbənin divarları yer səviyyəsindən yuxarı qalxdıqca yığıldığından, onun ümumi görünüşü günbəzvari səciyyə daşıyır. İri daşlar türbənin hörgüsünə təbii qoyulsa da, mərkəzə tərəf meyillənən səliqəli küncləri onu xüsusilə yaraşıqlı göstərir. **Murtuza Dadaşoğlu türbəsi** 1931-ci ildə inşa edilib. Yerli təbii əhəng daşından tikilmiş bu abidə dördkünc plana malikdi. Ümumi görünüşü kümbəzvari olan bu türbənin girişi üzərindəki sal daşda əski əlifba ilə burada dəfn olunmuş **Murtuza Dadaş oğlunun** adı və türbənin inşa tarixi (*hicri tarix-1350-ci il*) göstərilmişdir.

Musa dərəsi – Xocavənd rayonunun Qaradağlı kəndi ərazisində qeydə alınan coğrafi ad.

Musaəkən – Cəbrayıl rayonunda, Dağ Tumas kəndinin yaxınlığında, Aralıq dərəsinin gündoğanında, Tumas Ata ocağının cənubunda, dağətəyi ərazidə qeydə alınan oroqrafik obyekt.

Mustafa körpüsü – Cəbrayıl rayonunun ərazisində, kiçik axını olan çay üzərində qeydə alınan oroqrafik obyekt.

Mustafanın mülkü – Xocalı rayonunda, Kərkicahan qəsəbəsi ərazisində qeydə alınan oroqrafik obyekt.

Müsül yurdu – Xocalı rayonunun ərazisində, Qarabağ silsiləsində qeydə alınan oroqrafik obyekt.

Müşkül-Ata qəbri – Cəbrayıl rayonunun Yarəhmədli kəndinin köhnə qışlaq yerindəki məhəllədə qeydə alınmışdır. Yerli camaat tərəfindən əziz tutulan bu ***qəbir*** daş hasara alınmışdır. Qəbirin üstündə qaratikan kolları ilə əhatələnmiş saqqız ağacı vardı. ***Müşkül*** sözü ərəb dilində "*çətin*", "*əngəl*", "*ağır*" anlamlarını ifadə edir. ***Müşkül-Ata qəbri*** ilə bağlı yerli əhali tərəfindən çoxlu rəvayətlər qoşulmuşdur.

Nağara təpəsi – Füzuli rayonunun Babı kəndi ərazisində qeydə alınan oronimlərdən biri ***Nağara təpəsi*** adlanır.

Nağı meşəsi – Xocavənd rayonunun Qaradağlı kəndinin 3 kilometrliyində qeydə alınan coğrafi ad.

Nahid tapı – Xocavənd rayonunun ərazisində qeydə alınmış oroqrafik obyekt.

Naxışlı yoxuş – Cəbrayıl rayonunda, Dağ Tumas kəndinin yaxınlığında qeydə alınan oronim.

Nalbənd qayalı təpəsi – Cəbrayıl rayonunda, Qalacıq kəndinin yaxınlığında, qədim qəbiristanlığın ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Nalbənd qayalı təpəsi*** adlanır.

Namaz ölən yol – Xocavənd rayonunun Qaradağlı kəndi yaxınlığında qeydə alınan oroqrafik obyekt.

Namazalı dağı – Füzuli rayonunun Qobu Dilağarda kəndi yaxınlığında, rayonun şimal hissəsində qeydə alınan oroqrafik obyekt. Adına bəzən sənəd və materiallarda ***Namazqala dağı*** kimi də rast gəlinir. Bu dağın maksimal hündürlüyü 348 metrir. Dağın ***Namazqala*** adlanması ilə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur. Bəzi araşdırıcılar ***Namazqala dağı*** coğrafi adındakı ***Namaz*** komponentini adam adı kimi, bəziləri isə ***namaz qılmaq*** kimi əsaslandırmağa çalışır.

Narqucaq mülkü – Füzuli rayonunun Qoçəhmədli, Arış və Sərdarlı kəndləri yaxınlığında qeydə alınan coğrafi adlardan biri ***Narqucaq mülkü*** (yerli əhali tərəfindən ona ***Narküçək*** də deyilir) adlanır. 1797-ci ildə Ağaməhəmməd şah Qovanlı - Qacarın Qarabağda yandırdığı kəndlərin sırasında müxtəlif tarixi sənəd və materiallarda Sərdarlı, Arış və Qoçəhmədlinin də adı var. ***Narqucaq mülk yeri*** bu ərazidə şah tərəfindən Teymurazbəyuşağına bağlı olan nəslə verilmişdir.

Narlı dərə – Ağdam rayonunun ərazisində qeydə alınan dərə.

Navatxan dağı – Xocalı rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Navatxan dağı*** adlanır. ***Navatxan dağı*** vaxtilə burada *Navatxan* (əslində ***Nabatxan***) adlı şəxsin yaylaq yurdu olmasına görə belə adlanmışdır.

Nazik dərə – Laçın rayonunda qeydə alınmış dərə.

Nəcəfqulu piri – Cəbrayıl rayonunda, Aşağı Tumas kəndinin üst tərəfində, Başıkəsik günbəzdən 1,5 kilometr qərbdə yerləşən oroqrafik obyektlərdən biri ***Nəcəfqulu piri*** adlanır.

Bu pirin daşdan hörülmüş kiçik hasarı var. Hasarın içərisində *dağdağan ağacı* da var. Verilən məlumatlara görə, ağzı dualı olan ***Nəcəfqulu*** adlı nurani bir kişi dağdan arana qayıdarkən halı pisləşdiyindən burada keçinmiş və ***dağdağan*** ağacının yanındakı bu "*rəmzi*" qəbirdə dəfn edilmişdir. Onun cənazəsi ana vətəninə aparılsa da, dünyasını dəyişdiyi bu nişangah yer ətrafda yaşayan əhali tərəfindən ***pir*** kimi əziz tutulur və ziyarət olunurdu.

Nəhlətdəmə düzü – Cəbrayıl rayonunun Havuslu kəndi ərazisində qeydə alınmışdır. ***Nəhlətdəmə*** sözü ***lənətləmə*** sözünün yerli şivədə tələffüz formasıdır.

Nərgiz piri – Cəbrayıl rayonu ərazisində, keçmişdə mövcud olmuş Pirəsəd kəndinin şimal hissəsindəki dağın ətəyində yerləşir. ***Nərgiz piri*** daş hərləməsi olan ardıc ağacından və ona bitişik olan qaramıx kolundan ibarətdir.

Nərgizli bağ – Füzuli rayonunun Sərdarlı kəndində qeydə alınan bağ.

Nərgiztəpə – Xocavənd rayon mərkəzindən 9 kilometr şərqdə, Kuropatkino kəndi yaxınlığında, Ağcabədi rayonu ilə Xocavənd rayonu sərhədi ərazisində qeydə alınmış qədim yaşayış yeri ***Nərgiztəpə*** adlanır. Bu təpənin 1 hektardan çox sahəsi var. Nərgiztəpədən müxtəlif qədim tarixi dövrlərə aid maddi mədəniyyət nümunələri aşkar olunmuşdur. Buradan tapılmış müxtəlif saxsı qabların, bəzək əşyalarının bir qismi *küp qəbirləri mədəniyyəti*, digər hissəsi isə *orta Tunc dövrü mədəniyyətini* (miladdan öncə II minilliyin I yarısı) əhatə edir. Nərgiztəpədə aşkarlanan orta Tunc dövrünə aid materiallar içərisində boyalı və cilalı qablar ***Üzərliktəpə*** maddi mədəniyyət nümunələri ilə oxşarlıq təşkil edir. ***Nərgiztəpə*** tapıntıları müxtəlif tarixi dövrlərin maddi-mədəniyyət nümunələrinə məxsus xarakterik əlamətləri ilə Azərbaycanın digər bölgələrindən tapılmış nümunələrdən fərqlənir. Orta Tunc dövrünə aid olan ölkə əhəmiyyətli arxeoloji abidə hesab olunan ***Nərgiztəpə*** maddi mədəniyyət abidəsi Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən 1116 saylı inventar nümrəsi ilə qeydiyyata götürülmüşdür. Yerli məlumata görə, "*Kitabi-Dədə Qorqud*" dastanında bəhs olunan hadisələrin bəzisi (*Qaraca çobanın qıpçaq Şöylü Məliyin adamları ilə döyüşü, onun nələri isə sapanda qoyub atması və s.*) *Nərgiztəpə* yaxınlığında baş vermişdir.

Nəzərli təpə – Ağdam rayonu ərazisində ***Nəzərli təpə*** adlı 2 dağ qeydə alınmışdır.

Nişanlı qız qəbri – Cəbrayıl rayonunda, Yarəhmədli kəndinin girəcəyində, saqqız ağacının altında qeydə alınan oroqrafik obyektlərdən biri ***Nişanlı qız qəbri*** adlanır. Bu qəbrin büt daşı ilə hərləməsi vardır.

Nohur – Xocavənd rayonunun ərazisində, Ərgünəş dağının ətəyində, düzən yerdə qeydə alınan oroqrafik obyektlərdən biri ***Nohur*** adlanır. El arasında süni sututar sahəyə ***nohur*** deyirlər. Mühüm təsərrüfat əhəmiyyəti olan ***nohurlar*** əsasən, düzənlik yerlərdə çalaların qazılması, bəndlərin tikilməsi yolu ilə yaradılır və o, səth suları və ya yeraltı sularla doldurulur.

Nohur yeri – Xocavənd rayonunun ərazisində, Axullu kəndinin 1 kilometrliyində qeydə alınan oroqrafik obyektlərdən biri ***Nohur yeri*** adlanır.

Nüzgər təpəsi – Cəbrayıl rayonunda, Nüzgər kəndinin yaxınlığında qeydə alınan coğrafi adlardan biri ***Nüzgər təpəsi*** adlanır. Oronim ***Nüzgər*** kəndinin adı ilə əlaqədar olaraq belə adlanmışdır.

Ocaq təpəsi – Füzuli rayonunun ərazisində, Qarabağın Araz ağzı olan Arazbarda, Yağlıvənd oymağında ulularımız tərəfindən adına ***Ocaq təpəsi*** deyilən oroqrafik obyekt qeydə alınıb.

Ocaq tirəsi – Füzuli rayonunun Horadiz kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri də ***Ocaq tirəsi*** adlanır.

Ocaq yeri – Füzuli rayonunun Kərimbəyli kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Ocaq yeri*** adlanır. Yerli və ətrafda yaşayan əhali bu yeri ziyarətgah hesab edir. Əhali tərəfindən bu yer müqəddəs sayılır. Yerli əhali ***Ocaq*** yerinə ***Çinaraltı*** da deyir.

Ocaqqalanan – Cəbrayıl rayonunun ərazisində, Ziyarət dağının zirvəsində qeydə alınan ***Ocaqqalanan*** adlı oroqrafik obyekt cəbrayıllılar tərəfindən müqəddəs tutulan bir yerdir. Burada məbəd də vardır.

Odlaq talası – Laçın rayonunun Sus kəndi ərazisində qeydə alınan coğrafi ad.

Oğuldərə – Laçın rayonunda, Qorçu çayının sahilində, Oğuldərə kəndi yaxınlığında qeydə alınan oronim ***Oğuldərə*** adlanır. Bu ərazidə Oğuldərə adlı kənd də var. Bir fikrə görə, kəndi vaxtilə Türkiyədən gəlmiş ailələr ***Oğru dərəsi*** **(*Oğuldərə*)** adlanan yerdə saldığına görə, kənd də belə adlanmışdır. Bəzi araşdırıcılar ***Oğuldərə*** adındakı ***oğul*** komponentini *"igid, ər, oğul"* mənası ilə izah edir. Bu mənada toponimi *"igidlər məskəni olan dərə"* kimi mənalandırmaq olar.

Oğuz qəbri – Füzuli rayonunun İşıqlı kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri *Oğuz qəbri* adlanır. Bu yer müqəddəs tapınaq yeri hesab olunur. Yerli və yaxın ətrafın camaatı ***Oğuz qəbri*** yerinə gəlib oranı ziyarət edər, niyyət tutub nəzir verərdilər. Deyilənlərə görə bu ***qəbir*** yeri qəhrəman bir ***oğuz*** igidinindir. Azərbaycanda bu tipli tapınaq yerləri çoxdur.

Oğuz təpəsi – Ağdam rayonunun Quzanlı kəndi yaxınlığında qeydə alınmış ***Oğuz təpəsi*** oronimi öz adında maraqlı tarix yaşadır.Təsadüfi qazıntı zamanı buradan tarixin müxtəlif qatlarına aid türk kurqanları (qəbir yerləri) aşkarlanmışdır. Toponimin tərkibindəki ***oğuz*** sözü qədim türk tayfa birliyinin adı ilə bağlıdır, Orxon-Yenisey abidələrində ***Oğuz burun*** kimi adları çəkilir. Mahmud Kaşğari oğuzların 22, F.Rəşidəddin isə 24 tayfadan ibarət olduğunu göstərir. Tarixən ***oğuz*** tayfaları sağ qol bozox və sol-qol üçox adlı 2 qrupa bölünüb. IX əsrin sonu X əsrin əvvəllərində oğuzların əsas hissəsi Sırdəryanın orta və aşağı axarı və Emba ilə Ural çaylarının arasındakı bozqırlarda, şimalda Volqaya, Dona qədər, cənub-qərbdə Manqışlağa, qərbdə isə Xəzər dənizinə kimi geniş ərazidə yaşamışlar. Bu ərazidə X əsrdə ***Oğuz dövləti*** yaranmışdır. Kamak, Xuvarə, Karaçuq, Şuğnak, Cəng, Atlıx, Sütkənd, Sabran, Şalçı, Balac və Ordu şəhərləri də oğuzların olmuşdur. ***Oğuzlar*** tarixən oturaq həyat keçirmiş, əsasən, əkinçilik və balıqçılıqla məşğul olmuşlar. X əsrdə ***oğuzlar*** kütləvi şəkildə İslam dinini qəbul etmişlər. XI əsrdə oğuzların bir qismi Səlcuqların başçılığı ilə Xorasan tərəfdən Yaxın Şərq ölkələrinə *(İran, İraq, Azərbaycan, Anadolu)*, digər hissəsi isə, Aral və Avropaya yayılmışdır. Rus salnamələrində uz, bout, tork adlanan bu etnik qruplara X-XI əsrlərdə peçeneqlər, xəzərlər, Volqaboyu bulqarları ilə döyüşən Kiyev knyazlarının müttəfiqləri sırasında rast gəlinir. ***Oğuzlar*** qüdrətli Səlçuq dövləti yaratmışdılar. XI əsrin 30-cu illərində Azərbaycana gəlmiş oğuz tayfaları burada hələ çox əvvəllər məskunlaşmış başqa türk tayfaları ilə qaynayıb-qarışmış, Azərbaycan xalqının formalaşmasında fəal iştirak etmişlər, Oğuzlar türk, türkmən, qaqauz və qaraqalpaqların etnogenezində də əsas rol oynayıblar. Azərbaycan, türk, türkmən və qaqauz dilləri türk dillərinin *oğuz* dil qrupunu təşkil edir. ***Oğuz*** sözünü ***ok*** ("*boy*, *qəbilə*") -z (cəmlik bildirən ədat) şəklində də təhlil etmək olar. Azərbaycanda Oğuz və Ağstafa rayonlarının adı ***oğuz*** qədim türk tayfa birliyinin adı ilə əlaqədar yaranmışdır.

Orduxan öldürülən yer – Xocalı rayonunda, Kərkicahan qəsəbəsinin ərazisində, qəsəbədən 2 kilometr aralıda qeydə alınan coğrafi adlardan biri ***Orduxan öldürülən yer*** adlanır. ***Orduxan*** əslən Kərkicahandan olan şəxsin adıdır. Onun 10 iyul 1989-cu il tarixdə ermənilər tərəfindən öldürüldüyü ərazi bu hadisə ilə əlaqədar olaraq ***Orduxan öldürülən yer*** adlanmışdır. Həmin vaxt orada Orduxan ilə yanaşı Əli adlı şəxs də öldürülmüşdür; Cəlil adlı digər bir nəfər isə həmin hadisədə yaralanmışdır.

Orta Güney – Füzuli rayonunun Mollavəli kəndi ərazisində, Yal Pirəhmədli və Sərdərli kəndləri yaxınlığında qeydə alınmış oronimlərdən biri ***Orta güney*** adlanır.

Ovçu quyu – Cəbrayıl rayonunda, Dağ Tumas kəndinin yaxınlığında, Qovşudlu kəndinin ərazisindən köhnə El yoluna qədər uzanan ***quyuya*** bənzər böyük çökək düzənlikdə qeydə alınan oronimlərdən biri ***Ovçu quyu*** adlanır.

Oyuqlu dağ – Kəlbəcər rayonu ərazisində yerləşən 2316 metr hündürlüyü olan dağ. ***Oyuqlu dağ*** Tutqunçay ilə Xaçın çayının suayırıcısıdır. Dağda Ayı mağaraları adlanan ***oyuqlar -*** çoxlu təbii mağaralar, kahalar vardır.

Örənsahə - Füzuli rayonunun Qorqan kəndinin yaxınlığında yerli əhali tərəfindən ***Örənsahə*** adlandırılan bir ərazi var. Bu coğrafi ad ***örən*** sözü ilə əlaqədar yaranmışdır.

Örtük daşı – Xocalı-Gədəbəy mədəniyyətinə aid olan abidələrin əksər hissəsini siklop tikililəri təşkil edir. Belə abidələrin bəziləri yüksək təpələrdə, bəziləri isə alçaq dağlarda bina edilir. Bu tikililər yonulmamış iri daşlardan müəyyən bir plana əməl olunmadan, suvaqsız olur. Belə oroqrafik obyektlərdən biri də Xocalı yaşayış məntəqəsinin yaxınlığında, *Xocalı kurqanı* deyilən ərazidə qeydə alınan ***Örtük daşı*** adlanır.

Palantökən dağ silsiləsi, Palantökən yoxuşu – Xocavənd rayonunun ərazisində, Tuğ kəndinin 4 kilometrliyində qeydə alınan oroqrafik obyektlər sırasında ***Palantökən dağ silsiləsi*** və ***Palantökən yoxuşu*** adlı coğrafi adları da qeyd etmək olar.

Palantökən yoxuş – Laçın rayonunun İrçan kəndi ərazisində qeydə alınan oronimlərdən biri ***Palantökən yoxuş*** adlanır.

Palıd ocağı – Füzuli rayonunun Böyük Bəhmənli kəndi ərazisində qeydə alınmış müqəddəs tapınaq yeri. ***Palıd ocağı*** yüzillərdir ki, yerli əhali tərəfindən müqəddəs hesab edilərək əziz tutulur.

Papaq daş – Cəbrayıl rayonunda, Qazanzəmi kəndinin şimal hissəsində, Dolanlar kəndinə gedən yolun üstündə qeydə alınan oroqrafik obyektlərdən biri ***Papaq daş*** adlanır.

Pencərli dərə – Füzuli rayonunun Qarğabazar kəndi ərazisində qeydə alınan oroqrafik obyekt.

Pevaltökən dağı – Xocavənd rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Pevaltökən dağı*** adlanır. ***Pevaltökən*** oronimi ***peval*** ("*beşik*") və ***tökən*** ("*aşan*", "*düşən*") komponentlərindən biarət olub, keçmişdə maldarların köçəri həyatı ilə əlaqədar yaranmışdr.

Pələng dərəsi – Kəlbəcər rayonunun ərazisində qeydə alınmış coğrafi ad. Toponimik araşdırmalardan aydın olur ki, keçmişdə Kiçik Qafqaz meşələrində çox sayda ***pələng*** yaşamışdır.

Pələng dərəsi – Laçın rayonu ərazisində dərə.

Pələng qayası – Kəlbəcər rayonunun ərazisində qaya.

Pənah dəyirmanı – Füzuli rayonu ərazisində, rayon mərkəzindən 15 kilometr şimal-qərbdə, Qacar kəndinin 3 kilometrliyində qeydə alınan oronimlərdən biri ***Pənah dəyirmanı*** adlanır. Yerli məlumata görə toponimin adı ***Pənahalı*** adının təhrif olunmuş formasıdır.

Pəri qalası – Laçın rayonunda qeydə alınan oroqrafik obyekt. Bu qala haqqında belə bir rəvayət var: XIV əsrin sonunda Teymurləng yüzlərlə kəndlər, şəhərlər alaraq Azərbaycana gəlir. Burada da ona itaət etmək istəməyənləri qılıncdan keçirir. Laçın ərazisində yerli əhali yadelli işğalçılara qarşı mübarizəyə qalxır. Əmir Teymur bir sərkərdəsinə ***qalanı*** yandırmağı və müqəssiri hüzuruna gətirməsini əmr edir. Həmin sərkərdə Pərini tutmaq üçün onun üzərinə atılanda qız qılıncla onun ürəyindən vurur. Sərkərdənin ölüm xəbəri Əmir Teymura çatanda o, özü döyüşə atılır. Bir neçə gün davam edən döyüşdə çoxlu insan həlak olur. Cəsur qız ***Pəri*** qalanın ən uca hissəsində rəfiqələri ilə düşmənə qarşı vuruşmanı davam etdirir. Yaralanıb taqətdən düşmüş ***Pəri*** düşmənə təslim olmamaq üçün özünü qayadan çaya atır. O vaxtdan da həmin qalaya ***Pəri qalası*** deyilir.

Pəricahan xanımın bağ yeri – Ağdam rayonunun Əhmədavar kəndi yaxınlığında qeydə alınmış oroqrafik obyektlərdən biri də ***Pəricahan xanımın bağ yeri*** adlanır. Bu ***bağ*** məşhur mülkədar Səməd bəyin nəvəsi, dövrünün tanınmış ziyalısı ***Pəricahan*** xanımın adı ilə bağlıdır.

Pırıxlı – Xocavənd rayonunun ərazisində, Tuğ kəndinin yaxınlığında qeydə alınan coğrafi adlardan biri ***Pırıxlı*** adlanır. Bu coğrafi ad ilə bağlı yerli əhali müxtəlif rəvayətlər danışır. Ümumiyyətlə, ***Pırıxlı*** sözü ilə əlaqədar çoxlu fikir və mülahizələr mövcuddur. Hətta toponimin tərkibindəki ***pır*** komponentini ***pir*** sözü ilə də bağlayanlar var. Toponimin tam elmi izahı hələlik verilməmişdir.

Pir – Füzuli rayonunun Horadiz kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Pir*** adlanır. Pir - dini etiqad və inamla bağlı ibadət yeridir. Azərbaycanda pirlərin miladdan öncəki (*III-I əsrlər*) dövrünü araşdırmış görkəmli tədqiqatçı Zelik Yampolski yazır ki, Azərbaycanın qədim və müasir əhalisi arasındakı etnik əlaqənin qırılmazlığı, etnik ardıcıllığın pozulmazlığı pirlər üzərindəki elmi tədqiqatda aydın görünür. O, qeyd edir ki, *qədim Misir piramidası* ***pereme*** *("müqəddəs təpə"*) sözü ilə əlaqədar yaranmış ifadədir. Tanrıçılıq dünyagörüşünün ayrılmaz hissəsi olan ***pir-ocaq inanışı*** öz mayasını təbiətdən aldığı üçün sonralar Azərbaycanda yaranan (*Atəşpərəstlik*) və buraya kənardan gətirilən (*Xristianlıq, İslam*) dinlərin təsirinə də məruz qalmışdır.

Pir – Xocavənd rayonunun *Tuğ, Edilli* və *Qaradağlı* kəndlərinin ərazilərində, eləcə də vaxtilə mövcud olmuş Bəhrəmli kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Pir*** adlanır.

Pir ardıc – Cəbrayıl rayonunda, Qazanzəmi kəndinin ərazisində, kəndin kənarında Qırmızı qayanın ətəyində qeydə alınan oroqrafik obyekt ***Pir Ardıc*** adlanır. Bu ***pir*** dibində daş qalaqlığı olan ***Ardıc*** ağacından ibarətdir.

Pir dərəsi – Cəbrayıl rayonunda, Qumlaq kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Pir dərəsi*** adlanır. Vaxtilə ***Pir dərəsi*** ərazisində çoxlu *dağdağan* ağacları olmuşdur. Çərşənbə bayramlarında camaat el adəti ilə yığışıb *piri* ziyarətə gedərdilər. Ziyarət zamanı adamlar ürəklərində niyyət tutaraq ordan yüyrük asar, mismar çalar, çıraq yandırar, pirin böyüründə oturub ağrıyan yerlərinə ağrını götürmək üçün daş düzərdilər. Deyilənə görə pirdə qeybdən çıraq yanardı...

Pirabid qəbri – Cəbrayıl rayonunun Mənsümlü kəndinin ərazisində, kəndin sakini Miqdat İbnisalam oğlunun həyətyanı sahəsində yerləşir. Yerli məlumata görə bu oroqrafik obyekt Hacı Qaraman ilə bir dövrdə yaşamış, onun təmsilçisi kimi ətraf ərazilərdə dini təbliğ eləmiş mömin bir bəndəyə məxsus olan qəbirdir. Onun haqqında müxtəlif əfsanələr də qoşulmuşdur. Onlardan birinin məzmunu təxminən belədir: *Çox zəhmətkeş bir insan olan* ***Pirabid*** *bostan bitkilərini, tərəvəzi həmişə bir qayda olaraq alaqlı yerdə əkib-becərər, həmin sahəni elə hey alaqdan*

təmizləyər, yorulmaq bilməzmiş. Günlərin bir günü Hacı Qaraman onun bu əziyyətini görüb Pirabidə deyir ki, əkinin yerini dəyiş, çünki buralar çox alaqlıdır, özünü bu qədər əziyyətə salma. Pirabid isə cavab verib: "Ya Hacı Qaraman baba, sahədə alaq nə qədər çox bitsə, mənə xoşdur, çünki hər dəfə əyilib qalxanda "Ya Allah!" deyirəm, Tanrıma daha çox zikr edirəm. Mənsümlü kəndinin camaatı ***Pirabid qəbri*** yerini əziz tuturdular.

Pirdağ – Qubadlı rayonunun ərazisində, Qarabağ silsiləsinin cənub- qərbində yerləşən dağ. Həkəri çayının qolları olan Xoşgədik və Kiçik Həkəri çaylarının suayrıcısıdır. Zirvəsinin hündürlüyü 1316 metrdir. ***Ziyarətdağ*** da adlanmışdır. ***Pirdağın*** adı oradakı sitayiş yeri olmuş pirlə bağlıdır. "*Pir*" sözü fars dilində *"nurani qoca, dini icmanın başçısı, müqəddəs"* deməkdir. Azərbaycanda "***Pir***"- ziyarətgahdır.

Pirdağ, **Pir dəyənəyi təpəsi** – *Pir* komponenti ilə bağlı Laçın rayonu ərazisində ***Pirdağ,*** Köhnəkənd kəndi ərazisində isə ***Pir dəyənəyi təpəsi*** oronimləri qeydə alınmışdır.

Pirəbulaq tirəsi – Ağdam rayonunun ərazisində, Mərzili kəndindən cənub-şərqdə, Ağdam-Xocavənd şose yolu kənarında qeydə alınan oronimlərdən biri də mütləq hündürlüyü 416 metr olan ***Pirəbulaq tirəsi*** adlanır.

Pirəməki – Şuşa rayonunun Quşçular kəndindən bir qədər aralı, Kətik dağının ətəyində qeydə alınan oroqrafik obyekt. ***Pirəməki*** toponimi dağın ərazisindəki etiqad, sitayiş yeri olan *pirin* adı ilə əlaqədardır.

Pirəsəd – Cəbrayıl rayonunda, Hacı Qaraman ocağından 1 kilometr məsafədə, Dağtumas – Havuslu yolunun kənarında, Sofulu kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Pirəsəd*** adlanır. Burada el ağsaqqalı, dövrünün nüfuzlu şəxsiyyəti ***Əsəd Sofulu*** dəfn olunmuşdur.

Pirican dağı – Xocavənd rayonu ərazisində qeydə alınmış oroqrafik obyektlərdən biri ***Pirican dağı*** adlanır. Yerli məlumata görə, vaxtilə burada ***Pirican*** adlı kənd də mövcud olmuşdur.

Pişiksatanlar – Şuşada qeydə alınan bu oroqrafik obyekt baş vermiş belə bir hadisə ilə əlaqədardır. Şuşalı Kəblə Mehdi Rastabazardakı dükanında müştəri gözləyirdi. Dükandakı yeyinti məhsullarına siçan toxunmasın deyə, onun tox saxladığı "təlim görmüş" pişiyi də piştaxtanın üstündə oturmuşdu. Bu vaxt yerli bir tacir rus qonaqlarını Şuşa ticarəti ilə tanış etmək üçün ***Rastabazar*** dükanlarını gəzdirirdi. Qonaqlar Kəblə Mehdinin dükanı önündən keçəndə oradakı meyvədən almaq istədilər. Qonaqlardan rus qadını piştaxtanın üstündə oturmuş pişiyi görəndə zənn etdi ki, yəqin pişik də satılır. Qadın dükançıdan pişiyin qiymətini soruşduqda Kəblə Mehdi onun satılmadığını, mallara "keşik çəkdiyini" bildirir. Pişik rus qadınının xoşuna gəldiyi üçün onu bir az oynatmağı xahiş edir. Kəblə Mehdi də onu rus qadınına verir. Qadın pul kisəsindən pul çıxarıb piştaxtanın üstünə qoyur. Kəblə Mehdi bunu gözləmədiyindən qonağı gətirən tacirə deyir kı, a kişi, pulu götürün, ayıbdır, məni biabır eləməyin. Həmin tacirlə Kəblə Mehdi möhkəm dost idilər. O da Kəblə Mehdiyə göz vuraraq "götür, qənimətdir" – deyib dükandan uzaqlaşır. Sən demə, bu hadisəni Şuşanın bir neçə cavan lotuları kənardan izləyirmiş. Ertəsi gün bütün Şuşaya yayılır ki, Kəblə Mehdi rus matışkasına ***pisik satıb***. Elə həmin vaxtdan Kəblə Mehdinin tayfasına ***pişiksatanlar*** ləqəbi "verilib". Yerli şuşalılar həmin ləqəbi bu günədək yaşadırlar.

Rabat – İndiki Xocavənd rayonunun ərazisində vaxtilə Dizaq nahiyəsinə tabe olan yaşayış məntəqələrindən biri ***Rabat*** (*bəzi mənbələrdə* ***Rəbənd***) adlanırdı. **1593**-cü ilə bağlı olan Osmanlı qaynağında kəndin adı çəkilir. **1727**-ci ilə aid olan "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*"

adlı qaynaqda isə yazılır: "*Kənddə heç kim yaşamır. Dənli bitkilərdən əldə olunan gəlir – 6 000 ağça*". XVIII əsrin ikinci yarısı və XIX əsrin əvvəllərində ***Rabat*** kəndinin ərazisində Cəbrayıllı elinin Əbdürrəhmanbəyli obası yerləşmişdir. Kəndin ərazisindən ***Rabat*** adlı arx keçirdi. ***Rabat*** sözü ilə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur. Bartolda görə, bu söz "*at bağlanan yer*" anlamındadır; ***rabat*** sözü "*sərhəd məntəqəsi*", "*istehkam*", "*qala*", "*saxlov*", "*qəsr*" mənalarında da işlədilir. Qafurova görə, X əsrdə ***rabat*** sözü "*yaşayış sarayı*", "*mehmanxana*" anlamında işlənmişdir. Orta əsrlərdə bu söz "*karvansara tipli yaşayış yeri*" mənasını da daşıyıb. Ərəb sözü olan ***rabat*** "*şəhər divarlarından kənarda olan yaşayış məntəqəsi*" mənasındadır.

Ramazanın qara damı – Cəbrayıl rayonunun Sirik kəndi ərazisində qeydə alınan oroqrafik obyekt.

Rastabazar – Şuşa şəhərinin üç tam düz küçələrindən biri və ən böyüyü. ***Rastabazar*** şəhərin lap mərkəzindən keçən küçəsidir. Şəhərin ən böyük və yegana ticarət mərkəzi ***Rastabazar*** sayılırdı. ***Bazar*** sözünün özü də məna etibarı ilə coğrafi ada uyğundur. Hazır paltar, ayaqqabı, dərzi, çəkməçi, qəssab, meyvə-tərəvəz dükanları bu küçədə yerləşirdi. Rastabazarın başlanğıcı *Bazarbaşı*, sonu *Meydan* deyilən sahə idi. Gövhər ağanın vaxtilə bərpa etdiyi *Böyük Cümə məscidi* də ***Rastabazar*** küçəsindədir.

Rəbəd – Füzuli rayonunun Yuxarı Əbdürrəhmanlı kəndi ərazisində qeydə alınan orfoqrafik obyektlərdən biri də ***Rəbəd*** adlanır. Tarixi mənbələrdən aydın olur ki, son orta əsrlərdə bu ərazidə yaşayış məskəni olmuşdur. Bu yerin qaynaqlarda Xırdapara Dizaq mahalının tərkibində olduğu göstərilir. XVIII əsrdə Osmanlı qaynağında və XIX əsrə aid olan kameral sorğu siyahılarında ***Rəbəd* (*Rəbət*)** adına rast gəlirik. Bəzən bu ad sənədlərdə ***Rəbət*** kimi də öz əksini tapmışdır.

Rəsul ziyarətgahı – Cəbrayıl rayonunda, Göyərçin Veysəlli kəndinin ərazisində, qəbiristanlığın yaxınlığında qeydə alınmışdır. Bu ***ziyarətgah*** küfüldən və içindəki daş nişangahdan ibarətdir. Burada vaxtilə öz möminliyi, halallığı ilə seçilən və Şıx Hacı Qasım Çələbinin duyumlu müridlərindən olan ***Rəsul*** adlı böyük nüfuz sahibi yaşamışdır.

Rəsultəpə – Ağdam rayonunun Xındırıstan kəndi yaxınlığında çoxtəbəqəli yaşayış məntəqəsi yeri ***Rəsultəpə*** adlanır. Arxeoloji qazıntılar zamanı buradan müxtəlif dövrlərə aid təsərrüfat küpləri, bardaq, bəmi, xeyrə, cam və s. tapılmışdır.

Ritiş qalası – Xocavənd rayonunun Tuğ kəndi ərazisində qeydə alınmış oroqrafik obyektlərdən biri ***Ritiş qalası*** adlanır. Bəzən adı ***Rtiş qalası*** kimi də yazılır. ***Ritiş qalası*** erkən orta əsrlərə (V-VIII əsrlər) aid tarixi memarlıq abidələrindən hesab olunur. Bu alban dövrü abidəsi qorunan mədəniyyət incilərimiz sırasındadır. Erməni işğalından sonra (***30.10.1991***) bu ***qala*** da dağıntıya məruz qalmışdır. Qalanın ***Ritiş*** adlanması ilə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur. Toponimin bitkin, tam və dəqiq elmi izahı hələlik verilməyibdir.

Rumbahar dağı – Kəlbəcər rayonu ərazisində, Seyidlər kəndindən cənub-qərbdə yerləşən dağ. Xalq etimologiyasına görə, dağın əsl adı ***Rumbaxar*** olmalıdır. Dağın adı onun qədimdə ***Rum*** adlanmış indiki Türkiyə səmtinə, yəni keçmiş ***Rum*** tərəfə baxması ilə əlaqədardır. Dağın adı bir sıra mənbələrdə hətta ***Rumbasar*** da adlanır.

Rus düzü – Cəbrayıl rayonunun Xələfli stansiyası yaxınlığında qeydə alınmışdır. Vaxtilə Rus-İran müharibələrində bu ərazilərdə də döyüşlər olmuşdur. ***Rus düzü*** ərazisi ***rus*** xalqı adı ilə ifadə olunmuş oronimdir.

Rus qəbri yeri – Füzuli rayonunun Horadiz kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri də ***Rus qəbri yeri*** adlanır. Bu toponim vaxtilə orada dəfn olunmuş xristian dininə mənsub ***rus*** millətindən olan şəxs ilə bağlıdır.

Rus tağı – Xocavənd rayonunun mərkəzində, Xocavənd qəsəbəsinin qərb hissəsində qeydə alınan oroqrafik obyektlərdən biri ***Rus tağı*** adlanır. ***Rus tağı*** adlandırılmış bu ərazidə daha çox azərbaycanlılar yaşayırdılar.

Rustak – Xocavənd ilə Vərəndə yaşayış məntəqələri arasında qeydə alınmış coğrafi adlardan biri ***Rustak*** adlanır. M.Kalankatuklu "*Albaniya tarixi*" əsərində bu adı çəkmişdir: "*Bu da Böyük Kolmank vilayətinin **Rustak** mahalında idi*". ***Rustak*** toponimini İran dillərindəki ***rusta*** (*kənd, qəsəbə, bazarı olan mahal mərkəzi*) sözü ilə əlaqələndirirlər. Erkən orta əsrlərdə hökmdarlara məxsus torpaqlara ***rustak*** deyilirdi. XII-XIV əsrlərdə İranda bölgü vahidi ***rustak*** idi. Bəzi araşdırıcılara görə ***Rustak*** toponiminin kökü ***Əziztağ*** olmuşdur ki, bu da dilimizin qədim qatlarında işlənmiş sözlərdəndir. Bu yozumda toponimi "*Əziz tayfasının yaşadığı tağ*" kimi mənalandırmaq olar.

Rzaqulu bəy türbəsi – Xocavənd rayonunun Düdükçü kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Rzaqulu bəy türbəsi*** adlanır. Bu ***türbə*** XIII əsrə aid olan tarixi memarlıq abidələrindən hesab olunur.

Sadınlar dərəsi, Sadınlar qayası – Laçın rayonunda, Qarabağ yaylasında, Sadınlar kəndi ərazisində qeydə alınan oroqrafik obyektlər belə adlanır.

Sağsağan dağı – Laçın rayonunun ərazisində qeydə alınan dağ.

Sağsağan dağ silsiləsi – Xocavənd rayonunun bir hissəsinin də əhatə etdiyi Qarabağın dağlıq ərazisindəki *dağ silsiləsi* ***Sağsağan dağ silsiləsi*** adlanır. ***Sağsağan dağ silsiləsi*** Qarabağ sıra dağlarından şimal-şərq istiqamətində ayrılan qoldur. O, əsasən Xaçın və Qarqar çaylarının suayrıcısını təşkil edir. Bu *dağ silsiləsi* vulkan və çöküntü süxurlarından ibarət olan gözəl yay otlaqlarıdır.

Saqqız piri – Cəbrayıl rayonunda qeydə alınan oroqrafik obyekt.

Saqqızlı – Cəbrayıl rayonu ərazisində, Diridağın ətəyində qeydə alınmışdır.

Saqqızlı məhəlləsi – Füzuli rayonunun Horadiz kəndi ərazisində qeydə alınan oroqrafik obyekt.

Salahan baba piri – Cəbrayıl rayonu ərazisində, Dağtumas kəndinin yaxınlığında qeydə alınan coğrafi adlardan biri ***Salahan baba piri*** adlanır. Yerli məlumata görə, ***Salahan*** şəxs adıdır; o, məşhur övliya Hacı Qaramanın cənazə namazını qılan böyük irfan sahiblərindən olmuşdur.

Salik dağı – Laçın rayonu ərazisində, Kürdhacı kəndində yerləşən dağın adıdır. ***Salik*** oroniminin elmi izahı hələlik dəqiq müəyyən olunmamışdır. Toponimin ərəb variantının **(*salik*)** mənası "*bir yol ilə gedən*", "*bir yolu təqib edən*", "*bir təriqətə mənsub olan*" - deməkdir.

Sandığabənzər baş daşı – Füzuli rayonunun Əhmədalılar kəndi ərazisində qeydə alınan oroqrafik obyekt. Bu baş daşlarının XVII əsrə – 1624-1625-ci illərə aid olması sübut olunmuşdur. ***Baş daşı*** zahiri görkəm etibarı ilə ***sandığa*** bənzədiyi üçün belə adlandırılmışdır.

Sapand daşı düşən yer – Xocavənd rayonunun mərkəzindən 12 km şərqdə, Muğanlı kəndindən 5 km aralıda, Nərgiztəpə yaxınlığında qeydə alınmış toponimlərdən biri ***Sapand daşı düşən yer*** adlanır. Yerli əhalinin söylədiklərinə görə, bu yer Qaraca Çobanın atdığı ***sapand daşı*** ilə əlaqədar olaq belə ad almışdır.

Sarenxart dağı – Xocavənd rayonu ərazisində, rayon mərkəzindən 11 kilometr şimal-qərbdə, Yemişcan kəndi yaxınlığında, Yemişcan və Qarakənd kəndlərinin arasında qeydə alınan coğrafi adlardan biri ***Sarenxart dağı*** adlanır. Sənədlərdə adı bəzən ***Sarenxut*** kimi də yazılır.

Sarı baba ocağı – Füzuli rayonunun Qocəhmədli kəndi ərazisində qeydə alınan oroqrafik obyekt.

Sarı bazı – Füzuli rayonunun ərazisində qeydə alınan oronim.

Sarı qaya – Xocavənd rayonunun ərazisində qeydə alınmış oronimlərdən biri ***Sarı qaya*** adlanır.

Sarı ocaq ziyarətgahı – Cəbrayıl rayonunun Horovlu kəndinin ərazisində, kəndin aşağı başında, dərənin gündoğan yamacında, kənd qəbiristanlığının altında, Pətəki məhəlləsində yerləşirdi. Deyilənə görə ***Sarı*** adlı bir seyid övladı qarlı-şaxtalı qış günü Horovlunun köhnə qışlaq yerinə, Mollalıya çata bilmir; yorulub yarı yolda qalır. Buradakı qara daşın yerinə mıx çalaraq atını burada hörükləyir. Özü də Allahı çağırıb mıxın dibindəcə qış yuxusuna gedir. Gecə bərk qar yağır. Nədənsə atın hörük ipinin radiusu boyunca çevrəyə qar düşmür. Seyid müsafirlərinin bu möcüzəsini görən camaat ***Sarı*** seyiddən nişanə kimi buranı *inanc* ocağına çevirirlər. Qara daşın söykəyinə ələm ağacı basdırılır.

Sarıbaba dağı – Azərbaycanda – Şuşa və Laçın rayonları sərhədində, Qarabağ silsiləsində, Qarqar çayının sol qolu olan Xəlfəli və Həkərə çayının sol qolu olan Bəzirgansu çaylarının mənbə hissələrində yerləşən dağ. Hündürlüyü 2295 metr olan ***Sarıbaba dağı*** subalp çəmənlikləri ilə zəngindir. Dağ Üst Yuranın əhəng daşlarından təşkil olunmuşdur. ***Sarıbaba dağı*** zirvəsindəki ***Sarıbaba pirinin*** adı ilə əlaqədar olaraq belə adlanmışdır.

Sarıbaşlı çökəyi – Laçın rayonunun Bozlu kəndi ərazisində qeydə alınan oroqrafik obyekt.

Sarıbulaq dağı – Kəlbəcər rayonunun ərazisində, Tərtər və Tutqunçay çaylarının suayırıcısında yerləşən dağ.

Sarıburun – Kəlbəcər, Qubadlı və Şuşa rayonlarının ərazilərində qeydə alınmış oronim.

Sarıdağ – Kəlbəcər rayonunun ərazisində qeydə alınmış coğrafi dağ.

Sarıdağ – Qubadlı rayonunun ərazisində qeydə alınmış coğrafi ad.

Sarıdüz – Kəlbəcər rayonunun ərazisində qeydə alınmış coğrafi ad.

Sarıgüney – Kəlbəcər rayonunun ərazisində qeydə alınmış coğrafi ad.

Sarıqaya – Kəlbəcər rayonunun ərazisində qeydə alınmış oronim.

Sarıqaya – Qubadlı rayonunun ərazisində qeydə alınmış coğrafi ad.

Sarıqaya – Şuşa rayonunun ərazisində qeydə alınan oronim.

Sarılar dərəsi – Füzuli rayonu ərazisində, Aşağı Əbdürrəhmanlı kəndi yaxınlığında qeydə alınan coğrafi adlardan biri ***Sarılar dərəsi*** adlanır. ***Sarılar*** sözü ***Hacılı*** icmasına qatılan ***Sarılar obası*** şenliyinin adını özündə əks etdirir. ***Sarılar*** obasının başqa bir adı ***Zeynalabdinbəyli*** (Zeynalabdin bəy İmamqulubəy oğlu Hacılı-Cavanşir) olub. Bu oba XVIII-XIX əsrlərdə Məngələn ata dağından Çimən və Düdükçü kəndlərinə qədər olan ərazidə - Murğuzlu yurdunda binələyirdi. XIX əsrin ikinci yarısında ***Sarılar*** obasının əhalisi Rəbət, Bayram- bəy və Qacar yurdları ilə dövrələnən bir sahəyə köçdü. Bu köçkünlükdən əvvəl onlar Yuxarı Əbdürrəhmanlı kəndinin tərkibində olmuşdur. 1842-ci ildə Murğuzlu torpağında yaşayan və Zeynalabdin bəyə bağlı olan *Sarılar obasının* əhalisi dövlət tərəfindən siyahıya alınıb. Sonralar - 1849, 1863, 1873 və 1886-cı illərdə də belə siyahıyaalmalar olub.

Sarımsaqlı dağ – Kəlbəcər rayonu ərazisində, Qarabağ yaylasında, Tətrər hövzəsi çaylarından olan Keçəldağ çayının sol sahilində, Ermənistan ilə sərhəd yaxınlığında qeydə alınan dağ. Hündürlüyü 3345 metrdir. Dağda qədim buzlaq relyefi formaları olan troq, kar və alp çəmənlikləri var. Oronim ***sarımsaq*** bitkisinin adı ilə bağlıdır.

Sarımsaqlı təpə – Kəlbəcər rayonunda, Başlıbel kəndinin ərazisində, Qarabağ yaylasında, Tətrər hövzəsi çaylarından olan Keçəldağ çayının sol sahilində, Ermənistan ilə sərhəd yaxınlığında qeydə alınan təpə.

Sarıtəpə – Kəlbəcər rayonunun ərazisində qeydə alınmış oronim.

Sarıyal – Kəlbəcər rayonunun ərazisində qeydə alınmış coğrafi ad.

Sarıyal yolu – Xocavənd rayonu ərazisində qeydə alınan oroqrafik obyeklərdən biri ***Sarıyal yolu*** adlanır.

Sarıyarğan – Qubadlı rayonunun ərazisində qeydə alınmış oronim.

Sarıyer-Sərçəli dağ – Kəlbəcər rayonunda dağ.

Sarıyoxuş – Cəbrayıl rayonunda, Tatar kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Sarıyoxuş*** adlanır. ***Sarı yoxuş*** oronimə Dağ Tumas kəndinin yaxınlığında, Dağ Tumas kəndindən Qarağac kəndinə gedən yolun sarı aşırımında da rast gəlirik.

Sarıyoxuş – Füzuli rayonunun Mollavəli kəndi yaxınlığında qeydə alınmış coğrafi adlardan biri ***Sarıyoxuş*** adlanır.

Sarıyoxuş – Kəlbəcər rayonunun ərazisində qeydə alınmış coğrafi ad.

Sarıyoxuş – Qubadlı rayonunun ərazisində qeydə alınmış coğrafi ad.

Sarıyoxuş – Şuşa rayonunun ərazisində qeydə alınan yoxuş.

Sarvanlar dağı – Laçın rayonunun Nurəddin kəndi ərazisində qeydə alınıb.

Sayad təpəsi – Cəbrayıl rayonunda, Qazanzəmi kəndi ilə üzbəüz ərazidə qeydə alınan oroqrafik obyektlərdən biri ***Sayad təpəsi*** adlanır.

Sebinin meşəsi – Xocavənd rayonu ərazisində, Qaradağlı kəndindən bir qədər aralıda qeydə alınan oroqrafik obyektlərdən biri ***Sebinin meşəsi*** adlanır.

Seyfəli bağı – Füzuli rayonunun Babı kəndi ərazisində qeydə alınan oronim.

Seyid Cəlalın ocağı – Xocalı rayonunun ərazisində bir neçə müqəddəs ziyarətgahlar qeydə alınmışdır ki, onlardan da biri ***Seyid Cəlalın ocağı*** adlanır.

Şeyid Əmir körpüsü – Laçın rayonunun Əhmədli kəndi ərazisində qeydə alınmış körpü. ***Körpü*** XX əsrin 70-ci illərində ***Seyid Əmir*** tərəfindən tikilmişdir. Elə bu səbəbdən də o, belə adlandırılıb.

Seyid Fərzəlinin qəbri – Cəbrayıl rayonunda, Papı kəndinin ərazisində, Həcı İmamverdilər məhəlləsinin qəbiristanlığında qeydə alınan oroqrafik obyektlərdən biri Seyid Fərzəlinin qəbri adlanır. Bu qəbir XIX əsrdə yaşamış indiki Füzuli rayonunun Qoçəhmədli kəndindən olan Seyid Həsənin oğlu Seyid Fərzəliyə məxsusdur. Dövrünün böyük nüfuz sahiblərindən biri olan və comərdliyi ilə Qarabağda sayılıb-seçilən ***Seyid Fərzəli*** Papı kəndində yaşamış və burada vəfat etmişdir. Yerli əhali işğala qədər onun qəbrini əziz tuturdu.

Seyid qəbri – Xocalı rayonunun ərazisində, Meşəli kəndi yaxınlığında, rayon mərkəzindən 15 kilometr məsafədə qeydə alınan oroqrafik obyektlərdən biri ***Seyid qəbri*** adlanır.

Seyid qəbirləri – Cəbrayıl rayonunda, Maralyan kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri də Seyid qəbirləri adlanır. Buradakı qəbirlər Seyid Fəttah və Seyid Mehdiyə məxsusdur. Bu seyidlər də Aşıq Pərinin uyuduğu qəbiristanlıqda dəfn olunmuşlar. Bu Seyid qəbirləri erməni işğalına (*1993-cü il*) qədər Maralyan və Karxulu kənd əhalisinin inanc yeri kimi həmişə ziyarət edilmişdir.

Seyid Rza günbəzi – Erməni Təcavüzü nəticəsində Xocavənd rayonunun dağıntıya məruz qalmış mədəni və dini abidələri çoxdur. Onlardan biri də Muğanlı kəndinin ərazisində qeydə alınan ***Seyid Rza günbəzi*** adlanır.

Seyid Rza qəbri – Cəbrayıl rayonunun Çocuq Mərcanlı kəndinə enən asfalt yolun kənarında, dəmiryol keçidinin 50 metrliyində qeydə alınan oroqrafik obyekt ***Seyid Rza qəbri*** adlanır. Yaxınlığında iydə ağacı da var. ***Seyid Rza qəbri*** çəkilliyin kənarında yerləşən tənha, balaca bir ***qəbir*** yeridir. Deyilənə görə kənar eldən olan ***Rza*** adlı bir ***seyid*** övladı burada dünyasını dəyişib və elə burda da dəfn olunubdur. ***Seyid Rza qəbri*** Çocuq Mərcanlı və Mehdili kəndlərinin əhalisi tərəfindən müqəddəs *inanc yeri* kimi əziz tutulur.

Seyidin yurdu – Kərkicahan qəsəbəsinin ərazisində, qəsəbənin 1 kilometrliyində qeydə alınan oroqrafik obyektlərdən biri ***Seyidin yurdu*** adlanır.

Seyidli məhəlləsi – Şuşa şəhərində yuxarı məhəllələrdən biri Seyidli adlanır. Ümumiyyətlə, şəhərin yuxarı hissəsinin tikilməsi, üçüncü mərhələyə – 1805-ci ildən sonrakı dövrə (*birinci mərhələ 1753 – 1754-cü illəri*, *ikinci mərhələ İbrahimxəlil xanın hakimiyyəti illərini əhatə edir*) təsadüf edir. Şuşa qalası tikiləndən sonra buraya bir çox yerlərdən, o cümlədən, Qarabağın bəzi kəndlərindən ailələr gətirilmişdir. Şuşaya gələn ailələr də burada yaşadıqları məhəllələrə, tikdirdikləri evlərə əvvəllər yaşadıqları kəndlərin adlarını qoyurdular. Ağdam rayonunun ***Seyidli*** kəndindən gələn ailələr də (*onların bir qismi **seyid** əsilli idi*) yaşadıqları məhəlləyə ***Seyidli məhəlləsi*** adını vermişlər.

Səbətkeçməz – Qarabağ silsiləsində, Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 22 kilometr məsafədə, Meşəli kəndinin 2 kilometrliyində, Qaragav – Meşəli kəndləri arasında qeydə alınan oroqrafik obyektlərdən biri ***Səbətkeçməz*** adlanır. Həmin ərazi dar keçiddən ibarət olduğuna görə və atlar buranı yüklü keçə bilmədiyi üçün toponim belə ad almışdır.

Səfi kahası – Şuşa rayonunun Malıbəyli kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri də ***Səfi kahası*** deyilən coğrafi addır. Bu ***kaha*** iki böyük qatdan ibarətdir. Kahanın eni bəzi yerlərdə 3 metr, uzunluğu isə 6 metrdir.

Səfixan səngəri – Füzuli rayonunun Araz Dilağarda kəndi yaxınlığında qeydə alınmışdır. Bu ***səngər*** vaxtilə bu ərazidə yaşamış ünlü əmir ***Səfi xan Yağlıvənd-Cavanşirin*** adı ilə bağlıdır. ***Səfi xan*** XVIII əsrin ortalarında yaşamış, zəmanəsinin savadlı adamlarından biri olmuşdur. Dövrünün böyük nüfuz sahiblərindən biri kimi ad çıxarmış ***Səfi xan*** əvvəl Nadir şah Qırxlı-Avşara, sonra Pənahəlı xan Sarıcalı-Cavanşirə xidmət etmişdir. O, Cavanşir elinin Yağlıvənd oymağının kələntəri olmuşdur. Nadir şahın sərkərdəsi olan ***Səfi xan*** Qarabağda öz atlıları ilə döyüşlərdə vuruşmuş, Osmanlılara qarşı döyüşlərdə şücaəti ilə fərqlənmişdir.

Səkkizguşəli türbə – Cəbrayıl rayonunun Xubyarlı kəndi ərazisində qeydə alınmış qiymətli tarixi-memarlıq abidələrindən biri də ***Səkkizguşəli türbə*** adlanır. Cəbrayıl rayonunun Xubyarlı kəndi ərazisində qeydə alınan ***Səkkizguşəli türbə*** adlanan bu qəbirdə dövrünün nüfuzlu şəxsiyyəti dəfn olunmuşdur. Heyf ki, cəbrayıllıların vaxtilə müqəddəs tapınaq yeri hesab etdikləri bu *türbə* də erməni vandalları tərəfindən dağıdılmışdır.

Səlcik düzü – Laçın rayonunun Ərdəşəvi kəndi ərazisində qeydə alınan coğrafi ad.

Səmənd atın nişangahı – Cəbrayıl rayonunda, Hovuslu kəndinin ərazisində, kənd mağazasının qabağında qələmədən bitən çinar ağacının boy atdığı yer ***Səmənd atın nişangahı*** adlanır. Bu ***nişangah*** yer Əli Çələbinin ülfət bağladığı ***Səmənd atının*** ölərkən baratasının qurd-quşa yem olmaması, sür-sümüyünün murdarlanmaması üçün torpağa gömüldüyü sahədir. Hovuslu kəndinin sakini *Səməd Beydulla oğlu* həmin ərazinin tapdanmaması və nişangahın itməməsi üçün vaxtilə o yerə çinar qələməsi sancmış, az sonra həmin qələmə böyüyərək nəhəng bir çinar ağacına çevrilmişdir.

Sənəm qəbri – Cəbrayıl rayonunda, Quşçular kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Sənəm qəbri*** adlanır. Bu oroqrafik obyekt tənha qəbirdən ibarətdir.

Səngər təpə – Zəngilan rayonunda, Pirveyisli kəndinin ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Səngər təpə*** adlanır.

Səngər yalı – Füzuli rayonunun İşıqlı kəndi ərazisində qeydə alınan yüksəklik. Bu toponimlə bağlı yerli əhali müxtəlif rəvayətlər söyləyir. Birinci rəvayət bundan ibarətdir ki, 1905 - 1906-cı illər erməni-müsəlman davası zamanı bu yerlərdə döyüşlər gedən zaman Cavad bəy və onun adamları bu ***yalı*** özlərinə ***səngər*** etdikləri üçün sonralar o yer belə adlanmışdır. İkinci rəvayət isə belədir ki, Cavad bəyin dəstəsi ilə qaçaq Dəsguralı xanın döyüşçü dəstəsi bu ərazilərdə qarşı-qarşıya gələndə Cavad bəygil bu yeri özlərinə ***səngər*** seçmişlər.

Səngər yalı – Qarabağ silsiləsinin yamacında, Qırxqız dağının ətrafında, Xocalı rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Səngər yalı*** adlanır. Yerli məlumata görə, *1905 – 1906* və *1918 – 1920*-ci illərdə erməni hücumlarından qorunmaq üçün azərbaycanlı oğullardan bir neçəsi bu ***yalı*** özlərinə ***səngər*** etmişlər və elə həmin dönəmlərdən az sonra yüksəklik ***Səngər yalı*** kimi *"pasport alaraq tarixiləşmişdir"*.

Səngər yalı – Laçın rayonunun ərazisində qeydə alınan oroqrafik obyekt.

Səngərək – Cəbrayıl rayonunda, Xələfli kəndinin yaxınlığında qeydə alınan maraqlı oronimlərdən biri də ***Səngərək*** coğrafi adıdır. ***Səngərək*** sözünün etimologiyası ilə bağlı

müxtəlif fikir və mülahizələr mövcuddur. Araşdırıcıların bir qismi ***Səngərək*** adını səngər sözü ilə əlaqələndirirlər. Bu toponimi ***səng*** (***sanq, zəngə, zəngi***) sözü ilə də bağlayanlar vardır.

Səngərtəpə yaşayış yeri – Xocavənd rayonunun Qaradağlı kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Səngərtəpə*** adlanır. ***Səngərtəpə*** arxeoloji abidəsi bəzi araşdırıcılara görə antik və orta əsrlər dövrlərinə aid qədim ***yaşayış yeri*** hesab edilir.

Səngir yeri – Füzuli rayonunun Qərvənd kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri ***Səngir yeri*** adlanır. Qədim türk dillərində işlənən ***Səngir*** **(*senqir*)** sözü müasir Azərbaycan dilində işlədilən ***səngər*** sözü ilə eynilik təşkil edir.

Sərdərli məscidi – Füzuli rayonunun Qoçəhmədli inzibati ərazi vahidi sahəsində, Sərdərli kəndinin ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Sərdərli məscidi*** adlanır. Bu ***məscid*** XIX əsrdə inşa edilmişdir. Məscidin ***Sərdərli*** adlanması ərazidə yerləşən ***Sərdərli*** kəndinin adı ilə bağlıdır.

Sərhəd dərəsi – Laçın rayonunun Qaracanlı kəndi ərazisində qeydə alınan coğrafi ad.

Səsli qaya – Laçın rayonunun Lələbağırlı kəndi yaxınlığında qeydə alınmışdır. Bu qayanın yaxınlığında ucadan danışdıqda və ya qışqırdıqda **səs *qayada*** əks-səda verir.

Səsverən qayası – Ağdam rayonunun Xıdırlı kəndi ərazisində qeydə alınan oronim.

Sığnaq zirvəsi – Ağdam rayonunun Maniklu kəndi ərazisində qeydə alınmış coğrafi ad. ***Sığnaq zirvəsi*** toponimi keçmişdə müdafiə məqsədi ilə istifadə olunan *sığınacaq yeri* mənasında işlədilən ***sığnaq*** coğrafi termini ilə əlaqədardır.

Sınıq körpü – Bu tarixi-memarlıq abidəsi Laçın rayonunda, Ağbulaq, Şeylanlı, Katos kəndləri ərazisində, Ağdərə çayı üzərində yerləşir. Bu körpünün min illərlə yaşı var. Körpünün bir hissəsi ***sındığına*** görə, xalq arasında ona ***Sınıq körpü*** deyilir.

Sırxarın – Vaxtilə Qafqaz Albaniyasında, indiki Ağdam rayonu ərazisində mövcud olmuş qədim yaşayış məntəqəsi ***Sırxarın*** adlanırdı. Mənbələrdə adı ***Sirxar*** kimi də çəkilir. M.Kalankatlı *"Alban tarixi"* əsərində bu adı şəhər kimi göstərmişdir. Hansı səbəbdən dağıldığı müəyyən olunmayıb.

Sibir dərəsi – Cəbrayıl rayonunda, Nüzgər kəndinin yaxınlığında qeydə alınan coğrafi adlardan biri ***Sibir dərəsi*** adlanır.

Sirli təpə – Cəbrayıl rayonu ərazisində, Araz Maşanlı kəndindən Xələfli stansiyasına gedən yolun kənarında yerləşir. Təpədən uzunluğu 64 santimetr, diametri 25 santimetr olan səliqə ilə hazırlanmış, ucları bir-birinə geydirilmiş saxsı tünglər tapılmışdır. Bu tapıntılar Qəbələdə aşkarlanmış saxsı tünglərlə eynilik təşkil edir. Tədqiqatlar göstərir ki, bu təpədə uzun əsrlər yaşayış olmuşdur. Burada qədim yaşayış məntəqəsinin olması bir sıra amillərlə sübut olunmuşdur. Xalq arasında oranın ***Sirli təpə*** adlandırılması həmin ərazidən *qəribə* və ***sırli*** əşyaların tapılması ilə əlaqədardır.

Soban daşaşıran qayası – Qarabağ silsiləsində, Xocalı rayonunun ərazisində, rayonun Başkənd kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Soban daşaşıran qayası*** adlanır. Oronim görünür bir qədər təhrifə (***Soban*** – ***Çoban***) uğramışdır.

Sofi Yusif ocağı – Cəbrayıl rayonunun ərazisində, Qumlaq kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Sofi Yusif ocağı*** adlanır. Bəzən onun adını ***Sofu Usuf ocağı*** kimi də yazırlar. *Ocaq* vaxtilə burada yaşayan və ***sufi*** təriqətinə mənsub olan ***Yusifin*** adı ilə əlaqələndirilir. Bu mənada ***Sofi Yusif ocağı*** toponimi "*sufi Yusifə məxsus olan ocaq*" anlamındadır. ***Sofi Yusif*** (***Sofu Usuf***) ilə bağlı çoxlu rəvayətlər, əfsanələr vardır. Deyilənə görə, kimin evinə, tövləsinə, həyətinə ilan girərdisə, gedib Sofu Usufu çağırarmış. O da gəlib cızıq çəkər və dua oxuyarmış. Bu zaman çox tərləyərmiş. İlan da gəlib onun cızdığı dairənin içərisində yatarmış. O da ilanları tutub ya qoynuna, ya da torbasına qoyarmış. Onun hörməti seyidlərdən heç də az deyilmiş.

Sofiya Nənənin yuat yeri – Cəbrayıl rayonunun Çaytumas kəndində, yaşayış məntəqəsinin ortalığında, aralıq yolu üstündəki daş nişangah ***Sofiya nənənin yuat yeri*** adlanır. ***Sofiya nənə*** böyük övliya Şıx Hacı Qasım Çələbinin anasıdır. Deyilənlərə görə, Sofiya nənə Çaytumas kəndində dünyasını dəyişdiyindən onun nəşi burada qüsl edilib kəfənə tutulubdur. Elə bu səbəbdən də yerli əhali bu yeri ***Sofiya nənənin yuat yeri*** kimi tarixiləşdirmişdir. Sofiya nənənin mübarək nəşi isə Hacı Qaraman məzarlığında dəfn edilib.

Sofular piri – Zəngilan rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri də ***Sofular piri*** adlanır.

Sofulu qışlağı – Cəbrayıl rayonunun ərazisində, Arxac dərəsinin gündoğan tərəfində böyük otlaq sahəsi.

Soltan baba türbəsi – Cəbrayıl rayonunun ərazisində, Şıxlar kəndində, Korqaraqışlaq kəndi ilə Hoçaz kəndinin arasındakı sahənin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Soltan baba türbəsi*** adlanır. Əlamətlərindən görünür ki, bu abidə XI – XII əsrlərdə inşa edilmişdir.

Soltan hamamı – Cəbrayıl rayonu ərazisində qeydə alınmış memarlıq abidələrindən biri ***Soltan hamamı*** adlanır.

Soltan Heydər ocağı – Füzuli rayonunun Yalpirəhmədli kəndindən 4 kilometr aralıda qeydə alınan oroqrafik obyektlərdən biri ***Soltan Heydər ocağı*** adlanır.

Soltanbud kurqanı, meşəsi – Ağdam rayonu ərazisində, Xaçın çayının yatağında qeydə alınan oroqrafık obyektlərdən biri ***Soltanbud*** **kurqanı** (bəzən ***Sultanbud*** da yazılır) adlanır. Dağətəyi ərazidə 1,7 min hektar meşə sahəsi (***Soltanbud meşəsi***) var. Bir fikrə görə, ***Soltanbud*** (***Sultanbud***) sözü şəxs adı ilə bağlıdır. Başqa bir mülahizəyə görə isə, bu coğrafi ad ***Soltan*** (şəxs adı) və İran dillərindəki ***bud***/***put*** (*təpə*) sözlərindən yaranıb, "*Soltanın təpəsi*" mənasındadır.

Soltanheydər dağı – Laçın rayonu ərazisində, Kəlbəcər rayonunun İstisu qəsəbəsindən cənubda qeydə alınmışdır. Yerli əhali dağın adını ***Sultanheydər*** formasında tələffüz edir.

Soltanqulu ocağı – Cəbrayıl rayonunda, Çaxırlı kəndinin yaxınlığında, zastavaya gedən yolun solunda yerləşən tut bağının ərazisində qeydə alınmış oronimlərdən biri ***Soltanqulu ocağı*** adlanır. Bəzən adına ***Yel ocağı*** da deyirlər.

Soltanlı bağları – Cəbrayıl rayonunda, Soltanlı kəndinin ərazisində qeydə alınan oroqrafik obyektlərdən bir neçəsi ***Soltanlı bağları*** adlanır.

Söyüdlü dərə – Xocavənd rayonunun ərazisində qeydə alınmış oroqrafik obyekt.

Söyüdlü dərə – Laçın rayonunun ərazisində qeydə alınmış dərə.

Söyüdlü dərə – Şuşa rayonunun ərazisində qeydə alınmış dərə.

Suarası – Şuşa rayonunun ərazisində qeydə alınmış coğrafi ad.

Suqovuşan yer – Qarabağ silsiləsində, Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 2 kilometr məsafədə qeydə alınan toponimlərdən biri ***Suqovuşan*** adlanır. Toponim burada iki çayın (*suyun*) birləşdiyi (***qovuşduğu***) üçün belə ad almışdır. Bəzən həmin yerə ***Çayqovuşan*** da deyilir.

Sultanbəy keçidi – Ağdam rayonunun Abdal və Gülablı kəndləri yaxınlığında qeydə alınan ***Sultanbəy keçidi*** adlanan oroqrafık obyekt XX əsrin əvvəllərində ermənilərə qan uddurmuş, Zəngəzurda, Qarabağda daşnaqlara qarşı vuruşmuş məşhur Xalq Qəhrəmanı ***Sultan bəy Əlipaşa bəy*** (***Paşa bəy***) ***oğlunun*** adı ilə əlaqədar olaraq yaranmışdır.

Susdalıq piri – Cəbrayıl rayonunda, Qazanzəmi və Söyüdlü kəndlərinin arasında, ***Susdalıq*** kövşənində, təpə üzərində yerləşir.

Susuz dağ, **Susuz dərə** – Laçın rayonu ərazisində dağ və dərə.

Susuz dərə – Füzuli rayon mərkəzindən 10 kilometr şimal-şərqdə, çökəklikdə yerləşən dərə ***Susuz dərə*** adlanır.

Susuzluq dağı – Kəlbəcər rayonu ərazisində, Murovdağ sislsiləsinin cənubunda yerləşən dağ. ***Dağ*** öz adını ətəyindəki ***Susuzluq*** dərəsinin adından almışdır.

Susuzluq dərəsi – Kəlbəcər rayonu ərazisində, Murovdağ sislsiləsinin cənubunda yerləşən dərə.

Sutökülən – Bu oroqrafik obyekt Şuşa rayonunda, Malıbəyli kəndinin ərazisində qeydə alınmışdır.

Sutökülən dərə – Cəbrayıl rayonunda, Qalacıq kəndi yaxınlığında qeydə alınan coğrafi adlardan biri ***Sutökülən dərə*** adlanır.

Süleyman qalası – Cəbrayıl rayonunun ərazisində, Dağ Tumas kəndinin yaxınlığında, Tumas dağının cənub silsiləsində, Sulu küfüldən cənubda, mənzərəli bir yerdə qeydə alınan oroqrafik obyeklərdən biri ***Süleyman qalası*** adlanır. Bu ərazidə vaxtilə təbii qayalar ilə əhatə olunmuş qədim yaşayış yeri mövcud olmuşdur.

Süleyman qayası – Cəbrayıl rayonunun Süleymanlı kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Süleyman qayası*** adlanır.

Sümüklü dərə – Xocavənd rayonu ərazisində, rayon mərkəzindən 10 kilometr aralıda, vaxtilə mövcud olmuş Bəhrəmli kəndinin (*bu kənd XX əsrin ortalarınadək müvcud idi; sonradan ermənilərin siyasəti nəticəsində əhalisi müxtəlif ərazilərə köçürülmüşdür*) yaxınlığında qeydə alınmış oroqrafik obyektlərdən biri də ***Sümüklü dərə*** adlanır. Yerli əhali ***Sümüklü*** dərənin belə adlanması ilə bağlı müxtəlif əfsanələr, rəvayətlər danışır. Bir məlumata görə, toponim həmin ərazidə vaxtilə qalaqlanmış halda rast gəlinən ***insan sümükləri*** (*görünür 1905 – 1906-cı illərdə ermənilər öldürdükləri azərbaycanlıların meyitlərini bu dərəyə atmışlar*) ilə əlaqədar olaraq belə ad almışdır.

Sümüktökülən dərə – Kəlbəcər rayonunun ərazisindəki bu dərədə 1905-1906-cı illərdə ermənilər Basarkeçərdən yüzlərlə azərbaycanlını qışın oğlan çağında gətirib vəhşicəsinə

qırmışlar. Bir nəfər də olsun buradan canını qurtara bilməmişdir. Yay gəlib qar əriyəndə, qurd-quş insan cəsədlərini dağıtmışdır. İndi də həmin ***dərə*** insan ***sümükləri*** ilə doludur. Bu ***sümüklər*** ermənilərin vəhşiliyindən xəbər verir. Yerli əhali həmin hadisə ilə bağlı olaraq o vaxtdan bu dərəni ***Sümüktökülən dərə*** adlandırmışdır. Bəzən adına ***Sümüklü dərə*** də deyirlər.

Sünnət yurdu – Şuşa rayonunun Malıbəyli kəndi ərazisində qeydə alınmış oroqrafik obyekt. Əhalinin həmin ərazidə İslamı qəbul etdikdən sonra tez-tez *sünnət* mərasimləri keçirdikləri üçün toponim belə ad almışdır.

Süsən dağı – Bərgüşad silsiləsində, Oxçu çayının sağ sahilində, Zəngilan rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri də ***Süsən dağı*** adlanır. Adı bəzən sənədlərdə ***Süsəndağ*** kimi də qeyd olunur. ***Süsən*** dağının hündürlüyü 1304 metrdir.

Şabandağ – Füzuli rayonu ərazisində, Füzuli şəhərindən 9 kilometr cənubda, Mollavəli və Pirəhmədli kəndləri yaxınlığında yerləşən dağ.

Şafahatın şəftəliyi – Azərbaycan oronimiyasında şəxs adlarından yaranmış çoxlu sayda mikrooronimlər vardır. Onlardan biri də Ağdam rayonunun Abdal kəndi yaxınlığında qeydə alınan ***Şafahatın şəftəliyi*** oronimidir.

Şah Abbas məscidi – Füzuli rayonunun Sərdarlı kəndi ərazisindəki bu ***məscid*** başqa ərazilərdə olan ***Şah Abbas*** məscidləri üslubunda tikilmişdir. Deyilənlərə görə, ***məscid*** XVI yüzilliyin sonlarında Səfəvi hökmdarı ***I Şah Abbas*** tərəfindən inşa etdirilib.

Şah pir – Cəbrayıl rayonunda, Nüsüs kəndinin ərazisində, Zamaxan dağının döşündə qeydə alınan oroqrafik obyekt ***Şah pir*** adlanır. Bu ***pir*** daş hərləmədən ibarətdir.

Şah ocağı – Füzuli rayonunun Yal Pirəhmədli kəndi yaxınlığında qeydə alınan oronimlərdən biri *Şah ocağı* adlanır. Bu ***ocaq*** ətrafda yaşayan yerli sakinlər tərəfindən müqəddəs hesab olunur.

Şah yolu – Füzuli rayonunun Qarğabazar kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Şah yolu*** adlanır. Yerli məlumata görə, vaxtilə ***şahlar*** bu yol ilə hərəkət edərmişlər.

Şah yolu – Xocavənd rayonunda, Muğanlı kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Şah yolu*** adlanır.

Şahbulaq dağ silsiləsi – Ağdam rayonunda, Qarabağ düzündə, eyniadlı kənd yaxınlığında yerləşir. Silsilənin uçub dağılmış hissəsindən cənub-qərbdə maqmatik kütlənin yaratdığı yüksəklik 913 metrdir, yamacları çoxmeylli və kəskin parçalanmışdır. Çox güman ki, mis, polimetal faydalı qazıntıları var. Mənbələrin verdiyi məlumata görə, XVII əsrdə I Şah Abbasın dayandığı (düşərgə saldığı) yer və aradakı bulaq ***Şahbulaq*** adlanmışdır. Qədim Qafqaz Albaniyasının VII əsrdən məlum olan Tuçkatak mahalının (dairəsinin) sonrakı adının ***Şahbulaq*** olduğu ehtimal edilir. Ağdam rayonunun Şahbulaq kəndi yaxınlığında XVII əsrə aid olan qala da var. Bu qalanı Qarabağ xanlığının banisi Pənahəli xan tikdirmişdir. Yeganə giriş yolu şərq tərəfdən olan bu qalanın mazğalının müdafiə divarlarının hündürlüyü 7 m., bürclərinin qəlbiliyi isə 8,5 metrdir. Pənahəli xan öz iqamətgahını Şuşaya köçürdükdən sonra ***Şahbulaq qalası*** tədricən tərk edilib. Əlavə məlumat üçün bax: ***Şahbulaq kəndi***.

Şahqullar yeri – Laçın rayonunun Dəyhan kəndi ərazisində qeydə alınıb.

Şahlı gədik – Füzuli rayonunun Yal Pirəhmədli kəndi ilə Mollavəli kəndləri arasında qeydə alınan oroqrafik obyektlərdən biri **Şahlı gədik** adlanır.

Şahrüvənyal dağı – Xocavənd rayonunun Füzuli rayonu ilə sərhədində Zoğalbulaq (*Xocavənd rayonu*) kəndi ilə Qacar (*Füzuli rayonu*) kəndi arasında, Zoğalbulaq kəndindən 2 kilometr şimal-şərqdə, rayon mərkəzindən 15 kilometr məsafədə, Qarabağ silsiləsində qeydə alınan oronim ***Şahrüvənyal dağı*** adlanır. Onun maksimal hündürlüyü ***746*** metrdir.

Şalvar dərə ağzı – Ağdam rayonu ərazisində qeydə alınan oroqrafik obyekt.

Şapartı – Xocavənd rayonunun ərazisində qeydə alınan toponimlərdən biri ***Şapartı*** adlanır.

Şeyx İbrahim türbəsi – Füzuli rayonunun Aşağı Ayıbasanlı kəndi ərazisində qeydə alınan maraqlı abidələrdən biri də ümumi hündürlüyü 6 metr olan ***Şeyx İbrahim türbəsi*** adlanır. ***Şeyx İbrahim türbəsi*** təbii əhəng daşı ilə səkkizbucaqlı şəklində inşa edilib. Türbənin günbəzi bişmiş kərpiclərdən hörülüb. Günbəzin üst hissəsi ağ rəngli əlvan metal təbəqə ilə səliqəli şəkildə üzlənmişdir. ***Şeyx İbrahim türbəsi*** el arasında ***İbə İbrahim türbəsi*** kimi tanınır. Türbənin giriş qapısında küncləri cilalanmış daşlardan istifadə edilmişdir. Giriş qapısının hündürlüyü 150 sm, eni isə 73 sm-dir. Qapının sol yuxarı küncündəki sal daş üzərinə ağac altında ayaq üstə durmuş qadın və onun yanında isə at şəkli həkk olunmuşdur. XIX əsrin ikinci yarısında türbəyə ziyarət məqsədilə gələnlər üçün giriş qapısı tərəfdən kiçik dəhliz də tikilmişdir. ***Türbə*** 1632-1633-cü illərdə (hicri 1042-ci il) tikilmişdir. Kitabəsində yarıpozulmuş şəkildə *"Allahın Rəsulu Məhəmmədə salam. 1042. Əvəzəli bin Əlimərdan..."* sözləri yazılıb. Zahiri görünüşcə səkkizbucaqlı formada olmasına baxmayaraq, türbənin daxili divarı dairəvi formada, hamar şəkildə, əhəng məhlulu ilə suvanmışdır. İşıqlandırma üçün beş tərəfdə eyni sayda kiçik ölçülü (20 x 40 sm) pəncərə vardır. ***Şeyxin*** məzarı türbənin mərkəzində, döşəmədən 80 sm hündürlükdədir. Məzarın aşağı hissəsindəki daş parçası üzərində ərəb qrafikası ilə *"Bismillah İrrəhman İrrəhim. 1302. Hüseyni Kərkəzi, Məhəmməd, Fatimə, Əli, Həsən, Hüseyn... əl- Müzəffər... Bəy ibn Şərif bəy"* sözləri yazılıb. Həmin daşın qəbrin aşağı tərəfinə başıaşağı vəziyyətdə qoyulması çaşqınlıq yaradır. Həm də yazıda, göründüyü kimi, ***İbrahim*** adı yoxdur. Güman etmək olar ki, bu daş buraya səhvən qoyulmuşdur.

Şeyid daşı – Cəbrayıl rayonunda, Sirik kəndinin ərazisində, Birəli meşəsinin talasında qeydə alınan oroqrafik obyektlərdən biri ***Şeyid daşı*** adlanır. Bu, daş nişangahdan ibarətdir. Yerli məlumatlara görə bu *daş* **Şəhid** qəbridir.

Şeyidlər – Cəbrayıl rayonunda, Gəyən düzündə, Dağmaşanlı kəndi yaxınlığında qeydə alınan və ***7***-***8*** topa qəbirdən ibarət olan oroqrafik obyekt ***Şeyidlər*** adlanır. Sıx qəbirlər arasına əkmə daşlar düzülmüşdür.

Şeytan yeri – Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri də ***Şeytan yeri*** adlanır.

Şeytanbazar – Şuşada, Karvansaranın qarşısından başlayaraq Cıdır düzünə tərəf uzanan ikinci düz küçə Şeytanbazar (*digər düz küçələr* ***Rastabazar*** *və* ***Merdinli*** *küçələridir*) adlanır. Bu küçədə dəmirçi, nalbənd, eləcə də eşşək, qatır, at palanları hazırlayan palanduzların dükanları yerləşirdi.

Şəhərcik – Cəbrayıl rayonunun ərazisində qeydə alınmış tarixi abidələrdən biri ***Şəhərcik*** adlanır.

Şəhidlərin xatirə kompleksi – Qarabağ müharibəsində Füzuli rayonu şəhidlərinin xatirəsinə ucaldılmış abidə belə adlanır. ***Şəhidlərin xatirə kompleksi*** rayonda yaradılmış ianə fondu hesabına tikilmişdir. Abidənin layihəsinin müəllifi tanınmış alim-memar Rizvan Qarabağlıdır. Abidə kompleksinin mərkəzində 8 guşəli türbə layihələndirilib. Onun mərkəzində isə eyni sayda tərəfləri olan iki pilləli, əbədi məşəl üçün kürsü yerləşir. Türbənin öndəki 5 tərəfi açıq, arxadakı 3 tərəfi isə yarıörtülü vəziyyətdədir. Türbənin damı sivri ucluqlu günbəzlə örtülür. Sıra ilə düzülmüş 7 ədəd bağlı şəkilli daş kitabələr türbənin daxilindən keçir. Abidənin hər bir elementi rəmzi məna daşıyır. Kompleksin mərkəzində duran türbə ümumi Qarabağ, 7 kitabə isə Yuxarı Qarabağın ətrafında vaxtı ilə işğal olunmuş rayonların sayını bildirir. Ümumi abidə dəmir betondan olsa da, üzlənməsində ağ və qara mərmərdən istifadə olunmuşdur. Qara və ağ rənglər hər qaranlıq gecənin bir işıqlı səhərinə işarədir. 8 metr hündürlüyə malik olan ***Şəhidlərin xatirə kompleksi*** Bakı-Füzuli avtomobil yolunun Beyləqan rayonundan Füzuli ərazisinə daxil olan hissəsində, yüksəklikdə ucaldılmışdır. Qarabağ uğrunda, Vətən uğrunda əbədiyyətə qovuşmuş Füzuli şəhidlərinin xatirəsinə ucaldılmış bu abidə hər tərəfdən, bir neçə kilometr uzaqlıqdan görünür.

Şəhrəbanu ocağı – Cəbrayıl rayonunda, Nüzgər kəndinin yaxınlığında qeydə alınmış oroqrafik obyektlərdən biri ***Şəhrəbanu ocağı*** adlanır. Yerli əhali həmin ***ocağı*** müqəddəs tapınaq yeri, ziyarət hesab edirdi.

Şəkərcik yaşayış yeri – Füzuli rayonunun ərazisində qeydə alınan qədim yaşayış yerlərindən biri ***Şəkərcik*** yaşayış yeridir. Bu ***yaşayış yeri*** rayon mərkəzindən 2 kilometr şimalda, ***Şəkərcik kəndi*** ərazisindədir.

Şəmilin bağı – Şuşa rayonunda, Daşaltı kəndindən yuxarıda qeydə alınmış istirahət guşəsi. Bu istirahət guşəsinin yerli sakinlər arasında başqa bir adı ***Yuxarı Daşaltı*** adlanır. Cıdır düzünün yuxarı hissəsində, "*Ağzıyastı kaha*" yerləşən *Üçmıx* dağının düz altında, *Daşaltı* çayının azacıq kənarında, çeşmələr ətrafında olması ***bağa*** xüsusi gözəllik verir. ***Şəmilin bağı*** deyilən yerə getmək üçün əsasən 2 yol var: birinci yol "*Qırxpilləkən*" ilə Aşağı Daşaltıya düşüb, sonra çay boyu yuxarı qalxan cığır; ikinci yol isə İsa bulağından ayrılan yoldan sola dönən və çayın kənarına enən yoldur.

Şər dərəsi – Cəbrayıl rayonunun ərazisində, Pirəsəd qışlağının baş hissəsində qeydə alınan oronim ***Şər dərəsi*** adlanır. ***Şər dərəsi*** həmin ərazidə sıralanan 3 dərədən birincisidir.

Şərbətalı ocağı – Cəbrayıl rayonunda, Dağtumas kəndinin ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Şərbətalı ocağı*** adlanır. Bu ***ocaq*** nəhəng gövdəsi olan ***dağdağan*** ağacından ibarətdir. Dağtumas kəndinin nüfuzlu sakini olan və Hacı Qaramanın təmsilçisi hesab edilən ***Şərbətalı*** adlı bir mömin bu ağacın altında dini toplantılar keçirər, ustadından öyrəndiklərini əhaliyə danışardı.

Şərəf yaylağı – Cəbrayıl rayonunda, Xələfli kəndinin yaxınlığında qeydə alınan oronimlərdən biri ***Şərəf yaylağı*** adlanır.

Şərif təpəsi – Cəbrayıl rayonunda, Dağ Tumas kəndinin 6 kilometrliyində, Armudlu dərə ilə Şəvidli bərəyinin arasında, Pirim kahasının qarşısında qeydə alınan təpələrdən biri ***Şərif təpəsi*** adlanır.

Şəvidli bərəyi – Cəbrayıl rayonunda, Dağ Tumas kəndinin 5 kilometrliyində, Tumas dağının cənubunda qeydə alınan oronimlərdən biri ***Şəvidli bərəyi*** adlanır.

Şıx Ata – Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Şıx Ata*** adlanır. Yerli camaat bu tarixi abidə yerini əziz tutardu. Rəvayətə görə dağlarda yağış oynayanda ***3*** yerə bölünərmiş – birini ***Şıx Ata***, birini *Gordu baba*, birini də *Hacı Qaraman* öz kəvşənlərinə yağdırarmışlar.

Şıx Baba piri – Cəbrayıl rayonunun Şıxlar kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Şıx baba piri*** adlanır. Xalq arasında ***Şıx baba*** (*bəzən adı* ***Şıxbaba*** *formasında da yazılır*) ***piri*** kimi tanınan bu abidə *ziyarətgah* kimi məşhur idi.

Şıx Camal piri – Cəbrayıl rayonu ərazisində maraqlı coğrafi adlardan biri də ***Şıx Camal piri*** adlanır. Bu ***pir*** çox da böyük olmayan daş hasardan ibarətdir. ***Şıx Camal piri*** deyilən yer "Nəqşibəndiyyə" təriqətinin şeyxi Böyük Şıx Hacı Əli Çələbinin məşhur müridi Camal Əli oğlunun zikr yeridir. ***Camal Əli oğlu*** təriqət rəhbərliyinin dövrünün böyük övliyası Şıx Hacı Qadım Çələbiyə keçməsinə vasitəçilik etdiyindən, o da, müridlər arasında ***şıx*** (***şeyx***) ləqəbinə (*dini tituluna*) layiq görülənlərdən biri olmuşdur. Yerli məlumatlara görə, ***Camal Əli oğlu*** XIX əsrin sonlarına yaxın bir qrup tumaslılar ilə Türkiyəyə köçmüşdür. Deyilənlərə görə hazırda Türkiyənin Adana və Malatya bölgələrində onun törəmələri yaşayırlar.

Şıx çinarı – Cəbrayıl rayonunda, Şükürbəyli kəndinin qəbiristanlığının günbatanında, eyniadlı dərənin ayağında yerləşir. Bu nəhəng ***çinar*** ağacının koğuşunun çevirməsi *5-6* metrdir. İnanclara görə imamlardan biri bu çinara öz atını bağlamışdır. Adətən bura gələn ziyarətçilər çinarın koğuşuna girib, niyyət edərək Allahdan dilək diləyirlər.

Şıx Əfəndi nişangahı – Cəbrayıl rayonunda, Mahmudcan düzünün ayağında qeydə alınmışdır. ***Nişangah*** daş çevirmədən ibarətdir. Çevirmənin yaxınlığında qaynayanbulaq var. Bulağın adına ***Həmzə bulağı*** deyirlər. Yerli məlumata görə, bir zamanlar ***Şıx Əfəndi*** (*Seyid Nigari Mir Həmzə Mir Paşa Rükvəndi oğlu*) bu bulağın suyu ilə dəstəmaz almış, çevirmə yerində namaza durmuş və zikrə dalmışdır. Ona görə də ***nişangah*** onun adı ilə adlanmışdır.

Şıx Əzəddin ocağı – Cəbrayıl rayonu ərazisində, Çullu kəndindən Həkəri çayına enən yolun kənarında qeydə alınan coğrafi adlardan biri ***Şıx Əzəddin ocağı*** adlanır. Bu qəbirdə dövrünün böyük nüfuz sahibi, tanınmış mömin ***Şıx Əzəddin Əfəndi*** dəfn olunmuşdur. Qazanzəmi kəndinin camaatı Şıx Əzəddini özlərinin ulu babası hesab edirlər. ***Şıx Əzəddin ocağı*** sınanılmış, inanılmış bir ocaqdır. Bu ***ocaq*** ürək xəstəliyi (*ürəkkeçməsi*) olanlara , *cin toxunanlara* şəfa verməsi ilə məşhurdur.

Şıx İbrahim qəbri – Cəbrayıl rayonunda, Nüsüs və Sirik kəndləri arasında, Mahmudcan düzünün yuxarı başında, qədim qəbiristanlığın yerinin kənarında yerləşən qəbir ***Şıx İbrahim qəbri*** adlanır. Bu ***qəbir*** daş hərləmədən ibarətdir. Deyilənə görə burada dövrünün sayılıb-seçilən övliyalarından biri olmuş ***Şıx İbrahim*** adlı nüfuzlu ürfan sahibi dəfn olunmuşdur.

Şıx Mustafa təpəsi – Cəbrayıl rayonu ərazisində qeydə alınan coğrafi adlardan biri də ***Şıx Mustafa təpəsi*** adlanır.

Şıx Sədi piri – Cəbrayıl rayonunun ərazisində, Hacı İsmayıllı kəndinin qəbiristanlığındakı sahədə qeydə alınan oroqrafik obyektlərdən biri ***Şıx Sədi piri*** adlanır.

Şıx Vəliyəddinin yuat yeri – Cəbrayıl rayonunun Dağtumas kəndinin sakini Rza Həsən oğlunun həyət evindən 60 metr gündoğanda, bir-birinə söykəkli iki qaya parçasının arxasında kiçik ölçülü çəmənli, otlu sahə ***Şıx Vəliyəddinin yuat yeri*** adlanır. Yerli məlumata görə, XVI əsrin

axırlarında Şıxlar kəndindən Dağ Tumasa köçən Şıxbaba övladı ***Şıx Vəliyyədin*** haqq dünyasına qovuşanda onun meyiti burada yuyularaq kəfənlənmişdir.

Şıxbaba türbəsi – Füzuli rayon mərkəzindən 35 km cənub-şərqdə, Babı kəndinin qəbiristanlığında yerləşir. Şıx Veys (***Şıxbaba***) adlı pir-türbə XIII əsr memarlıq abidəsi hesab olunur. Bəzi tədqiqatçılar ***Şıxbaba*** türbəsinin görkəmli Azərbaycan ilahiyyatçı alimi, şair, sərkərdə ***Şeyx Babi Yaqubun*** şərəfinə tikildiyini qeyd edirlər (Əlavə məlumat üçün bax: *Babı türbəsi, Babı kəndi*).

Şıxer – Xocavənd rayonunun Muğanlı kəndindən 3 kilometr aralıda qeydə alınmış coğrafi adlardan biri ***Şıxer*** adlanır. Bu söz bir qədər təhrifə məruz qalmışdır. Əslində bu oroqrafik obyektin adı ***Şah yeri*** şəklində olmalıdır.

Şıxlar türbəsi – Cəbrayıl rayonunun Şıxlar kəndi ərazisində yerləşir.

Şırşırlı dərə – Cəbrayıl rayonunda, Çələbilər kəndinin günbatanında qeydə alınan oronim ***Şırşırlı dərə*** adlanır.

Şinudağ – Laçın rayonu ərazisində qeydə alınan və maraq kəsb edən oronimlərdən biri də ***Şinudağ*** coğrafi adıdır. Adın mənasını müxtəlif aspektdən izah edənlər var. Bəlkə də toponim bir qədər təhrifə uğrayıb. ***Şinud*** sözünün farsca *"dinləmə; eşitmə"* mənaları məlumdur. Türk dillərində ***şengi*** *("dağ beli", "dağ yalı")* sözü də var.

Şirəviş daşı – Füzuli rayonunun Qarakollu kəndindən şimalda, Dağqoruq deyilən bir ərazidə qeydə alınmış oroqrafik obyektlərdən biri ***Şirəviş daşı*** adlanır. Keçmişimizin yadigarı olan ***Şirəviş daşı*** ilə bağlı ətraf kəndlərin əhalisi arasında çoxlu əfsanələr dolaşmaqdadır. Uzunluğu 2 metr olan bu daşın yuxarı hissəsi enli, aşağı hissəsi getdikcə ensizləşən və axacaqlıdır. Daşın orta hissəsi 10 santimetr dərinliyində olub, üzüm şirəsinin daşıb tökülməməsinə xidmət edir. Torpaq səthinə maili qoyulmuş bu daşın hər küncündə dörd qaraağac əkilib. Hər bir ağac 4-5 ton ağırlığında yükü asanlıqla saxlaya biləcək gücdədir. Üzüm yığımı zamanı dördbucaq vəziyyətində olan bu ağacların üst qatında böyük çardaq qurarmışlar. Kəndin hörmətli ağsaqqalları həmin çardağın üzərinə qara ot deyilən yabanı ot döşəyər, dərilmiş üzümü bu otun üzərində döyüb əzərmişlər. Ağsaqqal üzümü əzdikcə onun şirəsi qara otdan keçib damcı-damcı daşın üzərinə süzülər, oradan isə daşın axacağına qoyulmuş böyük qaba tökülərmiş. ***Şirəviş daşının*** üzərində əkilmiş qarağacın meyvələrindən vaxtilə istifadə edərmişlər. Noxud boyda olan qara meyvələr payızda yetişərmiş. Onu dərib daşın üstünə tökər, çubuqla döyüb halva halına salar, sonra dərman maddəsi kimi istifadə edərmişlər. Meyvənin çəyirdəyi ilə *Şirəviş* daşını təmizləyir, onu gələn ilə hazırlayarmışlar. ***Şirəviş*** daşından istifadə etmək üzümün ibtidai formada emalından başqa bir şey deyilmiş. Daşın formasından yəqin etmək olar ki, bu yerlərdə ta qədimdən üzümçülüklə məşğul olublar.

Şirinin bağı – Cəbrayıl rayonunda, Dağ Tumas kəndinin ərazisində, İncə çayının sağ tərəfində, Hav yeri ilə üzbəüz sahədə qeydə alınan oronimlərdən biri ***Şirinin bağı*** adlanır.

Şirinin meşəsi – Xocavənd rayonunun ərazisində, Qaradağlı kəndinin 3 kilometrliyində qeydə alınan oroqrafik obyektlərdən biri də ***Şirinin meşəsi*** adlanır.

Şirinsu hamamı – Şuşa şəhərində, Merdinli məhəlləsində yerləşən hamam ***Şirinsu hamamı*** adlanırdı. Bu hamam Şuşada ilk ***hamam*** hesab olunur.

Şirvan qəbiristanlığı – Cəbrayıl rayonunda, Xələfli kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Şirvan qəbiristanlığı*** adlanır. Yerli məlumata görə, ***qəbiristanlıqda*** Azərbaycanın ***Şirvan*** bölgəsindən olan adamlar dəfn olunduğuna görə bu coğrafi ad belə adlandırılmışdır. Bəzi araşdırıcılar toponimi Sasani hökmdarı ***Ənuşirəvanın*** adı ilə bağlayırlar. Bir fikir də vardır ki, tarixən ***Şirvan*** adlanan böyük bir ərazidə 50-dən artıq şor gölün qeydə alınması faktı ***Şirvan*** toponiminin "*şor göllər*" anlamında izahına əsas verir. Şirvan əhalisi indinin özündə də şoranlaşmış sahələrə ***şirə*** deyir. ***Şirvan*** adı mənbələrdə Sasanilər dövründən etibarən çəkilir. Amma *Şirvan* adına ərəb mənbələrində ***Şirvan***, fars mənbələrində ***Şervan***, Suriya mənbələrində ***Sirvan***, Parfiya dövrünə aid Zərdüşt məbədinin kitabəsində ***Siran*** və ya ***Sauran*** variantlarında təsadüf edilməsi ***Şirvan*** adının Sasanilərdən çox əvvəllər mövcud olduğundan xəbər verir.

Şindi meşəsi – Xocavənd rayonu ərazisində, Qaradağlı kəndi yaxınlığında qeydə alınmış oroqrafik obyektlərdən biri ***Şindi meşəsi*** adlanır. Bu ***meşə*** Qaradağlı kəndindən 2 kilometr məsafədə, dağətəyi ərazidə yerləşir.

Şiş dağ – Xocavənd rayonunun ərazisində, rayon mərkəzindən cənubda, Qarabağ silsiləsində qeydə alınan oroqrafik obyektlərdən biri ***Şiş dağ*** adlanır. Bu dağın hündürlüyü *1315* metrdir.

Şiş qaya – Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Şiş qaya*** adlanır.

Şiş qaya – Xocavənd rayonunun Qaradağlı kəndi yaxınlığında qeydə alınan coğrafi adlardan biri ***Şiş qaya*** adlanır.

Şişbaşı dağı – Kəlbəcər rayonu ərazisində qeydə alınmış dağlardan biri də ***Şişbaşı dağı*** adlandır.

Şişbaşı dağı – Laçın rayonu ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Şişbaşı dağı*** adlanır.

Şişdağ – Ağdam rayonunun ərazisində qeydə alınan dağ.

Şişdağ – Xocavənd rayonu ərazisində, Qaradağlı kəndi yaxınlığında qeydə alınmış oroqrafik obyektlərdən biri ***Şişdağ*** adlanır.

Şişdağ – Kəlbəcər və Laçın rayonları ərazisində qeydə alınan dağ. ***Şişdağ*** Mıxtökən silsiləsində, Tutqunçay və Hocazsu çaylarının mənbə hissələrindədir. Hündürlüyü 3413 metrdir.

Şişgüney – Kəlbəcər və Laçın rayonları ərazisində qeydə alınan dağ. ***Şişgüney*** oronimi Mıxtökən silsiləsində, Tutqunçay və Hocazsu çaylarının mənbə hissələrində qeydə alınmışdır.

Şiştəpə – Kəlbəcər və Laçın rayonları ərazisində qeydə alınan təpə. ***Şişgtəpə*** oronimi Mıxtökən silsiləsində, Tutqunçay və Hocazsu çaylarının mənbə hissələrində qeydə alınmışdır.

Şiştəpə dağı – Laçın və Kəlbəcər rayonları ərazisində yerləşən dağ. ***Şiştəpə dağı*** Mıxtökən silsiləsində, Tutqunçay və Hocazsu çaylarının mənbə hissələrindədir. Hündürlüyü 3413 metrdir.

Şomulutəpə – Füzuli rayon mərkəzindən 8 km şimal-şərqdə, Uzuntəpədən 45 metr şimal-qərbdə, Köndələnçayın sağ sahilində yerləşən, ilk və orta tunc dövrlərinə aid qədim yaşayış məskəni ***Şomulutəpə*** adlanır. ***Təpə*** konus şəkilli, dairəvi formalı süni təpəciklərdən ibarətdir. Şomulutəpənin diametri 80 metr, hündürlüyü 6 metrdir. Kəşfiyyat qazıntıları zamanı oradan orta və son tunc dövrlərinə aid qara və boz rəngli cilalı, boyalı gil qablar, dən daşları, oraq ağzı və s. aşkar edilmişdir. Oradan tapılan nümunələr Şomulutəpənin m. ö. III-II minilliklərdə əkinçi-

maldar icmalarına məxsus olduğunu göstərir. ***Təpə*** ərazisində ***şomu*** bitkisi çox olduğu üçün belə adlandırılıb.

Şorruca – Xocavənd rayonunun Muğanlı kəndindən 2 kilometr məsafədə qeydə alınan oroqrafik obyektlərdən biri ***Şorruca*** adlanır. Bəzən adını ***Şorluca*** kimi də yazırlar. Yerli dialektə uyğun olaraq bu coğrafi adı ***Şorca*** kimi də səsləndirirlər.

Şorun dərəsi – Laçın rayonu ərazisində qeydə alınan coğrafi adlardan biri ***Şorun dərəsi*** adlanır. Oronim öz adında qədim türkmənşəli ***şor*** tayfasının adını əks etdirir. İlk dəfə mənbələrdə adı ***şorapor*** kimi VII əsrdə çəkilib. Toponimi türkmənşəli peçeneqlərin ***çor* (*çur*)** tayfası ilə də əlaqələndirirlər.

Şotlanlı dərə – Laçın rayonunun Cicimli kəndi ərazisində qeydə alınan oronimlərdən biri ***Şotlanlı dərə*** coğrafi adıdır. **Şotlanlı** tayfa adıdır. 1828-ci il "Türkmənçay müqaviləsi"ndən sonra Şərqi Zəngəzura Cənubi Azərbaycandan müxtəlif tayfalarla birlikdə ***şotlanlı*** tayfası da gəlmişdir. Kelt tayfasından olan ***şetenlər***, ***şotlanlar*** (mənası *"köçəri"* deməkdir) nəsli də vardır. Tarixdən məlumdur ki, ***şatı*** adlı qədim türkmənşəli tayfa da var.

Şuhralı dağı – Ağdam rayonunun Mərzili kəndi yaxınlığında qeydə alınan oronimlərdən biri ***Şuhralı dağı*** adlanır.

Şurtan dərəsi – Kəlbəcər rayonunda, Tərtər çayının sahilində, rayon mərkəzindən 15 km cənubda. Yevlax-İstisu şose yolu kənarında, Dəmirdağın ətəyində yerləşən dərə. Tərtər çayının sahilinə tərəf uzanan ***Şurtan*** dərəsinin yuxarı hissəsində *Yuxarı Şurtan (Baş Şurtan)* kəndi yerləşir.

Şuşalığın dəhnəsi – Xocavənd rayonu ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Şuşalığın dəhnəsi*** adlanır. Tuğ kəndinin ərazisində yerləşən ***Orta bulaq*** öz dəhnəsini məhz oradan götürmüşdür (*yerli məlumata görə, onu əslən Tuğ kəndindən olan professor Zülqədər Cahangirov çəkdirmişdir*).

Şükür ocağı piri – Cəbrayıl rayonunda, Çərəkən kəndinin ərazisində qeydə alınan ***Şükür ocağı piri*** coğrafi adı Çərəkən kənd sakini olmuş ***Molla Şükür*** adlı nüfuzlu bir şəxsin adı ilə bağlıdır.

Şükürvurulan yer – Cəbrayıl rayonunda, Dağ Tumas kəndindən Cəbrayıl şəhərinə gedən yolun kənarında, yolun İncə çayını keçən birinci aşırımında, Yastı ardıcdan yuxarı gəzin gündoğanında qeydə alınan oronim ***Şükürvurulan yer*** adlanır. Bu ərazi əsasən qalın kollu dərədən ibarətdir. ***Şükürvurulan yer*** öz adını 1918-ci ildə çapovulçularla, daşnak erməni terrorçuları ilə atışmada burada həlak olan ***Aşıq Şükürün vurulması*** (*qətlə yetirilməsi*) ilə əlaqədar almışdır. **Şükür Məhəmməd oğlu** əslən Cəbrayıl rayonunun Qazanzəmi kəndindəndir.

Tağlar mağarası – Azərbaycanda, Xocavənd rayonu ərazisində, Tuğ və Tağlar kəndlərinin arasında, Quruçayın sol sahilində Paleolit dövrünə aid arxeoloji abidə ***Tağlar mağarası*** adlanır. Bu ***mağara*** stratiqrafik planına, buradan tapılmış maddi mədəniyyət qalıqlarına görə Yaxın Şərqdə mustye abidələri içərisində çoxtəbəqəli nadir düşərgələrdəndir. Bir-birinə bağlı olan gözlərdən (salonlardan) ibarət olan ***Tağlar mağarası*** 1964-cü ildən etibarən öyrənilir. Mağaranın şərq salonunda torpaq çöküntüsü müəyyən edilmişdir. Görünür, bura yaşayış üçün əlverişli olduğu üçün ibtidai insanlar məhz bu salonda yaşamışlar. Mağaranın qərb salonu isə açıq qaya döşəmədən ibarətdir. ***Tağlar mağarası*** abidəsində 6 mədəni təbəqə (2, 3, 4^a, 4^b, 5 və 6) aşkar olunub. İkincidən başqa bütün təbəqələrdə ocaq layları var. Mədəni təbəqələrdən 5 minə yaxın daş məmulatı və 6 mindən çox fauna qalıqları tapılmışdır. Levallua və mustye

itiucluları, qaşov tipli alətlər çoxluq təşkil edir. ***Tağlar mağarası*** materialları Azərbaycan, Qafqaz və Yaxın Şərqin Mustye mədəniyyətlərinin səciyyəvi xüsusiyyətlərini müəyyən etməkdə, onların əlaqələrinin tədqiqində çox zəngin mənbədir. ***Tağlar mağarası*** Mustye mədəniyyətinə aid ən möhtəşəm və zəngin maddi mədəniyyət qalıqlarına malik olan qədim insan düşərgəsidir. Qarabağda Mustye mədəniyyəti Tağlar mağarası ilə təmsil olunmuşdur. Mağaranın ***Tağlar*** adlanması yaxınlıqdakı kəndin adı ilə əlaqədardır. ***Mağara*** 1960-ci ildə arxeoloq alim M.Hüseynov tərəfindən qeydə alınmış, az sonra burada M.Hüseynov və Ə.Cəfərov arxeoloji tədqiqat işləri aparmışlar. ***Tağlar*** mustye düşərgəsi öz maddi mədəniyyət qalıqlarına, stratiqrafiyasına və yaşayışın uzunmüddətli olmasına görə keçmiş SSRİ və Yaxın Şərq abidələri içərisində çox mühüm yer tutur. ***Tağlar mustye düşərgəsi*** nəinki bütün Qafqazda, eyni zamanda Yaxın Şərq ərazisində özünün stratiqrafiyası və maddi-mədəniyyət nümunələrinin zənginliyinə görə ən möhtəşəm tarixi abidədir. *Tağlar mağarası* haqqında müxtəlif əfsanə və rəvayətlər uydurulmuşdur. ***Tağlar mağarası*** əsasən **2** böyük salondan (şərq salonu və qərb salonu) ibarətdir. *Şərq salonu* torpaq çöküntüsündən, *qərb salonu* isə qaya döşəməsindən ibarətdir. Arxeoloji tədqiqat işləri nəticəsində düşərgədən **6.000**-dən çox daş məmulatı, **10.000**-dən çox qədim insanların ovladıqları heyvanların sümükləri aşkarlanmışdır. Təhlillər göstərir ki, Tağlar mağarasının qədim sakinləri əmək alətlərini əsasən düşərgədə hazırlamışlar. ***Tağlar paleolit düşərgəsi*** özünün maddi mədəniyyət qalıqlarına, stratiqrafiyasına və yaşayışın uzunmüddətli olmasına görə ölkəmizin və Yaxın Şərqin mustye düşərgələri içərisində mühüm yer tutur. 1963-cü ildən başlayaraq 1986-cı ilədək müəyyən fasilələrlə ***Tağlar paleolit düşərgəsində*** aparılan arxeoloji qazıntı işləri nəticəsində **8000**-dən artıq daş məmulatı və **500 000**-dən çox qədim insanların ovladıqları heyvanların sümükləri tapılmışdır. Tağlar düşərgəsinin daş məmulatları içərisində əmək alətləri, istehsal tullantıları və nüvələr əsas yer tutur. Düşərgənin kompleks tədqiqi ilə M.Hüseynov, D.Hacıyev, Ə.Məmmədov, Ə.Cəfərov, N.Şirinov, A.Veliçko, S.Əliyev, M.Süleymanov və başqa alimlər ciddi şəkildə məşğul olmuşlar. Aparılan kompleks arxeoloji elmi tədqiqat işləri nəticəsində ***Tağlar*** mustye düşərgəsində qədim insanların **120.000 - 90.000** il bundan əvvəldən **35.000** ilə qədər müddətdə yaşadıqları müəyyən olunmuşdur.

Tağlı körpü – Füzuli rayonunun Gorazıllı kəndi yaxınlığındakı çayın üzərində tikilmiş körpü ***Tağlı körpüsü*** adlanır. Yerli məlumata görə körpünün 300 ildən çox yaşı var. Qara daşdan ***tağ*** formasında inşa olunmuş ***körpü*** Şərq memarlığının tipik nümunəsi hesab olunur. Körpünün 2 dayağı var; bu dayaqlar çayın sağ və sol sahillərinə bənd edilmişdir. Körpünün üst hissəsi dayaqlara bənd olunmuşdur. Təbii fəlakətlər, yüzillərin qar-yağışı nəticəsində körpünün qıraq hissələrindən daşlar qopmuş və onu bir qədər ensizləşdirmişdir. ***Tağlı körpüdən*** azacıq sol tərəfdə 2 qocaman çinar ağacı var. Araşdırıcıların fikirlərinə görə, bu çinarların yaşı 300 ildən çoxdur.

Tala – Şuşa rayonunun ərazisində qeydə alınan oronim.

Tanrıyoxuş aşırımı – Azərbaycanda, Kəlbəcər rayonunun ərazisində, Murovdağ silsiləsində, dəniz səviyyəsindən 2500 metr yüksəklikdə yerləşən dağ aşırımı.

Tapan yeri – Cəbrayıl rayonu ərazisində, Şahvəlili kəndi ərazisində qeydə alınmış oronim ***Tapan yeri*** adlanır.

Tapança yeri – Cəbrayıl rayonunda, Dağ Tumas kəndinin 6 kilometrliyində, Kolluğun Arpa yerinə birləşən hissəsində, dağətəyi ərazidə qeydə alınan oroqrafik obyektlərdən biri ***Tapança yeri*** adlanır.

Tatar dərəsi, Tatar düzü – *Tatar dərəsi* Cəbrayıl rayonunun Kürdlər kəndində, *Tatar düzü* oroqrafik obyekti isə rayonun Nüsüs (*Nüsnüs*) kəndində qeydə alınmışdır. Tarixdən məlumdur ki, artıq XII-XIII əsrlərdə Azərbaycanda məskunlaşmış türkmənşəli tayfalar içərisində ***tatarlar*** da vardır. Orxan-Yenisey yazılı abidələrində də tatarların adı çəkilmişdir. XIII əsrdə monqol işğallarında ***tatar tayfası*** da iştirak etmişdir. Həmin dönəmdə yaşamıış Monqol tarixinin tədqiqatçısı Fəzlullah Rəşidəddin monqol yürüşlərində türkdilli tayfaların iştirakından danışarkən ***tatar*** tayfasının adını çəkmişdir. Mənbələrdən məlum olur ki, Hülakülər zamanında, 7 əsr bundan əvvəl, Azərbaycana köçürülən qəbilələr arasında Moğol nəslindən olan ***tatarlar*** var idi. ***Tatar*** etnonimi ilk dəfə VI - IX əsrlərdə Baykal gölündən cənub-şərqdə köçəri həyat sürən monqol tayfaları arasında meydana gəlmişdir. Monqolların zühuruna qədər monqolca danışan bütün qövmlərə (*həm də türklər və çinlilər tərəfindən*) ***tatar*** deyilirmiş. Tatarların dindarları müsəlmandır. XVI - XIX əsrlər rus mənbələrində bir çox türkdilli xalqlara və Rusiyanın ucqarlarında yaşayan bir sıra tayfalara da ***tatar*** deyilirdi. XV - XVI əsrlərdə onların bir neçə feodal dövlətləri (*Kazan, Həştərxan, Krım, Sibir* və s. xanlıqları) yarandı. XX əsrin əvvəllərində Qafqazda tatarlarla bağlı ***14*** toponim qeydə alınmışdır. Keçmiş SSRİ-də tatarların sayı təxminən ***7*** milyondan çox idi. Hazırda Türkiyə və İranda ***20*** mindən çox ***tatar*** yaşayır. Azərbaycan xalqının etnogenezində iştirak etmiş tatarların sayı indinin özündə belə respublikamızda ***30*** mindən çoxdur. ***Tatarlar*** bu gün monqolca danışan qövmün əcdadlarındandır. ***30*** boy halında (*VII əsr*) olan tatarlardan doqquzu siyasi birlik təşkil edirmiş. ***Tatar*** sözü – "*sınamaq*", "*yoxlamaq*" deməkdir. ***Tat*** sözü qədim türk dillərində "*oturaq*", "*əkinçi*" deməkdir. ***Tat*** sözünün "*başqa nəsil*", "*yad nəsil*", "*dağ adamı*" mənası verdiyini də söyləyənlər var. ***Tatar*** sözünün "*yad adam*" mənası verən ***tat*** və "*kişi*", "*adam*" mənası ifadə edən ***ar//er//ər*** sözlərindən əmələ gəlməsi ehtimal olunur. Monqolların ***ta-ta*** adlı nəsli olması da məlumdur. Mahmud Qaşqari (XI əsr) öz əsərində ***tatar*** adını çəkir və qeyd edir ki, onlar indiki Qırğızıstana yaxın ərazidə yaşayıblar. V.A.Nikonov isə tatarları monqollarda olan ***ta-ta*** tayfası ilə əlaqələndirir. M.Baharlı da öz qeydlərində ***tatar*** etnonimi və ondan yaranmış etnonimlərdən bəhs etmişdir. Cənubi Azərbaycanda da ***tatar*** türkmənşəli etnonimi ilə bağlı çox sayda toponimlər vardır. Tatarlar Çingiz xanın qələbələrindən sonra onun ağalığını qəbul ediblər. Ərəb, fars və rum tarixçiləri İrana, Kiçik Asiyaya hücum edən Çingiz xan ordusunu "***tatarlar***" adlandırmışlar. Bu ulus tabe olan ölkələrdən bac-xərac, müqavimət göstərənlərdən isə öc almışdır.

Tatar qayası, **Tatarlılar yaylağı** – Laçın rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlər. ***Tatar qayası*** rayonun Haqnəzər kəndi ərazisində, Tatarlılar yaylağı isə Alxaslı kəndinin ərazisində qeydə alınıb. Hər iki oronim XIII əsrdə monqol işğallarında iştirak edən ***Tatar*** tayfasının bu ərazilərdə yaşaması ilə bağlı yaranmışdır. Bu toponimlər öz adlarında XIII əsrdə monqolların tərkibində Ön Asiyaya gəlmiş ***tatar*** tayfasının adını əks etdirir. F.Rəşidəddin monqol yürüşlərində türkdilli tayfalar içərisində ***tatar*** tayfasının da adını çəkmişdir.

Taya daş – Xocavənd rayonunun ərazisində, rayon mərkəzindən 63 kilometr cənub-qərbdə, dağətəyi ərazidə qeydə alınan coğrafi adlardan biri ***Taya daş*** adlanır. Həmin yer Tuğ kəndi ilə Kirs arasında dayanacaq hesab olunur.

Tejdər dağı – Cəbrayıl rayonu ərazisində qeydə alınan maraqlı oronimlərdən biri də ***Tejdər dağı*** oroqrafik obyektidir. Bu ***dağ*** öz adında əvvəllər burada mövcud olmuş ***Tejdər*** yaşayış məntəqəsinin adını daşıyır, ***Tejdər*** kəndinin xarabalığı hazırda da dağın ətəyində qalmaqdadır.

Teşnək – Füzuli rayonunun Horadiz kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Teşnək*** adlanır. Yerli sakinlərin dediyinə görə, ***Teşnək*** sözü qismən təhrifə uğramışdır; əslində söz ***teşnə*** şəklində yazılmalıdır.

Tey dağı – Bəzən bu oronim ***Tey dağ*** və ya ***Teydağ*** kimi də yazılır. Oronim Cəbrayıl rayonu ərazisində, Sirik kəndi yaxınlığında qeydə alınmışdır. Qədim türk mənşəli ***Tey*** sözünün Azərbaycan dilinin dialektlərində "*uca*", "*hündür*", "*qılınc*", "*xəncər*", "*neştər*", "*kiçik dağ*" mənaları vardır. Dağa onun zahiri formasına, yəni, *qılınca* oxşamasına görə belə ad verilmişdir. Bəzi türk dillərində ***tey*** sözü "*təpə*", "*dağ*" anlamında da işlədilir. Vaxtilə Zəngəzur qəzasında ***Tey*** adlı kənd mövcud olub.

Tey dağı – Xocavənd rayonunun ərazisində qeydə alınan dağ.

Tək qəbir – Xocavənd rayonunun Muğanlı kəndindən 3 kilometr aralıda qeydə alınmış oroqrafik obyektlərdən biri ***Tək qəbir*** adlanır. Bu coğrafi ad burada baş vermiş bədbəxt hadisə ilə əlaqədardır.

Tək təpə – Xocavənd rayonunun Cəmiyyət kəndinin ərazisində qeydə alınan oronimlərdən biri ***Tək təpə*** adlanır.

Təkbarmaq dağı – Laçın rayonunun Qızılca kəndi ərazisində qeydə alınan oronimlərdən biri ***Təkbarmaq dağı*** adlanır. *Bu oroqrafik obyekt saya görə* ad *verilən* oronimlərdəndir.

Təkəqaya – Kəlbəcər rayonunun ərazisində, eyniadlı kəndin yaxınlığında qeydə alınan oronim. ***Təkəqaya*** oronimi orada tez-tez rast gəlinən ***təkə*** dağ heyvanının adını əks etdirir.

Təknur – Cəbrayıl rayonunda, rayonun əsrarəngiz gözəlliyə malik olan bir yerində, Qazanzəmi kəndinin şimal-şərq hissəsində, ***Təktüklü dağı*** ətəyində, konusvarı təpənin üzərində, meşəlik ərazidə qeydə alınan coğrafi ad ***Təknur*** adlanır. ***Təknur*** yüksəkliyinin adına bəzən ***Təktüklü*** də deyilir. Bu oroqrafik obyekt daş hasara alınmış qəbir yeridir. Qəbrin kimə məxsus olması məlum deyildir. Qəbrin üstündə tək gövdəli ***ağcaqayın*** ağacı bitir.

Təktüklü dağı – Cəbrayıl rayonunun Qazanzəmi kəndində ***tək*** sözünün iştirak etdiyi daha bir oronim **-** ***Təktüklü dağı*** coğrafi adı qeydə alınmışdır. Bu dağın adı bəzən sənədlərdə ***Təknur*** kimi də yazılır.

Tərxanlı dağı – Laçın rayonu ərazisində, Baldırğanlı kəndindən şimalda yerləşən dağ. Dağa xalq arasında ***Tərxan yalı*** da deyirlər. ***Tərxan*** qədim türklərdə, XIII əsrdən isə Elxanilər dövründə yüksək rütbəli titul olmuşdur. Azərbaycanda Elxanilər dövründə vergi və mükəlləfiyyətlərdən azad olan kəndlilərə ***tarxan*** deyilirdi. Xalq qəhrəmanı Babəkin yaxın silahdaşlarından birinin adı da ***Tarxan*** olub. ***Tarxan/Tərxan*** - orta əsrlərdə türk xalqlarında, xüsusən də, Xəzər xaqanlığında hökmdar titulu olmuşdur.

Tiğik dağı – Laçın rayonu ərazisində dağ. Bu oronim ***Tiğikuh*** adından təhrifdir. ***Tiğik*** toponimi ***tiğ*** və ***kuh*** sözlərinin birləşməsindən əmələ gəlib.

Timərri – Kəlbəcər rayonunun ərazisində qeydə alınan dağ. Bəzən ona ***Timerri*** də deyilir. Oykonim kürd dilindəki ***təmiri*** (yəni, "*sönmüş*") sözündən yaranmışdır.

Timərri dağı – Xocavənd rayonunun ərazisində qeydə alınan oronimlərdən biri ***Timərri dağı*** adlanır. Bu ***dağın*** hündürlüyü *2336* metrdir. Oronim ***Timerri*** variantında da qeydə alınmışdır. Çox güman ki, dağın adı ***təmiri*** ("*sönmüş*") sözü ilə əlaqədar yaranmışdır.

Tiri qalası – Zəngilan rayonunun ərazisində, rayon mərkəzindən 13 kilometr cənubda, Araz çayının sahilində, təbii təpənin başında ucaldılmış ***qala***. ***Tiri*** qalasının inşasında qaya parçalarından, çay daşlarından istifadə olunmuşdur. Qalanın yaxınlığından axan Oxçu çayı tərəfdən ona gizli yol açılmışdır.

Toxqar dağı – Xocavənd rayonu ərazisində rayon mərkəzindən 75 kilometr cənub-qərbdə, Çaxmaqçay sahili yaxınlığında, Qarabağ silsiləsində, Ağcakənd kəndinin cənub-şərqində, rayonun Ağcakənd və Mülküdərə kəndləri arasında, Xocavənd rayonu ilə Cəbrayıl rayonunun sərhədində qeydə alınan oronimlərdən biri ***Toxqar dağı*** adlanır. Bu dağın zirvəsinin maksimal hündürlüyü ***1721*** metrdir. Toponimin izahı ilə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur. Hətta *toxqar* sözünü miladdan öncə II əsr və miladın I minilliyində Orta Asiyada yaşamış *toxar xalqı* ilə də əlaqələndirənlər var.

Toxmaq dərə – Qubadlı rayonunun Hat kəndində, Qarabağ silsiləsinin ətəyində qeydə alınan dərə. ***Toxmaq*** – qızılbaşların *ustaclı* tayfasının tirələrindən biri olub. Orta əsrlərdə *ustaclı tayfası* Ermənistan ərazisində də yaşayırdı. XIX əsrdə Qərbi Azərbaycan dediyimiz indiki Ermənistanda azərbaycanlılar yaşayan ***Toxmaq*** adlı kənd olub. Hələlik ***toxmaq*** etnoniminin mənşəyi tam aydınlaşdırılmamışdır. Çox güman ki, Qırğızıstanda Çu adlı çayın vadisindəki ***Tokmak*** şəhərinin adı da bu etnonimlə bağlıdır.

Topağac dağı – Xocavənd rayonu ilə Qubadlı rayonunun sərhədində, Qarabağ dağ silsiləsində yerləşən coğrafi adlardan biri ***Topağac dağı*** adlanır. Adını bəzi sənəd və materiallarda ***Topaağac*** kimi də qeyd edirlər. Dağın zirvəsinin hündürlüyü 2011 metrdir.

Topcaq düzü – Cəbrayıl rayonu ərazisində, Göyərçin Veysəlli kəndi yaxınlığında qeydə alınan ***Topcaq düzü*** oroniminin birinci sözünün tərkibindəki -***caq*** hissəciyi (*şor dilində*) dilimizdəki "-***cuq***" formasına uyğun gəlir.

Topxana – Şuşa şəhəri yaxınlığında, tarixi əhəmiyyətli və təbii iqlimi olan meşə, ərazi. Qarabağ xanı Pənahəli xanın oğlu İbrahimxəlil xanın hakimiyyəti dövründə Şuşanın daxilində və xaricində xeyli quruculuq işləri aparılmış, müdafiə məqsədilə bir çox mühüm tədbirlər görülmüşdür. Bir çox tarixi mənbə məlumatlarına görə, onun qaladan kənarda saldırdığı Topxanada 50-yə qədər böyük və kiçik ***top*** saxlanılırdı. 1795-ci ildə Agaməhəmməd şah Qacarın Şuşaya hücumu zamanı buradakı *toplar* düşmənə ağır zərbələr vurmuşdur. Bu güclü cəbbəxana Şuşanın yaxınlığındakı meşəlikdə yerləşirdi. Sonralar həmin meşə xalq arasında ***Topxana*** adı ilə tanındı. Bu meşə Şuşa memarlığı tarixi qoruğunun (1977-ci il) əsas obyektlərindən biridir.

Torağay dağı, Torağay təpəsi – Cəbrayıl rayonunda qeydə alınmış oroqrafik obyektlər.

Tozaran düzü – Cəbrayıl rayonunun Şıxlar kəndi ərazisində qeydə alınmış oronim ***Tozaran düzü*** adlanır.

Tuğ dağı, Tuğ çökəkliyi – Xocavənd rayonunun Tuğ kəndi yaxınlığındadır. ***Tuğ dağı*** (*bəzən adını* ***Tuğdağ*** *kimi də yazırlar*), ***Tuğ çökəkliyi*** kəndin qərbində yerləşir. Dağın hündürlüyü **1475** m-dir. ***Tuğ dağı*** oronimi eyniadlı yaşayış məntəqəsinin adından yaranmışdır. Tarixdən məlumdur ki, XII-XIII əsrlərə aid rus mənbələrində qıpçaq tayfalarından biri ***Tuk*** (***Tuq, Tuğ***) adlanmışdır. Şimali Qafqazda və Azərbaycanda ***tuğ*** tayfasının adı ilə əlaqədar çoxlu sayda etnotoponimlər vardır. XIX əsrə aid olan xəritələrdə Yelizavetpol (Gəncə) quberniyasının Şəki qəzası ərazisində ***Tuğdağ***, həmin quberniyanın Şuşa qəzasında ***Tuqyurd dağı*** oroqrafik obyektlərinin adları çəkilmişdir.

Tuğ yalı – Füzuli rayon mərkəzindən 15 km qərbdə, Xocavənd rayonu ilə sərhəd ərazilərdə, Qarabağ silsiləsinin ətəyində, Quruçayın sağ sahilində yerləşən yüksəklik ***Tuğ yalı*** adlanır. Yüksəkliyin arxasında eyniadlı kənd yerləşir. Ölkəmizin ən məşhur paleolit düşərgələri olan Azıx və Tağlar mağaraları Tuğ yalının ətəklərindədir. Orada aparılan arxeoloji tədqiqatlar zamanı aydın

olmuşdur ki, 1,5 milyon il bundan əvvəl bu ərazilərdə insanlar yaşamışdır. ***Tuğ yalı*** ətəklərində qədim və orta əsrlər dövrlərinə aid çoxlu maddi-mədəniyyət abidələri, mininci ilə aid Qırmızı məbəd, daş alətlər, gil qab nümunələri və s. aşkar edilmişdir. Tuğ yalının ətəklərində yerləşən Tuğ kəndini *(bu kənd dəfələrlə erməni-müsəlman münaqişəsinin şahidi olub)* rus ordu hissələri ilə erməni hərbi birləşmələri 30 oktyabr 1991-ci il tarixdə işğal edərək yandırmışlar. ***Tuğ*** sözünün mənası haqqında müxtəlif fikirlər mövcuddur. L.Budaqov belə hesab edir ki, ***tuğ*** **(*tuk*)** fars dilində "*dağın başı*" deməkdir. T.A.Jdankoya görə ***tuk*** "*kök*", "*rişə*" anlamındadır. N.A.Baskakova görə isə ***tuğ*** sözü "*hakimiyyət rəmzi*" mənasındadır. Böyük ədibimiz M.F.Axundov ***Tuğ*** sözünün tatarca "*bayraq*" anlamlı söz olduğu fikrində olmuşdur. M.Seyidov "***tuğ"***un "*bayraq*" mənası ifadə etdiyini qəbul edir. ***Tuğ*** - bayraq və sancaqdan fərqli nişan idi. Tuğların sayı vəzifədən asılı olaraq artırdı. İrəli çəkilənlərə bayraqdan savayı ***tuğ*** da təqdim olunurdu. Ensiklopedik lüğətdə **tuğ** sözünün mənası "*bayraq*" anlamı ilə izah olunur. Qədim türk tayfalarında hakimiyyət kateqoriyasından asılı olaraq bir qotazlı ***tuğ*** sancaqbəyi, iki qotazlı bəylərbəyi, üç qotazlı paşa rəmzi hesab olunmuşdur. Azərbaycanın coğrafi adlar üzrə terminologiyası ilə məşğul olan mütəxəssislərin əksəriyyəti Yuxarı Qarabağın (Xocavənd rayonu) ***Tuğ kəndinin*** adını məhz əslən türk sözü olan ***tuğ*** - "*bayraq*" mənası ilə izahlandırırlar. ***Tuğ*** sözü dilimizin Oğuz bölgə danışığında həm də "*qamış saçaqlarından hazırlanmış yumşaq süpürgə*" anlamındadır. Böyük hərbi orkestrlərdə küylü musiqi aləti bəzəyinə də ***tuğ*** deyilirdi. "*Qarabağnamə*" müəllifi M.C.Cavanşir Qarabağı ***Tuğ*** toponimini ***Tuq*** şəklində vermişdir. VI əsrdə Türküstanda, sonralar isə Qıpçaq çölündə yaşayan tuğlar tədricən geniş bir əraziyə yayılmışdılar. M.Kaşgarlı *"Divani-lüğət-it-türk"* əsərində ***tuqer*** qəbiləsinin adını çəkib. 1727-ci il "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı mənbədə ***Tuğ*** kəndinin də adı çəkilir. Həmin mənbədə Qarabağda ***Toqan*** (Dizaq mahalı) adına da rast gəlirik. Çox ehtimal ki, ***Tuğ*** sözü ulularımızın min rəqəmini ən çox say hesab etdikləri dövrdə etnonimləşibdir. Qədim tarixə malik olan cənnətməkan ***Tuğ kəndı*** **31 oktyabr 1991-ci il** tarixdə ermənilər tərəfindən işğal olunmuşdu. ***9 noyabr 2021-ci il*** tarixdə ***Tuğ kəndi*** və ***Tuğ yalı*** erməni işğalçı qüvvələrindən azad edilmişdir.

Tuluslu dağ – Cəbrayıl rayonu ərazisindəki dağlardan biri də ***Tuluslu dağ*** (bəzən sənədlərdə adı ***Tulusludağ*** kimi də yazılır) adlanır. Dağın adına ***Tulusdağ*** və ya ***Tülüsdağ*** da deyirlər. Bu dağın hündürlüyü ***530*** metrdir. ***Dağ*** yaxınlıqdakı ***Tulus*** kəndinin adı ilə əlaqədar belə adlanmışdır.

Tumas-Ata ziyarətgahı – Cəbrayıl rayonunda, Tumaslı dağının zirvəsində, Qazanzəmi kəndinin yaxınlığında daş hasara alınan və üzü günəşə dəfn olunan qəbir ***Tumas-Ata ziyarətgahı*** adlanır. Mənbələrin verdiyi məlumatlara görə, miladdan öncə VI – V əsrlərdə tayfa başçısı olan ***Tumas*** adlı igid qəhrəman düşmənlər ilə gedən döyüşdə yaralanır və düşmənin əlinə keçməmək üçün dağlara çəkilir. Qan itirə**-**itirə dağın zirvəsinə qalxır və burada canını tapşırır. Tumasın silahdaşları qan izi ilə gələrək onun cəsədini tapırlar və meyiti bu dağın zirvəsində dəfn edirlər. ***Tumas-Ata*** haqqında çoxlu əfsanələr, rəvayətlər vardır. Bir rəvayətə görə, ***Tumas*** atagil ***3*** qardaş olublar: ***Tumas Ata, Günəş Ata, Çəpik Ata***. Onlar Hacı Qaramanın övladlarıdır. Günəş Atadan və Tumas Atadan fərqli olaraq Çəpik Atanın uşağı olmayıb. Ona görə də yerli camaat bəzən and içəndə "*Sonsuz Çəpik Ata haqqı*" deyir. ***Tumas*** sözünün etimologiyası ilə bağlı müxtəlif fikir və mülahizələr vardır. Bəzi araşdırıcılar ***Tumas*** sözünü mənşə etibarıyla ***Tomris*** adı ilə əlaqələndirirlər. Bir qisim tədqiqatçılar isə ***Tumas Atanı*** vaxtilə Şumerdə yaşamış türk tayfalarından birinin nüfuzlu başçısı hesab edir. ***Tumas*** sözünün tərkibindəki ***as*** komponentini (***tum*** + ***as***) ***as*** türk tayfası ilə (***atam*** + ***as***) bağlayanlar da var.

Tumas bağı – Cəbrayıl rayonunda, Dağ Tumas kəndinin yaxınlığında, kəndin cənub hissəsində, Tumas bulağının altında, dağətəyi ərazidə qeydə alınan oroqrafik obyekt ***Tumas bağı*** adlanır.

Tumas qayası – Cəbrayıl rayonu ərazisində qeydə alınan oronimlərdən biri ***Tumas qayası*** adlanır.

Tumaslı dağı – Cəbrayıl rayonu ərazisində, Sirik kəndi yaxınlığında, dəniz səviyyəsindən 1 600 metr yüksəklikdə, Dağ Tumas kəndinin şimalında yerləşən oronim ***Tumaslı dağı*** adlanır. ***Tumaslı dağı*** yaxınlıqda yerləşən eyniadlı yaşayış məntəqəsinin adı ilə əlaqədar belə adlanmışdır. Bəzən dağın adına ***Tumas dağı*** da deyirlər. ***Tumas Atanın*** adı ilə bağlı olan bu coğrafi ad patronimik oronimlərdəndir. ***Tumaslı*** tirəsi XIX əsrdə maldarlıqla məşğul olmuş ellərdən biridir.

Turşsu müalicə-istirahət guşəsi – Şuşa rayonunun ərazisində, Şuşa şəhərindən 29 kilometr məsafədə, Qarabağ silsiləsində, Şuşa-Laçın avtomobil yolunun üstündə yerləşir. Turşsu müalicə-istirahət guşəsinə yaz-yay-payız aylarında nəinki təkcə Şuşadan, həm də respublikamızın digər guşələrindən də gəlib, burada alaçıq quraraq həftələrlə, aylarla müalicə olunurdular. Daşaltı çayının lap yanında yer altından çıxan suda xəstə adamlar vanna qəbul edərdilər.

Tutqu yeri – Cəbrayıl rayonu ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Tutqu yeri*** adlanır. Bu söz ilə bağlı müxtəlif fikir və mülahizələr vardır. Orta əsrlər və son dövrlərdə qoluzorlu xanlar, bəylər, ağalar qonşularının zəifliyindən istifadə edib onların torpaqlarını ələ keçirirdilər. Bu cür işğal edilmiş torpaqlar da ***tutqu*** adlanırdı. Erkən çağlarda türk tutqularını ***tutuq*** adlanan hakimlər idarə edirdilər.

Tutu qalası – Cəbrayıl rayonunda, Nüzgər kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Tutu qalası*** adlanır.

Tükəzban piri – Şuşa rayonunun Malıbəyli kəndində qeydə alınmış oroqrafık obyekt.

Türk təpəsi – Ağdam rayonunun Baş Qərvənd kəndi ərazisində qeydə alınmış ***Türk təpəsi*** coğrafi adı da ***türk*** etnonimi ilə əlaqədar yaranmışdır. Oronim XX əsrin 18-ci ilində türk qoşunlarının azərbaycanlıları ingilis işğalçılarından qorumaq məqsədilə Azərbaycana gəlməsi zamanı yaranıb-formalaşıb: Bu ərazilərdəki döyüşlərin birində *(bu döyüşlərdə Nuru paşanm müşaviri Əhməd bəy Ağayev idi)* türk sərkərdələrindən biri həlak olmuş və onu Ağdam rayonunun Baş Qərvənd kəndindəki bu təpədə dəfn etmişlər. Elə həmin zamandan da bu təpəyə el arasında ***Türk təpəsi*** deyilmişdir.

Türkeş (*Tirkeş*) meşəsi – Xocavənd rayonunun Banazor kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Türkeş*** (***Tirkeş***) ***meşəsi*** adlanır. Bir çox toponimçilərə görə, ***türkeş*** oykonimi Çin, Tibet və Dağlıq Altayda yaşayan eyniadlı tayfalarla birbaşa bağlıdır. Bəzi tarixi sənəd və materiallardan da aydın olur ki, ***türkeşlər*** monqolların tərkibində müxtəlif tarixi dönəmlərdə Azərbaycana, o cümlədən Qarabağa gəlmiş və burada yaşadıqları ərazilərə, məntəqələrə öz tayfalarının adlarını vermişlər. ***Türkeşlər*** vaxtilə qıpçaq tayfaları ilə qaynayıb-qarışmış və nəticədə bu tirə yaranmışdır. Bu mənada ***Türkeş*** (***Tirkeş***) adını qıpçaqlara məxsus olan tayfa (*tirə*) qolu kim izahlandırmaq daha inandırıcıdır. Tarixi materiallardan məlumdur ki, V – VIII əsrlərdə Çindən İrana qədər böyük bir ərazidə güclü türk xaqanlığı mövcud olmuşdur. Xaqanlığın tərkibində ***türkeş***, *tele, tubo, dulu, şato, kuzen, çelkan* və s. adlı türk tayfaları birləşmişdir. Bu etnonimlərin hamısının Azərbaycan toponimiyasında öz izləri vardır. Tarixçi-tədqiqatçı Qiyasəddin Qeybullayev ***türkeş*** tayfasını ***Baharlı*** oymağının bir qolu hesab edir.

Türkeş (*Tirkeş*) yurd yeri – Vaxtilə Xocavənd rayonunda, Banazor kəndi yaxınlığında qeydə alınmış coğrafi adlardan biri ***Türkeş yurd yeri*** adlanmışdır. 1593-cü ilə bağlı olan Osmanlı qaynağında Dizaq nahiyəsində ***Tirkeş*** adlı kəndin olduğu göstərilir. 1797-ci ildə Ağaməhəmmədşah Qovanlı-Qacarın Qarabağa yürüşündə viran etdiyi mülklərin siyahısında Dizaq mahalının Türkeş (*Tirkeş*) kəndinin də adı açıqlanır.

Uluqaya – Xocavənd rayonunun Cəmiyyət kəndi yaxınlığında qeydə alınmış oronimlərdən biri ***Uluqaya*** adlanır.

Umay daşı, **Umay qayası** – Laçın rayonunda, Qaracanlı kəndi ərazisində qeydə alınan ***Umay daşı, Umay qayası*** coğrafi adları kifayət qədər böyük maraq kəsb edir. Əski inanclara görə, ***Umay daşı, Umay qayası*** dərdi-bəlanı qovub-uzaqlaşdırır. Bu daşı parçaya tikib uşağın üstündən asırdılar. *Umay daşını evdə* də saxlayardılar. Uşaqları himayə edən Umay daşı dərdi, bəlanı qovan dağla, daşla ilişkələnərkən o daha güclü mif inamına, tanrıya çevrilir. Türk xalqlarının mif inancına görə, insan odu daşdan almış, daşla oda inamı çox vaxt ilişkəli, qarşılıqlı şəkildə düşünmüşdür. Qədim türk xalqlarının mifologiyasında. ***Umay*** adlı doğum və uşaqları himayə ilahəsi mövcud olmuşdur. Göydən yerə enəndə ***Umay*** özü ilə ağac gətirmişdir. Ağac - nəsil artımının rəmzidir. Uşağı olmayan və ya xəstə olan analar bura gəlib ***Umay*** daşından şəfa dilərmişlər. Bir çox Şərq xalqlarının mifologiyasında ***Hüma*** adlı quş da mövcuddur. Əfsanəyə görə, onun kölgəsi kimin başına düşərdisə, xoşbəxt olardı. Bizdə də bəzi nağıllarda buna oxşar süjetlər var (*quş kimin başına qonarsa, onu padşah seçirlər və s.*). Bu mifoloji təsəvvürlərin təsiri ilə yaranmış azərbaycanlı qız adı ***Humay*** *"xoşbəxtlik gətirən"* anlamı ilə mənalandırılır. Umay od ilahəsi geniş anlama malik olmuşdur. Əski türklər uşaq doğularkən onun ruhunu, uşağın göbəyini umay adlandırmışlar. ***Umay qayası*** adını bəzi sənəd və materiallarda ***Humay qayası*** formasında da yazırlar. İndi də ***Humay*** quşuna bəzən ***Umay*** deyilir.

Urandağ – Xocavənd rayonunun ərazisində qeydə alınan coğrafi adlardan biri ***Urandağ*** (***Uryandağ***) adlanır.

Uşaq qəbri – Cəbrayıl rayonunun Mənsümlü kəndinin yaxınlığında, kəndin Pirabid dərəsi deyilən sahəsinin gündoğan üzündə qeydə alınan oroqrafik obyektlərdən biri Uşaq qəbri adlanır. Yerli məlumata görə bu qəbirdə böyük övliyalardan olan Əli Çələbinin Suqra Çələbidən doğulan və 5 aylığında dünyasını dəyişən Yasin adlı körpəsi dəfn olunduğu üçün toponim belə ad almışdır.

Uyuqlu dağ – Qubadlı rayonunun ərazisində, Azərbaycanla Ermənistan sərhədində yerləşən dağ. Dağın əsl adı ***Oyuqlu*** kimi sənədləşdirilmişdir.

Uzundərə – Respublikamızda formalarına görə adlanmış oronimlər yüzlərlədir. Onlardan biri də Ağdam rayonunun Suma kəndi yaxınlığında qeydə alınan ***Uzundərə*** oroqrafık obyektidir.

Uzuntəpə – Füzuli rayon mərkəzindən 9 km şimal-şərqdə, Köndələnçayın sağ sahilində yerləşir; m. ö. III minilliyə - ilk Tunc dövrünə aid yaşayış yeri hesab olunur. Uzuntəpənin uzunluğu 200, eni 60 metrdir. Hündürlüyü 1,2 metrdir. Təpənin yamacları mailidir. 1967-1968-ci illərdə aparılan arxeoloji tədqiqatlar zamanı oradan daş toxalar, çaxmaqdaşıdan oraq dişləri, dən daşları, küp, çölmək, cam, süzgəc, boyalı qab qırıqları *(İlk və Orta Tunc dövrlərinə aid)* və s. tapılmışdır. Uzuntəpədən açıq, boz, qırmızı rəngli gil qab nümunələri, xarici səthi cilalanmış, daxili səthi isə azacıq hamarlanmış qab qırıqları, kiçik ölçülü zoomorf heykəlciklər və s. aşkar edilmişdir. Uzuntəpə materialları göstərir ki, burada o zamanlar əhali oturaq əkinçi-maldarlıq təsərrüfatı ilə məşğul olubdur. Buradan istər yerüstü axtarış, istərsə də, kəşfiyyat qazıntısı zamanı əldə olunan maddi mədəniyyət nümunələri gil və daş məmulatından ibarətdir. ***Uzuntəpə*** ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidəsi hesab olunur.

Üçqardaş dağı – Araz çayının sahilində, Cəbrayıl rayonu ərazisində, Böyük Mərcanlı kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Üçqardaş*** (*bəzən bu coğrafi ad* ***Üç qardaş*** *formasında da yazılır*) adlanır. Bu coğrafi adla bağlı belə bir əfsanə var: Onlar ***üç qardaş*** olublar. Necə olursa onları bir gün gavur qovub. Gəlib dağın başına çıxıblar. Görüblər ki, daha əlac yoxdur; gavur bunları tutacaq. Odur ki, üzlərini Allaha tutub deyiblər: "*Allah, ya bizi quşda, ya bizi daşda*". Duaları qəbul olunur. Allah bunların ikisini daş eləyir. Axırıncı daş oluncaya qədər gavur özünü ona yetirir. Artıq onun başı və boynundan başqa hər yeri daş olmuşdu. Gavur onun başını vurur. ***Üçü*** də elə daş olur. Ondan da belə qalıbdır – ikisi başlı, biri başsız. Sonralar bu oroqrafik obyekt inanc yerinə çevrilib.

Üçqardaş piri – Cəbrayıl rayonunda, Dağtumas kəndinin yaxınlığında, Tanqut bağında qeydə alınan oroqrafik obyektlərdən biri ***Üçqardaş piri*** adlanır.

Üçmıx dağı, Üçmüx təpəsi – Şuşa şəhərində, "Cıdır düzü"nün qərb tərəfində qeydə alınan oroqrafık obyekt. ***Uçmıx dağı, Üçmıx təpəsi*** bir-birinin arxasında yerləşən pilləkənə oxşar ***üç*** hündürlükdən, hündür təpələrdən ibarətdir. Təpələr uzaqdan sanki ***mıxa***, mismara bənzəyir.

Üçocaq yalı – Füzuli rayon mərkəzindən 12 km şərqdə, Qaraxanbəyli kəndində qeydə alınıb.

Üçtığ dağı – Xocalı və Laçın rayonları sərhədində, Qarabağ silsiləsində yerləşən dağ. Dağın hündürlüyü 2576 metrdir. Dağın döşündə yay otlaqları vardır.

Ürgan dağı – Füzuli rayonunun Yuxarı Veysəlli kəndi ərazisində, Dilağarda kəndindən 4 km məsafədə qeydə alınan coğrafi adlardan biri ***Ürgan dağı*** adlanır. Bu toponim çox güman ki, azacıq təhrifə məruz qalıb. Əslində ***Üryan*** *("bitkisiz", "otsuz", "lüt")* olmalıdır.

Üryandağ – Xocavənd rayon mərkəzindən 9 kilometr cənubda, Füzuli rayonunun Dilağarda kəndi ilə həmsərhəd ərazidə qeydə alınan coğrafi adlardan biri ***Üryandağ*** adlanır. Dağın maksimal hündürlüyü 580 metrdir. Oronim tərkibindəki ***üryan*** sözü ərəb dilində "*lüt, bitkisiz, çılpaq*" anlamındadır.

Üryandağ – Laçın rayonu ərazisində qeydə alınan oronimlərdən biri də ***Üryandağ*** adlanır.

Üzərlikdərə – Xocavənd rayonunun Muğanlı və Qaraçuq (*Kuropatkin*) kəndləri yaxınlığında qeydə alınmış oroqrafik obyektlərdən biri ***Üzərlikdərə*** adlanır. Yerli sakinlərin dediyinə görə ***Üzərlikdərə*** ərazisində tunel-mağara xarabalığı mövcuddur.

Üzərliktəpə – M. ö. II minilliyin birinci yarısı və ortalarına aid olan Xındırıstan kəndi yaxınlığındakı ***Üzərliktəpə*** arxeoloji abidəsi Ağdam şəhərinin şərqindədir. Hündürlüyü 10 metrə çatan bu təpənin sahəsi 2 hektardır. Zaqafqaziyada arxeoloji cəhətdən öyrənilən bu nadir abidənin mədəni təbəqəsinin qalınlığı 3 metr olub, tikinti qalıqları, keramika və daş materialı ilə zəngindir. Buradakı yaşayış yerindən yığma oraqlar, gil qablar, dən daşlan, təsərrüfat quyuları, sürtkəclər, həvəngdəstələr, sümük iy başlıqları, tunc əşyalar, bilərzik, xəncər, iynə və s. materiallar tapılmışdır. Bir sıra əlamətlərinə görə ***Üzərliktəpə*** İlk Tunc dövrü Kür**-**Araz mədəniyyəti ilə müəyyən əlaqə yaratsa da, onların keramika məmulatı ornament xüsusiyyətlərinə görə bir-birindən fərqlənir.

Üzərliktəpə, Üzərliktəpə şəhər yeri – Xocalı rayonu ərazisində qeydə alınmış arxeoloji oroqrafik obyekt. Həlməlkimilər fəsiləsindən bitki cinsi olan uzərliyin adı ilə əlaqədardır. Xocalıdakı Üzərliktəpə şəhər yeri kompleksi Qarabağ abidələri silsiləsi içərisində özünəməxsus yer tutur. İbtidai təsərrüfat, sənətkarlıq sahələri haqqında çox qiymətli mənbə olan bu yaşayış məskəni miladdan əvvəl II minilliyin birinci yarısına aid edilir.

Varazğun yeri – Qarabağ yaylasının axar-baxarlı yerində, Laçın rayonu ərazisində, Ağoğlan çayı sahili yaxınlığında, Mişni və Bozlu kəndləri arasında qeydə alınmış sahə. Orada aparılan tədqiqatlar göstərir ki, bu yerlər qədim yaşayış məskənlərindəndir. Ərazidə Alban dövrünə aid abidə də aşkar olunmuşdur. Laçın rayonunun **Əhmədli (*Molla Əhməd)*** kəndi əvvəllər Varazğun yeri deyilən ərazidə olmuşdur. Kənddə orta əsr abidələrindən olan qədim tarixi məbəd də var. Toponimi müxtəlif cür izah etmək istəyən araşdırıcılar var. ***Varazğun*** toponiminin dəqiq-elmi izahı hələlik məlum deyil.

Vəli piri – Cəbrayıl rayonunun ərazisində, Dağtumas kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Vəli piri*** adlanır. Bəzən onun adına ***At piri*** də deyirlər. ***Vəli piri*** sal daş üzərində bitən saqqız ağacından ibarətdir. Bu ***pir*** ilə üzbəüz *Nərgiz piri* də yerləşir. Rəvayət edirlər ki, bir zamanlar ***Vəli*** ilə ***Nərgiz*** sevgili olublar. Amma onlar bir**-**birləri ilə qovuşmayıblar. Gənc ikən nakam bu dünyanı tərk ediblər. Deyilənə görə pirlər sevgililərin qəbir yerləri yox, nişangahlarıdır. Əfsanəyə görə ***Vəli*** həm də yaxşı *at* həvəskarı, atabaxan olmuşdur. Atlar xəstələnəndə sahibləri onları ***Vəli pirinə*** (*At pirinə*) gətirər, pirin başına dolandırar və atlar pirin kəramətindən sağalarmışlar.

Vəng məbədi – Xocavənd rayonunun ərazisində, Tuğ kəndindən 4 kilometr məsafədə qeydə alınan oroqrafik obyektlərdən biri ***Vəng məbədi*** adlanır. Bu ***məbəd*** qədim alban abidəsi hesab olunur. Toponimin tərkibindəki ***Vəng*** oykoniminin izahı ilə bağlı müxtəlif fikir və mülahizələr var. Bəzi sənədlərdə oykonimin adına ***Vanq, Vanklu*** formalarında da rast gəlirik. ***Vank*** (***Vanq, Vəng***) sözü "*kilsə*", "*monastr*" mənasındadır. ***Vanklu*** coğrafi adı "*kilsəli*" anlamındadır. ***Vəng*** yaşayış məntəqəsi oradakı XIV-XV əsrlərə aid xristian məbədinə (***Vəng***) görə belə adlandırılmışdır. Azərbaycan Respublikasının İsmayıllı və Kəlbəcər rayonlarında da ***Vəng*** adlı kəndlər vardır. *1727-ci* ilə aid olan "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı Osmanlı tarixi sənədlərdə Dizaq nahiyəsinə tabe olan yaşayış məntəqələri sırasında ***Vəng kəndi*** adına da rast gəlirik. Ancaq nədənsə həmin "*dəftər*"də kənddə heç kimin yaşamadığı göstərilmişdir.

Vərəndə mahalı, Vərəndə məlikliyi – Yuxarı Qarabağın tarixi "***Vərəndə mahalı*** *ərazisi Kirs dağından başlayaraq Əlibaba düzənliyinə qədər uzanır. Eni Kirs dağından Şuşakən çayına və Xəlfəliyə qədərdir*" ("Qarabağnamələr", II kitab, Bakı, "Yazıçı", 1991, səh.13). Mahalın başçısı 1650-ci ildən Məlik Şahnəzər Məlik Bağı oğlu olmuşdur. 1708-ci ildə Gəncə-Qarabağ bəylərbəyi Uğurlu xan Ziyadoğlu-Qacar təliqə ilə III Məlik Şahnəzəri ***Vərəndə*** mahalının məliyi təsdiq edir. III Məlik Şahnəzərdən sonra ***mahala*** qardaşı Məlik Mirzəbəy başçılıq etmişdir. 1722-ci ildə II Təhmasib Səfəvinin fərmanı ilə Vərəndə mahalına Məlik Bağır Məlik Mirzə bəy oğlu başçı təyin olunur. 1727-ci ildə II Təhmasib Məmməd Hüseyn bəy Məlik Şahnəzər oğlunu mahala məlik təyin edir. Sonra mahala Məlik Mirzəbəy Məlik Bağır oğlu başçılıq etmişdir. Nadir şah Qırxlı-Avşar Məlik Mirzəbəyi edam etdirir. Onun qardaşı Həsən bəy Vərəndə mahalına *məlik* təyin olunur. 1747-ci ildə Məlik Hüseynin oğlu Şahnəzər bəy əmizadəsi Məlik Həsəni öldürüb Vərəndə mahalının hakimi olur. IV Məlik Şahnəzər Qarabağ xanı Pənahəli xana itaət edir. O, 1791-ci ilədək Vərəndəyə başçılıq edir. İbrahimxəlil xan arvadı Hürzad xanımın (*Məlik Şahnəzərin Sona xanımdan olan qızı*) xatirinə qardaşı Hüseyn bəyi mahala başçı təyin edir. Xanın bu seçimi varislər arasında dartışmaya səbəb olur. Cahanbəxş bəy (*Məlik Şahnəzərin digər oğlu*) İrana qaçaraq Ağaməhəmməd xandan məliklik fərmanı alır. Qarabağa qayıdanda təklənir. Hüseyn bəy qardaşının evinə hücum edib onun əmlakını mənimsəyir. Cahanbəxş bəy qardaşı Cahangir bəylə Şirvana, Mustafa xan Xançobanlının yanına qaçır. 1791-ci ildə İbrahimxəlil xan işin yoğunlaşdığını görüb Məlik Şahnəzərin başqa bir oğlu Cümşüd bəyi Vərəndə mahalına *məlik* təyin edir. Məlik Cümşüd yerini möhkəmləndirdikdən sonra asi olan yağı məliklərlə (*Məcnun, Abov, Rüstəm*) bir araya gəlib, İbrahimxəlil xanın əleyhinə birlik yaratmağa başlayır.

İbrahimxəlil xan onu Qarabağdan qovur. 1805-ci ildə Məlik Cümşüd Qarabağa, Vərəndə mahalına qayıdır və çox keçmir ki, öyrətməsi ilə İbrahimxəlil xanın axırına çıxır. Orta əsrlərdə Qarabağın dağlıq ərazisində yaranmış kiçik feodal hakimliyindən biri ***Vərəndə məlikliyi*** adlanır. Səfəvilər zamanında ***Vərəndə məlikliyi*** Qarabağ bəylərbəyiliyinə daxil idi. XVIII əsrin ortalarından ***Vərəndə məlikliyi*** Qarabağ xanlığının vassalına çevrildi. Tarixi sənədlərdə qeyd olunur ki, əslən Göyçə əsilzadələrindən olan ***Vərəndə məliyi*** Şahnəzər Qarabağdakı digər məlikləri özünə tabe etməyə çalışan Pənahəli xana köməklik göstərmişdir. Müasir Xocavənd və Xocalı rayonlarının ərazilərinin bir hissəsi Qarabağın keçmiş ***Vərəndə*** mahalını əhatə edir. Əksər tarixi məlumatlara görə, ***Vərəndə*** toponimi IX əsrdə qıpçaqların tərkibinə ***vərəndə*** kimi daxil olan tayfa adı ilə əlaqədar yaranmışdır. Görünür, həmin dövrlərdə bir sıra başqa tayfalarla yanaşı, ***Vərəndə tayfası*** da qədim Albaniya ərazisində təşəkkül tapmışdır.

Yaxın pir – Cəbrayıl rayonunda, Söyüdlü kəndinin yaxınlığında, kəndin qəbiristanlıq ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Yaxın pir*** adlanır. Bu *pir* yeri digərlərindən fərqlənən tək qəbirdir. Bu qəbirin kimə məxsus olması məlum deyildir. ***Yaxın pir*** işğala qədər (*1993-cü ilədək*) söyüdlülərin müqəddəs *inanc* yeri olmuşdur.

Yalaşan piri – Cəbrayıl rayonunun ərazisində, Göyərçin Veysəlli kəndinin köhnə yurd yerində qeydə alınan oroqrafik obyektlərdən biri ***Yalaşan piri*** adlanır. ***Yalaşan piri*** daş qalağından ibarət bir hasardır. Yerli məlumata görə, vaxtilə burada övliya Şıx Hacı Qasım Çələbi namaz qılıbdır.

Yalavlıq – Cəbrayıl rayonunda, Dağ Tumas kəndindən 4 kilometr aralıda, Sarı yoxuşun gündoğan üzündə, Qarağac kəndinə gedən yolun sarı torpaqlı hündür aşırımı yaxınlığında qeydə alınan oronimlərdən biri ***Yalavlıq*** adlanır. Qarabağ dialektinin Cəbrayıl şivəsinə də uyğun olaraq toponimin tərkibindəki ***yalav*** komponenti çox güman ki, ***alov*** sözünün təhrif edilmiş formasıdır.

Yaldakı pir – Cəbrayıl rayonunda, Şahvəlili kəndinin ərazisində, köhnə poçt yerindən İsaqlı oymağına aşan yalın üstündə qeydə alınan oroqrafik obyekt ***Yaldakı pir*** adlanır.

Yanartəpə – Laçın rayonunda qeydə alınmış ***Yanartəpə*** oronimindəki ***yanar*** sözü həmin təpədən *yanar* qazın çıxması ilə əlaqədardır.

Yarğan dağı – Cəbrayıl rayonu ərazisində, Göyərçin Veysəlli kəndinin yaxınlığında qeydə alınan oronimlərdən biri ***Yarğan dağı*** adlanır. Yerli əhali bu coğrafi adı çox zaman ***Yarırğan*** şəklində də işlədir.

Yaryurdu – Xocavənd rayonunun Muğanlı kəndi ərazisində qeydə alınan oronimlərdən biri ***Yaryurdu*** adlanır.

Yasin Çələbi ocağı – Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərən biri də ***Yasin Çələbi Ocağı*** adlanır.

Yastı çaxmaq daşı – Cəbrayıl rayonunun ərazisində, Ümürlü düzünə qalxan yolun kənarında, Dalaq daşı ilə üzbəüz ərazidə qeydə alınmışdır.

Yaz yurdu – Xocavənd rayonunun Muğanlı kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri ***Yaz yurdu*** adlanır. Toponim bir qədər təhrifə məruz qalıb; əslində ***Yazı yurdu*** olmalıdır.

Azərbaycan oronimiyasında rast gəldiyimiz ***yazı*** sözü qədim türk dillərində "*çay kənarı çöl, düzən*" anlamındadır. ***Yaz yurdu*** toponimi "*çay kənarındakı çöldə yurd yeri*" mənasındadır.

Yazı çölü – Cəbrayıl rayonunun ərazisində qeydə alınan coğrafi adlardan biri ***Yazı çölü*** adlanır.

Yazı düzü – Qubadlı rayonunda, Bərgüşad (Bazarçay) və Həkəri çayları arasında düzənlik.

Yazılı daş – Cəbrayıl rayonu ərazisində, qədim yaşayış məskəni olmuş Yalyurddakı *Qulu bulağı* ətrafında qeydə alınmış maraqlı oroqrafik obyektlərdən biri ***Yazılı daş*** adlanır. Adına bəzən ***Daş piri*** də deyirlər. ***Yazılı daş*** dedikdə bu bulağın növü və onun üzərində yazılmış ***yazı*** nəzərdə tutulur. ***Daş*** kitabədə olan ***yazı*** böyük Şıx Hacı Alı Çələbi tərəfindən yazdırılmış *Quran* ayəsidir. Yerli camaat bu *Yazılı daşı* əziz tutaraq onu müqəddəs hesab edir.

Yeddi kilsə – Xocalı rayonunun ərazisində, Meşəli kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Yeddi kilsə*** adlanır. Onun adını bəzən sənədlərdə ***Alban kilsəsi*** şəklində də yazırlar. Adından da göründüyü kimi, burada bir neçə ***kilsə*** (*alban məbədi*) olduğu üçün toponim belə ad almışdır.

Yeddi təpə – Ağdam rayonunun ərazisində qeydə alınmış oroqrafik obyekt.

Yeddixırman dağı – Ağdam rayonu ərazisində, Xıdırlı kəndi yaxınlığında qeydə alınan oronimlərdən biri ***Yeddixırman dağı*** adlanır. Xaçın çayının sağ sahili tərəfdə yerləşən bu dağın hündürlüyü 898 metrdir. ***Dağ*** vaxtilə Xaçın çayının üstündə *yeddi su dəyirmanı* olduğuna görə belə adlanmışdır. Adətən əvvəllər dəyirmanların yaxınlığında ***xırman*** da olardı.

Yeddiqardaş dağı – Füzuli rayon mərkəzindən cənubda, Qarakollu kəndi yaxınlığında dağ.

Yeddiqardaş dağı – Xocavənd rayonunun Qoçbəyli (*Küşbək*) kəndi yaxınlığında dağ.

Yeddilər piri – Cəbrayıl rayonunda, Quşçular kəndinin ərazisində, kəndin günbatan girəcəyində qeydə alınan ornimlərdən biri ***Yeddilər piri*** adlanır. Bu ***pir*** tək armud ağacından və onun həndəvərindəki ***7*** böyük daş hərləmələrdən ibarətdir.

Yeddişalban təpəsi – Laçın rayonunun Ağoğlan kəndində qeydə alınan oronim.

Yedditəpə abidələri – Füzuli rayon mərkəzindən 6 km şimal-şərqdə, Mirzəcamallı kəndi yaxınlığında yerləşir. O, Tunc dövrünə aid arxeoloji abidə hesab edilir. ***Yedditəpə*** 20-yə yaxın kurqandan ibarətdir. 1972-ci ildə arxeoloji qazıntılar zamanı Yedditəpədən erkən orta əsrlərə və daha əvvəlki dövrlərə *(III – VI əsrlərə)* aid daş qutu qəbirlər aşkar edilmişdir. Qəbirlərdən gil, şüşə, tunc qablar, mis və gümüş bəzək əşyaları, heykəlciklər, musiqi alətləri (sinclər), nizə, balta, qılınc, xəncər, metal toqqa, zınqrov və s. tapılmışdır. ***Yedditəpə abidələri*** yerli tayfalara məxsus olub, onların İran, Roma və Bizansla iqtisadi və mədəni əlaqə saxladıqlarını göstərir. Divarları iri saldaşlardan hörülmüş bir sərdabənin sol tərəfində üzü gündoğana tərəf çevrilmiş bükülü vəziyyətdə olan gənc qadın skeleti yerləşir. Həmin qadının dirsəyindən qatlanan sol əli önündə gil kuzə, bir ədəd gümüş cam və mis qalıq qoyulmuşdur. Onun sol əlinin barmaq sümükləri üzərində mirvari qaşlı 2 bürünc üzük, gicgah sümükləri üzərində isə aypara şəkilli bir cüt sırğa vardır. Bel hissədə kəmərin gümüş və misdən düzəldilmiş müxtəlif təsviri olan tikmələri də vardır. Sərdabədən 2 kiçik dəmir xəncər, dəmir qalxan qırıqları, balta, digər silah nümunələri və bir nizə də tapılmışdır. Qəbirlərin birindən əldə olunan oturacağı çiçək şəklində böyük ustalıqla

qabarıq naxışlarla bəzədilmiş kiçik şüşə cam neçə əsrlər torpaq altında qalmasına baxmayaraq öz şəffaflığını itirməmişdir. Bu qədim maddi-mədəniyyət nümunəsi olan əsl incəsənət əsəri formasına görə Azərbaycanda ilk tapıntı hesab edilir. Qəbirlərdən tapılan incəsənət əsərləri içərisində dağ keçisi, qartal və s. fiqurları da vardır. Buradakı 2 qəbirdən qədim musiqi aləti də tapılmışdır. Dairəvi qoşa mis sinclərdən ibarət bu alətlər xalqımızın qədim musiqi tarixinə aid böyük əhəmiyyət kəsb edən yeni elmi dəlillərdir. Bəzi qəbirlərdə iri ölçülü təbii şəvə və şüşə muncuqlar, yaqutdan və qiyməli daş süxurlarından yonulmuş bəzək nümunələri, qaşı müxtəlif təsvirli kiçik möhürlü üzüklər, eləcə də metal bəzəklər aşkar olunmuşdur. Bir üzüyün üst hissəsində əllərini yuxarı qaldırmış uzun əbalı kahin təsvir olunmuşdur. Qırmızı rəngli yarımdairəvi bir möhürün üzərində mikroskopik ölçüdə şir başı təsviri və Sasani yazısı da həkk olunmuşdur. Şüşə qaşlı üzüklərdə vəhşi heyvan təsvirləri (maral və s.) çoxluq təşkil edir. *Yedditəpədən* xalqımızın unudulmuş qədim incəsənət və mədəniyyət salnaməsini öyrənib bərpa etmək üçün 500-ə qədər qiymətli maddi-mədəniyyət nümunələri aşkar edilmişdir. Açılmış qəbirlərin dövrü dəqiq öyrənilmiş və onların eramızın I minilliyinin ortalarına aid olduğu müəyyənləşdirilmişdir. Bu qəbirlərin həmin dövrdə Quruçay və Köndələnçay vadisində yaşamış yerli tayfalara məxsus olduğu aydınlaşdırılmışdır. Məhz bu tapıntılarla uzaq əsrlərin arxasında itib-batmış qədim və rəngarəng bir mədəniyyətin nişanələri üzə çıxarılmışdır. ***Yedditəpə*** oronimi ***yeddi*** say bildirən sözdən və ***təpə*** oronimik terminindən əmələ gəlib.

Yel ocağı – Füzuli rayonunun Horadiz kəndində qeydə alınan maraqlı coğrafi adlardan biri ***Yel ocağı*** oroqrafik obyektidir. Yerli əhali tərəfindən ziyarət yeri hesab edilən müqəddəs tapınaqlardan biri də Horadiz kəndində, təpəlik sahədə yerləşən ***Yel ocağı*** idi.

Yel piri – Xocavənd rayonunun Qaradağlı kəndi ərazisində qeydə alınmış oroqrafik obyektlərdən biri ***Yel piri*** adlanır. Bu ***pir-ocaq*** yerli əhali tərəfindən müqəddəs ziyarət yeri hesab olunurdu. Camaat bu müqəddəs tapınaq yerini əziz tutur, ona niyyət tutaraq nəzir verirdilər. Çox əfsuslar olsun ki, erməni təcavüzü nəticəsində rayonunun dağıntıya məruz qalmış mədəni və dini abidələri içərisində ***Yel piri*** də vardır.

Yelli gədik – Qarabağ silsiləsində, Qırxqız dağı ətrafında, Xocalı rayonunun ərazisində, Yaloba kəndi istiqamətində qeydə alınan oroqrafik obyektlərdən biri ***Yelli gədik*** adlanır.

Yelligədik – Füzuli rayon mərkəzindən 7 km şimalda, Füzuli- Xocavənd avtomobil yolunun kənarında, Dövlətyarlı, Qərvənd və Qobu Dilağarda kəndləri arasında yerləşir.

Yelliyurd – Laçın rayonu ərazisində qeydə alınan oronimlərdən biri ***Yelliyurd*** adlanır.

Yemişan piri – Cəbrayıl rayonunda, Papı kəndinin girəcəyində, Qaradağlı yurdu adlanan keçmiş əkin sahəsində qeydə alınmışdır.

Yengibar – Şuşa rayonunun ərazisində qeydə alınmış coğrafi ad.

Yenikənd sərdabəsi – Zəngilan rayonunda, Yenikənd ərazisində, Həkəri çayının sağ sahilində qeydə alınan oronimlərdən biri ***Yenikənd sərdabəsi*** adlanır. Bu oroqrafik obyekt rayonun ölkə əhəmiyyətli tarixi-memarlıq abidələrindən biridir. ***Yenikənd sərdabəsi*** XIV əsrə aid tarixi abidədir. Onun üst hissəsi uçmuşdur. Alt hissəsi isə dövrümüzə qədər gəlib çatmışdır. Çox təəssüf ki, ***Yenikənd sərdabəsi*** memarlıq abidəsi də işğalda qalan bəzi abidələrimiz kimi elmi şəkildə lazımi qədər öyrənilməmişdir.

Yezid xırmanı – Xocalı rayonu ərazisində, rayon mərkəzindən 17 kilometr məsafədə, Kərkicahan qəsəbəsindən 2 kilometr aralıda, Ərminavan (*Ərmiravan*) kəndinin üstündə, Xankəndi yaxınlığında yerləşən xırman yerli əhali arasında ***Yezid xırmanı*** adlanır. Xırmanın yerləşdiyi ərazidə yerdən 10-15 sm yuxarı qızılgül kolları bitərdi. Yerli ağsaqqalların dediklərinə görə, qızılgül kolları bitən o yerdə vaxtilə günahsız azərbaycanlıların qanı tökülüb. Həmin güllər də o qanlardan "*qidalanır*".

Yəhərtəpə dağı – Laçın rayonu ərazisində dağ. Kiçik Qafqazın hündür dağlarından biri (1404 metr). ***Yəhərtəpə dağı*** (bəzən ***Yağartəpə*** və ***Ağartəpə*** kimi də yazırlar) bu və ya digər əşyalara **(*yəhərə*)** oxşadığına görə ad almış oronimlərdəndir. ***Yəhərtəpə*** dağının yalı çökək, ***yəhər*** formasında olduğu üçün belə adlanmışdır. Köhnə rus xəritələrində və sənədlərində ***Yaqartepe*** kimi qeydə alınan bu dağın adı sonralar Azərbaycan dilinə ***Yağartəpə*** formasında çevrilmişdir.

Yolaşan piri – Cəbrayıl rayonunda, Göyərçin Veysəlli kəndinin yaxınlığında, köhnə yurd yerində qeydə alınan oronimlərdən biri ***Yolaşan piri*** adlanır. Bu oroqrafik obyekt daş qalağından ibarət hasardır. Yerli məlumata görə burada Şıx Hacı Qasım Çələbi namaz qılıbdır. İşğala qədər (*1993-cü ilədək*) ***Yolaşan (Yalaşan) piri*** ətrafda yaşayan əhali tərəfindən əziz tutularaq ziyarətgah hesab edilirdi.

Yorğan dərəsi – Xocavənd rayonunun ərazisində qeydə alınmış dərə.

Yovşanlı dərə – Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyekt.

Yuxarı dəyirman – Füzuli rayonunun Yuxarı Əbdürrəhmanlı kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Yuxarı dəyirman*** adlanır.

Yuxarı məhəllə – Şuşa şəhərində məhəllə. Şuşa şəhərinin ayrı-ayrı məhəllərinin tikilməsi təxminən *3* mərhələyə bölünür: birinci mərhələ XVIII əsrin 50-ci illərində şəhərin aşağı hissəsində məhəllələrin formalaşması, qala divarları və qəsrlərin tikilməsi; ikinci mərhələ XVIII əsrin 60-cı illərindən başlayaraq XIX əsrin əvvəllərinə qədər davam etmişdir. Bu dövrdə şəhərin ***yuxarı*** hissəsi tikilərək, oraya ***"Yuxarı məhəllə"*** adı verilmişdir. 1768-ci ildə Gövhər ağanın bərpa edib yeniləşdirdiyi Böyük Cümə məscidinin tikintisi də bu dövrə düşür; üçüncü mərhələ şəhər ərazisinin dərə-təpəli olan sahəsinin tikilməsi və burada salınan yeni məhəllələr dövrünü əhatə edir ki, bu da 1805-ci ildən sonrakı dövrə aiddir. Şuşanın ***Yuxarı məhəllə*** deyilən ərazisində ona yaraşıq verən onlarla qiymətli tarixi memarlıq abidələri var idi.

Yumurta təpə – Füzuli şəhərindən 5 kilometr məsafədə qeydə alınan oroqrafik obyektlərdən biri də ***Yumurta təpə*** adlanır.

Yurdlar – Xocalı rayonunun ərazisində, Kərkicahan qəsəbəsi yaxınlığında, qəsəbədən 1,5 kilometr məsafədə qeydə alınan coğrafi adlar içərisində ***Yurdlar*** oroqrafik obyektinə də rast gəlmək olar.

Yüz beş – Xocalı rayonunun ərazisində, Bozdağın ətəyində qeydə alınan oroqrafik obyektlərdən biri ***Yüz beş*** adlanır. Bu ərazi ***yüz beş*** hektar sahədən ibarət olduğu üçün belə adlandırılmışdır.

Yüzbulaq dagı – Kəlbəcər rayonunun ərazisində, Azərbaycan ilə Ermənistan sərhədində, Qarabağ yaylasında, Tərtər çayının mənbə hissəsində yerləşən dağ. ***Yüzbulaq dağının*** ən yüksək nöqtəsi olan ***Yüzbulaq*** zirvəsinin hündürlüyü 3320 metrdir. ***Yüzbulaq dağı*** Antropogenin andezit-bazalt lavalarından təşkil olunmuşdur.

Yüzbulaq zirvəsi – Kəlbəcər rayonunun ərazisində, Azərbaycan ilə Ermənistan sərhədində, Qarabağ yaylasında, Tərtər çayının mənbə hissəsində yerləşən zirvə. ***Yüzbulaq zirvəsinin*** hündürlüyü 3320 metrdir.

Zabux qayası – Laçın rayonunun ərazisində, rayon mərkəzindən 16 km cənubda, Zabux çayının sahilində, Qarabağ yaylasında, ***Zabux kəndi*** yaxınlığında qeydə alınan dağ. ***Zabux qayası*** yaxınlığdakı ***Zabux*** kəndinin adı ilə əlaqədar belə adlanmışdır. Onu da qeyd etmək lazımdır ki, əvvəllər ***Zabux*** yaşayış məntəqəsinin yerində iki ***Zabux*** adlı kənd olub. Onları bir-birindən fərqləndirmək üçün birinə ***Xut Zabux***, o birinə ***Sus Zabux*** deyilirdi. İndiki ***Zabux*** kəndinin əvvəlki adı ***Xut Zabux*** olub. "***Xut***" türk mənşəli söz olub, *"düşərgə"* deməkdir. ***Hut (Xut)*** sözü "*balıq bürcü*" mənasında da işlənir. Əfsanəyə görə, iğtişaş zamanı Yunis peyğəmbəri öz qarnında gizlədən nəhəng balığın adı da ***Hut*** (***Xut***) olmuşdur. ***Zabux*** toponimi ***zaboq*** sözü ilə əlaqədardır. ***Zaboq -*** *"döngə"* deməkdir.

Zağaaltı dağı – Laçın rayonunda, Qarabağ yaylasında, Kiçik Qafqazın Mıxtökən silsiləsinin yamacında yerləşir.

Zal yeri – Şuşa rayonunun ərazisində, Malıbəyli kəndinin şimal-qərbində qeydə alınmış oroqrafik obyekt.

Zaloylu təpə – Laçın rayonunun Zeyvə kəndi ərazisində qeydə alınan coğrafi ad. ***Zaloylu təpə*** oronimi ***Zaloylu*** və ***təpə*** sözlərindən ibarətdir. ***Zal*** sözü ərəbcə "*yaşlı adam, ağsaqqal adam*" deməkdir. Bəzi məlumata görə, vaxtilə ***zal*** adlı nəsil olub.

Zaman piri – Cəbrayıl rayonunun Çərəkən kəndi ərazisində, kəndin günbatanında, Çərəkən kəndindən Cəbrayıl rayonununa aşan piyada yolunun üstündə yerləşir. Bu ***pir*** yemişan kolundan və dibinə qalaq edilmiş daş topasından ibarətdir. *Pirlər* tarixən hələ uzaq bütpərəstlik dövründən məlumdur. Azərbaycanın bəzi zonalarında ***pir*** əvəzinə ***ocaq*** ifadəsi də işlədilir.

Zəngəzur silsiləsi – Azərbaycan Respublikasının Ermənistan ilə sərhədində yerləşən sıra dağlar. Şimalda Şahdağ və Murovdağ silsiləsinin bir-birinə qovuşduğu yerdə başlanır və Meridian istiqamətində 150 kilometr məsafədə uzanaraq cənubda Araz çayının yatağına çatır. ***Zəngəzur silsiləsi*** Kiçik Qafqazın şərq hissəsində ən hündür dağ silsiləsidir. Bu silsilənin bir sıra zirvələri 3 kilometrdən artığa yüksəlir və ilin çox vaxtı qarla örtülü olur. Bəzi araşdırıcılar dağın adını ***zəngi*** (***zəngə***) tayfa adı ilə bağlayırlar. Əsasən qranit və qranodoritlərdən təşkil olunduğundan oronimin qədim fars dilindəki ***zəng*** komponentinin ***səng*** ("*daş*, *qaya*") sözündən ibarət olması fikri daha ağlabatandır. Oronim ***zəng***, ***səng*** ("*daş*, *qaya*") və ***zur*** ("*uzun*") komponentlərindən ibarət olub, "*uzun qaya, daş*" anlamını ifadə edir.

Zərgərtəpə – Füzuli şəhərinin mərkəzindən 3 km şimal-qərbdə, dağətəyi ərazidə, Köndələnçayın sağ sahilində yerləşən təpə. ***Zərgərtəpə*** son Tunc dövrünə aid 1 hektar sahəsi olan yaşayış yeridir. ***Zərgərtəpə yaşayış yeri*** şimaldan Köndələnçay, cənubdan isə Quruçayın uçurumlu sahilləri ilə mühafizə olunur. Bu hissədə çaylar bir- birindən 1,5 km aralıda axır. ***Zərgərtəpə*** abidəsi 1965-ci ildə qeydə alınıb. Son tunc və ilk dəmir dövrlərinə aid bu yaşayış yeri yastı təpədən ibarətdir. 1965 və 1972-1977-ci illərdə arxeoloji qazıntılar zamanı Zərgər- təpədən qədim *əkinçi* tayfalarına məxsus çoxlu maddi mədəniyyət nümunəsi (*saxsı qablar, əmək alətləri və s.*) aşkar edilib. Əmək alətlərinə yastı çaydaşından hazırlanmış toxalar (*60-a qədər*), oraq dişləri, dən daşları və s. daxildir. Sap keçirmək üçün göz açılmış toxaların ağız hissəsi itiləşdirilmişdir. Toxanın ən böyüyünün dəstəyinin uzunluğu 20 sm-dir. *Zərgərtəpə* yaşayış yerindən və ətrafındakı əkin sahələrindən əldə olunan arxeoloji materialların böyük

bir qismi əkinçilik təsərrüfatı ilə bağlı olan əmək alətlərindən ibarətdir. Onların içərisində çoxlu *daş toxa, dən daşı, sürtkəc, oraq daşı* və s. vardır. Zərgərtəpədən yığılan daş toxaların (*onların sayı 50-yə yaxındır*) rolu böyükdür. Bu toxaların bir qismi ətrafdakı əkin sahələrindən aşkar edilmişdir. ***Zərgərtəpə*** abidəsindən hər iki üzü qəlpələnib itiləşdirilən toxalar da tapılmışdır. Zərgərtəpədən tapılan maddi mədəniyyət nümunələrinin əsasını daş toxalar təşkil edir. ***Zərgərtəpə*** tapıntılarının Azərbaycanın qədim əkinçilik təsərrüfatlarının xüsusiyyətlərini öyrənmək üçün çox böyük əhəmiyyəti vardır. ***Zərgərtəpə tapıntıları*** bunu deməyə əsas verir ki, bu ərazilər orta əsrlərdə və ondan da qabaq insanların yaşayış məskənləri olmuşdur. **Zərgərtəpə** ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidəsi hesab olunur.

Zərli bağı – Xocalı rayonu ərazisində, Daşkənd kəndi yaxınlığında, Ağa körpüsünün yanında yerləşir. Bağın yerləşdiyi ərazidə daş karxanası vardır. Orada qum, daş, əhəng və s. çıxarılırdı. Aşağı hissədə müxtəlif gül-çiçək kolları və meyvə ağacları əkilmişdir. Məhz bu müxtəliflik həmin ərazini zərli, şəfəqli göstərdiyinə görə, yerli əhali bağa ***Zərli bağı*** adı vermişdir. ***Zər*** sözü ***sarı*** rəng mənasında da işlədilir.

Ziyarət dağı – Cəbrayıl şəhərindən təxminən 15 kilometr məsafədə, dəniz səviyyəsindən 2200 metr hündürlükdə yerləşir. Burada ***Ziyarət məbədi*** (bəzən adına ***Ağoğlan məbədi*** də deyirlər) vardır. Bu məbədlə bağlı əfsanələr, rəvayətlər uydurulmuşdur. Rəvayətlərdən birinə görə, orada bir sərkərdənin evlənmək təklifini rədd etdiyi üçün öldürülən *qız* dəfn olunmuşdur. Professor Z.Yampolski həmin qəbir-abidəni xaçpərəstlikdən qabaqkı dövrlərə aid edir. Dağın zirvəsində adına ***Ocaqqalanan*** deyilən məbəd də vardır. Professor Z.Göyüşovun fikrincə, bu abidə əvvəlcə alban kahinlərinin ibadətgahı olmuş, sonralar müsəlmanların ***ziyarətgahına*** - ***pirə*** çevrilmişdir.

Ziyarət dağı – Füzuli rayonu ərazisində yerləşən yüksəkliklərdən biri ***Ziyarət dağı*** adlanır. Toponim dağın ərazisində vaxtilə müqəddəs pir sayılan ***ziyarət yeri*** olduğu üçün belə ad almışdır. ***Ziyarət*** dağında IV əsrə aid alban qəbir abidəsi də olub. ***Dağ*** da bu sitayiş yeri olan məbədə görə ***Ziyarət dağı*** adlanmışdır.

Ziyarət dağı – Xocavənd rayonunun ərazisində, rayon mərkəzindən təxminən 55 kilometr cənub-qərbdə, Tuğ kəndinin 6 kilometrliyində, Köhnə Tağlar kəndinin şimalında, Günəşli kəndinin yaxınlığında, Qarabağ silsiləsinin cənub-şərq ətəyində qeydə alınan oroqrafik obyektlərdən biri ***Ziyarət dağı*** adlanır. Dağın maksimal hündürlüyü **2478-2480** metrdir. Ərazisində subalp çəmənlikləri olan ***Ziyarət dağı*** Orta Yuranın vulkanogen-çökmə süxurlarından təşkil olunmuşdur. Alban tarixçisi M.Kalankatlının "*Alban tarixi*" əsərində bu yaşayış məntəqəsinin adı ***Dizapayt*** kimi çəkilir. Müəllifin yazdığına görə, maskut hökmdarı Sanatrukun *337*-ci ildə öldürtdüyü ilk alban yepiskopu *Qriqoris* burada dəfn edilmişdir. Onun dəfn edildiyi məbəd azərbaycanlılar arasında ***Ağoğlan piri*** kimi məşhurdur. ***Dağ*** məhz sitayiş yeri olan bu məbədə görə ***Ziyarət dağı*** adlanmışdır.

Ziyadxan piri – Cəbrayıl rayonunda, Fuğanlı kəndinin şimal-qərbində, yal tilində qeydə alınmışdır. Bu ***pir*** daş hasara alınmış qəbirdən ibarətdir. Deyilənə görə qəbir ***Ziyadxan*** adlı bir ürfan sahibinə məxsusdur.

Zod aşırımı – Kəlbəcər rayonunun qərb sərhədində, Şərqi Göyçə (*Sevan*) silsiləsində, Azərbaycanla Ermənistan sərhədində (*Kəlbəcər rayonu ilə Basarkeçər rayonu arasında*) yerləşən dağ aşırımı. Hündürlüyü 2365 metr olan ***Zod dağ aşırımında*** subalp çəmənlikləri var. Göyçə gölü hövzəsindən Tərtər çayının hövzəsinə yol buradan keçir. ***Aşırım*** qədim Azərbaycan torpaqları olan keçmiş Basarkeçər (indiki *Vardenis*) rayonundakı ***Zod*** kəndinin adını daşıyır.

Zolaqlar – Cəbrayıl rayonunda, Dağ Tumas kəndindən 6 kilometr məsafədə, Köhnə qalanın quzey yamacında qeydə alınan oronimlərdən biri ***Zolaqlar*** adlanır. Adına ***Zolaqlar*** sahəsi deyilən yer keçmişdə kənd əhalisinin bir-birinə paralel yerləşən kiçik ölçülü uzunsov əkin sahələrindən ibarətdir.

Zunqur bağçası – Cəbrayıl rayonunun ərazisində, Dağ Tumas kəndinin 5 kilometrliyində, Çinarlı meşəsi ilə İncə çayının qovşağında yerləşir. ***Zunqur bağçası*** otaylı-butaylı geniş çəmənliklərdən ibarətdir. ***Zunqur bağçası*** toponiminin mənası ilə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur.

Zülqədər təpəsi – Xocavənd rayonunun Qarakənd kəndi ərazisində qeydə alınmış oronimlərdən biri ***Zülqədər təpəsi*** adlanır. Oronim özündə qədim ***zülqədər*** tayfasının adını əks etdirir. Tarixdən məlumdur ki, XIII əsrdə Səlcuq dövləti dağıldıqdan sonra Ön Asiyada türk tayfalarının yenidən qüvvətlənməsi və qruplaşması nəticəsində bəzi tayfa birlikləri yaranmışdır. ***Zülqədər tayfası*** da belə tayfalardan biri idi. XV əsrdə ***zülqədər*** tayfasının bir hissəsi Ağqoyunlu tayfa birliyinin tərkibinə daxil olmuşdur. Sonralar isə *zülqədərlər* qızılbaşların **7** əsas tayfalarından birinə çevrilmişdir. Hərbi xidmətlərinə görə Səfəvilər onlara geniş torpaq sahələri bağışlamışdılar. ***Zülqədər*** tayfasının ***hacılı, şəmsəddinli*** (*şəmşədil*), ***xəzərli*** və s. adlı tirələri müxtəlif yaşayış məntəqələrinin əsasını qoymuşlar.

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURUN HİDRONİMLƏRİ

Abaslı bulağı – Cəbrayıl rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri ***Abaslı bulağı*** adlanır.

Abaslı kəhrizi – Cəbrayıl rayonunun ərazisində tayfa, qəbilə adı ilə əlaqədar əmələ gələn xeyli hidronimlər vardır. Onlardan biri də ***Abaslı kəhrizi*** adlanır. ***Kəhriz*** – qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün yeraltı qurğuya deyilir. O, maili lağım şəbəkəsindən ibarətdir. *Kəhrizlər* adətən peşəkar kankanlar tərəfindən qazılır. Kəhrizlərin lağımları şaquli quyularla bir-biri ilə birləşdirilir. Kəhrizlərin suyunu çoxaltmaq üçün bəzən su verən baş quyudan bir neçə istiqamətdə lağım da atılır. ***Kəhrizlər*** fəsillərdən asılı olmayaraq müntəzəm su verir. Kəhrizlərin suyundan məişətdə və suvarmada geniş istifadə olunur. Azərbaycanda kəhriz sistemi m. ö. I əsrdən mövcuddur. Tarixi sənəd və materiallarda XX əsrin ortalarında Azərbaycan Respublikasının ərazisində ***900***-dən çox ***kəhrizin*** olduğu haqqında məlumatlar vardır.

Abduləli bulağı – Cəbrayıl rayonu ərazisində qeydə alınan hidronimlərdən biri ***Abduləli bulağı*** adlanır.

Ağ hərəm kəhrizi – Cəbrayıl rayonunun Göyərçin Veysəlli kəndi yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Ağ hərəm kəhrizi*** adlanır.

Ağ İsmayıl bulağı – Cəbrayıl rayonunun Dağ Tumas kəndinin ərazisində, Ağ İsmayıl oğlu Əhmədin həyətyanı bağ sahəsində qeydə alınan hidronim ***Ağ İsmayıl bulağı*** adlanır. Bu ***bulaq*** zəif sulu bulaqdır. Suyu şordur.

Ağacan kəhrizi – Ağdam rayonunun Gülablı kəndi ərazisində qeydə alınan hidronimlərdən biri də ***Ağacan kəhrizi*** adlanır.

Ağaçay – Bazarçay *(Bərgüşad)* çayının qolu. Qubadlı rayonunun ərazisindədir. Bəzi məlumata görə ***çay*** vaxtilə oradakı yaylaq yurdundan istifadə edən, həmin bölgədə yaşayan ***Ağa*** adlı pirani bir seyidin adını daşıyır.

Ağalarbatan göl – Müəyyən təbii hadisə ilə bağlı əmələ gələn su obyektlərindən biri də Cəbrayıl rayonu ərazisində qeydə alınan ***Ağalarbatan göl*** adlanır.

Ağbulaq – Laçın rayonunun ***Ağbulaq*** kəndinin ərazisində qeydə alınmış hidronim. ***Ağbulaq*** hidronimi suyu içməyə yararlı olduğu üçün belə ad almışdır.

Ağcakənd çayı – Kəlbəcər rayonunda çay. Ağcakənd çayı Tutqunçayın qoludur. Çay Quzey və Güney çaylarının birləşməsindən əmələ gəlir.

Ağcaqoşun çayı – Xocavənd rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri ***Ağcaqoşun çayı*** adlanır. Çay Xocavənd və qismən də Ağcabədi rayonlarının ərazisindən axır. Xonaşen çayının sol qolu olan ***Ağcaqoşun çayının*** uzunluğu 32 kilometrdir. Müvəqqəti axarlı olan bu çayın hövzəsinin sahəsi 32 kvadrat kilometrdir. Əsasən yağış suyu ilə qidalanan bu çayın suyundan suvarmada geniş istifadə olunur. ***Ağcaqoşun çayı*** ərazisindən axdığı ***Ağcaqoşun*** adlı sahənin adını özündə daşıyır.

Ağçay çayı – Kəlbəcər rayonunun ərazisində çay. Tərtər hövzəsindəki Lev çayının qoludur. Hidronimin ***Ağçay*** adlanması suyunun çox duru olması ilə əlaqədardır.

Ağdaban çayı – Kəlbəcər rayonunun ərazisində, Ağdaban kəndi ətrafında, Ağdaban dağı yaxınlığında qeydə alınmış hidronim. Hidronim ***ağ*** və ***daban*** sözlərindən ibarətdir. V.A.Nikonova görə, ***daban*** türk və monqol mənşəli termin olub "*aşırım*" mənasını bildirir.

Ağdamkənd su anbarı – Ağdam rayonu ərazisində, Ağdamkəndin yaxınlığında yerləşir. ***Anbar*** 1963-cü ildə tikilib istifadəyə verilmişdir. Suvarmada geniş istifadə olunan ***Ağdamkənd*** su anbarının ümumi sahəsi 50 hektardır. Suyunu Qarqar çayından çəkilmiş kanaldan alan bu anbarın ümumi həcmi 1,6 milyon kubmetr, faydalı həcmi isə 1,4 milyon kubmetrdir.

Ağdəyirmançay – Xocavənd rayonunun ərazisində, Xocavənd rayonu ilə Qubadlı rayonu sərhədində, Qarabağ silsiləsində qeydə alınan hidronimlərdən biri ***Ağdəyirmançay*** adlanır. ***Ağdəyirmançay*** öz mənbəyini Güllücə dağından götürür.

Ağoğlan çayı – Füzuli rayonunun ərazisində, Yağlıvənd kəndi ətrafında (*çayın bir hissəsi Xocavənd rayonunun ərazisi ilə axır*) qeydə alınan bu hidronim Köndələnçayın qoludur. Hidronimin tərkibindəki ***ağ*** komponenti müqəddəslik bildirir. ***Ağoğlan*** sözü "*pak, təmiz, müqəddəs oğlan, övlad*" mənasındadır. Füzuli və Xocavənd rayonlarının ərazilərində qeydə alınmış hidronim ***Ağoğlan çayı*** adlanır. ***Ağoğlan çayının*** belə adlanması ilə bağlı el arasında müxtəlif rəvayətlər uydurulmuşdur. Onlardan birinin süjet xətti belədir: *ağappaq*, gözəl, igid bir oğlan (bəlkə də ***Ağoğlan*** adı bu mənada işlədilmişdir) bu yerlərdə qeyri-bərabər bir döyüşdə öldürülür və elə buradaca dəfn olunur. Vaxtilə bu yerlərdə ***Ağoğlan*** adlı bir ***monastr*** da olub. *16 iyun 1905-ci il* tarixində ***Ağoğlan*** monastırında Azərbaycan nümayəndələri ilə ermənilərin (*daşnaqların*) birgə iclası keçirilmişdir. Professor Petruşevskiyə görə, ***Ağoğlan piri*** bütpərəstlik dövrünün abidəsidir. Bu fikri digər tədqiqatçılar da təsdiq edir. Sonrakı dövrlərdə ***Ağoğlan piri*** xristianlıq məbədinə və daha sonralar müsəlmanların ibadətgahına çevrilmişdir. Bu ərazilərdə İslam dini yayıldıqdan sonra İslamı qəbul edən müsəlmanlar bu ***pir- qəbri*** ibadətgah kimi tanımaqda davam etmiş, İslam dini meydana gəldikdən sonra ***Ağoğlan abidəsi*** piri də onların ziyarətgahına çevrilmişdir.

Ağoğlan çayı – Xocavənd və Füzuli rayonları ərazilərində qeydə alınmış hidronim. Bəzən adını ***Ağoğlançay*** şəklində də yazırlar. Hidronimin belə adlanması ilə bağlı el arasında müxtəlif rəvayətlər uydurulmuşdur. İ.Petruşevskiyə və R.Göyüşova görə, ***Ağoğlan*** coğrafi adları müqəddəsliklə, tapınaqla bağlıdır. Onlar belə bir fikir irəli sürürlər ki, ***Ağ oğlan*** mifi bitki (*Ağac*) və Günəş mifi ilə ilişgilidir. Onun eşitdiyi Tarixi əfsanədə bildirilir ki, igid və yenilməz ***Ağ oğlan*** xalqını yağılardan qoruyurdu. Bir dəfə də yenə yağı dəstəsi hücuma keçir. *Ağ oğlan* onlarla vuruşur. Yağı çox idi. ***Ağ oğlan*** yaralanır və ölür. Onu döyüşüb öldüyü yerdə basdırırlar. ***Ağ oğlan*** mif obrazı göy tanrısı, dünya ağacı ilə bağlıdır. ***Ağ oğlan*** tapınağı astrial miflə əlaqəlidir. Türk xalqları arasında geniş yayılmış əfsanədə ***Ağoğlan*** ilk insandır. Azərbaycan miflərində də deyilir ki, o, gündə 3 dəfə gözə gürünər, günün qalan vaxtını isə meşəyə çəkilib tək yaşayarmış. Ağac xaqanın döşünü əmən ***Ağ oğlan*** onun məsləhəti ilə yol gedir, Qaraxan ölkəsində cəhənnəmin yiyəsi Buura Dohsunu öldürür və orada evlənir. "*Ağ oğlan*"dastanındakı Günəşlə ilişgili Dünya Ağacı da ***Ağ oğlana*** yardım edir.

Ağoğlan çayı – Laçın rayonu ərazisində çay. ***Ağoğlan çayı*** Həkəri çayının qoludur. Uzunluğu təxminən 16 kilometrdir. Çay yuxarı axınında ***Minkənd çayı***, aşağı axınında isə ***Zabux çayı*** adlanır. ***Ağoğlan*** kəndindən, ***Ağoğlan*** pirinin yaxınlığından axıb keçdiyi üçün toponim bu cür adlandırılmışdır.

Ağsaqlar kəhrizi – Cəbrayıl rayonunun Mirzəcanlı kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Ağsaqlar kəhrizi*** adlanır. Bu kəhrizin belə adlanması ilə bağlı müxtəlif fikir və mülahizələr vardır. Çox güman ki, toponim öz adında qədim tariximizdə dərin iz qoymuş

sak (***ağ sak***) tayfalarının adını yaşadır. Bu coğrafi adla bağlı başqa fikirdə olanlar da var. Yerli məlumata görə, guya vaxtilə burada ***7*** qardaş yaşayıb və onlar əkin-biçinlə məşğul olarmışlar. Onların yeddisi də *axsadığından* kəhrizin də adı ***Axsaqlar*** (sonralar guya bu söz ***Ağsaqlar*** şəklinə düşmüşdür) adlanmışdır.

Ağsu çayı – Laçın rayonu ərazisində axan çaylardan biri Ağsu çayı adlanır. O, öz mənbəyini Qarabağ silsiləsindən götürür. ***Ağsu çayı*** Həkəri çayının. qoludur.

Ağvan (*Ağban, Alban*) çayı – Şuşa rayonunun ərazisindən axan ***Ağvan çayı*** Qarqar çayının sag qoludur. Bu çay öz mənbəyini Çınqıl dağının yamacından götürür. Yerfi əhali bu hidronımin adını ***Alvançay*** formasında da işlədir. Hidronim Şuşa rayonunun Malıbəyli kəndi ərazisində vaxtilə mövcud olmuş ***Ağvan*** yaşayış məntəqəsinin adı ilə əlaqədar olaraq belə ad almışdır. ***Ağvan*** (***Alban***) Azərbaycanın qədim türk mənşəli tayfalarından birinin adı olub. Bir çox qədim mənbələrdə Qafqaz Albaniyasının adı da ***Ağvan*** formasında çəkilir. "***Alban***" adına ilk dəfə miladdan əvvəl IV əsrin ikinci yarısında baş verən hadisələrlə bağlı (*II əsr müəllifi Arrian*) mənbələrdə rast gəlinir.

Ağvan çayı – Zəngilan rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri ***Ağvan çayı*** adlanır. Çox güman ki, hidronimin tərkibindəki ***ağvan*** sözü ***alban*** sözünün başqa bir formasıdır. Məlumdur ki, bir sıra qədim mənbələrdə ***alban*** adı ***ağvan*** kimi yazılır. ***Ağvan*** (***alban***) qədim türk mənşəli tayfalardan birinin adıdır. ***Ağvan*** (***alban***) adı ilk dəfə m. ö. IV əsrin ikinci yarısında baş verən hadisələrlə bağlı çəkilir (*II əsr müəllifi Arrian və başqaları*).

Axərəm bulağı – Cəbrayıl rayonunun Göyərçin Veysəlli kəndinin yaxınlığında, qədim karvan yolunun üzərində, eyniadlı kəhrizin yanında qeydə alınan maraqlı hidronimlərdən biri də ***Axərəm bulağı*** adlanır. Bulağın adı bəzi sənəd və materiallarda ***Ağhərəm*** kimi də yazılır.

Axmaz – Xocavənd rayonu ərazisində, Əmirallar kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Axmaz*** adlanır. Toponimin adından da göründüyü kimi, su tutumu olan, amma "*axmayan su yığımı*" nəzərdə tutulur.

Ala göllər – Kəlbəcər rayonunda otuza qədər göllər qrupu ***Ala göllər*** adlanır. ***Ala göllər*** dəniz səviyyəsindən 2700 – 2800 metr hündürlükdə yerləşir. Ən böyük gölləri *Böyük Alagöl, Kiçik Alagöl, Çilligöl, Dikpilləkən* adlanır. Ala göllər vulkan püskürməsi və çayların qabağının kəsilməsi nəticəsində əmələ gəlmişdir; suyu şirindir. Laçın rayonunda, Qarabağ yaylasında 3175 metr hündürlüyü olan ***Ala göllər dağı*** vardır. Kiçik Qafqazın Şahdağ silsiləsinin şimal yamacında hündürlüyü 2972 metr olan dağın adı da ***Ala göllər*** (*yaxınlıqda yerləşən eyni adlı göllərin adı ilə*) adlanır.

Alçalı bulaq – Xocalı rayonunda, Kosalar kəndi yaxınlığında yerləşən bulaq.

Allıçay – Xocavənd rayonu ərazisində qeydə alınan hidronimlərdən biri ***Allıçay*** adlanır. Quruçayın sağ qolu olan ***Allıçay*** aşağı axınında ***İkalı*** adlanır. Uzunluğu 25 km olan bu çayın sahəsi **121** kvadrat kilometrdir. ***Allıçay*** Böyük Kirs dağının **2280** metr hündürlüyündən başlanır. Əsasən yağış suyu ilə qidalanan bu çayın suyundan suvarmada istifadə edilir.

Amaras çayı – Xocavənd rayonu ərazisində çay. Tarixdən məlumdur ki, vaxtilə Qafqaz Albaniyasında mövcud olmuş yepiskopluq mərkəzi və *şəhəri* ***Amaras*** adlanırdı. Onun xarabalığı hazırda Xocavənd rayonu ərazisində, Xonaşen çayının sağ sahilindədir. Ekrən orta əsrlərə aid mənbələrdə *Amarasın* adı IV əsr hadisələri ilə əlaqədar olaraq çəkilir. Aparılan arxeoloji qazıntılar Amarasda hələ antik dövrdən yaşayış olduğunu göstərir. Hidronim vaxtilə Xocavənd rayonu ərazisində mövcud olmuş ***Amaras*** şəhər və monastırının adı ilə əlaqədar belə adlanmışdır. Qədim Alban şəhəri olan ***Amaras*** yaşayış məntəqəsinin xarabalığı bu çayın sahilindədir.

Araqçay çayı – Kəlbəcər rayonu ərazisində çay. Tərtər çayının sağ qolu. ***Araq*** sözü türk-monqol dillərində "*quru çay yatağı*" mənası ifadə edir.

Araz çayı – Türkiyə, Azərbaycan, İran və Ermənistan ərazilərində axan çay. Kürün ən böyük sağ qoludur. Araz çayının uzunluğu ***1072*** kilometrdir. Hövzəsinin ümumi sahəsi ***101 000*** kv. km-dir. ***Araz çayı*** gəmiçilik üçün yararsızdır. Çay öz mənbəyini Türkiyənin Ərzurum elində *Bingöl* silsiləsinin yamaclarından, 2990-3000 metr yüksəklikdən götürür. Azərbaycan Respublikasının *Sabirabad rayonu* ərazisində *Suqovuşan* adlanan yerdə Kür çayı ilə birləşir. Araz çayı ***Zəngilan*** rayonunun cənub-şərq sərhədi boyunca təxminən 60 kilometrlik bir məsafədə İranla həmsərhəd ərazidən axır. *Araz* çayına məğrurluğuna, qürurunа görə ***Xan Araz*** da deyirlər. ***Araz*** sözünün İran mənşəli dillərin birində "*su*" anlamlı ad olduğunu fərziyyə kimi söyləmək də olar. **Araz** çayının adı müxtəlif mənbələrdə ***Araks*** (qədim yunan), ***Ərras*** (ərəb), ***Ərəs*** (fars), ***Rass, Arras, Eraks, Rude-Aras*** və s. kimi işlənmişdir. Çox güman ki, hidronimin erkən forması ***Araks*** olub. Bir çox antik və orta əsr müəllifləri öz əsərlərində ***Araz*** haqqında məlumat veriblər. Qədim yunan və latın mənbələrində Zaqafqaziya ərazisində, Parsa (fars) və Orta Asiyada ***Araz*** adlı çayın adları çəkilir. Herodot Orta Asiya çayları Amudərya və Sırdəryanı ***Araks*** adlandırmışdır. Ksenefont (m. ö. V əsr) Mesopotamiyada bir çayın adını ***Araz*** kimi qeyd etmişdir. Hazırda Sırdəryaya tökülən bir çay da ***Araz*** adlanır. ***Araz*** sözünün etimologiyası ilə bağlı müxtəlif fikirlər var: N.Nəbiyev onu "*möhtəşəm*", "*böyük*" mənasında yunan mənşəli leksik vahid kimi izah edir. A.Nikonov qeyd edir ki, Araz türk mənşəli söz olub "*su*" mənasını ifadə edir. O, həm də göstərir ki, ***Araz*** adı ***ruz*** ("*qaçmaq*") ərəb sözündəndir. ***Araz*** sözünün qədim fars dilindəki "*qaçmaq*" feli ilə bağlı yarandığını iddia edən tədqiqatçılar çoxdur. Lap qədimlərdən insanlar çaya "*su*" deyərdilər. ***Araz, Aras, Rass, Eraks, Arras*** sözünün İran mənşəli dillərin birində şu anlamında olduğunu da bildirənlər var. Y.Yusifov ***Araz*** sözünü Hind-Avropa dillərindəki ***art*** ("*su, çay*") və türk dillərindəki ***okus*** ("*çay, su*") komponentləri ilə mənalandırır. Ə.Haqverdiyev də bu sözü türk dillərindəki ***ar*** ("*su, çay*") və ***az***, ***uz*** ("*çay, su*") sözləri ilə əlaqələndirir. N.Əsgərov ***Araz*** hidroniminin etnonim əsasında (***as***, ***az***) yarandığı qənaətinə gəlir. Son tədqiqatlara görə çayın adı qədim türk dillərindəki ***oraz*** (***uraz***), ***ərəz*** ("*sakit, dinc, xeyir verən*") sözündəndir. Çox güman ki, ***Araz*** sözünün (*etnoniminin*) ilkin forması ***Aras*** olmuşdur. Bu tayfa eradan əvvəl I minilliyin əvvəllərində çayın cənub sahillərində yaşamış və onun adı ilə də çay ***Aras*** (***Araz***) adlanmışdır. Hidronim əsasında yaranan ***Araz*** antroponimi də türk mənşəli leksik vahid kimi izah olunur. Sevimli şairimiz A. Şaiq bu adı öz qəhrəmanına da vermişdir. Y.Yusifovun fikrincə, ***Araz*** sözü Hind-Avropa dillərində olan "***ar-t***" və türk dillərindəki "***oks, yakas***" sözlərindən yaranıb "*çay, su*" deməkdir. ***Araz*** (***Arras***) sözünü qədim türklərin ulu babası və xaqanı sayılan Əfrasiyabın qardaşı *Aqrerasın* adı ilə bağlayan tədqiqatçılar da var. ***Aqreras-Areras-Arras-Araz***. "*Avesta*"da ***Aqreras*** adı ***Aqrerat*** şəklində verilib. Dilimizdə ***t-s*** səs əvəzlənməsi təbii fonetik hadisədir. A.Axundova görə "***Araz***" antroponimik mənşəli sözdür. N.Əsgərovun fikrincə isə, "***Araz***" hidronimi türk mənşəli "***az***" etnonimindən yaranmışdır və "*azlara mənsub su*" deməkdir. Məlum bir fikrə görə, ***Araz çayı*** adı yunanca "***arossol***" sözündən olub, "*iti, sürətli qaçmaq*" deməkdir. Plutarx göstərir ki, bu çayın sahilində ***Araz*** (tərcüməsi – "*qız sevməz*") adlı zəhərli bitki yetişir. ***Araz çayı*** tarixin amansız hökmü ilə Azərbaycanı iki yerə bölüb qardaşı qardaşdan "*ayırdı*". Arazın hər iki sahilində Azərbaycan türkləri həsrət və intizar içindədir. Görünür, bu nisgil *Vahid Azərbaycan* dövləti yaranana qədər davam edəcəkdir. Azərbaycan türkü öz övladına "***Araz***" antroponiminin adını bəlkə də ona görə verir ki, bu rəmz onu uzun onillərin, yüzillərin həsrətindən "*xilas edib*" doğma qardaşı qardaşa qovuşduracaqdır. M. ö. 834-cü ilə aid qədim assur mənbələrində Midiyada ***Arazias*** adlı əyalətin adı çəkilir. Bəziləri hesab edir ki, ***Ersarı*** tayfası çayın cənub sahillərində yaşadıqları üçün çay ***Araz*** (***Aras***) adlanmışdır.

Arı bulağı – Qarabağ silsiləsinin ətəyində, Xocalı rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri ***Arı bulağı*** adlanır. Bulağın yer səthinə çıxdığı yerdə vaxtilə çoxlu ***arılar*** olduğu üçün, orada hədsiz sayda ***arı*** vızıltıları eşidildiyinə görə hidronim belə adlandırılmışdır.

Arıq bulağı – Füzuli rayonunun Qarakollu kəndinin quzeyində, rayon mərkəzindən 13 km məsafədə qeydə alınmış hidronimlərdən biri ***Arıq bulağı*** adlanır. Qarakollu camaatının dilində bu ***bulaq*** ilə bağlı belə bir əfsanə yaşayır: Qarakollu kəndində vaxtilə 2 qardaş yaşayırmış. Dünya varından bir cüt öküzü olan qardaşlar hər yaz gələndə Quzey əldəki dağ yamacında yer əkirmişlər. Günəşli yaz səhərinin birində qardaşlar öküzlərini qoşub dağ döşündəki çınqıllı ərazini şumlayırmışlar. Kiçik qardaş yorulduğundan başını bir daşın üstünə qoyub yatır. ***Arıq*** adlı həmin qardaş bir qədər yatıbmış ki, su şırıltısına yuxudan oyanır. Gözlərini açanda görür ki, ətrafda boş daşlıqdan başqa heç nə yoxdur. Başını yenə həmin daşın üstünə qoyub yatmaq istəyir. Baxır ki, bayaq eşitdiyi şırıltı həmin daşın altından gəlir. Durub həmin yeri qazmağa başlayır. Torpağı bir qədər qazıbmış ki, dağın dibindən göz yaşı kimi su şırnaq eləyib üzü bəri axır. Arığın səsinə əvvəl qardaşı, sonra Qarakollu kənd camaatı tökülüb gəlir. Əli külüng tutan suyun gözünü açır. Əsrlərdən bəri qayanın altında yatıb qalan su başlayır köpüklənə-köpüklənə axmağa. Səhəri gün kənd camaatı dağın döşündə bir hovuz tikir. El arasında bu bulağın adına ***Əkiz bulaq*** da deyirlər. Dağın o biri güney üzündə eyni yerdən ikinci belə bir ***bulaq*** qonşu Cəbrayıl rayonunun Balyand kəndi ərazisində axır. Suyunun tərkibində 1 q/litrdən çox həll olunmuş duz və ya nadir elementlərdən biri olarsa belə bulaqlar **mineral bulaqlar** adlanır.

Aşağı bulaq – Xocalı rayonunda, Kərkicahan qəsəbəsinin ərazisində qeydə alınan hidronim.

Aşağı bulaq – Xocavənd rayonunda, Tuğ kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Aşağı bulaq*** adlanır.

Aşağı Çaydərə çeşməsi – Dağ Tumas kəndindən Qarağac kəndinə gedən yolun İncə çayından adlayan hissəsindən 140 metr cənubda, dağətəyi ərazidə qeydə alınan hidronim ***Aşağı Çaydərə çeşməsi*** adlanır.

Aşağı kəhriz – Cəbrayıl rayonunun Niyazqululular kəndi yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Aşağı kəhriz*** adlanır.

Aşağı kəhriz – Füzuli rayonunun Yuxarı Əbdürrəhmanlı kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Aşağı kəhriz*** adlanır.

Aşağı Qaranlıq çayı – Xocavənd rayonunun ərazisində çay. Tarixdən bilirik ki, çayın sahilində qərar tutmuş yaşayaış məntəqəsinin 1923-cü ilədək adı ***Aşağı Qaranlıq*** olmuşdur. Vaxtilə Qərbi Azərbaycanda *(Ermənistanda)* Martuni rayonunun adı da 1946-cı ilədək ***Aşağı Qaranlıq*** olmuşdur.

Ataqut çayı – Xocavənd rayonunun ərazisində, Qarabağ silsiləsinin ətəyində, Tuğ inzibati ərazi vahidində, Tuğ kəndindən bir neçə kilometr məsafədə axan çay. ***Ataqut*** sözünün izahı ilə bağlı müxtəlif fikir və mülahizələr vardır. Ərazidə ***Ataqut*** adlı kənd də var. Oykonim öz adını ərazidəki eyniadlı çaydan almışdır. Oykonimin elmi izahı hələlik öz dəqiq təsdiqini tapmamışdır. Bəzi sənədlərdə yaşayış məntəqəsinin adı ***Atayurd*** kimi də yazılıb. Görkəmli alim M.Seyidov əski türk inanclarından danışarkən belə bir fikri vurğulayır: "*Türklərə görə, göydən uşaq ruhu – **qut** enib, gələcək atanın bədəninə daxil olur*". Deməli, qədimdən "***qut***"un ucadan, göydən, Tanrıdan gəlməsi haqqında türk inancları mövcud imiş. ***Ataqut*** totemi – "*başqut*", "*insanı, heyvanı qoruyan ata*", "*göydən, Günəşdən gələn **qut***" anlamını ifadə edir. Buradan aydın olur ki, ***Ataqut***

hidronimi çox qədim coğrafi ad olmuşdur. Orxon-Yenisey abidələrinin dilində işlənməsi ***qut*** sözünün əsl türk sözü olması üçün bir əsasdır. Türk dillərində ***qut*** ("*ruh*") sözü insan və heyvan qoruyan totem mənasında işlənir. Tədqiqatçı Ə.Cavadov ***qut*** sözünün "*quş*" anlamlı izahını qəbul edir. Tarixdən o da məlumdur ki, miladdan çox əvvəllər Azərbaycan ərazilərində yaşamış ***kuti*** adlı türkdilli tayfalar var idi. Çox guman ki, elə bu tayfa adı da ***kut / qut*** söz kökü əsasında formalaşaraq ***kuti*** şəklinə düşmüşdür. ***Qut / kut*** kökü *yakut, telenqut* və s. türk tayfalarının adında da var.

Avdal bulağı – Cəbrayıl rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri ***Avdal bulaq*** adlanır. Toponim ***avdal*** (***abdal***) tayfa adından və ***bulaq*** hidronimik apelyativindən ibarət olub, "*avdallara məxsus olan bulaq*" anlamındadır. Qafqaz Albaniyasında miladdan öncə yaşaması ehtimal olunan abdalların (haftal, heptal, fetal) adına qazax, türkmən, qaraqalpaq, türk toponimiyasında da rast gəlirik. ***Avdal*** (***abdal***) sözü qədim türk dilində "*nurlanmış*" anlamını ifadə edir.

Ay bulağı – Cəbrayıl rayonunun Dağ Tumas kəndinin yaxınlığında, Tumas bulağından yüz metr cənubda, dağətəyi ərazidə qeydə alınan hidronim ***Ay bulağı*** adlanır.

Ayğır bulağı – Qarabağ silsiləsinin ətəyində, Xocalı rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri ***Ayğır bulağı*** adlanır. Bu *bulaqdan* vaxtilə ***ayğırlar*** daha çox su içdiklərinə görə el arasında hidronim belə adlandırılmışdır.

Ayı bulağı – Cəbrayıl rayonunun Sirik kəndi yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Ayı bulağı*** adlanır.

Ayı bulağı – Şuşa rayonunun Malıbəyli kəndi yaxınlığında qeydə alınmış bulaq. Bu bulaqla bağlı hadisə bir toponimik rəvayətdə belə əks olunmuşdur: Bulağın başında ayını görən ovçu kənardan nişan alıb tüfənglə onu vurur, ancaq ayı tərpənmir. Bunu görən ovçu bir güllə də atır, ayı yıxılır. Ovçu yaxınlaşanda görür kı, ayı balasını qucaqlayıb ona su içirmək istəyirmiş. O hadisədən sonra bulaq beləcə ***Ayı bulağı*** adlanmışdır.

Ayıbazar çayı – Laçın rayonunda, Ayıbazar kəndinin kənarında, Qarabağ silsiləsinin ətəyində, meşəlik ərazidən zolaq şəklində ayrılmış bir sahədə axan çay. ***Ayıbazar çayı*** Şəlvə çayının qoludur. Hidronimin adı bəzi tarixi sənəd və materiallarda ***Aybasar*** şəklində də göstərilir. Toponimin əsl adı ***Ayıbasar*** kimi izah olunur. Görünür, sözün tərkibindəki ***basar*** komponenti şonralar ***bazar*** forması şəklinə düşüb. ***Bazar*** adlı qıpçaq əsilli türk tayfası da var. Toponimin ad açımı ilə bağlı başqa fikirlər də vardır.

Ayrım çayı – Kəlbəcər rayonunun ərazisində çay. Tərtər çayının qolu olan ***Ayrım çayı*** sahilində XIX əsrin ortalarına qədər ***Ayrım binəsi*** olmuşdur. Hidronim həmin binənin adı ilə əlaqədar olaraq belə adlanmışdır. Sonralar binənin yerində *Aşağı Ayrım kəndi* salınmışdır. ***Ayrım –*** azərbaycanlıların etnoqrafik qrupudur. Əsasən əkinçilik və maldarlıqla məşğul olan ***ayrımlar*** Azərbaycanın qərbində yaşayırlar (*Gədəbəy, Kəlbəcər, Qazax, Daşkəsən, Xanlar, Tovuz rayonları*). Onların məskunlaşdığı ərazi *Ayrım mahalı* adlanırdı. Bir məlumata gorə, Əmir Teymur 1402-ci il Ankara vuruşmasından sonra Türkiyə ərazisindən köçürdüyü 50 min ailəni Gəncə, Qarabağ və indiki Ermənistanda yerləşdirmiş, onlar sonralar ***ayrım*** adı ilə tanınmışdır. Türk dillərində ***ayrım –*** "*bölük*, *hissə*" deməkdir. Gəncə xanı Cavad xanın general Knorrinqə yazdığı məktubda *ayrımlar* Gəncə xanlığının qədim elatı adlandırılır. XVII əsrdə ayrımların bir hissəsi İrana keçərək şahsevənlərə qarışmışlar. Onların digər bir hissəsi isə Azərbaycanın Kiçik Qafqaz zonasında və s. yerlərdə yaşamaqda davam etmişlər.

Azad çayı – Kəlbəcər rayonu ərazisində, Böyük Alagöl gölü yaxınlığında qeydə alınan çay. ***Azad çayı*** kiçik arxlar, yağış və qar suyu ilə qidalanır.

Baba bulağı – Xocavənd rayonunun Qaradağlı kəndi ərazisində qeydə alınmış hidronimlərdən bir ***Baba bulağı*** adlanır.

Badara çayı – Qarabağ silsiləsinin ətəyində, Xocalı rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri ***Badara çayı*** adlanır. Bu çayın mənbəyi Kosalı bulaq, Qasımbulaq, Rus bulağı, Arı bulağı, Daşdulaq və Qayabaşı bulaqlarıdır. Çay yaxınlığından axdığı yaşayış məntəqəsinin – ***Badara*** kəndinin adı ilə əlaqədar olaraq belə adlanmışdır.

Bağırsaq çayı – Kəlbəcər rayonunun ərazisindən axan çay, Tərtər çayının qolu olan ***Bağırsaq çayı*** rayonun ***Bağırsaq dərəsi*** adlanan ərazidən axdığı üçün belə adlanmışdır.

Bağırsaq mineral suyu – Kəlbəcər rayonunun ərazisində, Tərtərin qolu olan ***Bağırsaq çayı*** dərəsində, 2400 metr hündürlükdə, İstisu kurortunun yaxınlığında çıxan mineral su bulaqları. Bulağın gündəlik debiti 10-12 min litrdir. Kimyəvi tərkibinə görə İstisu mineral suyuna yaxındır. Radonlu və karbon qazlıdır. ***Bağırsaq mineral suyu*** vannası oynaq xəstəlikləri, periferik sinir sistemi, I, II dərəcəli endarterit və s. xəstəliklərin müalicəsinə müsbət təsir göstərir.

Baxşeyişin bulağı – Xocalı rayonunun ərazisində, Kərkicahan qəsəbəsinin yaxınlığında qeydə alınan hidronim.

Bala kəhriz – Ağdam rayonunun Abdal kəndi yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Bala kəhriz*** adlanır.

Bala kəhriz – Cəbrayıl rayonunun Soltanlı kəndi yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Bala kəhriz*** adlanır. ***Bala kəhriz*** 1922**-**ci ildə vurulmuşdur.

Balakişi bulağı – Xocavənd rayonunun ərazisində, rayon mərkəzindən 10 kilometr məsafədə, keçmiş Bəhrəmli kəndi (*yerli adamların dediklərinə görə, Bəhrəmli kəndinin sakinləri 1948-ci ildə başqa ərazilərə köçürülmüşdür*) yaxınlığında, Muğanlı və Əmirallar kəndlərinin ətrafında mövcud olmuş hidronimlərdən biri ***Balakişi bulağı*** adlanır.

Balıq gölü – Cəbrayıl rayonunun Qazanzəmi kəndinin yaxınlığında yerli camaat Kiçik Həkəri çayının qabağını kəsərək bir göl yaratmışdılar. Bu göldə çay balıqları çox olduğuna görə el arasında bu gölün adına ***Balıq gölü*** deyirdilər. Gölün suyu "*Dəhnə*" adlanan, ona bitişik burulğanlı bir hovuzdan iri diametrli dəmir borularla Çullu kəndi yaxınlığında inşa olunmuş böyük bir gölə **-** Çullu gölünə nəql olunurdu. Bu su yolu yaxın ərazidəki kəndlərin camaatının əl əməyinin, zəhmətinin hesabına başa gəlmişdir.

Ballı bulaq – Xocavənd rayonunun istirahət zonalarından biri ***Ballı bulaq*** adlanır. ***Ballı bulaq*** hidronimi Xocavənd rayonunun *Bəhrəmli düzü* deyilən ərazisində qeydə alınmışdır. XX əsrin ortalarına qədər bulağın yaxınlığında Bəhrəmli kəndi mövcud olmuşdur.

Ballıca çayı – Xocalı rayonu ərazisində axan, Qarqar çayının sol qolu olan çay. Hidronim öz başlanğıcını ***Ballıca*** adlanan yaylaqdan aldığı üçün belə adlandırılmışdır.

Baş bulaq – Füzuli şəhərinindən 10 kilometr qərbdə, ecazkar təbiətin qoynunda, çoxlu bulaqlar əhatəsində qeydə alınan hidronimlərdən biri ***Baş bulaq*** adlanır. Hidronim yaxınlıqdakı bulaqlardan azacıq yüksəklikdə, bir qədər ***baş*** hissədə, ***başda*** yerləşdiyi üçün belə ad almışdır.

Baş bulaq – Xocavənd rayonunun mərkəzindən 34 kilometr qərbdə, Xocavənd rayonunun Tuğ kəndi ərazisində, kəndin ***baş*** hissəsində, ecazkar təbiətin qoynunda, çoxlu bulaqlar əhatəsində qeydə alınan hidronimlərdən biri ***Baş bulaq*** adlanır.

Baş kəhriz – Cəbrayıl rayonunun Kavdar kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Baş kəhriz*** adlanır.

Bayandur çayı – Laçın rayonu ərazişindədir. Minkənd çayının qoludur. Çayın adı türkdilli ***bayandur*** tayfasının adı ilə bağlıdır. Tarixdən məlumdur ki, Ağqoyunlu tayfalarından biri ***Bayandurlar*** adlanır. ***Bayandurlar*** Ağqoyunlu tayfa ittifaqının yaradılması ilə yanaşı, orta əsrlərdə Ön Asiyanın və Cənubi Qafqazın siyasi həyatında da çox fəallıq göstərmişlər. Hidronim qədim türk tayfalarından olan ***bayandur*** etnonimi ilə əlaqədardır; bu toponim etnohidronimdir. Dədə Qorqud dastanlarında da ***bayandurlar*** tərənnüm olunur. XIV əsrdə onlar Qarabağda və Göyçə gölü ətrafında yaşamışlar. Ağqoyunlu tayfa ittifaqının başçıları və Ağqoyunlu dövlətinin hökmdarları ***Bayandurlar*** tayfasından idi. ***Bayandur* (*Bayandır*, *Bayındır*)** oğuz boyu ilə bağlı hələ XVI əsrdə təkcə Anadoluda 55 yer adı olmuşdur (F.Sümər: "Oğuzlar"). Əlavə məlumat üçün bax: **Bayandur yeri**.

Bayram bulağı – Xocavənd rayonunun Tuğ kəndi ərazisində qeydə alınan hidronim.

Bazarbulaq – Xocavənd rayonunun Tuğ kəndi ərazisində qeydə alınan coğrafi ad.

Bəhmən bulağı – Füzuli rayonu ərazisində, Yuxarı Güzlək kəndi yaxınlığında qeydə alınan hidronim.

Bərgüşad çayı – Qubadlı və Zəngilan rayonları ərazisindən axan çay. Bərgüşad çayının mənbəyi Ərikli dağlarından başlanır. Bərgüşad çayının başqa bir adı ***Bazarçay*** adlandır. ***Bərgüşad çayı*** Urud kəndinə qədər ***Bazar çayı*** adlanır. Bu çayın *Dəli çay, Şəki çayı, Sisyan çay, Taxtakörpü çayı, Daşlı dərə çayı, Bəxtiyarlı çayı, Ağa çayı* adlı qolları var. ***Bərgüşad çayı*** Qaralar kəndi yaxınlığında *Həkəri çayı* ilə birləşib Araza tökülür. Hələlik ***Bərgüşad*** coğrafi adı tamamilə dəqiq izah olunmayıb. XIX əsrin 50-ci illərinə aid ədəbiyyatda Naxçıvanda ***Bərgüşad*** adlı türkdilli tayfanın adı çəkilir. Bəzi tədqiqatçılara görə *(M.H. Vəliyev və başqaları)* ***bərgüşad*** türkləşmiş kürd tayfasının adıdır. Bu tayfa öz adını *Bərgüşad* zonasından alıb. Səfəvi dövründə *bərgüşadlar* ***qızılbaş*** tayfalarının tərkibinə daxil idi. Bu tayfa *Bərgüşad* mahalının adı ilə adlanmışdır. Orta əsrlərdə ***Bərgüşad mahalı*** Araza tökülən Əkərə çayı ilə ***Bərgüşadçay*** arasındakı ərazini əhatə etmişdir. Bəzi tədqiqatçılar bu toponimi ***bərgüşd*** kürd tayfasının adı ilə də əlaqələndirirlər. Bir çox tədqiqatçılara görə toponimin birinci komponentini təşkil edən ***bərgü*** sözü qədim türk mənşəli ***barq*** tayfasının adındandır. Monqol hökmdarı Çingiz xanın oğlu Çucinin 1207-ci ildə qərbə doğru yürüşü zamanı başqa tayfalarla yanaşı, ***bərgü*** tayfasının torpaqlarını da tutması tarixdən məlumdur. İran tarixçisi Fəxrəddin Mübarəkşah (XIIəsr) 58 türk tayfası arasında bərgü tayfasınında adını çəkib, Fəzlullah Rəşidəddin (XIII əsr) bu etnonimi ***bərküt*** (***bərgülər***) kimi qeydə almışdır. Tədqiqatçıların fikirlərinə görə ***bərgülər*** monqol işğalından xeyli əvvəl Azərbaycanda məskunlaşmışdır. ***Bərgüşad*** toponiminin tərkibindəki ***şad*** (***şat***) sözü olan yaşayış məntəqəsi adları geniş yayılıbdır. XV əsr Azərbaycan şairi Bədr Şirvaninin əsərlərində də ***Bərgüşad*** coğrafi adı çəkilir.

Bərkdərə çayı – Kəlbəcər rayonu ərazisində çay. Çayın **Bərkdərə** adlanması onun **Bərkdərə** adlanan ərazidən axmasına görədir.

Bəsitçay – Zəngilan rayonunun ərazisindən axan çaylardan biri ***Bəsitçay*** adlanır. Araz çayının qolu olan Bəsitçaya xalq arasında ***Balaçay*** da deyilir. Çayın Baharlı ərazisindən axan hissəsi

Baharlı, Rəzdərə kəndindən axan hissəsi isə ***Rəzdərə*** adlanır. Bəsitçayın axdığı ***Bəsitçay dərəsi*** (*bəzi sənəd və materiallarda bu ada* ***Basutçay*** *şəklində də rast gəlirik*) dövlət qoruğudur və burada nadir çinar ağacları qorunur. Hidronim ***Basatçay*** formasında da işlənir. "*Kitabi-Dədə Qorqud*" dastanlarında ***Basat*** adı ilə bağlı yaranan hidronimdir. ***Bəzitçay*** quruluşca mürəkkəb (***bəsit*** + ***çay***) hidronimdir. Bəsitçayın ümumi uzunluğu 44 kilometrdir ki, onun da 19 kilometri Zəngilan rayonunun ərazisindən axır. Çayın əsas qidalanma mənbəyi çoxsaylı bulaqlar, qar ərintiləri və yağış sularıdır. Elə bu səbəbdən də yay aylarında axarı bir qədər zəifləyir. Çayın şirin sularında *farel* balıqları yaxşı inkişaf edir. Əsas acınacaqlı cəhət odur ki, Bəsitçayın suları da Ermənistanın ərazilərində fermaların, yaşayış məntəqələrinin tullantıları ilə qismən çirkləndirilir. Əksər tədqiqatçılar ***Bəsitçay*** hidroniminin ad açımını monqol mənşəli ***besut*** tayfasının adı ilə bağlayırlar. ***Bəsit*** sözü fars dilindəki ***bəst*** sözündən törənmiş və "*sığınacaq*", "*toxunulmaz yer*" anlamını ifadə edir. Adətən İranda qədim adətə əsaslanan ərazi toxunulmazlığı hüququ vardır. Yəni, məbədlər, məscidlər, sərdabələr, türbələr, qoruqlar toxunulmaz hesab edilir. Bu, bizdə də belədir. Deməli, ***Bəsitçay*** hidronimi ərazinin toxunulmaz olduğunu bildirir.

Bəy bulağı – Ağdam rayonunun Abdəl-Gülablı kəndi ərazisində qeydə alınmış hidronim.

Bəydili arxı – Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyekt. Mənşəcə Səlcuq-oğuzlarından olan ***bəydili//bəkdili*** tayfası XV əsrdə qızılbaşlara qoşulmuşdur. M.Kaşğarinin "*Divani-lüğəti-türk*" əsərində ***bəydili*** mikrotoponiminə rast gəlirik. Onun göstərdiyinə görə ***bəydili//beqtili*** 24 oğuz tayfalarından biridir. Səlcuq oğuzlarının ***bəydili*** tayfasının adını özündə əks etdirən çoxlu oronimlər, oykonimlər vardır.

Bəylik bulağı – Xocavənd rayonunun Qaradağlı kəndi ərazisində, Bəylik dağı yaxınlığında, kənddən 2 kilometr məsafədə qeydə alınan hidronimlərdən biri ***Bəylik bulağı*** adlanır.

Bəzirgan çayı – Laçın rayonunun Zerti kəndi ərazisində axan çay. ***Bəzirgan*** (Bəzərgan) sözü fars dilində "*tacir*" deməkdir. Görünür, bu yaldan əvvəllər ticarət yolu keçirmiş. Laçın rayonunun ərazisində qeydə alınan ***Bəzirgan çayı*** hidronimi çayın axdığı yerin yaxınlığındakı Bəzirgan yalı ilə bağlıdır. 1590-çı il tarixi sənədinə görə, Qərbi Azərbaycanın Rəvan əyalətinin Aralıq nahiyəsində ***Bəzirganağılı kəndi*** mövcud olmuşdur.

Binəçay – Xocavənd rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri ***Binəçay*** adlanır. ***Binəçay*** Quruçayın sağ qoludur. ***Çay*** təxminən 2400 metr hündürlükdən, Ziyarət dağının zirvələrindən başlanır.

Böyük Alagöl gölü – Kəlbəcər rayonu ərazisində şirinsulu və axarlı göl. ***Böyük Alagöl golü*** Ala göllər qrupunda ən böyük göldür. ***Göl*** dəniz səviyyəsindən 2729 metr yüksəklikdə yerləşir. onun sahəsi 510 hektar, maksimal dərinliyi isə 9,4 metrdir. Göl yaxınlıqda yerləşən Qurbağalıçay, Azad çayı, həmçinin kiçik arxlar, yağış və qar suları ilə qidalanır.

Böyükgöl – Kəlbəcər rayonu ərazisində göl. Sarımsaqlı dağın cənub-şərqində, Tərtər çayının mənbə hissəsində yerləşir. Göl tutduğu sahənin ***böyük*** olmasına görə belə adlandırılmışdır.

Bulaq gölü – Qarabağ silsiləsinin ətəyində, Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 8 kilometr məsafədə, Qışlaq kəndi yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Bulaq gölü*** adlanır.

Bulul çeşməsi – Cəbrayıl rayonunun ərazisində, Daşveysəlli kəndi yaxınlığında qeydə alınan maraqlı toponimlərdən biri də ***Bulul çeşməsi*** adlanır. Bəzən bu coğrafi adı ***Bülul çeşməsi*** şəklində də yazırlar. Coğrafi adın tərkibindəki ***bulul*** sözü ilə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur. Bəzi araşdırıcılar ***bulul*** (***bülül, bülul***) sözünü "*hamar*" anlamı ilə mənalandırırlar.

Məlumdur ki, bu tipli toponim Laçın rayonunda (***Bülüldüz kəndi***) da qeydə alınmışdır. Daşveysəlli kəndi ərazisində bu qəbildən olan digər bir coğrafi ad **-** ***Bulul*** (***Bülul***) ***piri*** adlı toponim də qeyd olunur. Bir qisim tədqiqatçılar isə ***Bulul çeşməsi*** coğrafi adını fitotoponim kimi izah edir.

Büllur kəhriz – Cəbrayıl rayonunun ərazisində qeydə alınmış hidronilərdən biri ***Büllur kəhriz*** adlanır.

Cam-cam bulağı – Ağdam rayonunun Abdal kəndi yaxınlığında, Qaya yolunun kənarında, meşənin aşağı hissəsində mənzərəli bir yerdə qərar tutan, suyu göz yaşı kimi duru və bumbuz olan hidronim ***Cam-Cam bulağı*** adlanır. ***Cam*** fars dilində "*şüşə* ", "*qədəh*, *piyalə*, *kasa*" deməkdir. ***Bulaq*** *cam* şəkilli olduğuna görə belə adlandırılmışdır.

Camal kəhrizi – Cəbrayıl rayonunun Qarağac kəndinin yuxarı hissəsində, dağətəyi ərazidə qeydə alınan hidronim ***Camal kəhrizi*** adlanır. Bu kəhrizin ***5*** quyusu vardır.

Camışbatan göl – Cəbrayıl rayonunun ərazisində qeydə alınmış hidronim.

Canbar bulağı – Zəngilan rayonunun ərazisində, Canbar kəndi yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Canbar bulağı*** adlanır. Bulaq ***Canbar*** kəndinin ərazisində olduğu üçün el arasında ***Canbar bulağı*** kimi "pasportlaşmışdır".

Ceyran bulağı – Cəbrayıl rayonunun ərazisində qeydə alınmış bulaq. ***Ceyran bulağı*** hidroniminin yaranması haqqında maraqlı bir rəvayət**-**əfsanə dillərdə gəzməkdədir: *Bir gün ovçu tüfəngini çiyninə aşırıb meşəyə yollandı. Ceyranların, cüyürlərin hay-küyü meşə ilə bir idi. Ovçu münasib bir yer seçib ovunu gözləməyə başladı. Gördü ki, budur, iki ceyran kolluqdan çıxıb bulaq başına tərəf gəlir. Ana ceyran balasının keşiyini çəkdi ki, balası doyunca su içsin. Bala ceyran su içəndən sonra kənara çəkildi. Ana ceyran da yaxınlaşdı ki, su içsin. Birdən ovçunun atdığı güllə onu bir qədər aralıdakı qoca palıd ağacının altına yıxdı. Qalxmaq istədi, bacarmadı. Balasını başı üstündə görüb gözləri yaşardı. Ana ceyran can verdiyi anda balasının gözlərini yalamağa başladı. Sonra başını qaldırıb sanki balasını ona tapşırırmış kimi qoca palıda baxdı və əbədiyyətə qovuşdu. Körpə ceyranın gözlərindən yaş bulaq kimi süzülməyə başladı. Bu mənzərəyə tamaşa edən ovçunun ürəyi parçalandı; orada dayana bilməyib meşəni tərk etdi. Bala ceyranın göz yaşından bulaq əmələ gəldi. Bu bulaq* ***Qoşa bulaq*** *oldu -* ***Ana-bala Ceyran bulağı****. Ovçu bir daha həmin meşəyə getmədi. Körpə ceyranlar, cüyürlər daha qorxa-qorxa yox, inamla, ərklə, həm də kədərlə* ***Ceyran*** *bulağına gəlib doyunca su içdilər. Həmin vaxtdan el arasında o bulağa* ***Ceyran bulağı*** *deyildi.*

Ceyran bulağı – Qarabağ silsiləsində, Xocalı rayonu ərazisində, Kosalar kəndinin yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Ceyran bulağı*** adlanır.

Cəfər bulağı – Xocavənd rayonunun ərazisində, Kuropatkino kəndi ətrafında, Xonaşın çayının sahili yaxınlığında qeydə alınan hidronim.

Cəfər Sadıq bulağı – Füzuli rayonunun Qacar kəndi ərazisində qeydə alınan hidronim.

Cəmillər gölü – Şuşa rayonunun ərazisində, Şuşa şəhərindən 17 kilometr qərbdə, Qarabağ silsiləsində, dağətəyi ərazidə yerləşən göl. Hidronim yaxınlığındakı eyniadlı kəndin adı ilə əlaqədardır. ***Cəmillər*** yaşayış məntəqəsi mənşəcə XYIII əsrin axırlarında Qazax mahalından Qarabağa köçmüş ***Gəmillı*** tayfasına mənsub ailələrin məskunlaşması nəticəsində yaranmışdır.

Cinqir bulaq – Cəbrayıl rayonunun Şahvəlili kəndində qeydə alınmış hidronimlərdən biri ***Cinqir bulaq*** adlanır. *Cinqir* sözü bəzən ***Cingir*** formasında da yazılır. ***Cinqir-bulaq*** hidronimi öz adında qədim ***Dinqir (Cingir)*** teonimini indiyə kimi yaşatmaqdadır. Bu söz qədim şumer dilində də ***Dinqir*** şəklində işlənmişdir. ***Dinqir*** (***Cinqir***) toponimi Al, Qaşqa, Kurən teonimləri kimi Azər boyları ilə bağlı olub, qədim Ön Asiya mənbələrində də əks olunmuşdur.

Çaxmaqçay – Cəbrayıl rayonunun Alıkeyxalı kəndinin yaxınlığından axan bu çayın adını yerli camaat ***Quruyançay*** şəklində də işlədir. Doğrudan da bu ***çay*** çox zaman susuz olur. ***Quruyançay*** (***Çaxmaq çayı***) əsasən yağış suları ilə qidalanır. Araz çayının sol qolu olan ***Çaxmaqçayın*** digər adı mənbələrdə ***Quruçay*** kimi də qeyd olunur. Hidronim Cəbrayıl rayonundakı Şahvəlili kəndinin şərqindəki ***Çaxmaqdərə*** adlanan dərədən axdığına görə belə adlandırılmışdır. Yaxınlıqda ***Caxmaq*** adlı karxana da vardı.

Çaxmaqçay – Xocavənd rayonunun ərazisində qeydə alınan hidronim ***Çaxmaqçay*** adlanır. ***Çay*** öz mənbəyini Ziyarət dağının zirvəsindən, yamacından götürür. Bu çayın digər bir adı Quruçaydır.

Çala bulaq – Füzuli rayonunun Yuxarı Əbdürrəhmanlı kəndi ərazisində qeydə alınan hidronim.

Çallıgöl – Xocavənd rayonunun qərb hissəsində qeydə alınan hidronimlərdən biri ***Çallıgöl*** adlanır. Qarabağ bölgəsində "*dağın kol-koslu olan aşağı hissəsi*" ***çallar*** adlanır. Çox ehtimal ki, ***göl*** yerləşdiyi ərazinin landşaftına uyğun olaraq belə adlandırılmışdır.

Çanaq bulağı – Xocavənd rayonunun Qaradağlı kəndindən bir neçə kilometr aralıda qeydə alınan hidronimlərdən biri ***Çanaq bulağı*** adlanır. Bulağın qaynayıb üzə çıxdığı yer qalın ağac materialından ***çanaq*** kimi oyulub düzəldildiyi üçün hidronim belə ad almışdır.

Çapand arxı – Cəbrayıl rayonunun ərazisində, Çapand kəndinin yaxınlığında qeydə alınmış hidronim.

Çaylaq çayı – Qarabağ silsiləsi ətəyində, Xocavənd rayonunun ərazisində, Muğanlı kəndinin yaxınlığında qeydə alınmış hidronimlərdən biri də ***Çaylaq çayı*** adlanır. Hidronim ərazinin adı ilə əlaqədardır. ***Çaylaq*** hidronimi ***Çaylax/Çaylıx*** variantlarında da qeydə alınmışdır. Dilimizdə ***çaylaq*** sözü "*müvəqqəti axarlı çay yatağı*" mənasındadır. ***Çaylaq*** sözünü adətən "*çay yatağı*" mənasında işlədirlər.

Çaylaqçay – Cəbrayıl rayonu ərazisindən axan çay. Araz çayının sol qolu olan ***Çaylaqçay*** Qarabağ silsiləsindən başlanır. Uzunluğu 32 kilometr, hövzəsinin sahəsi 190 kvadrat kilometr olan ***Çaylaqçay*** adətən yay aylarında quruyur..

Çələbilər kəhrizi – Cəbrayıl rayonunun Çələbilər kəndinin ərazisində, dağətəyi ərazidə qeydə alınan hidronimlərdən biri ***Çələbilər kəhrizi*** adlanır. Hidronim ***Çələbilər*** kəndinin adı ilə əlaqədardır. 1937-ci ildə baş verən irtica (*repressiya* və s.) nəticəsində kənd dağıldığından ***kəhriz*** də müəyyən müddət baxımsız qalmış və bu səbəbdən batmışdır. 1980-ci illərin sonlarında ***kəhriz*** Hacı Qaraman ocağının övladı, tanınmış övliyalardan olan Yəhya Çələbi tərəfindən təmizlənərək bərpa edilmişdir.

Çəmənli çayı – Laçın rayonu ərazisində axan çay. ***Çəmənli çayı*** Qozlu kəndinin cənubundan axıb keçərək Həkəri çayının qolu olan Şəlvə çayına tökülür. ***Çay*** öz başlanğıcında ***Çəmənli*** adlanan yerdən, *çəmənlikdən*, yaşıllıq olan ərazidən axdığına görə belə adlandırılmışdır. ***Çəmənli çayı*** İpək kəndi yaxınlığından axdığı üçün bəzən onu ***İpəkçay*** adlandırırlar.

Çərəkən arxı – Füzuli rayonunun Yuxarı Əbdürrəhmanlı kəndi ərazisində qeydə alınan hidronim.

Çərəkən çayı – Cəbrayıl rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri ***Çərəkən çayı*** adlanır. Toponim yaxınlıqda yerləşən ***Çərəkən*** kəndinin adı ilə əlaqədardır. Hidronimi tayfa adı ilə bağlayan araşdırıcılar da var. Bu coğrafi adı ***Şərikan*** şəklində də izah etmək istəyənlər vardır. Məlumdur ki, əski türk dilində ***çərə*** (***çörə***) sözü "*otlaq yeri*", "*örüş*" anlamına uyğun gəlir. Qədim türk dillərində ***çerik*** sözünün "*qoşun*" mənası da məlumdur. ***Çərək*** sözü fars dilində "*dörddə bir*", "*batmanın dörddə biri*", "*yara*" mənalarını ifadə edir.

Çərəkən çayı – Füzuli rayonu ərazisindən axan, uzunluğu 25 km olan ***çay***. Hidronimin adını müxtəlif izahla yozanlar var. Tarixdən məlumdur ki, orta əsrlərdə Anadoluda - ***çərəkli*** adlı tayfa yaşamışdır. ***Çərəkli*** adı mənşə etibarı ilə Səlcuq oğuzlarının Əfşar (Avşar) tayfasının ***Çeriklu*** qolunun adının fonetik formasıdır. ***Çərəkən*** çayının adını bu tayfa adı ilə bağlamaq istəyənlər var. Hidronimin izahını ***Şərikan*** şəklində də vermək olar.

Çiçəkli bulaq – Xocavənd rayonunun ərazisində, Qaradağlı kəndindən 5 kilometr aralıda, keçmiş Vərəndəli yaşayış məntəqəsi ərazisində qeydə alınan hidronimlərdən biri ***Çiçəkli bulaq*** adlanır.

Çilgəz mineral bulağı – Laçın rayonunun ərazisində, Nağdalı kəndi yaxınlığında, Mıxtökən silsiləsinin şərq hissəsində, Kəlbəcər sərhədinə yaxın sahədə, dağın ətəyində ***Çilgəz*** adlı ***mineral bulaqlar*** var. ***Çilgəz*** hidronimi ***çil*** və ***gəz*** sözlərindən ibarətdir. ***Çil*** sözü dilimizdə "*ləkə*, *xal*", "*sarımtıl*" rəng mənasındadır. ***Gəz -*** "*gədiyin ən alçaq yeri*"nə, "*dağ belində aşırım*"a deyilir. ***Gəz*** termininin fars dilində "*dəfə, kərə*", "*ölçü*" anlamları da var. ***Çil*** sözü xüsusi olaraq rəng bildirmir, amma ümumiyyətlə desək, müəyyən rəngə çalan əlaməti ifadə edir. ***Çil*** sözünün türk dillərində "*çay yatağı*", "*çaylaq*", "*çox da böyük olmayan yarğan*" anlamları da var. Yerli məlumata görə, ***Çilgəz mineral bulağı*** axdığı ərazidə kiçik sahil süxurlarının sarımtıl rəngdə olduğu üçün belə adlandırılmışdır.

Çimən kəhrizi – Xocavənd rayonunun Çimən kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Çimən kəhrizi*** adlanır.

Çinar bulağı – Cəbrayıl rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri ***Çinar bulağı*** adlanır.

Çinar bulağı – Füzuli rayonunun Arış və Qocəhmədli kəndləri arasında qeydə alınan hidronimlərdən biri ***Çinar bulağı*** adlanır. Bulağın suyu çox soyuq və müalicə əhəmiyyətlidir.

Çinar bulağı – Qarabağ silsiləsinin yamacında, Xocalı rayonu ərazisində, rayon mərkəzindən 20 kilometr məsafədə qeydə alınan hidronimlərdən biri ***Çinar bulağı*** adlanır. Dibindən bulaq axan və deyilənə görə 200 ildən çox yaşı olan bu ***çinar*** ağacının gövdəsindəki oyuğa eyni vaxtda 3 nəfər girib qardan, yağışdan daldalana, qoruna bilərdi.

Çinar bulağı – Şuşa rayonunun Malıbəyli kəndi ərazisində, Çala daş adlanan yerin yaxınlığında, qoşaçinarın dibində qayadan süzülən bulaq.

Çinar kəhrizi – Cəbrayıl rayonunun Qalacıq kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Çinar kəhrizi*** adlanır. Müxtəlif sənəd və materiallarda onun adını bəzən ***Çinardibi kəhriz*** kimi də yazırlar. ***Çinar*** kəhrizinin ***10*** quyusu var.

Çinarlı çeşmə – Cəbrayıl rayonunun Tumaslı və Çətəndaş dağlarının yaxınlığında, qalın meşəsi olan Çinarlı dərənin boğazında, dağətəyi ərazidə qeydə alınan hidronimlərdən biri ***Çinarlı çeşmə*** adlanır.

Çinarlı kəhrizi – Cəbrayıl rayonunun Səfərşa kəndinin yaxınlığında qeydə alınan hidronim.

Çiraquz bulağı – Xocavənd rayonunun ərazisində, rayon mərkəzindən 41 kilometr aralıda, Tuğ kəndindən 4 kilometr məsafədə, Qarabağ silsiləsində qeydə alınan hidronimlərdən biri ***Çiraquz bulağı*** adlanır. Coğrafi adın tərkibindəki ***Çiraquz*** sözü bulaqdan bir qədər aralıda yerləşən yaşayış məntəqəsinin adı ilə əlaqədardır. ***Çiraquz*** toponimi ilə, onun adının toponimik açımı ilə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur. Əksər tədqiqatçılar belə güman edirlər ki, *Çiraquz* toponimi *Çərhovuz* (*Çaharhovuz* – "*dörd hovuz*") sözündən yaranmışdır. Onlara görə vaxtilə türklər burada 4 hovuz tikdikləri üçün yaşayış məntəqəsi də bununla bağlı ad almışdır. Bir qisin araşdırıcılar isə bu fikri əsas götürürlər ki, *Çiraquz* toponimi "*Çiraq adlı yerdə yaşayan uzlar tayfası*" deməkdir. XIX əsr mənbələrində Qarabağda *Uz* kəndinin adı çəkilir və göstərilir ki, kəndin 15 ailədən ibarət əhalisini sahibkar Hacı Ağalar bəy buraya kənardan gətirmişdir. ***Uz*** – qədim türk tayfalarından biridir. Tarixi bilgilərə görə, hələ erkən orta əsrlərdə Cənubi Rus çöllərində peçeneqlərlə sərhəddə yaşamış ***uzlar*** sonralar xəzərlərlə birləşərək peçeneqlərə qarşı mübarizə aparmışlar. Onların müəyyən hissəsi Azərbaycana çox güman ki, xəzərlərin tərkibində gəlmişlər. ***Çiraquz*** toponimi Qarabağda vaxtilə ***siraqların*** yaşamalarından da xəbər verir. *Çiraquz* toponimi *Çiraqlı, Çiraqlar* toponimlərinin variantı olub, "*çiraq tayfasının yaşadığı kənd*", "*çiraqlılara məxsus olan kənd*" mənasını ifadə edir. *Çiraquz* – "*Çiraq eli", "Çiraq tayfası*" deməkdir. Tanınmış tədqiqatçı-alim Mirəli Seyidov yazır: *"VII əsr müəllifi A. Siraqasinin "Coğrafiya" əsəri üzərində aparılan araşdırmadan aydın olur ki, çiraq/siraq tayfası Ağvan və Arsak (Qarabağ) ərazilərində yaşamışlar; bu torpaqlar çoxdan onların adı ilə adlanırmış"*. Q.Qeybullayev *çiraq* (*sirak*) etnonimini türkdilli *sarmat* qəbiləsi ilə əlaqələndirir. Tarixi mənbələrdə göstərilir ki, XIX yüzildə Azərbaycanda 79 ailədən ibarət ***Siraq*** (***Siraqlu***) tayfası yaşamışdır. Ermənistan deyilən Qərbi Azərbaycanda da ***Çiraqlı*** oykonimi vardır. Görkəmli tədqiqatçı V.V.Vinoqradov ***Çıraq/Sirak*** tayfasından geniş bəhs edir. Müəllifə görə, onların Kuban çöllərində yaşamaları, II əsrdə Zaqafqaziyaya gəlmələri göstərilir. D.D.Paqirevin yazdığına görə, ***Çıraquz*** (Şuşa qəzası), ***Çıraqlu, Çirax, Çiraxtar, Çiraklu*** (Cavanşir qəzası) adlı yaşayış məntəqələri Zəngəzur, Terek vilayəti, İrəvan quberniyası, Şərur-Dərələyəz, Dağıstan, Qars, Şamaxı, Quba, Nalçik, Stavropol vilayəti, Lənkəran, Ərs və başqa yerlərdə də vardır.

Çirişli bulaq – Xocavənd rayonunun Muğanlı kəndindən 3 kilometr məsafədə qeydə alınan hidronimlərdən biri ***Çirişli bulaq*** adlanır.

Çobangərəhməz bulağı – Kəlbəcər rayonunda, Qonqur dağının ətəyində qeydə alınan bulaq. Hidronim eyniadlı kəndin adı ilə əlaqədar olaraq belə adlanmışdır. Kəndin ərazisi əvvəllər mövcud olmuş İrəvan quberniyasının keçmiş ***Çobangərəkməz*** kəndinin qışlaq yeri olmuşdur. ***Çobangərəhməz*** **(*Çobangərəkməz*)** yaşayış məntəqəsi sonralar həmin kənddən ayrılmış ailələrin burada daimi məskunlaşması nəticəsində yaranmışdır.

Çöpədərə kəhrizi – Zəngilan rayonunun ***Çöpədərə*** kəndinin ərazisində olduğu üçün ***Çöpədərə kəhrizi*** adlanmışdır.

Dadaş bulağı – Füzuli rayonunun Yağlıvənd kəndi yaxınlığında qeydə alınan hidronim.

Dağdağan bulağı – Laçın rayonunun ərazisində, Güləbird kəndi yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Dağdağan bulağı*** adlanır. Bəzi mənbələrdə ***dağdağanı -*** körpələri şər qüvvələrdən qoruyan müqəddəs ağac kimi səciyyələndirirlər.

Dağdağan bulağı – Zəngilan rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri ***Dağdağan bulağı*** adlanır.

Dağdağan çayı – Ağdam və Ağcabədi rayonları ərazisində axan çay ***Dağdağan*** adlanır. Qarqar çayının qoludur.

Dainakadzor çayı – Xocavənd rayonunun ərazisində qeydə alınan hidronimlərdər biri ***Dainakadzor çayı*** adlanır. O, Kiçik Həkəri (*Əkərə*) çayının qoludur. Bu çay sənədlərdə ***Dainakadzor*** variantında da qeydə alınıb. Hidronim ***dainak*** ("***daylax***" *sözünün təhrif olunmuş forması*) və ***dzor*** ("*dərə*") komponentlərindən düzəlib, "***daylax dərəsi***" mənasındadır. ***Daylaq*** dilimizdə "*birillik at balası*"na deyilir.

Damcı bulağı – Xocavənd rayonunun Qaradağlı kəndindən 4 kilometr aralıqda qeydə alınan hidronimlərdən biri ***Damcı bulağı*** adlanır.

Damcı bulaq – Xocavənd rayonunun Susanlıq kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Damcı bulaq*** adlanır.

Damcıbulaq – Ağdam rayonunun Abdal-Gülablı kəndi ərazisində qeydə alınan hidronimlərdən biri belə adlanır. Yerli məlumata görə, bu ***bulaq*** XVIII əsrdə Mirzə Abbas oğlu Camal tərəfindən tikilmişdir.

Damcılama bulağı – Laçın rayonunun ərazisində qeydə alınan hidronim. ***Damcılama bulağı*** Güləbird kəndinin şimalında, kənddən 600 metr aralıda, sıx qayalıqlar arasında, meşəlik ərazidə yerləşir.

Damla bulaq – Qarabağ silsiləsinin ətəyində, Kərkicahan qəsəbəsinin yaxınlığında qeydə alınan hidronim.

Darçay çayı – Xocalı rayonu ərazisində, Cəmilli kəndi yaxınlığında çay. ***Darçay çayı*** Qarqar çayının qoludur. Hidronim yuxarı axınında dar dərələrdən keçdiyi üçün ***Darçay*** adlanmışdır.

Daş bulaq – Cəbrayıl rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri ***Daş bulaq*** adlanır. Bu bulağın suyu *daşdan*, daşlıq ərazidən süzülüb çıxdığı üçün yerli əhali onu belə adlandırmışdır.

Daş bulaq – Füzuli rayonunun Arış kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Daş bulaq*** adlanır.

Daş bulaq – Xocavənd rayonunun Axullu kəndi ərazisində qeydə alınan hidronim.

Daşaltı çayı – Şuşa rayonunun ərazisindən axan çay. ***Daşaltı çayı*** (*adına bəzən*. ***Zarıslı*** *da deyirlər*) Qarqar çayının qoludur. Bu hidronimin adı ərazisindən axdığı eyniadlı kəndin adı ilə əlaqədardır. Şuşanın cənub tərəfindən axan bu *çay* Ağa körpüsü yaxınlığında *Xəlfəli çayı* ilə birləşib Qarqar çayına tökülür. Çayın uzunluğu 25 kilometrə yaxındır.

Daşbulaq – Xocalı rayonu ərazisində, Daşbulaq kəndi yaxınlığında qeydə alınan bulaq.

Daşbulaq – Xocavənd rayonunun ərazisində, Sıxtoraşen kəndi yaxınlığında qeydə alınan coğrafi adlardan biri ***Daşbulaq*** adlanır.

Daşbulaq – Laçın rayonunun Ağcakənd kəndi yaxınlığında qeydə alınmış hidronim.

Daşbulaq çayı – Xocalı rayonu ərazisindəki ***Daşbulaq çayı*** öz adını yaxınlıqda yerləşən eyniadlı bulaqdan almışdır.

Daşlı bulaq – Şuşa rayonunun Quşçular kəndinin ərazisində qeydə alınmış hidronim. Bəzən yerli əhali bulağın adına ***Daşdı bulaq*** da deyir.

Dəcəl kəhrizi – Cəbrayıl rayonunun Dəcəl kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Dəcəl kəhrizi*** adlanır. Bəzən sənədlərdə onun adını ***Dəjəl*** ("***c***" – "***j***" səs əvəzlənmələri Cəbrayıl şivəsi üçün də xarakterikdir) kimi də yazırlar.

Dədəli kəhrizi – Füzuli rayonunun Dədəli kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Dədəli kəhrizi*** adlanır. Bu kəhrizin üzərində və ətrafında məqsədli tikinti işləri aparılmış və o, tarixi abidəyə çevrilmişdir.

Dəhiz bulağı – Xocavənd rayonunun ərazisində, Tuğ kəndinin yaxınlığında qeydə alınan hidronim.

Dəli çay – Füzuli rayonunun Horadiz kəndi ərazisindən axan çaylardan biri də ***Dəli çay*** adlanır. ***Dəli çay*** öz mənbəyini Kiçik Qafqaz dağlarının ətəklərindəki təpəliklərdən götürür. ***Dəli çay*** gur yağış yağanda bərk gəlir. ***Çay*** hərdən yağışın gurlaşan zamanında ***"dəlilik"*** etdiyi üçün el arasında belə adlandırılmışdır. Belə "*dəliliyin*" biri 27 oktyabr 1957-ci il tarixdə axşam saat 21 radələrində olmuşdur. Həmin vaxt qıjıltı ilə axıb sellənən ***Dəli çay*** Horadiz kəndini ağuşuna alıb onu su altında qoydu, güclü sel onlarla evi yerlə yeksan etdi. Gözləmədikləri bu fəlakətdən hündür təpələrə qaçıb canını qurtarmaq istəyən kənd sakinləri ölümdən sığortalana bilmədilər. Bu daşqın 11 adamın ölümünə səbəb oldu. Yerli əhali elə bu kimi *dəliliklərinə* görə çayı belə adlandırmışlar.

Dərbənd su anbarı – Ağdam rayonu ərazisində qeydə alınmış hidronim. Dərbənd su anbarı Xaçın çayının üzərində yeganə su anbarıdır. Dərbənd su anbarının belə adlanması ilə bağlı müxtəlif fikir və mülahizələr vardır. ***Dərbənd*** sözü ***dər*** və ***bənd*** terminlərindən ibarətdir. ***Dər*** (***deyr***) ərəb dilində "*məbəd, monastır*", ***bənd*** (*vənd*) İran dillərində "*nəsil*, *uşaq*, *törəmə*" mənasındadır. *Çökəklikdə* qədim məbəd xarabalıqları da vardır. ***Dərbənd*** sözünə başqa prizmalardan yanaşanlar da vardır.

Dəvəbatan göl – Heyvan adları əsasında əmələ gələn zoohidronimlərdən biri də Cəbrayıl rayonunun Xudaverdili kəndi yaxınlığında qeydə alınan ***Dəvəbatan göl*** adlanır.

Dəvəbatıran çay – Xocavənd rayonu ərazisində, Qaradağlı kəndindən 2 kilometr aralıda qeydə alınan toponim ***Dəvəbatıran çay*** adlanır. Deyilənə görə, əvvəllər bu çayın ərazisindən axdığı dərə kolluq və bataqlıq olmuşdur. Vaxtilə karvan yolu ilə buradan keçən ***dəvələrin*** çayda ***batması*** ilə əlaqədar ***çay*** sonralar belə ad almışdır.

Dəyhan çayı – Laçın rayonunda, Qarabağ silsiləsinin cənub-qərb ətəyi ilə axan çay. ***Dəyhan çayı*** onun sahilində yerləşən *Dəyhan* kəndinin adı ilə əlaqədardır.

Dəyirman çayı – Laçın rayonu ərazisində çay; Həkəri çayının qolu.

Diri bulaq – Cəbrayıl rayonunun ərazisində, Diri kəndinin yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Diri bulaq*** adlanır.

Div arx – Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Div arx*** adlanır. Toponim göründüyü kimi, ***div*** və ***arx*** sözlərindən ibarətdir. Div arx adlı məşhur toponimik rəvayət də var: *Qarabağ xanının gözəl bir qızı var imiş. Onu iki gənc sevirdi. Biri çox varlı-dövlətli, digəri isə Div adlı güclü və qoçaq. Xanın qızı belə bir şərt qoyur ki, kim Tərtər çayından yaxınlığa tez arx çəkib su gətirsə, ona gedəcək. Gənclər eyni vaxtda müxtəlif yerlərdə işə başlayırlar. Dövlətli gənc pul ilə adam tutub işlədir. Buna baxmayaraq gecə-gündüz çalışan Div arxı daha tez tamamlayır. O, səhəri gün arxa su buraxmağa hazırlaşır. Dövlətli məğlub olduğunu görüb bir qocanın məsləhəti ilə arxın içərisinə bir mələfə saldırır. Səhər bunu görən Div elə bilir ki, artıq dövlətli gənc işi qurtarıb. Odur ki, xəncərini sinəsinə soxub özünü öldürür. Divin ölüm xəbərini, dövlətlinin isə hiyləgərliyini eşidən qız xəstələnib ölür. Onları Divin çəkdirdiyi arxdan çox da aralı olmayan bir yerdə dəfn edirlər. Dövlətli gənc qəbirdə də onlara rahatlıq vermir. O, qız ilə oğlanın qəbirləri arasına hiyləgər qarını basdırır. Gənclərin qəbirlərindən gül kolu, qarının qəbrindən isə tikan çıxır. Bu iki gülün budaqları bir-birinə yaxınlaşıb qovuşmaq istəyir, ancaq tikan buna imkan vermir. Bədbəxt oğlanın (**Divin**) çəkdiyi **arx** indiyə qədər durur. Camaat onu **Div arx** adlandırmışdır…*

Dolanlarçay – Cəbrayıl və Xocavənd rayonları ərazisindən axan çay ***Dolanlarçay*** adlanır. ***Dolanlar*** kəndinin ərazisindən, onun yaxınlığından axdığı üçün (*görünür, bu ərazilərdə **Dolanlar** adlı yaşayış məntəqəsi də olub*) belə adlandırılmışdır. Hidronim ***Dolanlar*** (*etnotoponim*) və ***çay*** (*su hövzəsi*) komponentlərindən ibarətdir. ***Dolan*** tayfası monqol-tatar mənşəli tayfadır. F.Rəşidəddinin qeydlərinə görə, ***dolanlar*** da bəzi türk tayfaları kimi monqollara qarşı mübarizə aparmışdır. Xocavənd (keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin tabeliyinə aid olan Hadrut və Martuni rayonları hazırda ***Xocavənd rayonu*** adlanır) rayonunda ***Dolanlar kəndi*** də var. Əvvəllər bu yaşayış məntəqəsi Cəbrayıl qəzası ərazisinə tabe olmuşdur. 1923-cü ildə həmin kənd DQMV tabeliyinə verilmişdir. Qədimdə bu kəndə ***Ərgünəş*** deyirmişlər. ***Dolanlar*** türk tayfası tatar-monqol mənşəlidir. ***Dolon/tolon*** tayfasının adı ilə bağlı toponimlərə türkdilli xalqların yaşadığı ərazilərdə daha çox rast gəlinir. ***Dolon//Dolan*** qədim türk tayfası adı olmaqla bərabər, həm də qədim troyalılara məxsus olan şəxs adıdır. ***Dolanlar*** türkmənşəli toponimi "*qədərində, tamamlanmış*" mənasındadır.

Dolayı bulaq – Cəbrayıl rayonunun ərazisində, Qazanzəmi kəndinin yaxınlığında yerləşən bulaq.

Domı çayı – Xocavənd rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri ***Domı çayı*** adlanır. ***Allı*** çayının sağ qoludur. Azərbaycan dilinin Qərb qrupu dialektlərində ***domı/domu*** termini "*qısa*", "*gödəkboy*", "*ayrı*", "*qozbel*" mənalarında işlədilir. Xocavənd rayonununda ***Domı*** adlı *kənd* də var.

Dovşan bulağı – Cəbrayıl rayonunun ərazisində, Çələbilər kəndinin yaxınlığında, kənd sakini Qabil Əli oğlunun evindən 250 metr aralıda qeydə alınan hidronimlərdən biri ***Dovşan bulağı*** adlanır. ***Dovşan bulağı*** dağ daşından sızan şirin sulu bulaqdır.

Dördçinar kəhrizi – Füzuli rayonunun ərazisində qeydə alınmış hidronim. ***Dördçinar kəhrizi*** Füzuli rayonun ***Dördçinar kəndi*** ilə Musabəyli kəndi arasında olduğu üçün bu hidronim el arasında belə adlandırılmışdır.

Dreydin bulağı – Qarabağ silsiləsinin ətəyində, Xocalı rayonunun ərazisində, Kərkicahan qəsəbəsinin 6, Kosalar kəndinin isə 2 kilometrliyində qeydə alınan bulaq.

Dünyamalı bulağı – Cəbrayıl rayonunun Xələfli kəndi ərazisində qeydə alınan hidronim.

Eminli bulağı – Cəbrayıl rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri ***Eminli bulağı*** adlanır.

Əjdaha bulağı – Şuşa rayonun ərazisində qeydə alınan bulaq.

Əhməd bulağı – Cəbrayıl rayonunun Şükürbəyli kəndinin ərazisində qeydə alınan hidronim.

Əhmədli bulağı – Laçın rayonunun ərazisində qeydə alınan ***Əhmədli*** adlı ***mineral bulaq*** çox gözəl və səfalı təbiət qoynundadır. Hidronimin belə adlanması ilə bağlı yerli əhali arasında bir neçə mülahizə mövcuddur. Mülahizələrdən biri bundan ibarətdir ki, həmin bulaq ***Əhməd*** şəxs adı ilə bağlıdır. Yerli məlumata görə; **Molla Əhməd** XIX əsrin ikinci yarısında Qaryagin (*indiki Füzuli rayonu*) qəzasından (*Arazboyu kəndlərin birindən*) gələrək bu ərazidəki ***Əhmədli*** kəndinin bünövrəsini qoymuşdur. Kənd əvvəllər hazırda ***Varazğun yeri*** deyilən ərazidə olub və XIX əsrin ikinci yarısında buraya köçürülüb.

Ələkçi çayı – Kəlbəcər rayonu ərazisində axan çay.

Əli bulağı – Ağdam rayonunun Abdal-Gülablı kəndi yaxınlağında qeydə alınan hidronim.

Əli bulağı – Laçın rayonu ərazisində, Hocaz kəndi yaxınlığında qeydə alınan hidronim.

Əlik bulağı – Kərkicahan qəsəbəsinin 2 kilometrliyində qeydə alınan oroqrafik obyektlərdən biri ***Əlik bulağı*** adlanır.

Əlinəzərli bulağı – Əmirallar kəndinin yaxınlığında, keçmiş Bəhrəmli kəndi ərazisində, Mil-Qarabağ düzündə qeydə alınan hidronimlərdən biri ***Əlinəzərli bulağı*** adlanır.

Əmiraslan bulağı – Cəbrayıl rayonunun ərazisində, Qazanzəmi kəndindən Sustalığa gedən yolun (*cığırın*) sağ tərəfində qeydə alınan hidronim ***Əmiraslanın bulağı*** adlanır. *Əmiraslan bulağı* ağcaqayın ağacının dibində qaynayan bir bulaqdır.

Ənsar bulağı – Cəbrayıl rayonunun ərazisində, Sofulu kəndinin baş hissəsində, Düzgə dağının ətəyində qeydə alınan hidronim ***Ənsar bulağı*** adlanır. Adına bəzən yerli şivəyə uyğun olaraq ***Ənsər bulağı*** da deyirlər. Hidronim ***ənsar*** sözündən və ***bulaq*** hidronimik apelyativindən ibarətdir. ***Ənsar*** sözü ərəb dilində "*köməkçi*", "*tərəfdar*" mənasını daşıyır.

Ərdəşəvi çayı – Laçın rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri ***Ərdəşəvi çayı*** adlanır. Şəlvə çayının qolu olan ***Ərdəşəvi çayı*** (bəzən hidronimin adını ***Ərdəşəvisu*** kimi də yazırlar) ***Ərdəşəvi*** dağının adı ilə əlaqədar olaraq belə adlandırılmışdır. Çayın uzunluğu 13 kilometrdir. ***Ərdəşəvi*** toponiminin dəqiq izahı elmi şəkildə hələlik tam aydınlaşdırılmayıb. Bu sözün anlamı ilə bağlı ictimaiyyət arasında müxtəlif fikir və mülahizələr mövcuddur. Bəzi araşdırıcılar toponimi ***Ərşad*** şəxs adı ilə əlaqələndirir.

Əsədullah bəy kəhrizi – Füzuli rayonunun ərazisində qeydə alınmış kəhriz.

Əsgərxan bulağı – Füzuli rayonunun Yağlıvənd kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Əsgərxan bulağı*** adlanır. Hidronim ***Əsgərxan*** şəxs adından və ***bulaq*** hidronimik apelyativindən ibarətdir.

Əyri çay – Laçın rayonu ərazisində qeydə alınan hidronimlərdən biri ***Əyri çay*** adlanır. Bəzi sənədlərdə hidronimin adı ***Ayrı çay*** şəklində yazılmışdır.

Əyri göl – Laçın rayonunun Hocaz kəndi ərazisində qeydə alınan göl. ***Əyri göl*** Həkəri çayının deltasındadır.

Əyyub bulağı – Xocalı rayonunun ərazisində, Xocalı yaşayış məntəqəsində qeydə alınan hidronim.

Farux gölü – Xocalı rayonunda, dağətəyi ərazidə, Farux kəndi yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Farux gölü*** adlanır. Hidronim yaxınlıqda yerləşən kəndin adı ilə bağlıdır.

Gilan gölü – Füzuli rayonunun Babı və Arayatlı kəndləri yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Gilan gölü*** adlanır. Bəzi tədqiqatçılar hidronimin tərkibindəki ***Gilan*** sözünü İranda, Xəzər dənizinin cənub sahillərində yaşayan ***gilanlılar*** **(*giləklər*)** ilə əlaqələndirir. ***Gilan*** - İranda inzibati mərkəzi *Rəşt* olan bir ostanlıqdır. Bizim Azərbaycanımızda, Ordubad şəhərindən 16 km qərbdə xarabalığı indi də duran orta əsr şəhərlərindən biri ***Gilan*** adlanırdı. Ordubad rayonunda uzunluğu 53 km olan və Arazın sol qolu hesab olunan *Gilançay* adlı çay da var.

Govurarx – Cəbrayıl rayonunun ərazisində, Niyazqululular kəndinin yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Govurarx*** adlanır.

Govurarx – Xocavənd rayonu ərazisində qeydə alınan hidronimlərdən biri ***Govurarx*** adlanır. ***Govurarx*** elliptik coğrafi nomenli mürəkkəb hidronimdir. Adına bəzən ***Gavurarx*** da deyilir. Məşhur şərqşünas İ.İ.Meşşaninovun fikrincə, bu tip kanalların tikintisinə eramızın ilk əsrlərində başlanmışdır. İslam dininin Azərbaycanda qəbulundan sonra bu tikililər ***Govurarx*** (***Kovurarx***) adlanmışdır. Hidronim "*İslama sitayiş etməyənlərin (**kafirlərin**) arxı*", "*qeyri-islam dininə mənsub olanların arxı*" mənasındadır. Bəzi araşdırıcılar *arxın* hələ atəşpərəstlərin zamanında (onlara ***kəbr*** deyirdilər) salındığını qeyd edir. Lakin dini xarakterli sözlərdən düzələn bəzi hidronimlərin, o cümlədən, ***Govurarxın*** (***Kovurarxın***) islamdan sonrakı dövrdə yarandığını göstərən tədqiqatçılar da vardır. XIX əsrin 60-cı illərinin sonunda Vərəndə sahəsinin murovu vəzifəsinə təyin edilən Əhməd bəy Cavanşir buradakı taxıl yerlərini suvarmaq üçün Arazdan su çıxarmaq işi ilə məşğul olmuş, uzun əziyyətdən sonra **8** verst uzunluğunda bir arx qazdırmış və onu Mil düzündəki qədim ***Gavur arxı*** ilə birləşdirmişdir. Mənbəyini Araz çayından götürərək, Beyləqan rayonunun ərazisindən keçib, Ağcabədi rayonu ərazisində Qarqar çayına qovuşan arx da ***Gavur arxı*** adlanır. Mənbələrdə adı ***Barlas*** kimi də çəkilir. ***Gavur arxı*** ilə bağlı bir sıra rəvayətlər vardır. Onlardan biri belədir: *Bir gün gavurların şahı Şirvan şahının qızını görüb aşiq olur və ona elçi göndərir. Şirvan şahı qızını gavurların şahına vermək istəmir, amma onun güclü olduğunu görüb, qızı ilə məsləhətləşir. Qız deyir: – Ata, sən bir şərtlə razılıq ver, qoy gavurların şahı Araz çayından bir arx çəksin, bostan əkib, həmin arxın suyu ilə suvarsın. Barından bir qarpız gətirib kəssin və öz əli ilə bir dilim də mənə versin. Ondan sonra ona ərə gedərəm. Elçilər qayıdıb şərti şaha çatdırırlar. Şah, qızın gözəlliyi qarşısında heç nə deyə bilmir və razı olur. Böyük çətinliklə su arxı çəkirlər. Gavurların şahı öz əli ilə burada bostan əkir. Bar verəndən sonra gavur şahı böyük bir qarpızla qızın yanına gəlir. Şah qızı deyir: – İndi vədimizə tam əməl etməlisən; bu qarpızı öz əlinlə kəsib bir dilimini mənə verməlisən. Gavur şahı tez qarpızı kəsir. Həmin anda heyrətindən yerindəcə donur. Qarpızın içindən qırmızı qan fışqırmağa başlayır. Qız deyir: – Ey şah, gör sən necə zülmkarsansa, özün becərdiyin bostanın qarpızından da qan tökülür. İndi də görüm, mən sənə necə ərə gedə bilərəm? Gavurların şahı bir söz deməyib geri qayıdır. Elə o zamandan da bu arx **Gavur arxı** adlanır.*

Gödəkarx – Xocavənd rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri belə adlanır.

Gölbağı bulağı – Füzuli rayonunun Horadiz kəndi ərazisində bulaq.

Göllər – Qarabağ silsiləsində, Kərkicahan qəsəbəsinin 4 kilometrliyində qeydə alınan hidronimlər içərisində ***Göllər*** adlı coğrafi adlar da vardır. Bu ***göllər*** axmazlar yaradırlar.

Göyərçinli kəhriz – Cəbrayıl rayonunun ərazisində qeydə alınmış hidronimlərdən biri belə adlanır.

Göz bulağı – Laçın rayonunun İstisu ərazisində, Mınkənd kəndi yaxınlığında qeydə alınan hidronim ***Göz bulağı*** adlanır. ***Göz*** sözünün "*pay*, *hissə*", "*bataqlıq*", "*uzaq yerdən su çəkib gətirmək üçün kankanların qazdığı quyu*" və s. mənaları da vardır. Yerli əhalinin dediyinə görə, ***Göz bulağı*** suyunun *göz* xəstəliklərinə xeyri olduğu üçün hidronim belə ad almışdır.

Gülyataq çayı – Qarabağ silsiləsi ətəyində, Ağdam rayonunun şimal ərazisində axan çay. Bəzən adına ***Papravənd çayı*** da deyirlər. XX əsrə qədər olan ədəbiyyatlarda adına ***Gülətaq*** şəklində də rast gəlinir.

Güney kəhrizi – Füzuli rayonunun Horadiz kəndi ərazisində qeydə alınmış hidronim.

Hacıkərim kəhrizi – Xocavənd rayonunun ərazisində, rayon mərkəzindən 1 kilometr aralıda qeydə alınmış hidronimlərdən biri ***Hacıkərim kəhrizi*** adlanır.

Hacılar arxı – Füzuli rayonunun ərazisində qeydə alınan hidronim. Quruçay ilə paralel istiqamətdə axan bu arx Füzuli şəhərindən də keçir.

Harın bulaq – Ağdam rayonunun Abdal kəndi yaxınlığında qeydə alınan coğrafi adlardan biri ***Harın bulaq*** adlanır. Azərbaycan və Türk dilinin bir çox dialekt və şivələrində ***harın*** sözü "*çox*", "*bol*", "*həddən artıq*" "*cızığından çıxmış, yolundan dönmüş,* qudurmuş" anlamlarında işlədilir. Yaşlı adamların dediklərinə görə, hətta , Ağdam rayonunun əksər kəhriz və bulaqlarının suyu bir neçə on illər bundan əvvəl qurusa da, ***Harın bulaq*** onlardan fərqli olaraq qurumamışdır.

Hasanlı kanalı – Cəbrayıl rayonunun Hasanlı kəndi yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Hasanlı kanalı*** adlanır.

Havuslu kəhrizi – Cəbrayıl rayonunun Havuslu kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Havuslu kəhrizi*** adlanır.

Həkəri çayı – Azərbaycanın Laçın, Qubadlı və Zəngilan rayonlarının ərazilərindən axan çay. Uzunluğu *113* kilometrdir. Hövzəsinin sahəsi *2570* kub/metrdir. ***Həkəri çayı*** Şəlvə və Hoçazsu çaylarının birləşməsindən əmələ gəlir. ***Həkəri çayı*** öz mənbəyini dəniz səviyyəsindən *2580* metr hündürlükdən, Mıxtökən silsiləsinin, Dəlidağ yüksəkliyindən, Kəlbəcər rayonunun ərazisindən götürür. Minkənd və Daşbulaq kəndlərindən Pəriçınqılı və Çalbayır dağlarından süzülən şəffaf bulaq suları və Qaranlıq çayı ilə qidalanır. ***Çay*** Qubadlı rayonunun ərazisində, Zilanlı kəndi yaxınlığında, dəniz səviyyəsindən *358* metr hündürlükdə *Bazarçay* ilə birləşərək Zəngilan rayonunun qurtaracağında *Araz* çayına tökülür. *25* kilometrdən çox Zəngilan rayonunun ərazisi ilə axır. Çayın illik axın həcmi *483* mln. kub/metrdir. Çayın üzərində üç *Su Elektrik Stansiyası* tikilmişdir. Əsasən yeraltı sularla qidalanan ***Həkəri*** çayının suyundan suvarmada geniş istifadə edilir. Qarışıq mənbələrdən qidalanan Həkəri çayının suyu yaz aylarında artır. İşğaldan öncə zəngilanlılar Həkəri çayının suyundan həm təsərrüfatda, həm də məişətdə istifadə edərdilər. Zəngilan rayonunun 11 kəndinin əhalisi bu çayın suyundan yararlanırdı. Həkəri çayı *kütüm*, *farel* və digər balıqlarla zəngindir. ***Çay*** yuxarı axarında eyniadlı kəndin adı ilə əlaqədar olaraq ***Şəlvə*** adlanır. Tarixi mənbələrə, sənədlərə əsaslanıb deyə bilərik ki, çayın keçmiş adı ***Ağvan*** (***Alban***) olmuşdur. IX – XII əsrlərə aid olan ərəb mənbələrində hidronim ***Arrançay*** da adlanmışdır.

Həmin mənbələrdə çayın Araza töküldüyü göstərilir. ***Çay*** tarixi sənədlərdə ***Əkərə*** adlanmışdır. Görünür sonralar kürddilli ***həkəri*** tayfasının ətraf ərazidə məskunlaşması ilə bağlı olaraq ***çay*** tədricən həmin tayfanın adı ilə də tanınmağa başlamışdır.

Hərəm bulağı – Cəbrayıl rayonunun ərazisində, Hacı Qaraman məzarlığı ilə keçmişdə mövcud olmuş Saracıq yurd yerinin arasında yerləşən Qursalan dərəsinin başında qeydə alınan hidronim ***Hərəm bulağı*** adlanır. Bu toponim ilə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur. Ərəb dilində ***hərəm*** sözü "*qadağan olunmuş*", "*ərli qadın*", "*müqəddəs yer, ziyarətgah*" mənalarını ifadə edir. ***Hərəm bulağı*** ilə bağlı bir neçə əfsanə uydurulmuşdur.

Həsən bulağı – Cəbrayıl rayonunun ərazisində, Dağ Tumas kəndinin yaxınlığında, Tumas bağının cənub-qərb ətəyində, Böyük kovun yuxarı başında, dağətəyi ərazidə qeydə alınan hidronim ***Həsən bulağı*** adlanır. Hidronim şor suyu olan qaynama bulaqdır.

Həsənabad gölü – Qarabağ silsiləsinin ətəyində, Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 9 kilometr məsafədə, Həsənabad kəndi yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Həsənabad gölü*** adlanır.

Həştafər bulağı – Füzuli rayonunun ərazisində, Qacar kəndi yaxınlığında, kənddən 4 kilometr məsafədə yerləşir. Bəzən adına ***Həştəfər*** də deyirlər. Hidronimi müxtəlif prizmadan izah edirlər. ***Həşt -*** fars dilində "*səkkiz*" deməkdir. ***Fər*** sözünün *"burma saç", "qaçaqaç", "qol-budaq", "şöbə", "əhəmiyyəti olmayan", "xülasə", "faiz, sələm", "gəlir, artım"* və s. anlamları var. Hidronimin izahı ilə bağlı çoxlu fikir və mülahizələr vardır.

Həzər bulağı – Xocavənd rayonunda, Salakətin kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Həzər bulağı*** adlanır. ***Həzər*** ərəb sözü olub "*çəkinmə*", "*ehtiyat etmə*" anlamındadır; ***həzər*** sözünün ərəbcə "*şəhər mədəniyyəti*", "*şəhərdə yaşayan*", "*oturaqlıq*" mənaları da var. Bəzi araşdırıcılar ***Həzər*** sözünü ***Xəzər*** sözünün təhrif olunmuş forması kimi qəbul edir.

Hocazsu çayı – Laçın rayonunun ərazisindən axan **Hocazsu** (bəzən sənədlərdə adına ***Hoçazsu*** şəklində də rast gəlmək olar) çay Həkəri çayının sağ qoludur. ***Hocazsu çayı*** öz mənbəyini Dəlidağdan axıb gələn Qırxqız və Soyuq bulaqların suyundan alır. Yuxarı axınında çay ***İldırımsu*** adlanır. ***Hocazsu çayı*** öz başlanğıcını Hocaztəpədən (Hocazdaşı ətəyindən) aldığı üçün belə adlanmışdır. Qarabağ yaylasından başlayan, yağış, qar, yeraltı sularla qidalanan Hocazsu çayının uzunluğu 63 km, hövzəsinin sahəsi isə 414 kvadrat kilometrdir.

Hüseyn Ağa kəhrizi – Cəbrayıl şəhərindəki ***Hüseyn Ağa*** (*bəzən bu hidronimin adı* ***Hüseynağa kəhrizi*** *kimi də yazılır*) kəhrizini Pənahəli xanın nəslindən olan Cəbrayıllı şair təbiətli ağsaqqal **-** xeyriyyəçi ***Hüseyn Ağa*** tikdirdiyi üçün ***kəhriz*** də onun adı ilə adlanmışdır.

Xaçın çayı – Kəlbəcər, Ağdam və Bərdə rayonları ərazilərindən axan çay. Kür hövzəsi çaylarından olan Xaçın çayının uzunluğu 119 km, hövzəsinin sahəsi isə 657 kv. km-dir. Kürün sol qoludur. ***Xaçın çayı*** öz mənbəyini Qarabağ silsiləsindəki ***Uyuxlu*** dağının cənubundan, 2100 metr hündürlükdən götürür. Çayın mühüm qolu ***Kolatağ*** adlanır. Çayın məcrasında ***Xaçınçay su*** **anbarı** yaradılmışdır. ***Xaçın*** hidronimi Qafqaz Albaniyasının ***Xaçın*** əyalətinin adındandır. Bu əyalətin adı ilk dəfə VII - X əsrlərdəki hadisələrlə əlaqədar çəkilmişdir. XII - XIII əsrlərdə Yuxarı Qarabağda (*Arsaxda*) ***Xaçın hökmdarlığı*** (*knyazlığı*) yaranmışdır. Bütün bu adlar ərazidəki ***Xaçın*** qalasının adı ilə bağlıdır. ***Qala*** 1227-ci ildə monqol hücumları zamanı dağıdılmışdır. XIII əsrdə monqollar ***Xaçın*** hökmdarlığına son qoymuşlar. Bəzi tarixi məxəzlərdən aydın olur ki, Xaçında feodal hakimliyi XII əsrdə təşəkkül tapmışdır. XV əsrdə Qaraqoyunlu hökmdarı

Cahanşah Həqiqi Cəlalilərə məlik titulu verib. Bu məliklik sonralar - 1813-cü ildə Qarabağ xanlığının tərkibində Rusiyaya birləşdirilib.

Xaçınçay su anbarı – Ağdam rayonu ərazisində, Xaçın çayının məcrasında yerləşir. Sahəsi 1,7 kvadrat kilometr, ümumi həcmi 23 milyon kub.metr, faydalı həcmi isə 20 milyon kub.metrdir. Bəndinin uzunluğu 940 metr, hündürlüyü 38 metrdir. Su anbarının belə adlanması ***Xaçın*** çayının adı ilə əlaqədardır.

Xaçıntak çayı – Xocalı rayonunun ərazisində qeydə alınan coğrafi adlardan biri ***Xaçıntak çayı*** hidronimidir. Əslində bu coğrafi ad bir qədər təhrifə (***Xaçınçay*** *olmalıdır*) uğramışdır. ***Xaçın*** hidronimi Qafqaz Albaniyasının ***Xaçın*** əyalətinin adındandır. Bu əyalətin adı ilk dəfə VII – X əsrlərdə baş verən hadisələrlə əlaqədar çəkilmişdir. Tarixdən məlumdur ki, XII –XIII əsrlərdə Qarabağda, o cümlədən Xocalı rayonunun da daxil olduğu ərazidə ***Xaçın knyazlığı*** (*hökmdarlığı*) yaranmışdır. Bütün bu adlar ərazidəki ***Xaçın*** qalasının adı ilə bağlıdır. ***1227***-ci ildə həmin qala monqol hücumları nəticəsində dağıdılmışdır.

Xalvar kəhrizi – Cəbrayıl rayonunun Sarıcallı kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Xalvar kəhrizi*** adlanır. ***Xalvar*** sözü vaxtilə Yaxın Şərq ölkələrində, o cümlədən, Azərbaycanda və Orta Asiyada mövcud olmuş "*çəki vahidi*" mənasındadır. ***Xalvar*** sözü bəzi sənədlərdə ***xarvar*** kimi də yazılır. Xalvarın həcmi vaxtilə ayrı-ayrı ərazilərdə müxtəlif olmuşdur. Məsələn: ***1 xalvar*** XIX əsrdə Naxçıvanda *19 pud*, Şamaxı qəzasında *15 pud*, Lənkəran qəzasında *26 pud*, Bakı qəzasında *23,5 pud* olmuşdur. Azərbaycan Respublikasının ərazisində ***xalvar*** sözü ilə bağlı onlarla coğrafi ad qeydə alınmışdır.

Xan bağı kəhrizi – Cəbrayıl rayonunun Havuslu (Hovuslu) kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Xan bağı kəhrizi*** adlanır.

Xan bulağı – Cəbrayıl rayonunun Hovuslu kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Xan bulağı*** adlanır.

Xan kəhrizi – Füzuli rayonunun Horadiz kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Xan kəhrizi*** adlanır.

Xələfli gölü – Cəbrayıl rayonunun ərazisində, Xələfli kəndinin yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Xələfli gölü*** adlanır. Bu ***göl*** rayon mərkəzinin 8 kilometrliyində, ***Xələfli*** kəndinin yaxınlığında yerləşdiyi üçün yerli əhali onu kəndin adı ilə əlaqədar olaraq belə adlandırmışlar.

Xəlfəli çayı – Xocalı və Şuşa rayonları ərazisində çay. Qarqar çayının qoludur. ***Xəlfəli*** hidronimi, eləcə də ***Xəlfəli*** oykonimi öz adını keçmiş zamanlarda Qarabağda yaşamış ***Xəlfəli*** tayfasının adından götürmüşdür. *Xəlfəlilər* mənşəcə şahsevənlərdəndirlər. Qarabağ xanı Mehdiqulu xanın da (1806-1822) mənsub olduğu *Xəlfəlilər*, hətta xan İrana qaçdıqdan sonra da oturaqlaşaraq bir neçə kənd yaratmışdılar. *Şahsevən* ittifaqına daxil olan ***xəlfəlilər*** əsasən maldarlıqla, heyvandarlıqla məşğul olurmuşlar. Toponimin mənşəyini ərəb xəlifələri ilə bağlayanlar da var.

Xəlifə kəhrizi – Cəbrayıl rayonunun Harovlu kəndi ərazisində qeydə alınan kəhrizlərdən biri ***Xəlifə kəhrizi*** adlanır. ***Xəlifə*** sözü ***Xilafət*** ilə bağlı olan bir termindir. ***Xəlifə*** - ərəb dilində "*müavin, varis, xələf, canişin*" mənalarını ifadə edir. 632-ci ildə Məhəmməd Peyğəmbərin ölümündən sonra müsəlman icması və teokratik müsəlman dövlətinin (*Xilafətin*) dini və dünyəvi başçısı ***xəlifə*** adlanırdı. XIII əsrdə Abbasilər dövlətinin süqutundan sonra bütün müsəlmanlar

üzərində dini hakimiyyət iddiasında olan bəzi müsəlman dövlətlərinin hökmdarları (*Türkiyə sultanları* və s.) ***xəlifə*** titulunu qəbul etmişdilər.

Xəstə kəhriz – Cəbrayıl rayonunun Balyand kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Xəstə kəhriz*** adlanır. Bu hidronim ilə bağlı müxtəlif əfsanələr uydurulmuşdur. Onlardan biri təxminən belədir: *Bu yerlərin camaatı bir zamanlar ağır, yoluxucu xəstəliyə mübtəla olublar. Bir ailədən yeganə sağ qalmış* ***xəstə*** *bir nəfər özünü çətinliklə kəhrizin yerindən axan sısqa bulağa çatdırır. Bulağın suyundan içən həmin* ***xəstə*** *sağalıb cana gəlir. Guya deyirlər ki, bundan sonra sağ qalan bir neçə adam da həmin suyu içəndən sonra şəfa tapmışdır. Bəlkə elə bu kimi əfsanələrin təsirindən kənddəki bu hidronim* ***Xəstə kəhriz*** *adını almışdır.*

Xəznəvarsu çayı – Laçın rayonu ərazisində axan çay. O, Zabux çayının qoludur. Çayın əsl adı ***Xəzinəvarsu*** kimi yazılmalıdır. **Xəznə-** ***varsu*** hidronimi "***xəznə/xəzinə***", "***var***" və "***su***" sözlərindən ibarətdir. ***Xəznə/xəzinə*** toponimini bəzi tədqiqatçılar ərəb dilində "*atəşpərəst məbədi*" mənası verən ***kənisə*** sözü ilə bağlayır.

Xocalı çayı – Xocalı rayonu ərazisində, Qarabağ silsiləsi ətəklərində çay. Badara çayının sol qoludur. Bu hidronim ***Xocalı*** şəhərinin yaxınlığından axdığı üçün belə adlanmışdır. ***Xocalı*** sözü *Xocalı nəslinin* adını özündə əks etdirir. Əvvəllər bəzi mənbələrdə çayın adı ***Xacə Əlili*** kimi də qeyd olunmuşdur. ***Xocalı*** çayının indiki adını bu yozumla bağlayanlar da var.

Xonaşen çayı – Xocavənd və Ağcabədi rayonları ərazisində axan çay ***Xonaşen çayı*** adlanır. Qarabağ silsiləsindən, Xocalı rayonu ilə Xocavənd rayonlarının sərhədlərindən, Cəmiyyət (*Ningi*) kəndinin ərazisindən başlayan ***Xonaşen çayı*** Ağcabədi rayonu ərazisində Orjonikidze adına kanala çatmadan quruyur. Çayın uzunluğu 62 km-dir. Qarabağ silsiləsindən başlanan *Xonaşen çayı* əsasən, yağış suları ilə qidalanır. Suvarmada geniş istifadə olunan *Xonaşen* çayının hövzəsinin sahəsi 234 kv. km-dir. Bəzən adı ***Xanaşençay***, ***Xonaşençay, Xonaşınçay*** kimi də yazılır. Hidronim ***xona*** ("*hündür yer*", "*yüksəklik*"), ***şen*** ("*ev*", "*mənbə*") və ***çay*** (*su hövzəsi*) sözlərindən ibarət olub, "***mənbəyini yüksəklikdən alan çay***" mənasındadır. **Çay** (*su hövzəsi*) öz adını keçmişdə ***Xonaşen*** **(*Xonaşin*)** adlanmış böyük yaylaq yerinin adından almışdır. Yaylağın adı isə bəzi tədqiqatçılara görə, V əsrdə Azərbaycanda məskunlaşmış türkdilli ***hun*** etnonimindən və ***şen*** ("*kənd, yer, ev, mənbə, ərazi*") sözlərindən ibarət olub, "*hun ölkəsi*", "*hunlar yaşayan ərazi*" mənasındadır. Bəzi məlumata görə *çay* öz adını vaxtilə onun yatağında yerləşən ***Xan Uşun*** obasının adından alıb. "*Kitabi-Dədə Qorqud*" dastanında adı çəkilən ***Xan Uşun*** adından-antroponimdən ***Xanuşun*** kənd adı yaranmış və əsrlər ötdükcə bu söz ermənilər tərəfindən ***Xonaşın*** və ***Xonaşenə*** çevrilmişdir. Ermənilər onu sonradan birdəfəlik ***Xonaşen*** şəklinə salıblar. Mənbələrdə göstərilir ki, Qarabağın əsas yazlaqları tarixən ***Xonaşen*** (35.000 desyatin) və ***Gəyən düzü*** (10.000 destatin) olmuşdur. *1727*-ci ilə aid olan "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı tarixi qaynaqda Vərəndə nahiyəsinə tabe olan yaşayış məntəqələri içərisində ***Xuneşin məzrəsi*** coğrafi adı da çəkilmişdir.

Xor-xor bulağı – Cəbrayıl rayonunun ərazisində, Keçəlməmmədli kəndinin yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Xor-Xor bulağı*** adlanır.

Xoşgədik çayı – Laçın rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri ***Xoşgədik*** adlanır. Həkərinin qolu olan ***Xoşgədik çayının*** adı ərazidəki eyniadlı dağla əlaqədardır. ***Xoş//keş//koş*** **-** türk dillərində "*köç*, *köçəbə*, *müvəqqəti yurd*" mənası daşıyır. Dağın adındakı ***gədik*** komponenti isə, "*dağ belində aşırım, hündür dağarası yol, keçid*" mənasını ifadə edən müsbət relyef formalı termindir. ***Xoşgədik*** hidronimi "*müvəqqəti yurd, köç olan aşırımdakı su*" mənasındadır.

Xoşgədikçay – Xocavənd rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri ***Xoşgədikçay*** adlanır. Çay öz mənbəyini Çaylaqqala kəndinin şimalından götürür.

İbə bulağı – Füzuli rayonunun Horadiz kəndinin Cəbrayıl rayonu ilə həmsərhəd ərazisində qeydə alınmış hidronim.

İbici çeşməsi – Cəbrayıl rayonunun ərazisində, Tumaslı dağının hündür zirvəsinin günbatan yamacında, İbici quzeyinin cənub çökəyində, Şallı bayırın yanında, Sulu kühüldən 1 kilometr şərqdə, bu kühüldən bir qədər aşağı səviyyədə, dağətəyi ərazidə qeydə alınan hidronimlərdən biri ***İbici çeşməsi*** adlanır. Çeşmənin belə adlanması ilə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur.

İçməli su kəməri – Şuşa rayonunun ərazisində qeydə alınan su kəməri. XIX əsrin 70-ci illərinə qədər Şuşada içməli su problemi olmuşdur. Əhali içməli suyu dağlardan, Daşaltı və Xəlfəli çaylarının sahillərindəki çeşmələrdən tuluqlara doldurub min bir əziyyət hesabına at və eşşəklər ilə şəhərə daşıyırdı. 1873-cü ildə əhalini ***içməli su*** ilə təmin etmək üçün Xan qızı Natəvan Sarıbaba dağından Şuşaya ***içməli su kəməri*** çəkdirmişdir. Həmin su kəməri saxsı tünglərlə çəkildiyi üçün suyu sərin olurdu. Ancaq 30 min nəfərə yaxın əhalisi olan Şuşa üçün bu su mövcud tələbatı tam ödənmirdi. Əslən şuşalı olan Tamirov soyadlı bir tacir Şuşaya qayıdaraq xaricdə ticarət ilə qazandığı gəlir hesabına 1896-cı ildə Sarıbaba dağından şəhərə ikinci bir ***içməli su kəməri*** çəkdirir. 1910-cu ildə şuşalı Cavanşirov Şuşa şəhərinin müsəlmanlar yaşayan məhəlləsinə üçüncü su kəmərini çəkdirmişdir. Həmin *bulaq* yerli sakinlər tərəfindən *"Mamayı bulağı"* adlanırdı.

İldırımlısu çayı – Laçın rayonunun ərazisində axan çay. ***İldırımlısu çayı*** Hocazsu çayının qoludur. Hidronim ***İldırım*** dağından başlandığına görə ***İldırımlısu*** adlanmışdır.

İlxısu – Laçın rayonunun ərazisində qeydə alınan coğrafi ad. Minkənd mineral bulaqlarının başqa bir adı məhz belə adlanır. ***İlxısu*** toponimi ***İlıqsu*** adının təhrif olunmuş formasıdır. At ***ilxısı*** vaxtilə bu hidronimin suyundan içdiyi üçün toponim belə "*tarixiləşmişdir*".

İlis çayı – Xocalı rayonu ərazisində, Xocalı yaşayış məntəqəsi yaxınlığından axan və Qarqar çayının sol qolu olan çay ***İlis çayı*** adlanır. ***İlis*** (bəzən adı sənədlərdə ***Hilis*** kimi də yazılır) iki çayın – Qarqar hövzəsi çaylarının qovuşduğu yerin adıdır.

İmam bulağı – Füzuli rayonunun Horadiz kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***İmam bulağı*** adlanır. ***İmam bulağı*** hidroniminin tərkibindəki ***imam*** (*məzhəb və təriqət şeyxi*) sözü şiə məzhəbinin başçısı qəbul edilən Həzrət Əli və onun övladlarına verilən ad mənasındadır.

İmaməli kəhrizi – Cəbrayıl rayonunun Balyand kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***İmaməli kəhrizi*** adlanır.

İmamqulular bulağı – Şuşa rayonunun ərazisində, Qarabağ silsiləsində, dağətəyi ərazidə, rayon mərkəzindən 14 kilometr qərbdə qeydə alınan mineral bulaq.

İncə çayı – Füzuli rayonunun Yağlıvənd kəndi ərazisində qeydə alınan hidronim. ***İncə*** sözü isə çox güman ki, qıpçaq tayfalarından olan **incə\əncə** tayfasının adı ilə əlaqədardır. Tarixdən məlumdur ki, qədim qıpçaqların ***incə (əncə)*** tayfası əvvəllər indiki Cənubi Rusiya çöllərində və Şimali Qafqazda yaşamışlar. Tarixi şəraitlə bağlı onların müəyyən bir hissəsi ayrı-ayrı zamanlarda Azərbaycana, eləcə də, Qarabağa gəlmişlər.

İncə kəhrizi – Cəbrayıl rayonunun Dağ Tumas kəndinin ərazisində, Gəyən düzündə qeydə alınan hidronimlərdən biri ***İncə kəhrizi*** adlanır. ***Kəhriz*** öz başlanğıcını ***İncə*** çayının yatağından götürür.

İncəçay – Uzunluğu ***51*** kilometr olan ***İncəçayın*** çox hissəsi Cəbrayıl rayonu ərazisindədir. Arazın sol qolu olan bu çay Qarabağ silsiləsinin 1370 metr hündürlüyü olan yüksəkliyindən başlanır. Əsasən yeraltı və yağış suları ilə qidalanan çayın hövzəsinin sahəsi 351 kvadrat kilometrdir. İllik axın həcmi 18 milyon kub metr olan *İncəçayın* suyundan suvarmada geniş istifadə olunurdu.

İncirli kəhrizi – Cəbrayıl rayonunda, Sofulu kəndinin cənub hissəsində, İncirlik dərəsindəki bağın başında qeydə alınan hidronim ***İncirli kəhrizi*** adlanır.

İsa bulağı – Şuşa rayonunun ərazisində, rayon mərkəzindən 4 kilometr məsafədə, Qarabağ silsiləsində, dəniz səviyyəsindən 1500 metr yüksəklikdə, çox mənzərəli qalın meşələr qoynunda yerləşən səfalı istirahət guşəsi. ***İsa bulağı*** Azərbaycanın, Qarabağın ən məşhur istirahət yeri hesab olunur. Yerli məlumata görə, ***İsa bulağı*** XVIII əsrdə ilk dəfə onu qalın meşəlikdə üzə çıxarmış ***İsa*** adlı bir nəfər biçinçinin adı ilə bağlı olaraq belə adlanmışdır. Əlbəttə, başqa mülahizələr də vardır. ***İsa*** bulağının suyu həm soyuq, həm xeyirli, həm də göz yaşı kimi dumdurudur.

İstisu – Laçın rayonu ərazisində, Minkənd kəndinin alt tərəfində, Minkənd çayının ortasında qeydə alınan hidronim ***İstisu*** adlanır. Onun mineral suyu müalicə əhəmiyyətlidir. Hidronim. suyunun termik olması ilə əlaqədar olaraq belə adlandırılmışdır.

İstisu mineral bulaqları – Kəlbəcər rayonu ərazisində yerləşən bulaqlar. Bu bulaqlar 1139-cu ildə Gəncədə baş verən güclü zəlzələ zamanı yerin qabarması, çatlaması nəticəsində əmələ gəlmişdir. İstisu mineral bulaq suyu hipertermal, karbon qazlı, hidrokarbonatlı-xloriali-sulfatlı-natriumludur. ***İstisu mineral bulaqları*** fəaliyyətdə olan 12 bulaqdan ibarətdir. 1 saylı buruq quyusundan çıxan suyun kimyəvi tərkibi Çexiyanın Karlovi-Vari və Ermənistanın Cermuk mineral sularına yaxındır. Bu mineral bulaqların suyu müalicə məqsədilə içilir və ondan vanna kimi istifadə edilir. ***İstisu*** kurortunda mədə-bağırsaq xəstəliyinə, maddələr mübadiləsi pozğunluqlarına, sinir sistemi, hərəkət orqanları və ginekoloji, uroloji xəstəliklərə tutulanlar müalicə olunurlar. ***İstisu*** mineral bulaqlarının suyundan alınan duzlar xronik qəbizlik, qaraciyər, öd kisəsi, qastrit və s. xəstəliklərin müalicəsində işlədilir.

İstisuit mineralı – amfibol qrupuna aid olan mineraldır. Onun tərkibi belədir: 7,6 (Ga, Na) 0 5 (Al, Fe+3) (Sİ4O1 ı)2H,0. Sutunvan kristallar və lifli (uzunluğu 2-3 sm) aqreqatlar əmələ gətirir. Külü-boz rənglidir. Sərtliyi 5-5,5-dir. Kəlbəcər rayonu ərazisindəkı Dəlidağ intruzivi ətrafındakı kontakt-metasomatik mineral assosiasiyasında vollastonıtlə sıx paragenezdə rast gəlir. Burada ***İstisu*** qamitoid intrusivinin əhəngdaşı ilə kontaktında əmələ gəlmişdir. ***İstisuit mineralı*** Kəlbəcər rayonundakı *İstisu* kurortunun adındandır.

İşxan çayı – Xocavənd rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri ***İşxan çayı*** (*bəzən* ***İşxançay*** *kimi də yazılır*) adlanır. Quruçayın sol qoludur. Bu çayın adı ilə bağlı müxtəlif fikir və mülahizələr müvcuddur.

İşıqlı bulaq – Laçın rayonunun Güləbird kəndi yaxınlığında, Novruzallar dərəsinin yuxarı hissəsində, Qara qayanın arxasında yerləşən bulaq ***İşıqlı bulaq*** adlanır.

İşıqlı Qaragölü – Laçın rayonunda, Qarabağ silsiləsində, Ermənistanın Goruş və Sisyan rayonları ilə sərhəddə qeydə alınmış hidronimlərdən biri ***İşıqlı Qaragölü*** adlanır. İşıqlı Qaragölü İşıqlı dağının yamacında yerləşir. Göl ***İşıqlı*** dağının adı ilə əlaqədar olaraq belə adlandırılmışdır.

İtboğulan arx – Zəngilan rayonunun ərazisində qeydə alınan maraqlı hidronimlərdən biri də ***İtboğulan arx*** adlanır. Hidronimin belə adlanması vaxtilə orada baş vermiş bədbəxt hadisə ilə – arxın suyunda ***itin boğulması*** ilə əlaqədardır.

Kaha bulağı – Cəbrayıl rayonunda, Tumaslı dağının yaxınlığında, Abdulla kahasının qabağında, İncə çayının sağ sahilində, dağətəyi ərazidə qeydə alınan hidronim ***Kaha bulağı*** adlanır. Azərbaycanın bəzi regionlarında kahaya *mağara* da deyirlər.

Kardaş bulağı – Xocavənd rayonunun Qaradağlı kəndi ərazisində, kənddən 3 kilometr məsafədə qeydə alınan hidronimlərdən biri ***Kardaş bulağı*** adlanır. Yerli məlumata görə, bulağın qaynadığı yerdə bir daş var ki, həmin ***daşa*** toxunanda heç bir səs-səda vermir, nəticədə cingiltisiz alçaq, ***kar*** səs alınır. Elə bu səbəbdən də yerli sakinlər bu bulağı ***kardaş*** adlandırmışdır.

Keçəldağ çayı – Kəlbəcər rayonunun ərazisindən axan çay. ***Keçəldağ çayı*** Qarabağ yaylasında, Sarımsaqlı dağın yaxınlığında axır. Çayın axdığı ərazinin yaxınlığında eyniadlı ***dağ*** (*Keçəldağ*) da var.

Keçi bulağı – Ağdam rayonunun Abdal kəndi yaxınlığında qeydə alınmış hidronim.

Keçili çayı – Kəlbəcər rayonu ərazisində, Keçiliqaya kəndi yaxınlığından axan çaydır. Keçili hidronimi Tutqunçayın qoludur. Çayın əsl adı ***Keçiliqaya*** kimi yazılır**.** ***Çay*** aşağı axınında ***Altıkövşən*** adlanır. Hidronim ***Keçiliqaya*** adlanan sahədən başlandığına görə belə ad almışdır. ***Keçili*** adlı türkdilli tayfa da var. *Qayı* tayfasının qolu olan ***keçililər*** mənşəcə *oğuz* elinə mənsubdurlar. Onlar Azərbaycana Səlcuqlann tərkibində gəlmişlər. Şahbuz və Şəmkir rayonlarında *Keçili* adlı kənd var.

Kənd bulağı – Xocavənd rayonunda, vaxtilə XX əsrin ortalarına qədər mövcud olmuş Bəhrəmli kəndinin ərazisində qeydə alınmış oroqrafik obyektlərdən biri ***Kənd bulağı*** adlanır.

Kərəm bulağı – Xocavənd rayonunun ərazisində bulaq.

Kiçik Alagöl gölü – Kəlbəcər rayonu ərazisində, Alagöllər qrupunda olan göl. ***Kiçik Alagöl gölü*** Böyük Alagölün yaxınlığında yerləşir. ***Ala*** komponenti burada ətrafdakı qaya və yamacların suda ala-bulaya bənzər əksini bildirir. ***Kiçik Alagöl gölü*** dəniz səviyyəsindən 2739 metr yüksəklikdədir, sahəsi 90 hektar olan göl əsasən qar və yeraltı sularla qidalanır.

Kiçik Həkəri çayı – Xocavənd və Qubadlı rayonlarının ərazilərindən axan, hövzəsinin sahəsi 124 kv. km olan çay ***Kiçik Həkəri*** adlanır. Uzunluğu 28 km olan ***Kiçik Həkəri çayı*** Qarabağ silsiləsinin cənub-qərb yamacından (*1810 metr yüksəklikdən*) başlanır. ***Həkəri*** adına qədim mənbələrdə rast gəlirik. Erkən orta əsr müəllifləri ***Həkəri*** yer adını çəkmişlər. Həkəri ilə bağlı toponimlər türkləşmiş kürddilli ***həkəri*** tayfasının adı ilə bağlıdır. Hazırda Türkiyə və İranda ***həkəri*** tayfaları yaşayırlar.

Kirs bulağı – Xocavənd rayonunun ərazisində, İşxan çayının dərəsində, qeydə alınan hidronimlərdən biri ***Kirs bulağı*** adlanır. ***Kirs bulağı*** soyuq sulu, azdebitli turş bulaqdır. ***Bulaq*** yaxınlıqdakı ***Kirs*** dağının adı ilə əlaqədar olaraq belə ad almışdır. Dialektlərimizdə ***kirs*** sözü "*uca zirvə*", "*yumru", "şiş*", "*sıldırım olan dağ*" (Şuşa rayonu), "*qar toplanan yer*" (Quba rayonu) və s. mənalarda işlədilir. Qarabağ silsiləsində *Böyük Kirs, Kiçik Kirs* adlı yüksək zirvələr də vardır.

Kor bulaq – Ağdam rayonu ərazisində, Abdal və Gülablı kəndləri yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Kor bulaq*** adlanır. Bu ***bulaq*** da Azərbaycanın bəzi ərazilərindəki bır qisim bulaqlar kimi yay aylarında, quraqlıq vaxtlarda quruyur; gözü tez-tez tutulan, yəni susuz qalan belə bulaqlara adətən, el arasında ***Kor bulaq*** deyirlər.

Kor bulaq – Cəbrayıl rayonunda, Sofulu kəndindən cənubda, Dağ Tumas kəndindən Hovuslu kəndinə gedən maşın yolunun üstündə, dağətəyi ərazidə qeydə alınan hidronim ***Kor bulaq*** adlanır.

Kor bulaq – Füzuli rayonunun Qacar kəndinin ərazisində qeydə alınan hidronimlərdən biri ***Kor bulaq*** adlanır.

Kosalar bulağı – Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 17 kilometr məsafədə, Kosalar kəndinin yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Kosalar bulağı*** adlanır.

Kosalı bulaq – Qarabağ silsiləsinin ətəyində, Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 15 kilometr məsafədə qeydə alınan hidronimlərdən biri ***Kosalı bulaq*** adlanır.

Köhnə kəhriz – Cəbrayıl rayonunun Daşkəsən kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Köhnə kəhriz*** adlanır.

Köndələnçay – Mənbəyini Böyük Kirs dağından, Xocalı, Şuşa və Xocavənd rayonlarının sərhədlərindən götürən, əsasən Xocavənd və Füzuli rayonları ərazisində axan çay. ***Köndələnçay*** Arazın sol qoludur. Çayın uzunluğu 102 km, hövzəsinin sahəsi 594 kvadrat km-dir. Çay öz mənbəyini Böyük Kirsin ətəklərindən, Çanaqçı kəndi yaxınlığındakı ərazidən götürür. Mənbəyinin mütləq hündürlüyü 1780 metr olan çayın mənsəbinin mütləq hündürlüyü 90 metrdir. Qarabağ sıra dağlarından başlanır. Çayın illik axın həcmi 50 milyon kub metrdir. Əsasən yağış suları və yeraltı sularla qidalanır. Çay üzərində su anbarları yaradılmışdır. *Köndələnçayın* hövzəsində son Tunc dövrü və antik dövrə aid arxeoloji abidələr aşkar olunmuşdur.

Köndələnçay su anbarı – Füzuli rayonu ərazisində, əsasən ***Köndələnçayın*** üstündədir. O, üç su anbarından ibarətdir. Bu ***su anbarları*** 1950, 1962, 1980-ci illərdə istifadəyə verilmişdir. Ümumi həcmi təxminən 15 milyon kubmetrdir.

Köndələngöl – Füzuli rayonu ərazisində qeydə alınan hidronimlərdən biri ***Köndələngöl*** adlanır.

Kötük bulaq – Xocavənd rayonunda, Salakətin kəndinin ərazisində qeydə alınmış hidronimlərdən biri ***Kötük bulaq*** adlanır. Bu ***bulaq*** ağac kötüyündən sızıb çıxdığı üçün belə adlandırılmışdır.

Küfülyataq kəhrizi – Cəbrayıl rayonunun Hacılı kəndi ərazisində qeydə alınmış hidronimlərdən biri ***Küfülyataq kəhrizi*** adlanır. Əslində kəhrizin adı ***Kühülyataq*** şəklində yazılmalıdır. Deyilənə görə, ***kəhriz*** 1900-cü ildə vurulmuşdur. ***Kühül*** (yerli əhali bu sözü çox zaman ***küfül*** şəklində tələffüz edir) sözü "*qədim ev tipi*", "*süni düzəldilmiş yeraltı yaşayış məskəni*" anlamını ifadə edir. ***Kühüllər*** keçmiş zamanlarda Azərbaycanda (xüsusilə *Şirvanda*) geniş yayılmışdı. Sonralar yaşayış əhəmiyyətini itirən kühüllərdən təsərrüfat binası kimi istifadə edilmişdir.

Kükürdlü bulaq – Füzuli rayonunun Sərdarlı kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Kükürdlü bulaq*** adlanır. Bulağın suyu ***kükürdlü*** olduğu üçün hidronim belə ad almışdır.

Küllü bulaq – Cəbrayıl rayonunda, Qazanzəmi kəndinin ərazisində, kənd sakini Dayandur Pəhləvan oğlunun evinin yaxınlığındakı Qasım dərəsinin boğazında, Tumas-Ata dağının

quzeyində qeydə alınan hidronim ***Küllü bulaq*** adlanır. Bulağın su sızan torpaq kəpiri ağ yerli, ***kül*** rəngindədir. Bulaq da çıxdığı ***kül*** rəngli süxura görə belə adlandırılmışdır.

Küp bulaq – Xocavənd rayonunun Axullu kəndi ərazisində, kənddən 2 kilometr məsafədə, Ərgünəş dağının ətəyində, Nohur yeri yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Küp bulaq*** adlanır. Ərazidəki ***palıd*** ağacı zahirən küpə bənzəyir. Yerli əhali bəzən bu yerə ***Toplu ağacı*** da deyirlər. Bulağın yer səthinə çıxdığı hissə ***küpə*** bənzədiyi üçün toponim belə adlandırılmışdır.

Kürdlər bulağı – Qəbilə və ya tayfa adları ilə bağlı əmələ gəlmiş hidronimlərə Cəbrayıl rayonunun ərazisində də rast gəlirik. ***Bulaq*** ərazidəki ***Kürdlər*** kəndinin adı ilə əlaqədar olaraq belə adlandırılmışdır.

Küt bulaq – Füzuli rayonunun Arış kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Küt bulaq*** adlanır. Yerli sakinlər bulağın belə adlanmasını müxtəlif cür izah edirlər. Çox güman ki, bulağın suyu iti axmadığı üçün hidronim belə ad almışdır.

Qalaboynu çayı – Kəlbəcər rayonu ərazisindən, Qalaboynu kəndi yaxınlığından axan çay. Tutqunçayın (*Tutğuçayın*) sağ qoludur. *Qalaboynu çayı* Kalafalıq, Xaçın və Şahmar adlı kiçik çayların birləşməsi nəticəsində yaranmışdır. Çay ***Qalaboynu*** kəndinin adı ilə əlaqədar belə ad almışdır.

Qamış bulaq – Xocavənd rayonunun ərazisində, Axullu kəndi ilə Ağbulaq kəndi arasında qeydə alınmış hidronimlərdən biri ***Qamış bulaq*** adlanır. ***Bulaq*** olan sahədə sıx qamış olduğundan, su dağınıq töküldüyündən bulağın sızdığı yerə ikiyə bölünmüş ***qarğı*** (***qamış***) sancıldığı üçün üçün el arasında hidronim belə ad almışdır.

Qamışlı bulağı – Cəbrayıl rayonunda, Dağ Tumas kəndinin yaxınlığında, İnəkdoğan yalının günbatan ətəyində, İnəkdoğan dərəsində, Narlıq bulağından 550 metr qərbdə, dağətəyi ərazidə qeydə alınan hidronim ***Qamışlı bulağı*** adlanır. Bulağın yerləşdiyi ərazi ***qamışlıq*** olduğundan belə adlandırılmışdır.

Qamışlı çayı – Kəlbəcər rayonunun ərazisindən axan ***Qamışlı çayı*** Tərtər çayının qoludur. Bu çay sahillərində bitən çoxlu ***qamış*** bitkisinin adı ilə əlaqədar belə adlanmışdır.

Qanlı göl – Cəbrayıl rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri ***Qanlı göl*** adlanır. Bəzən sənədlərdə bu hidronim ***Qanlıgöl*** kimi də yazılır. ***Qanlı*** adı gölə vaxtilə burada baş vermiş bədbəxt hadisələrlə əlaqədar verilmişdir.

Qanlı göl – Xocalı rayonu ərazisində, Həsənabad kəndi yaxınlığında qeydə alınmış şirinsulu göl. Hidronimin ***Qanlı göl*** adlanması burada vaxtilə bir uşağın batması ilə əlaqədardır.

Qanlıgöl – Murovdağ silsiləsinin cənub yamaclarında, Kəlbəcər rayonunun ərazisində şirinsulu göl. Göl dəniz səviyyəsindən 2056 metr hündürlükdə yerləşir. Onun sahəsi 6,5 hektar, orta dərinliyi 4,1 metrdir. Deyilənlərə görə, gölün ***Qanlıgöl*** adlanması, vaxtilə burada bir uşağın batması ilə əlaqədardır.

Qara bulağı – Xocavənd rayonunun ərazisində, Tuğ kəndi yaxınlığında, Qaradağ silsiləsində rayon mərkəzindən 41 kilometr cənub-qərbdə, gözəl təbiət qoynunda qeydə alınan hidronimlərdən biri ***Qara bulağı*** adlanır. Deyilənə görə, onun şəfalı suyunun insanlar üçün müalicəvi əhəmiyyəti vardır. ***Qara*** sözü şəxs adı bildirir. O, vaxtilə bu bulağı təmir etdirdiyi üçün bulaq onun adı ilə adlandırılmışdır.

Qara bulaq – Cəbrayıl rayonu ərazisində qeydə alınan hidronimlərdən biri ***Qara bulaq*** adlanır. Yerli əhalinin dediklərinə görə, bu bulağın suyu müalicəvi əhəmiyyyətlidir. Hidronim ***qara*** və ***bulaq*** sözlərindən ibarətdir.

Qaraağacbulaq – Cəbrayıl rayonunda qeydə alınan bulaq. Elə hidronimlər var ki, onların formalaşmasında ümumi fitonimlər əsas rol oynayır. Onlar toponimyaratma ilə yanaşı, hidroobyektin yerləşdiyi ərazinin hidronimdə adı çəkilən ağac və bitki növləri ilə zəngin olduğunu göstərir.

Qarabulaq – Füzuli şəhərində qeydə alınan hidronimlərdən biri ***Qarabulaq*** adlanır. ***Qarabulaq*** toponimi ***qara*** sözündən və ***bulaq*** hidronimik apelyativindən ibarət olub, "*böyük bulaq*" mənasındadır. ***Qarabulaq*** hidronimi qeydə alınan yerin yaxınlığında ***Qarabulaq*** adlı kənd (*sonralar* ***Qarabulaq şəhəri*** - *indiki Füzuli şəhəri*) də olmuşdur. 23 avqust 1993-cü il tarixdə erməni silahlı qüvvələri Füzuli şəhərini işğal etdikdən sonra digər şəhərlərimiz, bulaqlarımız kimi ***Qarabulaq bulağı*** da dağıdılmışdır.

Qarabulaq – Xocalı şəhərindən 30 kilometr cənub-şərqdə, Kərkicahan qəsəbəsindən 14 kilometr məsafədə, Qarabağ silsiləsində qeydə alınan hidronimlərdən biri ***Qarabulaq*** adlanır.

Qarabulaq – Xocavənd rayon mərkəzindən 45 kilometr qərbdə, Tuğ kəndi yaxınlığında qeydə alınan coğrafi adlardan biri də ***Qarabulaq*** adlanır.

Qaraçı bulağı – Xocavənd rayonunun Əmirallar kəndi yaxınlığında, keçmiş Bəhrəmli kəndinin ərazisində qeydə alınan hidronimlərdən biri ***Qaraçı bulağı*** adlanır. Vaxtilə bu bulaqdan *qaraçı*lar su içdiklərinə görə ***bulaq*** belə adlanmışdır.

Qaradağlı çayı – Xocalı rayonu ərazisində çay. Bu hidronim Ağdam rayonunun Qaradağlı kəndinin adı ilə əlaqədar olaraq ***qaradağlı*** adlandırılmışdır. Keçmiş zamanlarda çayın sahilində həmin kəndin qışlaq yeri olmuşdur. Qızılbaşların qolu olan ***Qaradağlı tayfası*** öz adını Cənubi Azərbaycanın *Qaradağ* mahalının adından almışdır. Səfəvilər hakimiyyətə keçdikdən sonra qaradağlılar da müxtəlif ərazilərə – o cümlədən, Xocalı rayona ərazisindəki Qaradağlı çayı sahilinə yayılmışlar.

Qaradırnaq çayı – Azərbaycanda çox sayda insan və heyvan bədən üzvlərinə oxşadılmasına görə ad almış metaforik hidronimlər mövcuddur. Belə hidronimlər coğrafi obyektlərin xarici görünüşü ilə əlaqədar yaranmışdı. İnsanlar bu qəbildən olan hidronimlərə coğrafi obyektlərlə insan və heyvan bədən üzvləri arasındakı oxşarlığı nəzərə alıb bədən üzvləri adları vermişlər. Kiçik Qafqazda, Kəlbəcər rayonunun ərazisində qeydə alınan ***Qaradırnaq çayı*** da bədən üzvlərindən biri olan ***dırnaq*** ilə əlaqədar olaraq (*ona oxşadığı üçün*) belə ad almışdır.

Qaragöl – Xocavənd rayonunun ərazisində, Qaradağlı kəndindən 10 kilometr məsafədə, Xocavənd-Xankəndi avtomobil yolunun kənarında, şose yolun 18-ci kilometrliyində, gözəl təbiət qoynunda qeydə alınan hidronim ***Qaragöl*** adlanır.

Qaragöl – Kəlbəcər rayonunda, Tərtər çayının qolu olan Torağay çayı hövzəsində, Murovdağ silsiləsindəki Gamış dağının cənub yamacında yerləşən şirinsulu, axarlı göl. Bu göl ***Torağayçay Qaragölü*** də adlanır. Göl dəniz səviyyəsindən 2479 metr hündürlükdə yerləşir. ***Qaragölün*** sahəsi 6,6 hektar, orta dərinliyi isə 9,4 metrdir. Gölün ətrafi qara rəngə çalan vulkanik süxurlardan ibarət olduğuna görə belə ad almışdır.

Qaragöl – Laçın rayonu ərazisində, Qarabağ yaylasında, Alagöllər dağının cənub-qərb yamacında, 2961 metr hündürlükdə yerləşən göl. ***Qaragöl*** (*Pəriçınqıl gölü*) şirinsulu və axarlı göldür. Sahəsi 90 hektar olan Qaragölün orta dərinliyi 2,7 metrdir.

Qaragöl – Zəngilan rayonunun ərazisində, Qışlaq və Keçəldağın şimal yamacında qeydə alınmış göl.

Qaraxan çayı – Kəlbəcər rayonu ərazisində axan çay; Tərtər çayının qollarından biri.

Qaraqaya bulağı – Şuşa rayonunun ərazisində, Malıbəyli kəndinin cənubunda, Ağvan çayının sol sahilində qeydə alınmış bulaq.

Qaraməmmədli bulağı – Füzuli rayonunun Qaraməmmədli kəndi ərazisində qeydə alınan hidronim elə kəndin adı ilə də adlandırılmışdır.

Qaranlıq çayı – Laçın rayonu ərazisindən axan çay. ***Qaranlıq çayı*** İldırımsu çayının qoludur. ***Çay*** uzun ölçüdə ***qaranlıq*** dərədən axdığı üçün həmin dərənin adı ilə əlaqədar ***Qaranlıq*** adı almışdır.

Qarasu çayı – Füzuli rayonunun şimalında, Xocavənd rayonu ilə həmsərhəd ərazidə qeydə alınan hidronimlərdən biri ***Qarasu çayı*** adlanır. ***Qarasu çayı*** yeraltı **qara** sulardan qidalandığı üçün belə adlandırılmışdır.

Qarasu çayı – Laçın rayonunun ərazisində çay. ***Qarasu çayı*** Ağoğlan çayının qoludur. ***Çay*** yeraltı ***qara*** sulardan qidalandığı üçün belə adlanmışdır.

Qarasu kəhrizi – Cəbrayıl rayonunda. Göyərçin Veysəlli kəndinin yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Qarasu kəhrizi*** adlanır.

Qarqar çayı – Şuşa, Xocalı, Ağdam və Ağcabədi rayonları ərazisində axan, uzunluğu 115 kilometrədək olan çay. Qarqar çayının hövzəsinin sahəsi 1490 kvadrat kilometrdir. Bu çay Qarabağ silsiləsindən, təxminən 2080 metr yüksəklikdən başlayır. Zarıslı və Xəlfəli çaylarının birləşməsindən əmələ gələn ***Qarqar çayı*** əsasən yağış, qar və yeraltı sularla qidalanır. Ballıca, Bədərə və Dağdağan çayları Qarqarın əsas qolları hesab olunur. Qarqarın adı ilk dəfə XIII əsrə aid mənbələrdə çəkilir. Bu ad qədim Qafqaz Albaniyasının Qarqar tayfasına aiddir. M.Kalankatlı və M.Xorenli qarqarların Albaniyada yaşamaları faktını, həmçinin onların dili əsasında alban əlifbasının tərtib olunması məlumatını öz əsərlərində göstərmişlər. Çox güman ki, ***Qarqar*** toponimləri qarqarlarla əlaqədardır. Tarixdən məlumdur ki, ***qarqarlılar*** həm oturaq, həm də köçəri həyat keçirmişlər. Qədim Qarabağda ***Qarqar*** ellərinə aid çoxlu maddi, mənəvi dəyərləri, vardır. Tarixdən məlumdur ki, III Ur sülaləsi (m.*ö. XXII-XXI əsrlər*) çarlarının tutduqları yaşayış məskənləri sırasında ***Karxar*** yaşayış məntəqəsinin də adı var. İ.M.Dyakonov göstərirdi ki, qarqarlar quti boylarından biridir. Miladdan əvvəl II minillikdə bəzi ***qarqar*** boyları Kiçik Asiyanın batı və Güney-batı ərazilərində yaşamışlar. Qarqarların bir hissəsi də Livanın quzeyindəki Oront çayı hövzəsində ***Kar-kar*** adlı yeni yurd yeri salmışlar. III Salmanasarın 853-cü il yürüşü tarixə "*Karkar döyüşü*" kimi düşmüşdür. Şumer və assur mənbələrinə görə, *Qarqar* tayfalarının ata yurdu Urmu hövzəsi olmuşsa, sonralar onlar tarix boyu Avrasiyanın müxtəlif ərazilərində görünmüşlər. Bəzi tədqiqatçılar qarqarların etnik mənsubiyyətini araşdıraraq Azərbaycandakı qarqar tayfalarının müasir çeçen-inquşların, bəziləri isə rutul-saxurların ulu babaları olmasını güman edirlər. Qarqarların dil cəhətdən türkdilli olmaları öncə ***qarqar*** etnonimi ilə əlaqədar toponimlərin arealına türk xalqları məskən salan ərazilərdə rast gəlinməsi ilə də təsdiq olunur. Xalqımızın İslamaqədərki tarixi qədim türk boylarının tarixi ilə sıx əlaqədardır. Miladdan əvvəl

Urmu hövzəsində yaşayan qarqar uruqları da belə boylardandır. Bir çox qaynaqlarda müxtəlif şəkildə yazılmış bu boy adına (***qarqar, karqar, xarxar, karaxar, kərkər, kerker, herher, qarqara*** və s.) qədim mənbələrdə Urmu gölü və Dəclə çayı sahillərində, Kiçik Asiya ölkələrində rast gəlirik; antik, orta əsr və sonrakı dövr mənbələrində isə qarqarlara Güney və Quzey Qafqazda, İranda, Orta Asiya ölkələrində və s. yerlərdə rast gəlinir. Azərbaycan xalqının formalaşmasında oğuzlarla bərabər *gögər*, *kəngər* və *qarqarlar* da fəal iştirak etmişdir. Şumeri idarə edən qutilərin son elbəyisi Tırıkan qarqar boyuna mənsubdur. Boğazgöy mətinlərində ***Qarqara***/***Karkar*** adı da çəkilir. Ərəb tarixçi-səyyahı İbn Xordadbeh (*IX əsr*), Yaqut Həməvi (*XIII əsr*) də Mil düzündə ***Karkar*** (***Kərkər***) adlı şəhərin adını çəkmişlər. Məşhur şərqşünas alim V.V.Bartold XVIII-XIX əsrlərə aid mənbələrdə Orta Qazaxstanda, Tyan-Şanda ***qarqar*** adlı toponimlərin olmasını qeyd edir. X əsrə aid olan "Hüdud əl-Aləm" mənbəsində Orta Asiyada ***Qarqar*** əyalətinin adı çəkilir. Qədim Qafqaz Albaniyasında, yaşayan ***Qarqar*** tayfalarının adı bəzi mənbələrdə gərgər kimi qeyd olunur. ***Qarqar*** etnotoponimi ilə bağlı çox sayda oronim, oykonim, hidronimlər mövcuddur. Türkmənlərin ərsarı boylarından birinin adı *Qarqardır*. Mosul türkmanları içərisində və Mardində ***qerqeri*** adlı boy da var. V.V.Bartold və S.M.Abramzon bu qarqarları qıpçaq soylu hesab edirlər. Miladdan əvvvəl VIII əsrin sonunda Assur hökmdarı II Sarqonun (*722-705-ci illər*) Dur-Şarrukkin ərazisində *Xarxar* bölgəsinin mərkəzi qalası olan ***Xarxar qalası*** olmuşdur. Güney Azərbaycanda, Xarzardan yuxarıda Karkari-hundir adlı bir qala da vardır. Yunan coğrafiyaşünası Strabon (*I əsr*) qarqarların Şimali Qafqazda yaşadıqlarını göstərmişdir. Qafqaz Albaniyası dövlətinin tədqiqatçılarından olan K.V.Trever III əsrdə Albaniyada ***Qarqar düzü*** adlı yerin mövcud olduğunu qeyd edir. Tarixrçi-alim Kamal Əliyev qarqarların türkdilli olmasını göstərir. Yuxarıda deyilənlərə yekun vuraraq qeyd etmək olar ki, *qarqarlar* uti, alban və digər türkdilli xalqlarla birgə Qarabağın qədim sakinləri hesab olunur. Orta əsrlərdə indiki Beyləqan rayonu ərazisində ***Kərkər*** adlı kənd olmuşdur.

Qaşıq bulaq – Cəbrayıl rayonu ərazisində, Düzgə dağının gündoğanında, Həzrət Əli səngərinin ətəyində, mənzərəli təbiət qoynunda qeydə alınan hidronim ***Qaşıq bulaq*** adlanır. ***Qaşıq bulaq*** iri daş parçasının ensiz yarıq hissəsindən qaynama ilə çıxan zəif sulu bir çeşmədir. Suyu soyuq və şirindir. Çeşməni çalxaladıqca suyu da gurlaşır. ***Qaşıq*** ilə çalxaladıqda axın verdiyinə görə hidronim el arasında ***Qaşıq bulaq*** adını almışdır.

Qavartu çayı – Azərbaycanda-Kəlbəcər və Ağdam rayonları ərazisində axan çay. Mənbələrdə adına ***Qavartu***, ***Qavirti*** kimi də rast gəlmək olar. 1300 metr hündürlükdən, Qarabağ silsiləsindən başlanan Qavartu çayının uzunluğu 28 kilometr, hövzəsinin sahəsi 60 kvadrat kilometrdir. Kür hövzəsi çaylarından hesab olunan ***Qavartu çayı*** əsasən, yağış və yeraltı sularla qidalanır. Çayın suyu Marquşevan kanalına axıdılır. ***Qavartu*** *Kabarlı* adından təhrif olunmuşdur. ***Çay*** keçmişdə mövcud olmuş ***Kabar*** (***Kəbir***, ***Kəbirli***) mahalının adındandır. ***Kabar*** mahalı isə ***kəbirli*** (əslində ***kəbərli***) tayfasının Qarabağda məskunlaşdığı ərazinin keçmiş adı olmuşdur. Deməli, ***Qavartu*** hidronimi ***kəbirli*** sözünün təhrif olunmuş variantıdır. Hidronim türkdilli qədim xəzərlərin ***kəbər*** tayfasının adı ilə bağlı olaraq yaranmışdır. ***Kəbirlilər*** Qarabağda ta qədimdən məskunlaşmışlar.

Qayabaşı bulağı – Xocalı rayonunun ərazisində, Xocalı şəhərindən 6 kilometr şimal-qərbdə, Qayabaşı (*Dəhrəv*) kəndinin ətrafında, Qarabağ silsiləsinin ətəyində qeydə alınan hidronim.

Qayabulaq – Füzuli rayonunun Yuxarı Veysəlli kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Qayabulaq*** adlanır.

Qılıçlı kəhrizi – Cəbrayıl rayonunda, Soltanlı kəndinin ərazisində ***Qılıçlı*** (***Qılışlı***) ***kəhrizi*** mikrohidronimi qeydə alınmışdır. Hidronim ***Qılıçlı*** yer adı ilə əlaqədar olaraq belə adlanmışdır. Tarixi sənədlərdən aydın olur ki, ***qılıç*** (***qılış, kiliş***) adlı qədim türk tayfası olmuşdur.

Qırğı bulağı – Laçın rayonunun Hocaz kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Qırğı bulağı*** adlanır. Yerli məlumata görə, vaxtilə *qırğı* quşları bu bulaqdan su içdiklərinə və onun həndəvərində çox olduqlarına görə hidronim belə ad almışdır.

Qızlar bulağı – Füzuli rayonunun Əhmədalılar kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri ***Qızlar bulağı*** adlanır.

Qorçu çayı – Laçın rayonu ərazisindən axan çay. ***Qorçu çayı*** Şəlvə çayının qoludur. ***Qorçu*** kəndinin ərazisindən, onun yaxınlığından axdığı üçün çay ***Qorçu çayı*** adlandırılmışdır.

Qoruqlar kəhrizi – Cəbrayıl rayonunun Daşkəsən kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Qoruqlar kəhrizi*** adlanır. Kəhrizin baş quyusunun dərinliyi 25 metrdir. Kəhrizin yerləşdiyi ərazinin yaxınlığında ***qoruq*** olduğu üçün hidronim belə ad almışdır.

Qoşa bulaq – Cəbrayıl rayonunda, Qazanzəmi kəndinin ərazisində, Rəcəblər yerinin günbatanında, dərənin ayağında qeydə alınan hidronimlərdən biri ***Qoşa bulaq*** adlanır. Hidronim ***qoşa*** və ***bulaq*** sözlərindən ibarətdir. ***Qoşa bulaq*** biri-birindən bir neçə metr aralıda daşın dibindən çıxan ikitərəfli qaynamadır.

Qoşa bulaq – Xocavənd rayonunun ərazisində, Salakətin kəndinin yaxınlığında qeydə alınmış coğrafi adlardan biri ***Qoşa bulaq*** adlanır.

Qoşabulaq – Qarabağ silsiləsinin ətəyində, Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 10 kilometr məsafədə qeydə alınan hidronimlərdən biri ***Qoşabulaq*** adlanır.

Qoşaçinar kəhrizi – Füzuli rayonunun İşıqlı kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Qoşaçinar kəhrizi*** adlanır. ***Kəhriz*** – qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün yeraltı qurğudur. Toponim buradakı 2 yanaşı olan ***çinar*** ağaclarının adı ilə əlaqədar olaraq belə ad almışdır. Çinarın birinin koğuşunun eni 5 metrdir. O biri çinar ağacının da gövdəsinin hərləməsi 3 metrdən çoxdur. Mütəxəssislər bu çinarların 500 illik olduğunu ehtimal edirlər.

Qoşakəhriz – Füzuli rayonunun Horadiz kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri ***Qoşakəhriz*** adlanır. ***Qoşakəhriz*** Təpə kəhrizi ilə Muxtar kəhrizinin birləşdiyi yerdədir. Burada Qarağan təpə yaxınlığında, Dəli çayın kənarında vaxtilə pilləkənli quyu olmuşdur və adamlar da pilləkənlərlə düşüb oradan su götürərmişlər.

Qoşnavar gölü – Laçın rayonu ərazisində qeydə alınan hidronimlərdən biri ***Qoşnavar gölü*** adlanır. Qədim türkdilli abidələrdə "*cüt*" anlamında işlədilən ***qoş*** komponenti müasir Azərbaycan dilindəki ***qoşa*** sözü kimi qeyd olunur. ***Navar*** sözü Azərbaycanda "*palan*, *yük yəhəri*" mənasında işlənir. ***Nav*** sözünün farsca "*kanal*, *arx*" anlamı da var; ***ara/ar*** "*bəzəyən*, *zinətləndirən*" deməkdir. Güman ki, hidronim "*qoşa yəhər*" mənasındadır. ***Qoşnavar gölü*** təsnifata alınmayan göllər siyahısındadır.

Qotur bulaq – Cəbrayıl rayonunda, Niftalılar kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Qotur bulaq*** adlanır.

Qotur bulaq – Füzuli rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri ***Qotur bulaq*** adlanır. Bu bulağın suyunun müalicəvi əhəmiyyəti var. Bulağın suyu bəzi xəstəliklər, o cümlədən, ***qoturluq*** xəstəliyinin müalicəsində yararlıdır. Türk dillərində ***qotur*** sözünün "*dalğavarı yüksəklik*" mənası da var.

Qotur bulaq – Xocalı rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri ***Qotur bulaq*** adlanır. Yerli məlumata görə, *Qotur bulağın* suyunun müalicəvi əhəmiyyəti vardır. Bu bulağın suyu *qoturluq* xəstəliyi üçün yararlı olduğuna görə hidronim belə ad almışdır.

Qotur bulaq – Xocavənd rayonunun ərazisində, Tuğ kəndi yaxınlığında, kənddən 4 kilometr məsafədə, Qarabağ silsiləsində qeydə alınan hidronimlərdən biri ***Qotur bulaq*** adlanır.

Qotur bulaq – Laçın rayonunda, Hocaz kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Qotur bulaq*** adlanır.

Qotur piri bulağı – Cəbrayıl rayonunun Binnətli və Xubyarlı kəndləri arasında, Şır-şır bulağın yaxınlığında qeydə alınmışdır. ***Qotur piri bulağı*** müalicəvi əhəmiyyətə malikdir. Erməni işğalına qədər (*1993-cü il*) bu bulaq onlarla insanın qoturluq xəstəliyindən qurtulmasında müstəsna rol oynamışdır.

Qotur su – Laçın rayonunun Dəyhan kəndi ərazisində qeydə alınıb. Bu sudan bir sıra dəri xəstəliklərinin, xüsusilə də ***qoturluq*** xəstəliyinin müalicəsində istifadə olunur.

Qoturlu mineral bulaq – Kəlbəcər rayonu ərazisində, Tərtər çayının qolu olan Tutqunçayın sahilində qeydə alınan hidronim. Bulağın suyunun temperaturu +18 dərəcədir. Qızdırıldıqdan sonra ondan müxtəlif dəri xəstəliklərinin, xüsusilə də, insan və heyvanlarda yoluxucu ***qoturluq*** xəstəliyinin müalicəsində istifadə olunur.

Qotursu mineral bulaqları – Zəngilan rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri də ***Qotursu mineral bulaqları*** adlanır. ***Qotursu*** mineral bulaqlarının suyu müalicə əhəmiyyətlidir. Bu suyun kimyəvi tərkibi 4 mənbədən ibarət olan məşhur "*Yesuntiki – 4*" suyunun tərkibinə uyğun gəlir.

Qozdibi kəhrizi – Füzuli rayonunun Horadiz kəndi ərazisindəki böyük bağ sahəsində kəhriz.

Qozlu bulaq – Cəbrayıl rayonunda, Qarağac kəndinin sol tərəfində, kənddən 300 metr aralıda, dağətəyi ərazidə qeydə alınan hidronim.

Qozlu bulaq kəhrizi – Cəbrayıl rayonunda, Dağ Tumas kəndinin ərazisində, kəndin cənub girəcəyində, Kiçik kovun başında, Tumas dağının ətəyində qeydə alınan hidronim ***Qozlu bulaq kəhrizi*** adlanır. Əvvəllər kəhrizin gözündə nov və göl olmuşdur. 1950-ci ildə onun suyu Baş gözdən birbaşa borular vasitəsilə yeni salınan Günbəz yaşayış məntəqəsinə çəkildiyindən nov və göl ləğv edilmişdir. ***Qozlu bulaq*** kəhrizinin ağır, amma şirin suyu vardır.

Qozluçay – Füzuli və Xocavənd rayonlarının ərazilərində qeydə alınan hidronimlərdən biri ***Qozluçay*** adlanır. Çayın ümumi uzunluğu 28 km, hövzəsinin sahəsi 100 kv. km.-dir. O, Arazın sol qoludur. Qozluçay 1520 metr hündürlükdən, Qarabağ silsiləsinin yamacından başlanır və yağış suları ilə qidalanır. Güclü sel zamanı Qozluçayın suyu Araza çatır. Çay əksər vaxt quruyur. Axarlığı müvəqqəti olan Qozluçaydan suvarmada geniş istifadə olunur. ***Qozluçay*** sahilində Səfəvi-Osmanlı müharibələri zamanı çoxlu qanlı döyüşlər olmuşdur. 1604-cü ildə Gəncə bəylərbəyi Davud Paşa yeddi min nəfərlik qoşunu ilə I Şah Abbas tərəfindən Qarabağa göndərilən Hüseyn xan Qacarı ***Qozluçay*** ətrafında məğlub edərək, geri çəkilməyə məcbur etmişdir. ***Qozluçay*** vadisində çoxlu sayda qiymətli tarixi əhəmiyyət daşıyan maddi-mədəniyyət abidələri aşkar olunmuşdur. XIX əsrə aid sənədlərdə Qarabulaq nahiyəsinə daxil olan ***Qozluçay obası*** tərkibində Mandı, Rəfədinli, Güzlək, Gorazıllı, Saracıq və s. kəndlərin adı göstərilir.

Qozluçay gölü – Füzuli rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri ***Qozluçay gölü*** adlanır. Gölün ərazisindən ***Qozluçay*** adlı çay axır.

Qurdlu bulaq – Cəbrayıl rayonunda, Dağ Tumas kəndindən Hovuslu kəndinə gedən maşın yolunun kənarında, Kor bulaq sızan dərənin günbatanındakı qeydə alınan hidronim.

Quru (*Qiblə*) bulaq – Xocavənd rayonunun ərazisində, Muğanlı kəndinin 2 kilometrliyində, Narlı dərədə, Çirişli yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Ouru bulaq*** adlanır. Kənddən ***qiblə*** istiqamətində yerləşdiyinə görə yerli əhali bu ***bulağı*** rəmzi olaraq ***Qiblə bulağı*** da adlandırır.

Quruçay – Xocavənd və Füzuli rayonlarının ərazilərindən axan çay. Araz çayının sol qolu, uçunluğu *82* km, hövzəsinin sahəsi *512* kv. km-dir. Quruçay öz mənbəyini *2725* metr hündürlükdən – Büyük Kirs dağından götürür. Quruçay əsasən yağış suyu ilə qidalanır. Allı, İgah və İşxan çaylarının birləşməsindən əmələ gələn Quruçayın suyundan suvarmada geniş istifadə olunur. Yay aylarında çayın suyu azalır, bəzən də tamamilə ***quruyur***. Bəlkə də elə bu səbəbdən çay belə adlanır. İki milyon il bundan əvvəl ***Quruçay*** bəşər tarixində ilk ikiayaqlının yeriməsinin, bu canlının ayaq üstdə irəliləməsinin "*şahidi olub*". Quruçayın sol sahilində yarımtüklü bədənləri tam çılpaq, qolları müasir insan qolundan uçun, çənəsi irəli çıxan, meymundan daha çox insana oxşayan ikiayaqlılar məskən salmışlar. Ölkəmizin ən qədim sakinləri (*Azıx mağarası sakinləri – N.Vəlişov*) yüz min illər bundan əvvəl *Quruçay vadisində* yaşamışlar. Azıx paleolit düşərgəsinin 7-10-cu təbəqələrindən tapılmış arxeoloji tapıntıların mühüm elmi əhəmiyyəti vardır. Bu elmi materiallar Azıx paleolit düşərgəsində ilk ibtidai insanların məskunlaşdığını söyləməyə imkan verir. Aparılan kompleks elmi tədqiqatlar zamanı müəyyən edilmişdir ki, ibtidai insanların həyatında Azıx paleolit düşərgəsinin yaxınlığından axan Quruçayın mühüm rolu olmuşdur. Çünki, Qarabağın *Quruçay vadisi* ibtidai insanların əmək alətləri hazırlamaq, ovçuluq və yığıcılıqla məşğul olmaları üçün xammal mənbəyi olmuşdur. ***Quruçay*** dərəsində əmək alətləri hazırlamaq üçün kvars, kvarsit, bazalt, çaxmaq, felzit, yaşma və digər çay daşları mövcud olmuşdur. Aparılan elmi tədqiqatlar zamanı məlum olmuşdur ki, ***Quruçay vadisi*** ibtidai insanların məskunlaşmaları üçün zəruri olan bütün təbii nemətlərə malik olmuşdur. ***Quruçay vadisinin*** Azıx və Tağlar mağaraları yerləşən ərazisindən ibtidai insanlar əmək alətləri hazırlamaq üçün xammal mənbəyi kimi istifadə etmişlər. Ölkəmiz ərazisində ***Quruçay mədəniyyəti*** ən qədim arxeoloji mədəniyyət hesab olunur. Tədqiqatlar nəticəsində ***Quruçay mədəniyyəti*** dövründə qədim insanların ovçuluq və yığıcılıqla məşğul olmaları müəyyən edilmişdir. Azərbaycan ərazisində bəşər tarixi *Quruçay mədəniyyəti* dövründən başlanır. Azıx düşərgəsində aparılan kompleks elmi tədqiqatlar nəticəsində ***Quruçay*** mədəniyyətinin ***2,5*** milyon il bundan qabaq başlayıb, *700 000* il əvvəl sona çatması müəyyən edilmişdir. Əmək alətlərinin hazırlanmasında əsas texniki ənənələrin qalması göstərir ki, ***Quruçay arxeoloji mədəniyyəti*** burada inkişaf etmiş olan sonrakı mədəniyyətlərin əsasını təşkil etmişdir. Elmi şəkildə müəyyən olunmuşdur ki, ilk ibtidai insanlar əvvəlcə Quruçay dərəsində məskunlaşmış və müəyyən müddət keçəndən sonra təbii coğrafi şəraitlə əlaqədar Azıx mağarasına köçərək burada yaşamağa başlamışlar. ***Quruçay*** hidronimi suyunun rejim xüsusiyyətlərinə görə adlandırılan toponimlərdəndir.

Qurutdu bulağı – Cəbrayıl rayonunda, Horovlu kəndinin yaxınlığında qeydə alınan maraqlı hidronimlərdən biri ***Qurutdu bulağı*** adlanır. Bəzi məlumata görə, vaxtilə bu bulağın yerləşdiyi ərazidə *Qaraağac* adlı bağ, dərə və çoxlu bulaqlar mövcud olmuşdur. Zaman keçdikcə quraq iqlimə dözə bilməyən Qaraağac bağı məhv olur və bulaqlar quruyur. Amma çaylaq ərazisindəki bir bulaq qalır ki, bunun da adına ***Qurutda bulaq*** deyilərmiş. Onun suyundan məişətdə və heyvanları suvarmaq üçün istifadə edilərmiş. Müəyyən müddətdən sonra həmin bulaq da kəskin istidən *qurumağa* başlayır. Bulaq suyunu ***qurutduğuna*** görə sonralar onun adına ***Qurutdu bulağı*** deyilir.

Quşçular bulağı – Cəbrayıl rayonunun Qışçular kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Quşçular bulağı*** adlanır. Məlumdur ki, ***quşçu*** (***koşsu***) qədim türk, Mərkəzi Asiya mənşəli tayfalardan biridir. Vaxtilə türklərin Qərb yürüşlərində ***quşçular*** da iştirak ediblər. XII əsrdə quşçular tayfası durbanlardan asılı vəziyyətə düşüblər. Monqolların Uraldan Qərbə doğru istilaçı yürüşlərində quşçular da iştirak etmişlər. Bəzi tədqiqatçılar *quşçuları* ***quşanlar*** (***kuşanlar***) ilə əlaqələndirir. ***Quşçu*** tayfalarının ***hunlar*** ilə bağlılığı da məlumdur(N.A.Aristov). Məmmədhəsən bəy Vəliyev**-**Baharlıya görə, ***quşçular*** III – VI əsrlərdə Azərbaycana gəlmiş hunların qalıqlarıdır.

Quşçular çayı – Şuşa və Xocalı rayonlarının ərazisində axan kiçik çay. Bu çayın adına ***Ağçay*** da deyirlər. Çayın yatağında *ağ* rəngli çınqıl daşlarının olması və köpüyünün şəffaflığına görə ***çay*** belə ad almışdır. ***Quşçular çayı*** Şuşa və Xocalı rayonları sərhədləri ərazisində axan Qarqar çayının qoludur. Quşçular çayının uzunluğu 12 kilometrdir. ***Çay*** keçmişdə yaxınlıqda, onun sahilində mövcud olmuş ***Quşçular*** kəndinin adı ilə adlandırılmışdır. VII əsr mənbəsində *sarmat* tayfaları arasında ***quşilərin*** **(*xuşilərin*)** də adı çəkilir. Bəzi müəlliflər *quşçuları* hunlarla, digərləri isə qara hunlarla əlaqələndirirlər. ***Quşçular*** türkdilli etnik birlik olub, Azərbaycan, qırğız, başqırd və özbək xalqlarının etnogenezində yaxından iştirak etmişdir. Tarixi faktlar quşçuların qədim etnik ad olduğunu göstərir. Elxani (*Hülakü*) hökmdarı Ölcaytu xanın dövründə (1304-1316) ***quşçu*** ulusu *qıpçaq* tayfa ittifaqına daxil idi. Bəzi mənbələrə görə, ***quşçular*** Batı xanın (1224-1256) əsas hərbi qüvvələrindən biri idi. Təkudar (1282-1284) və Arqun xan (1284-1291) dövrlərində nüfuzu yüksək olan sərkərdələrin əksəriyyəti ***Quşçu*** tayfalarından idi. Quşçuların yayılma arealları çox genişdir. XIX əsrdə Qafqazda ***quş*** komponentli ***38*** toponim qeydə alınmışdır.

Quzğunluq çayı – Cəbrayıl rayonu ərazisində İncəçayın (*Arazın qolu*) sağ qolu.

Quzğunluqçay – Cəbrayıl rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri ***Quzğunluqçay*** adlanır.

Lev çayı – Kəlbəcər rayonu ərazisində çay; Tərtər çayının sol qoludur. **Lev çayının** uzunluğu 38 km, hövzəsinin sahəsi 367 kvadrat kilometrdir. Çay Hanaldağın cənub yamacından, təxminən, 3250 metr hündürlükdən başlanır. Çay əsasən qar və yeraltı sularla qidalanır. Lev termininin dəqiq mənası hələlik müəyyən olunmayıbdır.

Lələli bulaq – Füzuli rayonunun Yağlıvənd kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Lələli bulaq*** adlanır. Hidronim çox güman ki, məşhur bayatı ustası olan ***Aşıq Lələnin*** adı ilə əlaqədar yaranmışdır.

Maxav bulağı – Cəbrayıl rayonunda, Qazanzəmi kəndinin ərazisində, Təknur dağının güney sinəsində qeydə alınan hidronim ***Maxav bulağı*** adlanır. ***Maxav bulağı*** daşdan süzülən bir bulaqdır. Bu ***bulaq*** adətən kəndin ən qədim məhəllələrindən biri sayılan ***Maxav*** məhəlləsinin əhalisinin istifadəsində olduğu üçün elə həmin məhəllənin adı ilə də adlanmışdır.

Maqsudlu bulağı – Laçın rayonunun Güləbird ərazisi yaxınlığında qeydə alınmışdır. ***Bulaq*** həmin ərazi yaxınlığında yaşayan ***Maqsudlu*** kəndi nəslinin adı ilə əlaqədar olaraq belə adlanmışdır.

Mamayı bulağı – Şuşa şəhərində qeydə alınmış bulaq. "***Mamayı***" bulağının tarixçəsi belədir: 1910-cu ildə tanınmış sahibkar, şuşalı Cavanşirov 10 min manat pul xərcləyib Şuşada müsəlmanlar yaşayan bir məhəlləyə içməli su kəməri çəkdirərək, şəhərin su təchizatı problemini demək olar ki, aradan qaldırdı (ondan əvvəl Şuşaya 1873-cü ildə Xan qızı Natəvan, 1896-cı ildə isə əslən şuşalı erməni taciri Tatevos Tamirov Sarıbaba dağından su çəkdirmişlər). Cavanşirovun

Şuşaya çəkdirdiyi bu üçüncü sü kəməri yerli camaat tərəfindən ***Mamayı bulağı*** adı ilə adlandırılır. ***Mamayı*** – Şuşada yerləşən yuxarı məhəllələrdən birinin adıdır.

Maralyan gölü – Cəbrayıl rayonunun Maralyan kəndi yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Maralyan gölü*** adlanır. Toponimin tərkibindəki ***Maralyan*** sözü Maralyan kəndinin adındandır.

Maralyan kanalı – Cəbrayıl rayonunda, Maralyan kəndi yaxınlığında qeydə alınmış su kanalı ***Maralyan*** adlanır. Bu su kanalı *Maralyan* kəndinin adı ilə əlaqədardır. ***Maralyan*** suvarma kanalı işğala qədər rayonun kənd təsərrüfatının intensiv inkişafını təmin edirdi.

Mehdi bəy kəhrizi – Füzuli rayonunun Kürdlər kəndi ərazisində qeydə alınmış kəhriz. Kəhrizin çox uzun tuneli var. Bu tunel kəndi iki hissəyə bölən təpəni aşıb o biri üzdəki dərədən çıxır. Tunel üzərində təxminən 30 quyu qazılmışdır. ***Kəhrizin*** yer üstünə çıxan hissəsinin təpəyə söykənən tərəfi daşla hörülmüşdür. Hörgünün dibində daş nov da inşa edilib. Hidronimlə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur. Yerli əhalinin dediyinə görə, ***Mehdi bəy*** əslən Tuğ kəndindən olan varlı-mülklü nüfuzlu bir şəxs olub. Kürdlər kəndi də ona məxsusmuş. XIX əsrin ortalarında İranda mövcud üsul-idarənin zülmlərinə dözməyən bir çoxları kimi *Novruzlu* adlı kəndin bir neçə tirəsi gəlib Əbdürrəhmanlı kəndi yaxınlığında, sonra Qarğabazar kəndinin aşağısındakı ***Kollubulaq*** deyilən yerdə, daha sonra indiki Kürdlər kəndində məskən salmışlar. Onların suya olan tələbatını nəzərə alan ***Mehdi bəy*** çox keçmir ki, bu ***kəhrizi*** çəkdirir. Elə həmin zamandan da ***kəhriz*** onun adı ilə adlandırılmışdır.

Meydançay çayı – Kəlbəcər rayonu ərazisində çay. **Meydançay çayı** Qamışlı çayının qolunu təşkil edir. Murovdağdakı **Meydan** düzündən başlandığına görə belə adlandırılmışdır.

Məlik bulağı – Cəbrayıl rayonunun İsaqlı kəndi yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Məlik bulağı*** adlanır. Bu bulağın çox sərin, şəffaf və müalicəvi əhəmiyyətli suyu vardı. Onun suyunu içdikcə adamı daha da acdırırdı.

Məmməd bulağı – Füzuli rayonu ərazisində qeydə alınmış hidronimlərdən biri ***Məmməd bulağı*** adlanır.

Məmmədbəy kəhrizi – Cəbrayılda qeydə alınan hidronimlərdən biri ***Məmmədbəy kəhrizi*** adlanır.

Məmmədsəfi çayı – Kəlbəcər rayonunda, rayon mərkəzindən bir qədər cənubda, Dəlidağın ətəyindən axan çay. Adı bəzən Məmmədsəfiçay kimi də qeyd olunur. Tərtər çayının qolu olan ***Məmmədsəfiçay*** (***Məmmədsəfi çayı***) yaxınlığından axdığı **Məmmədsəfi kəndinin** adı ilə əlaqədar olaraq belə adlandırılmışdır.

Mərcan bulağı – Füzuli rayonunun Horadiz kəndində qeydə alınan hidronim. Bulağın ***Mərcan*** adlanması yerli məlumata görə, suyunun qaynayıb çıxdığı sahədə mərcangilə fəsiləsindən kolcuqların çox olması ilə əlaqədardır.

Mərcanlı kanalı – Cəbrayıl rayonunun Mərcanlı kəndi yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Mərcanlı kanalı*** adlanır. Toponimin tərkibindəki ***Mərcanlı*** sözü kəndin adıdır.

Məşədi Şərif kəhrizi – Füzuli rayonunun Yuxarı Əbdürrəhmanlı kəndi ərazisində qeydə alınmışdır. Hidronim kəhrizin tikintisində böyük əməyi olan ***Məşədi Şərif*** adlı şəxsin adı ilə əlaqədardır.

Məzməzək çayı – Laçın rayonunda çay. ***Məzməzək çayı*** Həkəri çayının sağ qoludur. ***Çay*** yaxınlıqdakı ***Məzməzək*** dağının adı ilə adlandırılmışdır.

Mil-Muğan su anbarı – Füzuli rayonu ərazisində, rayon mərkəzindən 30 kilometr cənub-şərqdə, Əhmədalılar kəndi yaxınlığında yerləşir. Toponim ***Mil*** və ***Muğan*** sözləri ilə əlaqədar olaraq belə ad almışdır. Kür-Araz ovalığının bir hissəsi olan *Mil düzü* - Kür çayının sağ sahili ilə Araz çayının sol sahili arasındakı ərazini, Kür ilə Arazın qovuşduğu yeri əhatə edir. ***Mil düzü*** adını ilk dəfə X əsrdə Qətran Təbrizi çəkmişdir. Mil düzündə, Örənqala yaxınlığında, indiki Beyləqan rayonu ərazisində ***Mil-minarə*** adlı məşhur bir abidə mövcud olmuşdur. Çox güman ki, düzün adı da bu abidə ilə bağlıdır. Düzün qədim adına bəzi mənbələrdə Qafqaz Albaniyasının qədim tayfası olan qarqarların adı ilə əlaqədar olaraq ***Qarqar düzü*** kimi də rast gəlirik. Ərəb dilində işlənən mil sözünün "*sərhəd dirəyi*", "*kərpicdən tikilmiş qüllə*", "*sütun şəkilli daş abidə*" və s. kimi anlamları vardır. Azərbaycanda Kür-Araz ovalığının bir hissəsi, şimal-qərbdə Araz çayı vasitəsi ilə ***Mil*** düzündən, Kür çayı vasitəsi ilə Şirvan düzündən ayrılaraq cənubda və cənub-şərqdə Lənkəran ovalığına və Salyan düzünə qovuşan ərazi ***Muğan düzü*** adlanır. Antik müəlliflərdən Hekatey, Herodot və başqaları indiki ***Muğan*** düzündə (tarixi ***Mukan*** ərazisində) ***mikmuq*** tayfası haqqında məlumat vermişlər. IX - X əsrlərə aid ərəb mənbələrində (*İbn Xordadbeh, Müqəddəsi və s.*) Kürün mənbəyindən təxminən 16 fərsəx cənubda yerləşən bağ-bağatlı, gözəl ***Muğan şəhəri*** haqqında məlumat var. Çox güman ki, onların göstərdikləri həmin şəhər XV əsrdə Teymuri sultanı Əbu Səidlə Ağqoyunlu Uzun Həsən arasında baş verən döyüşlərdə dağıdılmışdır. Daha sonralar Qərnati, Zəkəriyyə Qəzvini və başqa müəlliflər də Azərbaycanın ***Muğan ölkəsi*** haqqında bir sıra məlumatlar verərək, buradakı yerli əhalini türkmənlər adlandırmışlar. Tarixi mənbələrdə Azərbaycanda ***Muğan*** və ***Muğaniyyə*** oykonimlərinə son orta əsrlər zamanlarında da rast gəlirik. Araşdırmalardan aydın olur ki, adının tərkibində ***Muğan*** sözü olan toponimlər ***muğ*** (***muğan, muğanlı***) etnonimi ilə bağlıdır. Azərbaycanda ***Muğan*** (***Muğanlı***) adı ilə bağlı çoxlu toponim qeydə alınmışdır.

Minkənd çayı – Laçın rayonunda, Minkənd kəndi ərazisində axan çay. Orta axarında ***Ağoğlan,*** aşağı axarında isə ***Zabux*** adlanır. Yeganə tağbənd giriş qapısı olan Alban dövrü tarixi - memarlıq abidəsi hesab edilən *Ağoğlan qəsri* çayın kənarında, hündür bir yerdədir. **Çay** öz adını ***Minkənd*** yaşayış məntəqəsinin adından almışdır.

Minkənd mineral bulağı – Laçın rayonunda, Minkənd kəndi ərazisindən qeydə alınmış mineral bulaqlar. Adı *İlıqsu* (*İstisu*) və *İlxısu* kimi də çəkilir. ***Minkənd mineral bulağı*** kimyəvi tərkibinə görə Badamlı suyuna çox yaxındır. ***Bulaq*** Laçın rayonunun ***Minkənd*** yaşayış məntəqəsinin adı ilə adlandırılmışdır.

Mirək gölü – Cəbrayıl rayonunun Miraq (bəzən yaşayış məntəqəsinin adını *Mirək* şəklində də yazırlar) kəndi yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Mirək gölü*** adlanır.

Mirək kəhrizi – Cəbrayıl rayonunun Kavdar kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Mirək kəhrizi*** adlanır.

Miriksu çayı – Laçın rayonu ərazisində axan ***çay***. Yaxınlığından axdığı ***Mirik*** yaşayış məntəqəsinin adı ilə adlanmışdır. ***Mirik*** sözü ehtimal ki, türk dillərindəki ***marıq/marak*** sözündən olub, "*müşahidə məntəqəsi*" mənasını daşıyır.

Mirin bulağı – Cəbrayıl rayonunun Xələfli kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Mirin bulağı*** adlanır. Hidronimin tərkibindəki ***bulaq*** sözü hidronimik apelyativdir.

Mirzə suyu – Cəbrayıl rayonunda, Xələfli kəndinin ərazisinə qeydə alınan maraqlı coğrafi adlardan biri də ***Mirzə suyu*** adlanır.

Mirzələr çayı – Şuşa rayonunda, rayon mərkəzindən şimal-qərbdə, Qarabağ silsiləsində mənzərəli bir ərazidə axan çay. ***Mirzələr çayı*** yağış, qar, yeraltı sularla, bulaqlarla qidalanır. Hidronim yaxınlığında yerləşən kəndin adı ilə adlanmışdır. Bu yaşayış məntəqəsi XIX əsrin əvvəllərində Mehdiqulu xana məxsus Xəlfəlı tayfasının ***Mirzələr*** adlanan nəslinin burada məskunlaşması nəticəsində yaranmışdır.

Molla Oruc arxı – Zəngilan rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri ***Molla Oruc arxı*** adlanır.

Molla Teymur bulağı – Laçın rayonunun Qarıqışlaq kəndində qeydə alınan hidronim ***Molla Teymur bulağı*** adlanır. Bu bulağı anadangəlmə hər iki gözü kor olan kənd sakini ***Teymur*** tikdirmişdir. Ürəyində el qayğısı çəkən bu qoca özü dünya işığına həsrət qaldığı, ona möhtac olduğu halda öz şəxsi vəsaiti hesabına doğma kəndinin abadlığı üçün bağlar saldırmış, bulaqlar tikdirmişdir.

Mozçay çayı – Kəlbəcər rayonunun ərazisindən axan çay. Antik müəlliflərdən Ptolemeyin (II əsr) "Coğrafi təlimnamə" əsərində Qafqaz Albaniyası ərazisində **Moziata** Sış məntəqəsinin adı çəkilir. Bəzi tədqiqatçılara görə, ***Moziata*** toponimindəki ***ata*** sözü topoformantdır. Alban tarixçisi Moisey Kalankatlı Sünik knyazlığında **Moz** mahalını qeyd edir. ***Moz*** sözünün mənası hələlik elmi şəkildə dəqiq məlum olmadığı üçün tam izah edilməmişdir. Güman ki, **Moz, Mozkənd, Moziata, Mozn** toponimləri eyni mənşəlidir. Tutqunçayın qolu olan ***Mozçay çayı*** (bəzən adına ***Moz çayı*** da deyirləri) ərazisindən axdığı eyniadlı kəndin adı ilə əlaqədar olaraq belə adlanmışdır.

Mraqaz bulağı – Xocalı rayonunun ərazisində, Qarabağ silsiləsinin ətəyində, Kərkicahan qəsəbəsinin 5 kilometrliyində qeydə alınan bulaq ***Mraqaz bulağı*** adlanır. Toponimin izahı ilə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur.

Muncuqlu çayı – Laçın rayon mərkəzindən 35 – 45 kilometr şimalda, dağətəyi ərazidə, Muncuqlu yaşayış məntəqəsi yaxınlığında axan çay. ***Muncuqlu çayı*** Şəlvə çayının qoludur. Hidronim əvvəllərdən ***Muncuqlu*** adlanan yerdən axdığı üçün belə adlanmışdır. Bu yer adı isə vaxtilə bu ərazilərdə çoxlu qədim ***muncuq*** və ona bənzər digər bəzək əşyalarının tapılması ilə əlaqədardır.

Müşkabadçay – Xocavənd rayonunun ərazisində, Müşkabad kəndinin yaxınlığında qeydə alınan hidronim ***Müskabadçay*** adlanır.

Nağdalı çayı – Laçın rayonunun ərazisində, Nağdalı kəndi ətrafında, dağətəyi ərazidə axan çay. Çayın axdığı ərazi yaxınlığında ***Nağdalı*** adlı kənd də var.

Namazalı kəhrizi – Füzuli rayonunun ərazisində kəhriz. Azərbaycan toponimiyasında şəxs adlarından düzəlmiş çoxlu sayda hidronimlər mövcuddur. Kəhrizin ***Namazalı*** adlanması Horadiz kəndinin qədim tayfalarından olan ***namazalılarla*** əlaqədardır.

Navatxançay – Xocalı rayonu ərazisində çay. Çanaqçı kəndinin şərqindən axır. ***Çay*** öz başlanğıcını ***Navatxan*** dağından aldığına görə həmin dağın adı ilə adlandırılmışdır.

Nazlı bulaq kəhrizi – Ağdam rayonunun Gülablı kəndi ərazisindədir. Yerli əhali bu kəhrizə suyunun az-az, sanki nazlana-nazlana, *naz* edə-edə çıxdığına görə ***Nazlı bulaq*** adı verib...

Nəcəfqulu bulağı – Cəbrayıl rayonunda, Niyazqululular kəndinin ərazisində qeydə alınan hidronimlərdən biri də ***Nəcəfqulu bulağı*** adlanır.

Nəhət kəhrizi – Cəbrayıl rayonunun Qovşudlu kəndi yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Nəhət kəhrizi*** adlanır. ***Nəhət*** sözü ilə bağlı müxtəlif fikir və mülahizələr vardır.

Novlu bulaq – Cəbrayıl rayonunun ərazisində, Yal yurdunun yaxınlığında, Köhnə Bazavuz adlanan qədim yaşayış məntəqəsinin qalın meşəli dərəsində, dağətəyi ərazidə qeydə alınan hidronim ***Novlu bulaq*** adlanır. Tikilmə tarixi və kim tərəfindən inşa olunduğu dəqiq məlum deyildir. ***Bulaq*** sal daşın içərisində ***nova*** bənzər çıxıntılı olduğu üçün beləcə **-** ***Novlu bulaq*** adlandırılmışdır.

Novlu bulaq – Xocavənd rayonunun Qaradağlı kəndindən 5 kilometr aralıda qeydə alınmış hidronimlərdən biri ***Novlu bulaq*** adlanır.

Novlu bulaq – Laçın rayonunun Ağcakənd kəndi ərazisində qeydə alınan hidronimlərdən biri də ***Novlu bulaq*** adlanır. ***Bulaqda*** daşların arasında təbii şəkilli ***nova*** bənzər çıxıntı olduğu üçün hidronim belə ad almışdır.

Novlu bulaq – Şuşa rayonunda, Malıbəyli kəndinin ərazisində qeydə alınan bulaq. Onun divar daşında tikilmə tarixi və kim tərəfindən inşa olunduğu göstərilmişdir. Bulaqdan gələn su saxsı borularla axır. 1905-1907-cı illər erməni-müsəlman münaqişəsindən az sonra *Məşədi Kərim* adlı bir şəxs öz hesabına bulağın suyunu saxsı borularla kəndin mərkəzi hissəsinə çəkdirmişdir. Bulaq sal daşın içərisində ***nova*** bənzər çıxıntılı olduğuna görə beləcə – ***Novlu bulaq*** adlandırılmışdır.

Novruzdüşən göl – Kəlbəcər rayonu ərazisində göl. İstibulaq kəndindən azacıq şimalda yerləşir.

Nurəddin mineral bulağı – Laçın rayonunda, dağlıq ərazidə, Nurəddin kəndi yaxınlığında qeydə alınan bulaq.

Oğlanlar bulağı – Xocalı rayonunun ərazisində, Xocalı yaşayış məntəqəsində, yaşayış məntəqəsinin Qaladərəsi Xocalısı adlanan hissəsində qeydə alınan hidronimlərdən biri ***Oğlanlar bulağı*** adlanır. Yerli məlumata görə, bu bulağı Fazil adlı Xocalı sakini tikmişdir. Bulağın ***Oğlanlar*** adlanması onun suyundan daha çox oğlanların içməsi ilə əlaqədardır.

Oxçuçay – Qərbi Azərbaycan (*Ermənistan*) və Azərbaycan Respublikasının ərazisindən axan çay. Azərbaycan Respublikasında Zəngilan rayonunun ərazisindən, Zəngilan şəhərinin kənarından axır. Araz çayının sol qolu olan ***Oxçuçay*** (*bəzən sənəd və materallarda adı* ***Oxçu çayı*** *kimi də qeyd olunur*) öz mənbəyini Qərbi Azərbaycanın (*Ermənistanın*) Zəngəzur dağ silsiləsindən, Qapıcıq dağının yamacından (*3285 metr*) götürür. Çayın ümumi uzunluğu *85* kilometrdir. Demək olar ki, çayın yarıdan çoxu – 44 kilometr hissəsi Zəngilan rayonunun ərazisindən axır. Zəngilan rayonunun 20 yaşayış məntəqəsinin təxminən 1450 hektar torpaq sahəsi bu çayın suyu ilə suvarılır. 1951**-**ci ildən başlayaraq Qafan filizsaflaşdırma və Qacaran mis**-**molibden kombinatlarının kimyəvi tullantıları, eləcə də həmin şəhərlərin bioloji çirkli suları təmizlənmədən Oxçuçaya axıdılır. Oxçuçayın hövzəsinin sahəsi *1140* kub/metrdir. Çay qar, yağış və yeraltı sularla qidalanır. Qacaran, Qafan (*Ermənistan*) və Zəngilan şəhərləri ***Oxçu*** çayının sahilində yerləşir. Ermənistan ərazisində çay ***Voxçi*** və ya ***Oxçi*** də adlanır. Hidronim öz adını keçmişdə Zəngəzur qəzasında mövcud olmuş ***Oxçu*** kəndinin adından almışdır. Tarixi mənbələrdən aydın olur ki, ***oxçu*** qədim türk tayfalarından birinin adıdır.

Orta bulaq – Füzuli rayonunun ərazisində, Dövlətyarlı kəndinin 1 kilometrliyində, Köndələnçayın kənarında qeydə alınan hidronim.

Orta bulaq – Xocavənd rayonunun Tuğ kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Orta bulaq*** adlanır.

Orta kəhriz – Füzuli rayonunun Yuxarı Əbdürrəhmanlı kəndi ərazisində qeydə alınan hidronim.

Padarçay – Zəngilan rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri ***Padarçay*** adlanır. Hidronim *Oğuz-Səlcuq* əsilli *Qayı* türklərindən olan ***Padar*** tayfasının adı ilə əlaqədardır. ***Padarlar*** Azərbaycana XIII əsrdə, Elxanilər dövründə Orta asiyadan gəlmişlər. Onlar əvvəlcə Azərbaycanın cənub hissəsində yaşamışlar. Səfəvilərin hakimiyyəti zamanı (*XVI – XVIIII əsrlər*) *padarlar* Azərbaycanın şimal zonalarına köçürülmüşlər. Şahsevən tayfa ittifaqında müəyyən rol oynayan ***padarlar*** sonralar müəyyən ictimai-iqtisadi hadisələrlə əlaqədar olaraq Azərbaycanın müxtəlif ərazilərinə yayılmışlar.

Padardərə çayı – Cəbrayıl rayonunun ərazisində qeydə alınan etnohidronimlərdən biri ***Padardərə çayı*** adlanır. Arazın sol qolu olan ***Padardərə*** çayının daimi axarı yoxdur. ***Padardərə*** toponimi ***Padar*** etnonimi ilə bağlı olub, eyniadlı dərənin adı ilə adlandırılmışdır. Həmin ***dərə*** əvvəllər *padarların* yaylaq yurdu olmuşdur. Padarların mənşəyi oğuz tayfaları ilə bağlıdır. Bir qrup alimlərə görə (İ.M. Meşşaninov və başqaları) ***padar*** sözü miladdan öncə VIII əsrdə Urartu kitabələrində adı çəkilən ***Patari*** oykonimi ilə əlaqədardır. Ləzgilər padarları "*kyure*" adlandırmışlar. ***Padarlar*** oğuz-səlcuq tayfalarından birinin adıdır. XIX əsrdə Cavad qəzasında yaşayan ***padarlar*** bir sıra tirə və qollardan (*İlxıçı, Qaraçörüklü, Axtaçı, Küyülçü, Pölüklü* və s.) ibarət olmuşdur. Təxminən 8 əsr bundan əvvəl hələ İran səltənəti moğolların əlində olan vaxt Hülakülər hakimiyyətlərini qoruyub saxlamaq üçün Türküstandan ***200 000*** ailəni (Ağ hun tayfasına mənsub olan "*Qayı*" türklərini) Azərbaycana və İrana köçürmüşlər. Həmin "*qayı*" "*kayı*" türklərinin tərkibində *Qacar, Əfşar, Çobanı* və başqa qəbilələrlə birlikdə ***padar*** ailələri də olmuşdur.

Palçıqlı bulağı – Cəbrayıl rayonunda, Qazanzəmi kəndinin yaxınlığında, Qazanzəmi kövşənindəki təpə üzərində qeydə alınan hidronim.

Pıçıldayançay – Cəbrayıl rayonunda qeydə alınan hidronim. Azərbaycan toponimlər sistemində birinci komponentlərinin köməyi ilə obyekt suyunun səsini, gurultusunu, sürətini, şırıltısını və s. göstərən mürəkkəb hidronimlərə də tez-tez rast gəlirik. Bu çay sanki *pıçıldayırmış* kimi axdığı üçün yerli əhali tərəfindən belə adlandırılmışdır.

Piçənis çayı – Laçın rayonu ərazisindən axan çay. Şəlvə çayının sol qoludur. ***Çay*** öz mənbəyini Mıxtökən silsiləsinin zirvəsindən götürür. Bəzi sənəd və materiallarda hidronimin adına ***Piçanis*** və ya ***Piçənizçay*** formasında da rast gəlmək olur. Hidronim ərazisindən axdığı eyniadlı kəndin **(*Piçənis*)** adı ilə adlanmışdır. Uzunluğu 29 km olan bu çayın hövzəsinin sahəsi 198 kvadrat kilometrdir.

Pirağ bulaq – Xocavənd rayonu ərazisində, Muğanlı kəndindən 6 kilometr aralıda qeydə alınan coğrafi adlardan biri ***Pirağ bulaq*** adlanır.

Pirverdi kəhrizi – Cəbrayıl rayonunda, Niyazqulular kəndinin ərazisində qeydə alınan hidronim.

Rəzgə bulağı – Cəbrayıl rayonunda, Dağ Tumas kəndi yaxınlığında, Rəzgə bağının yuxarı hissəsində suyu şirin, gur və soyuq olan kəhriz tipli bulaq. ***Rəz*** sözünün "*üzümlük, tənəklik*" anlamı məlumdur.

Rus bulağı – Füzuli rayonunun Qacar kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Rus bulağı*** adlanır. ***Bulaq*** vaxtilə onun suyundan bir müddət istifadə etmiş ***rus*** millətindən olan adamlara görə belə adlandırılmışdır.

Rus bulağı – Qarabağ silsiləsinin ətəyində, Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 7 kilometr məsafədə qeydə alınan hidronimlərdən biri ***Rus bulağı*** adlanır. Vaxtilə *ruslar* bu *bulaqdan* tez-tez su içdiklərindən və onu təmir etdirdiklərindən hidronim belə ad almışdır.

Rzalılar kəhrizi – Füzuli rayonunun ərazisində qeydə alınan hidronim.

Sarı bulaq – Füzuli rayonunun Dövlətyarlı kəndindən azacıq yuxarıda, Köndələnçayın sahilində qeydə alınan hidronimlərdən biri ***Sarı bulaq*** adlanır.

Sarıbulaq – Kəlbəcər rayonunun ərazisində, Tərtər və Tutqunçay çaylarının suayırıcısında qeydə alınan bulaq. Bulağın belə adlanması orada yerləşən ***Sarıbulaq*** dağının adı ilə bağlıdır.

Sarışgöl – Xocalı rayonu ərazisində şirin sulu, axarlı göl.

Sevgili bulağı – Şuşa rayonunun Xəlfəli kəndinin mənzərəli bir yerində qeydə alınan bulaq. Belə söyləyirlər ki, kim yazın ilk çağlarında dan ulduzundan tez "*Sevgili bulağa*" çatarsa tezliklə arzusuna yetişərmiş. ***Sevgili bulağı*** yerli əhali tərəfindən müqəddəslik rəmzi hesab edilirdi.

Seyid gölü – Xocavənd rayonunun Axullu kəndi ərazisində, Axullu ilə Edilli kəndləri arasında, Daş bulağın yuxarısında qeydə alınmış hidronimlərdən biri ***Seyid gölü*** adlanır. Burada 13 metr yüksəklikdən şəlaləyə oxşar su tökülür. Yerli məlumata görə gölün orta hissəsinə ildırım düşərək orada böyük çuxur yaradıb. İldırım düşdüyü üçün yerli əhali o sahəni müqəddəsləşdirərək ***Seyid gölü*** deyərdi.

Seyid gölü şırranı – Xocavənd rayonunun Axullu kəndi ərazisində qeydə alınan maraqlı toponimlərdən biri ***Seyid gölü şırranı*** adlanır.

Seyidlər bulağı – Füzuli rayonu ərazisində qeydə alınan hidronimlərdən biri də ***Seyidlər bulağı*** adlanır.

Səfərşa gölü – Cəbrayıl rayonunda, Səfərşa kəndinin ərazisində qeydə alınan hidronimlərdən biri ***Səfərşa gölü*** adlanır. Şirin sulu ***Səfərşa gölü*** yaxınlıqda yerləşən ***Səfərşa*** kəndinin adı ilə əlaqədar olaraq belə adlandırılmışdır.

Səfixanlar çayı – Şuşa rayonunda, Qarabağ silsiləsində, Sarıbaba dağının yaxınlığında, rayon mərkəzindən qərb hissədə axan kiçik çay. Hidronim yaxınlığından axdığı kəndin adı ilə bağlıdır.

Sobu çayı – Zəngilan rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri də ***Sobu çayı*** adlanır. Adını bəzən sənədlərdə ***Sobuçay*** kimi qeyd edirlər. Bəzi sənədlərdə hidronim ***Sobudərə çayı*** kimi də qeydə alınmışdır. ***Sobu çayı*** öz mənbəyini Sobu qalası yüksəkliyindən götürür. Çay Zəngilan rayonunun bir neçə kəndinin – Sobu, Çöpədərə və Baharlı kəndlərinin ərazisindən axaraq Baharlı kəndinin yaxınlığında Bəsitçaya qovuşur.

Solaxay arx – Cəbrayıl rayonunda, Dağ Tumas kəndindən 5 kilometr məsafədə qeydə alınan hidronim.

Soltanlı kəhrizi – Füzuli rayonunun Yuxarı Veysəlli kəndi ərazisində qeydə alınan hidronim.

Soyuqbulaq – Xocalı rayonunda, Kərkicahan qəsəbəsi ərazisində qeydə alınmış bulaqlardan biri ***Soyuqbulaq*** adlanır.

Soyuqbulaq – Xocavənd rayonunun Axullu kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Soyuqbulaq*** adlanır.

Suqarışan bulağı – Kərkicahan yaşayış məntəqəsindən 2 kilometr aralıda qeydə alınan hidronimlərdən biri ***Suqarışan bulağı*** adlanır. Adından da göründüyü kimi, bulağın suyu digər su mənbəyi ilə "***qarışdığından***" el arasında belə ad almışdır.

Suqovuşan çay – Xocavənd rayonunda, Axullu kəndi ərazisində, kəndin sağ tərəfində qeydə alınan hidronimlərdən biri ***Suqovuşan*** adlanır. ***Suqovuşan çayı*** Axullu kəndi ilə Füzuli rayonunun Çimən kəndi arasından keçən və yağış zamanı suyu artan çaydır. Həmin çaylar Üçtəpə deyilən yerin aşağısında birləşdikləri üçün ***Suqovuşan*** adlandırılmışdır.

Sulu kəhriz – Cəbrayıl rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri ***Sulu kəhriz*** adlanır. Kəhrizin lap yanında yaşı təxminən ***800*** il olan və vaxtilə təbiət hadisəsi kimi qorunan məşhur ***çinar*** ağacı da var idi. Ermənilər işğaldan sonra bu ağacı kəsib məhv etmişlər. Son məlumatlara görə elə bu və digər səbəblərdən *Sulu kəhrizin* də dağıdıldığı bildirilir.

Sunca çayı – Xocalı rayonu ərazisində çay. ***Sunca çayı*** Xocalı çayının qoludur. Qarabağ xanı Mehdiqulu xanın (1806-1822-ci illər) saldırdığı Xankəndində 1847-ci ildə çar hökuməti ***sunca*** polkunu yerləşdirmişdi. Çayın kənarında, sahilində ***Sunca*** polkunun (*alayının*) kazarmaları yerləşirdi. Bu hidronim elə həmin vaxtdan da polkun adı ilə əlaqədar olaraq belə adlanmışdır.

Sutökülən bulaq – Füzuli rayonunun Qacar kəndi ərazisində, kənddən 3 kilometr aralıda qeydə alınan hidronim.

Süpürttü bulaq – Xocavənd rayonunun ərazisində, rayon mərkəzindən 62 kilometr cənub-qərbdə, Tuğ kəndinin 8 kilometrliyində, dağətəyi ərazidə qeydə alınan bulaq.

Şahbudaq kəhrizi – Füzuli rayonunun Saracıq kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Şahbudaq kəhrizi*** adlanır.

Şahvəlili gölü – Cəbrayıl rayonunda qeydə alınan hidronim. ***Şahvəlili*** yaşayış məntəqəsinin ərazisində kəndin adı ilə eyni səslənən ***Şahvəlli göllü*** hidronimi qeydə alınmışdır.

Şam bulaq – Cəbrayıl rayonunda, Şükürbəyli kəndinin ərazisində qeydə alınan hidronimlərdən biri ***Şam bulaq*** adlanır. Bu ***bulaq*** ilə bağlı əfsanə və ravayətlər də vardır.

Şapartı çayı – Xocavənd rayonu ərazisində qeydə alınan hidronimlərdən biri də ***Şapartı çayı*** adlanır. *Ağcaqoşun* çayının sağ qolu olan ***Şapartı çayı*** Xocavənd rayonu ərazisi ilə bərabər, Ağcabədi rayonunun da ərazisindən axır. ***Şapartı*** sözünü bəzi sənədlərdə ***Şıbartı*** və ya ***Şıpartı*** şəklində də yazırlar. ***Şıpartı*** sözü "*iti axan su*" mənasındadır. Amma bu da məlumdur ki, orada "*iti axan çay*"dan əlamət yoxdur. O.Süleymanov göstərir ki, ***şıba*** şumer dilində "*çoban*" anlamı ifadə edir. Belə bir mülahizə də var ki, ***şıbartı-şuba-ər-utu*** şəklində yaranıb və günümüzə ***Şıbartı*** formasında çatıb. Bu söz "*igid çobanlar allahı*" anlamına uyğun gəlir. Bu yozum Şıbartının "*çobanlar qışlağı*" olması ilə səsləşir. Başqa bir yozuma görə ***Şıbartı*** (***Subərti***) toponimi ***subər*** (***subərutu)*** etnonimi və ***teo*** komponentindən ibarət olub, "*subər tayfasının allahı, tanrısı*" mənasını ifadə edir.

Şəhid göl – Cəbrayıl rayonunda, Horovlu kəndinin düz ortasında qeydə alınan hidronimlərdən biri ***Şəhid göl*** adlanırdı. Burada Böyük Vətən müharibəsində şəhid olanların xatirəsinə abidə ucaldılmışdır. Məhz bu səbəbdən də toponim belə ad almışdır.

Şəkərxatun bulağı – Cəbrayıl rayonu ərazisində qeydə alımış hidronim. Toponim "*Şəkər xatuna məxsus olan bulaq*" anlamını ifadə edir.

Şəldi bulağı – Laçın rayonunun Hocaz kəndi ərazisində qeydə alınmışdır. ***Şəl*** termini *"sıx meşə", "yarpaq", "xırda budaq", "üstünə tənək atlandırılmış ağac", "lobya bitkisinin dibinə sancılan çubuq", ağac"* anlamındadır. Ərəb dilində ***şəl*** sözünün *"şillik, şikəstlik, çolaqlıq"* mənaları da vardır. Toponimi ***şeli*** ("*bulanıq*") sözü ilə də əlaqələndirirlər.

Şəlvə çayı – Laçın rayonu ərazisində, uzunluğu 42 km olan çay. ***Şəlvə çayının*** hövzəsinin sahəsi 582 kvadrat kilometrdir. Çay Mıxtökən silsiləsinin 2580 metr yüksəkliyindən başlanır. Sonra Hocazsu çayı ilə birləşib Həkəri çayını əmələ gətirir. Şəlvə çayı daha çox yeraltı sularla qidalanır (62%). ***Şəlvə*** toponimi *"bulanıq su"* mənası daşıyır.

Şıx kəhrizi – Cəbrayıl rayonunun Horovlu kəndi yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Şıx kəhrizi*** adlanır. Coğrafi adın tərkibindəki ***şıx*** komponenti ***şeyx*** sözünün təhrif edilmiş formasıdır.

Şırlan çayı – Şuşa rayonunun ərazisində, Qarabağ silsiləsində, Sarıbaba dağının ətəyində, rayon mərkəzindən 15 - 20 kilometr qərbdə axan çay. Yaxınlığında eyniadlı kənd də var. Bu kənd *Xəlfəli* tayfasına mənsub olan ailələrin burada məskunlaşması nəticəsində yaranmış yaşayış məntəqələrindəndir. XIX əsrin ortalarında 250 ailədən ibarət olan *xəlfəlilər* oturaqlaşdıqdan sonra Muğanda, Qarabağda və Azərbaycanın digər bölgələrində bir neçə kənd salmışlar. Onlardan biri də ***Şırlan*** kəndidir. Kəndin ətrafında ***Şırlan mineral bulağı*** da var. ***Şırlan*** hidrooykonimi öz adını ***Şırlan çayı*** və *Şırlan* mineral bulağının adından almışdır. ***Şırlan*** sözü ilə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur. ***Şırlan çayı*** və *Şırlan kəndi* Sarıbaba dağının ətəyində çıxan *3* bulağın ***şırıltılı*** axıb-tökülməsinə görə adlandırılmış ***Şırlan mineral bulağının*** adı ilə əlaqədar olaraq belə ad almışdır.

Şırlan mineral bulağı – Şuşa rayonunun ərazisində, rayon mərkəzindən 17 kilometr qərbdə, Qarabağ silsiləsində, Sarıbaba dağının ətəyində çıxan üç bulağın ümumi adı. Temperaturunun aşağı olması və tərkibində maqneziumdu komponentlərin çoxluğu ilə seçilən Şırlan mineral suyu karbonatlıdır. Bu mineraldan əsasən, mədə-bağrsaq, qanazlığı, maddələr mübadiləsinin pozğunluğu və s. xəstəliklərin müalicəsində istifadə edilir. ***Şırlan mineral bulağı*** suyunun rejiminə – şırıltı ilə tökülməsinə görə belə adlandırılmışdır. 3 bulaqdan çıxan Şırlan mineral suyunun tərkibi aşağıdakı kimidir:

1 SAYLI BULAĞIN KİMYƏVİ TƏRKİBİ:

$HCO_3 95$

$M_{7s}CO_2 2{,}4$----------Fe26,5

Mg67 . Ca20 . Na13

2 SAYLI BULAĞIN KİMYƏVİ TƏRKİBİ:

$HCO_3 89$

M1,4CO21,8----------*Fe25*

Ca53 . Mg34 . Na11

3 SAYLI BULAĞIN KİMYƏVİ TƏRKİBİ:

$HCO_3 64$. *SO435*

M2,06CO21,7----------*Fe10*

Ca69 . Na16 . Mg15

Şır-şır bulağı – Cəbrayıl rayonunun Şükürbəyli kəndinin yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Şır-şır bulağı*** adlanır.

Şır-şır bulaq – Xocavənd rayonunun Qaradağlı kəndi yaxınlığında, kənddən 6 kilometr məsafədə qeydə alınan hidronimlərdən biri ***Şır-şır bulaq*** adlanır.

Şır-şır bulaq – Zəngilan rayonunda qeydə alınan maraqlı hidronimlərdən biri də ***Şır-şır bulaq*** adlanır.

Şır-şır şəlaləsi – Füzuli rayon mərkəzinin 1 km şimal hissəsində süni yaradılan, təxminən 33 metr hündürlükdən Köndələn gölünə tökülən çay, şəlalə Şır-şır şəlaləsi adlanır. *Şır-şır şəlaləsi* Qarabağda ən hündürdən tökülən şəlalədir. Hətta, ən küləksiz havada belə hündürlükdən tökülən çaydan su damlaları yüz metrə qədər məsafəyə sıçrayır.

Şirvan bulağı – Cəbrayıl rayonunda, Xələfli kəndinin ərazisində qeydə alınan bulaq.

Şor bulaq – Cəbrayıl rayonunda, Tumaslı dağının yaxınlığında, şor dərədə, dağətəyi ərazidə qeydə alınan coğrafi adlardan biri ***Şor bulaq*** adlanır. Deyilənə görə, bulağın adı ***Şor bulaq*** olsa da, suyu duzlu yox, şirindir.

Şor bulaq – Qarabağ silsiləsinin ətəyində, Xocalı rayonunun ərazisində, Qırxqız dağının yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Şor bulaq*** adlanır.

Şor bulaq – Şuşa rayonunda, Malıbəyli kəndinin ərazisində, tarixi-memarlıq abidəsi olan hamam kompleksinin yaxınlığında yerləşən bulaq. Suyu ***şor*** olduğundan ***bulaq*** belə adlanır. ***Şor bulağın*** suyu müalicə əhəmiyyətli idi; dəri xəstəliyinə və ağız yaralarının müalicəsinə xeyirlidir.

Şorgöl – Mil-Qarabağ düzündə, Xocavənd rayonu ərazisində, Muğanlı kəndindən 2 km cənub-şərqdə qeydə alınan hidronim ***Şorgöl*** adlanır. Mürəkkəb toponimlərdən olan ***Şorgöl*** hidronimi suyunun duzlu olduğu üçün belə adlandırılmışdır.

Şurtançay – Kəlbəcər rayonunun ərazisində, rayon mərkəzindən 10 – 20 kilometr cənubda, Tərtər çayının sahilinə tərəf uzanan ***Şurtan*** dərəsinin yuxarı hissəsində, bu dərə boynca, ***Yuxarı Şurtan*** *(Baş Şurtan)* kəndinin yaxınlığında, Dəmirdağın ətəyi ilə axan çay. ***Şurtan*** sözünün elmi izahı hələlik dəqiq müəyyənləşməmişdir.

Tahir bulağı – Cəbrayıl rayonunda qeydə alınan hidronim.

Tamasan çayı – Xocavənd rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri ***Tamasan çayı*** adlanır.

Tatar çayı – Cəbrayıl rayonunun ərazisində, Tatar kəndinin yaxınlığında qeydə alınan hidronim ***Tatar çayı*** adlanır. Toponim "*tatarlara məxsus olan çay*" anlamındadır. Tarixdən məlumdur ki, XIII – XIV əsrlərdə Qızıl Orda dövlətini təşkil edən müxtəlif türk, monqol və s. tayfaları ***tatar*** adlandırılmışdır.

Teşnək bulağı – Füzuli rayonunun Horadiz kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Teşnək bulağı*** adlanır. ***Teşnək bulağı*** eyniadlı ərazidə olduğu üçün belə adlanmışdır. Horadizlilər bu yerə ***Teşnək*** yeri deyirlər. ***Teşnək*** sözü qismən təhrifə uğramışdır; əslində söz ***teşnə*** şəklində yazılmalıdır. ***Teşnə*** sözü *"susamış, susuz", "bir şeyi çox istəyən", "arzusunda olan", "bir şeyin həsrətini çəkən kəs"* və s. anlamlarda işlədilir.

Tey bulağı – Cəbrayıl rayonun Sirik kəndi yaxınlığında qeydə alınan hidronim ***Tey bulağı*** adlanır. Qədim türk mənşəli ***tey*** sözünün Azərbaycan dilinin dialektlərində "*uca*", "*hündür*", "*qılınc*", "*xəncər*", "*neştər*", "*kiçik dağ*" mənaları vardır. Bulağa belə ad onun zahiri formasına, yəni, hündürdə yerləşdiyinə və *qılınca* oxşamasına görə verilmişdir. Bəzi türk dillərində ***tey*** sözü "*təpə*", "*dağ*" anlamında da işlədilir. ***Tey*** komponentinin "*qatışığı olmayan*", "*xalis*", "*saf*", "*xəlitəsiz*", "*tamam*", "*bütün*", "*səlt*" mənaları da var.

Teymur Quliyev kanalı – Cəbrayıl rayonu ərazisindəki suvarma kanallarından biri ***Teymur Quliyev kanalı*** adlanır. Bu suvarma kanalı işğala qədər (*1993-cü il*) rayonun kənd təsərrüfatının intensiv inkişafına xidmət edirdi. ***Kanal*** Cəbrayıl rayonundan çıxmış görkəmli ziyalı, Azərbaycan SSR Ali Sovetinin, Azərbaycan SSR Nazirlər Sovetinin sədri vəzifələrində çalışmış və 3 "*Lenin*", "*I dərəcəli Böyük Vətən müharibəsi*" və "*Qırmızı Əmək Bayrağı*" ordenləri ilə təltif edilmiş tanınmış dövlət xadimi ***Teymur İmamqulu oğlu Quliyevin*** adı ilə əlaqədardır.

Təkəqaya çayı – Kəlbəcər rayonunda, Təkəqaya kəndi yaxınlığında qeydə alınan çay. Bəziləri bu hidronimi ***təkəli*** tayfası ilə bağlayırlar.

Təpə kəhriz – Füzuli rayonunun ərazisində qeydə alınan hidronim.

Tərtər çayı – Kəlbəcər, Tərtər və Bərdə rayonları ərazisində çay. Kür çayının sağ qoludur. Uzunluğu 184 km olan Tərtər çayının hövzəsinin sahəsi 2650 kvadrat metrdir. ***Tərtər çayı*** 3120 metr hündürlükdən, Qarabağ yaylası yüksəkliyindən başlayır. Çayın aşağı axını Qarabağ düzündədir. Tərtər çayı əsasən yeraltı sularla qidalanır. İllik axım həcmi 729 milyon kub metrdir. Orta illik su sərfi 23,1 m3/san-dir. Üzərində su qovşağı da var. Tərtər çayının adı ilk dəfə VII əsr hadisələri ilə əlaqədar alban tarixçisi M.Kalankatlının "Alban tarixi" əsərində ***Trtu*** formasında çəkilmişdir. IX əsr ərəb müəlliflərindən olan əl-Bələzuri çayın adını ***Turtur,*** Əhməd ibn Asəm əl-Kufi isə ***Tərtər*** formasında qeyd etmişdir. Bəzi tədqiqatçılara görə, hidronim öz adını qıpçaq tayfa ittifaqına daxil olan ***tərtər*** tayfasının adından almışdır. Çox güman ki, erkən orta əsrlərdə hunların tərkibində Albaniyaya gəlmiş ***tərtərlər*** bu ərazidə elə o zamanlardan məskunlaşmışlar. "Alban tarixi" əsərində həmin ərazidə mövcud olmuş ***Trtuakan*** **(*Tərtərəkan*)** yaşayış məntəqəsinin də adı çəkilib.

Tincilam bulağı – Xocavənd rayonunun ərazisində, Düdükçü kəndinin yaxınlığında, kəndin aşağı hissəsində, fermanın yerləşdiyi yerdə, günbəzin yanında qeydə alınan coğrafi adlardan biri də ***Tincilam bulağı*** adlanır. Bulağın aşağı hissəsində *qıjı* və s. bitirdi. ***Tincilam*** sözü ilə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur.

Tinli kəhrizi – Cəbrayıl rayonunun Tinli kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Tinli kəhrizi*** adlanır.

Tiri bulağı – Zəngilan rayonunun ərazisində, Tiri kəndi ətrafında qeydə alınan hidronimlərdən biri ***Tiri bulağı*** adlanır.

Tofiq bulağı – Şuşa rayonunda, Malıbəyli kəndinin ərazisində qeydə alınmış bulaq. Hidronim ***Tofiq*** şəxs adından və ***bulaq*** hidronimik apelyativindən ibarətdir. ***Tofiq bulağı*** onun qurucusu olan Malıbəyli kənd sakini, uzun illər kənd sovetinin sədri və məktəb direktoru vəzifələrində çalışmış xeyirxah ziyalı ***Tofiq Zeynalovun*** adı ilə əlaqədardır.

Top daş bulağı – Dağ Tumas kəndindən 3 kilometr aralıda, kənd qəbiristanlığından Sarı yoxuşa aşan Qarağac yolunun solunda, dağətəyi ərazidə qeydə alınan oronimlərdən biri ***Top daş*** adlanır. Bu ərazidə yan-yana ***topa -*** üç bitili ***daş*** vardır. Elə bu səbəbdən də toponim belə adlandırılmışdır.

Topal ağacın bulağı – Xocavənd rayonunun Axullu kəndinin ərazisində, Ərgünəş dağının ətrafında qeydə alınan hidronimlərdən biri ***Topal ağacın bulağı*** adlanır. Burada kəsilmiş ("*topal*") bir *ağacın* içindən qaynayan suya görə hidronim belə ad almışdır.

Tövərə kəhrizi – Cəbrayıl rayonunun Çərəkən kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Tövərə kəhrizi*** adlanır. ***Tövərə kəhrizi*** 1926-cı ildə vurulmuşdur. Toponimin tərkibindəki ***tövərə*** sözü bir qədər təhrifə məruz qalmışdır. Əslində hidronim ***Tövrə kəhrizi*** şəklində olmalıdır. ***Tövərə (tövrə)*** sözünün qədim türk dillərində "*davar, mal-qara*" anlamı məlumdur.

Tuğ mineral bulaqları – Xocavənd rayonunun Tuğ kəndi ərazisində qeydə alınmış bulaqlar ***Tuğ mineral bulaqları*** adlanır. Bunlar az debitli, soyuq bulaqlardır. Suyu duzlu olub əhali tərəfindən içilir. ***Tuğ mineral bulaqları*** hidronimi etnonim mənşəlidir.

Tumas bulağı – Cəbrayıl rayonunda, Dağ Tumas kəndinin yaxınlığında, kəndin cənub hissəsində, dağətəyi ərazidə, Tumas bağının yuxarı başında qeydə alınan hidronimlərdən biri ***Tumas bulağı*** adlanır. ***Tumas bulağı*** üçtağlı, üç dəhnəli, kəhriz tipli, soyuq, şəffaf və gur sulu bir bulaqdır. Hidronim kəndin adı ilə əlaqədar belə adlandırılmışdır. Adına bəzən ***Aynalı bulaq*** da deyirlər.

Tumi mineral bulaqları – Xocavənd rayonunun Domı kəndi ərazisində qeydə alınan bulaqlardan biri ***Tumi mineral bulaqları*** adlanır. Bu ***bulaq*** İgah çayının dərəsində yerləşir. ***Tumi mineral bulaqları*** bir neçə soyuq bulaqdan ibarətdir. Bulağın adı onun fəaliyyəti ilə əlaqədardır. Qazaxıstan toponimiyasında ***tum / tuma / tıma*** komponenti "*yavaş-yavaş axaraq bataqlıq əmələ gətirən bulaq*", "*çay qolunu əmələ gətirən bulaq*" mənalarında işlənir. ***Tumi*** mineral bulağının yaxınlığında ***Tumi*** (***Domı***) adlı yaşayış məntəqəsi də vardır.

Turşsu – Laçın rayonunun Ağcakənd kəndi yaxınlığında qeydə alınan toponimlərdən biri də ***Turşsu*** adlanır. ***Turşsu*** adı burada qaynayan və *suyu* bir qədər ***turş*** olan mineral bulaqlara görə verilmişdir.

Turşsu bulağı – Xocavənd rayonunun Kuropatkin kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Turşsu bulağı*** adlanır. Suyunun tərkibində karbon qazı vardır. ***Turşsu*** bulağının suyunun dadı ***turşməzə*** olduğu üçün hidronim belə ad almışdır.

Turşsu mineral bulağı – Xocavənd rayonunun ərazisində, Qırmızı Bazar yaşayış məntəqəsinin yaxınlığında qeydə alınmış hidronimlərdən biri ***Turşsu mineral bulağı*** adlanır.

Turşsu mineral bulağı – Şuşa rayonunda, Şuşa şəhərindən 17 kilometr cənub-qərbdə, Zarıslı çayının dərəsində, 1700 metr hündürlükdə çıxan bulaq. Suyu mıkroelementlərlə zəngin olan bu ***mineral bulaq suyu*** Yura və Tabaşir yaşlı süxurlarla bağlıdır. Suyun minerallaşma dərəcəsi 2,4 q/1, temperaturu 9-10°S-dir. Suyu həm içilir, həm vanna edilir, mədə-bağırsaq, öd kisəsi və s. xəstəliklərə tutulanlar burada müalicə olunurdular. ***Turşsu mineral bulağı*** boru kəməri vasitəsi ilə Şuşa şəhərinə nəql olunurdu.

Turşsu mineral bulaqları – Zəngilan rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri də ***Turşsu mineral bulaqları*** adlanır. Bu bulaqlar rayonun Seyidlər və Gəyəli kəndlərinin yaxınlığında yerləşir.

Tutqunçay – Kəlbəcər rayonunda çay. Tərtər çayının sağ qoludur. Yeraltı qar və yağış suyu ilə qidalanır. Orta illik su sərfi, 4 m3/san-dir. Uzunluğu 33 km olan Tutqunçayın hövzəsinin sahəsi 521 kvadrat kilometrdir. Hidronimin başqa bir adı ***Tutquçay*** kimi yazılır. Sahil qayalarının kölgəsi dar dərələrdən axan çayın rəngini *tutqunlaşdırdığından* ona belə ad verilmişdir.

Unannovu bulağı – Laçın rayonunda, dağətəyi ərazidə qeydə alınan bulaq. Çox güman ki, ***Unan -*** şəxs adıdır. ***Unannovu bulağı*** toponimi "*Unanın novlu bulağı*" mənasındadır. Bulağın yerləşdiyi ərazidə ***Unannovu*** adlı kənd də var. Bu yaşayış məntəqəsini ***Bağırbəyli*** nəslinə mənsub olan ailələr salmışlar. ***Un/ün*** komponentinin "*vardır*", "*malik olmaq*" anlamları da məlumdur. Bu termin "*Oğuznamə*"də "*Günəş – başında işıq yanan qız kimi*" qavranılmışdır. Udin dilində ***un*** sözünün "*sən*" mənası da var.

Unus bulağı – Xocavənd rayonunun ərazisində, vaxtilə mövcud olmuş Bəhrəmli kəndi yaxınlığında qeydə alınmış hidronimlərdən biri ***Unus bulağı*** adlanır. Bulaq haqqında bir sıra rəvayətlər uydurulmuşdur. Bəlkə də toponim bir qədər təhrifə uğramışdır. Belə ki, bəzi yerli sakinlərin dediklərinə görə, hidronim ***Yunus bulağı*** adından çönmədir.

Üç bulaq – Füzuli rayonunun *Üçbulaq kəndi* (əvvəlki adı ***Hoğa***) ərazisində qeydə alınan hidronimlərdən biri ***Üç bulaq*** adlanır.

Üçbulaq – Xocalı rayonu ərazisində, rayon mərkəzindən 10 km cənubda, Xankəndinin 1 kilometrliyində, qarqar çayının sahilində yerləşir.

Vərəndəli bulaq – Xocavənd rayonu ərazisində ***Vərəndəli*** sözü ilə bağlı bir neçə coğrafi ad qeydə alınıb. Onlardan biri də ***Vərəndəli bulaq*** hidronimidir. ***Vərəndəli bulaq*** Qaradağlı kəndindən 5 kilometr aralıda, ***Vərəndəli*** adlanan sahədə yerləşən fermaların yaxınlığındadır. Tarixdən məlumdur ki, Xocavənd rayon mərkəzinin, Xocavənd qəsəbəsinin cənub-qərb hissəsi ***Vərəndəli*** adlanır. Uzun əsrlərdir ki, burada yaşayan Azərbaycanlılar özlərini ***vərəndəli*** nəsli, ***vərəndəli*** tayfasının nümayəndələri adlandırırlar. Z.Kanakertsi "*Xronika*" əsərində ***Vərəndə*** adını çəkir: "Qarabağ xanlığının mövcudluğu dövründə bu bölgə ***Vərəndə məlikliyi*** adlanmışdır. XVII əsr müəllifi A.Davrişetsinin "*Tarix kitabı*"nda da *Vərəndə* adı xatırlanmışdır. D.D.Paqirevin göstərdiyi kimi XIX əsrdə Qafqazda mövcud olmuş *Berenda çayı, Berenda kəndi, Varanda Bolşoy, Varanda Malıy, Varanta uçuqluğu* ***vərəndə*** adı ilə əlaqədardır. M.C.Cavanşir də ***Vərəndə*** haqqında məlumat vermişdir; "İranda olan cənnətməkan Səfəvi sultanlıqlarının dövründə Qarabağ vilayəti və Dizaq, ***Vərəndə***, Xaçın, Giləberd, Talışdan ibarət olan ***Xəmsə*** mahalları və elləri rəhmətlik Nadir şahın zamanına qədər Gəncə bəylərbəyiliyinin hökmünə tabe olmuşdur". XX əsrin Sovetlər dönəmində ***Vərəndə*** toponimi sıxışdırılaraq ***Martuni*** adı ilə əvəzlənib rəsmiləşdirildi. Toponimçi-tarixçi alim Q.Qeybullayev ***vərəndə*** adı haqqında məlumat verərək göstərir ki, rus salnamələrində peçeneqlərlə bağlı ***berendey*** tayfalarının adı elə ***vərəndə*** adının variantıdır və ***Vərəndə*** toponimi mənbələrdə ***Pazkank*** adlanan ***Peçeneq*** mahalında mövcud olmuşdur. Oljas Süleymanov ***vərəndə/berendey*** tayfası haqqında məlumat verərək göstərir ki, ***vərəndə/berendey*** tayfası peçeneqlərdən ayrılmadır. Peçeneqlər rusların tərəfinə keçən həmtayfalarını ***berindi*** "*satılmış*", "*özünü vermiş*", "*ayrılmış*" adlandırmışlar. Çox güman ki, peçeneqlərdən ayrılan ***vərəndə*** tayfası "*getmiş*", "*varmış*", "*ayrılmış*" mənasından törənən bir addır. XII əsrdə yaşamış ***berendey/vərəndə*** başçılarından Dudar Satmazoviçin, Karakoz Miyuzoviçin və Koraz Kokeyin adlarını knyaz Mstislavla bağlı olaraq çəkir. Onlar Mstislava xidmət təklif edib əvəzində şəhər istəyirlər, knyaz razılıq verir. İndiki Jitomir vilayətindəki Bordiçev şəhəri XVIII əsrə qədər ***Berendiçev*** adlanmışdır. ***Vərəndə*** formasında toponimləşmiş etnonim sənəd və materiallarda ***Varanda, Vərəndəcik, Baranda, Vərəndəli*** şəklində də işlədilmişdir. Yerli sakinlərin dediklərinə görə, ***Vərəndə kəndi*** XIX əsrdə mövcud imiş. 1918-1920-ci illərdə Vərəndənin bəzi əkin sahələri, üzüm bağları qonşuluqdakı *Ağkənd* (Spitakşen) kəndinin torpaqlarına qatılıb. XX əsrdə bu kəndin 270 hektar sahəsi, 250 nəfər əhalisi olub. O zamanlar kənddə xeyli xüsusi təsərrüfat fəaliyyət göstərmişdir. 1930-cu illərdə ***Vərəndəlidə*** "*Qırmızı Oktyabr*" adlı kolxoz (*1951-ci ilədək müstəqil olub*) yaradılıb. 1951-ci ildən ***Vərəndəli***, Qağarza, Qaradağlı, Paravatumb kolxozları birləşdirildi. 1956-cı ildə isə ***Vərəndəli*** torpağının bir hissəsi alınıb Spitakşen və Müskabad erməni kəndlərinə verildi. Nəhayət, erməni siyasəti nəticəsində ***Vərəndəli*** bir kənd kimi "*ömrünü başa vurur*". Əhalisi ***Qaradağlı*** kəndinə köçürülür. Erməni xəyanətinin qurbanı olan ***Vərəndəli kəndi*** həmin tarixi dönəmdə Martuni rayonunda məhv edilmiş Xanlıq kəndinin, Bəhrəmli kəndinin (*bu kəndin əhalisi yaxınlıqdakı Muğanlı kəndinə və digər yaşayış məntəqələrinə köçmüşdür*) aqibətini yaşamışdır. Müasir Xocavənd və Xocalı rayonlarının ərazilərinin bir hissəsi vaxtilə Qarabağın keçmiş ***Vərəndə*** mahalının ərazilərini də əhatə etmişdir. Əksər tarixi sənədlərə görə, ***Vərəndə*** toponimi IX əsrdə qıpçaqların tərkibinə ***vərəndə*** kimi daxil olan tayfa adı ilə əlaqədar olaraq formalaşmışdır. Görünür həmin dövrlərdə bir sıra başqa tayfalarla yanaşı, ***Vərəndə tayfası*** da qədim Albaniya ərazisində təşəkkül tapmışdır. ***Vərəndə çayı*** da vərəndə tayfasının adı ilə bağlıdır.

Yağlı bulaq – Qarabağ silsiləsinin yamacında, Xocalı rayonunun ərazisində, rayon mərkəzindən 30 kilometr aralıda qeydə alınan hidronimlərdən biri ***Yağlı bulaq*** adlanır. Onun suyu içiləndə cana ***yağ*** kimi yayıldığı üçün yerli əhali tərəfindən belə adlandırılmışdır.

Yağlıdərə çayı – Laçın rayonunun ərazisində çay. Həkəri çayının qolu. ***Yağlıdərə çayı*** öz başlanğıcını ***Yağlıdərə*** adlı ərazidən aldığına görə həmin dərənin adını daşıyır.

Yanarxac gölü – Cəbrayıl rayonunda, Yanarxac kəndi ərazisində qeydə alınan hidronimlərdən biri də ***Yanarxac gölü*** adlanır. ***Yanarxac*** mürəkkəb sözü heyvandarlıqla, xüsusilə, qoyunçuluqla əlaqədar olaraq meydana gəlmişdir. Toponimin tərkibindəki ***arxac*** sözü "*otlaq şəraitində adətən gecələr, hava isti olduqda isə gündüzlər qaramal və qoyunların dincəlməsi üçün yer*", "*qoyunların yataq yeri*", "*yayda qoyunları saxlamaq üçün çəpər çəkilmiş yer*" mənasındadır.

Yansaq çayı – Kəlbəcər rayonunun Yanşaq kəndi ərazisindən axan kiçik çay. Yaxınlığından axdığı eyniadlı kəndin adı ilə əlaqədar olaraq belə adlanmışdır. ***Yanşaq*** sözü qədim türk dillərində "*aşıq*", "*ozan*" deməkdir. **Yanşaq** sözünün "*səsli-küylü*" mənası da var.

Yarğan bulağı – Zəngilan rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri ***Yarğan bulağı*** adlanır.

Yastıbulaq çayı – Laçın rayonu ərazisində çay. Hidronim *Əhmədli* kəndinin qərbindəki ***yastanadan*** **(*yastı*)** çıxan ***bulağın*** adı ilə əlaqədar olaraq belə adlanmışdır.

Yeddibulaq – Laçın rayonunun Vağazin kəndi ərazisində qeydə alınmış bulaq.

Yegədgur çayı – Xocavənd rayonunun ərazisində çay. ***Yegədgur*** hidronimi ***yekət*** ("*böyük*, *yoğun*") və ***gur*** komponentlərindən düzəlib, "*böyük, yoğun, gur sulu çay*" mənasındadır.

Yegəgur çayı – Xocavənd rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri ***Yegədgur çayı*** adlanır. ***Yekət*** komponenti "*böyük, yoğun*" anlamını ifadə edir.

Yel quyusu – Cəbrayıl rayonunun ərazisində, Dağ Tumas kəndinin yaxınlığında, Dəvəboynu aşırımının gündoğan üzündə qeydə alınan oroqrafik obyekt ***Yel quyusu*** adlanır. Əslində ***Yel quyusu*** kars mağarasından ibarətdir. Bu ***quyu*** haqqında ağızlarda əfsanələr dolaşmaqdadır. Yerli məlumatlara görə, bu quyunun (*mağaranın*) ondan 3 kilometr məsafədə yerləşən *Divlər sarayı* ilə yeraltı əlaqəsi vardır. Məlumdur ki, Qarabağ müharibəsi zamanı erməni işğalı ilə əlaqədar olaraq Azərbaycanın dünya səviyyəli digər qiymətli arxeoloji abidələri (*Azıx mağarası, Tağlar mağarası* və s.) kimi Cəbrayıl rayonunun ərazisində yerləşən *Yel quyusu, Divlər mağarası* və s. tarixi abidələrimiz də düşmən əlinə keçmişdi. Təəssüflər olsun ki, ***Yel quyusu mağarası*** vaxtında arxeoloqlarımız, tarixçilərimiz tərəfindən lazımi səviyyədə araşdırılıb öyrənilmədi.

Yelizgöl – Kəlbəcər rayonunun ərazisində göl. Hidronimin əsli ***Yelligəz gölü*** olmalıdır. *Göl* ***Yelligəz*** adlı yüksəkliyin ərazisində yerləşdiyi üçün belə ad almışdır.

Yurd yeri – Cəbrayıl rayonunun Göy gədik adlanan ərazisində qeydə alınmışdır. Adına bəzən ***Həvəzə Çələbinin Qalaq yeri*** də deyirlər. Deyilənlərə görə yay mövsümlərində ***Həvəzə Çələbi*** burada muxur qurdurar, istirahət edərmiş. O, sürgün edildikdən sonra bura onun qardaşı oğlu *Əli Çələbinin* ən sevimli *yaylaq yeri* olmuşdur. ***Yurd*** termini dedikdə "*insanın doğulub boya-başa çatdığı yer*", "*yaşayış yeri*", "*ev*", "*ev-eşik*", "*məskən*" başa düşülür.

Yüzbulaq – Kəlbəcər rayonunda, Yüzbulaq dağında, Azərbaycan ilə Ermənistan sərhədində, Qarabağ yaylasında, Tərtər çayının mənbə hissəsində, dəniz səviyyəsindən 3000 metrdən yuxarıda qeydə alınan çoxlu sayda bulaqlar. *Yüzbulaq* dağının yüksək nöqtəsi olan ***Yüzbulaq*** zirvəsinin hündürlüyü 3320 metrdir. ***Yüzbulaq*** toponiminin adındakı ***yüz*** rəqəmi (sözü) oradakı bulağın gözlərinin sayının çoxluğu ilə bağlıdır. ***Yüzbulaq*** ərazidə hündürlüyü 2000 - 3000 metr olan yüksəkliklərdə yerləşən çoxlu sayda bulaqlardan ibarətdir.

Zabux çayı – Laçın rayonunun ərazisindən, Zabux kəndinin yaxınlığından axan çay. Həkəri çayının sağ qolu olan ***Zabux çayı*** öz mənbəyini 3060 metr yüksəklikdən - *Qızıltəpə* dağından götürür. Çayın yuxarı axarında adı ***Ağoğlan***, orta axarında adı ***Minkənd*** adlanır. Çaydan suvarma və dəyirmanların hərəkətə gətirilməsi üçün istifadə edilir. ***Zabux çayı*** hidronimi öz adını ***Zabux*** kəndinin adından almışdır. ***Zabux*** kəndinin əvvəlki adı ***Xut Zabux*** olub. ***"Xut"*** türk mənşəli söz olub, *"düşərgə"* deməkdir. ***Hut*** **(*Xut*)** sözü "*balıq bürcü*" mənasında da işlədilir. Əfsanəyə görə, iğtişaş zamanı Yunis peyğəmbəri öz qarnında gizlədən nəhəng balığın adı da ***Hut*** **(*Xut*)** olmuşdur. ***Zabux*** toponimi ***zaboq*** sözü ilə əlaqədardır. ***Zaboq*** **-** *"döngə"* deməkdir.

Zalxa gölü – Kəlbəcər rayonunda, Qarabağ yaylasında, 3062 metr hündürlükdə yerləşən şirinsulu göl. Gölün sahəsi təxminən 20 hektar, orta dərinliyi 3 metr, maksimal dərinliyi 5 metrdir. Bazarçay ***Zalxa*** gölündən başlanır. Bəzi tədqiqatçıların fikrincə, ***zalxa/zolxe*** monqol, *buryat* mənşəli söz olub, mənası "*iri, böyük*" deməkdir. Yerli məlumata gorə isə, ***Zalxa*** hidronimi bir qadının adı ilə bağlıdır. Guya gölün kənarında həmin qadının yurd yeri olmuş və ***göl*** də onun adı ilə adlanmışdır.

Zalxa gölü – Laçın rayonunun ərazisində, Qarabağ yaylasında, Bazarçayın yuxarı hissəsində yerləşən şirinsulu göl. Bəzi tədqiqatçılara görə, hidronim monqol dilindəki ***zulxe/zolxe*** və ***göl*** sözlərindəndir; ***Zulxe*** **-** "*iri, böyük*" deməkdir. Toponim "*iri göl*" mənasındadır.

Zar çayı – Kəlbəcər rayonu ərazisində, Zar kəndi yaxınlığında axan çay. Tərtərçayın qoludur. Bu çay haqqında belə bir toponimik rəvayət də vardır: *Bır qarı var ımış. Bu qarının* ***Zaza*** *adlı oğlundan başqa kimsəsi yox imiş. Zaza qonşu kənddən Nazı adlı bir qızı sevirmiş. Ancaq kasıb olduğu üçün qızı ona vermırlərmiş. Oğlan fikirləşir ki, Nadir şahın yanına gedim, bəlkə mənə kömək etdi. Oğlan qapıda qarpız tağı əkir. Tağın bir qanadını saxsı bardağın içinə salır. Bardağ içində olan qanad çiçək açır, kürə çökür. Kürə böyüyüb qarpız olur. Zaza içində qarpız olan saxsı bardağı Nadirə hədiyyə aparır. Xahiş edir ki, Nazını ona alsın. Nadir bardaqdakı qarpıza baxıb, oğlanın qabiliyyətinə afərin deyir. O, Nazının ata-anasına əmr edir ki, qızı Zazaya versinlər. Əmr verən günü Nadir şah səfərə çıxır. Qızın adamları fürsətdən istifadə edib, gecə ikən gəlib Zazanı tikə-tikə doğrayaraq quyuya tökürlər .Zazanın bir sehrli tütəyi varmış. Həmişə özü-özunə çalıb, Zazanm başma gələn əhvalatı söylərmiş. Nadir səfərdən geri qayıdanda görür ki, quyudan səs gəlir. Qulaq asıb görür ki, tütəkdir. Tütək elə hey yanıqlı-yanıqlı deyir: Zazanı öldürdülər, quyuya saldırdılar. Nadir o saat hökm edir; Zazanı öldürənlərin, Nazının atasının, anasının boynu vurulur. Zazanın anası hər gün ağlayır, zarıyır. Onun zarımasından da kəndin və onun yaxınlığından axan bu kiçik çayın adı* ***Zar*** *qalır.*

Zarıslı çayı – Şuşa və Xocavənd rayonlarının ərazilərində qeydə alınan hidronimlərdən biri ***Zarıslı çayı*** adlanır. ***Zarıslı çayı*** Qarabağ silsiləsindən, *2080* metr yüksəklikdən başlanır. Çayın uzunluğu 25 kilometr, hövzəsinin sahəsi isə 120 kvadrat kilometrdir. Əsasən yeraltı sularla qidalanan ***Zarıslı çayı*** Xankəndi şəhərinin 1,5 kilometrliyində, Xocalı rayonu ərazisində, Ağa körpüsü yaxınlığında Xəlfəli çayı ilə birləşərək Qarqar çayını əmələ gətirir. Onun Şuşa rayonunun Daşaltı kəndi ərazisindən, Şuşa şəhərinin kənarından axan hissəsi ***Daşaltı*** adlanır. ***Zarıslı*** – mürəkkəb toponimdir. ***Zarıslı*** hidronimi *sarısu* adının monqol dilinin təsiri ilə dəyişmiş variantı olması ehtimal edilir. Monqol dilinin dialektlərində ***s-z*** əvəzlənməsi mümkün variantdır. Mənbələrdə bu toponimin adı XIII əsrdən çəkilir. Yəqin ki, monqollar bu coğrafi adı ***Zarıs*** formasında qeydə almışlar. Çaydan bir qədər aralıda, Şuşa rayonunun tabeliyində olan ***Zarıslı*** adlı kənd də var. ***Zarıslı*** hidronimi *Zarıslı* kəndinin adı ilə əlaqədar olaraq belə adlanır. ***Zarıslı*** etnoniminin ***zar/sar*** (*"Allaha inanan"*) və ***ıs*** (*"el"*) sözləri ilə əlaqədar yarandığını ehtimal edənlər də var. Bu anlamda ***zarıslı*** sözü *"Allaha inanan el"*, *"dindar el"* mənasındadır. Digər bir fikrə görə, vaxtilə Qafqazda da yaşamış ***zar*** adlı tayfa mövcud olmuşdur.

Zəki bulağı – Xocavənd rayonunda, Qaradağlı kəndi ərazisində, kənddən 3 kilometr aralıda – Xankəndi şəhəri istiqamətində qeydə alınan hidronimlərdən biri ***Zəki bulağı*** adlanır.

Zərçay – Kəlbəcər rayonunun ərazisində çay. Quruluşca mürəkkəb tərkibli olan ***Zərçay*** hidronimi ***zər*** ("*əkin*") və ***çay*** komponentlərindən ibarətdir.

Zərdanaşen mineral bulaqları – Qarabağda, Xocavənd rayonunun ərazisində, ***Zərdanaşen*** kəndinin cənubunda, Kirs dağının şərq yamacında qeydə alınan bulaqlar ***Zərdanaşen mineral bulaqları*** adlanır. Bu mineral bulaqlar sayca *30*-dan çoxdur.

Zəylik çayı – Şərqi Sevan (*Göyçə*) silsiləsində, Kəlbəcər rayonu ərazisində, dağətəyi ərazidə axan çay. Çayın sahili yaxınlığında ***Zəy*** alunit yatağı olduğu üçün hidronim belə adlanmışdır.

Zoğallı bulaq – Cəbrayıl rayonunda, Tumaslı dağının yaxınlığında, Zoğallı dərədə, dağətəyi ərazidə qeydə alınan hidronim.

Qarabağ iqtisadi rayonu sərhədlərinin ümumi göstəriciləri			
Şəhər və ya rayon	**Rayonun sərhədlərinin uzunluğu, km**	**Azərbaycanın rayonları ilə sərhədlərin uzunluğu, km**	**İranla sərhədlərin uzunluğu, km**
Xankəndi şəhəri	**23**	Xocalı – 23	**–**
Ağcabədi	**230,6**	(230,5) Zərdab – 40,1; Beyləqan – 60; Füzuli – 14; Xocavənd – 21,1; Ağdam – 66,4; Bərdə – 29	**–**
Ağdam	**219**	(219) Bərdə – 12,4; Ağcabədi – 66,4; Xocabvənd – 43,5; Xocalı (Xankəndi) – 41; Kəlbəcər – 6,0; Tərtər – 49,7	**–**
Bərdə	**150**	(150) Ağcabədi – 29; Zərdab – 8,5; Ağdaş – 40; Yevlax – 27,3; Tərtər – 32,8; Ağdam – 12,4	**–**
Füzuli	**179,6**	(140,9) Beyləqan – 28,9; Ağcabədi – 14; Xocavənd – 72,3; Cəbrayıl – 25,7	**38,7**
Xocalı	**182,6**	(182,6) Xocavənd – 30,8; Ağdam – 40,9; Kəlbəcər – 26,2; Xankəndi – 29,5; Laçın – 25,7; Şuşa – 29,5	**–**
Xocavənd	**267,4**	(267,4) Ağdam – 43,5; Ağcabədi – 21,1; Xocalı (Xankəndi) – 30,8; Şuşa – 8,8; Laçın – 19,5; Qubadlı – 17,6; Füzuli – 72,3; Cəbrayıl – 53,8	**–**
Şuşa	**83**	(83) Xocavənd – 8,8; Xankəndi – 29,5; Laçın – 44,7	**–**
Tərtər	**180,7**	(180,7) Goranboy – 40,4; Yevlax – 8,4; Bərdə – 32,8; Ağdam – 49,8; Kəlbəcər – 49,3	**–**
Cəmi	**1492,9**	**1476,6**	**38,7**

Şərqi Zəngəzur iqtisadi rayonu sərhədlərinin ümumi göstəriciləri				
Şəhər və ya rayon	**Rayonun sərhədlərinin uzunluğu, km**	**Azərbaycanın rayonları ilə sərhədlərin uzunluğu, km**	**Ermə-nistanla, km**	**İranla sərhədlərin uzunluğu, km**
Cəbrayıl	**164,5**	116,7) Füzuli – 25,7; Xocavənd – 53,8; Zəngilan – 10,4; Qubadlı – 26,8	**10,4**	**47,8**
Kəlbəcər	**311,7**	(197,3) Daşkəsən – 23; Laçın – 57,3; Göygöl – 14,6; Goranboy – 20,9; Tərtər – 49,3; Xankəndi – 32,2	**114,4**	**–**
Qubadlı	**142,8**	(94,8) Laçın – 16,9; Xocavənd – 17,6; Cəbrayıl – 26,8; Zəngilan – 33,5	**48**	**–**
Laçın	**273,6**	(164,2) Kəlbəcər – 57,3; Qubadlı – 17; Xocavənd – 19,5; Şuşa – 44,7; Xankəndi – 25,7	**109,4**	**–**
Zəngilan	**157,5**	(43,9) Cəbrayıl – 10,4; Qubadlı – 33,5	**70,4**	**43,2**
Cəmi	**1050,1**	**616,9**	**342,2**	**91**

QARABAĞ İQTİSADİ RAYONU

(QARABAĞ İQTİSADİ RAYONU HAQQINDA ÜMUMİ MƏLUMAT)

Qarabağ iqtisadi rayonuna **Ağcabədi** rayonu**, Ağdam** rayonu, **Bərdə** rayonu, **Füzuli** rayonu, **Xocalı** rayonu, **Xocavənd** rayonu, **Şuşa** rayonu, **Tərtər** rayonu, **Xankəndi** şəhəri daxildir.

Qarabağ iqtisadi rayonunun ərazisi – 8990 kvadrat kilometrdir;

Qarabağ iqtisadi rayonunun əhalisinin ümumi sayı – 906 000 nəfərdir (1 yanvar 2022-ci il üçün);

Əhalinin sıxlığı – 1 kv. km-ə 101 nəfərdir;

İqtisadiyyatın əsas sahəsi – kənd təsərrüfatı, sənaye, turizm;

Ümumi məhsul istehsalı – 1,6 milyard manat.

Qarabağ *iqtisadi rayonuna daxil olan inzibati rayonlar haqqında qısa məlumat*:

Ağcabədi rayonu – 8 avqust 1930-cu ildə təşkil olunub. 4 yanvar 1963-cü il tarixdə ləğv edilərək, Ağdam rayonuna birləşdirilib, 6 yanvar 1965-ci il tarixdə yenidən təşkil olunmuşdur.

Ərazisi – 1756 kvadrat kilometrdir;

Əhalisi – 135 000 nəfərdir;

Şəhər əhalisi – 36 000 (Ağcabədi) + 9000 (Hindarx) nəfərdir;

Kənd əhalisi – 90 000 nəfərdir;

Qarabağ müharibəsində şəhid olanların ümumi sayı – 280 nəfərdir;

Bakıdan rayon mərkəzinə qədər olan məsafə - 310 kilometrdir;

Yaşayış məntəqələrinin sayı – 47.

Ağdam rayonu – 8 avqust 1930-cu ildə təşkil olunub.

23 iyul 1993-cü il tarixdə ermənilər tərəfindən işğal olunmuş, ***20 noyabr 2020-ci il*** tarixdə işğaldan azad edilmişdir.

Ərazisi – 1157 kvadrat kilometrdir (*müharibədən əvvəl 1094 kv. km idi; 13 oktyabr 1992-ci il tarixində keçmiş DQMV-a daxil olan Ağdərə rayonunun Sırxavənd, Maniklu, Baş Güneypəyə kənd inzibati ərazi vahidləri Ağdam rayonunun tabeliyinə verilmişdir*);

Əhalisi – 195 000 nəfərdir (*1993-cü ildə, işğal zamanı 154 000 nəfər idi*);

Qarabağ müharibəsi nəticəsində rayonun minlərlə sakini şəhid, əlil, şikəst olmuşdur.

Vaxtilə (1993-cü ildə) rayonun 850 kvadrat kilometrə yaxın ərazisi (təxminən *77 % hissəsi*) erməni işğalçıları tərəfindən işğal edilmiş, dağıdılmış, yandırılmış və talan olunmuşdur. Bakı şəhəri ilə Ağdam şəhəri arasındakı məsafə 360 kilometrdir.

Rayonda sənaye və tikinti obyektlərinin sayı – 100;

Mədəni-məişət, ticarət-iaşə obyektlərinin sayı – 600;

Rayonun yaşayış məntəqələrinin ümumi sayı – 134;

Vaxtilə işğal edilmiş şəhər, qəsəbə və kəndlərin sayı – 90;

Tarixi abidələrin sayı – 150-dən artıqdır.

Bərdə rayonu – 8 avqust 1930-cu ildə təşkil olunub;

Ərazisi – 957 kvadrat kilometr;

Əhalisi – 150 000 nəfər;

Şəhər əhalisi – 35 000 nəfər, kənd əhalisi – 115 000;

Qarabağ müharibəsində şəhid olanların ümumi sayı – 300 nəfər;

Bakıdan rayon mərkəzinə qədər olan məsafə - 310 kilometr;

Yaşayış məntəqələrinin sayı – 108.

Füzuli rayonu – 8 avqust 1930-cu ildə təşkil olunub.

23 avqust 1993-cü il tarixdə erməni işğalçı qüvvələri tərəfindən işğal olunmuş, ***17 oktyabr 2020-ci il*** tarixdə işğaldan azad edilmişdir.

Rayonun ümumi ərazisi – 1390 kvadrat kilometr və ya 139 000 hektardır; 12 may 1994-cü il tarixdə qüvvəyə minən atəşkəsdən sonra rayonun 800 kvadrat kilometrə qədər ərazisi 27 il işğal altında qalmışdır. Əhalisinin sayı – 133 000 (*1993-cü ildə işğal zamanı 100 000 nəfər idi*) nəfər;

Rayon və onun inzibati mərkəzi olmuş Füzuli şəhəri erməni işğalçıları tərəfindən dağıdılmış, yandırılmış və talan olunmuşdur. Füzuli şəhəri ilə Bakı şəhəri arasındakı məsafə – 310 kilometr;

Rayonun yaşayış məntəqələrinin ümumi sayı – ***79***;

Ermənilər tərəfindən 27 il işğal altında qalmış yaşayış məntəqələrinin sayı – ***53***;

1993-cü ilin sonunda rayonun ümumilikdə **69** yaşayış məntəqəsi işğal altında idi. 1994-cü ilin əvvəllərində – qış və bahar döyüşlərində rayonun **18** yaşayış məntəqəsi – *Aşağı Kürdmahmudlu, Yuxarı Kürdmahmudlu, Qarabağ, Alıxanlı, Böyük Bəhmənli, Hacılı, Araz Yağlıvənd, Kərimbəyli, Babı, Arayatlı, Aşağı Mollaməhərrəmli, Yuxarı Mollaməhərrəmli, Şükürbəyli, Əhmədalılar, Qazaxlar, Mirzənağılı, Aşağı Əbdürrəhmanlı* kəndləri və ***Horadiz qəsəbəsi*** *(hazırda* ***Horadiz şəhəri****)* düşməndən azad edilmişdir.

Rayon üzrə şəhidlərin ümumi sayı – 1000 nəfər;

İtkin, əsir və girovlar – 100 nəfər;

Əlil və şikəst olmuşdur – 1400 nəfər;

Mədəni-məişət obyektlərinin sayı – 145;

Qeydə alınan tarixi abidələrin sayı – 150 və s.

Xankəndi şəhəri – ***28 dekabr 1991-ci il*** tarixdə işğal olunmuşdur. Əhalisinin sayı – 52 000 nəfər (*şəhərdə Kərkicahan qəsəbəsi də daxil olmaqla ümumilikdə 11 000 azərbaycanlı yaşayırdı*) idi. Yüzlərlə azərbaycanlı sakini şəhid, əlil və şikəst olmuşdur. Şəhərin azərbaycanlılar yaşayan evləri, məhəllələri erməni işğalçıları tərəfindən dağıdılmış, yandırılmış və talan olunmuşdur. Bakı şəhəri ilə məsafəsi 388 kilometrdir.

Ərazisi – 29 kv. km;

Əhalisi – 52 000 nəfər;

Şəhər üzrə şəhidlərin ümumi sayı – 100;

İşğal edilmiş sənaye, tikinti obyektlərinin sayı – 65;

Mədəni-məişət, ticarət-iaşə obyektlərinin ümumi sayı – 400;

Tarixi abidələrin sayı – 100.

Bir çox ərazilərində azərbaycanlılara qarşı ***soyqırımı*** hadisəsi baş vermişdir. 1988-ci ildən başlayan ***Qarabağ*** müharibəsinin ilk soyqırımı ***Xankəndi*** şəhərində olmuşdur. Şəhərin qərb hissəsi **–** xüsusilə azərbaycanlılar yaşayan məhəllələri ermənilər tərəfindən tamamilə yandırılmışdır.

Xocalı rayonu

Yarandığı tarix – ***26 noyabr 1991-ci il***;

26 fevral 1992-ci il tarixdə ermənilər tərəfindən işğal olunmuşdur. Ərazisi – 926 kv. km;

Əhalisinin ümumi sayı – 30 000 nəfər;

Erməni hücumları nəticəsində ümumilikdə şəhid olmuşdur – 850 nəfər;

Əlil və şikəst olmuşdur – 1200 nəfər;

Taleyi məlum olmayanlar – 155 nəfər;

Rayon erməni işğalçıları tərəfindən bütünlüklə işğal edilmiş, dağıdılmış, yandırılmış və talan olunmuşdur. Bakı şəhəri ilə Xocalı yaşayış məntəqəsi arasındakı məsafə 375 kilometrdir;

Sənaye və tikinti obyektlərinin sayı – 30;

Mədəni-məişət, ticarət-iaşə obyektlərinin sayı – 100;

Tarixi-memarlıq abidələrinin sayı – 100 (*o cümlədən, Xocalı-Gədəbəy* və s.).

Xocavənd rayonu – ***19 noyabr 1991-ci il*** tarixdə qismən (Xocavənd kəndi), ***2 oktyabr 1992-ci il*** tarixdə isə bütünlüklə ermənilər tərəfindən tamamilə işğal olunmuşdur.

Ərazisi – 1458 kvadrat kilometr;

Əhalisinin ümumi sayı – 40 000 nəfər;

Rayon üzrə azərbaycanlı əhalinin sayı – 11 000 nəfər;

Rayon erməni işğalçıları tərəfindən dağıdılmış və yandırılmışdır;

Müharibə nəticəsində rayonun ən çox zərər görmüş yaşayış məntəqələri – Xocavənd qəsəbəsi və Qaradağlı, Muğanlı, Əmiralılar, Kuropatkin, Tuğ, Axullu, Salakətin, Xətai, Günəşli kəndləri;

Bakı şəhəri ilə Xocavənd qəsəbəsi arasındakı məsafə – 350 kilometr;

Rayon üzrə şəhidlərin ümumi sayı – 158 nəfər;

Əlillərin sayı – 55 nəfər;

Dağıdılmış, yandırılmış mədəni-məişət obyektlərinin sayı – 75;

Azərbaycanlıların yaşadıqları qəsəbə və kəndlərin sayı – 10;

Tarixi abidələrin sayı – 45 (*o cümlədən, dünya əhəmiyyətli paleolit düşərgələri olan* ***Azıx*** *və* ***Tağlar*** *mağaraları*).

Şuşa rayonu – ***8 may 1992-ci il*** tarixdə ermənilər tərəfindən işğal olunmuş, ***8 noyabr 2020-ci il*** tarixdə işğaldan azad edilmişdir.

Ərazisi – 289 kvadrat kilometr;

Əhalisinin ümumi sayı – 30 000 nəfər;

Şuşa şəhərinin əhalisinin sayı – 11 000 nəfər;

Erməni münaqişəsi nəticəsində rayon üzrə ümumilikdə 250 nəfər şəhid (*160 nəfər hərbçi, 90 nəfər mülki*) olmuş, 200 nəfər əlil olmuşdur. 30 nəfərin taleyi məlum deyildir. Rayon və onun kəndləri erməni işğalçıları tərəfindən dağıdılmış, yandırılmış və talan olunmuşdur. Bakı şəhəri ilə Şuşa şəhəri arasındakı məsafə 380 kilometrdir.

Sənaye və tikinti obyektlərinin sayı – 30;

Mədəni-məişət obyektlərinin sayı – 103;

Şəhər, qəsəbə və kəndlərin ümumi sayı – 38;

Tarixi abidə və muzeylər – 250.

Tərtər rayonu – Rayon **8 avqust 1930-cu il** tarixdə yaradılıb. **24 fevral 1931-ci il** tarixdə *Tərtər rayonu* ləğv edilərək Bərdə rayonunun inzibati tabeliyinə verilmişdir. **27 yanvar 1934-cü il** tarixdə yenidən ***Tərtər rayonu*** yaradılmışdır. ***17 sentyabr 1939-cu il*** tarixə qədər ***Cerabert rayonu*** adlandırılmışdır. ***5 avqust 1949-cu il*** tarixdə rayonun ***Tərtər*** adı dəyişdirilərək sovet partiya və dövlət xadimi ***Mirbəşir Qasımovun*** (*1878 – 1949*) adı ilə əlaqədar olaraq ***Mirbəşir rayonu*** adlandırılmışdır. ***4 yanvar 1963-cü il*** tarixdə ***Mirbəşir rayonu*** ləğv edilərək *Bərdə* rayonunun inzibati tabeliyinə keçirilmişdir. ***6 yanvar 1965-ci il*** tarixdə yenidən *Mirbəşir rayonu* yaradılmışdır. ***7 fevral 1991-ci il*** tarixdə Mirbəşir rayonunun adı dəyişdirilərək yenidən ***Tərtər rayonu*** adlandırılmışdır. Azərbaycan Respublikası Milli Məclisinin ***13 oktyabr 1992-ci il*** tarixli ***327*** saylı qərarı ilə Azərbaycan Respublikasının ***Ağdərə rayonu*** ləğv edilərək həmin rayonun *Ağdərə şəhəri* və irili-xırdalı *27 kəndi* (*Umudlu, Zəylik, Metsşen, Möhrətağ, Ağabəyələnc, Mağavuz, Akop Kamari, Minqrelsk, Nerkin Oratağ, Qasapet, Canyataq, Dəmirli, Gülyataq* və başqaları) Tərtər rayonunun inzibati tərkibinə verilmişdir. Ağdərə rayonu ərazisindən verilən yaşayış məntəqələri də daxil olmaqla hazırda rayonda 2 şəhər, 1 qəsəbə və 74 kənd vardır. Hazırda keçmiş Ağdərə rayonundan Tərtər rayonuna verilən Ağdərə şəhəri və 21 kənd erməni işğalı altındadır. ***Tərtər rayonu*** Kür-Araz ovalığının qərb hissəsində, 40° 21′32″ en dairəsi və 46° 51′ 48″ uzunluqda yerləşir. Rayonun əhalisinin sayı 100 000 nəfər, ərazisi isə 957 (*bəzən sənədlərdə 960 da yazılır*) kvadrat kilometrdir. Əhali sıxlığı 1 kvadrat kilometrə 104 nəfər təşkil edir. ***17 iyun 1993-cü il*** tarixdə ermənilər tərəfindən qismən işğal edilmişdir. Rayonun təxminən 520 kvadrat kilometrə qədər ərazisi hazırda erməni işğalı altındadır. Rayonun mərkəzi ***Tərtər*** şəhəridir. ***Tərtər şəhəri*** ilə Bakı şəhəri arasındakı məsafə 333 kilometrdir.

Qeyd: *1988-ci ildə, Qarabağ münaqişəsi (müharibəsi) başlananda azərbaycanlılar Dağlıq Qarabağ Muxtar Vilayəti əhalisinin 30 faizini, onun bütün ətrafında olan və DQMV-ə daxil olmayan, erməni hərbi birləşmələri tərəfindən işğal edilmiş rayonların isə 99 faizindən çoxunu təşkil edirdilər. Dağlıq Qarabağda yerli azərbaycanlı əhaliyə qarşı aparılan etnik təmizləmə işğal olunmuş ərazilərdə yalnız bir millətin monoetnik mövcudluğuna gətirib çıxarmışdı...*

ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONU

(ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONU HAQQINDA ÜMUMİ MƏLUMAT)

Şərqi Zəngəzur iqtisadi rayonu ***Cəbrayıl***, ***Kəlbəcər***, ***Qubadlı***, ***Laçın***, ***Zəngilan*** rayonlarının ərazilərini əhatə edir. Azərbaycan ərazisinin 8 %-i, əhalisinin isə 2,5 %-i bu iqtisadi rayonun payına düşür.

Şərqi Zəngəzur iqtisadi rayonunun ərazisinə daxil olan bütün inzibati rayonlar (***Cəbrayıl***, ***Kəlbəcər***, ***Qubadlı***, ***Laçın***, ***Zəngilan***) 2020-ci ildə erməni silahlı qüvvələrinin işğalından azad edilmişdir.

Ümumi ərazisi – 7470 km^2 (*təxminən 7,5 min km^2*);

Ümumi əhalisi – 343 500 nəfər (*1 yanvar 2021-ci il*);

1 km^2-ə düşən əhali sıxlığı – 40 nəfər;

Ümumi məhsul istehsalı – 0,124 milyard manat.

İqtisadiyyatı:

İqtisadi rayonunun iqtisadiyyatının əsasını kənd təsərrüfatı, xüsusilə də heyvandarlıq təşkil etmişdir. Qoyunçuluq, maldarlıq, arıçılıq, tütünçülük, üzümçülük, meyvəçilik, taxılçılıq kənd təsərrüfatının inkişaf etmiş sahələrindən olmuşdur. Zənqilan, Qubadlı inzibatı rayonlarında və çayların subasarlarında əkinçilik üçün əlverişli şərait vardır. İqtisadi rayonda ət-süd məhsulları emal edilirdi, xalça toxunurdu.

Təbii sərvətləri

İqtisadi rayon ərazisində qızıl, civə, xromit, mərmər, üzlük tikinti daşları koral, perlit və s. faydalı qazıntı ehtiyatları vardır. Burada İstisu, Minkənd, Tutqunçay kimi mineral bulaqlar, iqlim-balneoloji şərait, dağ meşələri kurort-rekreasiya məqsədləri üçün istifadə edilə bilər.

Nəqliyyat şəbəkəsi

Nəqliyyat-kommunikasiya sistemi Ermənistanın təcavüzü nəticəsində dağıdılmışdır.

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan inzibati rayonlar:

Cəbrayıl rayonu

Yaranma tarixi – 8 avqust 1930-cu il;

İşğal olunmuşdur: **23 avqust 1993-çü il.**

İşğaldan azad edilmişdir: **4 oktyabr 2020-ci il.**

Ərazisi – 1050 kv. km;

Əhalisinin sayı – 82 200 nəfər;

Şəhidlərinin ümumi sayı – 450 nəfər;

Əlillərin sayı – 160 nəfər;

Bakı ilə Cəbrayıl şəhəri arasında olan məsafə 350 kilometrdir.

Kəlbəcər rayonu

Yaranma tarixi – 8 avqust 1930-cu il;

İşğal olunmuşdur: **2 aprel 1993-cü il.**

İşğaldan azad edilmişdir: **25 noyabr 2020-ci il.**

Ərazisi – 3054 kv. km;

Əhalisinin sayı – 94 700 nəfər;

Şəhidlərinin ümumi sayı – 540 nəfər;

Əlillərin sayı – 100 nəfər;

Bakı ilə Kəlbəcər arasında olan məsafə 445 kilometrdir.

Erməni işğalçıları tərəfindən dağıdılmış və yandırılmışdır:

Sənaye və tikinti obyektlərinin sayı – 29;

Mədəni-məişət, ticarət-iaşə obyektlərinin sayı – 300;

Şəhər, qəsəbə və kəndlərin ümumi sayı – 150;

Tarixi abidələrin sayı – 90.

Qubadlı rayonu

Yaranma tarixi – 14 mart 1933-cü il;

İşğal olunmuşdur: **31 avqust 1993-cü il.**

İşğaldan azad edilmişdir: **25 oktyabr 2020-ci il.**

Ərazisi – 802 km^2;

Əhalisinin sayı – 41 900 nəfər;

Şəhidlərin ümumi sayı – 270 nəfər;

Əlillərin sayı – 160 nəfər;

Bakı ilə Qubadlı şəhəri arasında olan məsafə – 410 kilometrdir.

Erməni işğalçıları tərəfindən dağıdılmış və yandırılmışdır:

Mədəni-məişət, ticarət-iaşə obyektləri – 300;

Şəhər, qəsəbə və kəndlər – 98;

Tarixi abidələr – 12.

Laçın rayonu

Yaranma tarixi – 8 avqust 1930-cu il;

İşğal olunmuşdur: **18 may 1992-ci il.**

İşğaldan azad edilmişdir: **1 dekabr 2020-ci il.**

Ərazisi – 1835 kv. km;

Əhalisinin sayı – 79 200 nəfər;

Şəhidlərin ümumi sayı – 280 nəfər;

Əlillərin sayı – 230 nəfər;

Bakı ilə Laçın şəhəri arasındakı məsafə 415 kilometrdir.

Erməni işğalçıları tərəfindən dağıdılmış və yandırılmışdır:

Mədəni–məişət, ticarət-iaşə obyektlərinin sayı – 500;

Şəhər, qəsəbə və kəndlərin sayı – 128;

Tarixi abidələrin sayı – 12.

Zəngilan rayonu

Yaranma tarixi – 8 avqust 1930-cu il;

İşğal olunmuşdur: **30 oktyabr 1993-çü il.**

İşğaldan azad edilmişdir: **20 oktyabr 2020-ci il.**

Ərazisi – 707 kv. km;

Əhalisinin sayı – 45 500 nəfər;

Şəhidlərin ümumi sayı – 290 nəfər;

Əlillərin sayı – 120 nəfər;

Bakı ilə Zəngilan şəhəri arasında olan məsafə 385 kilometrdir.

Erməni işğalçıları tərəfindən dağıdılmış və yandırılmışdır:

Mədəni-məişət, ticarət-iaşə obyektlərinin sayı – 300;

Qəsəbə və kəndlər – 83;

Tarixi abidələr – 13.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

A

ADDL (*Azərbaycan dilinin dialektoloji lüğəti*). Bakı, 1964.

ADİL (*Azərbaycan dilinin izahlı lüğəti*). 4 cilddə. Bakı, "Şərq-Qərb", 2006.

Ağasıoğlu F. Azər xalqı. Bakı.

Ağayev S. Şəhid şəhərin şəhid oğulları *(Ağdam)*. Bakı, "Azərbaycan" nəşriyyatı, 1994.

Ağayeva C. Unudulmayan xatirələr; Zəngilan – 22. Bakı, "Elm və Təhsil", 2015.

Axundov A.A. Torpağın köksündə tarixin izləri. Bakı, 1983.

Axundov Əmir: Qaradağlının qan yaddaşı. Bakı, "Şuşa" nəşriyyatı, 1999.

Akif Nağı: Qarabağ müharibəsi (*qısa tarix*). Bakı, 2011.

Alıoğlu S. Bura vətəndir. Bakı,"Çinar-Çap", 2003.

Aliyev A.İ. Toponimiya zapadnıx rayonov Azerbaydjana. AKD, Baku, 1975.

Allahverdiyev N.N. Azərbaycan SSR İqtisadi-sosial coğrafiyası.Bakı, 1990.

Allahverdiyev S. Azərbaycan tarixinin xronologiyası. Bakı, 2009.

Allahverdiyev S., Haqverdiyev Ə., Behbudov M. Azərbaycan tarixi. Bakı, "Müəllim" nəşriyyatı, 2007.

Allaxverdiyev R.K. Klad XVI v. iz Xar-Xar v Azerbaydjane. "Sovetskaya arxeoloqiya", 1958, № 3.

Aristov T.S. Kurdı Zakavkazya, Moskva, 1969.

Arzumanlı V., **Həbiboğlu V., Muxtarov K.** 1918-ci il qırğınları. Bakı, "Öyrətmən", 1994.

Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya; Soyqırım; Qaçqınlıq. Bakı, "Qartal", 1998.

Asadov S., Mamedov İ. Terrorizm priçina i sledstvie. Baku, 2001.

Aslanlı A. Qarabağ problemi. Tarixi, mahiyyəti həll prosesi. Bakı, 2009.

Aşurbeyli S.A. Oçerki istorii sredneqovekovoqo Baku; Baku 1964.

Avetisyan K.M. Coğrafi adlar lüğəti. İrəvan, 1969.

Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti 1918-1920. Bakı, 1990.

Azərbaycan dilinin izahlı lüğəti. (*4 cilddə*). Bakı, "Şərq-Qərb", 2006.

Azərbaycan dilinin orfoqrafiya lüğəti. Bakı, "Lider Nəşriyyatı", 2004.

Azəbaycan etnoqrafiyası. I cild, Bakı, 1988.

Azərbaycan etnoqrafiyası. 3 cilddə. I-III cild. Bakı, "Şərq-Qərb", 2007.

Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Qafqaz Universiteti; Qafqaz Araşdırmaları İnstitutu Nəşriyyatı. Bakı-2008.

Azərbaycan Klassik Ədəbiyyatı Kitabxanası-20 cilddə, I cild, səh. 48-52. Bakı, 1982.

Azərbaycan Milli Ensiklopediyası. I cild, Bakı, 2008.

Azərbaycan regionları: Bakı, 2012.

Azərbaycan Respublikası. MDA , f. 970, siy.1, iş 3.

Azərbaycan Sovet Ensiklopediyası: I-X cildlər. Bakı, 1976-1987-ci illər.

Azərbaycan SSR. İnzibati-ərazi bölgüsü. Bakı, Azərnəşr, 1968.

Azərbaycan SSR. İnzibati-ərazi bölgüsü. Bakı, Azərnəşr, 1979.

Azərbaycan SSR-nin coğrafiya atlası. QUQK, Moskva, 1963.

Azərbaycan SSR-nin fiziki-coğrafiyası. Professor Q.Gülün redaktorluğu ilə. Bakı, ADU nəşriyyatı, 1959.

Azərbaycan tarixi günbəgün (*kitab-təqvim*); Bakı, "Təknur" nəşriyyatı, 2008.

Azərbaycan tarixi üzrə qaynaqlar: Bakı, "Azərbaycan Universiteti" Nəşriyyatı, 1989.

Azərbaycan tarixi. I cild, Bakı, 1961.

Azərbaycan tarixi: 3 cilddə. Azərbaycan Elmlər Akademiyası nəşriyyatı, Bakı, 1964.

Azərbaycan tarixi: Sənədlər və nəşrlər üzrə. Bakı, 1990.

Azərbaycan tarixi: İ.Əliyevin redaktəsi ilə. Bakı, "Elm" nəşriyyatı, 1993.

Azərbaycan tarixi. Bakı, Azərnəşr, 1994.

Azərbaycan tarixi: I cild. Ali məktəblər üçün dərslik. Z.Bünyadov və Yusifovun redaktəsi ilə. Bakı, Azərnəşr, 1994.

Azərbaycan tarixi: Bakı, 1996.

Azərbaycan tarixi: Uzaq keçmişdən 1870-ci ilə qədər. II nəşr. "Çıraq" nəşriyyatı, Bakı, 2009.

Azərbaycan tarixi: Yeddi cilddə. Bakı, "Elm", 2008.

Azərbaycan toponimləri; Ensiklopedik lüğət, "Azərbaycan Ensiklopediyası Nəşriyyat-Poliqrafiya" birliyi, Bakı, 1999.

Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. I və II cild. Bakı, "Şərq-Qərb", 2007.

Azərbaycanın qədim tarixinə dair yazılı mənbələr. Bakı, 2014.

Azərbaycanın milli kimliyi. Tarixi və milli-mənəvi dəyərlər kontekstində. Bakı, 2014.

Azərinform məlumat verir, bildirir, təkzib edir. Azərnəşr, Bakı, 1991.

Azərbaycanın tarixi xəritələri. Bakı, 1994.

B

Babayev A., Babayev H. Tariximizin faciəli səhifələri: Soyqırımı. AR MM-in nəşri. Məsul redaktor: M.Ələsgərov. Bakı, 2000.

Babayev İ. Qafqaz Albaniyasının şəhərləri. Bakı.

Baharlı M. Azərbaycan, Bakı, 1993.

Bakıxanov A.A. "Gülüstani-İrəm", Bakı, 1951; Təkrar nəşr, Bakı, 2000.

Baykara H. Azərbaycan milli istiqlal mübarizəsi tarixi. Bakı, 1992.

Bayramov İ. Qərbi Azərbaycanın türk mənşəli toponimləri. Bakı, "Elm", 2002.

Bayramov İbrahim, Nazim Mustafa: Həqiqətin onomastikası. Bakı, "Şərq-Qərb", 2021.

Boran Əziz: Xocalı soyqırımı. Bakı, "Azərnəşr", 2008.

Budaqov B. Türk uluslarının yer yaddaşı, Bakı, "Elm", 1994.

Budaqov B. Vətən yanğısı. Bakı, "Oğuz eli", 2002.

Budaqov B., Qeybullayev Q. Ermənistanda Azərbaycan mənşəli toponimlərin isahlı lüğəti. Bakı, 1998.

Bünyadov T. Mərd qalalar, sərt qalalar, Azərbaycan Dövlət Nəşriyyatı, B., 1986.

Bünyadov Z.M., Yusifov Y.V. Azərbaycan tarixi. I cild, Bakı, 1994.

Bünyadov Z. Seçilmiş əsərləri. II cild Bakı, 1999.

Bünyadov Z. Azərbaycan VII – IX əsrlərdə. Bakı, 2007.

C

Cabbarov M., Şıxəliyev H. Zəngilanın gəlimli-gedimli Bartazı. Bakı, "Təknur" nəşriyyatı, 2013.

Cabbarov M.M. Zəngilan ensiklopediyası. Bakı, "Red N Line" MMC, 2017.

Cahangir T. Vətən oğul istəyəndə. Bakı, "Günəş" nəşriyyatı, 1998.

Cavadlı S. Müqəddəs ruhları sızladan 20 il. Bakı, "Avropa" nəşriyyatı, 2013.

Cavadlı S. Son gümanım – Zəngilanım. Bakı, 2011.

Cəfərov M., Rüstəm Ş. Bir ocağın alovları. Bakı, "Təbriz", 1997.

Ç

Çəmənzəminli Y.V. Tarixi coğrafi və iqtisadi Azərbaycan. BDU nəşriyyatı, 1993.

Çingizoğlu Ə. Abbasilər dövründə türklər. Bakı, "Mütərcim", 2015.

Çingizoğlu Ə. Avşarlardan Qacarlaradək (1747-1797-ci illər). Bakı, "Mütərcim", 2015.

Çingizoğlu Ə., Qubadoğlu N. Azərbaycan tarixi yurd yerlərinin coğrafiyası. Bakı, "Mütərcim", 2015.

D

Dadaşlı A. Azərbaycanda Sovet hakimiyyətinin qurulması. ÜİK(b)P yanında MLİ AF əsərləri. Bakı, 1947.

Dağlıq Qarabağ Sovet hakimiyyəti illərində. Bakı, 1970.

Dağlıq Qarabağ: Zəka qalib gələcək. Sənədlər və materiallar. Azərbaycan Dövlət nəşriyyatı. Bakı, 1989.

Davudqızı S. Ruhların izi ilə. Bakı, "Mütərcim", 1997.

Dəmirçizadə Ə. Azərbaycan ədəbi dilinin tarixi. I c. Bakı, 1979.

DQMV Partiya Komitəsinin plenum və bürolarının protokolları *(1979-1989-cu illər)*. Dövlət Nəşriyyatı, Bakı, 1989.

E

Eminov Z. Azərbaycan əhalisi. Bakı, 2005.

Erməni cinayətləri (*Sənədlər əsasında*). I cild. Bakı, MTN, "Vətən", 2004.

Erməni cinayətləri. Bakı, 2003.

Erməni terror və quldur birləşmələrinin bəşəriyyətə qarşı cinayətləri *(XIX- XXI əsrlər)*. Bakı, "Elm", 2003.

Erməni vəhşəti: Ankara, 2001.

Ermənistan SSR-in coğrafi adları. İrəvan, 1951.

Ə

Əbdürrəşid Bakuvi: "*Təlxeyi əl-əsər*".

Əfəndiyev V., Dəmirqayayev Ş. Azərbaycan şəhərləri. Bakı, 1998.

Əhməd bəy Cavanşir Qarabağı: Qarabağ xanlığının siyasi vəziyyətinə dair (1747-ci ildən 1905-ci ilə qədər). Bakı, 1961.

Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar Bakı, "Tuna", 1998.

Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü. Bakı, 2007.

Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü. Təhlil-xronika (*1987-2011*). Bakı, 2012.

Əhmədov T. Azərbaycan toponimikasının əsasları. Bakı Universiteti Nəştiyyatı, 1991.

Əhmədov T. El-obamızın adları. Bakı, 1984.

Əhmədov T. Erməni xəyanəti (1918-1920-ci illər). Bakı, "Nurlar", 2008.

Ələkbərli Ə. Qədim türk-oğuz yurdu – Ermənistan. Bakı, 1994.

Əlihüseynli S. Təbiətin və cəmiyyətin bəlaları. Bakı, "Təknur", 2012.

Əliqızı R. Erməni işğalı. Bakı, "Turan evi" 2010.

Əlili İ., Tapdıqoğlu N. Bir damla göz yaşında torpaq həsrəti. Bakı, "Ləman Nəşriyyat Poliqrafiya" MMC, 2016.

Əliyarlı S. Azərbaycan tarixi. Bakı, 1996.

Əliyev K. Antik Qafqaz Albaniyası (m. ö. I əsr – e. I əsrləri), Bakı, 1974.

Əliyev K. Qədim Azərbaycan toponimlərinə dair. Bakı, 1972.

Əliyev Mirzə Bağır: Qanlı günlərimiz. Bakı, Azərnəşr, 1993.

Əliyev O., Abbasov N. Heydər Əliyev və Azərbaycanın Milli Qəhrəmanları. Bakı, "Ərgünəş" FM, NPM, 2015.

Əliyev V. Azərbaycan toponimiyası (*dərs vəsaiti*). Bakı, 1999.

Əliyev V. Zəngəzurda qalan izimiz. Bakı, "Prezident kitabxanası", ("*Nurlan NPM*"), 2004.

Əlizadə N. Azərbaycanda Sovet hakimiyyətinin qələbəsi uğrunda mübarizə tarixindən. Bakı, 1974.

Əmrahov M. XX əsrdə Azərbaycanda milli-azadlıq hərəkatı. Bakı, ADPU-nun nəşriyyatı, 2009.

Əmrahov M. İkinci dünya müharibəsi *(1939 -1945)*. Bakı, "Mütərcim", 2010.

Ərəb və fars sözləri lüğəti. Bakı, "Yazıçı", Bakı, 1985.

Əroğul Ə. Azərbaycanda erməni-daşnaq terrorunun xronologiyası. Bakı, "Təknur", 2009.

Əroğul Ə. Cəbrayılım – müqəddəs torpaq. Bakı, "Ekologiya" nəşriyyatı, 2006.

Əsədov Ə. Toponimlər coğrafi xəritələrdə. Bakı, 1985.

Əsədov F., Kərimova S. Çarizmi Azərbaycana gətirənlər. Bakı, "Gənclik" nəşriyyatı, 1993.

Əsədov İ. Zəngilan. Bakı, "Elm və Təhsil", 2010.

Əsir və itkin düşmüş, girov götürülmüş vətandaşlarla əlaqədar dövlət komissiyasının materialları. "Dirçəliş-XXI əsr" jurnalı, №37, Bakı, 2001.

Fərzəli Ə. Dədə Qorqud Yurdu. Azərnəşr, Bakı, 1989.

G

Gəncə quberniya dəftərxanasının 12 noyabr 1918-ci il tarixli 7562 saylı izahatı.

Göyüşov R.B. Amaras-Ağoğlan. Bakı, 1975.

Göyüşov R.B. Azərbaycan arxeologiyası. Bakı, "İşıq", 1986.

Göyüşov Rəşid: Qarabağın keçmişinə səyahət. Bakı, 1993.

Gürcüstan Mərkəzi Dövlət Tarix Arxivi. Fond 12, siyahı 4.

H

Hacıyev A. Azərbaycan dilinin onomastik sistemi. Bakı, APİ, 1990.

Hacıyev Q. Bərdə şəhəri; coğrafi, siyasi, mədəni tarixi. Bakı, 2008.

Hacıyev Q., Çingizoğlu Ə. Qarabağlı hərbçilər. Bakı, "Təknur, 2011.

Hacıyev N. Dağlıq Qarabağın tarixindən sənədlər. Bakı, "Gənclik", 2005.

Hacıyev T., Vəliyev V. Azərbaycan dili tarixi – Bakı, 1983.

Hakopyan T.X., Məlikbaxşyan S.T., Barseğyan O.X. Ermənistan və ətraf vilayətlərin toponimlər lüğəti. I c. AD, İrəvan, "İrəvan Universiteti", 1986.

Halil Paşa: Bitmeyen savaş. İstanbul, 1972.

Heydərov N. Zəngəzur dağlarında. Bakı, 1972.

Həbiboğlu V. Terrorçu Andranik və Böyük Ermənistan xülyası. Bakı, "Gənclik", 2002.

Həmidova H. Azərbaycanın Milli Qəhrəmanları. Biblioqrafiya. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası. Bakı,2008.

Həsənli C. "Ağ ləkə"lərin qara kölgəsi. Bakı, 1991.

Həsənli C. İstiqlaliyyətin çətin yolu. Bakı, 1992.

Həvilov H. Azərbaycan etnoqrafiyası, "Elm" – Bakı, 1991.

Hidayət: Sözün vaxtı. Bakı, "Şərq-Qərb", 1999.

Hüseynov M. Qanlı döyüşlərin canlı şahidləri. Bakı, "Təknur" nəşriyyatı, 2011.

Hüseynov M., Cəmilzadə H. Alovdan alova. Bakı, "Bayatı", 1996.

Hüseynov M., Cəmilzadə H. Odlu tarix *(ikinci kitab)*. "Parni iz Baku" Nəşriyyat Evi. Bakı, 2000.

Hüseynov S. Xocalıdan gələn səs, Bakı, "Azərbaycan" nəşriyyatı, 1993.

Hüseynova T. Qalan kitab. Sumqayıt, "Azəri" nəşriyyatı, 2020.

X

Xalıqov F. Azərbaycan onomologiyası. Bakı, 2009.

Xalilov Dj.A. Arxeoloqiçeskiye pamyatniki I tısyaçeletiya u s. Xudjbala v Azerbaydjanskoy SSR, "Sovetskaya arxeoloqiya", 1965, № 3.

Xələfli Ə.R. Karvan körpüdən keçir. Bakı, 1997.

Xəlilov X. Qarabağın elat dünyası. Azərbaycan Dövlət Nəşriyyatı. Bakı, 1992.

Xəlilzadə F. Yolum düşə Zəngəzura. Bakı, "Araz", 2007.

Xodjalı. Xronika qenosida. Baku, AzQOS. izd. 1993.

Xudiyev Ş., Əmirova F. İtirilmiş torpaqlar, itirilmiş sərvətlər. Bakı, 1988.

İ

İbrahimov C. Qaraqoyunlu dövləti. Bakı, 1948.

İbrahimova S. Qolunu boynuma dola, bacı. Bakı, "Təbriz" nəşriyyatı, 1996.

İmanov Ə. Şəhid adınız şərəfdir Vətənə. Bakı, Hərbi Nəşriyyat, 2003.

İmanov R.C. Azərbaycanın ərazi bütövlüyünə qəsd – Qondarma Dağlıq Qarabağ Muxtar Vilayəti. Bakı, "Adiloğlu", 2005.

İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1996.

İsgəndərov A. 1918-ci il mart qırğınının tarixşünaslığı. Bakı, 1997.

İsmayıl E. Ermənistan türklərinin 1988-ci il soyqırımı. Bakı, 1995.

İsmayıl E. Oğuz yurdunun övladları. I kitab, Bakı, "Təbib", 1999.

İsmayılov F. Laçın: həqiqətlər, mülahizələr, tarixi dəyərlər. Bakı, "Nurlar" NPM, 2012.

İsmayılov F. Tarix və mədəniyyət abidələri. Bakı, 2013.

İsmayılov Q.S. Azərbaycanın yeni Qobustanı, "Elm və həyat 1977, №6.

İsmayılov M. Azərbaycan tarixi, II hissə, Bakı, 1993.

İsmayılov M. Sənin ulu baban. Bakı, 1989.

İsmayılov Rəşid bəy: Azərbaycan tarixi, Azərbaycan Dövət Nəşriyyatı, Bakı, 1993.

İstoriçeskaya qeoqrafiya Zapadnoqo Azerbaydjana. Bakı, "Azərbaydjan", 1998.

İstoriya Azerbaydjana: Bakı, 1995.

İstoriya Azerbaydjana: Baku, "Elm", 1979.

J

Jorj de Malevil: Armayanskaya traqediya 1915 qoda. Baku, "Elm", 1990.

K istorii obrazovaniya Naqorno-Karabaxskoy Avtonomnoy Oblasti Azerbaydjanskoy SSR. 1918 – 1925; Dokumentı i materialı. Baku, Azerneşr, 1989.

K

Kalankatuklu Moisey: Albaniya tarixi. Bakı, Elm, 1993.

Kavkazskiy kalendar. T. 1854.

Kavkazskiy kalendar. Tiflis, 1909.

Kərimli A. İşğal. Bakı, "Azərbaycan" nəşriyyatı, 1994.

Kərimli T. Türk millətinə qarşı erməni terroru. I kitab. Bakı, "Nurlan", 2003.

Kərimov C. Qansızlar, Bakı, "Gənclik", 1991.

Kəsrəvi Ə. Azərbaycanın on səkkiz illik tarixi.

Kovalevskiy S.A. "Karta Ptolemeya" i svete istoriçeskiy qeoqrafi Prikaspiya. İzv. Vsesoyuznoqo qeoqrafiçeskoqo obşestva; v. 1. L., 1953.

Kovalevskiy S.A. Lik Kaspiya; B. – M., 1933.

Köçərli T. Erməni saxtakarlığı. Bakı, 2002.

Köçərli T. Qarabağ. Bakı, 1998.

Q

Qarabağ tarixi: 7-ci sinif üçün dərslik. Bakı, "Ərgünəş" FM NPM, Bakı, 2019.

Qarabağ və Şərqi Zəngəzurun coğrafiyası: təbii-coğrafi şərait və sosial-iqtisadi inkişaf potensialı. Bakı, "OPTİMİST" MMC çap mərkəzi, 2021.

Qarabağı Mirzə Camal Cavanşir: Qarabağ tarixi. Bakı, 1959.

Qarabağnamələr: Bakı, "Elm", 1989.

Qarabağnamələr: Ikinci kitab. Bakı, "Elm", 1989.

Qaraoğlu F. Ermənilər və həqiqətlər (rəsmi sənədlərlə). I c. Bakı, "Nurlar" NPM, 2007.

Qaraoğlu F. Ermənilər və həqiqətlər. II cild. Bakı, "Nurlar", 2008.

Qaraoğlu F. Ermənilər və həqiqətlər. III c. Bakı, "Nurlar" 2009.

Qaraoğlu F. Ermənilər və həqiqətlər. V c. Bakı, 2012.

Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (*1991 – 2003*). I hissə. Bakı, "Mütərcim", 2015.

Qasımov M. Beynəlxalq münasibətlərdə Azərbaycan məsələsi. Bakı,1993.

Qazıyev Y. Ermənilərin törətdiyi soyqırımların bəzi məqamları. "Xalq qəzeti", 31 mart, 2002.

Qeybullayev Q. Toponimi Azerbaydjana, "Elm", Baku, 1986.

Qiyasəddin Qeybullayev: Qarabağ (etnik və siyasi tarixinə dair). Bakı, 1990.

Qeybullayev Q. K etnoqenezu Azerbaydjantsev. B., 1991.

Qeybullayev Q. Azərbaycan türklərinin təşəkkül tarixindən. Bakı, 1994.

Qızılbaşlar tarixi: AND kitabxanası seriyasından, Bakı, 1993.

Qlinka S.İ. Ermənilərin Azərbaycana köçürülməsi. Bakı, 1995.

Qocayev Ə. Ümumi tarix. Bakı, "Çaşıoğlu", 2007.

Quliyev D. XX əsrin qan yaddaşı. Azərbaycan Texniki Universitetinin mətbəəsi. Bakı, 1998.

Quliyev E., Quliyeva A., Quliyev D. Azərbaycan və Anadolu türklərinə qarşı soyqırımı. Bakı, "Təknur", 2012.

Quliyev V. Azərbaycanda erməni zülmü. Bakı, "Ozan" , 1999.

Qummel Y.İ. Raskopki v Naqorno-Karabaxskoy Avtonomnoy Oblasti v 1938 q. İzvestiya AzFAN SSSR, 1939, № 4.

Qurbani A. Meşəli od içində. Bakı, "Dünya" nəşriyyatı, 1996.

Qurbanov A. Azərbaycan onomastikası. Bakı, 1988.

Qurbanov Sadiq: Prezidentin çıxışları tarixşünaslıq qarşısında yeni vəzifələr müəyyənləşdirir. "AzPolitika.info", 15 aprel 2021.

M

Mahmudov Y.M. Azərbaycanlılar (*etnik-siyasi tarixə ümumi baxış*). Bakı, 2008.

Mahmudov Y., Şükürov K. Qarabağ. Real tarix, faktlar, sənədlər. "Təhsil" nəşriyyatı, Bakı, 2009.

Mamedova Xavva: Xodjalı; şexidı i şaxidı. Baku, 2005.

Mansurov A. Tarixin ağ ləkələri və yenidənqurma, Bakı, "Yazıçı", 1991.

Marhuliya G., Nuriyeva Ş. Uydurulmuş Tarihte; "Erməni soyqırımı". Bakı, 2010.

Mehdiyev R. Azərbaycana qarşı soyqırımı gerçəklikləri. Bakı, 2000.

Mehrəliyev E.Q. Azərbaycan SSR-də coğrafi adları öyrənməyin bəzi məsələləri haqqında. Azərbaycan SSR EA Xəbərləri. Geologiya-coğrafiya elmləri seriyası. 1958, № 1. Rus dilində xülasə ilə.

Memorial. Moskovskiy pravozaşitnıy tsentr, otçet "Svoboda", 12.06.92.

Mədətov Q.Ə. Azərbaycan Böyük Vətən müharibəsində. *1941-1945*. Bakı, 1965.

Məhəmmədqızı Lyudmila: Qaradağlı-qəlbi dağlı. Azərbaycan Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzi, Bakı, 1994.

Məhərrəmli Z. Döyüşə qızlar gedir. Bakı, "Dünya" nəşriyyatı, 1997.

Məhərrəmzadə Əlibala: Xocalı soyqırımı. Bakı, "Adiloğlu", 2011.

Məhişoğlu B. Doğma adım – Qarabağım, Bakı, "Araz" nəşriyyatı, 2002.

Məlikməmmədov M. Qanlı dərə. Bakı, 2009.

Məmmədli E., Yaqubov E. Qara xaç yürüşü-Genosid. Bakı, "Zərdabi LTD" MMC, 2012.

Məmmədov A. Coğrafi adların sirri. Bakı, 1969.

Məmmədov X. Azərbaycan xalqının milli istiqlal mübarizəsi. Bakı, "Elm", 2005.

Məmmədov X., Ə.Əliyev: Xalq qəhrəmanı Sultan bəy – 140. "Türk eli" jurnalı, iyun, 2011, № 10.

Məmmədov X., Məmmədov N. Erməni iddiaları və azərbaycanlıların soyqırımı. Bakı, "Ülvi-Həyat", 2008.

Məmmədov X., Məmmədov N. Türkiyədə və Azərbaycanda erməni millətçilərinin cinayətləri. Bakı, "Elm", 2006.

Məmmədov İ. Tariximiz, torpağımız, taleyimiz. Bakı, "Adiloğlu", 2002.

Məmmədov N. Azərbaycan yer adları: Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1993.

Məmmədov N. Toponimika. Bakı Universiteti nəşriyyatı, Bakı, 2007.

Məmmədov Nazim: Dağlıq Qarabağ gerçəklikləri: soyqırımı, terror, deportasiya, işğal (*XX yüzillik*). Bakı, "Təhsil", 2009.

Məmmədova F. Azərbaycanın siyasi tarixi və tarixi coğrafiyası. Bakı, Azərnəşr, 1993.

Məmmədova Həvva: Azərbaycan Xalq Cümhuriyyəti dövründə Yuxarı Qarabağda siyasi vəziyyət. Erməni terrorizminin güclənməsi(1918-1920). Bakı, "Nağıl Evi" nəşriyyatı, 2006.

Məmmədzadə M.B. Ermənilər və İran. Bakı, 1993.

Məşədiyev Q. Zaqafqaziyanın Azərbaycan toponimləri. Bakı, "Elm", 1990.

Minorskiy V.F. İstoriya Şirvana i Derbenda X – XI vekov. Moskva, 1963.

Minorskiy V.F. Kasal (*Kazal*). Revue des EtudesArmeniennes. T. 10. Paris, 1930.

Mirzəzadə A. Qarabağ düyünü. Bakı, "Azərbaycan Nəşriyyatı", 2012.

Mollazadə S.A. Azərbaycan dilində coğrafi adlar necə yaranmışdır. Bakı, 1974.

Muradov S. Tariximizin açılmamış səhifələrindən. Bakı, 2011.

Murzayev E. Oçerki toponimiki. M., 1974.

Mustafa Görüryılmaz: Türk Qafqaz İslam Ordusu və ermənilər (*1918*). Bakı, "Qismət", 2009.

Mustafayev R. Azərbaycan dövlətçiliyi. Özümüzü və dünyanı dərketmə yolunda. Bakı, "Elmvə təhsil", 2015.

Müslümqızı S. Xocalı nisgili və ya faciəyə gedən yol. Bakı, "Azərbaycan Universiteti" nəşriyyatı, 2000.

Müstəşarüddövlə Sadıq: "Məşrutə sənədləri" *(farca)*.

N

Nağıyev Q., Nərimanoğlu M. Şişqaya faciəsi. Bakı, "Gənclik", 1998.

Nəbiyev N. Coğrafi adlar. Bakı, 1982.

Nərimanoğlu M. Dağların sinə dağı. Bakı, "Azərbaycan" nəşriyyatı, 1994.

Nərimanoğlu M. Yurd göynərtisi. Bakı, "Azərbaycan" nəşriyyatı, 1995.

Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası. Bakı, 1990.

Nəvvab M.M. 1905-1906-cı illərdə erməni-müsəlman davası. Bakı, 1994.

Nəzirli Ş. 1920-ci ildə Qarabağ döyüşləri. Bakı, 2009.

Nəzirli Ş. Arxivlərin sirri açılır. Bakı, "Elm", 1999.

Nuriyeva İ. Azərbaycan tarixi (*ən qədim zamanlardan XXI əsrin əvvəllərinədək*). Bakı, 2015.

O

Ordubadi M.S. "Qanlı illər". 1905-1906-cı illərdə baş verən erməni-müsəlman davasının tarixi. Bakı, 1991.

Orucov Ə. Mübarizəmiz Qarabağdadır. Bakı, "Gənclik", 2011.

Ö

Özdək R. Türkün qızıl kitabı. Bakı, "Yazıçı", 1992.

P

Paşayeva Q., Aslanov Ş. Qaradağlı soyqırımı. Şahidlərin dili ilə. Bakı, "Elm və təhsil", 2013.

Paşayeva Q., Aşırlı A. Ermənilərin törətdiyi soyqırımın qurbanı – Bağanıs-Ayrım. Bakı, "Elm və təhsil", 2010.

Paşayeva Məhəbbət: Azərbaycanın qədim dövlətləri. Bakı, "İqtisad Universiteti" Nəşriyyatı, 2018.

Piriyev V. Azərbaycanın tarixi-siyasi coğrafiyası. Bakı, "Müəllim", 2006.

Pirnəzərov R. Sən Allah ağlama, ana, dalımca. Bakı, "Nurlan", 2008.

Pompeyev Y. "Krovavıy omut Karabaxa". 1992.

Pompeyev Y. Qarabağ qan içində. Bakı, 1996.

R

Rəhimli Əkrəm, Bayramzadə Səməd: Güney və Quzey Azərbaycan. Ensiklopedik təqvim. Bakı, "Apastrof", 2014.

Rəhimov A.V. Gədəbəy pul dəfinəsi. Azərbaycan tarixinə dair materiallar; Azərbaycan Tarixi Muzeyinin Əsərləri. Bakı, c. 3, 1960.

Rəhmanov İ. Şuşada görüşənədək. Bakı, 2014.

Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990.

Rəşidəddin F. "Cəmi ət-Təvarix" – Bakı, 1956.

Ruintən K. Ermənistanın Azərbaycana təcavüzü və dünya siyasəti, Bakı, "Adiloğlu", 2008.

Rüstəmxanlı S. Ömür kitabı. Bakı, "Gənclik", 1989.

Rüstəmov A. Erməni təcavüzünün xronikası. Bakı, "Elm", 1994.

Rüstəmov Ə. Qədim oğuz yurdu Zəngəzurun türk mənşəli yer-yurd adları. Bakı, 1994.

S

Sadıq İ. Susmaq qızıl deyilmiş. Bakı, 1992.

Saleh bəy: Dünyanın taleyi. Bakı, "Elm", 1998.

Seyidov M. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı, "Yazıçı", 1989.

Seyidzadə M. Milli Qəhrəmanlar zirvəsi. Bakı, 2010.

Sədi M. Koçaş: Tarixdə ermənilər və türk-erməni münasibətləri. Bakı, "Azərbaycan Ensiklopediyası" NPB, 1998.

Səlimbəyli Ş. Terrorizm; Qan çilənən torpaqlar. Bakı, "Avropa", 2013.

Səmədov V., Aslanov S. Təki Vətən yaşasın (Azərbaycanın Milli Qəhrəmanları). "Kaspian İzvestiya" Beynəlxalq İnformasiya Agentliyi. "Azərbaycan" nəşriyyatı, Bakı, 1993.

Səmədov V., Vəlizadə R. Leyla Əliyeva: "Xocalıya ədalət!" (*Beynəlxalq erməni terroruna qarşı yeni strateji model)* I cild.Bakı, 2014.

Səmyuel A.Uimz: Ermənistan – terrorçu "*xristian*" ölkənin gizlinləri. I cild, Bakı, 2004.

Səyyah Hüseyn *(İran jurnalisti)*: "Laçın dəftəri" kitabı. "Morteza qardaşları" nəşriyyatı, 1995.

Sırdariniya S. Arazın hər iki tayında azərbaycanlıların soyqırımı. Bakı, "Elm," 2006.

Sobulu Ə. Rusiya işğalları və Zəngilan. Bakı, "Avropa" nəşriyyatı, 2013.

Sultanov Z. Qarabağın qara günləri, Bakı, "Yazıçı", 1992.

Süleymanov M. "Gülüstan" müqaviləsi. II hissə. Bakı, "Elm və təhsil", 2014.

Süleymanov M. Azərbaycan ordusu *(1918 – 1920)*. Bakı, 1998.

Süleymanov Mehman: Nuri Paşa. Bakı, "Nurlar" NPM, 2008.

Ş

Şərifli M.X. IX əsrin ikinci yarısı – XI əsrlərdə Azərbaycan feodal dövlətləri. Bakı, 1978.

Şıxəliyev H.Ə. Bir daha erməni riyakarlığı haqqında. Bakı, 2012.

Şırlanlı Ə. Qarabağın harayları. Bakı, "Avropa" nəşriyyatı, 2009.

Şükürbəyli F. Şükürbəyli və şükürbəylilər. Bakı, 2012.

Şüküroğlu L. Ömür yarı oldu. Bakı, "Şirvannəşr", 2001.

Şükürov S. Gəncəli Cavad xanın hekayəti. Gəncə,1992.

T

Tahirə B. Xəliddin qızı: Vətəni tanı. Sumqayıt, "Bilik" nəşriyyatı, 2011.

Tahirov K. Əlamətdar və tarixi günlər təqvimi. M.F.Axundov adına Azərbaycan Milli kitabxanası. Bakı, 2010.

Tahirzadə Ə. Ağaməhəmməd şah Qacar. Bakı,"Çıraq", 2005.

Tahirzadə Ə. Nadir şah əfşar. Bakı,"Çıraq ", 2005.

Tannverdiyev Ə. Türk mənşəli Azərbaycan antroponimləri. Bakı – 1996.

Tariximizin qara səhifələri: Soyqırımı. Bakı, Milli Məclisin nəşri, 2000.

Tarverdiyev Ə. Türk mənşəli Azərbaycan antroponimləri. Bakı, 1996.

Təkləli Minəxanım, Rıhtım Mehmet: Qafqaz İslam Ordusunun xronologiyası. Bakı, "Nurlar" 2008.

Tofiqoğlu Ç., Mahmud Ə. Qarabağda talan var. "Azərbaycan Ensiklopediyası" NPB, Bakı, 1996.

Tomas de Vaal: Qarabağ; Ermənistan və Azərbaycan sülh və savaş yollarında. Bakı, "İlay MMC", 2008.

Trever K.V. Oçerki po istorii i kulture Kafkazskoy Albanii. M – L., 1959.

V

Veliçko: **V. L.**Kavkaz. Sankt-Peterburq, 1904.

Veliyev Afğan: Tarihten günümüze Azerbaycan. İstanbul, "*E*" elif kitabevi, Milenyum Yayıncılık Ltd. Şti. 2009.

Vəkilov Səməd: Qars müqaviləsi beynəlxalq hüquq kontekstində. Bakı, 2021.

Vəlixanlı N.M. IX – XII əsrlər ərəb coğrafiyaşünasları Azərbaycan haqqında. Bakı, 1974.

Vəliyev D. və başqaları: Erməni terrorizmi və cinayətləri; Azərbaycanda, Türkiyədə və dünyada hadisələrin və faktların xronikası. Bakı, "Elm", 1994.

Vəliyev İ. Qara gündəlik . Azərbaycan Ensiklopediyası NPB, Bakı, 1997.

Vəliyev M.H. Azərbaycan – fiziki-coğrafi, etnoqrafik və iqtisadi oçerk. Bakı, 1993.

Y

Yaqublu N. Azərbaycan milli istiqlal mübarizəsi və Məmmədəmin Rəsulzadə. Bakı, 2001.

Yunusov Arif: Tragediya Xodjalı. "Zerkalo", №№ 25-27, 1992.

Yusifov Y.B. Toponimiya tarixi mənbə kimi. "Azərbaycan toponimiyasının öyrənilməsinə həsr edilmiş konfransın materialları. Bakı 1973.

Yusifov Y.B., Kərimov S.K. Toponimikanın əsasları. Bakı, "Maarif", 1987.

Yüzbaşov R., Əliyev K., Sədiyev Ş. Azərbaycamn coğrafi adları, Bakı, 1972.

Yüzbaşov R.M. Azərbaycan coğrafiya terminləri (*tədqiqlər*). Bakı, 1966.

Z

Zahidov Ə. Azərbaycanın bəzi toponimləri. Gəncə, 1995.

Zamanov N., Əliyev R., Səlimbəyli Ş. Erməni terroru. Bakı, "Avropa" nəşriyyatı, 2008.

Zeynalov F. Türkologiyanın əsasları. Bakı, "Maarif" nəşriyyatı, 1981.

Zeynalov N. İki ay erməni əsirliyində. Bakı, "Azərnəşr", 2000.

Zəngəzur qəza rəisi Məlik Namazəliyevin 11 sentyabr 1918-ci il tarixli 5 saylı raportu.

Zəngəzur qəza rəisinin 11 dekabr 1918-ci il tarixli 185 saylı teleqramı.

Zəngəzur qəza rəisinin 12 sentyabr 1918-ci il tarixli 8 saylı raportu.

Qeyd

Çapa imzalanmışdır: 18.04.2023
Formatı 60×90. 1/16.
Həcmi 31,5.ç.v. Tiraj 250.

"Maxofset" mətbəəsində
təqdim edilmiş hazır material əsasında
çap olunmuşdur.

Aşurbəyovlar küç. 8A, AZ1080 Bakı
www.maxofset.az | info@max-offset.com
(+994 12) 451 88 10; mob: +994 77 227 27 27